

Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırım siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

HEYDƏR ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti
Bakı şəhəri, 18 dekabr 1997-ci il.



Erməni millətçiləri tərəfindən xalqımıza qarşı aparılan soyqırımı və təcavüz siyasətinin iki yüz ildən artıq tarixi vardır. Bu siyasətin məqsədi azərbaycanlıları qədim torpaqlarından sıxışdırıb çıxarmaq, bu ərazilərdə erməni tarixçilərinin və ideoloqlarının uydurduğu "Böyük Ermənistan" dövləti yaratmaq idi. Öz mənfur və təhlükəli siyasətlərini gerçəkləşdirmək üçün onlar müxtəlif üsul və vasitələrdən, tarixin saxtalaşdırılmasından, siyasi təxribatlardan istifadə etmiş, dövlət səviyyəsində davakar millətçiliyi, separatizmi və qonşu xalqlara qarşı təcavüzü dəstəkləmişlər. Bu məqsədlə Ermənistan və ayrı-ayrı xarici dövlətlər də "milli-mədəni" , dini, siyasi və hətta terrorçu təşkilatlar qurmuş, erməni diasporunun və lobbisinin imkanlarını səfərbər etmişlər.

İLHAM ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti
Bakı şəhəri, 30 mart 2004-cü il.

HƏSƏN MİRZƏYEV

# QƏRBİ AZƏRBAYCANIN DƏRƏLƏYƏZ MAHALI

BAKI – "ELM" – 2004

***26 noyabr 2002-ci ildə (75 yaşım tamam olan, mənə "Şöhrət ordeni" verilən gün) kitabın çap olunmasını vacib sayan, bu haqda göstəriş verən ümummilli liderimiz, mərhum Heydər Əliyevin ruhu qarşısında baş əyirəm!***


***REDAKTORLAR:*** *akademik **Budaq Budaqov**, Azərbaycan AMEA-nın müxbir üzvü **Nizami Cəfərov**, tarix elmləri doktoru, professor **Süleyman Məmmədov**, filologiya elmləri doktoru, professor **Buludxan Xəlilov**, tarix elmləri namizədi **İsrafil Məmmədov**, filologiya elmləri namizədi **Əziz Ələkbərli.***

***MƏSLƏHƏTÇİLƏR:*** *Azərbaycan AMEA-nın müxbir üzvü **Məşədixanım Nemət**, tarix elmləri doktoru, professor **Yaqub Mahmudov.***

***RƏ'YÇİLƏR:*** *filologiya elmləri doktoru, professor **Cəfər Cəfərov**, tarix elmləri namizədi, dosent **Rəhim Əliyev**, filologiya elmləri namizədi **İbrahim Bayramov**, filologiya elmləri namizədi **Aslan Bayramov.***

**Həsən Mirzəyev. Qərbi Azərbaycanın Dərələyəz mahalı,** Bakı, "Elm", 2004.

**İSBN 5-8066-1636-3**



*Monoqrafiya Dərələyəz mahalının tarixi coğrafiyasına həsr olunmuşdur. Burada son iki əsr müddətində Dərələyəzdə yaşayan azərbaycanlılara qarşı törədilmiş qanlı cinayətlərdən, soyqırımlardan danışılır, azərbaycanlıların öz doğma yurdundan dəfələrlə, dönə-dönə zorla qovulmasından, deportasiya olunmasından söhbət açılır, onlara məxsus tarixi-mədəni abidə və yaşayış məskənlərinin dağıdılıb viran edilməsi və bir sıra digər məsələlər oxucuların nəzər-diqqətinə çatdırılır. Dərələyəz mahalına aid tərtib edilmiş xəritə, kitabda verilmiş faktlar, cədvəllər, siyahılar bu torpaqların yalnız və yalnız Azərbaycan xalqına məxsus olduğunu bir daha isbata yetirir.*



**M $\frac{0503020907}{655(07)\text{-}2004}$ Qrifli nəşr**



**© "Elm" nəşriyyatı, 2004.**

***Dərələyəz mahalının 50 il ağsaqqalı olmuş, yüzlərlə azərbaycanlını erməni məkirindən xilas etmiş, tutulmağa qoymamış, Azərbaycan folklorunun, Şərq ədəbiyyatının, şəriətin gözəl bilicisi, saz-söz sənətinin xiridarı, "Leli-Məcnun"u, "Gülüstan"-"Bustan"ı, "Şahnamə"ni, Abbası, Xəstə Qasımı, Qurbanini, Valehi, Ələsgəri, Nizami və Nəsimini, Şərqin hikmətlərini yaddaşında gəzdirən, daim Vətən dərdi ilə yaşayan, ensiklopedik məlumata, geniş dünyagörüşə malik olan, hazırcavab, qorxmaz, məğrur, sinədəftər el ağsaqqalı atam İbrahim Mirzəli oğlunun əziz xatirəsinə ithaf edirəm.***

## MÜƏLLİFDƏN

*Məlum olduğu kimi, son bir neçə əsrdə qədim türk, oğuz yurdu olan indiki Ermənistandan, o cümlədən Dərələyəzdən azərbaycanlılar dəfələrlə deportasiya olunmuş, zorla qovulmuş, oradakı yer-yurd adları dəyişdirilmiş, bir çox tarixi abidələrin üzərində əməliyyat işləri aparılaraq yazıları dəyişdirilmiş və bunlar erməni tarixi abidəsi kimi qələmə verilmişdir. Bütün bunları nəzərə alıb torpağını-daşını qarış-qarış gəzdiyim, maddi-mədəniyyət abidələrinə dərindən bələd olduğum, yarım əsr müddətində yaşlı adamları ilə dönə-dönə söhbət etdiyim Dərələyəzin tarixi coğrafiyasını, onomastik vahidlərini, şivə sözlərini qələmə almağı zəruri hesab etdim.*

*Dərələyəz haqqında qismən də olsa ensiklopedik bir məlumat verməyə çalışdım. Lakin səhhətim imkan vermədiyi üçün 50 il müddətində Dərələyəz haqqında topladığım faktların hamısını verə bilmədim. Bu missiyanı gələcək nəsillər, gələcək tədqiqatçılar yerinə yetirməlidir.*

*Qoy gələcək nəsillər belə faktlara əsaslanıb zorla, qeyri-qanuni yolla Azərbaycanın əlindən alınıb ermənilərə verilmiş torpaqları beynəlxalq təşkilatlardan tələb etsinlər.*

*Məncə, gələcək tədqiqatçılar, vətən övladları, öz doğma yurduna qayıtmaq istəyən azərbaycanlılar bu tarixi həqiqətlərdən faydalana biləcəklər.*

*Bu qəbildən olan kitablar digərlərindən həm müəlliflərinə, həm də obyekt dairəsinə görə fərqlənir. Belə kitabların adətən iki müəllifi olur: biri sözün həqiqi mənasında məhz bu cür kitabları yazan müəlliflər, digəri isə zamanın müəllifliyidir. Birinci müəllifdə təəssübkeşlik, vətəndaşlıq, milli ruh, milli düşüncə, ikinci müəllifdə isə reallıq, gerçəklik, dünyanın qədim və müasir ictimai-siyasi vəziyyəti üstün olması ilə fərqlənir. Hər iki müəllif bir-birini tamamladığına və bir-birinə arxa, dayaq rolunu oynadığına görə belə kitablar milyonların stolüstü kitabı olur. Vətəndaş olan hər bir kəs bu cür stolüstü kitablara hər dəfə qayıdır, onu oxuyur, öyrənir və bunu özünün təhlil, analiz süzgəcindən keçirərək milli mənini, tarixi - genetik kökünü, mənsub olduğu xalqın tarixini, taleyini öyrənir, dərk edir, eyni zamanda dünənindən bu gününə gələn və sabahına gedən yolun bir yolçusu olduğunu çox yaxşı anlayır. Bu mənada filologiya elmləri doktoru, professor, millət vəkili Həsən Mirzəyevin "Qərbi Azərbaycanın Dərələyəz mahalı" adlı kitabı fundamentallığı, orijinallığı, ensiklopedik məzmunu ilə seçilir. Həm də müəllifin Vətən torpağına doğmalığını, bir övlad, ziyalı, alim kimi öhdəsinə düşən borcu yerinə yetirmək istəyi və buna nail olmasını kitabın məzmununda hiss etməmək mümkün deyildir.*

*"Qərbi Azərbaycanın Dərələyəz mahalı" adlı kitab Azərbaycan xalqının ictimai- siyasi həyatında böyük rol oynamış və mühüm bir mərhələ təşkil etmiş Azərbaycan Respublikasının eks prezidenti, ümummilli liderimiz Heydər Əliyevin iki vacib fərmanı ilə başlayır. Bunlardan biri 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi- etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında Azərbaycan Respublikası Prezidentinin 18 dekabr 1997-ci ildə imzaladığı və azərbaycanlıların soyqırımı haqqında Azərbaycan Respublikası Prezidentinin 26 mart 1998-ci il tarixli fərmanlarıdır. Müəllifin öz kitabını bu fərmanlarla başlaması təsadüfi deyil, ona görə ki, belə bir işin ərsəyə gəlməsi bu fərmanların ziyalılarımızın qarşısına qoyduğu tələblərdən biri və ən mühümü kimi başa düşülməlidir. Professor Həsən Mirzəyev fərmanların proqram xarakterli məzmununa istinad edərək Azərbaycanın tarixən bir hissəsi olmuş Dərələyəzin tarixi-coğrafiyasını, maddi və mənəvi dünyasını, yer-yurd adlarını, dəyərli şəxslərini ensiklopedik kitabların tələblərinə uyğun şəkildə tədqiq etmişdir. Onun yuxarıda qeyd etdiyimiz iki fərmana istinad etməsinin bir sıra səbəbləri vardır:*

*1) Fərmanda son iki əsrdə Qafqaz ərazisində azərbaycanlılara qarşı məqsədyönlü şəkildə keçirilmiş etnik təmizləmə və soyqırım siyasəti xüsusi bir tezis kimi verilir.Bu fərmanlara qədər indiki Ermənistan ərazisində min illər boyu yaşamış soydaşlarımızın deportasiyası, kütləvi qətli və qırğını, azərbaycanlılara məxsus minlərlə abidələrin, yaşayış məskənlərinin dağıdılması, rəsmi dövlət sənədlərində, dövlət başçısının səlahiyyətləri səviyyəsində öz əksini tapmamışdı. Odur ki, belə bir fərman elmi ictimaiyyətin üzvlərinə - tarixçilərə, dilçilərə, coğrafiyaçılara, etnoqraflara və digər elm*

*sahələri ilə məşğul olan ziyalılarımıza geniş imkanlar yaratmışdır. Professor Həsən Mirzəyev bu imkanlardan çıxış edərək belə bir dəyərli əsəri geniş oxucu kütləsinin ixtiyarına vermişdir.*

*2) SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti cinayət aktı olaraq, 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı öz dədə-baba yurdlarından (Ermənistan SSR ərazisindən) kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Lakin fərmana qədərki ötən 50 il ərzində azərbaycanlıların Ermənistan SSR ərazisindən – öz dədə-baba yurd yerlərindən deportasiya olunması geniş araşdırılmamış, dünya ictimaiyyətinə çatdırılmamış, bu məsələlərə hüquqi-siyasi qiymət verilməmişdir. Bu mənada da qeyd etdiyimiz fərman Azərbaycan xalqına qarşı törədilmiş tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsini, onun beynəlxalq ictimaiyyətə çatdırılmasını dövlət siyasətinin tərkib hissəsinə çevirdi. Məhz Həsən Mirzəyev dövlət siyasətinin bu tərkib hissələrini əsas istiqamət kimi götürərək konkret bir ərazi üzrə - Qərbi Azərbaycanın Dərələyəz mahalı üzrə geniş məzmunlu tədqiqat əsəri yaratmışdır. Müəllif mənbələrə istinad edərək Dərələyəz mahalının bütün onomastik vahidlərini tarixi-etimoloji istiqamətdə təhlil edərək belə bir nətitcəyə gəlmişdir ki, Qərbi Azərbaycanın digər əraziləri kimi bu əraziyə də ermənilər Suriyadan, Türkiyədən, İrandan, Livandan və digər ərazilərdən köçürülmüşdür. Buna baxmayaraq, ermənilər azərbaycanlılara qarşı terror yuvaları yaratmış, 1905-1907, 1915, 1918-1920, ,1948-1953, 1988-ci illərdə soydaşlarımıza qarşı dövlət səviyyəsində cinayət törətmişlər. Azərbaycan xalqı hər dəfə ermənilərin onlara qarşı yönəldilmiş məkrli niyyətləri ilə üzləşdikdə bu xalqın (ermənilərin) iç üzünü bir daha yaxşı dərk etmişdir. Təsadüfi deyil ki, Qafqazda yaşayan türklər (azərbaycanlılar) ermənilər haqqında belə demişdir: "On barmağının onunu da şam eləyib erməninin yoluna işıq salasan, sənə sağ ol deməz". Odur ki, Həsən Mrzəyevin özü də erməni siyasətini və erməni əməlini dərindən bilən, Dərələyəz mahalını yaxşı tanıyan ziyalılarımızdan biridir. Onun bu əsərinin siyasi əhəmiyyəti var. Bu kitab tarixi həqiqətin açılıb bütün dünya ictimaiyyətinə çatdırılmasına və ermənilərin havadarlarının məkrli siyasətinin ifşasına xidmət edəcəkdir. Ona görə də bu qəbildən olan kitablar, məhz bu kitabın özü rus, ingilis, alman, fransız və dünyanın digər dillərinə tərcümə olunmalıdır. Belə kitabları regionu yaxşı tanıyan, ictimai-siyasi həyatı dərindən dərk edən, adət-ənənəni incəliklərinə qədər bilən, mənsub olduğu mahalda hörmət-izzət sahibi olan ziyalılar yaza bilər və yazmalıdır. Bunların hamısı "Qərbi Azərbaycanın Dərələyəz mahalı" adlı kitabın müəllifinə də aid olan keyfiyyətlərdəndir.*

*3) Qeyd etdiyimiz fərmanlardan sonra Azərbaycan xalqının obyektiv tarixi ilə bağlı mövcud olanları yazmaq üçün daha geniş imkanlar yaranmışdır. Fərmanlar imkan yaradır ki, uzun müddət gizli qalmış həqiqətlər açılsın, təhrif olunmuş tarixi hadisələr əsl qiymətini alsın. Bu baxımdan bir neçə məqam xüsusilə maraqlıdır:*

*a) 1813-cü və 1928-ci illərdə imzalanmış Gülüstan və Türkmənçay müqa-*

*vilələri Azərbaycan torpaqlarının parçalanması, ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi, "Erməni vtlayəti" adlanan inzibati bölgünün yaranması ilə nəticələndi;*

*b) 1905-1907, 1918-1920, 1948-1953, 1988-ci illərdə azərbaycanlılar vəhşicəsinə qətlə yetirildi, yaşayış məskənləri darmadağın edildi, "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başlandı. 1990-cı ilin 20 yanvarında xalq hərəkatını boğmaq üçün Bakıya qoşun yeridildi, yüzlərlə azərbaycanlı məhv və şikəst edildi, yaralandı, digər təzyiqlərə məruz qaldı. 1992-ci ilin fevral ayında ermənilər Xocalı şəhərində azərbaycanlılara misli görünməmiş divan tutdu, əsrin faciəsi baş verdi, bu qanlı faciədə minlərlə azərbaycanlı məhv edildi. Bunların hamısı dünyanın gözü qarşısında baş verdi;*

*c) Bü gün ermənilərin öz havadarları ilə birgə Azərbaycan xaplqına qarşı törətdikləri cinayətlərin real nəticəsi belədir: ərazimizin 20 faizi erməni silahlı qüvvələri tərəfindən işğal olunub, minlərlə soydaşımız şəhid olub, xəsarət alıbdır. Bir milyondan artıq vətəndaşımız ermənilər tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınıb, çadırlarda yaşamağa məcbur olubdur. Bax bu cür acı həqiqətlər Azərbaycanın tarixi torpaqlarından biri olan Dərələyəzin taleyindən də keçibdir. Zaman-zaman Dərələyəz mahalı da erməni siyasətinin törətdikləri bütün cinayətlərlə qarşılaşıb, onun ağır nəticələrindən yan keçə bilməyibdir. Bu baxımdan tarix boyu azərbaycanlılara qənim kəsilmiş erməni xalqını və onların törətdiklərini öyrənməli, tədqiq etməli, dünya ictimaiyyətinə çatdırmalıyıq. Belə bir istiqamətdə görülmüş və görüləcək işlərin qədir-qiymətini unutmamalıyıq. Odur ki, Həsən Mirzəyevin bu tədqiqatı dövlət siyasətinin tərkib hissəsinə daxil olan vacib məsələlərdən birinə həsr olunubdur. Azərbaycan müstəqillik əldə etməyənə qədər bu istiqamətdə işlərin görülməsi üçün heç bir şərait olmamış və demək olar ki, heç bir iş görülməmişdir. Halbuki, Sovetlər İttifaqı dövründə ermənilər istədiklərini yazmış, demiş və havadarlarına arxalanaraq Azərbaycan xalqına qarşı əks təbliğat işi aparmışlar. Hələ Sovetlər İttifaqı dövründə erməni siyasətinin tərkib hissələrindən biri türklərə, o cümlədən azərbaycanlılara qarşı yönəldilmişdir. Özü də bu siyasət təkcə Ermənistan Respublikası tərəfindən, daha doğrusu, dövlət və siyasi dairələri, rəsmiləri tərəfində deyil, ziyalıları, vətəndaşları, lap sıravi insanları tərəfindən aparılmışdır. Onların Azərbaycan xalqına qarşı qərəzli iddiaları ayrı-ayrı erməni fərdləri ilə Ermənistan Respublikasının rəsmi adamlarının düşüncə, məfkurə və mövqe sintezindən qurulmuşdur. Əgər belə deyilsə, bəs onda nə üçün hər bir erməni türklərə, azərbaycanlılara qarşı düşmən gözü ilə baxır?! Nə üçün hər bir erməni fərdinin Azərbaycan torpaqlarında gözü var?! Nə üçün bu yolla "Böyük Ermənistan" xülyasının gerçəkləşməsi üçün əllərindən gələni əsirgəmirlər?! Tarix boyu ermənilərin fikri-zikri onun-bunun torpaqlarına göz dikməkdən ibarət olubdur. Onlar nəinki Azərbaycan torpaqlarını, eləcə də Gürcüstan torpaqlarını, Türkiyə torpaqlarını - Ərzurumu, Vanı, Bitlisi, Diyarbəkiri, Trabzonu, Elaziki, Sivas və Ərdəhan vilayətlərini ələ keçirmək istəyindən əl çəkmirlər. Ermənilərin bu mənfur niyyətləri onların rəsmi dövlət adamlarından ta adi*

*vətəndaşlarına, din xadimlərinə, bir sözlə, erməni cəmiyyətinin hər bir üzvünə xas olan "müqəddəs" işlərdən biri və birincisidir. Bu yöndə tarix boyu ermənilər bütün qırğınlara, cinayətlərə "xeyir-dua" verən bir millətdir. Hətta tarix boyu bu işlərə nəinki erməni rəsmiləri, siyasət adamları, hətta erməni kilsəsi də rəhbərlik etmiş, şovinist, millətçi mövqe tutaraq erməniləri qızışdırmışlar. Məşhur rus diplomatı, general Mayevski bu münasibətlə yazırdı: "Erməni din xadimləri haqqında bir neçə söz demək istəyirəm. Onların dini fəaliyyəti olduqca cüzidir. Erməni din xadimlərinin fəaliyyəti "Allah kəlamını" çatdırmaqdan çox müsəlmanlarla xristianlar arasında nifaqı qızışdırmaqdan ibarətdir".*

*Ermənilər uzun illər ərzində "Böyük Ermənistan" qurmaq naminə təşkilatlanmağa başlamış, türklərə, azərbaycanlılara qarşı dəhşətli qırğınlar, soyqırımlar, terror aktları həyata keçirmişlər. Onların təşkilatlanma işi XIX əsrin sonlarından başlamışdır. Yaratdıqları təşkilatlar hesabına terror aksiyaları törətmiş, məkrli niyyətlərinə doğru addım-addım irəliləmişlər. 1885-ci ildə Fransada yaradılmış "Armenakan", 1887-ci ildə Cenevrədə yaradılmış "Hnçak", 1890-cı ildə Tiflisdə yaradılmış "Daşnaksütyun", 1975-ci ildə yaradılmış "ASALA" (Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu) və s. təşkilatlar bu qəbildən olan ermənilərin yaratdıqları qurumlardır. Bu qurumların törətdikləri hadisələrin bir çoxu ictimaiyyətə az-çox məlumdur. Ancaq təəssüflər olsun ki, bu təşkilatların Türkiyədə, Azərbaycanda, Gürcüstanda, Rusiyada, Dağıstanda və s. yerlərdə törətdikləri dünya ictimaiyyətinə layiqincə çatdırılmamış, onların terrorlarının ağrı-acıları barəsində ardıcıl, sistemli məqalələr, kitablar çap olunmamışdır. Bu mənada da prof. Həsən Mirzəyevin "Qərbi Azərbaycanın Dərələyəz mahalı" kitabı əhəmiyyətli rol oynayaraq ermənilərin Dərələyəz bölgəsində törətdikləri mənəvi, maddi, fiziki terrorun mahiyyətini açmaqda, eyni zamanda xalqımızın yaşadığı bu tarixin gələcək nəslə çatdırılmasında əvəzsiz rol oynayacaqdır. Bizim hər birimiz əksər vaxt müasiri olduğumuz bir çox hadisələrə adi ölçü və tələblə yanaşırıq. Bəzən nəzərə almırıq ki, müasiri olduğumuz hadisələr tarix olmaqla bizim üçün sabah ən böyük mənbə olacaqdır. Bəli, Həsən Mirzəyevin kitabı gələcək nəsillər üçün həm də əvəzsiz mənbədir. Bu tipli kitabların dəyəri adətən sonralar - illər keçdikcə, nəsillər dəyişdikcə birə-beş qat artır. Kitabdakı məlumat, informasiya, təhlil, izah, müqaiysə bolluğu onu da deməyə imkan verir ki, müəllifin zəhməti o qədər böyükdür ki, onu Universitetlərin, İnstitutların çoxsaylı kollektivinin birgə gördüyü və görəcəyi işlə müqayisə etmək olar. Mənə elə gəlir ki, Həsən Mirzəyevin irihəcmli, məzmunlu, dolğun, mövzu dairəsi isə hər bir oxucunun marağına səbəb olacaq bu kitabı şəxsən müəllifdən asılı olan bəzi məqamlarla da bağlıdır. Belə ki, müəllif mövzunun Azərbaycan xalqı üçün, konkret olaraq Dərələyəz mahalı üçün nə qədər vacib və dəyərli olduğunu bir ziyalı kimi çox yaxşı başa düşür. Həm də müəllifin daxili tələbi, istəyi, Dərələyəz bölgəsinə bağlılığı və ağır bir zəhmətə qatılmağının nəticəsidir ki, o, fundamental bir işi ortalığa çıxararaq çapa hazırlamışdır. O, ilk dəfə olaraq Dərələyəz mahalının onomastik vahidlərini, maddi-mənəvi abidə-*

*lərini, tarixi coğrafiyasını və s. məsələləri tədqiqata cəlb etmişdir. Bununla bağlı olaraq dəfələrlə Mingəçevirdə, Biləsuvarda, Gəncədə, Bərdədə, Mirbəşirdə, Yevlaxda, Tərtərdə, Goranboyda, Saatlıda, Salyanda, Beyləqanda, İmişlidə, İsmayıllıda, Qaxda, Şəmkirdə, Xızıda, Sumqayıtda, Bakıda (Xutor, Binəqədi, Suraxanı, Bayıl və s. ərazilərdə) və digər yerlərdə olmuş, buraya köçürülmüş el-oba camaatı ilə görüşmüş, söhbətlər etmiş, onlardan çoxlu materiallar toplamışdır. O, 1948, 1953, 1988-ci illərdə Qərbi Azərbaycanın Dərələyəz mahalından deportasiya olunmuş soydaşlarımızdan topladığı materiallar hesabına sanballı bir kitabı oxucuların ixtiyarına verməyə nail olmuşdur. Onu da deyim ki, Həsən Mirzəyev 1955-ci ildən başlayaraq ta 1988-ci ilə qədər uzun bir müddət ərzində Dərələyəz mahalını qarış-qarış gəzmiş, bölgədə yaşayan insanlarla bir-bir görüşmüş, bu ərazi və onun insanları barəsində xeyli zəngin material toplamışdır.*

*Müəllif kitabda hər bir kəndin tarixi coğrafiyasını, etnik mənşəyini, kəndin keçmişi ilə bağlı tarixi hadisələri, deportasiya olunmuş əhalinin müxtəlif illərdəki statistik sayını, kənd ərazisində yaşayan tayfaları, kəndin sərhəddini və onun daxilində olan onomastik vahidləri, qala, körpü, məbədgah, ziyarətgah və mədəniyyət abidələrini verir, el-obanın tanınmış, adlısanlı, nüfuzlu və müxtəlif vəzifələrdə işləmiş adamları haqqında məlumatları bu günkü və gələcək nəslə çatdırır.*

*Prof. H.Mirzəyev Qafqazla bağlı rus hərb və statistik sənədlərindən, erməni mənbələrindən gen-bol faydalanaraq ermənilərin öz mənafeləri naminə təhrif etdikləri əsl həqiqəti və faktları da aşkara çıxarır. Müəllif bu əsəri yazarkən çoxlu sayda elmi ədəbiyyatdan, eləcə də informatorlardan topladığı məlumatlardan, folklor nümunələrindən də istifadə etmişdir. Onu da deməliyəm ki, "Qərbi Azərbaycanın Dərələyəz mahalı" kitabı Azərbaycan tarixinin, mədəniyyətinin, məişətinin, etnoqrafiyasının, coğrafiyasının, dilinin, dialektinin bir hissəsidir. Belə ki, indiyə qədər Azərbaycan tarixi, coğrafiyası, dili və s. yazılarkən, demək olar ki, yalnız Azərbaycanın ərazisində mövcud olanlar nəzərə alınmışdır. Azərbaycanın hüdudlarından kənarda yaşayan azərbaycanlıların tarixi, mədəniyyəti, coğrafiyası, dili və s. əsasən nəzərə alınmamışdır. Ona görə də biz indiyə qədər tariximizi, dilimizi, etnoqrafiyamızı, coğrafiyamızı bütöv bir tam halında yaza bilməmişik. Halbuki, ermənilər erməni tarixini yazarkən Ermənistanın hüdudlarından kənara çıxıraq, bütövlükdə ermənilərin tarixini yazmağa nail olublar. Mən onu demirəm ki, ermənilərin yazdıqları bu tarix (?!) nə qədər obyektiv (?!), yaxud da subyektivdir. Mən onu deyirəm ki, erməni xalqının tarixi fakt olaraq bütöv tam halındadır. Bu mənada prof. Həsən Mirzəyevin "Qərbi Azərbaycanın Dərələyəz mahalı" kitabı gələcəkdə tam şəkildə yazılacaq Azərbaycan tarixinin, dilinin, mədəniyyətinin, məişətinin, coğrafiyasının, etnoqrafiyasının bir hissəsidir.*

*Müəllif toponimlərin leksik-semantik və qrammatik xüsusiyyətlərini, ermənilər tərəfindən təhrif olunması səbəbini və reallığını göstərməklə Azərbaycan türklərinin Dərələyəz bölgəsinin avtoxton əhalisi olmasını faktlarla, dəlillərlə, etimoloji təhlillərlə sübut edir. Söz toponimlərdən düşdüyünə*

*görə bir məsələni də qeyd etməliyəm. Qeyd edəcəyim bu məsələ internet səhifəsində mövcud olan bir saitlə bağlıdır. Həmin saitin adı belədir: WWW.virtualarmenia. am / vayotsdzor. Bu saitdə müasir Ermənistanın görünüşü (xəritəsi) verilir və ona (xəritəyə) izah, şərh öz əksini tapır. Burada Ermənistanın bütün bölgələri, o cümlədən Dərələyəz mahalı da xüsusi yerlərdən birini tutur. Ermənilər bu xəritənin şərhində yer adlarının qədim (Azərbaycan dilində olanını) və təhrif edərək erməniləşdirdikləri variantlarını verirlər. Məsələn, həmin saitdən konkret olaraq Dərələyəzlə bağıl bəzi yer-yurd adlarına fikir verək: Qızılgül (Azərbaycan türkcəsində) - Arates (erməniləşmiş variant), Gülüdüz (Azərbaycan türkcəsində) - Vardahovid (erməniləşmiş variant), Ələyəz (Azərbaycan türkcəsində) - Yeqeğıs (erməniləşmiş variant), Qovuşuq (Azərbaycan türkcəsində), - Hermon (erməniləşmiş variant), Daylaqlı (Azərbaycan türkcəsində) - Aren ( erməniləşmiş variant), Köçbəy (Azərbaycan türkcəsində) - Uğecor (erməniləşmiş variant), Qabaxlı (Azərbaycan türkcəsində) - Qoqtaniq (erməniləşmiş variant), Kotanlı (Azərbaycan türkcəsində) - Qarmiraşen (erməniləşmiş variant), Gomur (Azərbaycan türkcəsində) - Qomq (erməniləşmiş variant) və s.*

*Qəribə görünsə də, ermənilər Ermənistan ərazisində azərbaycanlıların 1988-ci ilə qədər yaşadıqlarını, yer adlarının qədim variantının Azərbaycan türkcəsində olduğunu vermək məcburiyyətində qalsalar da, əslində cinayət törədərək dünyanın xəritəsində dəyişiklik etmişlər. Onlar Azərbaycan dilində olan bütün yer-yurd adlarını erməniləşdiriblər. Lakin erмənləşmiş yer-yurd adlarının Azərbaycan dilindəki variantını da verməyə bilməzdilər. Bununla da dünya qarşısında özlərini sığortalayıblar. Sual olunur:*

*Nə üçün dünyanın xəritəsini dəyişənlərə qarış dünya susur?! Nə üçün biz faktlardan çıxış edərək erməniləri və Ermənistan dövlətini beynəlxalq məhkəməyə vermirik?! Deməli, hələ indən belə görəcəyimiz işlər daha çoxdur.*

*Əlbəttə, son olaraq onu qeyd etməliyəm ki, ensiklopedik səciyyəli belə bir kitabı yazdığına görə prof. Həsən Mirzəyevə təşəkkürümüzü bilidir və ona yeni-yeni yaradıcılıq uğurları arzulayırıq. İnanırıq ki, bu kitab bütün oxucuların maraq və diqqətində olacaqdır.*

*BULUDXAN XƏLİLOV,*
*Filologiya elmləri doktoru,*
*Azərbaycan Dövlət Pedaqoji*
*Universitetinin professoru.*

# 1948-1953-cü İLLƏRDƏ AZƏRBAYCANLILARIN ERMƏNİSTAN SSR ƏRAZİSİNDƏKİ TARİXİ-ETNİK TORPAQLARINDAN KÜTLƏVİ SURƏTDƏ DEPORTASİYASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

## FƏRMANI

Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırım siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən – min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin siyasəti ilə yanaşı, o dövrkü Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır.

Təəssüf ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir.

Yuxarıda göstərilənləri nəzərə alaraq **QƏRARA ALIRAM**:

1. 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədi ilə aşağıdakı tərkibdə dövlət komissiyası yaradılsın:

**Dövlət komissiyasının sədri:**
**Heydər Əliyev** – Azərbaycan Respublikasının prezidenti

**Dövlət komissiyası sədrinin müavini:**
**Artur Rasizadə** – Azərbaycan Respublikasının Baş naziri

**Dövlət komissiyasının üzvləri:**
**Ramiz Mehdiyev** – Azərbaycan Respublikası Prezidenti İcra Aparatının rəhbəri

**Vasif Talıbov** – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri
**İzzət Rüstəmov** – Azərbaycan Respublikası Baş nazirinin müavini
**Elçin Əfəndiyev** – Azərbaycan Respublikası Baş nazirinin müavini
**Həsən Həsənov** – Azərbaycan Respublikası xarici işlər naziri
**Namiq Abbasov** – Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri
**Ramil Usubov** – Azərbaycan Respublikasının daxili işlər naziri
**Eldar Həsənov** – Azərbaycan Respublikasının Baş prokuroru
**Südabə Həsənova** – Azərbaycan Respublikası ədliyyə nazirinin birinci müavini
**Xanlar Hacıyev** – Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri
**Sirus Təbrizli** – Azərbaycan Respublikasının mətbuat və informasiya naziri
**Vəfa Quluzadə** – Azərbaycan Respublikasının xarici siyasət məsələləri üzrə dövlət müşaviri
**Hidayət Orucov** – Azərbaycan Respublikasının milli siyasət məsələləri üzrə dövlət müşaviri
**Fatma Abdullazadə** – Azərbaycan Respublikası Prezidenti Aparatının humanitar siyasət İcra şöbəsinin müdiri
**Şahin Əliyev** – Azərbaycan Respublikası Prezidenti İcra Aparatının qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri
**Fuad Ələsgərov** – Azərbaycan Respublikası Prezidenti İcra Aparatının dövlət-hüquq şöbəsinin müdiri
**Yusif Hümbətov** – Azərbaycan Respublikası Prezidenti İcra Aparatının ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri
**Əli Həsənov** – Azərbaycan Respublikası Prezidenti İcra Aparatının ictimai-siyasi şöbəsinin müdiri
**Rafael Allahverdiyev** – Bakı şəhər icra hakimiyyətinin başçısı
**Nizami Xudiyev** – Azərbaycan Respublikası Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri
**Fəraməz Maqsudov** – Azərbaycan Elmlər Akademiyasının prezidenti
**Anar Rzayev** – Azərbaycan Yazıçılar Birliyinin sədri
**Cəmil Quliyev** – Azərbaycan Elmlər Akademiyası ictimai elmlər bölməsinin akademik-katibi əvəzi
**İqrar Əliyev** – Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutunun direktoru
**Budaq Budaqov** – Azərbaycan Elmlər Akademiyası Coğrafiya İnstitutunun direktoru
**Ataxan Paşayev** – Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Baş Arxiv İdarəsinin rəisi
**Yusif Yusifov** – N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin ümumi tarix kafedrasının müdiri

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmanın icrası ilə bağlı məsələləri həll etsin.

**HEYDƏR ƏLİYEV,**
**Azərbaycan Respublikasının prezidenti**
Bakı şəhəri, 18 dekabr 1997-ci il.

## AZƏRBAYCANLILARIN SOYQIRIMI HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

## FƏRMANI

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərində qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır.

Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir.

1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına "bəraət qazandırmaq məqsədilə" erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş genişmiqyaslı proqramlar reallaşdırıldı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi. "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki azərbaycanlı kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazlarını yaratmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişlər.

Birinci dünya müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən əksinqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çe-

virmişlər.

Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə fövqəladə istintaq komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi.

Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atdılar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail oldular.

Erməni millətçiləri öz havadarlarının köməyi ilə 50-ci illərdən etibarən Azərbaycan xalqına qarşı mənəvi təcavüz kampaniyasına başladılar. Keçmiş sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin erməni xalqına mənsub olduğunu sübut etməyə çalışırdılar. Eyni zamanda onlar tərəfindən bütün dünya azərbaycanlılarının mənfi obrazını formalaşdırmaq cəhdləri də güclənirdi. "Yazıq, məzlum erməni xalqı"nın surətini yaradaraq əsrin əvvəlində regionda baş verən hadisələr şüurlu surətdə təhrif olunur, azərbaycanlılara qarşı soyqırımı törədənlər soyqırımı qurbanları kimi qələmə verilirdi.

Əsrin əvvəlində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSR-in digər bölgələrindən soydaşlarımız təqiblərə məruz qalaraq kütləvi surətdə qovulur. Azərbaycanlıların hüquqları ermənilər tərəfindən kobudcasına pozulur, ana dilində təhsil almasına əngəllər törədilir, onlara qarşı repressiyalar həyata keçirilir. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilir, toponimika tarixində misli görünməyən qədim toponimlərin müasir adlarla əvəzolunma prosesi baş verir.

Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhunda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırılır. Böyük humanist ideallara xidmət edən Azərbaycan ədəbiyyatı və mədəniyyəti ruhunda tərbiyə olunmuş yeni nəslimiz ekstremist erməni ideologiyasının təqiblərinə məruz qalır.

Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradırdı. Xalqımıza qarşı aparılan soyqırımı siyasəti özünün siyasi-hüquqi qiymətini tapmadığı üçün tarixi faktlar sovet mətbuatında ermənilər tərəfindən təhrif olunur və ictimai fikir çaşdırılırdı. Ermənilərin sovet rejimindən bəhrələnərək həyata keçirdikləri və 80-ci illərin ortalarında daha da güclənən antiazərbaycan təbliğatına Azərbaycan Respublikasının rəhbərliyi vaxtında lazımi qiymət vermədi.

1988-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ konfliktinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından qovulmasına da respublikada düzgün siyasi qiymət verilmədi. Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında ermənilərin qeyrikonstitusion qərarını və Moskvanın əslində bu vilayəti Xüsusi İdarəetmə Komitəsi vasitəsilə Azərbaycanın tabeliyindən çıxarmasını xalqımız ciddi narazılıqla qarşıladı və mühüm siyasi aksiyalara əl atmaq məcburiyyəti qarşısında qaldı. Respublikada keçirilən mitinqlər zamanı torpaqlarımızın işğalı siyasəti qətiyyətlə pislənsə də, Azərbaycan rəhbərliyi öz passiv mövqeyindən əl çəkmədi. Məhz elə bunun nəticəsi olaraq 1990-cı ilin yanvar ayında getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədilə Bakıya qoşunlar yeridildi, yüzlərlə azərbaycanlı məhv və şikəst edildi, yaralandı, digər fiziki təzyiqlərə məruz qoyuldu.

1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə-yeksan edilməsi ilə qurtardı.

Millətçi-separatçı ermənilərin Dağlıq Qarabağda başladığı avantürist hərəkətin nəticəsi olaraq bu gün bir milyondan artıq soydaşımız erməni qəsbkarları tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmış, çadırlarda yaşamağa məhkum edilmişdir. Ərazimizin 20 faizinin erməni silahlı qüvvələri tərəfindən işğalı zamanı minlərlə vətəndaşlarımız şəhid olmuş, xəsarət almışdır.

Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə – 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir.

Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırım faciələrini qeyd etmək məqsədilə **qərara alıram:**

1. 31 mart azərbaycanlıların soyqırımı günü elan edilsin.
2. Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun ki, azərbaycanlıların soyqırımı ilə bağlı hadisələrə həsr olunmuş xüsusi sessiyanın keçirilməsi məsələsinə baxsın.

**HEYDƏR ƏLİYEV,**
**Azərbaycan Respublikasının prezidenti**
Bakı şəhəri, 26 mart 1998-ci il.

## ERMƏNİLƏR HAQQINDA

*"Erməni eybi: bədfel, kündəbədən, gözügötürməyən, bir ayağı qaçmaqda olan, əmrə baxmayan, yersiz hay-küy salan, vəfasız, riyakar, söyüş sevən, ürə-yi xıltlı, ağasına düşmən..."*

***Qabusnamə.***

*Sən köləsən, sən qorxaqsan, sən ermənisən..*

***A.Puşkin, rus şairi.***

*Ermənilər dost cildində düşməndir. Onun nəvazişindən, təbəssümündən qorxduğum qədər açıq düşməndən qorxmuram.*

***İ.Çavçavadze, gürcü şairi.***

*Ermənilərlə heç cür yaxınlıq edə bilmirdim, çünki onların alçaqlığı və əclaflığı dözülməzdir.*

***Qraf de Şoll, fransız səyyahı.***

*Ermənilərdə mənfur bir biclik, biabırçı bir əclaflıq və rusvayçı bir alçaqlıq vardır.*

***Qraf de Şoll, fransız səyyahı.***

*Ermənilər bulanlıq sudan duru çıxmaq üçün hər şeyə qadirdilər. Hətta na-musu da pay verməyə.*

***M.S.Ordubadi, Azərbaycan yazıçısı.***

*Bu xalq xasiyyətinə görə qədimdən ikiüzlü və riyakardır.*

***Kornelit Taüit***

*Atın kolasına, itin tulasına, erməni balasına etibar yoxdur.*

***Kürd xalq misalı***

*"Erməni gəldi, özü ilə yeni bəla gətirdi"*

***Gürcü xalq misalı***

*"Türklər ermənilərin uydurduğu kimi qəddar və zülümkar deyildi. Onların bədbəxtçiliyi çox məkirli və hiyləgər ermənilərlə əhatə olunmasıdır".*

***Françesko, İtaliyanın baş naziri***
***(1919-cu ilin yayındakı nitqindən)***

*"Cənablar, mənə belə gəlir ki, siz erməniləri 8 yaşında təmiz və məsum bir qız kimi zənn edirsiniz. Bu fikirlə çox yanılırsınız. Halbuki, ermənilər son dərəcə vəhşi davranışları ilə nə qədər qan tökən xalq olduqlarını qeyd şərtsiz*

*isbat etmişlər".*

***Kerzon, İngiltərənin xarici işlər naziri (1920-ci ilin mart ayında İngiltərənin icma palatasındakı çıxışından).***

*"Şərqdə işğalçılıq siyasəti yürüdən xarici kəşfiyyatın agentləri satqın, yaltaq və xain erməni daşnaklarıdır".*

***G.Çiçerin. RSFSR Xarici İşlər Komissarı. (1922-ci ilin dekabrında Lozanno konfransındakı çıxışından).***

*Ermənilər ağ dərili qulların ən pisidir. Onların abırları yoxdur. Onlar yalnız dəyənək və qorxu altında yaxşı işləyirlər.*

***Adam Mets. İsveçrə şərqşünası.***

*"Mən türklə bir iş görəndə yazılı saziş bağlamıram, çünki türkün bir sözü kifayətdir. Yunanlarla yazılı şərt bağlayıram, çünki belə lazımdır və xeyirlidir. Ermənilərlə isə hətta yazılı sazişlə heç bir iş görmürəm, çünki onların yalan və araqarışdıran xasiyyətlərinin qarşısını heç bir yazılı şərtlə kəsmək mümkün deyil".*

***Adolf Karte, alman səyyahı.***

*Bütün qafqazlılar bilirlər ki, ermənilər burada köklü xalq kimi yox, xeyli miqdarda Türkiyə və İrandan qaçanlar kimi XIX yüzilliyin birinci yarısında görünməyə başlanmışlar.*

***V.L.Veliçko (Кавказ русское дело и междуплеменные вопросы С.Петербург 1904, с.69.)***

*Azərbaycanda yaşayan ermənilər də daxil olmaqla Cənubi Qafqazda yaşayan bütün ermənilər köklü xalq deyil, gəlmədirlər. Onların böyük hissəsi XIX əsrdə İran və Türkiyədən köçürülüb.*

***Prof. T.Svyatoxovski***

*"Ermənilərin ilk dəfə buraxıldıqları torpaqlara sonralar onların əbədi sahibi duracaqlarından müsəlmanlar içərisində yaranan qorxunu aradan qaldırmaq və (sonuncuların) düşdükləri ağır vəziyyətin uzun sürməyəcəyini bildirməklə onları sakitləşdirmək məsələsini biz dəfələrlə götür-qoy etmişik".*

***A.S.Qriboyedov (Записки о пременении армян из Персии в наши области. "Сочинение" т.2. М., 1971, стр.314).***

*1828-1830-cu illərdə Türkiyədən 84 min, İrandan 40min erməni gətirib İrəvan və Yelizavetpolun ən yaxşı torpağı və mülayim iqlimi olan əlyalətlərdə*

*məskunlaşdırdıq.*

***N.N.Şavrov (Новая угроза русскому делу в Закавказье предстоящая распродажа "Мугани инородцам". СПб. 1911, ст.59).***

*Qədim türk etnosları er. əv. VIII-VII əsrlərdə indiki Ermənistan ərazisində yaşamış yerli xalqdır. Bunlar indiki Azərbaycanlıların ulu əcdadı olmuşlar. O vaxt bu ərazidə ermənilər yaşamamışdır.*

***F.M.Minorski***

*Qafqazda yaşayan 1 milyon 300min ermənidən 1 milyonu 1828-ci ildən (Türkmənçay müqaviləsindən) sonra İran və Türkiyədən Qafqaza köçürülənlərdir.*

***N.N.Şavrov (Новая угроза русскому делу в Закавказье предстоящая распродажа Мугани инородцам СПб, 1911).***

*Ermənistanda yaşayan azərbaycanlıların torpağı tarixən onların öz qanuni torpağıdır və onlar bir sahib kimi öz "erməni qonaqlarına" yaxşı münasibət göstərmişlər. Lakin Azərbaycanın Zəngəzuru ermənilərə, Qazax rayonunun bir hissəsi isə Gürcüstana verilmişdir.*

***Odri L.Altstadt (ABŞ. Konnektikut Universitetinin professoru, Mərkəzi Asiya icmalı jurnalı, M.4. 1988, s.63-78).***

*Erməni kilsə xadimləri Alban kilsəsinin daxili quruluşunda dəyişiklik aparırdı. Onlar alban mədəniyyətinin varisi olmağa can atırdılar.*

***F.Engels. Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi. Moskva. 1959, səh.70.***

# I FƏSİL

## DƏRƏLƏYƏZ MAHALININ TARİXİ COĞRAFİYASI

Qədim türk-oğuz məskəni olan Dərələyəz mahalı hal-hazırda iki rayonu – Yeğeqnadzor (Keşkənd) və Əzizbəyov (Vayk) rayonlarını əhatə edir. Lakin Dərələyəz mahalı tarixən, Naxçıvan xanlığına tabe olduğu vaxt bundan da geniş ərazini əhatə etmişdir. Belə ki, Azərbaycanın hal-hazırkı Şərur rayonuna daxil olan Axura, Həmzəli, Həmzəli-Dizə, Yaycı, Cağazir, Danzik, Havuş, Günnüt kəndləri, həmçinin Ermənistanın Vedi rayonunun Çanaxçı, Hortun, Bağçacıq, Cəfərli, Qaşqa, Keşiş viranı və bəzi digər kəndləri də həmin vaxt Dərələyəz mahalına daxil idi.[1] Şərur-Dərələyəz qəzası İrəvan Quberniyasına daxil edildikdən sonra isə bu kəndlər, Şərur və Vedi rayonu ərazisinə qatıldı.

Əlavə edək ki, uzun müddət Dərələyəz mahalı ilə Şərur bir inzibati bölgüyə aid edilmiş və bu gah Naxçıvan əyalətinin, gah da İrəvan quberniyasının "Şərur-Dərələyəz" qəzası adlandırılmışdır. Qəzanın mərkəzi isə Şərurun Baş-Noraşen (Cəlilkənd) kəndi olmuşdur.

Türk-oğuz yurdu olan Dərələyəz 1920-ci ilə qədər Azərbaycanın tərkibində idi. 1920-ci il noyabrın 29-da Ermənistan Sovet Respublikası yarananda rus şovinistləri və erməni daşnaklarının, xüsusən, türk düşməni olan Stalin, Mikoyan və Şaumyanın köməyi və təkidi ilə Azərbaycanın Zəngəzur, Göyçə, Qaraqoyunlu mahalları ilə birlikdə Dərələyəz də Azərbaycandan alınıb Ermənistana verildi.

1931-ci io oktyabrın 15-də Dərələyəz Ermənistan hökuməti tərəfindən 2 rayona – Keşişkənd (Keşkənd, Yeğeqnadzor) və Paşalı (Əzizbəyov) rayonlarına bölündü.

Dərələyəzin indiki sahəsi 2308 kv. km-dir. Bu sahədən 1134 kv. km Yeğeqnadzor (Keşkənd//Keşişkənd) rayonunun, 1174 kv. km isə Əzizbəyov (Paşalı, Vayk) rayonunun payına düşür.[2]

Keşkənd rayonu 1931-ci ildən 1935-ci ilə qədər Keşişkənd, 1935-ci ildən 1956-cı ilə qədər Mikoyan, 1956-cı il oktyabrın 12-dən Əzizbəyov, 1957-ci ildən sonra isə Yeğeqnadzor (Qamışlı dərə) adlandırılmışdır. Əzizbəyov rayonu isə 1931-ci ildən Paşalı, 1956-cı ildən Əzizbəyov, 1988-ci ildən Vayk adlandırılmışdır.[3]

-----------------

1. Bax: Статистическое описание Нахичеванской провинции. Санкт-Петербург, 1833, стр.160-176; Əziz Ələkbərli. Qərbi Azərbaycan, Vedibasar, I cild, Bakı, 2000, səh.589.

2. Bax. Ermənistan SSR-nin xəritələri, Erevan, 1970; Ermənistan azərbaycanlıların tarixi coğrafiyası, Bakı, 1995, səh.338, 350.

3. Bu iki rayonu birləşdirən zaman mən Yeğeqnadzor rayonunun maarif şöbəsində Azərbaycan məktəbləri üzrə təlimatçı işləyirdim. İki rayonun birgə konfransında mən də iştirak edirdim. İki rayonun mərkəzi Keşkənd (Mikoyan) rayonu oldu. Lakin rayonun adı Əzizbəyovun adı ilə adlandı. Raykom katibi də Əzizbəyov rayonundakı katib oldu. Balaca boylu bir adam idi. Azərbaycan dilini yaxşı bilirdi. Sözdə azərbaycanlıları çox istəyirdi, əməldə isə əksinə edirdi. Rayonlar birləşəndə hər iki rayonda çoxlu azərbaycanlı olmasına baxmayaraq ermənilər nə rayon partiya komitəsində, nə də başqa təşkilatlarda azərbaycanlılardan bir nəfər də olsun məsul vəzifəyə irəli çəkmədilər.

1957-ci ildə rayonlar yenidən ayrıldı. Konfransda ermənilər Yeğeqnadzor rayonuna yenidən Mikoyanın adının verilməsini təklif etdilər. Lakin bu adı Moskva təsdiq etmədi. Bir müddətdən sonra bu adı dəyişdirib rayona Yeğeqnadzor (Qamışlı dərə) adı verdilər.[1] Paşalı rayonuna isə yenidən Əzizbəyovun adı verildi. Əzizbəyovun adının əvvəlcə hər iki birləşmiş rayona, sonra isə təkcə Paşalı rayonuna verilməsi bu iki rayonda olan şovinist erməniləri çox narahat edirdi. Bu adı dəyişməyə çalışırdılar. Hətta iki rayon birləşəndə də bu haqda çox mübahisələr oldu. Nəhayət, 1991-ci ildə Əzizbəyovun adını götürüb rayona Vayk adı verdilər.

Dərələyəz mahalı 9 rayonun – Şərur, Sədərək, Babək, Şahbuz, Kəlbəcər, Vedi (Ararat), Qaranlıq (Martuni), Basarkeçər (Vardenis), Qarakilsə (Sisyan) rayonunun əhatəsində yerləşir, çox böyük bir ərazini əhatə edir.

Dərələyəz mahalı yüksək dağ silsilələri ilə əhatə olunmuşdur. Onun ətraf və sərhədlərində Ağmanqan, Əyricə, Selimin gədiyi, Şahabbas//Səlimin karvansarası, Yanığın düzü, Xartdığın yalı, Dəmirtəpə, Qaraçı yurdu, Təzəkli, Murtuza yurdu, Soğanlı, Qaçaq qayası, Xalaclar yurdu, Versin dağı, Dikpilləkən, Bərkdərə, Əyri yol, Soyuqbulaq, Sarı yer, Muradtəpə, Keçəldağ, Qırxbulaq, Qısır dağ, Quşçubilək, Biçənək aşırımı, Batabat və s. yüzlərlə oğuz türklərinə məxsus dağlar, yaylaqlar, aşırımlar, yollar vardır.

Arpa çayının iki böyük qolu mənbəyini Dərələyəzin sərhədlərindən götürüb Şərur ərazisində Araz çayına tökülür.

Dərələyəz yeraltı və yerüstü sərvətləri ilə də zəngindir. Burada böyük ehtiyatlara malik olan qızıl[2], gümüş[3], molibden[4], zəy yataqla-

---------------------

1. N.Xruşşovun hakimiyyəti dövründə belə bir qərar qəbul edilmişdi ki, hal-hazırda yaşayan rəhbər işçilərin adına yer adı verilməsin. Buna görə də ermənilər könülsüz olaraq Mikoyanın adını Yeğeqnadzor adı ilə əvəz etdilər.

2. Qızıl yatağı Keşkənd (Yeğeqnadzor) rayonu ərazisində Qovuşuq kəndinin qonşərində yerləşən Təkədonduran dağının başında (cənub tərəfdə) yerləşir. Bura "Qazma" adı ilə məşhurdur. Nikolay vaxtında buradan qızıl çıxarıblar. 1950-1960-cı illərdə də burada qazıntı işləri aparılırdı. Qovuşuq kənd sakinləri Nəsib Fərzəliyev, Mustafa İsmayılov, Süleyman Süleymanov, Ələyəz kənd sakini Qaraş Ələsgər oğlu burada işləyirdilər. Lakin həmin vaxt bu qızıl mədənində işi nədənsə dayandırdılar. Mən bunun canlı şahidiyəm. Hətta bir dəfə qışda çoxlu qar var idi. Həmin qızıl mədənindən kəndə gəlmək çox təhlükəli idi. Yuxarıda adı çəkilən adamların yeməkləri qurtardığı üçün kəndə gəlirdilər. Camaat bunların köməyinə getdi və güclə onları kəndə gətirə bildilər. Mən bu vaxt kənddə müəllim işləyirdim. Bu hadisələrin canlı şahidiyəm.

3. Gümüşxana mədəni əvvəllər Dərələyəzin ərazisində idi. İndi isə Şərur rayonuna aid yerdədir. Əzizbəyov rayonunda olan Gümüşxana mədəni isə hal-hazırda işləmir, kəndin adı Gümüşxana qalmışdır. Başqa bir gümüş çıxarılan yer isə Əzizbəyov rayonundadır.

4. Molibdin Qovuşuq kəndinin Soğanlı yaylağındakı yurd yerinin altındadır. 1950-ci illərdə oranı qazdılar, nə qədər ehtiyata malik olduğunu öyrəndikdən sonra tunellərin ağzını bağladılar. Elə həmin vaxtdan Qovuşuq və Külüdüz kəndlərinə məxsus olan bu yaylağa azərbaycanlıları getməyə qoymadılar. Lakin qeyd etmək istəyirəm ki, bu molibden adlanan yerdə çayın içindəki daşlar qızılı rəngdədir. Hətta elə balaca daşlar var ki, sanki qızıldır. Biz uşaq vaxtı gedib həmin çayın daşlarından yığıb evə gətirərdik. Ola bilsin ki, molibden yox, qızıl yatağıdır. Hətta bu qazıntı aparılan yerin yaxınlığında xınalıq deyilən bir neçə böyük təpəliklər də vardır. Onun torpağı qıp-qırmızıdır. Bu təpəlikdə ot bitmir. Həmin torpaqdan gətirib qoyun və quzuların başını, belini rəngləyirlər.

rı[1], böyük meşəliklər[2], bütün növ meyvə bağları[3] vardır. Maldarlıq-qoyunçuluq[4], taxılçılıq[5], arıçılıq[6], tütünçülük[7], xalçaçılıq[8], quşçuluq geniş şəkildə inkişaf etmişdir. İnşaat materialı üçün ağacı və daşı boldur. Dərələyəz yabanı meyvələrlə və dərman bitkiləri ilə də zəngindir. Zəngin flora və faunası olan Dərələyəzin meşələrində, dağlarında vəhşi heyvanlar, quşlar çoxdur. Dərələyəzin qızılala (farel) balığı, dağ keçisi və arğalısı, xınalı və qu kəkliyi, sərin bulaqları, müalicə suları (Səfolar və Gədikvəng isti suyu) dillərdə əzbərdir.

Qafqazı qarış-qarış gəzən, Qafqazın tarixi, coğrafiyası, toponimləri... haqqında sanballı kitab yazan, Dərələyəzə yaxından bələd olan İ.Şopen yazır ki, Dərələyəz Qafqazın Şvesariyasıdır.[9]

## DƏRƏLƏYƏZİN TARİXİ KEÇMİŞİ VƏ FACİƏLİ GÜNLƏRİ

Ən qədim insan məskənlərindən biri də Dərələyəz mahalıdır.[10] Tarixçilərin rəyinə görə bu yerlərdə "ən qədim insanların müşahidə edilməsi e. ə. 2-ci mi-

---

1. Zəy yatağı Qalaser kəndi ilə Qovuşuq kəndinin arasında, Güneyvəng deyilən kəndin yuxarısında, Böyük qayanın altındadır. Bura "Zəylik" adı ilə məşhurdur. Ordan çıxan zəylər daşlaşmış formadadır.

2. Meşəlik Yeğeqnadzor rayonunda, əsasən, Qovuşuq, Qalaser, Ələyəz, Ayısəsi kəndində, Əzizbəyov rayonunda isə bir çox kəndlərin ərazisindədir. Dərələyəzdəki bu meşələr Canı meşəsi, Qara meşə, Hava meşəsi, Göydağın meşəsi və s. bu kimi adlarla məşhurdur.

3. Dərələyəzdə üzüm, ərik, alma, armud, heyva, albalı, gilas bağları, qoz (cəviz), tut ağacları olduqca çoxdur.

4. Mal-qoyun saxlamaq üçün Dərələyəzdə geniş imkanlar vardır. Yem məhsulları olduqca çoxdur. Nikolay dövründə camaat daha çox mal-qoyun saxlayarmışlar. Məsələn, mənim babam (anamın atası) Əmir kişinin 1915-1918-ci illərdə Hər sürüdə 800-1000 baş olmaqla 18 sürü qoyunu olmuşdur. Hətta bu sürülər ayrı-ayrı rəngdə olan sağmal quzu və erkəkdən ibarət olmuşdur. Əmir kişi bu qoyunları Türkiyədə, Şuşada, Gəncədə və Naxçıvanda satırmış. Dərələyəzdə belə mal-qara sahibləri çox olmuşdur.

5. Dərələyəzdə ən çox buğda əkilir. Əkin və bağ sahələri çoxdur.

6. Arıçılıq Dərələyəzdə daha çox inkişaf etmişdir. Elə bir ailə olmazdı ki, onun xeyli arısı olmasın. 1935-1940-cı illər arasında babam (atamın atası) Mirzəli kişinin yeşik arıdan başqa bir arxana (yüzdən çox) səbət, arısı var idi. Şan balı kəsəndə onu yığmağa yer tapılmırdı. Hələ ən az arısı olan mənim babam idi.

7. Dərələyəz kəndlərinin əksəriyyətində tütün əkilə bilir.

8. Xalçaçılıq işində Dərələyəz ilə Kəlbəcər rayonu müqayisə edilə bilər. Qış aylarında hər evdə hana qurulub xalça toxunar, hətta bu cəhətdən camaat bəhsə girərdi.

9. И.Шопен. Исторические памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи, (Эреванской губерний) СПб, 1852, стр. 350.

10. Dərələyəz mahalında ən qədim dövrün nişanələri çoxdur. Moz kəndinin yerində, üç kilometrlik bir məsafədəki qədim şəhər xarabalıqları və bunun qədim dövrdə Təpəsidəlik dağından axan vulkanın altında qalması, Ələyəz kəndi ilə Hosdun kəndinin arasında (Sal-Sal qalasının altında) yerləşən, təxminən 4 km uzunluğunda olan, adı geniş xalq kütləsinə bəlli olmayan qədim məskənin Dəmirtəpədən gələn vulkanın altında qalması, ermənilərin Eleyis adlandırdığı indiki Erdəpin kəndi ilə Hosdun kəndi arasında xarabalığa çevrilib torpaq altında qalan şəhər, yalçın qayaların zirvəsində, əlçatmaz yerlərində qədim hörgülər, Dam bulaq kimi daş abidələr (Böyük daş altında həm ev, həm də bulaq olmuşdur), böyük kahalardan ev kimi istifadə olunması, qazıntı vaxtı Kaha adlı kənddən çıxan qədim sikkələrin tapılması və s. buna canlı misaldır. Bütün bunlar qədim dövrlərin yadigarıdır.

nilliyə təsadüf edir".[1]

Tarixdən məlumdur ki, indi Ermənistan adlanan yer, o cümlədən Dərələyəz qədim türk-oğuz məskəni olmuş və burada türk tayfaları yaşamışlar. Tarix boyu bu yerlərdə türk dövlətləri (...Səlcuq, Elxani, Ağqoyunlu, Qaraqoyunlu, Səfəvi və s.) hakim olmuşdur.[2] Təkzibedilməz faktdır ki, hələ bizim eradan çox-çox əvvəl bura, xüsusən Dərələyəz Albaniyanın tərkibində olmuşdur. Bir sözlə, bu yerlər qədimdən türk-oğuz məskənidir. "...ermənilər Qafqaza və Ön Asiyaya çox-çox sonralar gəlmişlər. Əslində onlar heç vaxt özlərini erməni adlandırmamış, milliyyətlərinə "hay", "vətənlərinə" "hayrenik" demişlər. İndiki "Ermənistan" ərazisində isə vaxtilə "ərmən" adlı türk tayfaları yaşayıb və bu ərazilər həmin tayfaların adı ilə "Ərməniyyə" adlandırılıb. "Ərmən" etnoniminin sırf türk sözü olması da deyilənləri təsdiq edir. Sonralar bu ərazilərə köçüb gələn haylar tədricən yerli ərmən tayfalarının torpaqlarında özlərinə yer edərək həmin ərazilərin adı ilə "ərməni", yəni "Ərmənli", "ərməniyyəli" adlanmağa başlayıblar.[3] Hayların bu yerlərdəki etnik-siyasi nüfuzu o qədər zəif olub ki, sonralar bütün dünya onları öz adları ilə yox, məhz "ərmənli, ərməni" kimi tanıyıb. Bununla belə, son dərəcə hiyləgər olan haylar (ermənilər) zaman-zaman öz məkirli niyyətlərini həyata keçirmişlər. Belə ki, vaxtilə ancaq Azərbaycan türkləri yaşayan "Ermənistan" torpaqlarında bu gün ancaq haylar yaşayırlar".[4]

Məlum olduğu kimi, hələ bizim eradan çox-çox əvvəl dünyanın ən böyük bir ərazisində məskunlaşan türk xalqları tarix boyu öz doğma torpaqlarını qorumaq üçün qanlı müharibələrlə üzləşmişlər. Atilla, Çingizxan, Teymurləng, İldırım Bəyazid, Şah İsmayıl kimi fatehlər bu torpaqları qorumaq üçün çox iş görmüşlər. Macarıstandan Çıxota, Ob-Yeniseydən Dəclə və Fərat çaylarına, Qafqazdan İran körfəzinə qədər uzanan türk torpaqlarını göz bəbəyi kimi qorumuşlar. Şumer mədəniyyəti, incəsənəti qədər qədim olan, onunla bir mənbədən qidalanan türk mədəniyyətini, incəsənətini, bir sözlə, ulu türk xalqını və onun ana torpaqlarını dünyaya tanıtmaq üçün əllərindən gələni əsirgəməmişlər.

Lakin türk tayfaları və dövlətləri arasında gedən çəkişmələr, müharibələr onların zəiflənməsinə səbəb olurdu. Teymurləng və İldırım Bəyazid kimi fatehlərin üz-üzə gəlməsi türk dünyasının sarsılmasına, get-gedə parçalanmasına, düşmənlərin baş qaldırmasına şərait yaradırdı. Belə vəziyyətdə Azərbaycan torpaqlarını qoruyub saxlamaq işi də çətinləşirdi. Bu cəhətdən xalqımızın yenilməz oğlu Azərbaycan Səfəvilər dövlətinin banisi Şah İsmayılın xidmətləri daha böyükdür. O, Azərbaycan torpaqlarına göz tikənlərə layiqli cavab verir, onlarla qanlı döyüşlər aparırdı. Bu zaman o, bir sıra çətinliklərlə də qarşılaşırdı. Bunun bir səbəbi də Azərbaycanın geniş əraziyə malik olması idi. Onu demək kifayətdir ki, Şah İsmayılın hakimiyyəti dövründə Səfəvilər dövləti Şərqdə öz-

--------------------

1. Əziz Ələkbərli. Qədim türk-oğuz yurdu. – "Ermənistan", Bakı, 1994, səh.17.
2. Azərbaycan tarixi: Bakı, 1994.
3. Əziz Ələkbərli. Qədim türk-oğuz yurdu – "Ermənistan", Bakı, 1994, səh.17; Azərbaycan tarixi xəritələri, "Azərbaycan Ensiklopediyası" nəşriyyat, Poliqrafiya birliyi, Bakı, 1994.
4. Əziz Ələkbərli. Qədim türk-oğuz yurdu. – "Ermənistan", Bakı, 1994, səh. 18-19.

bək, Qərbdə isə Osmanlı İmperiyası ilə həmsərhəd idi. Ümumən, Səfəvilər dövləti Amur-Dəryadan Fəratadək uzanıb gedən böyük bir ərazini əhatə edirdi.

Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, Şah İsmayılın yaratdığı və ümumi sahəsi 420 min kv. km-dən çox olan Azərbaycan dövləti get-gedə öz mövqeyini itirdi, xalqımızın əzəli torpaqları yadların əlinə keçdi: "Şimala və Cənuba, Kərkükə və Dərbəndə, Borçalıya və Ermənstana" parçalandı.[1]

Məlum olduğu kimi, Azərbaycan torpaqlarının parçalanması, əsasən, I Pyotrun vəsiyyətindən sonrakı dövrə təsadüf edir. I Pyotrun Qafqaz, Anadolu və İran haqqındakı vəsiyyətinin əsas məğzi budur: Rusiyadan Ağ dənizə qədər olan yerləri tutmaq. Ağ dənizə çıxmaq üçün isə mütləq Osmanlını, İranı, Azərbaycanı, bütün Qafqazı istila etmək; həmin dövlətlərin daxilində çaxnaşma salmaq, bu məsələdə ermənilərdən istifadə etmək, İran dövlətini Osmanlı Türkiyəsi və Azərbaycan ilə üz-üzə qoymaq. İstila edilmiş yerlərdə vahimə yaratmaq, müsəlmanları, xüsusən türkləri sıxışdırıb qaçmağa məcbur etmək, bunların yerində xristianları-erməniləri, xaxolları (malakanları), almanları məskunlaşdırmaq və s.

Rusiya hökmdarları bu vəsiyyəti əsas götürüb 1804-1813, 1826-1828-ci illərdə İranla, 1806-1812, 1828-1829-cu illərdə isə Osmanlı Türkiyəsi ilə qanlı döyüşlərə başladı, bu ölkələrin bir çox yerlərini tutdu, Qafqazı, o cümlədən, Azərbaycanın şimal hissəsini özünə tabe etdi. Azərbaycanın cənub hissəsi isə Türkmənçay müqaviləsinə görə İranın tabeliyində qaldı. Azərbaycan torpaqlarının sinəsindən şırımlar açıldı. Bu şırımlar sonrakı dövrlərdə daha da çoxaldı. İki əsrə yaxın bir dövrdə Azərbaycan xalqının sinəsinə sağalmaz dağlar çəkildi. Araz çayının şimalında olan Azərbaycan torpaqları 4 yerə parçalandı. Rusiya Dərbəndi və bunun ətrafını özünə götürdü, Borçalını, Qarayazını, Başkeçidi... Gürcüstana verdi. Çuxursəd, Kümrü, İrəvan, Zəngibasar, Gərnibasar, Vedibasar kimi yerlərimiz, Dərələyəz, Zəngəzur, Göyçə, Pəmbək, Ağbaba, Loru, Şurayel kimi mahallarımız əlimizdən alındı. Rusiya türk-oğuz torpaqlarımızın üzərində ermənilər üçün dövlət yaratdı. Azərbaycanın əlində qalan az bir qisim torpaq da sonrakı dövrlərdə hissə-hissə, kəsilib ermənilərə verildi. Bu proses indi də davam etməkdədir. Bir sözlə, rus, erməni, gürcü, fars şovinistlərinin xəyanəti, məkirli siyasəti nəticəsində Azərbaycan torpaqları, türk-oğuz yurdları talan edildi.

Azərbaycanın bu qədim torpaqlarında yaşayan azərbaycanlıların çoxu sıxışdırılıb öz yurdlarından qovuldu, məhrumiyyətlərə düçar olundular. Bunlar yurdyuvalarını itirdilər. Bu yerlərə xristianlar yerləşdirildi. Azərbaycanlılar ermənilər tərəfindən dəfələrlə deportasiyaya və soyqırımına məruz qaldılar.

Azərbaycan alimləri, şairləri, yazıçıları, el ağsaqqalları, generalları, Hüseyn Cavid, Əlibəy Hüseynzadə, Əhməd Ağayev, Əhməd Cavad kimi yüzlərlə görkəmli adamlar vətənindən sürgün edildi, yurd-yuvasından didərgin düşdü, zindanlara salındı, öldürüldü. Bir sözlə, Azərbaycanın düşünən beyinləri, vuran əlləri məhv edildi.

---

1. Əziz Ələkbərli. Qədim türk-oğuz yurdu. – "Ermənistan", Bakı, 1994, səh.9.

Əlifbası 3 dəfə dəyişdirildi. Ərəb əlifbasından latın əlifbasına, latından kirilə keçildi. İndiki nəsillə keçmiş nəslin arasında, həmçinin digər türk və müsəlman dövlətləri arasında əsirlər boyu yaranmış əlaqələr kəsildi. Gələcək nəslin soykökümüzü, tariximizi, qədim ədəbiyyat və incəsənətimizi, mədəniyyətimizi, bir sözlə, tarixi keçmişimizi öyrənmək yolları kəsildi. Türk xalqının qədimliyi inkar edildi.

1918-1920-ci illərdə Şimali Azərbaycan öz müstəqil dövlətini yaratdısa da bunun ömrü çox az oldu, 23 ay ömür sürdü. Rus imperiyası bu müstəqilliyi zorla onun əlindən aldı. Azərbaycanın müstəqil dövlət kimi yaşamasına imkan vermədi, onu öz müstəmləkəsinə çevirdi.

Azərbaycanın İranın tabeliyinə keçən cənub hissəsində də vəziyyət acınacaqlı oldu. Azərbaycanın buradakı torpaqları əyalətlərə, ostanlara bölündü – Azərbaycan sözü İran, azərbaycanlı sözü müsəlman sözü ilə əvəz edildi. 30 milyondan artıq azərbaycanlıya ana dilində oxumaq, orta və ali təhsil almaq yasaq olundu. 1943-cü ildə burada S.C.Pişəvərinin başçılığı ilə müstəqil Azərbaycan dövləti yaransa da bunun ömrü qısa oldu. Rus, erməni, gürcü və fars şovinistlərin xəyanəti nəticəsində bu dövlət yaşamadı. Burada müstəqil Azərbaycan dövlətini yaradanlar təqib olundu, dar ağaclarından asıldı, zindanlara salındı, vətənindən qaçmağa məcbur oldu, planetin bir çox bölgələrinə səpələndilər.

Azərbaycanlıların faciəli günləri qədim türk-oğuz yurdu olan Ermənistan ərazisində daha yüksək vüsət aldı. "XIX yüzilliyin axırı və XX yüzillik Ermənistan azərbaycanlılarının həyatında ən dəhşətli işgəncələr, qırğınlar, qaçqınlar, soyqırımı, mənəvi genosid dövrü olmuşdur".[1]

Fikrimizcə, bir cümlədə deyilən bu fikir göstərilən dövrü yaxşı əks etdirir. Əlavə edək ki, XIX və XX yüzilliklərdə azərbaycanlılar daha çox müsibətlər görmüşlər. Bu dövrdə azərbaycanlıların köçürülməsi, sıxışdırılması, doğma yurdlarında ermənilərin məskunlaşdırılması daha böyük vüsət almışdı.

Tarixçi tədqiqatçılarımız, qədim türk-oğuz yurdu olan Ermənistanda yaşayan azərbaycanlıların öz torpağından qaçqın düşməsini, soyqırımına məruz qalmasını, əsasən, dörd mərhələyə (1905-1907, 1918-1920, 1948-1953, 1988) bölürlər.

Tarixi faktlara əsasən demək olar ki, indiki Ermənistan ərazisində yaşamış azərbaycanlıların faciəli günləri iki əsr davam etmişdir ki, bunu da iki yerə ayırmaq lazımdır.

1. Azərbaycanlılara qarşı törədilən cinayətlərin gizli şəkildə həyata keçirildiyi dövr.

2. Azərbaycanlılara qarşı törədilən cinayətlərin açıq-aşkar şəkildə həyata keçirilməsi dövrü.

Azərbaycanlılara qarşı törədilən bu cinayətlər 5 mərhələdə özünün kulminasiya nöqtəsinə çatmışdır. Bunu aşağıdakı kimi ümumiləşdirmək olar: 1828-

---------------------

1. İ.Məmmədov və S.Əsədov. Ermənistan azərbaycanlıları və onların acı taleyi, Bakı, 1992, səh.

1832, 1905-1907, 1918-1920, 1948-1953, 1987-1988-ci illər. Yerdə qalan illərdə isə (1804-1828, 1833-1904, 1908-1917, 1921-1940, 1945-1947, 1954-1987) rus, erməni və gürcü şovinistləri azərbaycanlıları, əsasən, gizli yolla, fitnə-fəsad yolu ilə soyqırımına, kütləvi şəkildə köçürmələrə məruz qoymaq üçün hazırlıq işləri aparmışlar...

Dünyanın böyük, təkrarolunmaz siyasətçisi, ümumilli liderimiz cənab Heydər Əliyev deyir: "Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırım siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən – min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir."[1]

## I MƏRHƏLƏ (1828-1832)

Azərbaycan xalqının, o cümlədən, qədim türk-oğuz yurdu olan Ermənistanda yaşayan azərbaycanlıların həyatında baş verən dəhşətli günlərin, soyqırımların, işgəncələrin, deportasiyaların və s. tarixi kökləri çox qədimlərə gedib çıxır.

Məlum olduğu kimi, "Qafqaz, o cümlədən Azərbaycan hələ əsrimizin I minilliyindən... rusların diqqətini özünə cəlb etmişdi".[2] Rus knyazları, çarları Qafqazın, o cümlədən, Azərbaycanın zəngin sərvətlərini ələ keçirməyə çalışırdılar. Rusiyanın bu siyasəti I Pyotrun vaxtında daha da gücləndi. I Pyotr hakimiyyətə yiyələndiyi vaxtdan Qafqazı, o cümlədən, "Azərbaycanı işğal etmək" arzusu ilə yaşadı.[3] Get-gedə onun iştahası böyüdü. Ağ dənizə çıxmaq məqsədilə Xəzər və Qara dənizi, Osmanlı Türkiyəsini, Azərbaycanı və İranı tamamilə işğal etmək, Rusiyanın paytaxtını İstanbula köçürmək fikrinə düşdü. Bu planları həyata keçirmək üçün erməni keşişləri və tacirlərinə xüsusi göstərişlər verdi. Azərbaycanın və İranın işğalı ilə bağlı erməni İsrail Oriyinin planını bəyəndi. Rus generalı M.A.Matyuşkinin rəhbərliyi ilə Azərbaycanın bir çox yerlərini işğal etdirdi və s.[4]

I Pyotrun ölümündən (1725) sonra onun Şərq haqqındakı mənfur vəsiyyətlərini I və II Yekaterina, I Nikolay, I Aleksandr kimi rus hökmdarları, V.Zubov, P.D.Sisianov, S.Bulkakov, A.Rimski-Korbakov, A.P.Yermalov, İ.F.Paskeviç, İ.V.Qudoviç, A.P.Tormosov kimi ermənipərəst rus generalları, V.Q.Mada-

------------------------

1. Heydər Əliyev. "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 18 dekabr, 1997.

2. F.Əsədov, S.Kərimova. Çarizmi Azərbaycana gətirənlər. Bakı, 1993, səh.3.

3. Yenə orada, səh.5-9.

4. Yenə orada, səh.6-9.

tov, İ.Lazaryev kimi erməni generalları yerinə yetirirdi. Bunlar Qafqazı, Azərbaycanı, həmçinin İran və Osmanlı Türkiyəsinin bir çox torpaqlarını işğal edərkən bu yerlərdə yaşayan müsəlmanların, xüsusən azərbaycanlıların başına müsibətlər gətirir, xristianları müdafiə edirdilər.

Çar Rusiyasının bu siyasətinin həyata keçirilməsində ermənilər, xüsusən erməni keşiş və tacirləri böyük rol oynayırdılar. Məsələn, erməni keşişi İosif Stepan Davıdov 1796-cı ildə Azərbaycana hücum edən general V.Zubovu Kızlarda (Qızılyarda) qarşılayıb Azərbaycanı işğal etmək planını hazırlamaq üçün onu Tiflisə dəvət etdi. Hətta o, V.Zubovun qılığına girib ona qiymətli hədiyyə verdi, nəticədə general onu özünə məsləhətçi götürdü. Bundan sonra general V.Zubovun işğal etdiyi yerlərdə azərbaycanlıların, xüsusən Azərbaycanın qabaqcıl adamlarının faciəli günləri başladı. Məsələn, Dərbəndin məşhur din xadimi Şeyxəli kimi el ağsaqqalları tutulub el-obasından uzaqlaşdırıldı.[1]

Göründüyü kimi, Azərbaycanın faciəli günlərinin tarixi, əsasən, XVIII əsrdən başlanmışdır. Lakin bu faciəli günlərin həddinin aşması XIX əsrin əvvəllərindən, xüsusən Rusiya-İran və Rusiya-Türkiyə müharibəsindən başlayır.

Rus imperiyası Qafqaz, İran və Türkiyəni ələ keçirmək üçün apardığı qanlı vuruşmalar dövründə, (1804-1829) bu yerlərdə olan Azərbaycan kəndləri dağıdıldı. Ermənilərin xəyanəti və ermənipərəst rus generallarının təzyiqi nəticəsində bu kəndlərin sakinləri öz doğma yurd-yuvalarını tərk etmişlər.

Türk dünyasına, o cümlədən azərbaycanlılara düşmən kəsilən bu çar generalları İran və Türkiyədəki erməniləri köçürüb Qafqaza, əsasən, Azərbaycana gətirirdilər. Xəyanətkar, çörəkitirən olduqlarına görə bir çox dövlətlərdən qovulub İran və Türkiyədə sığınacaq tapan erməniləri rus generalları Azərbaycanın ən yaxşı yerlərində, o cümlədən ən qədim türk-oğuz məskəni olan Ermənistan ərazisində məskunlaşdırır və onlar üçün gələcəkdə bir dövlət yaratmaq planını pillə-pillə həyata keçirirdilər.

N.İ.Şavrov yazır: "1826-1828-ci illər müharibəsindən sonra iki ildə – 1828-ci ildən 1830-cu illərədək Zaqafqaziyaya 40 min İran ermənisi, 84.600 Türkiyə ermənisi köçürülmüşdür və onlar erməni millətinin cüzi olduğu Yelizavetpolun (Gəncənin) və İrəvan quberniyasının ən yaxşı torpaqlarında yerləşdirilmişlər... Köçkünlərin ən çoxu ermənilərdir. İndi Zaqafqaziyada yaşayan 1 mln. 300 min nəfərdən 1 milyonu diyarın yerli əhalisi deyil, gəlmədir".[2]

ABŞ professoru yazır ki, 1828-1854-cü illərdə ruslar Şərqi Anadoluya iki dəfə hücum etmiş və bu hücumların hər ikisində orada yaşayan ermənilər rusların tərəfini saxlamışlar. Ruslar buranı tərk edəndə 100 min erməni tərəfdarlarını da özləri ilə Qafqaza gətirmiş, onları qovulmuş müsəlmanların evlərində yerləşdirmişlər. "...biz, dəqiq bilirik ki, 1820-1920-ci illərədək təxminən 600 min erməni rus imperiyasının ərazisinə köçürülmüşdür. 2 milyon müsəlman isə

--------------------

1. Bax. Firudin Əsədov, Sevil Kərimova. Çarizmi Azərbaycana gətirənlər. Bakı, 1993, səh.3-140.

2. Шавров Н.И. "Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам". С-Петербург, 1911, стр.59-61.

Rusiyadan getmişdir. 1828-ci ilə kimi İrəvan quberniyasının əhalisinin 80 faizi müsəlmanlar olmuşdur."[1]

İran və Türkiyə ərazisindən ermənilərin Azərbaycana gətirilməsi işində rus generalları daha çox canfəşanlıq edirdi. Məsələn, ermənipərəst İ.F.Paskeviç bir ayın ərzində – 1828-ci ilin may ayında "İrandan Qarabağa 279 ailə, İrəvana isə 948 ailə köçürdü", çox az bir müddətdə "Türkiyədən Şimali Azərbaycana 14.000 erməni gətirdi".[2]

Maraq doğuran cəhət odur ki, İran və Türkiyədən köçürülən ermənilərin əksəriyyəti İrəvan quberniyası və Dağlıq Qarabağda yerləşdirilirdi. Hətta general İ.F.Paskeviç İrəvanda köçürmə komitəsi yaratmış və bu komitə azərbaycanlılara düşmən kimi baxan V.O.Behbudovu başqan təyin etmişdi ki, bu çar generalı işi hər yerdə ermənilərin xeyrinə həll edirdi. "V.O.Bebudov... 1828-ci ildə İrandan köçürülən 10 min nəfər ermənini istədiyi yerdə məskunlaşdırdı".[3]

Faktlardan göründüyü kimi, "əhalisinin 95 faizi azərbaycanlı" olan[4] İrəvan quberniyasını ermənilər üçün dayaq nöqtəsi etmək, Dağlıq Qarabağda isə gələcəkdə onlar üçün başqa bir qurum yaratmaq fikrini rus imperiyası 2 əsr bundan əvvəl planlaşdırmışdı. Bu planları pillə-pillə həyata keçirərkən erməni keşişləri rus generallarının yaxın köməkçisi olmuşdur. Erməni keşişi İosif Stepan Davidovun general V.Zubovun, keşiş Nerses, Stefan və Sərgisin general İ.F.Paskeviçin, keşiş Sərgis, Yeğiş, Arakel və Karapetin general B.Q.Madatovun yaxın məsləhətçisi olması buna canlı sübutdur.[5]

Erməni dilini mükəmməl bilən, erməni tarixinə dərindən bələd olan tarixçi, jurnalist İ.Məmmədov və S.Əsədovun apardıqları araşdırmalar da göstərir ki, indiki Ermənistan ərazisində yaşayan erməni əhalisi buraya, əsasən, 1828-1830 və 1915-1918-ci illərdə Türkiyə və İrandan gətirilmişlər.[6] Hətta tarixi həqiqətlərə başqa don geyindirib məsələni ermənilərin xeyrinə həll etməyə çalışan erməni alimləri də yuxarıda göstərilmiş faktdan qaça bilmirlər. 1986-cı ildə Yerevan Universitetinin çapdan buraxdığı "Ermənistan və ətraf rayonların toponimlər lüğəti"ndə erməni kəndləri və bunların əhalisi haqqında məlumat verilərkən etiraf olunur ki, erməni kəndlərinin 70%-dən çoxunun "əvvəlki sakinləri 1828-1829-cu illərdə Türkiyə və İrandan gəlmiş mühacirlərdir".[7]

Milliyyətcə erməni olan Z.Korkodyan 1932-ci ildə erməni dilində yazdığı "Sovet Ermənistanının əhalisi son yüzillikdə" (1831-1931) adlı əsərində etiraf etməli olur ki, ermənilərin ən çox məskunlaşdığı İrəvan, Kümrü, Zəngibasar, Yeni Bəyazid kimi[8] qəzalarda olan kəndlərin 85%-də azərbaycanlılar yaşayır.

-------------------

1. "Azərbaycan" qəzeti, №1, 4 yanvar, 1992.
2. Firudin Əsədov, Sevil Kərimova. Çarizmi Azərbaycana gətirənlər. Bakı, 1993, səh.34-35
3. Yenə orada. səh.47.
4. Yenə orada, səh.34.
5. Bax: Yenə orada, səh.10, 33-34, 41.
6. Bax: İ.Məmmədov, S.Əsədov. Ermənistan azərbaycanlıları və onların acı taleyi. Bakı, 1992, səh.22
7. Yenə orada, səh.22.
8. Bax: İ.Məmmədov, S.Əsədov. Göstərilmiş əsər, səh.22, 71; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932.

Ermənilərin indiki Ermənistan ərazisinə sonradan gəlmələri başqa bir erməni tədqiqatçısının məlumatında daha aydın şəkildə təsdiq edilir.

Erməni tarixçisi Şahxatuni Hovhanes 1842-ci ildə "Eçmiadzin vilayətinin və Araratın 5 qəzasının tarixi" adlı 2 cildlik əsər yazır və burada o, 4 əsr müddətində İrəvan xanlığını idarə edən adamların siyahısını yana-yana tərtib edir.

Siyahıdan məlum olur ki, 417 il müddətində İrəvan xanlığını azərbaycanlılar idarə etmişlər. Məsələnin daha aydın olması üçün siyahıya diqqət yetirək:

1. Əmir Səəd – XIV əsrin axırı – 1410
2. Pir Hüseyn – Əmir Səədin oğlu – 1410-cu ildən
3. Pir Yaqub (Pir Hüseynin oğlu) – 1420-ci il
4. Əbdül – Pir Hüseynin oğlu – 1430-cu illərdə
5. Uzun Həsən – 1471
6. Yaqub bəy – Cahan şahın əmri ilə 1440-cı il
7. Həsən Əli Qaraqoyunlu – 1460-cı illərdən
8. Həsənbəy, Bayandurud nəvəsi– 1475
9. Dib Sultan Rumlı – 1515-ci ildən
10. Hüseyncan Sultan – 1550-ci ildən
11. Şahqulu Sultan ustaclı – 1550-75
12. Lala paşa "Qara Mustafa" adlı Sultan Murad dövrü – 1577
13. Mahmudxan "Toxmaq". Xudavənd şah dövrü – 1576 - 83-cü illər
14. Fərhad paşa (Sultan Murad dövrü) – 1583-cü il
15. Məhəmməd Şərif paşa – 1604-cü illədək
16. Əmirgunə Xan Qacar (şah Abbas dövrü) – 1605-25
17. Təhmazqulu (Əmirgünənin oğlu) – 1635
18. Murtuza paşa (Sultan Murad bəy dövrü) – 1635
19. Kəlbəli xan – 1636-39
20. Məmmədxan "Çağata Kötük" – 1639-48
21. Xosrov xan – 1648-52
22. Məhəmmədqulu xan – (Lala bəyin oğlu) – 1652-56
23. Nəcəfqulu xan – 1656-1663
24. Abbasqulu xan (Əmirgünənin oğlu) – 1663-66
25. Səfiqulu xan – 1666-74
26. Sarıxan bəy – İki il əvəz edir – 1674-75
27. Səfiqulu xan – (Təbrizli Rüstəm xanın oğlu) – 1675-79
28. Zal xan – 1679-88
29. Murtuzqulu – (Naxçıvanlı Məhəmmədrza xanın oğlu) – 1688-91
30. Məmmədqulu xan – 1691-94
31. Zöhrab xan – 1691
32. Fərzəli xan – Əmirgünənin nəvəsi – Sultan Əhməd dövrü – 1694-17000
33. Zöhrab xan – 1700-05, Əbdül Məhəmmədxan – 1705-09
34. Mehrəli xan – 1709-19
35. Allahqulu xan – 1719-25
36. Rəcəb paşa – 1728-34

37. İbrahim və Mustafa paşalar – 1728-34
38. Əli paşa – 1734
39. Hacı Hüseyn paşa – Əli paşanın müavini – 1734
40. Məmmədqulu xan – 1735-36
41. Pirməhəmməd xan – 1736
42. Xəlilxan – 1752-55
43. Həsənəli xan Qacar – 1755-62
44. Hüseynəli xan (Həsənəli xanın qardaşı) – 1762-83
45. Qulaməli xan – (Hüseynəli xanın oğlu) – 1783-84
46. Məhəmməd xan (Qulaməli xanın qardaşı) – 1784-1805
47. Mehdiqulu xan – 1805-06
48. Məhəmməd xan Marağalı – 1806-07
49. Hüseyn xan Qacar qardaşı Həsən xanla – 1807-1827.[1]

Faktlardan göründüyü kimi, erməni tarixçisi Hovhanes Şahxatuni də 1842-ci ildə çap olunan əsərində bunu etiraf etməyə məcbur olmuşdur ki, İrəvan xanlığını həmişə azərbaycanlılar idarə etmişdir. Digər tarixi faktlar da göstərir ki, İrəvan xanlığında əvvəllər erməni olmamış və burada erməni yaşamamışdır.

Dərələyəz mahalında doğulub 150 il ömür sürən Qalaser kənd sakini Əli kişi (Əli Bayram oğlu), 120 ildən çox yaşayan Qovuşuq kənd sakini Fatan qarı, 110 ildən artıq ömür sürən Qovuşuqlu Ballı qarı, ərəb, fars, rus və erməni dillərini bilən, Şərq tarixinə dərindən bələd olan, canlı ensiklopediya və el ağsaqqalı, 93 il ömür sürən İbrahim Mirzəli oğlu və digər uzun ömürlülər danışırdılar ki, İrəvan xanlığında və İrəvan şəhərində əvvəllər erməni olmamışdır. İrəvan şəhərində tikinti və digər işlər görmək üçün buraya az bir miqdarda erməni sənətkarları gətirilmişdir ki, bunlar "Qara Bazar" deyilən yerin yanındakı bir küçədə ("Çarşı"da) balaca daxmalarda gecələyərmişlər. İstirahət günləri xan, bəy və sultanların ailələri küçəyə çıxanda və yağışlı günlərdə onları şəhərə çıxmağa qoymazdılar. Deməli, bu yerlər yalnız türklərin məskəni olmuşdur.

İndi də bir əsr müddətində – 1805-1905-ci illər arasında rus çarizminin, rus generallarının ermənilərə yaxından köməyi sayəsində Dərələyəz mahalında 150-dən artıq kənddə yaşayan azərbaycanlıların öz doğma yurdlarından qovulması, azərbaycanlı kəndlərində ermənilərin yerləşdirilməsi haqqında qısa bir məlumat verək.

Çar Rusiyasının 1833, 1885, 1886-1893-cü illərdə nəşr etdiyi statistik məlumatlardan və Azərbaycan haqqında digər tarixi mənbələrdən aydın olur ki, 1804-1828-ci illər arasında Rusiya-İran və Rusiya-Türkiyə müharibələri dövründə Dərələyəz mahalında yaşayan azərbaycanlılar rus generallarının təzyiqi, erməni keşişlərinin və ermənilərin hiyləgərliyi, xəyanəti nəticəsində öz ev-eşiklərindən didərgin düşmüş və qırılmış, kəndləri xaraba qalmışdır. Onlar canlarını götürüb Türkiyəyə, İrana, Cənubi Azərbaycana və dünyanın digər ölkələrinə qaçmağa məcbur olmuşlar.

------------------------

1. Bax: Erməni Sovet ensiklopediyası. c., 3, səh. 571; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh.18-20.

1833-cü ildə Naxçıvan xanlığı haqqında verilmiş statistik məlumatda göstərilir ki, Dərələyəz mahalındakı 24 azərbaycanlı kənd (Canı, Qaraqaya, Xırdavəng, Yengicə, Qalaser, Çanaxçı, Komur, Qozluca, Baxçacıq, Çivə, Abana, Keçut, Quşçubilək, Qalalar, Cəfərli...) tamamilə xaraba qalmış və bu kəndlərdə bir nəfər də olsun məskun qalmamışdır. Digər kəndlərdə isə çox az adam qalıb yaşamaqdadır. Köçüb başqa yerə gedənlər isə hələ öz yerlərinə tamamilə qayıtmamışlar.[1]

Bu statistik məlumatdan aydın olur ki, 1833-cü ildə Dərələyəzdə cəmi 2 kənddə Xaçik (Xaçın) və Arpa kəndlərində əksərən ermənilər məskunlaşdırılmışlar. 3 kənddə – Qoytul, Azadek, Martiros//Mərdulus kəndlərində isə azərbaycanlılarla ermənilər qarışıq şəkildə yaşamışlar.[2] Ermənilərin bu 5 kənddə yaşaması, əsasən, 1828-ci ildən sonra baş vermişdir.

Arpa və Xaçın kəndlərində ermənilərin məskunlaşmasına gəlincə, adından da göründüyü kimi bu 2 kənd də azərbaycanlıların olmuşdur. Bu kəndlər Naxçıvana, Şərura gedən yolların üstündə yerləşdiyindən, strateji cəhətdən çox əhəmiyyətli olduğundan hökumət erməniləri əvvəlcə bu kəndlərdə yerləşdirmiş və azərbaycanlıları bu kəndlərdən çıxarmışlar.

Həmin statistik məlumatda yazılır ki, Xaçik (Xaçın) kəndi Yaycı kəndində olan sultanların və bəylərin (Hüseynəli Sultan, İbrahim Sultan, Dostəli bəy, Kozır bəyin), Arpa kəndi Hüseynəli Sultanın, Azadek kəndi isə İrzaqulu xanın torpağı, Mərdulus və Qoytul isə dövlətin ixtiyarında olan yer olmuşdur.[3]

1885-ci ilə aid statistik məlumat başqa məqsəd üçün yazıldığından buradakı kəndlərin hansında azərbaycanlı, hansında erməni yaşaması və bunların nisbəti göstərilmişdir. Bu məlumatdan aydın olur ki, Dərələyəz həmin vaxtlarda xarabazara çevrilmişdir. Bu məlumatın axırında azərbaycanlı və ermənilərə aid verilmiş ümumi rəqəmlərdən aydın olur ki, 1833-cü ilə nisbətən burada ermənilərin sayı xeyli artmışdır.[4]

1886-cı ilin məlumatı əsasında çar hökumətinin 1893-cü ildə çap etdirdiyi statistik hesabatda Dərələyəz mahalında yaşayan azərbaycanlıların acı taleyini daha aydın şəkildə görmək olur. Çar Rusiyasının 1833-1886-cı illərdəki hesabatlarını müqayisə etdikdə məlum olur ki, ermənilərin Dərələyəz mahalına gətirilib yerləşdirilməsi mütəmadi olaraq davam etmişdir.

Bu məsələnin şərhinə başlamazdan əvvəl onu qeyd etməliyəm ki, 1833-cü il hesabatında Dərələyəz ərazisinə daxil edilmiş kəndlərin bir hissəsi-Dərələyəzin qərb hissəsində yerləşən Axura, Havuş, Həmzəli-Dizə, Dəvəölən, Danzik, Aşağı Danzik, Yaycı, Cağazir, Qaraquş-Billava Şərur mahalının, Çanaxçı və digər bəzi kəndlər Vedinin (Dəvəlinin) ərazisinə daxil edilmişdir. Ona görə də biz bu kəndlər və burada yaşayan əhali haqqında söhbət açmaya-

-----------------------

1. Статистическое описание Нахичеванский провинции. СПБ, 1933, стр.160-176.

2. Yenə orada, səh.160-176.

3. Bax: Статистическое описание Нахичеванский провинции. СПБ, 1833, стр.62-63, 70-71.

4. Материалы для изучения экономического быта государственных крестян Закавказского края. Тифлис, 1885, стр.702-708.

cağıq yalnız 1886-cı ildə Dərələyəz mahalına aid edilmiş kəndlərdəki vəziyyət haqqında danışacağıq.

Əgər 1833-cü ildə Dərələyəz mahalının yalnız 2 kəndində (Arpa, Xaçik) ermənilər məskunlaşdırılmış və 3 kəndində (Qoytul, Azadeq, Martiros) ermənilərlə azərbaycanlılar birgə yaşamağa məcbur edilmişdilərsə, 1886-cı ildə bu 2 rəqəm 23-ə çatdırılmışdır. Azərbaycanlılar ermənilərlə birgə yaşadıqları kəndlərdən çıxarılmış və ermənilər zorla azərbaycanlılar yaşadığı kəndlərə yerləşdirilmişlər. Bu sənəddə 99 azərbaycanlı kəndindən 23-də (Kələkulux, Tərətum, Həsənkənd, Erdəpin, Quşçu, Əyər, Baş kənd, Keşişkənd (Keşkəndi), Qoytul, Məlişkə, Orta kənd, Yengicə, Knişik (Keneşik), Xaçik, Aynəzir, Arpa, Rind, Yelpin, Azadek, Martıros (Mərdulus) Paşalı, Por, Seylan kəndlərində) yalnız ermənilərin yaşadığı göstərilir. Halbuki bu kəndlərin hamısı azərbaycanlılara məxsus olmuş və onlar əsrlər boyu bu kəndlərdə yaşamış və sonralar öz doğma yuvalarından sıxışdırılıb çıxarılmışlar. Bu müddətdə azərbaycanlılara məxsus olan Herher, Kindivaz, Daşaltı kəndlərinə də erməniləri zorla doldurmuşlar ki, bu kəndlərdən də gələcəkdə azərbaycanlıları çıxarsınlar.

Əgər 1833-cü ildə Dərələyəzdəki erməni ailələrinin (tüstünün) sayı 142 idisə, 1886-cı ildə bu ailələrin sayı 10 dəfədən də çox artaraq 1486 olmuş, erməni əhalisinin sayı 13487 nəfərə çatmış və 1905-ci ilə qədər bu rəqəm daha da çoxalmışdır.

Faktlardan göründüyü kimi, çar Rusiyasının himayədarlığı sayəsində 1805-1905-ci illərdə ermənilər Dərələyəz mahalındakı azərbaycanlıları tədricən öz yurd-yuvalarından qovmuş və onlara qarşı genosid siyasəti yeritmişlər.

Cənab Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" verdiyi fərmanda deyilir: "1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi" [1]

## II MƏRHƏLƏ
## (1905-1907)

XIX əsrdə olduğu kimi, XX əsrdə də rus hökumətinin köməyi ilə ermənilər azərbaycanlıları öz ata-baba yurdundan qovmağa, çıxarmağa, qırmağa başladılar. Ümumi şəkildə desək azərbaycanlılara qarşı törədilən bu cinayətlərin hamısı, əsasən, 5 mərhələdə – 1805-1905, 1905-1918, 1918-1948, 1948-1953, 1953-1988-ci illərdə həyata keçirilmişdir.

1894-1896-cı ildə baş vermiş erməni-türk münaqişələrindən sonra erməni-

------------------------

1. Heydər Əliyev. "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanı. Bakı şəhəri, 26 mart, 1998.

lərlə azərbaycanlılar arasındakı ziddiyyətlər daha da kəskinləşdi. Çar Rusiyasından hər cür kömək alan ermənilər Bakıda, İrəvanda, Gəncədə, Naxçıvanda, Qarabağda, Zəngəzurda, Göyçədə, Dərələyəzdə, Qazaxda, Zəngibasarda, Gərnibasarda, Vedibasarda və başqa yerlərdə azərbaycanlılara qarşı soyqırımı planları həyata keçirməyə başladılar. Ermənilərin azərbaycanlılara qarşı törətdikləri bu qanlı cinayətlər 1905-1907-ci illərdə özünün zirvəsinə çatdı. Bu qanlı cinayətlər 1911-ci ildə tarixi faktlar və 245 məktub əsasında M.S.Ordubadi tərəfindən qələmə almış və 1991-ci ilə qədər oxunması qadağan edilən "Qanlı illər" əsərində öz əksini tapmışdır.[1]

1907-ci il avqustun 9-da Gəncə qubernatoru Peterburqa məlumat verərək yazırdı ki, zavallı azərbaycanlı kəndlərinin üzərinə təqribən 100 minlik ordu göndərilmişdir. "Türkiyədən olan qaçqınların və ancaq adam öldürməyə adət etmiş yerli başkəsənlərin, demək olar ki, hamısı bu orduya qoşulmuşdur".[2]

Erməni daşnakları Azərbaycan torpaqlarının ayrı-ayrı yerlərində kəndləri dağıdır, yandırır, əhalisini isə kütləvi şəkildə qırırdılar. Belə faktlardan bir neçəsini yada salaq.

1905-ci il iyun ayının 9-da erməni silahlı dəstələri Üçkilsə (Eçmiədzin//Üçmiədzin) qəzasının Təkəyə kəndinə hücum edərək silahsız kənd əhalisini dağlara qaçmağa məcbur edirlər. Kəndin ağsaqqalı və qazısı "Axund Məhəmməd Əli Mirzə Əbdül Hüseyn Qazızadənin böyük imarətinə od vurub iki yüz cild quran və müqəddəs kitabları yandırırlar", "quranları süngülərlə keçirib məşəl edirlər", kənddən çıxıb qaçan əhalini təqib edib qılıncdan keçirirlər.[3]

1906-cı il iyulun 29-da 5 min tüfəngli erməni Qafan rayonunun Karxana kəndinə hücum edib əhalini kənddən qovmuş, qaçmaqda çətinlik çəkən hamilə və körpəli qadınları uşaqlarla birlikdə vəhşicəsinə qətlə yetirmiş, körpəsinin başını ananın gözü qabağında kəsmişlər.[4]

1906-cı il avqustun əvvəlində "ermənilər 750 ailədən, 3500 nəfərdən ibarət əhalisi olan Qatar kəndini dağıdıb" yandırmış, bundan sonra "Oxçu çayı sahilində yerləşən azərbaycanlı kəndlərini viran edərək Zəngəzur qəzasının axırı hesab edilən Oxçu, Şabadin, Aralıq, Pirdavdan və Atqın kəndlərini qarət etmiş" və bu adı çəkilən kəndlərin əhalisinə min bir işgəncə vermişlər.[5]

1906-cı il avqust ayının 10-18-i arasında azərbaycanlı kəndi olan Saqqarsuda ermənilər elə bir vəhşilik törətmişlər ki, bəşəriyyət tarixi bəlkə də belə bir vəhşiliyin şahidi olmamışdır. Kənd əhalisini ayrı-ayrılıqda qırmaq bir yana, qaçıb daşların arasında gizlənən 62 nəfər qadın və körpə uşaqları doğram-doğram edib böyük bir daş yarığının arasına tökmüşlər. Ölənlərin qanından göl

------------------------

1. M.S.Ordubadi. "Qanlı illər". Bakı, 1911.
2. İ.Məmmədov, S.Əsədov. Ermənistan azərbaycanlıları və onların acı taleyi. Bakı, 1992, səh.25.
3. Ətraflı məlumat almaq üçün bax: İ.Məmmədov, S.Əsədov. Ermənistan azərbaycanlıları və onların acı taleyi. Bakı, 1992, səh.25-26.
4. Yenə orada, səh.26.
5. Yenə orada, səh.27-30.

yaranmışdır.[1] Məşhur dövlət xadimi cənab Heydər Əliyev bu məsələlərlə bağlı deyir:

"...Erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə geniş miqyaslı qanlı aksiyalar həyata keçirdilər".[2]

1905-1907-ci illərdə ermənilər Dərələyəz mahalında da qanlı cinayətlər törətmişlər. Qısaca olaraq onu deyim ki, Dərələyəzdə 100-dən artıq kəndin əksəriyyəti dağıdılıb xarabazara çevrilmiş bu kəndlərdə yaşayan azərbaycanlılar işgəncələrlə öldürülmüşlər. Ermənilər əhalini vahiməyə salmaq üçün birinci növbədə azərbaycanlılar yaşadığı böyük kəndləri yandırır, başçıları, el ağsaqqallarını, cəngavərləri hiylə ilə ələ keçirib xalqın qarşısında işgəncə ilə öldürürdülər. Məsələn, 1905-ci ildə ermənilər çoxlu qüvvə və silah toplayıb Dərələyəzdə qəflətən 100-dən çox evi, 1000-dən artıq əhalisi olan Hors kəndinə hücum edirlər. Neçə günlük qanlı döyüşlərdən sonra kənddəki bütün evlərə od vurub yandırırlar. Yaşlı adamlar danışırdı ki, Hors kəndindən qalxan alov ətraf kəndlərdən görünürdü. Ermənilər pusquda durub kənd əhalisinin köməyinə gələnləri də qətlə yetirirdilər. Məsələn, Hosdun kəndinin sakini Məşədməmmədxan kişi (mənim anamın babası, anamın anasının atası) öz atlı dəstəsi ilə Hors kəndində yaşayan qohumlarının köməyinə gedir. Hors kəndi ilə Sallı kəndi arasında Əriklik düzü deyilən yerdə pusquda duran ermənilərlə üz-üzə gəlir. Xeyli vuruşmadan sonra hiylə işlədib Məşədməmmədxan kişini əsir alır və belinə qaynar samovar bağlayıb işgəncə ilə öldürürlər. 1905-ci ildəki erməni-müsəlman davasında böyük şücaətlər göstərən Gülüdüz kənd sakini ağsaqqal Abbas bəyin (anamın yaxın qohumu), Göyçəli Aşıq Nəcəfin də belinə samovar bağlayıb işgəncə ilə öldürmüşlər. Vedinin Şahablı kənd sakini, məşhur aşıq Cəlili (Şahablı Cəlili) daha dəhşətlə öldürmüşlər. Əvvəlcə belinə samovar bağlayıb oxumağa məcbur etmiş, sonra da samovar qarışıq kərmə qalağına hörüb yandırmışlar.[1]

## III MƏRHƏLƏ
## (1917-1920)

Rus çarizminin yaxından köməyi sayəsində erməni millətçiləri "Böyük Ermənistan" yaratmaq məqsədilə 1905-1907-ci illərdən sonra da azərbaycanlılara qarşı soyqırımını davam etdirdilər. Bu soyqırım 1917-1920-ci illərdə daha yüksək mərhələyə çatdı.

Azərbaycanın bütün bölgələrində, o cümlədən Dərələyəzdə erməni daşnakları bütün şəhər və kəndləri vəhşicəsinə dağıdır, yandırır, uşaqları, qadın-

---------------------

1. Ətraflı məlumat almaq üçün bax: İ.Məmmədov, S.Əsədov. Ermənistan azərbaycanlıları və onların acı taleyi. Bakı, 1992, səh.25-26. səh.28-30.

2. Heydər Əliyev. "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 26 mart 1998.

3. Bu hadisəni mənə Dərələyəzin Qovuşuq kənd sakini atam İbrahim Mirzəli oğlu (84 yaşında olanda) və Dərələyəzin Aysəsin kəndindən köçüb Goranboyun Xoylu kəndində yaşayan Şamo kişi (83 yaşında olanda) 1972-ci ildə Bakıda hüzür yerində danışıblar.

ları, qocaları doğrayıb quyulara doldurur, anaların gözləri qarşısında körpələri nizəyə taxıb əzabla öldürürlər. Məsələnin daha aydın olması üçün bir neçə faktı nəzərdən keçirək.

V.İ.Lenin yazırdı: "...Daşnaklar Türkiyəyə qarşı təcavüzkar mövqe tutaraq, Kiçik Asiyanın təqribən yarısı daxil olmaqla "Böyük Ermənitstan" yaratmağa can atırdılar."[1] Bununla belə, bolşeviklərin köməyi ilə ermənilər 1918-ci ildə birinci dəfə olaraq istiqlaliyyət əldə etdi, Azərbaycan torpaqlarının hesabına kiçik bir ərazidə özünə respublika yaratdı. Lakin işğalçı siyasətdən yenə də əl çəkmədilər.

Daşnaklar 1919-cu ilədək 200.000, 1920-ci ildə 60.000 azərbaycanlını doğma yurdlarından qovdular.[2] 1922-ci ilə qədər 787.501 nəfər müsəlman əhalisi daşnak siyasətinin qurbanı oldu. Əhalinin 72.3%-ni azərbaycanlılar təşkil edən Şərur Dərələyəz, 90% -nitəşkil edən Vedibasar əhalisi və digər bölgələrin əhalisi ağır işgəncələrə məruz qaldı.[3]

1918-1920-ci illərdə Ermənistanın indiki ərazisində yaşayan azərbaycanlıların 565 min nəfəri ermənilər tərəfindən qırıldı və doğma yurdlarından qovuldu.

Ermənilərin "Aşxadavor" (əməkçi) qəzeti 1919-cu ildə yazırdı ki, "İrəvan quberniyasında 88 kənd dağıdılmış, 1920 ev yandırılmış, 131.970 kişi öldürülmüşdür."[4]

Müsəlman əhalisi müvəkkillərindən biri olan İsmayıl Sultanov Gəncə qəzasının naçalnikinə yazırdı: "Bu il aprelin 13-dən başlayaraq Ararat respublikasının qoşunları Göyçə rayonunun, Yeni Bəyazid qəzasının dinc müsəlman əhalisinə qarşı hücuma keçmişdir: ...hazırda 60.000 əhalisi olan 22 kənd dağıdılmış, yandırılmış, əhalisi isə qırılmışdır... Erməni qoşunları əllərinə düşən müsəlmanları heç vəchlə sağ buraxmır, ağlagəlməz işgəncələrlə onlara zülm edirlər. Bəzi qadınları və yeniyetmə qızları çıxmaq şərtilə uşaqları, qocaları və gəncləri öldürürlər... Qalan 17 kəndin sakinləri isə Cavanşir qəzasının dağlıq hissəsinə qaçır. ...qarın altında qalıb kütləvi şəkildə məhv olurlar... Göyçə rayonunda müsəlman qalmayıb. Hal-hazırda Yeni Bəyazid qəzasının 84 müsəlman kəndi dağıdılmışdır."[5]

Yeni Bəyaziddən olan Vahram adlı bir daşnak erməni öyünərək deyir: "Mən Basarkeçərdə... heç nəyi nəzərə almadan türk əhalisini qırdım. Lakin bəzən gülləyə hayıfım gəlirdi. Bu itlərə qarşı ən yaxşı üsul odur ki, döyüşdən sonra salamat qalanların hamısını su quyusuna doldurub, üstündən ağır daşları tökəsən ki, onlardan əsər-əlamət qalmasın... Mən elə də etdim. Bütün kişiləri, qadınları, uşaqları öldürüb doldurdum quyuya və üstünü də daşla doldurdum".[6]

----------------------

1. V.İ.Lenin. ƏTK, c. 54, səh.803-804.

2. Ətraflı məlumat almaq üçün bax: İ.Məmmədov, S.Əsədov. Ermənistan azərbaycanlıları və onların acı taleyi. Bakı, 1992, səh.33-34.

3. İ.Məmmədov, S.Əsədov. Ermənistan azərbaycanlıları və onların acı taleyi. Bakı, 1992, s.33.

4. Yenə orada, səh.37.

5. "Azərbaycan" qəzeti, 17 may 1919-cu il.

6. Bax: Лалаян А.Л. Контрреволюционный "дашнакцутюн" и империалистическая война 1914-1918 гг. "Революционный Восток" №2-3 (36-37), М., 1936; Azərbaycan SSR EA Xəbərləri №4, 1989, s.50.

Rus imperiyasının köməyi sayəsində Ermənistanın daşnak hökuməti 30 aylıq hakimiyyəti dövründə, yəni 1918-1920-ci illərdə Azərbaycan əhalisinin 60%-ni qırmışdır.[1]

Belə faktları artırmaq da olar. Arxiv sənədlərində göstərilir ki, erməni millətçiləri Sisyan mahalının bütün Azərbaycan kəndlərini yerlə yeksan etmiş və bunun nəticəsində 50.000 müsəlman qaçqını Cəbrayıl qəzasında sığınacaq tapmışdır.

Zəngəzur qəzasında 115 müsəlman kəndi dağıdılmış və bu kəndlərdə 3257 kişi, 2276 qadın, 2196 uşaq öldürülmüş, 1060 kişi, 794 qadın, 435 uşaq yaralanmışdır. Bütün qəza üzrə 10068 nəfər müsəlman əhalisi öldürülmüş və şikəst edilmişdir. Zəngəzur qəzasından 50.000-dən çox qaçqın Azərbaycanın kəndlərinə pənah gətirmişdir.[2]

1918-ci ilin mart ayınadək İrəvan quberniyasında azərbaycanlılara məxsus olan və "15155 təsərrüfatı təmsil edən 199" kənd, "1919-cu ilin son iki ayında isə İrəvan quberniyasının Eçmiadzin (Üçkilsə) və Sürməli qəzalarında 96 kənd, İrəvan qəzasında isə bütün kəndlər dağıdılmışdır."[3]

Erməni millətçilərinin azərbaycanlılara qarşı törətdiyi cinayətlərin tam aydın olması üçün bir neçə arxiv sənədini olduğu kimi veririk:

**"ВЫПИСКА"**

из дел канцелярии министерства внутренних дел насилиях, чинимых над мусульманским населением Карабаха и снежных с Ганджинской Губернией уездов Эриванской губернии, армянами и Войсками Армянской республики. (из дела № 80-1918 г., IV отд.)

"...3.Рапорт Зенгезурского Уездного Начальника за №3 от 12 сентября 1918 г. О разгроме армянами под начальством Андраника селении: Рут, Дарабас, Агаду, Вагаду и подожжения селении: Ариклы, Шюкюр, Меликлы, Пулкенд, Шаки, Кизилджик: Мусульманская часть Кара-Килисы, Ирлик, Пахлилу, Дарабас, Кюртляр, Хотанан, Сисиан и Забазадур, причем убито их неуспевших спастись мужчин, женшин и детей 500 душ. По словам пленного старика-армянина Андраник разгромил селения по просьбе местных (Зангазурских) армян.

4. Рапорт Ганджинского Уездного Началника от 12 сентября 1918 г. за №2565.

О разгроме армянами под предводительством полководца армянской Республики "Япона" Шаруро-Даралагезского мусульманского района и предупреждают мусульманское население очистить 9-и участок для беженцев - армян из Турции".[4]

"17. Рапорт Зенгезурского Уездного Начальника от 26 ноября 1918 г. за №655. О том, что армяне, покончив с мусульманами громадного Сисианского магала продолжают уничтожать мусульманские селения других участков?

---------------------

1. İ.Məmmədov, S.Əsədov. Ermənistan azərbaycanlıları və onların acı taleyi. Bakı, 1992, səh.41.
2. Yenə orada. səh.42-44.
3. Bax: Yenə orada. səh.44.
4. Azərbaycan SSR EA Xəbərləri, Tarix, fəlsəfə, hüquq, Bakı, 1989, №4, səh.85.

Армянские отряды Мигринского ушелья разгромили селения мусульман: Легаз-70 дым, Тей-75 дым, Мулк-30 дым, Гюль-10 дым, Банавша-Пуш-5 дым, Тагамир-25 дым, Вартапазур-100 дым, Вартапазур II-60 дым и вырезали из жителей 200 душ, по новым сведениям армяне напали на сел. Алиянлу. Там идет бой. Кроме того, армяне напали на мусульманские села в трех пунктах: I. В Аванспора, 2. в Даралинском обшестве и 3. в Раздорых".[1]

*"1919 г., д. № 65 IV отд."*

"19. Прошение жителей сел. Дашкенд Новобаязетского уезда Эриванской губернии. Мешади Касума Гаджи Кярим оглы и Беюк Али Гаджи Мирза Алекпер оглы на имя Министра Внутренных Дел от 23 января 1919 г.

О том, что Армянское Правительство в лице чиновника с войсками окончательно разорили жителей мусульманских деревень: I. Загалу: 2. Дашкенд, 3. Зод, 4. Гусейн-Кули-Агалу, 5. Сариам, 6. Беюк-Каракоюнлы, 7 .Кичик-Каракоюнлы, 8. Нижний Нарчамор, 9. Новый Кети, 10. Калабашн, 11. Камабелал, 12. Аг-Келса, 13. Зоранбил, 14. Ипак-Даг, 15. Султан-Али Кышлаги, 16. Огруджа, 17. Беюк-Мозра, 18. Бала-Мазра, 19. Кесаман, 20. Шишкая, 21. Садана Хач, 22. Кызыл-Ванк. Войска в каждом селении остаются 5-6 дней, по разорении выходят и входят в другое селение.

Сожгли окончательно следуюшие древни: 1.Оркюлу, 2.Алчалу, 3.Кямиплу, 4. Ярпузлу, 5. Канлу, 6. Кяркибаш, 7. Чахирлу, 8. Кефлу-Кюрды и 9. Беюк-Мазры".[2]

Faktlardan göründüyü kimi, erməni millətçiləri və Ermənistanın daşnak hökuməti azərbaycanlıların başına necə oyunlar açmışlar. Belə arxiv sənədləri minlərcədir. Hətta arxivlərdə öz əksini tapmayan elə faktlar vardır ki, ermənilərin yerə-göyə sığmayan vəhşiliyini əks etdirir. Onlardan Dərələyəz mahalında baş verən bir neçə hadisəni yada salaq.

1918-ci ilin yayında-taxıl biçimi dövründə erməni daşnakları Dərələyəzin bütün azərbaycanlı kəndlərinə hücum edir və azərbaycanlıları qırırlarmış. Bu mahalda olan Hors, Civə, Ardaraz, Qozulca, Almalı, Vartanıs, Amağu, Qurtqulaq, Zeytə, Heşin, Ərgəz, Qaravəng, Gendərə, Kotanlı, Alxanpəyəsi, Kaha, Bülbülölən, Sallı, Ağkənd, Şahgəldi qışlağı, Kənəli, Horbadıq, Hosdun, Ələyəz, Güneyvəng, Qovuşuq, Qalaser, Aysəsi, Canı, Canı-Qabaxlısı, Nəbilər, Gülüdüz, Qaraqaya, Qoduxvəng, Arınc, Ağça kənd, Göyərçin, Bulaxlar, Ceyranlı, İstisu, Qayalı, Qılınclı, Köşbək, Leyliqaçan, Məmərza qışlağı, Terp, Çaykənd, Axta, Kabut, Komur, Dərəkənd, Dəmirçilər, Çul, Mərəduz, Daylaxlı, Novlu, Qurbankəsilən, Şorca, Ağkilsə, Ciğatay, Qaralar, Axılı və bu kimi kəndləri türk-oğuz tayfalarının, abidələrinin adını, tarixini yaşadan digər azərbaycanlı kəndlərini ermənilər viran etdilər, əhalisinin əksər hissəsini işgəncə ilə öldürdülər. Sağ qalanlar isə elindən-obasından didərgin düşdü. Ermənilərlə azərbaycanlıların birgə yaşadığı kəndlərdə isə azərbaycanlıların faciəsi daha dəhşətli olmuşdur. Dərələyəz mahalında yaşayan azərbaycanlıların, demək olar ki, bütün var-dövləti ermənilərə qalmışdır.

--------------------

1.Azərbaycan SSR EA Xəbərləri, Tarix, fəlsəfə, hüquq, Bakı, 1989, №4, səh.85.

2.Yenə orada, səh.87.

Azərbaycanlılar o zaman ermənilərə nisbətən az silaha malik olsalar da, onlar ermənilərə qarşı çox mərdliklə, cəsarətlə vuruşmuşlar. Yaşlı adamlar danışırdılar ki, Andranikin dəstələrini Cul kəndinin 5 yüz cəngavəri dəfələrlə məğlubiyyətə uğratmışdır. Ələyəz, Hosdun, Hors, Cul, Amağu kəndlərində, Salsal qalası uğrundakı vuruşmalarda azərbaycanlılar daşnak dəstələrini dəfələrlə qaçmağa məcbur etmişlər.

1918-1920-ci illərdə ermənilərin Dərələyəz mahalında törətdiyi qanlı cinayətlərdən bir neçəsini qeyd etməklə kifayətlənəcəyəm.

Axta kəndindən olub, hazırda Şahbuz rayonunun Gomur kəndində yaşayan 111 yaşlı Murtuzayev Əbdüləzim Kamal oğlu 1919-cu ili belə xatırlayır: "Biz kənd camaatı erməni həmləsindən canımızı qurtarmaq üçün kənddən çıxıb Kəllə qayada, oba yerində qalırdıq. Bütün əhalini Dərələyəzdən çıxarmağı qarşısına məqsəd qoyan düşmən oba yerini də bizə çox gördü. Ermənilər kəndimizi oda qalayandan sonra üstümüzə gəldilər. Böyük qırğın oldu, 50-dən çox adam öldürüldü, onlarla adam yaralandı, əsir aparıldı. Cəlladlar çala qazıb 19 nəfəri sağ-sağ bir qəbirə dolduraraq üstünü torpaqladılar. Kənd camaatı ətraf kəndlərdən olan azərbaycanlılara qoşulub Naxçıvan, Pirkeş, Vayxır və Cəhriyə dağıldılar".[1]

Dərələyəzin Qayalı kəndində olub, 1918-ci il hadisələrinin iştirakçısı olan və hazırda Yevlax şəhərində yaşayan, 1903-cü il təvəllüdlü Bağırov Məhəmməd Sadıq oğlu deyir:

"Erməni quldurları kəndimizdə tayı-bərabəri olmayan vəhşiliklər törətdilər. Onlar kəndə girən kimi evlərə, ot tayalarına od vurdular, həyətlərdə itləri güllələdilər, mal-qaranı öldürdülər, malı-mülkü talan etdilər. Kənddə olan 5 sürü qoyunu, 2 sürü qaramalı sürüb apardılar. Çobanlardan Ellaz oğlu Abdullanı da güllələdilər.

Kənddəki qırğından xəbərsiz olan və dəyirmanda dən üyütməkdən gələn Çaykəndli Əli Molla Əlverdi oğlu və onun oğlu Məzahim ermənilər tərəfindən tutulur. Ermənilər yolda oğlunu atasının gözləri qarşısında işgəncə ilə öldürürlər. Özünü isə Herher kəndinə aparırlar. Burada onu bir erməni "axçisi" (qızı) daşnaklardan alaraq işgəncə verməyi öz boynuna götürür. Onu həyətdə ağaca bağlayaraq hər gün işgəncə verir... Qocaya işgəncə verdikdən sonra onu öldürür və sürüyüb dərəyə atdırır."[2]

1988-ci ildə Dərələyəzin Gamur kəndindən Naxçıvanın Gomur kəndinə qaçqın düşmüş 105 yaşlı Lala Xalıqverdi qızı deyir: "1918-ci ildə erməni cəlladları uzun hörüklü türk qadınlarının saçını dibindən qırxaraq atları hörükləmək üçün çatı, çidar hörürdülər, özlərini isə çılpaq soyundurub kəndbəkənd gəzdirirdilər".[3]

Dərələyəzin Köçbək kəndindən olan, 1905-ci ildən 1988-ci ilə qədər doğma kəndindən dörd dəfə qaçqın düşən, 1988-ci ildə Şuşaya pənah gətirən, ora-

------------------------

1. Vidadi İsayev. Haradan gəlir bu köç. Bakı, 1995, s.68.
2. Yenə orada, s.63.
3. Yenə orada, s.68.

dan da didərgin düşən, hazırda Bərdədə İnternat məktəbinin dar bir sinif otağında müvəqqəti sığınacaq tapan 105 yaşlı Ağalar Ağalarovun dediklərindən: "Ermənilər kəndimizi üç tərəfdən – Pənikin yalından, Qısır dağından və Ağ yarğan tərəfdən topa tutdular, sonra isə kəndə doldular. Məqsədləri bizi son nəfərimizə qədər qırmaq idi. Yaxşı ki, Bazarçayın malakanları qaçmaq üçün bizə yol verdilər. Kənd camaatından xeyli insan tələfatı oldu. Kənddə qalan say-seçmə oğulları – Xanları, Qafarı, daha 15 nəfəri dama qatıb diri-diri yandırdılar. Neçə qadının, qız uşağının namusuna sataşdılar, Lalə, Pərnisə adlı qadınları əsir apardılar. Ermənilər kənddə qalan 7 yaşlı Dilşad adlı qızı alovlanan ot tayasına atdılar. Yazıq uşaq çığıra-çığıra yanıb külə döndü".[1]

Dərələyəzin Cırlanlı kəndindən olan və hazırda Yevlax şəhərində yaşayan 92 yaşlı Şahbazov Bayram Ağaverdi oğlu 1919-cu ilin əvvəllərində gördüklərini belə nəql edir: "Ermənilər hücum edərkən kəndi tərk etməyən atam Ağaverdi Şahbaz oğlunu və Əmrah Vəli oğlunu əsir tutub Qutcubilək kəndinə gətirirlər. Atam yaxşı çarıq tikdiyindən onu öldürmürlər. O, erməni əsgərlərinə çarıq tikir. Bir gün ermənilər onu məcbur edirlər ki, həmkəndlisi Əmrahın dərisini soyub çarıq tiksin. Atam buna razılaşmır. Bundan hiddətlənən qansızlar Əmrahı diri-diri soyaraq öldürürlər. Atamı isə ağaca bağlayaraq sol ayağının altını xəncərlə doğrayır və dərisini soymağa başlayırlar. Bir azdan Arsen adlı erməni komandiri cəlladları dayandırır ki, bu bizə hələ lazımdır. Beləcə atama "rəhm" edirlər. Sonradan təsadüf nəticəsində atam əsirlikdən qaçır. O,ölənə qədər aldığı yaradan ayağını çəkərdi".[2]

Köçbəy kənd sakini ağbirçək ana Alıyeva Gülyetər Sayıl qızı deyir: "Biz şaxtalı payız günü ayaqyalın, başıaçıq, ac-susuz Üçtəpəni aşıb Minkəndə, Xındırıstana, Quzannıya, Abdal-Gülablıya, oradan da Bərdənin Hacallı kəndinə gələrək Nadir bəyin himayəsinə sığındıq. İki il yarım burada qaçqın həyatı keçirdikdən sonra yenidən Vətənə döndük".[3]

Dərələyəzin Amağu kənd sakini, 90 yaşlı Əsgər Dünyamalıyev 1978-ci ildə Mehdiabad sovxozunda yaşadığı zaman böyük bir məclisdə şahidi və iştirakçısı olduğu bir hadisəni danışaraq belə nəql etdi: "1918-ci ildə Andranikin və onun silahdaşları Yapon və Nijdenin dəstələri Dərələyəzdə strateji cəhətdən çox əhəmiyyətli yerdə, Şərurdan Dərələyəzə gələn dağ yolunun üstündəki yüksəklikdə yerləşən Qurdqulaq və Amağı kəndlərini ələ keçirmək istəyirdilər. Şiddətli döyüşlər başladı. Yapon və Nijdenin dəstələri xeyli itki verib geri çəkildilər. Bundan sonra onlar hiyləyə əl atdılar. Axşam çağı erməni tərəfdən bir dəstə adam əllərində ağ bayraq Qurdqulaqda qaravul çəkən azərbaycanlılara yaxınlaşır və kənardan qışqırarlar ki, Biz Amağu, Qurdqulaq və başqa kəndlərdən köməyə gələn camaatın ağsaqqalları ilə sülh məqsədilə danışıq aparmaq istəyirik. Azərbaycanlı gözətçilər aldanıb bunları yaxına buraxır. Ermənilər qəflətən hücum edib bunları tərkisilah edir və qabaqlarına qatıb əllərində

-----------------------

1. Vidadi İsayev. Haradan gəlir bu köç. Bakı, 1995, s.67.
2. Göstərilmiş əsər, s.65.
3. Göstərilmiş əsər, s.67.

ağ bayraq Amağu kəndinə yaxınlaşırlar. Camaat çaş-baş qalıb bunlara güllə atmırlar. Bunların arxasında silahlı erməni dəstələri kəndi mühasirəyə alır, qadınları, qocaları, uşaqları böyük bir evə, məscidə qatır, kişilərin isə əl-qolunu bağlayıb kəndin altındakı uçurumun başına toplayırlar. Cani dəstələri cəsarətli qadınların döşünü kəsir, qolu bağlı kişiləri isə bir-bir uçurumun başından itələyib aşağı salırlar.

Bu zaman Amağu kəndindən olan Tanrıverdi adlı bir kişi (hal-hazırda Sumqayıtdakı maşın bazarının sahibi, biznesmen Hacı Sabirin babası) cibində olan balaca bıçaqla əli bağlanan kəndiri kəsir və hiss etdirmədən kənd əhalisini itələyib uçurumdan aşağı salan iki erməniyə yaxınlaşır. Bir göz qırpımında bunları itələyib uçurumun başından aşağı salır və dərə aşağı qaçmağa başlayır. Bu hadisə zamanı ermənilər 300-dən artıq azərbaycanlını qayadan töküb öldürmüş, neçə-neçə qadının döşünü kəsmiş, körpə uşaqları nizəyə taxmış, başbilənləri işgəncə ilə məhv etmiş, qocaları, qadınları, uşaqları məscidə doldurub yandırmışlar. Tək-tək adamlar ölümün pəncəsindən qurtara bilmişdir.

1918-ci ilin yayında, taxıl biçimi vaxtı ermənilər Dərələyəzdəki bütün azərbaycanlı kəndlərinə qəflətən hücum edir, əhalini qırır, sağ qalanları isə kəndlərindən qovurdular.

Azərbaycanlılar yaşayan Horbadıq kəndində həmin qanlı faciələrin canlı şahidi olmuş, ölümün pəncəsindən özünü güclə qurtararaq, 90 ildən artıq ömür sürən Gülüdüzlü Hacıməhəmmədin qızı Tuyğun arvad camaata və mənə həmin hadisəni belə izah edirdi:[1]

1918-ci ilin yayında, taxıl biçimi dövründə ermənilər Horbadıq kəndinə hücum edib camaatın çoxunu qırdı. Bu zaman kənd camaatının az bir hissəsi qaçıb meşədə, çınqıllıqlarda gizləndi, bir hissəsi isə azərbaycanlılar yaşayan digər kəndlərə tərəf qaçdılar.

Tuyğun arvadın əri qlava Ağayar xəstə olduğu üçün qaça bilmir. Tuyğun isə ərini tək qoyub qaçmır, onun yanında qalır.Ermənilər gecə gəlib qlava Ağayarı tutur və ər-arvadı öldürmək üçün bir quyunun yanına gətirirlər. Tuyğun gizlədiyi bıçağı ərinə verir və yavaşca deyir ki, erməniləri vur qaçaq. Azərbaycan dilini bilən erməni bunu eşidir və Ağayarı dərhal tüfənglə vurur. Tuyğun arvad qaçıb kolun dibində gizlənir və sinə-sinə buradan uzaqlaşır. Ağayarı doğram-doğram edib quyuya tökürlər. Tuyğun arvadı isə tapa bilmirlər.

Yollara yaxşı bələd olan Tuyğun arvad buradan aralanır, ayaqyalın, başıaçıq gecə gəlib Ələyəz kəndinə çatır. Səhər qaranlığında ermənilərin səsini eşidib çınqıllıqda daşın oyuğuna girir.

1918-ci ildə Dərələyəz mahalında azərbaycanlıların sağ qalanları Azərbay-

-----------------------

1. Tuyğun arvad mənim anam Nahadın xalasının baldızı, ikinci anam (analığım) Zabitanın doğma bibisidir. Yaxın qohum olduğu üçün bizə tez-tez gələr və atam İbrahimlə bu hadisələrdən çox danışardılar. Mən isə erməni-müsəlman davasında Horbadıq kəndində olan dəhşətli hadisələri ondan dönə-dönə soruşardım. O burada baş vermiş qırğını dönə-dönə mənə danışmışdır. Tuyğun qarı 1976-cı ildə mənim doğulduğum Qovuşuq kəndində, qızı Dilbərin evində rəhmətə getdi.

canın ayrı-ayrı yerlərinə, həmçinin İrana və Türkiyəyə qaçıb getmiş və bunların böyük bir hissəsi Dərələyəzə bir daha qayıtmamış, getdikləri yerlərdə məskunlaşmışlar.

Erməni-müsəlman davasında Dərələyəz mahalından qaçanların əksəriyyəti isə Gəncəbasara, Qarabağa, Şərura, Naxçıvana, Laçına, Kəlbəcərə üz tutumuşlar.

Azərbaycan tarixinə və gələcək nəslə lazım olan belə bir faktı da çatdırmaq istəyirəm: qaçaqaçda Dərələyəzdən köçənlərin əksəriyyəti Xocalıda, Ağdamın Qərvənd, Ağdərənin Umudlu, Goranboyun Xoylu, Dəliməmmədli, Şadılı, Şəmkirin Qaracəmirli, Seyfəli, Dəlilər, Naxçıvanın Gültəpə, Şıxmahmud kəndlərində, Şahbuz rayonunda, Şərurun Danzik, Çağazur, Kərki, Künnüt, Dizə, Yaycı, Oğlanqala, Mahmudkənd, Cəlilkənd, Zeyvədudənkə, Sədərək, Siyaqud, Kosacan, Daşarx, Xanlıqlar, Püsyan, Yenkicə kəndlərində, Kəlbəcər, Laçın, Yevlax, Qazax, Tərtər, Xanlar, Tovuz, Gədəbəy, Daşkəsən rayonlarının bir çox kəndlərində, Dağlıq Qarabağın əksər kəndlərində, Gəncə şəhərində məskunlaşmışlar və bunların çox az bir hissəsi 1921-ci ildən sonra Dərələyəzə qayıtmışdır.

## IV MƏRHƏLƏ (1948-1953)

1920-ci ildə Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra ermənilər azərbaycanlılara qarşı taktikalarını dəyişdilər. Dostluq, qardaşlıq şüarı altında azərbaycanlıları gizli şəkildə, xəyanət yolu ilə məhv etməyə başladılar və edilən cinayətləri isə daşnakların, millətçilərin üstünə atdılar. Halbuki erməni daşnakları ilə yeni hakimiyyətə gələnlərin məsləki də, əqidəsi də eyni idi.

1921-ci ildən başlayaraq erməni millətçiləri müxtəlif taktiki gedişlərlə öz yurd-yuvalarına qayıtmış azərbaycanlıları – sözükeçən, ağsaqqal, erməni hiyləsindən baş çıxaran və cəngavər adamları sürgün etdirmiş, öldürtmüş, öz doğma yurdundan didərgin salmışlar.

1930-cu il sentyabrın 9-da Ermənistan hökuməti Ermənistanın yeni inzibati ərazi bölgüsü haqqında qərar verir. Bu qərarın verilməsində əsas məqsəd azərbaycanlı kəndlərini bir-birindən ayrı salmaq, ermənilərin məskunlaşdığı əraziləri böyütmək, bir neçə Azərbaycan kəndini köçürüb bir kənddə birləşdirmək və bununla da Ermənistan respublikasında olan azərbaycanlı kəndlərinin sayını maksimum dərəcədə azaltmaq idi. Belə təzyiqlərin nəticəsində azərbaycanlıların tanınan, sayılan adamları İrana, Türkiyəyə və Azərbaycana köçməyə, qaçmağa məcbur olmuşlar.

1935-ci il yanvarın 3-də Ermənistan hökuməti azərbaycanlılara məxsus yer-yurd adlarının kütləvi şəkildə dəyişdirilməsi haqqında qərar vermiş, bu qərarı həyata keçirərək yüzlərlə türk-oğuz tayfalarına, Azərbaycan xalqına məxsus adları dəyişdirmiş və tarixi saxtalaşdırmışlar.

1930-1937-ci il repressiyalarında Dərələyəzdəki adlı-sanlı ağsaqqal, ermənilərlə mübarizə aparmağı bacaran adamların hamısını tutub Sibirə sürgün etdilər və bundan sonra arxayın şəkildə azərbaycanlılara qarşı genosid siyasət-

lərini yerinə yetirməyə başladılar. Qovuşuq kəndindən Mirzəlioğlu İbrahim, Əsgərov Hümmət, Gülüdüz kəndindən Calaloğlu Firudin və başqalarının sürgün edilmələri buna misal ola bilər.

"1943-cü ildə üç dövlətin Tehran konfransında Sovet-İran münasibətləri müzakirə edilərkən erməni diasporu əlverişli momentdən istifadə edərək SSRİ xarici işlər naziri V.Molotova müraciət edib xahiş etmişdir ki, İranda yaşayan ermənilərin SSRİ-yə köçməsinə icazə versinlər. Molotov elə oradaca İ.Stalinlə danışdıqdan sonra onların köçürülməsinə razılıq vermişdir. Q.Harutyunov bu fürsətdən istifadə edərək xaricdəki ermənilərin Ermənistana köçürülməsinə və azərbaycanlıların Ermənistandan deportasiya edilməsi barədə qərar verilməsinə nail olur".[1]

1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti qərar verir ki, Ermənistan ərazisində yaşayan azərbaycanlılar Kür-Araz ovalığına köçürülsün. Bu qərar azərbaycanlılar üçün açıq repressiya idi. Ermənilərin əsas məqsədi qədim türk-oğuz yurdu olan Ermənistan ərazisindən bütün azərbaycanlıları təmizləmək, bunların yaşayış evlərini, ata-baba torpaqlarını xaricdən gətirilmiş ermənilərə vermək, bu yerdə ermənilərin sayını artırmaq, yaramaz əməlləri nəticəsində dünyanın müxtəlif guşələrinə dağıdılmış erməniləri bir yerə yığmaq, mono-Ermənistan dövləti yaratmaq idi.

1948-1953-cü illərdə Ermənistan hökuməti 150 mindən artıq azərbaycanlını zorla yük vaqonlarına mindirib respublikadan köçürdü.

Dərələyəzdə – dəniz səviyyəsindən çox-çox yüksəklikdə, uca dağların füsünkar qoynunda yaşayan azərbaycanlıların əksəriyyətini Salyan, Saatlı, Yevlax kimi isti rayonlarda məskunlaşmağa məcbur etdilər ki, bunların çoxu iqlimə uyğunlaşmadığı üçün qırıldılar.

Azərbaycan Respublikasının keçmiş prezidenti möhtərəm Heydər Əliyev deportasiya haqqındakı fərmanında deyir:

"SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi sürətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar".[2]

Dərələyəzdən köçürülən azərbaycanlıların müəyyən bir hissəsi isə qohum-qardaşlarının, qeyrətli adamların köməyi ilə Tərtər, Bərdə, Ağdam, Goranboy,

------------------------

1. İ.Məmmədov, S.Əsədov. Ermənistan azərbaycanlıları və onların acı taleyi. Bakı, 1992, səh.48.

2. Heydər Əliyev. "1948-1953-cü illərdə Azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 18 dekabr 1997.

Gəncə, Qax, Şəmkir, Şərur, Babək, Şahbuz rayonlarında, Xocalıda və s. bu kimi yerlərdə məskunlaşmışlar. Mən özüm bütün bunların canlı şahidiyəm və irəlidə bu məsələlərdən ətraflı danışacağam.

1948-1953-cü illərdə ermənilər birinci növbədə iqtisadi, sosial və strateji cəhətdən əhəmiyyət kəsb edən azərbaycanlı yaşayış məntəqələrini boşaldırdılar. Ermənilər əvvəlcə İrəvan şəhəri və ona yaxın yaşayış məntəqələrində, rayon mərkəzlərində, böyük qəsəbələrdə, dəmir yol və şosse yollarının üstündə yaşayan azərbaycanlıları köçürtdülər. Onlar köçürtməni elə aparırdılar ki, hər bir bölgədə azərbaycanlılar azlıqda qalırdı. Bu da onların gələcəkdə oradan köçüb Azərbaycana və ya başqa ölkələrə getməsinə şərait yaradırdı.

Dərələyəzin Çaykənd kəndindən olan və hazırda Yevlaxda yaşayan Bayramov Şahmar Zülfüqar oğlu bu kəndin köçürülməsini xatırlayaraq 1952-ci ildə olmuş bir hadisə haqqında belə deyir: "Bizi kənddən çıxarmaq üçün bir neçə poluturka maşın və yüzə yaxın erməni göndərmişdilər. Biz kənddən çıxmamış ermənilər evləri sökür, yandırır, hətta iri gövdəli bar ağaclarını kəsirdilər. Mən bu mənzərəyə dözməyib bir ağacı doğrayan sürücü Joradan soruşdum ki, kəndi niyə bu günə salırsız, ağacları niyə doğrayırsız, deyə soruşdum.

O, qolumdan tutub məni kənara çəkdi və əyilib yerdən bir ovuc torpaq götürərək dedi: "Ara, ay dəli muçurman, bizə bu torpaq lazımdır, eşidirsən, torpaq, qalan heç nə". Mənim isə sökülən evimizə, kəsilən bar ağaclarımıza, maşınlara doldurulan zavallı camaata baxıb hönkürtü ilə ağlamaqdan başqa əlimdən heç nə gəlmədi. Mən yekəpər erməninin üzündəki ifadənin, dediyi sözlərin mənasını təəssüf ki, çox sonralar başa düşdüm".[1]

1948-1953-cü illərdə ermənilər azərbaycanlıları öz doğma ev-eşiklərindən zorla köçürmək istərkən gözləri su içməyən adamları, sözü keçən ağasaqqalları təqib edirdilər. Dərələyəzin Ələyəz dərəsində belə bir hadisə baş verdi: Ermənilər Dərələyəzdə olan bütün azərbaycanlı kəndlərini zorla köçürmüş, Şərurda bunları yük vaqonlarına doldurub Azərbaycana yola salmış və Ələyəz dərəsində qalan 8 azərbaycanlı kəndlərinə də köçmək üçün order gətirmişdilər. Bir-birinə yaxın olan və erməni yaşayış məntəqələrindən qismən uzaq yerdə yerləşən bu kəndlərin əhalisi Ələyəz, Qovuşuq, Qabaxlı, Qalaser, Ayısəsi, Gülüdüz, Qaraqaya, Gədikvəng (Qoduxvəng) kəndlərinin sakinləri orderləri götürmədi və fikirləşmək üçün vaxt istədilər. 8 kəndin başbilənlərinin birlikdə məsləhətləşməsi lazım bilindi. Bu başbilənlər də atam İbrahim kişi ilə məsləhətləşməyi qərara aldılar.

Yaxşı yadımdadır ki, Ələyəzdən Talıboğlu Hüseyn (müəllim), Gülməmmədov İsmayıl (müəllim), Hüseynov Eyib (Əyyub müəllim), Qovuşuqdan Sayad qarı, Süsən arvad, Bığlı Süleyman, Yunis və Cabbar Fərzəliyevlər, Abbas Həmzəyev, Alışan, Tağı, Kazım Mamedovlar, Mamed Zülfüqarov, Hümmət və Teymur Əsgərovlar, Qabaxlıdan ovçu Qəhrəman, Ələsgər, Nəsir, Hidayət bəy, Mehdi və Əli Əsədovlar, Nənəş və Maral arvad, Sarı İsa, dərzi Usub (Gülma-

----------------------

1. Vidadi İsayev. Haradan gəlir bu köç. Bakı, 1995, s.105.

lıyev), Qalaserdən Alıyev Hüseyn, Aysəsikdən Usub oğlu Həsən, Oruc kişi, Hürzat arvad, Qaraqayadan Xudamədət müəllim, Gülüdüzdən Qəşəm və Museyib kişi, İsfəndiyar, İbiş kimi Məşədağa, Bəhlul və Baxış kişi, Məmmədov Əli, Gədikvəngdən Həbib, Nizam və bir çox belə adamlar tez-tez dəstə-dəstə bir yerə yığışar, danışar, mübahisə aparar və axırda atamla da məsləhətləşirdilər.

Camaatın ümumi rəyi belə oldu ki, bu kəndlərin heç biri köçmək istəmir. Əgər bizi zorla köçürürlərsə onda bizə ya Dağlıq Qarabağda, ya da Xanlar rayonunda istədiyimiz yeri versinlər, orada məskunlaşaq.

Köç ilə bağlı ermənilərə cavab vermək üçün hər kənddən vəzifəsi olmayan, lakin cəsarətli, siyasətdən az-çox başı çıxan, söz deməyi bacaran adamlar müəyyənləşdirildi və bunlar qəti şəkildə köçməyin əleyhinə çıxdılar. Ermənilər isə vəziyyəti belə görüb susmağa üstünlük vermişlər. Ermənilər yenə də təkid etdilər ki, siz köçməlisiniz. Bu zaman həmin adamlardan 8 nəfər rayon mərkəzinə gedib İrəvandan gələnə və raykomun katibinə qəti şəkildə cavab verdilər. Hətta Qovuşuqlu Fərzəliyev Süleyman (Bığlı Süleyman) əsəbi halda raykomun kabinetində erməniləri vulqar sözlərlə təhqir etmişdi.

## V MƏRHƏLƏ
## (1987-1988)

1953-cü ildə köçürmə prosesi dayandıqdan sonra ermənilər yeni bir hiyləyə əl atdılar: Ermənistan yurdunda olan cavan və ixtisaslı azərbaycanlı kadrlara iş vermədilər. Təhsil və mədəniyyət ocaqlarının bir qismini bağladılar, bir qismini isə məhdudlaşdırdılar. Ermənistan ərazisində boya-başa çatıb Azərbaycanda və başqa şəhərlərdə ali təhsil alan ziyalılara heç bir iş, məsul vəzifə vermədilər, hətta bunlar öz ixtisasları üzrə də iş tapmayıb Azərbaycana və başqa ölkələrə üz tutdular.

Bu dövrdə onların taktikalarından biri də bu idi ki, azərbaycanlıları bir-birilə savaşdırsınlar, hər iki tərəfi cəzalandırsınlar və var-yoxlarını əllərindən alsınlar. Mən Yeğeqnadzor rayonunda yüzlərlə belə hadisələrin şahidi olmuşam.

Erməni taktikasının biri də bu idi ki, yüksək vəzifə tutan və xalq arasında nüfuzu olan adamları (məs: Yunis Rzayev, Həbib Həsənov, Qəşəm Quliyev, Əli Həsənov, Novruz Dünyamalıyev və b.) müxtəlif yollarla Bakıya göndərir, Bakıda onlara yaxşı ev və iş düzəldir. Nəyin bahasına olursa-olsun belə adamları Ermənistandan uzaqlaşdırır, yalnız mal-heyvan saxlayan, erməni hiyləsindən baş çıxarmayan adamları saxlayırdılar.

Bu dövrdə erməni millətçiləri Azərbaycan xalqına məxsus tarixi abidələri dağıtmağa, məhv etməyə, erməniləşdirməyə başladılar. Əzizbəyov və Yeğeqnadzor rayonundakı kəndlərdə çox qədim dövrdən qalmış qəbir daşlarını, qəbiristanlıqlarda sayı-hesabı olmayan qəbirlərin üstündə olan qoç daşlarını, at daşları gecələr maşınlara doldurub aparırdılar.Ələyəz, Qovuşuq, Qabaxlı, Gülüdüz, Sallı və digər kənd qəbiristanlıqları buna canlı misaldır. Çox zaman

da deyirdilər ki, bu qəbir daşlarını mühafizə etmək üçün bunlar rayonun diyarşünaslıq muzeyinə aparılmalıdır. Mən 1950-ci illərdə belə hadisələri Yeğeqnadzor rayonunda öz gözümlə görmüş və rayon rəhbərləri ilə mübahisələr də etmişəm. Hətta Ayısəsi kəndində Alban türklərinə məxsus kilsəsinin daşındakı yazını dəyişərkən ermənilərlə savaşmaq dərəcəsinə gəlmişəm (Ayısəsi kəndi haqqında məlumat verərkən bu hadisəni yazmışam). Bir sözlə ermənilər Dərələyəzdə azərbaycanlılara məxsus olan tarixi abidələrin bir hissəsini öz adlarına çıxmış, bir hissəsini də məhv etmişlər.

Böyük siyasətçi cənab Heydər Əliyev bu dövrü gözəl xarakterizə edərək yazır: "Erməni millətçiləri öz havadarlarının köməyi ilə 50-ci illərdən etibarən Azərbaycan xalqına qarşı mənəvi təcavüz kampaniyasına başladılar. Keçmiş sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin erməni xalqına mənsub olduğunu sübut etməyə çalışırdılar."[1]

1987-ci ilə qədər ermənilər bu taktika ilə işlədilər və 1988-ci ildə açıq təcavüzə keçdilər.

1988-ci ilin sonunda ermənilər 200 mindən artıq azərbaycanlını Qərbi Azərbaycandan silahın və polisin, sovet silahlı qüvvələrinin köməyi ilə öz doğma yurdlarından qovub çıxartdılar. "185 yaşayış məntəqəsini boşaltdılar. 217 nəfər azərbaycanlı bu vəhşi aksiyanın qurbanı oldu".[2]

Eyni taktika Dərələyəzdə də həyata keçirildi. Bu zaman ermənilər Dərələyəzdə çoxlu vəhşiliklər etdilər. Mən bunlardan yalnız şahidi və iştirakçısı olduğum 2 hadisəni qeyd edəcəyəm.

1988-ci ilin sentyabr ayı idi. Dərələyəzdəki qohumlarım Eyyub, Kazım, Əli və Hümmət müəllim Bakıda bizə gəldilər və söylədilər ki, erməni dəstələri bizi rayona və Şərur tərəfə getməyə qoymurlar. Hətta ermənilər bulud dağıdan topıla Ələyəz kəndinə top da atdılar. Topun gülləsi Ələyəz kənd sakini İsmayıl müəllimin evinin yanına düşübdür. Qohumlarım həmin topun mərmilərindən bir xeyli gətirmişdilər. Mən bu top qəlpələrini universitetin yığıncağında müəllimlərə göstərdim. Riyaziyyatçı Musa müəllim və rektor bu barədə MK katibi Ə.Vəzirova və Bakı komendantına məlumat verdilər...

Nəhayət, biz Bakıdan xeyli yük maşınları tapıb Dərələyəzə göndərdik və oradakıların bir qismi çox az bir miqdarda əşya götürməklə dağ yolları ilə sağ-salamat çıxa bildilər. Lakin maşın olmadığı üçün camaatın xeyli hissəsi mühasirədə qalmışdı. Noyabr ayında 8 azərbaycanlı kəndinin kişiləri Ələyəz kəndinin altında yığışır və 3 mindən artıq erməni silahlı dəstəsinin qabağını kəsirlər, 4 gün atışma gedir, ov tüfəngləri ilə sərrast güllə atanlar çınqıllıqda ermənilərin qabağını kəsir, qadın və uşaqları axırıncı kəndlərə yığırlar.

Şərurdan və Kəlbəcərdən kömək almaq üçün cavanlardan iki dəstə dağ yolları ilə yola düşürlər. Kəlbəcər və Göyçə tərəfə gedənlər qara düşüb geri

---------------------

1. Azərbaycanlıların soyqımırı haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. Heydər Əliyev, Azərbaycan Respublikasının prezidenti. Bakı şəhəri, 26 mart 1998.

2. Əziz Ələkbərli. Qədim türk-oğuz yurdu. – "Ermənistan", Bakı, 1994, s.14.

qayıdır, Şərura gedən 18 nəfər isə çətinliklə ora çata bilirlər.

Bacımın qaynı Kazım müəllim gecə saat 12 radələrində Naxçıvandan mənə zəng vurub həyəcanlı səslə dedi ki, 8 kənddə qalan əhalini ermənilər mühasirəyə alıblar. Neçə gündür camaat acdır. Yalnız Naxçıvandan gələn bir vertolyot camaata göydən çörək atıb getdi. Mən dərhal Bakıda 131 №-li məktəbin dərs hissə müdiri Telman Əsədova zəng edib dedim ki, Bakı və Sumqayıt şəhərində yaşayan dərələyəzliləri səhər tezdən MK-nın binasının qabağında toplasın.

Səhər tezdən mən toplanan adamlarla birlikdə MK-də qaçqın məsələsinə baxan Fazilin yanına getdim, Vəzirov Moskvada idi. Mən ondan Nazirlər Sovetinin sədri Həsən Seyidovla bizi görüşdürməyi xahiş etdim. Həsən Seyidov əvvəlcə xəbər göndərdi ki, vaxtım yoxdur. Bura yığılanlar nümayişkaranə şəkildə dedilər ki, əgər bu gün Dərələyəzdə bizim qohum-qardaşlarımızın başına bir iş gəlsə bu gecə Bakıda onun əvəzinə birə on nisbətində erməni evi, qəsəbəsi yandırılacaqdır. Bunu eşidən H.Seyidov dərhal əl-ayağa düşüb iki gün əvvəl Naxçıvana Abkomun katibi təyin edilmiş İsayevə zəng etdi və 40-50 böyük yük maşınlarını hərbçilərin müşayiəti ilə Dərələyəzə göndərməyi tapşırdı. Bu zaman Qosplanın müavini Məmmədov İbrahim Xəlil oğlu da İsayevdən xahiş etdi ki, o camaatı ölümdən xilas etsin.

Naxçıvan rəhbərləri dərhal bu işə qoşuldular Əzizbəyov və Yeğeqnadzor rayonundakı azərbaycanlılara kömək və maşın göndərdilər. Əgər həmin kömək getməsəydi oradakı 8 kəndin xeyli əhalisini erməni vəhşiləri qıracaqdı. Ermənilər buradakı adamları samosfalt maşınlara doldurub lüt-üryan şəkildə Her-Her kəndinin yanındakı qayalığa tərəf göndərəndə qəflətən Naxçıvandan gələn köməklə qarşılaşır və bunlara xətər yetirə bilmirlər.

1988-ci ildə Dərələyəzdə deportasiyaya məruz qalanların bir hissəsi Qarabağın Malbinəsi kəndinə, Şuşaya və Xocalıya gəlmişdi. Əksəriyyəti Əzizbəyov rayonundan olan bu qaçqınların bir hissəsi həmin adı çəkilən yerlərdən də təkrarən qaçqın düşdülər və bunların bir çoxu Malıbəylidə, Xocalıda ağır işgəncələrə məruz qaldılar. Dərələyəzin Terp kəndindən Xocalıya pənah aparan və oradan təkrarən qaçmağa məcbur olan 68 yaşlı Əli Orucov deyir:

"Fevralın 25-dən 26-na keçən gecə ermənilər qəflətən Xocalını hər tərəfdən güllə yağışına tutdular. Dörd tərəfdən gur işıqlarını yandıraraq alov saçan onlarla zirehli texnika və külli miqdarda canlı qüvvə şəhərə doğru yeriyirdi. Qəfil hücumdan çaşıb qalan camaatın ah-naləsi, fəryadı və çığırtısı ərşə qalxmışdı. Hətta hücum o qədər dəhşətli və amansız idi ki, ailə üzvlərinin birlikdə qaçması belə mümkün deyildi. Biz ayaqqabılarımızı geyməyə belə vaxt tapmadıq. Bizimlə üzü Kətik meşəsinə doğru qaçan adamların çoxunu ermənilər arxadan vururdular. Yaralıları götürmək mümkün deyildi. Biz şaxtalı, qarlı gecədə üç gün meşədə qaldıq. Üç gündən sonra ermənilər bizi əhatəyə alıb bir neçəmizi öldürdü, yüzə yaxın adamı isə girov götürdülər. Girovluqda aldığım zərbələrin ağrısı indi də bədənimdən çıxmayıb".[1]

--------------------

1. Vidadi İsayev. Haradan gəlir bu köç. Bakı, 1995, səh.158.

Dərələyəz sözünün təşəkkülünə gəldikdə demək lazımdır ki, bu əvvəlcə Dərə Ələyəz formasında olmuş, sonra dərə və Ələyəz sözləri birləşərək "ə" saitinin biri düşmüşdür. Bu Dərədəki uca, yüksək, böyük kaslar, qazlar, xəzlər, ğuzlar, oğuzlar, azlar, uzlar... mənasında işlənmişdir.[1]

Dərələyəz haqqında geniş təsəvvürə malik olmaq, oxucuları, tədqiqatçıları və gələcək nəsilləri bu oğuz yurdu ilə yaxından tanış etmək məqsədilə 1590-cı ildən bu günə qədər Dərələyəzdə mövcud olan, dağıdılan, xarabalığa çevrilən, azərbaycanlılardan alınıb ermənilərə verilən kəndləri, yerləri, yurdları burada verməyi faydalı hesab etdim. Qoy gələcək nəsillər beynəlxalq təşkilatlardan öz ana torpağını tələb etsin və hansı yolla olursa-olsun öz doğma yurdlarına qayıtsınlar.

-----------------------

1. Ətraflı məlumat almaq üçün bax: Həsən Mirzəyev. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz. Bakı, 1997, səh.263.

# DƏRƏLƏYƏZ KƏNDLƏRİ TARİXİ MƏNBƏLƏRDƏ

## Ziya Bünyadov və Hüsaməddin Məmmədov. "İrəvan əyalətinin icmal dəftəri" adlı kitabındakı siyahı. 1590-1727-ci illəri əhatə edir. Əsası Türkiyə arxivindədir

***Dərələyəz nahiyəsi***

1. Axura
2. Həmzəli, Kövərhəsən otlağı, Sübhankənd.
3. Havicə[1]
4. Maradik
5. Meşin[2]
6. Yaycı
7. Cağazur
8. Xaçik
9. Kələdək
10. Kənizək
11. Veysəlli
12. Aqu[3]
13. Dayərnəd[4]
14. Arpa
15. Amağu
16. Çivə
17. Qızılgör, Şəkərbəyli
18. İyvəniz[5]
19. Bağçacıq
20. Rind
21. Qozulca
22. Kəsəngör[6]
23. Çanaqçı
24. Keşişviranı
25. Urnut
26. Xats[7]
27. Cəfərli

---------------------

1. "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə (NSMD) bu kəndin adı "Həvic" şəklində yazılmışdır (s.260)
2. NSMD-də (s.261) bu kəndin adı "Heşin" kimi yazılmışdır.
3. Aqu kəndinin adı NSMD-də (s.265) "Əyər" şəklində göstərilmişdir.
4. Bu kəndin adı NSMD-də (s.265) "Dakzid" olaraq göstərilmişdir.
5. Bu kəndin adı NSMD-də (s.269) "İynədiz" kimi yazılmışdır.
6. NSMD-də (s.271) bu kəndin adını "Kərəkor" kimi də oxumaq mümkündür.
7. Xats kəndinin adı NSMD-də (s.271) "Xıns" şəklində yazılmışdır.

28. Qaşqa
29. Ənguri[1]
30. Telsin
31. Havinçək[2]
32. Ervilas[3]
33. İynəli[4]
34. Kərinüd[5]
35. Abana kəndi və Xunək məzrəsi
36. Vartanes
37. Vahuseyni
38. Ağcavəng
39. Bəmətüm[6]
40. Ağkilsə
41. Qızqalası
42. Qoytul[7]
43. Sədərəkxan qışlağı məzrəsi[8]
44. Meydan. Bu kəndin başqa adı Əli qışlağıdır.
45. Ələyəz və Ustup kəndi.
46. Şahyurdu məzrəsi
47. Ərdiş
48. Kəməngəlül məzrəsi[9]
49. Şahyurdu
50. Şayi məzrəsi[10]
51. Xors
52. Obagöy[11]
53. Rüyərək[12]
54. Keşişkənd
55. Başgöy
56. Kənsək[13]
57. Yenicə
58. Vartayub[14]

---------------------

1. Bu kəndin adı NSMD-də (s.272) "Əngüzi" şəklində yazılmışdır.
2. NSMD-də (s.272) Havinçək kəndinin adı "Çavuşuq" kaimi qeyd olunmuşdur.
3. Bu kəndin adı NSMD-də (s.272) "Ərdalas" şəklində yazılmışdır.
4. İynəli kəndinin adı NSMD (s.272) "Əyrili" şəklində yazılmışdır.
5. Bu kəndin adı NSMD-də (s.272) "Künküt" şəklində yazılmışdır.
6. NSMD-də (s.274) bu kəndin adı "Pərtum" kimi qeyd edilmişdir
7. Qoytul kəndinin adı NSMD-də (s.275) "Qutyol" kimi qeyd edilmişdir.
8. Bu qışlağın adı NSMD-də (s.275) "Sədərək" kimi yazılmışdır.
9. Bu məzrənin adı NSMD-də (s.280) "Gərəgüllük" şəklində yazılmışdır.
10. Bu məzrəənin NSMD-də (s.280) "Sallı" şəklində yazılmışdır.
11. Bu kəndin adı NSMD-də (s.281) "Ortagöy" şəklində yazılmışdır.
12. Bu kəndin adı NSMD-də (s.281) "Züyrək" (?) kimi də oxunur.
13. Bu kəndin adı NSMD-də (s.283) "Kisək" şəklində yazılmışdır.
14. Bu kəndin adı NSMD-də (s.285) "Vartyol" (?) kimi də oxunur.

59. Morzav
60. Ərgəz
61. Maliki[1]
62. Küküvanıs
63. Mor[2]
64. Cağatay
65. Dədəli və digər Dədəli kəndi
66. Asəfi
67. Boşadır[3] Kəndin başqa adı Daylaqandır.
68. Azadək
69. Əxili
70. Zeytə
71. Soyulan
72. Hərhər
73. Kotanı
74. Qoçubəy
75. Turub[4]
76. Birək
77. Qalabəy
78. Pürhəsənli
79. Salçı
80. Qurd Əmir
81. Gümüşcuq
82. Por
83. Ərsinc[5]
84. Cul
85. Paşalı
86. Kömür
87. Kərinüd[6]
88. Axta
89. Qındevas
90. Qayalı
91. Mardiros
92. Birək//Quşçu
93. Qaravəng
94. Muğanlı[7]

-----------------

1. NSMD-də (s.286) bu kəndin adı "Məlikşah" kimi qeyd olunmuşdur.
2. Mor kəndinin adı NSMD-də (s.287) "Moz" kimi yazılmışdır.
3. Bu kəndin adı NSMD-də (s.289) "Puşadiz" şəklində yazılmışdır.
4. Turuq kəndinin adı NSMD-də (s.293). "Turtun" (?) kimi oxunur.
5. Bu kəndin adı NSMD-də (s.295) "Ərinç" kimi yazılmışdır.
6. Bu kəndin başqa adının NSMD-də s.300) "Yurdçu" olduğu qeyd edilmişdir.
7. Bu kəndin adı NSMD-də (s.301) "Horadiz" şəklində yazılmışdır.

**Ziya Bünyadov və Hüsaməddin Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri (Bakı, 1997). Siyahı Türkiyə arxivindən çıxarılmışdır və əsasən 1590-1727-ci illəri əhatə edir**

***Naxçıvan sancağına tabe olan Dərələyəz nahiyəsi***

1. Axura
2. Həmzəli və Kərəmpa
3. Həvic
4. Moravik
5. Həşin
6. Yaycı
7. Çağazur
8. Xaçik
9. Kələdək
10. Kənzək
11. Veysəlli
12. Əyər
13. Dakzid
14. Arpa
15. Amağu
16. Çivə
17. Qızılgöz. Başqa adı Şəkərbəylidir
18. Aynazor
19. Bağçacıq
20. Rind
21. Qozulca
22. Kərəkor
23. Çanaqçı
24. Keşişviranı
25. Urnut
26. Xıns
27. Cəfərli
28. Qaşqa
29. Əngüzi
30. Telsin
31. Çavuşçuk
32. Ərdalas
33. Əyrili
34. Künnüd
35. Abana
36. Vartanes
37. Vahsin
38. Ağçavəng

39. Tərətum
40. Ağkilsə
41. Qız qalası
42. Qutyol
43. Sədərək
44. Meydan. Başqa adı Əli qışlağıdır
45. Ələyəz
46. Məndərvanıs
47. Dibi
48. Qaraqaya
49. Hurevadik
50. Ayısəsi
51. Gələnçevir
52. Ərdəpin
53. Şahyurdu
54. Rahdarlıq
55. Ərdiş
56. Kərəkülük
57. Sallı
58. Xors
59. Ortagöy
60. Züyrək
61. Keşiş
62. Başgöy
63. Kisək
64. Yenicə
65. Vartanol
66. Morzav
67. Ərgəz
68. Məlikşah
69. Kükivanıs
70. Moz
71. Cağatay
72. Dədəli. Dədəli adlı başqa bir kənd də var
73. Amağu
74. Puşadiz. Başqa adı Daylaqlıdır
75. Azadək
76. Əxili
77. Zeytə
78. Soyulan
79. Hərhər
80. Kotanı
81. Qoçubəy

82. Turtun
83. Birək
84. Qalabəyi
85. Pürhəsənli
86. Salcı
87. Qurd Əmir
88. Gümüşcük
89. Por
90. Ərinc
91. Cul
92. Paşalı
93. Kömür
94. Kabud
95. Axta
96. Qındevas
97. Qayalı
98. Martiros
99. Quşçu
100. Qaravəng
101. Muğanlı. Başqa adı Yurdçudur
102. Horadiz

**"Статистическое описание Нахичеванской провинции" (Санкт-Петербург, 1833) китабындан**

***IV. Даралагезский Магаль***

*а) Западная часть...*

1. Ахура
2. Гамзали-Диза
3. Следь принадлежить пусономоржная земля Гамзали. К Яичи принадлежать пустыных земли Джагаджурь и Таваланъ
4. Хачинъ
5. Танзыкь
6. Арпа
7. Айназыръ
8. Ельпинтъ
9. Арул-гешипъ

*б) Восточная часть... Даралагеза*

1. Койтулъ
2. Кизилъ кишлаг
3. Гостунъ или Гасанъ Ага Кишлаги
4. Таратумъ или Ахджакентъ
5. Калакулугъ

6. Ердапинъ
7. Воксанъ
8. Салалы
9. Горсъ
10. Алагезъ
11. Гюней Вянкъ
12. Айсасикъ
13. Гавашуг
14. Кешишкентъ
15. Ортакентъ
16. Меликъ Шаглю
17. Амагу
18. Зюгриокъ
19. Агяры
20. Ертышъ
21. Агалжи
22. Курткулахъ
23. Зейта
24. Азадакъ
25. Джагатай
26. Пашали
27. Мардюк
28. Поръ
29. Ахалю
30. Тезхарабъ и Сейланъ
31. Мозъ
32. Каялы
33. Гюмюръ
34. Габютъ
35. Джулъ
36. Ахта
37. Миратусъ
38. Тарп
39. Терпъ
40. Гюмюшхана
41. Арынчъ
42. Чайкентъ
43. Гергеръ
44. Аргясъ
45. Караванк
46. Башкентъ
47. Аликишлаги

*Разоренная селения*

1. Вартапуль

2. Енгидже и Кянзакъ
3. Джаникентъ
4. Хурдовянкъ
5. Каракая
6. Кеныш
7. Каляширь
8. Чошалы
9. Хорвадуръ
10. Вартанесъ
11. Джафарлю
12. Кюмюрлю
13. Кузулджа
14. Чанахчи
15. Бахчаджикъ
16. Абана
17. Юльгюръ
18. Хнусъ
19. Кешкетъ
20. Гандоваръ
21. Кушибилакъ
22. Караларъ

## İ.Şopenin "Исторические памятники состояние армянской области в эпоху ее присоединения к российской империи" Санкт-Петербург, 1852) kitabından

*Названии городов и селений*

1. Ахура
2. Достъ-Али-бегъ-диза
3. Гамза-Али-диза
4. Яйджи
5. Джагазуръ
6. Хачикъ
7. Амагу
8. Арпа
9. Данзикъ-юхаре
10. Данзикъ ашага
11. Чувя
12. Гешинъ
13. Эльпинъ
14. Чинахчи
15. Кашха
16. Кешишъ-веранъ
17. Койтулъ

18. Айназиръ
19. Козлуджа
20. Кизиль-кишлаги
21. Аг-хачь
22. Габахълугъ
23. Зейта
24. Зигрикъ
25. Гинишикъ
26. Енгиджа
27. Аяри
28. Малишка
29. Кешишъ-кенд
30. Орта-кендъ
31. Башъ-кендъ
32. Хорсъ
33. Таратумъ
34. Калакюли
35. Агъ-кендъ
36. Агъ-дара
37. Расулъ-кишлаги
38. Шахъ-гельди-кишлаги
39. Салъ
40. Обана
41. Ардарасъ
42. Али-кишлаги
43. Гасанъ-кенди
44. Эрдапинъ
45. Али-ханъ-паяси
46. Хорвадыхъ
47. Алагязь
48. Гюней-ванкъ
49. Каушихъ
50. Кара-ванкъ
51. Джгатай
52. Эртишъ
53. Ахта
54. Тезъ-харабъ
55. Азадекъ
56. Поръ
57. Пашали
58. Караларъ
59. Гегярчинъ
60. Сюиланли

61. Марадуз-кишлаги
62. Аргязъ
63. Бюльбюль-Оланъ
64. Джани-ашага
65. Херхеръ
66. Ариниджъ
67. Ташъ-кендъ
68. Кечъ-бегъ
69. Гюмишъ-хана
70. Тарпъ
71. Терпъ
72. Чай-кендъ
73. Джулъ
74. Гюмуръ
75. Гябутъ
76. Ахили
77. Каяли
78. Мартиросъ

**1893-cü ilə aid mənbədə Dərələyəz mahalında olan kəndlər ("Свод статических данных о населении Закавказского края извлеченных из посемейных списков" 1886 г., Тифлис, 1893)**

***Уездъ, участки, сельское общества и селений***

II *Даралагезский участок*

*1. Алагезское с.о.*

1. Агкендъ
2. Айсасы
3. Алагезъ
4. Горабатегъ
5. Горсъ
6. Гостунъ
7. Гюли-дузъ
8. Гюней-ванкъ
9. Джани
10. Джани-Кабахлу
11. Каласаръ
12. Кара-кая
13. Караклугъ
14. Каушукъ
15. Кодух-ванкъ
16. Саллы
17. Таратумъ

18. *Хасан-кендъ[1]
19. Шах-гельди-кишлаги
20. Эрдапинъ

*2. Гиндивазское с. о.*
21. Агджа-кендъ
22. Аринджъ
23. Вилякъ
24. Булахляръ
25. Гегерчинъ
26. Абасъ
27. Гек-Гергеръ
28. *Гиндивазъ
29. Гюмуш-хана
30. Джейранлу
31. Зиракъ (Дзеракъ)
32. Исти-су
33. Каялу
34. Киличлу (Кличлу)
35. Кисар-хараба
36. Кочбекъ
37. Куши
38. Лейли-кочанъ
39. Мама-Рза-кишляги
40. Тарпъ
41. Терпъ
42. Чай-кендъ

*3. Джульское с.о.*
43. Ахта
44. Гомуръ
45. Гябутъ
46. Дара-кендъ
47. Демурчиларъ
48. *Джуль
49. Маратузъ
50. Чирахлу

*4. Кешишкендское с.о.*
51. Алихан-Паяси
52. Аргезъ
53. Аяръ
54. Баш-кендъ

------------------------

1. Qeyd: Qarşısında ulduz işarəsi qoyulan kəndlər kənd icmalarının mərkəzini bildirir.

55. Бюлбюль-оланъ
56. Гендара
57. Дайлахлу
58. Кара-ванкъ
59. *Кешиш-кендъ
60. Койтулъ
61. Котанлу
62. Малишка
63. Мозъ
64. Новларъ
65. Новлу
66. Орта-кендъ

*5. Книшикское с.о.*

67. Амагу
68. Енгиджа
69. Зейта-Чопма-Чомахъ
70. *Книшикъ (Ген -)
71. Курбан-кясиланъ
72. Кюрт-кулагъ
73. Хачикъ
74. Шорджа

*6. Козулджинское с.о.*

75. Аг-килиса
76. Айнадзоръ
77. Алмалу
78. Ардаласъ
79. Арпа
80. Вартанесъ
81. Геналу
82. Гешинъ
83. Кемурлу
84. *Козулджа
85. Намазалы
86. Риндъ
87. Чива
88. Элпинъ
89. Эртичъ

*7. Мартиросское с.о.*

90. Азадекъ
91. Ахилу
92. Дашалты
93. Джагатай

94. Кабахлу
95. Караларъ
96. *Мартиросъ
97. Пашалу
98. Поръ
99. Сойланъ

**Zaven Korkodyan "Sonuncu yüzillikdə (1831-1931) Sovet Ermənistanının əhalisi", İrəvan, 1932**

***Yaşayış yerlərinin tam siyahısı (1831, 1873, 1886, 1897, 1908, 1914, 1916, 1919, 1922, 1926 və 1931-ci illər).***

***Dərələyəz mahalı***

***Paşalı***

| *Yaşayış məntəqəsinin adı* | *Yaşayış məntəqələrinin qədim və ya özgə adı* |
|---|---|
| 1. Almalı | Diqin Almalı |
| 2. Axilu | Axilyu, Axlu, Axulu |
| 3. Axta | Axta – Aşağı |
| 4. Ağxaç | |
| 5. Ağcakənd | Ağcar |
| 6. Arrinc | |
| 7. Bilak | Prak |
| 8. Bulaqlar | |
| 9. Gendərə | |
| 10. Göyərçin | |
| 11. Gümüşxana | |
| 12. Komur | Qomer, Kümür, Komk, Axta |
| 13. Qoyaraz | Kok Araz |
| 14. Goradiz | Görədiz, Horadiz |
| 15. Daylaxlı | Daylaqlı |
| 16. Daşaltı | Zamali |
| 17. Daşkənd | |
| 18. Dərəkənd | Dərələr, Darax kənd |
| 19. Dəmirçilər | |
| 20. Donquzdama | |
| 21. Zeytə | Zeytə–Compa–Çomax, Zeyvə |
| 22. Çiraq | Çikrik, Çeraq |
| 23. Tarp | |
| 24. Tezxarab | Tezxaraba |
| 25. Terp | Derb |
| 26. İtqıran | |
| 27. İtqıran levis | İtqıran amarat |

| | |
|---|---|
| 28. İtqıran Ortakənd | |
| 29. İsti su | |
| 30. Leyliköçən | Leylıqaçan |
| 31. Qabut | Qabyut, Kəbut |
| 32. Qarmiraşen | Kotanlı |
| 33. Herher | Erer |
| 34. Qayalı | |
| 35. Qayalı, kahan | |
| 36. Qaralar | |
| 37. Qapaxlı | Qapaxluq |
| 38. Qısır | Qısır xaraba |
| 39. Qılıclı | |
| 40. Quşçu | Quşçu bulaq, keçud |
| 41. Mamarza | Molla Rza, Mamarza kənd |
| 42. Maratuz | Maratuk, Maratuk qışlağı |
| 43. Oxbin | |
| 44. Çaykənd | |
| 45. Çıraxlı | Çıraxlıoğlu kənd |
| 46. Cağata | Cığatay |
| 47. Ceyranlı | |
| 48. Cul | |
| 49. Soyulan | Soylanlı |
| 50. Sultanbəy | |
| 51. Pəyədərə | |
| 52. Paşalı | |
| 53. Koleri yurd | |
| 54. Köçbət//Kerçbəy | |

***Keşişkənd***

| *Yaşayış məntəqəsinin adı* | *Yaşayış məntəqələrinin qədim və ya özgə adı* |
|---|---|
| 1. Abana | |
| 2. Ağdərə | |
| 3. Ələyəz | Alagöz, Yeğeqis |
| 4. Əlixanpəyəsi | Məzrə Kərimxan |
| 5. Aliqışlağı | |
| 6. Almalı | |
| 7. Ağkilisə | |
| 8. Əyar | |
| 9. Aynazur | Aynazor, Aynadzor, Ağavnadzor |
| 10. Aysəsi | |
| 11. Ardaraz | Arides, Aradez |
| 12. Arpa | |
| 13. Arkiyaz | Arkyoz, Arkaz, Arkazan |
| 14. Başkənd | |

| | |
|---|---|
| 15. Bülbülölən | |
| 16. Kenalu | |
| 17. Küllüdüz aşağı | Külüdüz |
| 18. Küllüdüz yuxarı | |
| 19. Gnişik | Kinişink |
| 20. Güneyvang | |
| 21. Daşxərmən | |
| 22. Elpin | Yelpin |
| 23. Erdic | Yerdic |
| 24. Taratumb | Tərədum, Taratum |
| 25. İlanlı | |
| 26. Qalaser | |
| 27. Həsənkənd | |
| 28. Heşin | |
| 29. Hosdun | Vostink |
| 30. Horbadeğ | Xorvadeğ |
| 31. Hors | Hork |
| 32. Qovuşuq | Qavuşuq |
| 33. Qaraqaya | |
| 34. Qaravəng | Tənha divan |
| 35. Qapaxlı | Canı qapaxlı |
| 36. Qapaxlı | Canı aşağı |
| 37. Qızılqışlaq | |
| 38. Qışlaq | Şahgəldi qışlağı |
| 39. Qoduxvank | Vank, Qoturvank |
| 40. Qozuluca | |
| 41. Qoytur | Qoytul, Qodur |
| 42. Qurbankəsilən | Qurbankəsin |
| 43. Qurdqulax | Cekrik, Curik |
| 44. Məşədilər | |
| 45. Yengicə | Kincə |
| 46. Yavarkənd | |
| 47. Namazalı | Motanlı |
| 48. Növlar | Mozrav, Novlar, paşadik |
| 49. Novlu | Navlı |
| 50. Şorma | |
| 51. Ortakənd | Pəncətağ |
| 52. Çivə | Çuvya |
| 53. Cani | Cani yuxarı |
| 54. Sallı | Sal |
| 55. Rəsul qışlağı | |
| 56. Karaklux | Qayakuli, Kayaquli, Kəllə |
| 57. Kəhrizlər | |
| 58. Keşişkənd | |
| 59. Komurlu | |

Xarabalığa çevrilən kəndlər

1. Kəlyataq
2. Tamaşalıq
3. Boyadərə
4. Mirauz qışlağı
5. Pənah qalası
6. Kəncək
7. Canı aşağı
8. Qoşavəng
9. Comalı
10. Bağacıq
11. Buğurt
12. Korçi bağı
13. Qulu bağı
14. Muğancıq
15. Paşadüz
16. Kirəgəzər (Qıraqgəzər)

**"Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası", Bakı, 1995, Sabir Əsədovun yazdığı bölmə**

*Əzizbəyov rayonu*

1. Əzizbəyov (Paşalı)
2. Almalı (Xındzorud)
3. Azader (Azadek)
4. Ağıllı (Axili)
5. Ağxaç
6. Ağca (Ağca kənd)
7. Axta (Aşağı Axta)
8. Axtacul (Gomur)
9. Arınc
10. Bulaqlar (Bol bulaq)
11. Bilək (Çıraq)
12. Boğbin
13. Qayabas
14. Qayalı
15. Qaralar
16. Qabaxlı (Qapaqlı)
17. Qındevaz
18. Qısır (Qısır xaraba)
19. Qılıclı
20. Quşçu (Bilək, Keçud)
21. Daylaxlı
22. Daşaltı
23. Daşkənd
24. Dəmirçilər
25. Dərəkənd
26. Donuz damı
27. Zeytə (Çomax, Çopmaz, Zeyvə)
28. İtqıran (Əmərat, Gülüstan)
29. İtqıran Levis
30. İstisu (Cermuk)

31. Kabut (Qabuyd)
32. Kotanlı (Qarmraşen)
33. Köçbəy
34. Əkərək
35. Gendərə
36. Göyərçin
37. Gümüşxana
38. Komur (Orta Axta, Axtacul, Yuxarı Axta, Kömürlü)
39.Gülüstan (İtqıran)
40. Leyli köçən
41. Məmmədrza (Məmmədrza qışlağı)
42. Maratuz (Maratuz qışlağı)
43. Orta kənd
44. Paşalı
45. Pəyədərə
46. Por
47. Soylan (Əzizbəyov)
48. Tezxarab
49. Terp (Saravan)
50. Her-her
51. Çaykənd
52. Çıraxlı (Çırağoğlu kəndi)
53. Cağata (Cağatay)
54. Ceyranlı
55. Cul (Ağ xaç)

***Yeğeqnadzor rayonu***

Yeğeqnadzor (Dərələyəz, Keşişkənd, Mikoyan)

1. Abana
2. Abas biçənəyi
3. Aysəsi (Qızılgül)
4. Ayazlı saray
5. Ayuş
6. Alxan pəyəsi
7. Ağdərə
8. Ağkənd (Ağncazor)
9. Ağkilsə
10. Ağsu kəndi
11. Almalı
12. Arpa (Areni)
13. Ardaraz
14. Arxac
15. Aşağı Gülüdüzü
16. Atçar (Ağça kənd)

17. Axurlu
18. Başkənd
19. Baxçacıq
20. Bəyzadə
21. Bülbülölən, Kaha
22. Vardanes
23. Qabaxlı (Canı, Aşağı Canı)
24. Qalakənd
25. Genəli
26. Qanalı
27. Qaravəng
28. Qaraqaya
29. Qızılgül (Aysəsi)
30. Qızıl qışlaq
31. Qışlaq (Şahgəldi qışlağı)
32. Qovuşuq
33. Qozulca
34. Qoytul (Köytur)
35. Qurban kahası
36. Qurdqulaq
37. Daşxərmən
38. Dədəli körpüsü
39. Əbdül-Ərəb
40. Əyər
41. Əynəzur
42. Ələyəz Mahalı
43. Ələyəz (Alagöz, Məzrə Kərimxan)
44. Əmağu
45. Əli qışlağı
46. Əli dərəsi
47. Ərəb xəncəri
48. Ərəbkəndi
49. Ərkələz (Ərgəz)
50. Əsgərkənd
51. Əskikənd
52. İlanlı
53. Yavər kəndi
54. Yengicə (Qaznak)
55. Yerdiç
56. Yuxarı Külüdüzü
57. Kənəli
58. Kəncə
59. Kədikvəng (Qoturvəng)
60. Kömürlü
61. Külüdüzü

62. Güneyvəng
63. Göy Abbas
64. Göyərçin
65. Məşədilər
66. Novlar
67. Novlu
68. Moz (Mozrov)
69. Nəbilər
70. Orta kənd
71. Rəsul qışlağı
72. Sallı
73. Seyid Məmiş
74. Ülgül
75. Heşin
76. Horbadıq
77. Hors
78. Hosdun
79. Çivə (Çuvya)
80. Şorca

***Dərələyəz mahalında siyahıya düşməyən kəndlər***

1. Kəlyatağı
2. Tamaşalıq
3. Boyadərə
4. Mirduğ qışlağı
5. Pənahqalası
6. Aşağı Canı (Qabaxlı kəndi ilə uyğun gəlir)
7. Qoşavəng
8. Comalı
9. Baxçacıq (Vedidə belə kənd var)
10. Körçübağı
11. Qulubağ
12. Muğancıq
13. Paşadüzü
14. Qıraqgəzər
15. Bəyzadə (Bulaqlar kəndindən yuxarı)
16. Məşədi Şahbaz (Başkənd ilə Həsənkəndin arasında)

# XƏRİTƏLƏR




ŞƏRTİ İŞARƏLƏR

| | |
|---|---|
| **AŞŞUR** | Dövlətlər |
| *KUTİLƏR* | Tayfalar və tayfa ittifaqları |

# ÖN ASİYA E.Ə. 1-ci MİNİLLİYİN BİRİNCİ YARISINDA




## ŞƏRTİ İŞARƏLƏR

**MANNA** Dövlətlər — *ALBANLAR* Tayfalar

ANDİA Vilayətlər — ○ Şəhərlər

|*İBERLƏR*| Daha erkən dövlərə aid tarixi adlar

## MANNA DÖVLƏTİ
## (E.Ə. 7-ci ƏSRLƏRDƏ)




**ŞƏRTİ İŞARƏLƏR**

| | | | |
|---|---|---|---|
| ○ | Şəhərlər | ♜ | Qədim qalalar |
| MESSİ | Vilayətlər | (Təbriz) | Müasir adlar |

# MADA (MİDİYA) DÖVLƏTİ
# (E.Ə. 7-ci ƏSRİN SON RÜBÜ — E.Ə. 6-cı ƏSRİN ORTALARI)




## ŞƏRTİ İŞARƏLƏR

| | |
|---|---|
| — — — — | Mada (Midiya) dövlətinin sərhədləri |
| **AŞŞUR** | Dövlətlər |
| PARSA | Vilayətlər |
| *KOLXLAR* | Tayfalar |
| [*İBERLƏR*] | Daha erkən dövlərə aid tarixi adlar |

## ANTİK QAFQAZ ALBANİYASI




### ŞƏRTİ İŞARƏLƏR

- Dövlətlərin təqribi sərhədləri
- KAMBİSENA — Vilayətlər
- *LEQLƏR* — Tayfalar
- Pompey və Kanidinin yürüşü
- Ticarət yolları
- Çay ticarət yolu
- Paytaxt
- Şəhərlər




## ŞƏRTİ İŞARƏLƏR

| | |
|---|---|
| ▬▬▬ | Albaniyanın sərhədləri |
| ŞAKAŞENA | Əyalətlər |
| *LEQLƏR* | Etnik qruplar |
| ////////// | Təsir dairəsi |
| ◉ | Paytaxt |
| ○ | Şəhərlər |

# ATROPATENA SASANİLƏR DÖVLƏTİNİN TƏRKİBİNDƏ (3-7-ci ƏSRLƏR)




## ŞƏRTİ İŞARƏLƏR

| | |
|---|---|
| Paytaxt | Atropatenanın təqribi sərhədləri |
| Şəhərlər | Dövlətlərin təqribi sərhədləri |




## ŞƏRTİ İŞARƏLƏR

| | |
|---|---|
| | Albaniyanın sərhədləri |
| UTİ | Əyalətlər |
| *LPİNA* | Vilayətlər |
| ◉ | Paytaxt |
| ○ | Şəhərlər |




## ŞƏRTİ İŞARƏLƏR

- Paytaxtlar
- Azərbaycanın və Arranın sərhədləri
- Şəhərlər
- ....SİSƏCAN — Vilayət və mahalların adları
- Qədim qalalar
- Keçidlər




## ŞƏRTİ İŞARƏLƏR

- Xürrəmilər hərəkatının yayıldığı ərazi
- Ərəb xilafətinin təqribi sərhədləri
- Əyalətlərin sərhədləri
- Xürrəmilər hərəkatının başlandığı ərazi
- + Babəkin əsir alındığı yer
- ✕ Xürrəmilərin ərəb qoşunları ilə vuruşma yerləri
- Bəzz — Xürrəmilər hərəkatının mərkəzi




ŞƏRTİ İŞARƏLƏR

- 9 əsrin ikinci — 10 əsrin birinci yarısında Azərbaycan sərhədləri
- Paytaxt
- Şəhərlər
- Qalalar
- Vassal ərazilərin sərhədləri
- TALIŞ Vilayətlər




## ŞƏRTİ İŞARƏLƏR

- Dövlətlərin sərhədləri
- Dövlətlərin paytaxtları
- Qalalar ○ Şəhərlər
- Keçid
- Şirvanşahlar dövlətinə birləşdirilmiş ərazilər (917, 944, 945, 1072)
- Vaxtaşırı Şirvanşahların və Şəddadilərin tabeliyinə keçən mübahisəli ərazilər
- İşğalçılara qarşı müqavimət yerləri və illəri
- 1030-cu ildə rusların yürüşü
- 1025, 1032, 1033 illərdə alan və sərirlilərin yürüşləri

**Oğuzların hücumları**

- 1020 ildə
- 1038 ildə
- 1040 ildə
- 1054 ildə

**Səlcuqların yürüşləri**

- 1054 il -Toğrul bəy
- 1064-67 illər-Alp Arslan
- 1088 il - Buğa

**Səlcuqların Şirvana hücumları**

- 1066-67 illərdə
- 1071 ildə
- 1075 ildə

**Gürcülərin yürüşləri və hücumları**

- 1068 ildə
- 1021 ildə
- 1022-23 illərdə
- 1138 ildə
- 1153-54 illərdə




## ŞƏRTİ İŞARƏLƏR

- - - Hakimliklərin sərhədləri
/// Vassal ərazil
○ Şəhərlər
GLİAN Əyalətlər (vilayətlər)




## ŞƏRTİ İŞARƏLƏR

- Azərbaycanın sərhədləri
- Azərbaycanın sərhədlərində dəyişikliklər
- Elxanilər və Cəlarilər dövlətlərinin paytaxtları
- Qalalar
- Şəhərlər
- MUĞAN Vilayətlər
- Mühüm döyüş yerləri
- Xalq hərəkatı
- Şəki hakimliyi
- Şirvan hakimliyi
- Monqolların birinci yürüşü (1220-1223)
- Monqolların ikinci yürüşü (1231-1239)
- Cəlaləddinin yürşü (1225-1231)
- Qızıl Orda xanlarının yürüşləri
- Teymurun birinci yürüşü (1386-1388)
- Teymurun ikinci yürüşü (1386-1388)
- Teymurun üçüncü yürüşü (1386-1388)




## ŞƏRTİ İŞARƏLƏR

- Dövlətlərin paytaxtları
- Kiçik şəhər və yaşayış məntəqələri
- Qalalar
- Keçidlər
- Azərbaycan sərhədləri
- MUĞAN — Vilayətlər
- Şirvanşahlar dövləti
- Şəki hakimliyi




## ŞƏRTİ İŞARƏLƏR

- 1555 ilədək Səfəvilər dövlətinin paytaxtı
- Qalalar
- Şəhərlər
- Keçidlər
- ŞƏKİ Vilayətlər
- 1555-ci ildə Səfəvilər dövlətinin sərhədləri (vassal ərazilər daxil olmaqla)
- Ən böyük inzibati vahidlərin-bəylərbəyliklərin sərhədləri
- 1590 il İstambul sülhünə görə Osmanlı-Səfəvi torpaqlarının təxmini sərhədləri

I İsmayılın qoşunlarının hərəkəti

- Ərdəbildən Ərzincana (1499-1500 illər)
- Ərzincandan Təbrizə (1500-1501 illər)
- I Təhmasibin qoşunlarının Şirvana və Şəkiyə hərəkəti
- 1514, 1578, 1585 illərdə Osmanlı qoşunlarının Azərbaycana hərəkətinin istiqamətləri
- Krım tatarlarının hərəkətinin ümumi istiqaməti (1578-1581 illər)
- Böyük xalq üsyanlarının yayıldığı ərazilər və illər
- 1578 Vuruşmaların yerləri və illəri

## AZƏRBAYCAN 17-ci ƏSRDƏ




### ŞƏRTİ İŞARƏLƏR

- Paytaxt
- Qalalar
- Kiçik şəhər və yaşayış məntəqələri
- Keçidlər
- Səfəvilər dövlətinin sərhədləri (vassal ərazilər daxil olmaqla)
- Ən böyük inzibati vahidlərin-bəylərbəyliklərin sərhədləri
- 1590 il İstanbul sülhünə görə Osmanlı-Səfəvi torpaqlarının təxmini sərhədləri
- 1603 Osmanlı İmperiyasından ərazilərin Şah Abbas tərəfindən geri alındığı illər
- Stepan Razinin yürüşü
- Ticarət yolları

# AZƏRBAYCAN XANLIQLARI 18-ci ƏSRİN İKİNCİ YARISINDA




## ŞƏRTİ İŞARƏLƏR

- 18 əsrin ikinci yarısında Azərbaycanın sərhədləri
- Xanlıqların və sultanlıqların sərhədləri
- Xanlıqların mərkəzləri
- Qalalar
- Şəhərlər
- Ticarət və karvan yolları
- Dəniz ticarət yolları
- Keçidlər
- Suraxanı ataşgədəsi
- Qubalı Fətəli xanın (1758-1789) birləşdirdiyi ərazi
- 1751 ildə Məhəmməd Həsən xan Qacarın Qarabağa yürüşü
- 1752 ildə II İraklinin Gəncəyə yürüşü
- 1756 ildə Salyan sultanlığının Quba xanlığı tərəfindən zəbt edilməsi
- 1757 ildə Fətəli xan Əfşarın Şuşaya yürüşü
- 1759 ildə Qubalı Fətəli xanın Dərbəndə yürüşü
- 1767 ildə Qubalı Fətəli xanın Şamaxıya yürüşü
- 1767 ildə Şəkili Hüseyn xanın Şamaxıya yürüşü
- 18 əsrin 60-cı illərində Kərim xan Zəndin yürüşü
- 1781 ildə Qubalı Fətəli xanın Qarabağa yürüşü
- 1784 ildə Qubalı Fətəli xanın Ərdəbilə yürüşü
- 18 əsrin 80-ci illərində Ağa Məhəmməd xan Qacarın yürüşü
- 1795 ildə Ağa Məhəmməd xan Qacarın 1-ci yürüşü
- 1797 ildə Ağa Məhəmməd şah Qacarın 2-ci yürüşü
- 1796 ildə V.A.Zubovun komandanlığı altında rus qoşunlarının yürüşü
- 1796 ildə rus qoşunlarının qayıtdıqları yol



ŞİMALİ AZƏRBAYCANIN ÇAR RUSİYASI TƏRƏFİNDƏN İŞĞALI


ŞİMALİ AZƏRBAYCANIN (1918-1920-ci illər)
DAĞISTAN VİLAYƏTİ
ZAQATALA DAİRƏSİ
TİFLİS QUBERNİYASI
GƏNCƏ QUBERNİYASI
İRƏVAN QUBERNİYASI
BAKI QUBERNİYASI
XƏZƏR
İRAN
Tiflis
Sıqnax
Rutul
Axtı
Qasımkənd
Qazax
Gəncə
Ağdaş
Göyçay
Şamaxı
Bakı
Salyan
Hacıqabul
Cavad
Biləsuvar
Lənkəran
Jeni Bayazid
Kəlbəcər
Şuşa
Laçın
Qoturs
Qafan
Zəngilan
Cəbrayıl
Qaryagin
(Qarabulaq)
Naxçıvan
Noraşen
Şərur-Dərələyəz qəzası
Şahbuz
Ordubad
Mehri
Ulluqobu
28.IV.1920
ŞƏRTİ İŞARƏLƏR
1918-ci ilin yazında Sovet hakimiyyətinin quruldugu ərazi
Bakıda mart hadisələri (31.III — 1.IV.1918)
Bakı XKS (25.IV — 31.VII.1918)
Volqa-Xəzər donanması hərbi gəmilərinin hərəkəti (IV-VII.1918)
Türk qoşununun hərəkəti (V.1918)
Bakı XKS hərbi dəstələrinin hücumu (VI.1918)
Azərbaycan Respublikası hökumətinin yerləşdiyi yer (28.V. — 15.VI.1918 Tiflis; 16.VI. — 16.IX.1918 Gəncə; 17.IX.1918 — 27.IV.1920 Bakı)
Azərbaycan və türk qoşunlarının hücumu (VI-IX.1918)
Azərbaycan ordusunun qərargahı (VI-IX.1918 Gəncə; IX.1918 — IV.1920. Bakı)
Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin təşkili (27.IV.1920)
XI Qızıl Ordu hissələrinin hücumu (27-28.IV.1920)
Bakı proletariatının siyasi çıxışları və Azərbaycan parlamentinin hakimiyyəti Azərbaycan İnqilab Komitəsinə verməsi (1920-ci il aprelin 27-dən 28-nə keçən gecə)
Azərbaycan Sovet Sosialist Respublikasının elan edilməsi (28.IV.1920)
Volqa-Xəzər donanması hərbi gəmilərinin hərəkəti (IV-V.1920)
XI Qızıl Ordu hissələrinin hücumu (V-VII.1920)
Qəza inqilab komitələri
Antisovet üsyanlarının yatırılması
Naxçıvanda Sovet hakimiyyətinin qurulması
Muğan Sovet Respublikasının ərazisi (IV — VII.1919)
Azərbaycan Respublikası qoşunlarının Lənkərana hücumu (VII.1919)
Bakıda "Sentrokaspi Diktaturası" hökuməti (1.VIII — 14.IX.1918)
İngilis qoşunu tərəfindən Bakının birinci işğalı (4.VIII — 14.IX.1918)
İngilis qoşunu tərəfindən Bakının ikinci işğalı (XI.1918 — VIII.1919)
İngilis işğalçı qoşununun qarnizonları
İngilis müdaxiləçilərinin geri çəkilməsi
Azərbaycan Respublikası Parlamenti (7.XII.1918 — 27.IV.1920)
Qazax kəndli qurultayı (25-27.IX.1919)
Bakı Universitetinin açılışı (XI.1919)
Müsavat partiyasının MK
"Müsavat" partiyasının II qurultayı 2-11.XII.1919
Fəhlə tətilləri
Kəndlilərin aqrar çıxışları
Azərbaycan Kommunist (bolşeviklər) partiyasının I qurultayı 11-12.II.1920
AK(b)P MK




## AZƏRBAYCAN RESPUBLİKASININ XƏRİTƏSİ

1920-Cİ İLDƏ XARİCİ İŞLƏR NAZİRLİYİNİN İNFORMASİYA ŞÖ'BƏSİNDƏ "AZƏRBAYCAN RESPUBLİKASININ ÜNVAN — TƏQVİMİ" ÜÇÜN TƏRTİB EDİLMİŞDİR.

*Tərtibçi: L.Qumiç*

**ŞƏRTİ İŞARƏLƏR**

Sərhədlər
- Azərbaycan respublikasının
- Gürcüstan respublikasının
- Türkiyə və iranın
- Quberniya və vilayətlərin
- Qəzaların

- Ermənistanla mübahisəli ərazilər
- Gürcüstanla mübahisəli ərazilər

- Dəmir yolları
- Çəkilməkdə olan d.y.-ları
- Dəmiryol stansiyaları
- Quberniya, qəza şəhərləri və kəndlər


КАРТА
КАВКАЗСКАГО КРАЯ
1889.


1903 ГОДА
НОВО-БАЯЗЕТЪ
Пашо-кепазъ
Кара-дагъ
НОВО-БАЯЗЕТСКІЙ
УѢЗ. ЕЛИСА
ГУБ. ЕЛИСАВЕТОПОЛ
УѢЗ. ДЖЕВАНШИРСКІЙ
УѢЗ. ШАРУРО-ДАРАЛАГЕЗСКІЙ
УѢЗ. НАХИЧЕВАНСКІЙ
УѢЗ. ЗАНГЕЗУРСКІЙ
ГЕРУСЫ
Минкендъ
Г. Шихъ-орды
Кобахъ-тапа

# QƏRBİ AZƏRBAYCANIN DƏRƏLƏYƏZ MAHALI (1828-Cİ İL VƏ SONRAKI DÖVRLƏR )



# II FƏSİL

# DƏRƏLƏYƏZ MAHALINDA OLAN KƏNDLƏR VƏ BU KƏNDLƏRİN ƏRAZİSİNDƏKİ XÜSUSİ ADLAR (TOPONİMLƏR...)

## ABANA

Abana Dərələyəz mahalında Yeğeqnadzor (Keşkənd//Keşişkənd) ərazisində azərbaycanlılara məxsus kəndin adıdır. Arpa çayının hövzəsində, Aynəzir kəndindən 14 km Şərqdə yerləşən bu kənd hal-hazırda xarabadır. Bir çox azərbaycanlı kəndi kimi, ermənilər bu kəndin də əhalisini sıxışdırıb öz doğma yurd-yuvasından çıxartmış və torpaqlarına sahib olmuşlar.

1590 və 1727-ci illəri əhatə edən arxiv sənədlərində göstərilir ki, həmin illərdə Abana kəndinin 4.250 ağça gəliri olmuşdur.[1]

Tarixi və statistik mənbələrdən məlum olur ki, 1831-ci ildə bu kənddə 25 azərbaycanlı ailəsi olmuş və burada 25 nəfər (13 kişi, 12 qadın) yaşamışdır.[2]

Abana kəndinin adına gəldikdə deməliyəm ki, bu toponim də Azərbaycan xalqına məxsusdur. Görkəmli coğrafiyaşünas akademik Budaq Budaqov və böyük tədqiqatçı Qiyasəddin Qeybullayev belə bir düzgün nəticəyə gəlmişlər ki, bu toponim "qədim türk mənşəli Aban tayfasının adındandır".[3]

Belə bir faktı da qeyd etmək lazımdır ki, 1852-ci ildə Qafqazın tarixini yazan məşhur alman tarixçisi İ.Şopen öz əsərində bu kəndin adını "Obana" formasında vermişdir.[4]

Bu kənd ilə bağlı bir maraqlı məsələni də qeyd etmək gələcək tədqiqatçılar üçün çox faydalıdır. 1727-ci ilə aid bir tarixi sənəddən aydın olur ki, bu kənddə "Dədə Qorqud" dastanında olan Bayandır xanın adını daşıyan şəxs də olmuşdur. Belə bir fakt bu kəndin tarixini daha uzaqlara aparıb çıxarır. Göyçədən Şərura, Əlincə qalasına gedən yolun üstündə yerləşən bu kəndə aid aşağıdakı sənəddə söylədiyimiz fikir öz əksini tapmışdır.

**"Dərələyəz nahiyəsinə tabe olan Abana kəndi (Xubik məzrəəsiylə)**

Məmməd Yadigar oğlu – bennak; Bayındır Sərdar oğlu – bennak; Aşur Qulu

---

1. 3. Ziya Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri, Bakı, 1996, səh.58. Bunyadov və H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh. 35.
2. И.Шопен. Исторические памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 615-618; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 127; Kamil Dərələyəzli. Dərələyəz od içində. Bakı, 2000, s.170.
3. B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998, s.96.
4. İ.Şopen. Göstərilən əsəri. s. 615.

oğlu – bennak; Əlixan Mərdan oğlu – bennak;
Çift – 2
Bennak – 4
Başqa yerdən gəlib bu kəndin torpağından əkib-becərmə işləri üçün istifadə edənlərdən alınan vergi daxil olmaqla gəlir:
Bennak vergisi – 72 (ağça)
Çift vergisi – 100 (ağça)
Buğda 3 kile – dəyəri 90 (ağça)
Arpa – 8 kile – dəyəri 160 (ağça)
Kərdiyər – 2 kile – dəyəri 42 (ağça)
Sumax – 1 kile – dəyəri 15 (ağça)
Bal üşrü – 120 (ağça)
Kəlül – 2 kile – dəyəri 36 (ağça)
Mərcimək – 3 kile – dəyəri 54 (ağça)
Kərəsnə – 6 kile – dəyəri 90 (ağça)
Dönüm vergisi – 120 (ağça)
Adəti-ağnam –
Ağıl vergisi – 300 (ağça)
Darı – 1 kile – dəyəri 15 (ağça)
Bakirə qız və dul qadın üçün gəlin vergisi – 90 (ağça)
Dəştibani vergisi və əkin yeri üçün tapu – 1.900 (ağça)
Pambıq – 1 man – (dəyəri) 75 (ağça)
Meyvə üşrü – 120 (ağça)
Badi-hava – 1.091 (ağça)
Yekun – 4.250 (ağça)"[1]

## AĞÇAKƏND

Ağça (Ağçakənd) Dərələyəz mahalının Əzizbəyov rayonunda azərbaycanlı kəndinin adıdır və bu kənddə həmişə, bütün tarixi dövrlərdə azərbaycanlılar yaşamışdır.[2]

Azərbaycanlıların bu kənddə məskunlaşmaları tarixi mənbələrdə də öz əksini tapmışdır. Statistik mənbələrin verdiyi məlumata görə Ağça kəndində 1873-cü ildə 106 nəfər, 1886-cı ildə 139 nəfər, 1897-ci ildə 192 nəfər, 1904-cü ildə 214 nəfər, 1914-cü ildə 312 nəfər, 1916-cı ildə 258 nəfər azərbaycanlı yaşamışdır.[3]

------------------

1. Ziya Bunyadov və H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh. 279-280.

2. Mirzəyev H. Dərələyəzdəki Ağcakənd, Püsyan, Qılınclı kəndləri haqqında, Filologiya məsələlərinə dair tematik toplu, № 7 (19), Bakı, 2001, s.3-5.

3. Свод статистических данных о населении Закавказского края извлеченных из по семейных списков 1886 г. Тифлис, 1893, №979; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1891-1931), Yerevan, 1932, s.88; H.Rəhimoğlu silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, s.246.

1918-ci ildə ermənilər tərəfindən törədilmiş amansız qırğınlar nəticəsində Ağça kəndinin də əhalisi qırılmış, kənd dağıdılmış və yandırılmışdır. Ağça kəndinin xarabalıqları, yaşayış binalarının və qəbiristanlığın izləri indi də qalmaqdadır.

"1727-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində" Ağçaqala adında da kənd olmuşdur.[1]

İrəvan əyalətinin icmal dəftərində və Naxçıvan sancağında göstərilir ki, 1590 və 1727-ci illərdə Dərələyəzdə "Ağcavəng" adlı kənd olmuş və bu kəndin 1.524 ağça gəliri olmuşdur.[2] Görünür, Aqca vəng toponimindəki vəng coğrafi termini ellipsiyaya uğramış və Aqca hissəsi qalmışdır. Toponim rənglə bağlıdır.

Vaxtın məhdudluğuna görə mən "Ağçakənd" "Ağçaqala", "Ağcavəng" kəndlərinin əlaqəsini yoxlaya bilmədim. Gələcək tədqiqatçılar bu məsələni diqqətdə saxlamalıdır.

## AĞCAKƏND (AĞCAR)

Ağcakənd (Ağcar) Yeğeqnadzor rayonunda azərbaycanlılara məxsus kəndin adıdır. Bu kənd Arpa çayın axarında yerləşir. 930-cu ilə aid olan erməni mənbələrində Ağcar kəndinin adı xatırlanır.[3]

Fikrimizcə, bu toponim ağ və car sözlərininm birləşməsindən əmələ gəlmişdir və ağ yarğan mənasındadır. Bu kəndin coğrafi relyefi, çayın axarında yerləşməsi də söylədiyimiz fikri təsdiq edən faktlardandır.

## AĞDƏRƏ

Ağdərə Dərələyəz mahalının Keşkənd rayonunda azərbaycanlılar yaşamış kəndin adıdır. Bu kənd ağtorpaqlı dərənin içində yerləşir. İndi orada yalnız xarabalıqların izləri qalmaqdadır.

Statistik və tarixi mənbələrin verdiyi məlumata görə "Ağdərə kəndində 1831-ci ildə 78 nəfər azərbaycanlı olmuşdur“.[4] XX əsrin əvvəllərində isə bu kənd ermənilər tərəfindən ləğv edilmişdir. Belə ki, 1919-cu ildə erməni daşnakları kəndə hücum etmiş, əhalini qırmış və kəndi dağıtmışlar.

-----------------

1. B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin lüğəti. Bakı, 1998, səh.110-111.

2. Z.Bünyadov, H.Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, səh.38; Z.Bünyadov, H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh.35.

3. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, səh.353; Историческая география Западного Азербайджана. Бакы, 1998, с.129.

4. И.Шопен. Исторические памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 615; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 352, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 244; Историческая география Заподного Азербайджана, Баку, 1998, стр.127.

Ağdərə toponiminin formalaşmasına gəldikdə qeyd etməliyəm ki, bu ad ona öz coğrafi relyefinə görə verilmişdir. Mən həmin kənd yerinə yaxşı bələdəm. Bu kənd ağtorpaqlı dərənin içində yerləşir. İndi orada yalnız xarabalıqların izləri qalmaqdadır.

Bu toponim ağ (rəng) və dərə (relyef) sözlərinin birləşməsindən əmələ gəlmişdir. Hər iki söz türk ellərinin toponimiyasında aktiv halda işlənir. İlk vaxtlar Ağdərə dərə adını – relyefi bildirmiş, orada yaşayış məntəqəsi salındıqdan sonra isə kəndin adını bildirmişdir.

## AĞXAÇ

Ağxaç Dərələyəzin Əzizbəyov rayonunda Horadiz kəndinin yaxınlığında azərbaycanlı kəndidir.

1831-ci ildə burada 37 nəfər, 1873-cü ildə 264 nəfər, 1886-cı ildə 195 nəfər, 1897-ci ildə 242 nəfər azərbaycanlı yaşamışdır.[1]

1918-ci ildə ermənilər bu kənddəki azərbaycanlıların əksəriyyətini qırmış, bəziləri isə sağ qalmışdır. Bundan sonra isə bu kənddə ermənilər yaşamağa başlamışlar. 1926-cı ildə bu kənddə cəmi 12 nəfər azərbaycanlı yaşamışdır ki, sonra bunları da ermənilər kənddən qovmuşlar.

Ağxaç etnotoponimi türk tayfalarının birinin adından götürülmüşdür. Ağxaç kənd adındakı Xaç hissəsi Kas tayfa adının dəyişmiş formasıdır, onun arxotiplərindən biridir.[2]

Məlum olduğu kimi, türk dillərində məxrəcləri yaxın olan səslər bir-birinə, o cümlədən "k" səsi "x" səsinə (k-x), "ç" səsi də "s" səsinə (ç-s) çevrilə bilir. Dilçilik ədəbiyyatında buna aid istənilən qədər misallar vardır.

Ağxaç sözünün birinci tərəfindəki "ağ" sözünə gəldikdə demək lazımdır ki, ağ sözü qədim türk dillərində həm "uca", "yüksək", "işıqlı", həm də "kiçik", "xırda", "balaca" mənalarında işlənmişdir.[3] Ağtəhlə-Qaratəhlə, Ağqoyunlu-Qaraqoyunlu, Ağhunlar-Qarahunlar, Ağbayat-Qarabayat, Ağşaman-Qaraşaman, Ağman-Qaraman, Ağqam-Qaraqam və s.

Ağxaç adının antonimi kimi işlənən Qaraxaç sözünə gəldikdə demək lazımdır ki, bu da etnotoponimdir. Qeyd edim ki, Qaraxaç toponimi Göyçə və Kəlbəcər yaxınlığında yurd adıdır. Bu yurdda son dövrlərdə həmişə Qarabağda yaşayan Təhlə tayfası yaylayırdı. Qaraxaç etnotoponimində qara sözü böyük, yekə, əzəmətli, qüvvətli mənasını, "xaç" sözü isə "kas" tayfasının adını bildirir.

--------------------

1. Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 88; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 340; Историческая география Западного Азербайджана, Баку, 1998, стр.112.

2. Mirzəyev H. Ağxaç - Qaraxaç toponimi, Dil məsələlərinə dair tematik toplu, № 1, Bakı, 1998, s.33-34.

3. Həsən Mirzəyev. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz. Bakı, 1997, səh.233.

Fikrimizcə, 1590-cı ildə Dərələyəzdə 3.795 ağça gəliri olan "Xats" kəndinin, Göyçədə (gölün kənarında) 2.210 ağça gəliri olan "Xaç" kəndinin, 6.345 ağça gəliri olan "Uzunxaç"[1] kəndinin adı da Kas tayfasının adından götürülmüşdür. Çox güman ki, 1590-cı ildə Dərələyəzdə 4.110 ağça gəliri olan "Qızqalası"[2] (Kasqalası, Quzqalası – Ğuzqalası – Oğuzqalası) kəndinin adı da Kas-Qas yaxud da Quz-Ğuz-Oğuz-Qıs-Qız tayfası ilə bağlıdır.

Deyilənlərdən belə bir ümumi nəticəyə gəlmək olar ki, Ağxaç və Qaraxaç sözlərinin tərkibində olan xaç sözü kas etnoniminin dəyişmiş formasıdır, onun arxotipidir. Kas-Xaç etnoniminin Oğuz-Ğuz-Quz-Az tayfa adı ilə bağlılığını yoxlayıb araşdırmaq çox vacibdir, çünki Kas və Oğuz sözləri eyni məna yuvasından formalaşmışdır.

Buradakı ağ sözü kiçik, balaca, qara sözü isə yekə, böyük, qüvvətli, əzəmətli mənalarını bildirməyə xidmət etmişdir.

Ağ və qara sözlərinin türk dillərində hansı mənalarda işlənməsi haqqında da dilçilik ədəbiyyatında geniş məlumat verilmişdir.[3] Ona görə də biz təkrar izahı lazım bilmədik.

## AĞKƏND

Ağkənd Dərələyəzdə ən qədim Azərbaycan kəndlərindən biridir. Rayon mərkəzindən (Keşkənddən//Yeğeqnadzordan) 17 km şimal-şərqdə yerləşir. Bu, Dərələyəzdə ən məşhur Selim//Səlim gədiyinin ayağında, Selim çayının yanında yerləşir.

Bu kənddən Selim gədiyinin başına qədər 46 (qırx altı) döngə vardır. Onu da qeyd edim ki, Şərurdan başlamış Göyçənin Qaranlıq (Martuni) rayonuna qədər bu magistral yolun üstündə tarixən 10-a (ona) qədər daş körpü (daşdan körpü) tikilmişdir. İpək yolu ilə gedən karvanlara xidmət edən, Selim gədiyinin döşündə yerləşən məşhur Karvansara (Karvansaray) da bu kəndin ərazisində yerləşir.

Tarixi mənbələrdən məlum olur ki, 1831-ci ildə kənddə 222, 1873-cü ildə 498, 1886-cı ildə 546, 1897-ci ildə 670, 1904-cü ildə 918, 1914-cü ildə 1010, 1916-cı ildə 704 nəfər azərbaycanlı yaşamışdır.[4]

--------------------

1. Ziya Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1995, səh.55, 61.

2. Yenə orada. səh.60.

3. Древнетюркский словарь. Л., 1969, с.61; В.В.Радлов: Опыт словаря тюркский наречий. I, Санкт-Петербург, 1893, стр.96; Mirəli Seyidov. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı, 1989, səh.34-38, 143-144; T.Əhmədov. Azərbaycan toponimiyasının əsasları. Bakı, 1991, səh.269.

4. И.Шопен. Исторические памятники состояние армянской області в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 613; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №959; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 352, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 244.

1918-ci il qaçqınlığı və soyqırımından sonra kəndin əhalisi azalmış, 1921-1922-ci ildən sonra kəndə əhalinin yarıdan azı, təxminən 300 nəfəri qayıda bilmişdir. 1918-ci ildə qaçqın düşən əhalinin hamısı kəndə qayıda bilməmişdir.

Strateji cəhətdən çox əhəmiyyətli olan, Göyçəyə gedən, Selim gədiyindən aşan, magistral yolun üstündə yerləşən və çox münbit torpağı, bağı-bağatı olan bu kənd 1918-ci ildə ermənilər tərəfindən tutulmuş və onlar qaçqınlıqdan qayıdıb gələn kənd əhalisinin çoxunu kəndə qoymamışlar. Bu dövrdən etibarən kənddə azərbaycanlılarla yanaşı ermənilər də yaşamağa başlamışdır. Həmin vaxtdan başlayaraq kənddə azərbaycanlılar get-gedə sıxışdırılmış, ermənilərin sayı isə çoxalmışdır. Bütün bu maneələrə baxmayaraq get-gedə Ağkənddə azərbaycanlıların da sayı qismən artmışdır. Belə ki, 1939-cu ildə burada 621 nəfər azərbaycanlı qeydə alınmış və son illərdə bu rəqəm xeyli çoxalmışdır. Lakin 1988-ci ildə kənddəki azərbaycanlılar ermənilər tərəfindən tamamilə çıxarılmışdır.

Bu kəndin əhalisi ayrı-ayrı dövrlərdə, xüsusən 1905-1907, 1918-1920, 1948-1953-cü illərdə Azərbaycana qaçmağa məcbur olmuş və Azərbaycanın müxtəlif bölgələrində məskunlaşmışlar. Bunların böyük bir qismi isə Tərtərdə, Gəncədə, Sumqayıtda, Bakıda qərar tutmuşdur. Bu kənddən qaçanların, dağılanların içərisində tanınmış, yüksək vəzifə sahibləri, ziyalılar, elmlər doktorları, professorlar yetişmişdir. Tərtərdə rayon İcra Komitəsinin sədri kimi yüksək vəzifə tutan el ağsaqqalı Abbas Sultanov, uzun müddət Kənd təsərrüfatı və Su təsərrüfatı Nazirliyində nazir müavini işləyən İsmayıl Sultanov, onun qardaşı tibb elmləri doktoru, professor, Tibb Universitetində dekan, kafedra müdiri işləyən, neçə-neçə monoqrafiyaların sahibi olan Həsən Sultanov buna canlı misaldır.

Dilçilik ədəbiyyatından məlum olduğu kimi, ağ sözü həm yüksəklik, həm də kiçik mənasında işlənmişdir.[1] Bəzən yerlərə ad verilərkən həmin yerin coğrafi şəraiti də nəzərə alınır. Mən bu kəndi yaxşı tanıyıram və bu kənddə çox olmuşam. Qeyd edim ki, kəndin ətrafındakı yerlərdə kiçik ağ yarğanlar da vardır. Lakin kəndin adının bu şəraitdən götürülməsi və rəng bildirən ağ sözünün köməkliyi ilə düzəlməsi o qədər də inandırıcı deyil. Fikrimizcə, ağ sözü burada yüksəklik mənasındadır. Türk dillərinin qədim lüğətində aq sözünün yüksəklik mənasında işlənməsi göstərilmiş və türk dillərinə aid başqa mənbələrdə bu dönə-dönə təsdiq olunmuşdur.

--------------------

1. Ətraflı məlumat almaq üçün bax: Древний тюркский словарь., L., 1969, c. 16-17; Древний тюркский словарь, M., 1975, c.18; M.Seyidov. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı, 1989, s.34-38, 143-149; Г.Е.Гейбуллайев. К энтогенезу азербайджанцев. Баку, 1991, стр.467; Tofiq Əhmədov. Azərbaycan toponimikasının əsasları. Bakı, 1991, s.269-270; Roza Eyvazova. Əfqanıstanda türk mənşəli toponimlər. Bakı, 1995, s.184-188; Nadir Məmmədov. Azərbaycanın yer adları, Bakı, 1993, s.74-75; İ.Bayramov. Qərbi Azərbaycan toponimlərinin tərkibində işlənən söz və coğrafi terminlər lüğəti. Bakı, 2000, s.118; B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı, 1998, s.107; Y.B.Yusifov, S.K.Kərimov. Toponimikanın əsasları, Bakı, 1987, s.172; Mirzəyev H. Ağkənd kəndi və onun onomastik vahidləri haqqında məlumatların xülasəsi, Filologiya məsələlərinə dair tematik toplu, № 3-4, Bakı, 2001, s.216-221.

Bundan başqa, ağ sözünün köməkliyi ilə əmələ gəlmiş "Ağkənd" adlı kənd adına türk xalqlarının həm tarixən, həm də hal-hazırda məskun olduğu digər yerlərdə də rast gəlmək olur.

Oxucuların nəzərinə çatdıraq ki, haqqında danışdığımız Ağkənd bütün kəndlərin qurtaracağında, Selim gədiyinin ayağında, o biri kəndlərə nisbətən yüksəklikdə yerləşir və böyük əraziyə malikdir. Bu kənddən sonra Selim gədiyinin yamacları başlayır və Selim gədiyinin aşağısında olan ikinci Karvansara da bu kəndin ərazisindədir. Araşdırmalar nəticəsində gəldiyim qənaət belədir ki, Ağkənd yüksəklikdə, ucalıqda yerləşən böyük kənd mənasındadır. Bu fərziyyəni gələcək tədqiqatlarda inkişaf etdirib araşdırmaq zəruridir.

Ermənilər 1968-ci ildə 3 iyulda bu kəndin adını dəyişdirərək Ağnsadzor qoymuşdur.

## AĞKƏND KƏNDİNDƏKİ ONOMASTİK VAHİDLƏR

**Tayfa adları**

1. Kəblə Qulu tayfası
2. Cırtdıqlılar tayfası
3. Kalbay Qədim tayfası
4. Seyid Məmiş tayfası
5. Yelolar tayfası
6. Məmərza tayfası
7. Soltanlar tayfası
8. Kəblə Mərdan tayfası
9. Həmelər tayfası
10. Şığanın törəməsi
11. Hacılar
12. Çırtıxlı nəsli
13. Məmişlər
14. Yavər Alılar
15. Cəfərlər
16. Alməmmədlər
17. Güdüklülər
18. Gödəklilər

**Ləqəblər**

1. Pipikçalan Allahverdi
2. Qırro Allahverdi
3. Taqqur Cabbar

**Məhəllə adları**

1. Məmişlər məhləsi
2. Cəfərlər məhləsi
3. Güdüklülər məhləsi
4. Gödəklilər məhləsi

**Çay, bulaq və göl adları**

1. Yavər bulağı (1918-ci ilə qədər Yavər adlı kənd ayrı olub)
2. Qırmızı bulaq (Yavər kənd ərazisində)
3. Layış bulağı (Ağkənddən yuxarı Selim gədiyinin aşağısında)
4. Nağı bulağı, Nağı gölü
5. Acılı bulaq (Suyu turşdur. Əli dərəsinin başında)
6. Seyid Məmiş bulağı (Yaylaqdadır)
7. Təmo yurd bulağı (Böyük bulaqdır. Əyricəyə çatmamış)
8. Boynuyoğun bulağı (Əyricə ilə bitişik yerdə)
9. Qarxın (Qarxun) bulağı (Kiçik Əyricənin başlanğıcında)
10. Qaragöllər
11. Qaragöllər bulağı (iki gölün arasındadır)
12. Çatma bulaq (Hors kəndinin ərazisinə bitişik Didivan dağının ətəyində)
13. Usubölən bulağı
14. Qəbiristanlıq bulağı (kəndin altında)
15. Qırlar bulağı (Qırlıq yerdə)
16. Noxudduq bulağı
17. Gərməşov bulağı
18. Kəlbaqədim bulağı (kəndin içində)
19. Kolluq bulağı
20. Qetzo bulağı (Sınık gədiyinə yaxın yerdə)
21. İsmayıl gölü
22. Ağdərə çayı
23. Kolluq çayı
24. Əli dərəsi çayı (üç çay birləşib bir çay əmələ gətirir və bu çay Sallı, Tərətum, Kələkunux və Horsdan gələn çaylara qarışıb Həsənkənddə Arpa çayına qovuşur)
25. Karvansara çayı
26. Qara göl

**Meşə adları**

1. Kolluq meşəsi
2. Gendərə meşəsi
3. Kəlbəsüleyman meşəsi
4. Ağdərə meşəsi
5. Donuzatan meşəsi

**Yurd adları**

1. Seyid Məmiş yurdu (Selim gədiyinin sağ tərəfində)
2. Tap (Selimin başında)
3. Boynuyoğun (Kiçik Əyricəyə bitişik)
4. Qaragöllər yaylağı
5. Çatma yaylağı (iki dağın arasında yerləşir)
6. Fətəli yurdu

**Yol, cığır adları**
1. Qırrar yolu
2. Selimin yolu
3. Ağdərə yolu
4. Əlidərəsi yolu
5. Yavər kənd yolu
6. Seyidməmiş yolu

**Biçənək adları**
1. Çəm (sucuqluq, çim mənasındadır)

**Çınqıl adları**
1. Gədik çınqılı
2. Qala çınqılı
3. Göyçala çınqılı

**Karvansara adları**
1. Şahabbas karvansarası//Səlimin karvansarası
2. Selimin ayağındakı karvansaralar

**Qala və səngər adları**
1. Göyqala[1]

**Sahə, örüş, kövşən adları**
1. Qırlar
2. Ovçular
3. Qarağac
4. Layış
5. Layışın başı
6. Papaqlı daş
7. Sutökülən
8. Nağı görüb
9. Qarasaç
10. Kərməşovluq
11. Aşağı keçid
12. Orta keçid
13. Yuxarı keçid
14. Əli dərəsinin başı
15. Şırran
16. Seyidməmiş
17. Ağdaşın başı
18. Vəli güneyi

------------------

1. Selim yolunun üstündə, kiçik karvansaranın üstündə, təpənin başında. Təpənin qıraqları uçurumdur, qayadır. Yalnız bircə yerdən çıxmaq üçün yol var. Qalanın üstündə 15-18 dənə otaq boyda səngərlər var.

19. Vəli quzeyi
20. Kolluq
21. Gədik
22. Səngərin başı
23. Haça
24. Küçəbənd
25. Zağaların başı
26. Topun dalı
27. Körpülər
28. Pultapılan
29. Tap
30. Boynuyoğun
31. Şəyildi çuxuru
32. Usubölən
33. Ağdərə
34. Gendərə
35. Donuzatan
36. Kalafalar
37. Qaragöllər
38. Çatma
39. Qənbəralı demi
40. Givişlik
41. Demlər
42. Armud ağacı
43. Tülküdəməkləri
44. Qəmbər deminin başı
45. Armudluq
46. Əsgərin yeri
47. Qara sal
48. Qırmızı daş
49. Yusifölən
50. Quzey oyuq
51. Qara qayalar

**Dərə adları**
1. Əli dərəsi
2. Kəblə Süleymanın dərəsi
3. Abbasın dərəsi
4. Vəli dərəsi
5. Yavər dərəsi

**Arxac adları**
1. Qəndonun arxacı



Üçnefli binanın daxili sahəsi sütunlarla üç hissəyə bölünüb. Binanın daxili sahəsi 12,2x25,1 m, 306 m²-dir. Binanın daxili quruluşu üçnifli olmaqla üç hissəyə bölünür. Düzbucaqlı şəkildə 0,55x0,65 m ölçüdə hər cərgədə 9 dayaq olmaqla cəmi 18 dayaq bir-birilə yonulmuş daşla, ensiz pilonlarla möhkəm birləşdirilmişdir. Binanın daxili silindrik formada yan divarlara və iki sırada düzülmüş sütunlara tağlar vasitəsilə birləşdirilmişdir.

Sütunla sağ və sol divar arasındakı məsafə 3,5 metr, iki sütun arasındakı məsafələr 2 sütun arasındakı məsafə eninə 5 metr, uzununa isə sütunlar arasındakı məsafələr 2 metr olmuşdur.



Səlim aşırımında olan karvansaranın zalı ilə Ağkənd karvansarasındakı zal arasındakı fərq yalnız burada axur və su kanalının olmamasıdır. Daxili forma və quruluş etibarilə iki karvansara da bir eynilik təşkil edir.

Çox güman ki, abidə ilk dəfə Əbu Səid xan Bahadur tərəfindən Ağkənd kəndindən yuxarıda, dərədə inşa edilmişdir. Ağkənddən təqribən 8-10 km dolama yollarla yuxarı – Səlim gədiyinə doğru hərəkət edən karvan gədikdə dumanla-çənlə, qarla-boranla rastlaşanda karvan mütləq geri qayıtmaq məcburiyyətində qalırdı. Məhz bu çətinliyi, əzab-əziyyəti aradan qaldırmaq üçün Əbu Səid xan Bahadur ikinci karvansaranı Səlim gədiyində tikdirərək xeyirxah bir iş görmüşdür".[1]

## AĞKƏNDİN TƏK KARVANSARASI

Qeyd etməliyəm ki, Kamil Dərələyəzli "Dərələyəz od içində" kitabını yazarkən Dərələyəzdəki abidələr, o cümlədən bu abidə haqqında arxivlərdən, kitabxanalardan çoxlu məlumat toplamış və həmin məlumatlara əsasən fikir söyləmişdir. Mən bu məlumatları qənaətbəxş hesab etdiyim üçün onu olduğu

------------------------

1. Kamil Dərələyəzli. Dərələyəz od içində. Bakı, 2001, səh.83-84.

kimi verirəm: "Ədəbiyyatlarda az qeyd olunan Səlim aşırımında tikilmiş karvansaradan 12 km aşağı Ağkənd kəndinin yaxınlığında dərənin birində birsalonlu karvansara aşkar edilmişdir. Karvansaranın quruluşu Əbu Səid xan Bahadur karvansarasından və Ağkənd karvansarasından fərqlənir. Adları qeyd olunan karvansaralar üçnifli olduğu halda, sütunlar vasitəsi ilə bir-birinə bağlandığı halda, bu karvansara yarımdairə şəklində tikilmişdir.

M.Hartunyan qeyd edərək bildirmişdir ki, hər üç karvansara quruluş və memarlıq yaxınlığı ilə bir-birinə çox oxşardır. Hətta karvansaraları dəyişik salmaq olur. Karvansaranın tikilmə tarixi və "mənsubiyyəti" haqda heç bir məlumat yoxdur.

162 kv sahəsi ozan yeraltı keçidlərə bənzər birqapılı pəncərəsiz bu karvansaranın uzunluğu 20,8 metr, eni 7,8 metr olmaqla, hündürlüyü orta birləşmə xəttində 4:5 metr təşkil edir. Divarın qalınlığı 1,8 metrdir. Hər üç metrdən bir divarla bərabər 0,65 m kvadrat şəkilli, hər tərəfdən 6 sütun pilonlar vasitəsi ilə yonulmuş bazalt daşlarla yarımdairə formada bir-biri ilə birləşmişdir. Binanın daxili müasir metronun tunelinə bənzəyir. Daxili divar yonulmuş daşlarla hörüldüyü halda, çöl divar adi daşlarla hörülmüş və torpaqla basdırılmışdır.

Birsalonlu karvansaranın işıqlanması üçün baca şəkildə müxtəlif fiqurlar, deşiklər karvanların ortasından hörgülər vasitəsilə torpağın üst qatına çıxarılmışdır".[1]

## AĞKİLSƏ

Ağkilsə Dərələyəz mahalının Yeğeqnadzor (Keşişkənd//Keşkənd) rayonu ərazisində kənd adıdır.[2]

Qədim dövrlərdən 1918-ci ilə qədər bura azərbaycanlı kəndi olmuşdur. Tarixi və statistik məlumatlara əsasən, Ağkilsə kəndində 1873-cü ildə 65 nəfər, 1886-cı ildə 99 nəfər, 1897-ci ildə 102 nəfər, 1904-cü ildə 110 nəfər, 1914-cü ildə 121 nəfər, 1916-cı ildə 155 nəfər azərbaycanlı yaşamışdır.[3]

1590-cı və 1727-ci illərə aid tarixi mənbələrdə göstərilir ki, həmin dövrlərdə Ağkilsə kəndinin gəliri 3.090 ağça olmuşdur.[4]

1918-ci ilin qanlı hadisələri zamanı Ağkilsə kəndi ermənilər tərəfindən tamamilə dağıdılaraq yerlə-yeksan edilmişdir. Kənd əhalisinin bir hissəsi qırılmış, bir hissəsi isə Naxçıvana və Azərbaycanın digər bölgələrinə qaçmışdır.

-----------------------

1. Bax: Kamil Dərələyəzli. Dərələyəz od içində. Bakı, 2001, səh.84-85.

2. Mirzəyev H. Dərələyəzdəki Ağkilsə, Qışdaq kəndləri, Filologiya məsələlərinə dair tematik toplu, № 6 (18), Bakı, 2001, s.53-54.

3. Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1033; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 352; Историческая география Западного Азербайджана. Баку, 1998, стр.127-128. H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 244.

4. Z.Bünyadov, H.Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, səh.58; Z.Bünyadov, H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh.35.

Hal-hazırda ölü kəndə çevrilmiş Ağkilsənin xarabalıqları rayon mərkəzindən 14 km qərbdə, Yerevan-Yeğeqnadzor avtomobil yolu üzərində olan Yelpin kəndinin yaxınlığındadır.

Qeyd etmək lazımdır ki, Qafqaz bölgəsində Ağkilsə adında kəndlər çoxdur. Göyçədə (Aşıq Ələsgərin kəndi), Gəncə quberniyasında (İcevanda), Vedibasar mahalında, İrəvan əyalətinin Şıragel (Şurayel) nahiyəsində və digər yerlərdə Ağkilsə adında kəndlər mövcuddur.

Ağkilsə toponiminin əmələ gəlməsinə, formalaşmasına gəldikdə demək lazımdır ki, bu toponim də Azərbaycan dilinə məxsusdur. Bu toponim ağ və kilsə sözlərinin birləşməsindən əmələ gəlmişdir. Birinci tərəf, yəni ağ sözü qədim türk dillərində həm uca, işıqlı mənasında, həm də kiçik, xırda, balaca mənasında işlənmişdir. Bu sözdəki ağ sözünün mənaların hansını ifadə etdiyini dəqiq müəyyənləşdirmək üçün yerli şəraitə, oranın coğrafi relyefinə baxmaq lazımdır. Hər iki halda birinci tərəf xalis Azərbaycan sözüdür. İkinci tərəfinə gəldikdə isə kilsə (kəlisa) sözü də ərəb-fars dilindən Azərbaycan dilinə keçmiş və burada vətəndaşlıq hüququ qazanan sözdür.

## AĞSU

Ağsu Dərələyəz mahalının Yeğeqnadzor (Keşişkənd//Keşkənd) rayonu ərazisində kənd adıdır.

Bütün tarix boyu burada azərbaycanlılar yaşamışlar. Statistik məlumata əsasən Ağsu kəndində 1829-cu ildə 41 nəfər, 1879-cu ildə 71 nəfər azərbaycanlı olmuşdur. İndi bura ölü kəndə çevrilmişdir.[1]

Qeyd edək ki, mənbələrdə bu kənd haqqında məlumat çox azdır. Bu kəndin adı onun relyefinə görə verilmişdir. Göründüyü kimi, bu mürəkkəb sözün hər iki tərəfi xalis Azərbaycan sözüdür. Deməli, bu toponim də Azərbaycan xalqına məxsusdur. Ümumiyyətlə, Ağsu mürəkkəb sözündən törənmiş toponimlər bütün türk ellərində geniş yayılmışdır.

## AXTA

Axta Əzizbəyov rayonunda azərbaycanlı kəndidir. Rayon mərkəzindən 15 km məsafədə, Cul, Kabud və Gömür kəndlərinin əhatəsində yerləşir.[2]

Axta kəndinin içərisindən axan çay Arpa çayına tökülür. Bu kənddə tarixən zəyərək bitkisindən yağ çıxartdıqlarına görə bura bəzən Bəzirxana da deyilirdi.

Tarixi və statistik məlumatlardan aydın olur ki, bu kənddə 1831-ci ildə 187

---------------------

1. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, səh.352. Историческая география Западного Азербайджана. Баку, 1998, стр.128.

2. Mirzəyev H. Axta kəndi və onun ərazisində olan onomastik vahidlər, "Dədə Qorqud", № 1, Bakı, 2001, s.58-62; Mirzəyev H. Axta toponimi, Dil məsələlərinə dair tematik toplu, № 1, Bakı, 1998, s.40-41.

nəfər, 1873-cü ildə 290 nəfər, 1886-cı ildə 315 nəfər, 1897-ci ildə 426 nəfər, 1904-cü ildə 458 nəfər, 1914-cü ildə 504 nəfər, 1916-cı ildə 463 nəfər azərbaycanlı yaşamışdır.[1]

1918-ci ildə erməni şovinistləri başqa kəndlər kimi bu kəndin əhalisini də qırmış və onlara işgəncələr vermişlər. Sağ qalanlar isə kənddən birtəhər canını qurtarıb qaça bilmişlər. Dəhşətli fakt odur ki, bu kəndin yaşlı adamlarının dediyinə görə, 1918-ci ilin martında ermənilər bir gecədə bu kənddə 27 nəfər adamın başını kəsiblər. Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra kənd əhalisinin az bir qismi bura qayıda bilmiş, 1930-cu illərdə kolxoz yaranında bu kənddə 400 nəfərə yaxın azərbaycanlı yaşamışdır. 1948-1953-cü illərdə kənd deportasiyaya məruz qalmış, Azərbaycana köçürülmüşdür. Lakin kənd əhalisinin bir hissəsi Azərbaycandakı iqlimə dözməyib geri qayıtmışdır. 1988-ci ildə isə ermənilər bu kənd əhalisinin var-dövlətini əllərindən almış, özlərini isə bir həftə ərzində kənddən çıxarıb qovmuşlar. Hal-hazırda Axta kəndinin əhalisi Azərbaycanın müxtəlif yerlərində məskunlaşmışlar.

Qeyd edim ki, bu kənd əhalisinin əksəriyyəti əvvəlcə Şuşa rayonunun Malıbəyli kəndinə köçüb orada məskunlaşdılar. Lakin Malıbəyli kəndi də ermənilər tərəfindən işğal olunduqdan sonra onlar Bakı şəhərinə pənah gətirdilər və Buzovnada olan sanatoriyanın binasında yaşamağa məcbur oldular. Lakin 2003-cü ildə Azərbaycan Respublikasının prezidenti cənab Heydər Əliyevin sərəncamı ilə onlara Bakının Ramana və Mehdiabad qəsəbələrində ev tikdilər və onlar burada mənzillə təmin olundular. Bu kənd əhalisinin bir hissəsi də Füzuli, Bərdə rayonlarında və Naxçıvanda məskunlaşmışlar.

Akademik Ziya Bünyadov və Hüsaməddin Məmmədov yazırlar ki, 1590 və 1727-ci illərdə bu kəndin 2.900 axça gəliri olmuşdur.[2]

Axta toponiminin mənşəyinə gəldikdə demək lazımdır ki, bu ad xalis türk sözüdür və bu ad kəndin tarixini çox-çox qədim dövrlərə aparıb çıxarır. Fikrimizcə, kəndin adı onun coğrafi relyefinə görə verilmişdir.

Mən Əzizbəyov və Yeğeqnadzor rayonlarında təhsil şöbəsində müfəttiş işlədiyim müddətdə, 1955-1957-ci illərdə Axta kəndində dəfələrlə olmuşam və başqa kəndlər kimi bu kəndin relyefinə yaxşı bələdəm.

Axta kəndi dağlarla, qayalarla əhatə olunmuş dərədə, çala bir yerdə yerləşir. Kənd iki dağın arasındakı çıxıntı şəklində olan çalada yerləşir. Bir növ insan bədənini, insan budlarını xatırladır. Məsələnin mahiyyətini açmaq, Axta toponimini aydınlaşdırmaq üçün birinci növbədə "axta" sözü ilə bir məna yuvasından nəşət

-------------------

1. Статистическое описание Нахчиванской провинции, СПБ, 1833, стр. 172; И.Шопен. Исторические памятники состояние армянской областе в эпоху ее присоединения к Российской империи, СПБ, 1852, стр. 619; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, № 1001; Z.Korkodyan. Sovet Ermənistanın əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 88; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 340, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 246.

2. Z.Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, səh.60; Z.Bünyadov və Hüsaməddin Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh. 36.

edən və tarixi çox qədim dövrlərə gedib çıxan "ağ" sözünün məna və məna çalarlıqlarını araşdırmaq və bunlar arasındakı əlaqəni müəyyənləşdirmək lazımdır.

Qeyd etmək lazımdır ki, bir çox mənbələrdə "axta" sözü haqqında bu və ya başqa şəkildə məlumat verilmişdir.

Yazılı mənbələrdən məlum olur ki, "axta" sözü ilə "ağ-a:ğ" sözü bir məna yuvasından təşəkkül tapmışdır.

Qədim türk dillərində "ağ" sözü iki budun, iki paçanın arası, iki bud, iki paça arasındakı sahə, zolaq, tumanın, alt paltarın arası, ortası çıxıntı, çiv, paza oxşar çıxıntı, çaladakı çıxıntı mənasında ("клин", "пах", "ляжки", "тырныка" və s.) işlənmişdir. Müasir dilimizdə olan "ağ ət", "tumanın ağı", "şalvarın ağı" sözü də həmin ağ sözü ilə bağlıdır. "Axta" sözü isə toxumu, dənəsi, yumrusu (xayası) çıxarılmış, burulmuş, çevrilmiş at, adam, meyvə mənasında ("мерны", "холошенный самец", "катра" və s.) işlənmiş və işlənməkdədir.[1]

Axta sözündən əmələ gəlmiş axtaçı sözünə gəldikdə demək lazımdır ki, bu müəyyən peşəyə sahib olan tayfanın adıdır. Görkəmli tarixçi və türkoloq Qiyasəddin Qeybullayev yazır ki, Axtaçi XX əsrdə Padar tayfasının bir qolunu təşkil etmişdir.[2]

Məlum olduğu kimi, qədim dövrdə türk tayfalarının böyük bir qismi maldarlıqla məşğul olmuşdur. Tarixən erkək mal, qoyun və atları axtalayanlara (toxumluqdan kəsənlərə) "axtaçı" deyərmişlər. Türk dillərində, o cümlədən Azərbaycan dilində -çı, -çi, -çu, -çü şəkilçisi artırılan söz, əsasən, sənət sahibi mənasını bildirir. Məs.: arabaçı, bostançı, dəvəçi, dəmirçi, kürəkçi və s. Axtaçı sözü də bu yolla əmələ gəlmiş və bu peşəyə sahib olan, onu yaşadan tayfanın, sülalənin, nəslin adını yaşatmağa xidmət etmişdir ki, bunlar da çox zaman yaşadıqları kəndi bu adla adlandırmışlar.

Qeyd etmək lazımdır ki, axta sözünün və bundan əmələ gələn tayfa, sülalə və nəsil adını bildirən Axtaçı sözünün arealı çox böyükdür. Dərələyəzdə Axta, Axtacul, Dərəçiçəkdə Axta, Krımda Axta, Qafanda Axta, Başqırdıstanda Axta, Ağsuda Axtaçı, Kürdəmirdə Axtaçı, Sabirabadda Axtaçı, Axtaçı Muğan, Axtaçı Şirvan və Cəlilabadda Axtaxana kəndlərinin olması, İrəvan yaxınlığında böyük bir rayona Axta adının verilməsi buna canlı sübutdur.[3]

---------------------

1. M.Kaşğari. Divani-lüğət-it türk. I cild, Ankara, 1939, səh.80. (Tərcümə edəni Besim Atalay); Древнетюркский словарь. Л., 1969, стр.16; В.В.Радлов. Опыт словаря тюркских наречий, I. ч. 116; Л.Будагов. Сравнительный словарь турецко-татарских наречий, т. I., СПБ, 1896, стр.17. Э.В.Севортян. Этимологический словарь тюркских языков, Москва, 1974, с. 68-77.

2. Q.Qeybullaev. Топонимия Азербайджана, 1986, s. 57.

3. Bax: Ziya Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri, Bakı, 1996, s. 60; Q.Qeybullaev. Топонимия Азербайджана, Baku, 1986, s. 5, 57; Q.Qeybullayev. Qədim türklər və Ermənistan, Bakı, 1992, s. 69. Статистическое описание Нахчиванской провинции, СПБ, 1833, сТР. 172; Свод статистических данных о населении Закавказского края, Тифлис, 1893, №1001; Y.Yusifov, S.Kərimov, Toponimiyanın əsasları, Bakı, 1987, s. 171; Azərbaycan SSR-nin inzibati-ərazi bölgüsü. Bakı, 1968, s. 141; Tofiq Əhmədov. Azərbaycan toponimikasının əsasları. Bakı, 1991, s. 163; Ermənistanın inzibati-ərazi bölgüsü. Yerevan, 1976, səh. 31; Türk dünyası araşdırmaları, İstanbul 1987, №48, s. 120-121; M.Acaroğlu. Bolqarıstanda türkcə yer adları. Ankara, 1988, s. 211; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, s. 340.

Axta kəndinin onomastik vahidləri zəngindir. Bunları nəzərdən keçirmək yerinə düşər.

**Tayfalar**
Həsənnannı tayfası (əsas tayfa)

**Sonrakı tayfalar**
1. Birimli tayfası
2. Albəyli tayfası
3. Alanqlı tayfası

**Daha sonrakı tayfalar**
1. Məmmədvəlilər
2. Murğuzalılar
3. Məmişlilər
4. Almədətlilər
5. Tanrıverdilər
6. Şanolular
7. Təmrazlılar
8. Çıçaqlılar (kökü kəsilib)
9. Vəlilər (kökü kəsilib)

**Məhəllə adları**
1. Yuxarı məhəllə - Alanqlılar
2. Orta məhəllə - Albəylilər
3. Aşağı məhəllə - Birimlilər

**Sahə, örüş, kövşən adları**
1. Şərəf sultan - kövşənlər
2. Yemişanlı
3. Binələr
4. Səfi binəsi
5. Sandıqlar
6. Yanıqlar
7. Ayrımlar
8. Almalıqlar
9. Çölməklər
10. Göllər
11. Qumlar
12. Qurdlu güney
13. Daşlı güney
14. Orta güney
15. Qarağaclı
16. Qırmızı güney
17. Rusölən güney

18. Şano çuxuru
19. Sinolar
20. Çay yuxarı

**Dərə, arxac adları**
1. Daş arxacı və dərəsi
2. Vənni dərə
3. Binə arxacı
4. Sino dərəsi
5. Ayrımın dərəsi
6. Xaç dərəsi
7. Demyənin dərəsi
8. Tülkü dərəsi
9. Şahbazın dərəsi
10. Murtuzalı dərəsi

**Qala, səngər, karvansara adları**
1. Qalaça (Kəllə qaya səngəri)
2. Qaraxan quzeyinin səngəri
3. Yanığın səngəri
4. Meşə başının səngəri
5. Şuşa qalası

**Çınqıl adları**
1. Şahbazın çınqıllığı
2. Uçuğun çınqıllığı

**Yol, cığır adları**
1. İt yolu
2. Korbulağın yolu
3. Karvan yolu (Zəvvar yolu)
4. Meşə yolu

**Biçənək adları**
1. Göllərin biçənəyi
2. Yanığın biçənəyi
3. Almalıq biçənəyi
4. Xanonun biçənəyi
5. Cəfərin biçənəyi
6. Çay yuxarı biçənək
7. Lazım armudun biçənəyi
8. Binənin biçənəyi

**Yurdlar**
1. Qayaarası yurd

2. Dərə yurdu
3. Qazma yurdu
4. Dolulu yurd
5. Ağ yarğan yurdu
6. Hüseynalı düşən yurd

**Meşələr**
Axta meşəsi (ardıclıq)

**Çay, bulaq, göl, gözə və bataqlıq adları**
1. Axta çayı
2. Yanığın bulağı
3. Qasım bulağı
4. Nəbi bulağı
5. Cahangirin bulağı
6. Yoxuş bulağı
7. Ağ bulaq
8. Rusölən bulağı
9. Xanonun bulağı
10. Qabaqlı gözə
11. Kor bulaq
12. İydəlik bulağı
13. Qarağaclıq
14. Almalıq bulağı
15. Almalıq bataqlığı
16. Təknəli bulaq

**Qəbiristanlıq adları**
1. Axta qəbiristanlığı (sonuncu)
2. Novuzlar qəbiristanlığı
3. Pirin dalı qəbiristanlığı
4. Tala yerinin qəbiristanlığı
5. Adamqırılan qəbiristanlıq (1918-ci ildə mart ayında bu qəbiristanlıqda bir gündə 27 nəfəri basdırıblar)

**Yal, dağ adları və aşırımlar**
1. Paşalı yalı
2. Meşə yalı
3. Sarı yal
4. Qaraxan yalı
5. Almalığın yalı
6. Mozrokun yalı
7. Kəllə qaya aşırımı
8. Banav dağı
9. Pirin yalı

**Abidə adları**

1. 1941-1945-ci illərdə Böyük Vətən müharibəsində həlak olanların xatirəsini əbədiləşdirmək üçün 1965-ci ildə Axta kəndinin içində bulağın üstündə abidə qoyulmuşdur.

2. Hovuzlarda albanlara məxsus xaç daşları, böyük daşlar var idi.

**1937-ci ilin repressiya qurbanları**

1. Şadmanov Alı
2. Hüseynov Həsənalı
3. Cəmil Tahir oğlu
4. Qafarov Fərman
5. Qafarov Fərmayıl
6. Qafarov Süleyman
7. Qafarova Müşkünaz
8. Həsən Haqverdi oğlu

Hamısı sürgündə ölüb

**Axta kəndindən 1941-1945-ci il Böyük Vətən müharibəsinə gedənlər**

**a) qayıtmayanlar**

1. Hüseynov Məmmədhüseyn
2. Cabbarov Ələkbər
3. Məmişov Nəriman
4. Cəlilov Qasım
5. Usubalıyev Əli
6. Ağamalıyev Məhəddin
7. Kamalov Əvəz
8. Kərimov Kərim
9. Şanoyev Baxşəli
10. Məmmədov Bəhmən
11. Məmmədov Məmmədvəli
12. Almuradov Cümşüd
13. Məmmədov Həsən
14. Məmmədov Allahverdi
15. Nuriyev Hüseyn
16. Şahhüseynov Məmmədqulu
17. Nuriyev Güləhməd
18. Xudumov Həsənqulu
19. Xudumov Xudu
20. Kürdiyev Həsən

**v) qayıdanlar**

21. Şahhüseynov Meytiqulu
22. Şanoyev Şirəli

23. Murtuzayev Bəyiş
24. Ağamalıyev Abbas
25. Murtuzayev Əbdüləzim
26. Murtuzayev Qəhrəman
27. Cəlilov Ramazan
28. Taroyev Taro
29. Məmmədov Bilal
30. Məmmədov Cəlal
31. Almuradov Heydər
32. Almədətov Almədət
33. Bəxtiyarov Əkbər
34. Hüseynov Mərdan
35. Xuduşov Cəfərqulu
36. Haqverdiyev Abbas
37. Haqverdiyev Bürcəli
38. Məmmədov Əbdürrəhman
39. Hüseynov Peşi

## 1988-2001-ci illərdə Qarabağda şəhid olanlar

1. Hümbətov İnqilab (1992-ci ildə)
2. Murtuzayev Qadir (Füzulidə)
3. Xudumov Vidadi (Tərtərdə)

Qarabağ döyüşlərində əlil olanların sayı təxminən 50 nəfərə yaxındır.

## Görkəmli adamlar

1. Məmmədov Əbdürrəhman - 1918-1920 (türklərin seçdiyi yüzbaşı olub) illərdə ermənilərlə qanlı döyüşlərə girib.
2. Şanoyev Şirəli - el ağsaqqalı, ermənilərlə çox vuruşub, cəsur adam olub.
3. Şahhüseynov Allahqulu Xalıqverdi oğlu, Axta, Gomur və Kabud kəndlərinin orta məktəbinin direktoru, SSRİ maarif əlaçısı olub. El ağsaqqalı olub, sovxoz direktoru işləyib, kəndlərə su, telefon, yol çəkdirib, körpü saldırıb.
4. Məmmədov Bilal - el ağsaqqalı
5. Tanırverdiyev Tanırverdi Məmmədqulu oğlu - el ağsaqqalı, sovet sədri.

Axta kəndində aşıqlar (Fərman, Qafar, Süleyman), musiqiçilər, qara zurna ustaları da yaşamışdır.

**İnformatorlar:** Bu məlumatların toplanmasında Axtada doğulub boya-başa çatmış, 1951-ci il təvəllüdlü Şahhüseynov Sabir Allahqulu oğluna və 70 yaşlı Hümbətov Əkbər Şirəli oğluna minnətdarlığımı bildirirəm.

## AXTACUL

Axtacul kəndi Əzizbəyov rayonunda Komur kəndinin qədim adıdır. Tarixi faktlar göstərir ki, bu doğrudan da belə olmuşdur. Belə ki, Komur kəndi Axta kəndinin yaxınlığında, onun qonşuluğunda yerləşir və çox güman ki, bura da vaxtilə Axta adı ilə adlanmışdır.

Belə bir cəhəti də qeyd etmək lazımdır ki, Komur kəndinin əhalisi ilə Cul kəndi əhalisinin ləhcələrində bir yaxınlıq vardır. Deməli, Cul kəndindən də müəyyən adamlar tarixin müəyyən dövrlərində gəlib bu kənddə məskunlaşmış, ona görə də kəndin adı Axtacul şəklində formalaşmışdır.

Yaşlı adamların dediyinə görə bu kənd 1918-ci ildə ləğv edilmişdir.

Oykonim padar türk tayfasının bir qolu olan axta etnonimi və qədim türk tayfası olan cul etnoniminin birləşməsindən (axtacul) törənmişdir.[1]

## AXURLU

Axurlu Dərələyəz mahalının Yeğeqnadzor (Keşkənd) rayonunda azərbaycanlı kəndi olmuşdur. Axurlu kəndi Arpa çayının yuxarı axarının sol sahilində yerləşmişdir. Kəndin ləğv olunması haqqında dəqiq məlumat yoxdur.

Qədim mənbələrdə, o cümlədən erməni mənbələrində Axuran//Axursan adında çay və qalanın olduğu da göstərilir. Bu bizim eradan əvvəl 786-cı ilə təsadüf edilir.[2] M.Xorenski (IV əsrdə) öz salnaməsində Axuran adında çay olduğunu göstərmişdir.[3]

Qeyd etmək lazımdır ki, Zərdüştlik dövründə Ahura-Məzda toponiminin adı xeyir allahı kimi də tanınmışdır. Maraqlı cəhət odur ki, Ahura derivatlı toponimlər türk xalqları yaşayan ərazilərə areal toponimi kimi daha çox yayılmışdır. Məsələn, Diyarbəkirdə Ahur, Ahurlar, Ahurlu, Maraş bölgəsində Ahur dağı, Ərzurumda Ahurğul, Vanda Yuxarı Ahur, Aşağı Ahur, Naxçıvanda Ahura// Axura, Bolqarıstanda Ahur köy (kənd) adları mövcuddur. Lakin bəzi tədqiqatçılar erməni tarixçilərinin ideyalarına uyaraq Axurlu etnonimini ot axuru ilə əlaqəndirir və bununla da səhvə yol verirlər.[4]

Axura toponimi türk xalqlarına məxsus toponimdir.

------------------------

1. İ.Bayramov. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı, 2002, səh.84.

2. Т.Х.Акопян. Ст. Т.Мелик-Бахшян, О.Х.Барсегян. Словарь топонимов Армении и прилегающих областей, Ереван, 1986, стр.125.

3. М.Хоренски. История Армении. Москва, 1893, стр.90.

4. К.Ф.Ган. "Опыт объяснение Кавказских географический названий", СМОМПК, 1909; Aslan Bayramov. Qədim Oğuz ellərinin – Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin yer-yurd adları (toponimləri), Sumqayıt, 1996, səh.117.

# ALXANPƏYƏSİ (ALIXAN PƏYƏSİ)

Alxanpəyəsi Dərələyəzdə kənd adıdır. Bu kənd Keşkənd (Yeğeqnadzor) rayonunda Həsənkəndlə Qoytul kəndlərinin arasında, Arpa çayının bir qolunun sahilində, Şərur və Keşkənddən Göyçəyə gedən şose yolunun (ipək yolunun) üstündə yerləşir.

Tarixi mənbələrdən məlum olur ki, bu azərbaycanlı kəndində 1831-ci ildə 18, 1873-cü ildə 54, 1886-cı ildə 66, 1897-ci ildə 100, 1904-cü ildə 175, 1914-cü ildə 192, 1916-cı ildə 112 nəfər azərbaycanlı olmuşdur.[1] Yaşlı adamların dediyinə görə 1905-1907-ci illərdə, erməni-müsəlman davasında bu kəndin yaxınlığında (dağın döşündə) olan Kaha, Bülbülölən və Məşədilər kəndlərinin əhalisi də bura köçmüş və ermənilərə qarşı birgə vuruşmuşlar.

1918-ci ildə bu kənd ermənilər tərəfindən yandırılıb dağıdılmış, əhalisinin əksəriyyətini ermənilər qırmış, qalanları isə qaçıb müxtəlif yerlərə getmişlər. Qaçqınlıqdan qayıdandan sonra 1922-ci ildə buraya cəmi 22 nəfər azərbaycanlı qayıtmışdır. Lakin erməni şovinistləri azərbaycanlıları bu kəndə qoymamış, onlar Hostun və Ələyəz kəndlərində məskunlaşmışlar. 1988-ci ildəki deportasiyadan sonra isə onlar, əsasən, Naxçıvanda (Əznəbütdə), Suraxanı və Sabunçu rayonlarında yerləşmişlər.

Bu kəndi Vəkilovlar nəslindən olan Alıxan inşa etmişdir. Alıxan Naxçıvanda yaşayırdı. Burada Alıxan qış, payız və yaz aylarında özünün mal-qarasını, qoyunlarını saxlayarmış.

Dərələyəzin Çivə kəndindən olan, 30 il Bakı şəhər plan komitəsinə rəhbərlik edən İlyas Vəkilov ilə Səməd Vurğunun böyük qardaşı Mehdixan Vəkilovun dediyinə görə Alxanpəyəsini bərpa edən Alıxan Vəkilovların babalarından biridir (Mən bu söhbətin iştirakçısı olmuşam). Vəkilovların bir hissəsi Dərələyəzdə qalmış, bir hissəsi isə Qazaxda məskən salmışlar. Dərələyəzdə qalanların bir hissəsi isə sonralar Şərura və başqa yerlərə köçmüşlər.

Qeyd etməliyəm ki, bu kəndin yaxınlığında "Ağvəng" (Ağvank) adlı qədim abidənin qalıqları indi də qalmaqdadır.[2]

Kəndin qırağında, güneydən gələn xırda çayın üstündə qədim və sütunsuz bir körpü də vardır.

Erməni dilində "ə" hərfi olmadığı üçün "vəng" sözü erməni mənbələrində "vank" formasında yazılmışdır. Ağvəng burada Kiçik vəng mənasındadır.[3] Al-

---------------------

1. И.Шопен. Исторические памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи, СПб, 1852, сТР. 615; Свод статистических данных о населении Закавказского края извлеченных из просеменных списков 1886 г. Тифлис, 1893, сТР. №1009; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 352, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 244.

2. Mirzəyev H. Alxanpəyəsi//Alıxan pəyəsi toponimi, Dil məsələlərinə dair tematik toplu, № 1, Bakı, 1998, s.65-67.

3. Ağ və vəng sözlərinin hansı mənalarda işlənməsi haqqında başqa yerdə bəhs etdiyim üçün burada onları bir daha təkrar etməyi lazım bilmirəm.

xanpəyəsindəki qədim körpüyə gəldikdə deməliyəm ki, mən şəxsən bu körpünün üstündən saysız-hesabsız dərəcədə həm piyada, həm atla, həm də maşınla keçmişəm. Şərq üslubunda, güneydən gələn dərənin (selovun) üstündə, yonulmuş daşlardan sütunsuz (dirəksiz) tikilmiş bu möhkəm körpüyə dönə-dönə nəzər yetirmişəm.



Ələyəz dərəsindən, Göyçədən Şərura, Vediyə, İrəvana, Naxçıvana və rayon mərkəzinə gedənlərin hamısı bu körpünün üstündən keçməlidir. İpək yolu da bu körpüdən keçir. Körpünün ümumi uzunluğu təxminən 30 metrə yaxındır. Eni 6-8 metr, yerdən (orta xətdən) hündürlüyü isə 9-10 metr olar. Son dövrlərdə ermənilər təmir adı altında körpünün arxitekturasını qismən dəyişdilər. Yeni üslubda ona bitişik yeni bir körpü saldılar və Azərbaycan xalqına məxsus bu qədim abidəni tarixdən silməyə çalışdılar. Lakin tarixi həqiqətlər heç vaxt itmir.

Bu körpünün nə vaxt inşa edilməsi haqqında, əsasən, iki fikir mövcuddur. Mənbələrin bəzilərində bu körpünün 1666-cı tikildiyi göstərilir.[1] Başqa bir mənbədə isə bunun 1340-1344-cü illərdə Süleyman xan tərəfindən tikildiyi qeyd edilir.[2] Məncə ikinci fikir daha ağlabatandır.

## ALMALI

Almalı Dərələyəzdə Keşkənd rayonunun azərbaycanlı kəndinin adıdır.[3] Yelpin, Ardaraz, Qozulca kəndlərinin yaxınlığında yerləşir. Statistik məlumatlardan aydın olur ki, 1873-cü ildə bu kənddə 172 nəfər, 1886-cı ildə 231 nəfər, 1897-ci ildə 277 nəfər, 1904-cü ildə 315 nəfər, 1914-cü ildə 345 nəfər, 1916-cı ildə 360 nəfər əhali yaşamışdır.[4]

---------------------

1. Акопян Т.Х., Мелик-Бахшян Ст.Т., Барсегян О.Х. Словарь топонимов Армении и прилегающих областей, том I, Ереван, 1986; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, səh.352.
2. Kamil Dərələyəzli. Dərələyəz od içində. Bakı, 2001, səh. 921-922.
3. Mirzəyev H. Almalı kəndi və onun bəzi onomastik vahidləri haqqında, Filologiya məsələlərinə dair tematik toplu, № 3-4, Bakı, 2001, s.17-20.
4. Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1035; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 353, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 244.

1918-ci ildə erməni daşnakları tərəfindən kənd dağıdılmış, əhalisinin bir hissəsi qırılmış, digər hissəsi isə qovulmuşdur. Ermənistanda Sovet hakimiyyəti qurulandan sonra 1922-ci ildə bu kənd əhalisindən cəmi 94 nəfər öz doğma kəndinə qayıtmışdır. 1931-ci ildə kəndə qayıdan qaçqınların sayı 145-ə çatmışdır. Bundan sonra əhali xeyli artmış, lakin 1939-cu ildə erməni şovinistləri əhalisinin əksəriyyəti seyid olan bu kəndi erməni kəndi olan Yelpinlə birləşdirdilər. Ona görə də kənd əhalisinin hərəsi bir yana dağıldı.

Məlum olduğu kimi, Ermənistan hökuməti azərbaycanlılar yaşayan kəndlərin sayını azaltmaq üçün müxtəlif vasitələrə, müxtəlif hiylələrə əl atmışlar. Bu hiylələrdən biri də 1939-cu ildəki hadisələrdir. Ermənistan hökuməti, o cümlədən, rayon rəhbərliyi 1939-cu ildə rayonda olan kiçik kəndləri məhv edib böyük kəndlərə birləşdirmək haqqında qərar verdilər. Məsələn, azərbaycanlılar yaşayan Hosdun kənd əhalisini Ələyəz kəndinə, Ertişi Qaraqayaya, Nəbiləri Gülüdüzünə, Canını Qabaxlıya köçürdülər. Almalı kəndi haqqında isə lap ağılasığmaz qərar qəbul etdilər. Kənd əhalisinin əksəriyyətini təşkil edən seyid, molla, din xadimini ermənilər yaşayan Yelpin kəndinə köçürməyə qərar verdilər. Ermənilər yaxşı bilirdilər ki, almalılar bu kənddə yaşamayacaqlar. Belə də oldu, Almalı kəndindən əhalinin çox az bir hissəsi Yelpinə köçdü. Kənd əhalisinin əskəriyyəti Şərur rayonunun Künnüt, Ağbulaq, Dizə, Oğlanqala kəndlərinə, Dərələyəzdə Çivə kəndinə, Bərdənin Həsənqaya kəndinə və Bərdədə yaşayan Təhlə tayfasının (tərəkəmələrin) içinə köçüb getmişlər.

Almalı kəndindən Yelpində qalan tək-tək azərbaycanlılar isə 1949-cu ildə Salyan rayonuna deportasiya olunmuşdur ki, bunların da bir qismi iqlimə uyğunlaşmayıb dünyalarını dəyişmişlər.

Hal-hazırda Almalı kənd sakinlərindən Bərdə rayonunun İmirli və Şəki rayonunun Üzümçülük sovxozu adlanan kənddə yaşayanlar da vardır.

Dərələyəzin başqa kəndlərində olduğu kimi, erməni millətçiləri Almalı kəndində də qanlı cinayətlərə əl atmışlar. Bunlardan yalnız birini oxucuların və gələcək nəslin diqqətinə çatdırmaq istəyirəm.

Almalı kənd sakini, Almalı seyidlərindən Seyid Həsənin nəslindən olan, hal-hazırda Bərdə rayonunun İmirli kəndində yaşayan 70 yaşlı Seyidov Tahir Seyid Mirzə oğlu və Almalı kəndinə yaxın yerdə yerləşən Çivə kənd sakini, 80 yaşlı Böyük Vətən müharibəsi iştirakçısı, hal-hazırda Bakı şəhərində yaşayan müəllim Abbasov Əhməd 1918-ci ildə Almalı kənd əhalisinin başına gələn bir hadisəni belə dilə gətirdilər: "1918-ci ildə ermənilər bir neçə dəfə Almalı kəndinə hücum edirlər, lakin kəndi dağıda bilmirlər. Gediş-gəliş yolu kəsilir. Yelpin kəndindəki ermənilərin Məliyi Yeqor hiylə işlədərək Almalı kəndinə elçi göndərir və deyir ki, kənddən bir neçə ağsaqqal gəlsin, sülh bağlayaq. Almalı camaatı bu hiyləyə inanır və 6 ağsaqqal (Seyid Həşim, Molla Rza, Molla Məmmədqulu, Əmiraslan, Abbas, Babaş) atlarına minib Yelpin kəndinə gedirlər. Məlik bunları qapıda çox təmtəraqla qarşılayır və evə dəvət edir. Bunlar evdə oturan kimi Məlik ermənilərə işarə edir və qoçu dəstəsi bu altı ağsaqqalın qollarını bağlayır, işgəncə verə-verə başlarını kəsir və üstlərinə neft töküb odla-

yırlar. Almalı camaatı bu hadisədən sarsılır və kənddən qaçmağa məcbur olur".

Almalı seyidləri haqqında Seyidov Tahir Mirzə oğlu belə bir məlumat verir: "Babamız Mir Həsən ağa söyləyərmiş ki, İranın Girmanşah mahalında qohumlarımız vardır və bizim nəslimizin əksəriyyəti həkim olmuş, türkəçarə yolla yüzlərlə xəstəni sağaltmışlar".

Qeyd etməliyəm ki, Almalı seyidlərindən olan Mir Həsənağanın oğlu Seyid Tahirin, Seyid Əsədin, Seyid Rzanın yaxşı türkəçarə həkim olmaları, möcüzələr yaratmaları dillərdə əzbərdir.

Mən Seyid Əsədi və Seyid Rzanı şəxsən tanıyıram və onların belə möcüzələrinin şahidi və iştirakçısı olmuşam. Bunlardan bir neçəsini oxucuların nəzərinə çatdırmaq istəyirəm.

1955-ci ilin yay ayları idi. Seyid Rza (Şərurda yaşayırdı) mənim doğulduğum Qovuşuq kəndinə gəlmişdi. Ağsaqqallar xahiş etdilər ki, o, bu kəndin müəllimi Əsgərov Mamed Hümmət oğlunun üzündəki yaraya baxsın. Bu xəstə Bakıda, İrəvanda, Naxçıvanda elə bir həkim, elə bir cərrah qalmamışdı ki, onlara müraciət etməsin. Onun bir üzünün ortasından özək şəklində ət çıxıb uzanırdı. Heç bir həkim buna çarə edə bilmirdi. Seyid Rza ona baxıb gülə-gülə dedi ki, bunun dərmanı beçə balı və yaxşı qoyun südünün qaymağıdır. Sonra da əlavə etdi ki, bir həftə səhər-səhər bu yeməyi mən yeyəcəyəm və o xəstəlik sağalacaqdır. Seyid Rza təxminən 10 gün bu kənddə qalıb o xəstəni mülacıə edib sağaltdı. Dərmanlar, məlhəmlər vasitəsilə xəstənin üzündəki barmağa oxşar əti çıxartdı və heç bir cərraha ehtiyac qalmadı.

1944-cü ilin payızı idi. Bərdənin Qazaxlar kəndi ilə Xəsili kəndinin arasında çobanın ənik iti qəflətən mənim üstümə cumdu. Əlimdə ağac yox idi. Çoban qışqırdı ki, pencəyini əlinə dola özünü qoru. İt sağ əlimi ağzına saldı və baş barmağım olan nahiyəni parçaladı. Çoban məni xilas etdi. Yoğun, kök, ağır yerişli Seyid Əsəd alaçıqdan çıxıb hay-küyə gəldi. Dərhal süd, bal, çoban yastığı, sabun, bir də nəsə istədi. Bunları qatıb ovcunda ovdu, məlhəm halına saldı və əlimə bağladı. 3 gündən sonra dərmanı yenidən hazırladı, başqa otlar da əlavə edib əlimi sarıdı. İndi sağ əlimdə baş barmağımın yanında onun izləri qalmışdır.

Yenə həmin il yaylaqda, Dikpilləkəndə axşamüstü mən qəflətən sancılandım. Qışqırtım yeri-göyü ağzına götürmüşdü, alaçığın qapısında xalçanın üstündə uzanmışdım. Seyid Əsəd oturduğu çəmənin üstündən bir neçə bağayarpağı özəyini qırdı, xırda-xırda doğradı, anama verib dedi ki, at çaynikin içinə, qoy yaxşı dəmlənsin, bir az da kəklik otu at, sonra ver içsin. İki stəkan içəndən sonra sancım dərhal kəsdi.

Dağ döşündə yerləşən Almalı kəndində alma bağları olduqca çoxdur. Ona görə də əski türklər bu kəndi Almalı adlandırmışlar. Deməli, kəndin adı alma və çoxluq bildirən -lı şəkilçili sözdən ibarət fitotoponimdir.

## Almalı kəndində olan onomastik vahidlər

### Tayfa, sülalələr və nəsillər

1. Seyidlər

2. Təkəçilər
3. Kürənlər (kəpəlilər)
4. Qaraxıdranlı
5. Almalı
6. Qara Xudular
7. Gənəli

**Məhəllə adları**
1. Ocaqdüzü məhəlləsi
2. Dərəbiçənək məhəlləsi
3. Ağyorğan məhəlləsi

**Örüş adları**
1. Dərəbiçənək
2. Dəhnə
3. Daşaltı

**Biçənək adları**
1. Çaxmaqlı
2. Almalı

**Yer adları**
1. Yellicə
2. Orta yol
3. Arxaşan
4. Almalı Binnətalısı
5. Kəhrizli
6. Yemişanlı
7. Başyurd
8. Sulu dərə

**Yurd adları**
1. Tostuq
2. Qara quzey
3. Siçanlı

**Dağ adları**
1. Siçanlı dağları

## 1937-ci ildə repressiyaya məruz qalanlar

1. Seyidov Seyid Sultan oğlu
2. Kəlbayəli Xüdaverdi oğlu
3. Seyid Tahar
4. Seyid Pərvanə
5. Əli (Qaraxıdranlı)

**Almalı kəndindən 1941-1945-ci il Böyük Vətən müharibəsinə gedənlər**

1. Seyidov Mahmud Sultan oğlu
2. Həsənov Musa Həsən oğlu
3. Həsənov Əhməd
4. İsmayıl Məşədhüseynqulu oğlu
5. İsmayıl

**İnformator:** Məmmədov Məmməd, 1923-cü il təvəllüdlü (80 yaşında), Almalı kəndində işləmiş Ardaraz kənd sakini, polkovnik-leytenant, hal-hazırda Saatlı rayonunda yaşayır, 1949-cu ildə Məmmədabad kəndinə deportasiya olunmuşdur.

## ALMALI

Almalı İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında Əzizbəyov rayonunda yerləşən kənddir.

Rayon mərkəzindən 15 km cənub-şərqdə yerləşən bu kənd hal-hazırda Ermənistan Respublikasının Əzizbəyov rayonuna daxildir. Almalı kəndinin adı 1946-cı il 12 noyabr tarixli fərmanla dəyişdirilərək Xndzorud adlandırılmışdır.[1]

Əvvəllər bu kənd xalis azərbaycanlı kəndi olmuşdur. Lakin 1828-ci ildən sonra kənddə azərbaycanlılar və ermənilər qarışıq şəkildə yaşamağa başlamışlar. 1897-ci ildə kənddə 767 nəfər erməni, 34 nəfər azərbaycanlı olmuşdur[2]. Azərbaycanlılar get-gedə kənddən sıxışdırılıb çıxarılmışdır. Azərbaycanlıların Ermənistandan deportasiyası nəticəsində bu kənd hal-hazırda erməni kəndinə çevrilmiş və bu kəndin əhalisi indi Azərbaycanın ayrı-ayrı şəhər və rayonlarında məskunlaşmışlar.

Apardığımız araşdırmalara əsaslanıb deyə bilərəm ki, bu kəndin adı onun relyefinə görə verilmişdir. Çoxlu alma bağları, alma ağacları olduğu üçün bura Almalı adlanmışdır.

## ALMALI

Almalı Dərələyəzdə Yeğeqnadzor (Keşişkənd) rayonunda azərbaycanlı kəndidir. Buna Canı Almalısı da deyilir. Qabaxlı kəndi ilə Canı kəndinin arasında yerləşir. Gülüdüz kəndində Məşədməmmədxanlılar tayfasına məxsus evlərin qənşərindədir.

---------------------

1. Т.Х.Акопян. Ст. Т.Мелик-Бахшян, О.Х.Барчегян. Словарь топонимов Армении и прилегающих областей. Том I, Ереван, 1986, с.97.
2. Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931). Yerevan, 1932, səh. 88.

Kəndin çaya tərəf olan hissəsi palıd meşəliyi ilə əhatə olunmuşdur. Kəndin yerləşdiyi sahədə çoxlu cır alma, alça ağacları vardır. Kənd çox səfalı bir yerdə, sıldırım qayanın üstündə olan böyük bir yastanada, Canı kəndinin qərbində yerləşmişdir. Bu ərazi təbiətin ən gözəl guşələrindən biridir. Dəniz səviyyəsindən 2300 metr yüksəklikdə yerləşib.

Almalı çayının sağ sahilində, Almalı düzü adlanan sahədə böyük bir qəbiristanlığın izləri qalır. "Bu qəbiristanlıq başqa qəbiristanlıqlardan bir qədər fərqlənir. Qəbirüstü daşlarda heç bir yazı yoxdur, yalnız daşın üst nahiyəsində insan rəsmi həkk olunmuşdur. Qəbirüstü daşların ölçüsü təqribən 180-200x60-80x70-90 sm ölçüdədir. Uşaq qəbirüstü daşları müxtəlif ölçüdə düzəldilmişdir. Almalı qəbiristanlığında olan onlarla daşların üst nahiyəsində insan rəsmləri həkk olunmuşdur. Qadın məzarlarındakı qəbirüstü daşın boyun nahiyəsində isə üç-dörd cizgi vasitəsi ilə muncuq forması işarə edilmişdir. Kəndin yaxınlığında 15-20 metr uzunluğunda, 8-10 metr enində torpaq altında qalmış qədim bir binanın qalıqları da vardır.

Almalı toponimi Azərbaycan xalqına məxsusdur və bu kəndin relyefinə görə ona bu ad verilmişdir. Başqa sözlə, Almalı adı həmin ərazidə alma ağaclarının çox olması ilə əlaqədardır. "Buradakı müxtəlif rəngdə və ölçüdə olan alma meyvələrinin qoxusu insanları heyran edir. Dərələyəz mahalını cənnət adlandırsaq biz heç vaxt yanılmarıq. Almalı isə cənnətin ortasındadır. Dünyanın ən çox dərman bitkilərini burada tapmaq olar".[1]

## AMAĞU//ƏMƏĞU

Amağu//Əmağu Dərələyəz mahalının Keşkənd//Keşişkənd rayonunda azərbaycanlı kəndinin adıdır və kənddə həmişə, bütün tarixi dövrlərdə azərbaycanlılar yaşamışlar.[2] Araşdırmalardan aydın olur ki, Amağu//Əmağu toponimi də türk xalqlarına məxsusdur.

Bəzi tarixi mənbələrdə göstərilir ki, bu kənd X əsrdə salınmışdır.[3] Amağu kəndinin ərazisində, kəndin altındakı dərədə X-XII əsrə aid qədim abidələr, Alban kilsələri vardır.[4] Statistik məlumatda göstərilir ki, 1590-cı illərdə Amağu kəndinin gəliri 3.032 ağça, 1727-ci ildə isə 4.032 ağça olmuşdur.[5]

XIX-XX əsrə aid tarixi mənbələrdə və statistik məlumatlarda göstərilir ki, Əmağu kəndində 1831-ci ildə 31 nəfər, 1873-cü ildə 198 nəfər, 1886-cı ildə

------------------------

1. Kamil Dərələyəzli. Dərələyəz od içində. Bakı, 2001, s. 198-199.
2. Mirzəyev H. Amağu kəndinin etnonimləri, ləqəbləri, hidronimləri və yer-yurd adları haqqında, Filologiya məsələlərinə dair tematik toplu, № 1, Bakı, 2001, s.3-5; Mirzəyev H. Amağu//Əmağu və Canı oykonimləri, Dil məsələlərinə dair tematik toplu, № 2, Bakı, 1997, s. 121-124.
3. Erməni Sovet Ensiklopediyası, I cild, Yerevan, 1974, səh.273.
4. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, səh.359.
5. Ziya Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri, Bakı, 1996, səh.57. Bünyadov və H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh.34, 270-271.

240 nəfər, 1897-ci ildə 354 nəfər, 1904-cü ildə 350 nəfər, 1914-cü ildə 385 nəfər, 1916-cı ildə 510 nəfər əhali yaşamışdır.[1] 1918-ci ildə erməni daşnaklarının Keşişkənddə olan quldur dəstəsinin başçısı Yapon və polkovnik Doluxanov ətrafda yaşayan ermənilərin köməyi ilə bu kəndi dağıtmış, yandırmış və əhalisinə divan tutaraq qovmuşlar.[2]

1918-ci ildə ermənilərin Amağu kəndində törətdikləri cinayət heç vaxt yaddaşlardan silinən deyil. Amağu kəndinin ağsaqqalı, 100 yaşı olan, qanlı cinayətin şahidi olan və 1976-cı ildə Abşeron rayonunun Mehdiabad kəndində dünyasını dəyişən Əskər kişi, onun Amağulu yaşdaşı Mehbalı kişi, Əsgər kişinin 72 yaşlı oğlu, bu yerlərin tarixini yaxşı bilən Əziz və Novruz Dünyamalıyev qardaşları 1955-1997-ci illərdə bu qanlı cinayətlər haqqında mənə aşağıdakıları söyləmişlər.

Ermənilərin hücumunu yaxşı dəf etmək üçün Qurdqulaq və digər kənd əhalisi də Amağuya yığışır və Qurdqulaq kəndində yalnız gözətçilər qalır. Bir gün ermənilər hiylə işlədib gözətçiləri qəflətən tuturlar. Onlar gözətçiləri məcbur edirlər ki, ağ bayrağı qaldırsınlar və qışqırıb ermənilərin onlarla barışığa gəldiyini desinlər. Amağu camaatı vəziyyəti belə görüb onlara güllə atmır və erməni ağsaqqalları kəndə girir. Kənd camaatına deyirlər ki, kəndin kişilərini yığaq bir yerə və barışıq bağlayaq. Bu hiylə ilə kəndin kişilərini böyük bir dama yığırlar. Bu zaman pusquda duran erməni silahlı dəstəsi kəndə hücum edir və silahı olanları tərk-silah edir. Qadınları, uşaqları böyük bir ev damına yığırlar. Burada qadınlardan döşü kəsilən, işgəncə verilən, körpə uşaqlardan nizəyə taxılan, oda atılan çox olur. Kişiləri isə əvvəlcə qollarını bağlayıb kəndin altındakı uçurum qayanın (xəndəyin) başına yığır və buradan bir-bir aşağı atırlar. Burada əli silah tutan kişilərdən yalnız bir nəfəri – Tanrıverdi ölümün pəncəsindən qurtara bilir. Tanrıverdi cibindəki bıçaq tiyəsi ilə qoluna bağlanan ipi birtəhər kəsir və əlini yenə bağlı saxlayır ki, bunları uçurumdan aşağı salanlar görməsin. Bu yanındakılara da deyir, lakin onlar əllərinin ipini kəsməyə macal tapmırlar. Tanrıverdi uçurumun başına yaxınlaşanda qəflətən, ildırım sürəti ilə öz yerinə ermənini itələyib qayadan salır və üzü aşağı qaçır. Arpadan keçib özünü Şərura yetirir. O, bu hadisələri neçə-neçə insanları ermənilərin vəhşicəsinə doğradığını Şərur camaatına xəbər verir. Şərur camaatı köməyə gəlir və burada bir çox adamları ölümdən xilas edirlər. Həmin Tanrıverdi kişinin nəvəsi Tanrıverdiyev Hacı Sabir indi Sumqayıtda yaşayır, xeyriyyəçidir. Sumqayıtdakı maşın bazarı və Dərələyəz adına bir neçə obyekt onundur.

Erməni-müsəlman davasından sonra, 1922-ci ildə kəndə cəmi 97 adam qa-

---

1. Статистическое описание Нахичеванской провинции, СПб, 1833, стр.169. И.Шопен. Исторические памятники состояние армянской областе в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 611-612; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1025; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 359-360, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 244.

2. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 359-360.

yıtmışdır. Bu say 1926-cı ildə 104, 1931-ci ildə 131 nəfərə çatmışdır.[1]

"Kəndin əhalisi 1959-cu ildə 385 nəfərə, 1970-ci ildə 526 nəfərə, 1979-cu ildə 685 nəfərə çatmışdır. 1988-ci ildə ermənilər əhalinin əmlaklarını, var-dövlətlərini əllərindən almış, özlərini bir həftə ərzində, noyabrın 28-dək kənddən qovmuş, kənd əhalisinə divan tutmuşlar. İndi kəndin əhalisi Naxçıvandan başlayaraq Bakıya, Abşeronadək müxtəlif rayonlara səpələnmişlər".[2]

1986-cı ildə Yeğeqnadzor rayonunun rəhbər təşkilatları Amağu kənd camaatına deyib ki, Amağu kəndinin yerləşdiyi yer sürüşür. Siz buradan təcili köçməlisiniz. Evlərinizi də söküb apara bilərsiniz. Ermənilər yaxşı bilirdilər ki, bu mümkün olan iş deyil... Həmin vaxt kənd camaatı bu təklifi rədd etdi. Lakin 1988-ci ildə camaat məcburiyyət qarşısında qalıb hərəsi üzünü bir yana tutdu. Ermənilər belə hiylə yolu ilə Dərələyəzdə Qalaser və Gədikvəng (Qoduxvəng) kəndlərinin camaatını da köçürmək istəyirdilər. Onları da bu yolla vahiməyə saldılar və dedilər ki, kəndiniz sürüşür, təcili köçməlisiniz... Bir sözlə, ermənilər bu kəndlərin əhalisini də zorla öz doğma kəndlərindən çıxartdılar.

Qeyd etməliyəm ki, 1918-ci ildə Amağu kəndində Andronik və onun dəstəsinin azərbaycanlılara qarşı törətdiyi cinayətlər hesaba gəlməzdir. 7-8 kənddən köməyə gələn kişiləri və kəndin qoca, qadın və uşaqlarını al dilə çəkib tamamilə qırmışlar. Burada Xocalı hadisəsinə bənzər bir qırğın baş vermişdir.

Ermənilərin Amağu kəndində törətdikləri vəhşiliklərdən bir neçəsini qeyd etməyi zəruri hesab edirəm.

1. 1918-ci ildə erməni şovinistləri Amağu kəndini mühasirəyə alanda qonşu kəndlərdən də çoxlu adam onlara köməyə gəlmiş imiş. Bu zaman ermənilərin ağsaqqalları barışıq edirik adı altında, hiylə ilə kəndə girir və pusquda duran silahlı dəstələr qəflətən hücum edib silahsız kənd camaatını bir yerə toplayır. Kişiləri uçurum qayanın başına yığıb bir-bir aşağı tullayıb öldürürmüşlər. Burada 300-dən artıq silahsız kişini qayadan salıb öldürmüşlər.

Qadınları, uşaqları, qocaları, təxminən 400 nəfəri kəndin məscidinə doldurub qapını bağlayır və məscidin damından otu yandırıb bunların üstünə tökürlər. Məscidə doldurulan bu adamların hamısı vəhşicəsinə öldürülür.

Amağu kəndində kolxoz sədri və sovxoz direktoru işləyən Dünyamalıyev Əziz mənə danışırdı ki, biz kənddəki məscidin yerində klub tikmək istəyirdik. Buranı qazıb təmizləyəndə insan sümüklərinin sayı-hesabı yox idi. Nə qədər qazırdıqsa, yenə də kəllə, qol, bud, ayaq sümükləri çıxırdı. Axırda belə bir qərara gəldik ki, daha buranı qazmayaq, çünki bura da bir qəbiristanlıqdır.

2. 1918-ci ildə erməni daşnakları Amağuda Qurdqulaq kəndindən olan Məmmədağa kişinin belinə qaynar samovar bağlayıb camaatın gözü qarşısında öldürmüşlər.

3. 1918-ci ildə Andronikin dəstə başçılarından biri, Arpa kəndindən olan Qalus adlı qaniçən erməni Amağuda Camal adlı döyüşkən igidi qardaşı Bəxtiyarın və camaatın gözü qarşısında yerə yıxıb mal kimi başını kəsmişdir.

-----------------

1. Z.Korkodyan. Sovet Ermənistanının əhalisi (1831-1931), İrəvan, 1932, səh.88.
2. Bax: Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, səh.359-360.

4. 1918-ci ildə Amağulu Telli adlı qadının 3 yaşlı uşağını qoçu daşnak zorla əlindən alıb camaatın gözünün qabağında sal daşa çırpıb öldürür. Ananın ərşə çıxan naləsi camaatı sarsıdır.

5. 1918-ci ildə Amağu kəndində erməni qaniçənləri 13 yaşlı qız uşağını aparmaq istəyəndə ana özünü qızının üstünə atır. Bu zaman ananı da qızı ilə birlikdə qətlə yetirirlər.

6. 1918-ci ildə ermənilər Amağu kəndində Seyid Kalbay Mirsadığın tayasına od vuranda kişi haray çəkir. Erməni daşnakları qəzəblənib kişinin 6 yaşında oğlunu götürüb yanan tayanın üstünə atıb kül edirlər.

Bu hadisələri mənə Amağu sakini olan, 106 il ömür sürən, 1976-cı ildə Abşeron rayonunun Mehdiabad kəndində dünyasını dəyişən Dünyamalıyev Əsgər, onun oğlu 1921-ci ildə Amağuda doğulan, orada boya-başa çatan, ali təhsilli, 1997-ci ildə Mehdiabadda dünyasını dəyişən Əziz, onun həyat yoldaşı 1923-cü il təvəllüdlü Dünyamalıyeva Fizzə, 1927-ci il təvəllüdlü, ali təhsilli, uzun müddət yüksək vəzifələrdə çalışan, hal-hazırda isə Mehdiabadda yaşayan Dünyamalıyev Novruz və Dərələyəzdən olan bir çox yaşlı adamlar danışmışlar.

Amağu kəndindən Dünyamalıyev Əsgər kimi el ağsaqqalı, Dünyamalıyev Novruz və Əziz qardaşları kimi el ağsaqqaları, nüfuzlu ziyalılar, təşkilatçılar, Dünyamalıyev Mamed (Dədə Mamed) və Hüseynov Əhməd kimi hüquqşünaslar, Tanrıverdiyev Hacı Sabir kimi xeyriyyəçilər yetişmişdir.

## ƏMAĞU VƏNGİ/ALLAH EVİ

Bu abidə Əmağu kəndindən 2 km aşağı Arpa çayının sol sahilində yerləşir. Ətrafı sıldırım qayalarla əhatə olunmuşdur. Abidənin ətrafına hasar da çəkilmişdir. Abidə ikimərtəbəlidir.



Kamil Dərələyəzli yazır: Əmağu abidəsinin tikintisinin bir hissəsini 1335-36-cı illərdə tamamlayan Arpa xandan sonra 1339-40-cı illərdə hakimiyyətə gələn Satibəy xatun binanın ikinci mərtəbəsini inşa etdirməyə başlayır. Dərələyəz mahalında islamiyyə elmini qadınlara öyrətmək, oxutmaq, təlim etmək üçün ikinci mərtəbəni inşa etdirir. Qadınla kişi bir qapıdan daxil olmamaq üçün ikinci mərtəbəyə pilləkənlər vasitəsilə qalxarmışlar.

Binaların üst hissəsi gümbəz formasında tamamlanmışdır.

Əmağu abidəsini ermənilər "xaç"laşdırsalar da, özününkü hesab etsələr də,

abidənin qapısının ətrafındakı səkkizguşəli "ulduz" naxışları və binanın quruluş kompozisiyası Əbu Səid xan Bahadur karvansarasının kompozisiyası ilə eynidir.[1]

## AMAĞU KƏNDİNDƏ OLAN ONOMASTİK VAHİDLƏR

**Tayfa adları**

1. Heydərlər tayfası
2. Kalbay Qəhrəmanlar tayfası
3. Kalbay Musa tayfası
4. Həmdəmlilər tayfası
5. Ertişlilər tayfası
6. Qurdqulaqlılar tayfası
7. Zeytəlil ər tayfası
8. Kazımlılar tayfası
9. Seyidlər (Mirmahmud ağa) tayfası
10. Ərdöülülər tayfası

**Ləqəblər**

1. Yetim Məhəmməd
2. Xatın Əli
3. Ərdöüllü Hüseyn
4. Güloş Məhəmməd
5. Bəlləcə Abbas
6. Şaxşux Məhəmmədəli
7.Cingöz Əziz
8. Dimbo Vəli
9. Mərəndi nal Bayraməli
10. Halu Məhəmməd
11. Qotur Zəhra
12. Xırro Xəlil
13. Kolanı Fatma
14. Kasıb Əli
15. Təhnəli Abduləli
16. Keçəl Əmrah

**Dərə adları**

1. Yuxarı dərə
2. Aşağı dərə
3. Zəngəzur dərəsi
4. Qırmızı dərə
5. Pətəkli dərə
6. Xartdıqlı dərə
7. Qala dərəsi

-----------------------

1. Kamil Dərələyəzli. Dərələyəz od içində, Bakı, 2001, səh.111-112.

**Dağ, yurd, sahə, qaya adları**
1. Armudlu sahə
2. İldırım düşən yer
3. Haçalı qaya
4. Topdaş
5. Böyükbaş (aşırımdadır)
6. Zəng qaya
7. Beşik qaya
8. Bozqaya
9. Qaçaq vurulan
10. Mehrə (yer adı)
11. Abbas biçənəyi
12. Oğru binəsi
13. Eyvaz düşən (yer)
14. Təpə arası

**Vəng adları**
1. Təzə vəng (bu vəngin bir hücrəsində Həsən adlı bir şəxsin adı yazılmışdır).
2. Qırmızı vəng

**Yol, cığır adları**
1. Köhnə Amağuya gedən yol
2. Ertiş yolu

**Dəyirman adları**
1. Heydər dəyirmanı

**Bağ adları**
1. Heydərlərin bağı

**Çay, bulaq və göl adları**
1. Dərə çay
2. Pir bulağı
3. Ağbulaq
4. Ərəb bulağı
5. Alçalı bulaq
6. Qurddu bulaq
7. Pırtpırt bulaq
8. Qırmızı bulaq
9. Pətəkli bulaq
10. Qotur suyu
11. Vəngin bulağı
12. Mehrə bulağı
13. Göllər (balaca göllər)
14. Korbulaq

15. Buzov bulağı
16. Qız bulağı

**Amağu kəndindən 1941-1945-ci il Böyük Vətən müharibəsinə gedənlər**

**a) qayıtmayanlar:**
1. Seyidov Mirasim Mirmösün oğlu
2. Heydərov Hacı Əli oğlu
3. Bağırov Şəmil Musa oğlu
4. Sadıqov Kərim
5. Məhərrəmov Gülməmməd Səfər oğlu
6. Həsənov Məhərrəm Hüseyn oğlu
7. Həsənov Həsən Hüseyn oğlu
8. Axundov Həsən Teymur oğlu
9. Əliyev İbrahim Musa oğlu
10. Əliyev Bəhman Nəcəfalı oğlu
11. Əhmədov Məşədi Məhəmmədəkbər oğlu
12. Babayev Əloş Əli oğlu
13. Ələkbərov Ələkbər Albənd oğlu

**b) qayıdanlar:**
1. Qəhrəmanov Əli Hüseyn oğlu
2. Qəhrəmanov Salman Hüseyn oğlu
3. Heydərov Vəli Əli oğlu
4. Bağırov Həsən Şəmil oğlu
5. Bayramov Qələndər İsmayıl oğlu
6. Bayramov İsgəndər İsmayıl oğlu
7. Mamedov Tarverdi Məmməd oğlu
8. Mamedov Rəhim Tarverdi oğlu
9. Abdullayev Qurban
10. Abdullayev Hüseyn Qurban oğlu
11. Baxşəliyev Vəli Əli oğlu
12. Bağırov Əli Musa oğlu
13. Əliyev Siyanfər Əli oğlu
14. Məhərrəmov Vəli Rzaqulu oğlu
15. Ələkbərov İbrahim Məhərrəm oğlu
16. Quliyev Meyti Mirsonqulu oğlu
17. Məhərrəmov Mehbalı Rzaqulu oğlu
18. Kazımov İsgəndər Əli oğlu

**İnformatorlar:** Bu məlumatı 1927-ci ildə Amağuda doğulub boya-başa çatan, orada uzun müddət rəhbər vəzifələrdə işləyən, hal-hazırda isə Abşeron rayonunda fəaliyyət göstərən və Mehdiabad kəndində yaşayan Dünyamalıyev Novruz və 1923-cü ildə Amağuda doğulmuş, orada uzun müddət yaşayan, hal-hazırda Mehdiabadda yaşayan Dünyamalıyeva Fizzə Heydər qızı vermiş, mən də yazmışam.

# ARDARAZ

Ardaraz Dərələyəzdə ən qədim azərbaycanlılar yaşayan kəndlərdən biridir.[1] Bu, Yelpin kəndi ilə Qozluca kəndinin arasında yerləşir. Hal-hazırda isə Yelpin kəndinin qışlağına çevrilmişdir.

Tarixi mənbələrdən və statistik məlumatlardan aydın olur ki, Ardaraz kəndində 1831-ci ildə 30 nəfər, 1873-cü ildə 219 nəfər, 1886-cı ildə 304 nəfər, 1897-ci ildə 332 nəfər, 1904-cü ildə 353 nəfər, 1914-cü ildə 507 nəfər, 1916-cı ildə 517 nəfər azərbaycanlı yaşamışdır.[2]

1918-ci ildə erməni millətçiləri bu kəndə də hücum edərək kənd camaatını qırmış, evlərini dağıtmış, yandırmış, işgəncələr vermiş və camaatı kənddən tamamilə qovub çıxarmışlar. Kənd camaatının bir qismi Naxçıvana, Şərura, bir qismi isə Azərbaycanın müxtəlif rayonlarına qaçmağa nail ola bilmişlər. 1921-ci ildən sonra bu kəndin sağ qalanları öz doğma yurdlarına qayıtmış, lakin ermənilər onlara öz doğma kəndlərində yaşamağa imkan verməmişlər. Bütün bunlara baxmayaraq, tədricən azərbaycanlılar burada çoxalmışlar.

Lakin ermənilər 1949-cu ildə Ardaraz kəndini də deportasiyaya məruz qoymuş və həmin ilin payızında bu kəndi Saatlı rayonuna deportasiya etmişlər. Saatlı rayonunun Məmmədabad kəndində bunlara yer verilmiş və onlar ilan mələyən, su tapılmayan kəndlərdə yaşamağa məcbur olmuşlar. İqlim şəraitinə uyğunlaşmadığı üçün kənd əhalisinin bir qismi qızdırmadan, qarın yatalağından və digər xəstəliklərdən məhv olmuşlar.

Ardaraz kəndinin əhalisi hazırda Bakıda, Gəncədə, Sumqayıtda, Sabirabadda və Azərbaycanın digər yerlərində məskunlaşmağa məcbur olmuşlar.

Mən şəxsən 1949-cu ildə Şərur rayonunun dəmiryol stansiyasında bunların yük vaqonlarına mal-qoyunla birlikdə doldurulub yola salındığının şahidi olmuşam. Onların vaqondan düşməsinə də icazə vermirdilər. Mən şəxsən onların su qablarını alıb susuzluqdan ağlayan uşaqlara su gətirib vermişəm. Çox dəhşətli, acınacaqlı bir mənzərənin şahidi olmuşam.

Qeyd etməliyəm ki, Məmmədabad kəndində məskunlaşdırılan Ardaraz kəndindən 2 nəfər Qarabağ şəhidi vardır və onlar bu kənddə dəfn edilmişdir.

Ardaraz toponiminin mənşəyinə gəldikdə demək lazımdır ki, bu kəndin adı iki sözün "ard" və "Araz" sözlərinin birləşməsindən əmələ gəlmişdir.

Qeyd etməliyəm ki, "art"//"ard" sözü qədim türk dillərində "dağlıq", "dağ", "dağ keçidi", "aşırım" mənalarını bildirmişdir.[3]

----------------------

1. И.Шопен. Исторические памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр.615-616; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1036; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 353, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 244.

2. Ətraflı məlumat üçün bax: Mirzəyev H. Dərələyəz mahalının Ardaraz kəndi və bu kəndin sahəsində olan onomastik vahidlər, Filologiya məsələlərinə dair tematik toplu, № 3-4, Bakı, 2001, s.58-63.

3. Древнетюркский словарь, М., 1969, стр.55.

Oxuculara onu da çatdırım ki, Dərələyəzdəki Ardaraz kəndi Araz çayının yaxınlığındakı dağın qismən zirvəsində, dağ aşırımında olan yolun üstündə yerləşir. Araz çayından Ardaraza (Dərələyəzə) gələndə yoxuş çıxmalı, Ardarazdan Araz çayına doğru enəndə (Arazdəyən yolu ilə) eniş enməli olursan.

Qədim dövrlərdə Dərələyəzdən Araza doğru, Arazdəyənə gedən yol Ardaraz kəndindən keçirdi. Son dövrlərdə, 1940-1950-ci illərdə yeni şose yolu çəkildi və həmin yol ikinci dərəcəli yola çevrildi. Mən bu yolları yaxşı tanıyıram və bu inşaat işləri mənim gözümün qarşısında həyata keçmişdir.

Apardığım araşdırmalara və tarixi faktlara əsasən belə bir qənaətə gəlmişəm ki, Ardaraz toponimi türk dillərində "dağ keçidi", "aşırım" mənalarını bildirən "art"//"ard" sözü ilə çay adı bildirən "Araz" sözünün birləşməsindən formalaşmış və Arazın üstündəki dağ aşırımı, dağ keçidi mənasını bildirmiş və indinin özündə də həmin mənanı saxlamaqdadır.

Deməli, Ardaraz toponimi həmin yerin relyefinə uyğun olaraq belə adlandırılmışdır. "Ard//Art" sözünün göstərilən mənada işlənməsi haqqında dilçilik ədəbiyyatında geniş məlumat vardır.[1]

## ARDARAZ KƏNDİNDƏ OLAN ONOMASTİK VAHİDLƏR

**Tayfa, nəsil və sülalə adları**

1. Kalbaməhəmməd nəsli
2. Qafarlar nəsli
3. Hacı Bayram nəsli
4. Kalbayəli nəsli
5. Hacıfərhadlar nəsli
6. Kalbayimamqulu nəsli
7. Məmməd uşağı nəsli

**Məhəllələr**

1. Aşağı məhəllə
2. Yuxarı məhəllə
3. O tay məhəllə

**Qəbiristanlıqlar**

1. Hörkülüdə olan qoçdaşlı qəbiristanlıq
2. Kalafalıqda olan qədim qəbiristanlıq

**Qaya yazıları, abidələr**

1. Dara//Daran qayası

Bu qayada qədimdən insan şəkilləri çəkilmişdir. Burada təxminən 50-60 insan şəkli qayaya həkk olunmuşdur.

**Qaya və çınqıl adları**

1. Ağ qaya (kəndin üstündə)

---

1. B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998, səh.126.

2. Qara qaya (o biri qaya ilə üz-üzə)
3. Çınqıllıq
4. Şəril qəyəsi (qayası)

**Dağ, yurd, dərə, yal, gədik, yamac adları**
1. Didivanın arxası//Didivan dağının arxası//Bayramın yurdu
2. Binnətalı biçənəkləri//Binnətalı yurdu
3. Siçanlı yurd
4. Yelpin yurdu
5. Tostuq dərə//Kolluq dərə
6. Kömürlünün yalı
7. Çanaxçının gədiyi
8. Zəylik dərəsi
9. Sarı yamac
10. Gədik (Ardarazla Hortun kəndi arasında)

**Kövşən, biçənək, örüş adları**
1. Badamlıq
2. Çöl kəfşən
3. Saraclı
4. Zağanın ağzı
5. Böyük güney
6. Qara qaya torpağı
7. Ağ qaya tərəf
8. Hacı Qasımlı zolağı
9. Biçənəklər
10. Zirinclik
11. Binnətalı biçənəkləri
12. Qaramalıq
13. Hörüklük
14. Sarının başı

**Meşə adları**[1]
1. Qarağac meşəsi
2. Zəylik dərəsindəki kolluq

**Zağa//kaha adları**
1. Qaraquş zağası//kahası[2]
2. Gölün kahası (içində qoyun saxlanılır)

-------------------

1. Bu kənddə meşə yox dərəcəsindədir. Lakin ərik, qoz//cəviz, alma, armud, alça ağacları olduqca çoxdur.

2. Bu qaraquş zağasının sahəsi çox böyükdür. Təxminən 1500-2000 qoyun tutar. Rəvayətlərə görə qədim dövrdə burada insan yaşamışdır. Zağanın dibinə getmək üçün böyük şamlar yandırmaq lazımdır. Lampa tez sönür.

Bu kahanın divarlarında heyvan və quş şəkilləri daşa həkk olunmuşdur. Bir dənə pələng şəkli daşa həkk olunmuşdur. Pələngin şəkli yatmış şəkildədir.

**Çay, göl, arx və bulaq adları**

1. Ardaraz çayı
2. Zəylik çayı
3. Ardaraz gölü (kəndin üstündəki düzənlikdə yerləşir)
4. Sarı yamac bulağı
5. Qaramalıq bulağı
6. Şır-şır bulaq//Zəylik bulağı
7. Ağ qayanın bulağı
8. Kazım bulağı
9. Hacı Qasım bulağı
10. Böyük Güneyin bulağı
11. Ardaraz bulağı
12. Gədik bulağı

## 1937-ci ilin repressiya qurbanları

1. Həsənov Məşədi Məhəmməd
2. Bayramov Əşrəf

## Ardaraz kəndindən 1941-1945-ci il Böyük Vətən müharibəsinə gedənlər

**a) qayıtmayanlar:**

1. Məmmədov Hüseyn Mahmud oğlu
2. Məmmədov Həsən Mahmud oğlu
3. Quliyev Əli Feyzulla oğlu
4. Quliyev Fərrux Vəli oğlu
5. Fərhadov Məhəmməd Məhəmmədəli oğlu
6. Fərhadov Əziz Məhəmmədəli oğlu
7. Talıbov Müzəffər Abutalıb oğlu
8. Bayramov Vəzir Paşa oğlu

**b) qayıdanlar:**

9. Quliyev Əhməd Feyzulla oğlu
10. Quliyev Məhəmməd
11. Əliyev Usub
12. Əliyev Oruc
13. Quliyev Xudaverdi İmanqulu nəvəsi
14. Quliyev Həsən İmanqulu nəvəsi
15. Abı oğlu Əli
16. Bayramov Rəfi
17. Talıbov Nazir Teymur oğlu
18. Qafarov Nəsib Cəfər oğlu
19. Qafarov Musa Qafar oğlu
20. Həsənov Səyyad Museyib oğlu
21. Bayramov Hacı Paşa oğlu

22. Bayramov Vəli Paşa oğlu
23. Bayramov Musa Paşa oğlu
24. Bayramov Novruz Paşa oğlu
25. Həsənov İsa Kalbaməhəmməd oğlu
26. Məmmədov Məmməd İsa oğlu
27. Kazımov Mirzə İsgəndər oğlu
28. Kazımov Həmzə İsgəndər oğlu
29. Mamedov Şahhüseyn Mahmud oğlu

Ardaraz kəndində bir çox tanınmış adamlar vardır. Onların bir qismi deportasiyadan əvvəl, bir qismi isə deportasiyadan sonra yetişmişdir. Bunlardan bir qismini qeyd etmək əhəmiyyətlidir.

1. Talıbov Müzəffər Əbutalıb oğlu – Basarkeçərdə, Zəngibasarda (Uluxanlıda) və İrəvan şəhərində raykom katibi işləyib. Könüllü olaraq Böyük Vətən müharibəsinə getmiş və orada diviziyanın komissarı vəzifəsində fəaliyyət göstərmiş və qəhrəmancasına həlak olmuşdur.
2. Talıbov Nazir Teymur oğlu – polkovnik, Böyük Vətən müharibəsinin iştirakçısı olmuş, Basarkeçərdə, Göyçayda, Qazaxda, Bakı şəhərində hərbi komissar vəzifəsində işləmişdir.
3. Məmməd Məmməd İsa oğlu – podpolkovnik, hüquqşünas. Azərbaycanın bir çox rayonlarında yüksək vəzifələrdə işləmişdir. Hal-hazırda Saatlı rayonunun pambıq zavodunda hüquqşünas işləyir (pensiyaçıdır). Tanınmış, seçilmiş övladlar yetişdirmişdir.
4. Məmmədov Füzuli Məmməd oğlu – polkovnik, hüquqşünas, hüquq elmləri namizədi, uzun müddət Azərbaycan Respublikası Prokurorluğunda çalışmışdır.
5. Məmmədov Fəzli Məmməd oğlu – Sabirabad rayonu icra hakiminin birinci müavini işləmişdir.
6. Axundova (Mamedova) Sevda Məmməd qızı – fəlsəfə elmləri namizədi, Bakı Slavyan Universitetində müəllim.
7. Sona Çərkəz (Məmmədova Sona Məmməd qızı) – şair bir çox kitabın müəllifi.
8. Quliyev Çərkəz Əli oğlu – dosent, filologiya elmləri namizədi, BDU-da müəllim işləmişdir (Bədbəxt hadisədən dünyasını dəyişmişdir).
9. Qafarov Musa Qafar oğlu – mayor, Böyük Vətən müharibəsi iştirakçısı, 90 il ömür sürmüş, bir çox məsul vəzifələrdə çalışmışdır.
10. Qafarov Lüdviq Musa oğlu – elmlər namizədi, BDU-da müəllim işləmişdir..
11. Qafarova Çimnaz Muxtar qızı – elmlər namizədi, ADPU-da, BDU-da müəllim işləmişdir.
12. Bayramov Musa Paşa oğlu – uzun müddət müəllim, kolxoz və sovet sədri vəzifələrində işləmişdir.
13. Bayramov Novruz Paşa oğlu – uzun müddət məktəb direktoru vəzifə-

sində işləmişdir.

14. Mamedov Şahhüseyn Mahmud oğlu – el ağsaqqalı, 1930-cu illərdə uzun müddət ayrı-ayrı kəndlərdə sovet sədri işləmişdir.

**İnformatorlar:** Ardaraz kəndi haqqında bu məlumatları, əsasən, Ardarazda doğulub boya-başa çatmış, 1949-cu ildə Azərbaycanın Saatlı rayonuna deportasiya olunmuş, ali təhsilli, uzun zaman hüquq-mühafizə orqanlarında işləmiş podpolkovnik, hal-hazırda Saatlının Məmmədabad kəndində yaşayan, 1923-cü il təvəllüdlü, 80 yaşlı Məmmədov Məmməd (tapança Mamed) 19 mart 2001-ci ildə Saatlıda, ardarazlılar yaşayan kənddə vermiş, mən də yazmışam.

## ARXAC

Arxac Dərələyəzin Yeğeqnadzor (Keşkənd) rayonu ərazisində kənd adıdır. Bu kənddə 1897-ci ildə 587 nəfər azərbaycanlı olmuşdur.[1]

Erməni quldurlarının 1918-ci ildə törətdikləri milli qırğından sonra kənd dağıdılaraq xarabalığa çevrilmiş, əhalisinin bir hissəsi qırılmış, bir hissəsi isə qovulmuşdur. 1926-cı ilə qədər Arxac kəndində əhali yaşamamışdır. 1926-cı ildə kəndə qayıdan 80 nəfər azərbaycanlı doğma yurd-yuvalarını yenidən abadlaşdıraraq burada məskunlaşmışlar. Lakin yenə də onları dinc yaşamağa qoymamışlar. 1948-ci ilin sonlarında azərbaycanlıların Ermənistandan deportasiya edilməsinin növbəti mərhələsində Arxac kəndinin əhalisi də zorla köçürülmüşdür.

Bu kənd lap əvvəllər qışlaq olmuşdur. Lakin sonralar kəndə çevrilmişdir.[2] Arxac sözünün mənşəyinə gəldikdə, fikrimizcə bu söz türk dillərində işlənən Arxac sözündəndir.

Arxac sözü qədim türk dillərində dağın arxası, dağın gün düşməyən hissəsi, quzeyi deməkdir. Ola bilsin ki, burada da qoyunun, quzunun yatdığı yer, dağın arxasındakı yer, daldada olan yer mənasındadır. Faktlar göstərir ki, Borçalıda, Zəngəzurda, Qubadlıda, Cəbrayılda və bir çox yerlərdə bu adda toponimlər vardır.[3]

## ARINC

Arinc Dərələyəzin Əzizbəyov rayonunda azərbaycanlı kəndidir. Arinc kəndi rayon mərkəzindən 16-17 km şimal-şərqdə, Her-her çayının sahilində yerləşmişdir.

Tarixi və statistik mənbələrin verdiyi məlumatda göstərilir ki, Arınc kən-

--------------------

1. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, səh.353.
2. Mirzəyev H. Dərələyəzin Arxac kəndi, Filologiya məsələlərinə dair tematik toplu, № 7 (19), Bakı, 2001, s.93-94.
3. B.Ə.Budaqov və Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998, səh.129-130.

dində 1831-ci ildə 177 nəfər, 1873-cü ildə 129 nəfər, 1886-cı ildə 152 nəfər, 1897-ci ildə 200 nəfər, 1904-cü ildə 264 nəfər, 1914-cü ıldə 290 nəfər azərbaycanlı olmuşdur.[1]

Arınc kəndinin 1590-1727-ci illərdə 2.519 ağça gəliri olmuşdur. Qeyd edək ki, mənbələrdə Arınc kəndinin adı Ərinc və Ərinç şəklində qeyd olunmuşdur.

İrəvan xanlığının Qırxbulaq mahalında Arinə adında kənd vardır.

Arınc toponimi qəbilə adı ilə bağlıdır. B.Budaqov və Q.Qeybullayev göstərir ki, arınc qəbilə adıdır. İrəvan xanlığının Qırxbulaq mahalında da Arınc adlı kənd olmuşdur.

1918-ci ilin məlum hadisələrində Arınc kəndi erməni quldurları tərəfindən dağıdılmış, əhalisinin bir hissəsi qırılmış, bir hissəsi isə öz doğma yurdundan qovulmuşdur. Yalnız 1922-ci ildə 23 nəfər öz vətəninə qayıdıb kəndi bərpa etməyə, abadlaşdırmağa başlamışdır. İlbəil artan əhalinin sayı 1931-ci ildə 171 nəfərə çatmışdır. Lakin azərbaycanlıların öz dədə-baba torpaqlarında rahat yaşaması yenə də mümkün olmadı. 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistandan deportasiya edilməsinin növbəti mərhələsində Arınc kəndinin əhalisi də zorla buradan köçürüldü. Əhali köçdükdən sonra Arınc kəndi xarabalığa çevrildi, uçmuş evlərdən və qəbiristanlıqdan başqa heç bir şey qalmadı.

İnformatorlar vasitəsilə Arınc kəndinə aid əldə edə bildiyimiz aşağıdakı məlumatları da oxuculara çatdırmaq faydalıdır.

**Yer adları**

1. Ağabəy yurdu
2. Qayalı suyu
3. Culfa yeri
4. Samanlıqlar
5. İsgəndər ölən
6. Fatı uçan
7. Ağ yarğan
8. Dar yeri
9. Kotan daşı
10. Ağuluq
11. Qaraqaya
12. Məmərza yalı
13. Qaroulxana
14. Həvşə yeri
15. Qırmızı güney

------------------------

1. Статическое описание Нахичеванской провинции, СПБ., 1833, стр.177; И.Шопен. Исторические памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи, СПБ., 1852, стр.619; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893. №980; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh.88; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh.341. H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh.246.

16. Qum yeri
17. Alma yeri
18. Pir təpəsi
19. Qarama dərəsi
20. Nav yeri
21. Qamışlı yurd
22. Xudonun yeri

**Bulaqlar**
1. Qarama bulaq
2. Xudonun bulağı
3. Sarımsaqlı bulaq

**Bağlar**
1. Təhməzuşağı bağı
2. Ağalar bağı
3. İsakın bağı
4. Axund bağı
5. Qaranın bağı
6. Səmədbağı
7. Məmmədəli bağı
8. Əriklik
9. Fərhadın bağı
10. Hüseynin bağı

**Dəyirmanlar**
1. İmanın dəyirmanı
2. Ağaların dəyirmanı

**Din xadimləri**
1. Axund Həsən
2. Axund Cəfər
3. Molla Fazil

**El ağsaqqalları**
1. Kərim kişi
2. Rəhim kimi
3. Fəttah kişi
4. İsmayıl kişi
5. Qara kişi

## 1941-1945-ci il Böyük Vətən müharibəsinə gedənlər

**Qayıtmayanlar**
1. Xalıqverdi Məmədov
2. Mamo Kərim oğlu

3. Aydın Orucov
4. Əbdülhəsən Həsənov
5. Kamran Musayev
6. Ağəli Əli oğlu

**Qayıdanlar**
7. Yusif Hüseynov
8. Zülfüqar Həsənov

**İnformatorlar:**
1. Aşıq Mehdi, 1923-cü il təvəllüdlü, Herher kənd sakini.
2. Aşıq Mehdinin arvadı, Arınc kəndində doğulub boya-başa çatan.
3. İsayev Vidadi, 1949-cu ildə Dərələyəzdən deportasiya olunmuşdur və hal-hazırda Yevlaxda yaşayır, arxiv müdiridir.

## ARPA

Arpa Dərələyəzin Keşkənd//Yeğeqnadzor rayonunda Arpa çayının üstündə salınmış kəndin adıdır. Türk tayfasının adını daşıyan bu kənd Şərur//Dərələyəz qəzasında Hüseynəli Sultanın mülkü olmuşdur.[1]

Bu kəndin "1831-ci ildə 63, 1873-cü ildə 294 nəfər azərbaycanlı əhalisi olmuşdur. 1897-ci ildə 34 azərbaycanlı, 545 nəfər erməni, 1926-cı ildə cəmi 15 nəfər azərbaycanlı olmuş, sonra isə bura tam erməni kəndinə çevrilmişdir."[2]

Qədim Azərbaycan kəndi olan Arpanın 1590-cı və 1727-ci illərdə 6.669 ağça gəliri olmuşdur.[3]

Faktlardan göründüyü kimi, qədim azərbaycanlı kəndi çar Rusiyasının, erməni şovinistlərinin mənfur siyasəti və təzyiqi nəticəsində tam erməni kəndinə çevrilmişdir. 1946-cı il sentyabrın 10-da Ermənistan hökuməti türk tayfasının adını daşıyan bu kəndin adını dəyişib "Areni" qoydular.[4]

Lakin ermənilərin belə cəhdləri hədərdir, çünki bu tarixi faktları onlar bir yerdən silsələr də, o, öz izini başqa bir yerdə saxlayacaqdır. Belə ki, ermənilər 1986-cı ildə çapdan çıxan toponimlər lüğətinin bir neçə yerində Arpa sözünü erməniləşdirməyə çalışsalar da buna nail ola bilməmiş və Arpa toponimi ilə bağlı digər adları lüğətdə verməyə məcbur olmuş və onları gizlədə bilməmişlər.

---------------------

1. Статическое описание Нахичеванской провинции, СПб, 1833, стр.163.
2. Статическое описание Нахичеванской провинции СПб, 1833, стр.162-163; И.Шопен. Исторические памятники состояние армянской областе в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр.611-612; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1037; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 353; İstoriçeskaə qeoqrafiə Zapodnoqo Azerbaydjana, Baku, 1998, səh.128.
3. Bax: Ziya Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1990, səh.57; Ziya Bünyadov və Hüsaməddin Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh.34.
4. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh.353.

Lüğətdə verilmiş "Arpagədik", "Arpaçaduq", "Arpagöl", "Arpadağ", "Arpadərəsi", "Arpa dərə", "Arpaenməz", "Arpatəpə", "Arpalı", "Arpalıq", "Arpalıqçay", "Arpalıqqaya", "Arpahavaclıq", "Arpayol", "Arpanyol", "Arpaçay", "Arpaçayır", "Arpaçuxuru", "Arpavut", "Arpa uçurumu", "Arpa tala" kimi xüsusi adlar buna canlı misaldır.[1]

Arpa sözü ilə düzələn onomastik vahidlərin toponimik arealı çox böyükdür. Dərələyəzdə Arpa kəndi, Arpa çayı, Zəngəzurda Arpakədik, Arpatəpə, Qarabağda Arpakədik, Qarsda Arpaqala, Arpaşen, Allahverdi rayonunda Arpatala qışlağı, Batumi yaxınlığında Arpa kəndi, Ağbabada Arpa qalası, Arpa çayırı, Arpa kəndi, Arpaçayı, Arpagölü, Krımda Arpalar kimi xüsusi adların olması göstərir ki, Arpa tayfası çox geniş bir ərazidə məskən salmışdır.

Məşhur türk tarixçisi Fəxrəddin Kırzıoğlu Arpa derivatlı yer-yurd adlarını tayfa adı ilə bağlayır. O, göstərir ki, Xan Tepri dağından öz mənşəyini alan və İssık gölə tökülən Arpa suyu hövzəsindən çox-çox qədimlərdə bir türk eli, türk oylağı gəlib Dərələyəzdə, Ağbaba və Şörəyeldə məskunlaşmış və öz adlarını çox qala, kənd və göl adlarında əbədiləşdirmişlər.[2]



Qeyd etmək lazımdır ki, Qazan xanlığında da Arpa adı ilə bağlı toponim vardır.[3] Arpa derivatlı sözlər haqqında Azərbaycan dilçisi Aslan Bayramov qismən geniş məlumat vermişdir.[4]

Arpa etnoniminin mənşəyinə gəldikdə demək lazımdır ki, burada məsələ bir qədər mürəkkəbdir. Belə ki, tarixi mənbələrdə Arpa toponiminin çox-çox qədim dövrlərdən mövcud olduğu göstərilir. Hətta bəzi mənbələrdə bu toponim bizim eradan əvvəlki dövrə aid edilir. Buna görə də burada söz və səs qatlarını ayırd etmək bir qədər çətindir.

Arpa sözünün etimologiyasını araşdırarkən birinci növbədə söz kökünün tarixən yüksəklik, ucalıq, dağlıq mənasını bildirən Alp-Arp olub-olmadığını, "l" və "r" sonorlarının bir-birini əvəz edib-etmədiyini (zərər-zərəl), Arpa və Alban toponimlərinin bir yuvadan təşəkkül tapıb-tapmadığını, Arpa sözünün tarixən "Arpan" formasında işlənib-işlənmədiyini, Arpa toponiminin qatında tarixən cəmlik bildirən -pi şəkilçisinin olub-olmadığını (kas-pi) müəyyənləşdirmək zəruridir. Qeyd etmək lazımdır

---------------------

1. Bax: Т.Х.Акопян. Ст. Т.Мелик Бахшян, О.Х.Барсегян. Словарь топонимов Армении и прилегающих областей, том I, Ереван, 1986, стр.510-514.
2. Kırzıoğlu tarihi. İstanbul, 1953, səh.462.
3. Г.А.Гейбуллаев. К этногенезу азербайджанцев. Баку, 1991, с.
4. Aslan Bayramov. Qədim oğuz ellərinin – Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin yer-yurd adları (toponimlər), Bakı, 1996, səh.54.

ki, İranda Arpalıq adında türk mənşəli toponim də mövcuddur.[1]

Bəzi müəlliflər Arpa toponimini bitki adı kimi izah etməyə çalışırlar. Fikrimizcə, belə müddəanın əsası yoxdur. Belə ki, müxtəlif derivatlı toponimlərin (Arpa kəndi, Arpa çayı, Arpa gölü, Arpa qalası) varlığı sübut edir ki, bu toponim etnik adla bağlıdır.[2] Bu məsələdə dilçi alim Aslan Bayramovun fikri ilə mənim fikrim üst-üstə düşür.

## ARPA KÖRPÜSÜ

Arpa körpüsü Arpa çayının üzərində tikilmişdir. Bu körpü Naxçıvanın Şərur əyaləti ilə Dərələyəz mahalını birləşdirən ən böyük körpülərdən biridir. Körpü çox qədim zamanlarda, 1215-1287-ci illərdə tikilmişdir. Körpünün qalıqları üstündə yenidən bərpa işi aparılmışdır.

## AŞAĞI CANI

Aşağı Canı Dərələyəzdə Azərbaycanlı kəndidir. Kənd Canı kəndindən bir kilometr cənuba, Qabaqlı kəndinə tərəf Canı çayının sol sahilində yerləşmişdir. Kəndin xarabalıqları və qəbiristanlığın qalıqları indi də qalmaqdadır. Kənddə 2 dəyirman olmuşdur. Kənd 1918-ci ildə millətçi erməni daşnakları tərəfindən dağıdılmış, əhalisinin çoxu qırılmış və didərgin salınmışdır. Mən həmin xarabalıqları dönə-dönə gəzmişəm.

## AŞAĞI SALLI

Aşağı Sallı Dərələyəzin Yeğeqnadzor rayonunda kənd adıdır. Bu kənd Şərur və İrəvandan Göyçəyə gedən magistral yolun və Selimin gədiyindən axıb gələn, Ağkəndin, Yuxarı Sallının içindən keçən çayın üstündə yerləşir.

1918-ci ildə ermənilər Dərələyəzin başqa kəndlərində olduğu kimi, bu kənddə də qanlı cinayətə əl atmışlar. Andronikin silahdaşı Yapon öz dəstəsi ilə kəndə hücum edib camaatı qırmış, kəndin tayalarına, evlərinə od vurub yandırmışlar. 40 evdə (tüstüdə, təsərrüfatda) olan 450-yə yaxın adamdan yalnız az bir hissəsi qaçıb ölümün pəncəsindən qurtarmış və Azərbaycanın müxtəlif rayonlarına gedə bilmişlər.

Bu kənddən sağ qalanlar 1922-ci ildə öz doğma yurdlarına qayıtsalar da, erməni şovinistləri kənd camaatına öz kəndində məskən salmağa mane olmuşlar. Bütün bunlara baxmayaraq bu kənddən tək-tək adamlar Yuxarı Sallıda deyil, Aşağı Sallıda məskunlaşıb yaşamağa nail olurlar.

-------------------

1. В.И.Савина. Типы тюркских топонимов в Иране. Топонимика Востока, Москва, 1969, с.168.

2. Mirzəyev H. Arpa toponimi, Dil məsələlərinə dair tematik toplu, № 1, Bakı, 1998, s.12-14; Mirzəyev H. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz (monoqrafiya), Bakı, 1997, səh. 237-239.

Sonrakı dövrdə ermənilər bu kənddə yalnız kolxoz və sovxozun fermasını saxlamağa icazə vermişdi. Məktəb, klub, kitabxana və s. hamısı Yuxarı Sallıda yerləşirdi. Bu kənddə X-XIII əsrə aid abidə qalıqları və "xaç"laşdırılmış daşların, tarixi abidələrin qalıqları qalmaqdadır... Kənd qəbiristanlığının çox hissəsi dağıdılıb əkin sahəsi edilmişdir.

Qeyd etməliyəm ki, bu kənddə yalnız el ağsaqqalı, sinədəftər, canlı ensiklopediya, şirin söhbətli, çox məlumatlı, şair təbiətli, Aşıq Cəlilin yaxın qohumu İman kişi yaşayırdı. Ermənilər bu el ağsaqqalını narazı salmaqdan ehtiyat edirdilər. Ona görə də ona toxunmurdular. Belə bir cəhəti də qeyd etməliyəm ki, həm Aşağı Sallı, həm də Yuxarı Sallıda yaşayan azərbaycanlıların əksəriyyəti Kəngərli tayfasındandır.

Sallı toponimi türk tayfalarının adı ilə bağlıdır. Bu haqda Sallı toponimində məlumat verilir.

## AYISƏSİ

Ayısəsi kəndi rayon mərkəzindən 29 km uzaqda yerləşir. Qovuşuq kəndindən 4 km şimalda yerləşən bu kənd dəniz səviyyəsindən 2084 m hündürlükdədir.[1]



Bu kənddə 1873-cü ildə 219 nəfər, 1886-cı ildə 313 nəfər, 1897-ci ildə 311 nəfər, 1904-cü ildə 412 nəfər, 1914-cü ildə 453 nəfər əhali olmuşdur.[2]

1918-ci ildə daşnak Yapon və polkovnik Doluxanovun dəstələri başqa kəndlərdə olduğu kimi, bu kəndin də əhalisini qırmış və sağ qalanlarını kənddən qovmuşlar. Azərbaycanın müxtəlif yerlərinə səpələnən bu kənd əhalisindən 1922-ci ildə 254 nəfəri yenidən kəndə qayıtmış və 1931-ci ildə kəndin əhalisinin sayı 288 nəfərə çatmışdır.[3]

-----------------------

1. Bax: Mirzəyev H. Ayı səsi (Qızılgül) kəndi və bu kəndin ərazisində olan onomastik vahidlər. Filologiya məsələlərinə dair tematik toplu. №1, 2. Bakı, 2001, s.76-87.

2. Статическое описание Нахичеванской провинции, СПб, 1833, сәщ.168-169; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №960; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 352, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 244. Историческая география Западного Азербайджана. Баку, 1998, стр.127, 133-134.

3. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, səh. 355-356.

uzunluğu 25 metr, hündürlüyü isə 7 metrə qədərdir. Faktlar və buradakı yazılar göstərir ki, bu məbəd 3 hissədən ibarət olmuş və bu hissələr ayrı-ayrı dövrlərdə inşa edilmişdir. Məbədin I hissəsi VII-VIII əsrlərə aid edilir. Bu isə cənub tərəfdən böyük zal, şimal tərəfdən çox da hündür olmayan böyük zalın uzunluğunda yerləşdirilmiş üç ayrı-ayrı otaqlardan ibarət idi. Birinci məbədin divarlarında həkk olunan naxışlar və yazılar azdır. İkinci məbəd birinciyə cənubdan söykənərək onun uzunluğunda, lakin ondan bir az hündürdür. Bu hissədə kvadrat formada böyük zaldan və şərq kəlləsində yerləşən iki kiçik daş otaqdan ibarətdir. Bunun tikilmə tarixi X-XI əsrə aid edilir. Bu hissə memarlıq cəhətdən daha gözəldir. Bu hissənin divarları da daha çoxlu yazılar və naxışlar həkk olunmuşdur. Bu II hissədə yazılı divarların səthi əhəng və gil qarışıqlı məhlulla suvanmış (suvağın qalınlığı 5 mm-ə qədər olardı), sonra yazılar suvaqla birlikdə daşa həkk edilmişdir. Görünür, suvaq daş divardakı bəzi kiçik qusurları örtməklə yazıları daha oxunaqlı etmək məqsədilə işlədilmişdir.



Üçüncü hissə II hissəyə cənub tərəfdən söykənmiş kvadrat şəkilli böyük zaldan və şərq tərəfdəki iki balaca otaqdan ibarətdir. Üçüncü hissənin örtüyü şərqdən və qərbdən yarım qübbədir. Üçüncü hissənin qərb tərəfindən kvadrat şəklində zal tikilmişdir. Bu zal birinci və ikinci hissədən kənara çıxmışdır. Bu zalın sahəsi təqribən 8x8 m-dir, hündürlüyü 7 m-ə qədər olan altı dayaq üzərində inşa edilmiş qübbədən ibarətdir. Qübbənin ortasında isə diametri bir metr olan dairəvi baca qoyulmuşdur. Üçüncü hissə XIII əsrə aid edilir. Qübbənin içərisindən II hissəyə tərəf ölçüsü 1 kv. metr olan şahmat taxtası şəklində üzərində qara və ağ xanələri olan daş lövhə tavana bərkidilmişdir. Yarım qübbələrə isə naxış kimi istifadə edilmiş daş həkk olunmuşdur ki, buradakı bütün naxışların Şirvanşahlar sarayındakı naxışlara oxşarlığı var.

Kilsənin divarları çox hamar, ölçüləri isə 0,6x0, 6x0,5 olan ikiqat daşlardan hörülmüşdür. Divarda ara doldurucu və yapışdırıcı material kimi, əsasən, çınqıl, qum və əhəngdən istifadə olunmuşdur.

Babacan Mehdiyev deyir: "Ermənilər 1960-cı ilin yayında bu kilsənin uçmuş yerlərini bərpa etməyə başladılar. Mən də yay tətilində olduğum üçün buraya fəhlə işinə qəbul olunub işləməyə başladım. İki nəfər İrəvan şəhərindən gənc erməni bərpa işlərinə rəhbərlik edirdilər. Birisi memar idi. Milliyyətcə erməni olan bu oğlan Tiflisdə doğulub böyümüşdü. Adını unutmuşam. O birisi isə yerli idi, özü də inşaatçı-mühəndis idi. Dörd nəfər fəhlə idik. Uçmuş yerləri

torpaqdan təmizləyib torpaq altında qalmış daşları çıxarıb, yenidən istifadə etmək üçün yuyub, təmizləyirdik. Bərpa işlərinə rəhbərlik edən hər iki mühəndis daşlardakı yazıları oxumaq üçün dəridən-qabıqdan çıxır, bəzən də oxuya bilmirdilər. Biz burada təqribən 1 aya kimi işlədik. Sonra işi dayandırdılar, səbəbini isə bizə demədilər".

Kilsə divarlarındakı yazıların hərfləri Mingəçevirdə tapılmış Alban əlifbasının hərflərinə çox oxşayırdı, bəlkə də eyni idi. Bu kilsənin adı kiril əlifbası ilə metal lövhənin üzərində "Arates" yazılıb, kilsənin görkəmli yerindən divara bərkidilmişdi. Lakin Ayısəsi kəndinin sakinləri bu kilsənin adını "Gələsən, görəsən" deyirdilər.

Bu məşhur "Gələsən, Görəsən"//"Gəl, Gör" kilsəsi ilə bağlı şahidi olduğum bir faktı oxuculara və gələcək nəslə çatdırmaq istəyirəm. 1957-ci ilin payız ayları idi. Həmin vaxt mən Dərələyəzdə Qovuşuq kəndində orta məktəb direktoru vəzifəsində işləyirdim. Bu zaman mən həm də rayon Partiya Komitəsində ştatdankənar təlimatçı vəzifəsində çalışırdım. Bir gün raykomun azərbaycanlılar üzrə inspektoru Ağayev Ağa (Şərurun Maxta kəndindəndir) kəndə gələrək mənə dedi ki, biz o kəndə gedib bu axşam Qızıl Ordunun ildönümünü keçirməliyik. Hər ikimiz gündüz saat 3-də kəndə getdik. Axşamkı yığıncaq üçün hazırlıq işləri apardıq. Həmin kilsənin qərb tərəfində böyük bir bulaq var. Bulağa su içməyə getdik. Bulağın yolu kilsənin divarının dibindən keçir. Gördük ki, ermənilərin böyük bir briqadası kilsədə bərpa işləri ilə məşğuldur. Bu kilsənin qapısında üstü alban yazılı böyük bir daş var idi. Gördük ki, bu daşın ölçüsündə başqa bir daş kəsib bunun üstünü yazıblar (təxminən 1 aya yaxın imiş ki, burda işləyirmişlər), hər iki yazıya baxanda gördük ki, bu hərflər bir-birindən fərqlidir. Yeni yazılan erməni əlifbası ilə yazılmışdı. Bizim bunlarla böyük mübahisəmiz oldu və bu məsələni səhəri gün biz əlaqədar təşkilatlara xəbər verəcəyimizi dedik. Gecə Qızıl Orduya aid tədbiri sovxozun klubunda keçirtdik və bundan sonra yatmağa getdik. Səhər saat 6-7 arasında hava işıqlananda gördük ki, kənddə hay-küydü. Hamı kilsə tərəfə qaçır. Biz də ora yollandıq. Gördük ki, kilsənin gün çıxan tərəfdəki üst künc (çənə) daşı sındırılıb və təxminən 25-30 sm diametrində küpənin qırıqları və saman yerə tökülüb. Məlum oldu ki, kilsənin başındakı qızıl küpənin qızılını yığıb aparıblar. Mən və Ağayev kilsənin qarovulçusu Mirhüseyn adlı kişiyə yaxınlaşdıq və onu sorğu-suala tutduq. O dedi ki, mən onların bunu necə apardıqlarını görməmişəm. Ağayev məndən bir qədər uzaqlaşan kimi Mirhüseyn mənə yaxınlaşıb dedi ki, mən el ağsaqqalının oğluna yalan deyə bilmərəm. Mən gələndə onları gördüm və mənə hədə-qorxu gəldilər ki, bizim haqqımızda bir söz desən, qayıdıb səni öldürəcəyik. Həsən müəllim, Həzrət Abbas haqqı ikicə dənəsini divarın dibindən tapmışam. Vallah, mənə heç nə vermədilər. Sən atanın canı heç kimə demə, məni tutacaqlar". Biz Ağayevlə belə qərara gəldik ki, qızılı aparan ermənilərdir. Bunu desək, azərbaycanlını nahaq yerə tutub aparacaqlar.

Bəli, ermənilər torpaqlarımıza, yeraltı-yerüstü sərvətlərimizə belə yollarla sahib olmuşlar. Halbuki Azərbaycan Respublikasının alimlərinə vaxtında şərait

yaradılmalı və onlar belə abidələrimizi tədqiq etməli idilər.

Faktlar göstərir ki, bu kəndin adı Qayı//Kayı tayfasının adı ilə bağlıdır. Fikrimizcə, burada sözün əvvəlində gələn "q" səsi düşmüş və qayı sözü "ayı" formasını almışdır. Türk dillərində, o cümlədən Azərbaycan dilində belə səs düşümləri və səs artırmaları mövcuddur.

Qayı sözü qədim türk tayfalarından birinin adıdır. "Kitabi-Dədə Qorqud" dastanlarında da Qayı tayfa adı kimi xatırlanır.[1] 24 oğuz tayfasından birinin adı Qayıdır (Kayıdır). Qayı tayfası qayı sözünün leksik mənası və qayı sözü ilə bağlı olan kənd, yer-yurd adları haqqında bir çox tarix, coğrafiya və dilçilik ədəbiyyatında məlumat verilmişdir.[2] Qayı sözünün leksik mənası, əsasən, bərk, möhkəm anlamındadır. Qayım (bərk), qaya, qayış kimi sözlər də bu anlamla bağlıdır. Məşhur tarixçi, etnoqraf Faruq Sümər özünün "Oğuzlar" adlı məşhur əsərində göstərir ki, XVI əsrdə Anadoluda Qayı tayfasının (boyunun) adında 90 kənd və 6 əkin yeri olmuşdur.[3]

Faruq Sümər yazır ki: "...kayılar oğuzların ən qədim, ən köklü və ən şərəfli boylarından biri idi". Sonra davam edərək yazır: "müsəlmanın oğuz hökmdarı Əli xan dövründə Amunun (ehtimal ki, Ceyhunun) sol sahilində yaşayan və döyüşə 40.000 atlı çıxaran oğuzların başçısı kayıdan Qorqud bəy idi".[4]

Tarix, coğrafiya və dilçilik ədəbiyyatına aid mənbələrdən məlum olur ki, oğuz tayfaları içərisində əfşarlar, bayatlar kimi, qayılar da ən böyük tayfa olmuşdur. Hətta bəzi mənbələrdə qayı tayfasının əfşar və boyatlardan da böyük və çox olduğu bildirilir.

Qayı tayfası haqqında əsas və geniş araşdırmalar Türkiyə ərazisi ilə bağlıdır. Halbuki, belə geniş araşdırmalar bütün türk xalqları yerləşdiyi ərazilərdə də aparılmalıdır. Gələcək tədqiqatçılar bu vacib məsələni ön plana çəkməlidirlər. Yalnız bu zaman oğuz tayfaları haqqında dəqiq söz demək olar.

Qayı tayfası ilə bağlı yer-yurd adları yalnız Türkiyədə deyil, digər türkdilli xalqlar yaşayan yerlərdə də vardır. Yalnız bircə faktı oxucuların nəzər-diqqətinə çatdırmaq istəyirəm. Qərbi Azərbaycanın (Ermənistanın) Ağbaba adlanan ərazisində Qayıqulu dağ, Qayıqulu Düzkənd, Qayıqulu Qazançı, Qayıqulu Ciftəli adlı onomastik vahidlər mövcuddur.

## AYISƏSİ KƏNDİNİN ONOMASTİK VAHİDLƏRİ

### Tayfa adları

1. Həsənlər

-----------------------

1. "Kitabi-Dədə Qorqud" dastanları, Bakı, 1962, s.11.

2. Fəzlullah Rəşidəddin. "Oğuznamə", Bakı, 1992, s.38-39, 213, 402-403; Xivə xanı Əbülqazi "Şəcərəyə tərakimə". Moskva, 1957, s.35; Faruq Sümər. Oğuzlar. Bakı, 1992, s.222-227, 403-405; Meçid Doğru. Krım və Maykopun yer adları. Türk araşdırmaları. İstanbul, 1987, №8, s.86. Mirəli Seyidov. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı, 1989, s.35.

3. Faruq Sümər. Oğuznamə, Bakı, 1992, s.402.

4. Faruq Sümər. Oğuznamə, Bakı, 1992, s.222.

2. Mehtilər
3. Orta kəndlilər
4. Allahverdilər
5. Qənbərlər
6. Haşxanlılar
7. Şıxanlılar
8. Süpürlər tayfası
9. Şabazdar tayfası
10. Alovlılar tayfası
11. Abasdar

**Məhəllə adları**

1. Süpürər məhləsi
2. Aşağı məhlə
3. Yuxarı məhlə
4. Həsənlilər məhləsi
5. Şıxanlılar məhləsi

**Dərə adları**

1. Şorrun dərəsi
2. Dərə yeri
3. Cəvizli dərə
4. Ayı dərəsi
5. Nəsibin dərəsi
6. Quru dərə
7. Mustafanın dərəsi
8. Demin dərəsi
9. Gilasdı dərə
10. Gəzin dərəsi

**Yaylaq, kövşən, yurd adları**

1. Ayı ölən yaylağı
2. Böyük dem
3. Almalıx
4. Qabax kəfşən
5. Yallar
6. Tikannı
7. Qoyunbasan
8. Ortaxlı
9. Uzunnar
10. Taxtalar
11. Göy qəcəl
12. Gəz bulaqlar
13. Orta təzəkli

14. Böyük təzəkli
15. Qala yurdu
16. Pənah yurdu
17. Kiçik dem
18. Yanığın çınqılı
19. Qabaq kəsilən
20. Əyri qar
21. Göl yeri
22. Dəmyə yurdu
23. Bulaqlar
24. Düvəklər
25. Böyük yer
26. Davalılar
27. Allahverdilərin yurdu
28. Abbasdarın yurdu
29. Yaycılar
30. Qanqırlar
31. Qalonun yurdu
32. Sarı yer
33. Eyvaz yurdu
34. Qız ölən
35. Şamo tutulan
36. Qoşa arxaclar
37. Şahbazdarın yurdu
38. İmanın yurdu
39. Keçəl Əlinin yurdu

**Kaha adları**

1. Aşağı kaha
2. Şabazdarın kahası
3. İmannarın kahası
4. Əlinin kahası
5. Ağzıdarın kahası
6. Zamannarın dəliyi (yeraltı yol)
7. Allahverdilərin kahası
8. Ağamirin kahası

**Meşə adları**

1. Tələ meşə
2. Meşələr

**Dağ, qaya adları**

1. Gözəldərə dağ silsiləsi
2. Şiş qaya

3. Ayıölən dağ
4. Gəzin qayası
5. Nahar qayası
6. Maral vurulan
7. Cavaların qayası

**Tunel adları**

1. Arpa (Göyçə su tuneli)

**Bulaq, çay, göl adları**

1. Ağbulaqlar
2. Bayramın bulağı
3. Qulunun bulağı
4. Turş su bulağı
5. Pır-pır bulaq
6. Qıbla bulağı
7. Novun çayı
8. Ayıölənin çayı
9. Abdułəli bulağı
10. Seyidalı bulağı
11. Cəfərin gölü
12. Molla bulağı
13. Soyuq bulaq
14. Aşağı bulaq
15. Yuxarı bulaq
16. Gurbulaq
17. Ağbulaq
18. Qabaqlı bulağı
19. Duzlu su
20. Nənəmin gölü
21. Seyidalı çimən
22. Qara göl
23. Dana boğulan
24. Böyük göl

**Bağ adları**

1. Seyid Əzizin armud bağı
2. Sənəmin armud bağı
3. Taharın armud bağı
4. Quş almaları
5. Allahverdilərin armud bağı
6. Abbasdarın armud bağı
7. Almalıq

**Kilsə adları**

1. Gələsən-görəsən//Gəl-Gör

**Yol adları**

1. Ayaq yol
2. Orta yol
3. Baş yol
4. Taxtaların yolu
5. Dik yol
6. Dəvə boynu
7. Meşə yolu

**Ləqəblər**

1. Sarı Əziz
2. Keçəl Əli
3. Yetim Məhəmməd
4. Tat Temir
5. Dəllək Sarı
6. Şeytan Cəbro

**Kolxoz sədrləri**

*Ayısəsikdən olanlar:*

1. Mehdiyev Süleyman
2. Həsənov Cəlal
3. Ağamir oğlu Əli
4. Ələsov Savalan

*Başqa kəndlərdən olanlar:*

1. Əbilov Hüseyn – (Qabaxlılı)
2. Ələsgər – (Qabaxlılı)
3. İsgəndərov Davud- (Horslu)
4. Əli-(Horslu)
5. Mustafa-(Ertişli)
6. Zülfüqarov Mamed – (Qovuşuqlu)
7. Əsgərov Novruz – (Qovuşuqlu)

## Ayasəsi kəndindən 1937-ci ildə repressiya qurbanları olanlar

1. Abdullayev Canbaxış Abdulla oğlu
2. Mehdiyev Süleyman Mehdi oğlu
3. Nəbiyev Mirseyib Qəmbər oğlu
4. Əliyev Koroğlu Məmməd oğlu

Bunların heç biri geri qayıtmayıblar

**Ayısəsi kəndindən 1941-1945-ci il Böyük Vətən müharibəsinə gedənlər**

**a) qayıtmayanlar**

1. Rzayev Abdulla Sarı oğlu
2. Rzayev İdris Sarı oğlu
3. Bayramov Şamməd Alışan oğlu
4. Qəmbərov Çərkəz Nağı oğlu
5. Alıyev Şamməd Hüseyn oğlu
6. Məmmədov Zülfüqar Mustafa oğlu
7. Məmmədov Əli Mustafa oğlu
8. Məmmədov Alı Mustafa oğlu
9. Məmmədov Vəli Mustafa oğlu
10. Bağırov Mənsum Ələs oğlu
11. Ələsov Nəriman Əbdüləli oğlu
12. Hüseynov Novruz Qurban oğlu
13. Bağırov Lətif Fərəc oğlu
14. Məmmədov Əli Bayram oğlu
15. Məmmədov Qarakişi Bayram oğlu
16. Abbasov Talış Novruz oğlu
17. Hüseynov Əmrah Mütəllim oğlu
18. Hüseynov Şamməd Alı oğlu
19. Hüseynov Nəcəf Alı oğlu
20. Şahbazov Ağacan Abbas oğlu
21. Şahbazov Hüseyn Abbas oğlu
22. Məmmədov Fəro (Firidun) Baba oğlu
23. Bayramov Tahir İsfəndiyar oğlu
24. Abdullayev Qərib Əziz oğlu

**b) qayıdanlar**

25. Rzayev Məhəmməd Sarı oğlu
26. Bayramov Güləhməd Alışan oğlu
27. Hüseynov Seyidağa Qurban oğlu
28. Əliyev Məmməd Məmməd oğlu
29. Mamedov Allahverdi Həsən oğlu
30. Həsənov Həsən Usub oğlu
31. Bağırov Əli Ələs oğlu
32. Ələsov Savalan Əli oğlu
33. Əliyev İslam Xanlar oğlu
34. Mehdiyev Qəhrəman Süleyman oğlu
35. Həsənov Cəlal Şamo oğlu
36. Babayev Ələkbər Abdulla oğlu
37. Babayev Qarakişi Abdulla oğlu
38. Qasımov Mirhüseyn Seydalı oğlu
39. Səfiyev Əmir Məmmədsəfi oğlu

40. Həsənov Oruc Qara oğlu
41. Babayev Yunis Baba oğlu
42. Bayramov Qaraş İsfəndiyar oğlu
43. Bayramov Qibləli İsfəndiyar oğlu
44. Bağırov Əli Ağamir oğlu
45. Həsənov Səməndər Qara oğlu
46. Hüseynov Ələkbər Hadı oğlu
47. Şahbazov İsmayıl Abbas oğlu
48. Bayramov Rəsul Alışan oğlu
49. İsmayılov Kərəm Qəmbər oğlu
50. Əhmədov Əli Nəcəfalı oğlu
51. Nəbiyev Həsənalı Hüseynalı oğlu
52. Səfiyev Qulu İman oğlu
53. Cəfərov Hüseyn Hüseyn oğlu
54. Hüseynov Bəhmən Hüseyn oğlu

**Qarabağ şəhidləri**

1. Bayramov Fazil Səhabəli oğlu
2. Babayev Fərəməz Cəmil oğlu

**İnformatorlar:** 1. Qənbərov Azad Əziz oğlu, ali təhsilli müəllim, 64 yaşında, Aysəsi kəndində doğulub boya-başa çatmış, 1988-ci ildə deportasiya edilmiş, hal-hazırda Bakı şəhərində müəllim işləyir; 2. Mehdiyev Babacan, Aysəsi kəndində doğulub boya-başa çatmışdır, ali təhsilli mü-həndisdir, hal-hazırda Əli-Bayramlı şəhərində yaşayır; 3. Özüm (Həsən Mirzəyev).

## AYNƏZİR//ƏYNƏZİR

Aynəzir Dərələyəz mahalının Yeğeqnadzor (Keşişkənd//Keşkənd) rayonunda kənd adıdır.

Ermənilərin İrandan Qərbi Azərbaycan torpaqlarına köçürülməsi siyasətinin nəticəsində digər azərbaycanlı kəndləri kimi Əynəzir kəndində də ermənilər yerləşdirilmişdir. Burada tədricən ermənilərin sayı artmış və 1897-ci ildə Əynəzir kəndində 776 nəfər erməni və 75 nəfər azərbaycanlı əhalisi olmuşdur.[1] Tədricən azərbaycanlılar buradan sıxışdırılaraq çıxarılmış və yalnız ermənilər qalmışdır. Hal-hazırda bu kəndin adı dəyişdirilmiş və Ağavnadzor adlandırılmışdır.

--------------------

1. Статистическое описание Нахичеванской провинции, СПб, 1833, стр.164. И.Шопен. Исторические памятники состояние армянской областе в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр.515-516; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1034; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh.90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh.358.

Aynəzir kəndinin əkin sahələri, münbit torpağı, üzüm bağları çoxdur. Ona görə də rus şovinistləri azərbaycanlıları sıxışdıraraq İrandan köçürdükləri ermənilərı burada yerləşdirdilər. Onu da qeyd edim ki, bu kənd strateji cəhətdən çox əhəmiyyətli yerdə, Şərura və İrəvana gedən şosse yolun yaxınlığında yerləşir. Nikolay hökuməti erməniləri bura köçürərkən kəndin bu cəhətini də nəzərə almışlar.

Bu toponim kəndi salan şəxsin – Aynəzirin adından yaranmışdır.

## AZADER (AZADEK//AZADYER)

Azader (Azadek) Dərələyəz mahalının Əzizbəyov (Paşalı) rayonunda kənd adıdır. Tarixən bu kənd azərbaycanlıların yaşayış məskəni olmuşdur. Lakin 1828-ci ildə Rusiya ilə İran arasında bağlanmış Türkmənçay müqaviləsinə əsaslanaraq İranın bir sıra vilayətlərindən erməni ailələri bu ərazilərə köçürülərək, ermənilərin sayı artırılmışdır. Həmin dövrdən qarışıq kəndə çevrilmiş Azader hal-hazırda Ermənistan respublikasının Əzizbəyov rayonunda erməni kəndidir. Tarixi və statistik mənbələrdə göstərilir ki, Azader kəndində 1897-ci ildə 20 nəfər azərbaycanlı yaşamışdır.[1]

1828-1832-ci illərdə ermənilər bu kənddə məskunlaşmağa başlamış və getgedə azərbaycanlılar bu kənddən sıxışdırılıb çıxarılmışdır.

Kəndin adının yaranması haqqında erməni mənbələrində belə məlumat verilir ki, 1832-ci ildə İranın Salmas vilayətindən gələn mühacirlər həmin kəndə yaxınlaşanda erməncə demişlər ki, bu kənd azaddır, azad yerdir (azadyer) və oradan da kəndin adı Azadyer qalmışdır.[2] Ermənilərin saxtakarlığı burada da aydın görünür. Belə ki, bundan bir əsr əvvəl Dərələyəz haqqında məlumat verən mənbədə – "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə göstərilir ki, 1727-ci ildə Azader kəndinin gəliri 6.996 ağça olmuşdur.[3]

## BAXÇACIQ

Baxçacıq – Yeğeqnadzor rayonunda kənd adıdır.[4] Bu Arpa çayının sahilində yerləşmişdir. Tarixi və statistik mənbələrdən alınmış məlumatlara əsasən, 1590-cı ildə Bağçacıq kəndinin 2.019 ağça gəliri olmuşdur.[5]

---------------------

1. Статистическое описание Нахчиванской провинции, СПБ, 1833, стр.170; И.Шопен. Исторические памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи, СПБ, 1852, стр.619; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, № 1048; Z.Korkodyan. Sovet Ermənistanın əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 88; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 339;
2. H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh.247.
3. Z.Bünyadov, H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh.36.
4. Mirzəyev H. Baxçacıq kəndi, Filologiya məsələlərinə dair tematik toplu, № 7 (19), Bakı, 2001, s.54-55.
5. Z.Bünyadov, H.Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, s.58; Z.Bünyadov, H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh.284.

Faktlar göstərir ki, Qərbi Azərbaycanda, Vedi rayonunda, İrəvan quberniyasının Sürməli qəzasında, o cümlədən İrəvan qəzasında, Eçmiədzin qəzasında, İrəvan xanlığının Dərəçiçək mahalında da Baxçacıq adında kəndlər olmuşdur və vardır. Qeyd etməliyəm ki,bu toponimin adı Baxça sözü ilə bağlıdır, yəni kiçik bağça, bağ mənasındadır. Burada -cık şəkilçisi sözə kiçilmək çalarlığını verən şəkilçidir. Belə bir cəhəti də qeyd edək ki, oğuzlarda "Bağçalı" adında tayfa adı da vardır. Ağbaba mahalında olan Bağçalı adlı kəndin ərazisində heç bir ağac da yoxdur.

Tarixi mənbələrdə göstərilir ki, Bacçacıq kəndi tarixən də Azərbaycan kəndi olmuşdur. Fikrimizin isbatı üçün 1727-ci ilə aid tarixi faktları özündə əks etdirən "Naxçıvan sancağının müfəssəl dəftəri"ndən Baxçacıq kəndinə və orada yaşayanlara aid bir səhifəlik tarixi sənədi vermək yerinə düşər.

### "DƏRƏLƏYƏZ NAHİYƏSİNƏ TABE OLAN BAĞÇACIQ KƏNDİ

Vəli Məmmədəli oğlu – bennak; (Vəlinin) qardaşı Tağıvəli – subay; Bünyad Muxtar oğlu – bennak; Nurəli Əbülqasım oğlu – bennak; Abdal Əbdulqasım oğlu subay;

Bennak – 3
Subay – 2
Çift – 1
Gəlir:
Bennak vergisi – 54 (ağça)
Subay vergisi – 54 (ağça)
Buğda vergisi – 12 (ağça)
Buğda – 5 kile – dəyəri 40 (ağça)
Sumax – 1 kile – dəyəri 15 (ağça)
Kərdiyər – 4 kile – dəyəri 84 (ağça)
Pərinc – 11 kile – dəyəri 231 (ağça)
Kəlül – 2 kile – dəyəri 36 (ağça)
Mərcimək – 1 kile – dəyəri 18 (ağça)
Kərəsnə – 2 kile – dəyəri 30 (ağça)
Adəti-ağnam – 120 (ağça)
Ağıl vergisi – 290 (ağça)
Dönüm vergisi – 200 (ağça)
Meyvə üşrü – 120 (ağça)
Çift vergisi – 50 (ağça)
Dəştibani vergisi və əkin yeri üçün tapu – 300 (ağça)
Bakirə qız və dul qadın üçün gəlin vergisi – 90 (ağça)
Badı-hava – 179 (ağça)
Yekun – 2.019 (ağça)"[1]

---------------------

1. Bax: Ziya Bünyadov və Hüsaməddin Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh.275.

## BAŞKƏND

Başkənd (Varnaşen – 1946) Dərələyəz mahalının Yeğeqnadzor (Keşkənd) rayonunda kənd adıdır.[1] Hal-hazırda bu kənd Varnaşen adlanır ki, bu da erməni dilində Başkənd deməkdir. Başkəndin ərazisi geniş, münbit və çox məhsuldardır. Məhz buna görə də 1828-ci ildən başlayaraq Başkənd kəndində erməni əhalisi yerləşdirilmiş, azərbaycanlılar isə öz doğma kəndlərindən sıxışdırılıb çıxarılmışdır. Bunun nəticəsidir ki, 1897-ci ildə bu kənddə 570 nəfər erməni, 23 nəfər azərbaycanlı əhalisi olmuşdur.[2]

Tarixi sənədlərdən məlum olur ki, 1590-cı və 1727-ci illərdə bu kəndin gəliri 14.804 ağça olmuşdur.[3]

Dərələyəz mahalına İrandan və Türkiyədən ermənilər gətirilərkən onları birinci növbədə geniş və münbit torpağı, çoxlu bağ-bağatı olan kəndlərdə yerləşdiriblər. Başkənd də belə kəndlər sırasında idi. 1828-1832-ci illərdən sonra bu kənddə olan azərbaycanlıları tamamilə sıxışdırıb çıxartdılar və bu kənddə erməniləri məskunlaşdırdılar.

Qeyd etməliyəm ki, bu kənddə Azərbaycan xalqına (Alban türklərinə) məxsus qədim tarixi abidələr də vardır ki, həmin abidələr dünyada məşhurdur. Belə ki, ermənilər öz institutlarının tarixini bu kənddəki abidələrin tarixi ilə bağladılar. Guya onların institutları 2500 il əvvəl bu kənddə mövcud olmuşdur. Halbuki buradakı və bu rayondakı abidələrin 99%-i alban türklərinə məxsusdur. 1828-ci ilə qədər bu kənddə həmişə azərbaycanlılar yaşamışlar.

1590-cı və 1727-ci ilin tarixi sənədlərində bu fakt açıq şəkildə verilmişdir. Naxçıvan sancağının müfəssəl dəftərində Başkənd (Başköy) haqqında olan bir məlumatı burada vermək yerinə düşər.

Verilən siyahıdan tam aydın olur ki, bura Azərbaycan kəndi olmuşdur. Belə bir cəhəti də qeyd edim ki, bu adda Qafqazda çoxlu kəndlər vardır. Haqqında danışdığımız Başkəndə onun coğrafi mövqeyinə və yerləşdiyi yerə görə ad verilmişdir. Belə ki, ondan aşağıda (cənubda) Orta kənd, ondan da aşağıda Keşkənd adlı kənd vardır.

---------------------

1. Mirzəyev H. Dərələyəzdəki Başkənd, Tezxarab kəndləri haqqında, Filologiya məsələlərinə dair tematik toplu, № 6 (18), Bakı, 2001, s.25-27.

2. Статистическое описание Нахичеванской провинции СПб., 1833, стр.174; И.Шопен. Исторические памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 615; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1012; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 92; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 353.

3. Z.Bünyadov, H.Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, s.59; Z.Bünyadov, H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri, Bakı, 1997, s.35.

## "DƏRƏLƏYƏZ (NAHİYƏSİNƏ) TABE OLAN BAŞKÖY KƏNDİ

Hüseyn Əvəz oğlu – bennak; Nadirxan Doluxan oğlu – bennak; İsmixan Allahverdi oğlu – bennak; Murad Sərkar oğlu – bennak.

2 dəyirman – yarım il işləyirlər.

Bennak 4

Yarım çift – 2

2 dəyirman – yarım il işləyir

3 dəyirman – yararsız haldadır

Gəlir:

Çift vergisi – 50 (ağça)

Bennak vergisi – 72 (ağça)

İspəncə vergisi – 500 (ağça)

Buğda – 20 kile – dəyəri 600 (ağça)

Arpa – 26 kile – dəyəri 520 (ağça)

Darı – 5 kile – dəyəri 75 (ağça)

Sumax – 3 kile – dəyəri 45 (ağça)

Kərdiyər – 11 kile – dəyəri 231 (ağça)

Pərinc – 15 kile – dəyəri 310 (ağça)

Mərcimək – 4 kile – dəyəri 72 (ağça)

Noxud – 3 kile – dəyəri 54 (ağça)

Kərəsnə – 2 kile – dəyəri 30 (ağça)

Bal üşrü – 120 (ağça)

Bostan məhsulları üşrü – 150 (ağça)

Pambıq – 6 man – dəyəri 450 (ağça)

Adəti-ağnam – 310 (ağça)

Ağıl vergisi – 500 (ağça)

Üzümlük və bağçılıq müqatiəsi – ildə 420 (ağça)

Başqa yerdən gəlib bu kəndin torpağından əkib-becərmə işləri üçün istifadə edənlərdən alınan vergi – 285 (ağça)

Dönüm vergisi – 600 (ağça)

Dəştibani vergisi və əkin yeri üçün tapu – 1.800 (ağça)

Bakirə qız və dul qadın üçün gəlir vergisi – 90 (ağça)

Dəyirman vergisi – 120 (ağça)

İhzariyyə – ildə 1.220 (ağça)

Üzüm üşrü – Dərələyəz nahiyəsi üzrə ildə 4.100 (ağça)

Niyabət, badi-hava, işlənmiş günah, törədilmiş cinayət, qul və kənizlərin sərbəstlik almaları üçün vergi – 2.191 (ağça)

Yekun – 14.804 (ağça)"[1]

---------------

1. Bax: Ziya Bünyadov və Hüsaməddin Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh.294-296.

## BƏYZADƏ

Bəyzadə Dərələyəz mahalının Keşkənd rayonunda kənd adıdır. Bu kənd Məlişkə çayından təqribən 12 km. şərqdə yerləşmişdir[1].

Erməni mənbələrində bu kəndi bəzən Bulaqlar kəndi ilə dəyişik salırlar. Kəndin adı mülki titul bildirən bəyzadə sözündən törəmişdir.

## BİLƏK//BİRƏK

Bilək (Çıraq) kəndi də Əzizbəyov rayonunda azərbaycanlı kəndidir. Bu kənddə də azərbaycanlıların yaşaması tarixi faktlarla sübut olunur.[2] Belə ki, statistik mənbələrin verdiyi məlumata görə, Bilək kəndində 1873-cü ildə 334 nəfər, 1897-ci ildə 357 nəfər, 1904-cü ildə 536 nəfər, 1914-cü ildə 536 nəfər, 1916-cı ildə 459 nəfər azərbaycanlı yaşamışdır.[3] 1590 və 1727-ci illərə aid tarixi mənbələrdə Birək şəklində adı çəkilən bu kəndin 2.990 ağça gəliri olmuşdur.[4]

Kəndin yaxınlığında mədən suyu olmuş, həmin suyun əsasında hamam tikilmişdir. Son vaxtlaradək yonulmamış daşdan tikilmiş çimərliklər saxlanmışdır. Kəndin beş qəbiristanlığı olmuşdur. Erməni mənbələrindən məlum olur ki, Bilək kəndinin yanında azərbaycanlılar yaşayan Çirak və Aşağı Çirak kəndləri olmuşdur. 1918-ci ildə kəndlərin üçü də erməni daşnakları tərəfindən dağıdılmış, əhalisi qırılmış və qovulmuşdur. Dağıdılmış kəndlərin xarabalıqları Keçid su anbarından 3-4 km şimal-şərqdə, çayın sahillərindəki düzənlik vadidə yerləşir.

Qeyd etmək lazımdır ki, bəzi erməni mənbələrində (məs: Z.Korkodyanın "Sovet Ermənistanın əhalisi" son yüz ildə (1831-1931 əsərində) Bilək kəndinin adını qəsdən Prak kəndi ilə eyniləşdirib onu erməni kəndi kimi qələmə vermişlər.

Görkəmli coğrafiyaşünas, akademik Budaq Budaqov və böyük tədqiqatçı Qiyasəddin Qeybullayev bu fikirdədirlər ki, "Birək" toponimi Beyrək şəxs adının təhrifidir.[5] Bu fərziyyə çox ağlabatandır. Belə ki, "Dədə Qorqud" eposunda baş verən hadisələr Naxçıvan, Şərur və Göyçədə daha çox cərəyan edir. Göyçədən "Əylincə" qalasına, Şərura və buradan Göyçəyə getmək üçün mütləq Dərələyəzdən keçməlisən. Ola bilsin ki, bu kənd də Dədə Qor-

---

1. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, səh.354; Историческая география Западного Азербайджана. Bakı, 1998, стр.129.

2. Mirzəyev H. Bilək//Birək kəndi, Filologiya məsələlərinə dair tematik toplu, № 6 (18), Bakı, 2001, s.20-21.

3. Bax: Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893. №981; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh.88; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh.341. H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh.246.

4. Z.Bünyadov, H.Məmmədov. İrəvan əyalətinin icmal dəftəri, Bakı, 1996, səh. 60; Z.Bünyadov, H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh. 36.

5. B.Budaqov, Q.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998, səh. 145.

quddakı Baybura oğlu Beyrəyin adı ilə bağlıdır. Onu da qeyd edim ki, Dərələyəzə həmsərhəd olan Vedibasar mahalında, həmçinin Kərnibasarda, Qars əyalətinin Qars dairəsində, Tiflis quberniyasının Borçalı qəzasında "Bayburt" adında da kənd vardır.[1]

## BULAQLAR

Bulaqlar (Bol bulaq) kəndi Dərələyəz mahalının azərbaycanlı kəndlərindən biridir. Bulaqlar kəndinə bu hidrooykonim onun təbii şəraitinə, coğrafi relyefinə görə verilmişdir. Belə ki, kənd Her-her kəndindən 4 km cənubda, çoxlu bulaqları olan dərədə yerləşmişdir.

Tarixi mənbələrin verdiyi məlumata görə, Bulaqlar kəndində 1873-cü ildə 68 nəfər, 1886-cı ildə 92 nəfər, 1897-ci ildə 149 nəfər, 1904-cü ildə 132 nəfər, 1914-cü ildə 145 nəfər, 1916-cı ildə 151 nəfər azərbaycanlı əhali olmuşdur.[2]

1918-ci ilin faciəli hadisələri zamanı Bulaqlar kəndi dağıdılmış, əhalisi qovulmuş və qırılmışdır.

1922-ci ildə 20 nəfər azərbaycanlı öz doğma kəndinə qayıtmışdır. 1926-cı ildə əhalinin sayı 40 nəfər, 1931-ci ildə isə 69 nəfərə çatmışdır. 1949-cu ildə əhali yenidən zorla Azərbaycana köçürülmüşdür.

Bulaqlı kəndində Nəcəfqulu bəy, Firudun bəy, Soltan bəy, Molla İrizban bəy, Bilal bəy, Əbdüləzim bəy, Qəhrəman bəy, Nurullah bəy, Əlipənah bəy, Fərrux bəy, Hüseyn bəy, Ədil bəy, Ağaxan bəy kimi görkəmli adamlar, Ağayev Ağaxan (sovet hökumətinə qarşı vuruşub) kimi qaçaqlar olmuşdur.

Hal-hazırda Bulaqlar kəndi ləğv edilmişdir. Yalnız pəyə kimi istifadə edilmək üçün bir neçə bina saxlanmışdır. Bu kəndin yaxınlığında bir neçə mineral su mənbəyi vardır. Bəzən Bulaqlar kəndini onun yaxınlığında yerləşən Bəyzadə kəndi ilə qarışdırırlar.[3]

Bulaqlar kəndində olan onomastik vahidlərdən yalnız aşağıdakıları əldə edə bildik:

**Dəyirmanlar**
1. Hüseyn bəyin dəyirmanı
2. Nəcəfqulu bəyin dəyirmanı

**Yer adları**
1. Şor dərə

-----------------------

1. B.Budaqov, Q.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998, səh. 145; Əziz Ələkbərli. Qərbi Azərbaycan. I cild. Vedibasar mahalı, Bakı, 2000, səh. 88-89.
2. Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 342, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 246.
3. Mirzəyev H. Dərələyəzin Bulaqlar kəndi haqqında, Filologiya məsələlərinə dair tematik toplu, № 7 (19), Bakı, 2001, s.

2. Alı dərəsi
3. Ardıclıq
4. Qarakav
5. Kəpirlik

**Bulaqlar**
1. Sarı bulaq
2. Qarabulaq
3. Şırran bulaq
4. Hürüxanımın bulağı
5. Nəcəfqulu bəyin bulağu

**1941-1945-ci illərdə Böyük Vətən müharibəsinə gedənlər**

**a) qayıtmayanlar**
1. İbrahim Əbdüləzim oğlu
2. Əlipənah Nəsirov

**b) qayıdanlar**
3. İsa Nəsirov
4. Atabəy Atayev
5. Zeynal Ata oğlu

**İnformator:** 1. Vidadi İsayev. Dərələyəzin Cul kəndindəndir. Hal-hazırda Yevlax rayonunda Mərkəzi Arxivin müdiri vəzifəsində işləyir. Ali təhsilli tarixçidir. Əzizbəyov rayonunun tarixindən kitab yazmışdır.

## BÜLBÜLÖLƏN

Bülbülölən kəndi Dərələyəzin Keşkənd (Yeğeqnadzor) rayonunda azərbaycanlı kəndidir.[1] Bu kənd Həsən kənd, Alxanpəyəsi, Baş kənd və Qoytul kəndlərinin arasında yerləşir. Başqa sözlə desək, Alxanpəyəsi adlı kəndin qənşərində (cənub-şərqində), dağın döşündə yerləşir. Həmin dağın döşündə və bu kəndin qonşuluğunda Kaha və Məşədilər adlı kəndlər də yerləşir. Lakin sonralar Kaha və Məşədilər kəndi bu kəndlə birləşmişdir. Başqa sözlə, Bülbülölən, Kaha və Məşədilər kəndi sonralar bir kənd halında birləşmişdir. Arpa çayının bir qolu ilə Göyçədən Şərura və rayon mərkəzinə şose yolu ilə gedəndə həmin kənd görünür.

Bülbülölən, Kaha və Məşədilər kəndində, (dağın sinəsində), dərələrdə çoxlu cəviz (qoz) ağacları vardır. Bu kəndlərin əhalisi həmin qoz ağaclarından çoxlu qoz (cəviz) yığıb həm özləri istifadə edər, həm də satarmışlar.

-------------------

1. Mirzəyev H. Dərələyəzdəki Bülbülölən, Daşxərmən kəndləri haqqında, Filologiya məsələlərinə dair tematik toplu, № 6 (18), Bakı, 2001, s.69-71.

Mənim anadan olduğum Qovuşuq kəndində Süsən adlı yaşlı bir arvad var idi. Ərinin adı Hüseyn idi. İki oğlu (Nağı və Əli), qızı (Xanım) bu saat Sumqayıt şəhərində yaşayırlar. Həmin 100 yaşlı Süsən arvad Bülbülölən kəndində gedən erməni-müsəlman davasını, orda olan qırğını öz gözlərilə görmüşdür. Bu hadisəni Süsən qarı özü mənə danışmışdır.

1918-ci ildə ermənilər bu kəndi dağıdıb yandırmış, əhalisinin əksəriyyətini isə öldürmüşlər. Bu kəndin əhalisindən sağ qalanlar qaçıb rayonun başqa azərbaycanlı kəndlərinə qarışmışlar.

Tarixi və statistik məlumatlardan məlum olur ki, Bülbülölən kəndində 1831-ci ildə 67 nəfər, 1873-cü ildə 163 nəfər, 1886-cı ildə 208 nəfər, 1897-ci ildə 252 nəfər, 1904-cü ildə 398 nəfər, 1914-cü ildə 437 nəfər, 1916-cı ildə 223 nəfər azərbaycanlı olmuşdur.[1] 1922-ci ildə, yəni qaçhaqaçdan sonra kəndə cəmi 35 nəfər qayıtmış və bunlar öz kəndlərində yaşamağa başlamışlar. Lakin bir neçə ildən sonra bunları Alxanpəyəsi kəndi ilə birləşdirmişlər. 1923-cü ildən sonra bunları da Alxanpəyəsi kəndi ilə birlikdə Ələyəz kəndinə köçürmüşlər.

1923-cü ildə ermənilər genosid siyasəti yeridərək yalnız bu kəndi deyil, Dərələyəzdə olan xırda kəndlərin hamısını, o cümlədən Kaha, Bülbülölən, Alxanpəyəsi kəndlərini də başqa kəndlərə birləşdirmişlər. Burada olan hər kəs qonşu kənddə olan qohum-qardaşlarının yanına getmişdir.

Bülbülölən toponiminin mənşəyinə gəldikdə demək lazımdır ki, bu kənd sırf azərbaycanlı kəndidir. Bülbül adında bir qadının adı ilə bağlı bu kəndə Bülbülölən adı vermişlər.

Bülbülölən kəndində bir çox tayfalar yaşamış və bunlar Dərə məhəlləsi adlı yerdə yerləşmişlər.

**Tayfa adları**

1. Böyük Ələkbərlilər tayfası
2. Allahverdilər tayfası
3. Babaxanlılar tayfası

## CANI

Dərələyəzin Keşkənd (Kişkənd, Yeğeqnadzor) rayonuna daxil olan Canı kəndi 1939-cu ildə ermənilər tərəfindən köçürülərək Qabaxlı kəndinə birləşdirilmişdir. Dərələyəzdə iki Canı kəndi olmuş və bunlar bir-birinin yaxınlığında, Canı çayının üstündə (Arpa çayının başlanğıcında) yerləşmişdir.[2]

--------------------

1. И.Шопен. Исторические памятники состояние армянской областе в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 619; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1013; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 92; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 354, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 244.

2. Mirzəyev H. Canı kəndi və onun onomastik vahidləri haqqında, Filologiya məsələlərinə dair tematik toplu, № 5 (17), Bakı, 2001, s.121-133.

Dəniz səviyyəsindən 2000 metrdən artıq yüksəklikdə yerləşən kəndlərdən biri Yuxarı Canı, o biri isə Aşağı Canı adlanır. Yuxarı Canının üstündə yerləşən qədim qəbiristanlıqda iki metrdən də uzun olan sinə daşları vardır. Yuxarı Canı dəniz səviyyəsindən 2300 metr yüksəklikdə yerləşir. Öz mənzərələri ilə məşhur olan Canı kəndində tarixən də azərbaycanlılar yaşamışdır.

Tarixi, statistik məlumata görə, Yuxarı Canıda 1873-cü ildə 86 nəfər, 1886-cı ildə 169 nəfər, 1897-ci ildə 221 nəfər, 1904-cü ildə 160 nəfər, 1914-cü ildə 176 nəfər, 1916-cı ildə 282 nəfər azərbaycanlı yaşamış, erməni-müsəlman davasından sonra 1922-ci ildə kəndə 77 nəfər qayıtmış və 1931-ci ildə 111 nəfərə çatmışlar.[1] Dərələyəzin bütün kəndlərində olduğu kimi, Canı kəndində də ermənilər nüfuzlu adamları müxtəlif bəhanələrlə kənddən qaçmağa məcbur edirdilər.

1939-cu ildə bu kənddə 60-a yaxın təsərrüfat (ev, tüstü) olmuşdur. Başqa vaxtlarda olduğu kimi, bu dövrdə də erməni şovinistləri azərbaycanlı kəndlərinin sayını azaltmaq, xəritədən silmək üçün kəndləri birləşdirirdilər. Bu zaman kəndin bir çox sakini Azərbaycana köçməyə məcbur oldu. Bunlar, əsasən, Goranboyun Xoylu, Şərurun Siyaqut kəndində, Dağlıq Qarabağda və xüsusən Xocalıda məskunlaşdılar. Əhalinin bu yerlərdə məskunlaşmasının başlıca səbəbi odur ki, 1918-ci il erməni-müsəlman davasında Canı kəndindən qaçanlar, əsasən adını çəkdiyimiz yerlərdə məskunlaşmışdılar. Canı kəndində olan Gülmalı oğlu dərzi Usuba 1937-ci ildə 40.000 naloq bağladıqları üçün o, Qarabağa qaçmağa məcbur olmuşdu.

Canı sözü türk xalqlarına məxsusdur və bu toponimin arealı çox böyükdür. Dərələyəzdə Canı kəndi, Canı çayı, Krım ərazisində Canılar, Canlar, Cangöy, Xankənd yaxınlığında Canhəsən, Qazaxda Canallıq, Ağdərədə Canyataq, Xaçmazda Canaxır adlı kəndlər vardır.[2]

Fikrimizcə, Canı sözü qəbilə, nəsil adı ilə bağlıdır. Bunun üçün Canhəsən kənd adına diqqət yetirmək kifayətdir. Burada can sözü tayfa, qəbilə adını bildirməyə xidmət etmişdir. Tayfa, nəsil, qəbilə adlarının xüsusi adın tərkibində işlənməsi türk dillərində qanunauyğun bir haldır və bir sistem təşkil edir.

Məsələn, Qıpçaq Məlik, Qayı Qulu, Qanlı Qoca oğlu Qanturalı, Təhlə Xəlil, Padar Əli, Hors Mamed, Canılı Usta Mehdi və b.

Haqqında danışdığımız Canı kəndində çox qoçaq, məğrur və varlı adamlar olmuşdur. Nikolay hökumətinə, onun ədalətsizliyinə qarşı vuruşan, Qaçaq Nəbi ilə Koburnatın döyüşündə Qaçaq Nəbiyə kömək edən məşhur Cəlal bəy həmin bu Canı kəndindəndir. Azərbaycanın Milli Qəhrəmanı Vəzirin anası Canı kəndində məşhur tüfəng düzəldən Usta Mehdi oğlu Firidunun qızıdır. Bunlar 1949-cu ildə Ermənistandan deportasiya olunub Tərtərin Xoruzlu kəndinə gətirilmişdir.

---

1. И.Шопен. Исторические памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 619; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №967; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh.92; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh.352, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh.246.
2. Mirzəyev H. Göstərilmiş əsər, səh.1

Canıya məxsus aşağıdakı onomastik vahidləri göstərmək olar.

**Tayfa adları**

Bu kənddə əsasən 2 tayfa olmuşdur:

1. Təhməzlilər
2. Namazlılar

Təhməzlilərdən Cəlal bəy, Nəsibbəy, Abış bəy, Namazlılardan isə Məşəd İmran, Usta Mehdi, Cabbar kimi tanınmış adamlar olmuşdur ki, bunların da çoxlu törəmələri vardır. Nikolay hökuməti ona qarşı çıxan Cəlal bəyi, Sovet hökuməti isə Usta Mehdi kimi silah ustasını həmişə gözümçıxdıya salmışdır.

**Yer, yurd, dağ adları**

1. Çuxur düzənliyi
2. Almalı
3. Qızyetərqaçan
4. Qırxbulaq
5. Səlimölən
6. Yelli yurd
7. Haqverdi olan
8. Qurbantəpəsi
9. Kəndin altı
10. Arxaltı
11. Məmmədəli döyülən
12. Murad təpəsi
13. Qurban təpəsi
14. Yelli yurd
15. Çala yurd
16. Canı yaylağı
17. Şora kahası

**Qəbiristanlıqlar**

1. Kumanın yalındakı qəbiristanlıq
2. Şora kahasının başındakı qəbiristanlıq
3. Çiyələkli təpədəki qəbiristanlıq
4. Muradtəpəsinə tərəf qəbiristanlıq
5. Sədirməmməd qəbiristanlığı

**Kaha adı**

1. Şorra kahası (bu kaha çox böyükdür və burada 2000 qoyun yerləşir)

**Bulaq adları**

1. Qantəpər bulağı
2. Məmmədhüseyn bulağı
3. Abışlar bulağı
4. Dolayı arx bulağı

5. Soyuq bulaq
6. Çiyələkli bulaq
7. Çınqıllı bulaq
8. Lüləpər bulaq
9. Quyu bulaq

Qeyd etmək lazımdır ki, Canı kəndinin içindən 10 dənə gur bulaq çıxır və bu bulaqların suyu ilə kəndin altında bir dəyirman işləyirdi. Mən bunun canlı şahidiyəm. Mən uşaq vaxtı 1938-ci ildə bu kəndə getmişdim. O zaman həmin dəyirmanı öz gözümlə görmüşəm.

### Canı kəndindən 1937-ci ildə repressiya qurbanı (siyasi dustaq) olanlar

1. Cəlal oğlu Vəli
2. Nəsib oğlu Musa
3. Nəsib oğlu Vəli
4. Cabbar oğlu Sərtif
5. Mehdi oğlu Firidun
6. Mehdi oğlu Nəbi
7. Mehdi oğlu Yusif
8. Qiyas oğlu Məhəmməd
9. Abışov Rəşid

**İnformatorlar:** 1. Gülmalıyev Qafar Usub oğlu; Canı kənd sakini, 1927-ci il təvəllüdlü. Uzun müddət kənddə və başqa yerlərdə məsul vəzifələrdə işləmişdir. Ali təhsillidir. Hal-hazırda Abşeron rayonu üzrə YAP-ın sədridir. 2. Məmmədova Kətan Xələf qızı. Canının kənd sakini olub, bu məlumatlar toplananda onun 98 yaşı var idi. 3. İmaməliyev Kərəm Baxış oğlu. Gülüdüzü kənd sakini. Canı kəndi ilə qonşu kənddə yaşayır. 1937-ci ildə anadan olub, ali təhsilli müəllimdir. Hal-hazırda Bakıda yaşayır. 4. Özüm.

## CEYRANLI

Ceyranlı Dərələyəzin Əzizbəyov rayonu ərazisindədir. Bu kənd Terp kəndi ilə Quşçu kəndlərinin arasında, Arpa çayının cənub qolunun yaxınlığında yerləşir.

Tarixi mənbələrdən məlum olur ki, bu kənddə 1873-cü ildə 92 nəfər, 1904-cü ildə 123 nəfər, 1914-cü ildə 135 nəfər əhali yaşamışdır.[1]

Hiyləgər ermənilər 1918-ci ildəki erməni-müsəlman davasında kəndə hücum etmiş, evləri dağıdıb yandırmış və əhalinin bir çoxunu öldürmüşlər.

-----------------------

1. Свод статистических данных о население Закавказского края извлеченных из посемейных списков 1886, Тифлис,1893, стр.988; 2. Z.Karkodyan. Sovet Ermənistanın əhalisi son yüzillikdə (1831-1931), İrəvan, 1932, səh.90; Ermənistan azərbaycanlıların tarixi coğrafiyası, Bakı 1995, səh.340; Историческая география Западного Азербайджана, Бакы 1998, стр.122.

Ölümün pəncəsindən tək-tək adamlar qurtara bilmişdir. Həmin vaxtdan kənd xarabalığa çevrilmişdir. İndi həmin kəndə məxsus qəbiristanlığın izləri qalmaqdadır. Kəndin adına gəldikdə demək lazımdır ki, bu ad kəndin təbii şəraitinə, relyefinə görə verilmişdir. Bu, həmin kəndin ərazisində ceyranın çox olması ilə bağlıdır.

## CIĞATAY

Cığatay Dərələyəzin Əzizbəyov (Paşalı) rayonunda azərbaycanlı kəndi olmuşdur. Cığatay//Cağatay Dərələyəzdəki qədim kəndlərdən biridir.[1] XVI-XVII əsrə aid tarixi mənbələrdə bu "Cağatay" formasında verilmişdir.[2]

1918-ci ildə ermənilər bu kəndi tamamilə dağıtmış və burada yaşayan azərbaycanlıları qırmışlar. Ölümün pəncəsindən qurtaran tək-tək adamlar isə qaçıb müxtəlif yerlərə getmişlər. 1922-ci ildə kəndə cəmi 15 nəfər adam qayıtmış, lakin erməni millətçiləri onların kəndi bərpa etməsinə imkan verməmişlər.[3]

1918-ci ildən sonra demək olar ki, bu kənddə yaşayış olmamışdır. Zeytə kəndinin yaxınlığında olan bu kəndin indi xarabalıqları qalmışdır.

Tarixi və statistik məlumatlarda göstərilir ki, bu kənddə 1831-ci ildə 30, 1873-cü ildə 70, 1886-cı ildə 86, 1897-ci ildə 98, 1904-cü ildə 94, 1914-cü ildə 103, 1916-cı ildə 135 nəfər əhali yaşamış və bunların hamısı azərbaycanlı olmuşdur.[4] Tarixi mənbələrdən məlum olur ki, bu qədim azərbaycanlı kəndinin 1590 və 1727-ci ildə 5,350 ağça gəliri olmuşdur.[5]

Cığatay türk tayfalarından birinin adıdır. Qədim dövrə aid sanballı tədqiqatlar müəllifi Qiyasəddin Qeybullayev və Roza Eyvazova bu tayfanın kəngər tayfası ilə qohum olduğunu söyləyirlər.[6] Belə bir cəhəti qeyd edim ki, Dərələyəzdə və Dərələyəzə çox yaxın olan Şərurda Kəngər tayfaları çoxdur. Şərurun Qarabağlar, Xok, Qıvrıq, Şaxtaxtı kəndləri, əsasən, Kəngər tayfalarıdır. Dərələyəzin Sallı kənd sakini və "Erməni lobbisi... Azərbaycan faciəsi" kitabının müəllifi Qulu da Kəngər tayfalarındandır. Elə buna görə də Qulu Kəngərli kimi tanınır. Dərələyəz kəndlərində kəngər tayfalarından olanlar çoxdur.

Qeyd etmək lazımdır ki, Cığatay adlı tayfa Əfqanıstan ərazisində də yaşamaqdadır. Roza Eyvazova yazır ki, Əfqanıstanın Kabul vilayətində "Ciğətü",

-----------------------

1. Mirzəyev H. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz (monoqrafiya), Bakı, 1997, səh.205-206
2. Ziya Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, səh.59.
3. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1996, səh.349.
4. Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1051; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 349, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 247.
5. Z.Bünyadov və H.Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, səh.59; Z.Bünyadov və H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh.30.
6. Bax: Г.А.Гейбуллаев. Топонимия Азербайджана. Баку, 1986, с.61; Roza Eyvazova. Əfqanıstanda türk mənşəli toponimlər. Bakı, 1995, səh.177.

Qəznidə "Ciğətu" adlı xüsusi adlar yaşamaqdadır.[1]

Cığatay (Cağatay) kəndində tarixin bütün zamanlarında azərbaycanlılar yaşamışdır. 1727-ci ildə bu kəndə aid vergi sənədləri də bu fikrimizi təsdiq edir:

**"DƏRƏLƏYƏZ NAHİYƏSİNƏ TABE OLAN ÇAĞATAY KƏNDİ**

Həsən Qara oğlu – bennak; (Həsənin) oğlu Zaman – subay;

Allahyar Musa oğlu – bennak; Abdal Şərəf oğlu – bennak; (Abdalın) oğlu Alıxan – bennak;

Bərəkətqulu Musa oğlu – bennak; (Bərəkətqulunun) oğlu Bayram – bennak;

Çift – 2

Yarım (çift) – 3

Bennak – 6

Subay – 1

Gəlir:

Çift vergisi – 100 (ağça)

Yarım (çift) üçün vergi – 75 (ağça)

Bennak vergisi – 108 (ağça)

Subay vergisi – 6 (ağça)

Buğda – 5 kile – dəyəri 105 (ağça)

Arpa – 6 kile – dəyəri 120 (ağça)

Düyü – 2 kile – dəyəri 30 (ağça)

Sumax – 1 kile – dəyəri 15 (ağça)

Kərdiyər – 2 kile – dəyəri 42 (ağça)

Pərinc – 3 kile – dəyəri 63 (ağça)

Mərcimək – 2 kile – dəyəri 36 (ağça)

Kərəsnə – 5 kile – dəyəri 75 (ağça)

Meyvə üşrü – 100 (ağça)

Bal üşrü – 120 (ağça)

Dönüm vergisi – 400 (ağça)

Kəlül – 2 kile – dəyəri 36 (ağça)

Paxla – 1 kile – dəyəri 15 (ağça)

Adəti-ağnam – 110 (ağça)

Ağıl vergisi – 300 (ağça)

Dəştibani vergisi və əkin yeri üçün tapu – 320 (ağça)

Başqa yerdən gəlib bu kəndin torpağından əkib-becərmə işləri üçün istifadə edənlərdən alınan vergi – 85 (ağça)

Bakirə qız və dul qadın üçün gəlin vergisi – 90 (ağça)

Badi-hava, işlənmiş günah, törədilmiş cinayət, qul və kənizlərin sərbəstlik almaları üçün vergi – 2.999 (ağça)

Yekun – 5.350 (ağça)"[2]

---------------------

1. Bax: Roza Eyvazova. Əfqanıstanda türk mənşəli toponimlər. Bakı, 1995, səh.177.

2. Ziya Bünyadov və Hüsaməddin Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh.302-303.

## COŞALI

Coşalı kəndi Dərələyəz mahalının Keşkənd ərazisində, Horbadıq kəndinin şimal tərəfində, dağın dibindəki düzənqahda yerləşir. İndi həmin kəndin xarabalıqları qalmaqdadır. Yaşlı adamların dediyinə görə, Coşalı kəndinin balı dillərdə əzbər imiş.

Bu kənd və buna çox yaxın olan Horbadıq kəndinin torpaq sahəsi, yaylaqları çox geniş olmuş və burada çoxlu mal-qoyun saxlanılmışdır. Lakin hansı səbəbdənsə 1830-cu ildən sonra bu kənddə yaşayan olmamışdır.[1] İndi kəndin xarabalıqlarının izləri qalmaqdadır. Mən şəxsən bu yerləri yaxşı tanıyıram.

## CUL

Cul Dərələyəzdə (Paşalı, Əzizbəyov rayonunda) kənd adıdır.[2] Tarixi mənbələrdən aydın olur ki, türk tayfasının adını daşıyan Cul ta qədimdən azərbaycanlı kəndi olmuşdur.[3] 1590-cı və 1727-ci illərin məlumatına görə bu dövrlərdə azərbaycanlılar yaşayan Cul kəndinin gəliri 3.988 ağça olmuşdur.[4]

Bundan sonrakı mənbələrdə qeyd edilir ki, Cul kəndində "1831-ci ildə 117 nəfər, 1873-cü ildə 708 nəfər, 1886-cı ildə 899 nəfər, 1897-ci ildə 1214 nəfər, 1904-cü ildə 222 nəfər, 1914-cü ildə 1344, 1916-cı ildə 1607 nəfər azərbaycanlı olmuşdur.[5]

Ermənistanda Sovet hakimiyyəti qurulandan sonra 1922-ci ildə 717 nəfər kəndə qayıtmış, 1931-ci ildə əhalinin sayı 950 nəfərə çatmışdır.

Yaşlı adamların söylədiyinə görə 1905 və 1918-ci illərdə erməni-müsəlman davasında Cul kəndindən 300-ə qədər atlı birdən döyüşə çıxar və ermənilər Cul cəngavərlərinin adını eşidən kimi pərən-pərən olarmış. Lakin 1918-ci ildə erməni daşnakları hiylə yolu ilə kəndi dağıtmağa nail olmuş, əhalinin çoxunu qırmış, sağ qalanlar isə qaçıb müxtəlif yerlərə getmişlər.

----------------------

1. Bax: Статистическое описание Нахичеванской провинции, Санкт-Петербург, 1933, стр.174-175.

2. Mirzəyev H. Cul etnotoponimi haqqında, Pedaqoji universitet xəbərləri, humanitar elmlər seriyası, № 1, Bakı, 1998, s.73-77; Mirzəyev H. Dərələyəz mahalında olan Cul kəndi və onun onomastik vahidləri haqqında, Filologiya məsələlərinə dair tematik toplu, № 5 (17), Bakı, 2001, s.46-50.

3. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, səh. 407.

4. Z.Bünyadov, H.Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, s. 60; Z.Bünyadov, H.Məmmədov, Naxçıvan sancağının müfəssəl dəftəri Bakı, 1997, s.36.

5. Статическое описание Нахичеванской провинции, СПб, ı833, стр.172; И.Шопен. Исторические памятники состояние армянской областе в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 619; Свод статистичrских данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1006; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 349-350, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 247. Həsən Mirzəyev. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz, Bakı, 1997, s.190-194.

1949-cu ildə Cul kəndindən deportasiya olunan və Salyanda məskunlaşan Tükəzban adlı yaşlı qadın 1918-ci ildə Cul kəndində olan hadisələr haqqında deyir: "Ucqar kəndlərdən qovulmuş azərbaycanlıların bəziləri gəlib bizim kənddə dayanmışdılar. Kənddə bizim kişilərlə birlikdə 600-dən çox əlisilahlı adamlarımız 10 gündən çox Yaponun dəstəsinə qan uddururdular. Birinci gün 100-dən çox quldur dəstəsinin atlıları kəndə hücum edəndə bizimkilər onları bir-bir dənləyirdilər. Erməni quldurlarının bu məğlubiyyəti qudurmuş Yaponu daha da qəzəbləndirmişdi. Kəndə hər gün hücum olur, hər gün də erməni quldurlarının burnu ovulurdu. Kəndin ətrafı erməni qanına boyanmışdı. Qan su kimi axırdı. Nejdehin dəstəsi Yaponun dəstəsinə köməyə gələndən sonra əhali kəndi tərk etməyə məcbur oldu. Naxçıvan tərəfə qaçmağa başladıq. Sonralar həmin ərazi "qanlı səngər" adlandırıldı. Camaatımızın çox hissəsi şəhid olmuşdu. Şura hökuməti qurulanda geri qayıtdıq. Dağıdılmış, yandırılmış evləri təzədən tikib abadlaşdırdıq, yaşamağa başladıq. Şura hökuməti də bizi didərgin saldı. 1949-cu ildə zorla bizi arabalara doldurub gətirib tökdülər Arazdəyənə. Oradan da vaqonlara doldurub Kürün ilanmələyən düzlərinə gətirdilər. Hərə bir yana üz tutdu. Adamlarımızın bir hissəsi də Azərbaycanda istiyə dözməyib xəstələnib öldü".[1]

1948-1949-cu illərdə Ermənistan hökumətinin mənfur qərarı ilə Cul kəndinin mindən çox əhalisi də Dərələyəzdəki başqa kəndlərin əhalisi kimi zorla öz doğma yurdundan köçürülərək (deportasiya edilərək), əsasən, iqlimi isti olan İmişlidə, Yevlaxda, Salyanda, Daşburunda yerləşdirilmişdir.[2]

19 aprel 1950-ci ildə Ermənistan hökuməti Cul kəndinin adını dəyişib "Artivan" qoydu və bununla da tarixi bir cinayətə əl atdı.

Cul toponiminin arealı çox böyükdür. Azərbaycanın Cəbrayıl rayonunda "Çullu kəndi", "Çullu dağı", Zərdabda "Çallı kəndi", Abşeronda "Çullu təpəsi", Qubadlıda "Çullu dərəsi" adlı yerlər vardır.[3]

Türkoloqların bir qismi V əsrin tarixi mənbələrinə əsaslanaraq göstərirlər ki, Zaqafqaziyada Çul adında şəhər də olmuşdur.[4] Hətta bəzi mənbələrdə Çul tayfasının II əsrdə Dərbənd ətrafında və Dərbənddə məskən saldığı da qeyd edilmişdir.[5] Məşhur türkoloq V.V.Bartold yazır ki, Qırğızıstanda Bişkek şəhərinin yaxınlığında Alamedin kəndinin yerində Çul şəhəri olmuşdur.[6]

--------------------

1. Kamil Dərələyəzli. Dərələyəz od içində. Bakı, 2001, səh.161.

2. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh.341-350; Vidadi İsayev. Haradan gəlir bu köç? Bakı, 1995, səh.69; Əziz Ələkbərli. Qədim türk – oğuz yurdu. – Ermənistan, Bakı, 1994, s.155.

3. Nadir Məmmədov. Azərbaycanın yer adları. Bakı, 1993, səh. 164; Azərbaycan SSR-nin inzibati ərazi bölgüsü. Bakı, 1968, səh. 34; Y.B.Yusifov, S.K.Kərimov: Toponimikanın əsasları, Bakı, 1987, səh. 175-179.

4. Гукасян Ворошил. Асланов Вагиф. Исследование по истории азербайджанского языка дописьменного периода. Баку, 1986, стр. 168; A.Qurbanov. Azərbaycan dilinin onomalogiyası: Bakı, 1988, səh. 130-327.

5. Qiyasəddin Qeybullayev. Qədim türklər və Ermənistan, Bakı 1992, səh. 124; Мовсес Хоренски. История Армении, (Хроника) М., 1893, стр.194.

6. В.В.Бортолд. Сочинение II том, I часть, М., 1963, с. 37.

Çul etnotoponimi haqqında məlumat verən bir sıra tarixi mənbələrdən aydın olur ki, Qədim Albaniyada[1] "Çullu", "Çullar", "Çulkənd", Krımda[2] "Çulkənd", "Çulqrağı" adlı kəndlər olmuşdur.

Görkəmli tarixçi Y.Yusifov və S.Kərimov toponimik paralellər haqqında danışarkən göstərirlər ki, Özbəkistanda "Çulobod", İran Azərbaycanında "Çulluq" adlı kəndlər vardır.[3]

Q.Qeybullayev Ptolomeyə əsaslanaraq yazır ki,Çul tayfası Xəzər və Aral sahilində IV əsrin 50-ci illərində yaşamışdır. Müəllif davam edərək qeyd edir ki, Çol//Çul adlı türk tayfası Albaniyada çox qədimlərdə mövcud olmuş, yaşamış və öz adlarını Qafqazda olan 5 kənd adında əbədiləşdirmişdir.[4]

Haqqında danışdığımız tayfa Əfqanıstanda da yayılmışdır. Roza Eyvazova yazır ki, Əfqanıstanın Pərvan adlı yerində "Çol" adında kənd vardır.[5] Akademik V.V.Bartold göstərir ki, Çin ərazisində "Çuos" (Çuyus) adlı yer türk tayfasının adını bildirən Çul sözü ilə bağlıdır.[6]

Məşhur türkoloq V.V.Bartold və görkəmli tarixçi Mahmud İsmayılov tarixi mənbələrə əsaslanaraq belə bir qənaətə gəlmişlər ki, Çol toponimi qədim oğuz tayfalarından birinin adından götürülmüşdür.[7]

Mahmud İsmayılov yazır ki, Çol//Çul adlanan soylar Azərbaycan ərazisində Çullular adı ilə də tanınmışdır. Qarabağ ərazisində keçmiş Şuşa, Zəngəzur, Qaryagin qəzalarında bir neçə Çullu toponiminin olması təsadüfi deyildir.[8]

Qədim dövrlərin böyük araşdırıcısı Voroşil Qukasyan öz tədqiqatlarında Çul toponiminin türk (Azərbaycan) tayfasının adı olduğunu isbata yetirmişdir.[9] Türkoloqlardan V.Aslanov və T.Əhmədov da öz tədqiqatlarında Çul sözünün türk tayfasının adı olması qənaətinə gəlmişlər.

Cul tayfası Cənubi Azərbaycanda da qədim dövrlərdən məskən salmışlar. Məşhur türkoloq və tarixçi Qiyasəddin Qeybullayev yazır: "...Eranın ilk əsrlərindən sonra Cənubi Azərbaycan ərazisinə Hunlar, Cullar, Suvarlar, Xəzərlər və başqa türk tayfaları da gəlib məskunlaşmışlar".[10]

Türkoloji mənbələrdə Sibirdə də belə bir tayfanın yaşadığı göstərilir.[11] Qədim Azərbaycan torpağı olan Borçalıda da (indiki Gürcüstanda) Cullu, cul tayfası vardır.[12]

-------------------

1. Г.А.Гейбуллаев. К этногенезу азербайджанцев. Баку, 1991, с. 57.
2. Türk dünyası araşdırmaları. İstanbul, 1987, №48, səh. 80-82.
3. Y.B.Yusifov, S.K.Kərimov. Toponimikanın əsasları. Bakı, 1987, s. 175-179.
4. Г.Гейбуллаев. К этногенезу азербайджанцев. Баку, 1991, стр. 57, 74, 354.
5. Roza Eyvazova. Əfqanıstanda türk mənşəli toponimlər, Bakı, 1995, s. 74, 76.
6. В.В.Бартолд. Сочинение II том, I часть. М., 1963, стр. 557.
7. Ətraflı məlumat üçün bax: Mahmud İsmayılov. Sənin ulu baban. Bakı, 1989, s. 270.
8. Yenə orada, səh. 270.
9. Ətraflı məlumat almaq üçün bax: Tofiq Əhmədov. Azərbaycan toponimikasının əsasları. Bakı, 1991, s. 53. 298-299, 301-302.
10. Qiyasəddin Qeybullayev. Qarabağ (etnik və siyasi tarixinə dair). Bakı, 1990, səh. 45.
11. Fərhad Zeynalov. Türkologiyanın əsasları. Bakı, 1981, səh. 63.
12. X.H.Əliyev. Gürcüstanda bəzi etnonimlər haqqında. Azərbaycan onomastik problemləri, III, Bakı, 1990, səh. 128.

Q.Qeybullayev Çol sözünün türk tayfasının adından götürüldüyünü deməklə yanaşı onun Çor, Çul, Sur, Sul variantlarında işləndiyini də göstərir.[1]

Roza Eyvazova isə yazır ki, Çol, Çar, Sul, Sur etnonimləri ilə Sal və Sar etnonimləri bir mənbədən təşəkkül tapmışdır.[2] Qara Məşədiyev bu etnotoponimin üç variantını, Çal//Çul//Sul variantlarını göstərir.[3]

Bura qədər deyilənlərdən aydın olur ki, cul sözü türk tayfalarından birinin adıdır. Bu tayfa ən qədim dövrlərdən türk xalqları yaşayan böyük və geniş ərazilərdə, o cümlədən Dərələyəzdə məskən salmış və bir çox kəndlərə, dağlara, dərələrə və digər yerlərə öz danılmaz möhürünü vurmuşdur.[4]

## CUL KƏNDİNDƏKİ ONOMASTİK VAHİDLƏR

Cul kəndinin onomastik vahidləri olduqca çoxdur. Lakin bu kənd 1949-cu ildə deportasiya olunduğundan həmin kənddəki yaşlı adamların, bu kəndin ərazisinə yaxşı bələd olanların çoxu dünyasını dəyişmişdir. Ermənistan Respublikasının arxivlərində olan sənədləri də məlum səbəblər üzündən əldə etmək mümkün olmadı. Ona görə də Cul kəndində mövcud olan onomastik vahidlərin bir qismini vermək məcburiyyətindəyik.

**Tayfalar**
1. Musalılar
2. Həşinli
3. Xələtli
4. Albəyli
5. Babalar
6. Koçikli
7. Qılınclı

**Dağlar**
1. Keçəldağ
2. Matəm ağacı
3. Ağ yarğan
4. Qaya arası
5. Hacı Həsənqulu dağı
6. Daşlı burun

**Yurdlar**
1. Tikanlı

------------------

1. Qiyasəddin Qeybullayev. Azərbaycan türklərinin təşəkkülü tarixi. Bakı. 1994, səh. 196; Гейбуллаев Г.А. О происхождении названия города Чол в Кавказской Албании. Советская тюркология. Бакы, 1975, с.38.
2. Roza Eyvazova. Əfqanıstanda türk mənşəli toponimlər. Bakı, 1995, s. 78.
3. Bax: Q.Məşədiyev. Zaqafqaziyanın Azərbaycan toponimləri. Bakı, 1990, s. 62-64.
4. Mirzəyev H. Cul etnotoponimi haqqında, Pedaqoji universitet xəbərləri, humanitar elmlər seriyası, № 1, Bakı, 1998, s.73-77.

2. Yelli yurd
3. Çirişli yurd
4. Boz yastana
5. Güney yurdu

**Meşələr**
1. Meşəbaşı
2. Zirincli
3. Qara şirran
4. Bavlo
5. Kömürxana

**Biçənəklər**
1. Avas biçənəyi
2. Kömürxana
3. Çiçəkli
4. Alçalı
5. Dəhnəli biçənək

**Bağlar**
1. Tumas qulular
2. Mülayim bağı
3. Gözəlin bağı
4. Kalbayisa bağı
5. Zalxanın bağı
6. Abasqulu bağı
7. Ağkənd bağı

**Göllər**
1. Çinli göl
2. Quru göl

**Bulaqlar**
1. Alı bulağı
2. Soyuq bulaq
3. Təhnəli bulaq
4. Bavlo bulağı
5. Oruc bulağı

**Cul kəndində olan məşhur tarixi abidələr**
1. Qırmızı körpü
2. Alıkənd vəngi
3. Dəmirçilərin alban qəbiristanlığı

**Ermənilərlə döyüşdə həmişə qalib çıxan məşhur igidlər**

1. İsmixan
2. Həşin
3. Qaçaq Ağa
4. Qaçaq İldırım
5. Məşədi Mehdiqulu oğlu Mürsəl
6. Müseyib

**Cul kəndindən olan din xadimləri**
1. Molla Fərzalı
2. Usubalı
3. Kəlba Fərzalı
4. Molla Oruc

**Cul kəndindən 1941-1945-ci il Böyük Vətən müharibəsinə gedənlər**

**a) qayıtmayanlar**
1. Şamxal Qələndər oğlu
2. İsmayıl Oruc oğlu
3. Sevindik Oruc oğlu
4. Bəhman Balaxan oğlu
5. Əmikişi Məhəmməd oğlu
6. Nəcəfqulu Zalxan oğlu
7. Şəmil Allahverdi oğlu
8. Namaz Gözəl oğlu
9. Əziz Ağahəsən oğlu
10. Haqverdi Babayev
11. Ağa Qasım oğlu
12. Mehman Ağa oğlu
13. Hüseynqulu Həşin oğlu
14. İsgəndər Tumasqulu oğlu
15. İldırım Salman oğlu
16. Allahverdi Qara oğlu
17. Məmmədalı Həsənqulu oğlu
18. Qüreyş Mürşüd oğlu
19. Əlmərdanov Şəmil
20. Əsədov Sevindik
21. Serbiya Məhəmməd oğlu

**b) qayıdanlar**
22. Səfərov Gəncəli
23. Səfərov Səfər
24. İsayev Əbdülkərim
25. Dolxan Hümbətov

26. Manaf İsmayıl oğlu
27. Allahverdi Kəlbayisaxan oğlu
28. Hidayət Cəbrayılov
29. Babaxan Səfərov
30. Babayev Allahverdi
31. Cəbrayılov Zalxan
32. Abbasov Məhəmməd
33. Fərzaliyev Məcid
34. Dünyamalıyev İsmayıl
35. Baxşalı Kərəmalı oğlu
36. Səfqulu Şükür oğlu
37. Mehdi Nəcəfqulu oğlu
38. Əmiraslan Əlikişi oğlu

**İnformatorlar:** Cul kəndində olan bu onomastik vahidlər haqqında məlumatı, əsasən, həmin rayonda doğulub boya-başa çatan, bu rayon haqqında kitab və çoxlu məqalə yazan, hal-hazırda Yevlax şəhər arxivində müdir vəzifəsində işləyən Vidadi İsayev vermişdir.

## ÇANAXÇI

Çanaxçı Dərələyəzdə kənd adıdır. Bu kənd ta qədim dövrdən son vaxtlara qədər Dərələyəz mahalında Keşişkənd (Keşkənd) rayonunun tərkibində olmuş, sonralar isə Vedi rayonuna verilmişdir.

1831-ci ildə Rusiyanın Naxçıvan xanlığı haqqında nəşr etdiyi statistik məlumatda,[1] "Kavkazskiy kalendarğ"ın bir çox materiallarında, İ.Şopenin 1852-ci ildə çıxan məşhur kitabında,[2] Ziya Bünyadovun və Hüsaməddin Məmmədovun 1590-cı illəri əhatə edən "İrəvan əyalətinin icmal dəftəri" və 1727-ci ilə aid olan "Naxçıvan sancağının müfəssəl dəftəri" kitablarında[3] Çanaxçı kəndi Dərələyəzin tərkibinə daxil edilmişdir. Son dövrlərdə isə bu kənd Vedi rayonunun tərkibinə daxil edilmiş və ermənilər bu kəndin adını dəyişib Sovetaşen qoymuşlar.[4]

"İrəvan əyalətinin icmal dəftəri" və "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə göstərilir ki, 1590-cı və 1727-ci illərdə Dərələyəzdəki Çanaxçı kəndinin 2.810 ağça gəliri olmuşdur.[5]

---------------------

1. Статистическое описание Нахичеванской провинции, Санкт-Петербург, 1833, стр.174
2. И.Шопен. Исторические памятники армянской области эпоху ее присоединения к Российской империи. С.Петербург, 1852, стр.615.
3. Bax: Ziya Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, səh.57; Ziya Bünyadov və Hüsaməddin Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh.34.
4. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh.403.
5. Ziya Bünyadov və Hüsaməddin Məmmədov. Göstərilmiş əsərləri. səh.57; səh.34.

Çanaxçı toponiminin arealı çox böyükdür. Bu Azərbaycanda (Xankəndi// Əsgəran rayonunda) "Çanaxçı", Türkmənistanda "Çanaxçı", Özbəkistanda "Çanok", Qazaxıstanda "Çanak", qədim oğuz yurdu olan Qafanda "Çanaxçı", Gürcüstanda "Çanaxçı", Qərbi Azərbaycanın Çalaloğlu (Stepanavan) rayonunda "Çanaxçı", Moldaviyada "Çenak" formasında işlənir.[1] Hətta Araz çayının bir qolunun da adı Çanaxçıdır. Bolqarıstan ərazisində, Bolqarıstan türkləri yaşayan yerlərdə Çanaxçı adlı 11 kənd olmuşdur.[2]

Aparılmış tədqiqatlar, dil və tarixi faktlar göstərir ki, Çanaxçı toponimi türk tayfa və ya qəbilələrindən birinin adıdır. Türkoloq Tofiq Əhmədov yazır ki, Çanaxçı toponiminin tarixi çox qədimlərə gedib çıxır, bu antik mənbələrdən qeydə alınmışdır.[3]

Qədim dövrlərin görkəmli tədqiqatçısı Voroşil Qukasyan "Qafqaz Albaniyası" adlı kitabında göstərir ki, Çanaxçı qəbilə adıdır.[4]

Voroşil Qukasyanla və Çanaxçı toponimini tayfa, qəbilə adı ilə bağlayanlarla tam razıyam. Çanaxçı toponimi doğrudan da tayfa, qəbilə adıdır. Ola bilsin ki, bu söz peşə ilə bağlı da əmələ gəlmişdir. Qədim dövrlərdə ağac kəsiyinin içini oyub ölçü vahidi kimi (taxıl ölçən qab) istifadə edər və buna çanaq deyərdilər. Bəzi rayonlarda indi də bu ölçü vahidindən istifadə olunur. Bu qabı (çanağı) düzəldən nəslə, tayfaya da çanaxçılar deyirmişlər.

Tədqiqatçı Əziz Ələkbərli toponimin ümumtürk səciyyəsi daşımasına istinad edərək onun tayfa adından yaranması, bu tayfanın isə öz adını Oğuz xanın oğlu Dağ xanın nəslindən olan Salur xandan alması fikrini irəli sürür. Həmin Salur xan ki, 962-ci ildə islam dinini qəbul edərək özünü Qara xan və ya Çanağ, Ağ hun türklərinə mənsub olan qəbiləsini isə bütpərəst türklərdən ayırıb, "türkman", yəni "türk imanlı" adlandırmışdı. Ə.Ələkbərlinin fikrincə, Çanaxçı tayfa adı məhz Çanağın qəbiləsi, tərəfdarları anlamında həmin vaxtdan yaranmış və Avropadan Asiyaya qədər türklərin islamlaşmış təbəqəsinə şamil edilərək geniş yayılmışdır.[5]

Göründüyü kimi, bütün hallarda bu, Azərbaycan sözüdür.

Yuxarıda deyilənlərdən belə bir aydın nəticəyə gəlmək olur ki, Dərələyəzdəki Çanaxçı kəndi azərbaycanlılara məxsus olmuş və bu kəndə türk tayfalarından birinin adı verilmişdir.[6]

-------------------

1. Bax: Y.B.Yusifov və S.K.Kərimov. Toponimikanın əsasları, Bakı, 1987, s.172-173, 175-176; Azərbaycan SSR-in inzibati-ərazi bölgüsü. Bakı, 1968, s.114, 207; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, s.156; Географический атлас Армении. Москва, 1979, с.5.

2. T.Acaroğlu. Bolqarıstanda türk yer adları. İstanbul, 1985, s.162.

3. Tofiq Əhmədov. Azərbaycan toponimikasının əsasları. Bakı, 1991, s.53.

4. Q.Voroşil. Qafqaz Albaniyası. Bakı, 1993, s.90.

5. Əziz Ələkbərli. Qərbi Azərbaycan, I cild, Vedibasar mahalı, Bakı, 2000, səh.492.

6. Mirzəyev H. Çanaxçı və Cığatay etnonimi haqqında bir neçə söz, Dil məsələlərinə dair tematik toplu, № 2, Bakı, 1997, s. 86-89; Mirzəyev H. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz (monoqrafiya), Bakı, 1997, səh. 206-207.

## ÇAYKƏND

Çaykənd Dərələyəzin Əzizbəyov rayonunda azərbaycanlı kəndidir. Əhalisi 1950-ci ildə Azərbaycana köçürülmüş, deportasiya olunmuşlar.

Statistik və tarixi mənbələrdən məlum olur ki, 1831-ci ildə bu kənddə 78 nəfər, 1873-cü ildə 110 nəfər, 1886-cı ildə 78 nəfər, 1897-ci ildə 166 nəfər, 1904-cü ildə 129 nəfər, 1914-cü ildə 141 nəfər, 1916-cı ildə 143 nəfər azərbaycanlı yaşamışdır.[1]

Kəndin zəylik deyilən yerində Alban türklərinə məxsus qədim bir qəbiristanlıq vardır.

1918-ci ildə kənd erməni millətçiləri tərəfindən dağıdılmışdır. 1922-ci ildə cəmi 35 nəfər qaçqın öz doğma yurduna qayıtmış, 1926-cı ildə onların sayı 104 nəfərə, 1931-ci ildə isə 131 nəfərə çatmışdır.

Azərbaycanlılar kəndi yenidən bərpa edib özləri üçün güzəran düzəldənədək yeni repressiya başlandı. 1948-1953-cü illərdə azərbaycanlıların zorla Ermənistandan deportasiya edilməsilə əlaqədar bu kəndin də əhalisi (50 ev, təsərrüfat) 1949-cu ildə Azərbaycana köçürüldü və ermənilər kəndi dağıdıb xaraba qoydular.[2] İndi bu kənd ölü kəndlər sırasındadır. Hal-hazırda bu kəndin əhalisinin əksəriyyəti Yevlax və Tərtər rayonlarında məskunlaşmışlar.

Bu kənddə Molla Abbas adında məşhur din xadimi olmuşdur. Çaykənd kəndindən olan və hazırda Yevlaxda yaşayan Bayramov Şahmar Zülfüqar oğlu bu kəndin köçürülməsini xatırlayaraq 1952-ci ildə olmuş bir hadisə haqqında belə deyir: "Bizi kənddən çıxarmaq üçün bir neçə paluturka maşını və yüzə yaxın erməni göndərmişdilər. Biz kənddən çıxmamış ermənilər evləri sökür, yandırır, hətta iri gövdəli bar ağaclarını kəsirdilər. Mən bu mənzərəyə dözməyib bir ağacı doğrayan sürücü Joradan soruşdum ki, onsuz da biz gedirik. Daha kəndi niyə bu günə salırsız, ağacları niyə doğrayırsız? O, qolumdan tutub məni kənara çəkdi və əyilib yerdən bir ovuc torpaq götürərək dedi: "Ara ay dəli müsəlman, bizə bu torpaq lazımdır, eşidirsən, torpaq, qalan heç nə". Mənim isə sökülən evimizə, kəsilən bar ağaclarımıza, maşınlara doldurulan zavallı camaata baxıb hönkürtü ilə ağlamaqdan başqa əlimdən heç nə gəlmədi. Mən o yekəpər erməninin üzündəki ifadənin, dediyi sözlərin mənasını təəssüf ki, çox sonralar başa düşdüm."[3]

Bu kəndin adı onun relyefinə görə verilmişdir. Kənd Arpaçayın bir qolu üzərində yerləşir, ona görə də bu kəndin adı su mənbəyi ilə bağlı olaraq ya-

---

1. И.Шопен. Исторические памятники состояние армянской областе в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр.619; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1000; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh.90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 349, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 247.

2. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, səh.349; Историческая география Западного Азербайджана. Баку-1998, стр.121.

3. Bax: Vidadi İsayev. Haradan gəlir bu köç. Bakı, 1995, səh.104.

ranmışdır.[1]

Göründüyü kimi, bu toponim də azərbaycanlılara məxsusdur.

Çaykənddə olan onomastik vahidlər haqqında hələlik aşağıdakıları əldə edə bildik.

**Tayfa, sülalə, nəsil adları**

1. Hacıbayramlı tayfası
2. İbrahimlilər tayfası
3. Talıblar tayfası
4. Bəşirlər
5. Bağırlar
6. Abdulla nəsli
7. Cahangir sülaləsi
8. Bayram nəsli

**Məhəllə adları**

1. İbrahimlilər məhləsi
2. Talıblılar məhləsi
3. O tay məhlə
4. Bağırlar

**Örüş, çöl, biçənək adları**

1. Daşdı güney
2. Kəndin altı
3. Dağ arxac
4. Göy yal
5. Talıbların biçənəyi
6. Zəylik
7. Böyük şam
8. Şıxalıqorxan
9. İt yolu

**Kaha, gab, zağa adları**

1. Demin kahası
2. Qaranlıq kaha
3. Quzu kahası
4. Allı kaha
5. Camış kahası
6. Göygab kahası

**Dərə adları**

1. Vənli dərə
2. Çıraqlı dərəsi

-------------------

1. Mirzəyev H. Çaykənd və onun onomastik vahidləri, Filologiya məsələlərinə dair tematik toplu, № 5 (17), Bakı, 2001, s.61-62.

3. Məmərza dərəsi

**Qaya adları**
1. Sal qaya
2. Keçi qayası
3. Sarı qaya
4. Ballı qaya
5. Top daş

**Dağlar**
1. Üç qardaş
2. Böyük şam
3. Tükənölən
4. Zərli dağ
5. Arınc yalı

**Yurdlar**
1. Böyük şam
2. Bavlo binəsi
3. Dem yurdu
4. Sıra qaya yurdu
5. Çıraqlı yurdu

**Bulaqlar**
1. Məşədi bulağı
2. Həsən bulağı
3. Daşbulaq
4. Sarı bulaq
5. Damcı bulaq
6. Şərəfsultan bulağı
7. Pırt-pırt bulaq

**Göl adı**
1. Yalın gölü

## 1930-cu illərdə siyasi məhbus kimi tutulanlar

Fərəməz Cahangirov

## 1941-1945-ci il Böyük Vətən müharibəsinə gedənlər

**a) qayıtmayanlar**
1. Həsənov Əmir
2. Bəylərov Temir
3. Abutalıb Talıbov
4. Şəmil Talıbov
5. Başirov Bəşir

6. Bəhrəm Bayramov
7. Məcnunov Əvəz
8. Məhəmməd Mehtiyev

**b) qayıdanlar**

1. Abdulla Bəylərov
2. Səfərəli Nəbiyev
3. Temir Həsənov
4. Mamed Bəşirov
5. Məhəmməd Bağırov
6. Qurban Abdullayev
7. Rəhim Talıbov
8. Ağa Talıbov
9. Bayramov Fərman
10. Məcnunov Məcnun
11. Qərib Mehtiyev
12. Əli Bağırov
13. İbrahim İbrahimov

**İnformator:** Çaykəndin onomastik vahidləri haqqında məlumatı bu rayonun sakini, hal-hazırda Yevlax şəhər arxivinin müdiri vəzifəsində çalışan, Əzizbəyov rayonuna dərindən bələd olan İsayev Vidadi vermişdir.

## ÇİVƏ

Çivə Dərələyəz mahalının Keşişkənd (Keşkənd, Yeğeqnadzor) rayonu ərazisində kənd adıdır. Ta qədim dövrlərdən 1918-ci ilə qədər təmiz azərbaycanlı kəndi olmuş, 1918-ci ildən sonra isə burada azərbaycanlılarla ermənilər qarışıq yaşamışdır.[1]



Statistik məlumatlara görə Çivə kəndində 1831-ci ildə 129 nəfər, 1873-cü ildə 294 nəfər, 1886-cı ildə 431 nəfər, 1897-ci ildə 689 nəfər, 1904-cü ildə 562 nəfər, 1914-cü ildə 612 nəfər, 1916-cı ildə 612 nəfər azərbaycanlı əhalisi ol-

---

1. Mirzəyev H. Civə etnotoponimi, Dil məsələlərinə dair tematik toplu, № 2, Bakı, 1997, s. 101-102; Mirzəyev H. Sallı və Civə kəndlərində tayfalar, kəhriz, bulaq və yer-yurd adları haqqında, Filologiya məsələlərinə dair tematik toplu, № 1-2, Bakı, 2001, s.70-72; Mirzəyev H. Bir daha Civə kəndinin onomastik vahidləri haqqında, Filologiya məsələlərinə dair tematik toplu, № 3-4, Bakı, 2001, s.99-103.

muşdur.[1]

1918-ci il erməni-müsəlman davasından qaçıb qurtaran əhalinin bir hissəsi 1922-ci ildə kəndə qayıtmış, lakin ermənilər bunların ev-eşiyini zəbt etdiyi üçün onların xeyli hissəsi ora-bura dağılmışdır. 1922-ci ildə kənddə 391 nəfər, 1926-cı ildə isə 367 nəfər azərbaycanlı yaşamışdır.

1949-1950-ci illərdə bu kənd əhalisi də başqa kəndlərdə olan azərbaycanlılar kimi deportasiya edilərək Azərbaycanın Bərdə rayonunun İmirli və Həsənqaya kəndlərinə köçürülmüşdür. 1953-cü ildən sonra onların bir hissəsi yenidən kəndə qayıtsa da 1988-ci ildə ermənilər onları tamamilə kənddən qovmuşlar. Bu kəndin əhalisi indi, əsasən, Bərdənin İmirli kəndində, Tərtərdə, Şəkidə və Bakıda məskunlaşmışlar.

"Çivə" kəndinin adı qədim türk tayfalarından birinin adından götürülmüşdür. XI əsrin böyük türkoloqu Mahmud Kaşğari özünün məşhur "Divani-lüğət-it-türk" əsərində oğuzların 24 tayfası içərisində "Yivə" etnoniminin də adını çəkir.[2]

Akademik A.S.Sumbatzadə yazır ki, Azərbaycan toponimiyasında oğuz tayfalarından indiyədək qorunub saxlanılanlarından biri də "Yivə" tayfasıdır[3] Akademik Budaq Budaqov yazır ki, Ermənistanda bu tayfa Cuva kəndi adında qalmışdır.[4] Başqa bir mənbədə isə "Çivə" adının "Çuvya" forması ilə paralel işləndiyi göstərilir.[5]

Şərur Dərələyəz qəzasına daxil olan və Dərələyəzin Keşkənd (Yeğeqnadzor) rayonunda yerləşən Çivə kəndi çox qədim kəndlərdən biridir və burada son dövrlərə qədər həmişə azərbaycanlılar yaşamışdır. 1590-cı və 1727-ci ilə aid tarixi mənbələrdə göstərilir ki, həmin illərdə Çivə kəndinin 4,349 ağça gəliri olmuşdur.[6]

Bizim apardığımız araşdırmalar göstərir ki, "Çivə" toponimi "Yivə" tayfasının adıdır və bunlar, əsasən, paralel şəkildə işlənmişdir. Burada sadəcə olaraq "y" səsi "ç" səsinə keçmişdir ki, belə səs dəyişmələri (y~ç dəyişməsi) türk dillərində qanunauyğun bir haldır. Məs., geyim-keçim. Türkoloq F.Cəlilov göstərir ki, y-ç paralelliyi (y~ç) türk dillərində geniş şəkildə yayılmışdır.[7]

-----------------------

1. И.Шопен. Исторические памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 613-616; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1045; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 92; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 367-368, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 246.

2. Mahmud Kaşğari. "Divani-lüğət-it-türk". Ankara, 1939.

3. А.С.Сумбатзаде. Азербайджанцы-этногенез и формирование народов. Баку, 1990, с.148

4. B.Budaqov. Türk uluslarının yer yaddaşı. Bakı, 1994, səh.184.

5. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, s.367.

6. Z.Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri, Bakı, 1996, səh.57. Z.Bünyadov və H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh.271-272.

7. F.Cəlilov. Azərbaycan dilinin morfonologiyası. Bakı, 1988, s.52.

Roza Eyvazova isə bir qədər də irəli gedərək türk dillərində c-y-ç paralelliyi haqqında məlumat verir və göstərir ki, Əfqanıstan ərazisində Car coğrafi adına Yar-Çar formasında da təsadüf olunur.[1]

Bu etnotoponimin arealına gəldikdə qeyd etmək lazımdır ki, "Yivə" etnonimi Türkiyədə də vardır.[2]

Qeyd etmək lazımdır ki, Çivə kəndində adlı-sanlı adamlar çox olmuşdur. Bu adlı-sanlı adamlar haqqında qısa məlumat vermək gələcək nəsillər üçün çox faydalıdır.

Məlum olduğu kimi, 1833-cü ilin inzibati ərazi bölgüsünə görə Şərur-Dərələyəz qəzası Naxçıvan xanlığına daxil olmuşdur və indiki Şərur rayonuna daxil olan Danzik, Yayçı, Cağazir, Axura, Dizə, Həmzəli-Dizə kəndləri isə Dərələyəz mahalına daxil edilmişdir.

Bu adını çəkdiyimiz kəndlər, həmçinin Dərələyəzdəki Çivə kəndi, Alxanpəyəsi kəndi (hal-hazırda yaylaq yeri), Bayalı yaylağı tarixi şəxsiyyət kimi Qazaxda, İrəvanda və Naxçıvanda məşhur olan Əlixanın mülkü olmuşdur (Deyilənə görə, Naxçıvanlı Kalbalıxan bu yerləri Əlixana vermiş, əvəzində isə Naxçıvandakı Əlixan məhəlləsini, Əliabad kəndini almışdır).

Əlixan İrana gedib orada qaldıqdan sonra onun var-dövlətinə, yerinə-mülkünə öz oğlu İbrahim Sultan ağa rəhbərlik etmişdir. İbrahim Sultan ağanın 7 oğlu olmuş (Qasıməli Sultan, Həsənalı Sultan, Abbasəli Sultan, Hüseynqulu Sultan, Əhmədalı Sultan, Hüseynalı Sultan, Vəkil Sultan) və bunlar yuxarıda adları çəkilən kəndlərdə məskunlaşmışlar. Bu qardaşların 5-i indiki Şərur rayonu ərazisində, 2-si isə Dərələyəz mahalının indiki Çivə kəndində yaşamışdır. Bunlar Həsənalı Sultan, oğlu Hüseynalı bəy və Vəkil Sultanın oğlu Fərzalı bəy və bunların törəmələridir.

Ermənistanda Sovet hökuməti qurulduqdan sonra şovinist rəhbərlər bu bəy ailələrini incitməyə başlamış, bir çoxunu kulak çıxartmış, bir çoxunu müxtəlif bəhanələrlə siyasi məhbus kimi tutub sürgün etmiş və güllələmişlər. Yerdə qalanları isə qaçıb hərəsi bir yana dağılmışdır. Bu ailədən olan, Sultan bəyin oğlu İlyas Vəkilov isə 1930-cu illərdə Moskvaya getmiş, orada oxuyub qayıtdıqdan sonra Naxçıvan Nazirlər Soveti sədrinin müavini işləmiş, bundan sonra isə Bakıya gəlib 30 il fasiləsiz olaraq Bakı şəhər İcra Hakimiyyətində Plan komitəsinin sədri vəzifəsində çalışmış, böyük nüfuz sahibi olmuşdur. "Qırmızı Oktyabr" və digər orden və medallarla təltif olunmuş, İqtisad elmlər namizədi, dosent elmi adını almışdır. O, şair təbiətli bir adam olmuş və çoxlu şerlər yazmışdır. Abbas Zamanov, Mehdixan Vəkilovla yaxın dost və həmsöhbət olmuşdur. Çox vaxt yay mövsümündə Dərələyəzə gedər, orada gənclik illərini yada salar, qohumlarını, dostlarını yoxlayardı.

Çivə kəndində Vəkilovlardan olan Hacı Mahmud bəy Dərələyəzin Güneyvəng kəndindən Alməyətli tayfasının yetirməsi qlava Ağayarın bacısı Əzət xanımı almış və xeyli övladları olmuşdur. Əzət xanım mənim nənəm (atamın

---

1. Bax: Roza Eyvazova. Əfqanıstanda türk mənşəli toponimlər. Bakı, 1995, s.170.
2. B.Budaqov. Türk uluslarının yer yaddaşı. Bakı, 1994, səh.180, 184, 196, 197.

anası) Ballının doğma xalasıdır.

Hacı Mahmud bəyin və Əzət xanımın qızı Zivər xanım bu yaxınlara kimi Bakıda yaşayırdı. Lakin bir xeyli vaxtdır ki, dünyasını dəyişmişdir. Zivər xanımın və əri Balabəyin qızı Zərri xanım hal-hazırda Bakıda yaşayır.

Qeyd etmək lazımdır ki, Çivə bəylərinin törəmələrinin əksəriyyəti Azərbaycanda yaşayır.

Bir sözlə, Çivə kəndində Həsənalı Sultan, Hüseynalı bəy, Kəlba Şirəli bəy, Baxşəli bəy, Hüseyn bəy, Hacı Mahmud bəy, Məhəddəm bəy, Sultan bəy, İlyas bəy, Yunis bəy, Zülfüqar bəy, Əhməd bəy, Əlibəy bəy, Kəlba Əşrəf bəy, Cəlil bəy, Yusif bəy, Teymur bəy, İsmayıl bəy, Balo bəy, Əmo bəy, Həmid bəy və bu kimi xan, bəy övladları və digər adlı-sanlı adamlar (Kəlbəhəsən, Usta Həsən, Məhəmməd və başqaları) yaşamışlar.

Çivə kəndində qalan bir neçə azərbaycanlı ailəsi isə (Abbasov Eldar Abbas oğlunun, Camalova Zeynəb İsmayıl qızının, Hüseynov Nemət Əli oğlunun, Cəfərov Məcid Məmməd oğlunun ailələri) 1988-ci ildə zorla ermənilər tərəfindən kənddən çıxarıldı.

## ÇİVƏ KƏNDİNİN ONOMASTİK VAHİDLƏRİ

**Tayfa, nəsil, sülalə adları**

1. Bəylər Naxçıvan xanı Əlixanın və onun oğlu İbrahim xanın nəsli, Vəkilovlar.
2. Hüseynalılar (Hüseynalı Sultan, Hüseynalı bəy, Vəkilovlar)
3. Fərzalılar (Vəkilovlar, Vəkil Sultanlar)
4. Alyanlılar
5. Məmilər
6. Cəlallar
7. Maçıxlar
8. Pirməmmədlilər
9. Tatlar (Cənubi Azərbaycandan gəlmələr)
10. Molla Hüseynlilər
11. Cəfərlilər
12. Abışlar
13. Piralılar
14. Bəndalılar
15. Yaycılılar
16. Qələndərlər
17. Alı koxanın tayfası
18. Yağılılar

**Ləqəblər**

1. Mələyoğlu Məhəmməd
2. Sarı Yaqub
3. Gülxanımın oğlu Cəlil

4. Mirovoy Əli
5. Dana Məhəmməd
6. Çılpaq Əli (sözü qırmızı deyən)
7. Anbardar Cəlal
8. Urus Əli
9. Cücə İsmayıl
10. Mantyor İsmayıl
11. Dəyirmançı Bilal
12. Poçt Məhəmməd
13. Ları Hüseyn (kök, yoğun)
14. Lal Əmo (Əhməd)
15. Lal Məşədi Hüseyn
16. Sarı İbrahim
17. Ülkəyən Əhməd
18. Aşıq Əli
19. Darbaz İsa (darvaza düzəldən)

**Məhəllə adları**
1. Bəylər məhləsi
2. Hüseynalılar məhləsi
3. Fərzalılar məhləsi
4. Abışlar məhləsi //Qançanağı məhləsi
5. Cəlallar məhləsi
6. Nurəlilər məhləsi (Təkifəyevlər məhləsi)
7. Alyanlılar məhləsi
8. Tatlar məhləsi
9. Yaycılılar məhləsi
10. Piranlılar məhləsi
11. Kötüklü məhləsi
12. Biyanlıq məhləsi
13. Tap məhləsi

**Sahə, örüş, kövşən adları**
1. Kötüklü
2. Ağı
3. Zərdə dərə
4. Pəyə dərə
5. Baş yal
6. Qara parça
7. Kol içi
8. Qozluca dağının yalı
9. Dal ağ yarğan
10. Bəy torpağı
11. Arpa çayının qırağı

12. Sarı yer
13. Sarılıx
14. Əynəzir yolu
15. Qayanın dibi
16. Qəmbəralının yeri
17. Hörük yeri
18. Sultanın yeri
19. Ağ daş
20. Qumluq
21. Tülkü dölləyi
22. Ködüklü

**Dərə, arxac adları**

1. Zərdə dərə
2. Pəyə dərə
3. Baş dağın döşü
4. Civə dərəsi
5. Şorru dərə
6. Uçuğun başı (arxac)
7. Ağıl
8. Məmi arxacı
9. Qırmızı qaya
10. Göyğalı

**Qaya, çınqıl, gab adları**

1. Qırmızı qaya
2. Sal qaya
3. Göy kab (qaya keçidi)
4. Baş dağın çölü
5. Baş dağın döşü
6. Çınqıllıq

**Yol və cığır adları**

1. Heşin yolu
2. Qozulca yolu
3. İrind yolu
4. Arpa kənd yolu
5. İrəvan yolu
6. Danzik yolu
7. Ardaraz yolu
8. Günnüt yolu
9. Zərdə dərə və Pəyə dərə yolu
10. Qırmızıdərə yolu
11. Ovçu yolu

**Biçənək adları**
1. Qara parça
2. Çivə bəyinin yoncalığı
3. Məmməd Həsənin yoncalığı
4. Kol içi yoncalığı (Çivə ilə Arpanın arasında)
5. Ağ yer
6. Ağ yer yoncalığı
7. Yoncalıq
8. Qəmbəralının biçənəyi
9. Ağyerlər biçənəyi

**Yurd, ağıl adları**
1. Didivan yurdu
2. Çivə bəylərinin yaylağı
3. Çivə yurdu
4. At ağılı

**Çay, bulaq, göl, kəhriz, arx adları**
1. Çivə çayı
2. Daş bulaq
3. Qara parça bulağı
4. Mələyoğlu bulağı
5. Soyux bulaq
6. Kol içi bulağı
7. Heşin yolu bulağı //Heşin suyu
8. Qozulca yolu bulağı
9. Baş kəhriz
10. Aşağı kəhriz
11. Kora bulaq
12. Göy bulaq
13. Məcidli bulaq
14. Həsən kişinin bulağı
15. Yuxarı kəhriz
16. Quzey arx
17. Ağ yarğan arxı

**Bağ adları**
1. Hüseynin bağı
2. Bəndalının bağı
3. Kərbəlının bağı
4. Gözəlin bağı
5. Hacı Abbas bağı
6. Cəlalların bağı
7. Əhməd bəyin bağı

8. Məminin bağı

**Məscid adları**
1. Aşağı məscid
2. Yuxarı məscid

**Abidə, kənd adları**
1. Xaraba kənd
2. Köhnə kənd

**Yal, dağ, aşırım adları**
1.Baş dağ
2. Qozulca dağı
3. Heşin yalı
4. Dində yalı
5. Əyricə dağı
6. Didivan dağı

**1937-ci ilin repressiya qurbanları**

1. Vəkilov Abbas bəy
2. Məhəmməd Nəbi Kəlbəsgər oğlu
3. Alıyev Həsən Şükür oğlu
4. Əhməd Bəndalı Əsədulla oğlu
5. Xəlilov Bəhlul Vəli oğlu
6. Abbasov Kəlbayəli
7. Axundov Mahmud
8. Abbasov Mollahüseyn
9. Məmmədov Zal Rüstəm oğlu

**Çivə kəndindən 1941-1945-ci il Böyük Vətən müharibəsinə gedənlər**

**a) qayıtmayanlar**
1. Seyidəliyev İsa Həsən oğlu
2. Hənifəyev Məhəmməd
3. Fərzəliyev Bilal
4. Nurəliyev Bilal İsa oğlu
5. Tağıyev Hüseyn Məhəmməd oğlu
6. Tağıyev İbrahim Məhəmməd oğlu
7. Cəfərov Bəşir Musa oğlu
8. Fərzalıyev Məhəmmədəli
9. Mamedov Rza
10. Hüseynov İbrahim İsmayıl oğlu

**b) qayıdanlar**
11. Cəlalov İbrahim Cəlil oğlu

12. Piralıyev Həsən Hüseyn oğlu
13. Məmmədov Hüseyn Əsgər oğlu
14. Məmmədov Süleyman Əsgər oğlu
15. Məmmədov Abdulla Əsgər oğlu
16. Məmmədov Hüseyn Kəlba Məhəmməd oğlu
17. Sadıqov Hüseyn
18. Quliyev Məhəmmədəli
19. Vəliyev Məhəmməd Bəhlul oğlu
20. Hüseynov Məmiş Kəlbə İsmayıl oğlu
21. İbrahimov Əli Həsən oğlu
22. Fərzəliyev Məcid
23. Qənbərov Əhməd Kəblə Məhəmməd oğlu
24. Pirəliyev Fəzil Hüseyn oğlu
25. Rüstəmov Lətif
26. Qənbərov Məhəmmədtağı
27. Məhəmməd Mələk oğlu
28. Məmmədov Lətif Ələkbər oğlu

**1941-1942-ci illərdə siyasi məhbus kimi tutulanlar**

1) Cəfərov Abbas (molla olub)

Bu, Çivə kəndində müharibəyə gedənlərin tam siyahısı deyil. Yaddaşlarda qalan bunlardır.

Çivə kəndindən 1941-1945-ci il Böyük Vətən müharibəsindən qayıdanların böyük bir qismi xəstə, şikəst və yaralı şəkildə yarımcan vəziyyətdə qayıtmışdır. Bu cür vəziyyət yalnız Çivə kəndində deyil, Dərələyəzin başqa kəndlərində də belədir.

1949-cu ildə əhali Bərdənin İmirli kəndinə köçürülmüşdür.

**Qarabağ şəhidləri**

1. Məmmədov Əsgər İsmayıl oğlu (polis, Ağdam uğrunda)
2. Abbasov Rəhman İsmi oğlu (hərbçi, Ağdərə uğrunda)
3. Calalov İlqar Salman oğlu (zabit, Ağdam uğrunda)

**Qarabağ veteranları**

1. Abbasov Sərdar Yaqub oğlu
2. Talıbov Möhübbət Qurban oğlu
3. Xəlilov Bayram Əli oğlu
4. Nuraliyev Sədi İmran oğlu
5. Seyfəliyev Teymur Hüseyn oğlu
6. Məmmədov Möhübbət Səməd oğlu
7. Cəfərov Elmar Cəlal oğlu
8. Hüseynov Zaməddin Əli oğlu
9. Ələkbərov Ələkbər Vəli oğlu
10. Hüseynov Musa Hidayət (Hidaş) oğlu

11. Seyidəliyev İsmayıl Musa oğlu
12. Tənifəyev Saday Elbəyi oğlu
13. Hüseynov İslam Həsən oğlu

**İnformatorlar:** Çivə kəndində doğulub boya-başa çatan, bura yaxşı bələd olan aşağıdakı şəxslər vermişlər: 1. 1953-cü ildə Çivədən deportasiya olunub hal-hazırda Bərdə rayonunun İmirli kəndində yaşayan 70 yaşlı Məhəmməd Əli həsən oğlu (pensiyaçı). 2. Abbasov Əhməd Hacıabbasoğlu 1923-cü il təvəllüdlü, ali təhsilli müəllim. Bakıda yaşayır. 3. İbrahimov Tofiq Həsən oğlu 1927-ci il təvəllüdlü, ali təhsilli, Bərdə rayonunun İmirli kəndində yaşayır. 4. Ələkbərov Nazim Vəli oğlu 1956-cı il təvəllüdlü, Bərdə rayonunun İmirli kəndində yaşayır.

## ÇIRAXLI (ÇIRAQOĞLU)

Çıraxlı (Çıraqoğlu) kəndi Dərələyəzin Əzizbəyov rayonunda, Terp kəndinin yaxınlığında, Terp çayının üstündə yerləşir. Bu kənd dəniz səviyyəsindən 1803 m hündürlükdədir. Tarixi mənbələrdən, statistik məlumatlardan aydın olur ki, bu kənddə 1873-cü ildə 21 nəfər, 1886-cı ildə 20 nəfər, 1897-ci ildə 31 nəfər, 1904-cü ildə 41 nəfər, 1914-cü ildə 45 nəfər, 1916-cı ildə 47 nəfər əhali (azərbaycanlı) olmuşdur.[1]

1918-ci ildə ermənilər kəndi dağıtmış, əhalisinin bir hissəsi qırılmış, bir qismi də pərən-pərən olmuşdur. 1922-ci ildə kəndə cüzi (15 nəfər) miqdarda adam qayıtmış,[2] lakin ermənilər bunların məskunlaşmasına imkan verməmiş və kənd tamamilə dağılıb ölü kəndə çevrilmişdir. Kənd və kəndə aid xarabalıqlar indi də qalmaqdadır.

Bu toponimin mənşəyi isə sırf Azərbaycan xalqına məxsusdur.

## DAŞALTI

Daşaltı Dərələyəz mahalının Əzizbəyov rayonunda qışlaq olmuşdur. Burada hər zaman azərbaycanlılar yaşamışlar.

Tarixi və statistik mənbələri nəzərdən keçirdikdə məlum olur ki, Daşaltı qışlağında 1873-cü ildə 32 nəfər, 1886-cı ildə 37 nəfər, 1897-ci ildə 73 nəfər, 1904-cü ildə 28 nəfər, 1914-cü ildə 30 nəfər, 1916-cı ildə 24 nəfər azərbaycanlı yaşamışdır.[2]

-------------------

1. Свод статистических данных о населении Закавказского края извлеченных из посеменных списков 1886 г. Тифлис, 1893, №1008; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh.90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1996, səh.349; H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar, Bakı, 1997, səh.210; Kamil Dərələyəzli. Dərələyəz od içində, Bakı, 2001, səh.160.

2. Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, № 1050; Z.Korkodyan. Sovet Ermənistanın əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh.88; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh.343.

1918-ci ildə Dərələyəzdə azərbaycanlılar yaşayan başqa kəndlərdə olduğu kimi, Daşaltı qışlağında da qırğınlar törədilmişdir, sağ qalan əhali isə doğma yurdundan qaçmağa məcbur olmuşdur. Daşaltı qışlağının xarabalıqları rayon mərkəzindən 6-7 km cənubda, Azadi kəndinin yaxınlığında qalmaqdadır.

"Daşaltı" toponiminin əmələ gəlməsi həmin yerin coğrafi relyefi ilə bağlıdır. Qeyd etmək lazımdır ki, "Daşaltı" adında kənd Zəngəzur qəzasının Sisyan rayonunda və Qarabağda da vardır.[1] Kənd qayalığın altında olduğu üçün buna "Daşaltı" demişlər.

## DAŞXƏRMƏN

Daşxərmən Dərələyəz mahalının Yeğeqnadzor (Keşişkənd) rayonunda azərbaycanlı kəndidir. Bu kənddə hər zaman azərbaycanlılar yaşamışdır.[2]

Tarixi və statistik mənbələrdən məlum olur ki, Daşxərmən kəndində 1897-ci ildə 23 nəfər, 1904-cü ildə 82 nəfər, 1914-cü ildə 90 nəfər azərbaycanlı yaşamışdır.[3]

Erməni quldurlarının 1918-ci ildə törətdikləri qırğınlar nəticəsində buranın əhalisi qırılmış, qovulmuş, kənd dağıdılmış və yandırılmışdır. Sağ qalanlar isə Azərbaycanın müxtəlif bölgələrinə səpələnmişdir. O vaxtdan bura ölü kəndə çevrilmişdir. İndi bu kəndin xarabalıqları Çivə kəndinin yaxınlığında qalmaqdadır. Burada kənd qəbiristanlığının izləri də qalmaqdadır.

"Bu kənd XIX əsrin ortalarında mövcud olmuş bir qışlaq əsasında yaranmışdır".[4] Daşxərmən sözünün mənşəyinə gəldikdə demək lazımdır ki, bu toponim iki Azərbaycan sözü "daş" və "xırman-xərmən" sözlərinin birləşməsindən əmələ gəlmişdir.

## DAŞKƏND

Daşkənd Dərələyəz mahalının Əzizbəyov (Paşalı) rayonunda azərbaycanlı kəndidir.

Tarixi və statistik mənbələrin verdiyi məlumata əsasən, Daşkənd kəndində 1831-ci ildə 62 nəfər azərbaycanlı əhali yaşamışdır.[5]

---

1. B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin lüğəti. Bakı, 1998, səh.227.

2. Mirzəyev H. Dərələyəzdəki Bülbülölən, Daşxərmən kəndləri haqqında, Filologiya məsələlərinə dair tematik toplu, № 6 (18), Bakı, 2001, s.69-71.

3. Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 92; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 358.

4. B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998, s.229.

5. И.Шопен. Исторические памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 619; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 88; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 343.

1832-ci ildən sonra azərbaycanlılar sıxışdırılıb kənddən çıxarılmışdır. Sonrakı illərdə bu kəndin əhalisinin sayı haqqında məlumat yoxdur. Erməni basqınları nəticəsində kənd dağıdılaraq xarabalığa çevrilmişdir. Kəndin xarabalıqları indiki Zeytə kəndinin yaxınlığındadır.

"Daşkənd" toponiminin adı həmin kəndin coğrafi relyefinə görə verilmişdir. İki sözdən, daş və kənd sözlərindən ibarət olan bu ad sırf Azərbaycan mənşəli sözdür.

## DAYLAXLI //PAŞADÜZ//PUŞADİZ//BOŞADIR

Daylaxlı Dərələyəz mahalının Əzizbəyov rayonunda kənd adıdır. Bu kənd rayon mərkəzindən 7 km şərqdə yerləşmişdir. Tarixən həmişə bu kənd azərbaycanlılara məxsus olmuşdur. Lakin 1918-ci ilin mart ayında kəndin əhalisini ermənilər güllə-baran etmiş, azərbaycanlıları buradan çıxarmış və kəndi yandırmışlar.[1]

Statistik mənbələrin verdiyi məlumata əsasən, Daylaxlı kəndində 1873-cü ildə 87 nəfər, 1886-cı ildə 184 nəfər, 1897-ci ildə 66 nəfər, 1904-cü ildə 218 nəfər, 1914-cü ildə 240 nəfər, 1916-cı ildə 209 nəfər azərbaycanlı yaşamışdır.[2]

1918-ci ilin faciəli hadisələri zamanı erməni millətçiləri azərbaycanlıları qovub kəndə sahib olmuşlar. Bundan sonra erməni əhalisi qonşu Azadər kəndindən buraya köçmüşdür.

1590-cı ilə aid mənbədə, İrəvan əyalətinin icmal dəftərində göstərilir ki, Daylaqlı kəndinin əvvəlki adı Puşadiz və Boşadır formasındadır və həmin dövrdə bu kəndin 5.651 ağça gəliri olmuşdur.[3]

1727-ci ilə aid mənbədə bu kəndin adı Daylaxlı deyil, Puşadiz formasında verilir və göstərilir ki, həmin dövrdə bu kəndin 5637 ağça gəliri olmuşdur.[4]

Kəndin adı tayfa adından törənmişdir. Daylaxlı modelində etnotoponimlər çoxdur. Məsələn, Keçili, Bəbirli, Camışlı, Dovşanlı.

Tarixi mənbələr sübut edir ki, bu kənd qədim dövrlərdə də sırf azərbaycanlı kəndi olmuşdur. Bunun sübutu üçün "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə 1727-ci ilə aid verilmiş birtarixi sənədi burada vermək yerinə düşər:

---

1. Mirzəyev H. Daylaxlı//Paşadüz//Puşadiz//Boşadır kəndi, Filologiya məsələlərinə dair tematik toplu, № 6 (18), Bakı, 2001, s.16-17.

2. Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1015; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 88; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 343; Историческая география Западного Азербайджана, Баку, 1998, стр.117; H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 246.

3. Ziya Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, səh.59.

4. Ziya Bünyadov və Hüsaməddin Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh.36.

## "DƏRƏLƏYƏZ NAHİYƏSİNƏ TABE OLAN PUŞADİZ KƏNDİ, BAŞQA ADI DAYLAQLIDIR

Cilovxan (?) Rüstəm oğlu – bennak; (Cilovxanın) qardaşı Əli – bennak; Əvəz Bayram oğlu – bennak; Muradxan Bayındır oğlu – bennak; Əlirza Məmməd oğlu – bennak;

(Əlirzanın) qardaşı Göyçə – subay; Haqverdi Uluxan oğlu – subay; Qulu Nəcəfxan oğlu – subay; Yarəli Məmməd oğlu – subay;

Çift – 2

Yarım (çift) – 3

Bennak – 6

Subay – 3

Gəlir:

Çift vergisi – 100 (ağça)

Yarım (çift) üçün vergi – 75 (ağça)

Bennak vergisi – 108 (ağça)

Subay vergisi – 18 (ağça)

Buğda 12 kile – dəyəri 360 (ağça)

Arpa – 5 kile – dəyəri 100 (ağça)

Kərdiyər – 2 kile – dəyəri 42 (ağça)

Pərinc – 2 kile – dəyəri 42 (ağça)

Sumax – 1 kile – dəyəri 15 (ağça)

Kəlül – 4 kile – dəyəri 72 (ağça)

Mərcimək – 2 kile – dəyəri 30 (ağça)

Noxud – 2 kile – dəyəri 30 (ağça)

Kərəsnə – 5 kile – dəyəri 75 (ağça)

Bal üşrü – 180 (ağça)

Meyvə üşrü – 110 (ağça)

Başqa yerdən gəlib bu kəndin torpağından əkib-becərmə işləri üçün istifadə edənlərdən alınan vergi – 85 (ağça)

Dönüm vergisi – 200 (ağça)

Dəştibani vergisi və əkin yeri üçün tapu – 1.290 (ağça)

Bakirə qız və dul qadın üçün gəlin vergisi – 90 (ağça)

Adəti-ağnam – 120 (ağça)

Ağıl vergisi – 300 (ağça)

Badi-hava, işlənmiş günah, törədilmiş cinayət, qul və kənizlərin sərbəstlik almaları üçün vergi – 2.190 (ağça)

Yekun – 5.637"[1]

-------------------

1. Bax: Ziya Bünyadov və Hüsaməddin Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh.304-305.

# DƏDƏLİ KÖRPÜSÜ

Dədəli körpüsü Dərələyəz mahalının Keşkənd//Keşişkənd rayonunda Arpa çayının üstündə salınmışdır. Tarixi mənbələrdə göstərilir ki, bu körpü XIII əsrdə tikilmişdir.[1] Daşdan tikilmiş bu tarixi abidə indi də qalır və əhali az da olsa bundan istifadə edir.



Yaşlı adamların dediyinə və rəvayətlərdə söylənildiyinə görə el ağsaqqalı, Dədə aşıq kimi tanınan, var-dövləti çox olan Əli adlı bir azərbaycanlı öz pulu ilə bu körpünü saldırmışdır. Körpünün həm o tayında, həm bu tayında kənd olmuş, indi isə bunlar ölü kəndlər sırasına keçmişdir. "Dədəli" kəndləri də bu adamın (əlinin) adı ilə bağlıdır. Burada Dədə və Əli sözləri birləşmiş, "ə" saitinin biri düşmüş və bu nəticədə "Dədəli" formasında təşəkkül tapmışdır. Daşdan hörülmüş bu körpünün bir tərəfindəki özülü sal daşın üstündə, o biri tərəf özülü isə daşla hörülmüş özül üzərindədir. "Kənardan baxanda körpünün görkəmi yerdən qalxan təyyarənin uçuşunu xatırladır" ...Körpünün hündürlüyü 12 metr, uzunluğu isə 30 metrə yaxındır."[2]

Haqqında danışdığımız "Dədəli körpüsü" orta əsr körpülərinin üslubunda tikilmişdir. Körpünün tarixi haqqında məlumat onun bir tərəfindəki divarda, divarın ortasındakı daşda yazılmışdır. Lakin ermənilər ərəb əlifbası ilə yazılmış bu yazını oxunmaz hala salmışlar. İndi onu oxumaq mümkün deyildir.

Görkəmli tarixçi, qədim dövrlərin böyük tədqiqatçısı Ziya Bünyadov və onun yetirməsi Hüsaməddin Məmmədov tarixi mənbələrə əsaslanıb yazırlar ki, 1590-cı və 1727-ci illərdə "Dədəli" adında iki kənd olmuş və bu kəndlərin 2.190 ağça gəliri olmuşdur.[3]

Ermənilər Dədəli körpüsünün yaxınlığında qədim azərbaycanlı kəndi olan, indi isə ermənilər yaşayan "Əyər" kəndinin adını dəyişib "Aqarakadzor" qoymuş, Dədəli körpüsünü də bu kəndin yeni adı ilə adlandırmışlar.[4]

Körpünün "Əyər" kəndi olan tərəfində böyük bir müsəlman qəbiristanlığı

---

1. Bax: Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995: səh.351.
2. Kamil Dərələyəzli. Dərələyəz od içində. Bakı, 1995, səh.351.
3. Ziya Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1995, səh.59; Ziya Bünyadov və Hüsaməddin Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri, Bakı, 1997, səh.36.
4. Mirzəyev H. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz (monoqrafiya), Bakı, 1997, səh. 225-226; Mirzəyev H. Dədəli körpüsü abidəsi haqqında, Dil məsələlərinə dair tematik toplu, № 2, Bakı, 1997, s. 105-106.

vardır. Bu qəbiristanlıqdakı qəbirlərin üstündə çoxlu qoç daşlar var idi. Son vaxtlar ermənilər bu qoç daşlarını qəbiristanlıqlardan tamamilə yığışdırdılar. Onlar bu tarixi faktları rayon mərkəzindəki diyarşünaslıq muzeyinə aparıb oradan da yoxa çıxartdılar.

Bununla da erməni millətçiləri Azərbaycan xalqına məxsus bu tarixi abidələri birdəfəlik yox etmək, onun izlərini tarixdən silib götürmək yolunu tutdular. Lakin bu bir danılmaz həqiqətdir ki, qəbirlərin üstündəki həmin qoç daşları Azərbaycan xalqının, Azərbaycan dövlətinin yadigarıdır.

## DƏMİRÇİLƏR

Dəmirçilər Dərələyəzin Əzizbəyov rayonunda azərbaycanlı kəndinin adıdır. Bu kənddə 1873-cü ildə 82 nəfər, 1886-cı ildə 68 nəfər, 1897-ci ildə 90 nəfər, 1904-cü ildə 96 nəfər, 1914-cü ildə 96 nəfər, 1916-cı ildə 133 nəfər azərbaycanlı olmuşdur. 1918-ci ildə kənd ermənilər tərəfindən dağıdılmış, əhalisi qırılmış və qovulmuş, o zamandan bu kənd xarabalığa çevrilmişdir.[1]

Dəmirçilər və Dəmirçi adında kənd Azərbaycanda, Gürcüstanda və Ermənistanın digər yerlərində də vardır.[2] Bu kəndin adı XIX əsr rus mənbələrində də qeydə alınmışdır.[3]

Masallı, Şərur, Şamaxı, Qazax, Qubadlı, Tərtər rayonlarında, Zəngibasarda Dəmirçi, Xocavənd (Mardakert) rayonunda Dəmirli adda kənd vardır.[4]

Qeyd etmək lazımdır ki, Dəmirçi kənd adı dəmirçi sənətinə sahib olan tayfanın, sülalənin, nəslin adından götürülmüşdür. Deməli, dəmirçi sözü türk mənşəli toponimdir və azərbaycanlılara məxsusdur.[5]

------------------

1. Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1005; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 88; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh.343, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh.246.
2. Q.İ.Məşədiyev. Zaqafqaziyanın Azərbaycan toponimləri. Bakı, 1990, s.128. Y.V.Yusifov, S.K.Kərimov. Toponimikanın əsasları. Bakı, 1987, s.177.
3. Свод статических данных о населении Закавказского края. Тифлис, 1893, №1005.
4. Azərbaycan SSR inzibati-ərazi bölgüsü. Bakı, 1968, s.160.
5. Mirzəyev H. Dərələyəzin Yengicə, Dəmirçilər kəndləri, Filologiya məsələlərinə dair tematik toplu, № 6 (18), Bakı, 2001, s.99-101.

## DƏMROV PİRİ

IV-V əsrlərə aid olan Dəmrov piri bütöv bir qaya parçasından yonulub düzəldilmişdir. Təqribən uzunluğu 3 metr, eni 2 metrdən çox, ümumi sahəsi 7 kvadratmetr olan otağın hündürlüyü üç metrə çatır. Çöl üzləri gözəl memarlıq üslubu ilə və səliqə ilə yonulmuşdur. Damın üst hissəsi üçbucaq şəklində

düzəldilmişdi. Otağa işıq düşməsi üçün iki balaca pəncərə açılmışdır. İçəri daxil olmaq üçün böyük olmayan qapıdan daxil olan insanlar bədənlərində əmələ gələn yaranı - dəmrov olan hissəni divara sürtür və gedirlər. Bir neçə dəfə pirə ziyarətə gələnlər tam şəfa tapırlar.

"V əsrdən XX əsrin axırlarına kimi və gələcək 100 illərdə xalqın sağlamlığına xidmət edən azəri türklərinə məxsus olan Dəmirov pirinin sirrini bu günə qədər heç kəs açıqlaya bilməyibdir."[1]

## DƏRƏKƏND

Dərəkənd Dərələyəz mahalının Əzizbəyov rayonunda azərbaycanlı kəndidir. Tarixi və statistik mənbələrin verdiyi məlumata görə Dərəkənd kəndində 1873-cü ildə 59 nəfər, 1886-cı ildə 62 nəfər, 1897-ci ildə 77 nəfər, 1904-cü ildə 105 nəfər, 1914-cü ildə 105 nəfər, 1916-cı ildə 112 nəfər azərbaycanlı yaşamışdır.[2]

Mənbələrdə bu kəndin adı Dərələr və Daraxkənd formasında da verilmişdir.[3]

1918-ci ildə kənd ermənilər tərəfindən dağıdılmış, əhalisi qırılmış və qovulmuşdur. 1922-ci ildə kəndə 44 nəfər azərbaycanlı qayıtmışdır. Lakin sonra bu əhali də deportasiyaya məruz qalmışdır. Hal-hazırda ölü kəndə çevrilmiş Dərəkəndin xarabalıqları Axta kəndinin yaxınlığındadır.

Qeyd edilməlidir ki, Qafqaz ərazisində "Dərəkənd" adlı çoxlu kəndlər olmuşdur və vardır. İrəvan quberniyasının Eçmiədzin, Sürməli, Şiragöl, Aleksandropol, Tiflis quberniyasının Borçalı, Gəncə quberniyasının Zəngəzur qəzalarında da Dərəkənd adında toponimlər vardır.[4]

Fikrimizcə, haqqında danışdığımız "Dərəkənd" toponiminə bu ad onun coğrafi relyefinə görə verilmişdir. Belə ki, həm dərə, həm də kənd adları xalis Azərbaycan sözləridir.

## ERDƏPİN

Erdəpin kəndi Dərələyəzin Ələyəz dərəsi adlı bölgəsində kənd adıdır. Bu Hosdun, Həsənkənd, Ələyəz, Horbadıq kəndləri ilə həmsərhəddir. Rayon mərkəzindən 15 km şimal-şərqdə yerləşir.

Erdəpin kəndi tarixən azərbaycanlılara məxsus olmuşdur. Lakin ermənilər tarixin ayrı-ayrı dövrlərində bu kəndi ələ keçirməyə çalışmışlar. Çünki bu kəndin üstündə Ələyəz və Hosdun kəndlərinə yaxın yerdə, sıldırım qayaların

---------------------

1. Kamil Dərələyəzli. Dərələyəz od içində, Bakı, 2001, səh.106.
2. Bax: Свод статистических данных о населении Закавказского края извлеченных из посемејных списков 1886 г. Тифлис, 1893. №1004; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 88; Ermənistan azərbaycanlıların tarixi coğrafiyası, Bakı, 1995, səh. 343. H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 246
3. Z.Korkodyan. Sovet Ermənistanın əhalisi (1831-1931), İrəvan, 1932, s.88.
4. B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı, 1998, səh. 235-236.

başında qədim və əzəmətli Sal-Sal qalası vardır. Bu qala vasitəsilə ətraf kəndlərin hamısını nəzarətdə saxlamaq olur. Ona görə də ermənilər bu kəndi həmişə əldə saxlamaq istəmişlər.

1727-ci ilin statistik məlumatında Erdəpin kəndinin adı "Ərdəpin" formasında yazılmışdır.[1]

1833-cü ilə aid mənbədə qeyd edilir ki, 1831-ci ildə Həsənalı qışlağına və Ələyəzə yaxın bu kənddə cəmi 20 nəfər azərbaycanlı yaşamışdır.[2]

Bu dövrdən başlayaraq Erdəpin kəndində İrandan köçürülmüş ermənilər yerləşdirilməyə başlanılır və azərbaycanlılar sıxışdırılıb kənddən çıxarılır. İ.Şopen yazır ki, 1852-ci ildə Erdəpin kəndində 92 nəfər erməni (17 ailə, 53 kişi, 39 qadın) yaşayırdı.3 1886-cı ildə bu kənddə ermənilərin sayı 415 nəfərə çatır.4 Göründüyü kimi azərbaycanlılar buradan tamamilə çıxarılmışdır.

Erdəpin toponiminin mənşəyinə gəldikdə qeyd etmək lazımdır ki, bu kəndin adı da azərbaycanlılara məxsusdur. Vaxtın azlığı üzündən bunun etimalogiyası ilə ətraflı məşğul ola bilmədim. Lakin qısaca şəkildə onu deyim ki, kəndin adının hər iki komponenti ər, er, yer, pin Azərbaycan sözüdür. Erdəpin toponimi yerdə (torpaqda) və pin (ev) sözlərindən ibarətdir.

## ERTİŞ

Dərələyəzin Keşkənd rayonunda iki Ertiş kəndi olmuşdur. Bunlardan biri Erdəpin kəndinin yaxınlığında olmuşdur ki, bu haqda məlumat yox dərəcəsindədir. Digər Ertiş kəndi isə Qoytul, Qızılqışdaq kəndləri ilə Arpa, Çivə kəndlərinin arasında Arpa çayının üstündə yerləşir.[3]

1831-ci ildə bu kənddə 70 nəfər, 1873-cü ildə 167 nəfər, 1886-cı ildə 234 nəfər, 1897-ci ildə 382 nəfər, 1904-cü ildə 298 nəfər, 1914-cü ildə 327 nəfər, 1916-cı ildə 403 nəfər azərbaycanlı əhali olmuşdur. 1918-ci ildə erməni daşnak hökumətinin fitvası ilə ermənilər kəndi dağıtmış, əhalisini qırmış, salamat qalanlar isə, əsasən, Naxçıvana qaçmışlar. 1922-ci ildə kəndə 176 nəfər adam qayıtmışdır.[4]

--------------------

1. Ziya Bünyadov və Hüsaməddin Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh.35; Статистическое описание Нахичеванской провинции СПб., 1833, с.166-167.

2. И.Шопен. Исторические памятники состояние армянской областе в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 615-616; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №978.

3. Mirzəyev H. Ertiş kəndi və bu kənddə olan onomastik vahidlər haqqında, Filologiya məsələlərinə dair tematik toplu, № 5 (17), Bakı, 2001, s.104-105.

4. Статистическое описание Нахичеванской провинции, СПб, 1833, стр.168; И.Шопен. Исторические памятники состояние армянской областе в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 615; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, № 1047; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 92; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh.361, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh.245.

Ertiş kəndinin adı tarixi mənbələrdə müxtəlif şəkildə verilmişdir. Belə ki, "İrəvan əyalətinin icmal dəftəri" və "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə bu "Ərdiş", "Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası" kitabında isə "Yerdıç" formasında verilmişdir. "Orxon-Yenisey" yazılı abidələrində isə "Ertiş" adlı hidronim kimi (çay adı kimi) verilir.[1] Bu gün də Sibirdə İrtış çayı adlı hidronim var. Bütün bunlar onu sübut edir ki, İrtış//Ertiş türk mənşəli toponimlərdir.

Ertiş kəndini Ermənistan hökuməti 1939-cu ildə Qaraqaya kəndinə köçürdü. Mən bunun canlı şahidiyəm. Onların köçü gəlib mən doğulduğum Qovuşuq kəndindən keçirdi...

Ertiş kəndində Cəlil bəy kimi məşhur adamlar olub ki, onun da Rzayev Əloş, Rzayev Ağa kimi törəmələri Qaraqayada yaşadılar. Belə bir fakt da deyilməlidir ki, Şorca kəndi ermənilər tərəfindən dağıldıqdan sonra onların bir hissəsi də Ertiş kəndində məskunlaşmışdılar.

Qeyd etmək lazımdır ki, Ertişdən Mozrava (Şorcanın yanına) gedən yolda, Qalanın boynu deyilən yerdə qədim bir qala da vardır. İndi o qalanın xarabalıqları qalmaqdadır. Bundan başqa Ertiş kəndi ilə Qoytul kəndinin arasında, Ağasəfi deyilən yerdə mədən-daş yatağı da vardır.

Tarixi mənbələrdən məlum olur ki, 1590 və 1727-ci illərdə Ertiş kəndinin 2.906 ağça gəliri olmuşldur.[2]

Ertiş kəndinə aid yalnız aşağıdakı onomastik vahidləri əldə edə bildik:

**Yer adları**

1. Ağa Səfi yeri
2. Qızıl qışlaq
3. Qalanın boynu
4. Boz qala
5. Bayda dərəsi
6. Şorca yeri
7. Mozrov
8. Namazalı
9. Həsənalı zağası
10. Dağdağannı dərə
11. Ağçaqayınlı yer
12. Ağ yoxuş
13. Qız uçan qaya

--------------------

1. Ə.A.Quliyev, S.İ.Vəliyev. Qədim türk toponimiyasına dair (Orxon-Yenisey yazılı abidələri əsasında). Azərbaycan onomastika problemləri, III, Bakı, 1990, s.105; Z.Bünyadov və H.Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, səh.58. Z.Bünyadov və H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh.35. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, səh.361.

2. Ziya Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1995, səh.58; Ziya Bünyadov və Hüsaməddin Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri, Bakı, 1997, səh.35.

1918-ci ildə ermənilər bu kəndi dağıtmış, əhalisini isə qırmışlar. İndi kəndin və kəndə məxsus qəbiristanlığın izləri qalmışdır.

Əxili toponimi Sufi ordeninə mənsub adamların bir-birinə verdikləri "əxi" (qardaş) sözündəndir.[1]

## ƏKƏRƏK

Əkərək Dərələyəzdə – Əzizbəyov rayonunda kənd adıdır.[2] Qeyd edim ki, Əştərək, Qafan, Meğri, Stepanavan (Calaloğlu), Talin rayonlarında və Eçmiədzində də Əkərək//Aqarak adında kəndlər vardır.[3] Bundan başqa Türkiyədə, Borçalıda, Dağıstanda da Əkərək adlı kəndlərə rast gəlirik.[4]

Erməni mənbələrində "Əkərək" coğrafi termini I əsrdən məlumdur. Onlar bunun "kiçik kənd", "becərilən torpaq" mənasını bildirdiyini yazırlar.[5] VII əsr coğrafiyaçısı A.Şirakaten öz "Coğrafiya"sında bunu qala, çay adı kimi xatırlayır.[6] Toponimist E.Murzayev erməni alimlərinə uyaraq göstərir ki, guya "aqar" leksik vahidi şumerlərdən yunan, Roma, gürcü, erməni dillərinə keçibdir. Əslində isə aqarlar türk tayfasıdır.[7]

Əkinçiliklə bağlı olan bu tayfa adı Aqar-ak//Əkər-ək oykonimlərində öz əksini tapmışdır. Hətta "Kitabi-Dədə Qorqud" dastanında da bu onomastik vahid kimi xatırlanır.[8] Qeyd edilməlidir ki, türk dillərində meşə bildirən tayfa adı yer adına, yer adı şəxs adına və şəxs adı isə yenidən toponimə çevrilə bilir.

## ƏLƏYƏZ

Ələyəz kəndi Dərələyəzin ən qədim məskənlərindən biridir.[9] Tarixi mənbələrdə bu "Alagöz", "Kərimxan məzrəsi", "Ələyəz mahalı" adı ilə də tanınır.[10]

---------------------

1. B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahı lüğəti, Bakı, 1998, səh.258.
2. Mirzəyev H. Ərəbxəncəri, Əkərək, Bəyzadə kəndləri, Filologiya məsələlərinə dair tematik toplu, № 7 (19), Bakı, 2001, səh.69-70.
3. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, səh.345.
4. B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998, səh.247-248.
5. Д.Д.Пагирев. Алфавитный указатель 5-ти верстной карты Кавказа. Тифлис. 1913, стр.26.
6. История армянского народа с древнейших времен до наших дней (Под редакцией М.Г.Нерессяна) Ереван, 1980, стр.123.
7. З.Капакертен. "Хроника", М., 1969, стр.295.
8. Kitabi-Dədə Qorqud, Bakı, 1962, səh.131.
9. Mirzəyev H. Ələyəz toponimi. Pedaqoji universitet xəbərləri, humanitar elmlər seriyası, № 1, Bakı, 1998, s. 101-104; Mirzəyev H. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz (monoqrafiya), Bakı, 1997, səh. 261-263; Mirzəyev H. Ələyəz kəndinin bəzi onomastik vahidləri haqqında, Filologiya məsələlərinə dair tematik toplu, № 1-2, Bakı, 2001, s.14-18.
10. Bax: Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, s.358-359.

1894-cü ilə qədər bu kənd Dərələyəzdə 20 kəndin mərkəzi olmuşdur. Lakin 1894-cü ildən sonra çar Rusiyası bu mərkəzi Həsənkəndə (1828-ci ildən sonra azərbaycanlıları zorla çıxarıb erməniləri yerləşdirdikləri kəndə) köçürmüşlər. Lakin sonralar bu vəziyyət dəyişmiş, mərkəz başqa prinsiplərə görə müəyyənləşmişdir.



Tarixi mənbələrdən məlum olur ki, 1590-1727-ci illərdə Ələyəz kəndinin bir ildə 8.833 axça gəliri olmuşdur.[1]

1831-ci ildə kənddə 32 nəfər, 1873-cü ildə 223, 1886-cı ildə 356 nəfər, 1897-ci ildə 412 nəfər, 1904-cü ildə 524 nəfər, 1914-cü ildə 576 nəfər, 1916-cı ildə 322 nəfər azərbaycanlı olmuşdur.[2]

1918-ci ildə daşnak Yaponun, Doluxanovun və Keşişovun başçılıq etdiyi nizami ordu bu kəndə hücum etmiş, kəndi dağıtmış, əhalisinin çoxunu qırmış, sağ qalanlar isə qaçıb müxtəlif yerlərə getmişlər. 1922-ci ildə cəmi 180 nəfər qaçqın kəndə qayıtmışdır. "1959-cu ildə burada 499, 1970-cı ildə 884, 1979-cu ildə 963 nəfər azərbaycanlı" yaşamışdır.[3]

Lakin 1988-ci ildə ermənilər kəndi mühasirəyə alaraq bura bulud dağıdan toplardan atəş açmış, topun mərmiləri bəzi evləri (İsmayıl Gülməmmədovun evini) xeyli dərəcədə dağıtmışdı.[4] Bundan bir qədər sonra ermənilər kənd əha-

-------------------

1. Ziya Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, s.58; Ziya Bünyadov və Hüsaməddin Məmmədov. Naxçıvan əyalətinin müfəssəl dəftəri. Bakı, 1997, s.35, 84-86.

2. Статическое описание Нахичеванской провинции СПб, 1833, стр. 168-169; И.Шопен. Исторические памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 615-616; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №961; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 358-359, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 215.

3. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, s.359.

4. 1988-ci ilin sentyabrında ermənilərin Ələyəz kəndinə atdığı top mərmilərinin qırıntılarından Bakıya gətirib mənə də verdilər. Bütün Ermənistanda yaşayanlar, o cümlədən Dərələyəz camaatı Azərbaycan rəhbərliyindən kömək gözləyirdilər. Lakin onlar rəhbərlikdən bu köməyi görmədilər. Mən 1988-ci il noyabrın əvvəlində Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi şurasında həmin mərmi qırıntılarını alimlərə göstərdim və onlardan öz səslərini ucaltmağı, rəhbərlik qarşısında məsələ qaldırmağı xahiş etdim. Lakin institut rəhbərliyi və MK-nın I katibi Ə.Vəzirova yarınanlar məni ermənilərlə azərbaycanlılar arasında ədavəti qızışdıran adam kimi qələmə verdilər, mənim haqqımda Bakı şəhər komendantına riyaziyyatçı, müharibə veteranı Musa Əzimovun adından məlumat yazıb verdilər...

lisini zor ilə kənddən qovmuşlar. İndi onlar, əsasən, Naxçıvanın Əznəbürd kəndində, Şəki rayonunda, Bakı və Sumqayıtda məskunlaşmışlar.

Salsal qalasının ətəyində yerləşən şəhər tipli qədim qəsəbə və yaxud şəhərlə həmsərhəd olan Ələyəz kəndində çoxlu tarixi abidələr vardır. Bu kənddə və kəndin ərazisində 6-7 abidə (vəng və kilsə) vardır ki, mən onların hamısını dəfələrlə (bəlkə də 20-30 dəfə) gəzmiş və müşahidə etmişəm.

Alban türklərinin bu abidələrini ermənilər XIII əsrə aid edirlər. Əfsuslar ki, 70 il müddətində Azərbaycan alimləri Ermənistan ərazisində, o cümlədən, Dərələyəzdə və Ələyəz kəndində olan alban türklərinə məxsus bu abidələri tədqiq etməmişlər. Ona görə də erməni tədqiqatçıları bunlara erməni damğası vurmağa çalışmışlar. Qeyd etməliyəm ki, Ələyəz kəndində haranı qazırsansa, oradan qədim tarixə aid bir əşya, bir yadigar çıxır.

Dilçilik ədəbiyyatında Ələyəz toponimi haqqında bu və ya başqa şəkildə məlumat verilmişdir. Aslan Bayramov Şörəyeldə olan Ələyəzdən məlumat verərkən yazır: "Ələyəz//Alagöz//Alakas//Aladağ – Şörəyel vadisinin ətəklərində, hündürlüyü 4020 metr, sahəsi 8800kvadratmetr olan dağın və silsilənin adıdır. M.Xorenasidə bu Araks kimi qeyd edilir və həmin oronim qədim türk mənşəli kas/kaspi tayfa adını əks etdirir".[1] Ələyəz dağının ətəklərində 5-6 yaşayış məntəqəsinin, çayın olması" da göstərir ki, bu tayfa adıdır. Aslan Bayramovun gəldiyi nəticə budur ki, Ala sözü qədimdə uca mənasını ifadə etmişdir.[2] Mən müəllifin bu fikri ilə tam şərikəm.

Qeyd etməliyəm ki, Ələyəz sözündə "ala" sözü "ələ" formasına düşmüşdür. Məlum olduğu kimi, Cənub dialektində, o cümlədən İrəvan quberniyasında "a" səsi çox vaxt "ə" formasında işlənir. Qara-qərə, qardaş-qərdəş. Görünür bu faktor da "a" səsinin "ə" kimi tələffüz edilməsinə təsir etmişdir.

Deməli, Ələyəz sözünün birinci hissəsindəki Ələ-Ala sözü yüksək mənasını bildirir, ikinci hissəsi isə yəz, qəz, ğuz, uz, kas, xəz formalarına düşən Alaqaz-Alağaz-Alaaz-Ələyəz-Ələquz-Ələoğuz... tayfa adıdır.

Qeyd etmək lazımdır ki, Salsal qalasının ətəyində, Ələyəz kəndi ilə Hosdun kəndinin arasında olan qədim xaraba, ölü şəhəri ermənilər "Elekiz" adı ilə adlandırırlar. Buradakı "ele" sözü "ələ"-"ala" sözünün dəyişmiş formasıdır. "Kiz" hissəsinə gəldikdə isə demək lazımdır ki, "kiz" sözü "kəz", "yəz", "kas", "qaz", "ğız", "oğuz", "az" tayfa adının dəyişmiş formasıdır. Əgər onlar "Elekiz" sözünün oğuz tayfası ilə bağlı olduğunu bilsəydiyər, onu başqa formada işlədərdilər.

## ƏLƏYƏZ KƏNDİNDƏ OLAN ƏXİ TƏVƏKKÜL ABİDƏSİ

Bu abidə Ələyəz kəndi ilə Hosdun kəndinin arasında, Ələyəz kəndindən 600-700 metr aralıda, şose yolunun yaxınlığında, bağların içində yerləşir. Tarixi mənbələrdən və abidənin özündən məlum olur ki, bu məbəd XII-XIII əsrlərdə inşa edilmişdir.

-------------------------

1. Aslan Bayramov. Qədim oğuz ellərinin – Ağbaba. Şörəyel və Pəmbək bölgələrinin yer-yurd adları (toponimləri), Sumqayıt, 1996, səh.201.
2. Aslan Bayramov. Göstərilmiş əsər, səh.99-102.



Bu abidə, əsasən, dini təbliğ etmək üçün tikilmişdir. Kamil Dərələyəzli göstərir ki, "burada ilahiyyat elmi, ilahiyyat ideologiyası ilə yanaşı riyaziyyat və təbabət elmləri də tədris edilirdi".[1]

Abidənin ("Zaviyyənin") girəcəyində hündürlüyü 2.5 metr, eni 1.4 metr olan iri daşın üzərindəki arnomentdə 12 imamın varlığı verilmişdir. Belə ki, daşın üzərində 3 dairə çəkilmiş və hər dairənin içində daşa 12 ədəd naxış vurulmuşdur. Bunlar 12 imama işarədir. Həmin bu dairələrin həm sağından, həm də solundan 8 guşəli 9 ulduz daşa həkk olunmuşdur. Bunların üstündən isə əvvəlkilərə nisbətən bir qədər böyük 2 səkkizguşəli ulduz, bu iki 8 guşəli ulduzların arasında isə günəşə bənzər böyük bir ornament vurulmuşdur. Həmin bu ortadakı böyük arnomentin ortasında Əlinin fotosunu xatırladan, ona oxşayan bir yer də vardır. Bu, Əlinin cəngavərlik şəklinə oxşayır.

Mənim fikrimcə, bunlar da imamları göstərən ornamentdir. Oradakı böyük günəşə bənzər ornament İmam Əli, bunun yanlarındakı İmam Həsən və İmam Hüseyn, üzü aşağı düzülən 9 ulduz isə İmam Hüseyndən sonra gələn 9 imamlardır, bir-birinin oğlanlarıdır.

Abidənin alt hissəsində, oturacağında şərq üslubu ilə tikilən 9 guşə isə Dərələyəzdə olan 9 türk tayfasıdır ki, burada həmin tayfaların (Milli, Hacısamlı, Əliqanlı, Şadmanlı, Püsyanlı, Gülyaqanlı, Fərqanlı, Bozlu, Həsənli) adı yazılmışdır. Ermənilər bu yazıları silməyə çalışsalar da, onların izi tamamilə itməmiş, müəyyən qədər qalmışdır.

Təəssüflə qeyd edilməlidir ki, bu abidə (məbəd, zaviyyə) haqqında yalnız 1966-cı ildə qısa məlumat verilmişdir. Kamil Dərələyəzli yazır ki, bu zaviyənin xadimlərindən olan Əxi Təvəkkül XIV əsrdə qətlə yetirilmişdir və bununla bağlı "məlumat tədqiqat zamanı 3, №292 saylı məqbərənin aşkarlanması vaxtı aydınlaşdırılmışdır."[2]

Dərələyəzdəki, o cümlədən Ələyəz kəndindəki abidələrin üzə çıxarılmasında Kamil Dərələyəzlinin böyük zəhməti olmuşdur. Mən bunun canlı şahidiyəm. O, respublikadan kənarda, Moskva və Peterburq arxivlərindən, kitabxanalarından Ələyəz kəndindəki Əxi Təvəkkül abidəsinin ilk, ermənilər dəyişdirməyən foto-süjetini əldə edə bilmiş və ermənilərin saxtakar olduğunu isbat etmişdir. Ermənilər başqa abidələrdə olduğu kimi, bu abidənin daşlarını da yonub ora xaç işarəsi qoymuş, bunu sənədləşdirmiş və dünya ictimaiyyətini inan-

---

1. Kamil Dərələyəzli. Dərələyəz od içində. Bakı, 2001, s.107.
2. Yenə orada.

dırmağa çalışmışlar ki, guya bu abidə ermənilərə məxsusdur. Lakin Kamil Dərələyəzlinin açıqlamaları, abidənin həm qədim, həm də sonrakı şəkillərini yanaşı qoyub çap etdirməsi ermənilərin saxta məlumatlarını alt-üst etdi.

Abidənin hər iki variantını burada yanaşı qoyub çap edirik. Qoy azərbaycanlılar ermənilərin saxtakar olmasını, tarixi abidələrimizi, mənəvi dəyərlərimizi də soyqırımına məruz qoyduqlarını dünyaya yaysınlar. Onu da dünya ictimaiyyətinə bildirsinlər ki, 8 guşəli ulduz ornamenti yalnız və yalnız türk xalqlarına, o cümlədən Azərbaycan xalqına məxsusdur. Lap qədim dövrlərdən, onların günəşə sitayiş etdiyi dövlərdən bu ornament mövcuddur. Dünyanın müxtəlif yerlərində bu məsələyə dair bir çox faktlar mövcuddur.





Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü Məşədixanım Hicran Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyətinə "Ərzi-halım ilahi, ya rəbbim kömək eylə yerinə yetsin arzu-amalım" şerində Azərbaycan xalqına, alimlərə müraciət edərək yazır:

...Daş etmişmi ürəkləri, daşa dönmüş kitabələr
Qulaq verin türk babamın öyüdləri nələr söylər.
Neçə-neçə alim, memar, nəqqaş, xəttat adlarını
Sənət tarixinə yazan yadigardır kitabələr.

Əlimizdə pasportumuz, üzərində yazı olan Vətən daşı,
Azərbaycan torpağına kim sahibdir, kimdir onun vətəndaşı?
Xülyalara dalmış azğın ermənimi, yoxsa mənim türk babamdır?
Ən tutarlı sənəddir bil, babamızın-azərinin qəbir daşı.

Qoç heykəlli abidələr, islam yurdu Dərələyəz
Əxi Təvəkkül məskəni, ulu türkündür Ələyəz,
Haqqı deyib ermənini susdurmuşdur kitabələr,
Daş salnamə xidmətini unudaraq, danmaq olmaz.

Bilməm kiməm, haqqı bizdən alan nədir?
Nadir elm sahəsini gözdən salan daha nədir?
Əsrlərlə tək-tək adam duymuş ünsiyyət daşlarla
Buna qiymət verən yoxsa, daha bizə qalan nədir?"

Təəssüf hissi ilə qeyd etməliyəm ki, XV əsrdə Sultan Səlim Azərbaycanı işğal edərkən şiəliyi təbliğ edən bu gözəl memarlıq abidəsini uçurub dağıtmışdır.[1]

1961-ci ildə Azərbaycan Elmlər Akademiyasının professoru Məşədixanım Nemətova Ələyəz kəndinə getmişdir. Lakin bu ermənilər tərəfdən ciddi narazılığa və etirazlara səbəb olmuşdur. Ələyəz kəndində onlarla abidənin heç birini Məşədixanım Nemətovaya, bu sahənin mütəxəssisinə göstərməmişlər.

Erməni ziyalıları Ələyəz kəndində olan mədrəsənin türk tayfalarına məxsusluğunu ört-basdır etmək və Dərələyəz mahalının qədim erməni məmləkəti olmasını sübut etmək üçün "Qladzor" universiteti haqqında yalan uydurmalar düzəltməyə başlamışlar.[2]

Görkəmli tarixçi, etnoqraf, qədim dövrlərin mütəxəssisi Qiyasəddin Qeybullayev haqlı olaraq göstərir ki, "Dərələyəz mahalında yaşamış insanların milli-mənəvi dəyərləri olan tarixi abidələr – IV yüzilliyin Dəmirov piri, IX yüzillikdən bu günə qədər tarixi öyrənilməmiş qalan Sal-sal qalası, orta əsrlərə aid Əxi Təvəkkül zaviyyəsinin qalıqları, Arpa çayı üzərində tikilmiş və indiyə qədər öz əzəmətini itirməyən Dədəli körpüsü, Qədim İpək yolu kənarında XIII əsrdən yadigar qalan, Səlim və ya Şah Abbas karvansarası kimi tanınan və Əbu Səid Xan Bahadur tərəfindən inşa olunmuş üç karvansara, IX-XIV əsrlərdə inşa olunmuş bir çox abidələr və çoxtağlı körpülər haqqında olan məlumatlar Azərbaycan xalqının diqqətindən kənarda qalmış, tədqiqatlarımızın səhifələrində öz əksini tapmamışdır".[3]

1965-ci ildə Dərələyəz mahalının Ələyəz kəndində kənd sakini Qaraş kişi köhnə evini söküb ikimərtəbəli ev tikmək istəyir. Bu zaman zirzəmiyə aid olan hissəni üç metr dərinlikdə qazır. Təqribən 2 metr dərinlikdə olan qəbirdən döyüşçüyə məxsus silah və 10 ədəd gümüş pul çıxır, üç metrlikdə isə başqa qəbir aşkarlanmış və həmin qəbirdən isə ağzı mumiyalanmış bir kilo həcmində saxsı qabın içərisində onlarla mis pul çıxmışdır. Həmin pullardan bir neçə dənə Ələyəz kənd məktəbinin direktoru İsmayıl müəllim tərəfindən Bakıya gətirilmiş, Azərbaycan Dövlət Tarix Muzeyinin elmi işçisi Əhməd Ablullayev tərəfindən müəyyənləşdirilərək gümüş pul Əbu Səid xan Bahadurun (1316-1335), mis pul isə Yezid ibn Usaydın adına zərb olunduğu bildirilmişdir.[1]

Ələyəz kəndi tarixi abidələr məskəni olduğu üçün burada başqa sikkələr də tapılmışdır. Onlardan bəzilərini oxucuların nəzərinə çatdırmaq faydalıdır.

Qeyd etmək lazımdır ki, Ələyəz kəndində də, mahalda, eldə, obada nüfuzlu,

---------------------

1. Kamil Dərələyəzli. Dərələyəz od içində. Bakı, 2001, s.108
2. Yenə orada, səh.119.
3. Q.Ə.Qeybullayev. Ön söz. Kamil Dərələyəzli. Dərələyəz od içində. Bakı, 2001, səh.3-4.
1. Kamil Dərələyəzli. Dərələyəz od içində. Bakı, 2001, səh.125.

hörmətli ermənilərlə danışmağı, onlarla mübarizə aparmağı bacaran adamlar çox olmuşdur. Buna hal-hazırda dünyalarını dəyişən Qaçaq Talıb, Cəfərov Bayramqulu, Hüseynov Əyyub, Cəfərov Məcid, Gülməmmədov İsmayıl, Talıbov Hüseyn, Cəfərov Vəli, Xəlilov Xəlil və başqalarını göstərmək olar.

Bu kənddə tarix boyu azərbaycanlılar yaşamışdır. Bu kəndin onomastik vahidləri yer-yurd adları, müharibəyə gedənləri, siyasi məhbusları və şəhidləri əsasən, aşağıdakılardır.

**Tayfa adları**

1. Qırxetlilər
2. Kəlba İsgəndərlilər
3. Püsyanlılar
4. Hostunlular
5. Hacıibadlılar
6. Məmmədcəfərlilər
7. Alxanpəyəlilər
8. Hacıəsədlər
9. Məşədihüseynlilər
10. Kərbəlayi Piralılar
11. Həsənqulular
12. Kərbəlayi Gülməmmədlilər

**Ləqəblər**

1. Pesi İsmayıl
2. Təpə Məhəmməd
3. Dərviş Əli
4. Ordu İsmayıl
5. Qıllı Nəsib
6. Kor Usub
7. Cələməddin Əli
8. Tat Əli

**Məhəllə adları**

1. Həsənqulular məhləsi
2. Hostunlular məhləsi
3. Yuxarı məhlə
4. Aşağı məhlə
5. Məşədi uşağı
6. Orta məhlə

**Dağ və yaylaq adları**

1. Əməri yurdu
2. Dəmirtəpə
3. Mağal obası
4. Çınqılın arası

5. Almalı
6. Qara şum
7. Qaraxaç
8. Qoşa təpə
9. Qoşa arxaclar
10. Aran kəfşəni
11. Armudluq
12. Yendirmələr
13. Tikanlı düz

**Dərə adları**
1. Tüngün dərəsi
2. Qaranlıq dərə
3. Talıb yatan dərə
4. Sulu dərə
5. Bəndalının dərəsi
6. Hacının dərəsi
7. Qaranlıq dərə
8. Gen dərə
9. Xanpərini ilan vuran dərə
10. Fəro yatan dərə
11. İsa yatan dərə
12. Arzuman dərəsi
13. Qala dərəsi
14. Eyvaz düşən dərə
15. Şor dərə
16. Tar gələn
17. Zəngəzur dərəsi
18. Köçərlinin dərəsi

**Kilsə adları**
1. Vəngin dalı
2. Nənə mehram
3. Qoşavəng
4. Gölün kilsəsi
5. Anbar kilsəsi
6. Vəng
7. Vəngin arxasındakı kilsələr. Burada 2 kilsə vardır. Lakin onların adı yoxdur. Bu kilsələrdən birinin üzərində lap qədimdən çayçı şəkli vardır.

**Bağ adları**
1. Əsgərin bağı
2. Xəlilin bağı
3. Həsənin bağı

4. Məmmədin bağı
5. Hostunluların bağı
6. Əhmədin bağı
7. Hüseynin bağı
8. Kəlba Musa bağı
9. Müseyibin bağı
10. Hümbətin bağı
11. Xəlilin bağçası
12. Mazanın bağı
13. Mikayılın bağı
14. Cahan qarının bağı
15. Əlinin bağı
16. Əsgərin bağı
17. Cabbarın bağı
18. Güney bağları

**Biçənək və düzənlik adları**

1. Alının biçənəyi
2. Böyük düz
3. Dübür yatan
4. İlğaylıq
5. Arduşlu (Ardıclı)
6. Qaraşum
7. İsmayılın yastanası
8. Əməri yurdu
9. Macal
10. Çınqılın arası

**Qaya adları**

1. Salsalın qayası
2. Qızıl qaya
3. Sarı qaya
4. Uçuq qaya
5. Sıvırçaq daş
6. Təkədonduran
7. Top daş
8. Əyri tar
9. Kötürgə
10. Qalaça
11. Ovqayası
12. Çal daş
13. Zağa qayası

**Yol adları**

1. Uzun yol

2. Sarı burun
3. Ağ gözdər
4. Gölün başı
5. Tar gələn
6. Göl yolu
7. İsmayılın kənd yolu
8. Gendərə yolu
9. Dağ yolu

**Bulaq adları**

1. Yağlı bulaq
2. Xırlı bulaq
3. Yastı bulaq
4. Qurtdu bulaq
5. Quru bulaq
6. Gölün bulağı
7. Qazlı bulaq
8. Ağ bulaq
9. Kəfəkli bulaq
10. Pir bulağı
11. Alçalı bulaq
12. Ərəb bulağı
13. Şor bulaq
14. Şeytan bulağı
15. Şor su
16. Gilli bulaq
17. Qoşa bulaq
18. Gendərə bulağı
19. Qaya altı bulaq
20. Tüngün bulağı
21. Qırmızı su (müalicə üçün)
22. Şırran bulağı
23. Qızıl bulaq
24. Hacının bulağı
25. Köçərinin bulağı
26. Rəhimin bulağı
27. Mehti bulağı

**Çay, göl adları**

1. Arpa çayı
2. Qırmızı su
3. Yoğun su
4. Tüstülü göl
5. Burulqan göl

6. Qızlar gölü
7. Ayıölən çayı
8. Daşagirən göllər

**Ələyəz kəndindən 1937-1938-ci illərdə repressiya qurbanı olanlar:**

1. İsgəndərov Həsən İsmayıl oğlu
2. Hüseynov Müseyib

**Ələyəz kəndindən 1941-1945-ci il Böyük Vətən müharibəsinə gedənlər**

**a) qayıtmayanlar**

1. Nəcəfov Əkbər Hüseyn oğlu
2. Nəcəfov Səfər Hüseyn oğlu
3. Rüstəmov Qədim İsmayıl oğlu
4. Qəhrəmanov Siyafər
5. Qəhrəmanov Yaqoş
6. Əsədov Vəli Musa oğlu
7. Bəxtiyarov Əli
8. Rzaquliyev Hüseyn Mikayıl oğlu
9. Nəbiyev Qara Həsən oğlu
10. İsgəndərov İsgəndər Xəlil oğlu
11. İsgəndərov Hüseyn İsmayıl oğlu
12. Abbasov İsgəndər Mikayıl oğlu
13. Bəndalıyev Hümbət
14. Ələkbərov Ənvər Ələsgər oğlu
15. Nəcəfov Musa Cabbar oğlu
16. Cəfərov Əli Əlimərdan oğlu
17. Məmmədov Məhəmmədəli Əşrəf oğlu
18. İsgəndərov İsgəndər Əmrah oğlu
19. İsgəndərov Firuddin Əmrah oğlu
20. Əsədov Əsəd Əli oğlu
21. Əsədov Əli Musa oğlu
22. Məhəmmədəli Qocalı oğlu
23. Sadiqov Yusif Mikayıl oğlu
24. Bəndalıyev Heydər
25. Nəcəfov Əsgər
26. Əhmədov Əli
27. Atakişiyev Atakişi

**b) qayıdanlar**

1. Əsədov Əsəd Musa oğlu
2. Əliyev Murtuza
3. İsmayılov Mazan
4. Eminov Firudin

5. Alxanov Mürsəl Qənbəralı oğlu
6. Cəbrayılov Yusif
7. Əsədov Rüstəm
8. İbadov Rəşid
9. İbadov Bəhlul
10. İbadov Əli
11. İsgəndərov Qələndər
12. İsgəndərov Rəsul
13. Bayramov Xəlil
14. Rzaquliyev Həsən
15. Nəbiyev Nəbi
16. Məmmədov İbrahim
17. Həsənquliyev İsmayıl
18. Gülməmmədov İsa
19. Zöhrabov Əli
20. Bəndalıyev Əkbər
21. Məmmədov Mədət
22. Süleymanov Abbas
23. Rüstəmov Rüstəm
24. Məmmədov Fəro
25. Hüseynov Cəlal
26. Hüseynov Bəhlul

**1988-2000-ci illərdə Qarabağ müharibəsində şəhid olanlar**

1. Abışov İslam İsmayıl oğlu
2. Abbasov Qafar Hüseyn oğlu

**İnformatorlar:** Ələyəz kənd sakinləri: 1) Əhməd Cəfərqulu oğlu – 102 yaşında (dünyasını dəyişmişdir); 2) Həsənova Pəri (Serçə) – 90 yaşında (2003-cü ildə dünyasını dəyişdi); 3) Cəfərov Vəli Almərdan oğlu – 70 yaşında; 4) Mamedov Əli Mədət oğlu – 56 yaşında; 5) Həsənalıyev Zeynal Mədət oğlu – 50 yaşında; 6) Həsənov Vahid Əhəd oğlu – 40 yaşında; 7) Özüm (Həsən Mirzəyev).

## QOŞAVƏNG

Qoşavəng adlı bu alban abidəsi Drələyəzdə Ələyəz kəndinin ərazisində, Qaraşum adlanan yerdə, dağın üstündə, Dəmirtəpə adlı yaylağın yaxınlığında tikilmişdir.[1] Bu iki abidə qoşa tikilmişdir. Buradan qayaların üstündə tikilmiş

--------------------

1. Mirzəyev H. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz (monoqrafiya), Bakı, 1997, səh. 210; Mirzəyev H. Dərələyəz mahalında olan Qaravəng, Qoşavəng, Sadıvəng, Güneyvəng, Qoduxvəng toponimləri haqqında, Pedaqoji universitetin xəbərləri, humanitar elmlər seriyası, № 1,Bakı, 1998, s. 43-48.

məşhur Salsal[1] qalasına tüng ilə, saxsı borularla bulaq suyu aparılmışdır. (Mən həmin saxsı borularını, tüngü öz gözümlə görmüşəm).



Qoşavəng adlanan bu yerdə indi yaşayış yoxdur. Bunun başlıca səbəbi bu vəngin dağ başında, soyuq və qarlı yerdə olmasıdır. Lakin bəzi mənbələrdə İ.Şopenin və Z.Korkodyanın əsərində göstərilir ki, Dərələyəzdə Qoşavəng adlı kənd də olmuşdur.[2]

Qoşavəng abidəsinin şəklini əldə edə bilmədik. Onun quruluşu Qaraqoyunlu dərəsində (İcevan rayonunda) olan, şəklini "Большая Советская Энциклопедия"dan (Москва, 1952, том. 12, стр. 359) götürdüyümüz aşağıdakı vəngə oxşayır. Mən Ələyəz kəndi ərazisində olan Qoşavəngi görmüşəm. Onda olan ornamentlər 1237-ci ildə tikilmiş bu vəngin ornamentlərinə çox oxşayır.

## ӘЛӘЈӘЗ КӘНДИНДӘКИ АБИДӘЛӘР, ДАҒЫДЫЛМЫШ ГӘБРИСТАНЛЫГДАКЫ СИНӘ ДАШЛАРЫ ВӘ ГОЧ ҺЕЈКӘЛЛӘРИ





-------------------

1. Mən 1955-1957-ci illərdə Dərələyəz mahalında (hər iki rayonda, Keşkənd və Əzizbəyovda) təhsil şöbəsində inspektor işləyərkən bu əzəmətli Azərbaycan abidəsini, bu məşhur qalanı dəfələrlə gəzmiş və müşahidə etmişəm. И.Шопен. Исторические памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи, СПб, 1852; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 391.

2. Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 92;






## ƏLİDƏRƏSİ

Əli dərəsi Dərələyəz mahalının Yeğeqnadzor (Keşişkənd// Keşkənd) rayonunda azərbaycanlı kəndidir.[1] 1918-ci ildə erməni quldurları tərəfindən bu kənd də dağıdılmış, əhalisi qırılmış və qovulmuşdur. Bu yaşayış məskəninin xarabalıqları Ağkəndin yaxınlığında indi də qalmaqdadır. Əli dərəsi kəndinin adı bu yaşayaş məskəninin sahibinin adı ilə bağlıdır.

"Sallı kəndində yaşayan çox yaşlı, hazırcavab, məlumatlı bir şəxs kimi tanınan İman kişinin dediyinə görə 1905-ci illərdə Əli dərəsi kəndinin təxminən 100 nəfərə qədər əhalisi olmuşdur. Lakin 1905-1907-ci il erməni-müsəlman davasından sonra bu kənddə yaşayan olmamışdır".[2]

Məlumat üçün deməliyəm ki, İman kişinin sakin olduğu Sallı kəndi ilə Əli dərəsi kəndi bir istiqamətdə, bir yolun (Selim yolunun) üstündə yerləşir və aralarındakı məsafə də çox yaxındır. Mən yaxşı tanıdığım, tarixi hadisələri yaxşı bilən, canlı ensiklopediya olan İman kişinin verdiyi bu məlumatı dəqiq fakt kimi qəbul edirəm.

------------------

1. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, s.360.
2. Kamil Dərələyəzli. Dərələyəz od içində. Bakı, 2001, səh.201.

## ƏLİQIŞLAĞI

Əliqışlağı İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında azərbaycanlı kəndidir. Tarixi və statistik mənbələrdən aydın olur ki, kənddə 1813-cü ildə 19 nəfər azərbaycanlı yaşamışdır. Bunlar cəmi 3 ailə olmuşdur ki, bunların 13-ü kişi, 6-sı qadındır.[1]

1918-ci ildə ermənilər tərəfindən dağıdılmış bu kəndin xarabalıqları Yeğeqnadzor rayonundakı Həsənkəndin (Şatin) yaxınlığındadır. Bu toponim Əli adlı şəxsin qışlağı mənasındadır.[2]

1590-cı ilin məlumatına əsasən, Əliqışlağı kəndinin 2.110 ağça gəliri olmuşdur. Mənbələrdə bu kəndin başqa bir adının Meydan olduğu da göstərilir.[3]

## ƏRƏBXƏNCƏRİ

Ərəb xəncəri Dərələyəz mahalının Yeğeqnadzor (Keşişkənd) rayonunda kənd adıdır.

Tarixi və statistik mənbələrdən məlum olur ki, Ərəb xəncəri kəndində XX yüzilliyin əvvəllərində 74 ev olmuş və bu evlərdə (təsərrüfatlarda) 582 nəfər azərbaycanlı yaşamışdır. Bu kəndin əhalisi heyvandarlıq və əkinçiliklə məşğul olmuşdur. Bu kənd haqqında Ermənistan SSR DPTF (f.57, p.247) məlumat verilir. Kəndin sonrakı tarixi haqqında dəqiq məlumat yoxdur.[1]

Yaşlı adamlardan və bəzi tarixi mənbələrdən aldığımız məlumata görə, 1919-cu ildə ermənilər bu kəndi dağıtmış, əhalisi isə pərən-pərən olub müxtəlif istiqamətlərə üz tutmuşdur.

Toponimin mənşəyinə gəldikdə, B.Budaqov və Q.Qeybullayev göstərirlər ki, bu "Ərəb (kəndi) yaxınlığındakı Xəncərli (kəndi)“ mənasındadır[2]. Qıpçaqlarda da xəncərli, bıçaqlı tayfa adları olmuşdur. Ağbabada da 1940-cı ildən xaraba qalmış Xəncərli kəndi vardır.

-----------------

1. Статистическое описание Нахичеванской провинции. СПб., 1833, стр.174. И.Шопен. Исторические памятники состояние армянской області в эпоху ее присоединении к Российской империи, СПб, 1852, стр.615; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), İrəvan, 1932, səh.90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh.360.

2. Mirzəyev H. Əliqışlağı, Rəsul qışlağı, Daşkənd, Ağsu kəndləri, Filologiya məsələlərinə dair tematik toplu, № 7 (19), Bakı, 2001, s.16-17.

3. Z.Bünyadov, H.Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, s.58. Z.Bünyadov, H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, s.284.

1. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, səh.360.

2. B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998, səh.254.

## ƏRƏBKƏNDİ

Ərəbkəndi Dərələyəz mahalının Yeğeqnadzor (Keşişkənd) rayonunda kənd adıdır. İlk dəfə bu kənd Zəkəriyyə Sarkavanlı tərəfindən xatırladılır. Başqa bir məlumat yoxdur.[1]

Ərəbkəndi toponimi Azərbaycan xalqına məxsusdur. Bütün Azərbaycan torpaqlarında bu adda çoxlu kənd vardır.

## ƏRGƏZ

Ərgəz Dərələyəzin Keşkənd (Yeğeqnadzor) rayonunda azərbaycanlı kəndidir. Bu kənd rayon mərkəzinin yaxınlığında yerləşir.[2]

Qədim tarixə aid mənbələrdə göstərilir ki, 1590-1727-ci illərdə Ərgəz kəndinin 4.170 ağça gəliri olmuşdur.[3] Faktlar göstərir ki, bu kənddə 1831-ci ildə 198 nəfər, 1873-cü ildə 348 nəfər, 1886-cı ildə 479 nəfər, 1897-ci ildə 587 nəfər, 1900-cü ildə 745, 1914-cü ildə 820 nəfər, 1916-cı ildə 758 nəfər azərbaycanlı olmuşdur.[4]

1918-ci ildə rayon mərkəzinə yaxın olan bu azərbaycanlı kəndini erməni daşnakları yerlə-yeksan eləmiş, dağıtmış, yandırmış və əhalisini qırmışlar.[5]

Tək-tək sağ qalanlar isə, əsasən, Dağlıq Qarabağın Xocalı kəndinə, Goranboyun Xoylu kəndinə, Şəmkirin Morul kəndinə, Şərur və Ağdam rayonlarına getmişdir. 1922-ci ildə kəndə qayıdan tək-tək adamları ermənilər həmin kəndə qoymamışlar. Bunu görən ərgəzlilər öz kəndlərinə yaxın olan Gendərə kəndinə gəlib orada yaşamaq istəyiblər. Lakin ermənilər bu kəndi də bərpa etməyə qoymayıblar. Hətta 1926-cı ildə Ərgəzi bərpa etmək istəyən 80 nəfər azərbaycanlının cəhdi də baş tutmamışdır. Bu zaman onlar həmin rayonun Qabaxlı və Paşalı (Əzizbəyov) rayonunun Kotanlı kəndində məskunlaşmağa məcbur olmuşlar. Həmin dövrdən Ərgəz kəndində əhali yaşamır. İndi orada kəndin xarabalıqları, qəbiristanlıqları və qəbiristanlığın daşları qalmaqdadır. Bu kənddə

---

1. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, səh.360.

2. Mirzəyev H. Ərgəz, Dil məsələlərinə dair tematik toplu, № 1, Bakı, 1998, s.23-25; Mirzəyev H. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz (monoqrafiya), Bakı, 1997, səh. 258-261; Mirzəyev H. Ərgəz kəndi haqqında, Filologiya məsələlərinə dair tematik toplu, № 5 (17), Bakı, 2001, s.54-56.

3. Bax: Ziya Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1995, səh.59; Ziya Bünyadov və Hüsaməddin Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh.35, 298.

4. И.Шопен. Исторические памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 619; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1010: Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 360, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 244.

5. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh.360.

tarixi bir abidənin – Ərgəz pirinin olması, buranın rayon mərkəzinə və ermənilərin zorla məskunlaşdığı kəndlərə yaxın olması, torpağının münbitliyi erməni şovinistlərini həmişə qıcıqlandırırdı. Belə səbəblər üzündən sonrakı dövrlərdə də ermənilər bu kənddə azərbaycanlıların məskunlaşmasına imkan verməmişlər.

Tarixi faktlardan və yaşlı adamların dediyindən aydın olur ki, bu kənddə çoxlu sayılan, seçilən, qorxmaz, döyüşkən adamlar, həmçinin varlı şəxslər, bəy və hacılar olmuşdur. Məsələn, bu kənddən olan Hacı Ağayar adlı adam 3 dəfə Məkkəyə getmişdir. Erməni-müsəlman davasından sonra Xocalıda məskunlaşan, sonralar Sumqayıtda yaşayan, bir müddət "Milli dövlətçilik" partiyasının sədri işləyən mərhum Maşallah Ağayarov, Sumqayıtda “Tello“ ansamblının bədii rəhbəri olmuş mərhum Ağayarov Səlim, Hüseynqulu və Oqtay Ağayarovları dindirəndə deyirdilər ki, biz ərgəzliyik. Həmin deportasiyadan 80 il keçsə də, ərgəzlilər ana torpağı unutmur və indi də ərgəzliyik deyirlər.

1918-ci il erməni-müsəlman davasında Ərgəz, Ələyəz, Hosdun kəndlərində, Salsal qalasında böyük qəhrəmanlıq göstərən, uca səsi ilə nərə çəkəndə erməniləri vahiməyə salan, bir müddət Xocalı, Ağdam və Ağcabədidə yaşayan, Mirsəqulu da məşhur xanəndə Şahmalı Kürdoğlunun atası Ərgəzin yetirməsi idi.

Ərgəzin yaşlı adamlarından Hidayət bəy və Mirsəqulu kişi mənə söyləyirdi ki, Ərgəzdəki bəy və hacıları saymaqla qurtarmaq olmurdu.

Ərgəz kəndinin yaxınlığında, təxminən kənddən 150 metr aralıda alban türklərinə məxsus qədim və əzəmətli bir abidə vardır. Bunun adına "Ərgəz piri" deyirlər. Tarixi mənbələrin verdiyi məlumata görə bu pir VII əsrdə tikilmişdir. Bura sitayiş yeri, müqəddəs yer hesab olunur. Bu pirə Azərbaycan kəndlərinin əhalisi başlıca olaraq bayramlarda və payız fəslində, qoç qoyuna qatılan vaxtı gələr, orada qurban kəsərmişlər. Dərələyəzdə olan azərbaycanlılar son dövrlərə qədər həmişə bu pirə gedərdilər. Mən bunun canlı şahidiyəm.

Ərgəz pirinin ətrafında xarabalıqlar da var. Ermənilər başqa tarixi abidələr kimi, bu abidəni də özlərinə aid etməyə çalışırlar.

Ərgəz sözünün formalaşmasına gəldikdə, mənim fikrimcə, bu, türk tayfasının adından götürülmüşdür. Bu ya "oğuz", ya da "kas", "xəz" sözləri ilə bağlıdır. Mən burada üçüncü bir təşəkkül formasını görmürəm:

1. Çox güman ki, türk dillərində tarixən mətin, qoçaq, qəhrəman, cəsarətli, yenilməz, kişi sözlərinin mənasında işlənən ər sözünün (Ər oğlu Ərdir) oğuz//ğuz//quz sözünə birləşməsi yolu ilə formalaşmışdır. Burada "Oğuz" sözündən "o" səsi düşmüş, ahəng qanunun və irəli assimilyasiyanın tələbinə görə "ğ" səsi “g“ səsinə, "u" səsi də "ə" səsinə çevrilərək "Ərgəz" (Ər oğuz – Ərğuz – Ərgəz) formasına düşmüşdür.

2. Yaxud da türk tayfalarından birinin adını bildirən "kas" sözünün (Kaspi, Xəz-ər) "gəz" formasına düşməsi, yəni "k" səsinin "g" səsinə, "a" səsinin "ə" səsinə, "s" səsinin "z" səsinə keçməsi yolu ilə formalaşmışdır.

Məşhur türkoloqların "kas", "xəz" və "oğuz" tayfa adı haqqında söylədikləri mülahizələr də yuxarıdakı fikri söyləməyimizə əsas verir. Professor

Tofiq Hacıyev, Kamil Vəliyev yazırlar: "quz-qədim quzların (oğuzların) adıdır. ...Xəz – Quz – Qaz – Kas eyni sözün fonetik silsiləsidir. Bu toponim hissəciklərinin əsasında qədim türk etnonimi olan oğuz sözü dayanır. Görkəmli rus şərqşünası V.V.Bartoldun təsdiq etdiyinə görə, oğuzlar ən qədim türk etnoslarındandır, başqa türk dilli tayfaların yaranmasında da oğuz ulu başlanğıc olmuşdur". "Şübhəsiz ki, qədim türk tayfalarının adları az, uz, quz, oğuz, həm etnik varlıq, həm də leksik vahid kimi bir mənşədən çıxır".[1]

Yuxarıda adını çəkdiyimiz türkdilli tayfalar haqqında Qiyasəddin Qeybullayev və Mirəli Seyidovun da fikirləri dediklərimizi təsdiq edir.[2]

Qeyd etməliyəm ki, ermənilər tarixi bir saxtakarlığa əl ataraq Ərgəz kəndinin adını dəyişib "Arqazan"[3] qoyublar. Məlum olduğu kimi, erməni dilində "ə" səsi və "ə" hərfi olmadığı üçün "ə" hərfini "a" hərfi ilə yazmış, Ərgəz sözünün sonuna -an şəkilçisi əlavə etmiş və bununla da çox ustalıqla (hiyləgərliklə) türk mənşəli sözün izlərini itirməyə çalışmışlar. Lakin tarix və zaman həmişə saxtakarlığı üzə çıxarır.

Ərgəz kəndində olan onomastik vahidlərdən yalnız aşağıdakıları əldə edə bildik.

**Tayfa adları**

1. Xanəzəhlilər tayfası
2. Navlılar tayfası
3. Ərgəzli tayfası
4. Hacıağayar tayfası: Qəhrəman, Əmraslan, Həsənqulu, Məşədi, Bayramqulu, Məmiş
5. Əmrahlar tayfası: Əlpənah bəy, Həmzə bəy, Hidayət bəy, Şahvələd bəy, Çərkəz bəy, Hüseyn bəy, Nəbi bəy
6. Hacı Bədəlli tayfası: Hacı Zaman, Məşədi Hümmət, Kəbla Məhəmməd, Məşədi Kazım

**Dağ, dərə, təpə, qaya adları**

1. Təpəsi dəlik dağı
2. Qaraqaya
3. Yastı təpə
4. Gəncimalı qəyəsi (qayası)
5. Baldırğanlı dərə

**Yer, sahə, kövşən, yol adları**

1. Novlar
2. Mehriölən

-------------------

1. Bax: T.İ.Hacıyev, K.N.Vəliyev. Azərbaycan dili tarixi. Bakı, 1983, s.26-27.
2. Bax: Mirəli Seyidov. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı, 1989, səh. 108-110, 410; Г.А.Гейбуллаев: К этногенезу Азербайджанцев. Баку, 1991, с.56; Qiyasəddin Qeybullayev: Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, 1994, səh.35-37.
3. Bax: Т.Х.Акопян, - С.Бахшян, О.Х.Барсегян. Словарь топонимов Армении и прилегающих областей, Ереван, 1986, стр.408.

3. Palan tökülən
4. Qazma
5. Eşşək ölən
6. Çınqıllıq
7. Qərəvəng yolu (Qaravəng yolu)
8. Təkədonduran cığırı
9. Kaldarlıq
10. Paşadüz
11. Xırman yeri

**Çay və bulaq adları**
1. Ərgəz çayı
2. Ballı bulaq
3. Yallar bulağı

**Abidə, məbəd, qəbiristanlıq adları**
1. Ərgəz piri
2. Ərgəz qəbiristanlığı

**İnformator:** Ərgəz kəndində olan bu toponimlərin adlarını Kotanlı kəndində anadan olan və bu yerlərin hamısına dərindən bələd olan, 1926-cı il təvəllüdlü, hal-hazırda Novxanıda yaşayan Əmirov Əli Nabatalı oğlu vermişdir.

## ƏRGƏZ PİRİ



Dərələyəz mahalında ən qədim abidələrdən biri də Ərgəz piridir. Bu abidə Ərgəz çayının yuxarı axarında tikilmişdir. Qədim dövrdə olduğu kimi müasir dövrdə də Ərgəz piri şəfa ocağı kimi tanınmaqdadır.

Ərgəz piri haqqında məlumat toplayan N.Zeydliç göstərir ki, Ərgəz kəndində uçmuş bir məscid də vardır.[1] Dərələyəzin Qalaser kəndindən olan 110 il ömür sürən, 1988-ci ildə deportasiyaya məruz qalıb Bakıda dünyasını dəyişən Hüseyn kişi (Nərgiz oğlu Hüseyn) deyirdi ki, Ərgəz pirinin dam örtüyü gümbəzlərlə tamamlanmışdır. Lakin ermənilər 1918-ci ildə bu gümbəzləri dağıtdı və sonralar 1950-1960-cı illərdə bunu erməni arxitekturasına uyğun şəkildə bərpa etdilər.[2] Yaşlı adamların dediyinə görə, qədim dövrlərdə Ərgəz pirini ziyarətə gələnlər daha çox olmuşdur. Hətta Naxçıvan, Borçalı, Qarabağ kimi yerlərdən də gələnlər olmuşdur.

-----------------
1. Ətraflı məlumat üçün bax: Kamil Dərələyəzli. Dərələyəz od içində. Bakı, 2001, s.108.
2. Yenə orada. s.109.

## ƏSGƏRKƏND

Əsgərkənd Dərələyəz mahalının Yeğeqnadzor (Keşişkənd//Keşkənd) rayonunda kənd adıdır. Bu kənd Arpaçayın yuxarı axarının sağ sahilində, Noraşen kəndindən 15 km şimal-şərqdə yerləşmişdir.[1] Bu kənd Qafqazın 5 verstlik xəritəsində göstərilmişdir.

Bəzi mənbələrdə göstərilir ki, bu kənd XIX əsrin sonlarında dağıdılmışdır.[2]

Bu toponim şəxsin (Əsgər xüsusi isminin) adına əsasən Əsgərkənd adlanmışdır.

## ƏSKİKƏND

Əskikənd Dərələyəz mahalının Yeğeqnadzor (Keşişkənd) rayonunda azərbaycanlı kəndidir.[3] Əskikənd Şərur-Dərələyəz qəzasının şimal-qərb hissəsində, Arpa çayının şərq sahilində, avtomobil yolunun sol tərəfində yerləşmişdir.

Tarixi və statistik mənbələrin verdiyi məlumata görə bu kənddə 1873-cü ildə 10 tüstü, 20-ci əsrin əvvəllərində 17 tüstü azərbaycanlı evi olmuşdur. Əskikənd Qafqazın 5 verstlik xəritəsində göstərilmişdir.[4]

Məlum olduğu kimi, Şərur ilə Dərələyəz tarix boyu bir qəzada olmuşlar. Şəraitin tələbinə görə bu iki mahalın əhalisi qışda Şərurda, yayda isə Dərələyəzdə həyat sürmüşlər. Mal-qoyunu yayda Dərələyəzə, qışda isə Şərura aparıb saxlamışlar. Bunların bütün tarix boyu xeyir-şərləri bir yerdə olmuşdur. Hal-hazırda Şərurda olan əhalinin böyük bir hissəsi, xüsusən dəmiryolunun üstündə (şərq hissəsində) məskunlaşmışdır. Bu məskunlaşma prosesi, əsasən, 1828-1897, 1905-1907, 1918-1922, 1930-1937, 1941-1945, 1948-1953, 1987-1988-ci illərə təsadüf edir.

Belə bir faktı oxucuların və gələcək nəsillərin nəzər-diqqətinə çatdırmaq istəyirəm ki, Şərur rayonunda da (Mahmudkəndin yaxınlığında) Əskikənd adında kənd vardır. Əvvəllər bir neçə ailənin, qohum-qardaşın məskunlaşdığı bu kənd indi Mahmudkəndlə tamamilə birləşmişdir. Mən 1947-1948-ci tədris ilində Mahmud kəndində qalıb Cəlilkənddə (Başnoraşendə) X sinifdə oxuyurdum. Mən qaldığım ev həmin Əskikəndin çox yaxınlığında yerləşirdi. O kəndin uşaqlarından da mənimlə oxuyanlar var idi. Uzun müddət enerji naziri işləyən Müslüm İmanovun böyük qardaşı İsa İmanovla mən bir sinifdə oxuyurdum. Onlara tez-tez gedirdim. Riyaziyyat fənnini birlikdə hazırlayırdıq. Bu

---

1. B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 98, səh.257.
2. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, səh.360.
3. Mirzəyev H. Əskikənd, Daşaltı kəndləri, Filologiya məsələlərinə dair tematik toplu, № 6 (18), Bakı, 2001, s.59-60.
4. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, s.360.

kənddə olan yaşlı kişilər deyirdilər ki, biz bu kəndə sonradan gəlmişik, ona görə də yaşadığımız bu balaca kəndə qədim kəndimizin adını vermitşik.

Mənim fikrimcə, Şərurdakı və Dərələyəzdəki əskikəndlilər bir kənddən və ya bir soydandırlar. Əskikənd toponiminin mənşəyinə gəldikdə deməliyik ki, "əski" sözü qədim mənasındadır. Deməli, bu "Qədim kənd" anlamını ifadə edir ki, bu da Azərbaycan xalqına aid toponimdir.

## ƏYƏR

Əyər Dərələyəz mahalının Yeğeqnadzor (Keşişkənd//Keşkənd) rayonunda azərbaycanlılara məxsus kəndin adıdır. Bu kənddə 1929-cu ildən sonra azərbaycanlılar qarışıq şəkildə yaşamış, sonra isə ermənilər azərbaycanlıları buradan tamamilə çıxarmışlar. Belə ki, 1828-ci ildə Rusiya və İran arasında bağlanmış Türkmənçay müqaviləsinə uyğun olaraq İranda olan ermənilərin Keşkənd ərazisinə köçürülməsi prosesi başlanmışdı. İranın Xoy və Salmas qəzalarından 1829-cu ildə köçürülmüş 500 erməni ailəsindən bir qismi Əyər kəndində yerləşdirilmiş və beləliklə də bu kənddə erməni əhalisinin sayı çoxalmış və bundan sonra kəndin əhalisinin əksəriyyətini ermənilər təşkil etmişdir. Statistik və tarixi mənbələrdən məlum olur ki, Əyər kəndində 1831-ci ildə 186 nəfər erməni, 30 nəfər azərbaycanlı, 1897-ci ildə 323 nəfər erməni, 23 nəfər azərbaycanlı yaşamışdır.[1]

19 fevral 1833-cü ildə Naxçıvan xanlığı haqda yazılmış məlumatda göstərilir ki, Əyər kəndində olan ermənilərin hamısı gəlmə ermənilərdir.[2]

Sonrakı dövrlərdə azərbaycanlıların Ermənistandan zorla köçürülməsi prosesində Əyər kəndinin azərbaycanlı əhalisi də doğma kəndindən qovulmuş və bura sırf erməni kəndinə çevrilmişdir. Bu kəndin adı 1946-cı ildə dəyişdirilərək Ağavnadzor adlandırılmışdır.

Qeyd etmək lazımdır ki, "İrəvan əyalətinin icmal dəftəri"ndə Əyər kəndinin adı Aqu formasında da verilmiş və 1590-cı və 1727-ci illərdə bu kəndin gəlirinin 3.741 ağça olduğu göstərilmişdir.[3]

Əyərdə ermənilər çoxaldıqdan sonra orda yaşayan azərbaycanlıların hərəsi bir yana dağılmışdır. Bu kəndin sakini olmuş və Dağdələnli adı ilə tanınmış tayfa Əyərdən köçəndən sonra gəlib əvvəlcə Kaha və Bülbülölən kəndlərində,

---

1. Статистическое описание Нахичеванской провинции СПб, 1833, стр.168; И.Шопен. Исторические памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр.615; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1011; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh.90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh.358, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh.244.

2. Bax: Статистическое описание Нахичеванской провинции. Санкт-Петербург, 1833, стр.168.

3. Z.Bünyadov, H.Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1995, s.57; Z.Bünyadov, H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, s.34.

ondan sonra Horsda və nəhayət, axırda Qovuşuq və Qalaser kəndlərində məskunlaşmışlar. Qovuşuqda məskunlaşan bu tayfalar ucaboylu, iricüssəli adamlar olmuş, bunlar, əsasən, ovçuluqla məşğul olmuşlar. Dağdələnlilərdən olan təktək ailələr isə Əyərdən köçəndə Qurdqulaq kəndində də məskunlaşmışlar.

Əyər kəndi Dədəli kəndlərinin və Dədəli körpüsünün yaxınlığındadır. Vaxtilə İpək yolu karvanı da bu kəndin yaxınlığından keçirmiş, hətta Əyər kəndi ilə bağlı bayatı da var:

Əzizinəm Əyərdən,
Bu yol gedər Əyərdən.

Əyər sözünün mənşəyinə gəldikdə demək lazımdır ki, “Qədim türk dilinin lüğəti“ndə göstərilir ki, Əyər sözünün bir mənası da yayda heyvanların saxlandığı yer deməkdir.[1]

Bu söz, bu məna Kəlbəcər rayonundakı Əyəryurd oronimində özünü qoruyub saxlamışdır.[2] Rusca mənbələrdə isə bu söz "Aqyarı" formasında göstərilir və qeyd edilir ki, bu kənd Arpaçayın üstündə yerləşmişdir.[3] Bəzi mənbələrdə isə Əyər[4] və Əyar[5] formalarında yaşayış məntəqəsi kimi öz əksini tapmışdır.

Erməni salnaməçisi Z.Kanakertsi "Xronika"sında 2 dəfə Aqaryan, Aqaran tayfasının adını çəkir. Birinci dəfə 1638-ci ildə Qızılbaşlarla Osmanlıların savaşında, ikinci dəfə isə 1682-ci ildə bu tayfanın adını çəkmişdir.[6]

Krımda da Əyər adlı kənd olmuşdur. Qərbi Azərbaycan ərazisində Aqaran adında bir neçə kənd və dağ adı vardır. Qeyd edilməlidir ki, Borçalıda Əgərək, Ərzurumda Əkərək, Əkəran, Dağıstanda Əkərli adlı kəndlər olmuşdur. "Kitabi-Dədə Qorqud"un onomastikasında da Əkərək antroponimi işlənmişdir.

Erməni mənbələrində belə bir toponimin işlənməsi I əsrə aid edilir. Belə ki, erməni salnaməçisi Z.Kərəkirli öz salnaməsində aqar tayfa adının olduğunu göstərir.

Ümumiyyətlə, demək lazımdır ki, mənbələrdə göstərilən Əyər//Əyar// Aqar eyni kökün müxtəlif variantlarıdır və türk mənşəli sözdür.[7]

---------------------

1. Древнетюркский словарь. М., 1969, с.304.
2. Bax: Г.Гейбуллаев. К этногенезу азербайджанцев. Баку, Элм, 1991, с.471.
3. Bax: Статистическое описание Нахичеванской провинции. СПб.; 1833, с.169.
4. Bax: Ə.Ələkbərli. Qədim türk-oğuz yurdu – "Ermənistan", "Sabah", Bakı, 1994, s.134.
5. Bax: "Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası". "Gənclik", Bakı, 1995, s.358.
6. Bax: A.Bayramov. Qədim Oğuz ellərinin – Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin yer-yurd adları (toponimləri), Sumqayıt, 1996, s.58.
7. Mirzəyev H. Əyər və Azader//Azadyer kəndləri, Filologiya məsələlərinə dair tematik toplu, № 6 (18), Bakı, 2001, s.3-6.

# ƏYRİCƏ

Əyricə yaylağı türk tayfalarından birinin adını daşıyır. Bu yaylaq Dərələyəz və Göyçə mahallarının arasında, sərhədində, Dədə Qorqudun tarixən gəzdiyi, məskən saldığı ərazidə yerləşir.[1]

Yay fəsli bu yaylaqda, əsasən Şərur eli və Dərələyəz camaatının bir hissəsi (bu yaylağa yaxın olan kəndlərin əhalisi) yaylayırdı. Göyçə mahalından bu yaylağa yaxın olan kəndlərin adamları da bəzən bura istirahətə gələrdilər.

Məşhur tarixçimiz Ziya Bünyadov qədim İrəvan əyalətindəki yaylaqlardan məlumat verərkən Əyricənin də adını çəkir və göstərir ki, bura Əyricə gədiyi və qoçu yaylaqları adlanmışdır.[2] Fikrimizcə, ya müəllif, ya da 1590-cı illərdə yer adlarını qələmə alan şəxs diqqətsizlik edərək gədiklə yaylağı eyniləşdirmişdir.

Mən Şərur, Dərələyəz və Göyçə mahallarının cığırına-izinə, gədiyinə-düzünə, torpağına-daşına dərindən bələd olduğum üçün qəti şəkildə deyə bilərəm ki, Əyricə yaylağı ilə Əyricə gədiyi eyni yer adı deyildir.

Qeyd etmək lazımdır ki, Əyricə yaylağının əsas yolu Dərələyəzin bəzi kəndlərinin içindən keçir və bu kəndlər qurtardıqdan sonra böyük bir gədik, aşırım (pereval) başlayır. Bu aşırım Ağsuyun və Dilicanın aşırımlarından da ucadır. Şəruru, Dərələyəzi, Vedini Göycə ilə birləşdirən əsas şose yol bu gədikdən, bu aşırımdan keçir. Bu aşırım, bu gədik hal-hazırda kitablarda, xəritələrdə Selimin gədiyi adlanır. Fikrimizcə, bu aşırımın adı qədimdə Əyricə olmuş, Selimin (Səlimin) gədiyi adı isə ona sonradan verilmişdir.

Bu aşırımdakı yolun məsafəsi çox olduğu və bu gədik böyük strateji əhəmiyyət kəsb etdiyi üçün yolda böyük bir karvansaray tikilmişdir. Bəzi tədqiqatçılar bunun Elxani dövləti, bəziləri isə şah Abbas tərəfindən tikildiyini göstərirlər. Lakin xalq arasında bu "Şah Abbas karvansarası“ adı ilə məşhurdur.

Bu daş karvansarayı tikdirənlər onun divarlarında, xüsusən əsas qapısının üstündəki böyük daşda ərəb əlifbası ilə çoxlu sözlər, məlumatlar yazmışlar. Lakin ermənilər son dövrlərdə bu tarixi abidədəki yazıları ərəb əlifbasına oxşayan, lakin oxunmayan başqa bir yazı ilə, cızmaqara ilə əvəz etmiş, tarixi saxtalaşdıraraq onu özləri üçün sərfəli olan hala salmış və bununla da türk-oğuz yurdunda olan bu tarixi abidəmizin izini itirməyə çalışmışlar. Atalar yaxşı deyib: "Yalan ayaq tutar, amma yeriməz", "Həqiqət incələr, amma üzülməz". Dərələyəzin Qabaxlı kənd sakini, ovçu Qəhrəmanın oğlu Kamil Məmmədov çox çətinliklə də olsa bu abidənin qədim fotosurətini arxivlərdən tapıb üzə çıxara bildi. Dünya şöhrətli alim, Azərbaycan Elmlər Akademiyasının akademiki Məşədi xanım öz arxivində saxladığı sənədlərlə əsl həqi-

--------------------

1. Mirzəyev H. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz (monoqrafiya), Bakı, 1997, səh. 199-202; Mirzəyev H. Əyricə və Şorça oykonimləri, Dil məsələlərinə dair tematik toplu, № 2, Bakı, 1997, s. 111-114.

2. Bax: Ziya Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, səh.162.

qəti üzə çıxartdı. Bu fotosurətdə karvansarayın lap qədim forması və yazıları olduğu kimi qalmaqdadır. Hal-hazırda Əyricə yaylağı erməni qəsbkarlarının əlindədir və Şərur, Dərələyəz, Göyçə camaatı bu yerlərə həsrət qalmışdır.

Tarixi faktlardan aydın olur ki, türk tayfaları tarixən məskun olduqları yerlərə – kənd, qəsəbə, dağ, yurd, göl, dəniz, çay, səhra və sairəyə öz tayfalarının adlarını verərmişlər. Ola bilsin ki, Əyricə yaylağının adı da bu yolla əmələ gəlmişdir. Əyricə sözünün toponim kimi formalaşmasında başqa yol da ola bilər. Belə ki, toponimlərin bir qisminə həmin yerin coğrafi relyefinə görə də ad verilir. Gələcək tədqiqatçılar Azərbaycan xalqının tarixini, məskun olduğu yerlərin coğrafi relyefini bir daha nəzərdən keçirməli və Əyricə toponimində bunlardan hansının əsas olduğunu, az və ya çox rol oynadığını dəqiqləşdirməlidir.

Əyricə sözü yalnız bu yaylağın adı ilə məhdudlaşmır. Əyricə sözünün arealı çox böyükdür. Hal-hazırda Azərbaycan Respublikasının Bərdə rayonunda Əyricə adında iki kənd vardır. Bunların birinə Yeni Əyricə, digərinə isə Köhnə Əyricə deyilir.[1]

Tarixçi Ziya Bünyadov və Hüsaməddin Məmmədov "İrəvan əyalətinin icmal dəftəri" adlı kitabda göstərirlər ki, 1590-cı illərdə həm "Məzrə" (indiki Basarkeçər və Krasnoselo rayonları), həm də "Sürməli" nahiyəsində Əyricə adlı kəndlər olmuşdur. Kitabda yazılır ki, o zaman Məzrə nahiyəsindəki "Əyricə" kəndinin 4.858 ağça, Sürməli nahiyəsindəki "Əyricə" kəndinin isə 2.000 ağça gəliri olmuşdur.[2]

Bundan başqa Göyçədə Qaranlıq (Martuni) rayonunda da iki Əyricə kəndi olmuşdur. Birinin sonrakı adı Qızıl Xaraba, o birisininki isə Karvansara adlandırılmışdır. Bu kəndlərin də hər ikisi azərbaycanlı kəndi olmuş və burada ta qədim dövrlərdən 1918-ci ilə qədər (erməni-müsəlman davasına qədər) həmişə azərbaycanlılar yaşamışdır. 1918-ci ildə ermənilər azərbaycanlıları burada qırmış, kənddən qovmuş və onların yerinə Türkiyədən gələn erməniləri yerləşdirmişlər.[3]

Yuxarıdakı faktlar göstərir ki, qədim oğuz torpaqlarında Əyricə adı yalnız yaylaq adına yox, həm də bir-birindən çox-çox uzaq məsafədə olan kəndlərə də verilmişdir.

## GABUT

Gabut Dərələyəzin Əzizbəyov rayonunda azərbaycanlı kəndidir. Kənd rayon mərkəzindən 16 km cənub-şərqdə, dəniz səviyyəsindən 1502 m yüksəklikdə yerləşmişdir.[4]

--------------------

1. Bax: Azərbaycan SSRİ inzibati – ərazi bölgüsü, Bakı, 1968, səh.29, 162.
2. Bax: Ziya Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, səh.62.
3. Bax: Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, səh.302-303.
4. Mirzəyev H. Gabut kəndi və onun ərazisində olan onomastik vahidlər, Filologiya məsələlərinə dair tematik toplu, № 5 (17), Bakı, 2001, s.121-127.



Qədimlərdən azərbaycanlılar yaşamış bu kənddə X-XV əsrlərə aid çoxlu tarixi abidələrin qalıqları vardır.

Tarixi və statistik mənbələrin verdiyi məlumata əsasən, Kabut kəndində 1831-ci ildə 35 nəfər, 1873-cü ildə 116 nəfər, 1886-cı ildə 113 nəfər, 1897-ci ildə 159 nəfər, 1904-cü ildə 140 nəfər, 1914-cü ildə 154 nəfər, 1916-cı ildə 107 nəfər azərbaycanlı yaşamışdır.[1]

1918-ci ildə erməni daşnakları kəndi dağıtmış, əhalini qırmış, sağ qalanlar isə kənddən qaçmağa məcbur olmuşlar. 1922-ci ildə 33 nəfər, 1931-ci ildə 181 nəfər öz doğma kəndinə qayıdaraq dağılmış təsərrüfatlarını bərpa etmiş, 1930-cu ildə kolxoz qurmuş, 1950-ci ildə isə onun əsasında qoyunçuluq sovxozu təşkil etmişlər. Kənddə səkkizillik məktəb, klub, kitabxana və tibb məntəqəsi var idi.

1988-ci ildə 76 evdən, 468 nəfərdən ibarət olan kəndin bütün əhalisini bir həftə ərzində erməni millətçiləri qovub kənddən çıxartdılar. Onlar Azərbaycanın müxtəlif yerlərində – əsasən Xocalı, Şuşa, Malıbəyli, Bakı, İsmayıllı və Xaçmazda məskunlaşdı. Qarabağda məskunlaşanlar isə təkrarən qaçqın düşdülər. Onu da qeyd edim ki, təkrar qaçqın düşənlər qaçqınlar üçün tikilmiş yeni kənd və qəsəbələrdə məskunlaşmışlar.

Kabut kəndindən xeyli tanınmış adamlar – ziyalılar, alimlər yetişmişdir. Bunlar ayrı-ayrı bölmələrdə veriləcəklir.

Kəndin adı türk dillərində və Azərbaycanın bəzi dialektlərində işlənən gab//kab sözü və -ut şəkilçisindən ibarətdir. Kab sözü "qayalıqdan keçən yol", daşlıq keçid mənasını ifadə edir.[2]

Deməli, Gabut toponimi həmin yerin relyefinə görə əmələ gəlmişdir və bu, xalis Azərbaycan mənşəli kənd adıdır.

--------------------

1. Статистическое описание Нахичеванской провинции, СПБ., 1833, стр. 172; И.Шопен. Исторические памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи, СПБ., 1852, стр. 619; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893. №1003; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, №1047; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 344. H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 246.

2. İ.Bayramov. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı, 2000.

## GABUT KƏNDİNİN ƏRAZİSİNDƏ OLAN ONOMASTİK VAHİDLƏR

**Tayfa, sülalə və nəsil adları**

1. Ruşanlılar
2. Fətəlilər
3. Məmmədlilər
4. Əhmədlilər
5. Hüseynlilər

**Sahə, örüş, kövşən adları**

1. Quzey
2. Qaya arası
3. Arxaclar
4. Kələklər
5. Göllər
6. Mistapılan
7. Matəm ağacı

**Dərə adları**

1. Axt dərəsi
2. Quzey dərəsi
3. Zağlıq dərəsi
4. Arpaçay dərəsi

**Qala və səngər adları**

1. Səfərbəy səngəri

**Dağ, yal, yurd, çəmənlik və biçənək adları**

1. Keçəl dağ
2. Sandıqlı
3. Susuz yurd
4. Qanlıgöl yurdu
5. Döşyurd
6. Abbas yurdu
7. Buzov qırılan
8. Alçalıq
9. Dərə başı
10. Dirəkli
11. Kirişli

**Meşə adları**

1. Cul meşəsi

**Çay, göl və bulaq adları**

1. Arpa çayı

2. Böyük çay
3. Kiçik çay
4. Südlü bulaq
5. Daş bulaq
6. Boğaz bulaq
7. Mistapılan bulaq
8. Göllər bulağı
9. Dayça boynu sınan bulaq
10. Qaya bulağı

**Qaya adları**

1. Qırmızı qaya

## 1941-1945-ci il Böyük Vətən müharibəsində iştirak edənlər

**a) qayıtmayanlar**

1. Nəbiyev Firidun Abbas oğlu
2. Ağalarov Əziz Məmmədrza oğlu
3. Abbasov Əli Bəşir oğlu
4. Edilxanov Ağaverdi Musa oğlu
5. Ələmşayev Novruz Hüseyn oğlu
6. Ələsgərov Qurban Hüseyn oğlu
7. Vəliyev İmran Fərman oğlu
8. İsayev İdris Xalıqverdi oğlu
9. Xıdırov Əmiraslan Məmmədhəsən oğlu
10. Eyvazov İmran Ağamalı oğlu
11. Eyvazov Ələkbər Ağamalı oğlu
12. Şahbəndiyev Alışan Həsən oğlu
13. Şahquliyev Sevindik Xudu oğlu
14. Cəfərov Fanar Məhərrəm oğlu
15. Nəcəfov Nəcəf Abbas oğlu
16. Novruzov Fərrux Cavad oğlu
17. Novruzov Mönsüm Cabbar oğlu
18. Hüseynov Cümşüd Qasım oğlu
19. Rəhimov Rəhim Kərim oğlu
20. Səfiquliyev İsa Hüseynqulu oğlu
21. Fətəliyev Qurban Abbas oğlu

**b) qayıdanlar**

22. Alıyev Məhəddin Kazım oğlu
23. Alıyev Qurban Kazım oğlu
24. Fətəliyev Əhməd Şahqulu oğlu
25. Şahquliyev Mənsur Kərəm oğlu
26. Fətəliyev Kərəm Şahqulu oğlu
27. Məmmədov Balaş Məmməd oğlu

28. Məmmədov Müseyib Məmməd oğlu
29. Məmmədov Nəcəfqulu Məmməd oğlu
30. Həsənov İsaxan Mürşüd oğlu
31. Həsənov Qara Mürşüd oğlu
32. Fətəliyev Cəlal Xıdır oğlu
33. Novruzov Novruz Şükür oğlu
34. Abbasov Məhəmməd Abbas oğlu
35. Novruzov Alış Şükür oğlu
36. Vəliyev Fərman Vəli oğlu
37. Abbasov Əli Aslan oğlu
38. Tarverdiyev Ocaqverdi Camal oğlu
39. Tarverdiyev Tarverdi Camal oğlu
40. Tarverdiyev Adil Camal oğlu
41. Rəhimov Məcnun Oruc oğlu
42. Bayramov Əsgər Allahverdi oğlu
43. Bayramov Allahverən Ziyad oğlu
44. Babayev Babaxan Əsgər oğlu
45. Rəhimov Möhsün Abbas oğlu

**İnformator:** Onomastik vahidlər haqqında olan bu məlumatı Kabut kəndində doğulub boya-başa çatan, hal-hazırda İqtisad Universitetində dosent vəzifəsində çalışan, 65 yaşlı riyaziyyat elmləri namizədi, Bakı şəhərində yaşayan Kərimov Kərim vermişdir.

## GENDƏRƏ

Gendərə Dərələyəz mahalında kənd adıdır. Bu kənd "Her-her" çayının sahilində, Kotanlı kəndindən 3 km Şərq tərəfdə, Qaraqaya dağının ətəyində, düzənlik bir sahədə, dəniz səviyyəsindən 2048 metr hündürlükdə yerləşmişdir. 1930-cu illərdə bu kənd ləğv edilmişdır.[1]

Kəndin adı onun yerləşdiyi relyefi əks etdirir. Başqa sözlə, həmin yerin relyefinə görə əmələ gələn Azərbaycan toponimidir.[2]

Tarixi sənədlərdən məlum olur ki, bu kəndin 1873-cü ildə 152, 1886-cı ildə 217 nəfər, 1897-ci ildə 330 nəfər, 1904-cü ıldə 503 nəfər, 1914-cü ildə 553 nəfər, 1916-cı ildə 354 nəfər əhalisi olmuşdur.[3]

---

1. B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı,1998, səh.313.

2. Mirzəyev H. Gendərə kəndi haqqında, Filologiya məsələlərinə dair tematik toplu, № 5 (17), Bakı, 2001, s.141-142.

3. Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893. №1014; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 88; Ermənistan azərbaycanlıların tarixi coğrafiyası, Bakı, 1995, səh. 346. H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh.247.

1918-ci ildə kənd erməni daşnakları tərəfindən dağıdılmış, kənd əhalisinə divan tutulmuşdur. Ermənilər bir neçə evin qapısını bağlayaraq ailəlikcə hamısını evində odlamış, sağ qalanları isə zorla kənddən qovmuşlar. Kəndin xarabalıqları Əzizbəyov rayonundakı Kotanlı (Qarmraşen) kəndinin 4 km şimal-şərqindədir.

1921-1922-ci illərdə bu kənddən qovulan adamların bir hissəsi kəndə qayıtmış, lakin ermənilər bunları məskunlaşmağa qoymamışlar. 1928-ci ildə əhalinin az bir hissəsi burada yenidən məskunlaşmışdır. Lakin XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar olaraq kənd dağıdılmış və rəsmi surətdə ləğv edilmişdir.[1]

Bu kənd Yeğeqnadzor (Keşkənd) rayonundakı Qabaxlı kəndi ilə birləşdirilmişdir. Qeyd etmək lazımdır ki, tarixən bu kənddə çox varlı, adlı-sanlı adamlar olmuşdur. Gendərə əhalisi maldarlıq, əkinçilik, xalçaçılıq və arıçılıqla məşğul olmuşlar. Kəndin xarabalıqlarının qalıqları indi də qalmaqdadır. Qabaxlı kəndində məskunlaşmış Gendərə kəndinin əhalisi Qabaqlı kənd camaatı ilə birlikdə 1988-ci ildə yenidən zorla qovulmuşdur. Onların əksəriyyəti hal-hazırda Bakı, Sumqayıt şəhərlərində, Abşeron və Goranboy rayonlarında məskunlaşmışlar.

**Tayfa adları**

1. Səfərəli tayfası: (Səfər, Əsəd, Qəmbər)
2. Kəbla Hümmət tayfası: (Bəhman, Sevindik, Ənvər, Yamoş)
3. Gülmalılar tayfası: (Xanmalı, Gülmalı, Şahsuvar, İsa, Məhəmmədəli)
4. Məhəmmədlər tayfası: (Nəsir, Ələsgər)

## ONOMASTİK VAHİDLƏR

**Dağ, dərə, qaya və yurd adları**

1. Moz yurdu
2. Hacıağa yurdu
3. Vəli yurdu
4. Allahyar dərəsi
5. Kolluq dərə
6. Güney qəyə (qaya)
7. Yastı qəyə (qaya)

**Sahə, kövşən, yer adları**

1. Gözələr
2. Ayıbasan
3. Almalıq
4. Qəbiristanlıq yeri
5. Cəvillik
6. Mal pəyəsi

--------------------

1. B.Ə.Budaqov, Q.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998, səh. 313.

7. Güj (güc) daşı[1]
8. Qarama[2]

**Bulaq, çay, göl adları**
1. İsa bulağı
2. Gendərə çayı

Qeyd etməliyəm ki, Gendərə kəndinin ərazisi başqa kəndlərə verildiyi üçün burada ətraflı məlumat verməyə ehtiyac qalmadı.

**İnformator:** Qeyd etməliyəm ki, Gendərə kəndinin ərazisi başqa kəndlərə verildiyi üçün burada ətraflı məlumat verməyə ehtiyac qalmadı. Bu məlumatı isə Gendərə kəndindən olan yaşlı adamlar və Kotanlı kənd sakini 78 yaşlı Əli vermişdir.

## GƏNƏLİ

Gənəli kəndi Dərələyəzdə Yeğeqnadzor rayonunun Yelpin kəndinin şimal-şərqində yerləşir. Tarixən bu kənddə azərbaycanlıların yaşaması sənədlərdə də öz əksini tapmışdır. Belə ki, tarixi və statistik mənbələrdən aldığımız məlumata əsasən Gənəli kəndində 1873-cü ildə 96 nəfər, 1886-cı ildə 125 nəfər, 1897-ci ildə 151 nəfər, 1904-cü ildə 285 nəfər, 1914-cü ildə 285 nəfər, 1916-cı ildə 216 nəfər azərbaycanlı əhali yaşamışdır.[3]

Ermənilərin 1918-ci ildə törətdikləri milli qırğın dövründə kənd tamamilə dağıdılmış, əhalisi qırılmış, sağ qalanları isə qaçıb müxtəlif yerlərə getmişlər. Hal-hazırda bura ölü kəndə çevrilmişdir. Kəndin xarabalıqları hal-hazırda Yeğeqnadzor rayonunun Arpa (indiki Aveni) kəndindən 12 km şimal-şərqdə, Yelpin çayının sahilində qalmaqdadır.[4]

Gənəli kəndinin adına gəldikdə demək lazımdır ki, dədə-babalar kəndə onun coğrafi relyefinə görə bu adı vermişlər. Yaşlı adamların dediklərinə görə, bu kəndin örüşündə və kəndin ətrafında çoxlu gənə (böcək) olarmış. Elə o zamandan da bu kəndin adı Gənəli adlanmışdır. Ola bilsin ki, bu kənd əvvəllər başqa adla adlandırılmışdır. Belə bir mülahizə də yürütmək olar ki, bu kənd əvvəlcə mal-qoyun saxlamaq üçün binə rolunu oynamış, lakin sonradan kəndə çevrilmişdir. Burada yaşayanlar heç vaxt gənə olan yerdə kənd salmazdılar.

--------------------

1. Yolun qırağında böyük həcmdə olan bir daş. Gəlib-gedən qüvvəsini bu daşla sınayırmış.
2. Sovet hökuməti dövründə Ermənistan hökuməti burada neft quyusu qazmışdır. Quyudan çıxan neft buranı bulaşdırdığı üçün Qarama adlanır.
3. Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1039; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 92; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 361, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 245.
4. Mirzəyev H. Dərələyəzdəki Dərəkənd, Gənəli kəndləri, Filologiya məsələlərinə dair tematik toplu, № 6 (18), Bakı, 2001, s.102-103.

## GƏNZƏK

Gənzək İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adıdır. Xarabalıqları Əmağu kəndinin yaxınlığında qalmaqdadır. Bu kəndin xarabalığı və izi çətinliklə hiss olunur.[1]

1590-cı və 1727-ci ilin məlumatına görə, bu kəndin adı Kənzək//Kisən olmuş və 2.412 ağça gəliri olmuşdur.[2]

Əfqanıstanın ərazisinin Girişk rayonunda Gəncək coğrafi adına da təsadüf edirik. Qeyd etmək lazımdır ki, M.Kaşğarinin "Divani-lüğət-it türk" əsərində göstərilir ki, Gənzək türk qəbilələrindən birinin adı olmuşdur. Talas yaxınlığında yerləşən bir şəhərin adı da Kencək olmuşdur.

Məlum olduğu kimi, qıpçaq qrupu dillərində, əsasən, oğuz qrupu dillərində bir çox hallarda söz sonundakı -k, -q səsləri düşür və söz əvvəlində kar samitlərin cingiltiləşmə meyli güclənir. Bu hal ən çox Azərbaycan dili üçün səciyyəvidir. Deməli, Gənzək sözü tarixən kencək sözü ilə də bağlı ola bilər.[3]

Məlum olduğu kimi, Azərbaycan ərazisində Gəncə toponiminin areal variantları da mövcuddur. Belə ki, Xanlar rayonundakı Gəncə, İsmayıllı rayonundakı Gəncə, Salyan və Xaçmaz rayonlarındakı Gəncəli, Ordubad rayonundakı Gənzə, Sabirabad rayonundakı Muğan Gəncəli adlarında belə variantlılığı görmək mümkündür.

Müxtəlif dillərdə bu adın müəyyən fonetik dəyişikliyə uğraması da müşahidə olunur. Amur vilayətindəki Qonaşa, Dağıstandakı Xundax, Gürcüstandakı Qandzani, Tacikistandakı Qançi, Ermənistandakı Xanasax adları demək olar ki, bu qəbildəndir. Bizə elə gəlir ki, bu adların hamısı Azərbaycan ərazisindəki Gəncə ilə bağlı toponimlərdir. Bunlar müxtəlif areallarda fonetik cəhətdən dəyişmişdir.[4]

Gəncə toponimini M.Kaşğari Kencək şəklində qədim türk tayfalarından birinin adı kimi qəbul edir. Bizcə, Gəncə şəhərinin adı da həmin Kencək və ya Gənzək tayfasının adından nəşət etmişdir.[5]

Mənşəcə Orta Asiya sakları ilə bağlı olaraq qazaxlarda, qırğızlarda, özbəklərdə və türkmənlərdə Gəncə, Qəncə adlı tayfalar və onların adları ilə bağlı çoxlu Gəncə adlı yaşayış məntəqələri də vardır. Orta Asiyada Gəncək şəhəri X əsrdən məlumdur.[6]

XIX əsr rus mənbələrində Gəncə sözü Kyanzak formasında qeydə alınmışdır.[7]

-------------------

1. Bax: Статистическое описание Нахчиванской провинции, СПБ, 1833, с.174; Ермәнистан азәрбајҹанлыларынын тарихи ҹоғрафијасы, Бакы, 1995, сәщ. 361.
2. Z.Bünyadov, H.Məmmədov. İrəvan əyalətinin icmal dəftəri, Bakı, 1996, s. 59; Z.Bünyadov, H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri, Bakı, 1997, s. 266.
3. Roza Eyvazova. Əfqanıstanda türk mənşəli toponimlər. Elm, Bakı, 1995, s. 133.
4. Bax: Roza Eyvazova. Əfqanıstanda türk mənşəli toponimlər. Bakı, 1995, s. 134.
5. Bax: B.Ə.Budaqov. Türk uluslarının yer yaddaşı. Bakı, 1994, s. 252.
6. Bax: Q.Qeybullayev. Azərbaycan türklərinin təşəkkülü tarixindən, Bakı, 1994, s. 159.
7. Статистическое описание Нахичеванской провинции. Санкт-Петербург, 19 феврал, 1833, с. 175.

"...İndi Ermənistan ərazisində Gənzək kənd adı ya hələ er. əv. VII əsrdə gəlmiş saklarla, ya da XII əsrdə oğuzlarla gəlmiş Gəncək tayfasının adı ilə bağlıdır".[1]

Gənzək kəndinin tarixən də azərbaycanlılara məxsus olduğu 1727-ci ilə aid aşağıdakı faktdan da aydın olur:

**"DƏRƏLƏYƏZ NAHİYƏSİNƏ TABE OLAN GƏNZƏK KƏNDİ**

Əsgər Əli oğlu - bennak; Əsgərin oğlu Gənciməli - bennak; Qasıməli Əvşanəli (?) oğlu - bennak; Çaqmazəli (?) Babaəli oğlu - bennak; Bədəlxan Ağanəzər oğlu - bennak;

Çift - 4
Bennak - 5
Gəlir:
Çift vergisi - 200 (ağça)
Bennak vergisi - 90 (ağça)
Buğda - 6 kile - dəyəri 180 (ağça)
Arpa - 8 kile - dəyəri 160 (ağça)
Düyü - 2 kile - dəyəri 30 (ağça)
Sumax - 1 kile - dəyəri 15 (ağça)
Kərdiyər - 4 kile - dəyəri 84 (ağça)
Pərinc - 3 kile - dəyəri 63 (ağça)
Mərcimək - 2 kile - dəyəri 36 (ağça)
Kərəsnə - 1 kile - dəyəri 15 (ağça)
Kəlül - 3 kile - dəyəri 54 (ağça)
Meyvə üşrü - 190 (ağça)
Dönüm vergisi - 200 (ağça)
Dəştibani vergisi və əkin yeri üçün tapu - 390 (ağça)
Bakirə qız və dul qadın üçün gəlir vergisi - 90 (ağça)
Badi-hava - 1.000 (ağça)
Yekun - 2.412 (ağça)"[2]

## GİNDİVAZ

Gindivaz Dərələvəzin Əzizbəyov (Paşalı) rayonunda kənd adıdır. Bu kənd Arpa çayının sol sahilində Yerevan-İstisu (Cermuk) avtomobil yolunun sağ sahilində, rayon mərkəzindən 15 km şimal-şərqdə yerləşmişdir. Tarixən burada azərbaycanlılar yaşasa da, XIX əsrdən başlayaraq köçürülən erməni ailələri bu kənddə məskunlaşmışlar. Beləliklə də, Gindivaz qarışıq kəndə çevrilmişdir.

Tarixi və statistik mənbələrdən aldığımız məlumata əsasən, Gindivaz kən-

------------------

1. B.Budaqov, Q.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı, 1998, səh. 315.

2. Bax: Ziya Bünyadov və Hüsaməddin Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri, Bakı, 1997, səh. 266-267.

dində 1873-cü ildə 98 nəfər, 1886-cı ildə 127 nəfər, 1897-ci ildə 163 nəfər azərbaycanlı olmuşdur.[1]

1590 və 1727-ci illərə aid tarixi mənbələrdə göstərilir ki, bu illərdə Gindivaz kəndinin 2.458 ağça gəliri olmuşdur.[2]

1828-1832-ci illərdə bu kəndə külli miqdarda xaricdən gələn ermənilər yerləşdirilmiş və bundan sonra əhali qarışıq şəkildə yaşamışdır.[3]

1918-ci ildə azərbaycanlıların kütləvi surətdə qırılması və qovulması prosesində Gindivaz kəndində azərbaycanlı evləri dağıdılmış, əhalisinin əksəriyyəti qırılmış, sağ qalanlar isə qovulmuşlar. 1926-cı ildə burada 49 nəfər, 1931-ci ilə isə 54 nəfər azərbaycanlı yaşasa da, sonrakı deportasiyalar nəticəsində bunlar da qovulmuşdur.



Gindivaz toponiminin formalaşmasına gəldikdə demək lazımdır ki, bu söz iki hissədən ibarətdir. Toponimin birinci tərəfi fars dilindən alınmış "kund" (təpə, dağ) və qədim türk dillərində "sıldırım, uçurum" mənalarını ifadə edən "baz" sözünün birləşməsindən əmələ gəlmişdir. Bu toponim formalaşarkən iki sözün arasına "i" saiti artırılmış və "b" səsi "v" səsinə çevrilmişdir. "b" və "v" dəyişməsi Azərbaycan dilinin fonetik qanunlarına uyğundur və "v" səsi "b"ya nisbətən yumşaq tələffüz olunur.

Mən bu kəndi yaxşı tanıyıram. Bu kənd Arpa çayının bir qolunun üstündə sıldırım bir dağın (qayalığın) üstündə, təpənin başında yerləşir. Bu səbəbdən kəndin adı onun coğrafi relyefinə görə verilmişdir.[4]

Bəzi mənbələrdə Gindivazda olan abidənin (Səfiyyə abidəsinin) 936-cı ildə inşa edildiyi göstərilir. Qeyd etməliyəm ki, "məbədin daxili yonulmuş daşlardan tikilmiş, ortadan giriş qapısı, qapının üst hissəsində pəncərə qoyulmuş və üstü gümbəz formasında tamamlanmışdır."[5]

--------------------

1. Статистическое описание Нахичеванской провинции, СПб, 1833, стр.176. Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №986; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 88; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 342, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 246.

2. Ziya Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, s.60; Ziya Bünyadov və Hüsaməddin Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, s.36.

3. B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998, səh.208.

4. Mirzəyev H. Gindivaz, Əynəzur kəndləri, Filologiya məsələlərinə dair tematik toplu, № 6 (18), Bakı, 2001, s.80-81.

5. Kamil Dərələyəzli. "Dərələyəz od içində". Bakı, 2001, səh.115.

## GOMUR

Gomur kəndi Dərələyəz mahalının Əzizbəyov rayonunda yerləşir. Şərq tərəfdən Zəngəzur mahalı, cənub tərəfdən Naxçıvan MR Şahbuz rayonu, qərb tərəfdən Paşalı, Mərdürsüst kəndləri, şimal tərəfdən isə Axta və Kabud kəndləri ilə həmsərhəddir.[1]

Kənddə qədim dövrlərə, türk xalqlarının X-XII əsrlərə aid tarixi abidələrinin qalıqları vardır.

Yazı yurdunun ətəyində, səfalı bir guşədə yerləşən Gomur kəndi, Axta və Kabud kəndləri bir sovetliyə baxır və bir sovxozdan ibarət idi. Sovxozun və sovetliyin mərkəzi idarəsi Gomur kəndində yerləşmişdi. Sovxozun iqtisadiyyatını heyvandarlıq və meyvəçilik təşkil edirdi.

Gomur kəndində orta məktəb, kitabxana, tibb məntəqəsi, mədəniyyət evi, klub, hamam, univermaq, yeməkxana fəaliyyət göstərirdi. Orta məktəbin direktoru SSRİ maarif əlaçısı Şahhüseynov Allahqulu Xalıqverdi oğlu olmuşdur. Kəndin əhalisi sırf azərbaycanlılardan ibarət olub, əsrlər boyu bu kənddə yaşayıb yaratmışlar.

Tarixi mənbələrdən, statistik məlumatlardan məlum olur ki, 1831-ci ildə bu kənddə 27, 1873-cü ildə 285 nəfər, 1886-cı ildə 293 nəfər, 1897-ci ildə 353 nəfər, 1904-cü ildə 365 nəfər, 1914-cü ildə 400 nəfər, 1916-cı ildə 388 nəfər azərbaycanlı yaşamışdır. Erməni-müsəlman davasından sonra Orta Axta, Axtacuq, Yuxarı Axta kəndlərinin əhalisi də bu kəndə yığılmış və qaçqınlıqdan qayıdan cəmi 155 nəfər adam burada məskunlaşmışdır. 1931-ci ildə azərbaycanlıların sayı 316 nəfərə çatmışdır. Bundan sonrakı dövrlərdə əhalinin sayı xeyli çoxalmış, 1948-1953-cü illərin deportasiya dövründə kənd 170 təsərrüfatdan ibarət olmuş və burada 600 nəfərdən çox azərbaycanlı yaşamışdır.[2]

1980-cı illərin axırında kənd əhalisinin sayı 1000 nəfəri keçmişdi. Lakin 1988-ci ilin axırlarında erməni millətçiləri bu kənd əhalisini də zorla qovub kənddən çıxarmışlar. Kənd əhalisi var-dövlətini, mal-mülkünü, dədə-baba yurdunu qoyub qaçmağa məcbur olmuş və Azərbaycanın müxtəlif regionlarında məskunlaşmışlar.

Gomur adı XIX əsr rus mənbələrində Qemur, Kemurlu formalarında öz əksini tapmışdır.[3] Gomur//Gömür//Gümür komponentli toponimlərin əksəriy-

---

1. Mirzəyev H. Gomur kəndi və onun ərazisində olan onomastik vahidlər, Filologiya məsələlərinə dair tematik toplu, № 3-4, Bakı, 2001, s.192-201.

2. Ermənistan azərbaycanlıların tarixi coğrafiyası, Bakı, 1995, səh. 346; Статистическое описание Нахичеванской провинции, СПБ., 1833, стр. 170; И.Шопен. Исторические памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи, СПБ., 1852, стр. 619; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893. №1002; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 88; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 346. H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 247.

3. Свод статистических данных о населении Закавказского края. Тифлис, 1893, № 1002, №1041.

yəti dağlıq əraziləri və ərazilərdə yerləşən bir çox obyektlərin adlarını bildirməyə xidmət edir. Məsələn, Gömür (Quba və Şahbuz rayonlarının dağlıq zonasında salınmış kənd adları), Gömürdağ (Quba, Laçın və Kəlbəcər rayonlarında dağ adları), Gömürgöy (Lerikdə zirvə adı) və s. Yazılı mənbələrə diqqət etdikdə məlum olur ki, həmin söz eyni fonetik variantda (Gomur formasında) bir sıra mənalarla yanaşı dağ başında dar, yarğanlı, uçurumlu yer mənasında da işlənmişdir.[1]

Gömür adında bulaq və çay da vardır (Şahbuzda şor sulu 7 bulaq), Gömür çayı (Qubada çay), Gömür çay (Naxçıvan çayının sol qolu).

"Komur" türk dilində "dar yarğanlı keçid" mənasındadır.[2]

“İrəvan əyalətinin icmal dəftəri“ndə Gomur toponimi “gömür“ formasında yazılmışdır.[3]

Gomur kəndinin adındakı kömür//kümür və gömür komponentli toponimlərin əksəriyyəti dağlıq əraziləri və ya bu ərazilərdə yerləşən bir sıra obyektlərin adını bildirməyə xidmət edir.[4]

Gömür sözü türk dillərində komurdağ, başında yarğan, uçurum yer mənasını bildirir.[5]

## GOMUR KƏNDİNDƏ OLAN ONOMASTİK VAHİDLƏR

**Tayfalar**

1. Qənbərli
2. Cəfərli
3. Səmədli
4. Hacılı
5. Məmmədxanlı
6. Hümbətli
7. Lazımlı
8. Həcəli
9. Şadmanlı
10. Nəcəfli

**Məhəllər**

1. Səngər məhəlləsi
2. Yuxarı məhəllə
3. Orta məhəllə
4. Aşağı məhəllə

---------------------

1. Ə.Ələkbərli. Qədim türk-oğuz yurdu "Ermənistan", Sabah, Bakı, 1994, s.154.
2. T.Əhmədov. Azərbaycan toponimikasının əsasları. Bakı, 1991, s. 266-267. Azərbaycan SSR inzibati-ərazi bölgüsü, Bakı, 1968, s. 178.
3. Z.Bünyadov və H.Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, səh.60.
4. В.В.Радлов. Опыт словаря тюркских наречий, II, часть, 2, с. 1321.
5. Z.Bünyadov və H.Məmmədov. İrəvan əyalətinin icmal dəftəri, Bakı, 1996, s.60

**Sahə, örüş, köyşən adları**

1. Seyid gölü
2. İsa yalı
3. Talalar
4. Orta göl
5. Aşağı göl
6. Arxaclar
7. Quzey
8. Ağalar dərəsi
9. Novruz qayası
10. Məmmədxan yalı
11. Top daşlar
12. Gəzdək
13. Ərik ağacı
14. Yarğanlar
15. Xam yer
16. Çirtmə
17. Qoralıq
18. Barmaqlar
19. Qarağaclar
20. Binələr
21. Ağ daş
22. Qalaçlar
23. Almalıq
24. Kəllə qaya
25. Nəcəf qayası
26. Novdar
27. Qamışlı dərə
28. İrəmələr
29. Tubulğalıq
30. Qaracalıq
31. Qırmızı qaya
32. Pərinc yeri
33. Məşədi qayası
34. Xıdırlı dərəsi

**Dərə adları**

1. Qamışlı dərə
2. Qarağac dərəsi
3. Ağdaş dərəsi
4. Meşə dərəsi
5. Yarğanın dərəsi
6. Novların dərəsi

7. Xıdırlı dərəsi
8. Allahverdi dərəsi
9. Çirtmə dərəsi
10. Qoralıq dərəsi
11. Arxaclar dərəsi
12. Quzey dərə
13. Ağalar dərəsi

**Arxac adları**
1. Noyunun arxacı
2. Seyid gölünün arxacı
3. Top daş arxacı
4. Çirişdi arxac
5. Gəzdik arxacı
6. Şahmirzə arxacı
7. Hasarlı arxac

**Qala, səngər və karvansara adları**
1. Lazım səngəri
2. İsayalı səngəri
3. Yuxarı səngər
4. Aşağı səngər
5. Arxacların səngəri

**Yol və cığır adları**
1. Dolayı yol
2. Səngərin yolu
3. Daşlı yol
4. Tələlər yolu
5. Dağ yolu
6. Zağlığın cığırı
7. Cul yolu
8. Gabud yolu

**Biçənəklər**
1. Allahverdi biçənəyi
2. Seyid gölü biçənəyi
3. Məhəmmədli biçənəyi
4. Xudu biçənəyi
5. İsgəndərin biçənəyi
6. Mikayılın biçənəyi
7. Sarının biçənəyi
8. Düzlərin biçənəyi

**Yurdlar**

1. Şahhüseyn yurdu
2. Hüseynalı yurdu
3. Şahmirzə yurdu
4. Sandıqlı yurd
5. Qaralar yurdu
6. Muxuru yurdu
7. Zağlıq yurdu
8. Matəm ağacı yurdu
9. Şavəndə yurdu
10. Hasarlı yurd
11. Alçalıq yurd
12. Qazağ ölən yurd
13. Yazı yurdu
14. Yal yurd
15. Qarraq yurdu
16. Hörcülü yurdu

**Meşələr**

1. Qamışlı meşə
2. Qarağac meşəsi
3. Qoralı meşə
4. Cəvizlik meşə
5. Armudlu meşə
6. Cul meşəsi
7. Mələyin meşəsi

**Çaylar**

1. Zağlığın çayı
2. Gomurun çayı

**Bulaqlar**

1. Meşə bulağı
2. Çırtma bulaq
3. Binələrin bulağı
4. Qamışlı bulaq
5. Noyunun bulağı
6. Nəcəf bulağı
7. Xıdırın bulağı
8. Əlabbas bulağı
9. Pəri bulağı
10. Armudlu bulaq
11. Əlləzin bulağı
12. Əlverdi bulağı

13. Biçənək bulağı
14. Novlu bulaq
15. Hacının bulağı
16. Cip-cip bulaq
17. Fətullah bulağı
18. Xudatlar bulağı
19. Xudu bulağı
20. Qənbər bulağı
21. Yastı bulaq
22. Xanlar bulağı
23. İbrahim bulağı
24. Dib bulaq
25. Behbudun bulağı
26. Mikayıl bulağı
27. Ağaverdi bulağı
28. Seyidin bulağı
29. Məhəmmədli bulağı
30. Şükürün bulağı
31. Gəzdək bulağı
32. Xaş-xaş dərə bulağı
33. Qələndər bulağı
34. Doxdur bulağı
35. Təknəli bulaq
36. Daş bulaq
37. Sandıqlı bulaq
38. Xan bulağı
39. Məmmədqulu bulağı
40. Zağlıq bulaq
41. Dolayı bulaq
42. Allahverdi bulağı
43. Orta göl bulağı

**Göllər**

1. Seyidin gölü
2. Orta göl
3. Aşağı göl
4. Top daşın gölü

**Qəbiristanlıq adları**

1. Hümbətin qəbiristanlığı
2. Alban qəbiristanlığı

**Abidələr**

1. Alban vəngi

2. Alban kilsəsi
3. Alban daşları

**Yal, dağ adları**
1. Yetimin yalı
2. Məmmədxan yalı
3. Məhəmmədli yalı
4. İsa yalı

**Dağlar**
1. Hacı Eyvaz dağı
2. Allah aman dağı
3. Şah Mirzə dağı
4. Kirişli dağı

**Ocaqlar**
1. Çay ocağı
2. Qara seyidin ocağı
3. İsa yalının ocağı

## 1941-1945-ci illər Böyük Vətən müharibəsinə gedənlər

**a) qayıtmayanlar**
1. Xudayev İmran Şahhüseyn oğlu
2. Xudayev Bəhman Baba oğlu
3. İmamquliyev İmamverdi
4. İsayev İsa Əmirqulu oğlu
5. Allahverdiyev Behbud Xanlar oğlu
6. Rüstəmov Rüstəm Hüseynxan oğlu
7. Rüstəmov Zeynalabdin Ağa oğlu
8. Əsədov Ağaverdi Məhəmməd oğlu
9. Ələsgərov Sevindik Nəcəf oğlu
10. Ələsgərov Ələsgər Nəcəf oğlu
11. İsmayılov İsmayıl Rüstəm oğlu
12. Əsədov Əsəd Məhəmməd oğlu
13. Ağayev Şahverdi Ocaqverdi oğlu
14. Ağayev Təmaz Ocaqverdi oğlu
15. İbrahimov İbrahim Həsən oğlu
16. İbrahimov Hüseyn Həsən oğlu
17. Tanıverdiyev Qara Paşa oğlu
18. Tanıverdiyev Həsən Qurban oğlu
19. Xudayev Xalıqverdi Şahverdi oğlu
20. Xudayev Avas Haqverdi oğlu
21. İbrahimov Sevindik İbrahim oğlu
22. Ocaqverdiyev Əllaz

23. Qasımov Alı Qəhrəman oğlu
24. Qəhrəmanov Qəhrəman Abbas oğlu
25. Əlverdiyev Əli Avas oğlu
26. İsmayılov Allahverdi Əhməd oğlu
27. Hümbətov Abdulla Həsən oğlu
28. Abbasov Abbas Fətulla oğlu
29. Cabbarov Allahverdi Rəhim oğlu
30. Cabbarov Kərim Rəhim oğlu
31. Novruzov Əlipənah Baba oğlu
32. Ocaqverdiyev Xudaqqulu Ocaqverdi oğlu
33. İmamquliyev Ocaqverdi
34. Qasımov İmran Qurban oğlu
35. Qurbanov Bəşir Qurban oğlu
36. İmaməliyev Mehrac

**b) qayıdanlar**

37. Məmmədov Qəməd Allahverdi oğlu
38. Xudayev Alı Səməd oğlu
39. Səmədov Lətif Əli oğlu
40. Səmədov Səməd Əşrəf oğlu
41. Səmədov Xudaverdi Əşrəf oğlu
42. Səmədov Vəli Alı oğlu
43. Hümbətov Sevindik Mikayıl oğlu
44. Hümbətov Məmməd Mikayıl oğlu
45. Xudayev Əmiraslan Oruc oğlu
46. İsayev Niyazqulu Hüseynqulu oğlu
47. Məmmədov Fərmayıl Ağamalı oğlu
48. Xudayev Mənaf Ağaverdi oğlu
49. Ağayev İsa Xalıqverdi oğlu
50. Ağayev Qaçay Xalıqverdi oğlu
51. Şadmanov Hüseyn Həsən oğlu
52. Xudiyev Xudu Məmmədəli oğlu
53. Məmmədov Heydər Elyaz oğlu
54. Şirinov Şirin Əli oğlu
55. Şirinov Fərmayıl Hüseyn oğlu
56. Tanırverdiyev Tanırverdi Əlmərdan oğlu
57. Xudayev Məhəmməd Xudaverdi oğlu
58. Məmmədov Sərxan Alxan oğlu
59. Qurbanov Qasım Allahverdi oğlu
60. Məmmədov Səftər Ağakişi oğlu
61. Bayramov Abbas Mustafa oğlu
62. Xalıqverdiyev Ağəli Hüseyn oğlu
63. Hüseynquliyev Eyvaz İmamqulu oğlu

**1948-1949-cu ildə Yevlaxın Malbinəsinə deportasiya olunan və iqlimə uyğunlaşmayıb ölənlər**

1. Xudayev Cəlal Həsən oğlu
2. Xudayev Məcid Cəlal oğlu
3. Xudayeva Məsmə Mənaf qızı
4. Ağaverdiyev Kərəm Nəbi oğlu
5. Ağaverdiyev Məhəmməd Nəbi oğlu
6. Ağaverdiyev Məhərrəm Nəbi oğlu
7. İbrahimov Həsən Cabbar oğlu
8. Abbasov Abbas Fətullah oğlu
9. Abbasov Nənəxanım Səməd qızı
10. Hümbətova Sona Nəcəf qızı
11. Xudayeva Fatma Şahhüseyn qızı
12. Allahverdiyev Aslan Xanlar oğlu
13. Allahverdiyeva Sürayə Xanlar qızı
14. Ağamalıyev Xıdır İmaməli oğlu
15. Xudayev Şahsevən İmran oğlu

**Şair və alimlər**

1. Həsənov Şamil Teymur oğlu (şair)
2. Əlipənahov Əlipənah Baba oğlu (elmlər namizədi)
3. 50 nəfər müxtəlif ixtisaslı ali təhsilli ziyalı

**Aşıqlar və çalğıçılar**

1. Məmmədov Sərxan Alxan oğlu (aşıq);
2. Məmmədov Zalxan Alxan oğlu (aşıq);
3. Aşıq Allahverdi İsmayıl oğlu (aşıq);
4. Həsənov Kamil Teymur oğlu (aşıq);
5. Xudayev Rəcəb Məmmədəli oğlu (çalğıçı – zurna, balaban);
6. Şirinov Şirin Əli oğlu (çalğıçı);
7. Məmmədov Qafar Ağakişi oğlu (çalğıçı – dəf, toy);
8. Allahverdiyev Çərkəz Xanlar oğlu (çalğıçı – zurna, balaban);
9. Hümbətov Məmməd Mikayıl oğlu (çalğıçı – zurna, balaban)

**1905-1918-ci illərdə erməni millətçilərinə qarşı vuruşan tanınmış adamlar**

1. Xudaverdiyev Şahverdi Xudaverdi oğlu
2. İsgəndərov Şükür İmamqulu oğlu (17 adamın başçısı olub)
3. Xıdırov Qurban Allahverdi oğlu
4. Şahhüseynov Behbud Allahverdi oğlu
5. İmamquliyev Qəhrəman Şadman oğlu
6. Şahhüseynov Aslan Allahverdi oğlu

7. Novruzov Qənbər Babaverdi oğlu
8. Xalıqverdiyev Xalıqverdi Kamal oğlu
9. Şahhüseynov Oruc Xudu oğlu
10. İmamquliyev Qaraxan Şadman oğlu
11. İbrahimov İbrahim Həsən oğlu
12. Təmoyev Ocaqverdi Ağa oğlu
13. Şahhüseynov Xanlar Allahverdi oğlu
14. Qurbanov Həsən Şadman oğlu
15. Xıdırov Allahverdi Qurban oğlu
16. Səmədov Əşrəf Səməd oğlu
17. Xudayev Hüseynqulu İsa oğlu

Türklər bunlara silah vermiş və bunlar türk ordusu ilə birlikdə ermənilərlə vuruşmuşlar.

**1937-ci ildə repressiya qurbanı olanlar**

1. Şahhüseynov Həsən Xudu oğlu
2. Məmmədov Məmməd Allahverdi oğlu
3. Abbasov Göyüş Əlverdi oğlu (qayıdıb)
4. Məmmədov Sərxan Alxan oğlu (qayıdıb)
5. Xudayev Məhəmməd Xudaverdi oğlu

**Dağlıq Qarabağın müdafiəsində döyüşlər**

1. İbrahimov İbrahim Şiraslan oğlu
2. Həsənov Hüseyn Mehman oğlu
3. Qasımov Tarverdi Qasım oğlu (II qrup əlil)
4. Hümbətov Əfqan Əlabbas oğlu
5. Səmədov Araz Müzəffər oğlu (II qrup əlil)
6. Babayev Şəmistan Fərman oğlu
7. Qəhrəmanov Səyyad Bəyiş oğlu (II qrup əlil)
8. Əlipənahov Zakir Qənbər oğlu
9. Ağamalıyev Fərəməz Məmmədəli oğlu
10. Ağamalıyev Xıdır Məmmədəli oğlu
11. Tarıyev Fikrət Zaman oğlu
12. Xalıqverdiyev İsa Xalıqverdi oğlu
13. Qasımov Tofiq Qasım oğlu
14. Ələsgərov Əyyub Müseyib oğlu
15. Əlipənahov Rövşən Baba oğlu
16. Tarıyev Mehman Qurban oğlu
17. Hüseynov Abbas Kirman oğlu
18. Qəhrəmanov Tağı Yunis oğlu (II qrup əlil)
19. Bayramov Nazir İbrahim oğlu
20. Bayramov Hüseyn İbrahim oğlu
21. Ağaverdiyev Nəbi Ağaverdi oğlu

## Cəsur adamlar və ağsaqqallar

1. Cəfərov Xudu Şahhüseyn oğlu
2. Cəfərov Allahverdi Şahhüseyn oğlu (döyüşkən və igid adam olub)
3. Məşədi Tarverdi (el ağsaqqalı olub)
4. Qaçaq Əlverdi
5. Şahhüseyn Ağaverdi Xudu oğlu (el ağsaqqalı, dilavər adam olub)
6. Şahhüseynov Oruc Xudu oğlu (tanınmış, seçilmiş adam olub)
7. Səmədov Əşrəf Səməd oğlu (igid, döyüşkən, məşhur güllə atan olub)
8. Hümbətov Mikayıl Hümbət oğlu (130 il yaşayıb, el ağsaqqalı olub)
9. Hümbətov Sevindik Mikayıl oğlu (el ağsaqqalı, məğrur adam olub)
10. Səmədov Xudaverdi Səməd oğlu
11. Şahverdiyev Novruz Allahverdi oğlu
12. Ağaverdiyev Ağaverdi Nəbi oğlu (ağsaqqal)

## 1988-ci il deportasiyasına dözməyib infarktdan ölənlər

1. Qəhrəmanov Bəyiş Abbas oğlu;
2. Qəhrəmanov Həsən Abbas oğlu
3. Qəhrəmanov Qasım Abbas oğlu;
4. Səmədov Xudaverdi Əşrəf oğlu;
5. Səmədova Gülgəz Əşrəf qızı;
6. Şahverdiyev Novruz Allahverdi oğlu;
7. Məmmədov Sərxan Alxan oğlu;
8. Məmmədova Qızbəsti İmran qızı;
9. İsayeva Şamama Məmməd qızı.

**İnformatorlar:** Gomur kənd sakinləri: 1. Ağaverdiyev Ağaverdi Nəbi oğlu, 1928, Əmək veteranı, hal-hazırda Bakı şəhərində yaşayır. 2. Qasımov Şirxan Behbud oğlu, 1934, Şahbuz rayonunun Sələsüs kəndində yaşayır. 3. Ağaverdiyev Kərəm Ağaverdi oğlu, 1957, Bakıda yaşayır. 4. Qasımov Əli Şirxan oğlu, 1960, hal-hazırda Bakıda yaşayır. 5. Allahverdiyev Çərkəz Xanlar oğlu, 1933, hal-hazırda İsmayıllıda yaşayır. 6. Babayev Fərman Bəhman oğlu, 1927, hal-hazırda Bakıda yaşayır. 7. Mamedov Heydər Eylas oğlu, 1923, hal-hazırda Naxçıvanda yaşayır.

# GÖYABAS

Göyabas Dərələyəzin Əzizbəyov rayonunun azərbaycanlı kəndlərindəndir. Rayon mərkəzindən 15 km şimal-qərbdə, Her-her çayının sahilində yerləşmişdir.

Statistik mənbələrdən aydın olur ki, Göyabas kəndində 1873-cü ildə 132 nəfər, 1886-cı ildə 165 nəfər, 1897-ci ildə 202 nəfər, 1904-cü ildə 245 nəfər, 1916-cı ildə 229 nəfər azərbaycanlı yaşamışdır.[1]

-------------------

1. Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh.88; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 341; Историческая география Западного Азербайджана, Баку, 1998, стр.114.

1918-ci ildə erməni millətçilərinin hücumları nəticəsində kənd dağıdılmış, əhalinin bir qismi qırılmış, bir qismi isə öz yurd-yuvalarından qovulmuşdur. Göyabas kəndindən yalnız uçuq evlər və qəbiristanlıqlar qalmışdır.

Göyabas sözünün formalaşmasına gəldikdə, demək lazımdır ki, burada 2 variant ola bilər: 1) bu toponim iki sözün – "Göy" və "Abbas" sözlərinin birləşməsindən əmələ gəlmiş, toponimin ikinci tərəfində fonetik dəyişmə baş vermiş, kəndin adı ilk vaxtlar Göyabbas olmuş, daha sonra "b" səsinin biri düşərək Göyabas formasına düşmüşdür. 2) Altay dillərində sıldırım sözünün mənasını verən "bayas, bayaz" sözü də vardır.[1] Ola bilsin ki, bu tarixən sıldırım qayalıqda olan kənd, qaya başında olan kənd mənasında işlənmişdir.

Göründüyü kimi, bu kəndin adı da, bu toponim hər tkt halda Azərbaycan xalqına məxsusdur.

## GÖYƏRÇİN

Göyərçin Dərələyəzdə Əzizbəyov (Paşalı) rayonunda azərbaycanlı kəndi olmuşdur. Bu Kotanlı kəndi ilə Göydağ meşəsinin əhatəsində yerləşir.

1831-ci ildə kənddə 20 nəfər, 1873-cü ildə 48 nəfər, 1886-cı ildə 92 nəfər, 1897-ci ildə 84 nəfər, 1904-cü ildə 84 nəfər, 1914-cü ildə 66 nəfər, 1916-cı ildə 72 nəfər əhali olmuşdur. 1918-ci ildə erməni millətçiləri kəndi dağıtmış, yandırmış, əhalisini qırmış, sağ qalanlarını da qovmuşlar. Bura o zamandan ölü kənddir.[2] Kəndin xarabalıqları və qəbiristanlığı indi də qalmaqdadır.

Dərələyəz ağsaqqallarından biri, Kotanlı kənd sakini, yaşlı nəslin nümayəndəsi Sevindik Gəncimalıyev və 76 yaşlı Əmrahov Əli dedilər ki, 1918-ci il erməni-müsəlman davasında Göyərçin kəndindən cəmi 8 nəfər ölümün pəncəsindən qaçıb qurtara bilmişdir. Ermənilər yerdə qalan kənd əhalisinin hamısını güllələmiş və işgəncə ilə öldürmüşlər.

Göyərçin kəndinin adı türk tayfalarından birinin adından götürülmüşdür.[3] Tədqiqatçılar göstərir ki, VIII-IX əsrlərdə Rusiyanın cənub çöllərində yaşamış Peçeneq tayfalarından birinin adı Küyərçi olmuşdur.

Keçən əsrin tarix, coğrafiya və dilçiliyə aid mənbələrindən məlum olur ki, Türkiyənin Qars əyalətinin Kağızman qəzasında Göyərçin adlı iki kənd və

--------------------

1. B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998 səh.172-173.

2. И.Шопен. Исторические памятники состояние армянской областе в эпоху ее присоединения к Российской империи, СПБ, 1852, стр. 619-620; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, № 983; Z.Korkodyan. Sovet Ermənistanın əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 88; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 346; Историческая география западного азербайджана. Баку, 1998, стр.116. H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 247.

3. Mirzəyev H. Göyərçin toponimi, Dil məsələlərinə dair tematik toplu, № 1, Bakı, 1998, s.122-123.

bir dağ, Şimali Azərbaycanın Cavid qəzasında Göyərçin adlı qışlaq, İrəvan qəzasında Göyərçin adlı xarabalıq vardır. Hal-hazırda Qazax və Cəbrayıl rayonu ərazisində Göyərçin dağı adlı yerlər vardır.

Göyərçin adında olan kənd, qışlaq, dağ adlarını tayfa adı ilə bağlayan Qiyasəddin Qeybullayevin, Nadir Məmmədovun fikri ilə tam şərikəm.[1]

## GÜLÜDÜZÜ

Gülüdüzü kəndi Dərələyəz mahalının Keşkənd rayonunda – Ələyəz dərəsində yerləşir. Rayon mərkəzindən 32 km. şimal-şərqdədir.[2]

Gülüdüzü kəndində 2 kənd birləşdirilmişdir. Aşağı Gülüdüzü və Yuxarı Gülüdüzü kəndləri. Aşağı Gülüdüzü kəndinin bir adı da Nəbilərdir. Nəbilər kəndi 30-cu illərə qədər ayrıca kənd kimi fəaliyyət göstərmişdir. Lakin 30-cu illərdən ermənilər azərbaycanlı kəndlərinin sayını azaltmaq məqsədilə bu kəndi köçürüb Yuxarı Gülüdüzü kəndi ilə birləşdirdilər. Ona görə də biz bu 2 kəndin onomastik vahidlərini birlikdə verməyi lazım bildik.

Tarixi mənbələrdən məlum olur ki, 1831-ci ildə bu kənddə 115 nəfər, 1873-cü ildə 115 nəfər, 1886-cı ildə 217 nəfər, 1897-ci ildə 263 nəfər, 1904-cü ildə 151 nəfər, 1914-cü ildə 166 nəfər, 1916-cı ildə 407 nəfər əhali (azərbaycanlı) olmuşdur. 1918-ci ildə Dərələyəzin 70-dən artıq azərbaycanlı kəndi kimi Gülüdüzü kəndini də erməni millətçiləri dağıtmış, talan etmiş, əhalisini qırmış və qovmuşlar.[3]

Statistik məlumatdan göründüyü kimi, əhalinin təqribən onda biri yenidən dirçəlmiş və bu onilliklər ərzində on dəfə artmışdır. Bu illərdə əhalinin artımı aşağıdakı kimidir. 1926-cı ildə 32 nəfər (qaçqınlıqdan sonra), 1939-cu ildə 67, 1959-cü ildə 256, 1970-ci ildə 362, 1979-cu ildə 369 nəfər.[4] Kənddə əvvəlcə kolxoz, sonra onun əsasında heyvandarlıq sovxozu yaradılmış, əvvəlcə səkkizillik, sonra isə orta məktəbə çevrilmiş bir məktəb açılmışdır. Kənddə klub və kitabxana da fəaliyyət göstərirdi.

1988-ci ildə ermənilər rayondakı, partiya və icra komitələrinin və hüquq-mühafizə orqanlarının köməyi ilə kənd əhalisinin var-yoxunu, malını, mülkünü əlindən alıb zorla kənddən çıxardılar. Hətta azərbaycanlılar kənddən çıxarkən bir qədər gecikən, ali təhsilli şəxs, 3 institut qurtarmış Əli müəllimin ev əşyalarını, külli miqdarda xalçaları, çoxlu mal-qoyununu ermənilər əlindən almış

---

1. Bax: Г.А.Гейбуллаев. Топонимия Азербайджана, Баку, 1996, с. 42; Nadir Məmmədov. Azərbaycanın yer adları, Bakı, 1993, s. 151.

2. Mirzəyev H. Gülüdüzü kəndi və onun onomastik vahidləri, Filologiya məsələlərinə dair tematik toplu, № 5 (17), Bakı, 2001, s.117-119.

3. Свод статистических данных о населении Закавказского края извлеченых из посемейных списков 1886 г. Тифлис, 1893, №965; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, s.92; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, s.362, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, s.245.

4. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, s.362.

evinə od vurmuş, özünü də kənddən qovmuşlar. O, çox çətinliklə özünün və ailəsinin canını ölümdən qurtara bilmişdir.

Qeyd etməliyəm ki, bu kənddən xeyli ziyalılar, alimlər yetişmişdir. Dərələyəz mahalında, həmçinin Göyçədə, Gəncədə, Kəlbəcərdə, Qubadlıda, Laçında, Zəngəzurda, Vedidə məşhur olan, 1918-1921-ci illərdə erməni millətçilərinə qarşı mübarizə aparıb böyük qəhrəmanlıqlar göstərən, Abasqulu bəylə birlikdə ermənilərə qan udduran Şabazoğlu Cəlal bu kəndin yetirməsidir. Nikolay dövründə haqsızlıqlara qarşı vuruşan Qaçaq Nəbiyə kömək edib, ona bələdçilik edən, Həcərin atının cilovundan tutub uçurum dərələrdən keçirən və uzun ömür sürən Hüseynqulu oğlu Əli bu kənddə (Aşağı Gülüdüzdə, Nəbilərdə) boya-başa çatmışdır. Abbas bəy, Hacıməhəmməd, Seyid Nəcəfalı, Cəlal oğlu Firudin, Cəlal oğlu Şabaz, Hacıməhəmməd oğlu Məşədağa, Bəhlul, Quliyev Qəşəm, Cəlalov Tatar, Quliyev İsfəndiyar, Həsənov İbiş kimi el içində nüfuzlu adamlar bu kənddə yaşamışlar.

Belə bir məlumatı da oxucuların nəzərinə çatdırım ki, uzunluğu 54 km olan məşhur Arpasevən tuneli bu kəndin altından keçir və bu səbəbdən ermənilər bu kənddə 1960-1970-ci illərdə xeyli ev tikmiş və buraya çoxlu erməni ailəsi köçürmüşlər, buranı qəsəbəyə çevirmişlər. Yeraltı tunelə açılan Şaxta bu kəndlə bir sovxozda birləşdirilən Qara qaya kəndinin ərazisində yerləşir. Hətta ermənilər buradakı azərbaycanlıları sıxışdırıb çıxarmaqla yanaşı, 1967-ci ildə Gülüdüzün adını dəyişib Vardahovid qoymuşlar.

Bu kəndin tarixi çox qədimlərə gedib çıxır. Bu kəndin və Aşağı Gülüdüzü (Nəbilər) kəndinin qəbiristanlığında qoç daşlarının həddi-hesabı yox idi. Buradakı qədim qəbirlərin hamısının üstündə qoç daşları (heykəl) ucalırdı. Lakin ermənilər 1940-cı illərin II yarısından başlayaraq, bu qəbir daşlarını gizli yollarla, xüsusən, gecələr yük maşınlarına doldurub rayon mərkəzinə doğru aparmış və orada məhv etmişlər. Bir sözlə, türk dünyasına aid abidələri, əşyaları silib atmağa çalışmışlar. Mən şəxsən həmin qəbiristanlıqlarda olan böyük qoç daşlarının canlı şahidiyəm.

Gülüdüzü kəndinin etimologiyasına gəldikdə deməliyəm ki, bu kənd Gülü adlı bir azərbaycanlının adı ilə bağlıdır. Hətta bu kənddən 6 km aralıda, Qoduxvəng adlanan kəndin 2 kilometrliyində, Arpa çayının başlanğıc hissəsində "Gülü qəbri" adlı böyük bir qəbiristanlıq da vardır ki, bu qəbiristanlığın tarixi çox qədimlərə gedib çıxır. Görünür, bu qəbiristanlıq da Gülüdüzü kəndinin adını daşıyan həmin şəxsin adı ilə bağlıdır.

Bu kəndin onomastik vahidləri haqqında məlumatı mənə həmin kəndin sakini, ali təhsilli, 66 yaşlı İmaməliyev Kərəm və həmin kənddə uzun illər müxtəlif vəzifələrdə çalışan 74 yaşlı Səfərov Mustafa vermişdir. Bu kənddə çoxlu qohumlarım olduğu və kəndə yaxından bələd olduğum üçün bir sıra onomastik vahidləri buraya mən özüm əlavə etmişəm.

## GÜLÜDÜZÜ KƏNDİNDƏ OLAN XÜSUSİ ADLAR

**Tayfa adları**

1. Seyid Nəcəfalılar
2. Hacı Fərzalılar
3. Hacı Qurbanəlilər
4. Hacı Məhəmmədlər
5. Nəbilərlilər
6. Abbaslar
7. Əmirqulular
8. Şabazlar
9. Xəlil uşağı
10. Təhməzlilər

**Məhəllə adları**

1. Çay məhlə
2. Yal məhlə
3. Arxın başı
4. Şahbazlar məhləsi
5. Hajməhəmmədlər məhləsi
6. Çökək məhlə
7. Yuxarı məhlə
8. Aşağı məhlə

**Dağ, yaylaq və yurd adları**

1. Yalyurd yaylağı
2. Rəcəb yurdu
3. Cicco yurdu
4. Murtuza yurdu
5. Böcəkli yurd
6. Hostun yurdu
7. Aralıq yurd
8. Qoşa arxaclar yurdu
9. Tikanlı düz yaylağı
10. Soğanlı yaylağı

12\. Dəyirman daşı yurdu

12\. Qızıl qaya yurdu

13\. Ağ yarğan yurdu

14\. Bejəkli yurd

15\. Qızyetərqaçan yurd

**Dağ adları**

1. Qəcəl dağı
2. Becəkli dağ

**Kövşən adları**

1. Yanıx
2. Daşlı yoxuş
3. Dərə yerləri
4. Kora bulaq
5. Kollu yer
6. Dik daş
7. İbişin söyüdlüyü
8. Yolaşan
9. Təkpalıd
10. Palçıqlı yer
11. Armudlu yer
12. Kalbay Nəbi yerləri
13. Dal meşə
14. Təhməzin bərəyəsi
15. Qara güney
16. Calalın qumu
17. Hüseynin qumu
18. Qızyetərqaçan
19. Səlimölən
20. Zindan qayası
21. Muradtəpəsi
22. İnəkölən
23. İmamalı yeri
24. Yolyenən
25. Əsdanın yolyenəni
26. Bəylərin yolaşanı
27. Göl yerləri
38. Demlər
29. Səmiyənin yeri
30. Kahanın başı
31. Bildirçinli yer
32. İbişin xarabası
33. Arxın qırağı
34. Daran
35. Rəfinin demi
36. Haceyvaz yerləri
37. Çuxur yer
38. Qəjəl
39. 40 putun yeri
40. İsgəndərəkən
41. Qancıqölən
42. Qılıncsınan

**Kaha və zağa adları**

1. İsti zağa
2. Böyük isti zağa
3. Yolyenən zağa
4. Demin zağası
5. Ayı ölən zağa
6. Kiçik isti qayanın kahası
7. Dağ kaha (2 min qoyun tutur)
8. Yanığın kahası
9. Kalbayı kahası
10. Mahının kahası
11. Məmmədalının kahası
12. Keçi kahası
13. Ağzıbir kaha
14. Yoğunsuyun kahası
15. Göyərçin kahası
16. Kəməndin kahası

**Qaya adları**

1. Laçın qaya
2. Ayıölən qaya
3. Kəməndin qayası
4. Humay quşun qayası
5. Arı qonan qaya
6. Göyərçin qayası
7. Daranın qayası

**Xarabalıqlar**

1. Yanığın xarabalığı

**Biçənək adları**

1. Böyük biçənək
2. Dal biçənək
3. Səmiyənin biçənəyi
4. Korabulaq biçənəyi
5. Daranın biçənəyi
6. Təkpalıdın araları biçənək
7. Yoğun suyun qırağı biçənək
8. Yanığın biçənəyi
9. Əhmədin biçənəyi
10. Həbibin biçənəyi
11. Usubun biçənəyi (Qovuşuq biçənəyi)
12. Qılıncsınan biçənək

**Arxac adları**
1. Dik daş
2. Çuxur yer
3. Yanığın başı

**Dərə adları**
1. Göy Qəjəlin dərəsi
2. Qasımölən dərə
3. Yoğunsuyun dərəsi
4. Usubun dərəsi
5. Çay qovuşan dərə
6. Palıtlı dərə
7. İşgə dərə

**Çay adları**
1. Gülüdüz çayı
2. Canı çayı
3. Qara qaya çayı
4. Gədikvəngin çayı
5. Qabaxlı çayı
6. Qovuşuq çayı (bütün çayların qovuşduğu yer)

**Dəyirman adı**
1. Mürsəlin dəyirmanı

**Çınqıl adları**
1. Ayı ölənin çınqılı
2. Laçın qayanın çınqılı
3. Yanığın çınqılı
4. Çayqovuşanın çınqılı
5. Nəbilər çınqılı

**Arx adları**
1. Gülüdüz arxı (Nadir şahın arxı)
2. Göy qəjəlin arxı
3. Qasımölən dərənin arxı
4. Qızılqayanın arxı
5. Yanığın arxı

**Bulaq adları**
1. Qara bulaq
2. Əhmədin bulağı
3. Musanın bulağı
4. İsti-zağa bulağı
5. Çayqovuşanın bulağı

6. Güngörməz bulaq
7. Qəşəmin bulağı
8. Südlü bulaq
9. Məşəd Cəfərqulunun bulağı
10. Əli bulağı
11. Soyuq bulaq
12. Almalı bulaq
13. Şır-şır bulaq
14. Almurad bulağı
15. Qıjılı bulaq
16. Aran yurdun bulağı
17. Səfəralı bulağı
18. Daranın bulağı
19. Novlu bulaq
20. Baş biçənəyin bulağı
21. Əzizin bulağı
22. Mahının bulağı
23. Məşədi Ələsgərin bulağı
24. Hacı Mahmud bulağı
25. Fərəcin bulağı
26. Böyük bulaq
27. Hacı bulağı
28. Kora bulaq
29. Çınqıllı bulaq
30. Kəklikli bulaq
31. Kaha bulaq
32. Yanığın bulağı
33. Calalın bulağı

**Su adları**

1. Yoğun su
2. İncə dərənin suyu
3. Qəjəlin suyu
4. Korabulağın suyu

**Meşə adları**

1. Nazpərinin meşəsi
2. Tala palıdlıq

## Gülüdüzü və Nəbilər kəndlərindən 1937-ci ildə siyasi məhbuslar, repressiya qurbanı olanlar

**a) qayıtmayanlar**

1. Şahbazov Firidun Calal oğlu
2. Şahbazov Şabaz Calal oğlu

3. Şahbazov Zaloş Calal oğlu
4. Şahbazov Həsən Abtalıb oğlu
5. Mamedov Məşədi Həbib oğlu
6. Quliyev İdris Əli oğlu

**b) qayıdanlar**

1. Mamedov Əsədulla Həbib oğlu
2. Quliyev Müseyib Əli oğlu

### Gülüdüzü və Nəbilər kəndlərindən 1941-1945-ci il Böyük Vətən müharibəsinə gedənlər

**a) qayıtmayanlar**

1. İmaməliyev Qədir Baxış oğlu
2. Mamedov Yaqub Məşədağa oğlu
3. Quliyev Yunus Əli oğlu
4. Xəlilov Əyyub
5. Xəlilov Abuzər
6. Səfərov Hacıağa Mürsəl oğlu
7. Allahverdiyev Muxtar İsmayıl oğlu
8. Mamedov Həsənalı Hüseyn oğlu
9. Mamedov Qüdrət İbad oğlu
10. Musayev Rəhim Əli oğlu
11. Musayev Əşrəf Əli oğlu
12. Mamedov İmran Rəfi oğlu
13. Hüseynov Heydər İmran oğlu

**b) qayıdanlar**

14. Həsənov Mamed İbiş oğlu
15. Mamedov Alı Həbib oğlu
16. Mamedov Nadir Həbib oğlu
17. Quliyev Qəşəm Məhəmməd oğlu
18. Talıbov Lətif Allahverən oğlu
19. Abbasov Mehdi Qasım oğlu
20. Allahverdiyev İsfəndiyar Əmirqulu oğlu

**İnformatorlar:** 1. Cəfər Quliyev 72 yaşlı iqtisadçıdır, ömür boyu Gülüdüzüdə ferma müdiri və briqadir vəzifəsində çalışmışdır. 2003-cü ildə Sumqayıt şəhərində düqnyasını dəyişdi. 2. İmamalıyev Kərəm Baxış oğlu – 65 yaşlı (1937-ci il təvəllüdlü), ali təhsilli, ömrünün yarım əsrini Gülüdüzü kəndində yaşayan, hal-hazırda Bakıda məskunlaşan təqaüdçü. 3. Səfərov Mustafa Mollahəsən oğlu, 1926-cı ildə Gülüdüz kəndində doğulmuş, 1988-ci ilə qədər burada yaşamış, kolxoz sədri, briqadir vəzifələrində işləmiş, 2002-ci ildə Bakı şəhərində dünyasını dəyişmişdir. 4. Özüm (Həsən Mirzəyev).

## GÜLÜSTAN//İTQIRAN

Gülüstan kəndi Dərələyəzdə Əzizbəyov rayonunun ərazisində yerləşir. Bu kənd Ermənistan-Azərbaycan sərhəd xəttinin üzərində, Cəhri çayının yuxarı axarında, Əzizbəyov rayon mərkəzindən 17 km cənub-qərbdə, Babək rayonunun Aşağı Buzqov kəndindən 6 km aralı, Əzizbəyov-Naxçıvan magistral avtomobil yolunun üstündədir. Gülüstan kəndi hal-hazırda xaraba qalan Köhnə İtqıran, İtqıran, Köhnə Almalı adlanan Azərbaycan kəndləri ilə əhatə olunmuşdur.[1]

Gülüstan kəndinin qədim adı İmarət olmuşdur. İmarət kəndinin yaranma tarixi təxminən 1850-ci illərə təsadüf edir. Belə ki, bu dövrdə Naxçıvan xanı Şıxəli xan həmin əraziləri gəzərkən oranın səfalı təbiəti, şəfalı bulaqları, sərin havası xanın xoşuna gəlmiş və çayın kənarında bir imarət tikdirmişdir. Qonşu İtqıran, Livis, Ağxac, Oğbin kəndlərindən həmin kəndə köçən azərbaycanlılar ev tikərək orada yaşamağa başlamışlar. Kənd Şıxəli xanın tikdirdiyi imarətin ətrafında salındığına görə bura İmarət adlanmışdır.

Qonşu İtqıran kəndlərindən İmarət adlanan bu kəndə çox adam toplaşdığı üçün kəndə İmarətlə yanaşı İtqıran da deyilmişdir. Yuxarıda göstərilən tarixdən etibarən İmarət (İtqıran) böyük bir kəndə çevrilir və İmarət kəndi ətrafında yerləşən 13 kəndin mərkəzinə çevrilir. Bu ərazinin qlavası bu kənddə oturur-muş və 13 kəndə başçılıq edirmiş. Şıxəli xanın tikdirdiyi və qlavanın oturduğu bu bina divanxana adı ilə məşhurdur. Sonralar bu binadan məktəb kimi də istifadə etmişlər. İmarətdə (İtqıranda) oturan qlava İtqıran, Almalı, Oğbin, Koradiz (Horadiz), Ağxac, Levis (İtqıran), Sers, Sultanbəy, Gərməçataq, Aşağı Buzqov, Yuxarı Buzqov və Lizbirən kəndlərini idarə edirdi. Aşağıda adı çəkilən şəxslər burada qlava vəzifəsini icra etmişlər: Məhəmməd, Məmmədhənifə, Ağahəsənov Ağəhəsən, Ağahəsənov Əbil (Ağahəsənin oğlu).

İtqıran adlanan əvvəlki 2 kənddə 1831-ci ildə 157 nəfər, sonrakı bu 3 kənddə (3 İtqıran kəndində) 1873-cü ildə 257 nəfər, 1886-cı ildə 364, 1897-ci ildə 235, 1904-cü ildə 490, 1914-cü ildə 535, 1916-cı ildə 742 nəfər azərbaycanlı olmuşdur.[2] Erməni-müsəlman davasından sonra burada əhalinin sayı azalmışdır.

1922-ci ildə 103 nəfər, 1931-ci ildə 127 nəfər azərbaycanlı olmuşdur. 1939-cu ildə 202 nəfər, 1959-cu ildə 148 nəfər, 1979-cu ildə 253 nəfər azərbaycanlı olmuşdur və get-gedə əhalisi xeyli artmışdır.[3]

Belə bir faktı da qeyd edim ki, yuxarıda adları çəkilən kəndlər 1905-ci ildə erməni daşnakları tərəfindən dağıdılmış, yandırılmış, bu kəndlərin əhalisinə divan tutulmuş və kəndlər viran qalmışdır. Bu zaman həmin kəndlərin əhalisinin əksəriyyəti Naxçıvan kəndlərinə qaçmışlar. Bir qədər sakitlik yarandıqdan

---------------------

1. Mirzəyev H. Gülüstan (İtqıran) kəndi və onun onomastik vahidləri, Filologiya məsələ lərinə dair tematik toplu, № 3-4, Bakı, 2001, s.111-114.

2. Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh.90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 346-347; İstoriçeskaə qeoqrafiə Zapadnoqo Azerbaydjana, Baku, 1998, 116-117; H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 246.

3. Ermənistan azərbaycanlılarının coğrafiyası. Bakı, 1995, s. 346.

sonra əhali öz kəndlərinə qayıtmış, lakin 1918-1920-ci illərdə ermənilər yenidən kəndi yandıraraq kütləvi qırğın törətmişlər. 3 yanvar 1935-ci ildə ermənilər kəndin adını dəyişərək Gülüstan qoymuşlar. Belə bir fakt da qeyd edilməlidir ki, Gülüstan kəndi digər 8 kəndlə bərabər (Almalı, Sers, Sultanbəyi və s.) 1929-cu ilədək Şahbuz rayonuna tabe idi. Sonralar bu kəndlər aktla Ermənistan SSR-nin Əzizbəyov rayonunun tərkibinə verilmişdir. Bu akt qeyri-qanuni olduğu üçün uzun müddət Azərbaycan tərəfindən təsdiq olunmamışdır.

İtqıran toponiminin formalaşmasına gəldikdə göründüyü kimi, iki müstəqil sözün – "İt" və "Qıran" sözlərinin birləşməsindən əmələ gələn bu kənd adı xalis Azərbaycan mənşəlidir. Bunun nəsil-sülalə, peşə, coğrafi relyeflə bağlı olub-olmaması aydınlaşdırılmalıdır.

Ola bilsin ki, burada məskunlaşan adamlar (sülalə, nəsil) hər hansı səbəbdənsə itləri qırıblar. Ola bilsin ki, xəsislik, işsizlik, kasıbçılıq üzündən bunlara İtqırxan deyilib və bu söz sonradan "İtqıran" formasına düşübdür.

Ola da bilər ki, buranın relyefi nəticəsində itlər qırılıblar. Gələcək nəsil bu məsələni də araşdırmalıdır. Məni maraqlandıran əsas cəhət odur ki, bu yer azərbaycanlılara məxsus olmuş və ermənilərin bu yerə qətiyyən aidiyyəti yoxdur. Aldığım qeyri-rəsmi məlumata görə bu aktı 1969-cu ildə Vəli Axundov İrəvanda doktorluq dissertasiyası müdafiə etdiyi ərəfədə təsdiq etmişdir. Bu kənd son dövrlər 60 təsərrüfatdan ibarət idi. Kəndin əhalisi təxminən 350-400 nəfərə çatırdı. Lakin 1988-ci ildə rayonda yerləşən digər azərbaycanlı kəndləri kimi bu kəndin əhalisini də ermənilər zorla kənddən çıxartdılar.

## GÜLÜSTAN (İMARƏT, İTQIRAN) KƏNDİNDƏ OLAN ONOMASTİK VAHİDLƏR

**Dağ adları**

1. Ballı qaya
2. Sarı qaya
3. Çalxan
4. Qız qayası
5. Layın daş

**Yer adları**

1. Maral dərəsi
2. Gilənarlı
3. Yeddi qardaş
4. Abbas ölən
5. Qara quzey
6. Kənd qabağı
7. Kahalar
8. Gəngərli

**Yurd adları**

1. Mayılxan

2. Qaraxan
3. Uzun yurd
4. İtqıran yurdu
5. Cəhri yurdu
6. Yeddi bulaq

**Çay adları**
1. İtqıran çayı
2. Almalı çayı

**Bulaq adları**
1. Kərpic kəsilən bulaq
2. Qorro bulağı
3. Uçuqlar bulağı
4. Qumlu bulaq
5. Kəklik bulağı
6. Yanıq bulaq
7. Kaha bulağı
8. Nərgiz bulağı
9. Hacı bulağı

Gülüstan kəndindən 1941-1945-ci illərdə müharibəyə 30 nəfər getmiş və onlardan yalnız 11 nəfəri qayıtmamışdır.

Gülüstan kəndinin bir çox görkəmli adamları olmuşdur:

Ağahəsənov Ağahəsən (13 kəndin qlavası olmuşdur),

Ağahəsənov Əbil (13 kəndin qlavası olmuşdur).

Hacı Qurbanalı, Məmmədhənifə, Məşədi Rüstəm, Kalba Mirzə, Ağahəsənov Əyyub, Mikayıl Abbas (kolxoz sədri), Həşim, Əli, Orucov Sultanalı, Mahmud, Balabəy, Baxşəliyev Mehbalı, Qurbanov Mustafa.

Həmin kənddə doğulub boya-başa çatan Ağahəsənov Vahid hal-hazırda Naxçıvanda Milli Məclis sədrinin müavinidir. Uzun illərdir ki, Naxçıvanın deputatı seçilir və bir çox yüksək vəzifələrdə işləyir.

**İnformator:** Yuxarıdakı bu onomastik vahidlərin adını mənə həmin kənddə doğulub boya-başa çatan, hal-hazırda Naxçıvanda Milli Məclis sədrinin müavini, Naxçıvanın deputatı, görkəmli ziyalı, ictimai xadim Ağahəsənov Vahid vermişdir.

## GÜMÜŞXANA

Gümüşxana Dərələyəzin Əzizbəyov rayonunda kənd və mədən adıdır. Bu kənddə hər zaman azərbaycanlılar yaşamışlar. Bu fakt tarixi mənbələrdə də sübut olunur. Statistik mənbələrdən aldığımız məlumata əsasən, Gümüşxana kəndində 1831-ci ildə 35 nəfər, 1873-cü ildə 145 nəfər,1886-cı ildə 176 nəfər, 1897-ci ildə 203 nəfər, 1904-cü ildə 360 nəfər, 1914-cü ildə 396 nəfər azər-

baycanlı yaşamışdır.[1]

1918-ci ildə erməni daşnaklarının hücumlarına məruz qalmış Gümüşxana kəndi dağıdılmış, əhalisinin bir qismi qırılmış, bir qismi isə qovulmuşdur. 1922-ci ildə 74 nəfər əhali geri qayıtmış, lakin uzun müddət burada qala bilməmişlər. Hal-hazırda ölü kəndə çevrilmiş Gümüşxananın xarabalıqları Qndevaz kəndinin cənubunda, Arpa çayının sağ qolunda, Gümüşxana çayının sahilindədir.

Qeyd etmək lazımdır ki, bu kənddə filiz yataqları vardır. 1590-cı və 1727-ci illəri əhatə edən tarixi mənbələrdə Gümüşxana kəndinin adı "Gümüşcük" şəklində qeyd olunmuş və göstərilmişdir ki, həmin dövrlərdə bu kəndin 2.517 ağça gəliri olmuşdur.[2]

Kəndin Gümüşxana adlanması onun yanındakı qədim filiz mədəni ilə əlaqədardır. Deməli, Azərbaycan xalqına məxsus bu kəndə də onun coğrafi relyefinə görə ad verilmişdir.

## GÜNEYVƏNG

Güneyvəng Dərələyəzdə (Keşkənd//Yeğeqnadzor rayonunda) azərbaycanlı kəndidir. Arpa çayının sağ qoluna qarışan Canı çayının üstündə yerləşir.[3] Şərq tərəfində Qovuşuq kəndi, qərb tərəfində isə Ələyəz kəndi yerləşir. Cənub və şimal tərəfləri uca dağlarla əhatə olunmuşdur. Ən qədim azərbaycanlı məskənlərindən biridir.

Uzun illər Dərələyəzin Ələyəz dərəsi adlanan hissəsindəki kəndlərin qlavası olmuş Allahverən adlı şəxs bu kənddəndir.[4] Güneyvəng ən varlı kəndlərdən biri olmuşdur. Tarixən burada çoxlu adlı-sanlı adamlar yaşamışdır.

Tarixi mənbələrdən məlum olur ki, 1831-ci ildə bu kənddə 58 nəfər, 1873-cü ildə 46 nəfər, 1886-cı ildə 75 nəfər, 1897-ci ildə 103 nəfər, 1904-cü ıldə 124 nəfər, 1914-cü ildə 136 nəfər, 1916-cı ildə 115 nəfər azərbaycanlı yaşamışdır.[5]

-------------------

1. Статистическое описание Нахичеванской провинции, СПб, 1833, стр.172; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №987; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 88; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 346, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 247.

2. Z.Bünyadov və H.Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, səh.60; Z.Bünyadov və H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997,səh.36.

3. Mirzəyev H. Güneyvəng kəndi haqqında, Filologiya məsələlərinə dair tematik toplu, № 5 (17), Bakı, 2001, s.88-91.

4. Qlava Allahverən mənim nənəm Ballının (atamın anasının) doğma dayısıdır.

5. Статическое описание Нахичеванской провинции, СПб, 1833, стр.168; И.Шопен. Исторические памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр.615; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №966; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 92; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 363, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 245.

1918-ci ildə erməni şovinistləri başqa kəndlər kimi bu kəndi da dağıtmış, əhalisini qırmışlar. Yalnız tək-tək adamlar qaçıb öz canlarını ölümün pəncəsindən qurtara bilmişdir. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra 1922-ci ildə bu kəndə əhalinin az bir qismi qayıtmış, həm bu kənddən, həm də başqa kəndlərdən cəmi 93 nəfər bu kənddə məskunlaşıblar. Lakin erməni millətçiləri 1920-ci illərin axırında müxtəlif bəhanələrlə bu kəndi köçürərək Qovuşuq kəndi ilə birləşdirmişlər. Həmin vaxtdan etibarən Güneyvəng kəndi ölü kəndə çevrilmiş, xarabalıqları indi də qalmaqdadır.

Dərələyəzdə XX əsrin 30-cu illərində erməniləşdirmə siyasəti nəticəsində ləğv edilən yüzlərlə kəndlərdən biri də Arpa çayının bir qolu olan Canı çayının sol sahilində yerləşən Güneyvəng kəndidir. Yaşlı adamların söylədiklərinə görə əvvəllər kənd 80-90 evdən ibarət olmuşdur. Kənd əhalisinin əsas məşğuliyyəti maldarlıq, əkinçilik, bağçılıq, xalçaçılıq və arıçılıq olmuşdur. Bu kəndin ətrafında geniş sahələrdə (əsasən dərələrdə) çoxlu cəviz (qoz) ağacları vardır. Bu ağaclar nəhəngliyinə görə bəlkə də dünyada birinci yeri tutar.

Lakin ermənilər rayon mərkəzinə buradakı Yastı bulaqdan su aparanda həmin cəviz (qoz) ağaclarının bir çoxunun dibində qazıntı işləri apardılar və həmin ağacların çoxu qurudu. Hər ağacın adı vardı: "Qara cəviz", "7 qardaş", "Tarverdi yıxılan", "Şaftalı cəviz", "Kətanköynək cəviz", "Fındıq cəviz", "Çalağan cəviz" və s. Bu ağacların hər birindən 10-15 kisə (hər meşok 35-40 kq olurdu) cəviz yığılırdı.

Güneyvəng kəndində o zaman cəviz yağı istehsal edilirmiş. Bunun üçün istifadə edilən dəyirman daşları 1980-ci illərin ortalarına kimi qalırdı. Yaşlıların dediyinə görə bu balaca dəyirmanlarda zəyərək bitkisindən də yağ çıxarırmışlar. Həmin daşlar ermənilər tərəfindən çıxarılıb aparıldı. Kənddə alma, armud, ərik, alça, gavalı, albalı, tut, üzüm yetişirdi. Bostan bitkilərindən pomidor, xiyar, badımcan, kələm, çuğundur, kartof, yer alması, lobya, noxud və sairələri becərilirdi. Yuxarıda sadalanan meyvə ağacları kəndin ətraf meşələrində yabanı halda da yayılmışdı. Bunlardan başqa faydalı və qida üçün yararlı meyvələrdən həmərsin (itburnu), qaragilə (yemişan), kiviş (nadir bitkidir), əpbəkli, qaraca, dovşan alması, qız-qızik, badam, ayı gilası, zirinc, sumax, dağdağan[1] bu kəndin ərazisində çox olur.

Güneyvəng kəndinin ətrafındakı meşələr əsasən qarışıq meşələr idi. Ən çox palıd və vən ağacı vardır. Bundan başqa çinar, söyüd, giriznə (yüksək keyfiyyətli yanacaq), qarağac, dağdağan, tubulğa (kol halında) da çoxdur.

Güneyvəng kəndinin yaxınlığında Zəylik adlı yer də var. Güneyvəngdən 1 km aralı güneydə, dağın çox gün düşən hissəsində yerləşir. Vaxtilə oradan əhali zəy çıxarıb istifadə edərmiş. Buradakı zəy kristal şəklində çıxır. Çox şəffafdır. Şüşə kimi parıldayır. Mən özüm də buradan dəfələrlə zəy parçalarını götürüb evə gətirmişəm.

---

1. Dağdağan ağacından xüsusi fiqurlar da düzəldilir, insanlara nəzər dəyməsin deyə kiçik uşaqların paltarına tikilirdi, mal-qaranın boynundan da asılırdı.

Bu kənddə qədim dövrlərə aid abidə (Karvansara) vardır. Bura Vəng də adlanır. Hündür hasarla əhatə olunmuşdur. Bir hektardan artıq ərazinin ortasında yerləşir. Bina kiçik otaqlardan, zirzəmilərdən və geniş zaldan ibarətdir. Hal-hazırda abidə yarımuçuq hala düşmüşdür. Qəribə bu idi ki, ermənilər bu abidəni heç vaxt bərpa etməyə səy göstərmədilər. Bu karvansara tam şərq üslubunda tikilmişdir. Karvansaraya iki saxsı boru xətti daxil olur. 150 il ömür sürən Qalaserli Əli kişi deyirdi ki, bunların biri ilə su, ikinci ilə isə süd gəlirmiş. Süd arxı elə belə söz deyil. Belə ki, karvansaradan yuxarıda geniş bir örüş (otlaq) var ki, bura Daşa girən adlanır. Buradakı arxac (qoyun sürüsünün yatağı və sağım yeri) Daşagirən arxacı adlanır. Karvansarayla həmin arxac arasında çətin yol olduğundan sağılan süd dediyimiz boru ilə üzü aşağı axıdılaraq abidəyə (Karvansaraya) çatdırılırmış. Kəndin adı elə o vəngdən götürülmüşdür.

Karvansarayın yaxınlığında Qocanın damı adlı sahədə kənd yeri olmuşdu. Buradakı onlarla kalafa ev divarlarının qalıqları indiyə kimi qalmaqdadır. Suyunun keyfiyyətinə, gurluğuna və mənzərəsinə görə Naxçıvan-Şərur, Dərələyəz, eləcə də Vedibasarda məşhur olan Yastı bulaq həmin xarabalıqların içərisindən çıxır.

Hazırda bu bulağın suyu 30 km uzaqda olan Keş kəndinə (rayon mərkəzinə, Yeğeqnadzora) axıdılır. Yastı bulağın da adını dəyişərək, Liraxbur (lir - yastı) qoyubdur.

Güneyvəng kəndinin təbii gözəllikləri olduğundan ermənilər 60-ci illərdə Güneyvəng kəndinin qərbində Yastı bulağa yaxın bir ərazidə böyük bir pioner düşərgəsi tikdilər. Bu da Dərələyəzin ermənisiz olan hissəsinin erməniləşdirilməsi yolunda hiyləgərcəsinə atılan bir addım idi.

Güneyvəng kəndinin şimalında başı buludlara dəyən, sıldırım qayanın üstündə adı məlum olmayan, xalq arasında Qalaça adı ilə tanınan qədim qalanın qalıqları vardır. Bu qala Azərbaycanın Dəvəçi rayonu ərazisindəki Çıraq qalaya oxşayır. Çox güman ki, bu qalaça mühafizə və nəzarət məntəqələrindən biri olmuşdur.

Güneyvəng kəndinin ilk yaşayış yerinə, yaşayış məskəninə nə vaxt çevrilməsi haqqında dəqiq fikir yoxdur. Lakin kəndin qəbiristanlığında qəbir daşlarının lap qədim dövrlərə aid olması tarixi həqiqətdir. Həmin qəbiristanlıqda qoç və at daş heykəlləri var idi. Qəbirlərin üstündəki başdaşılar ərəb əlifbası ilə yazılmışdır. Ərazinin türk xalqları ilə bağlılığını əyani şəkildə təsdiq edən bu tarixi abidələr ermənilər tərəfindən bilərəkdən məhv edildi. Qəbiristanlığın tən ortasından 10-12 metr enində magistral yol salındı. Qəbiristanlıqdakı baş daşları sındırıldı. Qoç və at heykəllərini də həmin vaxtdan ermənilər yoxa çıxartdılar.

Hələ XIX əsrdə İ.Çavçavadze yazırdı: "Ermənilər... tikintilərdən daşları çıxarıb onların yerinə erməni yazıları olan daşları qoyurdular".[1]

Güneyvəng kəndi ərazisində olan onomastik vahidləri Qovuşuq kəndi ilə birlikdə verdiyimiz üçün onu burada təkrar verməyə ehtiyac hiss etmədik.

--------------------

1. И.Чавчавадзе. Армянские ученые и воспиющие камни. Тифлис, 1902, стр.17.

Güneyvəng kəndinin adı bu kəndin üstündəki güneydə, döşdə tikilmiş qədim abidədən götürülmüşdür. Mən bu abidənin içərisini və ətrafını dönə-dönə gəzmişəm. Bu abidə olan yerə sadəcə olaraq Vəng də deyilir (Vəngin üstü, Vəngin yanı, Vəngdə...). Başqa sözlə, bu abidə ayrıca toponim şəklində də işlənir. Bu kənddə çox qədim dövrə aid yonulmuş daşlar və bura yaxın yerdə əyyam evi adlanan daş vardır. Bu kəndin ərazisində böyük zəy yatağı da vardır, həddi-hesabı olmayan, məhsulu bir elə kifayət edən qoz//cəviz ağacları Qafqazda məşhurdur. Burada 2-3 zəyərək və cəviz yağı çıxaran balaca həcmli dəyirmanların qalıqları və dəyirman daşları indi də qalmaqdadır.

Ermənilər bu daşları aparmasın deyə Qovuşuq kəndində kolxoz və sovxozda briqadir işləyən Kazım Mamedov Selov adlanan yerdə yerləşən kiçik diametrli bu dəyirman daşlarının üstünü torpaqla, daşla örtmüşdür.

## HER-HER

Her-her Dərələyəzin Paşalı (Əzizbəyov) rayonunda kənd adıdır. Ta qədim dövrlərdən 1828-ci ilə qədər bu kənddə həmişə azərbaycanlılar, 1828-ci ildən sonra isə həm azərbaycanlılar, həm də ermənilər yaşamışlar. 1828-1830-cu illərdə çar Rusiyası İranın Xoy və Salmas vilayətlərindən erməniləri gətirib burada məskunlaşdırmışdır.[1]



Statistik məlumat və mənbələrdə göstərilir ki, 1831-ci ildə 213 nəfər, 1873-cü ildə 647 nəfər, 1886-cı ildə 656 nəfər, 1897-ci ildə 1047 nəfər, 1904-cü ildə 1014 nəfər, 1914-cü ildə 1220 nəfər azərbaycanlı yaşamışdır.[2]

Qaçqınlıqdan qayıtdıqdan sonra isə azərbaycanlıların sayı azalmışdır. Bu kənddə 1922-ci ildə 156

------------------------

1. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1975, səh. 348-349.

2. Статистическое описание Нахчиванской провинции, СПБ, 1833, стр. 172; И.Шопен. Исторические памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи, СПБ, 1852, стр. 619; Свод статистических данных о населении Закавказского края извлеченных из посемејных списков 1886 г. Тифлис, 1893, № 985; Z.Korkodyan. Sovet Ermənistanın əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 348, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 247; H.Mirzəyev. Aşıq yaradıcılığında yaşayan adlarımız və tariximiz. Bakı, 1997, səh. 183-184.

nəfər, 1926-cı ildə 220 nəfər, 1931-ci ildə 278 nəfər azərbaycanlı yaşamışdır. Lakin bu say 1940-cı illərdə xeyli çoxalmışdır.

1905-1907, 1918-1919-cu illərdə Dərələyəzin başqa yerlərində olduğu kimi bu kənddə də ermənilər azərbaycanlıların çoxunu qırmış, 1948-1953-cü və sonrakı illərdə onları deportasiyaya məruz qoymuş və qovub zorla kənddən çıxarmışlar. İndi bu kənd əhalisinin əksəriyyəti Tərtər rayonunun Səhləbad, Qaradağlı, Kəngərli kəndlərində, Bakı, Sumqayıt və Naxçıvanda yaşayır. Hal-hazırda Bakıda yaşayan, neçə-neçə kitablar müəllifi olan şair Vahid Əziz, Sumqayıtda yaşayan kimya elmləri namizədi Vaqif Cəfərov, Tərtərin Səhləbad kəndində yaşayan, qoşmaları, gəraylıları, bayatıları, deyişmələri dillərdə əzbər olan el şairi mərhum Aşıq Mehdi həmin Her-Her kəndindəndirlər.

Her-her kəndi tarixən çox böyük azərbaycanlı kəndi olmuşdur. Ziya Bünyadov və Hüsaməddin Məmmədov 1590-cı və 1727-ci illərin məlumatına əsaslanıb göstərirlər ki, bu dövrlərdə Her-her (Hər-hər) kəndinin gəliri 9.701 ağça olmuşdur.[1]

Qeyd etmək lazımdır ki, bu kənddə VI-XIII əsrlərə aid bir neçə tarixi abidə var.[2] Kəndin qırağındakı çayın üst tərəfində qoşa tikilmiş iki Alban kilsəsinin (vənginin) qalıqları indi də qalmaqdadır.

Apardığımız araşdırmalar göstərir ki, Her-her sözü qədim türk tayfalarından birinin adıdır və bu Qarqar etnoniminin fonetik variantıdır.[3]

Dil və tarixi faktlara əsasən demək olar ki, nəinki Her-her, hətta Xar-xar, Xal-Xal, Kər-Kər, Kəngər toponimləri də mənşə etibarilə Qarqar etnonimi ilə bu və ya digər cəhətdən, az və ya çox dərəcədə bağlıdır. Her-her kənd adını aydınlaşdırmaq üçün Qarqar etnoniminin təşəkkül tarixinə də nəzər yetirilməlidir.

Miladdan qabaq və bizim eranın əvvəllərində yaşamış Strabon Qarqarlar haqqında məlumat vermiş və göstərmişdir ki, Qarqarlar Qafqaz dağlarının şimal ətəklərində məskun olmuşlar.[4]

Mahmud İsmayılovun gəldiyi qənaət budur ki, Qarqarlar miladdan qabaq IV-II yüzilliklərdə Qafqaz dağlarının ətəklərində, sonrakı dövrlərdə isə həm də Qarabağ düzənliklərində məskunlaşmışlar.[5]

Tarixi mənbələrdən məlum olur ki, Qarqarlar indiki Mil-Qarabağ düzlərində də yaşamış və hal-hazırda Mil düzü adlanan yer qədim dövrlərdə "Qarqar düzü" adlanmışdır. Q.Qeybullayev, Strabon, K.V.Trever, S.T.Yeremyan kimi tarixçilərin albanlar haqqında verdikləri məlumatları ümumiləşdirib be-

---------------------

1. Ziya Bunyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, s. 59. Ziya Bünyadov və Hüsaməddin Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh. 36.

2. Bax: Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, səh. 348-349; Kamil Dərələyəzli. Dərələyəz od içində, Bakı, 2001, səh. 110-111.

3. Mirzəyev H. Her-her etnotoponimi və onun fonetik variantları, Dil məsələlərinə dair tematik toplu, № 2, Bakı, 1997, s. 59-63; Mirzəyev H. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz (monoqrafiya), Bakı, 1997, səh. 183-187.

4. Mahmud İsmayılov. Sənin ulu baban. Bakı, 1985, s. 161.

5. Bax: Yenə orada, səh. 161.

lə bir qənaətə gəlmək olar ki, Qarqar düzənliyi, Qarqar knyazlığı, Qarqar şəhəri (Beyləqan yaxınlığında) kimi adlar, həmçinin XIX əsrdə Azərbaycanda bu adda olan 5 kənd adı Qarqar etnonimi ilə bağlıdır.[1]

N.Məmmədov yazır ki, qarqarlar qədim Alban tayfalarından birinin adıdır və Qarqar sıra dağları, Qarqar düzü, Qarqar çayı hələ bizim eradan əvvəl Azərbaycanda məskən salan türkdilli Qarqar tayfasının adını bir abidə kimi qoruyub saxlamışdır.[2]

K.Əliyev özünün "Azərbaycanın ən qədim əhalisi toponimiyada" adlı əsərində yazır: "Qafqazda Qarqar tayfası ilə əlaqədar bir neçə ad mövcuddur: Qarqar dağı, Qarqar çayı, Qarqar düzənliyi. Bu etnonim Orta Asiya ərazisində də müşahidə olunmaqdadır".[3]

Erməni tarixçiləri göstərir ki, qədim dövrlərdə Ermənistanda (qədim oğuz yurdunda) da Qarqarlar yaşamış və Qarqar adlı toponim həmin tayfa ilə bağlıdır.[4] Q.Qeybullayev yazır: "Erməni mənbələrində Qarqarların, əsasən, Albaniya ərazisində (Arsakda) yaşamaları göstərilir. Azərbaycandakı Qarqar, Xarxar, Kərkər toponimləri isə həmin qədim tayfanın izləridir.[5]

Bəzi mütəxəssislərin fikrincə alban əlifbası tərtib edilərkən, 26 soyun dilləri və ləhcələri içərisində Qarqarların dili əsas götürülmüşdür.[6]

Qeyd etmək lazımdır ki, Qarqar sözü və onun fonetik variantları olan Xarxar, Xal-xal, Hər-hər, Her-her, Qer-qer, Xer-xer, Gər-gər etnonimlərinin arealı çox genişdir. Qarabağda Qarqar, Gədəbəydə Xarxar, Naxçıvanda və Cənubi Azərbaycanda Xalxal, Dərələyəzdə, Eçmiədzində, Dağlıq Qarabağda Hərhər//Herher, qədim oğuz yurdu olan Calaloğluda Gərgər toponimlərinin hal-hazırda mövcud olması buna canlı sübutdur.[7]

Bir sıra mənbələrdə Xalxalları Alban mənşəli tayfa hesab edirlər.[8] Ola bilsin ki, Gərgər forması ilə Kəngər forması da bir yuvadan formalaşmışdır. Belə ki, dilimizdə "n" samiti ilə "r" samiti bəzən bir-birini əvəz edə bilir (məs.: bilmərəm-bilmənəm, solmaram-solmanam). Dilimizdə olan gərilmək və genəlmək sözlərinin də bir yuvadan nəşət etdiyini və r-n dəyişməsi baş verdiyini güman etmək olar.

Belə bir maraqlı cəhəti də qeyd etməliyəm ki, Her-her kəndində doğulan Aşıq Mehdi deyir ki, biz Kəngərli tayfasındanıq.

-------------------------

1. Q.Qeybullaev. Топонимия Азербайджана. Баку, 1986, s. 29:
2. Nadir Məmmədov. Azərbaycanın yer adları. Bakı, 1993, s. 111, 137-138.
3. Bax: B.Ə.Budaqov. Türk uluslarının yer yaddaşı. Bakı, 1994, s. 249.
4. Bax: А.А.Акопян. Албания Алуани в греко-латынских и древнеармянских источниках, Ереван, 1987, с. 66-67.
5. Q.Qeybullayev. Qədim türklər və Ermənistan, Bakı, 1992, səh. 108.
6. Ətraflı məlumat almaq üçün bax: Mahmud İsmayılov. Sənin ulu baban. Bakı, 1989, s. 161
7. Nadir Məmmədov. Azərbaycan yer adları. Bakı, 1993, səh. 111, 137; Azərbaycan Sovet Ensiklopediyası. III cild. Bakı, 1979, səh. 320 (xəritədə); Azərbaycan SSR-nin inzibati ərazi bölgüsü, Bakı, 1968, səh. 113, 206; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, s. 335, 348-349...
8. Bax: B.Ə.Budaqov. Türk uluslarının yer yaddaşı. Bakı, 1994, səh. 249.

Deməli, Her-her kəndində olanların Kəngərli tayfasından olması da göstərir ki, Kəngər sözü ilə Her-her sözü arasında yaxınlıq vardır.

Dil faktlarına əsaslanıb belə bir mülahizə yürütmək olar ki, Qarqar, Xarxar, Xalxal, Hərhər//Herher//Xerxer//Gərgər, Kəngər həmçinin Salsal, Tərtər sözləri ən qədim türk tayfalarının adlarıdır.

Fikrimizcə, qədim dövrlərdə cəmlik bildirmək üçün eyni sözün qoşa işlənməsindən, təkrar deyilməsindən də istifadə olunmuşdur. Hadi Mirzəzadə yazır: "təkrar üsulu mənşəyi etibarilə çox qədimdir".[1]

H.Mirzəzadə davam edib göstərir ki, Azərbaycan dilində analitik üsulla əmələ gətirilmiş sözlər əvvəllər xeyli aktiv olmuşdur. Müəllif buna böyük-böyük, qara-qara, dolu-dolu sözlərini misal verir. Ümumiyyətlə, Azərbaycan dilində eyni sözün təkrarı indi də çox işlənir. Məs.: qucaq-qucaq, qatar-qatar, dəstə-dəstə, ev-ev və s. "Ordu-ordu qayalıqlar insanlığa qayıdacaq" (Məmməd Araz, Daş harayı) və s.

Mahmud Kaşğari göstərir ki, türk tayfalarından birinin adı Cikildir.[2] Roza Eyvazova əlavə edir ki, bu söz qədim mənbələrdə Cik-cik formasında işlənmişdir.[3] Deməli, türk dillərində bir tayfa adı tarixən təkrar edilərək də işlənmişdir.

Görkəmli türkoloq, türk dillərinin, o cümlədən Azərbaycan dilinin qədim dövrlərinə dərindən bələd olan, bu sahələrə aid çoxlu dəyərli tədqiqatlar aparan, Azərbaycan xalqının, Azərbaycan dilinin çox-çox qədimlərə gedib çıxdığını tutarlı dəlillərlə isbata yetirən professor Firidun Cəlilov (Ağası oğlu) Qarqar tayfası haqqında geniş məlumat verərək yazır:

"Azərbaycan xalqının islama qədərki tarixi bu xalqın soykökünü təşkil edən qədim türk boylarının tarixi ilə sıx bağlıdır. Belə boylardan biri də miladdan öncə Urmu hövzəsində yaşamış qarqar uruqlarıdır. Şumer, akkad, hett, asur, yunan, latın, türk, fars, erməni və rus dillərində yazılmış qaynaqlarda adı müxtəlif şəkildə (qarqar, karkar, xarxar, karaxar, qaraqara, gərgər, kerker) yazılan bu boy adına qədim mənbələrdə Urmu gölü və Dəclə yaxalarında, Kiçik Asiyanın batı bölgələrində rast gəlirik: antik dövr, orta çağ və sonrakı mənbələrdə isə qarqarları Güney və Quzey Qafqazda, İran və Orta Asiyada türk boylarının yayıldığı bölgələrdə görürük.

Qarqar boylarının yaşadığı yerlərdə çoxlu çay, dağ, ovalıq, bölgə və yaşayış məskənləri qarqar etnotoponimi ilə adlanmışdır. Quzey Azərbaycanda bir sıra Qarqar, Karkar və Xarxar adlı yaşayış məskəni olduğu kimi, Güney Azərbaycanda da Kərkər, Kərkəre-olya (Yuxarı Kərkər), baba Kərkər kəndləri və Qarqar, Karkar, Xarxar və hətta adı Xorxor şəklinə düşmüş xeyli yaşayış məskəni vardır. Azərbaycan və Türkmənistanda bir neçə Qarqar çay mövcuddur. M.Xorenatsi (V əsr) Mil düzünün bir hissəsini Qarqar çölü kimi vermişdir. Qazaxıstanda Karkarli dağı, Azərbaycanda isə Qarqar dağ vardır...

Tarix boyu Avrasiyanın müxtəlif bölgələrində görünən qarqar tayfalarının ilkin Ata yurdu şumer və asur mənbələrinə görə Urmu hövzəsində yerləşirdi.

--------------------

1. H.Mirzəzadə. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, 1990, s.95-96.
2. Mahmud Kaşğari. Divan lüğət-it-türk. Ankara, 1958, səh.
3. Roza Eyvazova. Əfqanıstan ərazisindəki türk mənşəli toponimlər. Bakı, 1995, səh. 80.

Sonrakı mənbələr isə onlardan bir hissəsinin Ata yurdda qaldığını, digərlərinin isə üç tərəfə - Kiçik Asiya, Qafqaz və Orta Asiya istiqamətdə miqrasiyasını əks etdirir. Ata yurdda qalan və bura qayıdan qarqarlar Azərbaycan türklərinin soykökünü təşkil edən boylarındandır. Azər xalqının qurduğu Manna, Mada və Alban dövlətlərində qarqar boylarının rolu tarixçilərimiz tərəfindən hələ layiqincə öyrənilməmişdir".[1]

Her-her kəndinin yuxarı hissəsində Qoşavəng deyilən yerdə böyük bir qəbiristanlıq var. Orda baş daşının birinin üzərində yazılıb ki, "Mənim bankımın xəzinəsi Qiyasın dəyirmanının ağzındadır".

Əvvəlki dövrlərdə Her-her kəndinin abadlaşmasında Seyid Babaxan adlı şəxsin (Molla Şükürün atasının babası, Alıxan kişinin atasının babası) böyük rolu olmuşdur. Hal-hazırda Her-her kəndində çox-çox qədim dövrlərdə tikilmiş məscidin qalıqları da qalmaqdadır.

1949-cu ildə Her-her kəndinin təxminən 1000-1500 nəfər əhalisini kütləvi surətdə köçürdülər, deportasiya etdilər.

Her-her kəndində olan onomastik vahidlərin bir qismi aşağıdakılardır:

**Tayfa adları**

1. Kəngərli
2. Qazan uşağı
3. Şenlər
4. Eyvazlı
5. Seyidlər
6. Xarttıxlı

**Kövşən, sahə adları**

1. Tanrı
2. Məmmədölən
3. Zöhrəboğulan
4. Qızyetərölən
5. Güllü biçənək
6. Aralıq örüşü

**Dağ, yaylaq və yurd adları**

1. Göy dağ
2. Təpəsi dəlik
3. Bolbulaq
4. Qırxbulaq
5. Murad təpəsi (bir hissəsi)
6. Xora yer
7. Qısxaçlı
8. Tikanlı gəz

------------------------

1. Firidun Ağasıoğlu. Azər xalqı, Bakı, 2000, səh.140-144

9. Dərəyurd
10. Oruc ölən
11. Qalın quzey
12. Tayrı
13. Zöhrə boğulan
14. Her-her yalı
15. Yaşıllıq
16. Daşaltı
17. Göyəvaz

**Arxac, dərə adları**
1. Həsənalı dərəsi
2. Talıbın dərəsi
3. Qurd dəliyi
4. Qala dərəsi
5. Qumlu dərə

**Qaya adı**
1. Qara qaya

**Qala adları**
1. Əsgərin qalası

**Kaha adı**
1. Sürgünün kahası

**Meşə adları**
1. Qalınquzu
2. Meşə yurd
3. Yanıx meşə
4. Sülgü meşəsi

**Bulaq adları**
1. Novlu bulaq
2. Şır-şır bulaq
3. Soyuq bulaq
4. Güllü bulaq
5. Qumlu bulaq
6. Bol bulaq
7. Məmmədölən bulaq
8. Damcı bulağı

**Qəbiristanlıq adları**
1. Qala dərəsi

**Abidələr, ocaqlar, məbədlər**
1. Qoşavəng
2. Dəmrov piri
3. Cındırlı pir
4. Qala
5. Oğuz qəbirləri
6. Təpəsi dəlik piri

**Göl adları**
1. İsmayıl boğulan
2. Təndir göl

**Körpü adları**
1. Məşədi Həsən körpüsü

## 1937-ci ilin repressiya qurbanları

1. Quliyev Həsən Mehdi oğlu
2. Mehdiyev Məhəmməd Oruc oğlu
3. Orucov Məhəmməd Xıdır oğlu

## Her-her kəndindən 1941-1945-ci il Böyük Vətən müharibəsinə gedənlər

**a) qayıtmayanlar**
1. İsmayılov Hüseyn
2. Yunus Cəbrayıl oğlu
3. Orucov İbrahim Hümbət oğlu
4. Əzimov Nağı
5. Şükür İbrahim oğlu
6. Mir Yusif Mir Əziz oğlu
7. Məmmədəlinin oğlu Ümud
8. Kərimov Rəhim
9. Yəhya Seyid Fətulla oğlu
10. Əhməd Seyid Fətulla oğlu
11. Nağı Seyid Fətulla oğlu
12. Nağı (Alının yeznəsi)
13. Xuduyev Bayram
14. Mikayıl Cəfərqulu oğlu
15. Elyas Qələndər oğlu
16. Hüseynov Astan Hüseyn oğlu
17. Muradov Ramazan
18. Ağayev Əziz Seyidəli oğlu
19. Hümbətov Hümbət
20. Orucov Fərman
21. Quliyev Zaman

**b) qayıdanlar**

22. Manafov Hüseyn Oruc oğlu
23. Məmmədov Məhəmmədəli Şirəli oğlu
24. Orucov Məmməd Hümbət oğlu
25. Muradov Savalan
26. Bayramov Alahverdi
27. Kazımov Ağamalı
28. Simran (Şükürün qardaşı)
29. Qurbanov Abbas
30. Səfərəliyev İsmayıl Murtuz oğlu
31. Hümbətov Balağa Məmməd oğlu
32. Əhmədov Nəcəf Misir oğlu
33. Süleymanov Ağa
34. Ağayev Əziz Nurəli oğlu
35. Sarı Əbülhəsən
36. Abbasov Məhəmməd
37. Abdullayev Yusif Fətulla oğlu
38. Abdullayev Seyidəli Oruc oğlu
39. Cəfərov Bayram Qasım oğlu
40. Qasımov Alverdi Müslüm oğlu
41. Mehdiyev Mehdi Ataş oğlu
42. Heydərov Bayram Cəfərqulu oğlu

Müharibədən qayıdanlardan hal-hazırda cəmi 1 nəfər (Heydərov Bayram) yaşayır.

**Her-herdə olan el ağsaqqalları**

1. Aşıq Fətullah
2. Qlava Kərim
3. Ələkbər (1978-ci ilə kimi evi məktəb kimi istifadə olunub)
4. Mehdi oğlu Həsən
5. Cəlal (1905-1917-ci illərdə ermənilərlə qanlı döyüşlər aparmışdır.)
6. Bağır (1905-1917-ci illərdə ermənilərlə qanlı döyüşlər aparmışdır.)
7. Abbas (1905-1917-ci illərdə ermənilərlə qanlı döyüşlər aparmışdır.)

**Alim və şairlər**

1. Vahid Əziz (şair)
2. Vaqif Cəfərov (alim)
3. Lətif (Gəncə Texnologiya Universitetində şöbə müdiri)
4. Mehdi Ataş oğlu (şair, aşıq)

**İslam dininin təbdiğatçıları**

1. Molla Şükür
2. Seyidhacı Əmirxan
3. Molla Əmir

**Qarabağ döyüşündə vuruşanlar**
1. Vəzir Surxay oğlu (Milli qəhrəman)

**Cəngavər adamlar**
1. Qoçu Məmməd

Tarixi sənədlər və faktlar göstərir ki, Her-her kəndində qədim dövrdə də azərbaycanlılar yaşamışlar. Bunun isbatı üçün 1727-ci ilə aid bir statistik məlumatı, arxiv sənədini oxucuların nəzərinə çatdırmaq istəyirəm.

**"DƏRƏLƏYƏZ NAHİYƏSİNƏ TABE OLAN HER-HER KƏNDİ**

Xudaverdi Pirverdi oğlu - bennak; Qasım Haqverdi oğlu - bennak; Novruz Allahverdi oğlu - bennak;
Bennak - 3
Yarım çift - 2
I dəyirman - yararsız haldadır
Bəzirxan - 2
4 dəyirman - yarım il işləyirlər
Gəlir:
Çift vergisi - 50 (ağça)
Bennak vergisi - 54 (ağça)
İspəncə vergisi - 500 (ağça)
Buğda - 20 kile - dəyəri 600 (ağça)
Arpa - 11 kile - dəyəri 230 (ağça)
Kərdiyər - 15 kile - dəyəri 215 (ağça)
Pərinc - 12 kile - dəyəri 252 (ağça)
Darı - 4 kile - dəyəri 60 (ağça)
Sumax - 2 kile - dəyəri 30 (ağça)
Kəlül - 8 kile - dəyəri 144 (ağça)
Mərcimək - 2 kile - dəyəri 36 (ağça)
Noxud - 5 kile - dəyəri 90 (ağça)
Kərəsnə - 11 kile - dəyəri 165 (ağça)
Paxla - 1 kile - dəyəri 15 (ağça)
Başqa yerdən gəlib bu kəndin torpağından əkib-becərmə işləri üçün istifadə edənlərdən alınan vergi - 170 (ağça).
Üzüm və meyvə üşrü - 1.200 (ağça)
Adəti-ağnam - 290 (ağça)
Ağıl vergisi - 300 (ağça)
Dönüm vergisi - 600 (ağça)
Dəştibani vergisi və əkin yeri üçün tapu - 1.100 (ağça)
Pətək üşürü - 150 (ağça)
Maş üşürü - 30 (ağça)
Dəyirman vergisi - 130 (ağça)

Tənbəki üşürü - 200 (ağça)

Bəzirxan vergisi - ildə 240 (ağça)

Bakirə qız və dul qadın üçün gəlir vergisi - 90 (ağça)

Badi-hava, işlənmiş günah, törədilmiş cinayət, qul və kənizlərin sərbəstlik almaları üçün vergi - 3.110 (ağça).

Yekun - 10.021 (ağça)[1]

**İnformator:** Mehdiyev Mehdi Ataş oğlu (Aşıq Mehdi), 1923-cü il təvəllüdlü, 80 yaşlı, 1949-cu ildə Her-herdən deportasiya olunmuş, Tərtər rayonunun Səhləbad kəndində məskunlaşmışdır.

## QOŞAVƏNG



"Qoşavəng" adlı abidə Herher kəndi əlrzisindədir. Qoşavəng adlı belç bir abidə Ələyəz kəndinin ərazisində də vardır.

"Qoşavəng" adı ilə bizə gəlib çatan abidənin müxtəlif vaxtlara istinad olunan tarixi var. N.Zeydliç öz qeydiyyatında bildirir: Her-her çayının sağ sahilində qatar-qatar düzülmüş sarı dağların qoynunda dövrün ən gözəl abidəsi olan Qoşa-Vəng 1291-ci ildən bir yadigar qalmışdır.

Z.Lalayants isə bildirir ki, "Her-her kəndindəki abidə VI əsrdə tikilmiş, 1282-ci ildə Ovhanes tərəfindən həmin abidə üzərində qartal, qartalın ayağında (caynağında) qoyun rəsmi həkk edilmişdir".[2] Lakin Z.Lalayants məlum həqiqəti danmağa çalışır və bu abidəni ermənilərə aid etmək istəyir. Məgər o bilmirmi ki, qartalın caynağında qoyun rəsmi türk xalqlarına məxsusdur?!

"1918-1920-ci illərdə ermənilər abidənin bütün divarlarını tam yazıb abidəni "xaç"laşdırmışlar. Amma türkçülüyün rəmzi olan qartal və qoyun füsünkar cazibəliyi ilə türkçülüyü özündə saxlamışdır..."

Her-her kəndi ətrafında böyük bir qəbiristanlıq da vardır. Həmin qəbiristanlıq daşdan düzəldilmiş qoç büstləri ilə bəzədilmişdir. Qəbirüstü daşların üzərində at, kişi, qadın, saz, qoyun, kəl və bəzi vəhşi heyvanların rəsmləri çəkilmişdir. Çox güman ki, bəzi rəsmlər həmin şəxslərin sənətini, bəziləri isə ölmə səbəblərini əks etdirmək üçün çəkilmişdir".[3]

------------------------

1. Ziya Bunyadov və Hüsaməddin Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh. 308-309.
2. Kamil Dərələyəzli. Dərələyəz od içində. Bakı, 2001, səh.110-112.
3. Yenə orada. səh.110-111.

## HEŞİN

Heşin kəndi Dərələyəzin Yeğeqnadzor (Keşkənd) rayonunda yerləşir. Rayon mərkəzindən 14 km şərqdə Çivə və Yelpin kəndləri yanında, İrəvana gedən avtomobil yolunun yaxınlığındadır.[1] Bu kəndin əhalisi bağçılıq, əkinçilik, maldarlıq, taxılçılıq və arıçılıqla məşğul olmuşdur.

1590-cı illərin tarixini özündə əks etdirən "İrəvan əyalətinin icmal dəftəri" adlı kitabda bu kəndin adı "Meşin", 1727-ci illərin tarixini əks etdirən "Naxçıvan sancağının müfəssəl dəftəri" adlı kitabda bunun "Həşin" formasında olduğu qeyd olunur və göstərilir ki, həmin dövrlərdə bu kəndin gəliri 3.608 axça olmuşdur.[2] Başqa bir mənbədə göstərilir ki, bu kəndin adı Azərbaycanın Şuşa qəzasında olan Keşan kəndinin adı ilə səsləşir.[3]

Tarixi mənbələrdən məlum olur ki, kənddə 1831-ci ildə 62 nəfər, 1873-cü ildə 174 nəfər, 1886-cı ildə 272 nəfər, 1897-ci ildə 229 nəfər, 1914-cü ildə 260 nəfər, 1916-cı ildə 331 nəfər əhali olmuşdur.[4]

Heşin zəncirvari dağ silsilələri ilə əhatə olunmuşdur. 1918-ci ildə ermənilər bu kəndin əhalisinin əksəriyyətini qırmış, kəndi dağıtmış və yandırmışlar. Kənd camaatının sağ qalanları Naxçıvana və Şərura qaçmışlar. 1922-ci ildə kəndin qaçqınlarından 116 nəfəri kəndə qayıtmışdır. Kəndə qayıdan qaçqınların sayı 1931-ci ildə 164 nəfərə çatmışdır. Kənd əhalisi 1930-cu illərdə kəndi yenidən bərpa etmiş, burada kolxoz qurulmuş, həmçinin məktəb, klub, kitabxana açılmışdır. Kənd əhalisi çoxalmış və kəndi tamamilə abadlaşdırmışdır. Lakin bunların sevinci uzun sürməmiş və erməni kəndlərinə yaxın olan bu kəndi Ermənistan hökuməti 1948-1949-cu illərdə birincilər sırasında zorla Azərbaycana deportasiya etmişlər. 1949-cu ildə bu kəndin əhalisi Saatlı rayonunun Şirinbəy kəndinə köçürülmüş və o köçənlərin əksəriyyəti hal-hazırda həmin kənddə yaşayırlar. Hal-hazırda Heşin kəndinin əhalisi Azərbaycanın bir çox rayonlarında – Şəkidə, Qaxda, Bərdədə, Şəmkirdə, Sabirabadda, Bakıda məskunlaşmağa məcbur olmuşdur. Bu kəndin əhalisinin çoxu 1953-cü ildən sonra yenidən öz doğma yurduna qayıtmış və kəndi bərpa etmək istəmişlər, lakin rayon təşkilatları bunların kəndi bərpa etməsinə imkan verməmişlər. Mən bu

---------------------

1. Bax: Mirzəyev H. Heşin kəndi və oradakı onomastik vahidlər, Filologiya məsələlərinə dair tematik toplu, № 3-4, Bakı, 2001, s.3-9.

2. Z.Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri, Bakı, 1996, səh.57; Z.Bünyadov və H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri, Bakı, 1997, səh.34

3. B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998, səh.413.

4. Статистическое описание Нахичеванской провинции, СПб, 1833 стр.164; И.Шопен. Историческое памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи: СПб, 1852, стр. 615; Свод статистических данных о населении Загафгазского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1040; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh.92; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh.365. H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh.245.

son hadisələrin canlı şahidiyəm. Camaat gəlib kənddə yaşayırdı, lakin ermənilər, onların kənddə kolxoz və sovxoz qurmasına icazə vermədilər. Bunlar özbaşına kənddə yaşayırdılar, sonradan onları zorla kənddən qovdular. Bir neçə ailə də 1988-ci ildə qaçmağa məcbur oldu.

Heşin toponiminin təşəkkülünü araşdırmağa hələlik vaxtım çatmadı. Ömür vəfa qılsa kitabın ikinci nəşrinə qədər bunu araşdıracağam. Əgər bunu mən araşdıra bilməsəm, bu məsələnin həlli gələcək nəslin üzərinə düşür.

## HEŞİN KƏNDİNDƏ OLAN ONOMASTİK VAHİDLƏR

**Tayfa, sülalə, nəsil adları**

1. Bozdarrar tayfası
2. Xudiklilər tayfası
3. Qacarlar tayfası
4. Qəcirlər tayfası
5. Məşədi İmarlı nəsli
6. Məmmədəli sülaləsi
7. Kəlbaybağır nəsli
8. Avdaxan nəsli
9. Kalbaynəcəf törəməsi
10. Heşinlilər tayfası

**Məhəllə adları**

1. Göl məhləsi
2. Aşağı məhlə

**Qəbiristanlıqlar, abidələr**

1. Heşin baba qəbiristanlığı
2. Kür qəbiristanlığı
3. Qoçbaşı qəbiristanlığı
4. Ağ kilsə qəbiristanlığı
5. Qız qayası (daş kitabələr)

**Ziyarətgahlar**

1. Abduləsər dağı
2. Qoşa dağdağan
3. Seyid ağacı
4. Dağdağan dərəsi
5. Qız qayası
6. Söyüdlü
7. Didivan dağı
8. Qaval daşı

**Kahalar, zağalar**

1. Qənşər kaha (təxminən 1000 qoyun tutur)

2. Toxlu kahası (təxminən 1000 qoyun tutur)
3. Demlərin kahası (təxminən 500 qoyun tutur)
4. Çay zağası (təxminən 500 qoyun tutur)
5. Ballı qaya kahası
6. Göy qaya kahası
7. Qara qaya kahası
8. Oğuz üzü kaha

**Yurd adları**

1. Əyricə yurdu
2. Xanın yaylağı
3. Siçanlı yurd
4. Tikanlı yurd
5. Çirişdi yurd
6. Cəvizdi yurd
7. Taxta yurd
8. Kənəli yurd
9. Ülgür yurdu
10. Göl yurd
11. Xanın yaylağı
12. Şapa düşən

**Dağ adları**

1. Ardıclı dağ
2. Didivan dağı
3. Birəli dağ
4. Can qurtaran dağ

**Qaya adları**

1. Ballı qaya
2. Toxlu ağılı qayası
3. Qırmızı qaya
4. Qara qaya
5. Buzxana

**Dərə adları**

1. Cinli dərə
2. Qarlı dərə
3. Çörək daşı dərəsi
4. Aratılı oğlunun dərəsi
5. Toxlucalı dərəsi
6. Çirişli dərə
7. Çuxur dərə
8. Nərgizli dərə

9. Kəklikli dərə
10. Axuralının dərəsi

**Təpə, gədik adları**
1. Dəymə dağın təpəsi
2. Canqurtaran təpə
3. Buxov təpə
4. Güllü gədik

**Yollar**
1. Dolaylar
2. Kənəli yolu
3. Şiş qayanın yolu
4. Ağkilsə yolu
5. Yelpin yolu
6. Keşkənd yolu

**Bərələr**
1. Tarlı bərə
2. Təkə bərəsi
3. Taxtın üzü
4. Pilləkənlər
5. Göyqayanın bərəsi
6. Şişqayanın bərəsi
7. Qırmızı qayanın bərəsi

**Arxaclar**
1. Göy qaya arxacı
2. Mozalanlı arxac
3. Soyuq bulaq arxacı
4. Şiş qaya arxacı
5. Sal arxacı
6. Şirinbulaq arxacı
7. Vəlibəy arxacı
8. Demlərdəki arxac
9. Yanıq meşə arxacı

**Keçidlər, aşırımlar**
1. Güllü gədik
2. Əyricə aşırımı
3. Siçanlı burnu
4. Qaraqaya keçidi
5. Qarlı dərə keçidi
6. Can qurtaran keçid
7. Taxt keçidi

**Kövşən, biçənək, əkin yeri, örüş, qoruq adları**

1. Ağ daş
2. Çərək daş
3. Şorrar (Şorluq)
4. Kənəli yer
5. Çəvlik (kol-kosluq)
6. Alışan qoruğu
7. Tikanlı
8. Cəvizli
9. Kotan günnük
10. Ülgür
11. İydəli
12. Göl yeri
13. Həmərsünnü yer
14. Siçanlı yer
15. Çuxur yer
16. Nəcəfalı qoruğu
17. Yasdana
18. Çay yeri
19. Güney
20. Demlər
21. Xanalı qoyan ağız
22. Çildirimli
23. Qarğadüzü
24. Məmmədalı əkən
25. Çörək daşı
26. Söyüd ağacı
27. Sona çuxuru
28. Kələkli yer
29. Güllü gədik
30. Cəvizdi biçənək
31. Taxt kaldarlı
32. Nəcəfalı qoruğu
33. Qəbiristanlığın altı
34. Ələsgərin yeri
35. Baxşalı yeri
36. Alyetər oğlunun yeri
37. Bağır uşağının yeri
38. Təpənin altı

**Bağ və meşə adları**

1. Bağlar
2. Alma bağı
3. Ərik bağı

4. Cabbarın alması
5. Toxum cəviz
6. Üzüm bağları
7. Camalın bağı
8. İydəlik
9. Maral buynuzu meşəsi
10. Ağkilsə meşəsi
11. Vən meşəsi
12. Dəymədağın meşəsi
13. Qız qayanın meşəsi
14. Sona çuxuru meşəsi
15. Yanıq meşə
16. Ayı dərəsi meşəsi
17. Cəvizli meşə

**Bulaq, çay, göl adları**

1. İydəli bulaq
2. Muxtar bulağı
3. Söyüdlü bulaq
4. Qaranın bulağı
5. Xatın bulağı
6. Gur bulaq
7. Qoşa qardaş bulağı
8. Arğalı içən bulaq
9. Kəklik bulağı
10. Qızlar bulağı
11. Kora bulaq
12. Mehralı bulağı
13. Yuxarı bulaq
14. Soyuq bulaq
15. Şirin bulaq
16. Göy qaya bulağı
17. Tikanlı bulaq
18. Cabbarın bulağı
19. Qaranın bulağı
20. İmanın bulağı
21. Cəvizli bulaq
22. Kəhriz
23. Heşin çayı
24. Göllər
25. Vartanıs gölü.

## 1937-ci ilin repressiya qurbanları

1. Məhərrəmov Abdulla Həşim oğlu
2. Mamedov Məhəmməd Rza oğlu
3. Qənbərov Qəzənfər Abdulla oğlu
4. Mamedov Əli Mustafa oğlu
5. Bağırov Baba.

## Heşin kəndindən 1941-1945-ci il Böyük Vətən müharibəsinə gedənlər

**a) qayıtmayanlar**

1. Həsənov Əli Vəli oğlu
2. Bağırov Əmrah
3. Əliyev Fətulla Hüseyn oğlu
4. Kələşov Abdulla İbrahim oğlu
5. İbrahimov Bayram Kələş oğlu
6. Şıxalıyev Muxtar
7. Şıxalıyev Nəbi
8. Həsənov Əsəd Həbib oğlu
9. Quliyev İbrahim
10. Abdullanın oğlu Məhəmməd

**b) qayıdanlar**

11. Əhmədov Həsən Mamoş oğlu
12. Əhmədov Süleyman Həsən oğlu
13. Hüseynov Hüseyn Həsən oğlu
14. Hüseynov Əmiraslan Həsən oğlu
15. Şəmilov Usub Mamoş oğlu
16. Məmmədov İbrahim Həbib oğlu
17. Şəmilov Şəmil Abbas oğlu
18. Mirzəyev Səlim İsa oğlu
19. Mamedov Nadir Əziz oğlu
20. Əhmədov Cəlal İsmayıl oğlu
21. Muradov Əmirqulu Musa oğlu
22. Muradov Həsənqulu Musa oğlu
23. Həsənov Vəli Əli oğlu
24. Məmiyev Hüseynalı Məmiş oğlu
25. Məmmədov Həbib Məmmədağa oğlu

İnformatorların dediyinə görə, Heşin kəndindən 75 nəfər müharibəyə getmişdi. Lakin mən yerdə qalanları haqqında məlumat toplaya bilmədim. Yaddaşlarda qalanlar yuxarıda qeyd etdiklərimdir. Gələcək nəsillər bunları arxivlərdən tapıb üzə çıxarmalıdır.

**Heşin kəndinin tanınmış adamları, əsasən, aşağıdakılardır:**

1. Bağırov Firudun Baba oğlu-professor
2. Mamedov Həsən Abbas oğlu-1930-cu illərdə Vedi və Qarabağlar rayonunda məhkəmə sədri işləmişdir.
3. Şəmilov İbrahim Abbas oğlu-polkovnik; hərbçi olub.
4. Şəmilov Elman İbrahim oğlu-general;
5. Şəmilov Usub Mamoş oğlu-müxtəlif vəzifələrdə işləyib.
6. Kəlbay Məmmədbağır -3 dəfə Məkkə-Mədinə ziyarətinə getmişdir. Bu müdrik adam Şərqin bir çox yerlərində olmuş, Heşin kəndinə tünk vasitəsilə bulaq suyu gətirmişdir.
7. Bağırov Camal-Abbasqulubəyin "Qırmızı tabor" alayında komandir olaraq yerli daşnak Nijdeyə qarşı mübarizə aparmış, quruculuq illərində çox iş görmüşdür. Naxçıvanda, Şahbuzda, Dərələyəzdə bir çox vəzifələrdə çalışmışdır.

Bağırov Camal 1920-1940-cı illərdə Keşişkənd rayonu icraiyyə komitəsində sədr müavini vəzifəsində işləmişdir. 2 dəfə Ermənistan ali sovetinə deputat seçilmiş, Moskva qurultaylarında iştirak etmiş, xidmətlərinə görə Stalinin yazılı təşəkkürünü almışdır. Azərbaycanlılara kömək etməyə çalışırdı. Lakin Keşkənd rayonunun rayon partiya komitəsinin ikinci katibi vəzifəsində işləyən Məmmədov Savalan və Keşkənd rayon daxili işlər şöbəsinin rəis müavini vəzifəsində çalışan Məmmədov Eylas Dərələyəzdə yaşayan azərbaycanlılara arxa durmamışlar. Bu kəndin sakini, rayonda və kəndlərdə müxtəlif vəzifələrdə işləyən Abbasov Alı isə ermənilərin dostu, azərbaycanlıların düşməni kimi tanınmışdır. Dərələyəzdə elə bir azərbaycanlı tapa bilməzsən ki, Abbasov Alı haqqında müsbət söz desin. Mən bu üç adamın üçünü də yaxşı tanıyıram və onların gördüyü işlər, etdiyi əməllər gözümün önündədir. Bunların üçü də mən anadan olduğum kənddə işləmişdir. Dərələyəz mahalında yaşayan azərbaycanlıların əksəriyyəti bu adamları ermənipərəst kimi tanıyırlar.

**İnformatorlar:** Bu məlumatları 19 mart 2001-ci ildə Heşin kənd sakinləri, Böyük Vətən müharibəsi iştirakçıları, hal-hazırda Azərbaycan Respublikası Saatlı rayonunun Şirinbəy kəndində məskunlaşan 78 yaşlı (1923) Əhmədov Həsən Mamoş oğlu, 77 yaşlı (1924) Hüseynov Əmiraslan Həsən oğlu və Heşin kənd sakini, hal-hazırda Şəki rayonu Üzümçülük sovxozunda yaşayan, ali təhsilli müəllim, 60 yaşlı Bağırov Fərman Camal oğlu vermişdir.

## HƏSƏNKƏND

Həsənkənd Dərələyəzin Yeğeqnadzor (Keşkənd//Keşişkənd) rayonunda kənd adıdır. Bu kənd Arpa çayının üstündə Selim gədiyinə və Ələyəz dərəsinə gedən yolun kəsişdiyi yerdədir. Kəndin hər iki tərəfindən çay axır. Kənddə qədim dövrlərdən qalan abidələr də vardır.

Qeyd etməliyəm ki, 1828-ci ilə qədər bu kənddə həmişə azərbaycanlılar yaşamışlar. Lakin 1828-ci ildən sonra Çar hökuməti məhsuldar torpağa, çox-

lu bağ-bağata və strateji əhəmiyyətə malik olan bu kənddən azərbaycanlıları tamamilə çıxardıb onların evlərinə ermənilәri yerləşdirmişdir. Bu zaman kəndin ağsaqqalı Həsən kişi bu kəndlə Hosdun kəndinin arasında "Gümüş bulaq" deyilən yerdə çadırını qurub yaşayır. Lakin ermənilər Həsən kişini buradan qaçırtmaq üçün türk libasında gecə onun evinə basqın edir və evini çapıb talayırlar. O zamandan həmin yerin adı qalıb "Həsən çapılan yer".

Yaşlı adamların dediyinə görə, bu kəndi Həsən adlı şəxs abad etmişdir. 1950-ci ilə qədər Həsən kişinin tikdirdiyi dəyirmanın qalıqları həmin kənddə qalırdı. Mən onu öz gözlərimlə görmüşəm. Çayın qırağında söyüd ağaclarının içində, qayalığa yaxın yerdə idi.

1852-ci ilin məlumatında göstərilir ki, bu kənddə 17 ailə 92 nəfər erməni (53 kişi, 39 qadın), 1886-cı ildə isə 34 ailə 334 nəfər erməni (186 kişi, 166 qadın) yaşamışdır.[1]

Elmi ədəbiyyatdan aydın olur ki, XVIII əsrdən əvvəlki dövrdə bu kəndin adı Həsənkənd deyil, başqa adla adlanmışdır. Lakin onun yaxınlığında Həsənkənd Qışlağı adında yaşayış məskəni olmuşdur.

Dərələyəzdə ömür sürən bir çox yaşlı adamların, o cümlədən ensiklopedik məlumata malik olan 93 il ömür sürən və 1982-ci ildə dünyasını dəyişən atam İbrahim Mirzəli oğlunun Həsənkəndi abad edən Həsən kişi haqqında olan bir rəvayəti oxucuların və gələcək tədqiqatçıların nəzər diqqətinə çatdırmaq istəyirəm.

Yaşlı adamların söylədiyinə görə hansısa müharibə dövründə həsən kişi köçüb Qarabağın Ağdam bölgəsində Suma-Güllücə adlı yerdə çadır qurub ki, burada məskən salsın, o, təxminən bir ay burada qalır. Onun söylədiyinə görə burada böyük meşəlik var imiş. Gecələr vəhşi heyvanların səsindən yatmaq olmurmuş. Ona görə də Həsən kişi köçünü yükləyib Goranboy rayonuna tərəf gedir və dağın ətəklərindəki kəndlərin yaxınlığında bir çinar ağacının altında çadırını qurur. Gecənin birində Şahsevənlər bura hücum edib var-dövləti aparmaq istəyirlər. Həsən kişinin arvadı "Həsən dur" deyə qışqırır. Deyilənə görə həmin çinara uzun müddət Həsəndur çinarı deyiblər. Həsən kişi burada da qərar tuta bilməyib Tərtər çayı sahili ilə dağlara doğru yol atır. Ağdərə rayonunda "Həsənirz" deyilən yerdə də bir müddət qalır və nəhayət, Dərələyəzə qayıdır və Həsənkəndi yenidən abad edib yaşayır və bura ətraf azərbaycanlı kəndlərinin mərkəzi olur. Bura ona görə mərkəz hesab olunurdu ki, ətraflarda olan 20-dən artıq kəndin yolu bu kənddən keçirdi.

-------------------

1. И.Шопен. Исторические памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 115-118; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №976.

## HƏSƏNKƏND KÖRPÜSÜ



Bu tarixi körpü Həsənkənd yaxınlığında, gün batana doğru, Arpa çayının istiqamətində, Həsənkəd xəstəxanasından 50 metr aşağı, Səlim çayının üzərində tikilmişdir. Ən qədim körpülərdən biridir. İpək yolu bu körpünün üstündən keçir.

Körpünün iki sütun arasındakı uzunluğu 5,38 m, eni 2,67 metrdir. Su səthindən 3,5 m yüksəklikdə olan körpünün ümumi uzunluğu 12 metrdir.

## HORBADIĞ

Horbadığ Dərələyəzin Yeğeqnadzor (Keşişkənd//Keşkənd) rayonunda azərbaycanlı kəndidir. Bu kənd rayon mərkəzindən 13 km şimal-qərbdə olan Erdəpin (Yeğeqis) kəndinin yaxınlığında yerləşmişdir.[1] Statistik mənbələrin verdiyi məlumata görə Horbadığ kəndində 1831-ci ildə 35 nəfər, 1873-cü ildə 263 nəfər, 1886-cı ildə 342 nəfər, 1897-ci ildə 406 nəfər, 1904-cü ildə 592 nəfər, 1914-cü ildə 651 nəfər, 1916-cı ildə 503 nəfər azərbaycanlı əhali olmuşdur.[2]



1918-ci il qırğınında əhalinin sağ qalmış cüzi bir hissəsi kənddən – ölümün pəncəsindən qaçıb qurtara bilmişdir.

1922-ci ildə öz doğma yurd-yuvasından didərgin salınmış əhalidən yalnız 98 nəfəri kəndə qayıtmışdır. Lakin bunlar kəndə qayıdanda görürlər ki, artıq kənddə

------------------

1. Mirzəyev H. Horbadığ kəndi və onun ərazisində olan onomastik vahidlər, Filologiya məsələlərinə dair tematik toplu, № 5 (17), Bakı, 2001, s.99-103.

2. И.Шопен. Исторические памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 615; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №962; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 92; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 365, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 245.

130 nəfər erməni məskunlaşmışdır. Bundan sonra ildən-ilə erməni əhalisinin sayı burada artmış və 1931-ci ildə Horbadığ kəndində 227 nəfər erməni və 100 nəfər azərbaycanlı olmuşdur. 30-cu illərdə kənddə kolxoz qurulmuşdur. Kənddə səkkizillik məktəb, klub və kitabxana var idi. 1949-cu ildə bu kəndin əhalisi Azərbaycanın Salyan rayonuna deportasiya edilmiş və onlar rayonun bir neçə kəndində məskunlaşmağa məcbur olmuşlar. Lakin kənd əhalisinin bir hissəsi Salyanın iqliminə dözə bilmədiyi üçün Qax rayonuna köçmüş və hal-hazırda orada yaşayırlar. Ümumiyyətlə, bu kənd əhalisinin əksər hissəsi Salyanda, bir hissəsi Qax rayonunda, bir hissəsi də Bakıda və Sumqayıtda məskunlaşmışlar.

Qədim dövrlərdən azərbaycanlı kəndi olan Horbadığda XI-XII əsrlərə aid abidələr, alban türklərinə aid kilsələrin qalıqları, Oğuz qəbiristanlığının izləri vardır.

Horbadığ toponiminin mənşəyinə, formalaşmasına gəldikdə, demək lazımdır ki, bu ad xalis türk toponimidir və iki sözün birləşməsindən əmələ gəlmişdir.

Fikrimizcə, bu, iki yolla – ya coğrafi relyefə görə, ya da tayfa adı ilə bağlı olaraq əmələ gələ bilər.

1. I mülahizə: Məlum olduğu kimi, qədim türk dillərində "art"//"ard" sözü dağ, dağlıq, dağ keçidi, aşırım mənalarında işlənmişdir.[1] Belə bir fakt da məlumdur ki, qədim türk dillərində, proto-türk dövrünün ilk çağlarında saitlər tələffüz edilərkən boğazda tutulma halları baş vermiş və saitdən qabaq "h", "q", "x" samit səsləri eşidilmişdir ("azər-xəzər", "Azərbaycan-Xəzərbaycan", "hat-at", "aş-xaş", "ör-hör" və s.).[2]

Yuxarıdakı dil faktlarından belə bir nəticə çıxarmaq olar ki, Horbadığ toponiminin birinci tərəfi dağ, dağ keçidi mənasını bildirən "hart-hard, hort, hord, Art, ort" – sözü ilə bağlıdır. Toponimin ikinci tərəfi isə batıq sözüdür. Dağ batığı, dağ keçidindəki batıq, dağdakı çala mənasında işlənmişdir.

Mən bu kəndin coğrafi relyefinə yaxından bələdəm. Kənd yoxuşun üstündə, uca dağların, dağ yamaclarının ətəyindəki çalada, nisbətən batıq yerdə yerləşir. Kənd ilə dağın ətəyində də böyük bir çala vardır. Bura Dəmirtəpə dağında baş vermiş böyük vulkan yerinin ətəyidir. Bəlkə də uca dağın ətəyindəki bu böyük çala-çuxur yer bizim eradan qabaq baş vermiş həmin vulkan nəticəsində yaranmışdır.

2. II mülahizə. Belə bir faktı oxucuların diqqətinə çatdırım ki, Dərələyəzdə Horbadığ kəndinin yaxınlıqlarında Hors, Hostun, Hortun adlı kəndlər vardır və bu kəndlərin adı "hors" tayfa adı ilə bağlıdır. Bəlkə də Horbadığ kəndinin birinci tərəfində hors tayfa adı olmuş və bu Horsbatığı şəklində formalaşmışdır. Sonradan söz ortasından "s" samiti, söz sonundan isə "ı" saiti düşərək Horbadıq şəklinə düşmüşdür.

Fikrimizcə, haqqında söhbət gedən toponim bu iki yolun biri ilə əmələ gəlmişdir.

--------------------

1. Древнетюркской словарь, М., 1969, с.55.
2. Firidun Ağasıoğlu. Azər xalqı. Bakı, 2000, səh.18-24, 204-208.

Başqa kəndlərdə olduğu kimi, Horbadığ kəndində də ermənilər qanlı cinayətlərə əl atmışlar. Onlardan birini burada qeyd edib gələcək nəslə çatdırmaq istəyirəm. Bu əhvalatı 100 yaşdan artıq ömür sürən Tuyğun arvad şəxsən mənə danışmışdır.

Ələyəz dərəsində və ona yaxın kəndlərdə 15-ə yaxın kəndin qlavası olan Horbadığlı Ağayarı ermənilər al dillə tutub Baldırğanlı dərə adlanan yerə aparır və orada arvadının gözü qarşısında onun başını kəsirlər.

Bu anda Ağayarın arvadı Tuyğun qaçıb kolların arasında gizlənir və üç gün gecələr piyada, ayaqyalın, başıaçıq Ələyəz, Qovuşuq, Nəbilər, Gülüdüzü, Qoduxvəng kəndlərini keçib ermənilərin qaçqın saldığı camaatın arxasınca gedir. Qoduxvəng kəndindən yuxarı, Gülü qəbri adlanan yerdə görür ki, qaçan camaat artıq Soyuqbulaq adlanan yerdən Kəlbəcərə doğru aşmaq üzrədir və 5-6 km məsafədən onları haraylasa da, səsi onlara çatmır. 3 gün ac olduğu üçün o yolda yalnız meyvələrlə qidalanır, zorla Gülü qəbri adlanan yerə gəlib çıxır. Bu anda Dərələyəzdə Ayısəsi kəndindən olan məşhur qaçaq Süleyman atla qəflətən gəlib bura çıxır. Qaçaq Süleyman da elin, camaatın ardınca gedirdi. O, Tuyğunu görür və onu ata mindirib Soyuqbulaqda Murtulu yurdu adlı yerdə camaata çatdırır və Tuyğunu qohum-qardaşına təhvil verir. Tuyğun arvadı mən şəxsən görmüşəm, 1970-ci illərə qədər o yaşayırdı. Mənim anamın yaxın qohumudur. Mən dəfələrlə bu hadisəni ondan soruşmuşam. Ermənilərin orada törətdikləri belə cinayətləri saatlarla danışmaqla qurtarmaz. Ermənilər Horbadığ kəndində yaşlıları, qadınları ot tayalarına basdırmış və od vurub yandırmış, hamilə qadınların qarnına tüfəngin süngüsünü keçirərək öldürmüşlər.

## HORBADIĞ KƏNDİNDƏ OLAN ONOMASTİK VAHİDLƏR

**Tayfalar**
1. Yetimli
2. Hacı Eyvazlar//Qannı Eyvazlar
3. Sonalar
4. Axunnular

**Məhəllələr**
1. Yetimli məhəlləsi
2. Qanlı Eyvazlar məhəlləsi
3. Axundlu məhəlləsi

**Yer, kövşən, biçənək adları**
1. Zeynəbçalan
2. Kərimqaçan
3. Böyük yal
4. Kiçik yal
5. Dəmirçi yeri
6. Bağçacıq
7. Zığlıq

8. Hüseyn düşən
9. Göl yeri
10. Düzdər
11. Palantökülən
12. Coşalı yoncası
13. Dolayılar
14. Həsənin demi
15. Babanın bağçası
16. Göl biçənəyi
17. Səfəralı biçənəyi
18. Biçənək yeri
19. Alhümmətin yeri
20. Qazan durmaz
21. Qırmızı torpaq
22. Qızıl vəng (Ballı qayada)

**Yurd və yaylaq adları**

1. Coşalı yurdu
2. Qazandurmaz yurd
3. Qaraçı yurdu
4. Susuz yurd
5. Çala yurd
6. Göllər (yurd yeri)
7. Yaz yurdu
8. Əməri yurdu
9. Mahmuddu yaylağı, Mahuddu yaylağı

**Qaya, təpə adları**

1. Dəmirtəpə
2. Ballı qaya
3. Kəmərri qaya

**Çay və bulaq adları**

1. Dəmirri yerın çayı
2. Coşalının çayı
3. Tanın çayı
4. Gümüş bulaq
5. Qırx bulaq
6. Navlı bulaq
7. Sızqa bulaq
8. Baldırğanlı bulaq
9. Kərimqaçan bulaq
10. Şor bulaq
11. Əsgərin bulağı

12. Zığlığın bulağı
13. Çınqıllı bulaq

**Dərə adları**
1. Dar dərə
2. Navlı dərə
3. Cəvizdi dərə
4. Köç dərəsi

**Meşə adları**
1. Coşalının meşəsi
2. Gölün meşəsi
3. Şəmilin meşəsi
4. Almalı meşə

**Ocaq, pir adları**
1. Ocaq yeri
2. Armud piri
3. Cırıxlar

**Abidə adları**
1. Bağçacığın kilsəsi (Coşalının axar-baxarında yerləşir)

## 1937-ci ildə repressiya qurbanı olanlar

1. Mirzəyev Nəsib Alı oğlu
2. Mirzəyev Maman Alı oğlu
3. Məmmədov Əmirzadə Əhməd oğlu

Bunların heç biri geri qayıtmayıbdır.

## Horbadıq kəndindən 1941-1945-ci il Böyük Vətən müharibəsinə gedənlər

**a) qayıtmayanlar**
1. Ələkbərin oğlu Temir
2. Cabbar Həsənov
3. Kərimoğlu Əmrah
4. Əliyev Vəli Əli oğlu
5. Həsənalı Ağarzayev
6. Bəhman (Qannı Eyvazlardan)
7. Hüseynalıyev Yunus Məhəmməd oğlu

**b) qayıdanlar**
8. Ləzim Dadaş oğlu
9. İsa Nəsib oğlu

yaşamışdır.[1]

1914-cü ildə əhalinin sayının az olmasının səbəbi odur ki, 1905-ci ildə ermənilər bu kənddən çox adam qırmışlar.

1922-ci ildə 192 nəfər, 1926-cı ildə 172 nəfər, 1931-ci ildə 325 nəfər azərbaycanlı yaşamışdır. 1922-ci ildən sonra bu kənddə azərbaycanlıların sayının az olmasının başlıca səbəbi odur ki, ermənilər bu kənddə məskunlaşmış və azərbaycanlıları öz evlərinə qayıtmağa qoymamışlar.

1905-ci il Dərələyəz malahında "Hors yanan il" adı ilə məşhurdur. Dərələyəzin yaşlı adamlarından eşitmişəm ki, 1905-ci il erməni-müsəlman davasında ermənilər birinci dəfə Hors kəndinə hücum edib, kəndi yandırıb və əhalisini amansızcasına qırmışlar. Ermənilərin bu kəndə hücum etməsinin səbəbi odur ki, Hors öz dövrünə görə böyük kənd olmuş və bunların ətraf kəndlərdə (Hosdunda, Horbadıqda, Hortunda, Qışlaqda, Qovuşuqda...) çoxlu qohum-əqrabaları yaşayırmış. Ermənilər onları da tələyə salıb burada qırmaq istəyirmişlər.

Ermənilərin belə bir hiyləsi baş tutur. Hostun kəndindən olan Məşəd Məmmədxan adlı el ağsaqqalı öz atlı dəstəsi ilə Horsdakı qohumlarının köməyinə gedir. Hors ilə Sallı kəndlərinin arasında yerləşən, "Ərikli düz" adlı yerdə bunlar pusquda dayanmış silahlı erməni dəstələri ilə qarşılaşırlar. Şiddətli döyüş gedir. Say etibarilə çoxluq təşkil edən ermənilər Məşəd Məmmədxanı əsir alır və belinə qaynar samovar bağlayıb, işgəncə ilə öldürürlər.

Qaniçən ermənilər 1918-ci ildə el ağsaqqalı, Dərələyəzin Külüdüz kəndindən olan Abbas bəyi, Vedidən Şahadı Aşıq Cəlili, Göyçədən Aşıq Nəcəfi də bu üsulla öldürmüşdür.[2]

Bu kənd adının etimologiyasına gəldikdə demək olar ki, Hors sözü türk tayfalarından birinin adıdır. Dilçilik ədəbiyyatında, tarixi və statistik mənbələrdə bu tayfa adının Gorus, Keros, Keriz, Qorus, Qoros, Qors, Qeros, oros, Xorus, Xurs, Xors, Xurusun və s. variantlarında işləndiyi də göstərilir.[3] Də-

---------------------

1. И.Шопен. Исторические памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 616; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, стр. №963; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 92; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 366, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 245.

2. Bu əhvalatları mənə 93 il yaşayıb, 1982-ci ildə rəhmətə gedən atam və bundan çox-çox yaşlı olan Məşədməddədxanın oğlu Hostunlu Həsən kişi, onun bacısı, nənəm Nigar danışmışdır.

3. Г.Гейбуллаев. К этногенезу азербайджанцев. Том I, Баку, 1991, с.14, 49, 55, 71-72, 129-133, 137, 174, 186, 227, 290, 311, 353, 430; 460-462, 533-534; Qiyasəddin Qeybullayev. Qarabağ. Etnik və siyasi tarixinə dair. Bakı, 1990, s.101-104; Qiyasəddin Qeybullayev. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, 1994, s.221; Qiyasəddin Qeybullayev. Azərbaycanlıların etnik tarixinə dair. Bakı, 1994, s.58; Roza Eyvazova. Əfqanıstanda türk mənşəli toponimlər. Bakı, 1995, s.215; Э.В.Севортян. Этимологический словарь тюркских языков. М., 1980, с.341-345; Türk dünyası araşdırmaları (türkcə). İstanbul, 1987, №48, s.83; Q.İ.Məşədiyev. Zaqafqaziyanın Azərbaycan toponimləri, Bakı, 1990, s.33, 39; Tofiq Əhmədov. Azərbaycan toponimikasının əsasları. Bakı, 1991, s.83; B.Ə.Budaqov. Türk uluslarının yer yaddaşı, Bakı, 1994, s.193; Akademik Ziya Bünyadov və t.e.n. Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri,Bakı, 1996, s. 49; Azərbaycan SSR-nin inzibati-ərazi bölgüsü, Bakı, 1968, s.204.

rin və dəqiq araşdırmalar nəticəsində dilçilər, tarixçilər, coğrafiyaşünaslar belə bir ümumi qənaətə gəlmişlər ki, haqqında gedən söz böyük türk tayfalarından birinin adıdır və bu, türk xalqları məskən salan bir çox yerlərdə, Azərbaycanda, Cənubi Azərbaycanda, İranda, Orta Asiyada, Əfqanıstanda, Şimali Qafqazda, Rusiyanın bir çox yerlərində geniş şəkildə yayılmışdır.[1]

## HORS KƏNDİNDƏ OLAN ONOMASTİK VAHİDLƏR

### Tayfa, nəsil, sülalə adları

1. İsgəndərlilər
2. Mirzəcanlılar
3. Hüseynalılar
4. Kəlba Fətalılar
5. Şeyx İbrahimlər
6. Məhəmmədalılar
7. Həsənalılılar
8. Əlimxanlar
9. Hüseynlilər
10. Araxlılar
11. Əzalılar
12. Ağaməmmədlilər
13. Kəlbə Ələsgər uşağı
14. Alməmmədlər
15. Qələndərlilər
16. Katta Cavad uşağı

### Məhəllə adları

1. Ağ Bin məhləsi
2. Kilsə məhləsi
3. Kəlbə Fətəli məhləsi

### Kövşən adları

1. Ərikli düzü
2. Quşxana
3. Quluboğulan
4. Yanıx
5. Ayı ölən
6. Molla güneyi
7. İlanlı
8. Zamanölən
9. Söyüdlü
10. Gözələr
11. Daşdı gözə

-----------------------

1. Bax: Yuxarıda göstərilmiş əsərlər və səhifələr.

12. Güllügözə
13. Həmörsünlük
14. Porport
15. Xamlar
16. Xaraba
17. O tay almalıq
18. Qaragöllər
19. At ağıllı
20. Almalı
21. Fındıxlı
22. Qazonnu
23. Çağanaq
24. Kolavat
25. Qara güney
26. Sarı güney
27. Vəng
28. Tastdar
29. Molla yeri
30. Kar daş
31. Donuz yatağı
32. İlan yığnağı
33. Moruqlu
34. Pur Puru
35. Dağ dələn
36. Göy qaya

**Dərə adları**

1. Quşxana dərəsi
2. Fındıxlı dərə
3. Naziksu dərəsi
4. Xarabanın dərəsi
5. Baxşıölən dərə
6. Qurbanölən dərə
7. Qarlı dərə
8. Çınqıllı dərə
9. O tay almalıq dərəsi
10. Xamların dərəsi
11. Qurbanın dərəsi
12. Navın yeri
13. Molla Güneyi dərəsi
14. Nəzir suyu dərəsi
15. Quluboğulan dərə
16. Toppuzduğun dərəsi

17. Vəngin dərəsi
18. Sarılığın dərəsi
19. Armudlu dərə
20. Xırmanın dərəsi
21. Sarı dərə

**Arxac adları**

1. At ağılı arxacı
2. Məhəmmədin arxacı
3. Ağ arxac
4. İlanlı arxac
5. Bəyin arxacı
6. Ortalıq arxac
7. Çınqıllı arxac
8. Gündüşən arxac
9. Başarxac

**Yol adları**

1. Quşxana yolu
2. Zamanölən yolu
3. İlanlı yol
4. Dişdaş yolu
5. Qaçaq Nəbinin yolu
6. Əyricəyə gedən yol
7. Selimə gedən yol

**Biçənək adları**

1. Qəhrəmanın biçənəyi
2. Ortalıq biçənək
3. Ağbulaq biçənəyi
4. Qaragöllər biçənəyi
5. Porport biçənəyi
6. Həmörsünlüyün biçənəyi

**Yurd adları**

1. İlanlı yurd
2. Yuxarı yurd
3. Baş yurd
4. Çatma yurd
5. Murad təpəsi yurdu

**Meşə adları**

1. Vaxsey meşəsi[1]

---

1. Burada ermənilər tərəfindən xeyli azərbaycanlı qırıldığı üçün buna Vaxsey meşəsi adı verilib.

2. Qırmızı quzey meşəsi
3. Horsun meşəsi
4. Xaraba meşə
5. Molla güney meşəsi
6. Almalığın meşəsi
7. Qalın quzeyin meşəsi
8. Kolavatın meşəsi

**Yaylaq adları**
1. Yuxarı oba
2. İlanlı
3. Sarı daş
4. Göy qaya
5. Həmörsünnü
6. Gülü düşən
7. Çınqıllı
8. Ortaxlı
9. Qara göllər
10. Qırmızı quzey
11. Tar basan

**Kaha adları**
1. Çınqıllı kaha
2. Üsenxan kahası
3. Qurban ölən kaha
4. Cin dəməyinin kahası
5. Molla kahası
6. Xəlil ölən kaha

**Bağ adları**
1. Mütəllimin bağı
2. Cəfərqulunun bağı
3. Əbdilin bağı
4. Əhmədin bağı
5. Çərkəzin bağı
6. Əlinin bağı
7. Püstənin bağı
8. Namazın bağı
9. Zalığın bağı
10. Hüseynin bağı
11. Savalanın bağı
12. Davudun bağı
13. İlyanın bağı
14. İbrahimin bağı

15. Əhədin bağı
16. Məhəmmədin bağı
17. Məhəmmədəlinin bağı
18. Kərəmin bağı
19. Hümbətin bağı
20. Ərzalının bağı
21. Əmirin bağı
22. Şeşenin bağı
23. Zeynəbin bağı
24. Bəylərin bağı
25. Mahuşun bağı
26. Vəlinin bağı
27. Xəlilin bağı
28. Ağarzanın bağı
29. Məhərrəmin bağı

**Çay adları**

1. Horsun çayı

**Bulaq adları**

1. Kamalın bulağı
2. Qaraşın bulağı
3. Gözəllər bulağı
4. Söyüdlü bulaq
5. Məhəmmədəlinin bulağı
6. Quş bulağı
7. Qurtdu bulaq
8. Qiblə bulağı
9. Daşdı gözə bulağı
10. Almalığın bulağı
11. Porport bulaq
12. Vəngin bulağı
13. Xamların bulağı
14. Ağ bulaq
15. Göy bulaq
16. Çınqıllı bulaq
17. Dəfin bulağı
18. İlanlının bulağı
19. Tarı dərənin bulağı
20. Göy qayanın bulağı
21. Oba bulağı
22. Qələndərin bulağı
23. Kəlbə Ələsgər bulağı
24. Qamışlı bulaq

25. Tarbasanın bulağı
26. Nəzir suyunun bulağı

**Göl adları**
1. İlanlı göl
2. Qara göllər
3. Quzu gölü
4. Dibiyox göl[1]

**Qəbiristanlıq adları**
1. Köhnə qəbiristanlıq
2. Təzə qəbiristanlıq

**Ocaq adları**
1. Şeyx İbrahim ocağı
2. Kəlbə Fətalı ocağı
3. Kilisə
4. Hüseynalı ocağı

**Dəyirman adları**
1. Qaraşın dəyirmanı
2. İsgəndərin dəyirmanı
3. Şahbazın dəyirmanı
4. Həşimin dəyirmanı
5. Əhmədin dəyirmanı
6. Qələndərin dəyirmanı
7. Gülüsümün dəyirmanı

**Dağ adları**
1. Canqurtaran dağı
2. Ülküdül dağı
3. Dıkdaş
4. Siçanlı dağ
5. Çınqıllı dağ
6. Küllü düşən
7. İlanlı dağ
8. Çürük daş
9. Yuxarı oba dağı
10. Göy qaya

## 1937-ci İLDƏ SİYASİ MƏHBUS KİMİ TUTULANLAR

1. Kəblə Məmməd oğlu Əli
2. Abbasov Kəlbə Cəfər

------------------------

1. Deyilənlərə görə, qaçaqaç zamanı Hors kəndinin əhalisi qızıl-gümüşlərini, var-dövlətlərini Dibiyox gölə tökmüşlər. Bu göl Çatma adlanan yerin arxasında yerləşir.

3. Hüseynov Kərəm (Aşıq Kərəm)

**Hors kəndindən 1941-1945-ci il Böyük Vətən müharibəsinə gedənlər**

**a) qayıtmayanlar**
1. Qəhrəmanov İbrahim Həbib oğlu
2. Osmanov Hüseyn
3. Abuşov Abbas Şahbaz oğlu
4. Haqverdiyev Hüseyn İmaş oğlu
5. Hüseynov İsa Davud oğlu
6. Əsədov Məhəmməd
7. İsgəndərov Məhəmməd Hüseynalı oğlu
8. Qarayev Hüseyn
9. Abbasov İbrahim Həbib oğlu
10. Alməmmədov Sultan Qurban oğlu
11. İsgəndərov Həsən Kərəm oğlu
12. Şirəliyev Temir Kərəm oğlu
13. Şirəliyev Nəso (Nəsir) Kərəm oğlu
14. Abbasov Mikayıl Abbas oğlu
15. Hümbətalıyev Piri Hümbətalı oğlu
16. Hümbətalıyev İsmayıl Hümbətalı oğlu
17. Alməmmədov Alməmməd İmran oğlu
18. Dünyamalıyev İsmayıl
19. İmanov Məhəmməd
20. İmanov İsa
21. İmanov Davud
22. Nəbiyev Piri
23. Nəbiyev İsmayıl
24. Cavadov Məhəmməd
25. Tanrıverdiyev Hüseyn
26. Orucov Qara
27. Əhmədov İsmayıl

**b) qayıdanlar:**
28. Süleymanov Əhməd Məhəmmədəli oğlu
29. Məmmədov Əziz
30. Ələsgərov Namaz Hüseyn oğlu
31. Alməmmədov Cəlal Məhəmməd oğlu
32. Cəlilov İbrahim
33. İsgəndərov Həsən
34. Abbasov Məhəmməd
35. Abbasov Mikayıl
36. Novruzov Vəli

Bu məsələyə dair tam siyahını hələlik əldə edə bilməmişik.

## 1988-ci ildə zorla deportasiya edilən ailələr

1. Süleymanovlar
2. Qubuşovlar
3. Mamedovlar
4. Abbasovlar
5. Əliyevlər
6. Hüseynovlar
7. Namazhüseynovlar
8. Nəbiyevlər
9. Qələndərovlar
10. Hüseynovlar
11. Abdullayevlər
12. Novruzovlar
13. Qarayevlər
14. İsgəndərovlar
15. Abbasovlar
16. İsgəndərovlar
17. İsgəndərovlar
18. Hümbətovlar
19. Mirzəyevlər
20. Qəhrəmanovlar
21. Novruzovlar
22. Əliyevlər
23. Fərzalıyevlər

**Qarabağda vuruşanlar**

1. Qubuşov Abbas Əli oğlu
2. Qubuşov İlqar Əli oğlu
3. Mamedov Cuma Məmmədtağı oğlu
4. Mamedov Zakir Məmmədtağı oğlu
5. Mamedov Şakir Məmmədtağı oğlu
6. Qarayev Əhməd Aydın oğlu
7. İsgəndərov Natiq Cahangir oğlu
8. İsgəndərov İsgəndər İlyas oğlu
9. İsgəndərov Rövşən İlyas oğlu
10. Tahirverdiyev Məzahir Lətif oğlu
11. Tahirverdiyev Əhməd Lətif oğlu

**1990-cı il 20 Yanvarda yaralananlar**

1. Qələndərov İdris
2. Əbuşov İlqar Əli oğlu

**Ermənilərlə mübarizə apara-apara son dövrlərə qədər kənddə qalan başbilənlər**

1. İsgəndərov İsgəndər Həsən oğlu – kolxoz sədri
2. İsgəndərov Davud Həsən oğlu – məhkəmədə işləyib
3. İsgəndərov İliç İsgəndər oğlu – baytar həkim
4. Süleymanov Savalan Məhəmmədtağı oğlu – müəllim
5. Abbasov İsa Əmir oğlu – briqadir
6. Qubuşov Əli Qaraş oğlu – briqadir
7. Süleymanova Xanım Əhməd qızı – müəllim
8. İsgəndərova Surə Şahbaz qızı – müəllim

**Hors kəndində olan aşıqlar**

1. Aşıq Qəhrəman (məşhur "Qəhrəmanı" havasının müəllifi, Aşıq Cəlilin şagirdi, Aşıq Ələsgərin yaxşı aşıq kimi tanıdığı adam)
2. Aşıq Kərəm
3. Aşıq Paşa (Aşıq Qəhrəmanın oğlu)
4. Aşıq Məmmədtağı (Məmmədov Cəfərqulu oğlu)
5. Aşıq İbrahim (İsgəndərov Əhməd oğlu)
6. Tarçalan Sultan (tar çalıb-oxuyan, Aşıq Paşanın oğlu)
7. Xanəndə Ağoş (Aşıq Paşanın oğlu)
8. Balabançı (Mamedov Bəhman Cəfərqulu oğlu)

**Ləqəblər**

1. Qandalaq Vəli
2. Qolu yox İbrahim
3. Kor Məmmədəli
4. Çıqqılı Əmir
5. Balaşoğlu Əli
6. Sarıbaş İbrahim
7. Çıqqılı Vəli
8. Göy göz Vəli
9. Kor Əziz
10. Gümüşoğlu Vəli
11. Qız Məmmədəli

**İnformatorlar:** Hors kənd sakinləri: 1. Ələsgərov Namaz Hüseyn oğlu – 1924-cü ildə təvəllüdlü, Böyük Vətən müharibəsi iştirakçısı, hal-hazırda Bakıda yaşayır; 2. İsgəndərov Cahangir Davud oğlu – 60 yaşlı, hal-hazırda Bakıda yaşayır.

## HORTUN

Hortun kəndi əksər bölgülərdə Dərələyəzə daxil olan kəndlərdən biridir. 1830-cu illərdə və ondan sonrakı dövrlərin çoxunda bu kənd Dərələyəz ərazisinə aid edilsə də, son vaxtlar Vedi ərazisinə daxil edilmişdi. Bu kənd Aşağı Çanaxçı kəndinin yaxınlığındadır.[1] Bəzən buna Yuxarı Çanaxçı da deyilir. Tarixən bu Çanaxçı kəndlərinin hər ikisi Dərələyəz mahalına daxil olmuşdur. 1873-cü ildə bu kəndin 41 təsərrüfatında 216 nəfər, 1886-cı ildə burada 42 təsərrüfatda 341 nəfər, 1897-ci ildə 476 nəfər, 1904-cü ildə 355 nəfər, 1914-cü ildə 375 nəfər azərbaycanlı yaşamışdır.[2]

Hortun kənd əhalisinin xeyri-şəri, qayğısı-kədəri Dərələyəz camaatı ilə bir olubdur. Onlar özlərini həmişə Dərələyəzli hesab ediblər. Qohum-qardaşlarının əksəriyyəti Dərələyəzin Çivə, Qozluca, Ardaraz, Almalı kəndlərinin camaatı ilə birlikdə olmuşdur. Vedi bölgəsində olan camaatla son dövrlərdə qaynayıb-qarışmışlar. Hal-hazırda Azərbaycan Respublikasının müxtəlif rayonlarında, əsasən, adı çəkilən kəndlərin camaatı ilə birgə yaşayırlar.

1918-ci ildə erməni-müsəlman davasında ermənilər kəndi dağıtmış, əhalisini qırmış, sağ qalanlar isə ayrı-ayrı bölgələrə qaçmışlar.

1922-ci ildə Ermənistanda Sovet hakimiyyəti qurulandan sonra 138 nəfər kəndə qayıtmışdır. Bunların sayı 1926-cı ildə 171 nəfərə, 1931-ci ildə 261 nəfərə çatmışdır. 1950-ci ildə kənddə 75 ev, 650 nəfər azərbaycanlı olmuşdur. Lakin 1950-ci ildə bu kənd əhalisi də Azərbaycana deportasiya edilmişdir. Bunların əksəriyyəti Azərbaycanın Salyan rayonuna köçürülmüş və Salyanın Arbatan, Dayıkənd və Seyidlər kəndlərində yerləşdirilmişdir. Lakin bu kənd əhalisinin əksəriyyəti Salyanın mühitinə uyğunlaşa bilmədiyi üçün Tərtər, Bərdə və Göyçay rayonlarına gedib orada məskunlaşmışlar. Hal-hazırda onların böyük bir hissəsi Bərdənin Həsənqaya və İmirli kəndlərində yaşayırlar.[3]

Hortun toponiminin mənşəyinə gəldikdə, fikrimizcə, bu kəndin adı Hors tayfasının adı ilə bağlıdır. Belə ki, Hors sözünə türk dillərində məkan bildirən -tun (-un, -dun, -tun) şəkilçisinin artırılması ilə tələffüzün asan olması üçün buradan "s" samiti düşmüşdür.

Hortun kəndində olan onomastik vahidləri qeyd etmək çox faydalıdır. Bu kənddə olan onomastik vahidlər haqqında hələlik yalnız aşağıdakı məlumatı toplaya bilmişik.

**Qəbiristanlıqlar**

Daşlı Güney

-------------------

1. Mirzəyev H. Hortun kəndi və onun onomastik vahidləri, Filologiya məsələlərinə dair tematik toplu, № 5 (17), Bakı, 2001, s. 3-4.

2. Əziz Ələkbərli. Qərbi Azərbaycan. I c: Vedibasar mahalı, Bakı, 2000, səh.483-485; Статическое описание Нахичеванской провинции, СПб, 1833, стр.274-275. И.Шопен. Исторические памятники состояние армянской областе в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 615-616;

3. Ətraflı məlumat almaq üçün bax: Əziz Ələkbərli, Qərbi Azərbaycan, I c., Vedibasar mahalı, Bakı, 2000, səh.485-490.

**Kilsə adları**
Ağ kilsə, Qara kilsə (Vəngin kilsəsi), Hüsnü Qayası kilsəsi

**Çay adları**
Avşar, Yellicə çay, Qoca xan çay, Qaraqınğı çay, Böyük Güney çayı

**Aşırım və dağ adları**
(A) Düvəhli, Çal dağı, Əpöyqan, Semroy, Qaşqay Alı, Haça sulu yurd, Böyük düz

## HOSDUN

Hosdun kəndi Dərələyəzin Keşkənd (Yeğeqnadzor) rayonunda Həsən kənd, Erdəpin və Ələyəz kəndlərinin əhatəsində yerləşir.[1]

Qədim tarixlərdən qalan Salsal qalası bu kəndin ərazisindəki qayanın üstündə yerləşir. Bu kənd mənim nənəmin (anamın anası) yaşadığı, məşhur var-dövlətli Məşədi Məmməd xanın məskun olduğu kənddir. Bu kəndin və bununla qonşu olan adı çəkilən kəndlərin ərazisində məşhur qədim Elegiz şəhərinin xarabalıqları qalmaqdadır. Elegiz şəhəri əslində El oğuz//Əroğuz məskəni olmuşdur. Bu kənddə alban türklərinə məxsus abidələr (kilsələr, vənglər) və onların qalıqları hələ də qalmaqdadır. Bu kəndin yanından Arpa çayının bir qolu axır.

Bu kəndin əhalisi bağçılıq, maldarlıq, əkinçilik, xalçaçılıq və arıçılıqla məşğul olmuşlar. Bura çox gəlirli kənd olmuşdur. Statistik və tarixi mənbələrdən məlum olur ki, 1873-cü ildə bu kənddə 61 nəfər, 1886-cı ildə 94 nəfər, 1897-ci ildə 126 nəfər, 1904-cü ildə 125 nəfər, 1914-cü ildə 137 nəfər, 1916-cı ildə 146 nəfər azərbaycanlı yaşamışdır. 1918-ci ildə erməni millətçiləri kəndi dağıtmış, talan etmiş və əhalisini qırmışlar. Az-az adamlar isə güclə öz canını ölümün pəncəsindən qurtara bilmişlər.[2]

Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra bu kəndə cəmi 29 nəfər kəndə qayıtmışdır. Lakin bunlar kəndə qayıtdıqda görürlər ki, kənddə 60 nəfər erməni yaşayır və bu müddətdən etibarən burada ermənilərlə azərbaycanlılar qarışıq şəkildə yaşamağa başlamışlar. Get-gedə Hosdun kəndində azərbaycanlılar çoxalmış, ermənilər isə azalmış-dır. Belə bir vəziyyəti görən rayon mərkəzi 1939-cu ildə azərbaycanlıları Ələyəz kəndinə, kənddəki bir neçə erməni ailəsini isə qonşu erməni kəndlərinə köçürmüşlər. Məqsəd bu idi ki, buradakı

------------------

1. Mirzəyev H. Hors, Hosdun, hortun oykonimləri və onların etimologiyası haqqında, Dil məsələlərinə dair tematik toplu, Bakı, 1997, № 2, s. 83-86; Mirzəyev H. Hosdun kəndi və onun ərazisində olan bəzi onomastik vahidlər, Filologiya məsələlərinə dair tematik toplu, № 5 (17), Bakı, 2001, s.74-77.

2. Bax: Статическое описание Нахичеванской провинции, СПб, 1833, стр.166; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №964; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 92; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 367, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 246.

azərbaycanlı kəndini ləğv etsinlər. Belə də etdilər. Bu kənd 1939-cu ildə dağıdıldı, xarabalığa çevrildi.

Faktlar göstərir ki, Dərələyəzdəki Hosdun kəndinin adı Hors etnonimi ilə bağlıdır. Hors etnonimi türk tayfalarından birinin adıdır və bu tayfalar çox qədim zamanlardan Azərbaycanda, Cənubi Azərbaycanda, Orta Asiyada, Əfqanıstanda, Şimali Qafqazda, Rusiyanın bir çox yerlərində geniş şəkildə məskunlaşmışlar.

Dilçilik ədəbiyyatında, tarixi və statistik mənbələrdə bu tayfa adının Gorus, Geros, Geriz, Qorus, Qoros, Qors, Qeros, Xoros, Xorus, Xurs, Xors, Xurusun və s. variantlarında işləndiyi də göstərilir. Dərin və dəqiq araşdırmalar nəticəsində tədqiqatçılar belə bir ümumi qənaətə gəlmişlər ki, bu söz böyük türk tayfalarından birinin adıdır.[1]

Fikrimizcə, Hosdun toponimi ilə Hors tayfasının adı bir mənbədən təşəkkül tapmışdır. Burada Hosdun sözündən "r" samiti düşmüş, söz kökünə isə türk dillərində tarixən müstəqil söz olan və isimlərə artırılaraq məkan mənası (istirahət yeri, sakit yer və s.) bildirən sözlər əmələ gətirən "-dun"//tun, -tın, -dın, -tin, -din; -ın, -in, -un, -ün şəkilçisi artırılmışdır.[2] Bu şəkilçilərin isimlərə artırılıb yer adları əmələ gətirməsi faktlarına türk-oğuz yurdunun bir çox bölgələrində rast gəlmək olur. Ağcabədidə "Qiyamadın", "Gələbədin", Naxçıvanda "Zeynəddin", Culfada "Camaldın", Ağdaş və Qəbələdə "Qaradeyin", Şamaxıda "Keşməddin" kənd adları söylədiyimiz fikrə canlı sübutdur.[3]

Hosdun kəndində olan onomastik vahidlər, əsasən, aşağıdakılardır:

**Tayfa adları**

1. Məşədi Məmmədxan tayfası (Kəngərlilər)
2. Bozalaxlar

### 1937-ci ildə repressiya qurbanı olan

1. Ələkbərov Ələsgər Hüseyn oğlu

----------------------

1. Bax: Г.Гейбуллаев. Е этногенезу азербайджанцев. Том I, Баку, 1991, с.14, 49, 55, 71-72, 129-133, 174, 186, 227, 290, 311, 430, 460-462, 533-534; Q.Qeybullayev. Qarabağ. Etnik və siyasi tarixinə dair. Bakı, 1990, s. 101-104; Q.Qeybullayev. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, 1994, s.221; Q.Qeybullayev. Azərbaycanlıların etnik tarixinə dair. Bakı, 1994, s.58; R.Eyvazova. Əfqanıstanda türk mənşəli toponimlər. Bakı, 1995, s.215; Э.В.Севортян. Этимологический словарь тюркских языков. М., 1980, с.341-345; Türk dünyası araşdırmaları (türkcə), İstanbul, 1987, №48, s.83; Q.Məşədiyev. Zaqafqaziyanın Azərbaycan toponimləri. Bakı, 1990, s.33, 39, T.Əhmədov. Azərbaycan toponimikasının əsasları. Bakı, 1991, s.83; B.Ə.Budaqov. Türk uluslarının yer yaddaşı, Bakı, 1994, s.193; Z.Bünyadov, H.Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, s.59; Azərbaycan SSR-nin inzibati ərazi bölgüsü, Bakı,1968, s.204.

2. Древнетюркский словарь, Л., 1969, стр.567; Г.Г.Гейбуллаев. К этногенезу азербайджанцев. Баку, 1991, стр.540; Э.В.Севортян. Этимологический словарь тюркских языков. М., 1980, стр.341-345; Л.З.Будагов. Сравнительный словарь турецко-татарских наречий, том. I, СПб, стр.740

3. Bax: Azərbaycan SSR-nin inzibati ərazi bölgüsü, Bakı, 1968, səh.152, 155, 165, 172, 176, 210.

**Sahə, örüş adları**

1. Saqqızlı
2. Pəriölən
3. Pərşum yeri
4. Zoğal yeri
5. Qaragüney
6. Tüngün dərəsi
7. Namazın şumu
8. Gen dərə
9. Məşədi Məmmədxanın yeri
10. Armudlu yer
11. Armudun altı
12. Həsən çapılan[1]
13. Mirzənin kalafası[2]
14. Qanlı Eyvaz ağacı
15. Sarı burun

**Çınqıl adları**

1. Hosdun çınqılı

**Bağ adları**

1. Şeydanın bağı
2. Cəlalın bağı
3. Bəylərin bağı
4. Ələsgərin bağı
5. Şadmanın bağı
6. Bayramın bağı
7. Bəhlulun bağı
8. Atakişinin bağı
9. Həsənin bağı

**Bulaq adları**

1. Gümüş bulaq[3]
2. Qəyə altı bulaq
3. Qaragüney bulağı
4. Pəri ölən bulaq
5. Namazın bulağı
6. Nərgizin bulağı

---

1. Həsən kişi bir elin, obanın ağsaqqalı olub. Ermənilər azərbaycanlıları kənddən çıxaranda o, Hosdun kəndinin altında Gümüş bulaq deyilən yerdə çadır qurub yaşayır. Həsən kişini buradan qaçırmaq üçün erməni quldur dəstələri onun var-yoxunu talayır, çapıb aparırlar. Həmin vaxtdan bu yerin adı qalıb "Həsən çapılan".

2. Mirzənin kalafası deyilən yer indi erməni kəndi olan Erdənin kəndidir. Ermənilər yaşamasına baxmayaraq, həmin yer indi də öz adını saxlamışdır.

3. Gümüş bulağının suyu südə oxşadığı üçün ona Gümüş bulaq deyirlər.

7. Həsən bulağı

**Qəbiristanlıq adları**
1. Hosdun qəbiristanlığı

**Dəyirman adları**
1. Məşədi Məmmədxanın dəyirmanı

**Yaylaq adları**
1. Aşağı Soğanlı
2. Murtuza yurdu
3. Becəkli

**Qala, abidə, vəng adları**
1. Hosdun kilsəsi
2. Salsalın qalası
3. Şadı vəngi
4. Xaraba şəhər[1]

**İnformatorlar:** 1) Həsənova Pəri (Serçə) – 90 yaşında (2003-cü ildə dünyasını dəyişdi); 2) Cəfərov Vəli Almərdan oğlu – 70 yaşında, uzun müddət bu ərazidə kolxoz sədri işləmişdir, hal-hazırda Bakı şəhərində yaşayır; 3) Özüm (Həsən Mirzəyev).

## HÜSEYNQULULAR

Yeğeqnadzor (Keşkənd) rayonu ərazisində olan Hüseynqulular kəndi Qabaqlı kəndi ilə Nəbilər kəndinin arasında, Canı çayının sol sahilində yerləşmişdir. Kəndin xarabaları 30-35 evdən ibarətdir. Kəndin ərazisində köhnə dəyirman qalıqları və çayın üzərində inşa edilmiş daş körpünün qalıqları da vardır. Canı çayının üstündəki bu körpünün hündürlüyü 6-7 metr olar. Körpünün sağ sahil hissəsi tamam yuyulmuş və bunun yerində sərt uçurum yaranmışdır. Sol sahili isə bir qədər salamatdır. Özülün üzlüyündəki daşlar 80 sm uzunluğunda, 40 sm enində olar. Bu, qara bozalt daşlardan inşa edilib. Bu körpü Qabaqlı kəndi ilə Hüseynqulular kəndini birləşdirmişdir. Güllüdüz, Nəbilər kəndindən də bura yol gəlir. Körpünün uzunluğu 10-15 metr, eni 4 metr idi. Körpünün tikiliş formasından, istifadə edilən tikinti materiallarının formasından və tərkibindən məlum olur ki, körpü çox-çox qədim dövrlərə – XIII-XIV əsrlərə aiddir. Belə bir körpünün burada salınması ona sübutdur ki, buradan dinc dövrlərdə ticarət üçün, müharibələr dövründə isə hərbi məqsəd

--------------------

1. Tarixən Dəmirtəpə adlanan dağdan vulkan püskürüb və bu vulkan Ələyəz kəndi ilə Hosdun kəndinin arasında 4 kilometrlik sahədə olan qədim şəhəri basmışdır. Bəzən bu şəhəri Elegez adı ilə də adlandırırlar. Elegiz "el oğuz", "ər oğuz" sözləri ilə bağlı bir məsələdir ki, bu ayrıca bir tədqiqat mövzusudur.

üçün istifadə olunmuşdur. Buraya yaxın ərazilərin relyefi ilə, eləcə də yolları və körpüləri ilə tanış olduqda aydın olur ki, bu ərazi Cənubi Azərbaycandan başlayan və Göyçə gölü ətrafına gedən yolun bir hissəsi olmuşdur. Bu kəndin əhalisi 1939-cu ildə Qabaqlı kəndinə köçürülmüşdür.

Son dövrlərdə Hüseynqululular kəndində, əsasən, 4 qardaş (Yunis, Bəxtiyar, Baxış, Müseyib) böyük hörmət sahibi olmuş və qalan camaat da bunların ətrafına toplanmışlar. Mənim yaxşı yadımdadır, bu kənddə olan növbənöv alma və armudlar Dərələyəzdə və onun ətrafındakı rayonlarda məşhur idi. Almanın ətri kənardan adamı vururdu.

Kənd güney yerdə, Laçın qayaların dibində yerləşirdi...

Qeyd etmək lazımdır ki, Dərələyəz haqqında olan mənbələrdə Hüseynqululular kəndi nədənsə, hansı səbəbdənsə ayrıca kənd kimi qeydə alınmamışdır. Lakin fakt faktlığında qalır. Hüseynqululular kəndi Dərələyəzdə ən qədim, kiçik kəndlərdən biridir. Bu Canı Qabaxlısı kəndinə yaxın məsafədə yerləşsə də, ayrıca bir kənd halında mövcud olmuşdur.[1]

Kəndin adı Hüseynqululular adlı tayfa, nəsil adından törənmişdir.

## XAÇİK//XAÇIN

Xaçik//Xaçın Dərələyəzin Yeğeqnadzor (Qamışlı dərə) rayonunda kənd adıdır. Bu kənd dəniz səviyyəsindən çox yüksəklikdə yerləşir. Amağu kəndi ilə Şərur rayonunun sərhəddində, dağın üstündədir.



Statistik mənbələrdən məlum olur ki, bu kəndin torpağı tarixən Hüseynəli və və İbrahim Sultana, Dostəli və Şirəli bəyə məxsus olmuşdur.[2] 1833-cü ilə aid həmin mənbədə bu kəndin adı "Xaçik" yox "Xaçın" şəklində göstərilmişdir.[3] 1590 və 1727-ci ilə aid mənbələrdən məlum olur ki, həmin dövrdə Xaçik kəndinin 5.350 ağça gəliri olmuşdur.[4]

Nikolay hökuməti 1828-ci ildən sonra tarixən azərbaycanlılara məxsus olan və strateji cəhətdən çox əhəmiyyət kəsb edən bu kənddə çoxlu erməni ailələri

---------------------

1. Bax: Mirzəyev H. Dərələyəzdəki Gümüşxana, Hüseynqululular kəndləri haqqında, Filologiya məsələlərinə dair tematik toplu, № 7 (19), Bakı, 2001, s.49-50.

2. Статистическое описание Нахичеванской провинции, СПб, 1833, стр.162-163.

3. Yenə orada, səh. 162-163.

4. Z.Bünyadov, H.Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, s.57; Z.Bünyadov, H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh.34, 215.

məskunlaşdırdı və get-gedə ermənilər azərbaycanlıları sıxışdırıb kənddən çıxardılar. Elə bunun nəticəsidir ki, 1831-ci ildə bu kənddə 19 azərbaycanlı, 92 erməni yaşamışdır.[1] Bir qədər sonra bu 19 azərbaycanlını da qovub kənddən çıxardılar.

Xaçın toponiminin mənşəyinə gəldikdə deməliyəm ki, bu toponim türk xalqlarına məxsus "kas"//"xəz" tayfalarının adından formalaşmışdır.

## XALACLAR YURDU

Xalaclar yurdu-Dərələyəzin Qovuşuq kəndinin ərazisindədir. Soğanlı yaylağında olan bu yurd adı qədim türk tayfalarından birinin adından götürülmüşdür.[2] Məlum olduğu kimi, Azərbaycan ərazisində Xələc//Xalac tayfasının adını daşıyan kənd, dağ, dərə, təpə, yurd, qobu adları çoxdur. Salyanda "Xələc kəndi", "Xələc təpəsi", Şərurda "Xalac kəndi", Qubadlıda "Xələc kəndi", "Xələc dağı", Ucarda "Xələc kəndi", "Xələc qobusu", Şamaxıda "Xələc dağı" buna canlı sübutdur.[3]

Xələc//Xalac etnoniminin arealı bununla bitmir. Belə ki, qədim oğuz yurdu olan indiki Ermənistanda, Türkmənistanda, Özbəkistanda, İranda (Cənubi Azərbaycanda) da Xələc//Xalac adında kənd vardır.[4]

Səfəvilər dövründə çoxlu türk tayfaları yaşayan Əfqanıstanda da Xələc//Xalac adlı yaşayış yeri vardır. Girişg əyalətində iki "Xəlac", Qəndəharda "Kəlac", Paktiya, Nəngərhar vilayətində "Xələci", "Xələcayi", Qəzni və Xostda "Qələzayi" adında kəndlər və coğrafi adlar vardır ki, bunların "Xələc" tayfasının adı olduğu faktlarla isbata yetirilmişdir.[5]

Xələc//Xalac toponimi Rusiya ərazisində türk tayfalarının yaşadığı yerlərdə "qalaç", "kalaç" formasında da yaşamaqdadır. "Kalac" etnonimi Rusiyanın Voronej, Volqoqrad və Omsk vilayətlərində də qeydə alınmışdır.[6]

---

1. Статистическое описание Нахичеванской провинции, СПб, 1833, стр.162-163; И.Шопен. Исторические памятники состояние армянской областе в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 111-115; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 92; Историческая география Западного Азербайджана, Баку, 1998, стр.139.

2. Mirzəyev H. Dərələyəzdəki Xalaclar yurd yeri haqqında, Dil məsələlərinə dair tematik toplu, № 2, Bakı, 1997, s. 116-118; Mirzəyev H. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz (monoqrafiya), Bakı, 1997, səh. 198-199.

3. Nadir Məmmədov. Azərbaycanın yer adları. Bakı, 1993, səh.161; Azərbaycan SSR-nin inzibati-ərazi bölgüsü. Bakı, 1968, səh.202; Roza Eyvazova. Əfqanıstanda türk mənşəli toponimlər. Bakı, 1995, səh.173-174.

4. Bax: Y.B.Yusifov, S.Kərimov. Toponimikanın əsasları. Bakı, 1987, səh. 172-179; Tofiq Əhmədov. Azərbaycan toponimikasının əsasları, Bakı, 1991, səh.57; Е.Н.Бушуева. Словарь географических терминов и других слов, встречающихся в топонимики Азербайджанской ССР, М., 1971, стр.144; Свод статических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886, Тифлис, 1893, №912.

5. Bax: Roza Eyvazova. Əfqanıstanda türk mənşəli toponimlər. Bakı, 1995, səh.123, 173.

6. Bax: Roza Eyvazova. Əfqanıstanda türk mənşəli toponimlər. Bakı, 1995, səh.174.

Məşhur coğrafiyaşünas, akademik B.Budaqov yazır ki, "Ermənistanda olan Azərbaycan toponimləri içərisində xalqımızın formalaşmasında iştirak etmiş etnotoponimlərdən biri də "Xələc// Xalac" etnonimidir.[1] Dilçilər, coğrafiyaşünaslar, tarixçilər, o cümlədən M.Kaşğari, Q.A.Qeybullayev, T.Hacıyev, K.Vəliyev, N.Məmmədov, B.Budaqov, T.Əhmədov, R.Eyvazova və b. belə yekdil qənaətə gəlmişlər ki, Xələc//Xalac//Kalac//Fələc toponimi türk tayfalarından birinin adıdır.[2] M.Kaşğari XI əsrdə özünün məşhur əsərində oğuz tayfaları haqqında danışarkən Xələc//Xalac tayfasını da 22 böyük tayfa sırasına daxil edir.[3]

Buradan belə bir aydın nəticə hasil olur ki, Dərələyəzdəki "Xalaclar" adlı yurd qədim oğuz məskənidir.

## İLANLI

İlanlı Dərələyəz mahalının Yeğeqnadzor (Keşişkənd) rayonunda azərbaycanlı kəndidir. İlanlı Qovuşuq kəndinin yaxınlığında dəniz səviyyəsindən 2038 metr hündürlükdə yerləşmişdir. Tarixi və statistik mənbələrdən alınmış məlumata əsasən, İlanlı kəndində 1897-ci ildə 23 nəfər, 1916-cı ildə 59 nəfər əhali yaşamışdır. 1918-ci ildə İlanlı kəndi ermənilər tərəfindən dağıdılmış, əhalisi qırılmış, sağ qalanlar isə doğma kəndlərindən qovulmuşlar. O vaxtdan bu kənd xarabalığa çevrilmişdir.

İlanlı toponiminin mənşəyinə gəldikdə demək lazımdır ki, "İlanlı" sözünü tayfa adı ilə bağlayanlar da vardır. Yəni ilan tutan, ilan saxlayan, ilan gəzdirən tayfalara ilanlı adı vermişlər.

Lakin Dərələyəzin Keşkənd rayonunda Təkədonduran dağının cənub sinəsində yerləşən bu kəndin adı tayfa adına görə verilməmişdir. Bu kəndin yerləşdiyi yerdə və bunun ətrafında daşı və çınqılı olan yerlər çoxdur. Burada çoxlu ilan olur. İlanın çox olduğuna görə bu kəndin adına İlanlı demişlər. Deməli, bu kəndin adı onun relyefi ilə bağlıdır.

Mən bu ərazini yaxından tanımıyıram. Anadan olduğum kəndin 6-7 km-də yerləşir. Həqiqətən burda ilan sürüylə gəzir. İndi həmin kəndin xarabalıqları qalmaqdadır. Bu ərazini erməni kəndlərinə vermişlər və onlar buradan otlaq, biçənək kimi istifadə edirlər.[4]

---------------------

1. B.Ə.Budaqov. Türk uluslarının yer yaddaşı. Bakı, 1994, s.51.

2. Mahmud Kaşğari: Divani lüğət-it-türk. I cild, Ankara, 1939, səh.55-56; Г.А.Гейбуллаев: Топонимия Азербайджана, Баку, 1986, стр.51; T.Hacıyev və K.Vəliyev. Azərbaycan dili tarixi. Bakı, 1983, səh.28; N.Məmmədov: Azərbaycanın yer adları, Bakı, 1993, səh.110; T.Əhmədov. Azərbaycan toponimiyasının əsasları, Bakı, 1991, səh. 57; R.Eyvazova. Göstərilən əsər, səh.173-174; B.Budaqov: Göstərilmiş əsər, səh.51.

3. Mahmud Kaşğari. Divani-lüğət-it türk, Ankara, 1939, səh.51.

4. Mirzəyev H. Gənzək və İlanlı kəndləri haqqında, Filologiya məsələlərinə dair tematik toplu, № 6 (18), Bakı, 2001, s.43-45.

## İRİND

İrind – Dərələyəzin Yeğeqnadzor (Keşkənd//Kişkənd) rayonunda kənd adıdır. 1590-cı və 1727-ci illərə aid tarixi mənbələrdə göstərilir ki, bu dövrdə Dərələyəzin Rind//İrind kəndinin 2.100 ağça gəliri olmuşdur.[1] Əvvəllər azərbaycanlıların məskəni olan bu kənddə indi ermənilər yaşayır.

Zəngibasarda da bu adda kənd vardır. B.Budaqov yazır ki, Eçmiadzin qəzasında (dördüncü milis sahəsində) ermənilər tərəfindən dağıdılan kəndlərdən biri də "İrind"dir.[2]

Yaşlı adamların dediyinə görə Rusiya ilə İran dövlətləri arasında 1828-ci ildə bağlanan Türkmənçay müqaviləsindən sonra xaricdən Dərələyəzə gətirilən ermənilərin böyük bir hissəsi də Rind kəndində məskunlaşdırıldı və azərbaycanlılar bu kənddən çıxarıldı. İndi bura böyük bir yaşayış məskənidir.

Tallin (Kümrü və Eçmiədzin) rayonunda da İrind//İrənd adlı bir azərbaycanlı kəndi olmuş, 1912-ci ilədək burada azərbaycanlılar yaşamış, 1912-ci ildə rus hərbçiləri bu kənddə ermənilərin məskunlaşmasına kömək etmiş və azərbaycanlılar buradan çıxmağa məcbur olmuşlar. Bununla bağlı Hollavarlı Aşıq Məhər yazdığı şerdə ermənini qəbireşən, qəbirdağıdan kaftara bənzətmişdir.

Aşıq Məhər yalan sözü söyləməz,
Sel gələndə torpaq onu əyləməz,
Doğru yola gedən nahaqdan ölməz
Kaftar kimi qəbir sökən gəlibdir,
İrindi dağıdıb sökən gəlibdir.[3]

## İSTİSU KƏNDİ//QƏSƏBƏSİ (SƏFOLAR İSTİSUYU//CERMUQ QƏSƏBƏSİ)

İstisu (Səfolar istisuyu//Cermuq) Dərələyəzin Əzizbəyov rayonunda yerləşən kəndlərdən biridir. Bu kənd dəniz səviyyəsindən təqribən 2000 m yüksəklikdə yerləşir. Kəndin içindən Arpa çayının cənub qolu keçir. Bu kənd çox mənzərəli, göz oxşayan yaşıl meşələrin, göy çəmənlərin, şır-şır bulaqların əhatəsində yerləşir. Bura müalicə suyu, şəfa suyu çıxan bir yer olduğu, uca dağların, yaylaqların ətəyində yerləşdiyi və qışı sərt keçdiyi üçün əvvəllər əhali burada az yaşamışdır. Öz qoçaqlığı, cəsurluğu, cəngavərliyi, mərdliyi ilə məşhur olan Səfo adlı şəxs burada kənd salmış və qohum-qardaşını başına yığaraq buranı daimi yaşayış məskəninə çevirmişdi.[4]

--------------------

1. Ziya Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, səh.57; Ziya Bünyadov və Hüsaməddin Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh.34, 210.
2. B.Budaqov. Türk uluslarının yer yaddaşı. Bakı, 1994, səh.163.
3. Bax: Aslan Bayramov. Qədim oğuz ellərinin Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin yer-yurd aları (toponimləri), Sumqayıt, 1996, səh.108-109, 172.
4. Mirzəyev H. İstisu kəndi (Səfolar İstisuyu, Germuq) və burada olan onomastik vahidlər, Filologiya məsələlərinə dair tematik toplu, № 3-4, Bakı, 2001, s.166-175.



Kənd əhalisinin əsas məşğuliyyəti maldarlıq, əkinçilik və arıçılıq olmuşdur. Qarabağ elindən yaylaqlara köçən elat camaatının böyük bir hissəsi yayda bu kəndin ərazisində öz mal-qoyunlarını saxlamış, payızda isə arana qayıtmışdır.

Tarixi mənbələrdən məlum olur ki, 1873-cü ildə İstisu kəndində 114 nəfər, 1886-cı ildə 117 nəfər, 1897-ci ildə 163 nəfər, 1904-cü ildə 214 nəfər, 1914-cü ildə 235 nəfər, 1916-cı ildə 200 nəfər azərbaycanlı olmuşdur. 1918-ci ildə kənd dağıdılmış, əhalisi qovulmuşdur. 1922-ci ildə 118 nəfər qaçqın öz kəndinə qayıtmış, 1931-ci ildə onların sayı 215 nəfərə çatmışdır.[1]



Sonralar Ermənistan hökuməti bu kəndi böyük bir şəhər tipli qəsəbəyə çevirmişdir. Bu kənd sanatoriyaya çevrilmiş və çoxlu yaşayış evləri, müalicəvi əhəmiyyəti olan obyektlər tikilib işə salınmışdır. Əvvəllər yalnız azərbaycanlılar yaşayan bu kənddə tədricən erməni əhalisinin sayı artırılmış və azərbaycanlılar get-gedə sıxışdırılaraq kənddən çıxarılmışdır.

1949-cu ildə Dərələyəzin bir çox kəndləri kimi, İstisu kəndində olan azərbaycanlıları da öz doğma yurdlarından Azərbaycana deformasiya etdilər. Bir neçə il Azərbaycanın isti rayonlarında (çətin şəraitdə) yaşamağa məcbur olan kənd camaatı vətənə dönmək qərarına gəlir və bir ailə İstisu kəndinə (qəsəbəsinə) qayıdır. Get-gedə böyüyən qəsəbədə azərbaycanlılar da çoxalmağa başlayır. Lakin ermənilər müxtəlif yollar, müxtəlif bəhanələrlə azərbaycanlıların burada artmasına, çoxalmasına mane olurdular. Bütün bunlara baxmayaraq 1988-ci ildə bu qəsəbədə 110 ailə, 800 nəfər azərbaycanlı yaşa-

--------------------

1. Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893. №990; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh.90; H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 247. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, s.344; Историческая география Западного Азербайджана, Баку 1998, стр.118.

yırdı. Qərbi Azərbaycanın hər yerində olduğu kimi, 1988-ci ilin noyabr ayında bu qəsəbədə yaşayan azərbaycanlıların da hamısını ermənilər zorla qovub öz doğma yurdlarından çıxartdılar. İndi istisulular Azərbaycanın müxtəlif yerlərində məskunlaşmağa məcbur olmuşlar.

Mən qarış-qarış gəzərək yaxından bələd olduğum bu kəndin onomastik vahidlərini yaxşı bilirəm. Buna baxmayaraq onomastik vahidlər haqqında məlumatın əsas hissəsini bu kəndin bünövrəsini qoyan Səfo və onun oğlu Qlava Alının nəticəsi, hal-hazırda Sumqayıtda yaşayan ali təhsilli, vətənpərvər Alı müəllimdən almışam.

## İSTİSUDA (SƏFOLAR İSTİSUYUNDA//CERMUQDA) OLAN ONOMASTİK VAHİDLƏR

**Tayfa, nəsil və sülalə adları**

1. Alıuşağı
2. Hüsenallar
3. Cabbaruşağı
4. Bahar nəsli
5. Çıldır Miko tayfası (Mikayıl-Miko)
6. Çıldırrı tayfası
7. Bərxudar uşağı
8. Cırraklı (Ceyranlı tayfası)
9. Ballı uşağı
10. Milli tayfası

**Ləqəb və ayamalar**

1. Şeytan Əli
2. Alı dayı
3. Qalalı Şəmil
4. Forsdu Göyüş
5. Uzun Səmənd
6. Qəro (Qəhrəman çox qara imiş)
7. Bəy arvadı (Gülüş, əvvəlcə bəy arvadı olub)
8. Yalançı Əşrəf
9. Qara Məhəmməd
10. Qara Allahverən
11. Keçəl Ağamalı
12. Dəli Məmiş (qoçaq, igid mənasında)
13. Hüsü (Hüsenalı)
14. Qaçaq Səmənd
15. Fatı (Fatma nənə)
16. Aşıq Əhməd
17. Sarı İbad
18. Göygöz Cəmil

19. Balıqçı Əli
20. Pəvi (Pərvan kişi)
21. Yastı Hamaya
22. Çaxırıçən (Əhməd)
23. Alaboğaz
24. Alagöz
25. Quli (kəlbə Qurban)
26. Çiçə nənə (Gülnisə arvad)
27. Dəli Vasif
28. Hilo (Hilal)
29. Üssə nənə (Gülsənəm arvad)
30. Gəkkə (Şahverdi kişi)
31. Urus bəşir
32. Daqqa Nisə
33. Avi (Abdulla)
34. Qaqaş Mahmud
35. Bığlı Mahmud
36. Bra Mahmud
37. Keçəl Alış
38. Topal Bilal
39. Naze (Nazxanım)
40. Əmi (Bəşir kişi)
41. Çəp Ağa
42. Çopur Sara

**Məhəllə adları**

1. Çıldırrı məhləsi
2. Şora bulaq məhləsi
3. Milli məhləsi
4. Alılar məhləsi
5. Qalaçalar məhləsi
6. Aşağı məhlə
7. Yuxarı məhlə
8. Cırranlı məhləsi
9. Təzə məhlə
10. Çuxur məhlə

**Yol adları**

1. Məmmədölən
2. Dəlik daş
3. Dolayı yol
4. Armud ağacı
5. Qala daşı
6. Gav

7. Sallax
8. Fitat yolu
9. Qazannı
10. Yarğan
11. Sarı yoxuş
12. Ağ yoxuş
13. Arxaşan
14. Əyri yol
15. Dardanel
16. Armıddıq
17. Danziyin yolu

**Yaylaq, yurd adları**
1. Dərəyurd
2. Şahnaz
3. Tikannı
4. Dəvəözü (Dəvəgözü)
5. Məmərza
6. Şabulağı (Şahbulağı)
7. Yastıyurd
8. Məmmədölən
9. Hajfətulla yurdu
10. Kəbirri yurdu
11. Gəngərli yurdu
12. Tatallar yurdu
13. Aşıqlı yurdu
14. Soyuq bulaq
15. Arpaçayın dərəsi

**Meşə adları**
1. Böyük meşə
2. Binə meşəsi
3. Yanıq meşə
4. Samantökülən meşə
5. Kotan qayası meşəsi
6. Şora bulaq meşəsi
7. Quşçu meşəsi
8. Pir kahası meşəsi
9. Dərəyurd meşəsi
10. Cırranlı meşəsi
11. Tarlar meşəsi
12. Batçinar meşəsi
13. Şam meşəsi
14. Ağsuyun meşəsi

15. Daşkörpü meşəsi
16. Qazanlı meşə
17. Murad qayası meşəsi
18. Fitat yolu meşəsi
19. Dəhnənin meşəsi
20. Sarı yarğan meşəsi
21. Püsyan meşəsi
22. Cıvırrıq

**Qaya, çınqıl adları**
1. Xaçlar
2. Məmməd uçan
3. Ayı çınqılı
4. Murad qayası
5. Kotan qayası
6. Şora bulaq qayası
7. Ayı bulaq qayası
8. Pir kahası
9. Qalaçalar
10. Ballı qaya
11. Pillələr
12. Daşagirən
13. Göyərçin qayası
14. Şorabulaq çınqılı
15. Daş körpü çınqılı
16. Qaz kahası qayası
17. Samantökülən qaya
18. Qaçaq qayası
19. Dəlikdaş qayası
20. İstisu qayası
21. Aş qayası
22. Qaladaşı
23. Həsənuçan qaya

**Tala adları**
1. Səfo talası
2. Bəşir talası
3. Əli talası
4. Binənin talası
5. Böyük meşə talası

**Biçənək adları**
1. Səfo biçənəyi
2. Məmmədölən biçənəyi

3. Əlinin biçənəyi
4. Bəhmanın biçənəyi
5. Samantökülən biçənək
6. Şamın biçənəyi
7. Səlim biçənəyi
8. Taxta biçənək
9. Qozanın biçənəyi
10. Ağsu biçənəyi
11. Göllər biçənəyi
12. Bulaqlar biçənəyi
13. Quşçu biçənəyi
14. Almalı biçənəyi
15. Armuddunun biçənəyi
16. Göyüş biçənəyi
17. Bərxudar biçənəyi
18. Alı biçənəyi

**Kaha adları**

1. Səfo kahası
2. Tomraz kahası
3. Göyərçin kaha
4. Şırran kahası
5. Pir kahası
6. Dəlik daş kahası
7. Arxac kahası
8. Burjalı kahası
9. Bayramalı kahası
10. Hajı kahası
11. Dəhnənin kahası
12. Murad kahası
13. Horsun kahası
14. Gərməşoy kahası
15. Qaracalar kahası

**Kövşən adları**

1. Binənin kövşəni
2. Ağsu kövşəni
3. Qalaçalar kövşəni
4. Arpalıq kövşəni
5. Şahbulaq kövşəni
6. Kahalar kövşəni
7. Səfonun ayğır kövşəni
8. Qasımölən kövşən
9. Qurbankəsilən kövşən

**Arxac adları**

1. Səfonun arxacı
2. Qasım arxacı
3. Arxaşan arxacı
4. Bərələr arxacı
5. Dəlmələr arxacı
6. Məmərza arxacı
7. Şahbulaq arxacı
8. Şahnaz arxacı
9. Fitat arxacı
10. Kəlbə Qurban arxacı
11. Burcalı arxacı

**İbadətgah, pir adları**

1. Pir kahası
2. Püsyan ocağı - Alıqulu ocağı
3. Terpin ocağı
4. Ərgəz ocağı

**Qəbiristanlıq adları**

1. Samantökülən qəbiristanlığı
2. Götürgə qəbiristanlığı
3. Dərəyurd qəbiristanlığı
4. Cırranlı qəbiristanlığı
5. Kənd qəbiristanlığı
6. Qıbla bulağı qəbiristanlığı
7. Allahaman qəbiristanlığı
8. Murad təpəsi qəbiristanlığı
9. Püsyan qəbiristanlığı
10. Bəyəlinin düzündəki qəbiristanlıq

**Abidə adları**

1. Dəyəyurdda Şirə abidəsi
2. Alban xaçı - qəbir daşı
3. Xaçların başı

**Çay adları**

1. Arpa çayı
2. Ağsu çayı
3. Daşkörpü çayı
4. Dərəyurd çayı
5. Püsyan çayı
6. Dəhnə şırranı

**Bulaq adları**

1. Şirinbulaq
2. Ayıbulağı
3. Şorabulaq
4. Gözələr
5. Cırranı bulağı
6. Dərəyurd bulağı
7. Topdaş bulağı
8. Ağsu bulağı
9. Süddü bulaq
10. Məmməd bulağı
11. Pir kahası bulağı
12. Səfo bulağı
13. Qaz kahası bulağı
14. Dəlikdaş bulağı
15. Alı bulağı
16. Şahnaz bulağı
17. Əmağu bulağı
18. Qırxbuğum bulağı
19. Layla bulaq
20. Turş su
21. Qnyaz bulağı
22. Bal bulaq
23. Təmraz bulağı
24. Qarasu
25. Damcılı bulaq
26. Təhnəli bulaq
27. Korabulaq
28. Lilparrı bulaq

**Göl adları**

1. Səfonun gölü
2. Lal göl
3. Fatmabatan göl
4. Həsənuçan göl
5. Qamışdı göl
6. Batqınnar gölü
7. Yarpızdı göl
8. Topdaş gölü

**İstisu kəndindən 1941-1945-ci il Böyük Vətən müharibəsinə gedənlər**

**a) qayıtmayanlar**

1. Həsənov Nəcəf Məmmədalı oğlu

2. Həsənov Hüseyn Məmmədalı oğlu
3. Həsənov İbrahim Məmmədalı oğlu
4. Hüseynov Namənd Məmiş oğlu
5. Əhmədov Zülfü Nəbi oğlu
6. Səfiyev Ağa Qurban oğlu
7. Baxşalıyev Həmid Səmənd oğlu
8. Ağayev Göyüş Gülməmməd oğlu
9. Səməndov Fərhad Həmid oğlu
10. Əliyev Ağa Bəşir oğlu
11. Alıyev Bəhrəm Bəşir oğlu
12. Alıyev Şamil Nəsir oğlu
13. Əliyev Əli İman oğlu
14. Əhmədov Əhməd Cabbar oğlu
15. Təmrəzov İbiş Məmiş oğlu
16. Əliyev Haxverdi Süleyman oğlu
17. Qasımov Çərkəz Süleyman oğlu
18. Xudayarov Hüseyn Vəli oğlu
19. Nəbiyev Qasım Mehti oğlu
20. Qasımov Çərkəz Süleyman oğlu
21. Hüseynov Hüseyn Teymur oğlu
22. Bayramov Əşrəf İmran oğlu
23. Əliyev Bəhman İman oğlu
24. Nəbiyev Yunus Ağalar oğlu

**b) qayıdanlar**

25. Alıyev Behbud Bəşir oğlu
26. Alıyev Cəmil Bəşir oğlu
27. Alıyev Mahmud Nəsir oğlu
28. Nəsibov Fərrux Səlim oğlu
29. Gözəlov Qaraş Şıxalı oğlu
30. Xudayarov Bəxtiyar Nəcəf oğlu
31. Nəcəfov Çərkəz Bəxtiyar oğlu
32. Şahverdiyev Əmrah Şahverdi oğlu
33. Şahverdiyev Zülfiqar Şahverdi oğlu
34. Şahverdiyev Kərəm Cəfər oğlu
35. Şahverdiyev Bilal Şirin oğlu
36. Şahverdiyev Hilal Şahverdi oğlu
37. Şahverdiyev Əziz Şirin oğlu
38. Şahverdiyev Alış Şirin oğlu
39. Səfiyev Tapdıq İsmayıl oğlu
40. Səfiyev Surxay İsmayıl oğlu
41. Baxşalıyev Şadman Hüseynalı oğlu
42. Baxşalıyev Məmiş Hüseynalı oğlu
43. Səfiyev Əvəz Qurban oğlu

44. Nəbiyev Səmənd Əhməd oğlu
45. Nəbiyev Nəbi Əhməd oğlu
46. Nəbiyev Qasım Mehdi oğlu
47. Adıgözəlov Xalıxverdi Şahbəndə oğlu
48. Əliyev Allahverdi Süleyman oğlu
49. Cabbarov Çərkəz Əmrastan oğlu
50. Hüseynov Ağa Bəhman oğlu
51. İsaxanov Pərvan Usub oğlu
52. Usubov Qulam Pərvan oğlu
53. Hüseynov Cahangir Bəhman oğlu
54. Ağamalıyev Hajağa Mehdi oğlu
55. Bayramov Savalan Fərəc oğlu
56. Qasımov Şamil Süleyman oğlu

Kolxoz qurulanda İstisu kəndindən Bəşir Alı oğlu Səfayevi və Safo oğlu Kəlbə Qurbanalını kulak ediblər. Hər ikisinə iş kəsib İrəvana göndərıblər. Bir ildən çox yatıblar. Sonra onların qocalığını nəzərə alıb oğlanları Abdulla və Ağanı onlarla əvəz ediblər. Hər iki nəslin nümayəndələri hazırda Sumqayıtda və Bərdədə yaşayırlar.

## Qarabağ döyüşlərində şəhid olanlar

1. Hüseynov Akif Knyaz oğlu (1994-cü il yanvarın 20-də Kəlbəcərdə, Haçaqaya əməliyyatı zamanı həlak olub. Qəbri Sumqayıtın "Şəhidlər xiyabanı"ndadır. "Azərbaycan Bayrağı" ordenli).

2. Mirzəyev Müşfiq Mustafa oğlu (1993-cü ildə fevralın 16-da Mardakertdə (Ağdərə) şəhid olub. "Azərbaycan bayrağı" ordeni alıb. Qəbri Mingəçevir "Şəhidlər xiyabanı"ndadır).

3. Qurbanov Elşad Nadir oğlu (1992-ci ildə fevralın 5-də Daşaltı əməliyyatı zamanı həlak olub. Qəbri Bakıda "Şəhidlər xiyabanı"ndadır. X.Rzanın oğlu Təbrizlə eyni vaxtda həlak olub, qəbirləri də qoşadır).

## Hərbi və polis zabitləri

1. Alıyev Behbud Bəşir oğlu (1941-1945-ci illərdə kapitan, rəhmətə gedib).

2. Hüseynov Binnət Şadman oğlu (1988-ci ilə kimi polis kapitanı, Sumqayıtda rəhmətə gedib).

3. Nəcəfov Mürşüd Göygöz oğlu (1988-ci ilə qədər başqa yerdə, sonra isə Sumqayıt daxili qoşununda xidmət edib). Hazırda ehtiyatda olan mayordur (Sumqayıtda yaşayır).

## Ağsaqqallar və nüfuzlu şəxslər

Safa oğlu Alı igid, yüzbaşı olub, Kalbay Qurban (Boz atdı fələk deyərmişlər), Hüseynov Şadman Hüseynalı oğlu, Alıyev Mahmud Nəsir oğlu, Alıyev Abdulla Bəşir oğlu, Baxşalıyev Məmiş Hüseynalı oğlu (Dəli Məmiş), Bəx-

tiyarov Bilal, Gəncmalıyev Garay Səfəralı oğlu, Gəncmalıyev Sevindik Mehdi oğlu, Hüseynov Knyaz Şadman oğlu, Alıyev Cəmil Bəşir oğlu, Nəsibov Fərrux Səlim oğlu, İmanov İman Ağamalı oğlu, Bəşirov Sevindik Abdulla oğlu.

**İncəsənət nümayəndələri**

Qoşnalı Səfiyev Nabatalı oğlu (balaban, zurna və saz çalır), Aşıq Behbud Bəşir oğlu (saz, zurna, balaban çalır), Aşıq Əhməd Nəbi oğlu, Aşıq Baloş Nəbi oğlu, Mamed Hümbətalı oğlu (balaban, zurna çalır), Xasay Firidun oğlu (zurna, balaban çalır), Çərkəz Cabbarov Əmrasdan oğlu (Balaban, nağara çalır), Nəbiyev İdris Səlim oğlu (xanəndədir), Qurban Yusif Ağa oğlu (zurna, balaban, tütək, klarnet, qaboy çalır), Qurbanov Əlizamin Yusif oğlu (qarmon çalır), Qurbanov Cəlal Yusif oğlu (nağara, qoşa nağara çalır), Nəcəfov Müstəcəb Tapdıq oğlu (gitara çalır), Cabbarova Aynurə Qanboy qızı (aşıqlıq edir, kamança çalır).

**Qəhrəman analar (10 və artıq övlad böyüdüb tərbiyə edənlər)**

Mehdiyeva Məleykə, Mamedova Tovuz, Şahverdiyeva Dursun Nabatalı qızı, Hüseynova Tutu Alyar qızı, Süleymanova Fitat Ağa qızı.

**Deportasiya zamanı qızdırmadan ölənlər (1949-cu ildə Ağdamın Ağciyəz və Bərdə rayonunun Qaradəmirçi kəndlərinə deportasiya olunanlardan qızdırma xəstəliyindən ölənlər)**

Mehdiyev Hajağa Mehdi oğlu, Alıyev Gülgəz Namənd qızı, Alıyeva Balaxanım Əlif qızı, Cabbarov Rəşid Cabbar oğlu, Tavat arvad və iki qızı, Bəşirova Durna Cəlil qızı.

Qeyd etmək lazımdır ki, İstisu kəndindən 1949-cu ildə deportasiya zamanı çoban işləyən Səfər və Qəfər qardaşları, Laçın ərazisində borana düşüb həlak olublar.

**İnformatorlar:** 1) Alıyev Alı – 50 yaşlı, ali təhsilli müəllim, İstusuda böyüyüb başa çatmış, 1988-ci ildə oradan deportasiya olunmuşdur, hal-hazırda Sumqayıtda yaşayır; 2. İstisu kəndində doğulub yaşayanlar - 92 yaşlı Abdulla Alıyev Bəşir oğlu, 78 yaşlı Alıyev Cəmil Bəşir oğlu, 69 yaşlı Bəkirov Sevindik Abdulla oğlu, 3) Özüm (Həsən Mirzəyev).

## İTQIRAN (LEVİS)

İtqıran Levis – Dərələyəzdə azərbaycanlı kəndidir. Kəndin xarabalıqları və qəbiristanlıq qalıqları Almalı kəndinin yaxınlığında qalmaqdadır. Erməni tarixçisi Z.Qorqodyan yazır ki, 1897-ci ildə İtqıran Levisdə 123 nəfər azərbaycanlı olmuşdur. Qeyd etmək lazımdır ki, 1918-ci ildə kəndin dinc əhalisinə erməni quldurları amansız divan tutmuş, evlərinə od vurub yandırmışlar, özlərini isə zorla qovmuşlar. Həmin vaxtdan bu kəndin əhalisi Gülüstan kəndinə

(İmarətə) yığışmış və orada İtqıran Levisdə məskunlaşmışlar.

İtqıran Levis toponiminin mənşəyinə gəldikdə deməliyəm ki, bu toponim də azərbaycanlılara məxsusdur.

## KAHA

Kaha Dərələyəzin Yeğeqnadzor (Keşkənd) rayonunda Azərbaycan kəndidir. Arpa çayının şimal qolunun üstündə, Göyçədən Naxçıvana gedən şosse yolun yaxınlığında, Bülbülölən, Alxanpəyəsi, Həsənkənd adlı yaşayış məskənlərinin əhatəsində yerləşir.[1] Kənd dağın sinəsindədir. Yaşlı admların verdiyi məlumata görə, bu kənd ən qədim yaşayış məskəni olmuşdur. Kaha kəndinin əhalisi əvvəllər dağın sinəsindən və qayaların içindən qazılmış bir neçə oyuqda, kahada yaşamışlar.

Qalaser kənd sakini və 150 il ömür sürüb, 40-cı illərin axırlarında rəhmətə gedən Əli kişi danışırdı ki, Kaha kəndində və oradakı kahaların içində Nikolay hökuməti qazıntı işləri aparırdı. Həmin qazıntı işlərini, əsasən, Əyər, Hors, Qovuşuq və Qurdqulaq kəndlərində məskunlaşan Dağdələnli tayfasından olan adamlar aparırdı. Həmin qazıntı işləri aparılarkən oradan çoxlu qədim sikkə pullar və digər əşyalar çıxmışdı. Buradan çıxan pulların, sıkkələrin əksəriyyəti ayrı-ayrı dövrlərə, hətta bizim eradan əvvələ aid olan pullar olmuşdur.

Əli kişi deyirdi ki, qazıntı zamanı mən o pullara baxmışam. Mis pullar çox idi. Hətta misdən hazırlanmış lap balaca pullar ovuc-ovuc çıxırdı. Görünür bu pulları burada insanlar tarixən basdırıb gizlətmişlər.

Kaha kəndində olan belə qədim əşyalar və pullar haqqında Kaha kəndinin yaxınlığında yerləşən Alxanpəyəsi kənd sakini, sonralar Ələyəz kəndində məskunlaşan, təxminən 110 il yaşayan və 1960-cı illərin sonunda dünyasını dəyişən Cəfərov Əhməd deyirdi ki, mən həmin pulları öz gözlərimlə görmüşəm.

Mən şəxsən 50-ci və 60-cı illərdə Əhməd kişidən Ələyəz kəndində, onların öz evində (arvadı Firuzə mənim qohumlarımdan idi) dönə-dönə bu haqda sorğu etmişəm. Kaha kəndində tapılan əşyalar və baş vermiş erməni-müsəlman davası haqqında mənimlə dəfələrlə söhbət etmişdir. O, həm də yaxşı ovçu idi. Bu yerlərin coğrafiyası haqqında danışanda deyirdi ki, buralarda çoxlu vəhşi heyvanlar, dağ keçiləri olmuşdur. Onu da qeyd etmək lazımdır ki, Kaha kəndindən yuxarıda, dağın üstündə Alban türklərinə məxsus Şadıvəng adında qədim bir abidə vardır. Bütün bunlar göstərir ki, bura ən qədim yaşayış məskəni olmuşdur.

Kaha sözünün mənşəyinə gəldikdə qeyd etməliyik ki, bu qədim türk mənşəli sözdür və kəndə öz coğrafi relyefinə görə bu ad verilmişdir.

Cəfərov Əhməd kişinin məlumatına görə, bu kənddə Sadıxlar, Ağayarlılar, Abasqulu uşağı adlı tayfalar yaşamışdır.

--------------------

1. Mirzəyev H. Kaha və Axurlu kəndləri haqqında, Filologiya məsələlərinə dair tematik toplu, № 6 (18), Bakı, 2001, s.53-54.

## KALAFALIQ

Kalafalıq Dərələyəzin Yeğeqnadzor (Keşkənd) rayonunda azərbaycanlı kəndidir. Xarabalıqları və qəbiristanlığın qalıqları indi də qalmaqdadır. Canı çayının sol sahilində, Qovuşuq kəndi ilə Qabaxlı kəndinin arasında yerləşmişdir. "1905-ci ildə həmin kənddə 3 təsərrüfat, 17 nəfər əhali yaşamışdır. 1905-ci il erməni-müsəlman savaşında ermənilər kəndi yandırıb dağıtmışlar."[1]

Kəndin adı onu əks etdirən kalafa sözünün sinonimidir.

## KEŞİŞKƏND//KEŞKƏND

Keşişkənd//Keşkənd Şərur-Dərələyəz qəzasında (Dərələyəz ərazisində) olan kəndlərdən biridir. Dərələyəz əvvəllər Naxçıvan, sonra da İrəvan xanlığının tabeliyində olmuşdur.[2] 1920-ci ilə qədər Azərbaycanın tərkibində olan Dərələyəz 1922-ci ildən sonra zorla, Sovet hökumətinin təkid və tələbi ilə Azərbaycandan alınıb Ermənistana verilmişdir. Azərbaycan dövləti, gələcək nəsillər Azərbaycanın əlindən qeyri-qanuni yolla, zorla alınıb ermənilərə verilmiş bu torpaqları beynəlxalq təşkilatlar vasitəsilə geri qaytarmalıdır.

Keşişkənd//Keşkənd rayon mərkəzidir. 1931-1935-ci illərdə bu rayon Keşişkənd//Keşkənd, 1935-1957-ci illərdə Mikoyan, 1957-1959-cu illərdə Əzizbəyov, 1959-cü ildən sonra isə Yeğeqnadzor (Qamışlı dərə) adlandırılmışdır.

Bu rayon ərazisi Şərur, Vedi, Qaranlıq (Martuni), Basarkeçər, Əzizbəyov (Dərələyəz) rayonları ilə həmsərhəddir. Sahəsi 1134 km-dir.

Qeyd edilməlidir ki, əvvəllər Dərələyəzdə erməni yaşamamışdır. Onlar buraya sonralar gəlmişlər. Ermənistanın Ensiklopediyasında ermənilər özləri etiraf edirlər ki, Yeğeqnadzor rayonuna erməni əhalisi 1828-1830 və 1915-1918-ci illərdə İran və Türkiyədən gətirilmişdir.[3]

Ermənilər 1986-cı ildə çap etdirdikləri toponimlər lüğətində də yuxarıdakı fikri təsdiq etməyə məcbur olurlar. Tarixi faktlardan qaça bilməyən müəlliflər ayrı-ayrı toponimləri izah edərkən göstərirlər ki, ermənilər bu yerlərdə (qədim oğuz yurdu olan Qərbi Azərbaycanda) 1828-ci ildən sonra məskunlaşmışlar.[4]

1828-ci ildən sonra çar Rusiyası erməniləri burada məskunlaşdırsalar da, 1940-cı illərə qədər bu mərkəzdə az miqdarda olsa da azərbaycanlılar da yaşamışdır.

1590 və 1727-ci illəri əks etdirən tarixi mənbələrdən tam aydın olur ki, hə-

--------------------

1. Kamil Dərələyəzli. "Dərələyəz od içində". Bakı, 2001, səh.202.
2. Mirzəyev H. Keşişkənd//Keşkənd toponimi, Pedaqoji universitetin xəbərləri, humanitar elmlər seriyası, № 1, Bakı, 1998, s. 3-10; Mirzəyev H. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz (monoqrafiya), Bakı, 1997, səh. 213-220.
3. Erməni Sovet Ensiklopediyası, III cild, Yerevan, səh.502-503.
4. Т.Х.Акопян, Ст. Т.Мелик-Бахшян, О.Х.Барсегян: Словарь топонимов Армении и прилегающих областей. Том I (erməni dilində). Yerevan, 1986, səh. 19-20, 38, 41, 56, 62, 64, 67, 124, 126, 138, 146; 159; 166, 177, 203, 208-209, 213, 227-228, 274, 284, 290, 299, 304, 384, 386, 388, 400-401, 403, 415, 421, 423-424, 426, 431; 444, 463, 495-497, 519, 535, 545-546, 556-567, 590, 634, 660, 669, 678-679, 708-709, 747, 821, 824, 830; 871; 925-927, 945, 984 və s.

min dövrlərdə bu kənddə azərbaycanlılar yaşamış və bunların gəliri 3.880 ağça olmuşdur.[1]

Keşkənd rayonunun lap əvvəlki mərkəzi Qızıl qışlaq adlı kənddə imiş. Keşkənddə böyük bir karvansara da olmuşdur ki, karvan sahibləri həmişə bu karvansaradan istifadə etmişlər.

Apardığımız araşdırmalar göstərir ki, Keşişkənd//Keşkənd toponimi türk xalqlarına məxsusdur və erməni ruhanisinin (monaxının, derderinin) adını bildirən keşiş sözü də türk sözüdür.

Qədim statistik məlumat və xəritələrdən, tarix, coğrafiya, iqtisadiyyat və dilə aid mənbələrdən məlum olur ki, Dərələyəz mahalında olan xüsusi adların hamısı türk xalqlarına, o cümlədən Azərbaycan xalqına məxsusdur.

Rus çarizminin, Sovet hökumətinin köməyi ilə bu qədim Azərbaycan torpağına zorla yiyələnən ermənilər müxtəlif yollarla buradakı xüsusi adları dəyişib ona erməni donu geyindirməyə çalışsalar da həmin yer-yurd adlarının Azərbaycan xalqına məxsus olduğunu tarixdən silə bilməyəcəklər.Başqa xalqlara məxsus tədqiqatçıların əsərlərində olduğu kimi, erməni tədqiqatçılarının özlərinin əsərlərində də Dərələyəzdəki xüsusi adların Azərbaycan xalqına məxsus olduğu dönə-dönə qeyd olunmuşdur.[2]

Dərələyəzdəki Keşişkənd//Keşkənd toponiminin təşəkkülünə gəldikdə tarix, coğrafiya və dilə aid faktlar göstərir ki, bu yalnız və yalnız türk dillərinə məxsus iki sözün birindən, keç və ya keş//kiş sözündən formalaşmışdır.

### 1) Keçiş (sözü)

Dünyanın ən məşhur alimləri tərəfindən tərtib olunan "Qədim türk dilləri lüğəti"ndə keçmək felindən söhbət açılaraq göstərilir ki, bu sözdən əmələ gələn keçmiş ("keiş") ismi rus dilindəki "perexod, pereprava, most" mənalarında işlənir.[3]

Rusca – azərbaycanca lüğətdə bu sözlərin mənası aşağıdakı kimidir:

a) "переход" – "keçmə, keçiş"; "aşma, aşıb keçmə"; "yol, keçid; koridor, dəhliz; mənzil, məsafə".

--------------------

1. Ziya Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri, Bakı, 1996, s.59; Ziya Bünyadov və Hüsaməddin Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri, Bakı,1997, s.35.

2. Bax: Ziya Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, s.30, 184. Ziya Bünyadov və Hüsaməddin Məmmədov. Naxçıvan sancağının icmal dəftəri. Bakı, 1997, səh.3. Статическое описание Нахичеванской провинции, Санкт-Петербург, 1833, стр. 160-177; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, сэщ. №959-1957; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 336-368, 391-410; И.Шопен. Исторические памятники состояние армянской областе в эпоху и присоединения к Российской империи, С.Петербург, 1852, стр.611-622; Z.Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə – 1831-1931 (erməni dilində), İrəvan, 1932, səh. 158-160, 160-163; Vidadi İsayev. Hardan gəlir bu köç? Bakı, 1995, s.3-163; Əziz Ələkbərli. Qədim türk-oğuz yurdu – "Ermənistan", Bakı, 1994, s.133-137, 153-157.

3. Бах: Древнетюркский словарь, Ленинград, 1969, с.291.

b) "переправа" – "keçmə, keçiş, keçid; keçid yeri".

v) "мост" – körpü"[1]

Görkəmli türkoloq, türk dillərinə aid 8 cildlik fundamental lüğətin müəllifi V.V.Radlov da öz lüğətində keçiş sözündən söhbət açır. V.V.Radlov keçiş sözünün türk dillərində keçim (rarim), keçiv (rariv), köçü (raruy), keçur (rariq), kəçik (rarir) sözləri ilə sinonim kimi işləndiyini və rus dilindəki "бродь", "переправа" sözlərinin mənasını verdiyini göstərir.[2]

Rusca – azərbaycanca lüğətdə isə "бродь" sözünün izahı aşağıdakı kimidir: "бродь – çay keçidi, dayaz yer, bərə".[3]

Hətta milliyyətcə erməni olan Lazar Budaqov və E.V.Sevortyan da türk dillərinə həsr etdikləri lüğətlərdə keçmək felinin hansı formal əlamətləri qəbul etməsi, hansı mənalarda işlənməsi haqqında məlumat verirlər.[4]

Yuxarıda deyilənlərdən aydın olur ki, -iş şəkilçisi tarixən keçmək felinə artırılaraq "keçiş" ismini əmələ gətirmiş və bu söz türk dillərində, o cümlədən Azərbaycan dilində yol, keçid, keçid yeri, bərə, koridor, dəhliz, mənzil kimi sözlərin mənasını bildirməyə xidmət etmişdir.

Deyilənlərdən belə bir nəticə hasil olur:

Birincisi: Dərələyəzdəki "Keşişkənd" toponimi əvvəlcə "Keçişkənd" formasında olmuş, tələffüzün asanlaşması üçün "ş" səsi "ç" səsini əvəz etmiş və Keçişkənd sözü Keşişkənd formasına düşmüşdür.

Aşağıda 7 bənddə göstərəcəyimiz faktlar belə bir mülahizə yürütməyə tam əsas verir:

1. -ış (-iş, -uş, -üş) şəkilçisi yalnız "keçmək" felindən deyil, başqa fellərdən də bu tipli sözlər əmələ gətirə bilir. Məs., gir-iş (qapısı), çıx-ış (qapısı), qaç-ış (yeri), uç-uş (xətti) və s.

2. Məşhur türkoloq V.V.Radlov və milliyyətcə erməni olan türkoloqlardan L.Budaqov və E.Sevortyan türk dillərinə dair yazdıqları lüğətlərdə göstərirlər ki, qırğız, noğay, qaraqalpaq, altay, şor, qazax dillərində və bunlardan bəzilərinin dialektlərində "keç" feli "keş", "qiş" formasında işlənir.[5] Yəni bu dillərdə "ç" səsinin əvəzinə "ş" səsi işlənir.

Deməli, Azərbaycan dilindəki "keçmək" feli bəzi türk dillərində "keşmək" şəklindədir.

3. Azərbaycan dilində orfoepik qanunlara uyğun olaraq çox zaman "ç" sə-

-------------------

1. Rusca – azərbaycanca lüğət, II cild, Bakı, 1975, səh.450, 435, 101.

2. В.В.Радлов. Опыт словаря тюркских наречий. Санкт-Петербург, том II, часть 2, 1899, с.1148, 1142, 1180, 1182.

3. Rusca-azərbaycanca lüğət, I cild, Bakı, 1976, səh.100.

4. Лазар Будагов. Сравнительный словарь турецко-татарских наречий, том II, Санкт-Петербург, 1871, с.115-116; Э.В.Севортян. Этимологический словарь тюркских языков. М., 1980, с.32-34.

5. Bax: В.В.Радлов. Опыт словаря тюркских наречий, том II часть 2, С.Петербург. 1899, стр.1180-1182; Лазар Будагов. Сравнительный словарь турецко-татарских наречий том II, Санкт-Петербург, 1871, стр.115; Э.В.Севортян. Этимологический словарь тюркских языков, М., 1980, стр.32-34.

sinin yerinə "ş" səsi işlənir. Məs.: açdı–aşdı (qapını açdı – qapını aşdı), uçdu–uşdu (quş uçdu – quş uşdu), qaçdı–qaşdı (uşaqlar qaçdı – uşaqlar qaşdı), köçdü–köşdü (camaat köçdü – camaat köşdü) və s.

4. Fonetik hadisə və qanunlar tələb edir ki, sözün tələffüzü asan olsun və sözdəki sait və samitlər bir-biri ilə həmahəngləşsin.

Azərbaycan dilində yazsa felinin yassa, getsə felinin gessə, yavaşca zərfinin yavacca, dinməz sifətinin dimməz kimi tələffüz olunması belə tələblərdən irəli gəlir.

Deməli, "ç" səsinin "ş" səsinə çevrilməsi də dilimiz üçün qanunauyğun bir haldır.

5. Haqqında danışdığımız kəndin (Keşişkəndin//Keçişkəndin) coğrafi relyefi də yuxarıda söylədiyimiz mülahizəni təsdiq edir:

a) Bir neçə yol keçidləri bu kənddə birləşir. Zəngəzura, Göyçəyə, Kəlbəcərə, Naxçıvana, Şərura, Vediyə gedən yollar, əsasən, bu kəndin mərkəzindən və ətraf ərazisindən keçir.

b) Bu kəndin ətrafından Arpa çayının iki qolu və içindən isə balaca bir çay keçir. Bu çayların üstündə körpülər, keçidlər vardır.

v) Yaşlı adamların (1938-ci ildə 146 yaşı olan Qalaserli Əli kişinin) dediyinə görə bu kənddə (Keşişkənddə, Keşkənddə) böyük bir karvansara olmuşdur. Teymurləng, Şah İsmayıl və Şah Abbasın qoşunları strateji cəhətdən çox əhəmiyyətli olan bu yerdə müəyyən müddət məskən salmışlar.

Deməli, bu kənd bir növ yol, keçid, keçid yeri, körpü, bərə, mənzil (dincəlmək yeri) rolunu oynamışdır.

6. Bu kəndə relyefə görə ad verilməsini başqa faktlar da təsdiq edir. Belə ki, bu kəndə çox yaxın məsafədə yerləşən iki kəndə də relyefə görə ad verilmişdir. Bunların biri Ortakənd, digəri isə Başkənd adlandırılmışdır. Aşağıda Keşişkənd (Keçişkənd, Keşkənd), Ortada Ortakənd, yuxarıda isə Başkənd yerləşir.[1] Deməli, bu üç kəndin üçünə də relyefə görə ad verilmişdir.

7. Xristian (erməni) monaxının adını bildirən keşiş sözünə gəldikdə, demək lazımdır ki, bu sözün ermənilərə və erməni dilinə heç bir aidiyyəti yoxdur.

Əvvələn, keşiş sözü mənşə etibarilə Osmanlı türkcəsinə məxsusdur. V.V.Radlovun məşhur lüğətində "keşiş" sözünün Osmanlı türkcəsinə aid olduğu aydın şəkildə öz əksini tapmışdır.[2]

Göründüyü kimi, Dərələyəz mahalında bir dənə də olsun erməni adını daşıyan kənd olmamışdır. Burada erməni yaşamaya-yaşamaya onların monaxının adına kəndin olması mümkündürmü? Yox. Sadəcə olaraq "keçiş" sözü "keşiş" kimi tələffüz edilmiş, sonra bu şəkildə yazılmış, ermənilər də bu oxşarlıqdan istifadə edib, bu kəndi öz adlarına, öz tarixlərinə yazmaq istəyirlər.

-------------------

1. Mən 1955-1957-ci illərdə Dərələyəzin hər iki rayonunda maarifin inspektoru vəzifəsində çalışmış, burada olan bütün kəndləri dönə-dönə gəzmiş və iş yerim də rayon mərkəzi olmuşdur. Bir sözlə, mahaldakı kəndlərin hamısını yaxşı tanıyıram.

2. В.В.Радлов. Опыт словаря тюркских наречий, том II№ часть 2, С.Петербург, 1899, с.1182.

İkincisi, Dərələyəz mahalında (hər iki rayonda) olan kəndlərin hamısı tarixən azərbaycanlı kəndləri olmuş və bunların xeyli hissəsi türk tayfalarının, qəbilə, nəsil və sülalələrinin adını daşıyır.

Fikrimizin aydınlaşması üçün Dərələyəz mahalında (hər iki rayonda) olan kəndlərin adını oxucuların nəzərinə çatdırmaq faydalıdır: Almalı, Ağıllı, Axta, Axtacul, Arınc, Abana, Ağxac, Alxanpəyəsi (Alıxanpəyəsi), Ayuş (Havuş), Ağdərə, Ağkənd, Ağkilsə, Ağsu, Ayısəsi, Arpa, Arxac, Ağçakənd, Axurlu, Aşağı Canı, Bulaqlar, Başkənd, Baxçacıq, Bəyzadə, Boyadərə, Bülbülölən, Qayalı, Qayabaşı, Qaralar, Qabaxlı, Qılıclı, Quşçu, Quşçubilək, Quşçu keçid, Qalakənd, Qaravəng, Qaraqaya, Qızılqışlaq, Qışlaq, Qovuşuq, Qozulca, Qoytul, Qurbankahası, Qurban kəsilən, Qurdqulaq, Qoşavəng, Daşaltı, Daşkənd, Daşxərmən, Daylaxlı, Dəmirçilər, Dərəkənd, Dədəli, Dədəli körpüsü, Əyər, Ələyəz, Erdəpin (Yerdəpin), Ertiş, Əynəzir, Əmağu, Əli qışlağı, Əbdülərəb, Əmidərəsi, Ərəbxəncəri, Ərəbkəndi, Ərgəz, Əsgərkənd, Əskikənd, Əkərək, Zeyvə, Zeytə, Zirək, İtqıran, İstisu, İlanlı, İrind, Yengicə, Yelpin, Yavər kəndi, Kaha, Kalafalıq, Kotanlı, Kömürlü, Köçbək, Köhnə kənd, Kəlyatağı, Kələkulux (Kələk-gulux), Gendərə, Gəncə, Gənəli, Göyərçin, Gabut, Gomur, Gümüşxana, Gülüstan, Gülüdüz, Güneyvəng, Göyabbas, Leyliköçən, Məlişkə (Məlikşah), Məşədilər, Məşədi Şahbaz, Moz, Muğancıq, Namazalı, Novlar, Novlu, Nəbilər, Ortakənd, Paşalı, Paşadüzü, Pənahqalası, Pəyədərə, Rəsulqışlağı, Sallı, Aşağı Sallı, Seyid Məmiş, Söylan, Tamaşalıq, Tərətum (Təzətum), Terp, Ülgül, Xaçın (Xaçik), Herher, Heşin, Həsənkənd, Hors, Hosdun, Hortun, Horbadıq, Hüseynqullar, Çaykənd, Çanaxçı, Çivə, Çıraxlı, Canı, Ceyranlı, Cığatay, Comalı, Cul, Şorca və s.[1]

Göründüyü kimi, Dərələyəz mahalında bir dənə də olsun erməni adını daşıyan kənd olmamışdır. Burada erməni yaşamaya-yaşamaya onların monaxının adına kəndin olması mümkündürmü? Yox. Çox güman ki, "keçiş" sözü "keşiş" kimi tələffüz edilmiş, sonra bu şəkildə yazılmış, ermənilər də bu oxşarlıqdan istifadə edib, bu kəndi öz adlarına, öz tarixlərinə yazmaq istəyirlər.

------------------------

1. Ətraflı məlumat almaq üçün bax: Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh.336-368, 391-392; Ziya Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, səh.57-60; Ziya Bünyadov və Hüsaməddin Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh35-36, 257-323. Z.Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə 1831-1931.İrəvan, 1932, səh.158-163; И.Шопен. Исторические памятники состояние армянской области в эпоху и присоединение к Российской империи. С.Петербург, 1852, стр.611-622; Vidadi İsayev. Hardan gəlir bu köç? Bakı, 1995, s.3-163; Əziz Ələkbərli: Qədim türk-oğuz yurdu – Ermənistan, Bakı, 1994, s.133-137, 153-157; Статическое описание Нахичеванской провинции. Санкт-Петербург, 1833, с.160-177; "Кавказский календарь", 1846-1917-чи илләр: Карта Кавказа. Составлена и литографирована Военно-Типографическом Отделе Кавказского Военного Округа 1903 года. Тифлис; Карта Кавказа. Азиатской Турции и Персии. Составлена и литографирована в Военно-Типографическом Отделе Кавказского Военного Округа, Приложение к "Кавказскому календарю" на 1917 года; Kamil Dərələyəzli. Dərələyəz od içində. Bakı, 2001 səh.3-562.

**2) Keş//kiş sözü**

Keşkənd toponimi keş-kiş tayfa adı ilə də bağlı ola bilər. Dərələyəzin müəyyən müddət XIV-XVI əsrlərdə Teymurləngin, Ağqoyunlu və Qaraqoyunluların, Şah İsmayılın tabeliyində olması, yaşlı adamların Teymurləng qoşunlarının Keşkənddə məskən salması haqqında məlumatı və sair bu kimi faktlar yuxarıdakı mülahizəni də yürütməyə əsas verir.

Məlum olduğu kimi, keş//kiş sözünün arealı çox böyükdür. Əfqanıstanda Keş oba, Keş dərə (kənd), Keşmənd (dağ), Keşmənd (kənd), Azərbaycanın Şəki rayonunda Kiş kəndi, Kiş çayı, Sumqayıtda, Siyəzəndə Keşçay, Qazax rayonunda Keştəpə dağı, Quba rayonunda Kişbaş çay, Bakıda Keşlə qəsəbəsi, Şərurda Keştaz kəndi, İsmayıllıda Keşkurt kəndi, Qax rayonunda Keşqutan, İranda Kiş adası, Özbəkistanda Kiş qəsəbəsi (Teymurləngin anadan olduğu yer), Baş Qafqaz silsiləsində Keşunkar zirvəsi və s. bu kimi faktlar göstərir ki, keş//kiş toponimi çox geniş bir ərazidə yayılmışdır.[1]

Məşhur türkoloq Ə.Dəmirçizadə Kiş sözünü izah edərkən göstərir ki, Kiş toponimi Kas//qas tayfa adı ilə bağlıdır. Bu tayfanın adı tarixən fonetik dəyişmələrə uğrayaraq Kiş formasına düşmüşdür. Ə.Dəmirçizadə qeyd edir ki, Kiş sözünün quşşi//kişşi//quş// kiş//qaş variantları da vardır.[2] T.Nafasov da türk dillərində bu adın Keş, Kiş, Kaş, Keşi, Kişi, Kiss, Keşk formalarında işləndiyini göstərir.[3] Belə güman etmək olar ki, Keş//Kiş toponimi tayfa adını bildirən Quş, Quşçu toponimi ilə də bağlıdır.

Akademik Budaq Budaqov göstərir ki, Keşlə sözü Azərbaycanda qədim türk mənşəli Keşlə elinin adını əks etdirir.[4] Mənim şəxsi fikrim belədir ki, Keş//Kiş qədim türk tayfasının adıdır.

Dərələyəzdə olan Keşkənd toponimini isə ermənilər və erməni mənafeyini müdafiə edən tarixçilər, statistik məlumatlar yazanlar və başqaları ermənilərin ruhanisi (monaxı) sayılan keşişin (derderin) adı ilə bağlamaqda haqlı deyillər.

Dərələyəz mahalında heç kim bu qəsəbə adına Keşişkənd demir. Hamı buna Keşkənd və ya Keşkəndi deyir. Qocalar, yaşlı adamlar belə bir rəvayət də söyləyirlər ki, Kiş qəsəbəsində anadan olan Teymurləng Dərələyəzi işğal edərkən onun qoşunları buradakı böyük karvansarada yerləşdirilmişdir.

Özbək dilçisi T.Nafasov göstərir ki, Keş toponimi Özbəkistanda XII əsrdən məlumdur.

Bura qədər deyilənlərdən, əsasən, aşağıdakı nəticələr hasil olur:

--------------------

1. Bax: Roza Eyvazova. Əfqanıstanda türk mənşəli toponimlər. Bakı, 1995, səh.89, 102, 206-208, 215; Tofiq Əhmədov. Azərbaycan toponimikasının əsasları. Bakı, 1991, səh.218; Nadir Məmmədov, Azərbaycanın yer adları. Bakı, 1993, səh.23-24; B.Ə.Budaqov: Türk uluslarının yer yaddaşı, Bakı, 1994, səh.53, 87; Ə.Dəmirçizadə. 50 söz. Bakı, 1968, səh.30-31; Tura Nafasov. Uzbekistan toponimlərinin izoxli lüğatı. Taşkent, 1988, s.96; B.Ə.Budaqov. Türk uluslarının yer yaddaşı, Bakı, 1994, səh.188.
2. Bax: Ə.Dəmirçizadə. Göstərilmiş əsər, səh.30-31.
3. T.Nafasov. Göstərilmiş əsər, səh.36.
4. B.Ə.Budaqov: Türk uluslarının yer adları.Bakı, 1994, səh: 87.

1. Keşişkənd//Keşkənd toponiminin ermənilərə heç bir aidiyyəti yoxdur. Dərələyəzdə olan bütün toponimlər kimi, bu da Azərbaycan xalqına məxsusdur.

2. Dərələyəz ta qədimdən Azərbaycan torpağı olmuş, son dövrlərə qədər bu ərazidə həmişə azərbaycanlılar yaşamış, ermənilər bu mahala əsasən, 1828-ci ildən sonra gətirilmişdir.

3. Dərələyəzdəki kənd adlarının böyük bir hissəsi türk tayfalarının adını daşıyır.

## KƏLƏKULUX

Kələkulux Dərələyəzin Yeğeqnadzor (Keşkənd//Keşişkənd) rayonunda kənd adıdır. Bu kənd 1828-ci ilə qədər həmişə, tarix boyu azərbaycanlılara məxsus olmuşdur. Dərələyəzdən Göyçəyə gedən magistral yolun yaxınlığında, Ağkənd, Sallı, Tərətum kəndlərinin əhatəsində yerləşən Kələkulux kəndindən Türkmənçay müqaviləsindən sonra azərbaycanlılar sıxışdırılıb çıxarılmış və kəndə İrandan gətirilmiş ermənilər doldurulmuşdur.



1831-ci ildə bu kənddə cəmi 10 nəfər azərbaycanlı qalmışdır ki, onlar da bir az sonra kənddən çıxarılmışdır. 1852-ci ildə Kələkuluxda 21 ailə (121 nəfər), 1886-cı ildə isə 56 erməni ailəsi (603 nəfər) yaşamışdır. 1897-ci ildə isə burada cəmi 1 nəfər azərbaycanlı olmuşdur. Çox güman ki, bu bir adam hər hansı bir işlə məşğul olduğuna görə burada saxlanılmışdır.[1]

Rus dilində olan mənbələrdə bu kəndin adı "Kalakuluq", "Kalakyuliq", "karakluq"[2], ermənicə mənbədə isə "Qayaquli" formasında yazılmışdır.[3] Qeyd etməliyəm ki, bu toponim azərbaycanlılara məxsusdur. Fikrimizcə, Azərbaycan dilinə məxsus iki sözdən, "kələk" və "kuluk" sözlərinin birləşməsindən ibarət olan bu toponimə coğrafi relyefə görə ad verilmiş və bunun ilkin forması "Kələk-Kulux" olmuşdur. Daşlı, daş kələyi, daş kuluxu (oyuğu) olan yer deməkdir. Sözün asan tələffüzü üçün toponimdəki birinci sözün son samiti ("k") düşmüşdür. Belə hallar türk dillərində, o cümlədən Azərbaycan dilində qanunauyğun bir haldır.

--------------------

1. Статистическое описание Нахичеванской провинции СПб., 1833, стр. 166-167; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 92.

2. И.Шопен. Исторические памятники состояние армянской областе в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 115-118; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №971.

3. Z.Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə 1831-1931.İrəvan, 1932, səh.92.

## KİNİŞİK

Kinişik kəndi Dərələyəzin Yeğeqnadzor (Keşkənd//Keşişkənd) rayonunda kənd adıdır. Bu yaşayış məntəqəsi Xaçik//Xaçın, Əmağu, Əyər, Ertiş və Havuş (Ayuş, Havıç, Həvic) kəndlərinin əhatəsində, dağın üstündə yerləşir. Bu kəndin çoxlu geniş əkin sahələri, münbit məhsuldar torpaqları vardır. Ayrı-ayrı dövrlərdə ətraf kəndlərin mərkəzi bu kənd olmuşdur.

Çar Rusiyasının köməyi sayəsində Dərələyəzin başqa kəndlərində olduğu kimi, Kinişik kəndindən də azərbaycanlılar sıxışdırıb çıxarılmışdır. Hətta burada azərbaycanlılara məxsus olan qədim qəbiristanlıq da dağıdılmış, yeri şumlanmış və otlaq yerinə çevrilmişdir.

Qeyd etməliyəm ki, bu kəndin tarixi çox qədimdir və bunun əvvəlki adlarından biri də "Mayılxan" olmuşdur. Təxminən 1828-ci ildən sonrakı dövrlərdən bu, Kinişik adlanmışdır. Kinişik toponimi iki sözdən ibarətdir. Birinci tərəf gen, ikinci tərəf isə eşik sözündən ibarətdir. 1886-cı ilə aid rusca yazılmış statistik mənbədə Kinişik sözünün qabağında gen sözü də yazılır ("Kinişik qen").[1] Deməli, bu sözün kökü "kin" deyil, "gen"dir. Göründüyü kimi, bu kəndin adı onun coğrafi relyefinə görə verilmişdir. Gen eşik, gen çöl, gen sahə olan yer mənasındadır.

Akademik Budaq Budaqov və məşhur tarixçi Qiyasəddin Qeybullayev haqlı olaraq yazırlar ki, "Geneşik" kəndi "Azərbaycan dilində gen "geniş" və eşik sözlərindən ibarətdir. Qışlaq əsasında yaranmış mətnlərdəndir."[2] Lakin bəzi mənbədə bu kəndin adı yanlış formasında "Genişli" şəklində göstərilmişdir. Belə ki, geniş sifətdir, sifət düzəldən -li şəkilçisini isə geniş sözünə artırmaq olmaz. Belə bir vacib məsələni qeyd etməliyəm ki, haqqında danışdığımız bu qədim kənddə 1828-ci ilə qədər həmişə azərbaycanlılar yaşamışdır. Lakin Rusiya ilə İran arasında bağlanmış Türkmənçay müqaviləsindən sonra Hökumət azərbaycanlıları bu kənddən çıxarmış və onların evlərinə İrandan köçürülüb gətirilmiş erməniləri yerləşdirmişlər. Bunun "nəticəsi"dir ki, 1831-ci və 1852-ci illərdə bu kənddə cəmi 3 nəfər azərbaycanlı yaşamışdır. 1886-cı ilə aid mənbədə isə bu kənddə azərbaycanlıların olmadığı, ermənilərdən isə 361 nəfərin yaşadığı göstərilir.[3] Nəticə budur ki, Çar Rusiyasının köməyi sayəsində Dərələyəzin başqa kəndlərində olduğu kimi, Kinişik kəndindən də azərbaycanlılar sıxışdırıb çıxarılmışdır. Hətta burada azərbaycanlılara məxsus olan qədim qəbiristanlıq da dağıdılmış, onun yeri şumlanmış və otlaq yerinə çevrilmişdir.

--------------------

1. Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1028.
2. B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998, s.313.
3. Kamil Dərələyəzli. Dərələyəz od içində. Bakı, 2001, səh.197; И.Шопен. Исторические памятники состояние армянской області в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 615-618; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, стр. №1028; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 92.

# KOTANLI

Kotanlı Dərələyəz mahalının Əzizbəyov (Paşalı) rayonunda kənd adıdır. Bu kənd dəniz səviyyəsindən 1900 m yüksəklikdə yerləşir. 1918-ci ilədək bu kənddə erməni yaşamamışdır. 1922-ci ildən 1988-ci ilə qədər isə burada azərbaycanlılarla ermənilər qarışıq şəkildə yaşamışdır.



1950-1960-cı illərdə Arpaçay-Göyçə göl tunelinin inşası ilə bağlı olaraq bu kəndə ermənilərdən ibarət çoxlu işçi qrupu gətirilmiş, kənd qəsəbəyə çevrilmiş və bu yolla Kotanlıda ermənilərin sayı çoxaldılmışdır.

Bu kənddə orta məktəb, 2 klub, uşaq bağçası, 2 kitabxana, tibb məntəqəsi, univermaq, yeməkxana fəaliyyət göstərirdi ki, belə şərait yalnız ermənilərə görə yaradılmışdır.

Kotanlı kəndində IX-X əsrə aid alban türklərinə məxsus abidə vardır. Lakin 1920-ci ildə ermənilər bu abidənin formasını qismən dəyişmiş və onun üstündə xaç işarəsi qoymuşlar. Bununla da ermənilər bu abidəni erməni abidəsi kimi qələmə vermişlər. Tarixi mənbələrdən məlum olur ki, 1873-cü ildə kənddə 256 nəfər, 1886-cı ildə 392 nəfər, 1897-ci ildə 456 nəfər, 1904-ci ildə 611, 1914-cü ildə 672 nəfər, 1936-cı ildə 532 nəfər azərbaycanlı yaşamışdır.[1] 1918-ci ildə erməni quldurbaşı Yaponun dəstələri münbit torpağı olan bu kənddən azərbaycanlıları çıxarmış, Türkiyədən gələn erməniləri yerləşdirmək üçün kəndin əhalisinə divan tutmuş, onların bir hissəsini qırmışlar, salamat qalanlar isə Naxçıvana qaçmışlar. Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra öz kəndinə qayıdan qaçqınlar yenidən özləri üçün ev tikməyə, müəyyən güzəran yaratmağa məcbur olmuşlar.

1922-ci ildə kəndə 61 azərbaycanlı qayıtmış, bu say 1926-cı ildə 194-ə, 1931-ci ildə isə 351 nəfərə çatmışdır. Sonrakı dövrlərdə isə azərbaycanlıların sayı xeyli çoxalmışdır. O dövrdən 1988-ci ilədək bu kənd ermənilərin və azərbaycanlıların qarışıq yaşadıqları kənd olmuşdur.

1988-ci il noyabrın 28-də gecə Yerevandan və rayondan gələn erməni silahlı dəstələri kəndə dolmuş, səhər saat 10-a qədər burada təxminən 500 nəfərə yaxın azərbaycanlıları kənddən qovub çıxartmış, var-dövlətlərini əllərindən almış, ayağı yalın, başıaçıq şəkildə onları samosvalt maşınlara doldurub Naxçıvan tərəfə qovmaq istərkən Naxçıvandan yük maşınları ilə, tankla gələn adamlar bunların köməyinə çatmış və onları maşınlara doldurub Naxçıvana apara bilmişlər.

---------------------

1. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh.344-345.

Tarixi mənbələrdən tamamilə aydın olur ki, Dərələyəzdəki Kotanlı kəndi ta qədimdən azərbaycanlılara məxsus kənd olmuş və 1590-cı və 1727-ci illərdə bu kəndin 2.425 ağça gəliri olmuşdur.[1]

Q.Qeybullayev göstərir ki, XIX əsrdə İrəvan quberniyasında Kotanlı və Xaraba Kotanlı kəndləri olmuşdur.[2]

Dərələyəzdəki Kotanlı kəndi və orada yaşayan azərbaycanlıların sayı haqqında XIX əsr rus mənbələrindəki məlumat daha çox maraq doğurur.[3]

Azərbaycanın qədim dövr tarixi mütəxəssisi Yusif Yusifov S.Kərimovla yazdığı "Toponimiyanın əsasları" adlı kitabda göstərir ki, Kotanlı toponimi sırf Azərbaycan mənşəli sözdür.[4]

Kotanlı sözü türk tayfalarından birinin adıdır.[5] Kotanlı toponimi bəzən Kotançı formasında da işlədilir. Bunun səbəbi -çı şəkilçisi ilə -lı şəkilçisinin tarixən sinonim olması ilə bağlıdır ki, bunun izləri indi də qalmaqdadır. Yazıçı Mirzə İbrahimovun "Kəndçi qızı" (Kəndli qızı) əsəri buna misal ola bilər.

Tarixən əkinçilikdə kotan işlədən tayfaya Kotançı deyərmişlər. Türk dillərində "Kotan" sözü "Saban", "Kotançı" sözü isə "Sabançı" formasında da işlənmişdir. Belə ki, qədim türk dillərində "Saban" sözü əkin, kotan anlamını ifadə etmişdir. Bakı şəhərindəki "Sabınçı" rayonunun adı, həmçinin türk xalqlarına məxsus olan belə yer adları (Sabançı//Sabınçı//Sabunçu, Kotançı// Kotanlı) tayfa adı ilə bağlıdır.[6]

Yeri gəlmişkən qeyd edim ki, Dərələyəzdəki Kotanlı kəndinin əkin yerlərinin əksəriyyəti kotanla əkilir. Ola bilsin ki, kəndə ad verərkən bu amil də rol oynamışdır.

Qeyd etməliyəm ki, Dərələyəzdəki bu kənd XIX-XX əsrlərə aid mənbələrdə "Kotanlı" adı altında verilir.[7] Hətta XIX əsrdə Dərələyəzə aid mən-

---------------------

1. Ziya Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri, Bakı, 1995, səh. 59, Ziya Bünyadov və Hüsaməddin Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri, Bakı. 1997, səh.36, 310.

2. Г.А.Гейбуллаев. Топонимия Азербайджана. Баку, 1986, стр.50.

3. Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, № 1019; Z.Korkodyan. Sovet Ermənistanın əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 344, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 246.

4. Y.Yusifov, S.Kərimov: Toponimikanın əsasları, Bakı, 1987, səh. 22.

5. Mirzəyev H. Kotanlı kəndi və onun ərazisində olan bəzi onomastik vahidlər, Filologiya məsələlərinə dair tematik toplu, № 3-4, Bakı, 2001, s.86-90; Mirzəyev H. Kotanlı, Dil məsələlərinə dair tematik toplu, № 1, Bakı, 1998, s.170-173.

6. Aslan Bayramov. Ağbaba və Şörəyel toponimləri. "Elm və həyat" jurnalı. Bakı, №11-12, səh.28.

7. Bax: Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, № 1019; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 344-345, Əziz Ələkbərli. Qədim türk-oğuz yurdu - "Ermənistan", Bakı, 1994, səh. 153-157; Vidadi İsayev. Hardan gəlir bu köç. Bakı, 1995, s. 7-163.

bələrin bir qismində nədənsə bu kəndin adı verilmir.[1] Ola bilsin ki, o zaman bu kənd başqa ad altında verilmişdir.

Lakin XVI-XVIII əsrlərə aid mənbələrdə Kotanlı kəndi bəzən "Kotanı"[2], bəzən də "Kolanı"[3] adı altında verilir.

Mənim fikrimcə, "Kotanı" forması dəqiq deyil. Görünür burada imla xətalarına yol verilmişdir. Bu ya Kotanlı, ya da Kolanı formasında ola bilər. Onu da qeyd edim ki, "Kolanı" toponimi də türk tayfalarından birinin adıdır. Dərələyəzə həmsərhəd olan Vedi rayonunda xeyli miqdarda Kolanı tayfası olmuşdur. Qarabağ ərazisində də bu tayfalar çoxdur.

Nəticə olaraq deməliyəm ki, haqqında söhbət açdığımız Kotanlı və Kolanı kəndinin adı türk tayfasının adından götürülmüşdür. Lakin ermənilər tarixi saxtalaşdıraraq bu kəndin də adını dəyişib kalka üsulu ilə buna Qırmızıkənd (Qarmiraşen) adı vermişlər.

Dünyada tanınan riyaziyyatçı alim, fizika-riyaziyyat elmləri doktoru, professor Barat Nuriyev (Azərbaycan Respublikası Dövlət Əmlak Komitəsi sədrinin sabiq müavini) münbit torpağı, geniş otlağı, soyuq bulağı, ağ beçə balı, nərgizi, lalası çox olan bu kəndin yetirməsidir.

## KOTANLI KƏNDİNDƏ OLAN ONOMASTİK VAHİDLƏR

### Tayfalar

1. Alməmmədlilər
2. Kalbayılar
3. Xıdırlılar
4. Gendərəlilər
5. Zərgərlər

### Məhəllə adları

1. Çuxur məhlə
2. Kotanlı məhləsi
3. Gen dərəlilər məhləsi
4. Xıdırlılar məhləsi
5. Alməmmədlilər məhləsi

### Yer, kövşən, sahə və xarabalıq adları

1. Mehriölən

------------------

1. Вах: Статистическое описание Нахчиванской провинции, СПБ, 1833, стр. 160-177; И.Шопен. Историческии памятники состояние Армянской области в эпоху ее присоединения к Российской империи, СПБ, 1852, стр. 611-622; Сборник сведений о Кавказе том V, Списки населенных мест Кавказского края, часть I, Алфавитный указатель населенных мест Эриванской губеринии.

2. Ziya Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri, Bakı, 1995, səh. 59; Ziya Bünyadov və Hüsaməddin Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri, Bakı. 1997, səh. 36.

3. Z.Bünyadov və H.Məmmədov Naxçıvan sancağının müfəssəl dəftəri, Bakı, 1997, s. 310.

2. Təkarmud
3. Xarabalar
4. Arpalıq
5. Daşlı Güney
6. Top daş
7. Dəyirmanlıq[1]
8. Hacı Əlinin yeri
9. Civirli
10. Aralıq
11. Dəvə boynu
12. Qaracalıq
13. Qəntəpərlik
14. Çayçiçəyi yeri
15. Hacı İsmayıl yeri
16. Əmrahın yeri
17. Yallar
18. Həliməölən
19. Çəmənlik
20. Kəvərlik
21. Tələ yeri
22. Xaç düzü/Kas düzü
23. Qaracalıq düzü
24. Hacağanın yeri

**Ayama və ləqəblər**
1. Keçililər
2. Birçörəklilər
3. Qanbaşlılar
4. Qanlı Abbaslılar

**Kəndin hacıları və varlı adamları**
1. Hacı İsmayıl
2. Hacı Abbas

**Ermənilərlə vuruşda böyük qəhrəmanlıq göstərənlər**
1. Qanlı Abbas
2. Şirin
3. Qaçaq Bağır

**Dağ, yurd, yal adları**
1. Dəlik Təpə-Təpəsi dəlik dağ
2. Kəklikotu dağı

---

1. Burada ona qədər dəyirman olub. Murad təpəsindən gələn çayın suyu ilə burada 10 dəyirman işləyirmiş.

3. Göy dağ
4. Muradtəpəsi
5. Kotanlı yurdu
6. Sandıqlı yurdu[1]
7. Şəril yurdu
8. Ərgəz yurdu
9. Yallar

**Dərə adları**
1. Cinli dərə
2. Baldırğanlı dərə
3. Sürgün dərəsi
4. Civirli dərə

**Meşə adları**
1. İmamverdi meşəsi
2. Böyük meşə

**Bulaq, çay və göl adları**
1. Qumlu bulaq
2. At bulağı
3. Yastı bulaq
4. Soyuq bulaq
5. Yeddi bulaq
6. Qırx bulaq
7. Abbas bulağı
8. Çayçiçəyi bulağı
9. Kənd bulağı
10. Xıdır bulağı
11. Gədiyin bulağı
12. Navlı (Novlu) bulaq
13. Ocağın bulağı
14. Daş bulaq
15. Murad təpəsindən gələn çay
16. Seyidlər çayı

--------------------

1. Bu yurdda (Sandıqlı yurdda) böyük bir daşın üstündə ərəb əlifbası ilə yazılıb ki, hər rəngdən bir sürü qoyunum oldu. Lakin boran bunun hamısını qırdı. Əlimdə bir su bardağı qalmışdı, onu da bəndəm ilə belimə bağlamışdım. Ayağım daşa ilişəndə su qabı da qırıldı. Heç nə qalmadı.

Burada ermənilərlə azərbaycanlılar arasında böyük vuruş gedib. Kotanlı camaatına döyüşkən Cul kəndinin atlı dəstəsi köməyə gəlib və azərbaycanlıların qisasını ermənilərdən tamamilə alıblar.

**Kaha və qəbiristanlıq adları**
1. Böyük kaha[1]
2. Alma dibi qəbiristanlığı

**Kotanlı kəndindən 1937-ci ildə repressiya qurbanı olanlar**

1. Həsənov Xanlar Səfəralı oğlu
2. Hacıyev Abbas Kalbaoruc oğlu
3. Həziyev Əli Musa oğlu
4. Musayev Musa
5. Həsənov İbrahim

**Kotanlı kəndindən 1941-1945-ci il Böyük Vətən müharibəsinə gedənlər**

**a) qayıtmayanlar**
1. Əmrahov Allahverən Nabatalı oğlu
2. Teymurov Süleyman Teymur oğlu
3. İsmayılov İsmayıl hümmət oğlu
4. İsmayılov Surxay Abbas oğlu
5. İsmayılov Allahverdi Abbas oğlu
6. İsmayılov Hacıbaba Abbas oğlu
7. Mirzəyev Sevindik Məhərrəm oğlu
8. Ələkbərov Əhəd Musa oğlu
9. Haqverdiyev Haqverdi Məhərrəm oğlu
10. Haqverdiyev Yusif Nəsib oğlu
11. Haqverdiyev Yunis Nəsib oğlu
12. Fərzalıyev Fərzalı Məhəmməd oğlu
13. Əliyev Kalbalı Musa oğlu
14. Əliyev Çərkəz Cümşüd oğlu
15. Musayev İsmi Aşır oğlu
16. Allahverdiyev Əli Allahverdi oğlu
17. Allahverdiyev Surxay Allahverdi oğlu
18. Teymurov Sevindik Teymur oğlu
19. Haqverdiyev Məşədi Haqverdi oğlu
20. Haqverdiyev haqverdi Haqverdi oğlu
21. Əhmədov Allahverdi Şahverdi oğlu
22. İbrahimov Şaməmməd Bayram oğlu
23. Abbasov Fərrux
24. Həsənov Abbas
25. Müzəffərov Müzəffər
26. Musa Müzəffər oğlu

---------------------

1. Bu kaha qayanın oyuğundan əmələ gəlmişdir. Bura 1000-ə qədər qoyun tutur. Bu kaha məşhur seyidlərin – Qara Seyid, Seyid Heydər kişinin məhəllləsinin yanındadır. Yaşlı adamların dediyinə görə, qədim dövrdə burada insanlar da yaşamışlar.

27. Əhmədov Vəli
28. Əhməd Nəsir oğlu
29. Nuriyev Əhməd
30. Nuriyev Əkbər
31. Fərzalı Məhəmməd oğlu
32. Allahverdiyev Əhməd
33. Ələkbərov Əhməd
34. Nağıyev Müzəffər

**b) qayıdanlar**

35. Əmrahov Əli Nabatalı oğlu
36. Haqverdiyev Mamed Novruz oğlu
37. Həsənov Salam Səfəralı oğlu
38. Xudaverdiyev Mamed Cəbrayıl oğlu
39. Cəfərov Aşot Həsən oğlu
40. Camalov Nuhu Qədir oğlu
41. Camalov Nadir Qədir oğlu
42. Camalov Qalay Əliş oğlu
43. Həsənov Xanalı Kalbayoruc oğlu
44. Nuriyev İrza

**Qarabağ şəhidləri**

1. Allahverdiyev Əhməd Məhəmməd oğlu

**Qarabağ əlilləri**

1. Gəncimalıyev Azər Mirzə oğlu

**İnformatorlar:** Kotanlı kəndinin onomastik vahidləri haqqında bizə bu məlumatı, əsasən, 1926-cı ildə Kotanlı kəndində doğulan, bu kənddə 15 il ferma müdiri, 10 il aqronom, 8 il briqadir, 5 il sovet sədri işləyən, bir sözlə, bütün ömrü boyu bu əraziləri dönə-dönə, qarış-qarış gəzən, hal-hazırda isə Abşeron rayonunun Novxanı kəndində məskunlaşan Əmirov Əli Nabatalı oğlu vermişdir. Buranı yaxşı tanıdığım üçün bir hissəsini də özüm əlavə etmişəm.

## KÖÇBƏK

Köçbək Dərələyəz mahalının Əzizbəyov (Paşalı) rayonunda kənd adıdır. Arpa çayının bir qolunun üstündə, Terp kəndinin yaxınlığında yerləşir.[1]

Kənd dəniz səviyyəsindən 2006 metr yüksəklikdə yerləşir. Bu kəndin əhalisi əkinçilik, maldarlıq və arıçılıqla məşğul olmuşdur.

Bu kənddə 1831-ci ildə 35 nəfər, 1873-cü ildə 226 nəfər, 1886-cı ildə 312 nəfər, 1897-ci ildə 417 nəfər, 1904-cü ildə 425 nəfər, 1914-cü ildə 470 nəfər,

---

1. Mirzəyev H. Köçbək kəndi və onun ərazisində olan bəzi onomastik vahidlər, Filologiya məsələlərinə dair tematik toplu, № 3-4, Bakı, 2001, s.58-63.

1916-cı ildə 537 nəfər azərbaycanlı yaşamışdır. 1918-ci ildə kənd erməni millətçiləri tərəfindən dağıdılmış, əhalisinə divan tutulmuş və zorla öz doğma ocağından qovulmuşdur. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra 1922-ci ildə 470 nəfərdən cəmi 103 nəfər qaçqın öz kəndinə qayıtmış, 1931-ci ildə onların sayı yenidən 365-ə çatmışdır.[1]



Onlar 1930-cu illərdə kəndi bərpa etmiş, kolxoz qurmuş, səkkizillik məktəb, klub, kitabxana açmışlar. 1972-ci ildə kəndin 91 təsərrüfatı, 564 nəfər əhalisi, 1988-ci ildə isə 100 təsərrüfatı (evi), 600-ə yaxın əhalisi olmuşdur. 1988-ci ilin noyabrında hökumətin göstərişi ilə kəndin bütün əhalisi bir həftə ərzində erməni millətçiləri tərəfindən kənddən qovulmuşlar.

Köçbək kəndinin adı qədim dövrlərdə "Qoçubəy" formasında verilmişdir. 19.IV.1991-ci ildə ermənilər bu kəndin adını dəyişərək Uğeqzor (Hedzor) qoymuşlar. Bəzən də ilk mənbələrdə kənd "Qoçbəy" formasında yazılmışdır. Lakin 1727-ci ilə aid mənbədə Qoçubəy formasında gedir. "İrəvan əyalətinin icmal dəftəri"ndə və "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə göstərilmişdir ki, 1590-cı və 1727-ci illərə aid arxiv sənədlərində Köçbək kəndinin (Qoçubəy kəndinin) 1.900 axça gəliri olmuşdur.[2]

## KÖÇBƏK KƏNDİNDƏ OLAN ONOMASTİK VAHİDLƏR

**Tayfa adları**

1. Albəyli tayfası
2. Hətəmli tayfası
3. Lətifli tayfası
4. Hüsülü tayfası
5. Qaraməyli tayfası

---------------------

1. И.Шопен. Исторические памятники состояние армянской областе в эпоху ее присоединения к Российской империи, СПБ, 1852, стр. 619-620; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, № 994; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 345; Историческая география Западного Азербайджана, Баку, 1998, стр.119-120. H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 246.

2. Bax: Ziya Bünyadov və H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri, Bakı, 1997, s. 36; B.Ə.Budaqov., Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı, 1998, s. 216; İ.Bayramov. Qərbi Azərbaycan toponimlərinin tərkibində işlənən söz və coğrafi terminlər lüğəti. Bakı, 2000, s. 79; Həbib Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, s. 168; Z.Bünyadov, H.Məmmədov. İrəvan əyalətinin icmal dəftəri, Bakı, 1996, s.59.

6. Səfili tayfası
7. Nəbili tayfası

**Məhəllə adları**
1. Lətifli məhləsi
2. Hüsülü məhləsi
3. Nəbili məhləsi
4. Səfili məhləsi
5. Hətəmli məhləsi

**Yer adları**
1. Bozdu biçənək
2. Diblər
3. Payız yurdu
4. Məmməd ölən
5. Tülkü tələsi
6. Dəmirçi yurdu
7. Davalı yerlər
8. At ölən
9. Çala
10. Dem yerlər
11. Dərə yurt
12. Qalaban yeri
13. Qırxbuğumlar
14. Göy qəyə
15. Dem yal
16. Daş mədəni
17. Qum mədəni
18. Ağ yarğan
19. Bağların yanı
20. Gədik[1]
21. Balalı yaylaq
22. Ayılı dərənin çınqılı
23. Dəmir təpə
24. Davalı yerlər
25. Çala dem yerlər
26. Qala yeri
27. Payız təpəsi
28. Sarı yol
29. Arxlar
30. Böyük arxlar

--------------------

1. Köçbəyin üstündə böyük bir dağ, gədik var. Bu üzündə Köçbək, o biri üzündə Bazar çayıdı. Bu Gədik çox vaxt qar və dumanlı olur.

31. Tikanlı yurd
32. Hacı Fərhad yurdu
33. Qısır yurdu
34. Qısır çınqılı
35. Vədə yeri
29. Arxlar
30. Böyük arxlar
31. Tikanlı yurd
32. Hacı Fərhad yurdu
33. Qısır yurdu
34. Qısır çınqılı
35. Vədə yeri

**Meşə adları**
1. Atılıb meşəsi
2. Qoşa göl meşəsi
3. Terp meşəsi
4. Abtalıb meşəsi
5. Ağ göl meşəsi
6. Göy qaya meşəsi
7. Tokqazlı meşəsi

**Dağ adları**
1. Qısır dağı
2. Pəniç dağı
3. Haça dağ
4. Qazma dağı

**Yal adları**
1. Ditdonun yalı
2. Demyol yalı
3. Daşdığın yalı
4. Xırman yalı
5. Mal təpəsi

**Kövşən adları**
1. Səfi düzü
2. Qara quzey
3. Kəngərli
4. Qalavanlar
5. Hətöylən
6. Şano biçənək
7. Axurlar düzü
8. Əyri yer

9. Tikanlı
10. Tağlar
11. Qırx buğumlar kövşəni
12. Tikanlı yurdu

**Arxac adları**

1. Hacı Fərhad arxacı

**Qaya adları**

1. Qırmızı qaya
2. Balalı qaya

**Dərə adları**

1. Şərqin dərəsi
2. Hətöylən dərəsi
3. Kilsə çayı dərəsi
4. Qazma dərəsi
5. Sulmafın dərəsi
6. Tikanlı dərə

**Çay və bulaq adları**

1. Kilisə çayı[1]
2. Aşavaz bulağı
3. Sullab bulağı
4. Çınqıllı bulaq
5. Balalı bulaq[2]
6. Arxlar
7. Böyük arxlar
8. Payız yurdu bulağı
9. Yayşabaz bulağı
10. Yurd biçənəyi bulağı
11. Haça bulaq
12. Misirxan bulağı
13. Pərnik bulağı
14. Məmməd ölən bulaq
15. Qısır yurd bulağı
16. Dərə yurd bulağı
17. Ağ bulaq
18. Ayı bulağı
19. Hacı Fərhad bulağı
20. Döllü yurd bulağı

---

1. Bu çay Köçbəkdə kilsənin yanından keçdiyi üçün belə adlanır.
2. Keçmişdə və indi mal-qoyun hər vaxt bu bulaqdan su içib burada yatışır və yaz vaxtı heyvanların çoxu bu bulağın üstündə doğduğu üçün bulaq belə adlanıbdır.

21. Toxçalı bulaq
22. Şır-şır bulaq
23. At ölən bulaq
24. Bozlu biçənək bulağı
25. Kəngərli bulağı

### 1937-ci ildə siyasi məhbus adı ilə tutulanlar

1. Həsənov Cümşüd Həsənqulu oğlu
2. Nəcəfov Mustafa Rəhim oğlu

### 1941-1945-ci illər Böyük Vətən müharibəsinə gedənlər

**a) qayıtmayanlar**

1. Behbudov Cəlal Həşim oğlu
2. Behbudov Bilal Həşim oğlu
3. Nəbiyev Dolxan Nəbi oğlu
4. Kərimov Kərim Bayramalı oğlu
5. Orucov Qaraxan Abdulla oğlu
6. Həşimov Həşim Xudaverdi oğlu
7. Abbasov Cümşüd Qəmbər oğlu
8. Şanoyev Abduləzim Abas oğlu
9. Behbudov Çərkəz Balakişi oğlu
10. Xudiyev Əbil Ağamalı oğlu
11. Nəbiyev Cəlal Əmrah oğlu
12. Albəyov Mehbalı Allahverdi oğlu
13. Məmmədov Sevindik Salman oğlu
14. Muradov Xalid Fərman oğlu
15. Allanayev Niyaz İmamqulu oğlu
16. İsayev İsa Museyib oğlu
17. Aliyev Haqverdi Süleyman oğlu
18. Həsənov Qaçay Gümşüd oğlu
19. Həsənov Həsən Məhəmməd oğlu
20. Hünbətov Göyüş Mikayıl oğlu
21. Mamedov Cəbrayıl Hüseyn oğlu
22. Mamedov Cəfər Camal oğlu
23. Mamedov Əli Camal oğlu
24. Mamedov Gümşüd Camal oğlu
25. Əliyev Vəli
26. Əliyev Məhərrəm Alı oğlu
27. Rəhimov Paşa Mustafa oğlu
28. Əzimov Əzim Məhərrəm oğlu
29. Əliyev Süleyman Cəfər oğlu
30. Kamalov Əli Qara oğlu
31. Əliyev Həsən Hüseyn oğlu

32. Alıyev Alı Hüseyn oğlu
33. Şirəliyev Allahverdi Məhərrəm oğlu
34. Mamedov Sarxan Allahyar oğlu
35. Bəxtiyarov İbrahim Ağa oğlu
36. Təhməzov Eylas Hüseynqulu oğlu
37. Təhməzov Ədilxan Hüseynqulu oğlu
38. Qafarov Zülfüqar Xanlar oğlu
39. Qafarov Misir Xanlar oğlu
40. Səfəralıyev Səfəralı Murad oğlu
41. Mikayılov Şəvaqət İsmayıl oğlu
42. Mikayılov Surxay İsmayıl oğlu
43. Mahmudov Qaçay Əsəd oğlu
44. Əliyev Şaban Haxverdi oğlu
45. Bayramov İsmixan Kərim oğlu
46. Xanlarov Xanlar Xanlar oğlu
47. Bəylərov İsmixan Ağalar oğlu
48. Bayramov Şirxan Mürşüd oğlu
49. Əsədov İsgəndər Mahmud oğlu
50. Usubov Şahverdi Abış oğlu
51. Qasımov Seyidağa Mirusub oğlu

**b) qayıdanlar**

52. Behbudov Abdulkərim Həşim oğlu
53. Behbudov Kamran Balakişi oğlu
54. Orucov Papı Göyüş oğlu
55. Həsənov Mehralı Oruc oğlu
56. Hüseynov Ağaxan Allahverdi oğlu
57. Kərimov Nəcəf Məmmədhəsən oğlu
58. Kərimov Əhməd Məmmədhəsən oğlu
59. Nəbiyev Nayib Nayib oğlu
60. Albəyov Sevindik Allahverdi oğlu
61. Qənbərov Əziz İrəhim oğlu
62. Əhmədov Ağaverdi Xalıxverdi oğlu
63. Həsənov Xasay Cümşüd oğlu
64. Hətəmov Hətəm Xanalı oğlu
65. Məmmədov Cəfər Camal oğlu
66. Məmmədov Əli Camal oğlu
67. Almərdanov Surxay Abasqulu oğlu
68. Ağalarov Məmiş Xanlar oğlu
69. Ağalarov Ağalar Xanlar oğlu
70. Həmzəyev Məzahim Abdulla oğlu
71. Pirəliyev Gülməmməd Niyaz oğlu
72. Bayramov Ataş Həsən oğlu

73. Xanlarov Xanlar Məmiş oğlu
74. Camalov Əkbər Mehdi oğlu
75. Həsənov Alxan Süleyman oğlu
76. Süleymanov Şahmar Alxan oğlu
77. Ağalarov Həsən Şirxan oğlu
78. Mirzəyev Yediyar Tağı oğlu
79. Muradov Nəcəfqulu Həmzə oğlu
80. İmanov Alışan Məhəmməd oğlu

Əsgərliyə 82 nəfər gedib, 30 nəfər yaralı qayıdıb.

**İnformatorlar:** 1. Köçbək kəndində doğulub boya-başa çatan ali təhsilli Hüseynov Aydın Məmmədhüseyn oğlu, 1937-ci il təvəllüdlü, hal-hazırda Bakıda yaşayır. 2. Şahhüseynov Sabir Allahqulu oğlu, 1951-ci il təvəllüdlü, ali təhsilli, Axta kənd sakini.

## KÖHNƏKƏND

Köhnə kənd Dərələyəzin Yeğeqnadzor rayonunda kənd olmuşdur. Hal-hazırda o Ələyəz dərəsi adlanan yerdə Qovuşuq kəndinin ərazisindədir. Qovuşuq kəndi ilə birləşmişdir.

Bu kənd uca bir təpənin üstündə, strateji cəhətdən çox əhəmiyyətli sahədə yerləşir. Belə ki, buradan qonşu kəndlərin hamısına (Qabaxlı, Canı, Ayısəsi, Qalaser, Gülüdüz, Qoduxvəng, Qaraqaya) gedən yolları nəzarətdə saxlamaq olur. 1945-ci ilə qədər kəndin kalafalıqları qalırdı. Lakin kolxoz burada böyük bir tütün sarayı tikdi və kalafalıqdakı daşları söküb buradakı binada işlətdilər.

Qeyd etməliyəm ki, bu kənddəki təpə, sal qayanın üstündə 2 xırman yeri indi də qalmaqdadır. Bundan başqa kəndin yerində xeyli qoz (cəviz) ağacları, üzüm tənəkləri vardır. Bu köhnə kəndin cənub tərəfində, təpənin sinəsində qədim bir oğuz qəbiristanlığı da vardır ki, onun üstünü torpaq örtmüşdür. İnsanlar üzü qibləyə tərəf basdırılıblar.

Qovuşuq kənd sakini Zülfüqarov Əli və Zülfüqarov Kazım bu sahəyə yaxın yerdə ev tikdirərkən oradan xeyli oğuz qəbirləri aşkar oldu. Burada basdırılmış adamların bazı sümüklərinin uzunluğu 35-40 sm olardı. Köhnə kənd təpənin üstündə tikildiyindən buraya su arx vasitəsilə ancaq Taxtalar deyilən örüşdən, Qalaser və Ayısəsi kəndi tərəfdən olan çaydan (Kıqqılaxadan) gətirilirdi. Güclü yağışlar zamanı bəzən bu arx dağılır və həmin Köhnə kəndə su gəlmirdi, su problemi yaranırdı və s.

Mən bu ərazini çox yaxşı tanıdığım üçün bu xırda detalları da deməyi faydalı hesab etdim.

Bu kəndin adının əvvəllər necə olduğu bizə məlum deyil. Lakin kənd camaatı və qonşu kəndin adamları bura Köhnə kənd demiş, indi də belə adlandırırlar. İsbata ehtiyacı yoxdur ki, köhnə sözü də, kənd sözü də Azərbaycan xalqına məxsusdur.

## KÖMÜRLÜ

Kömürlü Dərələyəz mahalının Yeğeqnadzor (Keşişkənd//Keşkənd) rayonunda kənd adıdır. Tarixin bütün dövrlərində bu kənddə azərbaycanlılar yaşamışlar.[1] Statistik mənbələrdən aldığımız məlumata əsasən deyə bilərik ki, Kömürlü kəndində 1873-cü ildə 95 nəfər, 1886-cı ildə 147 nəfər, 1897-ci ildə 192 nəfər, 1904-cü ildə 205 nəfər, 1914-cü ildə 225 nəfər, 1916-cı ildə 259 nəfər azərbaycanlı olmuşdur.[2]

Tarixi və statistik mənbələrdən məlum olur ki, 1590-cı ildə Kömürlü kəndinin 8.221 ağça, 1727-ci ildə 8.211 ağça gəliri olmuşdur.[3]

1918-ci ilin qanlı hadisələri zamanı erməni millətçiləri kəndi dağıtmış, evləri yandırmış, əhalinin çox hissəsini qırmış, sağ qalanlar isə dağlarla, keçilməz yollarla Naxçıvana qaçmışlar. Hal-hazırda ölü kəndə çevrilmiş Kömürlü kəndinin xarabalıqları Yelpin kəndinin yaxınlığındadır. Burada qəbiristanlığın və evlərin qalıqları qalmaqdadır.

Kömürlü kəndi Ardaraz, Künnüt və Yelpin kəndlərinin arasında yerləşir. Bu kəndin əhalisindən bir neçə ailə 1921-ci ildə yenidən bura qayıtmışlar. Kəndin başçılarından Əhmədov Teymur, Əhmədov Ağa və Əhmədov Məhəmməd adlı şəxslər (qohumlar) çadır qurub, dağılmış evlərini tikmək istəyiblər. Lakin erməni şovinistləri onları öz evlərini bərpa etməyə qoymamışlar. Bunların əksəriyyətini ermənilər məskunlaşmış Yelpin kəndinə gətirib orada ev tikməyə icazə vermişlər. Bir müddətdən sonra həmin kənddən də sıxışdırılıb çıxarılmışlar. Bu kənd ərazisindəki yer adlarının hamısı (Ağyoxuş, Günnüt yurdu, Çalculuq...) Azərbaycan xalqına məxsusdur. Bu kəndin ərazisi başqa kəndlərlə qarışdığı üçün bu kəndin onomastik vahidləri haqqında hələlik dəqiq məlumat verə bilmirəm.

Kömürlü toponimi də türk mənşəli sözdür. Akademik B.Ə.Budaqov və Q.Ə.Qeybullayev göstərir ki, gömür sözü türk dillərində başı yarğanlı, başı uçurumlu yer deməkdir.[4] Qeyd edim ki, bu kəndin coğrafi relyefi bu fikri təsdiqləyir.

**İnformator:** 1921-ci ildə Kömürlü kənd sakinlərinin başına gətirilən bu müsibəti mənə həmin kəndə həmsərhəd olan Ardaraz kənd sakini, el ağsaqqalı, 77 yaşlı Məmmədov Məmməd İsa oğlu (tapança Mamed) 12 mart 2001-ci ildə Saatlı rayonunda pambıq zavodunun binasında danışdı və mən də onu burada olduğu kimi yazdım.

--------------------

1. Mirzəyev H. Kömürlü, Pəyədərə kəndləri haqqında, Filologiya məsələlərinə dair tematik toplu, № 6 (18), Bakı, 2001, s.110-113.

2. Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1041; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 92; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 362, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 245.

3. B.Ə.Budaqov., Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı, 1998, s. 307;

4. Z.Bünyadov, H.Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, Elm, 1996, s.60.

# QABAXLI

Qabaxlı kəndi Dərələyəzin Keşkənd (Yeğeqnadzor) rayonunda yerləşir və bu, Ələyəz dərəsi adlanan yerdə ən böyük kəndlərdən biridir. Uca dağların ətəyində, çox səfalı və strateji əhəmiyyəti olan bir yerdə yerləşir.



Bu kənddən Səfolar İstisuyuna (Cermuka) gedən yol Şərurdan Sisyana gedən magistral yola birləşir və oradan Sisyan, Qafan, Şuşa, Ağdam istiqamətində Azərbaycana birləşir. Həmin İstisudan gedən yolun bir qolu da Kəlbəcərlə birləşir.[1]

Bu kəndin əhalisi maldarlıq, əkinçilik, tütünçülük, arıçılıq, meyvə-tərəvəzçiliklə məşğul olur.

Bu kənddə tarixən çox varlı adamlar olmuşdur. Bunların bir hissəsi bəy olmuş, böyük bir hissəsi isə haca getmişlər. Elə adamlar da olmuşdur ki, onlar bir dəfə yox, bir neçə dəfə haca getmişlər...

Bu kənd rayon mərkəzindən 28 km məsafədə yerləşir. Qovuşuq kənd Sovetliyinə daxildir. Çox zaman bu kənd Qovuşuq kəndi ilə sovxoz şəklində birləşdirilmiş, çox zaman da ayrılıqda fəaliyyət göstərmişdir. Dəniz səviyyəsindən 1824 m hündürlükdədir.

1831-ci ildə bu kənddə 45 nəfər, 1873-cü ildə 268 nəfər, 1886-cı ildə 429 nəfər, 1897-ci ildə 566 nəfər, 1904-cü ildə 614 nəfər, 1914-cü ildə 675 nəfər, 1916-cı ildə 763 nəfər əhali yaşamışdır.[2]

1917-ci ilin axırı, 1918-ci ilin əvvəllərində Ermənistanın daşnak hökumətinin göstərişi ilə erməni quldur dəstələri kəndi talan eləmiş, dağıtmış, əhalisinin bir hissəsini qırmış, salamat qalanlarını isə kənddən qovuşmuşlar. Kənd əhalisinin yeganə çıxış yolu dağlarla, dərələrlə Naxçıvana və digər yaxın yerlərə qaçmaq olmuşdur. 1922-ci ildə qaçqınlardan yalnız 59 nəfər öz kəndinə qayıda bilmişdir. 1931-ci ilədək kəndin əhalisinin sayı 330 nəfərə çatmışdır.[3] 1937-ci ildə bu kəndin qabaqcıl adamlarının bir hissəsi tutulmuş, Sibirə sürgün edilmiş-

---

1. Mirzəyev H. Qabaxlı kəndi və onun onomastik vahidləri, Filologiya məsələlərinə dair tematik toplu, № 1-2, Bakı, 2001, s.26-33.

2. И.Шопен. Исторические памятники состояние армянской областе в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 615-616; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 92; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 354-355, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 245.

3. Həbib Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, s.132.

dir. 1948-1953-cü illərdə Dərələyəzin Ələyəz dərəsindəki digər 8 kəndin hamısı, sözü bir yerə qoyaraq və el ağsaqqallarının sözünə əməl edərək köçməkdən imtina etmişlər. Bu səbəbdən bu 8 kəndin əhalisi ermənilərin böyük təzyiqlərinə məruz qalmışlar. Bütün bu təzyiqlərə baxmayaraq, bu kəndin gəncləri Azərbaycanın müxtəlif ali məktəblərinə getmiş, ali təhsil almış, müəllim ixtisasına sahib olanlar kəndə qayıtmış, başqa ixtisas sahiblərinin əksəriyyətini isə ermənilər geri qaytarmış, öz doğma kəndlərində işləməyə qoymamışlar. 1980-ci illərdə kəndin özündə orta məktəb açılmışdır. Bu kənddə hə-mişə çoxlu əhali yaşamışdır. Lakin 1988-ci ilin sonlarında ermənilər kəndin əhalisini zorla, silah gücünə qovmuş və var-dövlətlərini əllərindən almışlar.

Qabaxlı kəndindəki ikimərtəbəli uşaq bağçasına, kitabxanaya, kluba, ikimərtəbəli 400 nəfərlik orta məktəbə, qırmızı və qara daşlardan tikilmiş yaşayış yerlərinə indi ermənilər sahib çıxmışlar.

Qeyd etmək lazımdır ki, Qabaxlı adında kənd yalnız bu rayonda deyil, başqa yerlərdə də vardır. Dərələyəzin Əzizbəyov rayonunda Zeytə və Qurdqulaq kəndlərinin yaxınlığında da Qabaxlı adında kənd olmuşdur. Bundan başqa Zəngəzur qəzasının Meqri rayonunda da Qabaxlı adında kənd olmuş və əhalisi 1988-ci ildə ermənilər tərəfindən qovulmuşdur.[1] Türkmənistanda da Qabaxlı adında kənd var.[2]

Qabaxlı adında çoxlu dağ, təpə və çay adları da vardır. Dərələyəzdə və Göyçə qəzasında Qabaxlı adında dağ, Qabaxlı çayı, Qars əyalətində Qabax təpə, həmin əyalətin Qağızman dairəsin-də Qabax təpə adında toponimlər mövcuddur.[3] Naxçıvanda "Qavaxlı çay" adlı çay vardır.[4]

Məşhur türkoloq L.Z.Budaqov göstərir ki, Qabax/qapaq sözləri qədim türk dilində təpə mənasında işlənmişdir.[5]

Belə bir faktı da qeyd etmək lazımdır ki, "1588-ci ilə aid məlumata görə, yayını Qərbi Azərbaycanda (Ermənistanda), qışını Qarabağda keçirən bir türk ulusunun adı Qapaq adlanırdı".[6]

Q.Ə.Qeybullayev başqa bir əsərində göstərir ki, Qapak dağın qabağı mənasını da bildirmişdir.[7]

Qabaxlı kəndi ta qədimlərdən indiyədək Azərbaycan kəndi olmuş, burada həmişə azərbaycanlılar yaşamışdır. Bu kəndin qəbiristanlığında qəbirlərin üstündə çoxlu qoç daşları, at şəkli olan daşlar olmuşdur. Lakin ermənilər bunları

------------------------

1. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, s.342.

2. B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1988, s.171.

3. İbrahim Bayramov. Qərbi Azərbaycan toponimlərinin tərkibində işlənən söz və coğrafi terminlər lüğəti. Bakı, 2000, səh.26.

4. Adil Bağırov. Naxçıvan hidronimləri. Bakı, 2000, s.75.

5. Л.З.Будагов. "Сравнительный словарь турецко-татарский наречий", Том II, СПб. 1871, с.36.

6. B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı, 1998, s.171.

7. Г.Гейбуллайев. К этногенезу Азербайджанцев. Бакы, 1991, с.469.

hissə-hissə tədricən oğurlayıb aparmışlar. Bundan başqa, bu kəndin aşağı hissəsində qədim bir abidə, bir neçə tağdan ibarət və qapısı qibləyə baxan böyük bir abidə olmuşdur ki, sonra bunları ermənilər dağıtmış və kənd əhalisi bunun daşlarını evlərinin divarlarına hörmüşlər. Rayon alban türklərinə məxsus olan bu qədim abidəni qorumağa səy göstərməmiş və bu abidə tamamilə dağılıb getmişdir. Qeyd edim ki, bu memarlıq abidəsinə yaxınlıqdakı bulaqdan (Alışanın bulağından) saxsı turbalarla (tünglərlə) su çəkilibmiş. Lakin indi bunlardan əsər-əlamət yoxdur.

Mən 1940-1950-ci illərdə bu abidəni uçuq şəkildə öz gözlərimlə görmüşəm.

Qabaxlı kəndi Canı kəndi ilə birləşdirildiyi üçün Canı kəndinə aid yer-yurd adlarının bir qismi də burada verilmişdir.

Qabaxlı kəndindəki onomastik vahidlər, əsasən aşağıdakılardır:

**Tayfa adları**

1. Mirzələr tayfası: Şirzad, Fəttah, Əli, Sədrəddin, Hilal, Həsənoğlu Əli
2. Təhməzli tayfası: Mehdi, Qubad, Əvəz, Alışan, Məhəmmədəli
3. Muradlar tayfası: İsa bəy, Bala bəy, Məcnun bəy.
4. Şadmanlı tayfası: Fərman, Barat, Əbil, Talış, Balış
5. Əmrahlar tayfası:
6. Hacağayarlar tayfası:
7. Dərbəndlər tayfası: Qəhrəman, Şamil, Savalan.

**Yol adları**

1. Dolayı yolu
2. Arx altının yolu
3. Dəvədaşının yolu
4. Gədiyin yolu
5. Almalının yolu
6. Qızyetər qaçan yol
7. Hovuzların yolu
8. Arx altının yolu
9. Mərdanın güneyinin yolu
10. Kalafalıq yolu
11. Səbətkeçməz[1]

**Cığır adları**

1. Arx altının cığırı
2. Mərdanın güneyinin cığırı
3. Almalı cığırı
4. Uclu Kavırın cığırı
5. Targələnin cığırı

---------------------

1. Bu yol dağ keçidində olan yoldadır. Dağı yarıb ortadan dar bir yol açmışlar. Ata, qatıra, ulağa, öküzə (hər tərəfdən bir səbət) yük vuranda buradan keçmir. Ona görə də bunun adı qalıb "Səbətkeçməz".

6. Dağ yerinin cığırı

**Kövşən adları**

1. Kalaflıq
2. Alyanlı
3. Bayraməlinin çuxuru
4. Ağdaşlar
5. Hay İsmayılın yeri
6. Əli yerləri
7. Səfqanlar
8. Atölən
9. Dəvədaşı
10. Arxac yerləri
11. Dağ yerləri
12. Arx altı
13. Qazan durmaz
14. Məmmədalı bəy ölən
15. Tək alma
16. Qurban təpəsi
17. Ərzurum
18. Zeynalabdinin biçənəyi
19. Bəndalının yeri
20. Əsəd oğlunun yeri
21. Göl yeri
22. Yanıq
23. Arduc taxtası
24. O tay bağçalıq
25. Yazılı qaya
26. Yuxarı qaya
27. Aşağı güney
28. Yuxarı güney
29. Qamışlıq
30. Böyük Qaravəngli
31. Xırda Qaravəngli
32. Dördlər oğlunun yeri
33. Arxac yeri
34. Porsuqluq
35. Novruz taxtaları
36. Səbət keçməz
37. Dəvədaşı
38. Almalı çuxuru
39. Dağ yeri
40. Dolayının ucu
41. Aralıq
42. Almalının güneyi
43. Kartofluq
44. Kartofluğun güneyi
45. Zamanın oğlunun dal yeri
46. Dinninin biçənəyi
47. Qaravəng kövşəni
48. Canının üstü
49. Qəbiristanlıq

**Yurd, yaylaq, dağ adları**

1. Canı yurdu
2. Haqverdi toyu olan yurd
3. Çala yurd
4. Şahbazlar çalası yurdu
5. Qırxbulaq yaylası, dağı, yurdu
6. Ağamalılar yurdu
7. Yelli yurd
8. Aşağı yurd
9. Həsənqulunun yurdu
10. Çınqıllı bulağın yurdu
11. Səlim ölən yurd
12. Tək almadakı yurd
13. Soğannı yurd

**Meşə adları**

1. Canı meşəsi
2. Top meşə
3. Göyçək meşə
4. Əzizoğlunun meşəsi
5. Qaranlıq meşə
6. Almalı meşə
7. Çuxurun meşəsi

**Vəng, kilsə adları**

1. Canı vəngi
2. Qabaxlı vəngi

**Arxac adları**

1. Həsənqulunun arxacı
2. Hilalın arxacı
3. Kartoflu arxac
4. Fərmanın arxacı
5. Qaravəngin arxacı
6. Bayraməli arxacı
7. Alyanın arxacı

8. Hay İsmayıl arxacı
9. Dəvədaşı arxacı
10. Qızyetər qaçanın arxacı
11. Tək armudun arxacı
12. Novruzun çala yerinin arxacı

**Çınqıl adları**
1. Güneyin çınqılı
2. Səlim ölənin çınqılı
3. Canının çınqılı
4. Cingilti daşın çınqılı
5. Şahbazların çınqılı
6. Komanın çınqılı

**Pir-ocaq adları**
1. Seyid Abbasın ocağı
2. Seyid Hüseynin ocağı
3. Lüləpər ocağı

**Kaha adları**
1. Aşağı güneyin kahası
2. Qaranlıq kaha
3. Canı kahası
4. Aralığın kahası
5. Çivriyin kahası

**Çay adları**
1. Canı çayı
2. Almalı çayı (birləşib Arpa çayına tökülür)

**Göl adları**
1. Məcnun gölü
2. Göy göl
3. Şahbazlar çalası gölü
4. Qıl körpü gölü

**Bulaq adları**
1. Kalaflıq bulağı
2. Göyçək meşənin bulağı
3. Qarabəyli bulağı
4. Qurbanın bulağı
5. Ağbulaq
6. Mirmehdi ölən bulaq
7. Novruz ölən bulaq
8. Soyuq bulaq

9. Hovuzlar bulağı
10. Hüseyn kişinin bulağı
11. Bəndalının bulağı
12. Qəntəbər bulağı
13. Alışanın bulağı
14. Almalı bulağı
15. Hilalın bulağı
16. Səlim ölən bulaq
17. Canı yurdun bulağı
18. Haqverdinin toyu olan bulaq
19. Lülələr bulağı
20. Qırx bulaq
21. Yelli yurd bulağı
22. Firudinin bulağı
23. Şahbazlar bulağı
24. Məmmədhəsən bulağı
25. Şadman bulağı

## Qabaxlı kəndindən 1935-1937-ci illərdəki repressiya qurbanları

**1935-ci ildə tutulanlar**
1. Hüseynov Hüseynalı Alışan oğlu
2. Hüseynov İsa Məmiş oğlu

**1937-ci ildə tutulanlar**
1. Əsədov Səlim Məhəmməd oğlu
2. Səfərov Məhəmmədəli Hacıəli oğlu[1]
3. Səfərov Hilal
4. Səfərov Sədrəddin

Qabaxlıdan olan siyasi məhbuslardan heç biri geri qayıtmayıb.

## Qabaxlı və Canı kəndlərindən 1941-1945-ci il Böyük Vətən müharibəsinə gedənlər

**a) qayıtmayanlar**
1. Cavadov Hüseyn Cavid oğlu
2. Hümbətov Həmid Haqverdi oğlu
3. Əsgər Əmiraslan oğlu
4. Həsənov Rüstəm Həsən oğlu
5. Canılı Surxay
6. Canılı Adil

-----------------------

1. Hacıəli oğlu Məhəmmədəli rayonda maliyyə şöbəsinin müdiri işləyirdi. Məhəmmədəli bir gün rayonda deyir ki, nə üçün 1937-ci ildə tutulanların hamısı azərbaycanlılardır? Nə üçün ermənilər az tutulur? Bu sözün üstündə onu qəflətən, gizli şəkildə tuturlar. Sonra ermənilər camaata deyirlər ki, o, İrəvana gedib. Lakin onu tutub siyasi məhbus kimi Sibirə sürgün edirlər.

7. Abışov Camal Vəli oğlu
8. Axundov Əli Mirzə oğlu
9. Məmmədov Savalan İsmayıl oğlu
10. Abbas Tavat oğlu
11. Gülmalıyev Ağamalı
12. Süleyman Alışan oğlu
13. Qambay Alışanoğlu
14. Sərdar Alışan oğlu
15. Hüseynov İsmayıl
16. Abdullayev Məhəmməd Süleyman oğlu
17. Abdullayev Ağəli Süleyman oğlu
18. Abdullayev Abdulla Süleyman oğlu
19. Abdullayev Səməd Süleyman oğlu
20. Calal Teymur oğlu
21. Abışov Ağacan İsmayıl oğlu
22. Kazımov Məhəmməd İsa oğlu
23. Abışov Adıbəy Nəsib oğlu
24. Abışov Maşallah Nəsib oğlu
25. Abışov İnşallah Nəsib oğlu
26. Bəhrəm Nəcəfqulu oğlu
27. Muradov Cəmil İsa oğlu
28. Hümbətov Şuruya Çərkəz oğlu
29. Sadıqov Hüseyn Əmrah oğlu
30. Nəbiyev İsa Teymur oğlu
31. Mahmud Teymur oğlu (Podralı Mahmud)
32. Fətəliyev Məmiş İsmayıl oğlu
33. Ağayarov Ataş Əmiraslan oğlu
34. Ağayarov Ənvər Məşədi oğlu

**b) qayıdanlar**

35. Əliyev Garay İsa oğlu
36. Səfərov Xanımalı Vəli oğlu
37. Musa Əmiraslan oğlu
38. Aslan Əmiraslan oğlu
39. Həsənov Cabbar Həsən oğlu
40. Qəmbərov İbad Ələkbər oğlu
41. Axundov Fəttah Mirzə oğlu
42. Mehdiyev Məcid
43. Axundov Yadulla Hüseyn oğlu
44. Abışov Təvəkkül Paşa oğlu
45. Abdullayev Əmir Cabbar oğlu
46. Kərimov Vəli Kərim oğlu
47. Abdullayev Hüseynbala Cabbar oğlu
48. Abışov Xanbaba İsmayıl oğlu

49. Baxşəliyev Məhəmmədəli Ağahəsən oğlu
50. Məmmədov Məhəmmədəli Ağarza oğlu
51. Mustafayev Həsən Fərəc oğlu
52. Məmmədov Şəmil İsmayıl oğlu
53. Abışov Adıbəy Musa oğlu
54. Əmrahov Müstəcib Nəsib oğlu
55. Əmrahov Baxış Əmrah oğlu
56. Abdullayev Kommunist Həso (Həsən) oğlu
57. Əsədov Əli Qoşnalı oğlu
58. Əsədov Babacan Həsən oğlu
59. Əsədov Nəsir Məhəmməd oğlu
60. Hüseynov Yaqub Hüseynalı oğlu
61. Haqverdiyev Süleyman Haso (Həsən) oğlu
62. Novruzov Barat Şadman oğlu
63. Novruzov Məmiş Şadman oğlu
64. Hümbətov Hüseyn Zeynalabdin oğlu
65. Fətəliyev İsmayıl Məmiş oğlu
66. Ağayarov Hüseynqulu Qəhrəman oğlu
67. Hümbətov Həsən Çərkəz oğlu
68. Dəllək Əli
69. Səfərov Gülmalı Vəli oğlu
70. Qasımov Bəhlul Qasım oğlu
71. Haqverdiyev Qnyaz
72. Pircanov Lətif
73. Pircanov Hüseyn (Xitri Lətif)
74. Mehrəliyev Məhəmməd Firudin oğlu
75. Mehdiyev Həsən Firudin oğlu
76. Dana Həsən
77. Məmmədov Hüseyn Şərif oğlu
78. Hüseynov Məhəmməd Həsən oğlu

**İnformatorlar:** Bu kəndlərdəki yer-yurd adları haqqında məlumatı Canı kəndində doğulan və ömrünün çox hissəsini Qabaxlı kəndində yaşayıb rəhbər vəzifələrdə (kolxoz sədri, sovxoz direktoru, aqronom və s.) işləyən 73 yaşlı Qafar Gülmalıyev, bu kənddə boya-başa çatan, uzun illər bu kənddə işləyən el ağsaqqalı Sadıqov Bəykişi Hidayət oğlu, uzun illər bu kənddə ferma müdiri işləyən Sadıqov Çərkəz Hidayət oğlu, Qabaxlı kənd sakini, ali təhsilli ziyalı Oqtay Ağayarov, riyaziyyat elmləri namizədi Mətləb Ağayarov və digər kənd sakinləri və ziyalıları vermişlər. Bu kənd uzun müddət mən anadan olduğum, böyüyüb başa çatdığım kənd ilə bir sovxozda birləşdiyi üçün buranın ərazisini mən qarış-qarış gəzmişəm və ona görə də çox yaxşı tanıyıram. Onların yaddan çıxardıqları bir sıra onomastik vahidləri mən özüm bura əlavə etmişəm.

## QABAXLI KÖRPÜSÜ



Qabaxlı körpüsünün bir adı da "Qıl körpü"dür. Ola bilsin ki, bu körpünün nə vaxtsa adı olmuşdur. Lakin bu ad bizə məlum deyil.

Qabaxlı körpüsü dərin bir dərədə, Canı çayının üstündə, Qabaxlı ilə Hüseynqulular kəndini və Yazılı qayanın üstündə yerləşən Nəbilər kəndinə gedən köhnə yolu birləşdirir.

Qabaxlı körpüsü sıldırım qayanın üzərində tikilmişdir. Çayın səthindən 6-7 metr yüksəklikdə, sıldırım qayanın üzərində özülü qoyulan birtağlı körpünün uzunluğu 10 metr, eni isə 3,5 metrdir. Əfsuslar olsun ki, yonulmuş bozalt daşdan ən gözəl memarlıq kompozisiyası ilə inşa olunan bu körpünün kim tərəfindən tikilməsi və nə vaxt dağılması haqda heç bir məlumat yoxdur. Deyilənə görə, körpünün inşası XIII-XIV əsrlərə təsadüf edir.

Qeyd etməliyəm ki, Dərələyəz mahalında Arpa, Her-her, Həsənkənd, Ağkənd, Selimdə olan çayların və bu kimi digər çayların üzərində ata-babalarımızın ona qədər orta əsrlərdə saldıqları körpülərin izləri hələ də qalmaqdadır.

## QABAQLI//QAPAXLI (ZEYTƏ QABAQLISI)

Dərələyəzdə Qabaqlı kəndi ikidir. Biri Arpa çayının sol, o biri isə sağ qolu üstündə yerləşir. Biri Əzizbəyov rayonunda, o biri isə Yeğeqnadzor rayonu ərazisindədir. Haqqında söhbət açdığımız bu Qabaqlı kəndi Əzizbəyov rayonundakıdır. Bunun bir adı da Zeytə Qabaqlısıdır. Kənd dəniz səviyyəsindən xeyli yüksəkdə yerləşir.[1]

Yeğeqnadzor rayonunda olan Qabaqlı kəndi ilə bu kəndin adı eynidir, eyni mənalı toponimlərdir.

Zeytə Qabaqlısı rayon mərkəzindən təxminən 8 km uzaqda, Zeytə kəndinin yaxınlığında, dağların sinəsində yerləşir. Bu kənddə həmişə azərbaycanlılar yaşamışdır. Qabaqlı kənd əhalisi həmişə maldarlıq, taxılçılıq və meyvəçiliklə məşğul olmuşlar.

Tarixi mənbələrdən və statistik məlumatlardan aydın olur ki, 1831-ci ildə

--------------------

1. Mirzəyev H. Qabaxlı//Qapaqlı//Zeytə Qabaqlısı kəndi və oradakı bəzi onomastik vahidlər haqqında, Filologiya məsələlərinə dair tematik toplu, № 5 (17), Bakı, 2001, s.83-84.

bu kənddə 33 nəfər, 1873-cü ildə 201 nəfər, 1886-cı ildə 270 nəfər, 1897-ci ildə 278 nəfər, 1904-cü ildə 250 nəfər, 1914-cü ildə 235 nəfər, 1916-cı ildə 108 nəfər azərbaycanlı yaşamışdır.[1]

1918-ci ildə erməni millətçiləri və daşnakları başqa azərbaycanlı kəndləri kimi bu kəndi də dağıtmış, əhalisini isə qırmışlar. Ölümün pəncəsindən çox az adam qaçıb xilas ola bilmişdir.

Ermənistanda sovet hökuməti qurulduqdan sonra 1922-ci ildə öz doğma kəndinə cəmi 103 nəfər qayıda bilmişdir. 1951-ci ilə qədər bu kənddə əhalinin sayı xeyli artdı. Lakin 1948-1953-cü il deportasiyası bu kənddən də yan keçmədi. Bu kəndi Ağdaşa köçürmək istədilər. Lakin kənd əhalisi buna qəti etiraz etdi və 1951-ci ildə buranın əhalisi zorla Azərbaycana köçürülən Zeytə kəndinə doluşub yaşamağa başladı. 1988-ci ildə bunlar da zorla kənddən çıxarıldılar və Azərbaycanın müxtəlif yerlərində məskunlaşdılar.

**Qabaqlı kəndindən (Zeytə Qabaqlısından)**
**1941-1945-ci il BÖyük Vətən müharibəsinə gedənlər**

**a) qayıtmayanlar**
1. Məmmədov Hüseynxan
2. İbişov Əloş
3. Baxşalıyev Mustafa
4. Haqverdiyev Hüseyn
5. Baxşalıyev Kazım
6. Baxşalıyev Xankişi
7. Hüseynov Qoçalı
8. Hüseynov Qoşnalı
9. Haziyev Əloş
10. Hüseynov Həsənqulu
11. Hüseynov Məhərrəm
12. Hüseynalıyev Kamran
13. Hüseynalıyev İmran
14. İmanov Alı
15. İmanov İsa

**b) qayıdanlar**
16. İmanov Qaybalı
17. Hüseynov Teymur
18. Orucov İbrahim
19. Hüseynov Hüseynqulu

--------------------
1. Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1052; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 342, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 246.

20. İmanov Musa
21. Qasımov Mehdi
22. Haqverdiyev Vəli
23. Cabbarov Cabbar
24. Heydərov Bayram

**1937-ci ildə repressiya qurbanı olanlar**

1. İbrahimov Məhəmməd (qayıtmamışdır)
2. Şirinov Müslüm (qayıtmamışdır)

**Zeytə Qabaqlısında görkəmli adamlar**

1. Şükürov İsrafil Xudu oğlu - SSRİ xalq müəllimi
2. Şükürov Hidayət İsrafil oğlu - texnika elmləri doktoru, professor

**İnformatorlar:** 1) 1938-ci ildə bu kəndə qonşu olan Qurdqulaq kəndində doğulan, ora yaxşı bələd olan professor Dünyamalıyev Məhəmməd Babamirzə oğlu; 2) 1938-ci ildə Zeytə kəndində doğulan, Zeytə Qabaqlısı kəndinin əhalisini yaxından tanıyan, ali təhsilli müəllim Mehdiyev Mehdi Fərhad oğlu.

## QALAKƏND

Qalakənd Dərələyəz mahalının Yeğeqnadzor (Keşişkənd) rayonunda kənd adıdır. Bu kəndin əhalisi əkinçilik, heyvandarlıq və bağçılıqla məşğul olmuşlar. Qalakənddə 1898-ci ildə 40 bağ olmuşdur.[1] Bu kəndin coğrafi mövqeyi və sonrakı tarixi məlum deyildir.

Tarixi mənbələrin verdiyi məlumata görə bu kənd XX əsrin əvvəllərində dağıdılmışdır.[2] Əfsuslar olsun ki, buranın hansı səbəbdən dağıdıldığı məlum deyil.

Qalakənd toponimi kəndin relyefi və burada tikilmiş qalanın adı ilə bağlıdır.[3]

## QALASER

Qalaser kəndi Dərələyəz mahalının Ələyəz dərəsi adlanan yerdə, rayon mərkəzindən 26, Qovuşuq kəndindən isə 1 km uzaqlıqda yerləşir.[4]

Bu kənd Dərələyəzin başqa kəndləri kimi ən qədim kəndlərindən biridir. Kənd əhalisinin əsas məşğuliyyəti maldarlıq, əkinçilik, tütünçülük, arıçılıq və

-------------------

1. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh.355; Историческая география Западного Азербайджана. Бакы, 1998, стр.132.
2. B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998, səh.174.
3. Mirzəyev H. Qalakənd, Atcar, Əsgərkənd kəndləri, Filologiya məsələlərinə dair tematik toplu, № 7 (19), Bakı, 2001, s.89.
4. Mirzəyev H. Qalaser kəndi və ordakı onomastik vahidlər haqqında, Filologiya məsələlərinə dair tematik toplu, № 3-4, Bakı, 2001, s.31-37.

meyvəçilikdir. Kənd dəniz səviyyəsindən 2000 metr yüksəklikdə yerləşir. Kəndin ətrafında böyük bir meşə də vardır.

Tarixi mənbələrdən məlum olur ki, bu kənddə 1873-cü ildə 108, 1886-cı ildə 154, 1897-ci ildə 184, 1904-cü ildə 154, 1914-cü ildə 170, 1916-cı ildə 248, 1922-ci ildə 46, 1926-cı ildə 104, 1931-ci ildə 142 nəfər əhali yaşamışdır.[1]

Əhalinin bu kənddə belə şəkildə artıb-azalmasının səbəbi odur ki, bu kənd 1828-ci ildən sonra dəfələrlə ermənilər tərəfindən deportasiyaya, soyqırımına məruz qalmışdır. Başqa kəndlər kimi, bu kənd əhalisi də öz yer-yurdundan dəfələrlə qaçqın düşmüşdür. 1950-1980-ci illər arasında isə bu kəndin əhalisi xeyli çoxalmışdır.

Məlum olduğu kimi, Ermənistan hökuməti azərbaycanlıları Ermənistandan çıxarmaq üçün müxtəlif vasitələrə əl atırdılar. Onlar 1980-ci illərdə Amağu, Gədikvəng (Qoduxvəng) və Qalaser kəndlərini köçürmək üçün yeni bir hiyləyə əl atdılar. Bu kəndlərə erməni mütəxəssislərini göndərdilər və onlar belə bir qərara gəldilər ki, guya bu kəndlər və bunların üstündəki dağ sürüşür, camaat təcili kənddən çıxmalıdır. Bununla da bu kəndlərin əhalisini vahiməyə salıb camaatı yavaş-yavaş köçürməyə başladılar. 1986-1987-ci illərdə bu kənd camaatını tamamilə kənddən çıxartdılar və evləri dağıtdılar. Lakin indiyədək nə o kəndlər sürüşüb, nə də onların üstündəki dağ.

Əvvəlcə ayrıca bir kolxoz şəklində fəaliyyət göstərən bu kənd 1950-ci illərin axırında Qovuşuq kəndilə bir sovxozda birləşdirildi. Kəndin həmişə ibtidai məktəb, kitabxana və kənd klubu fəaliyyət göstərmişdir.

Bu kənddə əvvəllər (Sovet hökuməti qurulana qədər) xeyli Hacı olmuşdur. Hacabbas Tanırverdi oğlu, Hacəli Tanırverdi oğlu, Hacı Qurban Tanırverdi oğlu, Hacıməhəmməd Tanırverdi oğlu, Hacəsəd İsmayıl oğlu buna misal ola bilər. Bu kimi məşhur adamlar, Alıyev Hüseyn kimi el ağsaqqalı və 150 il ömür sürmüş Əli kişi kimi şəxslər burada yaşamışlar.

Bir əsr yarım ömür sürən Əli kişi haqqında şahidi olduğum bir faktı oxucuların nəzərinə çatdırmaq istəyirəm.

1938-ci ilin payız günləri idi. SSRİ Ali Sovetinə seçkilər keçirilirdi. Qalaser kəndinin əhalisi də gəlib Qovuşuq kəndinin məktəbində səs verməli idi. Raykomun göstərişi belə idi ki, 146 yaşlı Əli kişi birinci səs verməlidir. Ona görə də səhər-səhər Əli kişi səs verməyə gəlmişdi. Seçki məntəqəsində qara zurna ilə toy çalınırdı. Mən o zaman uşaq idim. Camaat xahiş elədi ki, Əli kişi oynasın. Əli kişi əlini qaldırıb bir balaca süzdü.

Bu zaman rayon təşkilatının rəhbər üzvləri Əli kişiyə təklif etdi ki, gəl səni maşınla aparaq rayona, orada seçkilər haqqında öz rəyini de. Əli kişi cavab verdi ki, mən heç bir yana getmirəm. Mənim öz maşınım var, Köhlən atım.

--------------------

1. Свод статических данных о населении Закавказского края извлеченных из писменных списков 1886 г. Тифлис, 1893, №969; Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh.92; H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh.245; Историческая география Западного Азербайджана, Баку, 1998, стр. 130-131.

Mən sizə inanmıram. Maşına qoyub məni qayadan da sala bilərsiniz. Məni görmək istəyən gəlsin Qalaser kəndinə. Əli kişi onu da dedi ki, bu Dərələyəzdə həmişə azərbaycanlılar olub, siz isə indi çoxalmısınız.

Mən çox hadisələrin şahidi olmuşam.

Qeyd edim ki, Əli kişinin dişləri yenidən gəlmişdi. Alt və üst dişlərinin hamısı quzu dişi kimi gödək idi. O, uca, enlikürək, yoğunbilək, sarıbəniz bir adam idi. Saqqalı qırmızıya çalırdı. 146 yaşda ata özü minirdi. Atın belinə minəndə sanki atın beli əyilirdi. Ayaqları atın üzəngisindən aşağı sallanırdı. Ona görə də yəhərin üzəngisini xeyli uzatmışdı.

Kənddə cuvar (su paylayan) vəzifəsində işləyirdi. Sonra da dəyirmançı oldu. Dəyirman daşını tək düşürürdü. Gecə-gündüz təmiz havada olurdu. Ömrünün çox hissəsini çoban olmuşdu. Özü həmişə deyirdi ki, mənim yediyim süd, qatıq və baldır. Lakin bu adam müharibə illərində, 1943-cü ildə çətinlik qarşısında qalıb, 150 yaşında dünyasını dəyişdi.

Bu kənddə başqa uzunömürlülər də olmuşdu. 1988-ci ildə ermənilər tərəfindən doğma yurdundan qovulan 114 yaşlı Nərgiz oğlu Hüseyn 1993-cü ildə Bakıda, 105 yaşlı Məmmədov Qaratel 1997-ci ildə Gəncədə, 103 yaşlı Rəhimova Minəvvər Nağı qızı Bakıda (Mərdəkanda), 90 yaşlı Əhmədov Əhməd Bakıda (Mehdiabadda) dünyasını dəyişdi. Öz doğma yurdlarında deyil, başqa yerdə torpağa tapşırıldılar. Belə uzunömürlü adamlar Dərələyəzin başqa kəndlərində də çox idi. Qovuşuq kəndində Dağdələnli nəslindən olan Balaxanım (107 yaş), Güneyvəngli Ballı qarı (110 yaş, mənim nənəm), Nəbilərdə Hüseynqulu oğlu Əli (130 yaş) və bir çoxları buna misal ola bilər.

Qalaser kəndinin adına gəldikdə demək lazımdır ki, bu ad onun coğrafi mühiti və tarixi ilə bağlıdır. Strateji cəhətdən çox əlverişli olan bu kəndin üstündə daş hasarlardan qala tikilmiş və bu istehkam məqsədi güdmüşdür. Bu qalın və geniş hasarlı qala düşmənə qarşı, demək olar ki, səngər vəzifəsini yerinə yetirmişdir. Bu yüksək hasarlı qaladan başqa kəndlərə gedən yolların hamısı görünür və buradan düşmənə ciddi zərbə endirmək asandır.

Fikrimizcə, kəndin adı da bu qala tipli hasarla bağlıdır. Burada qala və hasar birləşməsinin ikinci tərəfindəki hasar sözündə "h" və "a" səsləri ixtisara düşmüş və ikinci hecadakı "a" səsini "e" səsi əvəz etmişdir. Bəzən camaat arasında deyirlər ki, burada qala sözünə fars dilində baş mənasını bildirən "sər" sözü artırılmışdır, yəni qalanın başı. Yəqin ki, gələcək tədqiqatlarda bu məsələ tam dəqiqləşəcək. Mən birinci mülahizənin tərəfdarıyam. B.Budaqov və Q.Qeybullayev də bunun əslinin Qalahasar olduğunu iddia edirlər.[1]

Yaşlı adamların və Qalaser kənd sakini, iqtisad elmləri namizədi, dosent Alıyev İsa Hüseyn oğlunun dediyinə görə 1918-ci ildə Əmağu kəndində ermənilər Qalaser kəndindən köməyə gedən 6 nəfəri (Rüstəmov Nəcəf Rüstəm oğlunu, Əhmədov Fərrux İsmayıl oğlunu, Məmmədov Səməd Həsən oğlunu, Quliyev Baxşəli Cəfər oğlunu) öldürmüşlər. Qalaser kəndinin sakini Bağırov

-----------------

1. B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin lüğəti, Bakı, 1998, s.175.

Əmir adlı şəxs burada çox möcüzəli vəziyyətdə ölümdən xilas ola bilmişdir. Rəhimov Həsən Ağarza oğlu adlı şəxs isə Amağu kəndindən qaçarkən Arpa kəndində ermənilər onu tutub başını kəsmişlər. Bayramov Saleh Əli oğlunu və Vəliyev Fərəc Hacı Qurban oğlunu isə Arpa kəndində dama qatıb od vurub yandırmışlar.

Qalaser kəndi ərazisində olan onomastik vahidlər, əsasən, aşağıdakılardır:

**Tayfa adları:**

1. Rüstəmlilər
2. Bağırlar
3. Məmişlər
4. Məmmədalılar
5. Alılar
6. Hüsülər

Qalaser kəndi əksərən Rüstəm kişinin beş oğlunun nəvə-nəticələrindən və yerdə qalan nəsillərdən ibarət olub (Hacılar, Babaxanlılar, Nəbilər, Mollalar, Rəhimlər)

**Yurd adları**

1. Qaraçı yurdu
2. Baş yurd
3. Orta yurd

**Müxtəlif yer adları**

1. Göyəmlik
2. Pirimat yeri
3. Qaramalıq
4. Göl yeri
5. Qurbanın yeri
6. Qətər (Qatar)
7. Qaraşum
8. Şirran
9. Tikanlı yurd
10. Tutu qaçan
11. Ayı ölən
12. Hacıəsədin mağarası
13. Qanqallıq
14. Əyri qar
15. Qəbiristan yeri
16. Şkol yeri
17. Şırna
18. Taxtalar
19. Yoxuşun başı
20. Seyidlər düşən

21. Təzəkli
22. Demi dolayısı
23. Sallama
24. Alapalıddıq
25. Novruzəli uçan
26. Zəncir itən
27. Kabıx dərəsi
28. Xudum oğlu
29. Göy qum
30. Quzey kahası
31. Buzxana
32. Qayanın başı
33. Qayanın altı
34. Əbilfəzin kahası

**Qobu, təpə adları**
1. Dərin qobu
2. Dəmir təpə

**Çınqıl adları**
1. Hüseynalı çınqılı
2. Qara çınqıl

**Qaya adları**
1. Çıraq daş
2. Baxışuçan qaya
3. Sıvırçaq daş
4. Qayanın dibi
5. Qayanın başı
6. Süleymanın qayası
7. Nərgizin qayası
8. Divək daşı
9. Aralıq qaya

**Bulaq, göl, arx adları**
1. Molla bulağı
2. Soyuq bulaq
3. Aşağı bulaq
4. Yuxarı bulaq
5. Gurbulaq
6. Ağbulaq
7. Qabaqlı bulağı
8. Zəncirli bulaq
9. Qıjılı bulaq
10. Duzlu su

11. Cəfərin gölü
12. Nənəşin gölü
13. Dolayı arx
14. Qara şuma gedən arx
15. Qalaser arxı

### Qalaser kəndindən 1937-ci ildə tutulan siyasi məhbuslar

1. Abbasov Əli Hacıabbas oğlu

### Qalaser kəndindən 1941-1945-ci illər Böyük Vətən müharibəsinə gedənlər

**a) qayıtmayanlar:**

1. Bağırov Süleyman Cavad oğlu
2. Bağırov Əstan Bağır oğlu
3. Məmişov Həsən Qurban oğlu
4. Məmişov Oruc İsmayıl oğlu
5. Bağırov Oruc Mehdi oğlu
6. Əhmədov Məhəmməd Həsən oğlu
7. Şükürov Qulu Əmir oğlu
8. Rəhimov Göyüş Ağarza oğlu
9. Vəliyev Həsənqulu Hacıməmməd oğlu
10. Şirinov Məmoş Mehdi oğlu
11. Şirinov Məhəmməd Teymur oğlu
12. Şirinov Bəhmən Teymur oğlu
13. Ələkbərov Məhəmmədəli Nəbi oğlu
14. Quliyev İsrafil Cəlil oğlu
15. Bağırov Qara Şükür oğlu
16. Cavadov Musa Pənah oğlu
17. Cavadov Kamal Pənah oğlu
18. Bağırov Əkbər Bağır oğlu
19. Məmişov Qaraş İsmayıl oğlu
20. Bağırov Hüseyn Mehdi oğlu
21. Bağırov Nəbi Mehdi oğlu
22. Əhmədov Əli İsmayıl oğlu
23. Şükürov Qara Əmir oğlu
24. Məmişov Abış Məhəmməd oğlu
25. Məmişov Əsgər Əlyar oğlu
26. Ələkbərov Əmiraslan Nəbi oğlu
27. Quliyev Müzəffər İmran oğlu
28. Quliyev Qəzənfər İmran oğlu
29. Quliyev İsrafil İmran oğlu
30. İbrahimov Bilal İbrahim oğlu
31. Rəhimov Hüseyn Alırza oğlu

32. Şirinov Məhəmməd Teymur oğlu
33. Bağırov Sultan Əmir oğlu
34. Bağırov Əziz Əmir oğlu
35. Şirinov Əmirxan Mehdi oğlu
36. Əliyev Tanrıverdi Hacıəli oğlu

**b) qayıdanlar**

37. Əhmədov Əhməd Həsən oğlu
38. Şükürov Xəlil Əmir oğlu
39. Məmişov Məmiş Şəmməməd oğlu
40. Cəfərov Cəfər Təhməz oğlu
41. Alıyev Hüseyn Qiyas oğlu
42. Ələkbərov Qurban Nəbi oğlu
43. Əliyev Teymur Tanrıverdi oğlu
44. Rüstəmov Hüseyn Hüsü oğlu
45. Əliyev Qəmandar Bəylər oğlu

**1988-1994-cü illərdə Qarabağ uğrunda döyüşənlər**

1. Alıyev Musa Süleyman oğlu (komandir)
2. Bağırov Uğur Bəhram oğlu
3. Bağırov Kamil Bəhram oğlu
4. Bağırov Nəsimi Balağa oğlu
5. Bağırov Nəimi Balağa oğlu
6. Rüstəmov Nəcəfxan Davud oğlu (şəhid)
7. Məmişov Eldar Tapdıq oğlu (şəhid)
8. Bağırov Süleyman Məhər oğlu
9. Cəfərov Qafqaz Qafar oğlu
10. Cəfərov Yalçın Səfər oğlu
11. Şirinov Vahid Rza oğlu
12. Rəhimov Əbülfəz Həsən oğlu

**İnformatorlar:** Qalaser kəndində olan onomastik vahidlərin bir hissəsini və bəzi digər məlumatları Qalaser kənd sakini, iqtisadi elmlər namizədi, indi Bakıda yaşayan Alıyev İsa Hüseyn oğlu, Qalaser kənd sakini, hal-hazırda Bakıda yaşayan 1927-ci il təvəllüdlü, 74 yaşlı Abbasov Həsən Əli oğlu vermişdir. Bir hissəsini isə özüm yazmışam. Bu kəndlə bizim kənd uzun illər bir sovxoz olmuşdur. Mən buranı yaxşı tanıyıram.

## QANLI

Qanlı – Dərələyəzin Yeğeqnadzor (Keşkənd) rayonunda azərbaycanlı kəndidir. Yelpin kəndinin şimal-şərqində yerləşən bu kəndin xarabalıqları indi də qalmaqdadır. Bu kənddə tarixən azərbaycanlılar yaşamışdır. Lakin 1918-ci ildə erməni quldurları kəndi dağıtmış, əhalisini tamamilə qırmışlar.

Həmin vaxtdan ölü kəndə çevrilmişdir.

Qanlı toponiminin mənşəyinə gəldikdə demək lazımdır ki, bu Azərbaycan xalqına məxsus bir addır. Akademik Budaq Budaqov və görkəmli tarixçi Qiyasəddin Qeybullayev haqlı olaraq göstərirlər ki, bu kəndin adı Səlcuq oğuzlarının Kanqlı tayfasının adından, Kanqlı etnonimindən formalaşmışdır. Qafqazda və Orta Asiyada bu adda çoxlu toponimlər vardır.[1] Bu toponim həm də "Kitabi-Dədə Qorqud" dastanı ilə bağlıdır.[2]

## QARAQAYA

Qaraqaya – Dərələyəz mahalında qədim azərbaycanlı kəndlərindəndir.[3] Dəniz səviyyəsindən 2040 metr yüksəklikdə, dağlar qoynunda yerləşmiş bu kənddə 1873-cü ildə 141 nəfər, 1886-cı ildə 214 nəfər, 1897-ci ildə 259 nəfər, 1904-cü ildə 177 nəfər, 1914-cü ildə 194 nəfər, 1916-cı ildə 303 nəfər azərbaycanlı yaşamışdır. Bu kənddə həmişə azərbaycanlılar yaşamışdır.[4]



1918-ci ildə kənd erməni quldurları tərəfindən yerlə-yeksan edilmiş, əhalinin bir hissəsi qırılmış, bir hissəsi isə kənddən qovulmuşdur.[5]

Bir neçə il xaraba qalmış, kəndə 1922-ci ildə 97 nəfər qayıtmış, 1931-ci ildə əhalinin sayı 193 nəfər olmuşdur.

1930-cu ildə kənddə kolxoz qurulmuş, 1960-cı ildə bu kolxoz Gülüdüz kəndinin sovxozuna birləşdirilmişdir. Bu kənddə ibtidai məktəb, klub və kitabxana da olmuşdur. 1988-ci ildə kəndin 400 nəfərdən artıq əhalisi dədə-baba yurdlarından qovulmuşdur. Tarixi mənbələrin birində göstərilir ki, 1727-ci ildə Qaraqaya kəndinin 1.382 ağça gəliri olmuşdur.[6]

------------------------

1. Ətraflı məlumat almıq üçün bax: B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998, səh.177-178
2. Aslan Bayramov. "Kitabi-Dədə Qorqud və Qafqaz". Bakı, 2000, səh.71.
3. Mirzəyev H. Qaraqaya kəndi və buradakı bəzi onomastik vahidlər haqqında, Filologiya məsələlərinə dair tematik toplu, № 5 (17), Bakı, 2001, s.161-163.
4. Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №970; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 92; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 355, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 245; Историческая география Западного Азербайджана, Баку, 1998, стр.133.
5. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh.355.
6. Z.Bünyadov və H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri, Bakı, 1997, s.35.

Qeyd etmək lazımdır ki, Qaraqaya adında bir çox yerlərdə, o cümlədən Qərbi Azərbaycanın (indiki Ermənistanın) Vedi, Qırmızı kənd (Krasnoselski) rayonlarında da kənd olmuşdur.[1]

Bu kəndin üstündə böyük, qara rəngdə olan uca qayalıqlar vardır. Çox güman ki, buradakı qara sözü böyük mənasındadır. Qədim dövrlərdə qara sözü türk dillərində böyük, əzəmətli, nəhəng mənalarında işlənmişdir ki, bizcə kəndin adı da bu coğrafi relyeflə bağlıdır.

**Tayfa adları**

1. Hacıqağalar tayfası
2. Alməyətdilər tayfası
3. Binnətdilər tayfası
4. Rzayevlər tayfası
5. Məşədi Cəfərqulu tayfası
6. Kalba Gülməmmədlər tayfası
7. Tanrıqululular tayfası

**Dağ adları**

1. Həsoxiyal
2. Sofu yol
3. Qoşa arxaclar
4. Ağ yarğan
5. Zilan yurdu
6. Didivan yurdu
7. Cacuxlu
8. Civirli
9. Keçi qayası (qəyəsi)
10. Keçi kahası

**Bulaq adları**

1. Almurad bulağı
2. Məşəd Ələsgər bulağı

### Qaraqayadan 1937-ci ildəki repressiya qurbanları

1. Quliyev Əsgər Taharqulu oğlu
2. Alməd ətov Zülfüqar Qasım oğlu
3. Alməd ətov Türbəndə Qara oğlu
4. Əhmədov İmran Əsgər oğlu

### Qaraqayadan (Ertiş kəndi də daxil olmaqla) kəndindən 1941-1945-ci illər müharibəsinə gedənlər

**a) qayıtmayanlar**

1. Mamedov Mirzə Şamməd oğlu

------------------------

1. B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998, s.181.

2. Muradov Cəmil Murad oğlu
3. Quliyev İbrahim Əsgər oğlu
4. Quliyev Musa Əsgər oğlu
5. Quliyev Hacı Əsgər oğlu
6. Hüseynov Fərhad Ağahüseyn oğlu
7. Quliyev Usub Tanrıverdi oğlu
8. Mehdiyev Əli İsa oğlu
9. Salahov İslam Abbas oğlu
10. Əhmədov Xudakərim Mahmud oğlu
11. Əhmədov Əliqulu Mahmud oğlu
12. Rzayev Rza
13. Rzayev Hüseynalı Hüseyn oğlu
14. Rzayev Mamoş
15. Paşayev Müseyib Behbud oğlu

**b) qayıdanlar**
1. Mikayılov Məşədi Şəmil oğlu
2. Qarayev Xudamədət Almədəd oğlu
3. Quliyev İsax Əsgər oğlu
4. Rzayev Ağa
5. Qasımov İbrahim Zülfüqar oğlu

**İnformatorlar:** Kənddəki onomastik vahidlər, repressiya qurbanları və müharibəyə gedənlər haqqında olan məlumatı Gülüdüzü və Qaraqaya kəndlərində boya-başa çatmış, uzun illər bu birləşmiş kolxoz və sovxozlarda müxtəlif vəzifələrdə işləmiş 74 yaşlı, qaçqın düşüb Bakıda məskunlaşmış və 2002-ci ildə dünyasını dəyişmiş Səfərov Mustafa, Gülüdüzü kənd sakini, ali təhsilli, dil-ədəbiyyat müəllimi, 65 yaşlı İmaməliyev Kərəm, Qaraqayada doğulub boya-başa çatmış, işləmiş, hal-hazırda isə Azərbaycanda yaşayan 63 yaşlı Əhməbov Əli və 82 yaşlı Qarayev Xudamədəd Almədəd oğlu.

Bu kənddə çoxlu qohumlarım olduğu və buranı çox yaxşı tanıdığım üçün bəzi yer-yurd adlarını da özüm əlavə etmişəm. Bu kənd ilə Gülüdüzü kəndi uzun müddət bir sovxozda birləşdiyi üçün kəndlərin sərhədi itmiş və ona görə də bəzi adlar Gülüdüzü kəndinə aid adların içərisindədir.

## QARALAR

Qaralar Dərələyəz mahalının Əzizbəyov rayonunda kənd adıdır. Bura tarixən azərbaycanlı kəndi olmuşdur. Statistik və tarixi mənbələrin verdiyi məlumata əsasən Qaralar kəndində 1831-ci ildə 49 nəfər, 1873-cü ildə 84 nəfər, 1886-cı ildə 101 nəfər, 1897-ci ildə 113 nəfər, 1904-ci ildə 108 nəfər, 1914-cü ildə 118 nəfər, 1916-cı ildə 148 nəfər azərbaycanlı əhalisi olmuşdur.[1]

-----------------------

1. Статистическое описание Нахичеванской провинции, СПб., 1833, стр. 172; И.Шопен. Исторические памятники состояние армянской областе в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 619; Свод статистических данных о населении

1918-ci ildə Qaralar kəndi erməni millətçiləri tərəfindən dağıdılmış, əhalinin böyük bir hissəsi qırılmış, sağ qalanlarının az bir qismi Naxçıvan və digər bölgələrə qovulmuşdur. O zamandan Qaralar kəndi ölü kənddir. Xarabalıqları Paşalı kəndinin yaxınlığında indi də qalmaqdadır.

Belə bir cəhəti qeyd etmək lazımdır ki, Qafqaz bölgəsində Qaralar adında çoxlu kənd vardır. XIX əsrdə Cənubi Qafqazda Qaralar adında 10 kəndin olduğu göstərilir.[1] Vedi rayonunda, Zəngəzurda (Sisyan rayonunda) hal-hazırda Qaralar adında kənd vardır. Azərbaycan Respublikasının İmişli və Sabirabad rayonlarında da Qaralar kəndləri mövcuddur. Qaralar kənd adının formalaşmasına gəldikdə, fikrimizcə bu orta əsrlərdə Anadoluda yaşamış Yeryur tayfası birləşmələrindən olan Qaralar tayfasının adını əks etdirir.

Azərbaycan Respublikasının İmişli və Sabirabad rayonlarında da Qaralar kəndləri mövcuddur. Qaralar kənd adının formalaşmasına gəldikdə, fikrimizcə bu orta əsrlərdə Anadoluda yaşamış Yeryur tayfası birləşmələrindən olan Qaralar tayfasının adını əks etdirir.

Əsrin əvvəllərində bir neçə dəfə qaçqın düşən əhali 1949-cu ildə bir də Azərbaycanın Yevlax və Tərtər rayonlarına "köçürmə" adı ilə sürgün edilmişlər. Qubadlı rayonunun Qaralar kəndində yaşayanlar da yuxarıda göstərilən kənddən gəlmədirlər.

## QARAVƏNG

Qaravəng qədim Oğuz yurdu olan Dərələyəzdə kənd adıdır və rayon mərkəzinin (Keşkəndin – Yeğeqnadzorun) yaxınlığındadır.

Bu kənddə bütün tarix boyu azərbaycanlılar yaşamışlar. Tarixi sənədlərdən, mənbələrdən və statistik məlumatlardan məlum olur ki, bu kənddə 1831-ci ildə 80 nəfər, 1873-cü ildə 187 nəfər, 1886-cı ildə 205 nəfər, 1997-ci ildə 260 nəfər, 1904-cü ildə 414, 1914-cü ildə 455 nəfər, 1916-cı ildə 300 nəfər azərbaycanlı yaşamışdır.[2]

----------------------

Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1053; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 342; İstoriçeskaə Qeoqrafiə Zapadnoqo Azerbaydjana, Baku, 1998, səh.114; H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 246.

1. B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. 1998. Bakı, səh.186; Əziz Ələkbərli. Qərbi Azərbaycan. 1-ci cild. Vedibasar mahalı, Bakı, 2000, səh.250. B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin lüğəti. Bakı, 1998, s.196.

2. Статистическое описание Нахичеванской провинции СПб, 1833, стр.172-173; И.Шопен. Исторические памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 615-616; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1016; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 92; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 355,

1918-ci ildə erməni daşnakları bu kəndin əhalisinin çoxunu qırmış, sağ qalanlar isə Naxçıvana, Xocalıya, Gəncəyə və bu kimi bir çox yerlərə gedib orada məskunlaşmışlar.

1922-ci ildə yalnız 66 nəfər yenidən Qaravəngə qayıtmışdır. Lakin ermənilər onların bu kəndi bərpa etməsinə imkan verməmiş, kənd xarabalığa çevrilmişdir.[1] Həmin 66 nəfər, əsasən, bu rayondakı Qabaxlı və Kotanlı kəndlərində məskunlaşmışlar. Vaxtı ilə Azərbaycan baş prokurorunun müavini işləyən, uzun illər Bakı Dövlət Universitetinin partkomu olan Əjdər İbrahimov həmin Qaravəng kəndindəndir.

Qaravəngli Əjdər İbrahimovun atası vaxtilə inqilabçı olmuş, Qaravəngdən gedərək Tiflisdə yaşamış, orada evlənmişdir. Əjdərin anası Zöhrə xanım tez rəhmətə getdiyindən onu nənəsi Şəkər arvad saxlamışdır. Əjdərin İslam adında qardaşı Bakı Dövlət Universitetində tərcüməçi işləmişdir. Qohumları Gəray Kotanlıda kolxoz və sovet sədri, Sevindik isə Məmədrza kəndində kolxoz sədri, Kotanlıda sovet sədri işləmişdir. Belə bir cəhəti də qeyd etmək lazımdır ki, Əjdər İbrahimov hələ tələbə ikən Mircəfər Bağırov ona Abşeronda prokurorluq işini tapşırmışdır.

Tarixi mənbələrdə göstərilir ki, 1590-cı ildə bu kəndin gəliri 1.661 ağça, 1727-ci ildə 2.661 ağça təşkil edib.[2]

Qaravəng adlanan bu kənddə böyük bir vəng, qədim Alban abidəsi vardır. Bu kənd elə həmin əzəmətli abidənin, vəngin adı ilə adlanmışdır. Ermənilər bu abidə haqqında məlumat verərkən bir çox səhvlərə, saxtakarlığa yol vermiş, Alban abidəsini öz adlarına çıxmağa çalışmışlar.[3]

Məlum olduğu kimi, qara sözü türk dillərində, o cümlədən Azərbaycan dilində iki mənada işlənir:

a) böyük, iri, yekə, qüvvətli, əzəmətli mənasında: Qarabağ-Böyükbağ, Qarayazı-Böyükçöl (yazı türk dillərində çöl mənasında işlənmişdir), Qara təhlə (Böyük təhlə), Qaraqoyunlu (Böyük, qüvvətli qoyunlu), Qarasaqlar (Böyüksaqlar, Sak tayfası), Qara dəniz (Böyük dəniz) və s.

b) rəng mənasında: qara qələm, qara torpaq, qaraqaş, qaragöz və s.

Qaravəng toponimində işlənən qara sözü rəng mənasında deyil, böyük, əzəmətli, yekə mənasında işlənmişdir.

Vəng ismi türk dillərinə məxsus bir sözdür. Bu haqda qədim türk dillərinə məxsus lüğətdə geniş şəkildə məlumat verilmişdir.[4]

Qeyd etmək lazımdır ki, "türk dillərinin qədim lüğəti"ni dünyanın məşhur türkoloqları tərtib etmişlər. Onlar bu lüğəti tərtib edərkən planetin məşhur

---

1. Bax: Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, s.355.

2. Ziya Bünyadov və Hüsaməddin Məmmədov.İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, s.60. Z.Bünyadov və H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh.36.

3. Mirzəyev H. Dərələyəz mahalında olan Qaravəng, Qoşavəng, Şadıvəng, Güneyvəng, Qoduxvəng toponimləri haqqında, Pedaqoji universitetin xəbərləri, humanitar elmlər seriyası, № 1, Bakı, 1998, s. 43-48; Mirzəyev H. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz (monoqrafiya), Bakı, 1997, səh. 209-210.

4. Древнетюркский словарь. Ленинград. 1969, стр.94-95, 341-342.

dilçilərinin, tarixçilərinin, etnoqraflarının isbata yetirdikləri fikirlərə, tarixi mənbələrə və faktlara əsaslanmışlar.[1]

Bəzi dilçilər, o cümlədən T.Əhmədov yanlış olaraq vəng sözünü erməni dilinə mənsub söz hesab edir.[2]

Ermənilər vəng sözünü "vank" formasında yazır və belə də tələffüz edirlər. Bunun başlıca səbəbi erməni dilində "ə" saitinin olmaması, "ə" saitinin əvəzinə "a" saitinin işlənməsidir.

Məncə, dilçilərimizin bu səhvi onların erməni dilini, erməni əlifbasını və erməni dilinin xüsusiyyətlərini bilməməsindən irəli gəlmişdir. Halbuki vəng sözü türk dillərinə məxsusdur. Bu söz türk dillərinin qədim dövrlərində bengü, benigü, benü, mengü, menü formalarında olmuş və bu abidə, daşdan yazılı abidə, daimi abidə, tükənməyən abidə, möhkəm abidə və s. bu kimi mənalarda işlənmişdir.[3]

İllər keçdikcə sözün sonundakı "ü" saiti düşmüş, "e" saitini "ə", "b" və "m" samitlərini də “v“ samiti əvəz etmiş və bu söz “vəng“ şəklində formalaşmışdır. Azərbaycan dilinin inkişaf tarixindən məlumdur ki, “ə“ saiti “e“ saitini (ev-əv), “b“ samiti “m“ samitini (bən-mən, binmək-minmək, buna-muna), "v" də həm "b", həm də "m" samitini əvəz edə bilir. Bunun başlıca səbəbi odur ki, danışıq prosesində "m" samiti "b" samitinə, "v" samiti də "m" samitinə nisbətən asan tələffüz olunur. Bu da öz növbəsində nitqin axıcı olmasına, vaxtın qənaət edilməsinə imkan yaradır. Deməli, haqqında söhbət gedən sözün bugünkü formada işlənməsi qanunauyğun haldır.

Dərələyəzdə olan Qaravəng, Qoşavəng, Şadıvəng, Güneyvəng toponimlərinin birinci tərəfindəki qara, qoşa, şadı, güney sözlərinə gəldikdə, bunların türk dillərinə, o cümlədən Azərbaycan dilinə məxsus olması da şübhəsizdir.

Bu toponimlər haqqında qısa da olsa, məlumat vermək elmimiz, tariximiz üçün çox faydalıdır. Yəqin ki, gələcək nəsillərimiz bu məsələlərlə maraqlanacaq və doğma yurdlarımızı və oradakı mənəvi sərvətlərimizi özümüzə qaytaracaqdır.

Qaravəngdə "Tanaati" adlı məşhur bir abidə vardır. Kamil Dərələyəzli yazır: "Tanaati abidəsi Qaravəng kəndində VII əsrə istinad edir. 1280-ci illərdə Sünik knyazı tərəfindən abidə yenidən bərpa edilmişdir.

Tanaati abidəsi Azərbaycanın Ağdərə bölgəsində olan Qandzasar abidəsinin kompleksinə oxşayır. Abidə Şərq ölkələrinin dini binalarının günbəzli kompozisiyası ilə eynidir. 12 tərəfli barabanın piramida şəkilli örtüyünün səthi qırışlı bucaqlar və tidlər formasında tamamlanmışdır. Günbəzin girəcəyinin üst hissəsində qartal fiquru, qartaldan bir metr yuxarıda isə at fiquru həkk olunmuşdur.

Ədəbiyyatlarda Tanaati adını daşıyan abidənin adı qocaların və yerli adamların dilində "Tənha at" abidəsi kimi tanınır. Tənha at – "Tanaati" adını daşımışdır. Dərələyəzdə olan tarix və mədəniyyət abidələri haqqında yazmaqla

----------------------

1. Bax: Yenə orada, səh.3-38, 38-676.
2. Tofiq Əhmədov. Azərbaycan toponimiyasının əsasları, Bakı, 1991, səh.71.
3. Древнетюркский словарь, Ленинград, 1969, стр.94-95, 341-342.

qurtarmaz. Dərələyəz mahalında indiki Yeğeqnadzor və Əzizbəyov bölgələrində olan abidələrin heç biri Azərbaycan Respublikasının mütəxəssisləri tərəfindən öyrənilməyib. Dərələyəz mahalında yaşayan soydaşlarımıza qarşı Azərbaycan rəhbərliyinin göstərdikləri laqeyd münasibətdən məharətlə istifadə edən nankor qonşularımız Türk-Oğuz tayfasına mənsub olan abidələrin 70%-dən çoxunu "özününküləşdirməyə“ qadir oldular".[1]



Tarixi mənbələrdən də məlum olur ki, Qaravəng qədim dövrlərdə də azərbaycanlı kəndi olmuşdur. Bunun aydın olması üçün 1727-ci ilə aid olan bir arxiv sənədini oxucuların nəzərinə çatdırmaq çox faydalıdır.

**Dərələyəz nahiyəsinə tabe olan Qaravəng kəndi**

Qubadəli Vəlixan oğlu – bennak; Nuru Pirverdi oğlu – bennak; Gurəli Rəsul oğlu – subay; Gəncimalı Zinətəli oğlu – bennak;

Yarım çift – 1
Bennak – 3
Subay –1
Gəlir:
Bennak vergisi – 54 (ağça)
Subay vergisi – 6 (ağça)
Yarım (çift) üçün vergi – 25 (ağça)
Buğda – 11 kile – dəyəri 330 (ağça)
Arpa – 3 kile – dəyəri 60 (ağça)
Kərdiyər – 2 kile – dəyəri 42 (ağça)
Pərinc – 2 kile – dəyəri 42 (ağça)
Sumax – 1 kile – dəyəri 15
Mərcimək – 2 kile – dəyəri 36 (ağça)
Kərəsnə – 2 kile – dəyəri 30 (ağça)
Kəlül – 2 kile – dəyəri 36 (ağça)
Adəti-ağnam – 111 (ağça)
Ağıl vergisi – 200 (ağça)

Başqa yerdən gəlib bu kəndin torpağından əkib-becərmə işləri üçün istifadə edənlərdən alınan vergi – 85 (ağça)

Dönüm vergisi – 200 (ağça)

-----------------

1. Bax: Kamil Dərələyəzli. Dərələyəz od içində. Bakı, 2001, səh.115-116.



aravəng kəndi

ığlu – bennak; Gurəli Rəsul

ecərmə işləri üçün istifadə

1, səh.115-116.

Dəştıbani vergisi və əkin yeri üçün tapu – 310 (ağça)
Bakirə qız və dul qadın üçün gəlir vergisi – 90 (ağça)
Badi-hava – 1.000 (ağça)
Yekun – 2.661 (ağça)[1]

## QAŞQA

Qaşqa kəndi Dərələyəzin Keşkənd rayonu ərazisində, Vedi rayonu ilə həmsərhəddə yerləşir. 1831-ci il əhalinin siyahıya alınması dövründə bu kənd Dərələyəzə aid edilmişdir. Vaxtilə Qafqazı qarış-qarış gəzən İ.Şopen 1852-ci ildə çap etdirdiyi kitabında yazır ki, 1831-ci ildə əhali siyahıya alınarkən bu kənddə 8 nəfər (5 kişi, 3 qadın) yaşamışdır.[2] Çox məhsuldar torpağı olan bu kəndin əhalisi 1828-30-cu illərdə ermənilər tərəfindən sıxışdırılıb çıxarılmış və 1840-cı illərdə bu kənddə ermənilər yerləşdirilmişdir.

Qaşqa sözünün mənşəyinə gəldikdə türk xalqlarına məxsus «Qaşqay» tayfasının adı ilə bağlıdır. Erməni şovinistləri bu qədim türk tayfasının adını itirmək üçün 10 sentyabr 1948-ci ildə kəndin adını rəsmi şəkildə dəyişib «Vartaşart» (Çiçəkli yer) qoymuşdur.

## QAYALI

Qayalı Dərələyəz mahalının Əzizbəyov rayonunda kənd adıdır. Tarixən azərbaycanlı kəndi olmuşdur.[3] Tarixi və statistik mənbələrin verdiyi məlumata görə, qayalı kəndində 1831-ci ildə 40 nəfər, 1873-cü ildə 130 nəfər, 1886-cı ildə 174 nəfər, 1897-ci ildə 223 nəfər, 1904-cü ildə 240 nəfər, 1914-cü ildə 264 nəfər, 1916-cı ildə 292 nəfər azərbaycanlı olmuşdur.[4]

Tarixi mənbələrdən məlum olur ki, 1590-cı və 1727-ci illərdə Qayalı kəndinin 3.037 ağça gəliri olmuşdur.[5]

---------------------

1. Ətraflı məlumat almaq üçün bax: Ziya Bünyadov və Hüsaməddin Məmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh. 320-321.

2. И.Шопен. Исторический памятник состояния Армянякой области в эпохи ее присоединения к российсокй империи, Санктпетербург, 1952, стр.615-618; İ.Bayramov. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı, 2002, səh.214.

3. Mirzəyev H. Dərələyəzdəki Qaralar, Qayalı, Arınc kəndləri haqqında, Filologiya məsələlərinə dair tematik toplu, № 7 (19), Bakı, 2001, s.75-77.

4. Статистическое описание Нахичеванской провинции, СПБ, 1833, стр. 170; И.Шопен. Исторические памятники состояние армянской области в эпоху ее присоединении к Российской империи, СПб, 1852, стр. 619; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, № 991; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 342, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 246.

5. Z.Bünyadov, H.Məmmədov. İrəvan əyalətinin icmal dəftəri, Bakı, 1996,səh.60; Z.Bünyadov, H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri, Bakı, 1997, səh.36, 318-319.

1918-ci ildə bu kənd ermənilər tərəfindən dağıdılmış, əhalisinin bir hissəsi qırılmış, salamat qalanları isə çətinliklə Naxçıvana qaçmışdır. 1922-ci ildə bu kəndin əhalisindən yalnız 19 nəfəri geri qayıda bilmişdir. Lakin ermənilər onları burada yaşamağa qoymamış və kəndi bərpa etməyə imkan verməmişlər. Bir müddətdən sonra isə ermənilər kəndi ləğv etmişlər. Hal-hazırda kənddə yalnız evlərin özülləri və qəbiristanlığın qalıqları qalmışdır.

Qayalı toponiminin mənşəyinə gəldikdə demək lazımdır ki, bu söz sırf türk sözüdür. Qayalı toponimi qaya, daş anlayışı ilə bağlı deyil. Bu, türk ellərində geniş yayılan və M.Kaşğarinin lüğətində böyük türk tayfası kimi qeydə alınan "Qayı" tayfasının adı ilə bağlıdır. Əslində bu, Qayalı yox, Qayılı mənasında başa düşülməlidir. Oxucuların nəzərinə çatdırım ki, bu tayfanın adı ilə bağlı Türkiyədə çoxlu kənd adları vardır.[1]

## QƏNDBÖLƏN

Məlum olduğu kimi, toponimlərin yaranmasında tarixi hadisələrin də rolu vardır. Biz burada Qaçaq Nəbinin Dərələyəz mahalındakı bir döyüşünü və bununla bağlı yaranan "Nəbi qəndbölən", "Qəndbölən" toponiminin tarixi haqqında qısa şəkildə məlumat verməklə kifayətlənəcəyik.

"Nəbi qənd bölən" - "Qənd bölən" adlı yer Dərələyəz mahalında, indiki Ermənistanın Yexeqnadzor rayonunun tarixi abidələrlə dolu olan Ələyəz kəndi ərazisində yerləşir. Bu toponim Qaçaq Nəbinin Dərələyəz mahalından keçib Araza doğru gedərkən olmuş bu hadisə ilə bağlı əmələ gəlmişdir.[2]

Qovuşuqla Ələyəz kəndinin arasında Güneyvəng adlanan kənddə Həcəri aparan karvan əsas yoldan çıxıb dağın döşü ilə, qoz (cəviz) ağaclarının içərisi, sıldırım qayalarının dibi ilə Ələyəz kəndinin ərazisinə çatır və burada bir yastanada dayanıb Nəbigili gözləyirlər. Nəbi kazakları geri qayıtmağa məcbur edir və ovçu İsmayıl Nəbinin döyüşən dəstəsini Abduləsədlə vədələşdiyi yerə, Həcərin dayandığı yerə gətirir.

Nəbi burada Həcərlə birlikdə bir böyük xurcun qəndi bölüb bunları müşayiət edən adamlara paylayır. "Nəbi qənd bölən", "Qənd bölən" toponimi belə yaranır. Bu toponim və bunun əhatə etdiyi ərazi Dərələyəz mahalında yaşamış uşaqların da dilində əzbərdir.

-------------------

1. Ətraflı məlumat almaq üçün bax: Faruq Sümər. Oğuznamə. Bakı, 1992. Səh. 402-422; H.Mirzəyev. "Ayı səsi (Qızılgül) kəndi və bu kəndin ərazisində olan onomastik vahidlər. - Filologiya məsələlərinə dair tematik toplu. № 1,2. Bakı, 2001. səh. 76-86.

2. Ətraflı məlumat almaq üçün bax: Həsən Mirzəyev. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz, Bakı, 1997, səh. 227-230; Həsən Mirzəyev Qaçaq Nəbi ilə bağlı yaranmış "Qəndbölən" toponimi haqqında. Azərbaycan onomastikasının problemləri, III Bakı, 1990, səh. 300-303; Həsən Mirzəyev Qəndbölən toponimi və Qaçaq Nəbinin Dərələyəzdəki döyüşü, "Zəngəzur" qəzeti, 24 noyabr, 1999, № 10.

## QILICLI

Qılıclı Dərələyəz mahalının Əzizbəyov rayonunda kənd adıdır. Etnik tərkibi etibarilə hər zaman azərbaycanlı kəndi olmuşdur. Tarixi və statistik mənbələrdən məlum olur ki, Qılıclı kəndində 1873-cü ildə 52 nəfər, 1886-cı ildə 68 nəfər, 1897-ci ildə 117 nəfər, 1904-cü ildə 117 nəfər, 1914-cü ildə 128 nəfər, 1916-cı ildə 127 nəfər azərbaycanlı yaşamışdır.[1]

1918-ci ilin məlum hadisələri zamanı Qılıclı kəndi də dağılaraq xarabalığa çevrilmişdir. Xarabalıqları Terp kəndinin yaxınlığında qalmaqdadır. Ermənilər Qılıclı kəndini dağıtdıqdan sonra əhali Naxçıvana və Azərbaycanın digər şəhərlərinə, kəndlərinə dağıldılar.

Bu toponimin mənşəyinə gəldikdə demək lazımdır ki, bu əsl Azərbaycan sözüdür. Qılınc tayfasının adı ilə bağlıdır. Qılıclı adında tayfa XIX əsrin əvvəllərində Türkiyə ərazisində də olmuşdur. Hətta Qarakalpaklarda "kılıncli" adında tayfa vardır. Bundan başqa, Azərbaycanın Şirvan əyalətində də Qılıclı adında tayfa olmuşdur. Zəngəzur mahalında (Sisyan rayonunda), Bərdədə, Kəlbəcərdə Qılıclı adında kəndlər var. Bir sözlə, Qılıclı adında kəndin arealı çox böyükdür.

## QISIR (QISIRXARABA)

Qısır (Qısırxaraba) Dərələyəz mahalının Əzizbəyov rayonunda azərbaycanlı kəndlərindəndir. Terp kəndinin yaxınlığında yerləşən bu kənddə tarixən azərbaycanlılar yaşamışlar.[2] Belə ki, tarixi və statistik mənbələrdən aldığımız məlumata əsasən, Qısır kəndində 1831-ci ildə 33 nəfər, 1873-cü ildə 201 nəfər, 1886-cı ildə 270 nəfər, 1897-ci ildə 136 nəfər, 1904-cü ildə 235 nəfər, 1914-cü ildə 258 nəfər, 1916-cı ildə 364 nəfər azərbaycanlı yaşamışdır.[3]

1918-ci ildə kənd erməni şovinistləri tərəfindən vəhşicəsinə dağıdılmış, əhali doğma ocağından didərgin salınmış, yalnız 1922-ci ildə bunlar kəndə qayıda bilmişlər. 1922-ci ildə kəndə qayıtmış əhalinin sayı 103 nəfər, 1931-ci ildə isə 108 nəfər olmuşdur. Lakin növbəti deportasiyalar prosesində buradakı əhali yenidən öz doğma yurdundan köçürülmüşdür.

---------------------

1. Bax: Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №992; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 88; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 342; H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 246.

2. Mirzəyev H. Dərələyəzin Qısır (Qısırxaraba), Arınc, Axtacul kəndləri, Filologiya məsələlərinə dair tematik toplu, № 7 (19), Bakı, 2001, s.58-59.

3. Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, № 993; Z.Korkodyan. Sovet Ermənistanın əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 342; Историческая география Западного Азербайджана, Баку, 1998, стр. 115; H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 246.

Qısır (Qısırxaraba) kəndinə həmin yerin coğrafi şəraitinə görə ad verilmişdir. Belə ki, Qısır dağ adlı yerdə qala xarabalıqları vardır və bu kəndin adı da Qısır dağ qala xarabalığının adından formalaşmışdır.

Qısır sözünün mənasına gəldikdə bu haqda 2 mülahizə yürütmək olar. Birinci mülahizəyə görə həmin dağın mühiti ilə buna qısır adı verilə bilər, yəni meşəsi, bitkisi, az olan yer mənasında.

İkinci mülahizəyə görə isə qısır sözündəki qıs hissəsi oğuz, kas, xəz mənalarında tayfa adı ilə bağlı söz də ola bilər. Vaxtın azlığını nəzərə alaraq bu sözün etimologiyasının izahını gələcək nəslin öhdəsinə buraxırıq.

Belə bir cəhəti də qeyd edim ki, İrəvan quberniyasının Novobayazid qəzasında və Gəncə quberniyasının Zəngəzur (Sisyan) mahalında Qısır dağ adında toponim vardır.

## QIŞDAQ//QIŞLAQ

Dərələyəzin Yeğeqnadzor (Keşkənd) rayonunda olan azərbaycanlı kəndlərindən biri də Qışdaqdır. Qışdaq kəndi Hors ilə Sallı kəndlərinin arasında yerləşir. Statistik və tarixi mənbələrdən məlum olur ki, Qışlaq kəndində 1831-ci ildə 36 nəfər, 1873-cü ildə 80 nəfər, 1886-cı ildə 114 nəfər, 1897-ci ildə 133 nəfər, 1904-cü ildə 135 nəfər, 1914-cü ildə 146 nəfər, 1916-cı ildə 273 nəfər azərbaycanlı yaşamışdır.[1]

1918-ci ildə başqa kəndlər kimi Qışdaq kəndinin də əhalisini ermənilər qırdı, kəndi dağıtdılar. Ölümün pəncəsindən qurtaran tək-tək adamlar isə qaçıb Azərbaycanın başqa yerlərində məskunlaşdılar.1922-ci ildə kəndə cəmi 42 nəfər azərbaycanlı qayıtmışdır. Kənd əhalisinin sayı 1926-cı ildə 37 nəfər, 1931-ci ildə isə 45 nəfər olmuşdur. Bundan sonrakı dövrlərdə əhalinin sayı xeyli artmışdır.

1949-cu ildə bu kəndin əhalisini də ermənilər deportasiya etmiş və həmin vaxtdan kənd xaraba qalmışdır.

Bu kəndin əhalisi Azərbaycanın Saatlı rayonuna köçürülmüşdür. 1953-cü ildən sonra onlar öz kəndlərinə qayıdıb kəndlərini bərpa edib yaşamaq istəsələr də rayon hökuməti onları orada yaşamağa və kəndi bərpa etməyə qoymamışdır. Bu kəndin sakini Elyaz (İlyas) vaxtilə hüquqa aid kursu qurtarmış və əslən Dərələyəzin Qaravəng kəndindən olan, sonralar Azərbaycan respublika prokurorunun müavini, BDU-nun partiya komitəsinin sədri işləyən Əjdər İbrahimovun məsləhəti ilə rayona qayıtmış, Keşkənddə polis rəisi müavini vəzifəsində işləmişdir. Bu kənddə də bir sıra adamlar yetişmişdir ki, onlar kolxoz

---

1. И.Шопен. Исторические памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 615-616; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №977; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 92; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 356, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 245.

sədri, sovet sədri vəzifələrində işləmişlər. Buna Çərkəzi, Mədəti misal göstərmək olar. Lakin deportasiya dövründə Qışdaq kənd sakini Allahverdi kişi Azərbaycana köçməkdən imtina etmiş, Amağu kəndində məskunlaşmışdır.

Qışdaq (Qışlaq) kəndinin qədim adı "Şah gəldi qışlağı"[1] formasında olmuşdur. Nikolay hökumətinin 1886-cı ildə rus dilində verdiyi statistik məlumatda bu "Шах гелди кишляг" formasındadır.[2]

## QIZILQIŞLAQ

Dərələyəz mahalının Yeğeqnadzor (Keşişkənd) rayonunda azərbaycanlı kəndlərindən biri də Qızılqışlaq kəndidir.[3] Qızılqışlaq kəndində 1831-ci ildə 85 nəfər azərbaycanlı yaşamışdır. 1897-ci ildə isə kənddə cəmi 44 nəfər azərbaycanlı qalmışdır.[4] Hal-hazırda bu ölü kənddir. Qızılqışlaq kəndinin xarabalıqları Qoytul kəndinin yaxınlığında indi də qalmaqdadır, kəndə aid qəbiristanlığın izləri də qalmışdır.

Qeyd etmək lazımdır ki, 1828-ci ildən sonra bu kəndə xaricdən gələn ermənilər yerləşdirilmiş və bir müddət ermənilərlə azərbaycanlılar qarışıq yaşamışlar. Sonradan azərbaycanlılar buradan sıxışdırılıb çıxarılmışdır. Mən bu kəndi yaxşı tanıyıram. Bura Göyçə və Dərələyəzdən Şərura və İrəvana gedən magistral yolun üstündə Arpa çayının sahilində, Arpa, Ertiş kəndi ilə Qoytul kəndlərinin arasında olan məsafədə yerləşir. Çox mənzərəli bir yerdir. İndi ermənilər oradan bir istirahət zonası kimi istifadə edirlər. Burada çıxan bulağın üstündə istirahət üçün binalar da inşa olunmuşdur. Hətta Ermənistanda Sovet hakimiyyəti qurulan ilk illərdə Keşkənd rayonunun mərkəzini burada yerləşdirmək istəmişlər. Lakin buradakı torpaq sahəsinin azlığı və Arpa çayının selinin qorxusu erməniləri bu fikirdən daşındırmışdır.

Qızılqışlaq toponiminin formalaşmasına gəldikdə deməliyəm ki, qış mövsümündə qismən buradan uzaqolan kəndlərin qoyunları gətirilib burada saxlanılırdı. Başqa sözlə, buradan qışlaq yeri kimi istifadə olunurdu. Oxucuların nəzərinə çatdırım ki, bu yerin torpağı və daşı qırmızı rəngə çalır. Fikrimizcə, yerli əhali belə cəhətləri nəzərə alıb bu yerə Qızılqışlaq adı vermişlər. Qədim türklərdə qızıl sözü "qırmızı" mənasında işlənmişdir. Məsələn, Qızıl irmaq, Qızıl bayraq, Qızıl yara, Qızıl inək, Qızıl yel, Qızıl öküz, Qızıl alma, Qızılxaç və s.

-------------------

1. И.Шопен. Исторические памятники состояние армянской областе в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 615-616;

2. Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №977.

1. Mirzəyev H. Dərələyəzdəki Qızılqışlaq, Almalı kəndləri, Filologiya məsələlərinə dair tematik toplu, № 6 (18), Bakı, 2001, s.91-92.

2. Статистическое описание Нахичеванской провинции. Спб, 1833, стр.166; И.Шопен. Исторические памятники состояние армянской областе в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр.615; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh.92; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh.356.

# QODUXVƏNG//XIRDA VƏNG//GƏDİKVƏNG

Gədikvəng – (Qoduxvəng) – Dərələyəzdə kənd adıdır. Bu kənd dəniz səviyyəsindən 2200 metr yüksəklikdə yerləşir.[1]

Tarix boyu azərbaycanlılar yaşayan bu kənddə 1873-cü ildə 142 nəfər, 1886-cı ildə 201 nəfər, 1897-ci ildə 206, 1904-cı ildə 126, 1914-cü ildə 138, 1916-cı ildə 273 nəfər əhali olmuşdur.[2]



1918-ci ildə erməni qulduru Yaponun və Doluxanovun vəhşi dəstələri bu kəndi də dağıtmış, əhalisinin çox hissəsini qırmışlar. 1922-ci ildə cəmi 70 nəfər öz kəndinə qayıtmışdır. Bu kənddə 1931-ci ildə 171, 1959-cu ildə 313, 1970-ci ildə 396, 1979-cu ildə 537, 1988-ci ildə isə 600 nəfər əhali olmuşdur.[3]

1986-1987-ci illərdə ermənilər hiylə işlədib kənd camaatını qorxuya salmışlar ki, kəndin üstündəki dağ sürüşəcəkdir, tez olun köçün. Hətta kənddən xeyli aralı, kənd yerinə yaramayan bir yerdə ("Qızılqaya" ilə "Daşlı yoxuş" adlanan yerlərin arasında) taxtadan hazırlanan xeyli finski evlər də quraşdırdılar. Hətta ev sahiblərinin bəzisinə evdən çıxmaq üçün cüzi pul da verdilər. Lakin kənd camaatı ermənilərin bu hiyləsini başa düşüb kənddən çıxmadılar. 1988-ci ildə isə erməni daşnakları kənd əhalisini zorla öz doğma yurdundan qovub çıxartdılar.

Kənddə 8 illik məktəb, klub, kitabxana, tibb məntəqəsi fəaliyyət göstərirdi. 1988-ci ildə ermənilər kəndin əhalisini zorla öz doğma yurdundan qovub çıxartmışlar. İndi bu kəndin əhalisi, əsasən, Bakı, Sumqayıt, Xızı, Şəki və Şahbuzda məskunlaşmışdır.

Bu kəndin adı kəndin içərisində olan balaca bir vənglə bağlıdır. Mən bu vəngi dönə-dönə gəzmişəm. Vəngin ətrafına iri nəhəng daşlardan hasar çəkilmişdir. Nəməd adlı şəxsin həyəti ilə bitişikdir. Kənd bu vəngin adı ilə adlan-

--------------------

1. Mirzəyev H. Dərələyəz mahalında olan Qaravəng, Qoşavəng, Sadıvəng, Güneyvəng, Qoduxvəng toponimləri haqqında, Pedaqoji universitetin xəbərləri, humanitar elmlər seriyası, № 1, Bakı, 1998, s. 43-48; Mirzəyev H. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz (monoqrafiya), Bakı, 1997, səh. 212; Mirzəyev H. Dərələyəzdə Qoduxvəng kəndində olan onomastik vahidlər, Filologiya məsələlərinə dair tematik toplu, № 1-2, Bakı, 2001, s.38-44.

2. Статическое описание Нахичеванской провинции, СПб, 1833, стр.175. Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №973; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 92; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 361-362, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 245.

3. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. 1995, səh.361-362.

mışdır. Bəzi tədqiqatçılar kəndin adının Qotur vəng, bəzisi isə Gədikvəng olduğunu iddia edirlər. Lakin araşdırmalar və qədim yazılı mənbələr göstərir ki, bu kəndin əsl adı Qoduxvəng olmuşdur: Qoduq sözü burada kiçiklik mənasını bildirmişdir. Doğrudan da, qoduq sözü tarixən kiçik, xırda, balaca mənalarında işlənmişdir. Hətta 1833-cü ildə Naxçıvan xanlığı və ona daxil olan kəndlər haqqında məlumat verilən statistik mənbədə Qoduxvəng kəndi "Xırdavəng" adı altında verilir.[1]

Bu kənd həmişə azərbaycanlı kəndi olmuş və buradakı onomastik vahidlər əsasən aşağıdakılardır:

**Tayfa adları**

1. Durduxanlı tayfası
2. İmamqulular tayfası
3. Dilbarlar tayfası
4. Qəmbərlər tayfası
5. Təmolar tayfası
6. Kalbaqasımlar tayfası
7. İslamlar tayfası

**Şəxs adları**

1. Durduxanlı tayfasından olanlar: Abdüləli, Kərim, Vəli, Mehbalı, Firidun, Bəhman, Təvəkkül, Əli Katta, Əsgər, Bahadur, Cəmil...

2. İmamqulular tayfasından olanlar: İsax, Nəsib, Məhəmməd.

3. Təmolar[2] tayfasından olanlar: Zeynalabdın, atası Hümbət, Bayram kişi, Abdulla, atası Şəmməd, Həbib, atası Həmid; Əmir, atası Həsən; İbrahim, Kalba Əhməd, Kalba Hüseyn.

4. Kalbaqasımlar tayfasından olanlar: Kalba Qasım oğlu Ələkbər; Hüseyn, Abbas, Əsgər, Məhəmməd, Əli, Mehrac, Lətif.

5. İslamlar tayfasından olanlar: Əhəd, Həşim, Əli.

6. Dilbarlar tayfasından olanlar: Hüseyn, Əhəd.

**Məhəllə adları**

1. Durduxanlı məhəlləsi
2. Çökək məhəllə
3. Dilbarlılar məhəlləsi
4. Təmolar məhəlləsi

**Sərhədlər**

1. Qazaxlar yurdu
2. Pəri çınqılı
3. Ala göllər

--------------------

1. Вах: Статическое описание Нахичеванской провинции, Санкт-Петербург, 18 февраль, 1833, стр.176.

2. Təmonun (Teymurun) anası Kürd olub. Həney qarı. Buna əsaslanıb yanlış olaraq bəzi tarixi bilməyən adamlar deyir ki, Gədikvəngdə Təmolar tayfası kürddür.

4. Murad təpəsi
5. Qırxbulaq
6. Qızyetər qaçan
7. Canı
8. Gülüdüz
9. Murtuza yurdu
10. Şıxın gölü
11. Göyçə
12. Gözəldərə (Martuni)
13. Dikpilləkən

**Biçənək adları**

1. Qabaxlı biçənəyi
2. Bahadurun biçənəyi
3. Nəsibin quzeyi
4. Ələsgərölən biçənək
5. Şəmsəddin kişinin biçənəyi
6. Abbasalının biçənəyi
7. Qaranın biçənəyi
8. Qaradüşən qala biçənək
9. Mikayılın biçənəyi

**Qəbiristanlıq və pir yeri adları**

1. Gülüqəbri
2. Alban qəbiristanlığı
3. Çatırrıx qəbiristanlığı
4. Ocax-qaya piri

**Kövşən, əkin yerləri**

1. Bahadilin yeri
2. Cəlilin yeri
3. Nəsirin yeri
4. İbrahimin yeri
5. Gözəlin yeri
6. Şəmmədin yeri
7. Lələnin yerləri
8. Qasımın yeri
9. Bayramın yeri
10. İsağın yerləri
11. Əsgərin yeri
12. Temirin yeri
13. Yonca yerləri
14. Fərzalıların yeri
15. Mehbalının yeri
16. Lətifin yeri
17. Yadullahın yeri
18. Əlmərdanın yeri
19. Göl yeri
20. Səngəryeri
21. Dərə yeri
22. Aralıq yurdu (əkin yeri)
23. Yanığın başı
24. Almalı qayasının başı
25. Su tökülən
26. Qızıl qayanın boynu
27. Qancıq ölən
28. Qəcəl
29. Kələklinin dalı
30. Arxın altı
31. Şəmməd kişinin demisi
32. Qazandurmaz
33. Çala-çökəyin dalı
34. Çalın döşü
35. Qaraçı yurdun dəhnəsi
36. Gülü qəbrinin dalı
37. Çeyil
38. Ayrı durum
39. Çalın dəhnəsi
40. Dəhnə
41. Qısxancdı
42. Çay arxac
43. İsağın demləri
44. Noxud demisi
45. Firidunun demisi
46. Üsen kişinin demisi
47. Ələsgər ölən
48. Tap
49. Kələkli
50. Çala-çökəklər
51. Çala-çökəklərin altı
52. Daşdı yalın döşü
53. Duzdax
54. Arxac yeri
55. Qurbanölən qəyənin başı
56. Çatırrıx
57. Novruzun demisi
58. Yal demi



59. Səki daşı
60. Arxın dalı
61. Süddü bılağ
62. Çınqılın ba
63. Göl yeri
64. Çeyilin qıra
65. Dəvə ölən
66. Atqıçı
67. Hünbətin p
68. Hacıcəfər p
69. Məhəmmə
70. Firudin pay
71. Kalbahüsey
72. Kalafa
73. İstisuyun g
74. Qüçüy dən
75. Qara düşən
76. Bərk dərən
77. Nəsibin qu
78. Salmanın
79. Gölün qaşı
80. At uçan
81. Eşək uçan
82. Sutökülən
83. Gölün çala
84. Kəndin qa
85. Bahadurun
86. Həsən qay
87. Daşdıyal
88. Yastana ç
89. Səfərin ka
90. Daşlıyol
91. Çınqılın b
92. Qasım ölə
93. Çal (yer a
94. Abduləlin
95. Güllü qəb
96. Əmrahın
97. Qısxanclı
98. Şammədin
99. Mağal
100. Qazonnu

59. Səki daşı
60. Arxın dalı
61. Süddü bılağın başı
62. Çınqılın başı
63. Göl yeri
64. Çeyilin qırağı
65. Dəvə ölən
66. Atqıçı
67. Hünbətin payı
68. Hacıcəfər payı
69. Məhəmmədəli payı
70. Firudin payı
71. Kalbahüseynin dolayısı
72. Kalafa
73. İstisuyun güneyi
74. Qüçüy dəməyi
75. Qara düşən yurd
76. Bərk dərənin başı
77. Nəsibin quzeyi
78. Salmanın çalası
79. Gölün qaşı
80. At uçan
81. Eşək uçan
82. Sutökülən
83. Gölün çalası
84. Kəndin qabağı
85. Bahadurun quzeyi
86. Həsən qayanın başı
87. Daşdıyal
88. Yastana çınqıllıq
89. Səfərin kalafası
90. Daşlıyol
91. Çınqılın başı
92. Qasım ölən dərənin kövşəni
93. Çal (yer adı)
94. Abduləlinin çeyili
95. Güllü qəbrinin çeyili
96. Əmrahın çeyili
97. Qısxanclının çeyili
98. Şamməadin gözəsi
99. Mağal
100. Qazonnu yer

**Meşə adları**

1. Buzxana meşəsi
2. Almalı meşəsi
3. Canı meşəsi
4. Yanığın meşəsi
5. Sallı dərənin meşəsi
6. At uçan meşə
7. Sutökülən meşə

**Dərə adları**

1. Dar dərə
2. Qara düşənin dərəsi
3. Hacı Əmirastanın dərəsi
4. Çala yurt dərəsi
5. Ağ dərə
6. Sərt dərə
7. İşkə dərə
8. Dik daşın dərəsi
9. Duzdağın dərəsi
10. İsağın dərəsi
11. Süddü bulağın dərəsi
12. İstisuyun dərəsi
13. Bərk dərə
14. Çətin dərə
15. Soğannı dərə
16. Dik daşın dərəsi
17. Qara daşın dərəsi
18. Yoğunsuyun dərəsi
19. Qısxanclının dərəsi
20. Sallı dərə
21. Qızıl qayanın dərəsi
22. Ələsgərölən dərə
23. Qasımölən dərə
24. Ağ yarğan
25. İstisuyun yarğanı
26. Bərk dərənin yarğanı

**Yurd və binə adları**

1. Qurdqulaq yurdu
2. Aralıx yurdu
3. Qaraçı yurdu
4. Hacı Nağının yurdu
5. Çala yurd
6. Taxta yurd

7. Köhnə yurd
8. Məzrənin yurdu
9. Qısxancdı yurd
10. Həmiddüşən yurd
11. Nadirdüşən yurd
12. Xəlildüşən yurd
13. Təhlədüşən yurd
14. Çınqıllı yurd
15. Musadüşən yurd
16. Abbaslının binəsi
17. Soyuqbulaq yurdu
18. Ağamalılar düşən yurd
19. Haxverdidüşən yurd

**Təpə, qaya, kaha, çınqıl adları**

1. Daşdı yalın təpəsi
2. Həsənin qayası
3. Babanın qayası
4. Göyüşün kahası
5. Keçəl təpə
6. Sarıkələk
7. Qızıl qaya
8. Südlü bulağın kahası
9. Yanıq
10. Dikdaş
11. Qara daş
12. Seyidin qayası
13. Şəpələk ölən
14. Ağ qaya
15. Qurban ölən qaya
16. Çalın qayası
17. Qatar qaya
18. Almalı qayası
19. Qaçaq qayası (Bərkdərədəki)
20. Şiş qaya
21. Salın qaya
22. Yanığın qayası
23. Duzdağ
24. Kəmənd qaya
25. Ocaq qaya (ziyarətgah)
26. Vers dağı

**Yol, körpü adları**

1. Ağ yol
2. Xırda yol
3. Orta yol
4. Əyri yol
5. Qarabağlı körpüsü (körpü bütün daşdan salınmışdır)
6. At uçan yol
7. Canı yolu
8. Qızılqaya yolu
9. Soğanlı yolu
10. Taxtayurd yolu
11. İstisu yolu

**Bulaq, çay, göl adları**

1. Kərimin bulağı
2. Süddü bulax
3. Ləvərə bulağı
4. Gur bulax
5. Qazdı bulaq
6. Qotur su
7. Turş su
8. Çala yurdun bulağı
9. Astan bulağı
10. Çınqıllı bulaq
11. Yeddi bulax
12. İsti su (yerdən qaynar çıxır, Kəlbəcər isti suyunun bir qoludur)
13. Quzeyin bulağı
14. Daşdı bulax
15. Arzunun bulağı
16. Soyux bulax
17. Qazının bulağı
18. Sallı bulaq
19. Qaynar bulaq
20. Güney bulaq
21. Salmanın bulağı
22. Arzuman bulağı
23. Təhnəli bulaq
24. Yeddibulaqlar
25. Oba çayı
26. Xanımın çayı
27. Bərkdərənin çayı
28. Soğanlı çayı
29. Ördək gölü

30. Cahangirin gölü
31. Məşədi Hüseynalının gölü
32. Nəbinin gölü
33. Çala göl
34. Əyri yolun gölü
35. Soğanlı gölü
36. Qara düşəndəki qazlı bulaq

Dəniz səviyyəsindən 2200 metr yüksəklikdə olan kənddə 8 illik məktəb, klub, kitabxana, tibb məntəqəsi tikilib istifadəyə verilmişdir.

**1937-ci ildə Qoduxvəngdən olan repressiya qurbanları**

I. Məmmədov Bahadil Hüseynalı oğlu-qayıtmayıb

**Qoduxvəng kəndindən 1941-1945-ci il Böyük Vətən müharibəsinə gedənlər**

**a) qayıtmayanlar**

1. Qasımov Mirzə Hüseyn oğlu
2. Qasımov Məşədi Əli oğlu
3. Bəşirov Lətif Bəşir oğlu
4. Qənbərov Savalan Salman oğlu
5. Məmmədov Məhəmməd Bahadır oğlu
6. Hüseynov Cəmil Həsən oğlu
7. Hüseynov Musa Həsən oğlu
8. Hüseynov Hüseynalı Həbib oğlu
9. Əliyev Cavad Kərim oğlu
10. Əliyev Bəhlul Kərim oğlu
11. Əliyev Fərman Hüseyn oğlu
12. Əliyev Məhəmmədəli İbrahim oğlu
13. Əliyev Əmrah İbrahim oğlu
14. İslamov Əli Hüseyn oğlu
15. İslamov Fərman Hüseyn oğlu
16. İslamov Ələddin Həşim oğlu
17. Təmoyev Əsədulla Şahməmməd oğlu
18. Təmoyev Cəfər Şahməmməd oğlu
19. Quliyev Yadulla Hüseynalı oğlu
20. Həsənov Həbib Hüseyn oğlu
21. Həsənov Hüseyn Həsən oğlu
22. Qasımov Salman Həsən oğlu
23. Hüseynov İsmayıl Həsən oğlu
24. Hüseynov Teymur Həsən oğlu
25. Hüseynov Həsənalı Əli oğlu

**b) qayıdanlar**
26. Əliyev Qəşəm Firidun oğlu
27. Təmoyev Abdulla Şahməmməd oğlu
28. Həsənov İsax Hüseyn oğlu
29. Hüseynov Həsən Cavad oğlu
30. Hüseynov Zeynalabdun Hümmət oğlu

**Qarabağ döyüşlərinin iştirakçıları**
1. Hüseynov Mehrac Zülal oğlu
2. Hüseynov Anar Səyyub oğlu
3. Həsənov Mahmud Vəli oğlu
4. Həsənov İbrahim Məmməd oğlu
5. Hüseynov Arif Rəşid oğlu
6. Babayev Həsən Abbasəli oğlu

**İnformatorlar:** 1. Əliyev İsmayıl Hüseyn oğlu – 1924-cü il təvəllüdlü Gədikvəng kəndində doğulub boya-başa çatmış, 20 il bu kənddə briqadir, kolxoz və sovet sədri işləmişdir. 1988-ci ildə deportasiya olunmuş, hal-hazırda Xızı rayonunun Fındıqlı kəndində yaşayır. 2. Məmmədov Namət (Nemət) Bahadur oğlu – 1928-ci ildə bu kənddə doğulub, 1987-ci ilə qədər orada yaşayıb. Hal-hazırda Abşeron rayonunun Mehdiabad qəsəbəsində yaşayır. 3. Əliyev Məhəmmədəli Bəhlul oğlu 1942-ci ildə Gədikvəng kəndində anadan olmuş, həmin kənddə boya-başa çatmış, kənddəki 8 illik məktəbin direktoru vəzifəsində 20 ildən artıq işləmişdir. Hal-hazırda Bakı şəhərində Məmməd Əmin Rəsulzadə qəsəbəsində (Xutor) yaşayır və Azərbaycan Beynəlxalq Universitetində işləyir. 4. Məmmədov Əli Məhəmməd oğlu 1942-ci ildə Gədikvəngdə doğulmuş, 1987-ci ilə qədər orada yaşamışdır. Hal-hazırda Rəsulzadə qəsəbəsində yaşayır. 5. Hüseynov Fərhad Mehralı oğlu 1927-ci ildə anadan olmuş, uzun illər bu kənddə hesabdar vəzifəsində çalışmış, son dövrlərdə Romana, Mehdiabadda yaşamış, 2001-ci ildə vəfat etmişdir. 6. Özüm (Həsən Mirzəyev).

## QOVUŞUQ//QAVUŞUQ//QAVIŞIQ

Qovuşuq Keşkənd (Yeğeqnadzor) rayonunda azərbaycanlı kəndidir və bu kənddə həmişə azərbaycanlılar yaşamışdır. Azərbaycanlı kəndləri içərisində mərkəz kəndlərdən biridir. Kəndin özü dəniz səviyyəsindən 1792 m hündürlükdədir.[1] Lakin torpaqlarının çoxu dəniz səviyyəsindən 200 m yüksəkdə yerləşir. Arpa çayının əsas qolunun biri bu kəndin içindən keçir. Ümumiyyətlə, bu kənddə ətrafdan gələn 4 çay qovuşur, ətraf kəndlərə gedən yolun dördü də buradan keçir. Məhz bu relyefə görə kəndə Qovuşuq adı verilmişdir.

Bu kənddə 1831-ci ildə 96 nəfər, 1873-cü ildə 158 nəfər, 1886-cı ildə 190 nəfər, 1897-ci ildə 232 nəfər, 1904-cü ildə 172 nəfər, 1914-cü ildə 190 nəfər,

-------------------
1. Mirzəyev H. Qovuşuq toponimi, Dil məsələlərinə dair tematik toplu, № 1, Bakı, 1998, s.104-107; Mirzəyev H. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz (monoqrafiya), Bakı, 1997, səh. 254-258; Mirzəyev H. Dərələyəzin Qovuşuq kəndinin etnik adları, toponim və hidronimləri, Filologiya məsələlərinə dair tematik toplu, № 1-2, Bakı, 2001, s.55-58.



1916-cı ildə 376 nəfər əhali olmuşdur.[1]

1918-ci ildə Yaponun quldur dəstəsi bu kəndi də dağıtmış, yandırmış, əhalisinin əksəriyyətini qırmış, sağ qalanlar isə qaçıb Şəmkirə, Gəncəyə, Laçına, Kəlbəcərə, Ağdama, Goranboya, Şərura getmişlər. 1922-ci ildə kəndə 138 nəfər adam qayıtmışdır. Bu say 1926-cü ildə 260-a, 1931-ci ildə 325-ə çatmış, 1988-ci ildə isə bu kənddə 800 azərbaycanlı yaşamışdır. 1948-1953-cü illərdə bu kəndin əhalisi qonşu 7 kəndlə birlikdə hökumətin qərarına qarşı çıxdı və köçmədi.

Ermənistanda sovet hökuməti qurulduqdan sonra Dərələyəz mahalında (iki rayonda) ilk orta məktəb bu kənddə açıldı, 1920-ci illərin axırlarında bu kənddə orta məktəb var idi. 1940-cı ildə burada yeni tipli orta məktəb binası istifadəyə verildi. Bu zaman mən 7-ci sinifdə oxuyurdum.



Böyük orta məktəbi, internatı, telefon qovşağı, klubu olan bu kənddəki 800 nəfər əhali ermənilər tərəfindən 1988-ci ildə zorla kənddən çıxarıldı. İndi onlar, əsasən, Bakı, Sumqayıt Şəki, Naxçıvan, Ağdam, Goranboy və Abşeronda məskunlaşmışlar.

Bu kəndin lap qədim qəbiristanlığı var. Burada qəbir üstündəki qoç daşların, daş atların sayı-hesabı yox idi. Nankor ermənilər 1947-ci ildən başlayaraq bunların hamısını ge-

-------------------

1. Статическое описание Нахичеванской провинции, СПб, 1833, стр. 168-169; И.Шопен. Исторические памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 615-616; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №972; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh.22; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 356, Историческая география Западного Азербайджана, Баку, 1998, стр.134-135. H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 245.

cələr yığıb aparırdılar. İndi onlardan demək olar ki, əsər-əlamət də qalmamışdır.[1]

1947-ci ildə Qovuşuqda qazıntı zamanı 2-2,5 metr uzunluğunda olan qəbirlər üzə çıxdı; 1956-cı ildə bu kənddə qazıntı zamanı həcmcə çox böyük və qədimi küplər tapıldı.



***Qovuşuq kəndi ilə Ələyəz kəndinin arası, Ələyəz çayının qırağı.***

1988-ci ilin payızında ermənilər Qovuşuq kənd əhalisini, həmçinin ətrafdakı 6 kənd camaatını deportasiya edəndə, onları yükünü özü boşaldan samasvalt maşınlara doldurub var-dövlətlərini əllərindən alıb çıl-çılpaq şəkildə kənddən qovanda mən Bakıda bu məsələyə öz etiraz səsimi ucaltdım. Bu haqda mən 19 noyabr 1997-ci ildə "Meridian" qəzetində (№26) qısa şəkildə məlumat vermişəm. Dərələyəzin tarixini gələcək nəslə çatdırmaq naminə indi həmin o qısa məlumatı burada verməyi lazım bilirəm.

"27 noyabr 1988-ci il. Naxçıvandan bir nəfər (Kazım müəllim, indi Sumqayıtda yaşayır) səhər tezdən mənə zəng edib dedi ki, Dərələyəzdə ermənilər 7 kəndi mühasirəyə alıb və yolları bağlayıblar. Biz bir neçə nəfər gecə ikən gizli yollarla Zeytə, Xaçik (Xaçın) kəndləri tərəfdən dağlardan piyada aşıb bu vəziyyəti Naxçıvana xəbər verməyə gəlmişik. Bakının təcili köməyi olmasa

-----------------------

1. Qədim oğuz yurdu olan indiki Ermənistanda ermənilər azərbaycanlılara aid tarixi abidələri müxtəlif yollarla həmişə məhv etmişlər. 1947-ci ildən başlayaraq bu məsələ daha geniş vüsət almağa başladı. Görünür ermənilər 1948-1953-cü il deportasiyasına hazırlıq işi aparırdılar. Onlar bir tərəfdən camaatı doğma yurdundan zorla qovur, bir tərəfdən də Azərbaycan xalqının min illərlə yaratdığı və qoyub getdiyi maddi-mənəvi sərvətləri, o cümlədən xalqın qədim tarixini özündə yaşadan qəbir daşlarını, əşyayi-dəlilləri yox edirdilər. Bu hadisəylə bağlı 1956-cı ildə mən Dərələyəzdə Yeğeqnadzor və Əzizbəyov raoynları üzrə təhsil şöbəsində inspektor işləyərkən müəllimlərin yay konfransında məsələ qaldırdım. Bu zaman Amağu məktəbinin direktoru Novruz Dünyamalıyev, Ağkənd məktəbinin direktoru İdris Quliyev, Ələyəz kənd məktəbinin direktoru İsmayıl Gülməmmədov və Əyyub Hüseynov, Kotanlı kənd məktəbinin direktoru Həsən Nəbiyev, Gülüdüz məktəbinin direktoru Tatar Calalov, təşkilati işdə işləyənlərdən Qabaxlı Qafar Gülmalıyev, Qovuşuqlu Mamed Zülfüqarov, Gülüdüzlü Qəşəm Quliyev və başqaları da mənim mövqeyimi müdafiə etdilər. Lakin erməni rəhbər işçilərinin sözü bu oldu ki, onları tapıb rayonun diyarşünaslıq muzeyinə yığmaq lazımdır. Bu yolla onlar həmin tarixi abidələri məhv etmək işini asanlaşdırırdılar.

ölən-itən çox olacaqdır.

Mən Bakıda yaşayan dərələyəzlilərin bir hissəsini səhər saat 10-da MK binasının, indiki Nazirlər Kabineti yerləşən binanın qabağına yığdım. Bizi içəri buraxmadılar. Elə bu anda Göyçənin ağsaqqallarından biri mərhum Mikayıl Bayramov başda olmaqla Göyçə camaatından böyük bir dəstə də gəldi. Köməkləşib qəbul otağına girdik. Zorla da olsa, Fazil Yaqubovun qəbuluna düşə bildik.



**Dərələyəz mahalının ağsaqqalı İbrahim Mirzəlioğlu oğlu Həsən Mirzəyevlə**

Vəzirov Moskvada idi. Nazirlər Sovetinin sədri Həsən Seyidov da "bu saat Moskvaya uçuram" bəhanəsi ilə bizi qəbul etmədi. F.Yaqubov isə "mən heç nə edə bilmərəm" deyirdi. Mən F.Yaqubova dedim ki, əgər siz Dərələyəzdə mühasirədə qalan, ayaqyalın, başıaçıq yollara dağılan, qanbağır olan körpələrə təcili kömək göstərməsəniz, bu gecə Bakıda olan erməni qəsəbə və məhəllələrinin hamısına od vurub yandıracaqlar. F.Yaqubovun kim od vuracaq sualına Bakı şəhər 131 №-li orta məktəbin dərs hissə müdiri Telman Məmmədov cavab verdi ki,mən yandıracağam. Qardaşı, ataanası, qohum-qardaşı darda qalan, hal-hazırda bayırda dayanan o adamlar yandıracaqlar. Yaqubov tələsik H.Seyidovun yanına getdi və qayıdıb Nax. MSSR KP-nin birinci katibi İsayevə zəng vurub dedi ki, Seyidov bu saat Yerevanla danışacaqdır. Siz tankların müşayiəti ilə Dərələyəzə 40 böyük yük maşını göndərin, oradakı camaatı çıxardıb Naxçıvana gətirsinlər.

Nəhayət, mənim təzyiq və təkidim, Naxçıvan camaatının qeyrətli oğullarının köməyi ilə Dərələyəz qaçqınları ölümün pəncəsindən qurtardı (bu hadisə Naxçıvanda videolentə alınmışdır).[1]

Gələcək nəsillər Dərələyəz eli, xüsusən, Qovuşuq kəndi haqqında müəyyən təsəvvürə malik olmaq üçün deməliyəm ki, 1922-ci ildən sonra Qovuşuq kəndi Ələyəz dərəsində olan kəndlərin mərkəzi olmuşdur. 1930-cu ildə burada kolxoz qurulmuşdur. Kənd əhalisi həmişə maldarlıq, əkinçilik, xalçaçılıq, meyvəçilik və arıçılıqla məşğul olmuşdur.

Qeyd etmək istəyirəm ki, xüsusilik dövründə bu kənd çox varlı-dövlətli olmuşdur. Bununla bağlı bir faktı deməklə kifayətlənəcəyəm. Mənim ana babam Hacnamazalı oğlu Əmirin 18 sürü qoyunu olmuşdur ki, hər sürüdə 800-1000 baş qoyun cəmləşirdi. Türkiyədə, Şuşada, Gəncədə və Şərurda bu qoyunları kəsib satdırmaq üçün onun xüsusi yerləri var idi. Bu kənddə çox tarixi hadisələr olmuşdur.

-------------------

1. Bax: Həsən Mirzəyev. "Respublika qəzetinin baş redaktoru professor Teymur Əhmədova açıq məktub", "Meridian" qəzeti, №26, 19-21.II.1997, səh.4.

Qaçaq Nəbi kazaklarla vuruşa-vuruşa bu kənddən keçəndə Qovuşuqda olan bir çox adamlar (məs.: Hacsam oğlu Əbdüləsəd, Hümbətalı oğlu Abbas, Dağdələnli ovçu İsmayıl və b.) ona çox kömək etmiş, onunla birlikdə kazaklarla vuruşmuş və onu Araza qədər müşayiət etmişlər.

Dərələyəz elinə yarım əsr ağsaqqallıq edən Mirzəlioğlu İbrahim də bu kənddə boya-başa çatmışdır. Bu kənddən xeyli alim, elmlər doktoru, professor, elmlər namizədi yetişmişdir. Nikolay hökuməti dövründə Qovuşuq kəndindən Hacnamazalı oğlu Axund Əli 20 il İraq və İranda, Hacsamoğlu Mirzəli kişi neçə-neçə illər Təbrizdə ruhani məktəbini oxuyub vətənə qayıtmış və Dərələyəz camaatının savadlanması üçün çox iş görmüşlər.

Tarixçilərimizin, etnoqraflarımızın və gələcək nəsillərimizin bilməsi vacib olan bir neçə məsələni, Qovuşuq kəndinin tarixi ilə bağlı, şahidi olduğum iki hadisəni də burada qeyd etməyi faydalı hesab edirəm.

1. 1947-ci ilin yaz ayı idi. Bu zaman mən kənddə IX sinifdə oxuyurdum. Yol işçiləri bizim kənddən Qabaxlı kəndinə gedən şose (magistral) yolu genişləndirirdilər. Bu zaman Qovuşuq kəndinin içində, evlərin üst tərəfindəki sinədə (döşdə) dərinliyi bir metr yarım, iki metr olan torpağın altından qəbirlər çıxdı. Bu qəbirlərin qıraqları və üstü böyük sal daşlarla örtülmüşdü. Hər qəbirin içi təxminən iki metr, iki metr yarım olardı. Lakin burada bir qəbir daha uzun idi. Camaat bu qəbrin tamaşasına çıxmışdı. Yaşlı və savadlı adamlar deyirdi ki, bu oğuz qəbiristanlığıdır. Rayon işçiləri bu məsələdən xəbər tutan kimi milliyyətcə erməni olan yol idarəsinin başçısına – həsənkəndli Mamikona göstəriş verdilər ki, yolu yenə də genişləndir və bu qəbirləri buradan götür. Camaatın etirazına baxan olmadı. Həmin uzun qəbirlər oğuz qəbiristanlığı gedib-gələnin gözü qarşısından götürüldü, yerlə-yeksan olundu.

2. 1956-cı ilin avqust ayı idi. Mən azərbaycanlı məktəbləri üzrə təhsil şöbəsində iki rayonda, Yeğeqnadzor və Əzizbəyov rayonlarında inspektor işləyirdim. Tətil dövrü idi. Kənddə öz əllərimlə tikdiyim böyük evin kanalizasiyasını bir qədər uzağa aparmaq istəyirdim. Kəndin bütün cavanları köməyə gəlib yeri qazırdılar. Bizim öz həyətimizdən həmin qazılan yerdən və onun ətrafından 8 böyük küp çıxdı. Hər biri təxminən 80-100 kq taxıl tutardı. Küplər şirli deyildi, adi saxsıdan idi, amma çox qədim dövrün məhsuluna oxşayırdı. Küplərin dibində qaralmış və çürümüş taxıl qalıqları var idi. Tarixçilər bu faktın hansı dövrə aid olduğunu müəyyənləşdirə bilərlər.

3. Qovuşuq kəndinin ərazisində Quzey adlanan yerdə qayanın altında böyük bir kaha var. Sahəsi təxminən 80 kvadratmetr olar. Yaşlıların dediyinə görə qədim dövrlərdə burada insan yaşamışdır. 1950-1960-cı illərdə Dərələyəzdə camaat belə yerləri qazıb qiymətli şeylər axtarırdılar. Qovuşuqdan ayaqqabı tikən Bayram adlı şəxs gizli şəkildə bu kahada çoxlu qazıntı işləri aparmış, lakin o yalnız qədim dövrlərə aid ev əşyaları tapmış imiş. O zaman mən Bakıda idim. Tapdığı əşyaların nədən ibarət olduğunu öyrənə bilmədim. Onu da deyim ki, ermənilər hiylə işlədərək qədim tarixi abidələri azərbaycanlıların öz əli ilə söküb dağıtmaq istəyirdilər. Onlar camaatda belə bir rəy yaratmışdılar ki, bü-

tün tarixi abidələrin altında qızıl var. Ona görə də azərbaycanlılar həmin tarixi yerləri qazıb ələk-vələk edirdilər.

Doğulub boya-başa çatdığım bu Qovuşuq kəndində, onun ərazilərində olan və mənim yadımda qalan yer-yurd adları və digər onomastik vahidlər, əsasən, aşağıdakılardır:

**Tayfa adları**

1. Əsəd uşağı
2. Əmrah uşağı
3. Dağdələnlilər
4. Hacsamlılar
5. Cəhrəbaşlılar
6. Hacnamazalılar
7. Fərzalılar
8. Horsulular
9. Alhüseynlilər
10. Almadətlilər
11. Güneyvənglilər
12. Mirzəlilər
13. Xudaverdilər

**Dərə adları**

1. Gen dərə
2. Tar gələn dərə
3. Yoğun su dərəsi
4. Kəməndin dərəsi
5. Səməndin dərəsi
6. Şirinin dərəsi
7. Çatımın dərəsi
8. Qırmızı pencərlik dərəsi
9. Zəyliyin dərəsi
10. Döş dərə
11. Sürüşmə dərəsi
12. Qurban kəsilən dərə
13. Dərənin qarnı
14. Cevizli dərə
15. Dar dərə
16. Cinli dərə
17. Xudumoğlu dərəsi
18. Qəmərin dərəsi
19. Taharın dərəsi

**Meşə adları**

1. Hava meşəsi

2. Dik meşə
3. Ayılı meşə
4. Qara meşə
5. Tala meşə
6. Aralıq meşə

**Dəyirman adları**

1. Əmirin dəyirmanı
2. Hacələkbərin dəyirmanı
3. İmranın dəyirmanı
4. Hacnamazalının dəyirmanı

**Dağ, yaylaq adları**

1. Təkədonduran
2. Vers
3. Çobanlı
4. Bərk dərə
5. Göytəpə
6. Yoğun burun

**Yal adları**

1. Pulluğun yalı
2. Əyri yal
3. Kiçik yal
4. Böyük yal
5. Aşağı yal
6. Yuxarı yal

**Yurd adları**

1. Qaraçı yurdu
2. Tellinin yurdu
3. Xalaçlar yurdu
4. Sultanın yurdu
5. Soğanlı yurd
6. Çatırrıqdakı yurd
7. Qoşa arxac

**Müxtəlif yer adları**

1. Xəlil uçan
2. Qələməlik
3. Qocanındamı
4. Vəngin üstü
5. Cəlalın taxtaları
6. Daşagirən
7. Ağ otluq
8. Qənd bölünən
9. Çınqılın gözü
10. Tar
11. Çay yeri
12. Qırmızı pencərlik
13. Səməddüşən
14. Qoyun gözülü
15. Yumru təpə
16. Davalı yer
17. Şkol yeri
18. Rus qırılan
19. Böyük tala
20. Kiçik tala
21. Əyriyolun başı
22. Kumanın altı
23. Mirzənin dəfn yeri
24. Xurşudun çalası
25. Əpbəkli
26. Xuda Mədəd düşən
27. Meşənin başı
28. Qoşa arxac
29. Yellicə
30. Qatar
31. Qatarın altı
32. Mollanın çuxuru
33. Dərənin qarnı
34. Qurban kəsilən
35. Göy qaya
36. Cəlilin şamı
37. Qayanın altı
38. Çökək
39. Qayanın başı
40. O tay biçənək
41. Quzey
42. Kahanın qabağı
43. Böyük buzxana
44. Xırda buzxana
45. Dəvə uçan
46. Xudum oğlu
47. Taxtalar
48. Zincir itən
49. Köhnə kənddik
50. Almalıq

51. Əmrin yeri
52. Tək armud
53. Qara ağaclıq
54. Göy qumluq
55. Molla Əlinin çuxuru
56. Kalafalıq
57. Təkədonduran
58. Ayıbasan
59. Pıtırrıq
60. Mirzəli oğlunun yeri
61. İbrahim əkən
62. Qayanın altı
63. Qıjılı bulaq
64. Gab
65. Qoyun gözü
66. Yalınbaşı

**Yol və cığır adları**

1. Ələyəz yolu
2. Qatarın yolu
3. Taxtalar yolu
4. Qalaser yolu
5. Ayısəsi yolu
6. Qabaxlı yolu
7. Gülüdüz yolu
8. Nəbilər yolu
9. Xudumoğlunun yolu
10. Zağan qayasının yolu
11. Qırmızı pencərliyin yolu
12. Cəvizdi dərənin yolu
13. Hava meşəsinin yolu
14. Qazmanın yolu
15. Zəyliyin yolu

**Kaha və zağa adları**

1. Qayanın altındakı zağa//kaha
2. Quzey zağası//Quzey kaha
3. Qaçaq qayasının zağası
4. Daşagirəndəki zağa

**Biçənək adları**

1. Otay biçənək
2. Əmirin biçənəyi
3. Taharın biçənəyi
4. Mirzəlinin biçənəyi
5. Quzey biçənək
6. Cəlilin şamındakı biçənək
7. Hüseynin biçənəyi
8. Qəbiristanlığın qabağı biçənək

**Arxac adları**

1. Qoşarxac
2. Çatırrığın arxacı
3. Gabdakı arxac
4. Qatarın dibi arxacı
5. Divəkdaşı arxacı
6. Göytəpə arxacı
7. Soğannı arxacı
8. Xalaclar arxacı
9. Sultanın arxacı
10. Yoğunburun arxacı
11. Yellicə arxacı

**Qaya və cınqıl adları**

1. Güllə dəyən daş
2. Sürüşkən daş
3. Adamdaş
4. Göy qaya
5. Qaçaq qayası (Soğanlı yaylasında 2 dənədir. Qaçaqların gizlənməsi üçün kahalar var)
6. Zağan qayası
7. Urusqırılan qaya
8. Zəyliyin qayası
9. Daşagirən qayası
10. Çirişli qaya
11. Canı çayı qayası
12. Qatar
13. Göy çınqıl
14. Qayanın altı
15. Top daş
16. Versin çınqılı
17. Soğanlı çınqılı

**Çay adları**

1. Canı çayı
2. Ayısəsi çayı
3. Gülüdüz çayı

4. Kıkqılaxar//Qalaser çayı

**Arx adları**

1. Taxtalar arxı
2. Köhnə kənd arxı
3. Qayanın altı arxı
4. Ələyəz arxı
5. Hava meşəsinin arxı
6. Qırmızı pencərliyin arxı
7. Güneyvəng arxı
8. Qıjılı bulağın arxı
9. Dəyirman arxı
10. Qalaser arxı

**Bulaq adları**

1. Dam bulaq
2. Qarağac bulağı
3. Zəylik bulağı
4. Çınqıllı bulaq
5. Kəklikli bulaq
6. Qırmızı pencərlik bulağı
7. Qoşa bulaq
8. Qiblə bulağı
9. Bayramalı oğlu bulağı
10. Hava meşəsi bulağı
11. Qara meşə bulağı
12. Yoğun burun bulağı
13. Çatırlığın bulağı
14. Xu dum oğlu bulağı
15. Quzey bulağı
16. Əpbəkli bulağı
17. Məstanın bulağı
18. Molla bulağı
19. Mustafa bulağı
20. Nəsibin bulağı
21. Həmidin bulağı
22. O tay bulaq
23. Yastı bulaq
24. Alçalı bulaq
25. Zağan qayası bulağı
26. Daşagirən bulaq
27. Südlü bulaq
28. Qətər bulağı
29. Səmədin bulağı
30. Qıjılı bulaq



31. Mirzəli bulağı
32. Xalaclar bulağı

**Göl adları**

1. Dibsiz göl

**Mədən yataqları**

1. Qazma (Təkədə
2. Soğanlı (Xınalı
3. Zəylik (Güneyv

Dərələyəzin başqa
adlı-sanlı adamlar, el
igidlər olmuşdur.

Hacınamazalı, Hac
ləsəd, Hümbətalı oğl
oğlu Şirin, Sarı Musa
Hacələkbər oğlu Rəşi
dövlət sahibi, 20 il Nə
Molla Mirzəli kimi di
lorunun məşhur bilic
məmməd oğlu Əli, N
gər oğlu Hümbət, B
Əsəd oğlu Həbib, Zü
kimi başbilənlər, Mir
zir kimi alimlər, Ələ
yenilməz kişi xarakte

**1935 və 1937-c**

1. Mirzəli oğlu İb
2. Əsgərov Hümb

---

1. Ermənilər azərbay
dirmək üçün min hiyləy
larına mənəvi əzab veri
istifadə edirdilər. Belə
şahidi və iştirakçısı old

a) Atam siyasi məhb
kəndinin) camaatı Soğa
uyan sovet sədri Alı Ab
kömək etməsin. Onlar y
birə gedəcəkdir. Şərur
lağa gələnlər və kəndin
gedəsi əşyaları atlara, d

b) 1940-cı ilin yanva

31. Mirzəli bulağı
32. Xalaclar bulağı

**Göl adları**

1. Dibsiz göl

**Mədən yataqları**

1. Qazma (Təkədonduran) qızıl mədəni
2. Soğanlı (Xınalıq) Molibden və qızıl mədəni
3. Zəylik (Güneyvəng) zəy mədəni

Dərələyəzin başqa kəndlərində olduğu kimi, Qovuşuq kəndində də çoxlu adlı-sanlı adamlar, el ağsaqqalları, hacılar, kərbəlayilər, axundlar, mollalar, ər igidlər olmuşdur.

Hacınamazalı, Hacələkbər, Hacəsgər, Kalbayəsgər kimi ağsaqqallar, Adu-ləsəd, Hümbətalı oğlu Abbas, ovçu İsmayıl, Hacınamazalı oğlu Qara, Fatan oğlu Şirin, Sarı Musa, Qaçaq Usub, Qaçaq Mahmudpaşa, Qaçaq Süleyman, Hacələkbər oğlu Rəşid kimi igidlər, Hacınamazalı oğlu Əmir kimi böyük var-dövlət sahibi, 20 il Nəcəfdə ruhani təhsili alan Axund Əli, Təbrizdə təhsil alan Molla Mirzəli kimi din xadimləri, Şərq ədəbiyyatının, dinin, Azərbaycan folklorunun məşhur bilicisi, sinədəftər el ağsaqqalı Mirzəli oğlu İbrahim, Nurməmməd oğlu Əli, Nurməmməd oğlu Həşim, Əlhüseyn oğlu Tahar, Kalbayəsgər oğlu Hümbət, Bığlı Süleyman, Əmir oğlu Amil, Cəfərqulu oğlu Həmid, Əsəd oğlu Həbib, Zülfüqarof Mamed, Məmmədov Kazım, Məmmədov Paşa kimi başbilənlər, Mirzəyev Həsən, Mirzəyev Əli, Əmirov Hüseyn, Əsədov Nazir kimi alimlər, Ələkbərov Əli kimi şairlər, Qaratel və Sayad kimi qorxmaz, yenilməz kişi xarakterli ağbirçəklər buna misal ola bilər.

## 1935 və 1937-ci illərdə Qovuşuq kəndindən siyasi repressiyaya məruz qalanlar (siyasi məhbuslar)[1]

1. Mirzəli oğlu İbrahim (1935)
2. Əsgərov Hümbət Kalba Əsgər oğlu

---

1. Ermənilər azərbaycanlıları doğma yurdlarından qovmaq, onların gözünü qırmaq, pisikdirmək üçün min hiyləyə əl atır, nüfuzlu adamları Sibirə sürgün etdirir, onların ailə və uşaqlarına mənəvi əzab verir, bu vəzifəni yerinə yetirmək üçün sapı özümüzdən olan baltalardan istifadə edirdilər. Belə məsələləri saymaqla qurtarmaq olmaz. Mən burada yalnız özümün şahidi və iştirakçısı olduğum bir neçə faktı göstərməklə kifayətlənəcəyəm.

a) Atam siyasi məhbus kimi Sibirdə yatırdı. 1937-ci ilin yayında kəndimizin (Qovuşuq kəndinin) camaatı Soğanlı yaylağına köçürdü. Heşin kəndindən olan, ermənilərin hiyləsinə uyan sovet sədri Alı Abbaşov kəndin içində elan etdi ki, heç kim xalq düşməninin ailəsinə kömək etməsin. Onlar yayı dağda yox, aranda keçirməlidir. Kim onlara kömək etsə, o da Sibirə gedəcəkdir. Şərur və Naxçıvandan (Xok, Şahtaxtı, Qıvraq, Süst və Mahmudkənd) yaylağa gələnlər və kəndin cəsur adamları bu hadisəni eşidən kimi bizim qapıya gəlib, yaylağa gedəsi əşyaları atlara, dəvələrə yükləyib bizi dağa apardılar.

b) 1940-cı ilin yanvar ayında babam Mirzəli kişi kəndimizdə 100 yaşında dünyasını də-

3. Namazov Bəbir Əmir oğlu
4. Süleymanov Süleyman Əsədulla oğlu
5. Həsənov Abdulkərim Həsən oğlu
6. Həsənov Əyyub Həsən oğlu
7. Süleymanov Cəlal
8. Namazov Rəşid Hacələkbər oğlu

## Qovuşuq kəndindən1941-1945-ci il Böyük Vətən müharibəsinə gedənlər

**a) qayıtmayanlar**

1. Namazov Azad Hacələkbər oğlu
2. Namazov Balabəy Hacələkbər oğlu
3. Məmmədov Talıb Əsəd oğlu
4. Hümmətov Ələkbər Həsən oğlu
5. Məmmədov Sarı Əli oğlu
6. Məmmədov Əbülfəz Həşim oğlu
7. Zülfüqarov Zülfüqar Şovo oğlu
8. Məmmədov Ağabəy Əsəd oğlu
9. İsmayılov Ağa Camal oğlu

----------------------

yişdi. Ermənilərin muzdlu nökəri, sovetin sədri Abbasov Alı cənazənin götürülməsini ləngitmək məqsədilə cavanlara dedi ki, molla gec götürülsə yaxşıdır. Ermənilər 2 gün meyidi saxlayır, biz saxlayanda nə olar. Bunu eşidən kəndin ağsaqqal və ağbirçəkləri (Əmir, Əsəd və Tahar kişi, Sayad, Qaratel və Nabat qarı) ayağa qalxıb, külüng, bel götürüb qəbiristanlığa tərəf yol aldılar. Bu mənzərəni görən kənd əhalisi, hətta yeniyetmələr də qəbir qazmağa getdilər. Qəbrin üstünə döşəmək üçün sal daş lazım idi. Alı sal daş yığılmış damın ağzını bağlayıb aradan çıxmışdı. Yerdə bir metrdən çox qar olduğu üçün sal daş tapmaq çətin idi. Cavanlar qəbirstanlığın yanından axan çayın buzunu qırıb oradan sal daş çıxartdılar. Qara Həsən adlı bir yeniyetmə çayda çox qaldığı üçün bir müddət də xəstə oldu. Ermənilərin məsləhəti ilə o, 3 gün camaatın içinə çıxmadı.

v) 1938-ci ilin qışı idi. Kənddəki mağazaya ayaqqabı gəlmişdi. Anam mənə ayaqqabı almaq istəyəndə satıcı Leylaxanım anama dedi ki, Alı mənə tapşırıb ki, xalq düşməninin evinə heç nə verməyin, gedin özündən icazə alın. Qohumum Bığlı Süleyman Alıya xahiş etsə də, nəticəsi olmadı. Bu zaman mən Alını söydüm. Alı və yanındakı erməni milisi məni tutub döymək istədilər. Mən qaça-qaça özümü 3 metr hündürlükdə damın üstündən yerə atmağa məcbur oldum, qarın üstünə düşdüyüm üçün salamat qurtardım. Gör iş nə yerə çatmışdı ki, atam siyasi məhbus olduğu üçün mağazadan bizə paltar sabunu da vermirdilər. Dərələyəz camaatı bunu (məs: Qabaxlı Ovçu Qəhrəman, Ayısəsli Oruc kişi və b.) öz adlarına alıb gizli şəkildə bizə verirdilər.

q) 1939-cu ilin noyabrında rayonun hüquq-mühafizə orqanları kəndə gəlmişdi. Alı Abbasovun katibi ilə bir polis işçisi bizə gəlib qapımızdakı quzunu (əmliyi) zorla apardılar. Babam Mirzəli kişi danışanda dedilər ki, danışsan qoca vaxtında səni də oğlunun yanına göndərəcəyik.

d) 1938-ci ilin payızı idi. Bir də gördük ki, sovetin sədri, erməni şovinistlərinin əl buyruqçusu Alı Abbasov bir qadınla bir kişini Əmir babamgilə göndərib onlardakı vaxtilə İrandan gətirilmiş tük yorğan və döşəkləri istəyir. Nənəm Nigar bunları qovmaq istəyəndə Alı gəlib deyir: sənin oğlun da, qızının əri də siyasi məhbusdur. Tük yorğan-döşəklərdə mənim erməni qonaqlarım yatmalıdır. Çünki onlar hökumətin dostu, siz isə düşmənisiniz. Sonra da Alı həmin tük yorğan, döşək və yastıqları ermənilərə bağışladı.

10. Rüstəmov İsa Gülməmməd oğlu
11. Nəsirov Hüseyn Şirin oğlu
12. Kərimov Fərman Xudaverdi oğlu
13. Bayramov Heydər İbrahim oğlu
14. Qəhrəmanov Ağoş Paşa oğlu
15. Hümmətov Firudin Ələkbər oğlu
16. İsmayılov Ağa İsmayıl oğlu
17. Namazov Mahmud Axundəli oğlu
18. Nəcəfov Vəli Şirin oğlu
19. Nəcəfov Salman Şirin oğlu
20. Xudaverdiyev Valeh Rəhim oğlu
21. Abbasov Həsən Cəfərqulu oğlu
22. Hümmətov Əli Vəli oğlu
23. Hümmətov Abdulla Əkbər oğlu
24. Muradov Surxay Məhəmməd oğlu
25. Rüstəmov Zal Qara oğlu
26. Əsgərov Məhəmməd Xəlil oğlu
27. Süleymanov Məhəmmədəli Həsən oğlu
28. Məmmədov Həsən Əsəd oğlu
29. Məmmədov Ağayar

**b) qayıdanlar**

30. Namazov Qara Əmir oğlu
31. Namazov Amil Əmir oğlu
32. Namazov Hüseyn Çərkəz oğlu
33. Həmzəyev İrəsil Həmzə oğlu
34. Fərzalıyev Yunus Musa oğlu
35. Fərzalıyev Nəsib Musa oğlu
36. Məmişov Elbəyi Tahar oğlu
37. Məmmədov Nağı Hüseyn oğlu
38. Əsgərov Novruz Teymur oğlu
39. İsmayılov Mustafa Cəlil oğlu
40. Muradov Mirzə Camal oğlu
41. Məmmədov Kamil İsmayıl oğlu
42. Məmişov Hüseyn Tahar oğlu
43. Məmmədov Hüseyn Tahir oğlu
44. Məmmədov Budaq Əsəd oğlu
45. Zülfüqarov Əli Şavo oğlu
46. Səfərov Həbib Əsəd oğlu
47. Səfərov Usub Şıxəli oğlu
48. Məmmədov Ləzim İsmayıl oğlu
49. Xudaverdiyev Süleyman Kərim oğlu
50. Əsgərov Teymur Kablayəsgər oğlu

51. Məmişov Həsən Hüseyn oğlu
52. Muradov Misirxan Murad oğlu
53. Muradov İrəsil Əziz oğlu
54. Süleymanov Kərəm Hüseyn oğlu
55. Süleymanov Səfərah Əsədulla oğlu
56. Süleymanov Ağacan Əsədulla oğlu
57. İsmayılov Bilal Camal oğlu
58. Həmzəyev Abbas Abdulkərim oğlu
59. Xudaverdiyev Salman Qoca oğlu
60. Məmişov Məhəmməd Hüseyn oğlu
61. Muradov Tapdıq Camal oğlu
62. Xudaverdiyev Mürsəl Rəhim oğlu
63. Rüstəmov İsmayıl Məhəmməd oğlu
64. Muradov Gəray Məhəmməd oğlu
65. Abbasov Həmid Cəfərqulu oğlu
66. Namazov Çərkəz Hacələkbər oğlu
67. Məmmədov Alışan Əsəd oğlu
68. Məmişov Hüseyn Tahar oğlu

## Qovuşuq kəndindən olan Qarabağ şəhidləri

1. Əliyev Əli Vəli oğlu – 1969-cu il təvəllüdlü, 1992-ci ildə Murovda şəhid olub.
2. Xudaverdiyev Şamo Əli oğlu – 1975-ci il təvəllüdlü. 1994-cü ildə şəhid olub.
3. Şirinov Vəli Asif oğlu – 1972-ci il təvəllüdlü, Qubadlıda itkin düşüb.

## Qovuşuq kəndindən olan Qarabağ veteranları

1. İsmayılov Fərrux Camal oğlu
2. Məmmədov Sahib Məmmədəli oğlu
3. Zülfüqarov Əhməd Əli oğlu
4. Xudaverdiyev Salman Sadıx oğlu
5. Abbasov Nazim Cəfərqulu oğlu
6. Məmişov Yadigar Rəsul oğlu
7. Hüseynov Sədi İsa oğlu

**İnformator:** Özüm (Həsən Mirzəyev).

# QOYTUL

Qoytul Yeğeqnadzor (Keşkənd) rayonunda Arpa çayının sol qolu üstündə yerləşən azərbaycanlı kəndinin adıdır. Bu kənd rayon mərkəzindən 3 km aralı,bütün magistral yolların kəsişdiyi yerdə yerləşir.



Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin 3 yanvar 1935-ci il fərmanı ilə kəndin adı dəyişdirilərək ona Getap adı verilmişdir.[1] Bu kəndin adının mənşəyinə gəldikdə burada 2 variant ola bilər: a) dərin yer, dərin dərə; b) düşərgə, əylənilən yer mənasında. Çox güman ki, bütün karvan yollarının mərkəzində yerləşən bu kənd qədim türk dillərində olan düşərgə mənasındadır.[2]

20 ev (tüstü) azərbaycanlı yaşayan bu kəndə 1829-cu ildə çar Rusiyasının təkidi ilə İranın Xoy və Salmas qəzalarından 33 erməni ailəsi gətirilib məskunlaşdırılmış və bundan sonra Qoytulda azərbaycanlılarla ermənilər qarışıq şəkildə yaşamışdır. Lakin burada ermənilər get-gedə çoxalmış, azərbaycanlılar isə sıxışdırılıb kənddən çıxarılmışdır. Elə bunun nəticəsidir ki, 1897-ci ildə bu kənddə ermənilərin sayı 735 nəfər, azərbaycanlılar isə 36 nəfər olmuşdur.[3]

"İrəvan əyalətinin icmal dəftəri"ndə bu kəndin adı "Qutyol" kimi yazılmışdır.[4]

Bəzi mənbələrdə isə kəndin adı "Goytur" kimi yazılır.[5]

Qoytul sözü türk dillərində "düşərgə" mənasında da işlənir.[5]

Daşkənd rayonunda "Quytul" adında kənd vardır.[7]

Bir çox mənbələrdə bu kəndin adı "Qutyol" formasındadır.[8]

Tarixi sənədlər sübut edir ki, bu kənd 1829-cu ilə qədər həmişə azərbaycanlı kəndi olmuşdur.

---------------------

1. Bax: Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, s.357.
2. А.З.Будагов. Сравнительный словарь турецко-татарских наречий, т. II, СПб., 1871, стр.102.
3. Статистическое описание Нахичеванской провинции. Санкт-Петербург. 1833, стр.166-167; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, s.351, 357.
4. Z.Bünyadov, H.Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, Elm, 1996, s.58.
5. Ə.Ələkbərli. Qədim türk-oğuz yurdu – "Ermənistan", Bakı, 1994, s.134.
6. Будагов Л.З. Сравнительный словарь турецко-татарских наречий, т. II, СПб., 1871, стр.102.
7. Azərbaycan SSR inzibati-ərazi bölgüsü. Bakı, Azərnəşr, 1968, s.157.
8. Ziya Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, səh.58; Ziya Bünyadov və Hüsaməddin Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh.283-284.

Faktlardan aydın olur ki, bu toponim də türk mənşəli sözdür və Azərbaycan xalqına məxsusdur.[1]

Bunun üçün "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə bu kəndin əhalisi və var-dövləti haqqında verilən məlumatları oxucuların nəzərinə çatdırmaq kifayətdir:

## "DƏRƏLƏYƏZ NAHİYƏSİNƏ TABE OLAN QOYTUL KƏNDİ

Məmməd Salehxan oğlu – bennak; Qurbanəli Dərgahqulu oğlu – subay; Qurbanəlinin qardaşı Bayraməli – bennak; Mənsur Xəlil oğlu – bennak; Yarməmməd Cəbi oğlu – bennak;

Yarməmmədin qardaşı Nuru – subay; Qurbanqulu İmran oğlu – bennak; Bayramqulu Güvəndik oğlu – bennak; Bayramqulunun qardaşı Güvəndik – subay;

Çift – 4
Yarım (çift) – 2
Bennak – 6
Subay – 3
1 dəyirman – yarım il işləyir
1 dəyirman – yararsız haldadır
Bəzirxana – 1
Gəlir:
Çift vergisi – 200 (ağça)
Yarım (çift) üçün vergi – 50 (ağça)
Bennak vergisi – 108 (ağça)
Subay vergisi – 18 (ağça)
Buğda – 5 kile – dəyəri 150 (ağça)
Arpa – 3 kile – dəyəri 60 (ağça)
Kərdiyər – 12 kile – dəyəri 152 (ağça)
Pərinc – 15 kile – dəyəri 315 (ağça)
Kəlül – 3 kile – dəyəri 54 (ağça)
Mərcimək – 2 kile – dəyəri 36 (ağça)
Noxud – 1 kile – dəyəri 18 (ağça)
Kərəsnə – 4 kile – dəyəri 60 (ağça)
Bal üşrü – 120 (ağça)
Pambıq – 7 man – dəyəri 525 (ağça)
Çovdar – 4 kile – dəyəri 60 (ağça)
Gənəgərçək – 2 kile – dəyəri 30 (ağça)
Çəltik üşrü – 500 (ağça)
Paxla – 3 kile – dəyəri 45 (ağça)
Sumax – 3 kile – dəyəri 45 (ağça)
Darı – 4 kile – dəyəri 60 (ağça)

---

1. Mirzəyev H. Dərələyəzdəki Qoytul, Yavər kəndləri, Filologiya məsələlərinə dair tematik toplu, № 6 (18), Bakı, 2001, s.29-32.

Bostan məhsulları üşrü – 120 (ağça)
Meyvə üşrü – 300 (ağça)
Adəti-ağnam – 120 (ağça)
Ağıl vergisi – 300 (ağça)
Bəzirxana vergisi – ildə 120 (ağça)
Dəyirman vergisi – 30 (ağça)
Dönüm vergisi – 405 (ağça)
Başqa yerdən gəlib bu kəndin torpağından əkib-becərmə işləri üçün istifadə edənlərdən alınan vergi – 300 (ağça)
Dəştibani vergisi və əkin yeri üçün tapu – 1.290 (ağça)
Bakirə qız və dul qadın üçün gəlir vergisi – 90 (ağça)
Otlaq vergisi – 600 (ağça). Bu vergi başqa yerdən gəlib kəndin otlağından istifadə edənlərdən alınır.
Badi-hava, işlənmiş günah, törədilmiş cinayət, qul və kənizlərin sərbəstlik almaları üçün vergi – 2.990 (ağça)
Yekun – 8.380 (ağça)“[1]

## QOZULCA

Qozulca kəndi Dərələyəz mahalında ən qədim kəndlərdən biridir və Yeğeqnadzor (Keşkənd) rayonunun ərazisindədir. Bu kənd Qoytul, Çivə, Heşin, Ardaraz, Almalı kəndlərinin yaxınlığında yerləşir.

Tarixi və statistik mənbələrdən məlum olur ki, Qozluca kəndində 1831-ci ildə 60 nəfər, 1873-cü ildə 342 nəfər, 1886-cı ildə 549 nəfər, 1897-ci ildə 630 nəfər, 1904-cü ildə 647 nəfər, 1914-cü ildə 711 nəfər, 1916-cı ildə 371 nəfər azərbaycanlı yaşamışdır.[2]

1918-ci ildə şovinist daşnak hökumətinin, erməni millətçilərinin, Andranikin, Yaponun quldur dəstəsinin köməyi ilə Ardaraz kəndi dağıdılıb yandırılmışdır. Buradakı əhalinin çoxunu ermənilər işgəncə verə-verə öldürmüş, damlara doldurub od vurmuş və kəndi yerlə-yeksan etmişlər. Əhali pərən-pərən düşüb hərəsi bir yana qaçmışdır. Qaçanların əksəriyyəti isə Şərura, Naxçıvana pənah aparmışlar.

1922-ci ildə kəndə cəmi 92 nəfər qayıtmışdır. Ermənilər əvvəlcə onları öz kəndlərinə buraxmamışlar. Lakin sonralar zaman-zaman sağ qalanlar, qaçqın

-----------------------

1. Bax: Ziya Bünyadov və Hüsaməddin Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh.283-284.

2. И.Шопен. Исторические памятники состояние армянской областе в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 615; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1042; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 92; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 357, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 245; Историческая география Западного Азербайджана, Баку, 1998, стр.139.

düşənlər öz kəndlərində – Qozulcada məskunlaşmağa başlamışlar. 1930-1940-cı illərdə burada azərbaycanlıların sayı çoxalmış, kəndin məktəbi, klubu geniş şəkildə fəaliyyət göstərmişdir. Belə bir faktı da demək lazımdır ki, bu kənd Nikolay dövründə 15 kəndin (Ağkilsə, Əynəzur, Almalı, Ardaraz, Arpa, Vartenis, Gənəli, Heşin, Kömürlü, Namazlı, Rind, Çivə, Yelpin, Ertiş) mərkəzi olmuş və qlava həmişə bu kənddə oturmuşdur. Mərkəz hesab olunan bu kənd son dövrlərdə də mərkəz kəndlərdən birinə çevrilmişdir.

Lakin ermənilər başqa kəndlər kimi bu kəndin də inkişafının qarşısını almışlar. Belə ki, 1948-1953-cü illər deportasiyası dövründə bu kəndi də köçürməyi qərara almışlar. 1949-cu ildə bu kəndi Azərbaycanın isti yerlərinə, Saatlıya, İmişliyə, Sabirabada, Salyana deportasiya etmişlər. Kənd camaatının bir qismi isə Şərur rayonunun Oğlanqala, Dizə və digər kəndlərində qalmağa nail ola bilmişlər. Bir sözlə, Qozulca kəndinin əhalisi də öz doğma yurdundan qovulub pərən-pərən olmuşdur.

Qozulca sözünün mənşəyinə gəldikdə demək lazımdır ki, bu söz həmin kəndin relyefi ilə bağlı əmələ gələn toponimdir. Belə ki, bu kənd iki uca dağın və bir uca qayanın arasında yerləşir. Şimaldan Topdağı, şimal-şərqdən Yalyurd dağı, şərqdən isə uca, sıldırım, Laçın qaya ilə əhatə edilmişdir. Ona görə də səhər saat 10-a, 11-ə qədər bu kəndin üstünə gün düşmür. Axşamüstünə yaxın vaxtda da bura gün düşmür. Çünki bu uca dağlar və qayalıq günün qabağını kəsir. Ona görə də bura digər kəndlərə nisbətən kölgəli və soyuq olur. Bir sözlə, bu kəndin yeri quzeydir. Fikrimizcə, bu ad da elə həmin kəndin relyefinə görə verilmişdir.[1]

Dilçiliyə dair qədim mənbələrdən, həmçinin "Qədim türk dilinin lüğəti"ndən məlum olur ki, tarixən dağın gün düşməyən hissəsinə, günəşin az düşdüyü yerə "quz" deyilmişdir: "Quz" – часть горы, не освещаемая солнцем - гора, не освещаемая солнцем“ (MK 1325).[2]

Görünür, müəyyən müddət keçdikdən sonra, "quz" sözü həmin mənanı tədricən itirmiş və ona məkan bildirən -lu (-ul) və kiçiltmə bildirən -ca şəkilçisi artırılmışdır.

Tarixi mənbələrdən belə bir fakt da məlumdur ki, türk dillərində sait səslər bir-birini əvəz edə bilir. “Qədim türk dili lüğəti“ndəki "qoz-quz", "quzan-qozan", "quzi-qozi" sözlərini, S.E.Malovun "Qədim türk yazılı abidələri" kitabındakı "qızıl-гузул", "гору ягненок" (quzu), V.V.Radlovun "Опыт словаря тюркских наречий" adlı kitabındakı "qor-qör", "qözəl-qüzəl", "qözqü-(güzgü)" sözləri. G.V.Sevortənın "Türk dillərinin etimoloji lüğəti"ndəki "qoz-qöz", "qüz-qöz" sözlərini və buradakı dəyişmələri buna misal göstərmək olar.[3]

---------------------

1. Mirzəyev H. Qozluca kəndi və onun onomastik vahidləri, Filologiya məsələlərinə dair tematik toplu, № 3-4, Bakı, 2001, s.106-213.

2. Древнетюрский словарь. Ленинград. 1969, с.475.

3. Древнетюркский словарь. Ленинград, 1969, стр.475; 462; С.Е.Малов. Памятники древнетюркской письменности. Москва, 1951, стр.414, 417; В.В.Радлов "Опыть словаря тюркских наречий" том II, часть II, С.Петербург, 1899, стр.1584, 1588, 1610; Э.В.Севортян. Этимологический словарь тюркских языков. В-Д., Москва, 1980, стр.60-61; Статистическое описание Нахичеванской провинции, Санкт-Петербург, 1833, стр.174-175.

Qeyd etmək lazımdır ki, yuxarıda haqqında danışdığımız "quz" sözünün izləri dilimizdə indi də qalmaqdadır. "Quzey" (gün az düşən yer) sözü, "quzulamaq" sözü (nəmlikdən divarın,müəyyən tikilinin, torpağın quzulanması, yəni tökülməsi, dağılması, yaş olması, nəm olması) buna canlı misaldır.

Fikrimizcə, dilimizdəki "güz" (küz-payız), "güzəm" (payız yunu), "güzdük" (payızda əkilən taxıl) sözləri də həmin "quz" sözü ilə bir məna yuvasından nəşət etmişdir, formalaşmışdır.

Qozulca sözünün mənşəyindən bir daha aydın olur ki, bu kəndin tarixi çox qədim dövrlərə gedib çıxır. Deməli,türk xalqlarının bu yerdə məskunlaşması və bu kəndin belə adlanması Azərbaycan xalqının tarixi ilə, bu yerlərdə onların lap qədim dövrdən məskunlaşması ilə bağlıdır.

## QOZULCA KƏNDİNDƏ OLAN ONOMASTİK VAHİDLƏR

**Tayfalar:**
1. Kalba Qəmbər tayfası
2. Məmmədqulular
3. Tatlar
4. Təkəçilər tayfası
5. Fərzalılar tayfası
6. Seyidlər tayfası
7. Məhərrəmlər tayfası

**Ləqəblər**
1. Qara Əli
2. Qotur Əli
3. Pəno Musa
4. Soğansatan İsmayıl
5. Baftalı Cəfər
6. Keçəl Rza
7. Sarı Hidayət
8. Keçəl İsmayıl

**Məhəllələr**
1. Sağ məhəllə
2. Aşağı məhəllə
3. Təkəçilər məhəlləsi
4. Məmmədqulular məhəlləsi
5. Fərzalılar məhəlləsi

**Dağ adları**
1. Top dağı
2. Yalyurd dağı
3. Qılınc dağı
4. Başkaha dağı

5. Tarlı dərə dağı
6. Pələngdərəsi dağı
7. Ağ şırran dağı
8. Uçuq dağ

**Dərə adları**

1. Hacı dərəsi
2. Kaha dərəsi
3. Güllü dərə
4. Şorru dərə

**Kaha adları**

1. Dirəkli kaha (insan yaşayıb, qayasında alban əlifbası ilə yazı olub. 500-ə qədər qoyun tutur)
2. Zağan yuvası kahası
3. Əsəd kahası (tatların kahası)
4. Baş kaha (iri mağara, 100 qoyun tutur)

**Yer, kövşən, yamac, arxac, bağça adları**

1. Armudlu düz
2. Çərək daşı (böyük qayadır)
3. Gölyeri
4. Məhəmməd yeri (əkin yeri)
5. Biçənək yamacı
6. İydəlik
7. Bağlar
8. Qırmızı qaya (arxac)
9. Güllü gədik
10. Kalba Tağı bağçası
11. Daş nov (qədim yaşayış məskəni olub)
12. Dörd tək yer[1]
13. Söyütdü
14. Ülgür yer[2]
15. Sallana

**Yaylaq adları**

1.Boynu yoğun yaylaq[3]
2. Vəlibəy yaylağı
3. Siçanlı yaylağı
4. Qara göllər[4]

------------------

1. Bu yerə ondan ötəri Dörd tək yer deyirmişlər ki, kəndin arasında bölünən torpaq dörd tayfa arasında bölüşdürülmüş və arada bir tək yer qalırmış.
2. Ülkər ulduzu çıxanda işığı yerə vurduğu üçün həmin yer Ülgür yer adlanır.
3. Bu yaylaq ondan ötrü belə adlanıbmış ki, dağın dibi nazik dərə, çuxur və s. getdikcə dağ genişlənir, yəni yoğunlayır.
4. Gölə qara su axdığı üçün belə adlanır.

5. Payız yurdu[1]
6. Mahmıtdı yurdu[2]
7. Yal yurt[3]

**Meşə adı**
1. Qızıl gül meşəsi

**Çay və bulaq adları**
1. Qızlar bulağı
2. Şadman bulağı
3. Təmo bulağı
4. Eylas bulağı
5. Qara bulaq

## 1937-ci ildə siyasi məhbus olanlar (repressiya qurbanları)

1. Məhərrəmov Həşim (qayıtmayıb)
2. Məhərrəmov Həbib (qayıtmayıb)
3. Quliyev Həmzə (qayıtmayıb)

## 1941-1945-ci il Böyük Vətən müharibəsinə gedənlər

**a) qayıtmayanlar**
1. Xuduyev İbrahim Hümbətalı oğlu
2. Xuduyev İsa Hümbətalı oğlu
3. Qəmbərov Məcid Əhməd oğlu
4. Çoban Məhəmməd
5. Xıdırov Yusif Nəbi oğlu
6. Hüseynqulunun qardaşı Budaq
7. Seyidov Mirağa Seyid Ağəli oğlu
8. Keçəl İsmayıl

**b) qayıdanlar**
1. Quliyev Məhəmmədəli Nəcəf oğlu
2. Xuduyev Firudun Hümbətalı oğlu
3. Quliyev Şadman
4. Quliyev Həbib
5. Pəno Musa
6. Molla Məhəmməd
7. Məhərrəmov Nəriman
8. İbrahimov Şadman Musa oğlu
9. Tağıyev Hidayət (Sarı Hidayət)

------------------

1. Camaat payız gələndə bu yurda düşərlərmış.
2. Mahmıtdılar düşərmiş.
3. Bu yurd dağın yalında yerləşir.

10. Xıdıroğlu Vəli
11. Xıdıroğlu Əli
12. Keçəl Müseyib
13. Soğansatan İsmayıl
14. Seyidov Əbülfəz
15. Seyidov Mirməcid
16. Seyidov Mirqasım
17. Nəcəfov Əli Məhəmməd oğlu
18. Dadaşov Abdulla Abbas oğlu
19. Quliyev İsmayıl Cəfər oğlu
20. Çoban Müseyibin oğlu İsmayıl
21. Xıdıroğlu Vəli Xıdır oğlu
22. Xıdırov Əli Xıdır oğlu
23. Qənbərov Müseyib Əbdülkərim oğlu

## Qozulca kəndindən olan Seyidlər

1. Seyid Əli ağa (Qoca Seyid) ocağı
2. Seyidov Mir Hadı
3. Seyidov Mir Məcid
4. Seyidov Əbülfəz
5. Seyidov Yusif
6. Seyidov Mir Səmeh
7. Seyidov Mir Abbas
8. Seyidov Ağəli
9. Seyidov Mirməhəmməd
10. Seyidov Mirqasım
11. Seyidov Mir Nəzir

## Qozluca kəndindən olan adlı-sanlı adamlar

Qeyd etmək lazımdır ki, Qozulca kəndindən həm qədim, həm də sonrakı dövrlərdə xeyli adlı-sanlı, tanınmış-seçilən adamlar olmuşdur ki, bunlardan bəzilərinin adını çəkmək gələcək nəsillər üçün, Dərələyəzi tədqiq edəcək adamlar üçün faydalıdır:

Kalbay Tağı, Kalbay Tağı oğlu Kalbay Qənbər, Kalbay Qənbər oğlu Qlava Sadıx (20 il 16 kəndin qlavası olmuşdur), Kalbay Qənbər oğlu Xudu kişi (dövrünün haqsızlığına qarşı mübarizə apardığı üçün Sibirə sürgün edilmişdir), Kalbay Qənbər oğlu Qurban (cəngavər, ermənilərə qan udduran olub, boyu 2 metr imiş), Kalbay Qənbər oğlu Hacı Səfərəlı, Abdulkərim Qurban oğlu (Nikolay dövründə uryadnik işləyib), Hacı Səfərəlı oğlu Kalbay Nəcəfalı (çox varlı adam olub), Xudu oğlu Hacı Əli (varlı adam olub), Qənbərov Məhəmməd Əbdülkərim oğlu (el ağsaqqalı, sovet sədri, kolxoz sədri, rayon icra hakimiyyətində işləyib), Quliyev Məhəmmədəli Nəcəf oğlu, Xıdıroğlu Nəbi (igid, döyüşkən adam olub), Qənbərov Məcid Əhməd oğlu (orta məktəbdə direktor işlə-

yib), Kərimov Hüseyn Məhəmməd oğlu, Kərimov Vəli Məhəmməd oğlu (kimya zavodunda direktor müavini işləyir), Qəmbərov İsmayıl Hacı Əli oğlu, Səfərov Hüseyn Abdulla oğlu (kolxoz sədri işləyib), İbrahimov Şadman Musa oğlu (kolxoz və sovet sədri işləyib), Nəcəfov Əli Məhəmməd oğlu, Xıdıroğlu Nəbi (İgid adam olub, ermənilərin atasını yandırıb) və b.

### Qozluca kəndində kolxoz sədri işləmiş adamlar

1. Quliyev Qasım Nəcəf oğlu – kolxoz sədri
2. İsmayılov Rza Şahrza oğlu – kolxoz sədri
3. Tağıyev Hidayət (Sarı Hidayət) – kolxoz sədri
4. Xıdıroğlu Əli – kolxoz sədri

### Qozluca kəndindən yetişən alimlər və hüquqşünaslar

Əhmədov İdris Məcid oğlu – kimya elmləri doktoru, professor, Türkiyədə işləyir. Əhmədov Əhməd Məcid oğlu – kimya elmləri namizədi, Az.EA üzvi sintez institutunda çalışır. Nəcəfova Raya Əli qızı – kimya elmləri namizədi, Azərbaycan müəllimlər institutunun Sumqayıt filialının direktoru; Əliyev Nurəddin İsmayıl oğlu – biologiya elmləri namizədi, dosent; Nəcəfov İsa Əli oğlu – hüquqşünas, general-mayor, konstitusiya məhkəməsinin hakimi; Kərimov Əli Məhəmməd oğlu – hüquqşünas, polis mayoru; Quliyev Ənvər Məhəmmədəli oğlu – hüquqşünas, polis polkovniki; Quliyev Xanlar Məhəmmədəli oğlu – hüquqşünas, mayor; Kərimov Tofiq Əli oğlu – hüquqşünas, Nəsimi rayonu prokurorunun müavini; Qənbərov Əhməd Abdulla oğlu – hüquqşünas, Quba, Dəvəçi, Lənkəran rayonlarında uzun müddət prokuror işləyib; Kərimov Elçin Vəli oğlu – polis zabiti; Kərimov Elşad Əli oğlu – polis zabiti.

**İnformator:** Kərimov Əli Məhəmməd oğlu – 75 yaşında, hüquqşünas, hal-hazırda Sumqayıtda yaşayır.

## QURBANKƏSİLƏN

Qurbankəsilən Dərələyəz mahalının Yeğeqnadzor rayonunda kənd adıdır. Sonralar bu kənd Əzizbəyov rayonunun ərazisinə daxil edilmişdir. Bu kənddə tarix boyu azərbaycanlılar yaşamışdır.[1] Tarixi və statistik məlumatlara əsasən, Qurbankəsilən kəndində 1873-cü ildə 163 nəfər, 1886-cı ildə 227 nəfər, 1897-ci ildə 323 nəfər, 1904-cü ildə 427 nəfər, 1914-cü ildə 470 nəfər, 1916-cı ildə 417 nəfər azərbaycanlı əhali yaşamışdır.[2] Kənd sakinlərinin ver-

---

1. Mirzəyev H. Qurbankəsilən, Ağdərə kəndləri haqqında, Filologiya məsələlərinə dair tematik toplu, № 6 (18), Bakı, 2001, s.64-65.

2. Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1029; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 92; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 357, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh.245.

diyi məlumata görə 1918-ci ildə bu kənddə 86 ailə olmuş və bu 86 ailədə 440 nəfər adam olmuşdur. Bu kənd Naxçıvan ərazisinə də yaxındır. Naxçıvanla kəndin arası 60 km-dir.

1918-ci ildə erməni quldur dəstələri Qurbankəsilən kəndinə hücum edir və kənd camaatı ilə vuruşurlar. Kənd sakinləri ermənilərin bu ilk hücumunun qarşısını alırlar. Lakin sonra camaat kənddən çıxıb Paşadüzə yığışırlar ki, oradan Naxçıvana və ya Kəlbəcərə getsinlər. Bu mümkün olmur və onlar Əmağu kəndinə gedirlər. Orda ermənilərlə çox vuruşmalar olur. Nəhayət, ermənilər hiyləyə əl atırlar. Ağ bayraq qaldıraraq kəndə gəlib, barışmaq istədiklərini bildiriblər. Ancaq kəndə girdikdən sonra kişiləri, uşaqları, qocaları qılıncla doğrayırlar. 1918-ci ildə Qurbankəsilən kimi xırda kənddə 93 kişi, 10 qadın, 7 uşaq öldürülmüşdür. Kənddə cəmi 49 kişi, 69 qadın və uşaq salamat qalmışdır. 24 ailə tamamilə məhv olmuş, 25 ailədən kişi nəsli kəsilmişdir. Qurbankəsilən kəndində 1918-ci ildə ermənilər tərəfindən öldürülmüş həmin adamların siyahısını burada verməyi lazım bilirəm. Lakin qeyd etməliyəm ki, həmin ölən 7 uşağın və 5 qadının siyahısını əldə edə bilmədim.

1922-ci ildə sağ qalan adamlar kəndlərinə qayıtmaq istəyiblər. Lakin ermənilər icazə verməyiblər. Kəndin camaatı Zeytə kəndində məskunlaşıblar. Bu kəndin torpaqları qonşu erməni kəndlərinə verilib. Zeytə kəndinin yaxınlığında olan bu kəndin indi xarabalıqları qalmışdır.

Kəndin qarşısındakı dağın üstündə kəmər qayalar var. Deyilənə görə həmin düzüm qayalıqda ziyarət olub. O ziyarətdə qurban kəsilərmiş. Elə kəndin adı da onunla bağlıdır.

1918-ci ildə Dərələyəzin Əzizbəyov rayonunun Qurbankəsilən adlı xırda bir kəndində ermənilər tərəfindən öldürülənlərin siyahısı:

1. Qaraxan oğlu Baba
2. Qaraxan oğlu Ələmdər
3. Usub oğlu Şadman
4. Usub oğlu Şükür
5. Xudayar oğlu Haxverdi
6. Hüseyn oğlu Tanırverdi
7. Hüseyn oğlu Vəli
8. Gülmalı oğlu Qaraş
9. Gülmalı oğlu Gülmalı
10. Gülmalı oğlu İsgəndər
11. Gülmalı oğlu Qəmbər
12. Gülmalı oğlu Ağalar
13. Gülmalı oğlu Bəylər
14. Yadigarın qardaşı Cəbrayıl
15. Cəbrayıl oğlu Bəyalı
16. Cəbrayıl oğlu Xanalı
17. Alhüseyn
18. Alhüseyn oğlu Alışan

19. Mirzəhüseyn oğlu Ələkbər
20. Allahverdi oğlu Ələmdar
21. Baba oğlu Ələmdar
22. Qəhrəman oğlu Göyüş
23. Qəhrəman oğlu Qayıb
24. Qəhrəman oğlu Qəhrəman
25. Mehbalı
26. Həsənqulu
27. Kəlbalı oğlu Məhərrəm
28. Allahyar oğlu Xanlar
29. Nəriman oğlu Bəhmən
30. İbrahim oğlu Rəhim
31. İbrahim oğlu Əsəd
32. Məmməd oğlu Mirzalı
33. Məmməd oğlu Ataş
34. Məmməd oğlu Bəylər
35. Məmməd oğlu Abtalıb
36. Ağalar qızı Hürü
37. Hətəm oğlu Əlabbas
38. Hətəm oğlu Şahverdi
39. Hətəm oğlu Fərhad
40. Şükür oğlu Şadman
41. Şükür oğlu İmran
42. Behbudalı oğlu Mehtiqulu
43. Behbudalı oğlu Muradalı
44. Hüseynqulu oğlu Nabat
45. Hüseynqulu oğlu Hacı
46. Gülməmməd oğlu Nəbi
47. Gülməmməd oğlu Alı
48. Kazım oğlu Kərim
49. Kazım oğlu Hüseyn
50. Ələsgər oğlu İsa
51. Ələsgər oğlu Elyas
52. Alı oğlu Hüseyn
53. İmamverdinin arvadı Səkinə
54. Allahverdi oğlu Kamran
55. Allahverdi oğlu Alı
56. Xanağa oğlu Soltanəli
57. Baxşəlı oğlu Ağamalı
58. Baxşəli oğlu Qoşnalı
59. Baxşalı oğlu Nağdalı
60. Mehbalı oğlu Lətif
61. Mehbalı oğlu Əli

62. Cəfər oğlu Ağamalı
63. İsmayıl oğlu Cəlil
64. İsmayıl oğlu Fərmayıl
65. İsmayıl oğlu Xəlil
66. Ağa oğlu Əlif
67. Təhməz oğlu Əmir
68. Əliyar oğlu Məhərrəm
69. Əliyar oğlu Fərman
70. Əliyar oğlu Şükür
71. Məmmədalı oğlu Möhsüm
72. Məmmədalı oğlu Hüseynxan
73. İsmayıl oğlu Həsən
74. İsmayıl oğlu Cəlil
75. İsmayıl oğlu Xəlil
76. İsmayıl oğlu Bayram
77. Kalbahəsən oğlu Şəkər
78. Kalbahəsən oğlu Musa
79. Kalbahəsən oğlu Əziz
80. Cəfərqulu oğlu Rəcəb
81. Cəfərqulu oğlu Nəcəf
82. Cəfərqulu oğlu Bayram
83. Bayram oğlu Əmirqulu
84. Bayram oğlu Rzaqulu
85. Cəfər oğlu Qafar
86. Qafar oğlu Abuzər
87. Qafar oğlu Əlif
88. Qafar oğlu Zeynalabdin
89. Qafar oğlu Rza
90. Cəfər oğlu Əstan
91. Əstan oğlu Rəcəb
92. Cəfər oğlu Nəcəfalı
93. Nəcəfalı oğlu Muradalı
94. Allahverdi oğlu İmamverdi
95. Cəfər oğlu Məcnun
96. Baxşalı oğlu Ağamalı

**İnformator:** Yuxarıda adları yazılan adamların siyahısını vaxtı ilə Qurbankəsilən kəndindən yaşlı adamlar yazmış, onlar da sonrakı nəslə ötürmüşlər. Bu siyahını mənə 1928-ci ildə həmin kənddə doğulub boya-başa çatan, indi isə Sabirabadın Şıxhacılı kəndində yaşayan Məhərrəmov Yusif Qurban oğlu vermişdir. Mənə verilən yazılı məlumatda həmin kəndlə bağlı hadisələrin hamısı verilmişdir. Hətta qaçaqaç dövründə iqlimə dözməyib ölənlərin də adları vardır. Gələcək nəsillər, tədqiqatçılar bunların hamısını geniş şəkildə şərh etməlidirlər. Mənim hal-hazırda 76 yaşım var, fiziki imkanlarım buna imkan vermir.

# QURDQULAQ

Qurdqulaq kəndi Yeğeqnadzor rayonunda olan qədim azərbaycanlı kəndlərindən biridir. Qurdqulaq kəndi Amağu, Qabaxlı, Zeytə və Xaçik kəndlərinin yaxınlığında yerləşir. Tarixi mənbələrdən məlum olur ki, 1873-cü ildə bu kənddə 336 nəfər, 1886-cı ildə 379 nəfər, 1897-ci ildə 470 nəfər, 1904-cü ildə 690 nəfər, 1914-cü ildə 760 nəfər, 1916-cı ildə 581 nəfər azərbaycanlı yaşamışdır.[1]

1918-ci ildə erməni şovinistləri kəndi dağıtmış, əhalisini qırmış və sağ qalanlar isə çox çətinliklə qaçıb kənddən çıxmışlar. Qaçqın düşənlərdən 1922-ci ildə kəndə cəmi 64 nəfər qayıtmışdır. Bunlar gəlib görüblər ki, bu kənddə İrandan və qonşu kəndlərdən xeyli erməni gəlib məskunlaşmışdır. 1926-cı ildə azərbaycanlıların sayı çox azalmışdır. Çünki azərbaycanlılar burada sıxışdırılır və kənddən çıxarılırdı.

Bu kəndin adı yerləşdiyi yerin relyefinə, iqliminə, şəraitinə görə əmələ gəlmişdir. Belə ki, Qurdqulaq kəndi böyük bir dərədəki çökəkdə yerləşir. Yaşlı adamların söylədiyi rəvayətə görə, bura tarixən Qurd (canavar) dərəsi adlanmışdır. Kənd yeri üçün əlverişli olduğu üçün qədimdən insanlar burada məskən salmışlar.[2]

Qeyd etmək lazımdır ki, qədim türk dillərində "kulak" sözü dərə, çuxur, çökək mənasında işlənmişdir.[3] Keçmiş Sərdarabad bölgəsində də belə bir kənd (Qırdqulaq) olmuşdur.

Deməli, bu kəndin adı da sırf Azərbaycan mənşəli toponimdir. Lakin ermənilər Azərbaycana məxsus bu qədim izləri itirmək üçün 1846-cı ildə kəndin adını dəyişərək Belorabert qoymuşlar.

Bu kəndin ərazisində olan onomastik vahidləri biz Qabaqlı (Zeytə Qabaxlısı) və Zeytə kəndlərinə aid məlumatda verdiyimiz üçün burada təkrarlamağa ehtiyac hiss etmədik. Qurdqulaq kəndinin ərazisi də o biri kəndlərin ərazisi ilə qarışdırıldığı üçün həmin məlumatı orada verməyi lazım bildik.

Keçmiş Sərdarabad bölgəsində də belə bir kənd (Qurdqulaq) olmuşdur.

1949-cu ildə bu kəndin əhalisi də başqa kəndlər kimi Azərbaycana deportasiya edilmişdir. Bu kənddən də görkəmli və tanınmış adamlar çıxmışdır ki, bunlardan hal-hazırda politexnik institutunda professor vəzifəsində işləyən riyaziyyat elmləri doktoru Məhəmməd Dünyamalıyevi göstərmək olar.

--------------------

1. Свод статистических данных о населении Закавкаского края извлеченныз из посемейных списков 1886 г. Тифлис, 1893, №1030; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 92; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 358, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 245.

2. Mirzəyev H. Qurdqulaq kəndi haqqında, Filologiya məsələlərinə dair tematik toplu, № 5 (17), Bakı, 2001, s.67-68.

3. B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı, 1998, s.222.

**Repressiya qurbanları**

1. Abbasov Xudaqulu
2. Əliyev Bəyməmməd
3. Hümbətov Ələkbər
4. Novruzov Xalıqverdi (sağ qalıb)

**İnformator:** Yuxarıda göstərilən 4 nəfər repressiya qurbanlarının siyahısını həmin kənddə doğulub boya-başa çatan Dünyamalıyev Məhəmməd vermişdir.

## QUŞÇU

Quşçu Dərələyəzin Əzizbəyov rayonunda azərbaycanlı kəndidir.[1] Mənbələrdən məlum olur ki, 1897-ci ildə bu kənddə 631 nəfər azərbaycanlı yaşamışdır.[2] 1918-ci ildə ermənilər bu kəndin də əhalisini qırmış, kəndi dağıtmış, əhalisinin qalanını didərgin salmışlar. Bu dövrdən sonra Quşçu ölü kəndlər sırasındadır.

Tarixi və coğrafi mənbələrdən məlum olur ki, Quşçu toponimi quş (quşçu, quşak) tayfasının adını əks etdirir.[3] T.Əhmədov və Q.Qeybullayev göstərirlər ki, quşçu adı etnonimdir.[4]

Ermənistanın Abaran mahalında da Quşçu kəndi olmuşdur.[5] Qafqazda XIX əsrdə quş, quşu, quşçu adında 38 toponim qeydə alınmışdır. Quşçular adında Cəbrayıl rayonunda da kənd vardır. "Quşçu" toponimi qara hunlara - Quşanlara aid qəbilə adıdır. Şübhəsiz ki, hun dəstələri əksərən türkdilli qəbilələrdən ibarət olmuşdur.[6] Cəbrayıl rayonunda Quşçular bulağı var.[7]

Quşçu türk tayfasının adı ilə bağlı Azərbaycanda oronimlər də vardır. Şamaxı rayonunda Quşçu dağı, Daşkəsən rayonunda Quşçu dağı, Laçın rayonunun Quşçu kəndində Quşçu ayrığı, Quşçu qalası dağı, Xocavənd rayonunun Tyak kəndində Quşçular dağı, Gədəbəy rayonunun Göyəli kəndində Quşçunun yalı kimi oronimlər vardır.[8] Quşçu adında Qarabağda da toponim var və bu quşçu etnonimindən düzəlibdir.[9]

Qəbələ rayonunda Quşlar, Qəbələ, Kürdəmir, Daşkəsən, Yevlax, Laçın,

---------------------

1. Mirzəyev H. Dərələyəzdəki Quşçu, Novlar kəndləri haqqında, Filologiya məsələlərinə dair tematik toplu, № 6 (18), Bakı, 2001, s.77-79.
2. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995,s. 342-343.
3. B.Budaqov. Türk uluslarının yer yaddaşı. Bakı, 1994, s. 250, 80.
4. Г.Гейбуллаев. Топонимия Азербайджана, Баку, 1986, с. 65; T.Əhmədov. Azərbaycan toponimikasının əsasları. Bakı: 1991, s. 40.
5. Q.Qeybullayev. Qədim türklər və Ermənistan. Bakı, 1992, s. 65,69.
6. Ç.Kazımov. Cəbrayıl toponimləri. Bakı, 1995, s. 14.
7. Yenə orada, s. 41.
8. N.Məmmədov. Azərbaycanın yer adları (oronimiya), Bakı, 1993, s. 111.
9. A.İsmayılova. Dağlıq Qarabağ Muxtar Vilayətinin oykonimlərinin mənşəyinə dair. V.İ. Lenin adına APİ-nin 60 illiyinə həsr olunmuş elmi konfransın materialları. Bakı, 1981, s. 282.

Şamaxı rayonlarında Quşçu, Bərdə, Qasım İsmayılov rayonlarında Quşçular, Qazax rayonunda Quşçu Ayrım, Xanlar rayonunda Quşçu Armavir[1] kəndləri var. Quşçu adlı kəndlər Cənubi Azərbaycanda, Türkiyədə və Orta Asiyada da var.[2] Tarixçi Vidadi İsayev yazır: "Azərbaycanda bu tayfanın məskunlaşması ilə əlaqədar Göyçay, Quba, Şamaxı, Ağdaş, Qazax, Şuşa, Cəbrayıl, Ağdam, Daşkəsən, Gədəbəy və Zəngəzur bölgələrində quşçu və quşlar adı ilə 15-dən çox kənd və xeyli dağ, qala, yal adları vardır. Bunlardan biri də Yevlax rayonunda Quşçu gəndidir".[3]

...Quş və Quşçu toponimləri etnotoponimdir və Quşçu tayfasının adını əks etdirir. Quşçu etnonimi qazaxlarda Kuşş, başqırdlarda Kuşçi və Koşsi, türkmənlərdə Kuşçi, noqaylarda Kuşsi, qırğızlarda Kuşçi və b. fonetik formalardadır.[4] Bir sözlə, quşçu toponimi türk xalqlarına məxsus "Quşi" tayfasının adından götürülmüşdür.

Dərələyəzdəki bu qədim azərbaycanlı kəndinin 1590-cı və 1727-ci illərdə 2.200 ağça gəliri olmuşdur.[5]

## QUŞÇUBİLƏK (KEÇİD)

Quşçu kəndi Dərələyəzin Əzizbəyov rayonunda azərbaycanlı kəndidir. Bu kənd Keçud su anbarının yaxınlığında, rayon mərkəzindən 35 km məsafədə yerləşir. Bu kənd tarix boyu azərbaycanlılara məxsus olmuş və burada həmişə azərbaycanlılar yaşamışlar. Lakin 1828-ci ildə Rusiya ilə İran arasında bağlanan Türkmənçay müqaviləsindən sonra Çar Rusiyası Dərələyəzdə erməniləri məskunlaşdırmağa başladı. Yaşlı adamların dediyinə görə kəndin əhalisi əvvəllər ermənilərin bu kənddə məskunlaşmasına imkan vermirmiş. Bunun nəticəsidir ki, 1897-ci ildə Quşçu kəndində 631 nəfər azərbaycanlı olmuşdur.[6] Lakin sonralar bura İrandan köçürülmüş ermənilər gətirilmiş, azərbaycanlıların çoxu sıxışdırılaraq yaşadıqları evlərindən çıxarılmış və onların yeri ermənilərə verilmişdir.

1918-ci ildə erməni quldurları bu kənddə yaşayan azərbaycanlıları zorla qovub kənddən çıxarmışlar. Bundan sonra ermənilər bu kənddə azərbaycanlıların məskunlaşmasına mane olmuş və ermənilərin sayını artırmışlar. Bu səbəblər üzündən 1926-cı ildə Quşçu kəndində 703 nəfər erməni olmuşdur.

------------------

1. Azərbaycan SSR inzibati-ərazi bölgüsü. Bakı, 1968, s. 158.
2. A.Qurbanov. Azərbaycan dilinin onomalogiyası. Bakı, 1988, s. 311.
3. Vidadi İsayev. Yevlax sənədlərdə və yaddaşlarda. Bakı, 2001, səh. 84-85
4. B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998, s. 225.
5. Z.Bünyadov, H.Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, s. 60; Z.Bünyadov, H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri, Bakı, 1997, s. 36.
6. Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh.90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 342-343; Историческвя география Западного Азербайджана, Баку, 1998, стр.117, Kamil Dərələyəzli. Dərələyəz od içində, Bakı, 2001, səh.147.

12 noyabr 1946-cı ildə ermənilər kəndin adını dəyişib Quşçu-Keçud qoymuşlar.

Bir-birinə yaxın məsafədə olan Quşçu və Bilək kəndləri birləşib bir kənd təşkil etbiyi üçün buna Quşçubilək adı verilmişdir. İndi ölü kəndlər sırasındadır. Bu kəndin bir adı da Keçiddir.

## LEYLİQAÇAN//LEYLİKÖÇƏN

Azərbaycanlılara məxsus olan Leyliqaçan//Leyliköçən kəndi Dərələyəzin Əzizbəyov rayonu ərazisindədir. Dəniz səviyyəsindən 2027 metr yüksəklikdə olan Terp kəndinin yaxınlığında yerləşən bu kənd 1918-ci ilə qədər mövcud olmuşdur. 1918-ci ildə erməni daşnak və şovinistləri bu kəndi darmadağın etmiş, evləri yandırmış, əhalisini öldürmüş və qovmuşlar. Həmin vaxtdan kənd xarabalığa çevrilmişdir. Hal-hazırda kəndin uçuqları və qəbiristanlığın izləri qalmaqdadır.

Tarixi mənbələrdən məlum olur ki, bu kənddə 1873-cü ildə 139 nəfər, 1886-cı ildə 153 nəfər, 1897-ci ildə 352 nəfər, 1904-cü ildə 384 nəfər, 1916-cı ildə 442 nəfər, 1916-cı ildə 420 nəfər əhali yaşamış və bunların hamısı da azərbaycanlı olmuşdur.[1]

## MAĞOVUZ

Mağovuz məhləsi//maqovuzlar Dərələyəzin Ələyəz kəndindədir. Bu məhlənin adını yalnız yaşlı nəslin nümayəndələri (Alxanpəyəli Cəfərov Əhməd, Qalaserli Əlikişi, Ələyəzli Bayramqulu kişi) çəkərdi ki, bu adamlar uzunömürlülər sırasına daxildirlər. Bundan sonrakı nəslin nümayəndələri də (Ələyəzli Əyyub Hüseynov və Məcid Cəfərov) çəkər və deyərdilər ki, Ağdərədəki mağovuzlularla bunların qohumluğu vardır. Hətta bunlardan Laçında da yaşayanlar var.

Tarixi mənbələrdən məlum olur ki, "Oğuz" tayfasının adı "Ğuz", "Uz", "Az" formasında da işlənmişdir.[2] Mahmud İsmayılov yazır ki, Azərbaycanda "Ğuz" adlı soylar da olmuşdur.[3] Bizə elə gəlir ki, Murğuz dağ adının ikinci hissəsi də "Ğuz" tayfası ilə bağlıdır. Sözün birinci hecasına gəldikdə burada müxtəlif variantlar ola bilər, bu variantlar sırasında Mur hissəsinin Mil formasında olub-olmadığını, ğuz hecasındakı "u" saitinin tələbi ilə "r" səsinin "l" səsinə çevrilib-çevrilmədiyini də yoxlamaq, araşdırmaq lazımdır.

Murğuz dağ adını tədqiq edərkən bu dağın yaxınlığında, Tərtərlə həmsərhəd

---------------------

1. Свод статитстических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 г., Тифлис, 1893, №996; Z. Qorqodyan. Sovet Ermənistanı son yüzillikdə (1831-1931), İrəvan, 1932, səh.90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı 1995, səh.347; Историческая география Западного Азербайджана, 1998, стр.120.

2. Mahmud İsmayılov. Sənin ulu baban. Bakı, 1989, s.185; "Oğuznamə", bakı, 1987, s.216.

3. M.İsmayılov. Göstərilən əsər, s.185.

olan Ağdərə ərazisində Mağovuz adlı kəndi də yaddan çıxarmaq olmaz. Q.Qeybullayev haqlı olaraq göstərir ki, Mağovuz sözünün son hissəsi tayfa adıdır.[1]

Murğuz dağına yaxın yerdə Mağovuz kənd adının olması da əsas verir deyək ki, bu ərazidə Uz-Ğuz-Oğuz tayfası yaşamış və həmin dağ da bu tayfanın adı ilə adlanmışdır.[2]

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Q.Qeybullayevin Mağovuz kənd adının formalaşması haqqındakı fikri (Mağov-uz) bir qədər izaha möhtacdır. Bu kənd adının başqa şəkildə Mağoğuz// mağovuz formasında da əmələ gəldiyini güman etmək olar. Belə ki, türk dillərində ğ-x-v səsləri bir-birini əvəz edə bilir. Məsələn, Azərbaycan dilindəki dağ sözü bəzi türk dillərində tav (qumıq) formasında işlənir (Dağlara qar yağıbdı – Tavlağa qar yağıbdı). Naxçıvan dialektində yaxın sözü yavıq şəklində işlənir (yaxın gəl – yavıq gəl). Bəlkə də sözün asan tələffüzü üçün Mağouz əvəzinə mağovuz deyilmişdir. Bundan başqa, Azərbaycanda tarixən mağ sözünün tayfa və kahin, həkim... mənalarında işləndiyini də nəzərdən qaçırmaq olmaz.

Bir sözlə, Mağovuz sözünün etimologiyası məsələsi bir qədər geniş şəkildə şərh olunmalı və mübahisə törədə biləcək məsələlərin hamısı bir-bir nəzərdən keçirilməli və aydınlaşdırılmalıdır.

Mağovuz toponiminin, məhəllə adının Dərələyəzdə olması göstərir ki, Dərələyəz oğuz tayfalarının ən qədim məskənlərindən biridir.

## MARATUZ QIŞLAĞI

Maratuz qışlağı Dərələyəz mahalının Əzizbəyov rayonunda azərbaycanlı kəndidir.[3] Bu kənd dəniz səviyyəsindən 2027 m yüksəklikdədir. Tarixi və statistik mənbələrin verdiyi məlumata görə, 1831-ci ildə 32 nəfər, 1873-cü ildə 166 nəfər, 1886-cı ildə 220 nəfər, 1897-ci ildə 242 nəfər, 1904-cü ildə 248 nəfər, 1914-cü ildə 273 nəfər, 1916-cı ildə 321 nəfər azərbaycanlı Maratuz kəndində yaşamışdır.[4] 1918-ci ildə kənd erməni daşnakları tərəfindən dağıdılmış, yandırılmış, əhalisi qırılmışdır. Həmin vaxtdan bura ölü kəndə çevrilmişdir. Bu kəndin xarabalıqları Çul kəndinin yaxınlığındadır. Yalnız kəndin binalarının uçuqları və qəbiristanlığın izləri qalmaqdadır.

--------------------

1. Г.Гейбуллаев. Топонимия Азербайджана, Баку, 1986, стр.66.

2. Həsən Mirzəyev. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz, Bakı, 1997, səh.181-182.

3. Mirzəyev H. Maratuz qışlağı, Alxanpəyəsi // Alıxan pəyəsi haqqında, Filologiya məsələlərinə dair tematik toplu, № 6 (18), Bakı, 2001, s.38-40.

4. Статистическое описание Нахичеванской провинции. СПб., 1833, стр.172; И.Шопен. Исторические памятники состояние армянской областе в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 619; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1007; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 347, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 247.

1918-ci ildə Yaponun göstərişi ilə kəndə od vurulmuş, əhalisi yandırılmış, qaçmağa imkan tapanlar isə yerindəcə güllələnmişdir. Dərələyəz mahalında olan kənd əhalisinin əksəriyyəti bir-birlərini tanıdıqları üçün həmin kəndin əhalisinə qaçhaqaç zamanı rast gəlməyiblər. Maraqlı bir fakt da ondan ibarətdir ki, kəndin adını İ.Şopen 1829-1832-ci ildə Maraduz qışlağı, 1873-cü ildə N.Zeydliç isə Maratuz kəndi kimi qeyd etmişlər. Kəndin əsl adı isə Maraldüz kəndi, yaxud Maraldüz qışlağı olmuşdur. Ağsaqqalların dediyinə görə, kəndin yuxarı hissəsində (Güneydə) yastı duzlu daşlar var. Qış aylarında həmin ərazi sıldırım qayalarla əhatə olunduğu üçün qar az olurdu. Çöl heyvanları, maral, dağ keçiləri, arğalı (qoyun) bu ərazidə daha çox qışladığı üçün kənd Maraldüzü qışlağı adlandırılmışdır. "Kəndin qədim qəbiristanlığı olmuş, daş qoçlar, çayın üstündə birtağlı daş körpü təqribən XIII-XV əsrlərə aid edildi".[1]

## MARTİROS

Martiros Dərələyəzin Əzizbəyov (Paşalı) rayonu ərazisində yerləşən azərbaycanlı kəndinin adıdır. Rayon mərkəzindən 6 km uzaqlıqda olan bu kənd Yazyurt çayının sahilindədir. Bu kənddə tarix boyu azərbaycanlılar yaşamışdır. Lakin Rusiya ilə İran arasında 1828-ci ildə bağlanan Türkmənçay müqaviləsindən sonra bu kəndə də İrandan çoxlu ermənilər gətirilir. Hökumət azərbaycanlıları sıxışdırıb evlərindən çıxarmış, başqa kəndlərə köçürmüş və bunların evlərinə erməniləri doldurmuşdur. Öz doğma evlərindən çıxmayan azərbaycanlılar isə ermənilərlə birgə kənddə yaşamağa məcbur olmuşlar.

Tarixi mənbələrdə göstərilir ki, 1831-ci ildə Martiros kəndində 95 azərbaycanlı yaşamışdır. 1852-ci ilə aid mənbədə də həmin rəqəm göstərilir və yazılır ki, burada 19 azərbaycanlı ailəsi yaşamış və bunlardan 48 nəfəri kişi, 47 nəfəri isə qadın olmuşdur. Bu zaman azərbaycanlılarla yanaşı 206 nəfər erməni məskunlaşmışdır ki, bunlardan 119 nəfəri kişi, 87 nəfəri isə qadındır.[2] Göründüyü kimi, çar hökumətinin himayəsi sayəsində burada ermənilər çoxalmış, azərbaycanlılar isə sıxışdırılıb çıxarılmışdır.

1590-cı illərə aid tarixi mənbədə Martiros kəndinin adı "Mardiros" şəklində verilmiş və göstərilmişdir ki, həmin kəndin 3.798 ağça gəliri olmuşdur.[3]

Fikrimcə, bu kəndin adı təhrif olunmuşdur. Bu söz əvvəllər mərd ulus formasında olmuşdur. Ermənilərdə və ruslarda "ə" səsi olmadığı üçün onlar "ə"

--------------------------

1. Kamil Dərələyəzli. Dərələyəz od içində. Bakı, 2001, səh.156-157.

2. И.Шопен. Исторические памятники состояние армянской областе в эпоху ее присоединения к Российской империи. СПб, 1852. Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1054; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 90; H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 247. Kamil Dərələyəzli. Dərələyəz od içində. Bakı, 2001, səh.163.

3. Ziya Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri, Bakı, 1996, səh.60. Bünyadov və H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh.36.

səsinin yerinə "a" səsini işlətmiş, "ulus" sözü də fonetik dəyişikliyə uğrayıb "iros" formasına düşmüşdür. Danılmaz faktdır ki, türk dillərində, o cümlədən Azərbaycan dilində "r-l, l-r" dəyişməsi qanunauyğun haldır. Məs.: zərər-zərəl.[1]

## MƏLİŞGƏ (MƏLİKŞAH)

Məlişgə kəndi Dərələyəzdə Yeğeqnadzor rayonunda kənd adıdır. Rayon mərkəzindən İstisu və Sisyana gedən magistral yolun yaxınlığında yerləşir. Rayonun böyük kəndlərindən biridir. Bu kənd də başqa kəndlər kimi tarixən azərbaycanlılara məxsus olmuşdur. Lakin 1828-ci ildə Rusiya ilə İran arasında bağlanan Türkmənçay müqaviləsindən sonra Nikolay hökuməti xaricdən gətirdikləri erməniləri strateji cəhətdən çox əhəmiyyətli və geniş sahəsi olan Məlişgə kəndində yerləşdirdilər və azərbaycanlıları buradan sıxışdırıb çıxartdılar.

Tarixi mənbələrdə göstərilir ki, 1831-ci ildə Məlişgə kəndində cəmi 54 adam yaşamışdır. Bunlardan 19 nəfəri azərbaycanlı, 35 nəfəri isə xaricdən gətirilmiş ermənilər olmuşdur. 1852-ci ildə ermənilərin sayı 241-243 nəfərə, 1886-cı ildə isə 949 nəfərə çatmışdır.[2] Göründüyü kimi, bu kənddə ermənilərin sayı artmış, azərbaycanlıların sayı isə azalmışdır. 1590 və 1727-ci illərə aid tarixi sənədlərdə göstərilir ki, bu illərdə Məlişgə kəndinin 5.042 ağça gəliri olmuşdur.[3]

Toponim Məlik şah adından törənmişdir. Toponimin tərkibindəki səslər metateza ilə (ş-k) yerlərini dəyişmiş, Məlikşah Məlisgə formasına düşmüşdür.

Məlişgə kəndinin azərbaycanlılara məxsus olmasına aid 1727-ci ilə aid aşağıdakı arxiv sənədlərinin surətini burada verməyi faydalı hesab etdik.

### "DƏRƏLƏYƏZ NAHİYƏSİNƏ TABE OLAN MƏLİKŞAH KƏNDİ

Yusif Turab oğlu – bennak; (Yusifin) oğlu İmaməli – subay; Əli Qədiməli oğlu – bennak – kəndxuda; (Əlinin) qardaşı Nəqdəli – bennak; Murad Şahqulu oğlu – bennak; (Muradın) qardaşı Əliqulu – subay; Məmmədəli Abdı oğlu – bennak; Xanəli Məsim oğlu – bennak;

Bennak – 6
Subay – 2
Yarım çift – 2

---

1. Bax: Həsən Mirzəyev. Azərbaycan dilində fel. Bakı, 1986, səh.103-106, 140-144; Həsən Mirzəyev. Müasır Azərbaycan dilində təsirli və təsirsiz fellər. Bakı, 1979, səh.63-74.

2. Статистическое описание Нахичеванской провинции СПб., 1833, стр. 168-169; И.Шопен. Исторические памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 615-618; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 92; H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 245.

3. Ziya Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri, Bakı, 1996, səh.59; Bünyadov və H.Məmmədov. Naxçıvan sancağının mufəssəl dəftəri. Bakı, 1997, səh.35, 299-300.

1 dəyirman – yarım il işləyir
1 dəyirman – yararsız haldadır
Gəlir:
Yarım (çift) üçün vergi – 50 (ağça)
Bennak vergisi – 108 (ağça)
Subay vergisi – 12 (ağça)
Buğda 11 kile – dəyəri 330 (ağça)
Arpa – 13 kile – dəyəri 260 (ağça)
Düyü – 2 kile – dəyəri – 30 (ağça)
Sumax – 2 kile – dəyəri 30 (ağça)
Kərdiyər – 20 kile – dəyəri 420 (ağça)
Pərinc – 5 kile – dəyəri 105 (ağça)
Kəlül – 4 kile – dəyəri 72 (ağça)
Mərcimək – 3 kile – dəyəri 54 (ağça)
Noxud – 2 kile – dəyəri 36 (ağça)
Kərəsnə – 5 kile – dəyəri 75 (ağça)
Pambıq – 8 man – dəyəri 560 (ağça)
Bal üşrü – 110 (ağça)
Meyvə üşrü – 150 (ağça)
Başqa yerdən gəlib bu kəndin torpağından əkib-becərmə işləri üçün istifadə edənlərdən alınan vergi – 170 (ağça)
Adəti-ağnam – 120 (ağça)
Ağıl vergisi – 300 (ağça)
Dəyirman vergisi – 30 (ağça)
Dönüm vergisi – 400 (ağça)
Əkin yeri üçün vergi – 100 (ağça)
Dəştibani vergisi və əkin yeri üçün tapü – 350 (ağça)
Bakirə qız və dul qadın üçün gəlin vergisi – 90 (ağça)
Badi-hava, işlənmiş günah, törədilmiş cinayət, qul və kənizlərin sərbəstlik almaları üçün vergi – 1.100 (ağça)
Yekun – 5.046 (ağça)“[1]

## MƏMƏRZA

Məmərza Dərələyəz mahalının Əzizbəyov rayonunda kənd adıdır. Bu kəndin azərbaycanlı yaşayış məskəni olması tarixi sənədlərdə də öz əksini tapmışdır.[1] Bu kənddə erməni yox, həmişə azərbaycanlılar yaşamışdır. Qədim vaxtlardan bu kənddə çobançılıqla məşğul olan bir neçə kürd ailəsi də olmuş-

--------------------

1. Ziya Bunyadov və H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh.299-300.

2. Mirzəyev H. Məmmədrza kəndi və buradakı onomastik vahidlər, Filologiya məsələlərinə dair tematik toplu, № 5 (17), Bakı, 2001, s.95-98.

dur ki, bunlar sonradan azərbaycanlılarla tam qaynayıb qarışmışlar. Tarixi və statistik mənbələrin verdiyi məlumata əsasən, Məmərza kəndində 1873-cü ildə 67 nəfər, 1886-cı ildə 52 nəfər, 1897-ci ildə 96 nəfər, 1904-cü ildə 104 nəfər, 1914-cü ildə 141 nəfər, 1916-cı ildə 106 nəfər azərbaycanlı yaşamışdır.[1]

Məmərza kəndi 1918-ci ildə erməni şovinistləri tərəfindən dağıdılmış, kənd əhalisinin çoxu qırılmış və tək-tək adamlar qaçıb qurtara bilmişlər.

1922-ci ildə yalnız 36 nəfər qaçqın öz kəndinə qayıda bilmişdir. 1926-cı ildə kənddə əhalinin sayı 77 nəfərə, 1931-ci ildə isə 104 nəfərə çatmışdır.[2] 1948-1953-cü illərdə azərbaycanlılar Ermənistandan deportasiya edilərkən bu kəndin əhalisi də zorla Azərbaycana köçürülmüş və ermənilər kəndi ləğv etmişlər.

1948-1953-cü illərin deportasiya dövründə Məmərza kəndi bütövlükdə Bərdə rayonunun Qarадəmirçi kəndinə köçürülmüşdür. Bunların bir hissəsi iqlim şəraitinə uyğunlaşmayıb dünyasını dəyişmiş, bir hissəsi isə 1954-cü ildə öz doğma rayonlarına qayıdıb, buradakı Terp kəndində məskunlaşmışdır. 1954-cü ildə qayıtmış bu ailələr təkrar olaraq 1988-ci ildə (120 təsərrüfat) ermənilər tərəfindən Əzizbəyov rayonunun Terp kəndindən qovulmuş, bir gün ərzində zorla kənddən çıxarılmışdır. Kənd əhalisi Azərbaycanın müxtəlif yerlərində məskunlaşmağa məcbur olmuşdur.

Məmərza kəndində olan onomastik vahidlər, əsasən, aşağıdakılardır:

**Tayfa, sülalə və nəsil adları**

1. Muradlılar
2. Hacalılar
3. Hacı Mehtililər
4. Ağa Məmmədlilər
5. Ağ kəndlilər

**Ləqəb və Ayamalar**

1. Burucu Yusif
2. Sınıqçı Hacı Fətulla

**Məhəllə adları**

1. Muradlılar məhəlləsi
2. Hacalılar məhəlləsi
3. Hacı Mehdi məhəlləsi
4. Ağa Məmmədəli məhəlləsi

**Sahə, örüş, kövşən adları**

1. Vəli şamı
2. Darı şamı

--------------------

1. Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893. №997; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), İrəvan, 1932, səh. 90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 347. H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 247.

2. Göstərilmiş əsərlər (son üç əsər) və həmin səhifələr.

3. Şamlar
4. Hüseynin çöpləri
5. Sarcalı

**Dərə adları**

1. Gen dərə
2. Arınc dərəsi
3. Qılınclı dərəsi

**Arxac adları**

1. Binə arxacı

**Qaya, çınqıl və kaha adları**

1. Kərimxan qayası
2. Məmmədrza çınqılı
3. Zal kahası
4. Yunlu kaha
5. Dərə yurd çınqılı
6. Güllü kaha
7. Qəribxan kahası

**Yol, cığır adları**

1. Məmmədrza yol yenəni
2. Aloy yol yenəni
3. Ağ kənd yolu
4. Kindivas yolu
5. Arınc yolu

**Biçənək adları**

1. Dərəyurd biçənəyi
2. Yuxarı şam biçənəyi
3. Hacı Mehdi biçənəyi
4. Qaya başı biçənəyi

**Meşə adları**

1. Sürgün meşəsi
2. Ağ kənd meşəsi
3. Çaykənd meşəsi

**Çay, bulaq, göl, gözə, bataqlıq adları**

1. Arpa çayı
2. Yusifin gölü
3. Qırxbuğum gölü
4. Baldırğanlı bulaq
5. Çeyil bulağı
6. Binə bulağı

7. Qılıclı bulağı
8. Südlü bulaq

**Qəbiristanlıq adları**
1. Qılıclı qəbiristanlığı
2. Məmmədrza qəbiristanlığı

**Ziyarətgah adları**
1. Məmmədhüseyn oğlu ziyarətgahı

**Yurd, dağ, yal, aşırım adları**
1. Nəbi yurdu
2. Ağamirzə yurdu
3. Qurban yurdu
4. Göy dağ
5. Arınc yalı
6. Murad təpəsi

**Abidə adları**
1. Şirəxana

## 1937-ci ilin repressiya qurbanları

1. Hacı Meyti oğlu Yusif
2. Əliyev Cəmil
3. Hüseynov Yunis Məşədi Hüseynalı oğlu

## 1941-1945-ci illərdə Böyük Vətən müharibəsinə gedənlər

Məmərza kəndindən 70 nəfərə yaxın müharibəyə getmiş və onlardan cəmi 5 nəfəri qayıtmışdır. Lakin biz bu 70 nəfərin hamısının adını öyrənə bilmədik.

**a) qayıtmayanlar**
1. Hüseynov Həsən Ağamirzə oğlu
2. Ağayev Şəmil
3. Ağayev Abbas
4. Muradov Mayıl
5. Nəcəfov Ağali
6. Namazov Şəmil
7. Məmmədrzayev Cəlal
8. Məmmədrzayev Müzəffər
9. İbrahimov Göyüş
10. İbrahimov Səməd
11. Həsənov Nəcəf
12. Həsənov İbrahim
13. Həsənov Hüseyn
14. Gilə oğlu Xəlil

15. Hüseynov Nəbi
16. Əsgərov Ağa

**b) qayıdanlar**
17. Hüseynov Hüseyn Ağamirzə oğlu
18. Mamedov Hacıbaba
19. Paşayev Behbud
20. Şirxanov Cəlal
21. Alıyev Pərvanə

**Məmərza kəndindən 1988-1990-cı illərdə aşağıdakı adamlar Qarabağda ölmüşlər**

1. Talıbov Rəhim
2. Paşayev Paşa
3. Orucov Famil
4. Orucova Nəzakət
5. Bəhmənov Möhübbət
6. Bəhmanova Dilarə
7. Salmanov Müşfiq
8. Kərimov Samran
9. Kərimova Firəngül
10. Kərimov Firuz
11. Kərimov Soltan
12. Bayramova Sara
13. Səməndov Bəylər
14. Səməndov Həmid
15. Səməndov Tariyel və b.

**Məmərza kəndindən 1988-1990-cı illərdə şəhid olanlar**

1. Hüseynov Sabir Ağa oğlu
2. Hüseynov Pənah Kinyaz oğlu

(Ölümlərindən sonra bunlar ordenə layiq görülüblər).

**İnformator:** Məmərza kəndində olan bu onomastik vahidləri və buradakı şəxslər haqqındakı məlumatı Məmərza və Terp kənd sakini, hal–hazırda Mehdiabad kəndində yaşayan ali təhsilli Hüseynov Həsən Hüseyn oğlu vermişdir.

## MƏŞƏDİLƏR

Məşədilər Dərələyəzdə kənd adıdır. Bu kənd Yeğeqnadzor (Keşkənd) rayonunun ərazisində, Alxanpəyəsi, Kaha, Bülbülölən, Qoytul kəndlərinin əhatəsində yerləşir.

1918-ci ildə kənd ermənilər tərəfindən dağıdılmış, kənd əhalisi Alxanpə-

yəsi kəndinə pənah gətirmiş və onlarla birlikdə ermənilərə qarşı döyüşmüşlər. Nəticədə hər iki kəndin sağ qalan əhalisi qaçmağa məcbur olmuşdur.

1921-ci ildə kəndə 15 nəfər adam qayıtmış,[1] 1922-ci ilə qədər burada yaşamış, lakin ermənilər bu kəndi bərpa etməyə imkan verməmiş və onlar Alxanpəyəsində məskunlaşmağa məcbur olmuşlar. Bir qədər sonra ermənilər hər iki kəndin əhalisini Ələyəz kəndinə köçürmüşdür. İndi hər iki kəndin xarabalıqları qalmaqdadır.

Bu toponimin izahına ehtiyac yoxdur. Hamı bilir ki, bu, Azərbaycana məxsusdur.

## MORZOV

Morzov kəndi Dərələyəzin Yeğeqnadzor rayonunun ərazisində Moz//Mor kəndinin yaxınlığında yerləşir və bu kənddə həmişə azərbaycanlılar yaşamışdır. Dərələyəzlə bağlı mənbələrin bəzilərində Moz kəndi ilə Morzov kəndi eyniləşdirilir,[2] bəzilərində isə yalnız Moz kəndinin adı çəkilir.[3]

Tarixi faktlar göstərir ki, bunlar ayrı-ayrı kəndlər olmuşdur. 1590-cı və 1727-ci ilə aid mənbədə Moz//Mor kəndinin 2.851 ağça, Morzov kəndinin 3.105 ağça gəliri olduğu göstərilir. Bu mənbədə Moz və Morzov kəndləri ayrı-ayrı kənd kimi göstərilir.[4] Qeyd etməliyəm ki, bu kənd uzun müddətdir ki, xaraba kəndlər sırasındadır.

Məsələnin daha aydın olması üçün 1727-ci ilə aid mənbədə bu iki kənd haqqında verilmiş məlumatı oxucuların nəzərinə çatdırıram.

### "DƏRƏLƏYƏZ NAHİYƏSİNƏ TABE OLAN MOZ KƏNDİ

Əmirbəy Həmzə oğlu – bennak; (Əmirbəyin) qardaşı Allahverdi – subay;
Bennak – 1
Subay – 1
Çift – 1
(1 qeyri-müsəlman)
1 bəzirxana – yararsız haldadır.
Gəlir:
Çift vergisi – 50 (ağça)

---

1. Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh.92; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh.363; Kamil Dərələyəzli. Dərələyəz od içində. Bakı, 2001, səh.201.
2. Ermanistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, s.263-264. Историческое география Западного Азербайджана. Баку, 1998, стр.137.
3. Həbib Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1967, s.245; Kamil Dərələyəzli. Dərələyəz od içində. Bakı, 2001, s.187.
4. Ziya Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri, Bakı, 1996, səh.59. Bunyadov və H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh. 35-36, 298, 301.

Bennak vergisi – 18 (ağça)
Subay vergisi – 6 (ağça)
İspəncə vergisi – 25 (ağça)
Buğda 5 kile – dəyəri 150 (ağça)
Arpa – 4 kile – dəyəri 80 (ağça)
Kərdiyər – 2 kile – dəyəri 42 (ağça)
Pərinc – 3 kile – dəyəri 63 (ağça)
Sumax – 1 kile – dəyəri 15 (ağça)
Pambıq – 2 man – (dəyəri) 150 (ağça)
Kəlül – 2 kile – dəyəri 36 (ağça)
Kərəsnə – 5 kile – dəyəri 75 (ağça)
Bal üşrü – 110 (ağça)
Meyvə üşrü – 120 (ağça)
Darı – 2 kile – dəyəri 30 (ağça)

Başqa yerdən gəlib bu kəndin torpağından əkib-becərmə işləri üçün istifadə edənlərdən alınan vergi – 85 (ağça)

Adəti-ağnam – 180 (ağça)
Bakirə qız və dul qadın üçün gəlin vergisi – 90 (ağça)
Dönüm vergisi – 400 (ağça)
Dəştibani vergisi və əkin yeri üçün tapu – 1.110 (ağça)
Badi-hava – 1.000 (ağça)
Yekun – 2.851 (ağça)"[1]

## DƏRƏLƏYƏZ NAHİYƏSİNƏ TABE OLAN MORZAV KƏNDİ

Allahverdi Xudaverdi oğlu – bennak; (Allahverdinin) qardaşı Abdal– bennak; Mənsurəli Bayramqulu oğlu – bennak; İmaməli İmamqulu oğlu – bennak; Fərzəli Cəbi oğlu – bennak;

Çift – 2
Yarım (çift) – 2
Bennak – 5
Gəlir:
Çift vergisi – 100 (ağça)
Yarım (çift) üçün vergi – 50 (ağça)
Bennak vergisi – 90 (ağça)
Buğda 4 kile – dəyəri 120 (ağça)
Arpa – 3 kile – dəyəri 60 (ağça)
Kərdiyər – 2 kile – dəyəri 42 (ağça)
Pərinc – 5 kile – dəyəri 105 (ağça)
Sumax – 1 kile – dəyəri 15 (ağça)
Meyvə üşrü – 100 (ağça)

-------------------------

1. Ziya Bunyadov və H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh. 301-302.

Kəlül – 4 kile – dəyəri 72 (ağça)
Mərcimək – 3 kile – dəyəri 54 (ağça)
Kərəsnə – 2 kile – dəyəri 30 (ağça)
Adəti-ağnam – 112 (ağça)
Başqa yerdən gəlib bu kəndin torpağından əkib-becərmə işləri üçün istifadə edənlərdən alınan vergi – 85 (ağça)
Dönüm vergisi – 500 (ağça)
Dəştibani vergisi və əkin yeri üçün tapu – 390 (ağça)
Bakirə qız və dul qadın üçün gəlin vergisi – 90 (ağça)
Badi-hava – 1.090 (ağça)
Yekun – 3.105 (ağça)[1]

## MOZ

Moz kənd adıdır və bu Dərələyəzin Keşkənd rayonu ərazisindədir. Arpa çayının cənub qolu boyu Keşkənddən Əzizbəyova (Soylana//Paşalıya) və İstisuya (Cermuka) gedən şosse yolunun üstündə yerləşir.[2]

Azərbaycanlılara məxsus olan bu qədim kənd əvvəllər çox böyük olmuş, lakin təbii fəlakətlər və digər səbəblər üzündən get-gedə kiçilmişdir. Bəzi mənbələrdə göstərilir ki, "VII-VIII əsrlərdə təqribən 10 min əhalisi olan Moz qəsəbəsi VIII əsrdə dağılmışdır".[3] Lakin sonralar bu qismən bərpa olunmuş, kənd halına düşmüş və burada əhali yaşamağa başlamışdır.

Tarixi mənbələrdən məlum olur ki, 1873-cü ildə kənddə 80, 1886-cı ildə 86 nəfər, 1897-ci ildə 145 nəfər, 1904-cü ildə 161 nəfər, 1914-cü ildə 177 nəfər, 1916-cı ildə 150 nəfər azərbaycanlı olmuşdur.

1917-ci ilin axırında və 1918-ci ilin əvvəllərində erməni millətçiləri kəndi dağıtmış, əhalisini qırmış və salamat qalanlarını isə öz yurdundan qovmuşlar. O zamandan kənd ölüdür. Binaların və qəbiristanlığın izləri qalır.[4]

Yaşlı adamların dediyinə görə həmin qəbiristanlıqlarda qəbirlərin üstündə çoxlu qoç daşlar olmuşdur. Lakin erməni şovinistləri tədricən bu qoç daşlarını götürüb məhv etmiş və türk xalqlarına məxsus tarixi izləri itirməyə çalışmışlar.

---

1. Ziya Bunyadov və H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh.298.
2. Mirzəyev H. Moz toponimi haqqında bəzi qeydlər, Pedaqoji universitet xəbərləri, humanitar elmlər seriyası, № 1, Bakı, 1998, s.99-101; Mirzəyev H. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz (monoqrafiya), Bakı, 1997, səh. 220-223.
3. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, s.363-364.
4. Статическое описание Нахичеванской провинции, СПб, 1833, стр.170-171; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1021; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 92; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 363-364, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 245; Историческая география Западного Азербайджана, 1998, стр.137.

Hətta Dərələyəzin bir çox yaşlı adamları, o cümlədən 150 il ömür sürmüş Qalaserli Əli kişi 1940-cı illərdə danışırdı ki, Moz kəndi vaxtı ilə çox böyük şəhər tipli əhali məskəni olmuşdur. Kotanlı kəndinin ərazisində olan təpəsidəlik dağdan vulkan püskürəndə Moz kəndinə də xətər yetirmişdir.

Erməni-müsəlman davasında (1918) bu kənddən qovulan adamların böyük bir hissəsi Naxçıvanın Şıxmahmud kəndinə köçmüşlər. Moz kəndinin sakini Molla Abdullanın nəvəsi, Her-Herli Aşıq (şair) Mehdinin arvadı və Aşıq Mehdinin özü Moz kəndi haqqında bir çox rəvayətlər bilirlər ki, bunlardan yeri gəldikcə bəhs edəcəyik.

1590-cı ilin yazılı mənbələrində Moz kəndinin adı həm də "Mor" kimi verilmişdir.[1] Çox güman ki, burada türk dillərinə məxsus r-z dəyişməsi, r-z- paralelliyi baş vermişdir (gör-göz, yaz-yar, yuxu yormaq – yuxu yozmaq) və s.

Bundan başqa həmin qədim mənbədə göstərilir ki, 1590-cı ildə Dərələyəzdə "Mozrov" adlı azərbaycanlı kəndi də olmuş və bunun gəliri 3.105 ağça təşkil etmişdir. "Moz" kəndinə aid gəlirin miqdarı isə 2.851 ağça göstərilmişdir. Başqa bir mənbədə isə "Moz" kəndinin adı yazılarkən onun qabağında mötərizə içərisində "Mozrov" sözü də yazılmışdır.[2] XIX əsr rus mənbələrində isə bu kəndin adı "Moz" şəklində verilmişdir.[3]

Qeyd etmək lazımdır ki, "Moz" adlı kənd Kəlbəcər rayonunda da vardır.[4] Bunların arasında nə kimi əlaqə olub-olmadığını müəyyənləşdirmək işi tarix, arxeologiya, coğrafiya, dil sahəsində çalışan alimlərin birgə səyindən asılıdır.

Çox təəssüf ki, Əziz Ələkbərlinin 1994-cü ildə nəşr olunan və bu məsələlərə həsr edilən dəyərli kitabında bu kənd qeydə alınmamışdır.[5] Qeyd etmək lazımdır ki, Azərbaycan xalqının tarixi, mənşəyi, soykökü haqqında fundamental kitablar yazan Qiyasəddin Qeybullayev Azərbaycan türklərinin təşəkkülü haqqında yazdığı kitabda "Moz" kəndinin adı ilə bu və ya digər şəkildə səsləşən məlumat vermişdir.

Müəllif yazır: "Alban tarixi"ndə Syunidə bir mahal Mozi adlandırılır (II kitab 16-cı səhifədə) və bu toponim Zəngəzurda Mazan-nənə sitayiş yerinin adında qalır.[6]

Müəllif göstərir ki, "Syuni" sözünü erməni tarixçiləri işlədir. Bu Urartu dilində "si-un" formasındadır. "Si" sözü türk tayfalarının, türk sülalələrindən birinin adıdır. Sonralar "si" sözü "sak" tayfa adı ilə birləşərək "Sisak", "Si sakları" mənasında, sonra da Sisikan-Sünik yer adlarını bildirmişdir. Türk tayfaları Göyçə gölünün ətraf ərazisində, indiki Sisyan rayonunda, Altay və Tuva əra-

------------------------

1. Bax: Ziya Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri, Bakı, 1996, səh.59.

2. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1996, səh.361-362.

3. Bax: Статическое описание Нахичеванской провинции. Санкт-Петербург, 1833, стр.170; Свод статических данных и население Закавказского края, Тифлис, 1893, №1021.

4. Bax: Azərbaycan SSR-in inzibati-ərazi bölgüsü, Bakı, 1968, səh.185.

5. Əziz Ələkbərli. Qədim türk-oğuz yurdu – Ermənistan, Bakı, 1994, səh.153-157, 133-137.

6. Qiyasəddin Qeybullayev. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, 1994, səh.191.

zisində və türk tayfaları yerləşən digər ərazilərdə məskunlaşmışdır.[1]

Qeyd etmək lazımdır ki, Dərələyəzin şimal tərəfində Göyçə gölü, şərq tərəfində isə Sisyan rayonu yerləşir. Eramızdan əvvəl 3-cü əsrdən başlayaraq eramızın X əsri də daxil olmaqla Dərələyəz Alban və Azərbaycan dövlətlərinin Sisakan-Sünik adlanan ərazisinə daxil edilmişdir.[2] Faktlardan göründüyü kimi, Moz kəndi olan ərazidə ayrı-ayrı dövrlərdə, əsasən, türklər yaşamışlar. Buradan belə bir ümumi nəticəyə gəlmək olar ki, "Moz", "Mor", "Mozrov" adları türk mənşəli sözlərdir və bir məna yuvasından əmələ gəlmişdir.

## NAMAZALI

Namazalı Dərələyəzin Yeğeqnadzor (Qamışlı dərə) rayonunda kənd adıdır. Bu kənd Arpa çayının üstündə çayın sağ tərəfində, Aynəzir kəndi ilə Dədəli körpüsünün arasında yerləşir. Kəndin adı Namazalı şəxs adından götürülmüşdür.

Qafqazın 1886-cı illərin statistik məlumatını əks etdirən və 1893-cü ildə çap olunan mənbədə yazılır ki, həmin dövrdə bu kənddə 35 ailə, 206 nəfər adam (183 kişi, 123 qadın) yaşamışdır. Məlumatda bu nə azərbaycanlıların, nə də ermənilərin siyahısında verilir. Deməli, bunlar başqa xalqların nümayəndəsi olmuşdur.[3]

Dərələyəzdəki Namazalı kəndindən söhbət düşəndə yaşlı adamlar deyirdilər ki, 1828-ci ildən sonra Nikolay hökuməti nə qədər çalışırdısa da bu kənddən azərbaycanlıları çıxarıb onların yerinə erməniləri yerləşdirə bilmirdi. Axırda hökumət bura hardansa xeyli müsəlman kürdlərini gətirib yerləşdirdilər ki, onlar bu ərazidə olan ermənilərin mal-qoyunlarını saxlasınlar. Lakin 2-3 ildən sonra onların əksəriyyəti köçüb başqa yerlərə getdilər ki, onlar azərbaycanlılarla üz-üzə gəlməsinlər. Bundan sonra Namazlı kəndinə öz əvvəlki sakinləri, azərbaycanlılar axışıb gəlməyə başladılar.[4] Lakin erməni şovinistləri Dərələyəzdən, Göyçədən Naxçıvana gedən yolda keçid rolunu oynayan, əvvəllər Dədəli kəndi kimi tanınan bu yaşayış məskənində azərbaycanlıları yaşamağa qoymadılar. Bu kəndin yaxınlığında olan Aynəzir kəndində çoxlu erməni ailələrini məskunlaşdırıb magistral yola nəzarəti öz əllərinə aldılar. Bundan sonrakı dövrlərdə azərbaycanlıların bu kənddə yaşamaq cəhdləri də boşa çıxdı. 1918-ci ildə erməni şovinistləri burada az miqdarda yaşayan azərbaycanlıları qırdılar. Həmin dövrdən bura ölü kəndlər sırasındadır. Mən 1948-1959-cu illərdə bu kəndin xarabalıqlarını dönə-dönə gəzmişəm. Kəndin qəbiristanlığı da dağıdılıbdı.

--------------------

1. Qiyasəddin Qeybullayev. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, 1994, səh.161-166; Q.Qeybullaev: К этногенезу азербайджанцев, т., I, Баку, 1991, сәщ.82, 83, 84, 85, 87, 530-531, 541.

2. Bax: Azərbaycan tarixi xəritələri, "Azərbaycan Ensiklopediyası", Nəşriyyat Poliqrafiya Birliyi. Bakı, 1994, 6, 8, 9, 10, 11 №-li xəritələr.

3. Свод статических данных о населении Закавказского края извлеченых из посемейных списков 1886 г, Тифлис, 1893, №1013.

4. Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh.92.

## NƏBİLƏR

Nəbilər Dərələyəzin ən qədim kəndlərindən biridir. Bu kənd Gülüdüzü, Qovuşuq və Qabaxlı kəndlərinin əhatəsində yerləşir, çox səfalı bir yerdədir.[1]

Alt tərəfində Quzey meşəsi, şərqində Canı meşəsi, arxasında Xudumoğlu adında təpələr, cənubunda isə Təkədonduran dağı və onun ətrafındakı yaşıl ormanlar yerləşir. Bu kənddə əyyam dövründən, qədim dövrlərdən qala, böyük bir kaha yerləşir. Bu kahada 1936-cı illərə qədər İmamalı oğlu İbrahim adlı şəxs yaşayırdı. İbrahimin əmisi oğlu İmamalı oğlu Baxış da 1 il bu kahada yaşadı. Mən onun canlı şahidiyəm. Uşaq vaxtı mən orada olmuşam.

Yalçın qayaların başındakı düzənlikdə yerləşən bu kənd çox məhsuldar bir yerdir. Burada yaxşı alma, armud meyvələri yetişir. Buz kimi bulaqları vardır.

Bu kəndin əhalisi əkinçilik, maldarlıq, arıçılıqla məşğul olmuşlar. Qaçaq Nəbini Həcərlə birlikdə kazaklar qovarkən bu kəndin sakini qorxmaz, döyüşkən, uzun ömür sürən Hüseynqulu oğlu Əli onlara kömək etmişdir. Kənd uzun müddət ayrıca kolxoz şəklində fəaliyyət göstərmişdir. Ermənistan hökuməti 1939-cü ildə kolxozları birləşdirmək, böyütmək adı altında bu kəndi Gülüdüzü kəndinə köçürdü və evlərini də yerlə-yeksan etdi. İndi həmin kəndin xarabalıqları qalır. Uzun müddət Gülüdüzü kəndində və başqa kəndlərdə kolxoz sədri işləyən Quliyev Qəşəm, Şamməd və Şuxeyib adlı şəxslər bu kəndin sakinləri olmuşlar. Təxminən 120 il ömür sürən Xəliloğlu bu kənddə yaşamışdır. Mənim doğma bibim bu kənddə ərdə olduğu və kəndin bir çox sakinləri qohumum olduğu üçün mən bu kəndin relyefinə, iqliminə, əhalisinə, tayfalarına yaxın bələdəm. Buradakı onomastik vahidlərin əksəriyyətini əzbər bilirəm.

Bu kəndin tarixi ilə bağlı çox maraqlı bir məlumatı burada verməyi faydalı hesab edirəm:

1976-cı ildə Nəbilər kənd sakini İmamalı oğlu Baxış ilə Qabaxlılı ovçu Qəhrəmanın oğlu Kamil Dərələyəzli Nəbilər kəndində Mahının Kahası adlanan yerin üstündə qədim qəbiristanlıqda qızıl axtararkən 7 küp tapıblar. Küpün 2-si bir metr, beşi isə təqribən iki metr, 1,80 m uzunluğunda olub. Küplərin içərisindən insan sümükləri və muncuqlar çıxıb.

Bu məlumatı mənə həmin küpləri qazıb tapan Kamil Dərələyəzli 24 aprel 2002-ci ildə, mənim işlədiyim kafedrada danışdı. Baxış kişi isə mənim bibimin əri idi. O bu əhvalatı Dərələyəzdə Gülüdüz kəndində mənə danışmışdı.

Qeyd edim ki, belə qəbirlər bu kəndə yaxın olan Hüseynqulular kəndində də üzə çıxmışdır.

Nəbilər kəndinin adı tayfa, nəsil adından götürülmüşdür.

**Tayfa adları**

1. Hacı Qurbanalılar
2. Təhməzdilər

---------------------

1. Mirzəyev H. Nəbilər kəndi və onun onomastik vahidləri, Filologiya məsələlərinə dair tematik toplu, № 5 (17), Bakı, 2001, s.117-119.

3. Abbasqulular
4. Sonqulular
5. Hacı Sadıxlılar (Hüseynqulular)
6. Abbasqulular
7. Xəliluşağı

**Məhəllə adları**
1. Xəlillər məhləsi
2. Şuxeyibgillər məhləsi
3. Mahı uşağı məhləsi
4. Hacı İmamalılar məhləsi
5. Sonqulular məhləsi
6. Təhməzdilər məhləsi
7. Hacı Qurbanalılar məhləsi
8. Hacı Sadıxlar məhləsi
9. Rəfigillər məhləsi

**Kövşən adları**
1.Xəliloğlunun qayasının başı
2. Xəliloğlunun yerləri
3. Meşənin başı
4. Təhməzin yerləri
5. Su ayrıcı
6. Səmiyənin demi
7. Arxqırağı
8. Pərinin yeri
9. Darı yeri
10. Qayanın başı
11. Xudum oğlunun yeri
12. Arxın altı
13. Qızıl almanın altı
14. Sutökülənlər
15. Torpaq xəndəyi
16. Armutluq

**Meşə adları**
1. Dal meşə
2. Nazpərinin meşəsi
3. Alapalıtlıq meşəsi
4. Cəvizdi dərə meşəsi
5. Təhməzin meşəsi
6. Sutökülən meşə

**Bərə**
Təhməzin bərəsi (uca sıldırım qayanın ortasından dar keçıd yolu). Bərə – əlçatmaz qayanın ortasında kiçik torpaq yer

**Qaya adları**
1. Təhməzin qayası
2. Su tökülən qaya
3. Xəliloğlunun qayası
4. Cığır qaya
5. Kahanın yanı qaya

**Bağ yerləri**
1. Pərinin armudluğu
2. Biçənəyin ayağı

**Kahalar**
1. Mahının kahası
2. Ağzı bir kaha
3. Təhməzin kahası
4. Arxın kahası
5. Sutökülənin kahası

**Biçənək adları**
1. Pərinin biçənəyi
2. Abasqulunun biçənəyi
3. Kaha başı biçənək
4. Əlinin biçənəyi
5. Böyük biçənək
6. Dal meşənin biçənəyi
7. Mahının biçənəyi
8. İmamalının biçənəyi

**Arxlar**
1. Nəbilər arxı
2. Ana arx
3. Su ayrıcı arxı
4. Meşə başı arxı

**Bulaqlar**
1. Söyüdlü bulaq
2. Kivişli bulaq
3. Sutökülənin bulağı
4. Çay qırağı bulaq

5. Qumlu bulaq
6. Dal meşənin bulağı

**Dərə adları**
1. Arx qırağı dərə
2. Qımın dərələri
3. Qaragüney dərəsi
4. Çınqıl başı dərə

**Qəbiristanlıqlar**
1. Nəbilər qəbiristanlığı
2. Köhnə qəbiristanlıq

**Ocaqlar**
1. Yanan ocaq (orada ev tikmək olmurdu. Abadlıq işləri aparanda öz-özünə dağılırdı).

**Çınqıl adları**
1. Təhməzin çınqılı
2. Dalmeşənin çınqılı
3. Nazpəri meşəsinin çınqılı

**Çaylar**
1. Canı çayı – kəndin alt tərəfindən axır. Kənddən uzaqdır.
2. Qaraqaya çayı – kəndin sağından axır, kəndə yaxındır.

**Həccə gedənlər**
1. Hacı Qurbanalı
2. Hacı Sadıx

## 1937-ci ildəki repressiya qurbanları

1. Quliyev İdris Əli oğlu
2. Quliyev Müseyib Əli oğlu

**İnformatorlar:** Onomastik vahidlər haqqında bu məlumatları mənə aşağıdakı adamlar vermişdir: 1. Cəfər Quliyev 72 yaşlı iqtisadçıdır, ömür boyu Gülüdüzüdə ferma müdiri və briqadir vəzifəsində çalışmışdır. 2003-cü ildə Sumqayıt şəhərində düqnyasını dəyişdi. 2. İmamalıyev Kərəm Baxış oğlu – 65 yaşlı (1937-ci il təvəllüdlü), ali təhsilli, ömrünün yarım əsrini Gülüdüzü kəndində yaşayan, hal-hazırda Bakıda məskunlaşan təqaüdçü. 3. Səfərov Mustafa Mollahəsən oğlu, 1926-cı ildə Gülüdüz kəndində doğulmuş, 1988-ci ilə qədər burada yaşamış, kolxoz sədri, briqadir vəzifələrində işləmiş, 2002-ci ildə Bakı şəhərində dünyasını dəyişmişdir. 4. Özüm (Həsən Mirzəyev).

## NOVLAR

Novlar Dərələyəz mahalının Yeğeqnadzor (Keşişkənd//Keşkənd) rayonunda kənd adıdır. Qədim oğuz yurdu olan Qərbi Azərbaycanın əksər kəndləri kimi, Novlar kəndi də tarixən azərbaycanlıların yaşayış məskəni olmuşdur. Statistik və tarixi mənbələrdən aldığımız məlumata əsasən, Novlar kəndində 1873-cü ildə 71 nəfər, 1886-cı ildə 100 nəfər, 1897-ci ildə 179 nəfər, 1904-cü ildə 285 nəfər, 1914-cü ildə 319 nəfər, 1916-cı ildə 217 nəfər azərbaycanlı əhali yaşamışdır.[1]

## NOVLU

Novlu Dərələyəz mahalının Yeğeqnadzor (Keşişkənd//Keşkənd) rayonunda kənd adıdır. Bu kənddə tarixən azərbaycanlıların yaşaması faktı tarixi sənədlərdə də öz əksini tapmışdır. Statistik və tarixi mənbələrin verdiyi məlumata əsasən Novlu kəndində 1873-cü ildə 157 nəfər, 1886-cı ildə 216 nəfər, 1897-ci ildə 215 nəfər, 1904-cü ildə 398 nəfər, 1914-cü ildə 437 nəfər, 1916-cı ildə 235 nəfər azərbaycanlı yaşamışdır.[2]

1918-ci ildə ermənilərin törətdikləri vəhşiliklər nəticəsində kənd dağıdılmış, əhalisinin bir hissəsi qırılmış, sağ qalanlar dağlarla çətin, keçilməz yollarla Naxçıvana qaçmışlar. Bu çətin yollarda da xeyli adam qırılmışdır. 1918-ci ildən etibarən bura ölü kəndə çevrilmişdir. Novlu kəndinin xarabalıqları Keşişkənd (Yeğeqnadzor) kəndinin yaxınlığında, dəniz səviyyəsindən 2208 m hündürlükdədir. İndi kəndin yerində yalnız bina uçuqlarının qalıqları və qəbiristanlığın izləri qalmışdır.

Qaçhaqaçdan sonra bu kəndi də ermənilər bərpa etməyə qoymayıblar. Bu kəndin əhalisinin bir hissəsi Gendərəyə getmişdir. Gendərəni də bərpa etməyə qoymadıqda oradan Qabaxlıya gəlib orada məskunlaşmışlar. Qabaxlıdakı (Canı Qabaqlısındakı) Nəbiyev Həsən, Nəbiyev İbrahim, dərzi Ağakərim Novlu kəndinin sakinləri olmuşlar.

Novlu sözü mənşə etibarilə Azərbaycan sözüdür. Bu kənddə çayın, bulağın suyuna nov qoyulduğu üçün kəndin adı Novlu qalmışdır. Başqa sözlə, bu kəndə verilən ad onun coğrafi relyefi ilə bağlıdır.

---------------------

1. Bax: Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1022; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 92; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 363, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh.245.

2. Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1023; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 92; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 363, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh.245.

## OĞBİN (VOĞBİN, OZBİN, OQBUN)

Oğbin – Dərələyəz mahalının Əzizbəyov (Paşalı) rayonunda kənd adıdır.[1] Bu kənd rayon mərkəzindən 30 km məsafədə olan Almalı (Xndzorud) kəndinin yaxınlıqlarında olmuşdur. Etnik tərkibi baxımından qarışıq kənd olmuşdur. Belə ki, rus-fars siyasətinin nəticəsində buraya köçürülən ermənilərin sayı ildən-ilə artmışdır. Tarixi və statistik məlumatlarda göstərilir ki, Oğbin kəndində 1831-ci ildə 37 nəfər, 1873-cü ildə 104 nəfər, 1886-cı ildə 169 nəfər, 1897-ci ildə 245 nəfər, 1904-cü ildə 483 nəfər, 1914-cü ildə 524 nəfər, 1914-cü ildə 524 nəfər, 1916-cı ildə 362 nəfər azərbaycanlı olmuşdur.[2]

1918-ci ildə erməni quldurlarının hücumları nəticəsində kənd dağıdılmış, əhalisinin bir hissəsi qırılmış, sağ qalanları isə qovulmuşdur. 1922-ci ildə 142 nəfər azərbaycanlı kəndə qayıtmışdır. Lakin onları burada rahat yaşamağa qoymamışlar. 1926-cı ildə bu kənddə 37 nəfər, 1931-ci ildə 53 nəfər azərbaycanlı yaşamışdır.[3]

Haqqında danışdığımız bu kəndin adını İ.Şopen Oqbun, Korkodyan Ozbin, Sabir Əsədov Voğbin, H.Rəhimoğlu Özbin formasında qeyd etmişlər. Fikrimizcə, Oxbin kənd adının ilkin forması Ox binəsi, daha sonra Ox binə, nəhayət Oxbin//Oğbin olmuşdur ki, bu toponim də Azərbaycan xalqına məxsusdur.

Dərələyəzlə maraqlanan tədqiqatçılar bu toponimi daha ətraflı şəkildə araşdırmalıdırlar.

## ORTAKƏND

Orta kənd Dərələyəz mahalının Yeğeqnadzor (Keşkənd) rayonunda kənd adıdır. Bu kənd rayon mərkəzindən 2 km şərqdə, Yeğeqnadzor qəsəbəsi ilə Başkəndin arasında yerləşmişdir.[4] Tarixi və statistik mənbələrdən alınmış məlumatlara əsasən, Orta kənddə 1897-ci ildə 686 nəfər erməni və 27 nəfər azərbaycanlı əhali olmuşdur. Bu kənddə məskunlaşan ermənilərin hamısı 1828-1830-cu illərdə İranın Xoy və Salmas vilayətlərindən, xüsusilə Soma kəndindən gələn mühacirlərdir.[5] Bunlar Orta kənddə məskunlaşdıqdan sonra tədricən

---

1. Mirzəyev H. Ozbin//Voğbin//Oqbun//Oğbin və Qayabas kəndləri haqqında, Filologiya məsələlərinə dair tematik toplu, № 7 (19), Bakı, 2001, s.22-23.

2. И.Шопен. Исторические памятники состояние армянской областе в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 611; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 90.

3. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 341, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 247.

4. Mirzəyev H. Ortakənd, Əlidərəsi, Ülkül kəndləri, Filologiya məsələlərinə dair tematik toplu, № 7 (19), Bakı, 2001, s.32-33.

5. Статическое описание Нахичеванской провинции, СПб., 1833, стр.168; И.Шопен. Исторические памятники состояние армянской областе в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр.615; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1024; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 364 Z.Bünyadov, H.Məmmədov. İrəvan əyalətinin icmal dəftəri, Bakı, 1996, s.59.

azərbaycanlıları sıxışdıraraq kənddən çıxarmışlar. 1918-ci ildə isə azərbaycanlılar tamamilə çıxarılmış, kənddə yalnız ermənilər qalmışdır. Bu kənd 1946-cı ilədək Orta kənd, 1946-cı ildən sonra isə Qladzor adlandırılmışdır.

1590 və 1727-ci ilə aid mənbələrdə göstərilir ki, həmin illərdə bu kənd Ortagöy və Obakey adlanmış və gəliri 4.725 ağça olmuşdur.[1]

Faktlar və araşdırmalar göstərir ki, bu kəndin adı onun relyefinə görə, ətrafında olan kəndlərlə müqayisədə tutduğu, yerləşdiyi yerə görə verilmişdir. Bu kənd indi rayon mərkəzi olan Keşkəndlə Baş kəndin və Məlişqə kəndinin arasında yerləşir. Başqa sözlə desək, bu kənd həm tarixən, həm də hal-hazırda bir çox kəndlərin əhatəsindədir. Tarixən bu kənd salınanda bu coğrafi relyef, bu şərait nəzərə alınmış və ona görə də bu kənd Orta kənd adlanmışdır. Rayonun başqa kəndləri kimi, bu kənd də tarixən azərbaycanlılara məxsus olmuşdur.

## ORTAKƏND (PƏNCƏ TAĞ)

Orta kənd Dərələyəz mahalının Əzizbəyov (Paşalı) rayonunda azərbaycanlı kəndidir. Xarabalıqları Almalı kəndinin yaxınlığında qalmışdır. Tarixi və statistik məlumatlara əsasən, Ortakənddə 1897-ci ildə 169 nəfər azərbaycanlı yaşamışdır.[2] Kəndin dağıdılması tarixi və ölü kəndə çevrilməsi haqqında dəqiq məlumat yoxdur.

## PAŞALI

Paşalı Dərələyəz mahalının Əzizbəyov (Paşalı) rayonunda azərbaycanlılar yaşayan kəndlərdəndir. Lakin tarixin müəyyən dövrlərində buraya İrandan ermənilər köçürülmüş və onlar yerli əhali ilə, yəni azərbaycanlılarla qarışıq şəkildə yaşamışlar. Ermənilərin zorakı təsiri ilə azərbaycanlılar sonra bu kəndi tərk etmişlər.



---------------------

1. Ziya Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri, Bakı, 1996, səh.59; Ziya Bunyadov və H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh. 35.

2. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 364; Историческая география Западного Азербайджана, Баку, 1998, səh. 120.

Tarixi və statistik məlumatlardan aydın olur ki,1897-ci ildə kənddə 39 nəfər azərbaycanlı yaşamışdır.[1] 1918-ci ildə oradan azərbaycanlılar tamamilə qovulmuş, kənd bütünlüklə erməni kəndinə çevrilmişdir. 1935-ci ildə bu kəndin adı dəyişdirilərək ona Əzizbəyov adı verilmişdir.

1590-cı və 1727-ci illərdə tarixi mənbələrdən aydın olur ki, Paşalı kəndinin gəliri 4224-4274 ağça olmuşdur.[2]

Paşalı toponimi də Azərbaycan xalqına məxsusdur.

Paşalı kəndinə aid bu vergi sənədləri isbat edir ki, bu kənd qədim zamanlarda da azərbaycanlı kəndi olmuşdur.

## "DƏRƏLƏYƏZ NAHİYƏSİNƏ TABE OLAN PAŞALI KƏNDİ

Əbülqasım Məmməd oğlu – bennak, (Pirəlinin) qardaşı Abbasəli – subay, Həmzəxan Tağı oğlu – bennak, (Həmzəxanın) oğlu Rəşid – subay.

Çift – 1
Bennak – 3
Subay – 2
1 dəyirman – yararsız haldadır
Gəlir:
Səh.297.
Çift vergisi – 50 (ağça)
Bennak vergisi – 54 (ağça)
Subay vergisi – 12 (ağça)
Bağda – 3 kile – dəyəri 90 (ağça)
Kərdiyər – 3 kile dəyəri 63 (ağça)
Pərinc – 2 kile – dəyəri 42 (ağça)
Kəlül – 3 kile – dəyəri 54 (ağça)
Sumax – 1 kile – dəyəri 15 (ağça)
Mərcimək – 3 kile – dəyəri 54 (ağça)
Kərəsnə – 3 kile – dəyəri 45 (ağça)
Meyvə üşrü – 110 (ağça)
Bal yüşrü – 110 (ağça)
alınan vergi subay vergisi, çift, dönüm, tapu, dəştibani və başqa vergilərdən əldə edilən gəlir: 2.900 (ağça)"[3]

-------------------

1. Статистическое описание Нахичеванской провинции, СПб, 1833, стр.170; И.Шопен. Исторические памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 619; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1055; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 347; Историческая география Западного Азербайджана, Баку, 1998, стр.120.

2. Z.Bünyadov, H.Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, s.60; Z.Bünyadov, H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh.36.

1. Z.Bünyadov, H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh. 315-316.

## PƏYƏDƏRƏ

Pəyədərə Dərələyəz mahalının Əzizbəyov (Paşalı) rayonunda azərbaycanlı kəndidir.

Tarixi və statistik mənbələrdən alınan məlumata görə, Pəyədərə kəndində 1897-ci ildə 20 nəfər azərbaycanlı yaşamışdır.[1] 1918-ci ildə erməni quldurları bu kəndi dağıtmış, camaatını qovmuş və buranı ölü kəndə çevirmişlər. İndi bu kəndin xarabalıqları Her-Her kəndinin yaxınlığında qalmışdır.

Pəyədərə toponiminin formalaşmasına gəldikdə demək lazımdır ki, bu mürəkkəb sözdür və Azərbaycan dilinə məxsus "pəyə" və "dərə" sözlərinin birləşməsindən əmələ gəlmişdir. Əslində bu dərədəki pəyə mənasındadır. Məlum olduğu kimi pəyə sözü mal-qoyun saxlanan tövlə, yer deməkdir. Əvvəllər mal-qoyun saxlanılan bu yer sonradan kəndə çevrilmişdir. Lakin şovinist ermənilər 20-ci ildən sonra azərbaycanlıların bu kəndi bərpa etməsinə imkan verməmiş və bu kənddən tək-tək sağ qalmış adamlar Dərələyəzdəki başqa kəndlərdə məskunlaşmışlar.

## POR

Por Dərələyəz mahalının Əzizbəyov (Paşalı) rayonunda azərbaycanlı kəndi olmuşdur. Tarixin bütün dövrlərində bu kənddə azərbaycanlılar yaşamışlar.[2]



Rusiya ilə İran dövləti arasında bağlanmış müqavilələrdən sonra 1828-1830-cu illərdən başlayaraq buraya ermənilər köçürülmüş, azərbaycanlılar öz doğma torpaqlarından sıxışdırılıb çıxarılmışlar. Belə ki, tarixi və statistik mənbələrdən aldığımız məlumata görə Por kəndində 1831-ci ildə cəmi 18 nəfər azərbaycanlı qalmışdır.[3] Sonrakı dövrlərdə bunlar da qovulmuş, kənd tamamilə ermənilərin əlinə keçmişdir.

1590-cı və 1727-ci illərdə Por kəndinin gəliri 3,739 ağça olmuşdur.[4]

-----------------------

1. Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh, 347.
2. Mirzəyev H. Por kəndi, Filologiya məsələlərinə dair tematik toplu, № 7 (19), Bakı, 2001, s.8-9.
3. Статистическое описание Нахичеванской провинции, СПб, 1833, стр.170; И.Шопен. Исторические памятники состояние армянской областе в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 619; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1056; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 347; H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar, Bakı, 1997, səh.247.
4. Z.Bünyadov, H.Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, s.60; Z.Bünyadov, H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh.35.

Por kəndinin vergi sistemi haqqında olan aşağıdakı sənəd bir daha təsdiq edir ki, bu kənd qədim dövrlərdə də azərbaycanlı kəndi olmuşdur.

**"DƏRƏLƏYƏZ NAHİYƏSİNƏ TABE OLAN POR KƏNDİ**

Məmməd Əmin oğlu – bennak;
Bennak – 1
İstifadəsiz qalan əkin yeri
Gəlir: Bennak vergisi – 18 (ağça)
Buğda – 2 kile – dəyəri 60 (ağça)
Arpa – 3 kile – dəyəri 60 (ağça)
Kərdiyar – 3 kile – dəyəri 63 (ağça)
Pərinc – 2 kile – dəyəri 42 (ağça)
Sumax – 1 kile – dəyəri 15 (ağça)
Kəlül – 1 kile – dəyəri 18 (ağça)
Mərcimək – 1 kile – dəyəri 18 (ağça)
Kərəsnə – 2 kile – dəyəri 30 (ağça)
Meyvə üşrü – 120 (ağça)
Adət-ağnam – 120 (ağça)
Ağıl vergisi – 200 (ağça)
Başqa yerdən gəlib bu kəndin torpağından əkib-becərmə işləri üçün istifadə edənlərdən alınan vergi – 85 (ağça)
Dönüm vergisi – 100 (ağça)
Dəştibanı vergisi və əkin yeri üçün tapu – 1.000 (ağça)
Badi-hava – 1.900 (ağça)
Bakirə qız və dul qadın üçün gəlin vergisi – 90 (ağça)
Yekun – 3.739 (ağça)"[1]

Vaxtın azlığı üzündən bu toponimin mənşəyini araşdıra bilmədim. Bu yük gələcək nəsillərin üzərinə düşür.

## PÜSYAN

Püsyan adlı kənd Dərələyəzin Əzizbəyov rayonunda olmuşdur. Bu kənd Zirək kəndi ilə çox yaxın bir məsafədə yerləşmiş və 1905-ci ildə erməni-müsəlman davasından sonra Zirək kəndi ilə birləşmişdir. Püsyan derivatlı toponimlər etnonim mənşəlidir.

Püsyan kəndinə yaxın başqa kəndlər də olmuşdur. Kəndin üstündə Kölkədaş deyilən böyük bir qaya vardı. Kənd həmin bu qayanın altında yerləşir. Püsyan kəndi dağıdıldıqdan sonra onların böyük bir hissəsi Şərur rayonunun Püsyan kəndinə, qohumlarının yanına gedib orada məskunlaşmışlar. Şərurun

---

1. Z.Bünyadov, H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh.313.

Püsyan kənd sakini olan, hal-hazırda Bakının Binə kəndində məskunlaşan, 1948-1950-ci illərdə Naxçıvan Dövlət Müəllimlər İnstitutunda tarix fakültəsində oxuyub oranı bitirən, həmin dövrdə mənimlə tələbə yoldaşı olan, sonralar Bakı Dövlət Universitetinin tarix fakültəsinin qiyabi şöbəsini qurtaran 80 yaşlı Rəbbil müəllim deyir ki, Şərurun Püsyan kəndi tarixən Dərələyəzin Püsyan kəndindən gəlmədir. Belə ki, Şərurdakı Püsyan kəndi onların qışlaq yeri olmuşdur. Yaz-yay aylarında isə onlar Əzizbəyov rayonunda olan doğma kəndlərinə gedər və mal-qoyunlarını orada saxlayarmışlar. 1955-1959-cu illərdə Dərələyəzdə, 1994-2000-ci ilərdə Bakıda Rəbbil müəllim şəxsən mənə bu kənd haqqında dönə-dönə məlumat vermişdir. Hətta Rəbbil müəllim deyir ki, son dövrlərə qədər Şərurun Püsyan kəndində olan evlərin bir hissəsi mal-qoyun kərməsindən hörülmüş evlər idi. Bu evlər son dövrlərə qədər qalırdı.

Dərələyəzlə bağlı tarixi mənbələrdən məlum olur ki, Dərələyəzdə olan ən böyük 9 tayfadan biri də Püsyan tayfası olmuşdur.[1]

Püsyan kəndi dağıldıqdan sonra onun əhalisinin bir hissəsi Dərələyəzdəki Ələyəz, bir hissəsi Qışdaq, bir hissəsi Kotanlı, bir hissəsi isə Qabaqlı kəndinə köçüb getmiş və orada məskunlaşmışlar. Qabaqlı kənd sakini Atakişi oğlu Həsən həmin Püsyan kəndindəndir. Ələyəz kəndində olan Savalan və İsmayıl adlı qardaşlar tarixən Püsyan kəndindən köçüb gələn ailələrdəndir.

Qafan rayonunda Püsyanlı adında kənd olması da maraq doğurur.

## RƏSULQIŞLAĞI

Rəsul qışlağı Dərələyəz mahalının Yeğeqnadzor (Keşişkənd) rayonunda azərbaycanlı kəndidir. Tarixi və statistik mənbələrdən alınan məlumatlardan aydın olur ki, Rəsulqışlağı kəndində 1831-ci ildə 23 nəfər azərbaycanlı yaşamışdır. 1918-ci ildə kənd dağıdılmışdır. Hal-hazırda ölü kəndə çevrilmiş Rəsulqışlağının xarabalıqları indiki Hors kəndinin yaxınlığında qalmaqdadır. Sonralar bu kənd ləğv edilmişdir.[2]

Kəndin adı şəxs adı və coğrafi termindən ibarətdir. Lap qədimlərdə bura həqiqətən qışlaq olmuşdur. Lakin əhali burada məskunlaşdıqdan sonra bu coğrafi obyekt qışlaq yox, kəndə çevrilmişdir.

---

1. Статистическое описание Нахичеванской провинции, СПБ., 1833, с. 80; Историческое география Западного Азербайджана. Баку, 1998, с.64–65.

2. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, səh.364. Историческая география Западного Азербайджана. Бакы, 1998, стр.137.

# SALLI

Sallı Keşkənd (Yeğeqnadzor) rayonunda azərbaycanlı kəndidir. Bu kənd Səlim gədiyindən gələn çayın, Dərələyəzdən Göyçəyə (Qaranlığa) gedən magistral yolun üstündə yerləşir.[1]



1831-ci ildə kənddə 77 nəfər, 1873-cü ildə 422 nəfər, 1886-cı ildə 560 nəfər, 1897-ci ildə 668 nəfər, 1904-cü ildə 624 nəfər, 1914-cü ildə 675 nəfər, 1916-cı ildə 678 nəfər azərbaycanlı əhali olmuşdur.[2] 1918-ci ildə daşnak quldur dəstəsinin başçısı Yapon və polkovnik Doluxanov bu kəndin əhalisinə divan tutmuş və əksəriyyətini qırmışlar. Salamat qalanlar pərən-pərən olmuş, hərəsi bir tərəfə qaçmışdır. 1922-ci ildə kəndə cəmi 147 nəfər qayıtmış, bu kənddə məskunlaşan ermənilərlə birgə yaşamağa məcbur olmuşlar. 1926-cı ildə bu kənddə azərbaycanlıların sayı 204, 1931-ci ildə 242 olmuşdur. Son illərdə bu rəqəm xeyli artmışdır.[3]

1948-1953-cü illərdə azərbaycanlılar rayonun başqa kəndləri kimi, bu kənddən də deportasiya olunmuş, Salyan rayonuna göndərilmişdir. Burada əhalinin bir hissəsi iqlimə uyğunlaşa bilmədiyi üçün Bərdənin İmirli kəndinə gəlmiş və orada da bəziləri yenidən doğma Sallıya qayıtmışdır. Nəhayət, 1988-ci ildə burada yaşayan azərbaycanlıların var-dövləti əlindən alınmış və kənddən qovulmuşlar. İndi həmin kəndin əhalisi Azərbaycanın müxtəlif bölgələrinə səpələnmişlər.

"Bu qədim azərbaycanlı kəndində X-XII əsrlərə aid tarixi abidələr, Alban kilsələri vardır".[4]

---------------------

1. Mirzəyev H. Sallı toponimi, Dil məsələlərinə dair tematik toplu, № 1, Bakı 1998, s.91-94; Mirzəyev H. Sallı və Civə kəndlərində tayfalar, kəhriz, bulaq və yer-yurd adları haqqında, Filologiya məsələlərinə dair tematik toplu, № 1-2, Bakı, 2001, s.68-70.

2. Статическое описание Нахичеванской провинции СПб, 1833, стр.166-167; И.Шопен. Исторические памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 615-616; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, стр. №974; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 92; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 346-396, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 245; Həsən Mirzəyev. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz. Bakı, 1997, səh.239-242.

3. Bax: Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, səh.364-365.

4. Yenə orada, səh.365.

Sallı kəndi aşıq və şairlər diyarı olmuşdur. "Cəlili" saz havasını yaradan, Aşıq Alının şagirdi Aşıq Cəlil, Aşıq Qulu, Şair Rzaqulu, Aşıq Mirzalı, Dələk Xələf, şair Alhüseyn, şair Təhməz, Alı, Əsəd, şair Məhəmməd (Aşıq Cəlilin qardaşı), şair Məhəmmədəli, nüfuzlu el ağsaqqalı, şair, adlı-sanlı hüquqşünas, filoloq, polkovnik Rəhman Mustafayevin atası Aşıq Bəhman və bir çox aşıqlar Sallıda yetişmişdir.[1]

Tarix, coğrafiya və dilçiliyə dair mənbələrdən aydın olur ki, Sallı toponimi türklərə məxsus "Sal" tayfasının adından götürülmüşdür. 1590-cı illər haqqında məlumat olan "İrəvan əyalətinin icmal dəftəri"ndə Sallı kəndi "Şayi" formasında da qeydə alınmış və göstərilmişdir ki, 1590-cı ildə bu kəndin 3.620 ağça gəliri olmuşdur. 1727-ci ili əks etdirən mənbədə göstərilir ki, Sallı kəndinin 3.620, Salçı kəndinin isə 2.999 ağça gəliri vardır.[2]

Bu mənbədə "Salçı" adında kənd də qeydə alınmış və bunun 2000 ağça gəliri olduğu göstərilmişdir. Fikrimizcə, bu təbii bir haldır, çünki Azərbaycan dilində tarixən -çı şəkilçisi müasir dilimizdəki -lı şəkilçisini də əvəz etmiş və bu son dövrlərə qədər öz izini saxlamışdır. Mirzə İbrahimovun "Kəndçi qızı" ("Kəndli qızı") buna canlı sübutdur.

Məşhur türkoloq N.A.Baskakov yazır ki, "Sal" tayfasının adı ilə "Salur" ("Salor", "Samur") tayfasının adı eyni mənşəlidir.[3]

Roza Eyvazovanın fikrincə, Çində Salarlar (Salorlar) tayfası vardır və bu Qaraman və Akman qəbilələrinin birləşməsindən yaranmışdır.[4] O, başqa bir yerdə yazır: "Biz Əfqanıstan ərazisindəki Çol, Çar, Sul, Sur coğrafi adlarını və "Sal", "Sar" tərkibli toponimləri eyni semantik mənalı, müxtəlif fonetik variantlı türk mənşəli adlar sayırıq".[5]

Məşhur tarixçi, böyük və yorulmaz tədqiqatçı Qiyasəddin Qeybullayev də Sal tayfası haqqında məlumat vermiş və göstərmişdir ki, Sallar VI əsrin ortalarında avarlarla döyüşmüşlər. Müəllif Salyan toponimini də sal tayfa adı ilə bağlayır.[6] O yazır: Sal tayfası Hun tayfalarındandır. Salar, Salor, Salur, Salcaq etnonimləri də Sal sözündəndir.[7]

Müəllif başqa bir əsərində yazır ki, bu etnonim keçən əsrdə Gürcüstanda "Salieti", Dağıstanda "Salian", Ermənistanın iki yerində "Sallı", Şimali Qafqazda "Sal çayı", "Sal çölü" formasında özünü mühafizə edib saxlamışdır.[8]

A.Qurbanov yazır ki, "Sal" tayfasının adı Oğuz səlcuqlarının Salqur (Salor) tayfasının adı ilə, şübhəsiz ki, eyni mənşəlidir.[9] Geniş areala malik olan

-------------------

1. Qulu Kəngərli. Erməni lobbisi. Azərbaycan faciəsi. Bakı, 1992, səh.6.
2. Ziya Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, s.59, 60; Ziya Bünyadov və Hüsaməddin Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh.35-36.
3. Н.А.Баскаков. Введение в изучение тюркских языков, М., 1969, с.13.
4. Roza Eyvazova. Əfqanıstanda türk mənşəli toponimlər. Bakı, 1995, s.96.
5. Yenə orada, səh.78, 95,133.
6. Г.А.Гейбуллаев. Топонимия Азербайджана, Баку, 1986, с.40.
7. Г.А.Гейбуллаев. К этногенезу азербайджанцев. Баку, 1991, с.56.
8. Г.А.Гейбуллаев. Топонимия Азербайджана. Баку, 1986, с.39-40.
9. A.Qurbanov. Azərbaycan dilinin onomalogiyası, Bakı, 1988, s.368.

Sal tayfasının müəyyən hissəsi Zaqafqaziyada yaşayır. Azərbaycandakı Salyan, Ermənistandakı Sallı, Gürcüstandakı Salieti (Sal-eti) toponimləri Sal tayfasının adı ilə bağlıdır.[1] O, N.A.Baskakova əsaslanaraq göstərir ki, uyğurların 35 minlik bir hissəsi indi də Salar adlanır.[2]

V.A.Nikonov yazır: Don çayının sol qollarından birinin adı Sal çayı adlanır.[3] V.O.Bondalov da Sal sözünün türk mənşəli ad olduğunu və bunun hidronim kimi işləndiyini göstərir.[4]

Krım ərazisində 4 adda Sala və Kiçik Sala, Şamaxıda Salar (Saler), Qazaxda Salaoğlu adında kəndlərin olması, "Kitabi-Dədə Qorqud"da Salur Qazan adının işlənməsi də göstərir ki, Sal sözü geniş ərazidə yayılan ən qədim türk tayfalarından birinin adıdır.

Yeri gəlmişkən qeyd edim ki, Sal sözü ilə bağlı xalq arasında bir bayatı da vardır.

Mən aşıq Sala dağlar,
Gün çıxdı Sala dağlar.
Tutaydım yar əlindən,
Çıxaydım Sala dağlar.

Sallı kəndinin yer-yurd adları haqqında əldə etdiyim məlumat aşağıdakılardır. Gələcək nəsillər mən toplaya bilmədiyim onomastik vahidləri toplayıb bura əlavə etməlidir.

**Tayfa adları**

1. Kəntərlilər tayfası
2. Çərəli tayfası
3. Saralı tayfası
4. Yeməzdi tayfası
5. Ayrımlılar tayfası
6. Mehralılar tayfası
7. Bəyişlər tayfası

**Məhəllə adları**

1. Yeməzdi məhləsi
2. Ayrıllılar məhləsi
3. Çərəli məhləsi

**Yer adları**

1. Şəyəldi güneyi
2. Tap
3. Şorrar

--------------------

1. A.Qurbanov. Azərbaycan dilinin onomalogiyası, Bakı, 1988, səh.369.
2. Yenə orada, səh. 368.
3. В.А.Никонов. Краткий топонимический словарь. М., 1966, с.364.
4. В.О.Бондалов. Русская ономастика. М., 1983, с.196.

4. Quşxana yeri
5. Qəyənin altı
6. Qanqallı yer
7. İt qırılan yer
8. Məmməd gedən yer
9. Bəylik yeri
10. Göyürkə
11. Almalıq
12. Şamlıx
13. Eşşək güneyi
14. Qancıq ölən
15. İlgək itən
16. Qojanın qəbri
17. Çərəli yerləri
18. Qarağat yerləri
19. Dərə yerləri
20. Üzümlük
21. Dolayılar
22. Quşxana yoxuşu
23. Paşa bağı
24. Qurd təpəsi
25. Qurqan başı

**Qaya adları**
1. Ballı qaya
2. Sarı qaya

**Dərə adları**
1. Bəhmənin dərəsi
2. Quru dərə
3. Söyüdlü dərə
4. Qazax dərə
5. Fındıqlı dərə

**Yol adları**
1. Səbətkeçməz
2. Baş yol
3. Selim yolu

**Yaylaq, yurd, dağ adları**
1. Bəyəli yurdu

**Kaha adları**
1. Zeynal kaha
2. Qozlu kaha

**Bulaq və çay adları**

1. Navlı bulaq
2. Almazın bulağı
3. Qazı bulağı
4. Mərdanın bulağı
5. Qulunun bulağı
6. Qilbə bulağı
7. Xanım bulağı
8. Gümüş bulaq
9. Pırt-pırt bulaq
10. Sallı çayı

**Sallı kəndindən 1941-1945-ci il Böyük Vətən müharibəsinə gedənlər**

**a) qayıtmayanlar**

1. Bayramov Muxtar – qəhrəmanlıqla həlak olmuşdur. Sovet İttifaqı Qəhrəmanı adına təqdim edilmiş, naməlum səbəbdən verilməmişdir. Sallı kənd 7-illik məktəbi onun adını daşıyırdı. Bu ad azərbaycanlılar 1949-cu ildə Sallıdan deportasiya ediləndən sonra məktəbə verilmişdir.
2. Mirzəyev Pirəli
3. Pənahov Nəbi
4. Kərimov Şahsuvar
5. Keçəl Eylas
6. Kamil Alcəfər oğlu
7. İsmayıl Kəlbəli oğlu

**b) qayıdanlar**

8. Məmmədov Bayram
9. Mirzəyev Hüseyn
10. Bayramov Fətəli
11. Fərzəliyev Məcid
12. Mustafayev İbrahim
13. Mustafayev Alışan
14. Mehrəliyev Möhbalı
15. Hüseynov Eylas
16. Mehrəliyev Mürsəl
17. Vəliyev Qurban
18. Məmmədov Şamo
19. Məmmədov Nəcəf
20. Məmmədov Allahverən
21. Kərimov Zülfüqar
22. Fətullayev Usub
23. Hüseynov Qiyas
24. Rüstəmov Lətif

25. Sərxanov Surxay
26. Hüseynov Mirzəhüseyn
27. Dımı Məhəmməd

Bu qayıdan adamlardan altısı şikəst, bir çoxu da ağır xəstə vəziyyətində qayıtmışdır.

**İnformatorlar:** Sallı kəndinin onomastik vahidləri haqqında 20 il bundan öncə dünyasını dəyişən sinədəftər, canlı ensiklopediya, el ağsaqqalı Həziyev İman 63 yaşında olarkən mənə xeyli məlumat vermişdir. Bundan başqa, həmin kənddə anadan olan hüquqşünas, filoloq, polis polkovniki Rəhman Mustafayev və 20 il bu kənddə həkim işləyən Qovuşuq kənd sakini Səməndər Fərzəliyev də bu kəndin toponimləri və 1941-1945-ci illərdə müharibəyə gedənlər haqqında məlumat vermişdir.

## SALSAL (SAL-SAL) QALASI

Salsal Dərələyəzdə çox qədim, əzəmətli və məşhur bir qalanın adıdır. Bu qala Keşkənd (Yeğeqnadzor) rayonunda Ələyəz, Hosdun, Həsənkənd, Erdəpin, Horbadıq adlı kəndlərin əhatəsində, uca bir qayanın başında tikilmişdir.[1] Strateji cəhətdən çox əhəmiyyətli yerdə tikilmiş bu qalanın içindən rayondakı kəndlərin, yolların, keçidlərin, aşırımların, gediş-gəliş cığırlarının əksəriyyətini nəzarətdə saxlamaq, hücumların qarşısını almaq mümkündür.



Qala çox uca və sıldırım qayanın başında tikildiyi üçün ona üç tərəfdən çıxmaq çox çətindir. Qalanın iki qapısı vardır. Əsas yolu isə şərq tərəfdəki (Ələyəz kəndi tərəfdəki) yalın üstündəndir. İkinci qapısı isə Erdəpin və Horbadıq kəndləri tərəfdəndir. Bu, əsas qapıya nisbətən bir qədər balacadır. Bundan başqa, qalanın qərb (günbatan) tərəfində, Hosdun və Həsənkənd səmtində divarın özülündə çıxış üçün gizli bir kiçik qapı da vardır ki, bu daş ilə hörülmüşdür. Bu qapını yalnız qalanın içindən açmaq olar. Bunun üçün həmin daşı qalanın içindən bayır tərəfə itələməlisən. Bu daşın eni təxminən 60 sm, uzunluğu isə bir metrdir.

Qeyd etməliyəm ki, Salsal qalasının sahəsi çox böyükdür. Uzunluğu enindən çoxdur. O neçə-neçə hektar sahəni əhatə edir. Qalanın şimal və cənub tə-

-------------------

1. Bax: Mirzəyev H. Salsal (Sal-Sal) qalası, Dil məsələlərinə dair tematik toplu, № 1, Bakı, 1998, s. 3-10; Mirzəyev H. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz (monoqrafiya), Bakı, 1997, səh. 242-251.

rəflərində xeyli miqdarda, təxminən 3 mx4 m ölçüdə xeyli yaşayış yerlərinin (otaqların) qalıqları da vardır. Qalanın ortasında isə sahəsi 25-30 kvadrat metr həcmində bir nəzarətçi otağı və ucalığı təqribən 10-15 m hündürlükdə olan nəzarətçi yeri vardır ki, bu qüllənin daşdan olan qalıqları indi də qalmaqdadır.

Qalanın yonulmuş iri daşlardan hörülən divarlarının eni 2-3, ucalığı isə 3-5 metr olar.[1] Qaladan ətrafı müşahidə etmək və düşmənə atəş açmaq üçün divarların yuxarılarında xırda-xırda pəncərələr (taxçalar) qoyulmuş və adamların boyu həmin yerə çatsın deyə divarın dibi ilə ayaqaltı daşlar hörülmüşdür.

Qala sıldırım qayanın başında tikildiyindən orada su yoxdur. Buraya təxminən 4-5 km məsafədən (Qarabulaqdan Qoşavəngə gətirilən sudan) gizli yollarla su çəkilmişdir.[2] 4-5 düymə diametri olan saxsı tünglər (borular) təxminən bir metr dərinliyində yerə basdırılmış və həmin tünglər vasitəsilə qalaya su aparılmışdır.

Mən 1955-ci ildə Salsal qalasına çıxanda həmin saxsı tüngləri öz gözümlə görmüşəm. Ələyəz kəndindən dağ yolu ilə Horbadıq kəndinə gedəndə yolda "Kötürkə" adlanan yerdə sel yeri eşib xəndək eləmiş və həmin saxsı tünglər üzə çıxmışdır. Salsal qalasını və ora saxsıdan çəkilmiş su tünglərini Dərələyəz camaatının çoxu görmüşdür.

"Belə bir rəvayət söyləyirlər ki, qalanın məğlubedilməzliyini hiss edən düşmən bir qatırı bir həftə qaranlıq yerdə su vermədən saxlayır və yemləyir. Sudan korluq çəkən qatırın gözlərini bağlayaraq qalanın qapısı tərəfə aparırlar. Qatır xeyli gəzəndən sonra torpağı dırnağı ilə eşməyə başlayır. Həmin yeri qazırlar, qalaya gedən su kəmərini tapıb kəsirlər. Sudan korluq çəkən qoşun əhlinin bir hissəsi gizli yolla qalanı tərk edir, bir hissəsi isə təslim olmaq məcburiyyətində qalır".[3]

1905-1907, 1918-1919-cu illərdə erməni-müsəlman davalarında Salsal qalasını əldə saxlamaq üçün çoxlu döyüşlər getmiş və qala əksər vaxtı azərbaycanlıların əlində olmuşdur. Yaşlı adamların, erməni-müsəlman davalarının iştirakçıları və şahidlərinin söylədiklərindən məlum olur ki, 1905-1907, 1918-1919-cu illərdə Salsal qalası üstündə gedən döyüşlərdə və qaladan erməniləri çıxaran vaxtlarda Gülüdüzlü Şahbazoğlu Calal, Horbadıqlı Haceyvaz, Nəbilərli Hüseynqulu oğlu Əli, Hostunlu Məşədməmmədxan, Canılı Usta Mehdi, Calalbəy, Məşəd İmran, Cabbar, Ərgəzli Mirsəqulu, Qabaxlı Ovçu Qəhrəman, Gendərəli Əsəd və oğlu Həsən, Ələyəzli Qaçaq Talıb, Qalaserli Hacəsədoğlu Əli, Qaraqayalı Qaçaq Süleyman, Qovuşuqlu Hacnamazalı oğlu Əmir, Hümbətalı oğlu Abbas, Nurməmmədoğlu Əli, Fərzalı oğlu Sarı Musa, Mirzəlioğlu İbrahim,

--------------------

1. Salsal qalasının kənardan çəkilmiş fotoşəkli “Respublika" qəzetinin 25 yanvar 1998-ci il sayının 4-cü səhifəsində daha aydın verilmişdir.

2. Dərələyəzdə Güneyvəng adlı kəndin üst tərəfində, dağın döşündə olan Vəngə də kənardan, Dambulaq adlı bulaqdan gizli yollarla (yerin altı ilə) su çəkilmişdir. Lakin burada saxsı tünglərdən yox, içi yonulub nov şəklinə salınmış daşları ağız-ağıza qoyub nov düzəltmiş və Vəngin içinə suyu bu üsulla gətirmişlər.

3. Bax: Kamil Dərələyəzli. Babək qalası, "Respublika" qəzeti, 25 yanvar, 1998-ci il, №13 (221), səh.4.

Baxşalı oğlu Cabbar, Güneyvəngli Fatan oğlu Şirin, Ayısəsikli qaçaq Pesərək, Gədikvəngli Katda Əli, Horslu Aşıq Qəhrəman və bir çoxları xüsusi qəhrəmanlıq göstərmiş, "Ya Əli" nərəsi çəkə-çəkə ölümün üstünə düz gedərək erməniləri qaladan çıxarmışlar. Deyilənlərə görə Cul kəndindən Aşıq Həşın, Qaçaq Ağa, Qangöz İsmixan, Qaravəngdən Qaçaq Bağır, İsti sudan Səfo oğlu Alı, Çivədən Vəkilov Balabəy, Ağkənddən Yunis adamxor Xaçonu öldürən və başqaları bu çətin anda öz dəstələri ilə köməyə gəlmişlər.

Oxucuların nəzərinə çatdırım ki, Dərələyəzə yaxından bələd olan aşıqlar, şairlər və şair təbiətli adamlar öz qoşmalarında əzəmətli Salsal qalası və Salsal adlı qəhrəman haqqında yaddaşlarda yaşayan tarixi həqiqətləri, ərəblərlə burada gedən döyüşləri, İmam Əli ilə bağlı rəvayətləri, bu və ya başqa şəkildə nəzmə çəkmişlər. Biz burada onlardan bəzilərini qeyd etməklə kifayətlənəcəyik.

Dünyaya tək gəlmişəm, Dal-İbni-Dal kimi
Aləmə adım düşüb, ol Rüstəmi-Zal kimi,
Sözdən qala yapmışam, Qəleyi-Salsal kimi,
Əridib saf etmişəm, Qümrüyə misal kimi,
Oxumuşam min bir dili, çox da firəngəm sənə nə?

*(Şəmkirli Aşıq Hüseyn. Azərbaycan aşıqları və el şairləri, I cild, Bakı, 1983, s.326.)*

Ya Əli, ismin qurbanı sənsən Qəzənfər ağa,
Həm Əlisən, həm Valisən, vəsfi-peyğəmbər ağa.
Babi-nüsrət, Xafi-küfrət, qayili-Əntər ağa.
Şəhri Zərdə Salsal qorxdu Zülfüqardan ya Əli.

*(Bəhmən Göyçəli, Vətən küsmə məndən, Bakı, 1994, səh.74-75.)*

Yəqin kəsər zəhri zəhrin salsalı,
Qəza cana zəhrin zəhri salsalı.

Aşıq gəzər Salsalı
Yar qəddini sal salı,
Canan canı nəzərdən
Əyər yaxşı sal salı.

İçində qardaşı zəhrin salsalı
Səsləndi dilində dil əyər-əyər.

*(Göyçəli Aşıq Musa. Azərbaycan aşıqları və el şairləri. I c., Bakı, 1983, səh.346.)*

Salsalın qalası məğrur, vüqarlı,
Qoçdaşlı qəbirlər sinəsi dağlı.
Alban kilsələri sirli, soraqlı,
Salıb tarixə iz Dərələyəzdə.

*Həsən Mirzə*

Hostundan çıx gəzə-gəzə,
Salsaldan keç Ələyəzə.
Aşıq Hüseyn süzə-süzə,
Sədəfli saz çalanda gəl.

*(Qara Həsən Dərələyəzli)*

Salsalın qalası, Əlinin daşı,
Sinəmə tökülür gözümün yaşı,
Atamın, anamın o məzar daşı,
Yadıma düşəndə vətən, ağlaram.

*(Narıngül Dərələyəzli)*

Gəlsin Nuh peyğəmbər, tərpənsin Salsal,
Ağrın alım, ay Kamandar "Misri" çal.

*(Aşıq Əsədin yubileyində oxunan qoşmadan
12.X.1994, saat 22-də)*

Əzizinəm Sal-Sala
Bu yol gedir Sal-Sala.
Qəni düşmən güc gəlsə,
Sığınaram Sal-Sala.

*(Bayatı)*

## SAL-SAL QALASI

Şahi-mərdan yazılıbdı daşında,
Düldülün izi var qala qaşında
Yetmiş nərdivandı göyün ərşində
Sırat körpüsüdür Sal-sal qalası.

Sal-sal qala tarixlərə bəllidi,
İgidləri gümüşxəncər bellidi,
Bənd-bərəsi mindi, yüzdü, əllidi,
Elin tilsimidi Sal-sal qalası.

Divarı da daşdı, qapsı da daş,
Daşlar səf-səf durub bir-birə sirdaş.
Qılınc çəkən ərlər bir-birə qardaş,
Qalalarda başdır Sal-sal qalası.

Tüng ilə çəkilib Səlsəlbil suyu,
Əlli min arşındır tüngünün boyu,
Bu yerdə ərlərin oğuzdur soyu,
Türkün məskənidir Sal-sal qalası.

Alı deyər gəldim toya-düyünə,
Nər igidlər məni görə söyünə,
Nağaralar gumbul-gumbul döyünə,
Koroğlu cəngidi sal-sal qalası.

*(Aşıq Alı)*

Yuxarıda verilmiş qoşmalardan görünür ki, Salsal həm qala, həm də məşhur sərkərdə adıdır. "Aşıq gəzər Salsalı", "Sözdən qala yapmışam, qəleyi-Salsal kimi", "Salsalın qalası məğrur, vüqarlı", "Salsaldan keç Ələyəzə", "Salsalın qalası, Əlinin daşı", "Bu yol gedər Salsala" kimi beytlərdə Salsal sözü qala mənasında verilmişdir. "Şəhri-zərdə Salsal qorxdu Zülfüqardan ya Əli", "Gəlsin Nuh peyğəmbər, tərpənsin Salsal" beytlərində isə Salsal sözü şəxs adı, cəngavər döyüşçü mənasında işlənmişdir.

Burada maraqlı, gələcəkdə tədqiq olunması çox zəruri olan bir məsələ meydana çıxır. Qədim tarixi, şəriəti və bunlarla bağlı hədis və rəvayətləri yaxşı bilən Aşıq Bəhmən Göyçəli "Şəhri-Zərdə Salsal qorxdu Zülfüqardan, ya Əli" deyərkən görəsən hansı yeri nəzərdə tutur? Görəsən Salsal ilə Əli arasında döyüş gedən o "Zər" şəhəri haradadır? Görəsən, Dərələyəzdəki Salsal qalasının Şimali qərb ətəyində yerləşən, erməni ensiklopediyasının X cildində Baqratilərin mərkəzi hesab olunan, indiki Erdəpin kəndinin yerində olan qədim şəhərin "Elgis"-Eloğuz-Oğuzeli şəhərinin "Zər" ilə əlaqəsi necədir? Görəsən Aşıq Bəhmən bu qalanın Cənubi-Şərq ətəyindəki Hosdun və Ələyəz kəndləri arasında, uzunluğu 4 km olan, Dəmirtəpə dağından gələn vulkan və digər səbəblər nəticəsində xarabazara çevrilən qədim şəhəri nəzərdə tutmur ki?

Belə bir fakt da qeyd edilməlidir ki, Göyçədə "Zərzəbil", "Zər", Kəlbəcərdə "Zar", Kotaykda (Qırxbulaq) "Zər" adlı kəndlər vardır. Hətta 1590-cı illərə aid mənbələrdə Göyçə "Zər nahiyəsi" adı altında verilir. Dərələyəzə həmsərhəd olan Göyçə və Kəlbəcərdə "Zar"\\"Zər" adlı kəndlərin olmasını, Salsal qalasının Dərələyəzdə yerləşməsini, bu qalanın ətrafında qədim şəhər xarabalıqlarının mövcudluğunu, Dərələyəzdə qədim dövrlərə aid tarixi abidələrin çoxluğunu, ermənilərin Salsal qalasını öz adı ilə adlandırmamasını və sair bu kimi bir çox faktları nəzərə alıb belə güman etmək olar ki, "Zar" şəhəri Dərələyəzdə və yaxud ona yaxın yerlərdə (Göyçədə və ya Kəlbəcərdə) olmuşdur.[1]

Dərələyəzdəki Salsal qalası ilə bağlı başqa bir rəvayət də vardır. Narıngül Dərələyəzli Dərələyəzə həsr etdiyi qoşmasında "Salsalın qalası, Əlinin daşı" beytində həmin rəvayətə işarə edir.

Rəvayətə görə ərəblər bu yerlərə hücum edən vaxt (VII-IX əsrlərdə) Salsal bu qədim qalaya çəkilir və ərəblərin qoşununu 3-4 kilometr irəli buraxır. Sonra da onları mühasirəyə alıb məhv edir. Nəticədə Cənabi Əmir Əli onunla döyüşə girir və Əli Salsal qalasını alır. Salsal öz dəstəsi ilə yenidən qalaya doğru irəliləyir. Bu zaman Əli qaladan böyük bir daşı götürüb Salsala tərəf atır. Əl-

---------------------

1. 1590-cı illərə aid mənbədə "Zər" kəndi "Zar" formasında verilmişdir. Bax: Ziya Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri, Bakı, 1995, səh 55.

bəttə, burada şişirtmə vardır. Ələyəz kəndi ilə Hosdun kəndinin arasında, yolun qırağında olan daşın (Əli daşının) üstü beş barmaq yerini xatırladan forma almışdır. Bu daş çox böyükdür. Bunu güclü texnika ilə də yerindən tərpətmək də çətindir.

Nəticə olaraq deyim ki, Dərələyəzdəki Salsal qalası azərbaycanlıların qədim babalarına məxsus olmuş və onlar burada xarici istilaçılara və digər düşmənlərə qarşı döyüşmüşlər.

Maraqlı odur ki, Salsal ilə bağlı Azərbaycan torpaqlarının digər bölgələrində də rəvayətlər söylənilir. Qarakilsə (Kirovakan) rayonunun 75 yaşlı müəllimi, pedaqoji elmlər namizədi Yusif Qazıyev gənclik dövründə 100 yaşı olan babasından Salsal haqqında eşitdiyi rəvayəti 22 fevral 1992-ci ildə yazıb mənə verdi. Yusif müəllimin Salsal haqqında söylədiyi rəvayət aşağıdakıdır:

"Sal-Sal Azərbaycanda sülalə olub, sülalənin vəlihədləri nəsildən-nəsilə Sal-Sal adı ilə keçib. Son Sal-Sal ərəblərlə döyüşlərdə həlak olub. Son Sal-Salın əsas müdafiə dayağı Göyəzən qalası olub. Rəvayətə görə Göyəzən dağının dörd tərəfi yonulub daşınıb, onun ətrafında şəhər salınıb. Qalanın zirvəsində 2 otaqdan ibarət ibadət evi olub. Uşaq vaxtı babam məni ora çıxarıb göstərmişdir. Evə girmək mümkün deyildir. Ora gərək kəndirlə sallana idik.

Qalanın başı düzənlikdir. Burada ərzaq və ordu yerləşərmiş. Hücumdan sonra ordu orada dincələrmiş və ehtiyat hissələri həmişə orada yerləşərmiş. Qalanın başında su quyusu var imiş.

Babam deyirdi ki, Sal-Sal ərəblərlə mübarizə edərkən uzun müddət bu qalada məskən salmış və ərəblər qala ətrafı şəhəri tamamilə yerlə yeksan ediblərmiş. Bu zaman Sal-Sal ən yaxşı döyüşçüləri ilə qalaya çəkilibmiş. O, uzun müddət mühasirədə qalır, lakin sonra ərəblər onu tilsimə salıb yatdığı yerdə tuturlar. Sal-Sal ayılanda deyir ki, buraya Məhəmmədin çığırğan Əlisindən başqa heç kim girə bilməzdi. Yəqin məni tutan odur. O, nərə çəkib döyüşə atılır və bu döyüşdə həlak olur. Onu əvəz edən arvadı Şaman qüvvələri səfərbər edib, qalanı alır. O,bu qalada üç ay ərəblərə qarşı vuruşur. Lakin nəticədə məğlub olur".

Salsal sözünün həm qala, həm də şəxs adı kimi işlənməsinə gəldikdə deməliyəm ki, bunların hər ikisi də qədim tayfa (Sal tayfasının) adından götürülmüşdür. Türk dillərində belə faktlar çoxdur. Məsələn, Xəzər sözü həm dəniz, həm də şəxs adı kimi işlənir. Əslində Xəzər sözü Xəz//Kas tayfa adının cəm formasıdır. Bu xəzlər//kaslar mənasındadır. Burada x//k, z//s dəyişməsi baş vermişdir. Deməli, Salsal sözü əvvəlcə tayfa adı olmuş, sonra da bu etnonim qala və şəxs adına verilmişdir.

Salsal sözünün tayfa adı olması şübhəsizdir. Dil faktları göstərir ki, lap qədim dövrlərdə etnonimlərin bir qismi qoşa şəkildə işlənmişdir. Türk dillərində, o cümlədən, Azərbaycan dilində olan Qarqar, Xarxar, Xalxal, Herher, Hərhər, Kərkər, Tərtər etnonimləri buna canlı sübutdur.[1]

Başqa faktlar da vardır. Mahmud Kaşğari yazır ki, türk tayfalarından biri-

------------------

1. Bu etnonimlər haqqında kitabımın Herher adlı paraqrafında məlumat verdiyim üçün burada həmin məsələdən geniş danışmağı lazım bilmədim.

nin adı Cikildir. Roza Eyvazova əlavə edir ki, Cıgıl tayfa adı qədim türk dili abidələrində Cik-Cik variantında qeydə alınmışdır.[1] "Kitabi-Dədə Qorqud" dastanında da qoşa işlənən toponim – "Bam-Bam" toponimi vardır.[2]

Çox güman ki, yuxarıda göstərdiyimiz etnonimlərin qoşa işlənməsi, eyni sözün təkrar olunması, hər şeydən əvvəl, cəmlik bildirməyə və mənanı qüvvətləndirməyə, bir növ dərəcə rolunu oynamağa xidmət etmişdir.

Qeyd etmək lazımdır ki, M.Baharlı 1920-ci ildə yazdığı coğrafiya kitabında[3] və B.Budaqov özünün "Türk uluslarının yer yaddaşı" adlı əsərində Qarqar, Kərkər, Xalxal etnonimləri ilə yanaşı "Sorsor//Sursur" tayfa adını da çəkirlər. Ola bilsin ki, Sor-Sor, Sur-Sur etnonimi ilə Sal-Sal etnonimi eyni yuvadan meydana gəlmişdir. Türk dillərində l-r sonorları bir-birini əvəz etdiyi kimi (məs: Zərər-Zərəl), saitlər də bir-birini əvəz edə bilir.[4]

Fikrimizcə, Salsal və Sal eyni tayfanın adıdır. Qiyasəddin Qeybullayevə görə "Sal" Hun mənşəli toponimdir. Sal etnotoponiminin arealı çox genişdir. Qədim dövrlərdə Dərələyəzdə Sal, Salçı, Sallı, Aşağı Sallı, Ordubadda Sal, Azərbaycanda Salyan formasında işlənin bu tayfa adından kitabımızın "Sallı" adlı paraqrafında məlumat verdiyimiz üçün burada təkrara ehtiyac hiss etmədik.

Bunu da deməliyəm ki, Azərbaycan torpaqlarını öz adlarına çıxmaq istəyən və tarixi saxtalaşdıran erməni şovinistləri Salsal qalasını tədqiqatçıların diqqətindən yayındıra bilməyəcəklər. Cidanı çuvalda gizlətmək olmaz.

Salsal qalası ilə bağlı olan bir əhvalatı da gələcək tədqiqatçıların və nəsillərin diqqətinə çatdırmağı faydalı hesab edirəm.

1947-ci il yazın əvvəllərində Ələyəz kənd sakini Hacibad oğlu Məhəmməd (uca boylu kişi idi) Salsal qalasına çiriş yığmağa gedir.[5] O görür ki, qala divarının özülünə yaxın, sıldırım qayanın başında çoxlu çiriş var. İbad çətinliklə də olsa alpinist kimi həmin yerə çıxa bilir.[6] İbad kişi həmin çirişləri yığanda görür ki, taxçaya oxşar bir yerdə, qarışqa yuvasının yanında daşın üstünə kağız qırıntıları tökülübdür. O, həmin yerə diqqətlə baxanda görür ki, taxçanın ağzındakı daş qayaya bitişməmiş, onu balaca daşlarla (dəndənə ilə) qayaya bərkitmişlər. Buranın xəzinə olduğunu fikirləşib sevinir. Həmin daşı çıxaranda görür ki, burada çoxlu qədim kitablar və yazılar vardır. İbad kişi çirişi yerə töküb apardığı qablara həmin kitab və yazıları yığıb evə gətirir. Evə gələrkən yolda Hə-

---

1. Bax: Roza Eyvazova. Əfqanıstanda türk mənşəli toponimlər, Bakı, 1995, səh.80.

2. Bax: Aslan Bayramov. Ağbaba və Şörəyel toponimləri, "Elm və həyat" jurnalı, № 11-12, Bakı, 1990, s.28.

3. М.Г.Велиев (Бахарлы): Азербайджанская физико-географический; этнографический и экономический очерк. Баку, 1921; B.Ə.Budaqov. Türk uluslarının yer yaddaşı. Bakı, 1994, s.39, 158.

4. Ziya Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri, Bakı, 1995, s.59-60; Ziya Bünyadov və Hüsaməddin Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri, Bakı,1997, s.30, 35-36, 198, 291, 311.

5. Çiriş yazda bitən bitki (pencər) növüdür. Bundan kətə (qutab) bişirirlər.

6. Dərələyəzdə sıldırım qayalara dırmaşanlar çox idi. Qovuşuq kənd sakini Dağdələnli Cəlilin oğlu ovçu və dəmirçi Mustafa alpinistlər çıxa bilməyən sıldırım qayalara alətsiz, kəndirsiz çıxır, orada bitən çirişləri yığır, arıların daşın aralarında çəkdiyi şanları kəsir, balını evə gətirirdi. Mən bunun canlı şahidiyəm.

sənkənddən olan iki erməni ilə rastlaşır və sadəlövhlük edib bu məsələni onlara danışır. Ermənilər bir söz deməyib gedirlər. İki gündən sonra onlar İbadın yanına gəlir və ona deyirlər ki, rayon bu məsələni eşidibdir. Bu məsələni sən hökumətə xəbər vermədiyinə görə səni tutacaqlar. Hər hansı qədim bir şeyi tapan şəxs dərhal onu hökumətə xəbər verməlidir. İndi sən bir neçə gecə evə gəlmə və həmin yazıları da ver aparaq biz saxlayaq. Ya adam tapıb oxudarıq, ya da gəlib aparарsan. Sonra həmin adamlar bunu qorxudub, həmin qədim yazıları vermirlər.

Dərələyəzdə 100 yaşdan çox ömür sürən, Alxanpəyəsi kəndində doğulmuş, ovçu, sonralar Ələyəz kəndində məskunlaşıb ömür sürən və orada dünyasını dəyişən Əhməd kişinin dedikləri: Bir gün, 1961-ci ilin sentyabr ayında Horsdan gəlirdim, Salsal qalasının tikildiyi dağın altı ilə kəklik vurmaq arzusu ilə gedirdim. Bir də gördüm ki, bir nəfər dağın başında, qala divarının özülündə işləyir. Elə bildim ki, kimsə qızıl axtarır. Sal-Sal qalasına qalxdım. Qala divarının üstünə çıxdım. İşləyən adama diqqətlə baxdım. Əlində çəkic və zubil ilə daşların üzərində nə isə yazırdı. Bu adamdan şübhələndim və yəqin etdim ki, azərbaycanlı deyil. Bunu güddüm. Axşam oldu, həmin adam qala divarına iplə dırmaşıb çıxdı və ətrafa nəzər saldıqdan sonra düşüb Erdəpin kəndinə tərəf yollandı. O gedəndən sonra həmin yerə yaxınlaşdım. Gördüm ki, o kəndirin bir ucunu qala divarın dibində yerə çalıb, dəmir parçasına bağlamışdır. Kəndiri belimə bağlayıb qala divarının çöl üzünə düşdüm. Gördüm ki, həmin adam qala divarının özül daşlarına "xaç" çəkmiş və bura həkk etmişdir. Bu yazıları ərəb əlifbası ilə yazılmış daşların üzərinə yazmışdı. Mən əsəbiləşib həmin yazıları əlimdəki kiçik balta ilə qırıb pozdum.

Əhməd kişinin dediyinə görə qaladakı böyük daşların üstündə qoyun, keçi və at rəsmləri var idi.[1]

Salsal qalası ətrafında baş verən iki məsələni də qeyd etmək yerinə düşər. Ələyəz kənd sakini ovçu Babacan bu yaxınlarda Bakıda mənə bir əhvalat danışdı. O söylədi ki, 60-cı illərdə mən Salsal qalasının altında, Ələyəzlə Hosdun kəndinin arasındakı daşlıqda kəklik ovuna getmişdim. Bir də gördüm ki, Salsal qalasının ətəyindəki balaca təpəlikdə iki erməni bir kövrək daşı yarırlar. Soruşanda cavab verdilər ki, ev tikirik, çənə daşı hazırlayıb aparırıq. Mən bir neçə vaxtdan sonra oradan keçəndə gördüm ki, daşı aparmayıblar. Lakin daşın içində üç balaca küpə yeri var. Sonra məlum oldu ki, onlar buradan qiymətli şeylər aparmışlar. Sonra mən ev tikəndə həmin daşları gətirib çənə daşı yerinə qoydum.

Buna oxşar bir vəziyyət Salsal qalasının cənub ətəyində də baş vermişdir. Hostun kəndi ilə Ələyəz kəndi arasında Sarıburun deyilən yerdə Erdəpin kəndindən milliyyətcə erməni olan bir traktorist şose yolu genişləndirərkən, deyilənə görə bir küpə qızıl tapır. Bu vaxtdan o köçüb İrəvan şəhərinə gedir və həmişə kasıblıqla yaşayan həmin adam şəhərdə özünə böyük imarətlər tikdirir.

Qədim insan məskəni olan Dərələyəzdə belə hadisələr tez-tez baş verirdi. Birinin də canlı şahidi mən olmuşam. Bu hadisə 1957-ci ildə Ayısəsi kəndində baş vermişdir. Bu kənd haqqında məlumat verəndə mən onu deyəcəyəm.

------------------

1. Ətraflı məlumat almaq üçün bax: Kamil Dərələyəzli. Dərələyəz od içində, Bakı, 2001, səh.101-102.

## SEYİDMƏMİŞ

Seyid Məmiş – Dərələyəz mahalının Yeğeqnadzor (Keşkənd) rayonunda azərbaycanlı kəndidir.[1] Bu kənd 1918-ci ildə erməni daşnakları tərəfindən dağıdılmışdır. Seyid Məmiş kəndinin xarabalıqları Yeğeqnadzor rayonundakı Ağkəndin yaxınlığında, rayon mərkəzindən 19-20 km şimal-qərbdə, Səlim çayının sahillərində qalmaqdadır.

Dərələyəzin Hors kəndində doğulub boya-başa çatan, 100 yaş yaşayaraq 2000-ci ildə Bakı şəhərində dünyasını dəyişən Horslu Davudun dediyinə görə, ermənilər 1918-ci ildə bu kənddəki əhalinin hamısını qırmış, yalnız dörd nəfər canını xilas edə bilmişdir.[2]

Tarixi mənbələrdə göstərilir ki, bu kəndin adı oradakı "Seyid Məmiş" pirinin adı ilə adlanmışdır. Başqa bir rəvayətə görə bu "Qarabağda, Seyid Cəbrayılın dağındakı "Seyid Cəbrayıl" piri ilə qohumdur".[3]

## SƏLİM ("ŞAH ABBAS") KARVANSARASI

Səlim Karvansarası Göyçə ilə Dərələyəz arasında, İrəvan-Naxçıvan və Dərələyəzdən Göyçəyə gedən magistral yolun üstündə, dəniz səviyyəsindən 2410 metr yüksəklikdə, Səlim aşırımında (gədiyində) yerləşir.[4]



Böyük ipək yolunun üstündə yerləşən bu karvansara yolçuların yağışdan, qardan, borandan qorunması, istirahət etməsi üçün tikilmişdir. Belə ki, karvan Dərələyəzdən Göyçəyə gedərkən çox vaxt Səlim (Selim) gədiyini aşa bilmir. Selim gədiyinin həm məsafəsi, həm də yoxuşu çoxdur. Bütün bunları nəzərə alıb xeyirxah insanlar bu karvansarayı tikdirmişlər. Onu da qeyd edim ki, bu karvasaray xalq arasında Şah Abbas karvansarası adı ilə də məşhurdur. Mən də bəzi yazılarımda bunu Şah Abbas karvansarası kimi vermişəm.

---

1. Mirzəyev H. Seyid Məmiş, Donuz damı, Köy Abbas kəndləri, Filologiya məsələlərinə dair tematik toplu, № 7 (19), Bakı, 2001, s.85-86.
2. K.Dərələyəzli. Dərələyəz od içində. Bakı, 2001, s.201.
3. B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998, s.367.
4. Mirzəyev H. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz (monoqrafiya), Bakı, 1997, səh.232-233; Mirzəyev H. Şah Abbas karvansarası və İrind toponimi, Dil məsələlərinə dair tematik toplu, № 1, Bakı, 1998, s.130-132.

Son araşdırmalar göstərir ki, bu Elxanilər sülaləsinin hökmranlığı dövrün-də (1316-1336) Əbü Səid xan Bahadur tərəfindən tikdirilmişdir.



Karvansaranın qapısı üzərindəki sənduqədə yazılıb:

"Əbu Səid xan Bahadur. Dünyanın sultanı, insanların hökmdarı, Ərəb və Əcəmin padşahı, kütlələrin boynunun (başının) sahibi – Allah onun hökmranlığını əbədiləşdirsin və hökmranlığını daim etsin. Xeyrat sahibi (karvansaranın tikilmə xərcini ödəyən) Çuşkab ibn (oğlu) Layavənd ibn..., tarixi 726 hicri, 1325-1326-cı il".

Azərbaycan xalqının nəcib qadını, "daşların" dil biləni, professor Məşədixanım Nemət bu kitabəni olduğu kimi oxuyub tərcümə etmişdir.

Ermənilər 1325-1326-cı illərə aid türklərə məxsus bu Əbu Səid xan Bahadur karvansarasında olan yazıları "cızma-qara" şəklinə salaraq dünya ictimaiyyətini inandırmağa çalışırlar ki, guya həmin abidələr və ərazilər "erməni"lərindir".[1]

Bu karvansaranın tədqiqinə böyük zəhmət sərf edən Kamil Dərələyəzli yazır: "Bina cilalanmış (yonulmuş) bazolt daşdan inşa olunub. Üçnefli binanın daxili sahəsi sütunlarla üç hissəyə bölünüb. Uzunluğu 40 metr, eni 15 metr, ümumi sahəsi 600 kvadratmetr olan bina 6 hissəyə bölünmüşdür. Əsas binaya giriş də bir qapıdan (1,65x2m), yardımçı bina da (9x5,35 m) bir qapıdan ibarətdir.

Əsas bina üç hissəyə ayrılır: giriş (9x5m), əsas hissə – mal-heyvanın və qəfləqatırın saxlanıldığı yer (26x13 m) və istirahət üçün nəzərdə tutulan sahə (5x13 m).



Binanın daxili quruluşu üçnefli olmaqla üç hissəyə bölünür. Bunlar düzbucaqlı (50x60 sm) şəkilli iki sıra ilə hər cərgədə 7 dayaq sütunlarla (cəmi 14 sütun) yonulmuş daşlarla, yarımdairəvi formada ensiz pilonlarla bir-birinə möhkəm birləşdirilir. Dam örtüyünü ağır olduğu üçün üç nefə ayrılan sütunlar silindrik formalı tağlarla bir-biri ilə birləşir. Binanın orta, sağ və sol neflərini işıqlandırmaq üçün hər nefin üzərində 4 ensiz və uzunsov (cəmi 12) pəncərə düzəldilmişdir.

----------------------

1. Bax: Kamil Dərələyəzli. Dərələyəz od içində. Bakı, 2001, səh.82-83.

Eninə üç hissəyə ayrılmış binanın sağ və sol sütunları ilə divar arasındakı məsafə 3.5 metr, orta hissə, yəni sütunlar arasındakı məsafə 6 metrdir. Uzununa isə sütunlar arasındakı məsafə üç metrdir.

Binanın sağ və sol hissəsində malın bağlanması üçün bağ yeri, yemlənməsi üçün axur və su içməsi üçün isə su arxı çəkilmişdir. Binanın içi hamar daşlarla döşənmişdir. Binanın üst örtüyü isə cilalanmış daşlarla hər tərəfdən 45 dərəcə bucaq altında bir mərkəzdə birləşməklə birləşmişdir.

Möhkəm yerli bazalt daşdan tikilmiş bu möhtəşəm bina özünəməxsus gözəlliyi olan dağ və yamacların əhatəsində, ulu keçmişimizin yadigarı kimi qalmaqdadır.

Karvansaranın birinci girəcək qapısının üst hissəsində uzunluğu 2 metr, orta hündürlüyü 1 metr olan yarımdairə şəklində sal bir daşın üzərində ərəb əlifbası ilə binanın "pasport"u yazılmışdır.

Dərələyəz mahalında ictimaiyyətə Şah Abbas karvansarası kimi məlum olan abidənin "Səlim" karvansarası da faktlara əsaslanır.

Erməni tarixçisi M.Harutyunyan öz kitabında bu abidənin yazılarını oxunmayan bir halda versə də, Azərbaycanda bu yazıları oxuyan tapıldı.

Azərbaycan xalqının qədim "daş" dilinin, daşyonmanın, memarlığın, qəbr daşlarının, sənduqələrin, xəttatlığın, kaşı sənətinin bilicisi, Azərbaycan Elmləri Akademiyasının əməkdaşı, professor Məşədixanım Nemət bu abidənin sirrini açdı. O, 1961-ci ildə Göyçədən Zəngəzura səfər etdiyi zaman Səlim keçidində əsrlərdən yadigar qalan karvansara diqqətindən yayınmır. O, ermənilərin təkidinə baxmayaraq karvansaranın və bu gün bizə – tariximizə, xalqımıza hava, su kimi lazım olan, ermənilərin iç üzünü açıb-göstərən sənduqənin şəklini çəkir. Əldə olunan materiala (rəsmə) əsaslanaraq karvansaranın kimə məxsusluğunu tam aydınlaşdırır, erməni və ermənipərəst tarixçilərin iç üzü açılır, onların saxtakarlığı tam ifşa olunur".[1]

## SÖYLAN

Söylan Dərələyəz mahalının Əzizbəyov (Paşalı) rayonunda azərbaycanlı kəndi olmuşdur. Tarixi faktlardan aydın olur ki, bu kənddə tarixən azərbaycanlılar yaşamışdır. Belə ki, statistik mənbələrin verdiyi məlumata əsasən, Soylan kəndində 1831-ci ildə 58 nəfər, 1897-ci ildə 14 nəfər azərbaycanlı yaşamışdır.[2]

-----------------------

1. Bax: Kamil Dərələyəzli. Dərələyəz od içində. Bakı, 2001, səh.80-81.

2. Статистическое описание Нахичеванской провинции, Спб, 1833, стр.171; И.Шопен. Исторические памятники состояние армянской областе в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 619; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1057; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 347, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 247; Историческая география Западного Азербайджана, Бакы, 1998, стр.120-121.

Soylan kəndinin 1590-cı və 1727-ci illərdə 5.028 ağça gəliri olmuşdur.[1]

Bu qədim azərbaycanlı kəndinə 1918-ci ildən sonra ermənilər köçürülmüş və Soylan qarışıq kəndə çevrilmişdir. 1950-ci ildən sonra isə Soylan Əzizbəyov (Paşalı) rayonunun mərkəzinə, şəhər tipli qəsəbəyə çevrilmişdir.

1727-ci ilə aid mənbələrdə bu kəndin adı Soyulan kimi verilmişdir. 12 oktyabr 1956-cı ildə Soylan rayon mərkəzi olmuş və Əzizbəyov adlandırılmışdır.

Söylan toponimi isə sırf Azərbaycan mənşəlidir.

Qeyd etmək lazımdır ki, indi ermənilər yaşayan bu kənddə tarixən 1 nəfər də olsun erməni olmamışdır. Bunun sübutu üçün bir tarixi sənədi oxucuların nəzərinə çatdırmaq istəyirəm.

## "DƏRƏLƏYƏZ (NAHİYƏSİNƏ) TABE OLAN SOYULAN KƏNDİ

Hökməli Maşallah oğlu – bennak; Allahqulu Dəmirxan oğlu – bennak; Rəcəb Əbülfəz oğlu – bennak;

Bennak – 3

Çift – 1

1 dəyirman – yararsız haldadır

Gəlir:

Bennak vergisi – 54 (ağça)

Çift vergisi – 50 (ağça)

Buğda 4 kile – dəyəri 120 (ağça)

Arpa – 1 kile – dəyəri 20 (ağça)

Kərdiyər – 1 kile – dəyəri 20 (ağça)

Pərinc – 4 kile – dəyəri 84 (ağça)

Kəlül – 2 kile – dəyəri 36 (ağça)

Mərcimək – 1 kile – dəyəri 18 (ağça)

Kərəsnə – 2 kile – dəyəri 30 (ağça)

Darı – 1 kile – dəyəri 15 (ağça)

Pambıq – 2 man – dəyəri 150 (ağça)

Noxud – 2 kile – dəyəri 36 (ağça)

Meyvə üşrü – 120 (ağça)

Bal üşrü – 190 (ağça)

Başqa yerdən gəlib bu kəndin torpağından əkib-becərmə işləri üçün istifadə edənlərdən alınan vergi – 85 (ağça)

Adəti-ağnam – 110 (ağça)

Ağıl vergisi – 200 (ağça)

Dönüm vergisi – 500 (ağça)

Dəştibani vergisi və əkin yeri üçün tapü – 1.200 (ağça)

Bakirə qız və dul qadın üçün gəlin vergisi – 90 (ağça)

---

1. Z.Bünyadov, H.Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, səh.59; Z.Bünyadov, H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh.36.

Badi-hava – 1.800 (ağça)
Yekun – 5.028
Səh.292“[1]

## SOYLAN KÖRPÜSÜ



Soylan körpüsü Saylan kəndindən 1 km aralıda, Arpa çayının üstündə inşa olunub. Uzunluğu 30metrə çatır. Bu körpünün sağ sütunu Arpa çayının səthindən 32 metr yüksəklikdə olan sıldırım qayanın üstündə qoyulubdur. Sol sahilində isə sıldırım qayanın üstünə hündürlüyü 12 metr düzbucaq şəkildə (0,30x0,40m) olan bazalt daşlardan bir sütun tikilmişdir. Tikilmiş sütunun üstündə 2,5 metr enində, 6 metr hündürlüyündə üç əlavə sütun tikilmişdir. Orta sütunlardan 8 metr aralı, pilləkənə bənzər dağın üzərində hündürlüyü 2 metr olan yoğun tirlərdən (ağaclardan) istifadə edilmişdir. Sütunlar arasında olan ölçüləri müəllif tərəfindən 08x4,5+4,5+7,0 metr, 4 pəncərə şəkildə qeyd edilmişdir. Körpünün orta sütununun təqribən 8-9 metrliyində ərəb əlifbası ilə körpünün kim tərəfindən və nə zaman inşa edilməsi haqqında yazı vardır. Lakin o oxunmamışdır.[2]

## SULTANBƏY

Sultan bəy Dərələyəzin Əzizbəyov rayonunda kənd adıdır. Bu kənd İtqıran, İtqıran-Levis, İmarət adlı kəndlərin yaxınlığında, rayon mərkəzindən 18 km cənub-şərqdə yerləşir, Şadi kəndi ilə həmsərhəddir.

Tarixi mənbələrdən məlum olur ki, bu kənd "1590-cı ildən məlumdur".[3]

-----------------------

1. Z.Bünyadov, H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh.36.
2. Ətraflı məlumat almaq üçün bax: Kamil Dərələyəzli. Dərələyəz od içində, Bakı, 2001, səh.90-91.
3. İravan eyaletinin mufessel defteri, İstanbul, Başbakanlıq Arşivi, №633; Пагирев Д.Д. Алфавитный указатель пятиверстной карте Кафказя, Тифлис, 1913; B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı, 1998, səh.376;

Tarixən azərbaycanlılar yaşayan bu kəndə 1829-cu ildə İranın Salmas vilayətindən köçürülüb gətirilən ermənilər yerləşdirilmiş və azərbaycanlılar buradan yavaş-yavaş sıxışdırılıb çıxarılmışlar.[1] 1918-ci ildə isə ermənilər azərbaycanlıları buradan tamam qovub çıxarmış və onların yerinə erməniləri doldurmuşlar.[2]

Ermənistan hökuməti 3 yanvar 1935-ci ildə kəndin adını dəyişib "Bartsruni" qoymuş və bununla da bu kəndin azərbaycanlılara məxsus olmasını tarixdən silməyə çalışmışdır.[3]

Bu toponim azərbaycanlılara məxsus şəxs adından əmələ gəlmişdir və azərbaycanlılara məxsusdur.

## ŞADIVƏNG

Şadıvəng qədim Alban abidəsidir, alban türklərinə məxsus abidədir. Bu abidə Dərələyəzdə Həsənkənd və Alxanpəyəsi adlı kəndlərin qabağında, Təkədonduran dağının qərb tərəfində, dağın başında yerləşir.[4]

Bu vəng iki tikilidən ibarətdir. Biri böyük, biri isə buna nisbətən kiçikdir. Vəngin ətrafında kalafalıq da vardır. Görünür burada tarixən yaşayanlar da olmuşdur. Çox güman ki, bura vəngə baxanların, vəngdə işləyənlərin məskəni, yataq yerləridir.



Araşdırmalar göstərir ki, şadı// şada sözü türk tayfalarından birinin adıdır. Bu əraziyə yaxın olan Naxçıvanın Şahbuz rayonunda Şada adlı kənd də vardır. Fikrimizcə, bunların hər ikisi, şada və şadı sözləri eyni türk tayfasının adıdır. Tarixi sənədlər göstərir ki, Şahbuz rayonundakı Şada kəndi də çox qədim tarixə malikdir.

---

1. İbrahim Bayramov. Qərbi Azərbaycanın türk mənşəli toponimləri, Bakı, 2002, səh.532.
2. B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Göstərilmiş əsər, səh.376; Kamil Dərələyəzli. Dərələyəz od içində, Bakı, 2001, səh.165.
3. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh.405; B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Göstərilmiş əsər, səh.376.
4. Mirzəyev H. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz (monoqrafiya), Bakı, 1997, səh. 210-211; Mirzəyev H. Dərələyəz mahalında olan Qaravəng, Qoşavəng, Sadıvəng, Güneyvəng, Qoduxvəng toponimləri haqqında, Pedaqoji universitetin xəbərləri, humanitar elmlər seriyası, № 1,Bakı, 1998, s. 43-48.

Bu kənd Şahbuzla (Badamlı ilə) Dərələyəzin Əzizbəyov rayonunun sərhədindədir. Bu kəndin yanında alban türklərinə məxsus daşdan tikilmiş iki abidə (vəng) vardır ki, bu abidə də Şada//Şadı tayfasına məxsusdur. Bundan başqa, Dərələyəzdəki Şadıvənglə təxminən 60 km-lik məsafədə yerləşən Vedi rayonunda Şiddi// Şidli adında kənd, Goranboy rayonunda Şadılı adlı kənd də vardır.[1] Vedi rayonunda, "Böyük Vedi kəndinin içindən keçən, əsas yol el arasında "Şadlı" yolu kimi tanınmışdır". Faktlar göstərir ki, Abbasqulubəy Şadlınski nəsli, Goranboyun Şadılı kəndində yaşayanların müəyyən bir hissəsi, həmçinin adı çəkilən yerlərdə boya-başa çatan adamların bəziləri şadı//şada//şiddi//şadılı tayfası ilə bağlıdır.[2]

## ŞORCA

Şorca Dərələyəzdə azərbaycanlı kəndidir. Amağu, Arpa, Ertiş adlı kəndlərin yaxınlığında yerləşir. 1873-cü ildə bu kənddə 31 nəfər, 1886-cı ildə 56 nəfər, 1897-ci ildə 73 nəfər, 1904-cü ildə 76 nəfər, 1914-cü ildə 83 nəfər, 1916-cı ildə 116 nəfər əhali yaşamışdır. 1918-ci ildə erməni millətçiləri kəndi dağıtmış, yandırmış, əhalisini qırmış, var-dövlətlərini talan eləmişlər. O zamandan kənd ölüdür. Ancaq binaların qalıqları və qəbiristanlığın izləri qalır.[3]

1922-ci ildə tək-tək adamlar kəndə qayıtmış, ermənilər kəndi bərpa etməyə qoymamış və onlar, əsasən, Amağu kəndində məskunlaşmışlar. Dərələyəzin ağsaqqallarından biri hesab olunan Amağulu Əsgər kişi həmin Şorca kəndində anadan olmuşdur (1976-cı ildə 90 yaşında Bakının Mehdiabad qəsəbəsində vəfat etmişdir). Mən 1955-1959 və 1960-1970-ci illərdə onunla, onun oğlanları Novruz və Əziz Dünyamalıyevlərin evində bu məsələlər haqqında günlərlə, saatlarla söhbət aparmış, bir çox tarixi hadisələr haqqında məlumat toplamışam.

Şorca kəndinin adı böyük türk tayfalarından birinin – Şor tayfasının adından götürülmüşdür.[4]

Şorca sözündəki -ca şəkilçisi burada kiçiltmə mənasını bildirməyə xidmət etmişdir. Hal-hazırda türk dillərindən biri Şor dili adlanır.[5] Şorlar hal-hazırda, əsasən, Xakas, Şimali və Dağlıq Altay vilayətlərinə həmsərhəd olan Tom çayı ətrafında yaşayırlar. Görkəmli türkoloq N.P.Dırenkova 1941-ci ildə Şor dilinin qrammatikası kitabını yazmışdır.[6]

---------------------

1. Bax: Əziz Ələkbərli. Abbasqulu bəy Şadlınski, Bakı, 1996, səh.12
2. Ətraflı məlumat almaq üçün bax: yenə orada, səh.14-26.
3. Bax: Свод статических данных о населении Закавказского края извлеченных из посемейных списков, 1886 г. Тифлис, 1893, №1032; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, s.368.
4. Mirzəyev H. Aşıq poeziyasında yaşayan adlarımız və tarixımiz (monoqrafiya), Bakı, 1997, səh.204-205; Mirzəyev H. Əyricə və Şorça oynonimləri, Dil məsələlərinə dair tematik toplu, № 2, Bakı, 1997, səh.111-114.
5. Bax: Mirzəyev H. Azərbaycan dilində fel, Bakı, 1986, səh. 251; Qurbanov A. Ümumi dilçilik, Bakı, 1989, səh.441-450.
6. Дыренкова. Грамматика тюркского языка, М-Л, 1941.

Belə bir cəhəti də qeyd edək ki, Şorca adlı kənd adına yalnız Dərələyəzdə deyil, türk xalqlarının yerləşdiyi digər ərazilərdə də çox rast gəlinir. Göyçənin Basarkeçər rayonunda Şorca adında 2 kənd vardır. Birinə Aşağı Şorca, digərinə isə Yuxarı Şorca deyilir.[1] İranda da bu etnotoponimə rast gəlinir. Lakin tədqiqatçılar göstərir ki, bu İranda "Şurca" formasında işlənir.[2]

## TARP

Tarp kəndi Dərələyəzin Əzizbəyov rayonu ərazisindədir. Bu kənd Arpa çayının İstisudan gələn qolunun cənub sahilində, dağın yastanasında yerləşir. Tarp kəndi İstisuya gedən magistral yoldan bir qədər aralıdır. Son vaxtlara qədər bu kəndə gedən yolda, çayın üstündə körpü də yox idi. Bu kənddə çox az miqdarda kürd də yaşayırdı. Lakin onlar kürd dilində yox, Azərbaycan dilində danışırdılar və Azəraycan dilini ana dili hesab edirdilər. Yalnız yaşlı nəslin nümayəndələri evdə bəzən kürd dilində danışırdı. Cavanlar isə nə evdə, nə də başqa yerdə kürd dilində danışmırdı. Həmin ailələr, əsasən, kəndin mal-qoyununu otarırdı.

Tarixi mənbələrdən məlum olur ki, bu kənddə 1931-ci ildə 96 nəfər, 1873-cü ildə 192 nəfər, 1896-cı ildə 86 nəfər, 1897-ci ildə 187 nəfər, 1904-cü ildə 223 nəfər, 1914-cü ildə 245 nəfər, 1916-cı ildə 281 nəfər əhali yaşamışdır.[3]

1918-ci ildə erməni şovinistləri qəflətən kəndə hücum edərək onu dağıtmış, yandırmış, əllərinə keçən adamları işgəncə ilə öldürmüşlər. Sağ qalanlar isə Azərbaycanın müxtəlif bölgələrinə səpələnmiş, 1921-ci ildə kəndə qayıdıb burada yaşamağa başlamışlar.

1922-ci ildə bu kənddə əhalinin sayı 67 nəfər, 1926-cı ildə 86 nəfər, 1931-ci ildə isə 191 nəfər olmuş,[4] 1940-cı illərdə isə bu miqdar xeyli çoxalmışdır.

Lakin şovinist ermənilər 1949-cu ildə başqa kəndlər kimi bu kəndi də Azərbaycana deportasiya etdi və bundan sonra kənd xarabalığa çevrildi.

Tarp toponiminin mənşəyinə gəldikdə, fikrimizcə, bu kəndə həmin yerin relyefinə görə ad verilmişdir. Belə ki, bu kənd dağın sinəsindəki bir tapın (tarpın) üstündə yerləşir. Hal-hazırda bu söz tarp formasında deyil, tap şəklində işlənir. Göründüyü kimi, bu toponim də Azərbaycan xalqına məxsusdur.

------------------

1. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1996, səh.279, 288-299.

2. В.И.Савина. Типы тюркских топонимов в Иране. Топонимика Востока, Москва, 1969, стр.169.

3. Статистическое описание Нахчиванской провинции, Санктпетербург, 1933, стр.72-73; И.Шопен. Исторический памятник состояния Армянякой области в эпохи ее присоединения к российсокй империи, Санктпетербург, 1952, стр.619-620; Свод статических данных о население Закавказского края извлеченных из посемейных списков 1886, Тифлис, 1893; Z.Qorqodyan. Sovet Ermənistanın əhalisi son yüzillikdə (1831-1931), İrəvan, 1932, səh.90.

4. Z.Qorqodyan. Sovet Ermənistanı əhalisi son yüzillikdə (1831-1931), İrəvan, 1932. səh.90.

## TERP

Terp kəndi Dərələyəzin Əzizbəyov rayonunda yerləşir. 1960-cı ildə ermənilər bu kəndin adını dəyişərək Saravan qoymuşlar. Rayon mərkəzindən 14 km şimal-şərqdə yerləşir.[1]



Tarixi mənbələrdən, statistik sənədlərdən məlum olur ki, 1831-ci ildə bu kənddə 96 nəfər, 1873-cü ıldə 243 nəfər, 1886-cı ildə 215 nəfər, 1897-ci ildə 376 nəfər, 1904-cü ildə 384 nəfər, 1914-cü ildə 422 nəfər, 1916-cı ildə 504 nəfər azərbaycanlı yaşamışdır.[2]

1918-ci ildən kənd erməni millətçiləri tərəfindən dağıdılmış, əhalisinə divan tutulmuş, salamat qalanları Naxçıvana qaçmışdır. Statistik məlumata əsasən Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra 1922-ci ildə kəndin qaçqınlarından 30 nəfəri yenidən öz vətəninə qayıtmış, kəndi bərpa etməyə və yeni yaşayış binaları tikməyə başlamışlar. 1931-ci ildə kənddə 408 nəfər əhali yaşamışdır. 30-cu illərdə bu kənddə kolxoz qurulmuş, məktəb, klub, kitabxana açılmış, xalq özü üçün güzəran yaratmışdır. Lakin 1948-1953-cü illərdə azərbaycanlıların zorla Ermənistandan köçürülməsi tələsinə Terp kəndinin əhalisi də düşdü.[3]

Bu kənddə XIII-XIV əsrlərə aid qədim abidələrin, alban türklərinə məxsus kilsələrin qalıqları qalmaqdadır. Bundan başqa ən qədim azərbaycanlı qəbiristanlığından biri də burada yerləşir.

1988-ci ildə ermənilər yenidən Terp kəndindən azərbaycanlıları son nəfərinə qədər qovub çıxartdılar və əhalinin çox hissəsi Şuşaya gəldi. Lakin ermənipərəst rəhbər işçilər onları Şuşada məskunlaşmağa qoymadılar. Onlar Xocalıya gələrək orada məskunlaşdılar. Lakin 1992-ci ildə onlar ermənilər tərəfindən buradan da vəhşicəsinə qovuldular. Hal-hazırda bu kəndin əhalisi Bakıda, Sumqayıtda, Salyanda və Azərbaycanın digər bölgələrində məskunlaşmışlar.

------------------

1. Mirzəyev H. Terp kəndi və buradakı onomastik vahidlər haqqında, "Dədə Qorqud", № 1, Bakı, 2001, s.18-23.

2. Bax: Статистическое описание Нахичеванской провинции, СПБ., 1833, стр. 172; И.Шопен. Исторические памятники состояние армянской областе в эпоху ее присоединения к Российской империи, СПБ., 1852, стр. 619; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893. №999; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh.90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 348; H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 246.

3. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, səh.348.

## TERP

Terp kəndi Dərələyəzin Əzizbəyov rayonunda yerləşir. 1960-cı ildə ermənilər bu kəndin adını dəyişərək Saravan qoymuşlar. Rayon mərkəzindən 14 km şimal-şərqdə yerləşir.[1]



Tarixi mənbələrdən, statistik sənədlərdən məlum olur ki, 1831-ci ildə bu kənddə 96 nəfər, 1873-cü ildə 243 nəfər, 1886-cı ildə 215 nəfər, 1897-ci ildə 376 nəfər, 1904-cü ildə 384 nəfər, 1914-cü ildə 422 nəfər, 1916-cı ildə 504 nəfər azərbaycanlı yaşamışdır.[2]

1918-ci ildən kənd erməni millətçiləri tərəfindən dağıdılmış, əhalisinə divan tutulmuş, salamat qalanları Naxçıvana qaçmışdır. Statistik məlumata əsasən Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra 1922-ci ildə kəndin qaçqınlarından 30 nəfəri yenidən öz vətəninə qayıtmış, kəndi bərpa etməyə və yeni yaşayış binaları tikməyə başlamışlar. 1931-ci ildə kənddə 408 nəfər əhali yaşamışdır. 30-cu illərdə bu kənddə kolxoz qurulmuş, məktəb, klub, kitabxana açılmış, xalq özü üçün güzəran yaratmışdır. Lakin 1948-1953-cü illərdə azərbaycanlıların zorla Ermənistandan köçürülməsi tələsinə Terp kəndinin əhalisi də düşdü.[3]

Bu kənddə XIII-XIV əsrlərə aid qədim abidələrin, alban türklərinə məxsus kilsələrin qalıqları qalmaqdadır. Bundan başqa ən qədim azərbaycanlı qəbiristanlığından biri də burada yerləşir.

1988-ci ildə ermənilər yenidən Terp kəndindən azərbaycanlıları son nəfərinə qədər qovub çıxartdılar və əhalinin çox hissəsi Şuşaya gəldi. Lakin ermənipərəst rəhbər işçilər onları Şuşada məskunlaşmağa qoymadılar. Onlar Xocalıya gələrək orada məskunlaşdılar. Lakin 1992-ci ildə onlar ermənilər tərəfindən buradan da vəhşicəsinə qovuldular. Hal-hazırda bu kəndin əhalisi Bakıda, Sumqayıtda, Salyanda və Azərbaycanın digər bölgələrində məskunlaşmışlar.

------------------

1. Mirzəyev H. Terp kəndi və buradakı onomastik vahidlər haqqında, "Dədə Qorqud", № 1, Bakı, 2001, s.18-23.

2. Bax: Статистическое описание Нахичеванской провинции, СПБ., 1833, стр. 172; И.Шопен. Исторические памятники состояние армянской областе в эпоху ее присоединения к Российской империи, СПБ., 1852, стр. 619; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893. №999; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh.90; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 348; H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 246.

3. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, səh.348.

Məlum olduğu kimi, 1988-ci ildə azərbaycanlılar Qərbi Azərbaycandan (Ermənistandan) deportasiya olunanda Terp kəndinin əksəriyyəti Şuşaya gəldi. Lakin qeyrətsiz, bacarıqsız, ermənipərəst rəhbərlər onların burada məskunlaşmasına icazə vermədilər. Terp kəndinin adamları 1918-ci ildə Dərələyəzdən qaçıb Xocalıda məskunlaşan həmyerlilərinə pənah apardı və Xocalıda məskunlaşdılar.

Xocalı hadisəsində girov düşmüş Terp kənd sakini, 68 yaşlı Əli Orucov qanlı fevral hadisəsində başına gələn müsibətləri belə təsvir edir: "Fevralın 25-dən 26-na keçən gecə ermənilər qəflətən Xocalını hər tərəfdən güllə yağışına tutdular. Dörd tərəfdən gur işıqlarını yandıraraq alov saçan onlarla zirehli texnika və külli miqdarda canlı qüvvə şəhərə doğru yeriyirdi. Qəfil hücumdan çaşıb qalan camaatın ah-naləsi, fəryadı və çığırtısı ərşə qalxmışdı. Hətta hücum o qədər dəhşətli və amansız idi ki, ailə üzvlərinin birlikdə qaçması belə mümkün deyildi. Biz ayaqqabılarımızı geyməyə belə vaxt tapmadıq. Bizimlə Kətik meşəsinə qaçan adamları çoxunu ermənilər arxadan vururdular. Yaralıları belə götürmək mümkün deyildi. Biz şaxtalı, qarlı gecədə üç gün meşədə qaldıq. 4 gündən sonra ermənilər bizi əhatəyə alıb bir neçəmizi öldürdü, yüzə yaxın adamı isə girov götürdülər. Girovluqda aldığım zərbələrin ağrısı indi də bədənimdən çıxmayıb".[1]

Əli kişi ilə bərabər ailənin bütün üzvləri – həyat yoldaşı Xanım Orucova, 17 yaşlı qızı Məlahət Orucova, oğlanları Nəbi, Taleh, Famil Orucovlar girov düşmüş, gəlini – Nəbinin həyat yoldaşı Mələk körpəsi ilə bərabər kəndin içindəcə öldürülmüşdür.

Əli kişi, yoldaşı Xanım, oğlanları Nəbi və Taleh bir müddətdən sonra girovluqdan azad edilsələr də bu, Məlahət və Familə qismət olmamışdır. Şahidlərin dediyinə görə Məlahət son dərəcə gözəl olduğundan ermənilər onu girovlardan ayıraraq Ermənistana aparmaq istəmişlər. Ermənilərin bu çirkin və şərəfsiz niyyətini başa düşən Məlahət düşmən qarşısında alçalmaqdan və namusunun ermənilər tərəfindən tapdalanmasından ölümü üstün tutaraq düşmən əlindəki avtomatın süngüsünü sinəsinə sıxmış və intihar etmişdir.[2]

Məşhur sosialist əməyi qəhrəmanı, uzun müddət Salyanda icraiyyə komitəsinin sədri işləmiş İbrahim Qurbanov bu kənddə anadan olub boya-başa çatmışdır.

Terp toponiminin mənşəyinə gəldikdə demək lazımdır ki, bu toponim də başqaları kimi, xalis Azərbaycan xalqına məxsusdur. Bəzi mənbələrdə göstərilir ki, "terp" sözü ərəb mənşəli olub "dağ keçidi, aşırım, dərə" deməkdir.[3] Fikrimizcə, bu, çox düzgün nəticədir və Terp kəndinin coğrafi relyefinə tamamilə uyğundur. Belə ki, bu kənd dərədə, keçiddə və aşırımda yerləşir.

------------------

1. Bax: Vidadi İsayev. Haradan gəlir bu köç. Bakı, 1995, səh. 104–105.
2. Yenə orada, səh. 105.
3. B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998, səh. 381; İ.Bayramov. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı, 2002.

## TERP KƏNDİNDƏ OLAN ONOMASTİK VAHİDLƏR

**Tayfa, nəsil və sülalə adları**

1. Məmmətli
2. Xələfli
3. Cəfərli
4. Seyidlər
5. Gülxanlılar
6. Şıxalılar
7. Xəlillər
8. Sonqulular
9. Şahnazarlılar
10. İsmayıllar
11. Çaykəndlilər
12. Məmərzalılar

**Ləqəb və ayamalar**

1. Qaqa Hüseyn
2. Yetim Hüseyn
3. Cücə Hüseyn
4. Titrəbaş Rəhim
5. Qalın Nəmənd
6. Fasıx Bəhmən
7. Bamsı Bəşir
8. Forsdu Bəyim
9. Marks Əliş
10. Dəri Garay
11. Yırtdaş Şəkər
12. Kor Ağa

**Məhəllə adları**

1. Cəfərli məhləsi
2. İsmayıllılar məhləsi
3. Şıxalılar məhləsi
4. Sonqulular məhləsi
5. Seyidlər məhləsi
6. Xələfli məhləsi
7. Məmmədli məhləsi
8. Çaykəddilər məhləsi
9. Ağkəddilər məhləsi
10. Məmərzalılar məhləsi
11. İstisulular məhləsi
12. Terp məhləsi

**Meşə adları**
1. Qarxun meşəsi
2. Gümüşxana meşəsi
3. Payızyurd meşəsi
4. Culun meşəsi

**Qaya adları**
1. Ocaq qayası
2. Göy qaya
3. İlan ocağı
4. Ballı qaya
5. Sarı kaha qayası

**Dağ, təpə adları**
1. Göy dağ
2. Qaya başı
3. Ağ yarğan
4. Porsuğ təpə
5. Top güney
6. Qısır dağı

**Biçənək adları**
1. Uzun biçənək
2. Bozdu biçənək
3. Leyliqaçan biçənək
4. Haj Həsən biçənəyi
5. Payızyurd biçənəyi
6. Hopurlu
7. Sarcalı
8. Qısır yurd
9. Milli çuxuru biçənəyi

**Dərə adları**
1. Sulu dərə
2. Qumlu dərə
3. Ayılı dərə
4. Gümüşxana dərəsi
5. Zəyərək dərəsi

**Yer, kövşən adları**
1. Ocağın dalı
2. Milli çuxuru
3. Tap yurd
4. Payız yurdu
5. Güney yeri

6. Çay yerləri
7. Balalı yaylaq
8. Ayılı dərənin çınqılı
9. Daş ağıl
10. Qara yerlər
11. Qəbiristanlığın üstü
12. Göy yoxuş
13. Sarı qır

**Bulaq adları**

1. Alma bulağı
2. Baba bulağı
3. Fərəc bulağı
4. Palıdlı bulaq
5. Qoç bulaq
6. Gicirkannı bulaq
7. Təhnəli bulaq
8. Yastı bulaq
9. Haj Fərhad bulağı
10. Qısır bulağı
11. Meşə bulağı
12. Yoxuş bulaq

**Çay, göl adları**

1. Köşbək çayı
2. Ağ göl
3. Qoşa göllər
4. Kiçik göllər
5. Qamışdı göl

## 1937-ci ildə repressiya qurbanı olanlar

1. Ağakişiyev Yusif
2. Ağakişiyev Zaman
3. Ağakişiyev İman
4. Muradov Fərman Murad oğlu
5. Kərimov Fərman
6. Nəcəfov Qaçay Alı oğlu
7. Həsənov Məmməd Əli oğlu
8. Qocayev Qaçay Əli oğlu

## 1944-cü ildə sürgün olunanlar

1. Həsənov Bulud İmran oğlu
2. Cəfərov Həzrətqulu Xanlar oğlu

## 1941-1945-ci illərdə Böyük Vətən müharibəsinə gedənlər

**a) qayıtmayanlar**

1. Nəcəfov Ağəli
2. Ağa Ağaməmməd oğlu
3. Bayramov Abbas
4. Bayramov Zeynal
5. Həsənov Göyüş
6. Şirinov Yunis
7. Nəbiyev Ağabəy
8. Babayev Mayıl
9. Ağayev Abbas
10. Nəcəfov Nəcəf
11. Nəcəfov Hüseyn
12. Ağayev Şəmil
13. Nəcəfov İbrahim
14. Həsənov Həsən
15. Şəmil
16. Ağayev İsmayıl
17. Ağayev Bəşir
18. Ağayev Nurullah
19. Ağayev İbrahim
20. Muradov Şadman Fərman oğlu
21. Muradov Şiraslan Fərman oğlu
22. Muradov Sərxan Fərman oğlu
23. Muradov Çoban Fərman oğlu
24. Xələfov Yunis Xələf oğlu
25. Abbas Alı Salman oğlu
26. Qasımov Seyidağa Mıryusif oğlu
27. Ağamalıyev Balay Cənnətalı oğlu
28. Nəcəfov Alışan

**b) qayıdanlar**

29. Hüseynov Hüseyn
30. Paşayev Behbud
31. Hüseynov Ağa
32. Hənifəyev Salman
33. Şükürov Əhməd
34. Bayramov Hüseyn
35. Bığlı Məmməd
36. Məmmədov Hacıbaba
37. Həsənov Nəmənd
38. Həsənov Səməd
39. Mamedov Calal

40. Xıdırov Bəşir Nəsir oğlu
41. Muradov Mehman Kərəm oğlu
42. Muradov Bəhman Kərəm oğlu
43. Kərimov Əli Fərman oğlu
44. Kərimov Nəcəf Məhəmmədhəsən oğlu
45. Kərimov Əhməd Məhəmmədhəsən oğlu
46. Həsənov Şəmil Həsi oğlu
47. Şükürov Mehbalı İmamverdi oğlu
48. Kərimov Salman Xanlar oğlu
49. Şükürov Əmiraslan Xudaverdi oğlu
50. İlyasov Xudaverdi
51. İlyasov İlyas
52. Rzayev Seyidağa Hüseyn oğlu
53. Yusifov Sərxan Xudaverdi oğlu
54. Əkbərov Hüseyn Zeynal oğlu
55. Əkbərov Şahbaz Zeynal oğlu
56. Əkbərov Həmid Zeynal oğlu
57. Hüseynov Məmmədbağır

## 1988-ci ildə Terp kəndindən Xocalı və Malıbəyliyə köçüb gələnlərdən 1992-ci ildə Xocalıda şəhid olanlar

1. Kərimov Fehrun Samran oğlu, 26.II.1992
2. Kərimov Samran Soltan oğlu, 26.II.1992
3. Kərimova Firəngül Qonnan qızı, 26.II.1992
4. Hənifəyev Bəhmən Salman oğlu, 26.II.1992
5. Bəhmən Vaqif oğlu, 26.II.1992
6. Bayramova Sara Səfər qızı, 26.II.1992
7. Bayramova Natəvan Pənah qızı, 26.II.1992
8. Talıbov Rəhim Xudaverdi oğlu, 26.II.1992
9. Səmədov Tariyel Bəylər oğlu, 26.II.1992
10. Səmədov Həmid Bəylər oğlu, 26.II.1992
11. Ağalarov Sadıq, 26.II.1992
12. Ağalarova Güllü, 26.II.1992
13. Orucov Famil Əlı oğlu, 26.II.1992
14. Orucova Məlahət Əli qızı, 26.II.1992
15. Orucova Mələk Əli qızı, 26.II.1992
16. Orucova Xanım Nəbi qızı, 26.II.1992

## İtkin düşənlər

1. Kərimov Soltan Samran oğlu, 26.II.1992
2. Dadaşov Famil Əlioğlu, 26.II.1992
3. Muradov Paşa, 26.II.1992

### Terp kəndindən Xocalıda girov düşüb geri qaytarılanlar

1. Nəcəfov Etibar Əli oğlu, 26.II.1992 - Xocalıda girov düşüb, sonra qaytarılıb.
2. Nəcəfov Vüqar Əli oğlu, 26.II.1992 - Xocalıda girov düşüb, sonra qaytarılıb.
3. Talıbov Səməd Rəhim oğlu, 26.II.1992 - Xocalıda girov düşüb, sonra qaytarılıb.
4. Orucov Əli Dadaş oğlu, 26.II.1992 - Xocalıda girov düşüb, sonra qaytarılıb.
5. Orucov Nəbi Əli oğlu, 26.II.1992 - Xocalıda girov düşüb, sonra qaytarılıb.
6. Talıbov Yavər Rəhim oğlu, 26.II.1992 - Xocalıda girov düşüb, sonra qaytarılıb.
7. Talıbov Xalid Rəhim oğlu, 26.II.1992 - Xocalıda girov düşüb, sonra qaytarılıb.
8. Nəcəfov Əli Ağəli oğlu, 26.II.1992.

**İnformatorlar:** 1) Şahhüseynov Sabir Allahqulu oğlu 1951-ci il təvəllüdlü, ali təhsilli, riyaziyyat müəllimi – Axta kəndində böyüyüb boya-başa çatıb, hal–hazırda Bakıda yaşayır və işləyir. 2) 1948-ci ildə anadan olan Terp kənd sakini, Terp kəndində məktəb direktoru işləmiş, hal-hazırda Azərbaycanda Mətbuat və İnformasiya Nazirliyində işləyən Abbasov Vəhiyəddin Surxay oğlu.

## TEZXARAB

Tezxarab Dərələyəz mahalının Əzizbəyov (Paşalı) rayonunda azərbaycanlı kəndidir. Tarixi və statistik mənbələrin verdiyi məlumata əsasən, Tezxarab kəndində 1831-ci ildə 22 nəfər azərbaycanlı yaşamışdır.[1] Lakin ermənilər bu kənddən azərbaycanlıları sıxışdırıb çıxartmış, torpaqlarını əllərindən almışlar. Məhz bu səbəblər üzündən sonralar bu kənd ölü kəndə çevrilmişdir. Hal-hazırda bu yaşayış məskəninin xarabalıqları Axta kəndinin yaxınlığında qalmaqdadır.[2]

Bu toponim iki sözün – tez və xarab sözlərinin birləşməsindən əmələ gəlmişdir və Azərbaycan xalqına məxsus bir toponimdir.

---

1. Статистическое описание Нахичеванской провинции СПб., 1833, стр.170; И.Шопен. Исторические памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 619; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 90.
2. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 347.

## TƏHLƏ DÜŞƏN YURD

Təhlə düşən yurd Dərələyəzdə Qoduxvəngin//Gədikvəngin ərazisindədir. Bərkdərə//Çətindərə adlı ərazinin üstündə, Soyuqbulaq adlanan sahədə yerləşir. Geniş, düzəngah və çox otlaqlı bir yerdir. Yaylağa gələnlər həmişə bu yurd yerinə düşmək istəyirlər. Bəzən də bu yurd yerinə başqa tayfaların nümayəndələri düşərdilər.

Təhlə türkdilli tayfalardan birinin adıdır. Bu tayfa Şimali və Cənubi Azərbaycanın bir çox yerlərində məskən salmışlar. Təhlə tayfası Azərbaycan Respublikasının bir çox rayonlarında, xüsusən Bərdə, Ağdam, Tərtər, Ağcabədi, Yevlax, Beyləqan, Şamaxı kimi rayonlarda, buradakı ayrı-ayrı kəndlərdə daha çox məskunlaşmışdır. Məsələn, Bərdə rayonunun Bejrəvan kəndinin əksəriyyəti, Hacallı kəndinin bir qismi, Qaratəpə adlı qışlaqda yaşayanların, demək olar ki, hamısı Təhlə camaatıdır.

Bu tayfanın Cənubi və Şimali Azərbaycanın hər yerinə yayılmasının başlıca səbəbi onun çox böyük tayfa olması ilə bağlıdır. Lakin digər səbəblər də vardır. Bunlardan bəzisini qeyd etmək yerinə düşər.

Təhlə tayfasının əksəriyyəti maldarlıqla məşğul olmağı xoşlayır. Bunlar qoçaq, vuran-tutan olduğundan oğru-əyri bunlara yaxın gələ bilmir, hətta bunlardan qorxurlar. Ona görə də yerli əhalinin çoxu öz mal-qoyununu dağda və aranda saxlamağı ən çox Təhlə camaatına tapşırırlar. Belə bir vəziyyət onların geniş ərazidə yayılmasına və həmin yerlərdə məskunlaşmasına şərait yaradır.

A.Qurbanov Azərbaycandakı Təhlə tayfasının tarixindən danışan İ.P.Petruşevskinin söylədiyi fikrə əsaslanaraq yazır: "Azərbaycan ərazisində yaşamış Təhlə tayfası yerli deyildir. 1540-cı ildə Türkiyə ərazisindən Qazıxan başda olmaqla Təklə tayfası İrana gəlmiş və Şah I Təhmasibin tabeliyinə keçmişdir. Şah təklələrin bir hissəsini həmişəlik yaşamaq üçün indiki Salyan rayonu ərazisinə köçürmüşdür. XX əsrin əvvəllərində bu tayfa 14 tirədən ibarət bir tayfa idi: Talıbxanlı, Boşçalar, Budaqlı, Bulutlu, Hacılı, Evdələr, Xəlfəqulular, Ağamalılar, Muradxanlı, Murtulu və s. Bundan başqa bu tirələrin bəziləri daha xırda hissələrdən ibarət idilər.

Bu tayfa yayı Kiçik Qafqazın Muradtəpə, Keçəltəpə, Sırtyer, Sərçəli və s. dağlarında, Kəlbəcər rayonunun Ağçınqıl, Qotursu, İstisu, Muxurtalayan, Çalbair, Təpəsideşik dağlarında, qışı isə Muğan düzündə keçirirmişlər".[1]

Qeyd etməliyəm ki, bu söylənmiş müddəada bir sıra dəqiq olmayan fikirlər vardır.

Əvvələn, Təhlə tayfasının Azərbaycanda yaşama tarixini son dövrlərə aid etmək fikri ilə qətiyyən razılaşmaq olmaz. Şimali Azərbaycan və Gürcüstan ərazisində Təhlə tayfasının adına 7 kəndin olması, Şimali və Cənubi Azərbaycan torpağının hər küncündə bu tayfaların olması yuxarıda söylənmiş fikrin əsassız olduğunu sübut edir. Fikrimizcə, Təhlə tayfası İ.P.Petruşevski və A.M.Qurbanovun göstərdiyi vaxtdan çox-çox əvvəl Azərbaycanda məskən salmışlar.

----------------

1. A.Qurbanov. Azərbaycan dilinin onomalogiyası. Bakı, 1988, s.314-315.

Ola bilsin ki, bu tayfanın Türkiyə ərazisində yaşayan müəyyən bir hissəsi həmin vaxt Azərbaycana köçürülmüşdür. Belə bir fakt Təhlə tayfasının əvvəldən Azərbaycan ərazisində yaşamasını inkar etmir. Nəzərdən qaçırmaq olmaz ki, Türkiyə ərazisində çoxlu azərbaycanlı yaşamış və hal-hazırda da onlar yaşamaqdadır. Odur ki, belə bir hal ola bilərdi.

İkincisi, yuxarıda adı çəkilən tayfa və sülalələrin hamısını Təhlə tayfasına aid etmək doğru deyil. Bu fikri söyləyərkən müəllifin nəyə əsaslandığı aydın olmur. Burada adı çəkilən və çəkilməyən (Alqullar, Alpənahlılar, Sərxanlılar, Eyvazalılar, Mərcanlılar, Kəbirlilər və s.) köçəri tayfaların hamısını Təhlə tayfası adlandırmaq doğru olmaz.

Mən bu tayfa və tirələrə şəxsən yaxından bələd olduğum üçün, onların yaylaq və qışlaq yerlərini gəzdiyim üçün, anadan olduğum, böyüyüb boya-başa çatdığım yerə yaxın olan yaylaqlarda (Sarıyerdə, Muradtəpəsində, Soyuqbulaqda, Keçəl təpədə, Alagöllərdə, Qırmızı dağda, Taxta yurdda, Dikpilləkəndə, Qırxbulaqda və s.) yarım əsrlik bir müddətdə bu tayfa və tirələrlə dostluq, get-gəl edərkən onların adət-ənənələrini, geyimlərini, məşğuliyyətini başqa tirə və tayfalarla əlaqələrini dərindən baldiyim üçün yuxarıdakı fikri söyləyirəm.

Mülayim xarakterli, sakittəbiətli, dinc və sakit yaşamağı sevən, ticarət etməyə, Haca etməyə çox meyl edən, buxara papaq geyməyə üstünlük verən Murtulularla, vurub-tutmağı, çalıb-çapmağı, döyüşməyi xoşlayan, qaragül dərisindən dik və uzun saçaqlı papaq geyməyə adət edən (türkmənlərdə olduğu kimi), atlı dəstələrlə hökmdarları mühafizə etməyə cəlb edilən Təhlələri eyni tayfa kimi qələmə vermək, Murtuluları Təhlə tayfasının bir tirəsi hesab etmək reallıqdan çox-çox uzaqdır.

Üçüncüsü, A.Qurbanovun Təhlə tayfasının tirəsi hesab etdiyi köçərilərin dədə-baba yurdlarının böyük bir qisminin (Sarıyer, Soyuqbulaq, Alagöllər, Hacıheydər dərəsi, Qırxqız və s.), həmçinin Təhlə tayfasının əsil yurdu olan Qaraxaç yaylağının adı belə çəkilmir.

Dördüncüsü, yaylaq adlarının bəzisi təhrif olunaraq Sarıyer – "Sırt yeri", Çalbayır – "Çalbair", Təpəsidəlik – "Təpəsi deşik" adı altında verilmişdir.

Bunlardan başqa, A.Qurbanov Təhlə etnonimindən danışarkən göstərir ki, Gürcüstan ərazisində bir Təhlə kəndi vardır. Faktlar göstərir ki, burada bir yox, iki Təhlə kəndi vardır və bunlardan hər ikisi böyük kəndlərdir. Bunların birinə Ağ Təhlə digərinə isə Qara Təhlə deyilir.

Məlum olduğu kimi, qara sözü tarixən rəng mənasından başqa böyük, yekə, iri, əzəmətli, qüvvətli, güclü, sıx, qalın, geniş mənalarında da işlənmişdir.[1] Qarabağ (Qara-bağ), Qarayazı (Qara-yazı//çöl), Qaraxaç (Qara-xaç), Qaradəniz (Qara-dəniz), Qarasak – (Qara-sak).

Ağtəhlə sözünə gəldikdə qeyd etməliyik ki, ağ sözü tarixən rəng mənasından başqa "uca", "yüksək", "hündür", "işıqlı", "qalxmaq", "ucalmaq",

-------------------

1. Mirəli Seyidov. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı, 1989, səh.34-38; Tofiq Əhmədov. Azərbaycan toponimikasının əsasları, Bakı, 1991, səh.270-273.

"yüksəlmək" mənalarında da işlənmişdir.[1] Belə bir cəhəti də qeyd etmək lazımdır ki, türkoloqlar türk dillərində ağ söünün yuxarıdakı mənalardan başqa tarıxən "kıçık", "kiçicik", "balaca", "xırda", "gözəgörünməyən" mənaları ifadə etdiyini də qed edirlər.[2]

Tarixən saq//sak tafasının Ağsaqlar və Qarasaqlar adlanması, Qamlara Ağqam və Qaraqam, Şamanlara Ağşaman və Qaraşaman deyilməsi, Ağqoyunlu və Qaraqoyunlu tayfalarının hamıya bəlli olması faktları göstərir ki, Ağ Təhlə etnoniminin işlənməsi də qanunauyğun bir haldır. Bizim fikrimizcə, ağ sözü yuxarıdakı birləşmələrdə "kiçik", "xırda", "balaca" mənalarını ifadə etmiş və qara sözünün antonimi kimi işlənmişdir.

Dərələyəzdəki "Təhlə düşən" toponimi bir daha isbat edir ki, haqqında söhbət gedən bu yerlər Azərbaycan xalqına məxsusdur.

## TƏRƏTUM

Tərətum Dərələyəzin Yeğeqnadzor rayonunda kənd adıdır. Şərur və Dərələyəzdən Göyçəyə gedən magistral yolun yaxınlığında, strateji cəhətdən çox əhəmiyyət kəsb edən yerdə, Kələkulux, Ağkənd və Sallı kəndlərinin əhatəsində yerləşir. Münbit torpağı, çoxlu bağ-bağatı vardır. Bu cəhətləri nəzərə alan çar Rusiyası Türkmənçay müqaviləsindən sonra Tərətum kəndinə erməniləri gətirib doldurdu. Halbuki 1833-cü ilə qədər burada bir nəfər də olsun erməni omamışdır.

1833-cü ildə nəşr olunan tarixi və statistik mənbədə göstərilir ki, 1831-ci ildə Tərətum kəndində 50 nəfər azərbaycanlı yaşamışdır, ermənilər olmamışdır.[1] Lakin 1852-ci ilə aid mənbədə burada İrandan gəlmiş 56 nəfər, 1886-cı ilə aid mənəbədə isə 232 nəfər erməninin yaşadığı, azərbaycanlıların olmadığı göstərilir.[2] Erməni tarixçisi Zaven Korkodyan isə öz əsərində göstərir ki, 1897-ci ildə Tərtum kəndində 11 nəfər azərbaycanlı yaşamışdır.[3] Görünür bunlar öz doğma yer-yurdunda yaşamaq istəyən azərbaycanlılar olmuşdur. Lakin sonrakı dövrə aid mənbələrdə Tərətum kəndində azərbaycanlıların yaşadığı göstərilmir. Bu kənddə X əsrdən əvvəlki dövrlərə aid tarixi abidələr də vardır ki, ermənilər alban türklərinə məxsus bu abidələri özlərinə çıxmaq istəyirlər.

---------------------

1. Древнетюркский словарь, Л., 1969, с.16; Mirəli Seyidov. Azərbaycan xalqının soykökünü düşünərkən, Bakı, 1989, səh.34-35; В.В.Радлов. Опыт словарья тюркских наречии, том I, часть I, Санкт-Петербург, 1893, с.88.

2. В.В.Радлов. Опыт словарья тюркских наречии, том I, часть I, Санкт-Петербург, 1893, с.96; Tofiq Əhmədov. Azərbaycan toponimikasının əsasları, Bakı, 1991, səh.269-271.

1. Статистическое описание Нахичеванской провинции, СПб. 1833, стр.166-167.

2. И.Шопен. Исторические памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 615-617; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №975.

3. Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 92.

Tərətum toponiminin mənşəyinə gəldikdə demək lazımdır ki, iki sözün birləşməsindən əmələ gələn bu toponim də Azərbaycan xalqına məxsusdur. Dərə və Tumb sözlərinin birləşməsindən əmələ gəlmişdir. Dərə iki dağın, iki təpənin arası, düzənlikdə əməl gəlmiş çuxur və s. bu kimi mənaları, tumb isə təpə, dağ, zirvə, domba, dik mənalarını ifadə edir.[1]

## ÜLGÜL

Ülgül Dərələyəz mahalının Yeğeqnadzor (Keşişkənd) rayonunda olan kənd lərdən biridir.[2] 1918-ci ildə ermənilər tərəfindən bu kənd dağıdılmışdır. Xarabalıqları Qozulca kəndinin yaxınlığında qalmaqdadır.[3]

Dərələyəzin yaşlı adamlarının dediyinə görə bu kənd xırda kəndlərdən biri olmuş və əhalisi erməni-müsəlman davasında başqa kəndlərin əhalisinə qoşulub Azərbaycanın müxtəlif bölgələrinə qaçmışdır.

Ola bilsin ki, kəndin adı bitki adından – gülül leksik vahidindən törəmişdir. Sözün hecalarında metateza hadisəsi baş vermiş və bu gul-ul "ül-gül" formasına düşmüşdür.

Ola bilsin ki, bu sözün birinci tərəfi "ülvi" ("yüksək, uca, yüksəklərdə olan, səmalarda olan"), yaxud "ülya" ("ən uca, çox gözəl"[4]) sözlərindən biri olmuş və ixtisar nəticəsində asan tələffüz naminə indiki şəklə düşmüşdür. Yəni uca yerdə bitən gül yeri, ən gözəl gül yeri mənasında olan kənd.

## VARTANIS

Vartanıs//Vartanik//Vardanis kəndi Dərələyəzin Yeğeqnadzor (Keşkənd) rayonuna daxildir. Dəniz səviyyəsindən 1700 metr hündürlükdə yerləşir. Yelpin, Çivə, Heşin kəndlərinin əhatəsindədir.[5] Tarixi mənbələrdən və statistik məlumatlardan aydın olur ki, Vartanıs kəndində 1873-cü ildə 106 nəfər, 1886-cı ildə 126 nəfər, 1897-ci ildə 158 nəfər, 1904-cü ildə 176 nəfər, 1914-cü ildə 194 nəfər, 1916-cı ildə 204 nəfər azərbaycanlı yaşamışdır.[6] Erməni-müsəlman

-------------------

1. Ətraflı məlumat almaq üçün bax: Е.Н.Бушева. Словарь географических терминов и других слов встречайушихся в топоними Азербайджанской ССР Москва, 1971, стр.67; Э.М.Мурзаев. Словарь народных географических терминов. Москва, 1984, стр.171; İbrahim Bayramov. Qərbi Azərbaycanın toponimlərinintərkibində işlənən söz və coğrafi terminlərin lüğəti. Bakı, 2000, s.55-56.

2. Статистическое описание Нахичеванской провинции, СПб, 1833, стр.176.

3. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, səh.365.

4. Ərəb və fars sözləri lüğəti. Bakı, 1985, səh.658.

5. Mirzəyev H. Vartanıs kəndi və onun onomastik vahidləri, Filologiya məsələlərinə dair tematik toplu, № 5 (17), Bakı, 2001, s.20-22.

6. Bax: Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1038; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh.92; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh.254, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh.245.

davasında 1918-ci ildə Dərələyəzdəki digər azərbaycanlı kəndləri kimi Vartanıs kəndi də dağıdılmış, evlər yandırılmış, əhalisinin çoxu qırılmış, az bir qisim adam isə çox çətinliklə qaçıb canlarını ölümün pəncəsindən qurtara bilmişdir. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra, xüsusən, 1922-ci ildə kəndin əhalisindən yalnız 67 nəfər öz doğma kəndinə qayıda bilmişdir.[1]

1590-cı və 1727-ci ilin məlumatına görə həmin dövrlərdə bu kəndin 5.168 axça gəliri olmuşdur.[2]

Ermənistan hökuməti özünün apardığı şovinist siyasət nəticəsində, xırda kəndləri böyük kəndlərlə birləşdirmək və guya camaatı varlandırmaq adı altında 1939-cu ildə Vartanıs kəndini Heşin kəndi ilə bir kolxozda birləşdirmiş və bununla Vartanıs kəndini dağıtmağa, Dərələyəzdəki kəndlər siyahısından çıxarmağa nail olmuşlar. Bundan sonra Vartanıs kəndi ilə Heşin kəndi bir kolxozda fəaliyyət göstərmişdir. 1948-1953-cü illərin repressiya dövründə Vartanıs kəndinin əhalisini də Heşin kəndi ilə birlikdə Azərbaycanın Saatlı rayonunun Şirinbəyli kəndinə köçürmüş və bunların əksəriyyəti hal-hazırda o kənddə yaşamaqdadır.

İqlim şəraitinə uyğunlaşmayıb, sarılıqdan, malyariyadan, qızdırmadan, qarın yatalağından, ürək xəstəliyindən bu kənddə də çoxlu adam öz dünyasını dəyişmişdir.

Tarixi, coğrafi və dil araşdırmalarına əsasən belə bir qənaətə gəldik ki, Vartanıs toponimi "vart//art" və "eniş//enis" sözlərinin birləşməsindən əmələ gəlmişdir.

Dilçilik ədəbiyyatından məlum olur ki, qədim türk dillərində "var//vart" sözü dağ və yurd yeri mənalarında işlənmişdir. Bununla eyni yuvadan formalaşmış olan "art//ard" sözü isə həm dağ, həm də dağ keçidi, dağ aşırımı, aşırım mənalarını ifadə etmişdir.[3]

Enmək, eniş (yenmək, yeniş) sözlərinin mənası isə hamıya məlumdur. Deməli, Vartanıs toponimi dağ enişində, dağ aşırımında, dağ keçidində olan yer mənasındadır. Burada müasir dilimizdəki eniş sözündəki "ş" səsinin yerinə tarixən "s" səsi işlənmişdir. Azərbaycan dilində "ş" səsi ilə "s" səsinin əvəzlənməsi qanunauyğun haldır.

Vartanıs kəndinin relyefi, yerləşdiyi yer yuxarıda söylədiyimiz fikri tamamilə təsdiq edir. Belə ki, mənim yaxşı bələd olduğum bu kənd dağ aşırımının Arpa çayına enən üzündə, Ardaraz kəndinin yanında yerləşir.

Vartanıs kəndinin toponimləri ilə Heşin kəndinin toponimləri bir yerdə verilmişdir. Çünki bu iki kəndi ermənilər birləşdirmişlər. Ona görə də informatorlar iki kəndin sərhədlərini ayırmağa çətinlik çəkdilər.

-------------------

1. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 354,

2. Ziya Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri, Bakı, 1996, səh.58; Ziya Bünyadov və Hüsaməddin Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh.35.

3. Древнетюркский словарь. М., 1969, стр.55; B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998, səh.169.

**1937-ci ilin repressiya qurbanı olanlar**

1. Cəfərov Həmid Nəcəf oğlu
2. Cəfərov Mirzə Əhməd oğlu
3. Ağalarov Məhəmməd Mikayıl oğlu

(Bunların heç bir geri qayıtmayıbdır)

**Vartanis kəndindən 1941-1945-ci il Böyük Vətən müharibəsinə gedənlər**

**a) qayıtmayanlar**

1. İsmayılov Calal Hüseynalı oğlu
2. Ağalarov İsmayıl Mikayıl oğlu
3. Ağalarov Usub Mamo (Mamed) oğlu
4. Ağalarov Sultan Mamo (Mamed) oğlu
5. Ağalarov Bəhlul Məşədmikayıl oğlu
6. Ağalarov İbrahim Məşədmikayıl oğlu
7. İsmayılov Əmiraslan Binnət oğlu

**b) qayıdanlar**

8. Nəsirov Xəlil Əziz oğlu
9. Həsənov Məhəmməd Məmey oğlu

Yer adları Heşin kəndi ilə birlikdə verildiyi üçün burada onu təkrarən verməyi lazım bilmədim.

**İnformatorlar:** Repressiya qurbanları və müharibəyə gedənlər haqqında olan bu məlumatı mənə vartanıslı, 1940-cı ildə Heşin kəndinə köçüb orada yaşamış, hal-hazırda Saatlı rayonunun kəndində yaşayan 78 yaşlı Əhmədov Həsən Mamoş (Mamed) oğlu və 77 yaşlı Hüseynov Əmiraslan Həsən oğlu 19 mart 2001-ci ildə vermişdir. Əmiraslanın həyətində onlar deyiblər, mən də yazmışam.

## VERS DAĞI

Vers dağı Dərələyəz və Göyçənin sərhədində yerləşir. Bir tərəfi Dərələyəzdə Qovuşuq kəndinə məxsus Soğanlı yaylağına, o biri tərəfi isə Göyçənin Basarkeçər və Qaranlıq (Martuni) rayonuna (Göyçə gölünə) baxır. Dağın yüksəkliyi 3522 metrdir.[1]

Bu ətrafda ən uca dağ hesab olunur. Türk tayfalarından birinin adını daşıyan və dillərdə əzbər olan Arpa çayının bir qolu ilk mənbəyini bu dağın ətəyindən alır. Vers dağının Dərələyəzə baxan üzündə Qovuşuq kəndinə məxsus Soğanlı yaylağı və bu yaylağa məxsus Xalaclar yurdu, Göytəpə, Qaçaq qayası, Bərk dərə adlı yerlər vardır. Göycə və Köyçə gölünə baxan üzündə

-----------------

1. Mirzəyev H. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz (monoqrafiya), Bakı, 1997, səh. 194-197.

(ətəyində) isə Gözəldərə, Alçalı, Yarpızlı, Zağalı və s. bu kimi bir çox kəndlər yerləşir. Mən 1947-ci il iyun ayının axırlarında Vers dağının lap zirvəsinə çıxmış və oradan Ağrı dağı, Ağmanqan, Əyricə, Keti, Qoşqar, Murov və s. arasında yerləşən ən uca dağları, yaşayış yerlərini seyr etmişəm. Bu dağın zirvəsinə qalxdıqca oksigen azlığı hiss olunur.

Araşdırmalara əsasən belə bir ilkin nəticəyə gəlmək olar ki, Vers dağının adı türk qəbilələrindən olan Varsaq//Vərsaq tayfasının adı ilə bağlıdır.

Faktlar göstərir ki, qədim dövrlərdə ayrı-ayrı qəbilə və tayfalar müəyyən bir ərazidə məskunlaşmaq məqsədi ilə ən böyük dağ, yaylaq, düzənlik, çay, dəniz, göl və sairəyə öz qəbilə və tayfalarının adını verərmişlər. Qoşqar və Keyti dağı, Əyricə yaylağı, Kür, Araz, Tərtər, Qarqar, Xaçın çayları, Mil və Muğan düzü, Kaspi//Xəzər dənizi kimi faktlar buna canlı misaldır.

Vers dağının vərsaq//versaq//varsaq qəbilə adından necə formalaşması məsələsinə gəldikdə, bu etimoloji cəhətdən xüsusi tədqiqat tələb edir. Lakin hələlik ümumi şəkildə onu demək olar ki, bu əvvəlcə varsaqdağ//vərsaqdağ formasında olmuş, sonra ixtisar olunaraq versdağ, vers dağı formasına düşmüşdür.

Vers dağının vərsaq//versaq//varsaq tayfasının adı ilə bağlı olması üçün bir sıra əsaslar vardır. Əvvəlan, bir çox etibarlı mənbələrdən aydın olur ki, bir sıra türk dilli xalqların yaşadığı ərazidə, o cümlədən Azərbaycanda varsaq//vərsaq//versaq qəbilə birləşməsi yaşamışdır.[1]

M.Seyidov yazır: "Varsaq əski türk dilli qəbilə birləşməsindən birinin adıdır. Bu qəbilə birləşməsi bir çox türkdilli xalqların, o sıradan azərbaycanlıların etnik tərkibində iştirak etmişdir". ..."Vərsaq//Varsaq" Azərbaycan xalqının tarixində böyük rol oynamış Azərbaycan türkdilli qəbilə birləşmələrindəndir. Bu qəbilə birləşməsi IV-V yüzillikdən öncə Zaqafqaziyada yaşamış və onun sənəti Qafqaz xalqlarının sənəti ilə qaynayıb qarışmışdı".[2]

Bünyadov yazır: "...mənbələrdə "varsaq" sözü yer adını, türk tayfasını, bu tayfaya aid əşyanın adını bildirir".[3]

Məşhur türkoloq R.R.Radlov da varsaq sözünün türk tayfalarından birinin adı olduğunu qeyd edir.[4]

Nəticə aydındır: Azərbaycanda vərsaq//versaq//varsaq tayfa və qəbilələri yaşamışdır.

İkincisi, varsaq sözü eyni zamanda çalan, oxuyan mənasında da işlənmişdir.

Vers dağının adını şərh edərkən belə bir cəhəti də qeyd etmək lazım gəlir ki, bu dağın ətrafındakı Göyçə və Dərələyəz mahalı ozan-aşıq sənətinin əsas məskənlərindəndir. Qədim dövrlərdə şaman, ozan və varsaqların öz ayinlərini ən uca dağların başında keçirməsi, Göyçə və Dərələyəzin bu sənətin məskəni olması və s. bu kimi bir sıra amillər də deməyə əsas verir ki, Versdağı//Vərsaq//Varsaq qəbiləsinin adı ilə bağlıdır.

-------------------

1. M.Seyidov. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı, 1983, səh.280.
2. Yenə orada, səh.32, 28.
3. Z.Bünyadov. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1989, səh.173.
4. Р.Радлов. Опыт словаря тюркских наречий, том IV часть II, стр.1961.

Gələcək tədqiqatçılar bu dağ adını izah edərkən onun Arsaq sözü ilə bağlı olub-olmadığını, varsaq, sözündəki "v" səsinin sonralar artırılıb-artırılmadığını da yoxlamalıdır.

Aşıq qoşmalarında, xəritələrdə, tarixi mənbələrdə adı çəkilən "Əyricə" yaylağı da türkdilli qəbilələrdən birinin adıdır. Bu haqda başqa mənbələrdə az və ya çox dərəcədə məlumat olduğunu, bu haqda ayrıca danışacağımızı nəzərə alıb biz ondan burada danışmağı lazım bilmədik.

Aşıqların qoşmalarında və digər mənbələrdə adı tez-tez çəkilən Kəpəz, Murov//Muroy//Muşoy, Qırxqız və s. kimi adlar da böyük maraq doğurur.

Bura qədər deyilənlərdən belə bir ümumi nəticəyə gəlmək olur ki, etnonimlərin dağ və yaylaq adlarında məskunlaşdığını göstərən mənbələr çoxdur.

Məlum olduğu kimi, Araz çayına tökülən Arpa çayı Dərələyəz mahalındadır və bunun iki qolu vardır. Bunun bir qolu Vers dağının ətəklərindən, həmçinin Soyuqbulaq adlı yaylağın qərb tərəfindəki Bərk/Çətin dərə adlanan yerdən başlayır. Əfsuslar olsun ki, Azərbaycan coğrafiyaşünaslarının laqeydliyi üzündən bir çox xəritələrdə Arpa çayının bu qolu verilmir. Halbuki Dərələyəzdəki qədim abidələrin, xüsusilə, kilsə və vənglərin böyük əksəriyyəti bu qolun üstündədir. Bu qolun üstündə və ətrafında olan Ələyəz, Hosdun, Həsənkəd, Qabaxlı, Qızılgül (Ayısəsi), Canı, Güneyvəng, Kədikvəng, Qalaser//Qalasər, Horbadıq, Alxan pəyəsi, Qoytul adlı kəndlərdə çoxlu tarixi abidələr vardır. Külli miqdarda vəng və kilsə, əzəmətli Salsal qalası, Ələyəz, Hosdun, Erdəpin kəndlərinin arasında xarabalığa çevrilən 5 km uzunluğunda olan qədim qəsəbə (Salsal, Qızqalası, Ustun, Horstun, Elegiz//Eloğus) bu ərazidə yerləşir.[1]

Bu abidələrin əksəriyyətinin albanlara, Alban türklərinə məxsus olması şübhəsizdir. Görəsən nəyə görə bizim bədxah qonşular çox vaxt Arpa çayının bu qolunu xəritədə vermək istəmirlər? Bu qolun uzunluğu və çaydakı suyun həmci də o biri qoldan geri qalmır. Mənə elə gəlir ki, Arpa çayının bu qolunu və bunun üstündəki kəndlərin adını verməmək, bu tarixi abidələrdən, albanlara, türk tayfalarına məxsus qala, vəng, kilsə, qəbir daşlarından ictimaiyyətin, o cümlədən Azərbaycan alimlərinin diqqətini yayındırmaq məqsədi güdür. Azərbaycan xalqının tarixini yazarkən bu tarixi abidələr çox diqqətlə, dəqiqliklə araşdırılmalıdır.

-----------------------

1. Ermənilər iddia edir ki, Erdəpin kəndinin yerində tarixən mövcud olan Elegis şəhəri ermənilərin, Baqratilərin mərkəzi olmuş və bu toponim ermənilərə məxsusdur. Elegis toponimini qəbul edən erməni tədqiqatçıları bilməlidirlər ki, Elegis toponimi ilə Ələyəz toponimi eyni yuvadan meydana gəlmiş və bu el oğuz, yüksəklikdə yaşayan el oğuzlar mənasındadır (bax Ələyəz toponiminin izahına). Bu toponimin ermənilərə heç bir aidiyyəti yoxdur, bu xalis türk toponimidir.

Əgər ermənilər bilsəydilər bu şəhərə Elegis, Göyçə gölünə isə Sevan deməzdilər. Çünki Sevan da türk mənşəli toponimdir. Sev kökü indiki su (suv) sözünü, -an isə məkan mənasını bildirən şəkilçidir. Gələcək tədqiqatçılarımız belə mübahisəli toponimləri daha geniş şəkildə tədqiq etməlidirlər.

## YAVƏR

Yavər kəndi Dərələyəz mahalının Yeğeqnadzor (Keşkənd) rayonunda Azərbaycan kəndidir.[1]

1918-ci ildə erməni daşnakları kəndi dağıtmış, əhalini didərgin salmışlar.[2] Hal-hazırda xarabalıqları Yeğeqnadzor rayon mərkəzindən 18 km şimal-şərqdə Ağkəndin yaxınlığında qalmaqdadır. Bu kəndin adı hərfi titul bildirən sözdən törənmiş və Azərbaycan xalqına məxsus bir toponimdir.

## YELPİN

Yelpin Yeğeqnadzor (Keşkənd) rayonunda kənd adıdır. Bu kənd Dərələyəzdən, Sisyandan İrəvana gedən magistral yolun üstündə, böyük bir aşırımın ətəyində, rayon mərkəzindən 22 km cənubda yerləşir. Bu kəndin torpağı Naxçıvan xanlığında Hüseynalı Sultana məxsus olmuşdur. Lakin sonralar burada ermənilərlə azərbaycanlılar birlikdə yaşamışlar.

Əvvəllər çoxlu azərbaycanlı yaşayan bu kənddə 1831-ci ildə cəmi 9 nəfər azərbaycanlı olmuşdur.[3] Bunun başlıca səbəbi odur ki, Çar Rusiyası geniş və məhsuldar torpağı olan, strateji cəhətdən böyük əhəmiyyət kəsb edən bu kənddə azərbaycanlıları tamamilə çıxarıb erməniləri yerləşdirmək istəyirdi.

Nikolay hökuməti və erməni şovinistləri bu məqsədlərinə də nail oldular. İrandan və başqa yerlərdən gətirdikləri erməniləri Yelpində məskunlaşdırdılar. Çox cüzi miqdarda azərbaycanlı ailələri burada yaşamalı oldu. Z.Korkodyan yazır ki, 1931-ci ildə bu kənddə 9, 1926-cı ildə isə II nəfər azərbaycanlı yaşamışdır.[4]

Yelpin toponiminin mənşəyinə gəldikdə deməliyəm ki, bu toponim də yalnız və yalnız azərbaycanlılara məxsusdur. Belə ki, Yelpin sözünün hər iki komponenti (yel və pin) azərbaycanlı sözüdür və bu yel pini (yel evi) mənasındadır. Yelpin kəndi böyük bir aşırımın ətəyində yerləşir. Payız və qış aylarında burada küləkli soyuqlar gəlib gedən karvanlara mane olur. Odur ki, yerli əhali bu soyuq və küləklərdən daldalanmaq üçün aşırımın ayağında, dərənin içində pin (alçaq evlər) tikmişlər. Kəndin adı da buradan götürülmüşdür.

1960-cı illərə qədər azərbaycanlılara məxsus qəbiristanlığın qalıqları Yelpin kəndinin aşağısında, iki böyük daşın alt tərəfində düzənlikdə qalmışdı. 1960-cı illərdə bu qəbiristanlığı dağıdıb yerini şitillik etdilər.[5]

-----------------

1. Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931) Yerevan, 1932, səh.92.
2. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh.301.
3. Статистическое описание Нахичеванской провинции СПб., 1833, стр.164-165.
4. Z.Korkodyan. Sovet Ermənistanın əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh.92.
5. Kamil Dərələyəzli. Dərələyəz od içində. Bakı, 2001, səh.

Məşhur coğrafiyaşünas akademik Budaq Budaqov yazır: "Cənubda iqlimlə bağlı yaranmış bir neçə toponim də vardır. Yelin (küləyin) tez-tez muşahidə olunduğu yerlərdə Yeldərəsi, Yeldəyirmanı, Yellidərə, Yellibulaq toponimləri yaranmışdır."[1] Onu da qeyd edim ki, mənim anadan olduğum Qovuşuq kəndinin ərazisin də "Yellicə" adlı əkin sahəsi vardır.

## YENGİCƏ

Yengicə Dərələyəzin Yeğeqnadzor (Keşişkənd//Keşkənd) rayonunda kənd adıdır. Tarixən bu kənddə azərbaycanlılar yaşamışdır.

1918-ci ildə ermənilər tərəfindən törədilmiş milli qırğın dövründə Yengicə kəndi dağıdılmış və azərbaycanlılar buradan qovulmuşdu. 1829-cu ildə İranın Xoy və Salmas vilayətlərindən köçürülüb gətirilən ermənilərin bir qismini də gətirib Yengicə kəndində yerləşdirmişlər.[2]

1946-cı ildə kəndin adı dəyişdirilərək Qanzak adlandırılmışdır. 1960-cı ildə erməni əhalisi azərbaycanlıların qovulduğu Çivə və Aynəzir (Ağavnadzor) kəndlərinə köçürülmüş və kənd tamamilə boşalaraq xarabalığa çevrilmişdir. Xarabalıqları Gnişik kəndindən 3-4 km şimal-şərqdə qalmaqdadır.

Tarixi mənbələrdə bu kəndin adına Kənizək//Kənzək şəklində də təsadüf olunur və gəlirinin 2.412 ağça olduğu göstərilir.[3]

Yengicə toponiminin mənşəyinə gəldikdə demək lazımdır ki, bu xalis türk sözüdür. "Yengi" sözü türk dillərində "təzə, yeni" deməkdir. "-cə" şəkilçisi isə kiçiltmə məna çalarlığı verən şəkilçidir. "Təzəcə, yenicə" mənasında işlənən sözdür. Qeyd etmək lazımdır ki, Şərur rayonunda Yengicə adında 2 kənd vardır. Birinə Ərəb Yengicə, o birisinə isə Yengicə adı verilmişdir. Hər ikisi qədim kənddir. Şərur və Dərələyəz uzun illər boyu bir qəzada olduğu üçün demək olar ki, burada bir-birinə yaxın nəsildən olan adamlar da yaşamışlar. Bundan başqa, Vedibasar və Zəngibasar mahallarında da Yengicə adında azərbaycanlı kəndləri olmuşdur.[4]

Bu kəndin adı "İrəvan əyalətinin icmal dəftəri"ndə Yengicə kimi göstərilmişdir.[5] "Yengicə" toponimi Türkiyədə də var.[6] Ağdaş, Yevlax rayonların-

---

1. B.Budaqov. Türk uluslarının yer yaddaşı, Bakı, 1994, səh.186.
2. Статистическое описание Нахичеванской провинции, СПб., 1833, стр.174; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1852, №615; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1026; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 92; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 361.
3. Z.Bünyadov, H.Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1995, s.59; Z.Bünyadov, H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, s.35.
4. B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, səh.229, 250.
5. Z.Bünyadov, H.Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, səh.59
6. Y.Məmmədli. Azərbaycan və Türkiyənin paralel toponimləri. Azərbaycan onomastikası problemləri. III, Bakı, 1990, səh.117.

da Yenicə, Qəbələdə Yengicə adlı kəndlər vardır.[1]

"Yengicə" adı XIX əsr rus mənbələrində də öz əksini tapmışdır.[2]

## ZEYTƏ (QARYANLIQ, ÇAMAX, ÇOPMAZ, ZEYVƏ)

Zeytə Dərələyəzin Əzizbəyov rayonunda azərbaycanlı kəndidir və rayon mərkəzindən 7 km cənub-qərbdə yerləşir.

Yaşlı adamların dediyinə görə Zeytə kəndi, təxminən 360-400 il bundan əvvəl yenidən abadlaşmış və 1988-ci ilin dekabrına qədər burada azərbaycanlılar yaşamışdır. Yaşlı adamların dediyinə görə ən qədim dövrlərdə bu kəndin ərazisi böyük meşəlik olmuş və burada çoxlu şir, pələng, maral olmuşdur.

Tarixi sənədlərdən aydın olur ki, 1831-ci ildə bu kənddə 67 nəfər, 1873-cü ildə 224 nəfər, 1886-cı ildə 261 nəfər, 1897-ci ildə 324 nəfər, 1904-cü ildə 394 nəfər, 1914-cü ildə 580 nəfər, 1916-cı ildə 403 nəfər azərbaycanlı yaşamışdır.[3]

1918-ci ildə erməni daşnakı Yaponun quldur dəstəsi Dərələyəzin digər kəndləri kimi Zeytə kəndinə də divan tutmuş, kəndi yandırmış, əhalisinin bir hissəsini qırmışdır. Sağ qalanlar isə Naxçıvana qaçmışdır. Ermənistanda sovet hökuməti qurulduqdan sonra, 1922-ci ildə kəndin 580 nəfər əhalisindən cəmi 34 nəfəri bura qayıtmış, 1928-ci ildə onların sayı 147 nəfərə, 1931-ci ildə isə 228 nəfərə çatmışdır. Sovet hakimiyyəti illərində Zeytə camaatı kəndi yenidən bərpa etmiş, özləri üçün güzəran yaratmışlar.[4]

Bu kəndin yaşlı adamlarının dediyinə görə 1905-1907-ci illərdə də ermənilər Zeytə kəndinə basqın etmiş, kənd əhalisi Naxçıvana və Şərura qaçmışdır. Lakin bir qədər sonra əhali öz yer-yurdlarına qayıdıb ev-eşiklərini bərpa etmişlər.

1949-cu ildə Ermənistan hökuməti bu kənd əhalisini deportasiya edərək, zorla Azərbaycana köçürmüşdür. Rayon rəhbərliyi (ermənilər) kənd camaatını atla, araba ilə rayon mərkəzinə, oradan da Şərura gətirib yük qatarlarına doldurmuş və Azərbaycanın ən isti yerlərinə - Əli Bayramlı rayonunun Qaragünə, Şıxsalahlı, Axmazbaşı, Qaratoğay kəndlərinə yola salmışlar. İqlim şəraiti burada dağ adamı üçün çətin olduğundan bunların bir hissəsi 1951-ci ildə yenidən öz doğma kəndinə qayıtmışdır. Təxminən 25-30 ailə kənddə məskunlaşır.

---

1. Azərbaycan SSR inzibati-ərazi bölgüsü. Bakı, 1968, s.170; Y.Yusifov, S.Kərimov. Toponimikanın əsasları. Bakı, 1983, səh.177.

2. Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, №1026; Статистическое описание Нахичеванской провинции, Спб, 1833, стр.174.

3. И.Шопен. Исторические памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи, СПБ, 1852, сәщ. 615; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, № 1027; Z.Korkodyan. Sovet Ermənistanın əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 88; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 343; H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 246.

4. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 343.

1952-ci ilin yazında qonşu Qabaqlı kəndindən 30 ailə gəlib Zeytədə məskunlaşır. Bundan sonra qonşu Qurdqulaq, Arxaç kəndindən də xeyli ailə köçüb burada məskunlaşır. Bu vəziyyəti görən rayon rəhbərliyi narahat olmağa başlayır və bu kəndə yeni ailələrin köçüb gəlməsinə imkan vermirlər. Lakin 1988-ci ildə faciə yenidən təkrar olundu. Rayonun bütün təşkilatlarının rəhbərliyi ilə erməni millətçiləri bir həftə ərzində bu kənddəki bütün azərbaycanlıları yenidən qovub kənddən çıxartdılar.

1590-cı və 1727-ci illərə aid tarixi mənbələrdə, "İrəvan əyalətinin icmal dəftəri"ndə və “Naxçıvan sancağının müfəssəl dəftəri"ndə göstərilir ki, həmin Zeytə kəndinin 2.452 axça gəliri olmuşdur.[1]

Bu kəndin başqa adı da vardır. Bu bəzi mənbələrdə Qaryanlı, Zeytə, Çopma və Zeytə Çomaq kimi də işlənmişdir. Fikrimizcə, Zeytə sözü ilə Zeyvə[2] sözünün kökü birdir. Başqa sözlə, Zeytə sözü ilə ərəb dilində "künc, bucaq, hücrə, ibadətgah", fars dilində "xanəngah" mənasında işlənən, XIX əsrdə Azərbaycanda, o cümlədən Qərbi Azərbaycanda (Ermənistanda) mövcud olan 10 kəndin, hal-hazırkı respublikamızda 5 kəndin adını bildirən Zeyvə sözü bir mənbədən, bir yuvadan təşəkkül tapmışdır.[3] Qeyd edim ki, Gürcüstanda da Zeyvə adında kənd vardır.[4]

Zeytə kəndinin yaşlı və məlumatlı adamları göstərirlər ki, Zeytə kəndində alban türklərinin qəbiristanlığı var idi. Qəbiristanlığın yanında ev böyüklüyündə hündür bir "Qara daş" var idi. Bu daşın haradan gətirildiyi məlum deyildi. O ərazidə yalnız əhəng daşı olur. Qara daşın üstünə çıxmaq üçün özündən pillələr düzəldilmişdir. Daşın təpəsində təndirdən bir az kiçik oyuq var idi. Kənd adamları bu daşı müqəddəs hesab edirmiş və ona inanırmışlar. Rəvayətə görə, o qəbiristanlıqda atəşpərəstlər dəfn edilirmiş və cənazələr dəfn edildikdən sonra Qara daşın üstündə ocaq qalayırlarmış.

Zeytənin qarşısında "Töhmə" (tökmə) deyilən, sahəsi təxminən 1,5-2 hektar olan düz bir xərmən yeri vardır. Oranın bütün torpağı başqa yerdən gətirilərək tökülmüşdü. Kənd ilə "Töhmə" arasındakı 300-350 metrlik çökəklikdə hündürlüyü 7-10 metr olan sədd çəkilmişdi. Tökməyə aparılan su bu səddin üstündəki arxla aparılırdı. Tökmənin qurtaracağında arxın üstündə təxminən 1,2 metr eni, 1,8 metr uzunu və 50 sm qalınlığı olan rəngi sarıya çalan gözəl bir daş var idi. Daşın yuxarısında bir deşik, üstündə bərabər tərəfli, zövqlə işlənmiş bir xaç, xaçın üst və alt qanadlarının yanında qədim yazılar var idi. Kənddə məktəb direktoru işləmiş İlyas Xanlarov deyir ki, çoxlu sayda erməni mütəxəssisləri gəlib bu yazıları oxumaq istəmişdilər. Lakin onların heç biri bunu oxuya bilmirdilər. Ermənilərdən bəziləri bu xaça görə "Töhmə"nin ermənilər tərəfindən töküldüyünü iddia edirdilər. Lakin tarixi faktlar göstərir ki, bu bərabərtərəfli

---

1. Z.Bünyadov, H.Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, səh. 59; Z.Bünyadov, H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri, Bakı, 1977, səh. 36.
2. Mirzəyev H. Zeytə//Qaryanlıq, Çamax Çopmaz, Zeyvə kəndi və orada olan bəzi onomastik vahidləri haqqında, "Dədə Qorqud", № 1, Bakı, 2001, s.38-45.
3. T.Əhmədov. El-obamızın adları. Bakı, 1984, səh.54
4. Q.İ.Məşədiyev. Zaqafqaziyanın Azərbaycan toponimləri. Bakı, 1990, səhı.115.

xaç türk tayfalarına məxsus olubdur.[1] Bu daşa başqa bir daşla vuranda musiqi səsi verirdi. Odur ki, oradan köçənlər bu səsi eşitmək üçün ona kiçik daşlarla vurardılar. Əfsuslar olsun ki, 1980-cı ildə ermənilər bu daşı apardılar və onu hara apardıqları haqqında məlumat verməkdən imtina etdilər.

1938-ci ildə Zeytə kəndində doğulan, BDU-nun riyaziyyat fakültəsini qurtarıb 12 il Zeytə kəndində məktəb direktoru, 15 il sovxoz direktoru işləyən, 1989-cu ildən 1997-ci ilə qədər Naxçıvanda Babək rayonunun Çalxanqala kəndində kənd təsərrüfatına rəhbərlik edən Mehdiyev Mehdi Fərhad oğlu Zeytə kəndində 1984-cü ilin iyul ayında olmuş bir hadisə haqqında belə deyir: "Zeytə kəndinin tən ortasında Abuzərin evinin qabağındakı bulağın yanında 1,3 metr uzunluqda 70 sm enində boz (göyəçalan) bir daş var idi. Həmin daşın üzərində qədim dövrün yazıları var idi. Mən dağlarda ot biçən camaatın yanından kəndə gəlirdim. Bu zaman sovxoz direktoru işləyirdim. Kəndə girəndə gördüm ki, camaat yığışıb həmin bulağın başına. Adamlardan soruşdum ki, "Bu nə yığıncaqdır?". Mənə cavab verdilər ki, "VAZ" markalı bir yük maşınını ermənilər gətirib həmin daşı maşına qoyub apardılar. Nə  qədər soruşduq kimsiz, nəçisiz, heç nə cavab vermədilər, daşı hara apardıqlarını demədilər. Ermənilər maşının nömrəsini çıxartdıqları üçün haradan gəldiyini bilmədik. Dedilər guya muzeyə aparırıq. Kənd əhalisinin mübarizəsinə, təkidlərinə fikir verməyib zorla o daşı apardılar. Mən bu hadisənin canlı şahidiyəm".

Göründüyü kimi, ermənilər türk xalqlarının, azərbaycanlıların tarixən burada yaşadıqlarını isbat edən bu abidəni də buradan götürüb aparmış və xalqın tarixi izini itirməyə çalışmışlar.

Zeytə kəndinə bitişik hündür bir təpə var. Təpənin digər tərəfi dərin bir dərədir. Təpənin üstündən baxarkən onlarca km-lik məsafədə Dərələyəzin başqa yaşayış məntəqələri görünür. Bu təpəyə "Kilsənin başı" deyərdilər. Kilsə dağıdılmışdı, divarlarının yeri bilinmirdi. Kənd camaatı kilsənin daşlarından ev tikintisində istifadə etmişdilər. 1960-cı illərdə bir ailə kilsənin döşündə ev tikmək qərarına gəlir. Özülü qazarkən boşluqlar aşkar edilir. Bu boşluqlardan çox sayda insan sümükləri çıxır. Yaşlı adamların dediklərinə görə bu insan sümükləri 1918-ci ildə öldürülən azərbaycanlıların sümükləridir.

Zeytə kəndi çox sayda müdrik insanlar, ağsaqqallar, ziyalılar, hərbi işçilər yetirmişdir. Onlardan Cəfərov Heydər Cabbar oğlunun (1910-2001) maraqlı taleyi vardır. Erməni vəhşiləri Andranik və Nijdeyə xəbər verirlər ki, Cəfərov Heydər Naxçıvana gedib ermənilərin vəhşiliklərini bildirib. İndi də qayıdıb camaata deyir ki, dözün Naxçıvandan köməyimizə gələcəklər. Onlar kəndə gəlib Heydəri istəyirlər. Camaat Heydəri ələ verməyəndə onları güllələmək qərarına gəlirlər. Bu zaman Heydər özü irəli çıxır və camaatı xilas edir.

Zeytəli İlyasov Xanlar Allehverən oğlu deyir: "1949-cu ildə bizi zorla Mu-

---

1. T.Əhmədov. El-obamızın adları. Bakı, 1984, səh. 54; B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izalı lüğəti. Bakı, 1993, səh. 261; İ.Bayramov. Qərbi Azərbaycan toponimlərinin tərkibində işlənən soz və cografi termin lüğəti. Bakı, 2000, səh. 37; 2. Q.İ.Məşədiyev. Zaqafqaziyanın Azərbaycan toponimləri. Bakı, 1990.

ğana köçürdülər. Mən Şıxsalahlı kəndində müəllim işləyirdim. Camaatımızın çox hissəsi Ələmbəyli kəndində idi. Onları ziyarətə getdim. Çox sayda ailələr bütünlüklə ağır xəstə idilər. Muğan mühitinə dözə bilmirdilər. Mənə yalvardılar ki, ölürük, bizi Zeytəyə göndərin. M.C.Bağırov geri köçməyi qadağan etmişdi. Buna baxmayaraq, mən Əli-Bayramlı dəmiryol vağzalına gəlib İrəvan-Bakı qatarının maşinisti ilə söhbət edib dərdimizi dedim. O dedi ki, üç gündən sonra geri dönəcəyəm, sən işarə verərsən qatarı saxlayaram minərsiz. Qatar 3 dəqiqə yerinə, 15 dəqiqə dayandı. Adamları, əşyaları qatara mindirdik və bu adamlar Zeytəyə çatdıqdan 5-6 gün sonra xəstəlikləri demək olar ki, keçmişdi". Geri qayıtmaq imkanı olan adamların hamısı yenidən Zeytəyə köçdülər və 1988-ci il hadisələrinədək orada yaşadılar.

## ZEYTƏ KƏNDİNDƏ OLAN ONOMASTİK VAHİDLƏR

**Tayfa adları**
1. Avazlılar
2. Əliyarlılar
3. Novruzlular
4. Məmilər
5. Səfərlilər
6. Şahverdilər
7. Həsənqulular
8. Camallılar
9. Mirzalılar
10. Gülmalılar
11. Köçərilər

**Yer adları**
1. Düzdər
2. Bağman
3. Cığatayın üstləri
4. Aşağı və yuxarı yoxuş başı və ya su çalaları
5. Üçbulaqlar
6. Seyidlər yeri
7. Binələr
8. Boyaxlı
9. Allahverdi bulağı
10. Ərik ağacı
11. Düzdağın araları
12. Dəmyələr
13. Gizləyən qayanın yanları
14. Qalaçanın döşləri
15. Xırmanların döşü
16. Kiridinin güneyi

17. Pullux
18. Pirin dalı
19. Bərxudarın ağaclı yeri
20. Molla Mirzə yeri
21. Pələngənin güneyi
22. Uşaq qırılan
23. Kələhli
24. Çuxur biçənək
25. Səvxanlar
26. Top arduş
27. Qalaça
28. Dik daş
29. Armud ağacı
30. Zığlıq
31. Tələlər
32. Alagöllər
33. Almalıqlar
34. Qurdqulaq dağı
35. Çırax oğlunun yeri
36. Eşşək meydanı və ya Biniş qəbri[1]
37. Porsux yuvası
38. Qazmanın arası
39. Xıdır ayı basan
40. Sarı qaya
41. Haça dağı
42. Dik daşın dağı
43. Top daş
44. Şərəf kahası
45. Xarabalar
46. Zamanın gədiyi
47. Məmməd kalafaları
48. Qorçu yeri
49. Ağ dağın dalı
50. Dəli xudonun yeri
51. Arxac yerləri
52. Xamlar
53. Divəklər
54. Qanqallı
55. Su çalaları
56. Şabonun yalı
57. Ağ təpənin dalları

------------------

1. Biniş qəbri deyilən yeri adamlar lənətləmək məqsədilə daşlayırdılar.

58. Şiş qayanın dibləri
59. Sarı güney
60. Boyaqlılar
61. Bərxudar oğlunun yeri
62. Qazmanın çuxurları

**Dərə adları**

1. Qalaçanın dərəsi və ya Şirranın dərəsi
2. Uzun Güneyin dərəsi
3. Qorçu yerinin dərəsi
4. Binələrin dərəsi
5. Uşaq qırılan dərə[1]
6. Pələngənin dərəsi
7. Sulu dərə
8. Zığlığın dərəsi
9. Alçalığın dərəsi
10. Şiranlı dərə
11. Palçıxlının dərəsi
12. Əyri yolun dərəsi
13. Cinili dərə

**Pirlər**

1. Qurbankəsilən piri
2. Qarayanlı piri
3. Dağ piri (Qazan dağı piri)
4. Boyaxlı piri
5. Qabaxlı piri

**Qalalar**

1. Qalaça

(30-40 metr hündürlükdə olan qayanın başında yerləşir).

**Kahalar**

1. Quzey kahası (min qoyun yerləşirdi)
2. Güney kahası (beş yüz qoyun yerləşirdi)
3. Cığatay arxı (kanalı)

**Çınqıllar**

1. Mozun çınqılı
2. Binələrin çınqıllığı
3. Dik daşın çınqıllığı
4. Qara çınqıllıq

---

1. 1918-ci ildə on iki nəfər – səkkiz uşaq və dörd böyük adam Qabaxlı kəndindən Zeytə kəndinə qaçırmış. Ermənilər bunları yolda tutur və hamısını xəncərlə doğrayırlar. Həmin vaxtdan bu yerin adı uşaq qırılan dərə qalır. Məlumat üçün qeyd edim ki, bu ölənlər Naxçıvanda xalq müəllimi Şükürov Əşrəfin qohumlarıdır.

**Yollar**

1. Dəyirman dərəsinin yolu
2. Ağ təpənin arxası  yolu
3. Paşalı yolu
4. Goradiz yolu
5. Əyər yolu
6. Söylən yolu
7. Məlişgə yolu
8. Pələngə meşəsinə gedən yol
9. Əyri yol

**Biçənəklər**

1. Xıdır biçənəyi
2. Haçanın düzü
3. Top arduşun biçənəkləri
4. Çuxur biçənək
5. Binələr
6. Alçalığın biçənəyi
7. Məhəmmədin biçənəyi
8. Zığlığın biçənəyi
9. Tələlərin biçənəyi
10. Almalığın biçənəyi
11. Qanqallığın biçənəyi
12. Divəklərin çuxuru
13. Qazmanın duzu
14. Çobanların biçənəyi

**Yurdlar**

1. Orta xırmanlar
2. Baş xırmanlar
3. Haça
4. Aşağı  Çəvlik
5. Cığatay yurdu
6. Məhəmməd kalafaları
7. Binələr
8. Dik daş
9. Qazmanın bulağı

**Arxlar**

1. Cığatay arxı
2. Bağman arxı
3. Kənd arxı

**Daşlar və qayalar**
1. Qaraquş qayası
2. Düzdağ qayası
3. Binələrin qayası
4. Qalaçanın daşı
5. Dikdaş
6. Haçaqaya

**Çaylar**
1. Arpa çayı
2. Suludərənin çayı
3. Qorçu dərəsinin çayı

**Kövşən adları**
1. Cığatayın üstləri
2. Aşağı yoxuş başı
3. Ağ təpənin dalları
4. Şiş qayanın dibləri
5. Sarı güney
6. Demiyələr
7. Gizlənən qayanın yanları
8. Qalaçanın döşləri
9. Pələngənin güneyi
10. Xırmanların döşü
11. Kiridinin güneyi

**Meşələr**
1. Pələngənin[1] meşəsi
2. Alçalıq
3. Qaraquş qəyəsi
4. Bağbanlar
5. Kömürxana meşələri
6. Top meşə
7. Qara quzey
8. Alçalığın dərəsi, meşəsi
9. Mirzalı daşı

**Qəbiristanlıqlar**
1. Cığatay qəbiristanlığı
2. Armud ağacı qəbiristanlığı
3. Yuxarı armud ağacı qəbiristanlığı
4. Kilsə qəbiristanlığı

--------------------
1. Bu meşədə pələng yaşarmış

**Bulaqlar və çaylar**
1. Üç bulaqlar
2. İsmayıl bulağı
3. Vəli bulağı
4. Allahverdi bulağı
5. Poxlu bulaq
6. Pələngə bulağı
7. Həydər bulağı
8. Şavo bulağı
9. Dərə bulağı
10. Məmmədalı bulağı
11. Palçıxlı bulaq
12. Zığlı bulaq
13. Alçalı bulaq
14. Kəhrizlər
15. Çınqıllı bulaq
16. Armud ağacının bulağı
17. Tələlərin bulağı
18. Haçanın aşağı və yuxarı bulağı
19. Gərməşovlu bulaq
20. Həmərsünlü bulaq
21. Qazmanın bulağı
22. Qanqallının bulağı
23. Baş xırmanlar bulağı
24. Orta xırmanların bulağı
25. Orta kəhriz
26. Orta xırmanlar bulağı
27. Dağpirinin bulağı
28. Xıdır biçənəyi bulağı
29. Qalaçanın bulağı
30. Top arduşun bulağı
31. Top söyüdün bulağı
32. Yastı bulaq
33. Orta kəhriz
34. İsa bulağı
35. Mehdi bulağı

## ZEYTƏ KƏNDİNDƏN TANINMIŞ ADAMLARIN BİR QRUPU

**Hərbçilər**

1. Novruzov Abbasəli Ramazan oğlu, general-mayor. Uzun müddət Azərbaycan respublikası milli təhlükəsizlik nazirinin müavini, Azərbaycan sərhəd qoşunları komandanı işləmişdir, hal-hazırda təqaüdə çıxıb və həmin idarədə məsləhətçi işləyir.

2. Muradov Ceyhun Məcid oğlu Gəncə hərbi prokurorluğunun sədridir.

**Alimlər**

1. İlyasov Musa Xanlar oğlu, fizika-riyaziyyat elmləri doktoru, professor
2. Məmmədov Yaşar Zəllabdin oğlu, tibb elmləri namizədi

**Ədliyyə işçiləri**

1. Quliyev İsgəndər Nəso (Nəsrəddin) oğlu,polkovnik-leytenant, Bakı şəhəri Dövlət Yol Polisi İdarəsinin rəis müavini.
2. Nuriyev Gülmalı İmran oğlu respublikanın üç rayonunda prokuror və Respublika prokurorluğunda mühüm işlər üzrə müstəntiq olmuşdur.
3. Muradov Məcid Eyyub oğlu – Cəbrayıl və Saatlı rayonunda məhkəmə sədri olubdur.
4. General-mayor Aydın Eylas oğlu Qasımovun nənəsi də (Nənəqız) Zeytə kəndindəndir. Zeytəli axund Molla Həsənin qızıdır.

**Nüfuzlu ağsaqqallar**

1. Mehdiyev Mehdi Fərhad oğlu
2. Quliyev Nəsrəddin (Nəso)
3. Hüseynov Hüseynqulu
4. Mamedov Fərrux
5. İmanov Qaybalı
6. Nəcəfov Bilal
7. Eylasov Xanlar

**Aşıqlar**

1. Aşıq Novruz[1]
2. Aşıq Seyyub (Quliyev Seyyub Ağa oğlu) Aşıq Novruzun nəslindəndir. Gözəl oxuyub saz çalardı. Mədəniyyət Nazirliyinin mükafatını almışdır.
3. Aşıq Ağa
4. Aşıq Musa
5. Aşıq Bilal

**Döyüşkən, ermənilərə qan udduran adamlar**

1. Quliyev Hüseyn (Qaçaq Hüseyn)[2]

--------------------

1. Aşıq Novruz fitri istedada malik bir şəxs olub. Deyilənə görə o, təxminən 1860-cı illərdə Qarabağda bir ailənin qonağı olur. Evdə 140 yaşında bir qoca var imiş. Soruşur ki, haradansan? Deyir: Dərələyəzin Qaryanlı kəndindən. Qoca deyir ki, biz də vaxtı ilə oradan gəlmişik. Biz o kənddən çıxanda mənim 15 yaşım var idi. Biz var-dövlətimizi Şırranın dərəsində basdırdıq, gedin götürün. Bu məlumatı eşidən camaat çox axtarış aparır. Lakin camaat nə qədər axtarırsa da, həmin deyilən əşyaları tapa bilmir. Deyilənə görə yalnız 1980-ci ildə həmin qiymətli əşyaları kənd sakinlərindən biri tapır. Lakin ermənilər bunu onun əlindən alır və deyir ki, səsini çıxartsan səni tutacağıq, öldürəcəyik...

2. Qaçaq Hüseynin 1905-1907-ci illərdə 20-25 yaşı olub. O, həm 1905-1907-ci illərdə, həm də 1918-1920-ci il erməni-müsəlman davasında sayı- hesabı olmayan igidliklər göstərib. O, 10-15 nəfərlik silahlı dəstəsi ilə Mail xan, Gəlinqayası, Sarı bulaq, Qazan yaylağı, Qaraquş qayası, Bərk dərə, Çalxanqala və s. bu kimi yerlərdə erməni daşnak dəstələrinə qarşı böyük müqavimət göstərib və yüzlərlə azərbaycanlını ölümdən xilas etmişdir. Hüseynin kiçik qardaşları Nəsrəddin (Nəso) və Abdulla da həmişə böyük qardaşlarına kömək edirmişlər.

## Zeytə kəndində olan "Qəhrəman ana"lar

1. Paşayeva Xəzəl Nabatalı qızı
2. Əhmədova Əfruz Abbas qızı
3. Dünyamalıyeva Zərifə Cəlal qızı
4. Bayramova Bayaz Allahverdi qızı
5. Səfərova Sarabəyim Əmiraslan qızı
6. Qaytaranova Tutu Kalbalı qızı

## 1937-ci ilin repressiya qurbanları

1. Əliyev Abdulhüseyn Bayram oğlu
2. Qayıbov Niftalı (oradan 1941-1945-ci il Vtən müharibəsinə aparıblar)

## Zeytə kəndindən 1941-1945-ci illərdə Böyük Vətən müharibəsinə gedənlər

**a) qayıtmayanlar**

1. Abbasov Hüseyn Rüstəm oğlu
2. Quliyev Əsdan Bəşir oğlu
3. Quliyev Mustafa Məhəmməd oğlu
4. Quliyev Fərhad Mehdiqulu oğlu
5. Dünyamalıyev Qurban Hətəm oğlu
6. Əliyarov Türbəndə Məhərrəm oğlu
7. İlyasov İlyas Allahverən oğlu
8. Kərimov Müseyib Məhərrəm oğlu
9. Rəhimov Yunis Səfəralı oğlu
10. Seyidməmmədov Mir Heydər Salman oğlu
11. Səfərov Fərrux İsgəndər oğlu
12. Xudayarov Süleyman Nuru oğlu

**b) qayıdanlar**

13. Abbasov Adil Rüstəm oğlu
14. Vəliyev Xıdır Xalıqverdi oğlu
15. Qaytaranov Qiyas Əmiraslan oğlu
16. Qayıbov Həbib Məmmədalı oğlu
17. Qayıbov Əhməd Məmmədalı oğlu
18. Qələndərov Əmir Teymur oğlu
19. Quliyev İsa Məhəmməd oğlu
20. Quliyev Nəso (Nəsrəddin) Xudabəndə oğlu
21. Əlyarov Bayram Təhməz oğlu
22. Ələkbərov Eyyub Pirmurad oğlu
23. Kazımov Hüseyn Rəhim oğlu
24. Məmiyev Ağahüseyn Ağaməmməd oğlu
25. Məmiyev Bəyməmməd Ağaməmməd oğlu

26. Məmiyev Cəlal Şaməmməd oğlu
27. Məmmədov Almurad Abbas oğlu
28. Məmmədov Fərrux Abbas oğlu
29. Nəcəfov Bilal Behbudalı oğlu
30. Rəhimov Yusif Səfəralı oğlu
31. Səfərov Əli İsgəndər oğlu
32. Xudayarov Bəyməmməd Nuru oğlu
33. Xudayarov İmran Nuru oğlu
34. Heydərov Musa Məmmədqulu oğlu
35. Heydərov Xanlar Məmmədqulu oğlu
36. Heydərov Heydər Məmmədqulu oğlu
37. Hümbətov Musa İbrahim oğlu
38. Cəfərov Adil Əli oğlu
39. Cəfərov Ramazan Novruz oğlu
40. Cəfərov Cəfər Əli oğlu
41. Cəfərov Heydər Cabbar oğlu

## 1949-cu ildə deportasiya olunan və Muğanda mühitə uyğunlaşmayıb ölənlər

1. Əliyarov Rəhim Kazım oğlu
2. Cəfərov Meydan Heydər oğlu
3. Muradov Murad Eyyub oğlu
4. Məmiyev Cəlal Şaməmməd oğlu
5. Kərimov Bayram İsmayıl oğlu
6. Novruzova Gülnaz Ramazan qızı
7. Səfərov Əhməd Məhəmməd oğlu
8. Abbasov Həsən Rüstəm oğlu
9. Qaytaranov Qələndər Mahmud oğlu

## Qarabağ şəhidləri

1. Fərzalıyev Cahan Binnət oğlu, zabit, (Xocalıda şəhid olub)
2. Paşayev Kamran Nağı oğlu, (1993-cü ildə Ağdamda şəhid olub)
3. Bayramov Qurban Əvəz oğlu, (1993-cü ildə Ağdamda şəhid olub)

**İnformatorlar:** 1. İlyasov Musa Xanlar oğlu. 1949-cu il təvəllüdlü, Zeytə kəndində doğulub boya-başa çatan, fizika-riyaziyyat elmləri doktoru, professor. Hal-hazırda Bakı şəhərində yaşayır. 2. Mehdiyev Mehdi Fərhad oğlu. 1938-ci il təvəllüdlü, ali təhsilli, BDU-nun riyaziyyat fakültəsini bitirib. On il Zeytə kəndində məktəb direktoru, on beş il sovxoz direktoru işləmişdir. 1987-ci ildən1997-ci ilə qədər Naxçıvanın Babək rayonunun Çalxanqala kəndində icra başçısı işləyib. 3. Məhərrəmov Yusif Türbəndə oğlu. 1928-ci ildə Qurbankəsilən kəndində anadan olub. Əvvəllər həmin kənddə, sonralar isə Zeytə kəndində yaşamışdır. Hal-hazırda Sabirabadın Şıxsalahlı kəndində məskunlaşmışdır. Təqaüddədir. Uzun müddət Zeytə Sovetliyində sovet sədrinin katibi işləmiş, ləqəbi "Katib Usub"dur.

## ZİRƏK (ZİRAK)

Zirək Dərələyəzin Əzizbəyov rayonunda kənd adıdır.

Arpa çayının qolu olan Zirək çayının sahilində İstisu (Cermuq) kəndinin yaxınlığında yerləşmişdir. Tarixi mənbələrdən məlum olur ki, Zirək kəndində 1831-ci ildə 43 nəfər, 1873-cü ildə 169 nəfər, 1886-cı ildə 218 nəfər, 1905-ci ildə 394 nəfər, 1914-cü ildə 394 nəfər, 1931-ci ildə 545 nəfər azərbaycanlı olmuşdur.[1]

1918-ci il erməni-müsəlman davasında ermənilər başqa kəndlər kimi bu azərbaycanlı kəndini də dağıtmış, əhalisinin çoxunu qırmışdır. Kənddən sağ qalan adamlar qaçıb Azərbaycanın müxtəlif bölgələrinə getmişlər.

1922-ci ildə təqribən 70 nəfər adam geri qayıtmış, dağılmış kəndlərini tədricən bərpa etmiş, 1930-cu illərdən sonra kolxoz qurmuş, kənddə kitabxana, klub, məktəb tikmişlər. Halal əməklə məşğul olan insanlar 1948-1949-cu ildə zorla doğma yurddan həmişəlik getmişlər. Böyük Vətən müharibəsi iştirakçısı olan Bəxtiyarov Bilal deyir: – Mən həmin vaxtı raykomda təlimatçı işləyirdim. Zirək kəndinin köçürülməsinə rəhbərlik etmək mənə tapşırılmışdı. 72 təsərrüfatı, 550 nəfər əhalini maşınlara doldurub Şərura apardıq, orada vaqonlara yığdılar, mən də onlarla bərabər qatarla yola düşdük. Üç gündən sonra Daşburun stansiyasında dayandıq. Əhalinin vəziyyəti pisləşirdi. Həm aclıq, həm də xəstəlik əhalinin ciddi narazılığına səbəb olmuşdu. 10 gün idi ki, vaqonlarda qalmışdıq, əhalinin yerləşdirilməsi ilə heç kəs məşğul olmurdu. Əhalidən 5 nəfər – üç uşaq, iki qoca dünyasını dəyişdilər. 13 gündən sonra Beyləqan rayonunun əməkdaşları gəlib taqətdən düşmüş xəstə, ac əhalinin zorla bir neçə kənddə məskunlaşdırılmasını təşkil etdilər.

Həmin vaxtdan Zirək ölü kənddir. Kəndin kalafaları və qəbiristanlıqların qalıqları qalmaqdadır.

Akademik Budaq Budaqov və Q.Qeybullayev göstərirlər ki, bu toponimin yazılışı Zirak formasında olmalıdır və bunun əsli Sirakdır (Qədim türk mənşəli Sirak tayfasının adındandır).[2] Fikrimizcə Sirak toponimi ilə Şirak toponimi eyni mənbədəndir. Burada s-ş dəyişməsi vardır. Göründüyü kimi Zirək kəndinin adı sirak-şirak tayfasının adından götürülmüşdür. Burada ş-z əvəzlənməsi vardır. Türk dillərində s-z-ş qanunauyğun haldır. Deməli, burada qədim türk tayfaları yaşamışlar.

---

1. Həbib Rəhimoğlu. "Silinməz adlar, sağalmaz yaralar", Bakı, 1997, səh. 246; И.Шопен. Исторические памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 615-618.

2. B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998 səh.264.

# III FƏSİL

## DƏRƏLƏYƏZ MAHALINDAKI ONOMASTİK VAHİDLƏRİN XARAKTERİK XÜSUSİYYƏTLƏRİ

### I. ONOMASTİK VAHİDLƏR HAQQINDA (etnonim, etnotoponim, antroponim, hidronim...)

Azərbaycanlılar bir xalq olmaq etibarilə çox qədim tarixə malikdir. Hal-hazırda azərbaycanlıların sayı dünyada təxminən 50 milyondan artıqdır. Məlum olduğu kimi, tarixən Azərbaycan xalqının məskəni, onun yaşamış olduğu yerlərin sahəsi olduqca geniş olmuşdur. Səfəvilər dövründə bu coğrafi areal daha qabarıq gözə çarpır. Həmin dövrdə bunun sahəsi 420 m. kvadrat metr olmuşdur.

Faktlar göstərir ki, ayrı-ayrı bölgələr və bu bölgələrə məxsus dialekt və şivələr onomastik vahidlər üçün tükənməz bir xəzinədir. Burada qəbilə, tayfa, sülalə, xalq, yer, şəxs (tarixi və mifoloji), abidə və sairəyə verilən adlar çox yaxşı mühafizə olunub saxlanılır, nəsildən-nəslə ötürülür. Bu onomastik vahidlərin köməyi ilə yaddaşlardan silinən, köhnəlib işləklikdən düşən, forma və quruluşunu dəyişən sözləri yada salmaq, sirri açılmayan bir çox xüsusi adların sirrini açmaq, Azərbaycan xalqının tarixən hansı ərazilərdə yaşamasına, hansı xalq və ölkələrlə siyasi-iqtisadi əlaqədə olmasına dair çoxlu faktları üzə çıxarmaq mümkündür. Bu toponimlərdə dağların, yaylaqların, yurdların və s. kimə, hansı xalqa mənsub olduğu çox qabarıq şəkildə özünü mühafizə edib saxlayır.

Məlum olduğu kimi onomastik vahidlərin əhatə dairəsi genişdir.[1] Lakin biz burada onların bir qisminə nəzər yetirəcəyik.

* * *

Onomastik vahidlərin bir qrupu da etnonim və etnotoponimlərdən ibarətdir. Etnonim termini yunan mənşəli etnos (xalq və onoma – ad) sözlərindən əmələ gəlmişdir. Tayfa, qəbilə və xalq adını bildirən sözlərə etnonim deyilir, etnonimlər keçmişimizin izlərini mühafizə edib saxlayan real dil faktlarıdır.

Xalqın etnik tərkibi, mənşəyi, etnogeninin inkişaf tarixi haqqında xüsusi əhəmiyyət kəsb edən etnonimlərin, xüsusən türk mənşəli etnonimlərin yaranma tarixi çox-çox qədimdir və bunların miqdarı olduqca çoxdur.[2] Aşağıdakı misallar buna canlı sübutdur: Az, Əfşar//Afşar//Ovşar, Araz, Alban, Alpout,

---------------------

1. Mirzəyev H. Aşıq poeziyasında onomastik vahidlər. Azərbaycan onomastikası problemlərinə dair konfransın materialları, Bakı, 1987, səh.285-290; Mirzəyev H. Aşıq yaradıcılığında onomastik vahidlər. Professor-müəllim heyətinin 1989-cu ildə apardıqları elmi-tədqiqat işlərinin yekununa həsr edilmiş 51-ci konfransın tezisləri, Bakı, 1990, səh.153-154.
2. Ətraflı məlumat almaq üçün bax: Mirzəyev H. Aşıq yaradıcılığında etnonimlər, Dil məsələlərinə dair tematik toplu, № 1, Bakı, 1994, s. 3-21; Mirzəyev H. Aşıq poeziyasında işlənən etnonimlərə dair, Azərbaycan onomastikası problemlərinə həsr olunmuş II elmi-nəzəri konfransın materialları, Bakı, 1988, s. 113-115.

Boyat, Bolqar, Biləcəri, Buğac (Qarabucaq), Bus, Vers-Varsaq, Vərəndə, Qabğac, Qazax, Quşçu, Qaspi//Kaspi//Xəzər, Qaramanlı, Qanlı, Qarxun, Qarqar, Qacar, Qapan, Qıpçağ, Qırxlı//Qırxlar, Quzanlı, Qurdlar, Düyərli, Dəllər, Duvanlı, Dəmirçilər, Əyricə, Əlincə, Zəngənə, Zığ//Zıx, Zaqulba, Zülqədər, Kəngər, Kolanı, Kəbirli, Küngüt// Künnüt, Mağ//Muğ, Muğan, Mil, Gəraylı, Oğuz, Padar, Sal, Sak// Sax//Şax, Skif, Saray, Saatlı, Suvar//Savir//Sabir, Səlcuq, Surra, Tərtər, Tatar, Türkmən, Təkəli, Təhlə, Tərəkəmə, Tuğ, Uruz, Xələc//Xalac, Xələfli, Xəzər, Xəlsə//Xalsa, Xuc//Xuç//Xaç, Her, Herher, Xal-xal, Çaxırlı, Çakərli, Çul//Cul, Çullu//Cullu, Corat, Şəki və s.

Yuxarıda göstərilmiş etnonim və etnotoponimlərin tarixi çox-çox qədimdir. Tarixi mənbələrdən aydın olur ki, bu etnonim və etnotoponimlərin bir qismi eramızın lap əvvəllərinə, bir hissəsi VII-IX əsrlərə, bir hissəsi isə bundan sonrakı dövrlərə gedib çıxır.

Əgər biz Azərbaycan xalqının tarixini, onun indiyədək məskun olduğu yerləri dəqiq müəyyənləşdirmək istəyiriksə, onda biz türk mənşəli etnonimləri hərtərəfli araşdırmalı, onların etimologiyasını açmalı və coğrafi arealını dəqiq müəyyənləşdirməliyik.

Etnonimləri mühafizə edib saxlayan mənbələr çoxdur. Məsələn, qədim yazılı abidələr, tarixi sənədlər, arxiv materialları, xəritələr, lüğətlər, ensiklopediyalar, elmi və bədii ədəbiyyat, dövrü mətbuat, xalqımızın dili, tarixi, mədəniyyəti, incəsənəti, etnoqrafiyası, coğrafiyası, adət-ənənəsi və s. haqqında məlumat verən xarici mənbələr, dialekt və şivələr, qohum dillər, şifahi xalq ədəbiyyatının bütün növləri, aşıq yaradıcılığı və s.

Biz burada yalnız Dərələyəzdə olan etnonim və etnotoponimlərdən söhbət açacağıq. Lakin hər hansı bir etnonim və etnotoponim şərh edilərkən lazım gəldikdə yuxarıda göstərilən mənbələrə də bu və ya başqa şəkildə nəzər yetiriləcəkdir. Ayrı-ayrı mənbələrdəki mövcud faktları tutuşdurmadan, saf-çürük etmədən, tarixi prosesdə baş vermiş fonetik, semantik, morfoloji, etimoloji dəyişikliyi üzə çıxarmadan, qohum dillərdə həmin etnonimin hansı formalarda olduğunu müəyyənləşdirmədən düzgün nəticəyə gəlmək olmaz.

Dərələyəz mahalında olan etnonimləri – qəbilə, tayfa, xalq və nəsil adlarını hərtərəfli tədqiq etmək, onların etimologiyasını üzə çıxarmaq, zaman-zaman üst-üstə gəlmiş və ya ixtisara düşmüş söz qatlarını müəyyənləşdirmək erməni saxtakarlarına, onların yalan və böhtanlarına ən yaxşı cavabdır.

* * *

Dərələyəz mahalı antroponimlər üçün də tükənməz bir xəzinədir. Burada qədim dövrlərdən bu günə gəlib çıxan, nəsildən-nəslə ötürülən bir çox tarixi və mifoloji adlar yaxşı mühafizə olunub saxlanılır.

Antroponimlər yunan mənşəli anthopos (insan) və onoma (ad) sözlərindən əmələ gəlmişdir. Bu termin dar mənada şəxs adını bildirir. Geniş mənada isə şəxs adı ilə yanaşı ləqəb, titul və təxəllüsü də əhatə edir.

Antroponimlər başlıca olaraq şəxsləri bir-birindən fərqləndirməyə xidmət

edir, şəxs adını isə xalq yaradır və bunu min bir süzgəcdən keçirə-keçirə yaşadır.

Məlum olduğu kimi, Azərbaycan şəxs adları çox müxtəlif yollarla əmələ gəlmişdir. Bunların bir qismi qəbilə, tayfa, nəsil, xalq adından (Oğuz, Xəzər...), bir qismi yer (Himalay, Altay, Elburs...), bir qismi səma cisimləri (Ülkər, Qəmər, Nahid, Nahidə...), bəzisi qüvvətli, zərif və gözəl heyvan və quş adından (Aslan, Bəbir, Şiraslan, Maral, Ceyran, Ahu, Tərlan, Laçın, Durna, Tovuz, Göyərçin, Kəklik, Turac, Sona...), bəzisi ətirli və gözəl gül, çiçək, bitki, tərəvəz adından (Lalə, Nərgiz, Bənövşə, Qərənfil, Yasəmən, Süsən, Reyhan...), bəzisi meyvə (Şamama, Xurma, Püstə, Turunc...), bəzisi daş-qaş (Almaz, Firuzə,Yaqut, Gövhər, Zümrüd, Mirvari, İnci...) adından, müəyyən hissəsi bərk cisimlərin (Polad, Dəmir, Daşdəmir...), bir hissəsi parça (Atlas...), bir hissəsi təbiət hadisələrinin (Boran, İldırım, Bulud, Buludxan...), adından götürülmüşdür.[1] Bəzi adlar isə ailənin istək və arzusu ilə meydana gəlmişdir (Bəsti, Qızqayıt, Qızbəs, Tamam, Yetər, Sevinc...). Azərbaycan şəxs adlarının əmələgəlmə yolları bu deyilənlərlə bitmir.

* * *

Hidronim yunan sözüdür, hidos və onoma sözlərinin birləşməsindən əmələ gəlmişdir. Yunan dilində hidos su, onoma isə ad deməkdir. Dilçilikdə su ilə, su mənbələrinin adları ilə əmələ gələn xüsusi adlar – çay, dəniz, okean, göl, bulaq, arx, kanal, şəlalə adları hidronim adlanır. Dilimizin lüğət tərkibində olan Kür, Araz, Tərtər, Qarqar, Arpa, Sambur, Xəzər, Kaspi, Göyçə gölü, Ala göllər, Göygöl, Qanlı göl, Böyükşor, Qaragöl, Sarıbulaq, Yastıbulaq, Qırxbulaq, Bolbulaq, Gurbulaq, Dambulaq, Gümüşbulaq, Soyuqbulaq, Otaybulaq, Samur-Dəvəçi kanalı və s. bu kimi adlar hidronimlər sırasındadır.[2] Azərbaycan dilinin lüğət tərkibində hidronimlərin miqdarı olduqca çoxdur və əmələ gəlmə yolları müxtəlifdir. Bundan başqa insanların yaşaması üçün su əsas şərt olduğu üçün onunla bağlı olan adların əmələ gəlmə tarixi də çox qədim dövrlərə gedib çıxır. Bu da öz növbəsində xalqın tarixini dərindən öyrənmək işində müstəsna rol oynayır. Məhz buna görə də dilimizin lüğət tərkibindəki bu söz qatlarını hərtərəfli tədqiq etmək, onomastik vahidlər, o cümlədən hidronimlər üçün tükənməz bir xəzinə olan ayrı-ayrı bölgələrdə, o cümlədən Dərələyəzdə bunun nə şəkildə əks olunduğunu öyrənmək çox əhəmiyyətlidir.

Azərbaycan tarixini hərtərəfli öyrənmək baxımından daha çox əhəmiyyət kəsb edən, tayfa, qəbilə və qədim yer adlarını mühafizə edib saxlayan hidronimləri birinci növbədə tədqiq etmək zəruridir. Alpançay (Quba), Tərtərçay

---

1. Ətraflı məlumat almaq üçün bax: Mirzəyev H. Aşıq poeziyasında yaşayan onomastik vahidlər-kosmonimlər. Dil məsələlərinə dair tematik toplu, № 2, Bakı, 1994, s. 37-46; Mirzəyev H. Aşıq yaradıcılığında onomastik vahidlər, zoonimlər və ktematonimlər. Dil məsələlərinə dair tematik toplu, № 2, Bakı, 1994, s. 61-72.

2. Bax: Mirzəyev H. Aşıq poeziyasında onomastik vahidlər, hidronimlər, Dil məsələlərinə dair tematik toplu, № 2, Bakı, 1994, s. 9-17.

(Tərtər), Qarqarçay (Ağdam), Xaçınçay (Ağdam), Həkəriçay//Ağvançay (Laçın, Qubadlı), Arpaçay (Dərələyəz-Şərur), Samurçay (Dağıstan), Qoşqarçay (Daşkəsən), Bazarçay (Dərələyəz, Zəngəzur), Murovçay, Murğuzçay (Goranboy, Kəlbəcər...), Kürəkçay (Goranboy), Ağstafaçay (Ağstafa), Padarçay, Sumqayıtçay, İncəçay (Yevlax, Qazax, Cəlilabad...), Alpoutçay, Qıpçaqçay, Bəciravan çay (Bərdə), Xaçbulaq çay (Daşkəsən), Zəyəm çay (Tovuz...), Qusar çay, Kür, Araz, Bolqarçay (İran – Bilasuvar r-nu), Xəzər, Kaspi, Göyçə gölü, Ala göllər (Kəlbəcər, Göyçə, Laçın), Göygöl, Qanlıgöl, Masazır gölü (Bakı), Zığ gölü (Bakı), Babək bulağı (Balakən), Gümüşbulaq (Şərur), Yastıbulaq (Dərələyəz), Badamlı (Şahbuz), Samur-Dəvəçi kanalı, Hindarxı (Qarabağ), Gorarxı (Borçalı) və s. bu kimi sözlərin əmələ gəlmə tarixini, etimologiyasını, yazılı ədəbiyyatda, tarixi sənədlərdə, coğrafi xəritələrdə, şifahi xalq ədəbiyyatında necə yaşadığını, hansı dəyişikliklərə uğradığını müəyyənləşdirmək çox vacibdir.

Lakin biz burada yalnız Dərələyəzdə olan hidronimlərdən söhbət açacağıq.

## II. DƏRƏLƏYƏZ MAHALINDAKI TOPONİMLƏR VƏ BUNLARIN XÜSUSİYYƏTLƏRİ

Azərbaycanın tarixi bölgələrindən biri də Dərələyəzdir. Dərələyəz tarixən Naxçıvanla daha yaxından bağlı olmuşdur. Onun sahəsi 2972,3 km$^2$ imiş. Çar hökumətinin 1870-ci ildəki inzibati-ərazi islahatı ilə Şərur-Dərələyəz mahalı İrəvan quberniyasının tərkibinə qatılmışdır. Ermənistanda şura hökuməti yaradılanda isə Qərbi Azərbaycanın Göyçə, Zəngəzur, Ağbaba, Şörəyel mahalları kimi, Dərələyəz mahalı da ləğv edilərək iki rayona (Paşalı və Keşkənd rayonları) bölündü. Dərələyəz mahalı Şahbuz, Babək, Şərur, Vedi, Göyçə, Kəlbəcər, Sisyan rayonlarının əhatəsində yerləşir. Dərələyəz çox böyük bir ərazini əhatə edir və strateji cəhətdən çox əhəmiyyətli sahədə yerləşir. Qədim ipək yolundan başqa Dərləyəzdən neçə-neçə digər yollar da keçir və bu yollar ətraf bölgələrlə bu mahalı birləşdirir.

Dərələyəzin ərazisi böyük olduğu kimi, buradakı onomastik vahidlərin də sayı-hesabı yoxdur və bunların hamısı Azərbaycan xalqına məxsusdur.[1]

Rus çarlarının və erməni daşnaklarının uzunmüddətli deportasiya siyasəti nəticəsində indi Qərbi Azərbaycanda, eləcə də onun bir mahalı olan Dərələyəzdə azərbaycanlılar yaşamışlar. 1828-1988-ci illər arasında rus şovinistlərinin köməyi və erməni millətçilərinin təzyiqi ilə müxtəlif bəhanələr adı altında zaman-zaman azərbaycanlılar öz doğma yurdundan qovuldu, deportasiya olundu və nəhayət, 1988-ci ildə azərbaycanlılar bütünlüklə Qərbi Azərbaycandan çıxarıldılar. İndi həmin tarixi torpaqlarımız erməni tapdağındadır. Onun hər daşı, hər qayası, çölü, çəməni, qalası, dağ və dərəsindən tür-

------------------

1. Bax: Mirzəyev H. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz (monoqrafiya), Bakı, 1997, 352 səh.

kün səsi gəlir.[1] Azərbaycanlıların tikdirdikləri qədim körpü, məscid, məbəd, novdan, karvansara, qala, arx, keşikçi məntəqələri bizim orada qədim köklü bir xalq olmağımızı sübut etmirmi? Əlbəttə edir. Hələ torpağın yaddaşı olan yer-yurd adlarını demirəm. Heyf ki, zaman-zaman türk mənşəli adlarımızı da azğın ermənilər dəyişdirərək onlara buradakı yer-yurdla heç bir etnik-tarixi bağlılığı olmayan uydurma adlar verdilər.

Tarixən Azərbaycan türkləri yaşamış kəndlərin dağılması, buradakı əhalinin deportasiyası, əsasən, 1828-ci ildən başlayır. Türkmənçay müqaviləsindən sonra İran və Türkiyədə terror törədən ermənilər Azərbaycanın münbit ərazilərinə, o cümlədən Dərələyəz bölgəsinə köçürülür.

Məlum olduğu kimi, çar Rusiyası Azərbaycan torpaqları hesabına ermənilərə dövlət yaratdı və İrəvan şəhərini də mərkəz etdi. Hələ bu azmış kimi 1920-ci ildə Sovet hökumətinin xeyir-duası ilə demokratik dövlətimizin ərazisi olan digər Azərbaycan mahalları da (Zəngəzur, Dərələyəz, Göyçə, Şörəyel, Ağbaba) da ermənilərə hədiyyə verildi. Həmin o bölgə və mahalların əsasında yaradılmış indiki "Erməni stan"da bir nəfər də olsun Azərbaycan türkü qalmamışdır. Həmin torpaqlara çox asanlıqla sahib olan ermənilər indi də Qarabağ və onun ətrafındakı rayonları (Azərbaycan ərazisinin 20 faizini) işğal edərək 1 milyon Azərbaycan vətəndaşını öz yurdundan didərgin salmışdır.

Mən "Кавказский календарь"dan (1831-1916-cı illərdəki nəşrlər), Ziya Bünyadovun və H.Məmmədovun "İrəvan əyalətinin icmal dəftəri" (Bakı, 1996), "Naxçıvan sancağının müfəssəl dəftəri" (Bakı, 1997), "Статистические описание Нахчыванской провинции" (Санкт-Петербург, 1833), İ.Şopenin "Исторические памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи" (Санкт-Петербург, 1852), "Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков" – 1866, Тифлис, 1893), Z.Korkodyanın "Ermənistan 100 ildə 1831-1931", "Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası" (Bakı, 1995, 1999), K.Məmmədov "Dərələyəz od içində" (Bakı, 2001), H.Həsənoğlu. "Silinməz adlar, sağalmaz yaralar" (Bakı, 1997) kitablarından, qədim xəritələrdən və adını qeyd etmədiyim bir çox digər mənbələrdən istifadə edib Dərələyəzdə olmuş kəndləri, toponimləri üzə çıxarmağa çalışmışam. Bundan başqa 1918-ci ildə ermənilər tərəfindən Dərələyəzdən qovulan, 1946-1988-ci illər arasında Dərələyəzin kəndlərində yaşayan və 1948-1953-cü illər arasında Dərələyəzdən deportasiya olunan və Azərbaycanın müxtəlif bölgələrində yaşayan qoca, yaşlı adamların (informatorların) köməyi ilə öz şəxsi axtarışlarım, müşahidəm ilə Dərələyəzdəki kəndləri və bu kəndlərin toponimiyasını qeydə almışam. Mötərizədə ermənilər tərəfindən azərbaycanlıların zorla çıxarıldığı, deportasiya olunduğu və kəndin ermənilər tərəfindən xaraba hala salındığı illərə aid nümunələr göstərilir.[2]

--------------------

1. Mirzəyev H. Dərələyəz toponimiyasının bəzi xüsusiyyətləri, Filologiya məsələlərinə dair tematik toplu, № 1-2 (20-21), Bakı, 2002, s.149-158.

2. Mirzəyev H. XX əsrdə Ermənistanda məcburi dəyişdirilən yer adlarımız, "Deportasiya", Bakı, 1998, s.153-156.

Azərbaycan toponimiyasının tərkib hissəsi olan Dərələyəz bölgəsinin toponimik sistemi indiyədək ayrıca tədqiqat obyekti olmamışdır. Bu səbəbdən oykonimlərin (yaşayış məntəqəsi adları), oronimlərin (relyef adları) və hidronimlərin (su obyekti adları) xüsusi tədqiqata ehtiyacı vardır.

## III. DƏRƏLƏYƏZ MAHALINDA OLAN TOPONİMLƏRİN NÖVLƏRİ

### *a) Oykonimlər (yaşayış məntəqəsi adları)*

İnsan məskəni olan yaşayış məntəqələrinə elmi ədəbiyyatda oykonim deyilir. Müxtəlif yaşayış məntəqəsi tiplərini əks etdirən oykonim yunanca "oyks" – yurd, ev, məkan, "onuma" – ad deməkdir.

Dərələyəz bölgəsindəki oykonimləri leksik-semantik mənalarına görə aşağıdakı kimi qruplaşdırmaq olar:

*1. Şəxs adları, müxtəlif təxəllüs, ayama və tutullardan törənmiş oykonimlər – antroponimik oykonimlər.*

*Kənd adları:* Bəyzadə, Namazalı, Seyid Məmiş, Sultan bəy, Qurd Əmir, Vay Hüseyn, Qoçu Bəy, Göy Abbas, Məlik şah, Dost Əlibəy, Məşədi Şahbaz, Yavər və s.

Göründüyü kimi, seyid, bəy, qurd, vay, qoçu, göy, şah, məşədi leksik vahidləri bir sistem kimi Azərbaycan dilinin onomastik sistemində titul, ləqəb kimi işlənmiş və indi də işlənməkdədir. Maraqlıdır ki, bu kənd adlarında heç bir topoformant işlənməmişdir. Bir çox tədqiqatlar onu göstərir ki, tarixən belə adların tərkibində topoformant olmuş, sonra isə sadələşərək bugünkü vəziyyətə düşmüşdür. Məsələn, Qurd Əmirli, Namazalılar, Məşədi Şahbazlar və s.

*2. Xalqımızın soy-kökündə iştirak etmiş tayfa adlarından törənən toponimlər – etnooykonimlər.*

*Kənd adları:* Kömürlü, Kotanlı, Dəmirçilər, Qaralar, Axta, Ərkəz, Əyər, Cığatay, Çıraxlı, Çıraqlı oğlu, Canı, Çanaxçı, Şorca, Qarqar (Herher). Qılıclı, Yayçı, Muğanlı, Quşçu və s.

*Biçənək və yer adları:* Çərəli yerləri, Xalaçlar yurdu, Qazaxlar yurdu, Çanaxçının yerləri və s.

Göstərilən toponimlərin tərkibindəki -lı, -li, -lu, -lü; -çı, -çi, -çu, -çü; -lar, -lər şəkilçiləri tayfa adını, etnonimi formalaşdıraraq yer-yurd adına, etnotoponimə çevirmişdir.

*3. Nəsil, tirə, sülalə adlarına çevrilmiş şəxs adlarından törənən etnotoponimlər.*

*a) Kənd adları:* Şəkərbəyli, Cəfərli, Veysəlli, Pirəli, Həsənli, Dədəli, Həmzəli, Paşalı, Məşədilər, Nəbilər və s.

*b) Biçənək, bulaq, otlaq və s. yer-yurd adları:* Bağıruşağının yeri, Sultan yerləri, Seyidlərin yeri, Paşa bağı, Xan arxı və s.

*4 Fitonim və zoonim səciyyəli sözlərdən törənən toponimlər.*

İlanlı, Daylaxlı, Ceyranlı, Göyərçin, Gənəli, İlanlı düz, Baxçacıq, Almalı, Gülüdüz, Çeyillik, Qanqallı biçənək, Soğanlı (yaylaq), Baldırğanlı (bulaq), Armudluq (bağ), Siçanlı (təpə) və s.

*5. Feli birləşmə modelində olan toponimlər.*

*Kənd adları:* Bülbülölən, Leyliqaçan-Leyliköçən, İtqıran, Qurbankəsilən, Qıraqgəzər, Soyulan və s.

Qeyd olunmalıdır ki, İtqıran, Qıraqgəzər, Qurbankəsilən kimi, oykonimlər, əsasən, məcazi məna ifadə edən birləşmələrdən törənmişdir.

*6. Hidronimik terminləri əks etdirən toponimlər.*

*Kənd adları:* İstisu, Novlar, Novlu, Çaykənd, Kəhrizlər, Bulaqlar, Qoşabulaq.

*Yaylaq adları:* Ala göllər, Soyuqbulaq.

*Bulaq adları:* Soyuq bulaq, Daşbulaq, Turşsu, Turş bulaq, Kurbulaq, Qırxbulaq, Üçbulaq, Yastı bulaq, Kora bulaq, Süddü bulaq, Gümüş bulaq, Dambulaq, Qıjılı bulaq, Güngörməz bulaq.

Qeyd olunmalıdır ki, kənd adlarını əks etdirən hidronimik oykonimlər ilk vaxtlar həqiqətən su obyektlərinin adlarını bildirmişlər. Məsələn: İsti su, Çaykənd, Qoşa bulaq, Kəhrizlər və s. Sonralar həmin bulağın, çayın və ya kəhrizin yanında yaşayış məntəqəsi salındıqdan sonra hidronim yenidən toponimləşərək oykonimə çevrilmişdir. Daha doğrusu, coğrafi obyektin yeni növü, yaşayış məntəqəsi yaranmış, toponim də əvvəlki mənasını itirmişdir.

Bu xüsusiyyət relyef bildirən adlarda da vardır. Həmin adlar ilk vaxtlar həqiqətən də relyefi bildirmişdir. Lakin həmin yerdə yaşayış məntəqəsi salındıqdan sonra bu relyefi bildirməklə yanaşı, həm də coğrafi obyektin yeni növünü – yaşayış məntəqəsinin adını ifadə etmişdir.

Oronimik oykonimlərdə toponimin ikinci tərəfində əsasən qaya, daş, düz, dağ, dərə, təpə, xırman, yoxuş və s. əks olunur. Dərələyəz bölgəsində aşağıda qeyd olunan oronimik oykonimlər buna misal ola bilər. Gendərə, Maraldüz, Pəyədərə, Ağdərə, Daşxırman, Gülüdüz, Qurbankahası və s.

Göründüyü kimi, ilk vaxtlar Gen dərə, Maral düz, Pəyə dərə, Ağ dərə, Daş xırman kimi işlənərək relyefi – düzü, dərəni, xırmanı və s. bildirmişdir. Sonra orada yaşayış məskəni salındıqdan sonra həmin toponimlər relyef bildirmək xüsusiyyətini itirmiş, coğrafi obyektin yeni növünü – qəsəbə, kənd, oba və s. bildirmişdir.

Dərələyəz bölgəsində elə yaşayış məntəqəsi adları da vardır ki, onlar yuxarıda göstərilən qruplardan fərqlənir: Çivə, Ertiş (İrtış), Qoytul, Qarqar, Moz, Hors, Hostun, Zeytə, Kabut, Terp, Tarp və s. toponimlər buna misal ola bilər.

Qeyd etməliyik ki, bir çox yaşayış məntəqə adları dilçilik ədəbiyyatımızda hələlik tam aydınlaşdırılmamışdır. Bunun başlıca səbəbi tarixən burada türklərlə birlikdə albanların da yaşamasıdır. Bir çox yerlərdə Alban məbədlərinin və qəbirlərinin olması bunu təsdiq edir. Təəssüflər olsun ki, vaxtında tədqiq olunmadığı üçün hər şeydə saxtakarlıq edən ermənilər Alban kilsələrinə, Alban türklərinin məbədlərinə də sahib olmaq üçün hər bir hiyləyə əl

atdılar. Onlar bir çox məbədlərin üzərindəki işarə və yazıları qazıyıb öz adlarına çıxmağa çalışmış və çalışmaqdadırlar.

Dərələyəz bölgəsindəki yer-yurd adlarının leksik-semantik xüsusiyyətləri müxtəlif olduğu kimi, sintaktik əlamətləri də müxtəlifdir. Bir çox toponimi ifadə edən yer-yurd adının birinci tərəfindəki onomastik vahid bəzən bir neçə sözdən ibarət olur. Daha doğrusu, mürəkkəb söz formasında (Daşaltı, Güneypəyə, Başgöy və s.) olsa da, onun ilkin forması müxtəlif ismi birləşmələr formasında təşəkkül tapmış, müəyyən bir tarixi inkişaf yolu keçmişdir. İlk zamanlar belə toponimlər həqiqətən relyefi və ya su mənbəyini əks etdirmişdir: Sarı yal, Qara su, Qara qaya, İsti su, Ağ dərə və s. Daha sonra isə həmin obyektlərin yanında yaşayış məskənləri salınaraq toponimin yeni növü – oykonim (yaşayış məntəqəsi adı) yaranmışdır. Daha doğrusu, toponim yenidən toponimləşmə prosesi keçirərək əvvəlki mənasını itirmişdir. Yəni daha bulağı, suyu, dağı yox, kənd adını bildirmişdir. Sarı yal yox, Sarıyal kəndi, Qara bulaq yox, Qarabulaq kəndi, İsti su yox, İstisu kəndi və s.

Dərələyəz qədim insan məskənlərindən biridir. Çox əski zamanlarda Arpa çayı dərəsindəki qayalıqlarda da qədim insan məskənləri olmuşdur. Həmin məskənlər zağa və ya kaha adlanmışdır. Son dövrlərdə həmin mağaralarda qoyun saxlayırdılar.[1]

Dərələyəz bölgəsində yaşayış məntəqə adlarını əks etdirən oykonimik terminlər aşağıda qeyd olunan oykonimlərlə işlənmişdir.

| | |
|---|---|
| Şəhər: | İstisu şəhəri |
| *kənd:* | Həsənkənd, Dərəkənd, Çaykənd |
| *Oba:* | Yuxarı oba |
| *Xana:* | Kömürxana, Gümüşxana |
| *Zağa:* | Həsənalı zağası |
| *Qala:* | Salsal qalası |
| *Məhəllə:* | Bəylər məhəlləsi, Tar məhəlləsi, Aşağı məhəllə |
| *Yurd:* | Vəli yurdu, Telli yurdu, Dinbulaq yurdu, Çatma yurd, Murtuza yurdu |
| *Kaha:* | Çunlu kaha, Keçi kahası, Çınqıllı kaha |
| *Qışlaq:* | Qızıl qışlaq |
| *Binə:* | Safı binəsi, Bavlo binəsi |
| *Karvansara:* | Səlimin karvansarası. |

Azərbaycan dilində aktiv halda işlənən bir çox şəkilçilər Dərələyəz bölgəsinin toponimiyasında – oykonimlərdə apelyativ sözlərlə birlikdə əks olunmuşdur. Ümumiyyətlə, həmin şəkilçilər toponimiyaya hazır şəkildə sözlə birlikdə gəlir. Ona görə də toponimik sistemdə toponimlər müəyyən söz və şəkilçidən törəmə hesab olunur. Dərələyəz bölgəsinin kənd adlarında, əsasən, aşağıda qeyd olunan şəkilçilər öz əksini tapmışdır.

-------------------

1. H.Mirzəyev. Qozluca kəndi və onun onomastik vahidləri haqqında. Filologiya məsələlərinə dair tematik toplu. 2001, Bakı, №3-4 (15-16), səh.209.

1. **-ca, -cə** şəkilçisi ilə: Qozluca, Yengicə, Yellicə və s.

2. **-lı, -li, -lu, -lü** şəkilçisi ilə: Almalı, Siçanlı, Paşalı, Daylaxlı, Kənəli, Cəvizli, Dədəli və s.

3. **-lar, -lər** şəkilçisi ilə: Nəbilər, Qaralar, Safolar, Novlar və s.

4. **-ıq, -ik, -uq, -ük** şəkilçisi ilə: Qovuşuq.

Dərələyəz bölgəsindəki oykonimlərin bir çox türk ellərində paralelləri də vardır. Məsələn: Dədəli oykoniminin Krım, Bolqarıstan, Türkiyə, İran, Orta Asiyada, Ertiş kəndinin Sibirdə çay (İrtış) adında, Qaraqaya kəndinin Azərbaycan, Bolqarıstan və s. yerlərdə olması buna sübutdur.

***b) Mikrooykonimlər***

Mikrooykonimlər mikrotoponimlərin bir növüdür. Bir çox şəhər-qəsəbə adları da vaxtı ilə mikrotoponim kimi təşəkkül tapmışdır. Müəyyən bir tarixi hadisə ilə bağlı olaraq bir mikrotoponim məşhurlaşaraq geniş arealda işlənməyə başlayır. Dərələyəzdə də belə məşhur toponimlər mövcud olmuşdur.[1] Məsələn: Nəbiqəndbölən, Səlimin karvansarası, Səlimin gədiyi və s.

Dərələyəz kəndlərindəki məhəllə və tayfa adlarını – mikrooykonimləri aşağıdakı kimi qruplaşdırmaq olar:

a) **-çı-lar, -çu-lar, -çü-lər, -çi-lər** tərkibli şəkilçilər vasitəsilə düzəlmiş tayfa və məhəllə adları: Qalayçılar, Təkəçilər, Yayçılar və s.

b) **-lı, -li, -lu, -lü** şəkilçiləri vasitəsilə tayfa və nəsil adlarından düzəlmiş məhəllə və tayfa adları: Təhməzli, Alıbəyli, Hətəmli, Çərəli, Sarallı, Yeməzli, Ayrımlı, Hacı Bayramlı, Çıldırlı, Kəngərli, Hacısamlı və s.

Maraqlı cəhətlərdən biri odur ki, tayfa və məhəllə adları həm də kənd adlarında əks oluna bilir. Məsələn: Çərəli (Qubadlı), Ayrım (Qazax), Hacı Bayram (Sərdarabad), Saral (Borçalı, Qarakilsə) və s.

c) **-lı-lar, -lü-lər, -lu-lar, -li-lər** tipli şəkilçi vasitəsilə tayfa, nəsil və şəxs adlarından törənmiş məhəllə və tayfa adları: Şahnazarlılar, Nurməmmədlilər, Gülməmmədlilər, Sonqulular, Alhüseynlilər, Küdüklülər, Ködəklilər və s.

ç) **-lar, -lər** şəkilçili şəxs, nəsil və tayfa adlarından törənmiş tayfa və məhəllə adları: Allahverdilər, Həsənlər, Şahbazlar, Məmmədalılar, İmanqulular, Seyidlər, Boydarlar, Qacarlar, Zərgərlər, Tatlar və s.

d) Birləşmənin ikinci tərəfinə **"uşağı", "töröməsi", "öyü"// "əvi"//"evi"** artırmaqla əmələ gələn tayfa və məhəllə adları: Mirzə uşağı, Əmir uşağı, Cabbar uşağı, Şabaz törəməsi, Əli öyü// evi//əvi və s.

e) Birinci tərəfi dini titul, ayama, dini rütbə ilə, ikinci tərəfi cəmlik bildirən **-lar, -lər** şəkilçilərindən ibarət tayfa və məhəllə adları: Məşədi Hüseynalılar, Kərbəlayı Piralılar, Hacı Namazlılar, Çəhrəbaşlılar və s.

Qeyd etmək lazımdır ki, bəzən kənddəki məhəllələrə relyefə görə də ad verilir. Məsələn: Çuxur məhlə, Aşağı məhlə, Orta məhlə, Dərə məhlə, Yuxarı məhlə, Çökək məhlə, Göl məhləsi və s.

---

1. Mirzəyev H. Dərələyəz mahalının mikrooykonimləri, Filologiya məsələlərinə dair tematik toplu, № 1-2 (20-21), Bakı, 2002, s.128-129.

## IV. DƏRƏLƏYƏZ MAHALINDAKI ORONİMLƏR (RELYEF ADLARI) VƏ BUNLARIN XÜSUSİYYƏTLƏRİ

Elmi ədəbiyyatda relyef adlarına oronim deyilir. Yunanca "oro" – relyef, "onuma" – ad deməkdir. Dərələyəzin relyefi müxtəlif olduğu üçün burada çoxlu relyef adları vardır.

Məlum olduğu kimi, balkanlardan – Çinə, Volqaboyundan – İraqadək səpələnmiş türk ellərinin toponimlər sistemində müxtəlif fonetik variantlarda işlənən çoxlu coğrafi terminlər (dağ, dərə, daş, düz, qaya, arxac, yol, qobu, yoxuş və s.) vardır. Bunlar Dərələyəz bölgəsinin həm kənd adlarında, həm də kəndlərin ərazisindəki mikrotoponimlərdə bir sistem halında öz əksini tapmışdır. Dərələyəzdəki coğrafi terminlərlə işlənmiş yer-yurd adlarını – oronimləri aşağıdakı kimi qruplaşdırmaq olar:[1]

***a) Oronimik terminlərlə ifafə olunan relyef adları***

**Dərə:** Gen dərə, Arpa dərəsi, Pəyə dərə, Cinli dərə, Çatığın dərəsi, Cəvizli dərə, Zəylik dərəsi, Səmədin dərəsi, Şirinin dərəsi, Kəməndin dərəsi, Daş dərə, Sürüşkən dərə və s.

**Dağ:** Göydağ, Keçəl dağ, Allahaman dağı, Lül dağ və s.

**Daş:** Top daş, Dəlik daş, Qara daş, Sürücək daş, Güllədəyən daş, Adam daş, Düvək daş və s.

**Səngər:** Aşağı səngər, Daş səngər, Şiş səngər və s.

**Qaya:** Salqaya, Sarı qaya, Boz qaya, Göyqaya, Qızıl qaya, Qaçaq qayası, Qara qaya, Zağan qayası və s.

**Ağıl:** At ağılı, Daşlı ağıl, Güney ağıl və s.

**Arxac:** Daş arxac, İlanlı arxac, Binə arxac, Qoşa arxac, Qısqanclı arxac, Mollanın arxacı, Çatımın arxacı və s.

**Tala:** Safonun talası, Bəşir talası, Əyri tala, Böyük tala, Kiçik tala.

**Yal:** Göy yal, Baş yal, İsa yalı, Sallı yal, Böyük yal, Kiçik yal və s.

**Yol:** Ağdərə yolu, Selimin yolu, Arpa yolu, Göyçə yolu, Arazdəyən yolu, Quzu yolu, Taxtalar yolu, Daşagirən yolu, Salsalın yolu, Soğannı yolu, Bərkdərə yolu, Əyri yol və s.

**Yer:** Kollu yer, Xırman yeri, Sarı yer, Ağ yer, Tikanlı yer, Söyüdlü yer, Xınalı yer və s.

**Yarğan:** Ağ yarğan, Dal yarğan, Daş yarğan, Qırmızı yarğan, Sarı yarğan və s.

**Gədik:** Güllü gədik, Dal gədik, Daşlı gədik, Soyuqbulaq gədiyi və s.

**Yoxuş:** Ağ yoxuş, Sarı yoxuş, Əyri yoxuş, Daşdı yoxuş və s.

**Düz:** Paşa düzü, Ərikli düz, Daşlı düz, Güllü düz, Aynəzir düzü və s.

**Burun:** Yoğun burun, Sarı burun, Təkədonduranın burnu və s.

---

1. Mirzəyev H. Dərələyəz mahalının oronimləri və hidronimləri, Filologiya məsələlərinə dair tematik toplu, № 1-2 (20-21), Bakı, 2002, s.137-143.

**Su:** Yoğun su, Qarasu, Turşsu, İstisu və s.
**Kaha:** Keçi kahası, Güngörməz kaha, Nəbilərin kahası və s.
**Zağa:** Mahının zağası, Quzeyin zağası.
**Bağ:** Zalxanın bağı, Paşa bağı, Əlinin bağı, Həsən kişinin bağı, Şirinin bağı, Gözəlin bağı və s.
**Yastana:** Boz yastana, Baldırğannı yastana və s.
**Meşə:** Böyük meşə, Dağ meşəsi, Qara meşə, Hava meşəsi, Göydağın meşəsi, Gözəlin bağı, Bəhlulun bağı və s.
**Çınqıl:** Yanığın çınqılı, Yastana çınqıl, Göyərçin çınqılı, Ayı çınqılı, Ayı ölən çınqılı və s.
**Biçənək:** Abbasəlinin biçənəyi, Çuxur biçənək, Mirzəlinin biçənəyi, Otay biçənək, Quzey biçənək və s.
**Tap:** Düzdağın tapı, Nağdalının tapı, Taxtaların tapı, Böyük tap, Kiçik tap və s.
**Demi:** Qəmbərin demi, Noxud demi, Böyük dem, Şəmilin demi, Qatarın demi, Yellicənin demi və s.
**Kəfşən:** Qabaq kəfşən, Ərəb kəfşəni, Güneyvəng kəfşəni və s.
**Dəlik:** Tülküdəliyi, Qurddəliyi, Təpəsidəlik və s.
**Taxta:** Calalın taxtaları, Ayısəsi taxtaları, Taxta yurd və s.
**Yurd:** Taxtayurd, Payızyurdu, Murtuzayurdu, Qısxanclıyurd, Səlimin yurdu və s.
**Qəcəl:** Göy qəcəl//göy qəjəl.
**Sal:** Yekə sal.
**Şam:** Böyük şam, Cəlilin şamı.
**Bərə:** Təhməzin bərəsi, Cəlilin bərəsi və s.

İstiqamət və cəhət bildirən **"alt"**, **"üst"**, **"dal"**, **"quzey"**, **"güney"** terminləri də Dərələyəzin toponimiyasında öz əksini tapmışdır. Məsələn, Təpənin altı, Qəbirstanlığın üstü, Pulluq Pirin dalı, Daşlı güney, Nəsibin quzeyi və s.

Qeyd edilməlidir ki, dini **mərkəz, pir, ocaq, vəng, məscid** adları da Dərələyəz toponimiyasında əks olunmuşdur: Oğuz qəbirləri, Dəmrov piri, Ərkəz piri, Palıd piri, Alıkənd vəngi, Güneyvəng, Qoşavəng, Şadıvəng, Qoduxvəng, Qaravəng.

***b) Mikrooronimlər***

Qərbi Azərbaycanın digər yerlərində olduğu kimi, Dərələyəzdə də hər daşın, hər qayanın, hər gədiyin, hər enişin, hər yoxuşun, hər biçənəyin öz adı vardır. Kənd ərazilərində işlənən bu yer-yurd adlarına elmi ədəbiyyatda mikrotoponim deyilir. Kiçik bir qrup insanlara məlum olan mikrooponimlərdə dilimizin bir çox qatlarındakı leksik vahidlər, şivə xüsusiyyətləri, yerli coğrafi terminlər və müəyyən tarixi hadisələr öz ilkin formasını qoruyub saxlayır. Strateji əhəmiyyəti çox böyük olan hərbi-topoqrafik xəritələrdə bu ünvanlar öz dəqiqliyini, qədimliyini daha yaxşı mühafizə edib saxlayır. Bunun başlıca səbəbi müharibə zamanı hər daşın, hər yolun, hər dağın böyük əhəmiyyəti ilə bağlıdır. Mikrooronimlərdə işlənən coğrafi terminlər həmişə öz

həqiqi mənalarında işlənir və relyefi düzgün əks etdirir. Xırman yeri, Ballı qaya, Şiş qaya, Çuxur yer, Pirin dalı və s.

Mikrotoponimlərin birinci tərəfi bir qayda olaraq müxtəlif etnik səciyyəli sözlərdən (Dəmirçi yurdu, Bağır uşağının yeri, Qazı bulağı və s.) fitonim və zoonimlərdən (At ağılı, Tülkü təpəsi, Almalı kəhriz, Tikanlı düz və s.), şəxs adlarından (Mahmudun yurdu, Allahverdi bulağı, Paşa düzü, Mehti bulağı, Safonun gölü və s.), əlamət və keyfiyyət bildirən sözlərdən (Soyuq bulaq, Yastı bulaq, Ağ yer, Qara qaya, Qara sal və s.) ibarət olur.

Feli sifət modelində və coğrafi terminsiz deyilən mikrotoponimlər də vardır. Atölən (dərə), Səbətkeçməz (dağ yolu), Ayıölən (meşə), Sutökülən (kiçik şəlalə), Dəvə ölən (otlaq) və s.

Oykonimlərdə olduğu kimi, mikrotoponimlərdə də fərqləndirici – təyinedici sözlər (**"böyük"**, **"kiçik"**, **"aşağı"**, **"orta"**, **"yuxarı"** və s.) işlədilir. Məsələn: Orta arx, Böyük təzəkli, Kiçik təzəkli, Aşağı kaha, Yuzarı zağa və s.

İndi Qərbi Azərbaycanın başqa yerlərində olduğu kimi, Dərələyəzdə də azərbaycanlılar yaşamır. Çünki onlar nankor ermənilər tərəfindən öz doğma yurdlarından qovulmuşlar. Ona görə də dilimizin lüğət tərkibində aktiv halda işlənmiş mikrotoponimlər passiv formada işlənməkdədir. Onları yaddaşlardan toplayıb lüğət halında ərsəyə gətirmək, yaddaşlara həkk eləmək hər bir ziyalının borcudur.

## V. DƏRƏLƏYƏZ MAHALINDAKI HİDRONİMLƏR VƏ BUNLARIN XÜSUSİYYƏTLƏRİ

Ulu babalarımız ilk məskənlərini su obyektləri (bulaq, su, çay, arx, göl və s) kənarında salmışlar ki, yaşayışları asan olsun. Hətta öz tayfa adlarını da çayasuya vermişlər. Dağ kultu kimi türklərin su kultu da olmuşdur. Çay kənarında türklərin yaşamasına aid faktlar çoxdur. Təsadüfi deyil ki, Orxon-Yenisey, Dəclə-Fərat, Kür-Araz, Arpa-Zəngi, İtil çayları arasında, həmin çayların hövzəsində ilk sakinlər türklər olmuşlar. Maddi-mədəniyyətlərini inkişaf etdirərək yüzlərlə hidronim də türk dilinin qayda-qanunları əsasında formalaşmışdır. Elmi ədəbiyyatda su obyekti adları hidronim (hidro – su, onuma – ad) adlanır.

Dərələyəz bölgəsində də Arpa çayı hövzəsi boyu yerləşən kəndlərdə bulaq, çay, gözə, göl və digər su obyektləri çox olduğu üçün hidronimlərin müxtəlif növləri yaranmışdır.[1] Həmin hidronimlərin tərkibində su obyektlərinin növünü əks etdirən müxtəlif hidroqrafik terminlər işlənmişdir. O terminləri belə qruplaşdırmaq olar:

**Bulaq:** Pir bulaq, Soyuq bulaq, Bol bulaq, Şor bulaq, Yastı bulaq, Qıjılı bulaq, Otay bulaq.

**Su:** Qara su, Turş su, Qotur su, Heşin suyu, İsti su və s.

**Çay:** Arpa çayı, Qabaqlı çayı, Sallı çayı, Almalı çayı, Qara qaya çayı və s.

--------------------

1. Mirzəyev H. Dərələyəz mahalının oronimləri və hidronimləri, Filologiya məsələlərinə dair tematik toplu, № 1-2 (20-21), Bakı, 2002, s.141-143.

**Gözə:** Daşlı gözə, Dədəli gözəsi, Çınqılın gözəsi və s.

**Göl:** Təndir göl, Çala göl, Lal göl, Pristav gölü, Ördək gölü və s.

**Arx:** Qalaser arxı, Meşə arxı, Nəbilər arxı, Çay arxı, Dəyirman arxı, Ayıölən arxı, Ələyəz arxı, Köhnəkənd arxı, Qaraşum arxı və s.

**Çeyil:** Əmrahın çeyili, Kərimin çeyili, Əbdüləlinin çeyili və s.

Qeyd olunmalıdır ki, göl, su, çay sözləri Balkan bölgələrindən ta Çinə qədər müxtəlif fonetik variantlarda göl (gül, göl), su (şu, çu), çay (say, şöy) türklər yaşayan ərazilərdə hidronrafik termin kimi işlənir.

## VI. DƏRƏLƏYƏZ MAHALINDAKI METAFORİK TERMİNLƏR VƏ BUNLARIN XÜSUSİYYƏTLƏRİ

Türklər yaşayan bütün ölkələrin relyefində metaforik terminlər mövcuddur. Bu metaforik terminlərin bir qismi də bədən üzvlərinin adı ilə bağlıdır. Dərələyəz bölgəsinin toponimiyasında insanın bədən üzvlərini əks etdirən sözlər (baş, qaş, göz, döş, burun, bel, qol, daban, qarın və s.) geniş yayılmışdır. Həmin bölgənin kəndlərində yayılan metaforik terminlər, əsasən, aşağıda qeyd olunanlardır:

**Baş:** Dağın və ya qayalığın lap yuxarı hissəsinə deyilir. Layışın başı, Uçuğun başı, Sarının başı və s.

**Qaş:** Dağın təpəsindən bir az aşağıya, irəliyə doğru çıxmış hissəsinə deyilir: Orta qaş, Qarlı qaş, Qayanın qaşı və s.

**Burun:** Dağın irəli çıxan və ya qurunun suya doğru uzanan hissəsinə deyilir: Qəjəlin burnu, Kömürlünün burnu, Qabaq yalın burnu, Yoğun burun, Sarı burun və s.

**Daban:** Dağın və ya qayalığın aşağı hissəsinə – düzənliyə söykənən hissəsinə deyilir: Təkəlinin dabanı, Yanığın dabanı, Ayıölənin dabanı və s.

**Döş:** Dağın Orta çıxıntısına deilir: Başdağın döşü, Armudlu döş, Şişin döşü, Yalın döşü, Əppəklinin döşü, Qatarın döşü, Taxtaların döşü və s.

**Ayaq:** Dağın və ya uca qayalığın aşağı tərəfinə deyilir. Selimin ayağı, Sutökülənin ayağı, Yoğunsuyun ayağı, Dəmirtəpənin ayağı, Təzəklinin ayağı, Murtuzayurdunun ayağı, Qoşaarxacın ayağı, Qaraşumun ayağı, Xudumoğlunun ayağı və s.

**Ağız:** Bulaq sularının axıb çaya töküldüyü yerə və dərənin daralan yerinə deyilir: Zağanın ağzı, Arpanın ağzı və s.

**Boğaz:** Dərənin və ya çayın daralan yerinə deyilir. Çatırrığın boğazı, Bərkdərənin boğazı və s.

**Qarın:** Dağın, qayanın daha çox irəli çıxan hissəsinə deyilir: Qızılqayanın qarnı, Daşdı yoxuşun qarnı və s.

**Qol:** Çayın müxtəlif istiqamətə ayrılan hissəsi: Canı çayının qolu, Arpanın qolu və s.

Qeyd olunmalıdır ki, göstərilən metaforik coğrafi terminlər müxtəlif fonetik dəyişikliklə Krım, Volqaboyu, İran, Türkiyə, Orta Asiya və Qafqazın toponimiyasında geniş işlənməkdədir.

## VII. DƏRƏLƏYƏZ MAHALINDAKI TOPONİMLƏRİN SİNTAKTİK XÜSUSİYYƏTLƏRİ

Dərələyəz kəndlərindəki yer-yurd adlarının tərkibindəki onomastik vahidləri sintaktik xüsusiyyətlərinə görə belə qruplaşdırmaq olar:[1]

*1) I növ ismi birləşmə modelində olan toponimlər*

**Kənd adları:** Gədikvəng, Ortakənd, Ağkənd, Qalaser, Qaravəng, Güneyvəng, Qurdqulaq, Dərəkənd, Gümüşxana, Əskikənd, Ağkılsə, Qızılgül, Obagöy, Başköy, Daşkənd, Qısırxaraba, Boyadərə, Pəyədərə, Qızılqışlaq, Həsənkənd və s.

**Bulaq və relyef adları:** Qırxbulaq, Bolbulaq, Yastıbulaq, Bərkdərə, Çətindərə, Muradtəpə, Sarıyal, Koliçi, Ağdaş, Aşağıkəhriz, Korabulaq, Güngörməz, İstizağa, Otaybulaq, Qıjılıbulaq, Şorludərə, Ağyer və s.

Azərbaycan toponimiyasında olduğu kimi, Dərələyəzdə də göstərilən toponimlərin birinci tərəfi əlamət, keyfiyyət, miqdar, rəng və s. ifadə edən sözlərdən (qara, ağ, sarı, enli, dörə və s.), ikinci tərəfi isə müxtəlif sözlərdən (vənk, qaya, dərə, göy, bulaq, su, kənd, dağ, xaraba və s.) ibarət olur və bu yanaşma əlaqəsi ilə formalaşır və sabitləşir.

*2) II növ ismi birləşmə modelində olan toponimlər.*

**Kənd adları:** Qulubağı, Əliqışlağı, Sədərəkxan qışlağı, Maradüz qışlağı, Məmmərza qışlağı, Rəsul qışlağı, Paşadüzü, Qalabəyi, Alxanpəyəsi, Daşaltı, Ayısəsi, Şahgəldiqışlağı, Qız qalası və s.

**Relyef və bulaq adları:** Kölyeri yurdu, Əlibulağı, Xalaclar yurdu, Hava meşəsi, Şah Abbas karvansarası, Səlimin gədiyi, İrəvan yolu, Soltan yerləri və s.

II növ ismi birləşmə modelində olan toponimlər sahiblik və mənsubluq bildirir və bu tipdə olan onomastik vahidlərin ikinci tərəfi mənsubiyyət şəkilçili sözlərdən ibarət olur.

*3) III növ ismi birləşmə modelində olan toponimlər*

Dərələyəz bölgəsində III növ ismi birləşmə modelində olan kənd adları yoxdur. Lakın azərbaycanlıların yaşadığı kəndlərdə III növ ismi birləşmə modelində minlərlə mikrotoponim olmuşdur. Bölgənin həm florası, həm faunası, həm də xalqın etnoqrafiyası bu mikrotoponimlərdə daha geniş əks olunmuşdur. III növ ismi birləşmə modelində olan bu toponimlər sahiblik və mənsubluq bildirir. Məsələn: Yanığın başı, Nəsirin yeri, İbrahimin yeri, Gözəlin bağı, Abbasəlinin biçənəyi, Əsgərin yeri, Hacının bulağı, Köçərlinin bulağı, Canının çınqılı, Mirzəlinin bulağı və s.

Göründüyü kimi, birinci tərəfi yiyəlik, ikinci tərəfi mənsubiyyət şəkilçisi ilə ifadə olunan coğrafi obyektlər hər hansı bir şəxsə məxsusluq bildirir.

---

1. Mirzəyev H. Dərələyəz mahalındakı toponimlərin sintaktik xüsusiyyətləri, Filologiya məsələlərinə dair tematik toplu, № 1-2 (20-21), Bakı, 2002, s.131-133.

*4) Feli birləşmə modelində olan toponimlər.*

**Kənd adları:** Leyliköçən, Bülbülölən

**Bulaq və relyef adları:** Təkədonduran (dağ), Qızyetərqaçan (dağ), Dəvəölən (yol), Orucölən (yaylaq), Nəbiqəndbölən (təpə), İldırımvuran (qaya) və s.

Göründüyü kimi, feli sifətin substantivləşməsi ilə formalaşan bu toponimlər müəyyən bir tarixi hadisə ilə bağlı əmələ gəlmişdir.

## İNFORMATORLAR

Gəncimalıyev Gəray – 92 yaşında, Kotanlı kənd sakini.
Əziz Qənbər oğlu – 94 yaşında, Ayısəsi kənd sakini.
Hacıyev İman – 62 yaşında, Sallı kənd sakini.
Məmmədova Balaxanım Aşır qızı – 96 yaşında, Heşin kənd sakini.
Qələndərov Əli – 86 yaşında, Çivə kənd sakini.
Qənbərov Müseyib – 70 yaşında.
Talıbov Rəhim Xudaverdi oğlu – 65 yaşında, Çaykənd sakini.
Əhməd Cəfərqulu oğlu – 102 yaşında, Ələyəz kənd sakini.
Quliyev Rüstəm – 83 yaşında, Köçbək kənd sakini.
Quliyev Şəyildi Kəlbayı Cəfər oğlu – 75 yaşında, Ağkənd sakini.
Məmmədova Kətan Xələf qızı – 98 yaşında, Canı kənd sakini.
Alıyev Alı - 40 yaşında, İstisu (Cermuq) qəsəbəsinin sakini.
İmamalıyev Kərəm Baxış oğlu – 64 yaşında, Gülüdüz kənd sakini.
Mən özüm (Həsən Mirzəyev).

**Yuxarıda adı çəkilən və bir çox başqa informatorlar bu məlumatları mənə, əsasən, 1971-1973-cü illərdə vermişlər. Onların əksəriyyəti indi həyatda yoxdur, dünyalarını dəyişmişlər.**

# IV FƏSİL

## DƏRƏLƏYƏZ MAHALININ ŞİVƏ SÖZLƏRİ VƏ BUNLARIN AREALI

### 1. ARXAİKLƏŞƏN VƏ ARXAİKLƏŞMƏ ƏRƏFƏSİNDƏ (KEÇİD MƏRHƏLƏSİNDƏ) OLAN SÖZLƏR

Məlum olduğu kimi, Azərbaycanın dialekt və şivələri haqqında çoxlu tədqiqatlar aparılmış, çoxlu kitab və məqalələr yazılmışdır. Bütün bunları nəzərə alıb mən bu mövzudan geniş şəkildə danışmaq istəmirəm. Burada yalnız Dərələyəz şivəsinə məxsus bəzi xarakterik cəhətləri qeyd etməklə kifayətlənəcəyəm. Bu mövzu xüsusi olaraq geniş şəkildə tədqiq olunmalıdır, çünki bu Qərbi Azərbaycanın tarixi və gələcək taleyi ilə bağlı bir məsələdir.

Azərbaycanın qədim torpağı olan Dərələyəz mahalının şivəsi özünə məxsus leksikası ilə diqqəti cəlb edir. Mahalın şivəsində işlənən sözlər Azərbaycan dilinin tarixi inkişafı ilə sıxı surətdə bağlıdır. Dərələyəz mahalının şivə sözləri dedikdə yalnız bu ərazidə yaşayan azərbaycanlıların işlətdiyi sözlər nəzərdə tutulur.[1]

Dərələyəz mahalı azərbaycanlıların qədim vətənidir. Zaman-zaman rus imperiyasına arxalanan ermənilər azərbaycanlıları bu bölgədən deportasiya etmişlər. 1828-1832, 1905-1906, 1918-1919, 1948-1953-cü illərdə açıq şəkildə aparılan deportasiya 1988-ci ildə sona yetdi. 1988-ci ilin noyabr ayında Dərələyəz mahalında yaşayan azərbaycanlılar tamamilə Ermənistan dövləti tərəfindən tarixi torpaqlarından deportasiya edildi. Bu səbəblər üzündən Dərələyəz mahalında yaşayan azərbaycanlıların işlətdiyi şivə sözləri tədqiq olunmamışdır. Qərbi Azərbaycanda, o cümlədən Dərələyəz mahalında şivə leksikası indiyə kimi tam öyrənilməmiş qalmışdır.

E.Əzizov göstərir ki, Dərələyəz azərbaycanlılarının şivəsi Azərbaycan dilinin qərb (orta) və cənub ləhcələri arasında keçid xarakterlidir.[2] Qeyd edilməlidir ki, Dərələyəz mahalının şivə sözləri türk leksikasının qədim qatını mühafizə edib saxlamaqdadır. Başqa sözlə, müasir Azərbaycan dilinin lüğət tərkibi üçün arxaik və keçid mərhələsində olan sözlərin bir qisminə Dərələyəz mahalının şivəsində rast gəlinir. Bunları və Dərələyəz şivəsində işlənən bəzi sözləri oxucuların nəzər-diqqətinə çatdırmaq tarixi baxımdan çox faydalıdır.

Yaşmax – qadınların ağzını, burnunun və üzünün bir tərəfini gözlətmək üçün başlarına saldıqları yaylıq, örtüyün bir hissəsi, örtük...

-----------------------

1. Mirzəyev H. Dərələyəz mahalının şivə sözləri. Filologiya məsələlərinə dair tematik toplu. 2002, № 3-4, s.65-70; Mirzəyev H. Aşıq şerində işlənmiş bəzi onomastik vahidlərin tarixi hadisələrlə bağlılığı. Filologiya məsələlərinə dair tematik toplu. Bakı, 2002, № 3-4, s.101-104.

2. E.Əzizov. Azərbaycan dilinin tarixi dialektologiyası, Bakı, 1999, səh.305.

Bu söz mahalın Qovuşuq, Gülüdüz, Qaraqaya, Ələyəz, Qabaqlı, Əmağu kəndlərində "yaşməx", Ağakənd, Heşin, Qozluca Yelpin kəndlərində "yaşməx", Komur, Axta, Köşbək, Leyliqaçan və Çaykənd kəndlərində yaşmək formalarında işlənir. Bu söz Azərbaycan dilinin qərb qrupu dialekt və şivələrində "yemşəx" formasındadır.[1]

Yaşmax sözü "Kitabi-Dədə Qorqud" dastanlarında "yaşmaq" fonetik formasında, "yad kişilərdən yaşınmaq üçün qadınların gözdən aşağı hissəsinin örtüyü" mənasında işlənmişdir.[2] Ulu xanların xatunla qas-qas yaşmaqları altında gülüşdülər.[3] XVIII-XX əsrlərdə yaşayıb yaratmış Azərbaycan şairlərinin, eləcə də el aşıqlarının əsərlərində bu sözə yaşmaq formasında rast gəlirik.

Əvvəl gözəllərdə gərəkdir çağlıq,
Ondan sonra ola sadəlik, ağlıq,
Nə ağzında yaşmaq, üzündə yaylıq,
Çirkinlik üzünü bürüyəndədir.
(M.P.Vaqif)

Bu məclisdə əyləşənin biridir,
Yaşmayın altında gülən oynasın.
(Aşıq Hüseyn Şəmkirli)

Mollalara qəsd eyləyib,
Tullayıb yaşmağı gözəl.
(Xəyyam Mirzə)

Ələm (Tuğ) – dini təbliğ edərkən istifadə olunan bayraq. Bu söz mahalın əksər kəndlərində işlənir. Ələm və ya tuğ hamar taxtadan hazırlanır. Dörd tərəfi künclü və əl tutma yeri olur. Onun hər iki üzü gözəl parça ilə örtülür. Üstünə güzgü qoyurlar və beş barmaq salınır. Ələmi, tuğu gəzdirən adam dini mərsiyələr, münacatlar oxuyur, Məhəmməd Peyğəmbər, Əli, imamlar, Kərbəla müsibətləri haqqında bildiklərini avazla oxuyur, bunları xalq kütləsinə təbliğ edir və əvəzində camaatın verdiyi payı, pulu götürüb əlindəki torbasına qoyur.

Tuğ sözü qədim türk sözü kimi olmaqla Mahmud Kaşğarinin "Divani-lüğət-it türk" əsərində bayraq mənasında işlənmişdir. Bu söz tuva dilində tuk[4], qazax dilində tu[5], qırğız dilində tuu[6], başqırd dilində tiu[7] formalarında işlənir. Tuğ adında kənd də vardır.

---------------------

1. Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, Bakı, 1967, səh.188.
2. Kitabi-Dədə Qorqudun izahlı lüğəti, Bakı, 1999, səh.105.
3. Kitabi-Dədə Qorqud, Bakı, 1977, səh.67.
4. Русско-тувинский солварь, М., 1953, с.182.
5. Русско-Казахский солварь, М., 1954, с.234.
6. Русско-Киргизский солварь, М., 1944, с.254.
7. Русско-Башкирский солварь, М., 1948, с.246.

Ün – Bu söz Dərələyəz mahalında "səs" mənasında geniş şəkildə işlənir. Əcəbsafanın ünü qalxıb göylərə (Gülüdüz); Səni görüm ünün kəsilsin (Zeytə), Gejəynən səssiz-ünsüz çıxın gedin (Horbadıq).

Ün sözünə "Kitabi-Dədə Qorqud" dastanlarında da rast gəlinir:

Ünüm anlan, bəklər, sözüm dinlən, bəklər.[1]

Ün sözü eyni zamanda klassiklərimizin əsərlərində də işlənmişdir:

Quş beccələri üni yuvadan,
Məktəb ünü tək gəlir həvadən.
(Xətai)

Əfqani edib cərəs ünün rəst,
Eşqi meyi etdi naqəni məst.
(M.Füzuli)

Yanarsan təpəndən çıxar tütünün,
Tutuşar boğazın, kəsilər ünün.
(M.P.Vaqif)

Ün sözü "səs" mənasında Azərbaycan dilinin dialekt və şivələrində, o cümlədən, Laçın, Şamaxı, Şuşa, Oğuz, İsmayıllı, Şahbuz rayonlarında geniş şəkildə işlənir. Bu söz başqırd dilində ön[2], türkmən dilində ünn[3] formasında işlənir.

Küz – quzu salınan yer. Bu söz Dərələyəzin Yelpin, Heşin, Qovuşuq, Ələyəz, Sallı, Hors, Gülüdüz, Kotanlı, Axta, Koşbək kəndlərində geniş şəkildə işlənir.

E.Əzizov quzu salınan yer mənasında işlənən küz sözü ilə bağlı yazır: "Dialekt leksikasında geniş şəkildə işlənən küz// güz// quz (quzu salınan yer) sözü də, bizcə mənşəcə "payız" mənasında olan kuz söz ilə bağlıdır.[4]

Küz sözü qədim türk dilində həm də "payız" mənasında işlənmişdir.[5] "Kitabi-Dədə Qorqud"da da "küz" sözü payız mənasında işlənmişdir. Küz alması kimi yanağın yırdınmı, qız.

Quzulamaq – Bu söz Dərələyəzdə torpağın nəm, yaş olması nəticəsində uçub dağılıb tökülməsi, boşalması deməkdir. Fikrimizcə, quzulamaq sözü ilə payız, küz, küzəm, küzdək, küzdük sözləri bir məna yuvasından nəşət etmişdir.

Küzdək – Payızda göyərən ot. Məsələn: Ot nə küzdəkliyib (Kədikvəng); payız küzdəkləri nə gözəl qalxıb (Qovuşuq). Bu söz Dərələyəz mahalının Qaraqaya, Qovuşuq, Ələyəz, Gülüdüz, Ayısəsi kəndlərində küzdək, Əzizbəyov rayonunun əksər kəndlərində isə "küzbəx"[5] formalarında işlənir.

--------------------

1. Kitabi-Dədə Qorqud, Bakı, 1977, səh.42.
2. Русско-Башкирский солварь, М., 1948, с.14.
3. X.Baylıev, K.Kaorrısk. Türkmence-rusca sözlük, Aşqabat, 1940, səh.36.
4. E.Əzizov. Azərbaycan dilinin tarixi dialektologiyası, Bakı, 1999, s.249.
5. Kitabi-Dədə Qorqud. Bakı, 1962, səh.331
6. E.Əzizov. Azərbaycan dilinin tarixi dialektologiyası, Bakı, 1999, s.249.

Güzdük – Payız fəslində əkilən taxıl.
Güzəm – Payız fəsli girən vaxt qırxılan qoyun yunu.
Tuş – yuxu. Bu söz Dərələyəz mahalının əksər kəndlərində "yuxu" mənasında işlənir; Bi gejə yaman bəd tuş görmüşəm (Qaraqaya kəndi, Xanım qarı, 116 yaş). Onu da qeyd edək ki, "Kitabi-Dədə Qorqud" dastanlarında tuş sözü eyni mənada "duş" fonetik formasında işlənmişdir. Mənim bu duşumu yorğül mana, dedi.

Tuş sözü müasir özbək dilində tuş, qırğız dilində tuş, qazax dilində, tüs formalarında işlənir (bax: göstərilmiş lüğətlər).

Dərələyəz şivələrində tuş sözünün sinonimi kimi vayğa sözü də işlənir. Vayğa sözü "Kitabi-Dədə Qorqud"da Vaqiyə formasında işlənmişdir: Gecə yatırkən Qaracıq Çoban qaraqayğulu vaqiə görür.[1]

Təpəl – Heyvanın alnında olan "ağ tük" mənasındadır. Qaşqa heyvanlar təpəl adlanır. Bu söz Dərələyəzin Gədikvəng, Qaraqaya, Qovuşuq, Gülüdüz, Kotanlı, Terp, Köşbək kəndlərində daha çox işlədilirdi. Təpəl sözünə eyni mənada "Kitabi-Dədə Qorqud" dastanlarında da rast gəlinir: Təpəl qaşqa ayğırına Dondar mindi.[2] Dərələyəzdə təpəl sözü, əsasən quzuya, keçıyə aid edilir. Mala isə təpəl yox, qaşqa deyilir.

Səpəng – Bu söz əksər kəndlərdə işlədilir. Səpəng ipdən toxunur və daş atmaq üçün istifadə edilir. Daş qoyulan hissəsi bir az enli və uzunsov olur. Bunun bağlarının uzunluğu 1 və ya 1,5 metrdən artıq olur. Bu sözə sapan formasında "Kitabi-Dədə Qorqud"da rast gəlinir. Üç yerdə təpə kimi daş yığdı. Ala qollu sapanını əlinə aldı.[3] Qarçıq Çoban kafirin üç yüzünü sapan daşı ilə yerə buraxdı.[4]

Bu söz Gəncə dialektində sapatan formasında işlənir. Dərələyəzin şivələrində işlənən terminoloji səciyyə daşıyan sözlər ayrı-ayrı kəndlərdə bəzən fərqli deyilir.

## 2. QOHUMLUQ BİLDİRƏN SÖZLƏR

Dərələyəz şivəsində qohumluq bildirən sözlər, əsasən aşağıdakılardır.[5]
Tirə – Bu söz Dərələyəzin bütün kəndlərində işlənir. Nəsil mənasındadır. Tirə sözü Qazax dialektində, Laçın, Qubadlı, Sabirabad şivələrində də işlənir.[6]
Uşağı – Ailə, nəsil mənasında işlənir. Məsələn, Məşədi uşağı, Kərim uşağı və s.
Nəcabət – Kökü, əsli, nəcabəti deməkdir. Bütün kəndlərdə işlənir.

------------------------

1. Kitabi-Dədə Qorqud, Bakı, 1977, səh.33.
2. Yenə orada, səh.32.
3. Yenə orada, səh.33.
4. Yenə orada, səh.34.
5. Mirzəyev H. Dərələyəz şivələrində qohumluq bildirən sözlər. Filologiya məsələlərinə dair tematik toplu. 2002, № 3-4, s.38-44.
6. Naxçıvan MSSR-nin dialekt və şivələri, bakı, 1962, səh.196.

Nənə – Ana mənasındadır. Gülüdüz, Horbadıq, Qovuşuq, Kotanlı, Zeytə və digər kəndlərdə işlənir.

Ava-aba-əpə – Ana mənasındadır. Ələyəz kəndində işlənir. Ana sözü ilə yanaşı, aba – sözünə tuva dilində ava formasında rast gəlinir. Anaya Gülüdüz, kəndində aka da deyilir. Oyrot dilində "aka abaqay" şəklində böyük qardaşın arvadına, abakay şəklində isə arvada deyilir.[1]

Yeznə – Yeznə sözü bir çox yerlərdə, o cümlədən, Şamaxı, Bakı, Qazax dialektlərində və Lənkəran Zaqatala şivələrində də işlənir.[2] Bu söz Dərələyəz mahalında geniş şəkildə işlənir. Gədikvəng, Civə, Əmağu kəndlərində isə yeznə sözü gəv və kürəkən mənasında işlənir. Yeznə sözü qırğız dilində "jezde"[3], başqırd dilində "eznə"[4] şəklində ifadə olunur. Başqırd dilində keyəu kiçik qızın ərinə, eznə isə böyük qızın ərinə deyilir.[5]

Kəv – Kürəkən sözləri Qazax dilində – küyeu, tuva dilində – kudee, qırğız dilində – küyee formalarında təsadüf olunur.[6]

Kürəkən sözü Quba dialektində "kiyov" formasında işlənir.[7]

Yengə – Dərələyəzin Horbadıq kəndində qardaş arvadı, dayı arvadı, əmi arvadı mənasındadır. Yengə Dərələyəz mahalının hər yerində həm də toy günü gəlini oğlan evinə aparan qadın mənasında işlənir.

Yengə sözünün hər iki mənası V.V.Radlovun lüğətində təsadüf edilir.[8] İbn Mühənnanın lüğətində isə bu söz qardaş arvadı mənasında işlənmişdir. Bir sıra türk dillərində (türk, türkmən, özbək və s.) yengə sözü "böyük gəlin, böyük qardaşın, əminin, dayının arvadı" mənasında işlənir. Uyğur dilində isə böyük qardaşın arvadına yanqa deyilir.[9] Yengə sözü Azərbaycanın Qərb qrupu dialekt və şivələrində "toy günü hər növ xidmət edən yaşlı qadın", həmçinin qardaş arvadına və ya əmioğlu arvadına verilən qohumluq adıdır.[10] Zaqatala şivəsində isə "qardaşın, əminin və dayının arvadı"[11] mənasındadır.

Dədə – Dərələyəzin hər yerində ata mənasında işlənir. Bu söz Şamaxı, Bakı dialektlərində və Lənkəran şivəsində də eyni mənada işlənir.[12]

Dədə sözü qədim Azərbaycan dilində "böyük, ulu, el ağsaqqalı" mənalarında işlənmişdir. Bunu Dədə Qorqud, Dədə Ələsgər, Dədə Şəmkirin və s. misallarında görmək olar.

----------------------

1. Термини родства в тюркский языках. Исторические развитие лексики тюрских языков, М., 1961, с.581.
2. M.Şirəliyev. Azərbaycan dialektologiyasının əsasları. Bakı, səh.372.
3. Русско-киркизский словарь. М., 1944, с.256.
4. Русско-башкирзский словарь. М., 1948, с.249.
5. M.Şirəliyev. Azərbaycan dialektologiyasının əsasları. Bakı, 1968, səh.329.
6. Yenə orada, səh.329.
7. R.Rüstəmov. Quba dialekti. Bakı, 1961, səh.250.
8. С.Б.Малов. Уйгурский язык. М., 1954, с.151.
9. Yenə orada, səh.151.
10. R.Rüstəmov. Quba dialekti. Bakı, 1961, səh.219.
11. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı, 1964, səh.246.
12. M.Şirəliyev. Azərbaycan dialektologiyasının əsasları. Bakı, 1968, səh.326.

Qağa – ata, böyük qardaş mənasındadır. Bu söz Qazax dialektində, Tovuz, Ağdam, Əli-Bayramlı şivələrində qağa, Füzuli, Oğuz rayonu şivələrində qa formasındadır və bu "ata, böyük qardaş" mənalarında işlənir. Qağa sözü Culfa rayonunda qardaş, Şərur rayonunun Alışar kənd şivəsində ata mənasında işlənir.[1] Dərələyəz mahalında "ata" mənasında ağa sözü də işlənir. Dərələyəzin Qovuşuq kəndində bəzi evlərdə uşaqlar atalarına appa//apa deyirdilər. Quba dialektində bu sözə "aba" formasında rast gəlinir.[2]

Dadaş – ata deməkdir, ən çox Civə kəndində işlənir. Bu sözə "ata" mənasında Şamaxı və Cənubi Azərbaycan dialektlərində dadaş və daaş formalarında rast gəlinir.[3] Qars, Ərzurum və İydir bölgəsində bu geniş şəkildə işlənir.

Nəvə, nəticə, kötükcə – Dərələyəzin hər kəndində işlənir.

Bajı – bütün kəndlərdə işlənir.

Baba – kəndlərin hamısında işlənir.

Gülüdüz, Qaraqaya, Horbadıq, Hors, Kotanlı və Köşbək kəndlərində baba sözü qoca baba "qoja baba", "ulu baba" forması, Şamaxı, Bakı, Qazax dialektlərində, Lənkəran, Zaqatala şivələrində də vardır.[4]

Mama//bibi – atanın bacısı. Dərələyəzin Komur, Kotanlı, Zeytə, Çaykənd, Axta, Hors, Qovuşuq kəndlərində bibi sözünün sinonimi kimi "mama" sözü işlənir. Azərbaycanın Zaqatala, Balakən şivələrində, Qazax dialektində, Borçalı şivəsində də atanın bacısı "mama" sözü ilə ifadə olunur.[5]

Əvlat – Qohum mənasında işlənir (Gədikvəng, Qovuşuq, Gülüdüz kəndlərində).

Günü – kişinin ikinci arvadına verilən ad (əksər kəndlərdə).

Türk dillərində günü sözünə "rəqib" mənasında da rast gəlirik. Bu Qırğız dilində günü, Qazax dilində gündez, Başqırd dilində – köndəz şəklində işlənir.

Arvad – Əksər kəndlərdə. Lakin Terp kəndində arvad sözü xatın formasında işlənir.

Xatın sözünə digər türk dillərində də rast gəlinir. Türk dillərinin qədim abidələrində xatın sözü "vəzifəli, nüfuzlu şəxsin arvadı" mənasında işlədilmişdir.

Qaynana – əksər kəndlərdə işlənir. Gülüdüz, Qovuşuq, Qabaqlı, Ayısəsi, Çaykənd, Axta və bir sıra digər kəndlərdə qaynana sözü qaynənə şəklində tələffüz edilir. Bakı dialektində qaynana, Şamaxı dialektində və Lənkəran şivəsində "qayınana" formasında işlənir.[6]

Qaynata – əksər kəndlərdə işlənir. Ağkənd, Heşin, Qozluca, Ələyəz, Çaykənd, Axta, Komur kəndlərində "qayata" şəklindədir. Bakı dialektində "qeynata" kimi işlənir.[7]

--------------------

1. Naxçıvan MSSR dialekt və şivələri. Bakı, 1962, səh.198.
2. M.Şirəliyev. Azərbaycan dialektologiyasının əsasları. Bakı, 1968, s.326.
3. M.Şirəliyev. Azərbaycan dialektologiyasının əsasları. Bakı, 1968, s.326.
4. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı, 1964, səh.145.
5. M.Şirəliyev. Göstərilmiş əsər. səh.327.
6. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı, 1964, səh.92.
7. M.Şirəliyev. Azərbaycan dialektologiyasının əsasları, Bakı, 1968, s.328.

Baldız – əksər kəndlərdə işlənir. Ağkənd, Heşin, Çaykənd, Axta kəndlərində bu "baldiz" formasında tələffüz edilir. Baldız sözü M.Kaşğaridə arvadın kiçik bacısı mənasında işlədilmişdir.[1]

Bacanax - bacıların ərləri. Dərələyəzin bütün kəndlərində, o cümlədən Ağkənd, Heşin, Qozluca, Çaykənd, Axta, Komur, Gülüdüz, Qaraqaya, Qovuşuq, Horbadıqda işlənir. Bu söz türkmən, qırğız, başqırd dillərində "baja", türk dilində "bacanak"[2] formasında işlənir. Qədim türk dilində bu söz "bastanak" və "bastıanak" formasında işənilmişdir.[3]

Qızdıx – ögey qız, bütün kəndlərdə işlənir.

Ögey ana – doğma olmayan ana və analıq, bütün kəndlərdə işlənir.

Atalıx – ögey ata, bütün kəndlərdə işlənir.

Qardaşdıx – toyu olan oğlanın yanında duran şəxs. Bütün kəndlərdə məhsuldardır. Ədəbi dildə bu sözə sinonim kimi "sağdış" sözü işlənir.

## 3. ÇƏKİ, ÖLÇÜ VƏ PUL VAHİDLƏRİNİN ADLARINI BİLDİRƏN SÖZLƏR

Çanax - ölçü vahidi 16 kq taxıl tutan və ağacdan düzəldilmiş qab.

Girvənkə - 400 qr.

Batman - 14 girvənkə

Çetver - 100 qr.

Çod içi - 13 girvənkə yarım taxıl tutan qab.

Türə içi - 8 kq. taxıl tutun qab.

Yarım put - ağacdan hazırlanan ölçü vahidi.

Yük - 10 pudduq çəki.

Xəlvər – 30 put.

Əriş – 10 metr

Qulac – iki qolun arasındakı məsafə.

Səjin – çin-çin hörülən ot, taxıl (Gülüdüz, Qovuşuq, Qaraqaya, Ələyəz, Horbadıq və s.).

Çərək – 16 kq. Ağacdan hazırlanır.

Çüyəcə – içi 1 girvənkə, 400 qr tutan qab. Ağacdan qayrılır.

Axça – pul (Qovuşuq, Ələyəz, Qabaxlı), Axcə (Zeytə, Köşbək, Çaykənd). Neçə-neçə axçalar saymısan (Qovuşuq).

Bu sözə "Kitabi-Dədə Qorqud"da da rast gəlinir. Ağır xəzinə, boxçasını biz yağmalamışız.[4] Axca türk dilinlə "akca" şəklində işlədilir.

--------------------

1. M.Şirəliyev. Azərbaycan dialektologiyasının əsasları, Bakı, 1968, səh 328.
2. Yenə orada, səh 322
3. B.B. Радлов, Опыт словаря тюркских наречий, Т. III, ч.I, СПБ, с.523.
4. Kitabi-Dədə Qorqud, Bakı, 1978, səh.33.

## 4. VƏZİFƏ, RÜTBƏ BİLDİRƏN SÖZLƏR

Xan, bəy, pristav, yüzbaşı, qlava. Bu sözlər əksər kəndlərdə işlənir. Ordubad rayonunun Kotam kənd şivəsində pristav "priss" formasında işlənir.[1]

Katda – Kəndi idarə edən, camaatın şikayətinə baxan. Bu söz Ordubad rayonunun Kotam kənd şivəsində "kətda" formasında işlənir.

Meşəbəyi – meşənin nəzarətçisi, böyüyü. Bütün kəndlərdə işlənir.

## 5. KÖHNƏ VERGİ ADLARI BİLDİRƏN SÖZLƏR

Töycü – vergi növü, əksər kəndlərdə işlənir.

Odun pulu - vergi növü. Meşədən gətirilən odunun haqqı. Dərələyəzin bütün kəndlərində işlənir.

Dimməver – vergi növü.

Tüstü pulu – hər evə, hər ailəyə qoyulan vergi.

Saldat pulu – vergi növu. Əsgərliyə, hərbi xidmətə getməmək üçün verilən naloq.

## 6. BİTKİ ADLARI BİLDİRƏN SÖZLƏR – FİTONİMLƏR

Ağ ot, qara ot, "qərə ot", qırxbizik, əvəlik, "əvəlix", şıppır, həməköməci, kijirtkan, kicirkan, yarpız, çiriş, çaşır, "çaşur", ayı çaşırı, sırmaşıx, şüddüyan, baldırğan, çaçıx, çajux, cacik, yemlik, yemilih, yemilix, quzuqulağı, xatınbarmağı, yolotu, qırxbuğum, üçqulax, sümürtkan, nərgiz, bənövşə, qəntəpər, səhlab, gülxətm, kəkotu, dəliximi, keçi baldırğanı, topalot, cırtdanquş, mollabaşı, molla mindi, qatırquyruğu, pişik cırmağı, xincilov, çildirim, kəvər, süsənsünbül və s.

## 7. TERMİN SƏCİYYƏLİ SÖZLƏR

Dərələyəz şivəsi termin səciyyəli sözlərlə də zəngindir.[2] Bunları, əsasən, aşağıdakı şəkildə qruplaşdırmaq olar:

*a) Məişət, əkinçilik və biçinçiliklə bağlı sözlər*

Kotan, cüt – (Dərələyəzin əksər kəndlərində); Yaba (Qovuşuq, Ələyəz, Qabaxlı, Gülüdüz, Qaraqaya, Hors, Civə); Şana (Dərələyəzin əksər kəndlərində), Şanə (Ağkənd, Heşin, Yelpin). Onu da qeyd edək ki, yaba və şana//şanə sözləri sinonim məna kəsb edir. Şana Culfa rayonunun Camaldın kəndində şana, Ordubad rayonunun Bist kəndində şanə formasında işlənir. Şana sözü Şəki dialektində "papağın tükünü düzəltmək üçün çəngələ oxşar dəmir alət" mənasını ifadə edir.[3] Yabadan fərqli olaraq şana aləti Dərələyəz-

----------------

1. M.Şirəliyev. Azərbaycan dialektologiyasının əsasları. Bakı, 1968, səh.330.
2. Mirzəyev H. Dərələyəz şivəsində işlənən termin səciyyəli sözlər. Filologiya məsələlərinə dair tematik toplu. 2002, № 3-4 s.3-11.
3. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı, 1964, səh.272.

də ağacdan da hazırlanırdı.

Kürək (Gülüdüz, Horbadıq, Ayısəsi, Qabaxlı, Hors, Qaraqaya), kürəx (Paşalı, Əzizbəyov rayonunun bir neçə kəndində) və s.

Mala – (Dərələyəzin əksər kəndlərində).

Şilaver – Oraq növü (Gülüdüz, Horbadıq, Qovuşuq, Qalaser).

Oraq – (Dərələyəzin əksər kəndlərində); oraq sözü Azərbaycan dialektlərində geniş şəkildə işlənir. Bu söz Quba[1] dialektində oraq, urağ formalarında, Babək rayonunun Qaraçuq şivəsində oraxca kimi öz əksini tapır. Oraq sözü Culfa rayonunun Camaldın kənd şivəsində məngənə formasında da işlənir.[2]

Kərənti – (əksər kəndlərdə), karantı (Ələyəz, Ayısəsi, Kotanlı). Bu sözü Babək[3] rayonunun Sirab, Qaraçuq kənd şivələrində də eyni formada rast gəlinir.

Araba – (Gədikvəng, Qabaxlı, Sallı, Qaraqaya), arava (Ələyəz, Ayısəsi, Qalasevər), haraba (Qovuşuq, Hors, Hosdun). Bu söz Quba dialektində ərəbə[4] formasında işlənir.

Gəm, vəl – (Gədikvəng, Civə, Əmağu, Zeytə). Bu söz Babək rayonunun Qaraçuq, Şərur rayonunun Siyaqut, Culfa rayonunun Bənəniyar kənd şivələrində carcar formasında (vəl əvəzində xırmanda istifadə edilən kənd təsərrüfatı aləti) işlənir.[5]

Ləğərə – Yeri iki tərəfli əkmək. Bu söz Dərələyəzin əksər kəndlərində işlənir. Həmin söz Babək rayonunun Sirab kənd şivəsində lağarək formasında işlənərək "aralıq, kotan tutmayan, əkin yeri" mənasını bildirir.[6]

Cırım – Yerin, torpağın bir hissəsi.

Bağ – taxılı biçəndə, 3-4 bafanı birləşdirib bağlayırlar. Buna bağ deyilir. Bu söz Ordubad rayonunun Bist şivəsində "küləşin dəstəsi" mənasında işlənir.

Bafa (Bafə) – Oraqla biçilən buğdanın, arpanın, otun və s. bir əlin içində yerləşən hissəsi. Bu söz Azərbaycanın Qazax dialektində "dərz bağlamaq üçün kökündən qoparılan küləşli sünbül", biçinçinin bir əli doluncaya qədər biçdiyi taxıl mənasını bildirir.

Xozan – Əkilməmiş taxıl sahəsi, əkilməmiş yer.

Bəndəm – Bağ bağlamaq üçün az yetişmiş buğdanın, arpanın küləşi taxılı bağlamaq üçün istifadə olunan əşya, qırılmayan otların bir hissəsi. Bu söz Kəlbəcər rayonunda bəndə, Quba dialektində, Salyan şivəsində bəndəmə formasında, "dərz bağlamağa məxsus sümbüllü qurşaq", qazax dialektində "dərz bağlamaq üçün kökündən çıxarılmış kövşən" mənasında işlənir. Bəndəm sözü Bakı dialektində "meyvə saplağı" mənasını bildirir.

Pencə – 10-12 bağ taxılın, otun bir yerdə yığılması (Dərələyəzin əksər kəndlərində). Bu söz Naxçıvan dialektində 10 dərz, "10 bağ" Azərbaycanın

---

1. R.Rüstəmov. Quba dialekti. Bakı, 1962, səh.203.
2. Naxçıvan MSSR-nin dialekt və şivələri. Bakı, 1962, səh.216.
3. Yenə orada, səh.216.
4. Yenə orada, səh.272.
5. Yenə orada, səh.126.
6. Yenə orada, səh.239.

qərb qrupu dialekt və şivələrində pencə formasında, "otuz dərz taxıl" mənasında işlənir.

Dərz – Biçilən buğda, arpa bağlarının 10-15-ni bir yerə tayalamaq. Dərz sözünə Quba dialektinin Amsar şivəsində də rast gəlinir. Burada dərz və ya ot daşıyan arabanın yanlarına əlavə edilən uzun ağaca dərz ağacı deyilir.[1]

Taya (Tayə) – bir yerə toplanan ot yığımı.

Kürəkeş – xırmanı, döyülmüş samanı, buğdanı, bir yerə toplamaqdan ötrü işlədilən, eni 20-25 sm, uzunluğu 40-45 metrə qədər taxta və sapı bərk ağacdan qayrılmış əl aləti (Dərələyəzin əksər kəndlərində işlənir).

Xırman (Xərmən) – Dərz döyülən yer. Xırman sözü Culfa rayonunun Yaycı kənd şivəsində "xırmangah" sözünün tərkibində işlənir ki, bu da xırman yeri deməkdir.[2]

Xırman sözü özbək[3] dilində xırman, qazax[4] dilində kırman, türk[5] dilində harman yeri, uyğur[6] dilində xorman, xırman, türkmən[7] dilində xarman fonetik variantlarında işlənir.

Xotma – Kiçik ot, taxıl tayası (kəndlərin əksəriyyətində işlənir).

Küləş – Xırmana tökülən buğda və arpanın döyülməmiş hissəsi.

Saman – Xırmanda döyülmüş arpa və ya buğda küləşin xırda hissələri.

Savırıx//Savrıx – Xırmanda döyülmüş dəni yelə verib samandan ayırma. Savırıx sözünə Ordubad rayonunun Tivi kənd şivəsində "savırıx maşını" (taxıl sovuran maşın) söz birləşməsinin tərkibində rast gəlinir.

Bəlim – hər hansı dənli bitkinin xırmana dağılıb vəl və vələ qoşulan öküzlərlə, atlarla bir az döyülən, xırdalanan küləşi. Bəlim sözü Şəmkir, Tovuz və Cəbrayıl rayon şivələrində "taxıl", darı və çəltik kimi bitkilərin küləşi", Qazax dialektinin Daş Salahlı, Çaylı şivələrində "döyülmüş arpa və ya darı samanı" mənalarını ifadə edir.

Şadara – buğdanı qatışıqlardan təmizləyən alət. Bu söz Naxçıvan[8] dialekt və şivələrində şadara, şədərə kimi "iri gözlü xəlbir", Azərbaycanın qərb[9] qrupu dialekt və şivələrində şadara formasında "iri gözlü xəlbir" mənasını bildirir. Şadara sözünə İrəvan şivəsində "torpaq ələyən" mənasını bildirən şadaraçı sözündə də təsadüf olunur. Şadara sözü tarixən 2 sözdən ibarət olmuşdur; Şad - farsca "çox", "ara", "deşik" mənalarındadır.

Daşgir – Buğdanın, arpanın daşını təmizləyən alət. Bu söz Qazax[1] dialektində "böyük şadara", Şahbuz[2] rayonunun Gülüs kənd şivəsində "döyülmüş

--------------------

1. R.Rüstəmov. Quba dialekti. Bakı, 1962, səh.203.
2. Naxçıvan MSSR-nin dialekt və şivələri, Bakı 1962, səh.263.
3. Русско-Узбекский словарь, М., 1954 с. 147
4. Yenə orada səh. 147.
5. Турецко-русский словарь. М., 1954, с. 234.
6. Русско-Казакский словарь, М., 1954, с. 143.
7. X.Baylıyev, K.Karriev. "Türkmence-rusca sözlük" Aşqabad, 1940 səh. 169.
8. Naxçıvan MSSR-nin dialekt və şivələri. Bakı, 1962, səh. 249.
9. Azərbaycan dilinin qərb qrupunun dialekt və şivələri. Bakı, 1967, s. 274.
10. Azərbaycan dilinin qərb qrupunun dialekt və şivələri. Bakı, 1967, səh. 465.
11. Azərbaycan dialektoloji lüğəti, Bakı, 1964, səh. 232-465.

taxılı təmizləyən kiçik gözlü xəlbir" mənalarını bildirir.

Pişik quyruğu - Buğdanın, arpanın içində bitən darıya oxşar alaq otu.

Çılpağ buğda - buğda növü. Babək rayonunun Sirab və Nehrəm kənd şivələrində "çılpaq buğda" formasında işlənir.[1]

Kərdiyar - arpa, buğda və digər dənli bitkilərin qarışığına deyilir.

Ağ arpa - arpa növü.

Sulu yer - sulamaq mümkün olan yer.

Zir - yerlərin içindən kotanla, cütlə zir çəkirlər ki, yerin hər tərəfinə su getsin. Zir sözü Dərələyəz şivəsində, Naxçıvan və Ordubad dialektlərində, Tovuz rayonu şivələrində "nəlbəki"[2] mənasında da işlənir.

Dəmyə yer - susuz əkin yeri.

Xərək - əkilən yerin içində əkilməyən hissə. Bu söz Borçalının Kəpənəkçi kənd şivəsində "zodun dəymədiyi torpaq sahəsi" mənasında xərəx[3], Şahbuz rayonunun Məzrə kənd şivəsində "əkilən sahədə qalmış yer", sahə şumlanan zaman arada qalan əkilməmiş yer mənalarında "xərəh" formalarında işlənir.[4]

Peşqurt (peşğurt) - Əkilən taxılın ilk növbarı. Bu söz Azərbaycan dilinin qərb qrupu dialekt və şivələrində "təcili üyüdülən azacıq taxıl" mənasını ifadə edir.[5]

Qırp - buğdanı başdan (sünbüldən) doğrayıb götürmək. Salyan[6] şivəsində qırp sözü "qılçıq, sünbülün qılçığı" mənasında işlənir.

Qara arpa (qərə arpa) - Arpa növü.

Pərinc - Dənli bitki növü.

Zəyərək (zəyərəx) - dənli bitki növü. Bu söz İrəvan[7] şivəsində "kətan yağı" mənasında, "zəyərəy" formasında işlənir. Dərələyəzin Güneyvəng kəndində bu bitkiyə aid dəyirmanların qalığı indi də qalmaqdadır.

Noxud (nöxud) - Dənli bitki.

*b) Cütün və kotanın hissələrinə aid sözlər:*

Maj - kotanın və xışın dəstəyi, əl tutan yeri. Bu söz Ordubad[8] rayonunun Bist kəndində "mac", Kotam kəndində "moc" formasında, xışın torpağa girən kötük hissəsi, xışın əlcəkdən kötüyə qədər hissəsi mənasında işlənir.

Oğuz[9] (keçmiş Vartaşen) şivələrində mac "ağ" mənasında işlənir.

Köbal – (Köbəll) – zəncirə keçən həlqə.

Həvəndə – bişmiş kəndirdən hörülmüş alət.

İşgil – İki ağacın deşiyindən keçirilən və bunları bir-birinə bağlayan ağac,

--------------------

1. Naxçıaan MSSR-in dialekt və şivələri, Bakı, 1962, səh. 211. Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, Bakı, 1967, səh. 277.
2. Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, Bakı, 1967, səh. 216.
3. Yenə orada, səh. 245.
4. Yenə orada, səh. 409.
5. Yenə orada, səh, 232.
6. Azərbaycan dialektoloji lüğəti, Bakı, 1964, səh141.
7. Yenə orada, səh. 232.
8. Naxçıvan MSSR-nin dialekt və şivələri. Bakı, səh. 216.
9. Yenə orada, səh.241.

taxta, dəmir. Bu söz Cəbrayıl[1] rayonunda "cəftə" mənasında, Şəki dialektində "işgil" formasında, boyunduruğu arabaya bərkidən ağac mənasında işlənir.

Boyundurux (boyundürüx) – öküzün boynuna keçirilən, qoyulan ağac, taxtadan qayırılmış alət. Bu sözə Ordubad rayonunun Dırnıs kəndində, Babək rayonunun Sirab kəndində – boyundurux, Şahbuz rayonunun Nurs kəndində "boyındırıx"[2], Quba dialektində "boyunduruğ"[3], "buyunduruğ" formasında təsadüf olunur.

Lavaşa (lavəşə) – enli dəmirdən düzəldilən, torpağı yanı üstə çevirən hissə. Bu söz Gəncə dialektində, qubadlı şivəsində "ucuna ip keçirilmiş buynuz", Ordubad dialektində "zəncirin ucunda olan dəmir" və "baramanı tiyanda islatmaq üçün 25 sm uzunluğunda olan əyri ağac" mənasında işlənir.[4]

Kotanın çəmbərəyi. Kotanla boyunduruq zəncirini birləşdirən kiçik zəncir. Bu sözə Şəki dialektində, Göyçay, Balakən şivələrində "arabanın və ya xışın hissəsini boyunduruğa birləşdirən bağ" mənasında, çəmbərə və çənbərə formalarında rast gəlinir.[5]

Bazı (bazi) – xışın ən uzun hissəsi. Xışın dairə şəkilli ağac hissəsi. Bu söz Ordubad, Quba, Şamaxı dialektlərində bazı, bazi formalarında işlənir.

Sırnış – Kotanın torpaq və palçığını təmizləyən ağac.

Samı (səmi) – Boyunduruğun hər iki tərəfindən deşiyə salınan və boyunduruğu öküzün, kəlin boynuna bağlayan və iplə bir-birinə bərkidən əyri ağac. Bunların uzunluğu 50-60 sm olur.

Bu sözə Culfa rayonunun Kırna, Ordubad rayonunun Bist kəndlərində "samı", Ordubad rayonunun Dırnıs kəndində "sami, sinəçi", Quba dialektində boyunduruğun üst ağacı mənasında, "sami" formasında təsadüf olunur.[6]

Sambağı (səmbəği) – Öküzün boynundakı iki samını bir-birinə bağlamaq üçün istifadə olunan ip. Bu söz Dərələyəz mahalının əksər kəndlərində işlənir. Sambağı (Sambəği) sözü Ordubad rayonunun Dırnıs kənd şivəsində, Şahbuz rayonunda "sambağı, sinə bağı"[7], Quba[8] dialektində "boyunduruğun üst və alt ağaclarını bir-birinə bağlayan qayış" mənasında, "sambağı" formasında öz əksini tapır.

Laydır – Arabanın yanları. Bu söz Gəncə, Qazax dialektlərində, Tovuz, Cəbrayıl, Şuşa şivələrində "arabanın yan çərçivələri" mənasında işlənir.[9] Laydır sözünə Tovuz rayonunda "nərdivan, pilləkan" mənasında rast gəlinir.[10]

Maz – Arabanın təkərlər keçən oxu. Belə bir atalar sözü də işənərdi: "Araba cırıldamaqdan maz cırıldayır".

--------------------

1. Yenə orada, səh.216.
2. Yenə orada, səh.203.
3. R.Rüstəmov. Quba dialekti, Bakı, 1962, səh.216.
4. Azərbaycan dialektoloji lüğəti, Bakı, 1964, səh.287.
5. Yenə orada, səh.287.
6. Naxçıvan MSSR-nin dialekt və şivələri, Bakı, 1962, səh.199, 216.
7. Yenə orada, səh.216.
8. R.Rüstəmov. Quba dialekti. Bakı, 1962, səh.203.
9. Azərbaycan dialektoloji lüğəti, Bakı, 1964, səh.288.
10. Yenə orada.

Əymə – 1 metr uzunluğunda palıd və ya kərməşov ağacından hazırlanan alət. Ağac kəsilib ocaqda isidilir, əyilir, uclarından göz açılır, sonra da sambağının hər ikisi bir-birə bağlanır. Bu söz Dərələyəz mahalının əksər kəndlərində işlənir.

*c) Maldarlıqla bağlı sözlər:*

Naxır – Malın sürü halda olması (əksər kəndlərdə),

Naxırçı – Mal otaran şəxs (əksər kəndlərdə).

Azərbaycanın bəzi dialekt və şivələrində inəyə sığır deyirlər. Türk dillərinə dair qədim yazılı abidələrdə, bəzi müasir türk dillərində də sığır sözü inək mənasında işlənir. Türk, qaraqalpaq, Qazax və oyrot dillərində sıyır, türkmən dilində sığır, özbək dilində siqer, tatar dilində sıqr və s. formalarında işlənir.[1]

Xalxal (xalxəl) – (əksər kəndlərdə) – yazda, yayda, payızda mal qatılan yer. hərtərəfi alçaq daşla hörülür və bir qapı qoyulur. Bu söz Qərb[2] qrupu dialekt və şivlərində mal-qara salmaq üçün daş və ya tikanlı çubuqlar ilə hasarlanmış sahə mənasını bildirir. Şahbuz[3] rayonunun Kənd Şahbuz şivəsində örüş formasında mal-qaranın daimi "otladığı yer" mənasını bildirir.

Kələ – burulmamış erkək mal Dərələyəzin əksər kəndlərində işlənən bu söz Nehrəm[4] kənd şivaəsində çəl fonetik variantında işlənir. Bu söz Tovuz[5] rayonu şivələrində "axtalanmamış bir yaşar erkək dana", Tovuz rayonunun Əlibəyli kənd şivəsində "üçyaşar axtalanmamış erkək dana" mənalarında işlənir.

Qısır – doğmayan mal və qoyun. Bu söz Dərələyəzin bütün kəndlərində işlənir. Qazax dialektində -qısrax formasında işlənir.[6]

Gəzyazma – Buğaya gəlməyən, bir il vaxtı keçən, düyə mal deməkdir. Əksər kəndlərdə işlənir.[7]

Ərəmik – Doğmayan mal. Dərələyəzin əksər kəndlərində yazılan şəkildə Çaykənd, Axta, Komur kəndlərində isə "ərmik" formasında işlənir. Bu sözə Şəki, Qazax dialektlərində, Tovuz, Cəbrayıl şivələrində "doğmayan", "qısır" mənasında, "ərəmix" formasında rast gəlinir.[8]

Hörüyə gəlmak – Buğaya gəlmək (Gülüdüz, Horbadıq).[9]

*ç) Təbiət hadisələri ilə bağlı sözlər.*

Xilloru (qilloru) – Dolu (buzlamış yağış).

Çiskin – Uzun müddət davam edən, narın şəkildə yağan yağış.

---------------------

1. Yenə oradasəh.225.
2. Azərbaycan dilinin Qərb qrupu dialekt və şivələri, Bakı, 1967, səh.244.
3. Naxçıvan MSSR-nin dialekt və şivələri, Bakı, 1962, səh.146.
4. Yenə orada, səh.213.
5. Azərbaycan dialektoloji lüğəti, Bakı, 1964, səh.143.
6. Yenə oradasəh.221.
7. Azərbaycan dilinin Qərb qrupu dialekt və şivələri, Bakı, 1967, səh.215; Azərbaycan dialektoloji lüğəti, Bakı, 1964, səh.143.
8. Naxçıvan MSSR-nin dialekt və şivələri, Bakı, 1962, səh.143.
9. Yenə orada. səh.27

Qara yel (qərə yel) – Şimal tərəfdən əsən külək, bəzən də məcazi mənada, xoşa gəlməyən hadisə mənasında işlənir.

Ayaz yeli (əyaz yeli) – Səhər ertə əsən yel.

Yuxarıdakı sözlər Dərələyəzin əksər kəndlərində işlənir.

*ç) Ay, gün, fəsil adları ilə bağlı sözlər:*

Böyük çillə (böyük çilə) – Qışın birinci 40 günü. Dərələyəzin bütün kəndlərində işlənir. Bu söz Ordubad[1] rayonunun Nüsnüs kəndində "qos çillə", "bök çilla", Quba[2] dialektində Böyük çillə formalarında işlənir.

Kiçik çillə (qışın ikinci ayının axırıncı 20 günü). Ordubad[3] rayonunun Nüsnüs kəndində "çicik çillə", Quba[4] dialektində "kiçik çillə" kimi işlənir. Çilə sözü Quba dialektində həm qış, həm də yay fəslinə aid edilir.

Keçıqıran, qarının dərdi – Martın 22-dən aprelin 2-nə qədər olan vaxt. Bu sözə "oxlaqqıran", "oxlaxqıran", "öxlək ırən" da deyilir. Ordubad[5] rayonunun Nüsnüs şivəsində oxlaqqıran şəklində təsadüf olunur.

Kərnəbut – Martın 21-dən 30-na qədər olan dövr. Bu sözə Dərələyəzin Gülüdüz, Qalaser, Qovuşuq kəndlərində daha çox təsadüf olunur.

Ağlar – gülər ay – Qışın axırıncı ayı. Bəzən buna "boz ay" da deyilir.

Bozay – qışın axırıncı ayı. Havaların tez-tez dəyişdiyi ay.

Qora birişən ay – İyul ayının 15-dən, avqust ayının 15-nə qədər olan dövr. Bu sözə Ordubad[6] dialektinin Nüsnüs kənd şivəsində "üzüm yetişən ay, yay vaxtı" mənasında qorbişirən şəklində təsadüf olunur.

Quyruq doğan ay (quyrix dögən ay) – Avqustun ikinci yarısı. Ordubad rayonunun Nüsnüs kənd şivəsində "qurux doğan ay", "yayın axır ayı".[7]

Cəmlələr – Fevralın 21-dən martın 21-nə kimi olan dövr. Bu dövrdə olan həftələr. Bəzən buna "abi, atəş, xaki və bad hərfləri" deyirlər. Yəni birinci həftədə su, ikinci həftədə hava, üçüncü həftədə torpaq və dördüncü həftədə külək isinir, qızır.

---

1. Yenə orada. səh.19.
2. Yenə orada. səh.198.
3. Azərbaycan dilinin Qərb qrupu dialekt və şivələri, Bakı, 1967, səh.143.
4. Naxçıvan MSSR-nin dialekt və şivələri, Bakı, 1962, səh.196.
5. Yenə orada, səh.196.
6. Yenə orada, səh.196.
7. Azərbaycan dialektoloji lüğəti, Bakı, 1964, səh.382.

## 8. DƏRƏLƏYƏZDƏKİ ŞİVƏ SÖZLƏRİNİN LÜĞƏTİ[1]

### A

Abqora – yetişməmiş üzüm suyu (şirəsi)

Ağ arpa – arpa növü

Ağa – ata, dədə

Ağciyər – qorxaq

---

1. Bax: Mirzəyev H. Dərələyəzin şivə sözləri və bunların lüğəti. "Dədə Qorqud" jüm. №1, 2003

Ağçamaya – ağappaq//kök, gözəl qadın
Ağıl – 1. hər tərəfi hasarlanmış yer qoyun sürüsü saxlanan yer; 2. zəka
Ağlar gülər ay – qışın axırıncı ayı
Ağnağaz – dəyirmanda növbədənkənar üyüdülən az miqdarda taxıl
Ağnamax – 1. dalı üstə uzanıb ayaqlarını yuxarı qaldıraraq, o üz – bu üzə çevrilmək; 2. uçmaq, yıxılmaq, dağılmaq, tökülmək
Ağuz – inək,camış, qoyun doğan vaxt birinci 2 – 3 gün ərzində sağılan süd
Ağzıisti – qorxmaz, sözünü deyən, sonu yaxşı görməyən
Axça – pul
Ada – hər tərəfi su ilə əhatə olunmuş quru sahə
Ala – dəri xəstəliyi, bədən dərisinin ağarması
Alaf – ot.
Alışqan – kibrit, spiçka
Annax – qanacaq, mərifət
Arağaş – erkən, vaxtından qabaq, əvvəl
Arğalı – dağ qoçu, dağ qoyunu
Arxaç – qoyunu saxlamaq üçün ayrılmış yer
Arı – 1. təmiz, pak; 2. bal hazırlayan canlı
Arılıx – arı səbətləri qoyulan yer
Arqaç – xalça, palaz, cecim, kilim və s. toxunan zaman istifadə olunan ip
Aşırma – şalvar üçün çiyindən keçirilmiş qayış
Atalıx – ögey ata
Atıcı – keçəçi, yundan alacıq keçəsi, evdə döşəməyə salınan keçəni hazırlayan adam
Atma – damın, tövlənin üstünə qoyulan, atılan ağac
Av//Ov – arğalı, dağ qoçu, dağ qoyunu, dağ keçisi
Ava//Aba//Əpə – ana mənasında
Avazımaq – rəngi qaçmaq
Avsar//Ovsar – Dəvənin başına vurulan ip /irəşmə/
Avsarramax – dəvəni noxtalamaq
Avşar – iri bıçaq, xəncərə oxşayan bıçaq.
Ayama – ləğəb
Ayaz yeli – səhər ertə əsən yel
Aybaşı – qadın orqanizmində gedən fizioloji proses
Ayı döşəyi – yabanı bitki, bitki növü.
Ayqır//ayqır – axtalanmamış, xayası, toxumluğu... çıxarılmamış, miniyə öyrədilməmiş, ilxını, atın sürüsünü idarə edən erkək at.

**B**

Bab – tay, özünə bərabər
Bacanax – bacıların ərləri
Bad – kürənin, təndirin divarı, kərpici.
Bafa – biçinçinin bir əli doluncaya qədər biçdiyi taxıl
Bağ – taxılı biçərkən 3 – 4 bafanın birləşdirilib bağlanması
Bağlaşma – şifahi xalq ədəbiyyatında müəmma, deyişmə, qıfılbənd demək,

aşıqların deyişməsi

Balax – 6-7 aylıq camış balası

Baldız – arvadın ərinin bacısı

Balxı – veyil, maymaq

Barmaxlıx – iş zamanı barmaqları müdafiə üçün dəridən hazırlanmış əşya

Batman – çəki ölçüsü, 14 girvənkə

Başdıx – oğlan evi tərəfindən qız evinə toydan qabaq verilən pul, qoyun, varidat

Başəyax – 1. kəllapaça; 2. biçin zamanı yerə tökülən sünbül, dənnəmə

Bavar eləmək – davam eləmək, davam gətirmək, əmələ gəlmək

Bazı – cütün, kotanın bir hissəsi, ən uzun hissəsi

Bedana – toxumsuz meyvə

Beddam – bədnam, biabır, rüsvay

Bezar olma – təngə gəlmə

Bəbə – körpə uşaq

Bələban – kiçik uşaqları qorxutmaq üçün işlədilən xəyali ad

Bəlgə – 1. Ağacla vuruşan zaman özünü müdafiə etmək üçün qola dolanan çuxa, palto, pencək; 2. Adaxlanmış oğlan evindən qız evinə verilən, göndərilən ilk nişan şeyləri

Bəlim – döyülmüş arpa və darı samanı

Bəllə – qulağı xırda qoyun, quzu

Bənd – 1.bağlama; 2.dəhnə; 3.düyün

Bəndəm – taxıl dərzini, ot xorumunu bağlamaq üçün küləş dəstəsi, ot dəstəsi

Bərə – 1. Keçid 2. Qoyunları sağmaq üçün hasarlanmış yer 3. ov vurmaq üçün seçilən yer

Bərəmüm – arı pətəyində qalan mum

Biçənək – biçilmək üçün saxlanılan yer, çəmənlik

Bir dəfəmə – bir dəfəyə

Bir yol – bir dəfə

Bişməcə – istidən səpmiş dəri, istidən bədəndə əmələ gəlmiş yara

Boğma istəkan – armudu stəkan

Bordax – bəslənmiş, kökəldilmiş ev heyvanları

Boyundurux – öküzün boynuna keçirilən, qoyulan ağac, taxtadan qayrılmış alət

Bozay – mart ayı

Bozay – qışın son ayı, 22 fevraldan 21 marta qədər olan dövr

Böyük çillə – qışın ilk 40 günü

Bulama – təzə doğan mal və qoyunun südündən hazırlanan yemək

Bulamac – bişməmiş un horrası

Burcutma – rəqs edən zaman sındırmaq növü; 2. fikrindən daşınmaq

Burqu – ağac şivindən hazırlanan alət

Burum – dəfə, kərə (xörəyi bir burum qaynat)

Bülöv – bıçaq, ocaq, kərənti, balta, kərki itiləyən daş

## C

Cad – darı çörəyi

Cacıq – yabanı bitki

Cam – mis kasa
Cecim – ipək və ya yundan toxunmuş zolaqlı parça
Cələ – at quyruğunun tükündən qayrılmış tələ
Cəmlə – qış fəslinin axırıncı ayı
Cəmlələr – fevralın 21-dən martın 21-nə kimi olan dövr
Cəvərə – xırda səbət
Cəviz – qoz
Cici-bacı – sirdaş, rəfiqə.
Civir – öz-özünə bitən söyüd, söyüdün balaca qanadları.
Cılfır – göyərtidən bişirilmiş xörək növü
Cılxa – xalis
Cılxı – tüklü üzü kənarda olan dəri
Cırım – yerin, torpağın bir hissəsi
Cıvrıx – 1. yeməli ot; 2. qabığı çıxmış meyvə; 3. lüt, çılpaq.
Cızbız – qoyunun quyuruğunu əritdikdən sonra qalan hissəsi
Cod – kobud, tərs, yağı olmayan
Cunquş – xırda, balaca
Cuvar – su paylayan, suvarma üçün suyu idarə edən
Cüt – xış

## Ç

Çax-çax – dəyirmanda daşın üstündə tərpənən taxta, taxılı daşın boğazına tökən alət
Çaqqala//Çağala – yetişməmiş ərik, kal ərik
Çalğı – çubuqdan bağlanmış süpürgə
Çalkeçirt – qarmaq, geyimdə istifadə olunan əşya
Çamır – bataqlıq
Çanax – 1. ölçü qabı, ağacdan qayrılmış ölçü qabı; 2. 16 kiloqrama bərabər ölçü vahidi
Çapacaq – xırda balta
Çardax – talvar
Çarıx – 1. mal, camış, ot gönündən hazırlanan ayaqqabı növü; 2. arabanın təkərindəki şini təkər ağacına bərkidən dəmir halqa
Çatal – ikiyə ayrılmış, bir neçə qola ayrılmış sahələrin birləşdiyi, qovuşduğu yer
Çatı – bağ, ip qırığı, nisbətən ködək və yoğun bağ, ipdən toxunan əşya
Çatma – nehrə çalxamaq üçün istifadə olunan ağac, üç haça ağacın baş-başa qoyulması
Çaşır – bitki növü, şorbaya qoyulan yeməli bitki növü
Çetver – 100 qr
Çeyil – sucuq yer, sulu otlaq yeri, bataqlıq olan biçənək
Çəhlim – mal-qaranın otlağa gediş-gəliş yolu, iz, iz düşən yer
Çərək – 25 sm
Çərəkə – təsbeh
Çərənçi – uzunçu
Çərşov – çadra

Çətən – alaçığın yanlarını tutmaq üçün qarğıdan, çubuqdan toxunan alət, qamışdan toxunmuş həsir.

Çillə – qış ayı

Çini – 1. büzmə; 2. tarelka növü

Çil – quş növü, kəklik növü

Çimir – mürgü, az yuxu

Çiriş – bitki növü, kətə, qutab, xörək bişirilən bitki növü

Çiş – balı çıxarılmış şan, arı şanı

Çiskin – narın yağış, duman, çən

Çiv – xırda paz, ağacı yarmaq üçün hazırlanan dəmir və ağac alət

Çiy – 1. bişməmiş; 2. nəm, yaş

Çoban düyüsü – yazda yağan dolu

Çod içi – ölçü vahidi, 13 girvəngə yarım.

Çözələmək – 1. çəkib çıxarmaq, uzatmaq; 2. sözü – söhbəti uzatmaq

Çüyəçə – içi 1 girvəngə, 400 qr, ölçü vahidi

## D

Dadaş – ata, qardaş

Dağar//dağarcıq – yunu, qəzili təmizlənərək qoyun, keçi dərisindən hazırlanan qab, kisə

Dağdağan – ağac növü

Dadıxmax – pis dad vermək, xarab olmaq, iylənmək

Daqqa – ağacdan, taxtadan hazırlanan və təxminən 50 put maye tutan qab

Dambat//dammat – lovğa, dikbaş, mədəniyyətsiz, kobud

Danqa – sözə baxmayan, söz qaytaran, kobud, qanacaqsız, dikbaş adam.

Daramax – ağacın budaqlarını kəsmək, seyrəltmək

Dayanacax – 1. əl ağacı, əsa, 2. adamların çox yığıldığı yer.

Davgəlmə – qalib gəlmə, zor gəlmə

Dəsdana – çörək növü, təndir çörəyi

Daşgir – buğdanın, arpanın daşını təmizləyən alət

Daşıxçı – taxılı, otu at, öküz vasitəsi ilə daşıyan adam

Demi//Demiyə – susuz yer, su çatmayan yer

Deyikli – nişandan qabaq, uşaq vaxtı bir-birinə ad edilmiş gənclər, vaxtından qabaq, şifahi olaraq bir-birinə nişanlanmış gənclər, uşaqlar

Dəbbələmək – fikrindən dönmək, verdiyi sözü danmaq, inkar etmək, cığallıq eləmək

Dədə – ata

Dəhnə – gölün, çayın, bulağın suyunun başqa yerə ayrılan hissəsi, buraxılan yeri

Dələmə – ağartı növü

Dəmbələmdüz – dümdüz

Dəmdəməki – rəybərəy adam, hər saatda bir söz deyən adam, ağılsız adam

Dəmyə yer – susuz əkin yeri

Dəndənə – 1. daş hörgüsündə işlənən xırda daş, 2. araba təkərinin hissəsi

Dərz – biçilən buğda, arpa bağlarının 10 – 15-ni bir yerə tayalamaq, yığmaq

Dəstəna – çörək növü

Dəstərxan – süfrə
Dibir//Dübür – erkək keçi, iki yaşlı keçi
Dilbaz – dilli, qılıqlı adam
Dimməver – vergi növü
Dingə – başlıq, qadınların başlarına qoyduqları bəzək
Dişəmək – 1. uşağın süd dişlərinin daimi dişlərlə əvəz olunması, yeni dişin çıxıb əvvəlki dişlərin tökülməsi; 2. dəyirman daşının və mişarın dişlərini itiləmək
Dizlik – kişi tumanı
Dınqili – balaca, xırda, kiçik
Domba – çıxıq, qabarıq
Dombalax aşmaq – dığırlanmaq, başın üstündən bədəni aşırmaq
Domuşmax – çömbəlmək, qırışıb oturmaq
Donuxma – donub qalmaq
Dozanqurdu//dozanqurdu – böcək növü
Duruxmaq – dayanmaq, quruyub qalmaq, özünü itirmək
Duvax – 1. gəlinin üzünə çəkilən pərdə; 2. çörək bişirərkən kündəni yaymaq üçün istifadə olunan taxta alət; 3. çölməyin ağzına qoymaq üçün palçıqdan hazırlanmış papaq;
Duzdax//Duzlaq – mala, qoyuna, ata duz verilən yer
Düdəmə – axmaq, sarsaq, səfeh, heç nədən başı çıxmayan, zırrama
Dümbək – 1. Nağara, təbil; 2. köpmüş qarın, yekə dal
Dümsük – dürtmə, vurmaq, çimdik götürmək
Dümsükləmək – tərpətmək, yerindən qaldırmaq, hərəkətə gətirmək
Dürmək – içərisinə pendir və s. yığılıb bükülmüş yuxa, çörək
Dürməkləmək – dürmək qayırmaq, bükmək
Düşük – ağılsız, səfeh, yarımçıq adam, yersiz danışan, mədəni səviyyəsi aşağı olan adam
Düyələk – eybəcər, formasını dəyişmiş, paltarını gödəltmiş adam, forması, xasiyyəti normal olmayan adam
Düymək – bağlamaq

## E

Erkəs – sürünün qabağında gedən erkək keçi, buynuzlu keçi növü
Eymə – içində qatıq saxlanılan balaca, xırda qoyun, keçi dərisi, tulux
Eyzən – tamamilə

## Ə

Ələm (tuğ) – dini təbliğ edərkən istifadə olunan bayraq
Ələyəz – yeyilən yabanı bitki, göyərti növü
Əndam – bədən, vücud
Əlçim – daranmış əl boyda yun
Ərdəmli – hünərli
Ərəmix//Ərəmik – doğmayan, qısır mal
Əriş – hananın şaquli ipləri; calça, gəbə, kilim, cecim, çul, xurcun, örkən toxuyarkən arğaca keçən ip

Ətənə – məməlilərin doğandan sonra ifraz etdikləri bir parça ət

Əymə – ağacdan hazırlanan alət, 1 metr boyda olan palıd, sonra da onun və ya kərməşov ağacını kəsib ocaqda isidib və əyirlər; uclarından gəz açıb sambağını ora bərkidirlər.

Əvlat – qohum

Əzvay – 1. aciz, bacarıqsız 2. yumru meyvə; 3. acı,

**F**

Farmaş – paltar, yorğan-döşək yığılan qab, yun ipdən xalça kimi toxunan böyük əşya qabı

Fətir – çörək növü, qalın bişirilən çörək növü

**G**

Gahgir – tərs, tez-tez fikrini dəyişən

Gay – key, qanmaz, maymaq.

Gədik – aşırım, hündür dağ arası yol

Gərnəbut – martın 21-dən 30-na qədər olan dövr

Gərmə – yandırmaq məqsədilə qurudulmuş mal peyini, mal təzəyi

Gəvəzə – çoxdanışan, boşboğaz

Gəz – aşırım, gəzdək, dağçökəyi, dağın qılıcında nazik yer, dağın təpəsindəki çökəklik, gədiyin ən alçaq yeri

Gəzəl – qozun və ya fındığın yaşıl qabığı

Gəzyazma – buğaya gəlməyən, birinci il doğmayan, doğmaq vaxtı keçən düyə

Gic – sarsaq, axmaq, özünü idarə edə bilməyən

Gicbəsər – başdan xarab, sarsaq

Girəvə – fürsət

Gödən – qarın

Gödən bağırsaq – düz bağırsaq. 2. Çox yeyən

Göy – xəsis

Gözə – sucuq, bulaq yeri, təbii su mənbəyi, sululu yer, sızqa şəklində çıxan su, nəmiş otluq, yaşıllıq yer, çəmənlik.

Gülab – əkinə verilən ikinci su

Gülüsor – buğda növü

Günü – kişinin arvadının üstünə gələn sonrakı arvab.

Güz – qoyun, quzu salınan yer, ağıl; qarğıdan, qamışdan hazırlanan quzu yeri və s.

Güzdək – payız səpini, payız göyərən taxıl, ot və s.

Güzdük buğda – payızlıq buğda, payız əkildən buğda

Güzəm – payızda qırxılan yun

**H**

Halaylama – dövrəyə alma, əl-ələ tutub dövrəyə alma

Hambal – 1. evin üstünə qoyulmuş uzun ağac; 2. belinə palan bağlayıb və ya əl arabası götürüb böyük, ağır yükləri daşıyan adam

Hampa – dövlətli, zəngin adam

Harın – ərköyün, varlı, var-dövlətin çoxluğundan başı gicələn adam

Ətənə – məməlilərin doğandan sonra ifraz etdikləri bir parça ət

Əymə – ağacdan hazırlanan alət, 1 metr boyda olan palıd, sonra da onun və ya kərməşov ağacını kəsib ocaqda isidib və əyirlər; uclarından gəz açıb sambağını ora bərkidirlər.

Əvlat – qohum

Əzvay – 1. aciz, bacarıqsız 2. yumru meyvə; 3. acı,

## F

Farmaş – paltar, yorğan-döşək yığılan qab, yun ipdən xalça kimi toxunan böyük əşya qabı

Fətir – çörək növü, qalın bişirilən çörək növü

## G

Gahgir – tərs, tez-tez fikrini dəyişən

Gay – key, qanmaz, maymaq.

Gədik – aşırım, hündür dağ arası yol

Gərnəbut – martın 21-dən 30-na qədər olan dövr

Gərmə – yandırmaq məqsədilə qurudulmuş mal peyini, mal təzəyi

Gəvəzə – çoxdanışan, boşboğaz

Gəz – aşırım, gəzdək, dağçökəyi, dağın qılıcında nazik yer, dağın təpəsindəki çökəklik, gədiyin ən alçaq yeri

Gəzəl – qozun və ya fındığın yaşıl qabığı

Gəzyazma – buğaya gəlməyən, birinci il doğmayan, doğmaq vaxtı keçən düyə

Gic – sarsaq, axmaq, özünü idarə edə bilməyən

Gicbəsər – başdan xarab, sarsaq

Girəvə – fürsət

Gödən – qarın

Gödən bağırsaq – düz bağırsaq. 2. Çox yeyən

Göy – xəsis

Gözə – sucuq, bulaq yeri, təbii su mənbəyi, sululu yer, sızqa şəklində çıxan su, nəmiş otluq, yaşıllıq yer, çəmənlik.

Gülab – əkinə verilən ikinci su

Gülüsor – buğda növü

Günü – kişinin arvadının üstünə gələn sonrakı arvab.

Güz – qoyun, quzu salınan yer, ağıl; qarğıdan, qamışdan hazırlanan quzu yeri və s.

Güzdək – payız səpini, payız göyərən taxıl, ot və s.

Güzdük buğda – payızlıq buğda, payız əkildən buğda

Güzəm – payızda qırxılan yun

## H

Halaylama – dövrəyə alma, əl-ələ tutub dövrəyə alma

Hambal – 1. evin üstünə qoyulmuş uzun ağac; 2. belinə palan bağlayıb və ya əl arabası götürüb böyük, ağır yükləri daşıyan adam

Hampa – dövlətli, zəngin adam

Harın – ərköyün, varlı, var-dövlətin çoxluğundan başı gicələn adam

Havara gəlmək – köməyə gəlmək, haya gəlmək
Heşan – taxıl səpilən yer, yığım; bir xırmanlıq taxıl dərzi
Heyvərə – 1. çox və yersiz danışan; 2. avara, qanacaqsız
Həlim – yumuşaq, duru
Hələmqələm – hiyləgər, yalançı
Hənək – zarafat
Hərə – taxça, rəf
Həsləmək – geri çəkilmək
Həvə – xalça//kəbə, palaz toxumaq üçün ağacdan hazırlanan alət
Həybə – çiyindən aşırılan iki gözlü çanta
Hikkə – tərs, hirsli, yersiz hirslənən, qəlbi təmiz olmayan, pis xasiyyət
Hodax – kotana, cütə qoşulan, iki cüt, üç cüt öküzün idarə edən adam, ikinci cüt öküzün boyunduruğuna minib qabaqdakı və daldakı cüt öküzlərin kotanı, cütü çəkməsini tənzimləyən adam
Hoqqa – bir kilo; yarım hoqqa – yarım kilo çəki vahidi
Hoqqa – qanun, qayda
Hoqquş – eşşəyi saxlamaq üçün çıxarılan səs
Hov – iltihab
Hozu – qaba, kobud, qanmaz, başa düşməyən adam
Hörüyə gəlmək – buğaya gəlmək
Hövsəmə – sovurma, təmizləmə. Dənli bitgilərin təmizlənməsi

## X

Xafdan – qəflətən
Xalxal – yazda, yayda, payızda gecə mal qatılan yer
Xama – iy südün üzü, maşınla çəkilən çiy südün üzü, qaymaq
Xamra – xəmir mayası
Xamralı – çörək növü, sacda bişirilən dairəvi və qalın çörək
Xapa-xap – gözlənilmədən, qəflətən
Xapan qalmax – bağlı qalmaq, tək qalmaq, kimsəsiz qalmaq, sahibsiz qalmaq, viran qoymaq
Xapdan – birdən-birə, qəfildən, gözlənilmədən
Xar – iki-üç yaşında axtalanmış keçi
Xaral – iri kisə, iri torba, yundan toxunan böyük çuval
Xart – bucaq, oraq, kərənti itiləyən çay daşı
Xaşal – sallaq, qarnı böyük, qarnı yekə
Xəkov – susuz qalmış əkin yeri, ikinci suvarma
Xədim – burulmuş, axtalanmış canlı
Xəlbir – xırda torpağı, taxılı ələyən alət, ələkdən böyük, şadaradan kiçik gözü olan alət
Xəlvər – çəki növü (30 pud)
Xəmrə – taya
Xərə – əkilən sahədə qalmış xam yer
Xərək – əkilən yerin içində əkilməyən hissə
Xəsil – taxılın göy vaxtı

Xıl – xeyli, çox, dəstə
Xılloru – dolu (buzlamış yağış)
Xırman – dərz, döyülən yer
Xırsız – güclü, canlı, kobud
Xorramax – qorxmaq, çəkinmək, ürkmək
Xorum – bir qucaq ot, otun bükülmüş, bağlanmış hissəsi
Xozan – müvəqqəti dincə qoyulmuş zəmi; arpa və buğda əkilməmiş yer, zəmi
Xum – böyük saxsı küpə
Xuygir – dəli (at), tez dəyişən, vəhşi at, xasiyyəti daimi olmayan
Xüfət – dərd, qəm, fikir

## İ

İncəvara – yaxşı ki
İrağ – uzaq
İrəd – ləpir, rədd
İrəfətə – çörək, lavaşı təndirə vuran alət, lavaşın xəmirini təndirin divarına vurmaq üçün düzəldilmiş döşəkçə
İrəşmə – keçi tükündən toxunmuş yoğun ip, kəndir
İrişmək – qımışmaq, xəfif gülmək
İşgil – cütdə işlənən xüsusi taxta; qapı və ya pəncərəni daldan bağlamaq üçün xüsusi taxta; iki ağacın deşiyindən keçirilən və bunları bir – birinə bağlayan ağac, taxta, dəmir.

## K

Kab – aşırım, qayalıqdan keçən yol, uçurum, daşlıq
Kaftar – qoca, çox qoca
Kaha – zağa, daş oyuğu, qoyun saxlanılan yer
Kahal – qanmaz, könülsüz
Kal – 1. Kobud; 2. yetişməmiş meyvə; 3. yarımçıq, bacarıqsız maymaq
Kalafa – quyu, uçub tökülmüş bina, yer
Katda – kəndi idarə edən, camaatın şikayətinə baxan
Kav//Kov deyil – hesabdan deyil haseblanmır
Kavranqıran – ulduz adı
Keçiqıran (Qarının dərdi) – martın 22-dən aprelin 2-nə qədər olan vaxt
Kəf – 1. xörək bişirən zaman suyun üzərində toplanan köpük; 2. çaydanda, simavarda əmələ gələn çöküntü; 3. hiylə, kələk; kəf gəlmək – kələk gəlmək, aldatmaq
Kəfgir – sulu xörək bişirdikdə onun üzərində əmələ gəlmiş kəfi yığmaq üçün alət
Kəfrəm – mitil
Kəkotu – kəklik otu
Kələk – yanı daşla düzəldilmiş ağıl, heyvan salınan yer, daşlıq, daş topası
Kələcoş – qurut, yağ, soğan, kartofdan hazırlanmış xörək növü
Kənkan – kəhriz və quyu qazan
Kərə – 1. buynuzsuz xırda qulaq qoyun; 2. ərinməmiş (şit) yağ; 3. dəfə

Kərki – dəmirdən ağac kəsən, ağac yonan alət
Kərmə – tapdanıb qurudulduqdan sonra bel vasitəsilə kəsilən təzək
Kərt – malın, keçinin buynuzundakı qırış, qat, gəz
Kəsat – az tapılan, az olan əşya
Kəsə – kəsmə yol, yaxın yol, qısa
Kəv – yeznə, kürəkən
Kəvşən – çöl, əkin əkilən və ya mal otarılan yer
Kiçik çillə – qışın ikinci ayının axırıncı 20 günü
Kifsimək – kif atmaq
Kiriş – qoyun və keçi bağırsaqlarından hazırlanan bağ
Kirkid – xalça, kilim, palaz toxuyarkən işlənən dəmir alət
Kirkirə – əl dəyirmanı
Köbal (Köbəl) – zəncirə keçən həlqə
Kökləmək – 1. Sırımaq (dərzilikdə); 2. musiqi alətini sazlamaq
Körük – ocağa hava vurmaq üçün tulux
Kösöv – ucu yanmış ağac
Köşə – çarıq tikmək üçün ip kimi nazik kəsilən gün; gönün qırağından çıxarılan siyrım
Közəmə – tikmə, çuxur, deşik yeri ip və sapla tikib doldurma
Küflə – hava çəkən, yel çəkən yol
Küləş – xırmana tökülən buğda və arpanın döyülməmiş hissəsi
Külfət – ailə üzvləri
Kürnəş – qoyun-quzunun bir yerə yığılan yeri
Kürsü – qışda evin ortasında qızışmaq üçün qurulmuş taxta alət, kravat
Kürüşnə – balıqların, böcəklərin bir yerə tökdüyü çoxlu yumurta
Küz – quzu saxlanan yer

## Q

Qafsımax//qafsamax – zəbt etmək, ələ keçirmək, mənimsəmək
Qamqalax – odundan, taxtadan qopan xırda parçalar, qırıntılar
Qanıx – qana susamış
Qanıxmaq – qana susamaq
Qanırmax//qanqırmax – burmaq, arxaya əymək
Qantəpər – bitkinin bir növü, soyuqdəymə, sətəlcəm olan vaxt dərman kimi istifadə olunun ot
Qara arpa – arpa növü
Qara yel – 1. şimal tərəfdən əsən külək. 2. işin bəd gətirməsi
Qaraqayış – kotana, cütə qoşulan üç cüt öküzün arxadan ikinci cütlüyü
Qaravəlli//qərəvəlli – məzhəkəli uydurma
Qarayer – məzar, gor, qəbir
Qardaşdıx – toyu olan oğlanın yanında duran şəxs, dost
Qarsımax – dərinin, çörəyin üzünün həddən artıq qızarması, yanması, köpüşməsi.
Qaşqa – alnı ağ tüklü at, inək, öküz
Qatma – ip, kəndir
Qaynana – ərinin anası

Qaynata – ərinin atası
Qavzamax – qaldırmaq
Qavqarmax – qablaşdırmaq
Qazalax // Qazalaq – kəkilli turağay
Qəvrə – bıçağı, baltanı, kərkini, itiləyən alət, yiyə
Qıpıx – gözü çaş, kirpiyini tez – tez vuran
Qıra – yemiş növü, xırda yemiş
Qırxbuğum – dağlarda, yollarda bitən bitki, yol otu, kətə, qutab bişirmək üçün istifadə olunan bitki növü
Qırxlıx – qoyun qırxmaq üçün istifadə olunan alət, uzun qayçı
Qırışmal – dəcəl, şuluqçu, ovraş, nadürüst, alçaq adam
Qıxmıx – samavar qaynatmaq, ocaq yandırmaq üçün doğranmış kiçik odun taxta yeşikləri
Qıtmıx – 1.bir tikə; 2. kəpək növü
Qolay – pis, keyfiyyətsiz, narahat, namünasib
Qoşa – cüt, yanaşı, paralel dayanan adam, əşya
Qora – dəyməmiş turş üzüm
Qorabişirən – yayın orta ayı – 15 iyuldan 15 avqusta qədər olan dövr
Qotaz – qoyunun, dəvənin, keçinin boğazından asılan rəngli ip topası
Qoyunhəngi – musiqi havası, qara zurna ilə qoyun sürüsünü yavaşıtmaq üçün çalınan hava
Qovurma – payız vaxtı qovrulub qış üçün saxlanan ət
Qu kəkliyi – yüksəklikdə, uca qayaların başında məskən salan, insan fışqırığına oxşar səslər çıxaran iri, qarnının altı ağ tüklə örtülmüş, yaxşı yeməli əti olan quş növü
Quba – çöl ördəyinin balası
Qulac – iki qolun arasındakı məsafə
Qulağagirən – cücü növü
Qulunc – bel ağrısı, əzələ ağrısı
Qundax – körpə uşaq, bələklənən uşaq
Qursax – canlıların mədəsində olan bir hissə
Qurut – şordan, qatıqdan qurudulmuş ağartı növü, yemək
Quyruq doğan ay – avqustun ikinci yarısı
Quzey – gün düşməyən yer
Quzuçu – quzu otaran çoban
Quzulamaq – torpağın nəm, yaş olması nəticəsində uçub dağılmışı, dağılıb tökülməsi

## L

Lağar – yekə qarın
Lağarəx – eybəcər, yekə qarın doğulan mal və qoyun balası
Lağım – yer altı yol, oyuq
Lapdan – birdən, qəfildən
Lavaşa – əkin aləti, enli dəmirdən düzəldilən, torpağı yanı üstə çevirən alət; alçanın, almanın lavaş halına salınan turşusu

Lehmə – bataqlıq, çirkli su
Lağərə – yeri iki tərəfli əkmək
Ləj – bədrəftar, tərs, öc
Ləj düşmək – düşmən kəsilmək
Ləmpə – çıraq
Ləms olmaq – süst olmaq
Lətdi – xəstə, çox öskürən
Ləvərə – pis, qaydasından iri, böyük
Ləvin – cürbəcür
Licim – görünüş, sir-sifət
Liləmar – ılıq.
Lırt – əldən düşmüş, boş, zəif, tənbəl, tör-töküntü
Lomba – parça, koma
Lopa – parça-parça, yumru
Löhmə – palçıqlı yer
Lül – tamamilə, büsbütün

**M**

Mac – kotanın, cütün, xışın dəstəyi
Mağıl – heç olmazsa, yaxşı ki
Mağmın – yazıq, fağır
Majğal – majtutan
Mama – bibi
Mansıra – mühasirə
Marığ – pusqu
Marığa durmaq – pusquda durmaq
Matah – nadir tapılan, qıt
Maya – 1. dırnağın dibi; 2. xəmirə vurulan acı xamra; 3. yeni doğmuş inəyin ilk südü; 4. qatıq hazırlamaq üçün südə vurulan azca qatıq; 5. pendir hazırlamaq üçün ılıq südə vurulan maddə.
Mayıf – şikəst, kor
Mavri – pişik balası
Maz – arabanın təkərlər keçən oxu
Meyxoş – turşməzə
Məfrağ – zəif, xarab olmuş
Mələfə – döşək ağı, prostın, uşaq anadan olduğu zaman büküldüyü parça
Mərək – ot, saman saxlanılan yer
Mərəkə – yığıncaq
Mərəndi – taxıl biçmək üçün işlədilən iri oraq yarım dairəvi oraq
Mil – yoğun tir, ağac
Mişov – kisə, torba
Mitil – döşək, yastıq torbası, ağı
Mırıx – dodağı kəsik adam, dodağı örtülməyən, dişi görünən adam
Mırtdanmaq//Mırtıldamaq – mızıldaya-mızıldaya deyinmək, öz-özünə danışmaq

Mısmax – küsmək, pusmaq, güdmək, gizlənmək: dinib danışmamaq
Mısmırığı sallamaq – qaş-qabaq tökmək
Mozalan – milçək növü, iri milçək, bərk sancan həşərat
Muxuru – dairəvi, hündür və iri alacıx, dəyə, keçə ilə örtülən dəyə, iri keçə alaçıq
Muşqurmaq – dodaqları birləşdirib marçıldatmaqla çıxarılan səs

**N**

Naxır – sürü halda olan mal, çoxlu mal yığını
Naxırçı – mal otaran şəxs
Naqqal – çoxdanışan, uzunçu
Nal – 1. dirəklərin altında olan ağac; 2. atın, qatırın, ulağın ayağına vurulan dəmir
Nəcabət – kökü, əsli, nəcabəti
Nənə – 1. ana; 2. ata və ananın anası
Nəs – tərs, uğursuz, pis
Nırğız – xəsis, bədməcaz, söz eşitməz, söz kar etməyən adam
Noxud – dənli bitki növü

**O**

Oylar – doğma, tanış yer, yurd...
Oyma – qadın donu
Oymax – yer, yurdj, ev
Oyux – quyu, dayanın, daşın, dağın, torpağın deyil, mis, qazılmış, genişlənmiş yeri
Ovxar – kərəntinin, baltanın, kərkinin, bıçağın itilənməsi, ovxar verilməsi

**Ö**

Öddək – qorxaq
Ölüvay – aciz
Öpgə – ağ ciyər
Örkən – ulağın, atın, qatırın palanını bərkitmək üçün ipdən hazırlanan əşya
Örüş – mal-qara otlayan yer
Öyəc – üçdən artıq yaşı olan erkək qoyun
Öynə//əvnə – vaxt, malın, qoyunun sağıldığı, ot-alaf verildiyi vaxt

**P**

Pak – təmiz
Papış – 1. heyvanın dırnağı; 2. papaq
Parç – qulplu su qabı, misdən, gümüşdən hazırlanmış su qabı
Pazı – çuğundur, qənd çuğunduru
Pencə – otuz, iyirmi dərz taxıl
Peşqurt – təcili üyüdülən azacıq taxıl, taxılın ilk məhsulu
Pezi – yekə, iri, böyük, yöndəmsiz, kobud, qanacaqsız, qorxmaz, güclü
Pəl vurmax – mane olmaq

Pələ – yanlara doğru əyilmiş buynuzlar
Pəndəm olmax – qəbiz olmaq, düz bağırsağın tutulması
Pər – dəyirmanda su üstünə tökülən daşı fırladan ağac
Pərdi – tavan, dam üzərinə qoyulan ağac, şalban
Pərinc – dənli bitki növü
Pəriş//pərinc – arpayaoxşar dənli bitki
Pərsəng – tərəzini tarazlamaq üçün işlənən əşya
Pərşum – qabaqcadan şumlanmış yer
Pişik quyruğu – buğdanın, arpanın içində bitən darıya oxşar alaq otu, "çılpaq buğda" növü
Posdal – 1. boğazlı, kobud çəkmə; 2. yüngül ayaqqabı, çust
Pota – kök, dolu
Pörşələmək – isti su vasitəsilə əşyanı ütmək, yandırmaq
Pülük – sünnət dərisi
Püstəqarın – azyeyən

## S

Sacayağı – üstünə qazan qoymaq üçün dəmirdən hazırlanmış üçayaqlı dayaq
Sağır – yetim, sahibsiz
Sal – 1. qəbir üstündə qoyulan baş daşı; 2. yastı daş
Saldat pulu//vergi pulu – əsgərliyə, hərbi xidmətə getməmək üçün verilən vergi
Saman – xırmanda döyülmüş arpa və buğda küləşinin xırda hissəsi
Sambağı (Səmbəği) – öküzün boynundakı iki samını bir-birinə bağlayan ip
Sami – boyunduruğun üst ağacı, boyunduruğa salınan ağac
Sapılca – qulplu tava
Savırıx – xırmanda döyülmüş dəni yelə verib samandan ayırma
Savlamax – alətlərin ağzını itiləmək
Saya – adi, sadə
Sayıl – dilənçi, qapı-qapı gəzib kömək diləmək
Sazax – soyuq hava, sərt külək
Selov – dərə, çaybasar, sel yuyan yer
Sədəf – 1. dırnaq; 2. düymə növü
Səhlav – bitki növü
Səjin – çin-çin, üst-üstə hörülən ot, taxıl, odun
Səkil –atın ayağında ağ rəngli tük
Səllim – boş, işsiz istifadəsiz
Sənək – misdən qayrılmış qulplu su qabı
Səpəng – ipdən toxunmuş içində daş qoyulub atan uzun qollu əşya
Sərnic – süd sağmaq və qatıq çalmaq üçün iki qulplu saxsı və ya mis qab
Səy – dəli, kəmağıl
Sidr kafır – insan öləndən sonra meyitin üzərinə səpilən dərman
Silə – dolu, ağızbağız
Sini – 1. iri yastı boşqab; 2. dəyirmi mis padnos
Sivişquliya dəm vermək – qaçmaq, əkilmək, aradan çıxmaq
Sırnı – arabanın təkərlərinin keçirildiyi dəmir parça

Sırnış – kotanın torpaq və palçığını təmizləyən ağac
Sortux – pencək
Sotux – bir əmək gününün yüzdə biri
Sulu yer – sulamaq mümkün olan yer
Sulux – 1. su çox olan yer; 2. əlin, bədənin dərisinin köpməsi
Südəcər//südəjər – hər il dalbadal, ildə biri doğulan uşaq
Süysün – boyun

## Ş

Şadara – taxılı ələmək üçün alət; iri gözlü xəlbir
Şaqqıldaq – qoyun quyruğu altındakı tüklərə yapışıb qurumuş peyin
Şamlıq – çox otlu yer
Şapalax – sillə
Şahad – dəyirmanda taxıl üyüdən zaman dəyirman haqqı olaraq verilən taxıl, un
Şil – əlləri, ayaqları iflic olmuş adam
Şişək – 2 yaşlı doğmamış qoyun
Şitəngi – dəcəl, adamı incidən, nadinc
Şitənmək – şuluq salmaq, dəcəllik etmək
Şıntır – köhnə paltar, tör – töküntü
Şırram – navalça, novdan, su tökülmək üçün hazırlanan alət
Şumal – hamar, şumşad
Şürə – talan
Şüvən – ağlaşma

## T

Tab – taqət, dözüm
Tağ – qarpız, xiyar qovun və s qanadı; sütun, divar, dirək
Tapan – əkin yerini, torpağı yumşaltmaq üçün istifadə edilən kənd təsərrüfatı aləti, dırmıq
Tapqır – atın yəhərinin bir hissəsi, qarınaltısı, qəyiş növü
Tar – 1. toyuq yatan ağac, yer; 2. qar uçqunu, qar sürüşməsi; dərəyə toplanmış qar yığını
Tarp – kiçik təpə
Tavlamax – 1. aldatmaq; 2. qovurmaq; 3. ipi əyirmək; 4. hərləmək, fırlamaq
Taya – bir yerə toplanan ot yığını
Tel – 1. Sap; 2. baş tükü
Ter – iri heybə, iri xurcun
Təhnə – ağacdan hazırlanmış qab, çörək qabı, taxıl qabı, daşdan ovulmuş böyük qab, tabaq
Təlbə – qabal, musiqi aləti
Təng – döngə, dalan
Tənzif – nazik ağ parça, cuna
Təpəl – heyvanın alnında olan "ağ tük" mənasındadır
Təpilmək – soxulmaq, girmək, dürtülmək
Tərrik – yəhərin altından atın belinə salınan yun örtük, keçə

Təs – atın zibili, atın peyini
Tilişkə – 1. doğranan ağacdan, taxtadan, odundan çıxan kiçik, nazik parçalar; 2. barmağa batan taxta parçası
Tir – damın evin üstünə atılan, qoyulan böyük, uzun və yoğun ağac
Tirə – qohum, əqraba
Tığ dənli bitki yığını – 1. xırmanda döyülüb yığılmış ot; 2. sovrulmaq üçün xırmana yığılan döyülmüş həşən (heşən)
Tığ vurmaq – qalaq vurmaq, üst-üstə yığmaq, bir yerə toplamaq
Tıxac – təndirin külfəsinin, tövlənin bacasının ağzına taxılan yasdıq, əşya
Tovlamaq – 1. aldatmaq; 2. sapı əyirmək, ipi hamarlamaq; 3. qarışdırmaq
Töycü – vergi növü
Tuş – 1. yuxu; 2. üz-üzə, eyni istiqamətdə
Tutma – 1. Torpaqda basdırılan ağacın göyərməsi; 2. xiyar növü
Tülü – hiyləgər, oğru, cibgir, əqidəsi məlum olmayan.
Türə içi – 8 kq tutan qabın içi.
Tüstü pulu – hər evə, hər ailəyə qoyulan vergi, naloq.
Tütyə – 1. az tapılan, nadir tapılan, əldə edilməsi mümkün olmayan.

U

Unnux – taxtadan düzələn və çoxlu un tutan yeşik.
Urvat – hörmət.
Urya – çörək bişirilərkən onun üzərinə səpilən un.
Uşağı – ailə, nəsil.

Ü

Üçəm – qoyunun üç quzu doğması
Ün – səs
Üşənmək – qorxmaq, qorxunu hiss etmək, təhlükəni hiss etmək
Üzbəsurət – üzüzə, qarşı-qarşıya, qabaqqabağa

V

Vam – bir qayda ilə, az isti ilə, az hərarətlə
Vayğa – yuxu
Vayıs – araqarışdıran, söz gəzdirən, pislik eləməyə çalışan
Vələmir – yulaf
Vəng – abidə, daşdan tikilən abidə, daimi abidə, tükənməyən abidə, möhkəm abidə
Vər – sıra, əkində cərgələrin arası
Vərbəvər – tədricən, sıra-sıra, bir-birinin ardınca
Vərgal – var gəl, get gəl, gəzişmə

Y

Yabı – erkək at, tənbəl erkək at
Yağır – sürtünmə nəticəsində əmələ gələn yara, üstü açılmış, dərisi getmiş yara
Yağır olmaq – yorulmaq, çox işləmək, əldən düşmək
Yağlıqara – cındır ilə, əysi ilə yağ və baldan hazırlanan məlhəm

Yal – at, it və ya maldan ötrü undan, kəpəkdən və digər yeyinti növlərindən hazırlanmış duru yemək

Yal – atın boynunda olan uzun tüklər

Yal – dikin, yoxuşun başı, dağ, təpə

Yalax – çökək yer, yal tökülən yer

Yanpörtü – əyri, yanı üstə

Yapağı – yazda qırxılan yun

Yappa – divara, daşa yapışdırılmış təzək, mal zibili

Yarğan – dərə, qobu, uçurum yer

Yarım put – ağacdan qayırılan//hazırlanan çəki vahidi

Yarpız – su içində və su kənarında bitən tərəvəz, nanəyə oxşayan ot

Yaşmax – üzü gizlətmək üçün örtük

Yatax – çöldə qoyun, mal, at dəvə saxlanılan yer, heyvan yatağı

Yatar – dövlət, qızıl-gümüş, pul

Yavannıx – pendir, yağ, qovurma növündən az-az istifadə etmək, az istifadə olunan yemək növü

Yazı – çöl, səhra, düzənlik

Yeznə – kürəkən

Yelin – heyvan əmcəyi

Yengə – 1. toy vaxtı qız evindən gəlinlə gedən qadın; 2. qardaş arvadı, dayı arvadı, əmi arvadı

Yemlik – yeyilən yabanı bitki

Yük – yorğan döşək yığmaq üçün divarda ayrılmış yer, yığılmış yorğan-döşək

## Z

Zağa – mağara, kaha, daşın, qayanın böyük oyuğu

Zəllə – xəsis, çox xəsis

Zənqun//Zəqqum – çox acı

Zəyərək (Zəyərəx) – bitki növü, darıya, xırda ləpəyə, mərciməyə, oxşayan dənli bitki

Zir – 1. nəlbəki; 2. yerlərin içindən suyun axması üçün kotanla, cütlə çəkilən cızıq

Zındıx – lap qara, qapqara

Zır – qaba, kobud, qanmaz

Zırı – yekə, böyük, qüvvətli, pəzəvəng

Zırpı – yekə, normadan artıq, böyük, qüvvətli, güclü və s.

Zırrama – qanacaqsız, mədəniyyətsiz, etika qaydalarını bilməyən, kor-kobud, dünyadan xəbəri olmayan

Zoddu – qüvvətli, güclü, yekəxana, özünü yüksək tutan və s.

Zol – hissə, şırım, mal, camış, at gönlərinin hissə-hissə, uzununa kəsilmiş, bölünmüş gön, dəri

Zolax – 1. qamçı yeri; 2. əkin yerinin, biçənəyin, otlağın, meşəliyin müəyyən bir hissəsi

Zülü getmək – əldən düşmək, ardı-arası kəsilmədən gülüb yorulmaq, sinov getmək; hədsiz dərəcədə istəmək

# V FƏSİL

## AŞIQ, ŞAİR VƏ ŞAİRTƏBİƏTLİ ADAMLARIN ŞERLƏRİNDƏ DƏRƏLƏYƏZİN, VƏTƏN, YURD HƏSRƏTİNİN TƏRƏNNÜMÜ

### *AŞIQ CƏLİL*

Məşhur "Cəlili" havasının ("Baş Cəlili", "Orta Cəlili", "Ayaq Cəlili") müəllifi Aşıq Cəlil 1850-ci ildə (təqribən) Dərələyəz mahalının Sallı kəndində anadan olmuşdur. Sallı kəndi Dərələyəzdə aşıq və şair məskəni kimi də tanınır. Burada Aşıq Cəlil, şair Təhməz, Dəllək Xələf, Aşıq Əsəd, şair Alhüseyn, şair Ağamməd, şair Rzaqulu, Aşıq Qulu, Aşıq Bəhmən, Aşıq Mirzalı, şair Rəhman kimi saz-söz xiridarları yetişmişdir.

Yaşlı adamların dediyinə görə Dərələyəzdən və Azərbaycanın bir çox bölgələrindən, həmçinin başqa ölkələrdən gələn şair və aşıqlar (Ağ Aşıq, Aşıq Alı, Aşıq Ələsgər, Abdal Gülablı Aşıq Valeh, Aşıq Nəcəf və başqaları) həmişə Sallıda ayaq saxlayar, saz-söz məclisində iştirak edər və sonra gedərmişlər.

Aşıq Cəlil 1918-ci il erməni-müsəlman davasından sonra Şərur rayonunun Dizə kəndində yaşamışdır. Aşıq Cəlilin ilk ustadı Cənubi Azərbaycandan olan Aşıq Abbas olmuşdur (1866-1867). Sonrakı dövrlərdə Aşıq Alının yanına da gedib ondan aşıq sənətinə aid çox şey öyrənmişdir. Lakin onun ən böyük ustadı və həmkarı Aşıq Ələsgər olmuşdur. "Cəlili" havasını da ona Aşıq Ələsgər vermişdir. Əhvalat belə olmuşdur: Göyçənin Çaxırlı kəndində Böyük Bəyin bacısı oğlunun toyu imiş. Bu toyu Aşıq Ələsgərlə Aşıq Cəlil aparırmış. Gecə məclisdə Aşıq Cəlil bir saz havasının üstündə məlahətli səslə oxuyur və oxuduğu bu saz havasına çoxlu xallar əlavə edir. Bu xallar saz havasını qismən yeni bir havaya çevirir. Ələsgər məclisdə deyir ki, ey Göyçə camaatı. Sözdə, hikmətdə biz irəlidəyik, səsdə, saz havalarının ifasında isə Dərələyəz irəlidədir. Bu havanı Cəlil qədər oxuyan və ona yeni-yeni xallar vuran 2-ci adam tanımıram. Qoy bu hava Aşıq Cəlilin nəməri olsun. Deyəsən onun nəməri mənim nəmərimdən yaxşı oldu. Bu əhvalatı mənə Cəlili, Ələsgəri görən, onların məclislərində iştirak edən, 1889-cu il təvəllüdlü atam İbrahim Mirzəli oğlu danışmışdır. Atamın dediyinə görə Aşıq Cəlil ucaboylu, yaraşıqlı, cəsur, hörmətli bir adam olmuşdur. O, Dərələyəzin Ələyəz kəndində məclisdə (gecə) "Misri" havasında oxuyanda nəfəsi lampanı söndürmüşdür. Aşıqların söylədiyinə görə "Cəlili" və "Naxçıvani" havacatını da Aşıq Cəlil yaratmışdır.

## HARDASAN

Üzülübdür doğma yurddan ayağım,
Gecələr zülmətdir, sönüb çırağım.
Alınmaz səngərim, arxam, dayağım,
Dilim, ağzım, söhbət-sözüm hardasan?

Soruşmursan dost-tanışdan hardayam?
Sağım yağı, solum düşmən dardayam.
Dörd bir yanım dəmir qəfəs tordayam,
Yetiş dada, canım-gözüm hardasan?

Yapon bu yerlərdə meydan sulayır,
Nijde belimizdə ocaq qalayır,
Yurdumda, yuvamda bayquş ulayır,
Sönür od-ocağım, gözüm hardasan?

Kafir süngüsünə keçir qız-oğlan,
Arpa qayasından qan süzülür, qan!
Qalmadı mahalda ər sənə qurban,
Şəhid olur, oğlum-qızım hardasan?

Civə, Sallı, Ərgəz oda qalandı,
Leyliqaçan, Bülbülölən talandı.
Arpa qan ağladı, sular bulandı,
Açılmaz baharım, yazım, hardasan?

Kəsdilər yağılar bərəni-bəndi,
Odlara qalandı Əmağu kəndi
Bütün Dərələyəz ağlayır indi
Bu dərdə mən necə dözüm, hardasan?

Cəlil deyər gözlərimiz qan ağlar,
Viran oldu abidələr, saraylar,
Sinəm üstə gecə-gündüz haraylar
Xan Abbasım, telli sazım hardasan?

*1918*

## BİLMƏRƏM

Dedilər: Çatginən şana-şöhrətə,
Dedim: Çatmamışam, çata bilmərəm.
Dedilər: Ləzzət var arsız ömürdə
Dedim: Görməmişəm, görə bilmərəm.

Dedilər: Sağlam gör görcək hər kəsi
Dedim: Təbiblərlə etmərəm bəhsi.
Dedilər: Cənnətdir namərd kölgəsi
Dedim: Yatmamışam, yata bilmərəm.

Dedilər: Ay Cəlil, gəl eyləmə naz
Dedim: Rüzigara ərkim var bir az.
Dedilər: Mənliyin satmasan olmaz
Dedim: Satmamışam, sata bilmərəm.

## OLAR

Əqlində olmasa ixtiyar iblis,
Sövdada düşmannan bitişmək olar.
Olsa ləyaqətin insanlığa xas
Fələynən, pələynən öpüşmək olar.

Xəstə sağalarmı ağı olmasa,
İgid seçilərmi yağı olmasa
Sinəndə qohumun dağı olmasa,
Qaçarda ceyrannan ötüşmək olar.

Bilərsən qiymətin incinin, zərin,
Əgər elmin olsa dərindən, dərin,
O Şah Süleymanın, o peyğəmbərin
Taxtına, tacına yetişmək olar.

Cəlilin dilində, qəlbində allah
Keçər günahından, keçər şahənşah.
Böyük ustadlardan dərs alıb vallah,
Ustadlıq adına yetişmək olar.

## ÜZ OLA
## (cığalı təcnis)

Yetən məni kari görür, lal sayır,
Nə var danışmağa hər söz üz ola
Aşıq deyər üz ola,
Gər münasib üz ola.
Sənə çiynində çinin,
Mənə tanrım üz ola.
Qovuşuqla Ələyəz kəndinin arasında Güneyvəng adlanan kənddə karvan əsas yoldan çıxıb dağın döşü ilə, qoz (cəviz) ağaclarının içərisi, sıldırım qayaların dibi ilə Ələyəz kəndinin ərazisinə çatır və burada bir yastanada dayanıb Nəbigili gözləyirlər. Nəbi kazakları geri qayıtmağa məcbur edir və ovçu İsmayıl Nəbinin döyüşən dəstəsini Abduləsədlə vədələşdiyi yerə, Həcərin dayandığı yerə gətirir.

Nəbi burada ovçu İsmayıla bir tüfəng bağışlayır və Hərcərlə birlikdə bir böyük xurcun qəndi bölüb bunları müşayiət edən adamlara paylayır. "Nəbi qənd bölən", "Qəndbölən" toponimi belə yaranır. Bu toponim və bunun əhatə etdiyi ərazi Dərələyəz mahalında yaşamış uşaqların da dilində əzbərdir.

Nəbinin dəstəsi burada bir qədər dincəldikdən sonra Qovuşuq, Nəbilər və Güneyvəng kəndindən gələn adamların hamısını Nəbi geri qaytarır. Abduləsəd isə Nəbinin dəstəsi ilə birlikdə irəliləməyə başlayır. Ələyəz kəndinin və Salsal qalasının üstündən keçən Güney yolu ilə gedib Abduləsədin bibisi (Qızxanım) yaşayan Horbadıq kəndinə yaxınlaşırlar. Bələdçilik edən Abduləsəd kişi deyir ki, gedək kənddə bibimgildə (mamam gildə) daldalanaq. Lakin Nəbi bu fikirlə razılaşmır və deyir ki, orada bizi tuta bilərlər. Kənd kənarındakı qayalıq və meşəlikdə qalsaq yaxşıdır. Gündüz həmin qayalıq və meşəlikdə qalıb, axşam düşən kimi yola düşürlər.

Abdüləsəd bunları dağ yolları ilə Arazın kənarındakı "Arazdəyən" adlı yerə qədər müşayiət edir. Nəbi Araz çayını görən kimi Abduləsədə deyir ki, daha sən qayıt. Bundan sonra bir ordu da gəlsə məni tuta bilməz. Nəbi, Həcər və bunların yoldaşları Abduləsədlə görüşüb ona öz razılıqlarını bildirir və ayrılırlar.

Yeri gəlmişkən burada bir təzadlı məsələni də demək istəyirəm. Abduləsəd mənim atam İbrahim Mirzəli oğlunun doğma əmisidir. Abduləsəd Nəbiyə kömək etdiyi halda, anamın doğma əmisi Hacıələkbər kişi isə çar kazakları tərəfində Nəbiyə qarşı vuruşurmuş. Çar hökuməti bu dövrdə varlı adamları Nəbiyə qarşı vuruşmağa məcbur edirdi. Maraqlı odur ki, bu döyüşdə Hacıələkbər kişinin dabanına güllə dəyir və həmin güllədən o şikəst vəziyyətinə düşür. Hacıələkbər kişi mənim yadıma gəlir. Boyca balaca olan bu kişi həmişə ayağını çəkər və axsıyardı.

Deməli, atamın əmisi Nəbiyə kömək etmiş, anamın əmisi isə ona qarşı vuruşmuşdur. Gör çar Rusiyası xalqı necə parçalayırdı.

## CANILI CƏLAL BƏYLƏ QAÇAQ NƏBİNİN QARŞILAŞMASI

Bu hadisəni mənə Dərələyəzin ağsaqqalı, 93 il yaşamış, mahalda canlı ensiklopediya kimi tanınan İbrahim Mirzəli oğlu danışmışdır.

Calalbəy Dərələyəzin Canı kəndindəndir.[1] Calalbəy ucaboylu, ucasəsli, qorxmaz, sərrast güllə atan, varlı bir adam olmuşdur. Çar hökuməti Qaçaq Nəbini tutmaq üçün o zaman Calal bəydən də istifadə etmək istəyirdi.

Yay günlərinin birində çar məmurları Dərələyəzin varlı adamlarını Gendərə adlı kəndə yığıb deyir ki, siz Qaçaq Nəbini tutmağa kömək etməlisiniz. Bura yığılanlar kəndin kənarındakı çəmənlikdə oturub çörək yeyirlərmiş. Elə bu anda Calal bəy gəlir. Ona oturmağı təklif edirlər. O oturmur və əl atıb soyutma bişirilmiş quzunun budunu ayaq üstə yeməyə başlıyır. Koburnat bunun uca boyuna və yeməyinə baxıb deyir ki, Nəbini sən tuta bilərsən. Cəlal bəy cavab verir ki, Nəbini tutmaq asan deyil. Əgər asandırsa, bəs nə üçün indiyə qədər onu tuta bilmirsiniz.

Nəhayət, koburnatla pristav bölgü aparır və Calalbəyi Bazarçayla Sarıyer arasında Nəbinin köçəcəyi güman edilən yerə göndərirlər. Bir qədər keçəndən sonra koburnat Calalbəyə xəbər göndərir ki, Nəbi sən olan tərəfə doğru hərəkət edir. Bir az sonra Calalbəy görür ki, Nəbinin dəstəsi gəlir.

Calal bəy öz dəstəsinə deyir ki, mənim göstərişim olmadan heç kim güllə atmasın. Nəbi kimi qeyrətli adama güllə atmaq olmaz. Calalbəy səngərdə qışqırıb Nəbiyə deyir ki, qabağa gəlmə, qabağa gəlsən səni vuracağam. Sən başqa yolla get. Əgər mən səni bu yoldan buraxsam koburnat məni cəzalandıracaq. Onlar məni tutmaq üçün bəhanə axtarırlar.

Bu zaman Nəbinin dəstəsindən kimsə atəş açır. Calalbəy atəşə atəşlə cavab verir. Hər iki tərəfin adamları səngərə sığınır. Nəbi bunları çaşdırmaq üçün iki boş papağı ağaca taxıb müxtəlif yerlərdən yuxarı qaldırır. Calal bəy sərrast atəşlə bunların hər ikisini vurur. Nəbi uca səslə deyir ki, ə, sən kimsən belə sərrast güllə atırsan? Calal bəy deyir ki, sən Nəbisənsə, mən də Calal bəyəm. Nəbi səngərdən cavab verir ki, mən sənin adını eşitmişəm. Deyirlər ki, sən çox cəsur və mərd adamsan. Lakin mən bunu səndə görmürəm. Məgər igid də eyni məqsəd uğrunda vuruşan igidə güllə atar? Onu tutub rus kazaklarına vermək istəyər? Sən görmürsən ki, Həcər yanımdadır? Türk oğlu da qadına güllə atar?

Calal bəy səngərdən cavab verir ki, mən bu dar keçiddən səni buraxsam koburnat mənə inanmaz. Onlar çoxdandır ki, məndən şübhələniblər, bəlkə məni yoxlamaq və ya sıradan çıxarmaq istəyirlər?

Bir neçə dəqiqədən sonra Nəbi ona deyir ki, sən düz deyirsən. Onda mən yük atlarından ikisini qoyuram burada. Sən de ki, onlar çox idi, qaçıb aradan çıxdılar. Mən onları gülləboran edəndə bu iki yük atını apara bilmədilər. Siz

---------------------

1. Canı kəndi dəniz səviyyəsindən 200 metr yüksəklikdə, Gülüdüz, Qabaxlı, Gədikvəng (Qoduxvəng) kəndlərinin əhatəsində yerləşir.

güllə atmayın, qoyun biz uzaqlaşaq, ondan sonra gülləni yağış kimi yağdırın, hay-küy salın ki, kazaklar sizə inansınlar. Dost kimi görüşümüz qalsın sonraya. Cəlal bəylə Nəbi belə də edirlər.

Bu zaman koburnatla pristavın dəstəsi gəlib çıxır. Calal bəy onları qabaqlayıb qışqırır ki, nə üçün mənim köməyimə gəlmədiniz. Onlar bizdən çox idilər, göz açmağa imkan vermirdilər. Mən onları xeyli qovdum, yüklü atları çəkib aparmağa imkan vermədim, deyəsən yaralıları da oldu. Ancaq nə edim, gücüm çatmadı.

Lakin kazaklar Calal bəydən şübhələnərək deyirlər ki, sən möhkəm dursaydın onlar bu dar keçiddən keçə bilməzdilər. Bundan sonra Calal bəy xeyli müddət koburnatın, pristavın gözünə görünmür və camaata deyir: mən Nəbi kimi ər oğlu ərə, Həcər kimi qeyrət qalasına güllə atsa idim, gərək bu çal buxara papağı başımda gəzdirməyəydim.

Calal bəyi 1905-ci ildə Dərələyəzin Hors kəndində, erməni-müsəlman davasında xəyanət yolu ilə, qalağın içinə girib güllə ilə arxadan vururlar.

Canılı, 69 yaşlı Qafar Gülmalıyevin dediyinə görə Calal bəyin nəvəsi (Şirin) hal-hazırda Şərurun Məmmədsabır kəndində yaşayır. O biri iki nəvəsi isə (Camal və Heydər) rəhmətə getmişdir.

## ŞABAZ OĞLU CALAL "QANLI DƏRƏ"NİN QİSASINI "BƏRK DƏRƏ"DƏ ALDI

1918-ci il erməni-müsəlman davasında ermənilər, Göyçədə bir neçə kəndin camaatını yığıb Kəlbəcər tərəfə aparır və orada "Sümüklü Dərə", "Qanlı dərə" adı ilə məşhur olan bir yerdə qırırlar. Bu xəbər hər yerə, o cümlədən Dərələyəzə də yayılır. Gülüdüzlü Şabaz oğlu Calal öz dəstəsini yığıb deyir: "Biz bu qanı yerdə qoymamalıyıq. O, öz cəngavər dəstəsi ilə Göyçə tərəfə aşır və al (aldatma) yolu ilə ermənilərin böyük bir dəstəsini (82 nəfərini) arxasınca Dərələyəz tərəfə gətirir. Dikpilləkənin Dərələyəz üzündə, "Bərkdərə" deyilən yerdə onları mühasirəyə salır, "qırır" və Göyçə camaatına xəbər göndərir ki, "Qanlıdərə"nin qisasını “Bərkdərə“də aldım. 72 nəfər azərbaycanlının qisasını 82 nəfər ermənidən aldım".

Ermənilərin başqa dəstələri bu xəbəri və Calalın adını eşidən kimi həmin yerlərdən uzaqlaşırlar.

## SAL-SAL QALASININ ALTINDA, HOSDUN KƏNDİNDƏ 4 NƏFƏR AZƏRBAYCANLININ 4 BÖYÜK ERMƏNİ DƏSTƏSİNİ QOVMASI

Ələyəz dərəsində olan kəndlərin əhalisi 1918-ci il erməni-müsəlman davasında Andranikin dəstələrinə qarşı vuruşarkən axşam şər qarışan zaman Hosdun kəndində 6 nəfər azərbaycanlı mühasirəyə düşür. Gülüdüzlü Şabaz oğlu Calal, Qabaxlı ovçu Qəhrəman, Ərgəzli Mirsəqulu (Şahmalı Kürd oğlunun ata-

sı), Güneyvəngli Fatan oğlu Şirin, Ələyəzli Qaçaq Talıb, Qovuşuqlu Sarı Musa, Nurməmməd oğlu Əli və bu kimi bir çox cəsur adamlar hərə bir dəstənin başında Sarıburun deyilən yerdən geri qayıdır və mühasirəni yarmaq üçün irəliləyirlər. Ermənilərin mühasirəsini yarmaq istəyən dəstəyə Gülüdüzlü Şabaz oğlu Calal başçılıq edir.

Səsi çox uca olan Şabaz oğlu Calal, Ərgəzli Mirsəqulu, Ovçu Qəhrəman və Fatan oğlu Şirin hərə bir istiqamətdən erməni silahlı dəstələrinin arxasına keçir, qışqıra-qışqıra deyirlər ki, Mirzəli oğlu möhkəm durun gəlirik. Şabaz oğlu Calalın adını və digər igidlərin nərəsini eşidən ermənilər şok vəziyyətinə düşüb pərən-pərən olur 6 nəfər və bunların başçısı Mirzəli oğlu İbrahim də ölümün pəncəsindən qurtarır.

## AĞ AT ERMƏNİ HİYLƏSİNİ POZDU

Banditizm dövründə Azərbaycanda banditlərlə mübarizə aparan hökumət nümayəndəsinin başçısı Məmmədxan Məmmədxanov yay aylarında Dərələyəzə həmsərhəd olan Sarıyerə, tərəkəmələrin içinə gəlir. Ermənilər (Dərələyəzin hüquq-mühafizə orqanları) onu buradakı azərbaycanlılara qarşı qoymaq məqsədilə ona müraciət edib deyirlər ki, Dərələyəzdə yaşayan azərbaycanlılarda çoxlu silah var, lakin buradakı camaatın ağsaqqalı Mirzəlioğlu İbrahim qoymur ki, camaat o silahları hökumətə təhvil versin. Siz bizə kömək etməsəniz, biz o silahları yığa bilməyəcəyik. Məmmədxanov işə kömək edəcəyinə söz verir.

Bu xəbəri eşidən kimi Dərələyəzin ağsaqqalları, baş bilənləri yığışıb belə bir qərara gəlirlər ki, Məmmədxan Məmmədxanovun yanına bir adam göndərsinlər. Sonra fikirlərini dəyişib deyirlər ki, Məmmədxanova bu məsələni tərəkəmə camaatından nüfuzlu bir adam desə yaxşıdır. Camaat da bu işi İbrahim Mirzəlioğluna həvalə edir. İbrahim Mirzəli oğlu tərəkəmə camaatının tanınıb seçilən adamlarından Məmmədxan Məmmədxanova xəbər göndərir ki, siz ermənilərin hiyləsinə inanmayın, onlar azərbaycanlıların sayılıb-seçilən, qorxmaz, mübariz adamlarını sizin əlinizlə tutub məhv etmək istəyirlər. Əgər imkanınız varsa bizə kömək edin, əgər yoxdursa onda bu işə də qarışmayın. M.Məmmədxanov deyir ki, biz tək-tək adamların sifarişini yox, hökumət nümayəndələrinin xahişini yerinə yetirməliyik.

Qarabağın el ağsaqqalları, tərəkəmə dostları bu xəbəri Mirzəli oğluna çatdırır. Bu zaman tərəkəmə camaatının və Dərələyəzin baş-bilən və cəsur adamları bu aksiyanı pozmaq üçün plan hazırlayırlar. Qərar belə olur ki, M.Məmmədxanovun planını pozmaq və onu şok vəziyyətinə salmaq üçün birinci növbədə onun ağ köhlən atını müəyyən müddət buradan uzaqlaşdırmaq lazımdır. Çünki o öz atından başqa heç bir ata minmir. Dərələyəzdə it hürməyən bir adam (Qovuşuqlu Cabbar Baxşalı oğlu) həmin gün tərəkəmələrin içinə göndərilir və tərəkəmə camaatının köməyi ilə gecə Məmmədxanovun ağ köhlən atı

yəhərli-yüyənli oradan uzaqlaşdırılıb, Qarabağa aparılır. Buna görə də M.Məmmədxanov Dərələyəzə getmir. Lakin o rəhbərliyə məlumatında deyirmiş ki, Dərələyəzli İbrahim Mirzəlioğlu və tərəkəmənin başbilənləri məni atsız qoymasaydılar mən yaylaqda və Dərələyəzdə daha çox iş görərdim. Lakin M.Məmmədxanov sonralar yaxın adamlarına deyirmiş ki, yaxşı oldu mən Dərələyəz camaatı ilə üz-üzə gəlmədim. Dərələyəzlilər yaylaqlarda Qarabağ camaatına çox hörmət edir və onlarla qardaş kimi dolanırlar. Onlar qarabağlıların daimi qonşularıdır.

## DAXİLİ İŞLƏR NAZİRİ XALQIN QƏZƏBİNDƏN QORXUB QAÇDI

Dərələyəzdə ermənilər və ermənilərin polis dəstələri 1935-ci ilin yayında (yayın axırlarında) çox qorxduğu iki nəfəri (Qovuşuqlu qaçaq Usubu və qaçaq Mahmudpaşanı) yatdığı yerdə Dəmirtəpə yaylağında çınqılın içində güllələmişdilər. Camaat gedib meyidləri kəndə gətirdi. Bütün Dərələyəz eli bura yığılmışdı. Hər iki meyid kəndin mərkəzi sayılan meydanda, məktəbin yanında, qoz ağaclarının altında qoyulmuşdu. Dərələyəz eli bərk qəzəblənmişdi, çünki 100-ə yaxın polis işçiləri bu qaçaqları diri də tuta bilərdilər. Lakin onları yatdığı yerdə güllələmişdilər.

Qaçaqların güllələnməsinə respublikanın daxili işlər naziri Dülqaryan başçılıq edirdi.

Dülqaryan camaatın içində deyil, sovet sədrinin otağında oturmuşdu. Mirzəlioğlu İbrahim burada Ermənistanın Daxili işlər naziri Dülqaryanla və rayon polis işçiləri ilə sözləşirdi. O deyirdi ki, siz çox, onlar isə iki nəfər. Özləri də yatmış halda. Nə üçün onları tutmayıb güllələdiniz. Siz millətçilik edirsiniz, azərbaycanlıları qorxudub buradan qaçırtmaq istəyirsiniz...

Daxili işlər naziri İbrahimin üstünə qışqırdı və onun üstünə cumdu. Mirzəli oğlu cəld əlindəki qamçının ağacı ilə Dülqaryanı vurdu və gözünün altını qaraltdı. Camaat haya yığışanda bunlar atlarını minib kənddən qaçdılar. Bu iş mənim gözümün qabağında baş verdi. Mən onda uşaq idim. Atamın yanında durub qışqırır və qohumları köməyə çağırırdım.

Bu hadisədən ay yarım sonra (ölənlərin qırxı çıxan günü) rayonun KQB-si və polisi gecə evimizə gəlib İbrahimi (atamı) apardılar rayona. O bizimlə görüşdü və Mirzəli babama dedi ki, qorxmayın,mənə heç nə edə bilməzlər.

5 il Sibirdə (Omsk, Tomsk, Ulan-Ude, Baykalda...) onu millətçi adı altında yatırtdılar və 1940-cı ildə onu azad etdilər. Dakin Dərələyəzə qayıtmağı ona qadağan etdilər. Odur ki, o, 1940-1953-cü illər arası, əsasən, Qarabağ, Gəncə və Naxçıvanda yaşamalı oldu. Dərələyəzdəki azərbaycanlıları müti şəkildə saxlamaq və Dərələyəzdən çıxartmaq üçün onu öz doğma yurduna buraxmırdılar.

## SALLILI BƏHMAN MUSTAFAYEVİN MARŞAL İ.X.BAĞRAMYANA SƏRT CAVABI

Milliyyətcə erməni olan, Azərbaycanın Şəmkir rayonunda doğulub boya-başa çatan marşal İvan Xristoforoviç Bağramyan 1977-ci ildə Dərələyəzin Yeğeqnadzor rayonuna gedir. Rayonun erməni başçıları bunu böyük bir təmtəraqla qarşılayır və Selim magistral yolunun üstünə yerləşən, tarixən azərbaycanlılara məxsus olub ermənilər tərəfindən xarabalığa çevrilən Aşağı Sallı kəndində Bəhman Mustafayevin saldırdığı alma bağında marşalın şərəfinə böyük bir məclis düzəldirlər. Bu məclisə Sallı kənd sakini, el ağsaqqalı, böyük nüfuz sahibi 50 il kommunist partiyasının üzvü olan, 1926-cı ildən başlayaraq 1949-cu ilə qədər uzun müddət Sallı kəndində sovet və kolxoz sədri işləyən Bəhman Mustafayevi (Aşıq Bəhmanı) də çağırırlar.

Məclisin şirin yerində marşal Bağramyan ermənicə məclisdəkilərə deyir ki, "Darıxmayın, yaxın vaxtda bu yerlərdə bir türk də qalmayacaq. Biz onları buradan qovacağıq".

Bu zaman rayon partiya komitəsinin birinci katibi Samvel Tarverdiyev Bəhmanı göstərib deyir: "İvan Xristoforoviç, Bəhman kişi azərbaycanlıdır, köhnə bolşevikdir. Bu yerlərdə sovet hakimiyyətinin qurulmasında fəal iştirak edib". Baqramyan özünü itirmədən əlini Bəhmanın çiyninə qoyub azərbaycanca deyir: "Qoca, mən zarafat edirəm. Biz qardaşıq. Mən özüm Şəmkir rayonunun Çardaxlı kəndindənəm. Dostluğumuz möhkəmdir".

Erməni dilini mükəmməl bilən Bəhman Mustafayev ayağa qalxır, üzünü rəhbərlərə tutub deyir ki, biz azərbaycanlılar saxta dostluğun yox, həqiqi dostluğun tərəfdarıyıq. Bu sözlərdən sonra o rayon rəhbərliyinin təkidinə baxmayaraq məclisi tərk edir.

Bu hadisədən bir müddət sonra o Azərbaycanın Quba rayonunda polis rəisi işləyən oğlu Rəhman Mustafayevin yanına gəlib bu əhvalatı ona danışır və axırda belə deyir: "Oğul, bizi xilas elə. Bizi qıracaqlar. Bu xına o xınadan deyil. Ermənilər bu dəfə başlasalar çətin ki, Dərələyəzdən bir adam salamat çıxa" (Bax: Rəhman Mustafayev. Düz yaşadım, yaşadım, Bakı, 2001, səh.22-23).

## ERMƏNİ PROKURORUNUN HÜZÜR YERİNDƏN QOVULMASI

1960-cı illərdə Dərələyəzin Qovuşuq kəndinə bir hüzür düşür. Şərurdan Molla Məhəmmədəli adlı şəxs də bu məclisi idarə edirmiş. Birdən rayona yenicə prokuror təyin olunan, əsli Dağlıq Qarabağdan olan, Azərbaycan dilini yaxşı bilən erməni (adı yadımdan çıxıbdır, dodaqları çapıq bir adam idi) məclisə daxil olur və 5-6 dəqiqədən sonra mollaya sataşmağa başlayır. Mollaya deyir ki, siz bu camaatı soyursunuz, durun çıxın gedin Şərura. Buradakı vəzifəli şəxslər (Vəli Zeynalov, Mamed Zülfüqarov, Qəşəm Quliyev, Qafar Gülmalı-

yev, Vəli Cəfərov) pərt olsalar da prokurora bir söz demirlər. Məclisdə oturan adamların hamısı mollanın yanında oturan ağsaqqalın üzünə baxırlar. Bu zaman Dərələyəzin ağsaqqalı İbrahim Mirzəli oğlu prokurora cavab verib deyir ki, ay prokuror bunlar camaatı soymur, camaatı siz soyursunuz, azərbaycanlıları bir-biri ilə savaşdırıb var-yoxlarını əllərindən siz alırsınız. Bu molla hüzurun sonuna qədər burada oturacaqdır. İndi siz tez durun və məclisi tərk edin. Prokuror bu cavabdan çaşıb vəzifəlilərin üzünə baxır. Bu zaman kəndin briqadiri Kazım Məmmədov deyir ki, bu kişi hamının ağsaqqalıdır və onun dedikləri hamımız üçün qanundur. Cavanlar ayağa durmamış tez maşına min və aradan çıx. Prokuror Mirzəlioğlunu hədələyib kənddən çıxır və gedib rayonun başçısı, raykom katibi Hövsepyana şikayət edir. Hövsepyan ona deyir ki, böyük səhvə yol vermisən. Sən bundan sonra daha azərbaycanlı kəndlərinə gedə bilməzsən. Gərək sən gedib o kişi ilə barışasan. Bir gün raykom katibi həmin prokuroru götürüb Qovuşuq kəndinə gəlir. İbrahim Mirzəlioğlunu qapıya çağırtdırıb deyir: İbrahim kişi qonaq istəmirsən? O cavab verir ki, qonaq Allah qonağıdır. Sonra katib əlavə edir ki, bir xoşun gəlməyən adamı da sənin hüzuruna gətirmişəm, keç onun günahından (prokuroru göstərir). İbrahim kişi cavabında deyir: belə adamlar azərbaycanlılar olan rayonlarda işləməməlidir. Günahından keçirəm, amma o bir də azərbaycanlılar yaşayan kəndlərə getməsin, yaxşısı budur ki, başqa prokuror gətirin işləsin.

## GÖYÇƏLİ AŞIQ İMANLA QOVUŞUQLU AXUND ƏLİNİN SÖHBƏTİ VƏ SAZIN QƏLƏBƏSİ

Aşıq İman Göyçənin Ağkilsə kəndindəndir. Aşıq Ələsgərin qardaşı oğludur. Çoxlu qoşmaları, qıfılbəndləri, ustadnamələri və s. vardır. Aşıqların heç biri onunla deyişməyə cəsarət etməzmişlər. Hamı deyərmiş ki, İmana Allah tərəfindən vergi verilmişdir. O, ərşdən-kürşdən, yerdən-göydən, tarixdən, Qurandan, dindən elə söhbət açarmış ki, hamı onun qarşısında aciz qalarmış. İman cavan çağlarında xəstələnmiş, itkin düşmüş, bir daha geri qayıtmamışdır.

Axund Əli Dərələyəzin Qovuşuq kəndindəndir, Hacı Namazalının oğludur (anamın əmisidir). O, İran və Nəcəfdə 20 il ruhani təhsili almış, sonra öz doğma kəndinə qayıdıb burada axundluq etmişdir. Dövrünün çox savadlı ruhanisi olmuşdur. Şərur-Dərələyəz qəzasına rəhbərlik edən qazinin müavinlərindən biridir.

Aşıqİmanla Axund Əlinin qarşılaşmasını mənə həmin söhbətin iştirakçısı olan atam İbrahim Mirzəli oğlu danışmışdır.

Atam deyirdi: Mən Aşıq İmanla ilk dəfə Kəvər qalasında (Göyçədə) tanış olmuşam. Yaxın qohumum və kəndlim Cabbar Baxşalı oğlunu bir erməni ölümü ilə bağlı tutub Kəvər qalasında saxlayırdılar. Onun yanına gedəndə gördüm ki, qohumumu Aşıq Ələsgərin oğlu Bəşirlə bir kamerada saxlayırlar. Aşıq İman da orada idi. Orada qaldığım üç gün müddətində Bəşirlə və Aşıq İmanla yaxından tanış oldum. Çox söhbətlər etdik. Qaçaqaç dövrlərində, 1920-1921-ci

illərdə Xaçbulaq yaylağında Aşıq Ələsgərlə Atam Mirzəli kişinin çadırlarının yanaşı olmasından, burada Aşıq Ələsgərin ağacdan araba təkəri, atamın (Mirzəli kişinin) isə çömçə-qaşıq düzəltməsindən, yaxşı qonşuluq etmələrindən, Təbrizdə uzun müddət ruhani təhsili almış atam Mirzəli kişinin Ələsgərlə şəriətdən apardığı söhbətlərdənsöz açdıq... Burada Bəşirlə, İmanla, əhd-peyman etdik ki, bir-birimizin evinə, Dərələyəzə və Göyçəyə gedək. Əhdimizə qismən əməl etdik. Mən Gülüdüzlü Şahbaz oğlu Firudunla Göyçəyə, Ələsgər ocağına gedərdim.Aşıq Ələsgərin şagirdi Qaraqoyunlu Aşıq Əsədlə də elə burada tanış olmuşdum...

Günlərin bir günü, təxminən yayın axırları mənə dedilər ki, evinizə qonaq gəlib səni axtarır. Evə gələndə gördüm ki, Aşıq İmandır. Qucaqlaşıb öpüşdük. Hər ikimizin gözləri doldu... Sazını da özü ilə gətirmişdi. Bir qədər yornuq və süst görünürdü. Əvvəlki şuxluğu sanki yox idi. Bir qədər söhbətdən sonra sazını istədi və dedi ki, sinəmə bir neçə söz gəlibdi. Onu sənə demək istəyirəm. Evdə yalnız yaxın qohumlarım idi. Əvvəlcə atam Molla Mirzəlidən icazə istədi, sonra sazı sinəsinə basdı. "Qaraçı" və "Qaytarma" havaları üstündə oxudu. Çox yanıqlı oxuyurdu. Oxuduğu sözlərində dindən, şəriətdən, Qurandan söhbət açırdı. Atam Mirzəli kişi dedi ki, ay oğul şəriət sazı qadağan eləyib, amma sənə heç kim qadağa qoya bilməz. Mirzəli kişiAxund Əlinin yanına gedib Aşıq İman haqqında ona da danışır.

Atam İbrahim deyirdi ki, İman bizdə qalırdı. Bir qədər xəstə olduğu üçün mən onu başqa kəndlərə tək getməyə qoymurdum. Hara gedirdimsə onu da özümlə aparırdım.

Kimsə gedib Axund Əliyə deyir ki, bəs İman hər gün İbrahimgildə saz çalıb oxuyur. Molla Mirzəli də ona icazə verir. Səhəri gün Axund Əli bir erkək kəsdirir, İmanı evinə qonaq çağırır. Ona darçınlı, zəncəfilli samovar çayı verir. Şəriətdən söhbət açır, Nə deyirsə İman ona dərhal düzgün cavab verir. İman Ələsgərin, Alının, Qurbaninin, Xəstə Qasımın və başqalarının Allah, peyğəmbər, İmam, din, şəriət və müqəddəs kitablar haqqında söylədikləri kəlamları, qoşmaları, qıfılbəndlərini Axunda sadalayır. Bundan sonra da öz sinəsindən gələnləri deyir.

Bu söhbət düz üç gün çəkir. Axund Əli deyir ki, oğul indiyədək başım dini kitablara o qədər qarışıb ki, mən aşıqlar və saz haqqında yanlış fikirdə olmuşam. Sizin sazla dediyiniz sözlər bizim söhbətlərimizdən daha qüvvətlidir. Camaatı bu yolla daha tez, daha yaxşı başa salmaq, inandırmaq olar. Mən mahalın bir Axundu kimi bundan sonra saz çalmağa qadağa qoymayacağam.

Nahaq yerə saz çalmağı günah hesab etmişik. Şərurda oturan baş qazı mənə cəza versə də fikrimdən dönən deyiləm. Gedin çalın da, oxuyun da. Bunu Göyçənin, Dərələyəzin başqa aşıqlarına da deyin.

Axund Əli İmanı yola salanda deyir: "Oğul Ələsgəri, aşıq sənətini ucaltdın, sən qareyi-quranlar qədər bilirsən, səni doğan anaya halal olsun. Axundun da dilini bağladın, daha nə istəyirsən. Hər gün sənə darçınlı, zəncəfilli çay verə bilərəm. Tez-tez gəl söhbət edək".

Axırda babam Mirzəli kişiyə və atam İbrahimə deyir ki, yaxşı oldu İmanı mənimlə görüşdürdünüz. Biz indiyədək aşıqlar haqqında, saz haqqında çox günaha batmışıq.

Bu minvalla İman düz 28 gün Qovuşuqda bizim evdə qalır. Bu zaman atam 3 günlüyə İrəvana gedir. Oradan qayıdanda görür ki, İman harasa çıxıb gedibdir. Deyirmiş ki, Selimin gədiyindən aşıb Göyçəyə gedəcəyəm.

Aşıq İman haqqında anam iki xatirə danışırdı.

a) Anam deyirdi ki, hər gün səhər-səhər süfrəyə yemək (çay içmək) üçün sərmə qaymaqla bal qoyardım. Hamımız İmana qarşı diqqətli olmağa çalışırdıq. Bir gün nədənsə səhər-səhər qaymaq olmadı. Mən qaymaq əvəzinə süfrəyə qaymağı üstündə olan bərk qoyun qatığı qoydum. İman üzünü İbrahimə tutub dedi: Ə, İbrahim, bizi səhər-səhər ilan vurmayıb ki, bu Əmir Ağanın qızı bizə qatıq verir. Nə bunu nəzmə çəkmək olar. Amma bu dəfə keçirəm...

b) Anam deyirdi ki, İmanın əynində göy (bənövşəyi) rəngdə qalın parçadan ətəkləri gödək palto (yarım palto) var idi. O İbrahimlə harasa gedirdi. Mənə dedi ki, Nahad bacı mənə qara sapla bir iynə ver. Gördüm ki, paltosunun düyməsinin sapı qırılıbdır. Dərhal paltonu əlindən alıb düyməni tikdim. İbrahim Aşıq İmana dedi ki, hə deyəsən Əmir kişinin qızı səndən yaman qorxur. Heç o mənim paltomun düyməsini belə tez tikmir. İman cavab verir ki, həcvdən kafir də qorxur.

## HÜRÜ QARI İLƏ AŞIQ PAŞANIN QARŞILAŞMASI

Bu hadisəni mənə 1889-cu ildə Dərələyəzdə dünyaya gələn, saz-söz sənətini dərindən bilən, aşıqla qarının əhvalatının şahidi olan atam İbrahim Mirzəli oğlu danışmış və mən onu 1975-ci ildə qeyd dəftərçəmə yazmışam. Hadisə aşağıdakı kimidir:

Dərələyəzin Hors kəndindən olan Aşıq Qəhrəmanın ("Qəhrəmanı" havasının müəllifi) Aşıq Paşa adlı bir oğlu olur. Aşıq Paşa Dərələyəz mahalında və buna yaxın bölgələrdə yaxşı oxuması və yaxşı saz çalması ilə məşhur imiş.

Günlərin bir günü Aşıq Paşa Qabaxlı adlı kənddə toy məclisində olur. Bir qədər oxuduqdan sonra qəlyan çəkmək istəyir və baxır ki, tütünü (tənbəkisi) qurtarıbdır. O, məclisdəki papiros çəkənlərə müraciət edir. Hamısı bir ağızdan üzlərini Hürü qarıya tutub zarafat tərzi ilə deyirlər ki, yaxşı tənbəki (tütün) ondadır. Bu zaman məclisdə canlanma yaranır və altdan-altdan gülənlər də olur. Bu eyhamlar səbəbsiz deyilmiş. Hürü qarı öz nəvəsi Tellini Aşıq Paşaya vermək istəyirmiş, Aşıq Paşa isə başqasını sevirmiş. Bu səbəbə görə Hürü qarı Aşıq Paşadan incik imiş.

Məclisdəkilər dilli-dilavər, hazırcavab, şairtəbiətli, tütün əkib-becərməkdə məşhur olan zarafatcıl Hürü qarını danışdırmaq və onun Aşıq Paşaya münasibətini bilmək istəyirlərmiş. Hürü qarı isə incikliyini üzə vurmadan yaxşı tənbəkini aşığa verməyib bəs kimə verəcəyəm deyib ona bir kisə tənbəki gətirir.

Aşıq Paşa qəlyanı doldurub çəkəndən sonra Hürü ona deyir ki, indi bu

məclisdə sənə bir tapmaca deyəcəyəm. Əgər bu tapmacanı açsan sənə üç kirvəngə yaxşı tənbəki verəcəyəm, əgər tapmasan bu məclisdə yığılan pulu mənə verəcəksən. Yerdən də biri replika atır ki, yox əgər tapmacanı aça bilməsən Hürü qarı ilə qohum olarsan.

Nəhayət, xeyli gülüşlərdən sonra Hürü qarı aşağıdakı tapmacanı deyir:

Əzizim müşkül açar,
Müşkülü müşkül açar,
İldə bir, ayda iki,
Həftədə üç gül açar.

Aşıq Paşa nə qədər cəhd edirsə tapmacanı aça bilmir. Hürü qarı zarafatla Aşıq Paşaya sataşmağa başlayır və gülə-gülə deyir ki, indi məclisi apar, sonra cavab verərsən.

Aşıq Paşa günlərin bir günü, yay ayında Qarabağ elatına, Soyuq bulağa toya gedir. Orada buna çoxlu qoyun-quzu bağışlayırlar. Qayıdıb gələndə yolu Qabaxlı kəndindən düşür. Kəndə çatmamış yalın üstündə bu kənddəki dostu Tarverdi adlı kişinin uşaqlarına rast gəlir. Bu arada bir yemiş satana da rast gəlir və yemiş də alıb kəsirlər. Sonra dostları Aşıq Paşaya deyir ki, Hürü səni kənddə biabır edibdir. Tapmacanı açmamısansa bu kənddən getmə. Aşıq Paşa cavab verir ki, sazımı mənə verin. Mən onun cavabını bu saat sazla açmalıyam. Aşıq Paşa ona elə buradaca cavab yazır və kəndə gəlib yolunu Hürü qarının evinin qabağından salır. Hürü arvad bunu görüb deyir: Hə deyəsən tapmacanı açmısan? Cavab verir ki, bəli, açmışam. Hürü qarı deyir ki, vədə verdiyin vaxtdan çox keçibdir. Yəqin bu qoyunları da cərimə gətirmisən. Aşıq Paşa cavab verir ki, bu qoyunların hamısı sənə qurbandır, təki təncbəkini verəsən.

Bundan sonra Aşıq Paşa tapmacanın açmasını deyir:

Bir yemişi alıb kəsdim bu yalda,
İnsaf deyil Paşa qalsın xəyalda,
Dediyin ammanı tapdım bu yolda,
Sən də bil ki, məndə hünər var Hürü!

Telli haqda sən öyrətdin elini,
Mənə çox işlətdin fəndi-felini
Canına qıymaram şirin dilini,
Ya əqrəb dişləsin, ya da mar Hürü!

Yazıq Paşa cavanların mərdidir,
Məni öldürən sən Hürünün dərdidir,
Sən dediyin baramanın qurdudur,
Üç girvəngə tənbəkimi ver, Hürü!

Qoşmanı deyib qurtardıqdan sonra Hürü qarı Aşıq Paşanı evə dəvət edir və kənd camaatına xəbər verir ki, Aşıq Paşa qonağımdır, gəlin bizə. Camaat yı-

ğışır, məclis qurulur. Aşıq Paşa Hürü arvadın dediyi qoşmanı saz üstündə oxuyur. Bu zaman Hürü arvad durub Aşıq Paşanın üzündən öpür və deyir ki, cavabın düzdür. Barama qurdu ildə bir dəfə qoyulur, ayda iki dəfə oyadılır, həftədə üç dəfə yarpaq verilir.

Hürü qarı ayağa durub Aşıq Paşaya tənbəki verir və deyir: Ay Paşa oxumağına, saz çalmağına söz ola bilməz. Amma şerin çox zəifdir. Aşıq Paşa cavab verir ki, ay Hürü, varın verən utanmaz. Biz nəsildə söz yox, saz havası, səs zəngulə güclüdür. Yəqin ki, qoşmanın zəif olmasını da bağışlayarsan.

## DƏRƏLƏYƏZ AĞSAQQALLARININ NƏRİMAN NƏRİMANOVLA GÖRÜŞÜ

1918-1921-ci illər arasında Gəncə, Şəmkir, Goranboy, Tovuz, Ağstafa, Qazax, Tərtər, Yevlaxda olan Dərələyəz qaçqınları özlərinə 9 ağsaqqal seçir ki, qarşıya çıxan problemləri bunlar həll etsin.

1920-ci ildə Nəriman Nərimanov bir neçə hökumət nümayəndəsi ilə Şəmkirə gəlir. Alabaşlı stansiyasında yerli camaat, o cümlədən, bu 9 nəfər Dərələyəz ağsaqqalları da onu qarşılayır. Dərələyəz qaçqınları adından bu 9 nəfər Nəriman Nərimanova deyir ki, bizə kömək edin vətənimizə qayıdaq. N.Nərimanov onlara cavab verir ki, ora indi qayıtsanız bir çox çətinliklərlə qarşılaşacaqsınız. Ermənilər çox hiyləgərdir, daşnaklar da hələ bildiyini eləyir. Onlar sizin öz yerinizə qayıtmağınızı istəmirlər. Bu zaman həmin ağsaqqalın ən cavanı olan İbrahim Mirzəlioğlu bir qədər qabağa çıxıb N.Nərimanova deyir ki, hörmətli Nəriman Nərimanov! Dərələyəz camaatı buradakı istiyə dözə bilmir.Hamısı qızdırır, əlləri qabar, qarınları da acdır. N.Nərimanov buna diqqətlə baxıb deyir ki, cavan oğlan heç sənin əllərində qabar yoxdur axı! İbrahim Mirzəlioğlu utanıb başını aşağı salır və bu zaman ağsaqqallardan biri deyir: Nəriman müəllim, o qaçqınlar üçün işləyir, ona görə də qabar onun əlində yox, dilindədir. N.Nərimanov gülümsəyə-gülümsəyə həmin ağsaqqala deyir ki, görürəm çox dilavərdir, ermənilərlə bacara bilər. Gedin, amma ehtiyatınızı əldən verməyin və onlara inanmayın.

## MƏRKƏZDƏN GƏLMİŞ BAŞÇININ HƏSƏNKƏNDDƏ TƏNDİRƏ SALINMASI

1921-1922-ci illərdə ermənilər qaçqınlıqdan qayıtmış azərbaycanlıların öz kəndlərində məskunlaşmasına mane olurdu. Şovinist ermənilərlə bunların arasında mübahisələr, çəkişmələr qurtarmırdı. Azərbaycanlılar özlərinə kömək axtarırddılar. İrəvandan Dərələyəzə göndərilmiş silahlı dəstənin başçısını, milliyətcə erməni olan Matevos Saqetelyanı ermənilər Həsənkənddə təndirə salıb öldürmək istəyirlər. Azərbaycanlılar erməniləri ifşa etmək üçün onu ölümdən xilas etmək qərarına gəldilər. Qovuşuqlu İbrahim Mirzəlioğlu və Gülüdüzlü

Calaqoğlu Firudun azərbaycanlı kəndlərində 8-10 nəfər tanınan, cəsur, yaxşı güllə atan adamları yığıb deyirlər ki, o başçını xilas etməsək, ermənilər tutmuş olduqları azərbaycanlı evlərindən çıxmayacaqlar. Bunlar atları minib rayon mərkəzinə getmək adı altında həmin kəndin (Həsənkəndin) içindən keçir və yaxşı güllə atanları (Ovçu Qəhrəmanı...) kəndin qırağında qoyub atları həmin başçının təndirə salındığı evə (Muşex adlı erməninin qapısına) sürürlər.

Yaşlı ermənilər cavanlara deyir ki, gələn azərbaycanlıların ağsaqqallarıdır. Onlara güllə atsanız azərbaycanlılar bu kəndin altını üstünə çevirər. İbrahim burada erməniləri diplomatik yolla qorxudub deyir ki, siz hökumətlə hökumətlik edirsiniz? Hökumət sizin hamınızı tutub Sibirə göndərər. Siz indi rayona getməyin, sizi tutarlar. Biz rayona gedirik, həmin başçını verin, biz aparaq. Daşnaqlarla mübarizə üçün İrəvandan Dərələyəzə göndərilmiş həmin adamı təndirdən çıxarıb rayona aparırlar. Rayona çatanda əsgərlər bunları mühasirəyə alıb tutur və döymək istəyirlər. Lakin həmin başçı əsgərlərə əmr edir ki, azərbaycanlılara toxunmayın. Onlar məni ölümdən qurtardılar. Həmin başçı bu hadisədən sonra ermənilərin azərbaycanlıları sıxışdırmasına imkan vermir və həmin adamın vasitəsilə İbrahim Mirzəlioğlu ayrı-ayrı vaxtlarda yüzlərlə azərbaycanlıya kömək edir (bunu bütün Dərələyəz camaatı bilir).

## DƏRƏLƏYƏZ AĞSAQQALININ TƏRƏKƏMƏ AĞSAQQALARININ KÖMƏYİNƏ GETMƏSİ

Dərələyəzin tanınmış ağsaqqalı İbrahim Mirzəlioğlu siyasi məhbusluqdan - Sibirdən qayıtdıqdan sonra ermənilər onu öz vətənində yaşamağa qoymadı. Onu yenidən tutmaq istədikləri üçün o, doğma yurdundan kənarda yaşamalı oldu. 1945-ci ilin yay ayında o, Bərdə rayonunun Qazaxlar və Xəsili kəndinin camaatı ilə birlikdə Dikpilləkən adlanan yaylağa köçmüşdü. Günlərin birində bir atlı gəlib ona dedi ki, İbrahim kişi, Qarabağ camaatının yaylaqda olan ağsaqqalları (Bərdədən Əkbər və Mirzə kişi, Təhlədən Qara Xəlil, Beyləqan və İmişlidən Alpənahlı Talıb kişi, Talıbxanlıdan Pənah və Surxay kişi, Sərxanlıdan Qara Hüseyn və başqaları) yığışıblar Qaraxaça. Orda onlar sizin yolunuzu gözləyirlər, sizinlə işləri var. Mirzəlioğlu Qaraxaç yaylağına gedir. Ağsaqqallar ona deyirlər ki, yaylaqda olan bütün Tərəkəmə ağsaqqallarını, rəhbərlərini Azərbaycan Milli Təhlükəsizlik idarəsinin rəhbəri Yemelyanovun işçisi Ələkbər Abdullayev Kəlbəcərə çağırır. Ondan yaman qorxuruq, bir çox adamları tutubdur. Sən dilli-dilavərsən. Bəlkə sənin şirin söhbətlərin, hikmətli sözlərin onu yumşalda. Ona görə səni bura çağırmışıq. O, getməyə razılıq verir və Tərəkəmə camaatından 20-30 ağsaqqal atlı Kəlbəcərə - Ələkbər Abdullayevin yanına gedirlər. Ələkbər Abdullayev bu qədər atlını görüb hirslənir, bunlara heç atdan düşməyi də təklif etmir.

Bu zaman İbrahim Mirzəlioğlu atını qabağa sürüb Ələkbər Abdullayevə deyir: Böyük adamların ürəyi də böyük olmalıdır. Bir elin tanınmış, seçilmiş ağsaqqalları sizin yanınıza gəlibdir. Əvvəlcə təklif elə bunlar atdan düşsün, sonra

tənqidə başla, atın üstündə ola-ola ona bir neçə el misalı deyir. Ə.Abdullayev bir qədər pərt halda gələnlərə atdan düşməyi təklif edir. Hamı çəmənlikdə oturur və bundan sonra atama deyir ki, sən kimsən? Atam ona kim olmağını deməzdən qabaq klassiklərdən, hikmət sahiblərindən bir neçə misal çəkir və sonra hiyləgər ermənilərin onu Vətənə həsrət qoyduğunu söyləyir. Sonar da əlavə edir ki, sizin rəhbəriniz də ermənidir. Onun tapşırığına baxıb Qarabağın bu tanınan, seçilən adamlarını belə vəziyyətə salmayın. Siz ki, yaxşı bilirsiniz bunlar Ermənistanda yaşayan azərbaycanlıların başına nə oyun açırlar. Görünür siz bunları yaxşı tanımırsınız... Bundan sonra Ə.Abdullayev yumşalır, Tərəkəmə ağsaqqalları ilə söhbətə başlayır və tutqu məsələsini dayandırır.

## LAÇIN QAÇAĞININ DƏRƏLƏYƏZƏ PƏNAH GƏTİRMƏSİ VƏ LAÇINLILARIN ÖLDÜRÜLƏN ADAMIN QANINDAN KEÇMƏSİ

Böyük Vətən müharibəsindən sonrakı dövrlərdə (il yadımdan çıxıbdır) Laçın camaatı ilə qarabağlılar arasında dava düşür və bu davada laçınlılardan biri ölür. Ağcabədi, Ağdam, Beyləqan, İmişli rayonlarından bir çox adlı-sanlı adamlar, hökumət nümayəndələri gedirsə də, laçınlılar barışıq təklifini rədd edirlər. Bu zaman kimsə deyir ki, laçınlılar inada düşüblər. Onlar yalnız bir adamın - Dərələyəzli Mirzəlioğlu İbrahimin sözündən çızmazlar.

Qarabağdan gedib Mirzəlioğlu İbrahimi gətirirlər. Laçında ölən alamın evinə yaxınlaşanda İbrahim kişi deyir ki, mənə bir at gətirin. Mən Laçına həmişə at ilə gəlmişəm. Bu zaman Laçında xəbər tuturlar ki, tərəkəmələr Mirzəlioğlunu barışığa gətirir.

Evə çatana 50 metr qalmış Şəlvə dərəsindən Fərəc kişi (ADPU-da dosent işləmiş Salman Salahovun atası) və başqa ağsaqqallar qışqıra-qışqıra deyirlər: İbrahim Mirzəlioğlu! Əvvələn, sən Laçına xoş gəlmisən. İkincisi, sən gərək bu barışığa gəlməyəydin. Biz barışan deyildik. Qana-qan alacağıdıq. Sizi ona görə saxladıq ki. barışığa gələnlər başqa şey fikirləşməsinlər. Onlar bizə indiyədək çox şeylər təklif ediblər. Lakin biz bunların hamısını rədd etmişik. Biz bu qanı heç bir təmənna olmadan sənə keçirik. Bundan sonra iki qana gəlsən, onu da sənə keçəcəyik, çünki sən 1928-ci ildə Laçınlı Həsənalını ölümdən xilas etmisən. O. namus üstündə adam öldürmüşdü və buna görə də onu tuturdular. Camaat belə qərara gəldi ki, bu qış vaxtı onu yalnız Dərələyəzli Mirzəlioğlu İbrahim xilas edə bilər. Belə də oldu. Onu Dərələyəzə, Sizin üstünüzə göndərdik. Siz Həsənalını bir qış Dərələyəzdə saxladınız. Keşkənd rayonunun və respublikanın orqan işçilərinə xəbər verənlər də oldu. Lakin siz onu orqana vermədiniz. Çətin vaxtlarda onu öz evinizdə saxlayır və orqan işçilərinə deyirdiniz ki, Dərələyəz camaatı namus üstündə adam öldürəni heç vaxt ələ verməz, camaat üsyana qalxar. Siz gəlin Dərələyəz camaatını ayağa qaldırmayın. Qoy Laçının orqan işçiləri gəlib bunu tutsun, bəlkə bu şayiədir, yalandır. Yaz gələndə biz onu Laçına yola salacağıq, bizim sərhəddi keçəndən sonra gedib tuta bilərsiniz.

İbrahim Mirzəlioğlu yazda Həsənalını yəhərli-yüyənli köhlən atına mindirib sağ-salamat Laçına yola saldı. Mirzəlioğlunan vaxtı ilə etdiyi bu təmənnasız yaxşılığın qarşısında biz ona üç ölüm borcluyuq. Biri Həsənalının özü, biri atı, biri də atının yəhər və yüyəni. Mirzəlioğlu, qanı sənə keçdik, hamı gəlib əyləşsin...

## DƏRƏLƏYƏZ AĞSAQQALININ NÜFUZU TƏHLƏ TEYMURU SİBİRDƏN QURTARDI

Böyük vətən müharibəsindən sonra bir gün Dərələyəzin Qovuşuq kəndindən olan ağsaqqal İbrahim Mirzəlioğlu qaraxaç yaylağına gedir. Dostları ilə görüşüb ayrılanda Sürəyya adlı bir qadın buna yaxınlaşıb atının cilovundan tutur, ağlayır və deyir ki, ay İbrahim qardaş, ermənilər Teymuru (Təhlə keçəl Teymuru) tutub 10 il iş veriblər. O, müharibə qurtarhaqurtarda ermənilərin bir sürü qoyununu gətirib kasıb-kusuba payladı. İndi 2 ildir ki, Sibirdə dustaqdır.

Deyilənə görə İrəvanda səni xeyli tanıyanlar və səninlə hesablaşanlar var. Bəlkə onlara deyəsən Teymurun işini bir qədər azaldalar? Uşaqları saxlaya bilmirəm. İbrahim cavab verir ki, mən sənə heç nə deyə bilməm. Amma bu yaxınlarda İrəvana gedəcəyəm, orada bu işlə maraqlanaram, çalışaram ki, ona kömək edim.

O, İrəvana gedəndə hərbi tribunalda, ali məhkəmədə işləyən və 1921-ci ildə Dərələyəzdə İbrahim Mirzəlioğlunun köməyilə ölümün pəncəsindən qurtaran (öldürülmək üçün Həsənkənddə ermənilər tərəfindən təndirə salınan) Matevos Sağiteyana deyir ki, bu adama verilən işi azaltmağa kömək etməlisən. Bu həm mənə hörmət olar, həm də yaylaqlarda erməni-azərbaycanlı münasibətlərinin yaxşılaşmasına kömək edər. O, cavab verir ki, bu çox çətin məsələdir. Amma mən çalışıram ki, erməni-azərbaycanlı münasibətləri pisləşməsin...7-8 ay keçəndən sonra Təhlə Keçəl Teymura sud qurub onu tam azad edirlər. Teymur evə (Qarabağa) çatan günün səhərisi bir neçə adamla Mirzəlioğlu İbrahimin yanına gəlir və xilaskarına öz razılığını bildirir. Tərəkəmə camaatı həmişə deyirdi ki, ermənilərin qənimi İbrahim Mirzəlioğludur...Onun nüfuzu Keçəl Teymuru Sibirdən qaytardı.

## DƏRƏLƏYƏZLİ İBRAHİM MİRZƏLİOĞLUNUN BAKI ALİMLƏRİ İLƏ GÖRÜŞÜ

1965-ci il iyun ayının 25-i idi. Mən həmin gün Azərbaycan Dövlət Pedaqoji Universitetinin akt zalında namizədlik dissertasiyası müdafiə edirdim. Atam da Dərələyəzdən gəlib müdafiəyə qulaq asırdı.

Atam universitet kollektivi üçün binanın 1-ci mərtəbəsindəki yeməkxanada stol açdırmışdı. Müdafiə qurtaran kimi Bakı şəhər plan komitəsinin sədri İlyas Vəkilovla (qohumu ilə) birlikdə hamını ora dəvət etdi. İlyas Vəkilov burda ol-

duğu üçün universitetin bütün rəhbərliyi bu məclisə gəldi. Universitetin yeməkxanası başdan-ayağa qədər alimlərlə dolu idi.

İnstitutun rəhbərliyi, sovet üzvləri, opponentlər müdafiənin yaxşı keçdiyini, tənqidlərə verdiyim cavabların yerli-yerində olduğunu və s. söylədilər. Axıra yaxın İlyas Vəkilov universitetin rektoru prof. Şövqi Ağayevə dedi ki, bu dissertantın atası niyə belə sakit əyləşib, qoy heç olmasa bu alimlərə öz razılığını bildirsin.

Mirzəlioğlu ayağa durub dedi: Mən sadəcə bir kəndliyəm. Bu alimlərin qarşısında mən nə söz deyə bilərəm. Bu zaman yerdən onu tanımayanlar dedi ki, a kişi, qorxma bir-iki kəlmə sözlə öz razılığını bildir.

O, sözə başladı: oğlum sərf-nəhfdən (qrammatikadan) dərs deyir. Mən sizdən bilmək istəyirəm, oğlum bu çətin fənni uşaqlara başa sala bilirmi? Bu işə can yandırırmı? Bu sualdan sonra o, bir beyt şer dedi: "Sərfi-nəhvin emalı çoxdur, daş-dəmirdən baş gərək. Ya oxuyan sahib-kamal, ya dərs deyən qardaş gərək".

Bundan sonra Şərq tarixinə, qabusnaməyə, Kəlilə və Dimnəyə müraciət etdi, Quranda elm və alimlər haqqında deyilənləri yada saldı. Nizami Gəncəvinin, Sədi Şirazinin, Firdovisinin nəzm ilə deyilən nəsihətlərini, müdrik kəlamlarını farsca deyib azərbaycancaya tərcümə etdi. Sədi Şirazinin "naəhlə tərbiyə vermək məscidin başına atılan qoz kimidir" nəsihətinin üstündə Azərbaycanın məşhur pedaqoqları prof. Əhməd Seyidov və prof. Mərdan Muradxanovla xeyli mübahisəyə girişməli oldu. O, Sədi Şirazinin "Gülüstan" və "Bustan" əsərlərindən nəzmə çəkilmiş başqa nəsihətlərini əzbər deyib tərcümə etdi. "Kim mənim övladıma bir qətrə bilik versə, mən ömür boyu onun qulu olaram" misalına etiraz edən universitetin prorektoru dosent Əsəd İbrahimova ərəb və fars dillərində deyilmiş xeyli misalları, tarixi faktları xatırlatdı.

Bundan sonra sevdiyi, əzbər bildiyi Məhəmməd Fizuliyə müraciət etdi. Xeyli şer və qəzəl parçalarını əzbər deyib onu dərindən təhlil etdi. Məclisdə heç kim danışmır, hamı ona qulaq asırdı. Bu zaman universitetin rektoru prof. Ş.Ağayev zarafatla dedi: İbrahim kişi ədəbiyyat kafedrasında müəllim işləməyə razılıq ver, bu saat əmrini verirəm. Orada yalnız Nizami, Füzuli, Nəsimi, Firdovsi və Sədi Şirazinin əsərlərini uşaqlara təhlil et. Yerdən Mirzə Ələkbər Sabirin oğlu Məmmədsəlim Tahirli söz atdı ki, mən prorektor kimi razılıq verməyəcəyəm, çünki Sabiri yada salmadı. İbrahim kişi dərhal Sabirdən üç şer əzbər dedi və Sabirə söykənib mədəni şəkildə müəllimlərə sataşdı. Tahirli İbrahim kişiyə razılığını bildirdi. Bundan sonra keçdi şifahi xalq ədəbiyyatına. Qurbanidən, Valehdən, Ələsgərdən, Abbas Tufarqanlıdan, Xəstə Qasımdan məclisin nəbzinə uyğun qoşmalar dedi, dini məsələlərə həsr olunmuş qıfılbəndləri açdı. Prof. Ə.Dəmirçizadə, prof. F.Qasımzadə, prof. Z.Tağızadə, prof. F.Fərhadov ədəbiyyata belə dərindən bələd olduğu üçün İbrahim kişiyə öz razılıqlarını bildirdilər. Məclisdə oturanlar hamısı buna əl vurdu.

İbrahim kişi oturmaq istərkən dedi: "İki şey adamı hörmətdən salar. Bir, söz məqamına çatanda deməmək, bir də söz məqamından keçəndə demək. Bir sö-

zü deməsəm ürəyim sakitləşməz. Müdafiə bir neçə saat çəkdi. Burada danışanların hamısı və oğlum tez-tez deyirdi, "Feli sifət belə gəldi, feli sifət belə getdi. Axı belə mövzuların indiki dövrdə cəmiyyətə nə faydası var. Mən də oğlumu göndərmişəm ki, gedib alim olsun. Belə alim olmağa nə var ki?" deyib yerində əyləşdi.

Hal-hazırda yaşayan və həmin məclisdə iştirak edən alimlərdən prof. Qəzənfər Kazımov, prof. Mürsəl Həkimov, prof. Afaq Qurbanov, prof. Cəfər Cəfərov, dos. Yunis Məmmədov, Dərələyəzli Novruz Dünyamalıyev və başqaları bu dediklərimin canlı şahidləridir.

## DƏRƏLƏYƏZ AĞSAQQALININ NAXÇIVAN RİYAZİYYATÇILARINA VERDİYİ SUAL

1970-ci il avqustun axırlarında Naxçıvanın Xalxal kənd müəllimi Təmoyev İsmayıl oğlu Qaçayla birlikdə Dərələyəzdən (Gədikvəng kəndindən) Naxçıvana gedərkən yolüstü Qovuşuqlu Mirzəlioğlu İbrahimin yanına dönüb onun Naxçıvana gedib-getmədiyini soruşur. İbrahim kişi cavab verib deyir ki, biz də bu gün gedirik, nəvə toyuna gecikmək olmaz, bir az gözləyin bərabər gedək.

İbrahim kişi cavan oğlanın hansı ixtisas sahibi olduğunu soruşur. İsmayıl müəllim çay içə-içə bunun (Qaçayın) riyaziyyatçı olduğunu deyir və onu tərifləyir. Mirzəlioğlu deyir ki, hələ qabaqcadan çox tərifləmə. Ona bir misal deyəcəyəm, onu aça bilsə, doğurdan da tərifə layiqdir. Amma indi yol üstəyəm, Naxçıvanda deyərəm. Qaçay təkid edir ki, indi deyin, cavabını Xalxalda deyərəm. İbrahim kişi misalı deyir:

O, öz söhbətinə belə başlayır: "Rəvayətə görə qədim zamanlarda bir müsəlman ölkəsində otuz nəfər heyəti olan bir gəmi müəyyən müddət üçün dəniz səyahətinə çıxır. Gəminin bosmanı müsəlman olduğundan gəmidəki heyətin 15 nəfər müsəlman, 15 nəfər ermənidən ibarət olduğunu əvvəlcədən bilirmiş. Bir müddət keçdikdən sonra dənizdə çox güclü bir fırtına başlayır. Bosman cəld hesablama aparır ki, bu gəminin heyəti və heyət üçün götürülmüş ərzağın və adamların yarısı dənizə tökülməlidir. Bosman dəniz heyətini bir düz xətt boyunca sıraya düzür və deyir ki, mən elə bir rəqəm deyəcəyəm ki, başdan başlayaraq bu adamları saydıqca həmin rəqəm kimin bəxtinə düşdüsə onu dənizə tullamaq lazımdır. Hamı bosmanın göstərişi ilə onun dediyi kimi düz xətt boyunca düzülür. Bosman bu rəqəmin "doqquz" olduğunu elan edir. Yəni 1-dən 9-a qədər sayırsan. 9 rəqəmi kimin üstünə düşürsə o dənizə atılmalıdır. Özü də buradakı 30 adam qarışıq şəkildə durmalı, bir dairənin, bir çevrənin üstündə yan-yana düzülməlidir. Gəmi kapitanı bu əməliyyatı apardıqdan sonra adamları saymağa başlayır. Ən sonuncu əsgər "yəni on beşinci əsgər" suya atıldıqdan sonra məlum olur ki, suya atılanların hamısı erməni imiş".

Sual: "Bosman onları necə düzmüşdür? Necə olmuşdur ki, bir nəfər də olsun dost dənizə atılmamışdır?"

Naxçıvanda toy qurtaran gecə İsmayıl müəllim İbrahim kişi üçün öz evində

məclis düzəldir. Toya gələn və burada olan ziyalıları onun başına yığır. İbrahim kişi şirin söhbətləri ilə hamını heyran edir. Məclisdə İbrahimin Qaçaya verdiyi sualdan da söhbət düşür. Başqa riyaziyyatçılar, o cümlədən İsmayıl müəllimin böyük oğlu riyaziyyatçı Çapay Təmoyev də misalın həllinə qoşulur. Lakin bütün gecəni çalışsalar da misalı həll edə bilmirlər. Yalnız Qaçay müəllim inadından dönmür. Səhərə yaxın misalın həllini tapır.




İbrahim kişi bu məsələnin həllini həmişəlik yadda saxlamaq üçün ona həsr olunan şeri deyir. Şerdən aydın olur ki, qara rənglərə işarə düşmənlərə işarədir.

Dörd qönçə gülün həmdəmi beş zağ idi gördüm,
İki gül bir zağçaya müştaq idi gördüm,
Üç türkü pəri bir həbəşə qul,
Bir üzdə iki xali giriftar idi gördüm.
İki sənəm, üç səngi siyah bir məhitaban,
İki gecə, iki də gündüz
Gör nə əcəb xab idi gördüm.

Bundan sonra məclisdəkilər həm İbrahim kişiyə, həm də Qaçaya əhsən deyirlər. İbrahim kişi əlavə edir ki, Mən Dərələyəzdə olan gənclərə, cavanlara bu misalı öyrədirəm. Siz də Naxçıvanda öyrədin. Qoy onlar belə məqamlarda düşmənlərimizə qələbə çalsınlar.

## NƏBİLƏRLİ MOLLA ŞAHVERDİNİN LAÇINLI PAŞA BƏYƏ (SOLTAN VƏ XOSROV BƏYİN ATASINA) MƏKTUBU

1918-ci il erməni-müsəlman davasında Dərələyəzin Nəbilər kəndindən olan Molla Şahverdi adlı bir din xadimi Laçına qaçır. Sultan və Xosrov bəyin atası Paşa bəy savadlı, şairtəbiətli bu mollaya çox yaxşı baxmış, hörmət eləmiş və onu yanında saxlayaraq başqa yerə getməyə qoymamışdır.

1921-1922-ci illərdə camaat qaçqın düşdüyü yerdən Dərələyəzə qayıdan vaxt Paşa bəy Molla Şahverdiyə təklif edir ki, sən qal mənim yanımda, Dərələ-

yəzə getmə, həm mollalıq edərsən, həm də mənim yanıma gələn qonaqlarımla söhbət edərsən. Sədidən, Qumridən onlara məlumat verərsən, sənin şirin söhbətlərin hamıya xoş gəlir. Molla cavab verir ki, Paşa bəy, Dərələyəz üçün yaman darıxıram, vətənə getməsəm vərəmlərəm. Paşa bəyin təkidinə baxmayaraq Molla Şahverdi də Dərələyəzə qayıdır. Azərbaycanın müxtəlif yerlərinə dağılan camaat yazın axırlarına yaxın gəlib Dərələyəzə çıxırlar. Qaçqınçılıqdan vətənə yeni gələn camaatın taxıl əkməsinə erməni daşnakları əvvəlcə müxtəlif yollarla maneçilik törədirlər. Bir qədər sonra mane olmasalar da buğdanın vaxtı keçdiyi üçün bunlar əkin sahələrinə yalnız arpa, pərçik və darı əkə bilirlər. Mal-heyvan üçün lazımı qədər ot-alaf da yığa bilmirlər. Qaçqınlıqdan qayıdan camaat qış aylarında çox çətinlik çəkirlər. Molla Şahverdinin də günləri ağır keçir və 1922-ci ildə (1284-cü ildə) Molla Şahverdi Paşa bəyə aşağıdakı "Dərdim" və "A bəyim" rədifli şerlərini yazıb göndərir.

## DƏRDİM

Salam olsun Paşa bəyə
Ərz edirəm sizə dərdim.
Əlim tutmur özüm yazam
Molla yoxdu yaza dərdim.

Təəccüb qalmışam qışa,
Arıq asmaq olub peşə,
Qorxuram göbəyim düşə,
İpliyimi üzə dərdim.

Qiyamət əzabın gördüm,
İlan kimi qabıq verdim,
İnəkləri yazda qırdım,
Tablaş belə yaza dərdim.

Dəxi kəsilib amanım,
Sabaha yoxdur gümanım,
Görmüyübdür yazıq canım,
Belə cəbrə dözə dərdim.

Arpa, pərinc yemək olmur,
Belə dərdi demək olmur,
Heç bir kəsdən kömək olmur,
Axır düşdü üzə dərdim.

Qarnıma salır vəlvələ,
Bağırsağım gəlir dilə,

Az qalır ki, zırna çala,
Məni sala sözə dərdim.

Düşmüşəm ahilən vaya,
Cigərlərim dönüb suya,
Pul yox verəm qəndə-çaya,
İçəm bəlkə üzə dərdim.

Qara gəldi bizim yazlar,
Yazmam sizə yalan sözlər,
İpək geyib gəzən qızlar,
Bükülübdür bezə dərdim.

Ölüm olsun belə sağlıq,
Qara günlə yaşamaqlıq,
Bu çətinlik, bu yoxsulluq,
Yetiribdi yüzə dərdim.

Paşa bəy bəylərin xası,
Fəqir-füqarə atası,
İnşallah buğda bahası,
Göndərəcək bizə dərdim.

## A BƏYİM

Əhvalım soruşsan dərdim çox-çoxdu,
Xəlvəti yazıram sana, a bəyim.
Yoxsulluq dağ çəkib sağ yerim yoxdu,
Pünhanı yazıram sana, a bəyim.

Bədbəxt arvad küçə-baca tanımır,
Teylənib içəri, yalvarram çıxmır,
Kəsərim azalıb, da məndən qorxmur,
Çoxunu demirəm sana, a bəyim.

Arvaddan qorxuram deyə bilmirəm,
Arpa horrasını yeyə bilmirəm.
Utanıram çoxun deyə bilmirəm,
Ərk edib yazıram sana, a bəyim.

Pərinc yarmasıdı mənim xörəyim,
Çölün pəncəridi lavaş çörəyim,
Bu dərdlərə davam etmir ürəyim,
Yazıram dərdimi sana, a bəyim.

Sultan bəy atasının tapşırığını artıqlaması ilə yerinə yetirir. Karvan Dərələyəzə çatır və Dərələyəz camaatı Paşa bəyə, Sultan bəyə öz minnətdarlığını edir.

Molla Şahverdi karvanla gələnlərə deyir ki, bəyə göndərməyə elə bir ərmağanım yoxdur. Ancaq xan qızı (Natəvan) haqqında yazdığım bu 24 bənd qoşmanı ona göndərirəm. Xahiş edirəm ki, bunu Paşa və Sultan bəyə çatdırasınız.

Həmin o şerləri atam (İbrahim Mirzəli oğlu) əzbər bilirdi. Mən də onu yazmışdım. Lakin şer və ondan başqa yazılar Dərələyəzdəki evimizdə (atamın şəxsi arxivində) idi. Atamı Bakıya gətirəndən sonra həmin yazıları çamadana yığıb evin zirzəmisinə qoyurlar. Bundan sonra it-bata düşdü. Hələlik tapa bilməmişik.

## BORÇALI AŞIQLARININ DƏRƏLƏYƏZ SƏFƏRİ

Aşıq məskəni kimi tanınan, Aşıq Cəlil, Aşıq Qəhrəman, Aşıq Paşa, Aşıq Fətulla, Aşıq Məhəmməd, Aşıq Bəhman kimi ustad aşıqlar, Aşıq Mehdi, Aşıq Rzaqulu kimi el şairləri yetirən Dərələyəz mahalında saza-sözə, aşıq sənətinə xüsusi həvəs və hörmət olmuşdur. Elə buna görədir ki, Ağ Aşıq (Aşıq Allahverdi), Alı və Ələsgər kimi Dədə aşıqlar, Şahablı Cəlil (Vedi), Növrəs İman, Aşıq Musa (Göçəli), Aşıq Əsəd, Aşıq Məhəmməd (Əsədin qardaşı), Aşıq Bəhmən (Göyçəli), Aşıq Hüseyn (Şəmkirli), Aşıq Mirzə (Tovuzlu), Aşıq Hüseyn Saraclı, Aşıq Əmrah Gülməmmədov, Aşıq Əhməd Sadaxlı, Aşıq Hacı (Göyçəli), Aşıq Ziyad (Göyçəli Aşıq Əsədin şagirdi), Aşıq Mehdi (Göyçəli, Qannılı), Aşıq Hüseyn (Göyçəli, Məzrə kəndi), Cilli Aşıq Müseyib və bu kimi bir çox görkəmli aşıqlar, saz-söz ustadları vaxtaşırı Dərələyəzə gəlmiş, burada aşıqlarla, el şairləri ilə, aqillərlə, din xadimləri ilə saatlarla, günlərlə söhbətlər aparmış, sual verib cavab almış, sonra da məclis qurub dastan söyləmişlər. Hətta çox zaman bu aşıqlar Dərələyəzdəki toy məclislərini də aparmışlar. Məs: Mənim nənəm Nigarın (anamın anası) və babam Əmirin toyunu Aşıq Ələsgər aparmış, üç gün çalıb çağırmışdır.

Dastan gecələrində camaat həmişə aşıqlardan xahiş edərdilər ki, onlar dastanda işlənən qoşma, gəraylı, təcnis. Qıfılbəndlərin bütün variantlarını desinlər. Burada aşıqla məclisə yığışanlar arasında sanki yarış gedərdi. Hətta bəzən söz aşığın yadından çıxanda yerdən zarafatla onu aşığın yadına salardılar. Bəzi aşıq məclislərində kişilərlə yanaşı, qadınlar və uşaqlar da oturardı. Dərələyəzdə çox az-az adam tapılardı ki, o qoşma və dastan bilməsin.[1]

Dərələyəzdə belə bir adət mövcud idi ki, kənar yerdən aşıq gələndə o, əv-

------------------

1. Dərələyəzdə aşıq yaradıcılığı haqqında orta səviyyədə bilənlərdən biri mən idim. Mən isə aspiranturaya qəbula gələndə "Abbas və Gülgəz", "Şah İsmayıl", "Tahir və Zöhrə", "Novruz və Qəndab", "Dilsuz və Xəzəngül", "Minayə", "Koroğlunun Toqat səfəri", "Əmrah" kimi dastanları, Aşıq Ələsgər, Qurbani, Xəstə Qasım, Aşıq Alı, Valeh, Hüseyn Şəmkirli, Hüseyn Bozalqanlının bir çox qoşma, gəraylı, dodaqdəyməz, təcnis, cığalı təcnis və qıfılbəndlərini əzbər bilirdim. Lakin bunların əksəriyyəti indi yaddaşımdan silinibdir. Mən aspiraturaya qəbul olanda aşıq poeziyası ilə bağlı mövzu götürmək istəyirdim. Lakin aşıq poeziyasında dil məsələlərinə bələd olmayanlar bu işə mane oldu və mən ayrı mövzu götürmək məcburiyyətində qaldım.

vəlcə el ağsaqqalının və ya kənd ağsaqqalının yanına gedər, onunla bir qədər söbət edər, onun çayını içər, çörəyini yeyər, sonra da çalıb-oxumaq üçün ondan icazə istəyərdi.[1]

Yuxarıda adını çəkdiyimiz aşıqların bir çoxu el ağsaqqalı İbrahim Mirzəlioğlunun qonağı olarkən, onun şirin söhbətlərinə qulaq asmış, Şərq tarixi, klassik şer, din, şəriət, müqəddəs kitablar, peyğəmbərlər, imamlar, Nizami, Füzuli, Sədi, Firdovsi, Nəsimi haqqında dediklərini diqqətlə dinləmişlər. Xəstə Qasım, Qurbani, Abbas Tufarqanlı, Valeh, Alı və Ələsgərin işlətdiyi ərəb-fars sözlərini təhlil edərkən, onların dinlə bağlı mətbuatda çap olunmyan qıfılbəndləri, qoşmaları haqqında məlumat verərkən ona heyranlıqla qulaq asmışlar.

Belə bir faktı da qeyd edim ki, Aşıq Ələsgər irsini araşdıranlar, tədqiq edənlər çox vaxt Dərələyəzdəki sinədəftərlərə də müraciət etmişlər. Məs: 1976-cı ildə Göyçənin Zər kənd sakini Səmədov Həbib Yusif oğlu Mirzəlioğluna məktub yazıb Ələsgərin çap olunmayan qoşmalarını ondan istəmişdir (bax: Həsən Mirzəyev. Aşıq poeziyasında adlarımız və tariximiz. Bakı, 1997, səh. 309-310).

Mən yalnız son dövrlərdə Dərələyəzə gedib Mirzəlioğlu İbrahimin qonağı olan iki aşığın söylədiyi fikri deməklə kifayətlənəcəyəm. Ona görə son dövrdə misal verirəm ki, həmin aşıqlardan indi biri sağdır, maraqlananlar soruşa bilərlər.

1. Təxminən 7 il bundlan öncə, Azərbaycan Dövlət Pedaqoji Universitetində prof. Mürsəl Həkimov Gürcüstan aşıqları ilə tələbələrin görüşünü təşkil etmişdi. Gürcüstandan Aşıq Məhəmməd və Aşıq Əhməd Sadaxlı da bu görüşdə iştirak edirdi. Görüşdən əvvəl yığışdığımız otaqda aşıq sənətinə və saz havalarına aid xeyli söhbət oldu. Aşıq Əhməd mənim harada doğulduğumu soruşdu. Mən Dərələyəzdə doğuldumu dedim. Aşıq Əhməd dedi ki, hə sizin camaat aşığı sevir və bu sənəti yaxşı başa düşür. Üzünü alimlərə tutub dedi ki, mən ustadım Aşıq Hüseyn Saraclı ilə Dərələyəzə getmişdim. Biz ora çalıb-oxumaq üçün getməmişdik. Orada aşıq sənətini, qədim saz havalarını, Abbas və Gülgəz dastanının bütün variantlarını, aşıqların şəriətlə, dinlə bağlı dedikləri qoşmaları, müəmmaları dərindən bilən İbrahim adlı kişiyə qonaq getmişdik.

İki gün camaat nə qədər xahiş etdisə də ustadım Hüseyn Saraclı oxumadı. Dedi ki, mən bu kişinin söhbətinə qulaq asmağa, ondan bəzi şeyləri öyrənməyə gəlmişəm. Mən iki gündür ona qulaq asıram, amma hələ də söhbətindən doymamışam. Ağzından ləl tökülür, mən də onları bir-bir yığıb öz xəzinəmə tökürəm ki, bərk gündə gərəyim olar. İndi mən bu ləli qoyub sizin qəpik-quruşunuzun dalınca getməliyəmmi? Xeyr, qardaş, bizə bu kişinin söhbəti, hikməti sərf eləyir. Bu zaman İbrahim kişi üzünü Hüseyn Saraclıya tutub dedi:

---

1. Yaşlıların dediyinə görə, əvvəllər bu missiyanı, əsasən Aşıq Cəlil ilə Aşıq Qəhrəman yerinə yetirmişdir. Sonrakı dövrlərdə isə Sallıdan Aşıq Bəhman və İman kişi, Qabaxlıdan Ovçu Qəhrəman və Mirsəqulu (Şahmalı Kürdoğlunun atası), Gülüdüzdən Calaloğlu Firudun və Qəşəm, Ayısəsikdən Usub oğlu Həsən, Ələyəzdən Bayramqulu müəllim və Talıb oğlu Hüseyn, Qalaserdən Alıyev Hüseyn, Amağudan Əsgər kişi və oğlu Əziz, Herherdən Aşıq Fətulla, Aşıq Mehdi və başqaları yerinə yetirmiş, onlara bu yerin adət-ənənəsi haqqında məlumat və məsləhət vermişlər.

Ay Hüseyn, yaxşısı budur ki, oxuyun, söhbətimizi sonra davam etdirərik. Belə də oldu. Məclisimiz çox şən keçdi. Amma onu deyim ki, aşıq sənətinə dərindən bələb olmayan sənətkar burada baş çıxara bilməz, dərhal xoruzunu qoltuğuna verərlər. Dərələyəz çamaatı böyüklü-kiçikli sinədəftərdir. Xüsusən Mirzəlioğlu İbrahim. Onun söhbətlərindən doymaq olmurdu. Hər bir müəmmanı təhlil edəndə onun kökünə gedib çıxırdı.

Aşıq Əhməd belə danışdıqca Mürsəl Həkimov gülürdü. Aşıq az qalmışdı pərt olsun. Mürsəl müəllim gülə-gülə dedi ki, aşıq, sizi sorğu-suala tutan bu Həsən müəllim həmin kişinin oğludur.

Aşıqlar - Məhəmməd və Aşıq Əhməd ayağa qalxıb mənə yenidən əl verdilər. Əhməd dedi ki, o kişi Allah vergisidir.

2. 16.03.1998-ci ildə Akademiyanın Akt zalında Aşıq Ələsgərin 175 illik yubileyi keçirilirdi. Mən, şair Zəki İslam, dos. Rəhim Əliyev, prof. Mürsəl Həkimov və "Sarıtel" verlişinin aparıcısı Elxan Məmmədli (Borçalı) yanaşı oturmuşduq. Aşıq Əhməd Sadaxlı da burada idi. Üzünü bu adamlara tutub dedi: Mən çox yerlər gəzmiş və çox məclislər yola salmışam. Aşıq sənətini bu Həsən müəllimin atası İbrahim kişi kimi dərindən bilən ikinci adama rast gəlməmişəm. 1966-cı ilin iyun ayında mən və Aşıq Hüseyn Saraclı onun sorağı ilə Gürcüstandan Dərələyəzə getdik. Sonra da 1967-ci ilin mayında Hüseyn Saraclı ilə Əmrah Gülməmmədov onun yanına getdilər. Həm 1966, həm də 1967-ci ildə onun qonağı olanda, biz iki gün başqa məclislərə getmədik. Aşıq ədəbiyyatının dərinliklərini, xüsusən "Abbas və Gülgəz", "Qurbani", "Valeh və Zərniyar" dastanlarındakı dini məsələləri, qədim variantları, qıfılbəndləri öyrənmək məqsədilə onun yanında oturduq. Onun dediyi qoşmalara, müəmmalara qulaq asdıq. Qurbaninin "Yekayek" divanisini dedi və onu elə təhlil etdi ki, biz ona heyran qaldıq. O, aşıq poeziyasında işlənən ərəb-fars sözlərinin mənalarını açıqladı. Bəzi saz havalarının qədim adlarını dedi. Biz ondan çox şey öyrəndik. Təəssüf ki, belə ensiklopedik məlumata malik olan adamı ermənilər həmişə incitmiş, çox vaxt onu doğma yurdunda yaşamağa qoymamışlar.

## GÖYÇƏLİ USTAD AŞIĞIN ETİRAFI

Bir neçə il bundan öncə, Bakının Koradil kəndində Qudam Rəhim müəllimin bağ evində aşığı sevən bir neçə adamla Göyçəli Aşıq Hacını və Aşıq Zülfiyyəni oxudurduq. İki yaşlı nəvəm Rüfət də qucağımda idi. Oynaq saz havaları çalınanda onu oynadırdım. Uşaq tez-tez Aşıq Hacının sazını tutmaq istəyirdi. Aşıq Hacı özünəməxsus yumorla dedi ki, ay camaat, gör iş nə yerdədir ki, körpə uşaq da sazımı əlimdən alır. Mən də yumorla cavab verib dedim ki, nəvə ala bilmədi, amma babası sazını əlindən alacaqdır. Sənə bir neçə qıfılbənd deyəcəyəm, aça bilməsən, nəvəmə saz çalmaq öyrədəcəksən. Razılaşdıq.

Mən Valehlə Zərniyarın bu günə qədər mətbuatda çap olunmamış və atamdan mənə yadigar qalmış 10 bənd qıfılbəndini dedim. Bundan səs çıxmayanda 5 bəndin açmasını da dedim. Aşıq Hacı bir qədər firkə getdikdən sonra dedi ki,

"Bu qıfılbəndi mən Dərələyəzli Mirzəlioğlu İbrahimdən yazmışdım, lakin elə orda da həmin qıfılbəndi itirdiyim üçün əzbərləyə bilmədim. Biz Qovuşuqda iki gün onun qonağı olduq. İki qədim saz havasını dodağında çalıb bizə öyrətdi. Çox savadlı adam idi. Onunla hər aşıq danışa bilmirdi. Onun sinəsi söz xəzinəsidir. İki oğlu var idi. İkisinin də başı ülgüclə qırxılmışdı, başları ağ kələm kimi ağarırdı. Bir oğlu da Bakıda idi, biz onu görmədik.

Amma Dərələyəzdə başıma gələn bir əhvalatı heç unuda bilmirəm. Qovuşuq kəndində şair təbiətli Qarahəsən adlı bir hesabdar mənim kimi yumor sahibini doladı. Əhvalat belə olub. Yayın axır ayı idi. Balabançım ilə Dərələyəzə gedirdik. Göyçədə olduğu kimi, Dərələyəzdə də aşıq sənətinə böyük məhəbbət, diqqət və qayğı vardır. Dərələyəz də Göyçə kimi xeyli ustad aşıq yetirmişdir.

Bizim oturduğumuz maşın Selim yolu ilə birbaşa Dərələyəzə gəlirdi. Hava bir qədər isti olduğu üçün maşın Dərələyəzin aşağı kəndlərində dayanmadı. Qovuşuq kəndinin qırağında "Otaybulaq" adlanan bulağın üstündə əyləndi. Başqa sərnişinlər kimi biz də maşından düşüb əl-üzümüzü yuduq və sərin sudan içib dincəldik. Sonra da balabançı ilə qərara gəldik ki, bir neçə gün bu kənddə qalıb oxuyaq.

Mən bu zaman bulağa su içməyə gələnlərin birindən soruşdum: bilirsiniz bu kənddə aşıqpərəst, aşıqsevən adamlar kimlərdir? O dərhal cavab verdi ki, elə biri bizə tərəf gələn hesabdar, şair Qarahəsən. Həmin adam bulağa çatanda bizə salam verdi, xoşgəldin dedi, sonra da su içib getmək istərkən mən soruşdum: deyirlər aşıqsevənsən, doğrudurmu?

- Doğrudur, amma Həşim kişi kimi aşıqpərəst ikinci bir adam yoxdur. Onun evi də çox genişdir. Məclisə yığılan adamların hamısını tutur. Məsləhətdir ki, qabaqca ora baş vurasınız. Odur ey yolun üstündəki ev onundur. Kimdən soruşsanız deyər: "Həşimtrest nol doqquz".

Biz həmin deyilən küçəyə tərəf yollandıq. Yolda qarşımıza çıxan bir adamdan soruşdum: deyə bilərsənmi "Həşimptrest nol doqquz" hardadır? O, möhkəm güldü və mənə cavab verməyib keçdi. Bundan sonra yolun üstündə ağac sulayan bir kişiyə yanaşıb həmin sualı verdim. Kişi bərk əsəbləşib dedi: bu adresi sizə o pyanska verdimi? Bir az bundan qabaq buradan keçdi, ayaq üstə dura bilmirdi, araq qoxusu verirdi. Mən də ona ağzıma gələni dedim. Hər gün belədir. Aşıqlar gərək belə adamlara inanmasın. Bu sözləri deyəndən sonra əlindəki beli yerə atıb bizə əl verdi, xoş gəldin dedi, sonra da evə dəvət etdi. Evə çatan kimi qoyun kəsib yaxşı bir süfrə açdı.

Mən yaman pərt olmuşdum, özümə gələ bilmirdim. Həşim kişi bunu hiss edib dedi: Sən belə adamlara çox fikir vermə, ağsaqqala deyərik onu tənbeh edər. Durun gedək İbrahim kişinin yanına. Bizdə qayda belədir ki, kəndə gələn aşıq əvvəlcə ağsaqqalın yanına getməli və oxumaq üçün ondan icazə almalıdır.

Durub ağsaqqalın evinə getdik. O bu əhvalatı biləndin sonra dedi: siz daha heç hara gedən deyilsiniz, mənim qonağım olacaqsınız. Belə də oldu. İki gün

onun qonağı olduq. Həmin Qarahəsən də gəlib zarafat edə-edə bizdən üzr istədi, 2-3 gün də kənd camaatı üçün oxuduq. Hamısı sinədəftərdir. Adamın pişiyini ağaca dırmaşdırırlar. Lakin neçə il keçməsinə baxmayaraq indi də o əhvalatı unuda bilmirəm. Kefli adamın çox ciddi görkəmlə məni doladığı yadımdan çıxmır.

"Mən ayağa qalxıb dedim ki, o kişidən öyrəndiyin havanı çalsan sazını almayacağam. Onun həmin Bakıdakı oğlu da mənəm. Boynumu qucaqladı və kişinin öldüyünü eşidəndə gözləri doldu. Bu anda Zülfiyyə Qaraçı üstündə həzin-həzin oxumağa başladı. Mən Valehlə Zərniyarın aşağıda yazdığım qıfılbəndlərini Aşıq Hacıya verdim ki, "Valeh və Zərniyar" dastanını danışanda həmişə atamın xatirəsini yad etsin. Bu işi yerinə yetirmək qalıb onun öz vicdanına.

## QIFILBƏND
*(Valehlə Zərniyarın deyişməsi)*

**Zərniyar**

O necə şəhərdir on iki bazar?
Qırx səkkiz məhəllə, üç küçəsi var.
Üç yüz altmış altı hücrəsindədir[1],
Altı min yüz iyirmi min həm xacəsi var.

***Valeh***

*Bir ilin içində on iki aydır,*
*Qırx səkkiz həftəsi, üç bayramı var,*
*Üç yüz altmış altı gün hesabıdır,*
*Altı min yüz iyirmi vaxt namazı var.*

**Zərniyar**

O necə şəhərdir on beş çırağı?
Doqquz bağbanı var, on iki bağı,
Müttəsil pərgardır onun otağı,
Qapısın açanın nə ixlası var?

***Valeh***

*Suliddin, Firuddin on beşdir hamı,*
*Doqquz yol oğludur on iki imamı,*
*Müttəsil pərgardır cənnəti, damu,*
*Möminin behiştdə çox ixlası var.*

**Zərniyar**

Altı min yüz iyirmi onun dükanı,
On yeddi mənzildir yarın məkanı,

---------------------

1. Hücrəsindədir - içindədir, taxcasındadır.

Necə pəhləvandır, yaxlayan onu?
Tap görüm sözümün nə mənası var?

**_Valeh_**

*Altı min yüz iyirmi namazdır bir il,*
*On yeddi rikətdir bir gün yəqin bil,*
*Yeddi əzan yerə dəyər mütəssil,*
*Mən deyim sözümün bu mənası var.*

**Zərniyar**

Altı min, altı yüz, altmış altıdı hacı,
On dörd ovçusu var, var onun gücü,
Səkkiz min, altı yüz qırx dörd kərpici,
Onu yalqız yapanın nə bənnası var?

**_Valeh_**

*Altı min, altı yüz, altmış altıdı ayə,*
*On dörd səcdə tapar, onda hidayə,*
*Səkkiz min, altı yüz, qırx dörd sühayə,*
*Onu yalqız yapanın bir Allahı var.*

**Zərniyar**

Yüz on dörddə yəqin eylərəm şükür,
Yüz bir dərviş orda eyləyər zikir,
Bu Zərniyar sənə çəkər bir fikir,
Şəfiəl məzlum[1] tək həm ağası var.

**_Valeh_**

*Yüz on dörddür yəqin sureyi-Quran,*
*Yüz bir təsbeh edər zikri ya sübhan,*
*Valehə kömək ol, ya Şahi-Mərdan[2],*
*Bu əmrdə küllü müddəası[3] var.*

---

1. Şəfiəl məzlum – məzlumların atası, Məhəmməd Peyğəmbər.
2. Şahi-mərdan – İmam Əli
3. Zərniyar əhd eləmişdi ki, kim məni bağlasa ona gedəcəyəm, ona görə Valeh deyir ki, bu məsələdə çoxlu iddiam, umacağım var.

# VII FƏSİL

# DƏRƏLƏYƏZDƏ DOĞULMUŞ, YAŞAMIŞ, İŞLƏMİŞ VƏ ORADAN DEPORTASİYA OLUNMUŞ ADAMLAR

## *ALİMLƏR (BİR QRUPU)*

### MİRZƏYEV HƏSƏN İBRAHİM OĞLU (HƏSƏN MİRZƏ)



Mirzəyev Həsən İbrahim oğlu 1927-ci il noyabrın 26-da Qərbi Azərbaycanda, Dərələyəzin Qovuşuq kəndində anadan olmuşdur. O, millət vəkili, filologiya elmləri doktoru, professor, kafedra müdiri, Respublika Ali məktəb əlaçısı, əmək veteranı, YAP siyasi şurasının, Respublika Yazıçılar və Jurnalistlər Birliyinin üzvü, "91-lər"in ağsaqqalarından biri, "Şöhrət orden"lidir.

1948-ci ildə orta məktəbi qurtarmış, 1950-ci ildə Naxçıvan Dövlət Müəllimlər İnstitutunu, 1955-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetini, 1977-ci ildə Marksizm-Leninizm Universitetini fərqlənmə diplomları ilə bitirmişdir.

1950-1951-ci illərdə Ermənistan Respublikası Yeğeqnadzor rayonunun Qovuşuq kənd orta məktəbində müəllim, dərs hissə müdiri, 1955-1956, 1956-1957-ci tədris illərində həmin rayonun, həmçinin Əzizbəyov rayonunun (rayonlar birləşmişdi) təhsil şöbəsində inspektor, 1957-1958, 1958-1959-cu tədris illərində (1959-cu il noyabrın 16-na qədər) Qovuşuq kənd orta məktəbində direktor imşəmiş, həmçinin Yeğeqnadzor partiya komitəsində ştatdan kənar təlimatçı işləmiş, 1959-1962-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində əyani aspirant olmuş, 1962-ci ildən, aspiranturanı qurtaran kimi ADPİ-nin "Azərbaycan dilçiliyi" kafedrasına müəllim götürülmüş, həmin vaxtdan indiyədək fasiləsiz olaraq bu və "Müasir Azərbaycan dili" kafedrasında fasiləsiz olaraq müəllim, baş müəllim, dosent, professor kimi fəaliyyət göstərir. 1977-1987-ci illərdə filologiya fakültəsində qiyabi şöbə üzrə dekan müavini kimi fəaliyyət göstərmiş, 1989-cu ilin iyul ayından bu ana qədər "Müasir Azərbaycan dili" kafedrasının müdiri vəzifəsində işləyir, təhsil müddəti müstəsna olmaqla bütün əmək fəaliyyəti dövründə fasiləsiz işləmişdir. Hətta təhsil müddəti dövründə (1953-1954) ADPİ-da institut üzrə tələbə həmkarlar təşkilatının sədri vəzifəsində çalışmışdır.

O, 1965-ci ildə (iyunda) namizədlik dissertasiyasını müdafiə etmiş ("Müasir Azərbaycan dilində feli-sifət"), 1966-cı ildə (apreldə) Ali Attesttusiya Komissiyası bunu təsdiq etmiş, 1967-ci ildə dosent seçilmiş, 1968-ci ildə AAK

institut sovetinin qərarını təsdiq etmişdir. 1987-ci il mayın 7-də doktorluq dissertasiyası müdafiə etmiş, 8 aprel 1988-ci ildə AAK bunu təsdiq etmiş (FL № 001368), 1988-ci il 30 iyunda professor seçilmiş, bir illik sınaq dövrü keçdikdən sonra AAK bu qərarı da təsdiq etmişdir (PR.№006028).

Mirzəyev Həsən 1952-ci ildən elmi fəaliyyətə başlamışdır. Bu sahədə onun yarım əsr stajı vardır. 190-dan çox elmi əsərin, o cümlədən, 9 kitabın (8-i monoqrafiyadır), 1 şer kitabının, 8 tədris proqramının müəllifidir. Xeyli publisist məqalələri vardır. 36 monoqrafiya, tədris vəsaiti, metodik göstəriş və tədris proqramının elmi redaktoru, həmçinin 2 bədii əsərin redaktoru, 5 dərslik və dərs vəsaitinin rəyçisi, 1 monoqrafiyanın məsləhətçisi, 13 elmlər namizədi və elmlər doktorunun opponenti olmuş, xeyli elmi kadrlar (elmlər doktoru və elmlər namizədi) yetişdirmişdir. 12 il müddətində rəhbərlik etdiyi kafedrada 6 elmlər doktoru və professorun yetişməsinə nail olmuşdur. Bir nəfərin də işi müdafiyə buraxılmışdır. Yüzlərlə tələbənin - magistr və bakalavrın elmi işlərinə rəhbərlik etmişdir. Onun yazdığı kitablar haqqında ixtisasçıların 36 müsbət rəyi çap olunmuşdur.

Yazdığı kitab, proqram və məqalələrin ümumi həcmi 250 çap vərəqindən artıqdır. Redaktoru, elmi rəhbəri, məsləhətçisi olduğu, rəy verdiyi əsərləri də bura əlavə etsək, bu həcm 400 çap vərəqindən çoxdur. Onun ictimai fəaliyyəti, şəxsiyyəti ilə bağlı mətbuatda 150-dən artıq mənbədə xoş məramlı fikir və rəy vardır.

Respublikanın 60-dan çox şair və şair təbiətli adamları onun şəxsiyyətinə və yaradıcılığına 70-dən çox şer və iki poema həsr etmişdir.

Həsən müəllim yarım əsrlik bir müddətdə həmişə təşkilati işlərdə olmuş və bunların bir çoxuna rəhbərlik etmişdir. O, elində-obasında, həmçinin respublikada ağsaqqal kimi də fəaliyyət göstərmişdir. 1989-cu ildə Respublika Qaçqınlar Cəmiyyətinin birinci qurultayında Ağsaqqallar şurasına üzv, 1997-ci ilin fevralında Ağsaqqalar şurasının 2-ci qurultayında idarə heyətinə üzv, 1997-ci ilin sentyabrında isə növbədən kənar 3-cü qurultayında Respublika Ağsaqqaları şurasının sədr müavini seçilmişdir.

1959-cu ildə kənd sovetinə, 1990-cı ildə Bakı Şəhər Sovetinə, 1998-ci ildə Birinci çağırış, 2000-ci ildə ikinci çağırış Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilmişdir. O, ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk sessiyasına sədrlik etmiş, 1998-ci ildə Məşhəd, 2000-ci ildə Həc ziyarətində olmuşdur.

Ailəlidir, 4 övladı var.

## SULTANOV HƏSƏN ABBAS OĞLU

Ermənilər tərəfindən Qərbi Azərbaycanın Dərələyəz mahalından qovulub Tərtər rayonunda məskunlaşan Abbas kişinin oğlu Sultanov Həsən 1932-ci ildə Azərbaycan Respublikasının Tərtər rayonunun Söylən kəndində anadan olmuşdur. 1939-cu ildə Tərtər rayonunun Evoğlu kənd orta məktəbinə daxil



olmuş, 8-ci sinfi qurtardıqdan sonra Tərtər rayon orta məktəbinə köçürülmüş, 1949-cu ildə bu məktəbi qurtarmışdır. 1949-cu ildə Azərbaycan Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuş, 1953-cü ildə Kuybışevdə olan hərbi tibbi fakültəsinə köçürülmüş, 1955-ci ildə həmin fakültəni bitirmişdir. Bu vaxtdan 1957-ci ilə kimi Murmansk vilayətində hərbi həkim işləmiş, 1957-ci ildə hərbidən tərxis edilərək Tərtər rayonunun Evoğlu kəndində kənd xəstəxanasının müdiri vəzifəsinə təyin olunmuşdur. 1960-cı ildə Azərbaycan Tibb İnstitutunun I hospital cərrahiyyə kafedrasında kliniki ordinaturaya daxil olmuş, 1963-cü ildə ordinaturanı qurtarmış, bundan sonra Bərdə rayon xəstəxanasında cərrahi şöbədə müdir, baş həkimin müalicə işləri üzrə müavini və nəhayət rayonun baş həkimi vəzifəsində işləmişdir. 1972-ci ildə Azərbaycan Tibb İnstitutunun hospital cərrahiyyə kafedrasına assistent seçilmiş, 1980-1987-ci illərdə dosent, 1987-1990-cı illərdə kafedranın professoru, 1990-cu ildən indiyə kimi kafedranın müdiri vəzifəsində işləyir. Eyni zamanda 1988-1993-cü illərdə Azərbaycan Tibb İnstitutunun I müalicə profilaktika fakültəsinin dekanı vəzifəsndə işləmişdir.

Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Sultanov Həsən Abbas oğlu 8 monoqrafiya və dərsliyin, 210-dan çox məqalənin müəllifidir. Onun rəhbərliyi altında 11 nəfər tibb elmləri namizədi, 4 nəfər tibbi elmləri doktoru dissertasiya müdafiə etmişdir. O, bir sıra orden, medal və fəxri ada layiq görülmüşdür.

## NURİYEV BARAT RZA OĞLU



Nuriyev Barat 10 dekabr 1953-cü ildə Dərələyəzin Kotanlı kəndində anadan olmuş, 1969-cu ildə Dərələyəzdə Qovuşuq kənd orta məktəbini bitirərək Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) mexanika-riyaziyyat fakltəsinə daxil olmuş, 1974-cü ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirmişdir. O, təyinat üzrə Azərbaycan Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutuna işə qəbul olunmuş, elə həmin il aspiranturaya daxil olaraq Moskva Dövlət Universitetinə ezam edilmişdir. 1976-cı ildə Moskva Dövlət Universitetində vaxtından əvvəl namizədlik dissertasiyası müdafiə edərək Azərbaycan Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutuna qayıtmış, 1977-ci ildə həmin institutun baş elmi işçisi, 1986-cı ildə institutun elmi katibi seçilmişdir.

1980-1981-ci illərdə Amerika Birləşmiş Ştatlarının İllinoys Universitetində elmi ezamiyyətdə olmuş, 1985-ci ildə elm sahəsində Ümumittifaq Lenin Komsomolu mükafatına layiq görülmüş, 1986-cı ildə fizika-riyaziyyat elmləri dok-

toru elmi dərəcəsini, 1988-ci ildə isə professor adını almışdır.

1990-1991-ci illərdə Yaponiyanın Vaseda Universitetində, 1992-1996-cı illərdə isə Türkiyənin Orta Doğu Texniki Universitetində professor vəzifəsində çalışmışdır.

1996-cı ilin sentyabrında xarici ezamiyyətdən qayıdaraq Azərbaycan Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunda elmi işlər üzrə direktor müavini təyin edilmişdir. Bu dövr ərzində ABŞ, Yaponiya, Misir Ərəb Respublikası, Rusiya, Türkiyə və Azərbaycanda fəaliyyət göstərən 25-dən artıq elmlər namizədi və elmlər doktoru yetişdirmişdir.

1997-ci ilin mart ayında Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Azərbaycan Respublikası Dövlət Əmlak Komitəsinin sədr müavini vəzifəsinə təyin olunmuş, 1999-cu ilin noyabr ayında Azərbaycan Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutuna qayıtmış və hazırda həmin institutda baş elmi işçi vəzifəsində çalışır.

Üç kitabın ("Lectures on Mechanics", "A First Course in Soliton Therory", "Bazar iqtisadiyyatı və Azərbaycan") və 70-dən çox elmi məqalənin müəllifidir, onlarla beynəlxalq elmi konfrans və simpoziumlarda çıxış etmişdir.

Türk, rus, ingilis və yapon dillərində sərbəst danışır.

## DÜNYAMALIYEV MƏHƏMMƏD BABAMİRZƏ OĞLU



Dünyamalıyev Məhəmməd 1938-ci il dekabrın 28-də Dərələyəzin Əzizbəyov rayonunun Qurdqulaq kəndində anadan olmuş və ibtidai təhsilini doğulduğu kənddə almışdır. Sonra onun ailəsi həmin rayonun Zeytə kəndinə köçmüş, yeddinci sinfi həmin kənddə bitirmiş, səkkinci sinfi isə 1953-cü ildə Yeğeqnadzor rayonunun Qovuşuq kəndində oxumuşdur. 1954-cü ildə ailələri Naxçıvan rayonunun Xəlilli kəndinə köçmüş və o, orta məktəbi Təzəkənd kəndində bitirmişdir.

Dünyamalıyev Məhəmməd 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsinin riyaziyyat şöbəsinə daxil olmuş, 1962-ci ildə həmin Universiteti bitirmişdir. Həmin il dövlət imtahan komissiyası onu Politexnik institutunun (indiki Texniki Universitetin) ali riyaziyyat kafedrasına assistent vəzifəsinə işə göndərmişdir. O, 1964-cü ildə Azərbaycan Elmlər Akademiyasında aspiranturaya daxil olmuş, 1970-ci ildə Azərbaycan Dövlət Universitetində (indiki BDU-da) dissertasiya müdafiə edərək fizika-riyaziyyat elmlər namizədi elmi dərəcəsi adını almış, 1975-ci ildə Politexnik İnstitutunun elmi-riyaziyyat kafedrasının dosenti vəzifəsinə seçilmişdir.

O, 1990-cı ildə Azərbaycan Elmlər Akademiyasının Dərin neft və qaz yataqları problemləri institutunda doktorluq dissertasiyası müdafiə edərək texnika elmlər doktoru elmi dərəcəsi adını almışdır. 1995-ci ildə Azərbaycan Tex-

niki Universitetinin ali riyaziyyat kafedrasının prosessoru vəzifəsinə seçilmiş, bir neçə namizədlik və doktorluq dissertasiyalarına apponent olmuşdur.

Hal-hazırda Azərbaycan Texniki Universitetinin professoru vəzifəsində işləyir. Çoxlu elmi əsərləri, kitabları vardır.

## İLYASOV MUSA XANLAR OĞLU



İlyasov Musa 01.01.1949-cu ildə Qərbi Azərbaycanın Dərələyəz mahalının Zeytə kəndində müəllim ailəsində doğulmuşdur. Zeytə kəndinin əhalisi 1949-cu ildə öz doğma yurdundan deportasiya olunarkən Musanın ailəsi Əli-Bayramlı rayonunun Şıxsalahlı kəndində məskunlaşmış və Musa 1955-1958-ci illərdə Əli-Bayramlı rayonu Şıxsalahlı kənd yeddiillik məktəbində oxumuşdur. 1958-ci ildə ailəsi yenidən Zeytə kəndinə qayıtmış və 1962-ci ildə bu kənddə yeddinci sinfi bitirmişdir. Ermənilərin təqibi nəticəsində 1962-ci ildə ailəsi yenidən Sabirabad rayonunun Şıxsalahlı kəndinə köçməyə məcbur olmuşdur. O, 1966-cı ildə Əli-Bayramlı şəhər 2 №-li orta məktəbini bitirib Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinin Mexanika bölməsinə qəbul olunmuşdur. 1971-ci ildə oranı fərqlənmə diplomu ilə bitirərək aspiranturaya daxil olmuş, 1974-cü ilin sonunadək M.V.Lomonosov adına MDU-nin əyani aspiranturasında, A.A.İlyuşinin kafedrasında oxumuşdur. 1975-ci ildə "Elastık və özlü-elastik kubuk, silindr və lövhələrdə qərarlaşmayan dalqalar" mövzusunda dissertasiya müdafiə edib fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi adını almışdır. 1975-ci ildən AEA Riyaziyyat və Mexanika İnstitutunda kiçik elmi işçi, 1977-ci ilin fevral ayından isə baş elmi işçi vəzifəsində işləmişdir. 08.02.1985-ci ildə MDU-nun elmi şurasında "Xətli özlü-elastikliyyət nəzəriyyəsinin bəzi dinamik problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş və elmlər doktoru adını almışdır. AEA Riyaziyyat və Mexanika İnstitutunda "Riyaziyyat və Mexanikanın tətbiqi problemləri", "İrsi mühitlər mexanikası" və "Kompozitlər mexanikası" adlı şöbələrin rəhbəri vəzifələrində çalışmışdır. 1986-cı ildə AEA Riyaziyyat və Mexanika İnstitutunun Elmi Şurasının qərarı ilə professor seçilmiş və 1991-ci ildə professorluq attestatını almışdır. Mexanika, tətbiqi riyaziyyat və seysmologiya problemlərinə həsr edilmiş 100-dək elmi əsərin müəllifidir. Azərbaycanda 22 elmlər namizədi, Türkiyədə isə 3 elmlər doktoru hazırlamışdır. Doktorluq və namizədlik dissertasiyaları müdafiə edilən ixtisaslaşdırılmış elmi şuraların üzvü və elmi katibi olmuş, 1978-ci ildə Xankəndi Pedaqoji İnstitutunun Azərbaycan bölməsində nəzəri mexanika kursunu tədris etmişdir. 1986-cı ildə "Əməkdə fərqlənməyə görə" medalı ilə təltif olunmuşdur. 1989-cu ildə AEA-na seçkilərdə və iki dəfə Respublika Dövlət mükafatı müsabiqəsində iştirak etmişdir. 1993-cü ilin avqust ayından 1999-cu ilin sonunadək Türkiyədə İstanbul Uni-

versitetinin professoru vəzifəsində çalışmış, Türkiyədə baş verən zəlzələdən sonra ailəsi ilə birlikdə Azərbaycana qayıtmışdır.

Yeni Azərbaycan Partiyasının üzvüdür. 1992-ci ildə möhtərəm Heydər Əliyev "Azərbaycan Sizin yolunuzu gözləyir" məşhur müraciətini imzalayan 91 nəfər ziyalılardan biridir.

## BAĞIROV FİRUDİN BABA OĞLU



Bağırov Firudin 1936-cı ildə Dərələyəz mahalının Heşin kəndində anadan olmuşdur. 1953-cü ildə kənd orta məktəbini bitirərək, Azərbaycan Dövlət Kənd Təsərrüfatı Akademiyasında kənd təsərrüfatının mexanikləşdirilməsi fakültəsinə daxil olmuş, 1958-ci ildə institutu bitirmişdir. Bundan sonra o, bir müddət müxtəlif tikinti idarələrində mexanik, baş mühəndis vəzifələrində çalışmışdır.

Firudin Bağırov 1963-cü ildə ADKTA-nın traktorlar və avtomobillər kafedrasının assistenti vəzifəsinə təyin edilmiş və 1967-ci ildə Moskva İnşaat Mühəndisləri İnstitutunda namizədlik dissertasiyasını müdafiə edərək, texnika elmləri namizədi alimlik dərəcəsi almışdır. Bundan sonra baş müəllim, dosent vəzifələrində işləmişdir. 1973-cü ildə Firudin Bağırov kənd təsərrüfatının mexanikləşdirilməsi fakültəsinə dekan seçilmiş və 6 il bu məsul vəzifədə çalışmışdır. 1987-ci ildə o, ixtisasartırma üzrə prorektor vəzifəsinə irəli çəkilərək 1991-ci ilə qədər bu vəzifədə işləmişdir. F.Bağırov 1991-ci ildə Rostov İnşaat Mühəndisləri İnstitutunda doktorluq dissertasiyası müdafiə edərək texnika elmləri doktoru adını almışdır. Xeyli elmi məqalələri var.

O, 1999-cu ildə Bakıda vəfat etmişdir.

## ƏMİROV HÜSEYN TEYMUR OĞLU



Əmirov Hüseyn 1938-ci il aprelin 2-də Dərələyəz mahalının Qovuşuq kəndində anadan olmuşdur. Erməni şovinistlərinin təqibi nəticəsində ailəsi Şərur rayonunun Danzik kəndində, Bərdənin Qazaxlar kəndində, Şəmkir rayonunun Dəllər stansiyasında yaşamağa məcbur olmuş, 10 gün müddətində ana və atası dünyasını dəyişmiş, bundan sonra o, Dərələyəzə qayıtmış və əmisi Amilin himayəsində yaşamışdır. 1956-cı ildə Qovuşuq kənd orta məktəbində təhsilini başa vurmuş, 1957-1958-ci tədris ilində Yerevan Pedaqoji İnstitutunun tarix-filologiya fakültəsinə daxil olub dörd il orada oxumuş, sonra Bakıda ADPU-

nun həmin fakultəsinə dəyişilmiş və ali təhsilini burada başa vurmuşdur. Bundan sonra o, bir sıra məktəblərdə müəllim vəzifəsində çalışmışdır.

1968-ci ildən Azərbaycan EA Tarix institutunda bir neçə il kiçik elmi işçi vəzifəsində işləmiş, 1978-ci ildə "İnkişaf etmiş sosializm dövründə kənd təsərrüfatını yüksəltmək uğrunda Azərbaycan kolxozçularının mübarizəsi (1959-1965-ci illər)" mövzusunda namizədlik, 1990-cı ildə "Azərbaycan SSR-in kənd təsərrüfatı 60-80-ci illərdə" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək tarix elmləri namizədi və elmlər doktoru dərəcələri almışdır. O, hal-hazırda Tarix institutunda aparıcı elmi işçi (yarım ştat) və ADPU-nun "Azərbaycan tarixi" kafedrasının professoru vəzifəsində işləyir. 1980-ci illərin sonlarında Tarix İnstitutunda ilk partiya təşkilatının katibi işləmiş, hazırda YAP-ın üzvüdür. O, bir sıra monoqrafiya, kitab və onlarla elmi məqalənin müəllifidir. Çoxcildlik "Azərbaycan tarixi"nin 7-ci cildinin müəlliflərindən biri, "Azərbaycan SSR Böyük Vətən müharibəsi dövründə (1941-1945-ci illər)" (1977) 2 cildlik sənədlər və materiallar məcmuəsini hazırlayan işçi qrupunun üzvüdür.

Ali məktəbdə işə keçdiyi qısa müddətdə magistrlar üçün "Yeni və ən yeni Azərbaycan tarixinin mənbəşünaslığı" adlı dərs vəsaitini yazıb başa çatdırmışdır. Bir neçə namizədlik dissertasiyalarının müdafiəsində opponentlik etmiş, xeyli müddət Tarix institutunda doktorluq üzrə müdafiə şurasının üzvü olmuşdur.

## QUBADOV TEYQUBAD BAYRAM OĞLU



Qubadov Teyqubad 1939-cu ildə Dərələyəz mahalının Köçbək kəndində anadan olmuş, 1951-ci ildə ailəsi ilə birlikdə doğma yurd-yuvasından deportasiya olunaraq Azərbaycana köçürülmüşdür.

O, 1967-ci ildən indiyədək Azərbaycan Politexnik İnstitutunda (indiki AzTU) işləyir. 2001-ci ilə qədər Az TU-nun "Avtomatika və idarəetmə" kafedrasına rəhbərlik edən Teyqubad hazırda həmin universitetin "Elektrotexnika və elektrik avadanlığı" kafedrasının müdiri vəzifələrində çalışır.

T.B.Qubadov müasir dövrün tələblərinə uyğun olan, strateji cəhətdən çox əhəmiyyət kəsb edən elmi-tədqiqat işləri aparmış, uçuş obyektlərinin fəzada hərəkət sürətinin təkmilləşdirilməsi işində və digər məsələlərdə xeyli iş görmüşdür.

Prof. T.B.Qubadov respublika və xarici ölkələrdə 100-dən artıq elmi məqalə çap etdirmiş və Azərbaycan Respublikasının 40 müəlliflik şəhadətnaməsi və patentini almışdır. Onlarla dərslik, dərs vəsaiti və metodik göstərişlərin müəllifidir.

## ŞAHVERDİYEV ZƏHMƏT ƏBÜLFƏT OĞLU



Şahverdiyev Zəhmət 1942-ci il noyabrın 14-də Dərələyəzin Kotanlı kəndində anadan olmuşdur. Yeddiillik təhsilini doğma kəndində, orta təhsilini qonşu Qovuşuq kəndində almışdır. 1961-1964-cü illərdə ordu sıralarında xidmət etmiş, ordudan tərxis edildikdən sonra iki il təsərrüfatda çalışmışdır. 1966-cı ildə ADPU-nun tarix fakültəsinə (əyani) daxil olmuş, 1970-ci ildə buranı fərqlənmə diplomu ilə bitirərək həmin universitetin Naxçıvan filialına tarix müəllimi təyin olunmuşdur. O, 1970-1972-ci illərdə burada müəllim, 1973-1975-ci illərdə Naxçıvan Dövlət Pedaqoji İnstitutunda tədris hissə müdiri, 1976-1983-cü illərdə isə baş müəllim vəzifəsində çalışmışdır.

O, 1974-1978-ci illərdə Azərbaycan EA Tarix İnstitutunun Yeni tarix şöbəsində qiyabi aspirant olmuş, 1984-cü ildə müdafiə edərək tarix elmləri namizədi adını almışdır. Z.Ə.Şahverdiyev 1984-1986-cı illərdə Naxçıvan Dövlət Pedaqoji İnstitutunun tarix-filologiya fakültəsində dekan müavini və Ümumi tarix kafedrasının müdiri vəzifələrində işləmişdir. O, 1985-1988-ci illərdə bir çox yerlərdə keçirilən simpozium və konfranslarda məruzə ilə çıxış etmiş, çoxlu elmi əsərləri çap olunmuşdur. 1996-1997-ci illərdə NDU-nun humanitar fakültəsinin dekan müavini, 1998-ci ildən bu günədək isə tarix-filologiya fakültəsinin dekanı işləmişdir. 30 ildən artıq eyni adlı müəssisədə müxtəlif vəzifələrdə işləyən Z.Ə.Şahverdiyev bu gün də yüksək ixtisaslı elmi-pedaqoji kadrların hazırlanmasında fəaliyyətini davam etdirir.

## KƏRİMOV KƏRİM RƏHİM OĞLU



Kərimov Kərim 10 oktyabr 1938-ci ildə Dərələyəzin Əzizbəyov rayonunun Gabut kəndində anadan olmuşdur. Orta təhsilini Şərur rayonunun Qarabağlar kəndində başa vuran Kərim Kərimov 1960-cı ildə ADU-nun Mexanika-riyaziyyat fakültəsinə daxil olmuş, 1965-ci ildə həmin fakültəni bitirmiş və təyinatla Az. EA-nın Kibernetika İnstitutuna işə qəbul edilmişdir. Əvvəlcə baş laborant, sonra isə elmi işçi vəzifəsində çalışmışdır.

O, 1969-cu ildə Azərbaycan EA-nın Mexanika-riyaziyyat İnstitutunun aspiranturasına daxil olmuş və 1972-ci ildə dissertasiya müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi adını almışdır. 1972-ci ildən 1991-ci ilə qədər K.R.Kərimov D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun "Ali riyaziyyat" kafedrasında müəllim, baş müəllim və dosent vəzifəsində, 1994-cü

ildən 2000-ci ilin may ayına qədər həmin institutda yaradılmış "Ali riyaziyyat" kafedrasında müdir vəzifəsində işləmişdir.

14 fevral 2001-ci il tarixdə o, texnoloji ixtisaslar üzrə "Ali riyaziyyat" kafedrasına yenidən müdir seçilmiş və hal-hazırda orada işləyir. Çoxlu elmi əsərləri vardır. K.R.Kərimov dörd övlad atasıdır.

## XƏLİLOV XƏLİL ƏLİ OĞLU



Xəlilov Xəlil Əli oğlu 1931-ci ildə Dərələyəzin Ələyəz kəndində anadan olmuşdur, ibtidai və orta təhsilini Ələyəz və Qovuşuq məktəbində almış, 1957-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin fizika-riyaziyyat fakültəsini bitirmişdir. O, uzun müddət doğulduğu kənddə və Qovuşuq kənd orta məktəbində fizika-riyaziyyat müəllimi işləmiş, 1959-cu ilin noyabrında Qovuşuq kənd orta məktəbinə direktor təyin edilmişdir. Bir müddət burada işlədikdən sonra Azərbaycan Elmlər Akrdemiyasının Fizika İnstitutunda kiçik elmi işçi kimi işə başlamış, Peterburq şəhərində aspiranturaya daxil olmuş, 1972-ci ildə namizədlik dissertasiyası müdafiə edib alimlik dərəcəsi almış və 1975-ci ilə qədər orada işləmişdir.

1975-ci ildə yenidən Azərbaycan Elmlər Akademiyasının Fizika İnstitutuna qayıdıb orada fəaliyyət göstərmiş, 1988-ci ildə "Əmək veteranı" adına layiq görülmüşdür.

O doktorluq dissertasiyası üzərində xeyli işləmiş, onu hazır vəziyyətə gətirmiş, lakin üzürlü səbəblərə görə müdafiəni başa çatdıra bilməmiş, 1994-cü ilin may ayında Bakıda dünyasını dəyişdirmişdir.

O bir çox elmi məqalələrin, proşuraların müəllifidir.

## HƏSƏNOV ƏLİ CABBAR OĞLU



O, 1927-ci ildə İrəvan mahalının Əzizbəyov rayonunda anadan olmuşdur. Atası Həsənov Cabbar 1948-ci ildə deportasiya olunaraq öz ailəsini Gəncə şəhərinə köçürmüşdür. Həsənov Əli Gəncə şəhərində pedaqoji institutu əla qiymətlərlə bitirdikdən sonra Kənd Təsərrüfatı Akademiyasının tarix kafedrasında işə başlayır.

Həsənov Əli 1968-ci ildə Qənbərova Lətifə Qasım qızı ilə ailə həyatı qurur. Həsənov Əli 1991-ci ildə tarix elmləri namizədliyi üzrə müdafiə edir. O kollektiv və tələbələr arasında böyük nüfuza malik idi.

Həsənov Əli hamıya qarşı çox qayğıkeş, mehriban, insanpərvər və müdrik bir ziyalı idi. O, 2000-ci ildə dünyasını dəyişdi. Onun həyat yoldaşı Lətifə xanım Tibb İnstitutunu əla qiymətlərlə bitirmiş, hal-hazırda Gəncədə ginekologiya üzrə məşhur veteran həkimdir. Onların üç övladları var, hər üçü də ziyalıdır.

Oğlu Həsənov Arif Əli oğlu Tibb İnstitutunu bitirdikdən sonra Gəncə şəhərində qospitalda mayor rütbəsində hərbi həkim işləyir.

Digər oğlanları Həsənov Eldar Əli oğlu və Həsənov İlqar Əli oğlu Kənd Təsərrüfatı Akademiyasını bitiriblər. Hal-hazırda bizneslə məşğuldurlar.

## HEYDƏROV XƏLİL İMRAN OĞLU



Heydərov Xəlil 1945-ci ildə Dərələyəzin Köçbək kəndində anadan olmuş, bir yaşında atasını itirmiş, anasının himayəsində böyümüşdür.

1952-ci ildə kənd əhalisi ilə birlikdə bu ailə də doğma kəndindən deportasiya olunmuş və Azərbaycan Respublikasının Yevlax rayonunda məskunlaşmışlar. X.Heydərov 1961-ci ildə Yevlax şəhər 2 №-li orta məktəbi bitirdikdən sonra Bakı texnoloji texnikumuna daxil olmuş, 1963-cü ildə oranı bitirmiş, elə həmin il də (1963-cü ildə) Bakı Dövlət Universitetinin kimya fakültəsinə daxil olmuşdur. 1968-ci ildə oranı bitirib Azərbaycan Milli Elmlər Akademiyasının Kimya Problemləri İnstitutunda laborant, mühəndis, kiçik elmi işçi vəzifəsində çalışmışdır.

1971-ci ildə həmin institutun aspiranturasına daxil olmuş və 1975-ci ildə dissertasiya müdafiə edərək kimya elmləri namizədi alimlik dərəcəsi almışdır. Hal-hazırda adı çəkilən institutda baş elmi işçi vəzifəsində çalışır. 50-dən çox elmi əsərin müəllifidir.

## ALIYEV İSA HÜSEYN OĞLU



Alıyev İsa 08.10.1953-cü ildə Dərələyəzin Qalaser kəndində anadan olmuşdur.

1970-ci ildə orta məktəbi bitirmiş, həmin il İqtisad Universitetinə daxil olmuş, 1975-ci ildə oranı qurtarmışdır. O, 1975-ci ildə Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun əyani aspiranturasına qəbul olmuş, 1982-ci ildə müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır.

1976-1978-ci illərdə Sovet Ordusu sıralarında xidmət etmiş, 1980-ci ildən İqtisadiyyat İnstitutunda baş labo-

rant, kiçik elmi işçi, baş elmi işçi, 1990-cı ildən "Aqrar münasibətlər" şöbəsinin müdiri, 2000-ci ilin fevral ayından isə "Siyasi iqtisadın ümumi problemləri" şöbəsinin müdiridir. 5 kitabın (1-i monoqrafiyadır), 90-dan çox elmi məqalənin tezis və qəzet yazılarının müəllifidir. O, xeyli aspirant yetişdirmiş və bunların çoxu müdafiə etmişdir. 10 nəfərin namizədlik dissertasiyasına opponet olmuşdur. 50-dən çox elmi-nəzəri, praktiki konfrans, seminar və simpoziumlarda iştirak etmiş, bir çox elmi əsərlərin redaktoru olmuşdur. 1980-ci ildən pedaqoji fəaliyyətə başlamış və Bakı Asiya Universitetinin təsisçisi olmuşdur.

O, "Bazar iqtisadiyyatına keçid şəraitində yeni aqrar münasibətlərin formalaşması və idarəolunmasının iqtisadi mexanizminin təkmilləşdirilməsi" mövzusunda doktorluq dissertasiyasını tamamlamışdır.

## ƏSƏDOV NAZİR NƏBİ OĞLU



Əsədov Nazir 1950-ci il aprel ayının 9-da Dərələyəz mahalının Qovuşuq kəndində müəllim ailəsində anadan olmuş, 1957-1967-ci illərdə Qovuşuq kənd orta məktəbində oxumuş və buranı gümüş medalla bitirib əmək fəaliyyətinə başlamışdır.

1968-1972-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarix fakültəsində təhsil almış, institutun böyük sovetinin qərarı və Təhsil Nazirliyinin təyinatı əsasında institutun Azərbaycan tarixi kafedrasında assistent vəzifəsində saxlanılmışdır.

1983-cü ildə "Azərbaycanın Zaqafqaziyanın digər respublikaları ilə iqtisadi əlaqələri" mövzusunda dissertasiya müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi adını almışdır.

Hal-hazırda ADPU-nin Azərbaycan tarixi kafedrasında dosent və tarix fakültəsinin dekan müavini vəzifəsində işləyir.

## FƏTULLAYEV HƏSƏN YUSİF OĞLU

Fətullayev Həsən 1953-cü ildə Dərələyəzin Sallı kəndində anadan olmuşdur. İbtidai və orta təhsilini doğulduğu Sallı kəndində və Bərdə rayonunun İmirli kəndində almış və 1969-cu ildə kamal attestatı almışdır. Bundan sonra o, BDU-ya daxil olmuş, burada geoloji-coğrafiya ixtisası almış və buranı fərqlənmə diplomu ilə bitirərək Azərbaycan EA Coğrafiya İnstitutunda böyük mühəndis vəzifəsində çalışmışdır. 1980-1983-cü illərdə Rusiya Dövlət Hidroloji İnstitutunda (Peterburq şəhərində) aspiranturada oxumuşdur. 1983-cü ilin dekabr ayında həmin institutda namizədlik dissertasiyası müdafiə etmişdir. Sankt-Peterburqdan qayıdaraq H.Ə.Əliyev adına Coğrafiya İnstitutunda böyük mühəndis, kiçik elmi işçi, elmi işçi, baş elmi işçi, bölmə müdiri vəzifələrində işləmişdir. 2000-ci ildən etibarən Bakı Dövlət Universitetində dosent vəzifəsində

işləyir. 40 elmi əsərin və bir dərsliyin müəllifidir. Elmi əsərlərinin yarısı xarici ölkələrdə (Almaniya, Çexiya, Rusiya və s.) çap edilmişdir. Bir çox beynəlxalq elmi konfranslarda iştirak etmişdir. Beynəlxalq Hidroloji Proqram Birliyinin sədr müavinidir.

## MİRZƏYEV ƏLİ İBRAHİM OĞLU



Mirzəyev Əli 1953-cü ildə Dərələyəz mahalının Qovuşuq kəndində anadan olmuşdur.

O, ibtidai və yeddillik təhsilini anadan olduğu Qovuşuq kəndində almış, 1967-ci ildə Bakıda yaşayan böyük qardaşı Həsən Mirzəyevin yanına gəlmiş, orta təhsilini 1970-ci ildə buradakı 159 №-li orta məktəbdə başa vurmuşdur. Elə həmin ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarix fakültəsinə daxil olmuş, 1974-cü ildə buranı fərqlənmə diplomu ilə bitirmişdir. Universiteti bitirən kimi hərbi xidmətə getmiş, bir çox xarici ölkələrdə olmuş və 1975-ci ildə hərbi xidməti başa vurub geri qayıtmışdır. 1975-1979-cu illərdə Bakı şəhərindəki 82 №-li sənət məktəbində, 1979-1994-cü illərdə Azərbaycan Tibb Universitetində tarix müəllimi işləmişdir. Tarix elmləri namizədidir. 1994-cü ildən bu günə qədər özəl sektorda çalışır. Çoxlu qaçqın və köçkünə kömək göstərir.

## HƏSƏNALIYEV ZEYNAL MƏDƏT OĞLU



Həsənalıyev Zeynal 20 yanvar 1953-cü ildə Qərbi Azərbaycanın Dərələyəz mahalının Ələyəz kəndində anadan olmuşdur. İbtidai və orta təhsilini Ələyəz və Qovuşuq kəndlərində almışdır. Zeynal Həsənalıyev orta məktəbi qurtardıqdan sonra ordu sıralarına çağırılmış, ordudan tərxis olunduqdan sonra BDU-nun tarix fakültəsinə qəbul olunmuş, buranı qurtardıqdan sonra, həmin fakültənin Qədim dünya və orta əsrlər tarixi kafedrasında baş laborant və dissertant kimi fəaliyyət göstərmişdir.

1992-ci ildə "XVII əsrin 30-cü illərində Səfəvi dövlətinin ictimai-iqtisadi vəziyyəti (Alman səyyahı Adam Olearinin səyahətnaməsi əsasında)" mövzusunda dissertasiya müdafiə edərək tarix elmləri namizədi adını almışdır.

O, hal-hazırda BDU-da Beynəlxalq hüquq və beynəlxalq münasibətlər fakütləsində proqnozlaşdırma və beynəlxalq münasibətlər fəakültəsində dekan müavini vəzifəsində çalışır. Dossentdir. "Səfəvi dövləti" (XVII əsrin I yarı-

sında) kitabının, bir çox elmi məqalələrin və proqramların müəllifidir.

Hal-hazırda o, "Səfəvi dövləti-XVII əsrdə" (Avropa səyyahlarının məlumatları əsasında) doktorluq işi üzərində işləyir.

## CƏFƏROV QƏZƏNFƏR MÜZƏFFƏR OĞLU



Cəfərov Qəzənfər 1950-ci ildə Dərələyəzin Ələyəz kəndində anadan olmuşdur. Kəngərlilər nəslindən olan Məşədi Cəfərqulunun nəticəsi, bölgədə hamının hörmətlə yad etdiyi Bayramqulu müəllimin nəvəsidir.

O, ibtidai və yeddiillik təhsilini Ələyəz kəndində almış, 1973-cü ildə Qovuşuq kənd orta məktəbini bitirmişdir. Ordu sıralarında olmuş, hərbi xidməti bitirdikdən sonra 1976-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin kimya fakültəsinə daxil olmuş, 1980-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. 1980-1984-cü illərdə təyinat üzrə Cəlilabad rayonunda müəllim işləmiş, 1984-cü ildə Azərbaycan Elmlər Akademiyası nəzdində əyani aspiranturaya daxil olmuş, Qeyri-üzvi və Fiziki-kimya İnstitutunda elmi tədqiqatla məşğul olmuşdur. 1989-cu ildə həmin institutda metal-üzvü birləşmələrinin alınması şəraiti, quruluş xüsusiyyətləri və xassələri mövzusu üzrə namizədlik dissertasiyası müdafiə etmişdir.

Müxtəlif beynəlxalq, ittifaq və respublika səviyyəli elmi konfransların iştirakçısı olmuşdur. O, 30-dan çox çap olunmuş elmi məqalənin müəllifidir. Cəfərov Qəzənfər elmi tədqiqat işləri ilə yanaşı ali və orta ixtisas müəssisələrində pedaqoji fəaliyyətlə də məşğul olur.

Hal-hazırda Azərbaycan EA Qeyri-üzvi və Fiziki-kimya institutunda baş elmi işçi vəzifəsində çalışır.

## ƏHMƏDLİ NAZİR SURXAY OĞLU



Əhmədli Nazir 1961-ci ildə Dərələyəz mahalının Gabud kəndində müəllim ailəsində anadan olmuş, 1976-cı ildə Əzizbəyov rayonundakı Gabud kənd səkkizillik məktəbini, 1978-ci ildə həmin rayonun Gomur kənd orta məktəbini bitirmişdir.

O, 1979-cu ildə Naxçıvan Dövlət Universitetinin kimya-biologiya fakültəsinə daxil olmuş, 1984-cü ildə oranı fərqlənmə diplomu ilə bitirmiş, Universitetin Tələbə Elmi Cəmiyyətinin, fakültə Əlaçılar Şurasının sədri olmuş, Respublika tələbələrinin VIII-X elmi konfranslarında

iştirak etmiş və diplomlara layiq görülmüşdür.

1984-1986-cı illərdə Gabud kənd səkkizillik və Gomur kənd orta məktəblərində müəllim işlədikdən sonra Azərbaycan MEA-da aspiranturaya daxil olmuş, 1990-cı ildə orada kimya elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. Hal-hazırda Azərbaycanda Atatürk Mərkəzinin beynəlxalq əlaqələr şöbəsinin müdiridir.

O, 1988-ci ildə başlanan milli-azadlıq hərəkatının fəal iştirakçısı olmuş, "Millət" qəzetində müxbir (1992), Parlament və ideologiya şöbəsinin müdiri (1992-1993), baş redaktorun I müavini (1993-1996), baş redaktor (1996-1998) işləmişdir. Təsisçisi olduğu, 1998-2000-ci illərdə nəşr olunan müstəqil "Xəbər" qəzetinin baş redaktoru olmuşdur.

1992-ci ildə Azərbaycanın ən yaxşı parlament müxbiri üçün təsis edilmiş mükafata layiq görülmüş və bir sıra digər yaradıcılıq mükafatları da almışdır.

"Milli Məclisdə etüdlər" (1996)№ "Bir sözü seçdik" (1997) və "Mustafa Kamal Atatürk" (2002) kimi kitabların müəllifidir. Müxtəlif qəzet və jurnallarda tarixə, siyasətə, iqtisadiyyata, fəlsəfəyə aid yüzlərlə publisistik və elmi məqaləsi dərc olunmuşdur.

1995 və 2000-ci illərdə keçirilən parlament seçkilərində Milli Məclis üzvlüyünə namizəd olmuşdur.

## QƏMBƏROV AKİF AZAD OĞLU

Qəmbərov Akif 07.10.1964-cü ildə Dərələyəz mahalının Ayısəsi (Qayısəsi) kəndində anadan olmuşdur. 1979-cü ildə Ayısəsi kənd 8 illik və 1981-ci ildə Qovuşuq kənd orta məktəbini bitirmişdir.



1981-ci ildə Azərbaycan Dövlət Neft Akademiyasının Qaz-Neft-Mədən fakültəsinə daxil olmuş, 1986-cı ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirmişdir. Həmin ildə "Günəşli" neft yatağında neft və qazçıxarma operatoru kimi işə başlamış və hal-hazırda 28 may Neft və Qazçıxarma idarəsində Mərkəzi-Mühəndis-texnologiya xidmətində rəis vəzifəsində çalışır.

1994-cü ildə "Dənizdə neft yataqlarının işlənməsi ixtisası üzrə "Neft yataqlarının işlənməsinin təhlilinə yeni kinetik yanaşma" mövzusunda dissertasiya mövzusu götürmüş və 1997-ci ildə bunu müdafiə edib texnika elmləri namİzədi alimlik dərəcəsi adını almışdır.

1994-cü ildən etibarən ADNA-nın "Dəniz neft yataqlarının işlənməsi" problem laboratoriyasında böyük elmi işçi vəzifəsində elmi tədqiqatlarını davam etdirir. A.A.Qəmbərov 10 elmi işin, 1 ixtiranın və istehsalata tətbiq edilmiş 23 səmərələşdirici təklifin müəllifidir.

"Xəzərneftqaz" beynəlxalq elmi-praktik konfransın iştirakçısı olmuş və Azər-

baycan Respublikasının Qaz konsepsiyasının hazırlanması və tətbiqi layihəsinin müəlliflərindən biridir. Hal-hazırda Azərbaycan Respublikası Azneft İstehsalat Birliyinə aid olan idarələrdən birində texnoloji xidmətin rəisi vəzifəsində işləyir.

## İMAMƏLİYEV ƏKBƏR BAXIŞ OĞLU



İmaməliyev Əkbər 02.08.1943-cü ildə Dərələyəzin Gülüdüz kəndində anadan olmuş, ibtidai və orta təhsilini Gülüdüz və Qovuşuq kəndlərində almışdır. Orta məktəbi qurtaran kimi, 1960-cı ildə hərbi xidmətə getmiş, 1963-cü ildə hərbi xidmətdən təxris olunmuş, kənddə bir müddət işlədikdən sonra Bakıya gəlmişdir. 1964-cü ildə Bakıda 8 №-li tibb texnikumuna daxil olmuş, 1967-ci ildə həmin texnikumu bitirmiş və Dərələyəzin Qabaxlı kəndində feldşer işləmişdir. O, 1970-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin coğrafiya fakültəsinə daxil olmuş, 1975-ci ildə həmin universiteti bitirmiş və bir müddət Bakıda 158 və 72 saylı orta məktəblərdə müəllim işləmişdir.

1977-1980-ci illərdə Azərbaycan EA-nın Torpaqşünaslıq institutunda əyani şəkildə aspiranturada oxumuş, 1983-cü ilin noyabrında "Qobustan dağ ətəyi eroziyaya uğramış torpaqların çoxillik ot bitkiləri ilə bərkidilməsi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

1984-1986-cü illərdə Azərbaycan Kənd Təsərrüfatı Nazirliyində şöbə müdiri, 1987-1996-cı illərdə Gəncə kənd təsərrüfatı Akademiyasında baş müəllim işləmişdir. 50-yə yaxın elmi, elmi-metodiki məqalələrin, metodik göstərişlərin müəllifidir. 1996-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetində dosent vəzifəsində işləyir.

## NƏCƏFOVA RAYA ƏLİ QIZI



Kimya elmləri namizədi, dosent Raya Əli qızı Nəcəfova da Qərbi Azərbaycanın Dərələyəz mahalından erməni zorakılığı nəticəsində 1948-1950-ci illərdə deportasiya edilən ailələrdən birinin nümayəndəsidir.

Raya Nəcəfova 1960-cı ildə Naxçıvanın Şərur rayonunun Oğlanqala kəndində ziyalı ailəsində anadan olmuş, 1963-cü ildə ailəsi ilə birgə Sumqayıta köçmüş və buradakı 15 saylı orta məktəbdə təhsil almış, 1977-1978-ci illərdə "Üzvi-sintez" zavodunda fəhlə kimi əmək fəaliyyətinə başlamış, 1979-cu ildə BDU-nun biologiya fakültəsinə daxil olaraq 1982-1985-ci illərdə fakültə tələbə elmi cəmiyyətinin sədri və fakültə partiya bürosunun üzvi olmuşdur. 1984-cü ildə İrkutsk şəhərində Tələbələrin Beynəlxalq elmi konfransında etdiyi məruzəyə görə

fəxri fərmanla təltif olunmuş, diplom işini Moskvada Fizika-kimya İnstitutunda yerinə yetirərək BDU-nu fərqlənmə diplomu ilə bitirmişdir.

1986-cı ildən Azərbaycan Milli Elmlər Akademiyasının Sumqayıt Polimel Materiallar İnstitutunda baş laborant kimi əmək fəaliyyətinə başlamış,başelmi işçi vəzifəsinədək yüksəlmiş, 1990-cı ildə namizədlik dissertasiyası müdafiə edib alimlik dərəcəsi adını almışdır.

Hal-hazırda doktorluq mövzusu üzərində işləyir. 38 elmi əsərin, 6 ixtiranın müəllifidir. 2001-ci ildən Azərbaycan Müəllimlər İnstitutunun Sumqayıt filialının direktorudur.

## QAFAROV NİZAMİ CƏLAL OĞLU



Qafarov Nizami 1958-ci ildə Dərələyəz mahalının Köçbəy kəndində anadan olmuş, 1974-cü ildə Terp kənd orta məktəbini bitirmişdir.

1976-1978-ci illərdə hərbi xidmətdə olmuş, 1981-ci ildə Bakı Plan-uçotu texnikumunu bitirmiş, 1981-1988-ci illərdə sovxozda mühasib və baş mühasib vəzifələrində çalışmış, 1988-ci ildə yurdundan qovulmuş, Şuşa şəhərinə köçmüş, 1988-1992-ci illərdə Şuşa Kənd Təsərrüfatı Texnikumunda müəllim işləmişdir.

1991-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin uçot-iqtisad fakültəsinə daxil olmuş, 1997-ci ildə universiteti bitirib iqtisadçı ixtisası almış, 1992-ci ildə ermənilərin Şuşaya hücumundan sonra Bakı şəhərinə gəlmiş, Bakıda müxtəlif idarələrdə işləmişdir.

1997-ci ildə dissertant olmuş və 2002-ci ildə "Kiçik və orta biznesin iqtisadi səmərəliyinin yüksəldilməsi istiqamətləri" mövzusunda yazdığı dissertasiya işini müdafiə edib iqtisad elmlər namizədi adını almışdır. Sahibkarlığa aid 25-dən çox elmi məqalənin müəllifidir. 1997-ci ildən Dağıstan Dövlət Universiteti Əziz Əliyev adına Bakı filialının iqtisadi fənlər kafedrasında müəllim işləyir.

1999-cu ildə Maxaçqalada DDU-nin hüquq fakültəsinə daxil olmuş və 2002-ci ildə Universitetin hüquq fakültəsini bitirmişdir.

Hazırda DDU Ə.Əliyev adına Bakı filialında direktorun müavini vəzifəsində işləyir.

## ŞƏRİF ELBƏYLİ OĞLU HÜSEYNOV

Şərif Elbəyli oğlu Hüseynov 13 yanvar 1967-ci ildə Qərbi Azərbaycanın (Erm. SSR) Yegeqnadzor rayonunun Güllüdüz kəndində anadan olmuşdur. 1983-cü ildə orta məktəbi bitirdikdən sonra, həmin il ADU-nin Tətbiqi riyaziyyat fakültəsinə daxil olmuşdur. 1985-ci ildə hərbi xidmətə çağrılmışdır. 1987-ci ildə hərbi xidməti başa vurduqdan sonra təhsilini Moskva Dövlət Universi-

tetinin Riyazi hesablama və kibernetika fakültəsinin III kursundan başlayaraq davam etdirərək, həmin fakültəni 1991-ci ildə bitirmişdir. 1991-1995-ci illər Moskva Dövlət Universitetinin Riyazi hesablama və kibernetika fakültəsinin aspiranturasında əyani təhsil almış, 1995-ci ildə müdafiə edərək, fizika-riyaziyat elmləri namizədi, 2003-ci ildə isə fizika-riyaziyyat elmləri doktoru elmi dərəcələrini almışdır.



1995-1998-ci illər Moskva Dövlət Universitetinin Riyazi hesablama və kibernetika fakültəsinin kiçik elmi işçisi, 1998-1999-cu illər Beynəlxalq Nüvə Fizikası İnstitutunun elmi əməkdaşı olmuşdur. 2001-ci ildən Latviya Elmlər Akademiyasının Riyaziyyat İnstitutunun elmi işçisi, Latviya Dövlət Universitetinin və Riqa Nəqliyyat və Telekomunikasiya İnstitutunun dosenti kimi fəaliyyət göstərmişdir. Hal-hazırda Latviya Elmlər Akademiyasının Riyaziyyat İnstitutunun elmi işçisi, Latviya Dövlət Universitetinin və Riqa Nəqliyyat və Telekomunikasiya İnstitutunun professorudur. 59 elmi məqalənin müəllifidir.

## AĞAYAROV MƏTLƏB HÜSEYNQULU OĞLU



24 mart 1956-cı ildə Qərbi Azərbaycanın Yeğeqnadzor rayonunun Qabaxlı kəndində anadan olmuşdur. O, 1971-ci ildə Qabaxlı kənd 8 illik məktəbini, 1973-cü ildə isə Qovuşuq kənd orta məktəbini bitirmişdir. 1974-cü ildə Bakı Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinə daxil olmuş, 1979-cu ildə həmin fakültəni bitirmişdir.

1979-82-ci illərdə Lənkəran rayonunun Çil kəndində ixtisası üzrə müəllim, 1982-ci ildən Sumqayıt şəhərində "Neftkimyaavtomat" ETLİ-də mühəndis-riyaziyyatçı, 1991-ci ildən etibarən Sumqayıt şəhər 38 saylı orta məktəbində riyaziyyat müəllimi işləmiş, 1998-ci ildə Azərbaycan EA Riyaziyyat və Mexanika İnstitutunun dissertantı olmuşdur. 10 elmi məqalənin və 2 kitabın müəllifidir.

2001-ci il dekabr ayının 27-də "Deyişə malik membrana eninə zərbə" mövzusunda dissertasiya işini müdafiə edib, fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdır.

Hal-hazırdı Azərbaycan Müəllimlər İnstitutu Sumqayıt filialında "İxtisasdəyişmə və yenidən hazırlanma" kursları üzrə direktor müavini işləyir.

Ailəlidir, 2 övladı var.

## *DÖVLƏT İDARƏLƏRİNDƏ İŞLƏYƏNLƏR (BİR QRUPU)*

### VƏKİLOV İLYAS SULTAN OĞLU



Vəkilov İlyas 1905-ci il mart ayının 20-də Dərələyəzin Civə kəndində anadan olmuşdur. Civə kəndindəki Hacı Abbas mədrəsəsində ilk təhsil aldıqdan sonra o, 1915-1917-ci illərdə Heşin kəndində açılmış ikiillik rus-tatar məktəbini bitirmişdir. 1923-cü ildə komsomolun göndərişi ilə Bakı hərbi məktəbinin piyada qoşunlarında təhsil almışdır. 1926-cı ildə leytenant rütbəsi alaraq həmin məktəbdə tağım komandiri saxlanılmışdır. O, həmin il Sov. İKP sıralarına da qəbul olunmuşdur. 1927-ci ildə partiya xətti ilə Azərbaycan SSR Xalq Ədliyyə Komissarlığında şöbə rəisi təyin edilmiş, 1929-1931-ci illərdə Moskvada təhsil almışdır. 1931-ci ildə İ.Vəkilov Azərbaycan SSR Dövlət Plan Komitəsində işləməyə göndərilmiş və 1935-ci ilədək burada çalışmışdır. 1935-1938-ci illərdə Ümumittifaq Plan Akademiyasında təhsil aldıqdan sonra Naxçıvan MSSR xalq Komissarları Sovetinin sədrinin müavini, 1949-cu ildən 1978-ci ilədək Bakı Şəhər Soveti İcraiyyə Komitəsində Plan komissiyasının sədri vəzifəsində çalışmışdır.

İlyas Vəkilov uzun illər ictimai iş də aparmışdır. 1943-1945-ci illərdə Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin büro üzvlüyünə namizəd, 1939-1978-ci illər ərzində keçirilən seçkilərdə Bakı şəhər Sovetinə deputat, Bakı şəhər Sovetində İcraiyyə Komitəsinə üzv, habelə Azərbaycan KP Bakı Komitəsinə üzv seçilmişdir. O, neçə-neçə yüksək ordenlərlə təltif olunmuşdur.

İlyas Vəkilov tarixə, ədəbiyyata da böyük maraq göstərmiş, bütün ömrü boyu şer yazmışdır.

Vəkilov İlyas Sultan oğlu 2 iyun 1987-ci ildə vəfat etmişdir.

### QURBANOV İBRAHİM MUSA OĞLU

Qurbanov İbrahim 1925-ci il mart ayının 22-də Qərbi Azərbaycanın Əzizbəyov rayonundakı Terp kəndində anadan olmuşdur. O, əmək fəaliyyətinə 15 yaşında başlamış və Terp kənd Sovetində katib vəzifəsində işləmişdir. Sonralar Əzizbəyov rayonundakı Əzizbəyov adına kolxozda mühasib, Terp kənd natamam orta məktəbinin direktoru, həmin rayonun Zirək kəndindəki kolxozun mühasibi vəzifələrində çalışmışdır. O, 1944-cü ildə Əzizbəyov Rayon komsomol komitəsinin ikinci katibi seçilmiş və 1947-ci ildə Ermənistan KP Əzizbəyov rayon komitəsinin təlimatçısı işləmiş, 1948-ci ildə Azərbaycan KPMK yanında iki illik respublika Partiya məktəbinə göndərilmiş, burada partiya təhsili alaraq Azərbaycan KP Əli Bayramlı Rayon Komitəsində kənd təsərrüfatı

şöbəsinin müdiri təyin edilmişdir. 1949-cu ildə doğulduğu Terp kəndinin bütün əhalisi kimi, o da şovinist ermənilər tərəfindən Salyan rayonunun Qarabağlı kəndinə deportasiya edilmişdir. Sonralar o, Əli Bayramlı rayonundakı Vladimirsk MTS partiya təşkilatının katibi, MTS zonası üzrə Əli Bayramlı Rayon Partiya Komitəsinin katibi vəzifələrinə seçilmişdir.



İ.M.Qurbanov 1957-ci ildən 1961-ci ilədək Bakı Ali Partiya məktəbində təhsil almış, buranı bitirdikdən sonra Əli Bayramlı rayonundakı 6 nömrəli sovxozun istehsalat idarəsinin rəisi, Səlyan rayonundakı SSRİ-nin 50 illiyi adına 1 nömrəli pambıqçılıq sovxozunun direktoru işləmişdir. 1971-ci ildə S.Ağamalı oğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirərək zootexnik ixtisası almışdır.

1973-cü ildə Salyan Rayon İcraiyyə Komitəsinin sədri, bundan sonra Neftçala Rayon Partiya Komitəsinin birinci katibi, daha sonra (1980) Cəlilabad Rayon Partiya Komitəsinin birinci katibi seçilmişdir. O, Neftçala və Cəlilabad rayonlarını dirçəltmiş və böyük nailiyyətlər qazanmışdır.

İ.M.Qurbanov Azərbaycan KP MK-nın üzvü, doqquzuncu, onuncu və on birinci çağırış respublika Ali Sovetinin deputatı kimi fəal ictimai-siyasi iş aparmışdır. O, "Sosialist Əməyi Qəhrəmanının Qızıl Ulduzu", "Lenin" ordeni, üç "Qırmızı Əmək Bayrağı" ordeni və medallarla təltif edilmiş və 1992-ci il oktyabr ayının 29-da vəfat etmişdir.

## HACIYEV NƏCƏFƏLİ İMAMƏLİ OĞLU



1918-ci ildə erməni-müsəlman davasından sonra Dərələyəzin Əzizbəyov rayonunun Kotanlı kəndindən Naxçıvana köçməyə məcbur olan İmaməli kişinin oğlu Hacıyev Nəcəfəli İmaməli oğlu 1932-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur.

1952-ci ildə Naxçıvan şəhər 1№-li orta məktəbi bitirmiş, 1953-cü ildə Bakı Dövlət Universitetinin geologiya-coğrafiya fakültəsinə daxil olmuş, 1958-ci ildə həmin fakültəni qurtarıb mühəndis-geoloq ixtisası almışdır. 1958-ci ilin avqust ayından 1959-cü ilin aprel ayına qədər Azərbaycan Geologiya İdarəsində texnik-geoloq vəzifəsində işləmiş, 1959-cu ildən 1964-cü ilə qədər Baş Kür-Araz Su Qurğuları Tikinti İdarəsinin Naxçıvanda olan 6 №-li tikinti idarəsində beton-torpaq laboratoriyasının müdiri, istehsalat-texniki şöbədə mühəndis, böyük mühəndis, şöbə müdiri, baş iş icraçısı işləmişdir.

1964-1965-ci illərdə Naxçıvan Muxtar Respublikası Nazirlər Sovetində re-

ferent, Naxçıvan Vilayət Partiya Komitəsində inşaat, sənaye və nəqliyyat şöbəsində təlimatçı, 1965-1968-ci illlərdə Kür-Araz Baş Su Qurğuları İdarəsinin Naxçıvan şəhərində olan 6 №-li tikinti idarəsinin rəisi işləmişdir. 1968-1969-cu illərdə Naxçıvan şəhər Xalq deputatları Soveti İcraiyyə Komitəsinin sədri, 1969-1970-ci illərdə Arpa-Çay Su Qovşağı Tikintisinin rəisi, 1970-1976-cı illərdə Azərbaycan Baş Meliorasiya və Su Qurğuları İdarəsinin Muğan-Meliorasiya və Su Qurğuları inşaat trestinin müdiri, 1977-1983-cü illərdə Azərkəndsukəmərləri inşaat istehsalat birliyinin rəisi, 1983-1989-cu illərdə Respublika baş Meliorasiya və Su Qurğuları İnşaat idarəsinin rəisi işləmişdir. 1989-1992-ci illərdə Suriya Ərəb Respublikasında kontrakt rəhbəri vəzifəsində çalışmışdır. 1993-1996-cı illərdə Respublika Taxıl Məhsulları Dövlət Şirkətində tikinti-sənaye-layihə İstehsalat Birliyinin rəisi (Şirkətin Vitse Prezidenti) vəzifəsində işləmişdir. 1997-ci ildən bu günə qədər Azərbaycan Respublikası Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsinin "Dövlətxəzərmühafizə" Müfəttişliyinin rəisi vəzifəsində çalışır. O neçə-neçə orden və medallarla təltif olunmuşdur.

## AĞAHƏSƏNOV VAHİD ƏBDÜLHÜSEYN OĞLU



Ağəhəsənov Vahid 1950-ci il iyulun 15-də Dərələyəzin Əzizbəyov rayonunun Gülüstan kəndində anadan olmuş, 1967-ci ildə orta məktəbi bitirmişdir. O, 1967-1968-ci illərdə Gülüstan kəndində müəllim işləmiş, 1969-cu ildə Gəncə Kənd Təsərrüfatı Akademiyasına qəbul olmuş, 1974-cü ildə buranı bitirərək mühəndis-texnik ixtisasına yiyələnmişdir. 1974-cü ildə Naxçıvan "Azərkənd texnika" birliyində baş mühasib, 1975-ci ildən 1978-ci ilədək komsomol orqanlarında təlimatçı, şöbə müdiri, ikinci katib, 1978-ci ildən 1981-ci ilədək Babək rayon komsomol komitəsinin birinci katibi işləmişdir. 1981-ci ildə Bakı Ali Partiya məktəbində dinləyici olmuş və 1983-cü ildə oranı bitirmişdir.

1983-cü ildən Babək rayon partiya komitəsində şöbə müdiri, 1986-cı ildən 1991-ci ilədək Naxçıvan Vilayət Partiya Komitəsində təlimatçı, işlər idarəsinin müdiri, iqtisadiyyat şöbəsinin müdiri vəzifələrində işləmişdir.

1991-1995-ci illərdə Naxçıvan MR Nazirlər Kabinetində şöbə müdiri vəzifəsində işləyən Vahid Ağəhəsənov 1995-2000-ci illərdə Naxçıvan MR Ali Məclis sədrinin müavini işləmiş və 7 dekabr 2000-ci ildən bu günədək Naxçıvan MR Ali məclis sədrinin birinci müavini vəzifəsində işləyir.

IV çağırış Naxçıvan MR Ali Sovetinin və Ali Məclisinin deputatı seçilmişdir.

## DÜNYAMALIYEV NOVRUZ ƏSGƏR OĞLU



Dünyamalıyev Novruz 1927-ci il yanvar ayının 10-da Dərələyəzin Ertiş kəndində anadan olmuşdur. 1939-cu ildə Ertiş kəndi erməni şovinistləri tərəfindən köçürülüb başqa kəndlərə birləşdirildiyi üçün onun ailəsi Amağu kəndində məskunlaşmışdır. Orta məktəbi Ertiş, Civə və Qovuşuq məktəbində oxuyub başa vurmuşdur. O, bir müddət müəllim işləmiş, 1946-1949-cu illər arasında İrəvan Kənd Təsərrüfatı Texnikumunun zootexnika fakültəsini bitirmiş və həmin ildən etibarən Amağu kəndində müəllim işləmişdir.

O, burada dərs hissə müdiri, 1951-1962-ci illər arasında məktəb direktoru vəzifəsində çalışmış və bu müddətdə Naxçıvan Dvölət Müəllimlər İnstitutunun və Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarix fakültəsini qiyabi yolla bitirmişdir. 1962-1964-cü illər arasında Dərələyəzin Terp kəndində sovxoz direktoru işləmiş, 1964-1966-cı illərdə Bakı ali partiya məktəbində oxumuş və oranı bitirdikdən sonra Abşeron rayonunun Mehdiabad kəndində məskunlaşmışdır.

O, 1964-2002-ci illər arasında bir çox vəzifələrdə işləmişdir. O, Qobustan qoyunçuluq sovxozunda direktor müavini, Məmmədli südçülük sovxozunda azad partiya komitəsinin katibi, Altıağac sovxozunda direktor, Mehdiabadda sovxoz direktoru, Xırdalan sovxozunda direktor, respubilka heyvandarlıq birliyində sədr, Abşeron üzümçülük-şərabçılıq Aqro firmasında baş direktor, Xızı rayonunda icra hakimiyyəti başçısının birinci müavini, Abşeron tədarük və satış bazasında direktor vəzifəsində işləmiş və hal-hazırda Abşeron rayon istehlak cəmiyyətinin sədri vəzifəsində çalışır.

Şərəf nişanı ordeni və bir neçə medalla təltif olunmuş, dəfələrlə rayon sovetinin deputatı seçilmiş, xalq içərisində böyük nüfuza malik el ağsaqqalı kimi tanınmışdır.

## ƏLƏSOV NƏBİ ƏLİ OĞLU



Ələsov Nəbi 1940-cı ildə Dərələyəzdə, Ayısəsi kəndində anadan olmuşdur. Qovuşuq kənd məktəbini bitirdikdən sonra 1957-1961-ci ilədək kolxozda işləmiş, 1961-1964-cü illərdə hərbi xidmətdə olmuşdur. Ordudan tərxis olunduqdan sonra 1970-ci ildə Moskva Geodeziya və kartoqrafiya institutunu bitirmiş, Azərbaycana gəlmiş və 1971-ci il mart ayınadək burada inşaatda iş icraçısı işləmişdir. 1971-ci ilin mart ayından hal-hazıradək Azərbaycanda geodeziya və kartoqrafiya baş idarəsində (Bakı şəhərində) bölmə rəisi, idarə rəisi, müəssisə direktoru

olmuş, 2001-ci ilin sentyar ayından Dövlət torpaq və xəritəçəkmə komitəsinin dövlət aqrogeodeziya müəssisəsində direktor vəzifəsində işləyir. İxtisas əlaçısı və SSR Xalqlar dostluğu ordeni ilə təltif edilmişdir.

## ƏSƏDOV NEMƏT NƏSİR OĞLU



Əsədov Nemət 1953-cü ildə Dərələyəzin Qabaxlı kəndində anadan olmuş, 1970-ci ildə Qovuşuq orta məktəbini bitirmiş və həmin ildə Azərbaycan Politexnik İnstitutunun "Sənaye və mülki tikinti" fakültəsinə daxil olmuşdur. 1976-cı ildə həmin institutu bitirib gənc mütəxəssis kimi Azərbaycan SSR Sənaye və mülki tikintisi nazirliyinin Sumqayıt şəhərində yerləşən 2 №-li tikinti trestinə baş mühəndis vəzifəsinə göndərilmişdir. 1976-1990-cı illərdə 2 №-li trestdə tikinti laboratoriyasının müdiri, sahə rəisi, baş iqtisadçı vəzifələrində çalışmışdır.

1983-1986-cı illərdə Liviya Ərəb Respublikasında xarici sənaye tikintisi üzrə mütəxəssis işləmişdir. 1990-1992-ci illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsi Baş qiymətlər idarəsinin Sumqayıt ərazi qiymətə nəzarət dövlət müfəttişliyinin rəisi, 1992-2000-ci illərdə Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondu Sumqayıt şəhər şöbəsinin müdiri, 2000-ci ildən hal-hazıra kimi Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Sumqayıt şəhər maliyyə idarəsinin rəisi vəzifəsində çalışır.

1999-cu ildə Bakıdakı Asiya Universitetində beynəlxalq iqtisadi münasibətlər ixtisası üzrə ikinci ali təhsil almışdır.

## HÜSEYNOV ƏHMƏD HƏSƏN OĞLU



Hüseynov Əhməd 1947-ci ildə Dərələyəz mahalının Əmağu kəndində anadan olmuş, 1964-cü ildə Şərur rayonunun Qarxun kənd orta məktəbini bitirmiş, əmək fəaliyyətinə 1964-cü ildə Gümüşlü mədənində qazmaçı kimi başlamışdır. 1971-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarix-filologiya fakültəsini, 1985-ci ildə isə keçmiş SSRİ DİN-nin Akademiyasını bitirmişdir.

1971-1975-ci illərdə Sabirabad və Bakının Səbail rayon məktəblərində müəllim, 1975-1999-cu illərdə Azərbaycan Respublikası DİN sistemində bir sıra rəhbər vəzifələrdə işləmiş, keçmiş SSRİ DİN-in "Milis əlaçısı" döş nişanına və qüsursuz fəaliyyətinə görə bir sıra orden və medallarla təltif olunmuşdur. Polis polkovnikidir. Qarabağ müharibəsi veteranıdır.

1999-cu ildə Bakı şəhəri Səbayil rayonunda bələdiyyə üzvü seçilmiş, 2002-ci ildə "İlin bələdiyyəsi" sədri adını almışdır.

Hal-hazırda bələdiyyənin sədri vəzifəsində çalışır.

## SULTANOV İSMAYIL ABBAS OĞLU



Soyu, kökü, atası, babası Dərələyəzdən - Ağkənd kəndindən olan Sultanov İsmayıl 1928-ci ildə Tər-tər rayonunun Söylan kəndində anadan olmuş, 1946-cı ildə Tərtər orta məktəbini qurtarmış, 1947-ci ildə Azərbaycan Sənaye İnstitutuna daxil olmuş, 1952-ci ildə İnstitutu qurtararaq Kür-Araz Su Tikintisi Baş idarəsinin Bərdə Qarabağ su tikintisi idarəsində əmək fəaliyyətinə başlamış, əvvəllər qarajda mexanik, sonralar isə qarajın rəisi vəzifəsində çalışmış, 1960-cı ildə Bərdədə avtonəqliyyat idarəsinə rəis təyin edilmişdir.

O, 17 i l həmin idarədə rəis, 4 il Bakı ekskovator təmiri mexaniki zavodunda direktor, 10 ilə yaxın Azərbaycan meliorasiya və su tikintisi Baş idarəsinin Rəis müavini işləmişdir. 1988-ci ildən fərdi təqaüdçü olmuş, təqaüdçü olduğuna baxmayaraq 1989-cu ildən 2000-ci ilə qədər Azərbaycan meliorasiya və su təsərrüfatı nazirliyində, sonralar meliorasiya və su təsərrüfatı komitəsində müxtəlif vəzifələrdə işləmişdir.

2000-ci ildən Xəzər dəniz neft Donanmasının cənub rayon Gəmiçilik idarəsində mühəndis vəzifəsində işləyir.

Qırmızı əmək bayrağı ordeni, əməkdə fərqlənmə medalı və Azərbaycan Ali sovetinin rəyasət heyətinin fəxri fərmanı ilə təltif olunmuşdur.

## ŞIXƏLİYEV GƏRAY FƏRMAN OĞLU



Şıxəliyev Gəray 10.10.1934-cü ildə Dərələyəzdə, Əzizbəyov rayonunun Gindevaz kəndində anadan olmuşdur. 1941-ci ildə Gindevaz kənd səkkizillik məktəbinə daxil olmuş, 1955-ci ildə Keşkənddə orta məktəbi bitirmişdir. Həmin il İrəvan kənd təsərrüfatı institutuna qəbul olunmuş, 1960-cı ildə oranı (erməni dilində) bitirib, mühəndis-hidrotexnik ixtisasına yiyələnmişdir.

İnstitutu bitirdikdən sonra Əzizbəyov rayonunda bir sıra rəhbər vəzifələrdə çalışmış, kommunal şöbəsinin rəisi, əsaslı tikinti rəisi, Arpa-Sevantikinti sahəsinin rəisi olmuşdur.

1969-1972-ci illərdə Erm. SSR 6 saylı KTN-nin təmir-tikinti idarəsinin rəisi, 1972-1974-cü illərdə "Çermuk" ("İstisu") mineral sular zavodunun direk-

toru işləmişdir.

1974-cü ilin martından Azərbaycana gəlmiş, burada "Muğanmeliosutikinti" trestinin layihə-smeta şöbəsinin mühəndisi vəzifəsində işləmiş və həmin il trestin Səlyan rayonundakı 9 saylı SMK-ya rəis göndərilmişdir.

1976-cı ilin martında Başazmeliorsutikintisinin Xəzərətrafı zonasının texniki-nəzarət bürosunun rəisi vəzifəsinə keçirilmiş, 1977-ci ilin martında Başazmeliorsutikinti sənaye PP tikinti trestinin DVM kombinatına direktor təyin olunmuş, 1978-ci ilin sentyabrından Azərb.SSR Başazmeliorsutikintinin Neftçaladakı 31 saylı SMK-ya rəis göndərilmiş və burada 1980-ci ilin 8 dekabrına qədər işləmişdir.

O, 09.12.1980-ci ildə "Aztəmirsutikinti" trestinə müdir göndərilmiş və 1988-ci ildə "Azdənizselmüdafiə" elmi-istehsal birliyinin rəis müavini vəzifəsinə keçirilmişdir.

20.12.1990-cı ildən hazırkı vaxta qədər "Şəhriyar" sahələrarası təsərrüfat assosiyasının prezidenti işləyir. O, dəfələrlə Ermənistan və Azərbaycan KP rayon komitələrminin plenumunun üzvü, rayon, şəhər və qəsəbə sovetinin deputatı seçilmişdir. 1970-ci ildə V.İ.Leninin anadan olmasının 100 illiyinə aid medalla təltif olunmuşdur. İşlədiyi müddətdə xeyriyyəçi sifəti ilə qaçqınlara, köçkünlərə, hərbi xidmətdə olanlara, əlsiz-ayaqsızlara həmişə kömək etmişdir.

## GƏNCİMALIYEV GƏRAY ŞƏFƏQ OĞLU



Gəncimalıyev Gəray 1898-ci ildə Qərbi Azərbaycanın Dərələyəz mahalının Qaravəng kəndində anadan olmuşdur. 1912-ci ilin fevralından 1918-ci ilin yanvarına qədər Şərur-Dərələyəz vilayətinin Başkənd kəndində muzdur, 1918-ci ilin fevralından 1920-ci ilin martına qədər Ağdam kəndində muzdur, 1920-1921-ci illərdə Abbasqulu bəyin Qırmızı partizan dəstəsində döyüşçü, 1921-1925-ci illərdə Dərələyəzin Başkənd kəndində inqilab komitəsinin sədri, 1925-1931-ci illərdə Dərələyəzin Kotanlı kəndində sovet sədri, 1934-1937-ci illərdə Dərələyəzin Paşalı rayonu üzrə İcra başçısının müavini olmuşdur.

1937-1938-ci illərdə Əzizbəyov rayonunun İstehsal Komitəsinin rayon təhkimçisi, 1938-1944-cü illərdə Əzizbəyov rayon İcra hakiminin sədri, 1944-1945-ci illərdə Məmərza kəndində kolxoz sədri, 1945-1949-cu illərdə Kotanlı kəndində kolxoz sədri, 1949-1951-ci illərdə Əzizbəyov rayonunun yol idarəsində müdir, 1951-1954-cü illərdə Əzizbəyov rayonunun İstisu şəhərində dövlət Tikinti idarəsinin sədri, 1954-1961-ci illərdə "Cermuk" Tikinti idarəsinin kommunal şöbəsinin müdiri, 1968-1973-cü illərdə "Cermuk" Mineral Sular zavodunun komendatı olmuş, 1973-cü ildən təqaüdə çıxmışdır. "Qafqazın müdafiəsi uğrunda", "Rəşadət" ordeni və müxtəlif medallarla təltif olunmuşdur.

## ƏHMƏDOV NİZAMİ MƏMMƏD OĞLU



Valideynləri 1918-ci ildə ermənilər tərəfindən Yeğeqnadzor (Keşkənd) rayonunun Qabaxlı kəndindən zorla deportasiya olunan (qovulan) Əhmədov Nizami Məmməd oğlu 1951-ci ildə Gəncə şəhərində doğulmuşdur. 1968-ci ildə orta məktəbi Gəncə şəhərində bitirdikdən sonra Azərbaycan Neft və Kimya İnstitutuna daxil olmuş, 1973-cü ildə həmin institutu, 1986-cı ildə Bakı Ali Partiya məktəbini bitirmiş, hərbi xidmətdə olmuşdur.

Əmək fəaliyyətinə Gəncə Alüminium zavodunda elektrik çilingəri, elektrik ustası kimi başlamış, sex partiya təşkilatının katibi, Zavod Partiya Komitəsinin üzvü olmuşdur. Azərbaycan LKGİ Gəncə şəhər Komitəsinin birinci katibi, Gəncə Rayon Partiya Komitəsinin ikinci katibi, Gəncə şəhər Xalq Nəzarəti Komitəsinin sədri, Gəncə şəhər Xalq Deputatları Sovetinin sədr müavini olmuşdur.

1991-1992-ci illərdə və 2000-2001-ci illərdə Gəncə şəhər İcra Hakimiyyəti Başçısının müavini, 1992-2000-ci illərdə Azərenerji DŞ Gəncə şəhər İstilik Elektrik Mərkəzinin direktoru, Gəncə Su Kəməri Trestinin rəisi vəzifələrində işləmişdir.

1993-cü ildən YAP-ın üzvü olmuş, 2001-ci ildə YAP Gəncə şəhər təşkilatının sədri seçilmişdir. 2002-ci il 12 apreldə II çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. Milli Məclisin İqtisadi Siyasət Komissiyasının üzvüdür.

Nizami Əhmədovun atası neft sənayesi mühəndisi, anası isə tibb işçisi olmuşdur.

## İSAYEV VİDADİ İSA OĞLU



İsayev Vidadi 1959-cü ildə Qərbi Azərbaycanda, Dərələyəz mahalının Cul kəndində anadan olmuş, sonra ailəsi köçüb qonşu Terp kəndində yaşamışdır.

Terp kənd orta məktəbini əla qiymətlərlə başa vuran V.İsayev 1976-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarix fakültəsinə daxil olmuş və 1980-ci ildə həmin universiteti fərqlənmə diplomu ilə başa vurmuşdur. Həmin ildən ailəliklə Yevlax şəhərinə köçmüşdür.

O eyni zamanda Zaqafqaziya Ali Komsomol məktəbini və Moskva Ali Arxiv İnstitutunu bitirmişdir. Vidadi əmək fəaliyyətinə müəllim kimi başlamış, 5 il müəllimlik etdikdən sonra 1986-cı ildən Respublika Dövlət Arxivi Yevlax filialının direktoru vəzifəsində işləyir.

Bədii yaradıcılığa tələbəlik illərindən başlayan V.İsayev bir sıra şer, hekayə və povestlərin müəllifi olsa da özünü daha çox tarixi-publisistik yaradıcılığa və elmi-tarixi tədqiqatlarda təsdiq etmişdir.

Onun 1995-ci ildə Qərbi Azərbaycandan soydaşlarımızın deportasiyasına, erməni soyqırımına həsr edilmiş "Haradan gəlir bu köç" adlı ilk kitabı işıq üzü görmüşdür. 2001-ci ildə müəllifin "Yevlax sənədlərdə və yaddaşlarda" sanballı tədqiqat əsəri kitab şəklində çap olunmuşdur.

Hazırda onun "503-cü eşalon", "Dərələyəzdə qalan dünyam" adlı kitabları çapa hazırlanır.

Respublika mətbuatında xalqımızın soy-kökünə, tarixinə həsr edilmiş 100-dən çox elmi, tarixi-publisistik məqalələri çap olunmuşdur.

Respublika Jurnalistlər Birliyinin üzvü olan Vidadi İsayev publisistik yaradıcılığına görə H.Zərbadi adına mükafata layiq görülmüşdür. Hazırda dissertant kimi elmi iş üzərində işləyir.

## NAMAZOV QƏDİR BƏBİR OĞLU



Namazov Qədir 01.11.1958-ci ildə Dərələyəzin Qovuşuq kəndində anadan olmuşdur. 1977-ci ildə orta məktəbi bitirərək Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Əmtəəşünaslıq fakültəsinin qiyabi şöbəsinə daxil olmuş, 1984-cü ildə buranı bitirmişdir. 1977-1979-cu illərdə hərbi xidmətdə olmuş, 1980-1981-ci illərdə fəhlə, 1981-1984-cü illərdə Qovuşuq sovxozunda uçot bölməsinin müdiri, 1984-1988-ci illərdə həmin komitənin katibi, 1991-1992-ci illərdə kənd təsərrüfatı məhsullarının emalı sexində usta, 1992-1993-cü illərdə Nəsimi rayon Maliyyə şöbəsində pensiya və müavinətlər üzrə I dərəcəli müfəttiş, 1993-1995-ci illərdə həmin şöbənin "Dövlət gəlirinin təhlili və proqnozlaşdırılması" bölməsinin rəisi, 1995-1996-cı illərdə Bakı şəhər Baş Maliyyə İdarəsinin xalq təsərrüfatının maliyyələşdirilməsi şöbəsinin müdiri vəzifəsində işləmişdir. 1996-2001-ci illərdə Bakı şəhər Xətai rayon Maliyyə İdarəsinin rəisi vəzifəsində çalışmış, 2001-ci ildən hal-hazıradək Yasamal rayonunda həmin vəzifəni icra edir.

## SƏFƏROV MÜSTƏCƏB MUSTAFA OĞLU

Səfərov Müstəcəb 1949-cu il dekabr ayının 22-də Dərələyəz mahalının Gülüdüz kəndində anadan olmuş, ibtidai və orta təhsilini Gülüdüz və Qovuşuq məktəblərində almışdır. 1966-1967-ci illərdə doğulduğu kənddən keçən "Arpa-Sevan" tunelində maşinist vəzifəsində işləmişdir. 1967-1972-ci illərdə



Azərbaycan "Neft-Kimya İnstitutunu, 1985-1988-ci illərdə Moskva Ümumittifaq Kənd Təsərrüfatı İnstitutunun iqtisadiyyat fakültəsini və Moskva şəhərində SSRİ Dövlət Plan Komitəsinin Ali iqtisadiyyat kursunu bitirmişdir. 1972-ci ildə İnstitutu bitirdikdən sonra "Azərnefttikinti" trestində maliyyə şöbəsində iqtisadçı, Su Təsərrüfatı Nazirliyinin mexaniki təmir zavodunda böyük iqtisadçı, 1973-cü ildən Respublika Tədarük Nazirilyində iqtisadçı aparıcı, 1980-ci ildən Azərbaycan Respublikasının Dövlət Plan Komitəsində, indiki iqtisadiyyat nazirliyində aparıcı iqtisadçı, şöbə müdiri, Aqrar-sənaye kompleksinin rəisi, Aqrar-sənaye kompleksində rəis müavini vəzifələrində çalışmışdır.

## ZEYNALOV ƏLİ VƏLİ OĞLU



Zeynalov Əli 1960-cı il noyabrın 8-də Dərələyəzin Ələyəz kəndində anadan olmuş, orta məktəbi qızıl medalla qurtarmışdır. 1977-ci ildə Xalq Təsərrüfatı İnstituna daxil olmuş, oranı fərqlənmə diplomu ilə bitirmişdir. Əmək fəaliyyətinə 1 №-li Bakı şərabçılıq zavodunda mühasib kimi başlamış, sonra Moskva şəhərində ordu sıralarında qulluq etmiş, tərxis olunduqdan sonra həmin zavodda baş mühasib vəzifəsində işləmişdir.

1994-cü il Azərbaycan Yol-Tikinti nazirliyində nəzarət və təftiş idarəsinin rəisi işləmiş, sonra Azərbaycan Respublikası Prezidentinin işlər idarəsində işləmişdir. 1998-ci il yanvarın 17-də 37 yaşında ikən avtomobil qəzasından həlak olmuşdur.

## AĞAYEV MAŞALLAH



1918-ci il erməni-müsəlman davasında Dərələyəzin Ərgəz kəndindən qaçıb Xocalı kəndində məskunlaşanlar arasında Ağayev Maşallahın valideynləri də olmuşdur. Ağayev Maşallah Qəhrəman oğlu 1938-ci ilin dekabr ayında Xocalı kəndində anadan olmuş və orta məktəbi də burada bitirmişdir. 1964-cü ildə Bakı şəhərində Azərbaycan Dövlət Universitetinin iqtisad fakültəsinə daxil olmuş, 1969-cu ildə həmin fakültəni bitirmiş və sonra Kənd Təsərrüfatı Nazirliyində şöbə müdiri və digər vəzifələrdə işləmişdir. Sonra isə O Milli Dövlətçilik Partiyasının (AMDP) sədri olmuşdur.

1996-cı il dekabrın 27-də dünyasını dəyişmişdir.

## SULTANOV ABBAS İSMAYIL OĞLU



Sultanov Abbas 1902-ci ildə Dərələyəz mahalında, Ağkənddə anadan olmuşdur. 1918-ci ildə erməni-müsəlman davasında öz doğma yerindən qovularaq Naxçıvana, Şərur rayonuna gəlmiş, oradan da İrana keçmişdir. 2-3 ay İranda yaşadıqdan sonra təkrarən Şərura qayıtmışdır. O, buradan Laçın rayonuna, oradan da 1919-cu ildə Ağdam rayonunun Novruzlu kəndinə gəlmiş, 1927-ci ilə kimi Novruzlu kəndində yaşamış və orada evlənib ailə qurmuşdur. 1927-ci ildə Tərtər rayonunun Mamırlı kəndinə köçərək bir il orada yaşamış, bundan sonra öz həmkəndliləri ilə birlikdə Tərtər rayonunda yeni kənd salmış və kəndin adını Yerevanlı qoymuşdur. Bir neçə il rayonda muzdurlar komitəsinin sədri vəzifəsində işləmişdir. 1932-ci ildə yenidən Dərələyəzə-Ağkəndə qayıtmışdır. Ermənilər onların burada yaşamalarına imkan vermədiklərinə görə o yenidən Tərtər rayonunun İrəvanlı kəndinə gəlmiş və əbədilik orada məskunlaşmışdır. O, Tərtər rayonunda müxtəlif vəzifələrdə çalışmışdır. "Qələbə" kolxozunda sədr və "Azərsərsəng" tikintisində məsul vəzifədə işləmiş, 1978-ci ildə dünyasını dəyişmişdir.

El ağsaqqalı olan Abbas kişi rayonda böyük nüfuz sahibi olmuş və ermənilər tərəfindən Dərələyəzdən qovulub gələn qaçqınlara həmişə sahib çıxmış, onlar üçün Tərtər rayonunda yeni kənd salmış, bunun adını "Yeni İrəvanlı" qoymuşdur.

## HORSLU İSGƏNDƏR



İsgəndər kişi 1904-cü ildə Qərbi Azərbaycanın Dərələyəz mahalının Hors kəndində anadan olmuşdur. 1905-ci ildə ermənilərin hücumu zamanı körpə İsgəndərin ailəsi qaçqın düşmüş, 1907-ci ildən sonra doğma kəndinə qayıtmışdır. 1918-ci ildə ikinci dəfə qaçqın düşmüş, bir müddətdən sonra yenidən doğma yurd-yuvasına qayıtmışdır. O, 1930-cu ildən sonra uzun müddət rayon xalq məhkəməsində icraçı, sonra rayon mərkəzi ticarət idarəsində azərbaycanlıların yaşadıqları kəndlər üzrə müfəttiş vəzifəsində çalışmışdır.

1988-ci ildə üçüncü dəfə doğma yurdundan didərgin düşmüş və Bakıda məskunlaşmış və burada da vəfat etmişdir.

## ƏLİYEV QƏZƏNFƏR MÜZƏFFƏR OĞLU



Əliyev Qəzənfər 2 iyun 1950-ci ildə Dərələyəzin Qabaxlı kəndində anadan olmuş, ibtidai və orta təhsilini Qabaxlı və Qovuşuq kəndində almışdır. 1967-ci ildə H.B. Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun biologiya fakültəsinə (qiyabi) daxil olmuş, 1973-cü ildə oranı bitirmiş və həmin ilin noyabrınadək Qabaxlı kənd orta məktəbində müəllim işləmişdir. 1983-cü ildə Abşeron rayonunun Masazır kəndinə köçmüş və hal-hazırda da orada yaşayır. 1983-1984-cü illərdə Abşeron rayonunda 2 №-li Yeni Bakı Broyler fabrikində briqadir və zoolaboratoriyanın müdiri vəzifəsində, 1985-1989-cu illərdə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin "Azərtəsərrüfatçılararası" heyvandarlıq sənaye birliyində inzibati təsərrüfat şöbəsinin rəisi vəzifəsində işləmişdir. 1989-1990-cı ildə Abşeron "Quş Aqrofirması"nda briqadir, 1990-1991-ci illərdə "YAP" Aqrar sənaye istehsal kooperativində baş texnoloq, 1992-ci ildə Abşeron rayonlararası təbiəti mühafizə komitəsinin müfəttişi, 1996-2001-ci illərdə Azərbaycan Respublikası Dövlət Ekologiya Komitəsi Abşeron rayonlararası ekologiya komitəsinin sədri vəzifəsində işləmişdir.

## ƏHMƏDOV SADIQ ƏHMƏD OĞLU



Əhmədov Sadıq 1939-cu ildə Dərələyəzin Qalaser kəndində anadan olmuş, 1956-cı ildə Qovuşuq kəndində orta məktəbi bitirmiş, 1956-1958-ci illərdə kolxozda işləmiş, 1958-1961-ci illərdə hərbi xidmətdə olmuşdur.

O, 1962-ci ildə Azərbaycan Dövlət Universitetinin İqtisad fakültəsinə daxil olmuş, 1967-ci ildə oranı bitirmişdir.

1967-ci ildən institutun "Siyasi iqtisad" kafedrasında saxlanılmış, orada aspiranturanı bitirmiş, 15-ə yaxın elmi işin, iqtisadi nəzəriyyə üzrə iki dərsliyin müəlliflərindən biridir.

Hal-hazırda Azərbaycan Dövlət İqtisad İnstitutunda işləyir. Eyni zamanda Bakı şəhəri Nəsimi rayonu üzrə Dövlət Vergi Müfəttişliyində baş mütəxəssis kimi çalışır.

## MEHDİYEV BABACAN SÜLEYMAN OĞLU



Mehdiyev Babacan 1933-cü il mayın 25-də Dərələyəz mahalının Ayısəsi kəndində anadan olmuşdur.

1947-ci ildə Ayısəsi kəndində ibtidai məktəbi, 1953-cü ildə isə Qovuşuq kənd orta məktəbini bitirmişdir.

1955-1958-ci illərdə sovet ordusunda qulluq etmiş, 1963-cü ildə Azərbaycan Neft Kimya İnstitutunun energetika fakültəsini bitirmişdir.

1963-2002-ci illərdə Əli Bayramlı və Mingəçevir DRES-lərində müxtəlif vəzifələrdə işləmişdir. Onun Elektrik Stansiyalarının tikilib quraşdırılmasında, istismar və təmir heyətinin yerləşdirilməsində çox böyük əməyi olmuşdur. Bir sözlə, energetikanın inkişafında xeyli əməyi vardır.

1988-ci ildən xalqın azadlığı uğrunda aparılan mübarizədə çox aktiv iştirak etmiş, 2002-ci ildə təqaüdə çıxmış və hal-hazırda Bakı şəhərində yaşayır.

## SƏDRƏDDİN ƏKBƏR OĞLU MƏMMƏDOV



Sədrəddin Əkbər oğlu Məmmədov 25 vefral 1960-cı ildə Qərbi Azərbaycanın Yegeqnadzor rayonunun Güllüdüz kəndində anadan olmuşdur. 1976-cı ildə orta məktəbi bitirdikdən sonra, həmin il Kiyev Mülki Aviasiya Mühəndisləri İnstitutunun Uçan apparatlarının aviasiya avadanlıqları fakültəsinə və paralel olaraq İctimai ixtisaslar fakültəsinə daxil olmuş və 1982-ci ildə həmin institutu, 2003-cü ildə isə Milli Aviasiya Akademiyasının Beynəlxalq hüquq fakültəsini bitirmişdir. İnstitutu fevral 1982-ci ildə bitirdikdən sonra əmək fəaliyyətinə Kiyev "Radioizmeritel" zavodunun "Aviasiya müəssisələri üçün yeni robotların konstruksiyasının layihələndirilməsi və hazırlanması" konstruksiyası bürosunda konstruktor kimi başlamışdır.

1985-ci ildən 1990-cı ilədək yeni işə buraxılmış Əli-Bayramlı Avtomatika və telemexanika zavodunda şöbələri yaratmaq məqsədilə ilə, müxtəlif vəzifələrdə: texniki nəzarət şöbəsinin rəisi, avtomatlaşdırma və mexanikləşdirmə şöbəsinin rəisi, baş konstruktorun müavini, plan-istehsalat şöbəsinin rəisi, baş mühəndisin müavini işləmişdir.

1990-cı il Qanlı Yanvar hadisələrindən sonra aviasiya üzrə mütəxəssislərə təcili ehtiyac olduğundan, müraciəti qəbul edərək, "Bakı" aeroportunda I kateqoriya mühəndim, 1992-ci ildən 1994-cü ilədən "Arzu - M" Elmi-istehsalat firmasının direktoru, 1994-cü ildən 2003-cü ilədək "Azal" Aviasiya texniki mərkəzində istehsalatın planlaşdırılması və idarəedilməsi şöbəsinin rəisi iş-

ləmişdir. Hal-hazırda Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyində Nəqliyyatın inkişafı və elmi-texniki siyasət departementminin müdiri, Milli Aviasiya Akademiyasında Uçaq Apparatların və Aviasiya Mühərriklərinin Konstruksiyası kafedrasının müəllimi işləyir.

İctimai və təşkilati işlərdə fəal iştirak etdiyinə görə dəfələrlə dövlət və ictimai təşkilatlar tərəfindən qiymətli hədiyyə və tərifnamələrlə təltif olunmuşdur.

Əmək fəaliyyəti dövründə böyük iqtisadi effektlə 13 səmərəli təklif hazırlamış və istehsalatda tətbiq edilmişdir. Çoxsaylı konstruktor işləmələrinin və texniki layihələrin müəllifidir. Robot texnikasının avtomatik idarəetmə sistemlərinin layihələndirilməsi, konstruksiyası və onların tətbiqi ilə əlaqədar SSRİ gəncləri arasında III yerə çıxaraq "SSRİ xalq təsərrüfatında nailiyyətlərinə görə" bürünc medalı ilə təltif olunmuşdur.

## ƏLİYEV ƏZİZ HÜSEYN OĞLU



Əliyev Əziz 26.X.1962-ci ildə Dərələyəz mahalının Qabaxlı kəndində anadan olmuş, 1970-1980-ci illərdə orta məktəbdə təhsil almışdır. 1981-1983-cü illərdə sovet ordusu sıralarında xidmət etmişdir. 1983-1989-cu illərdə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda təhsil almışdır. 1989-1997-ci illərdə Sumqayıt şəhər mənzil təsərrüfat istehsalat birliyində usta vəzifəsindən idarə rəisi vəzifəsinə qədər yüksəlmişdir. 1998-1999-cu illərdə Bakı Elektrik Şəbəkəsi İstehsalat birliyində şəhər şəbəkələri direktorunun müavini vəzifəsində işləmişdir. 1999-2000-ci illərdə Bakı şəhər binadaxili elektrik təchizatı müəssisəsinin direktoru işləmişdir. 2001-ci ildən Binəqədi rayon İcra hakimiyyəti başçısının M.Rəsulzadə qəsəbəsi üzrə nümayəndəsi kimi fəaliyyət göstərmiş, hal-hazırda isə başqa sahədə işləyir.

## MƏMMƏDOV MAŞALLAH ƏLİ OĞLU



Məmmədov Maşallah 02 oktyabr 1967-ci ildə Dərələyəz mahalının Gədikvəng kəndində anadan olmuşdur. O, 1985-ci ildə orta məktəbi bitirib Azərbaycan Kənd Təsərrüfatı Akademiyasında aqronomluq fakültəsinə daxil olmuş, institutda tahsil ala-ala 1985-ci ildə Sovet Ordusu sıralarına həqiqi hərbi xid-mətə çağırılmış, 1987-ci ildə ordu sıralarından təxris olunmuş və yenidən təhsilini davam etdirərək 1992-ci ildə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının aqronomluq fakültəsini bitirmiş və Xızı rayonuna işə getmişdir.

Əvvəlcə Xızı rayon Məşğulluq Mərkəzində mütəxəssis, sonra isə Xızı rayon Dövlət Toxum müfəttişliyinin rəisi vəzifəsinə təyin olunmuşdur. 1995-ci ildə Bakı şəhər Binəqədi rayonunun M.Ə.Rəsulzadə qəsəbə nümayəndəliyində hərbi işlər üzrə müfəttiş, sonra isə müavin işləmiş, 2000-ci ildə Binəqədi rayonunun Biləcəri qəsəbəsində sonra da M.Ə.Rəsulzadə qəsəbəsində səlahiyyətli nümayəndə vəzifəsində işləmişdir.

## QURBANOV PƏNAH İBRAHİM OĞLU



1948-ci ildə Dərələyəz mahalının Əzizbəyov rayonunun Terp kəndində anadan olmuş, 1966-cı ildə Əli-Bayramlı şəhərində 2 №-li orta məktəbi, 1971-ci ildə Azərbaycan Politexnik İnstitutunu bitirmişdir.

1971-1973 illərdə Əli-Bayramlı Elektrik Stansiyasında mühəndis, 1974-cü ildə Əli-Bayramlı şəhər komsomol komitəsinin II katibi, sonra Şəhər Partiya Komitəsində Sənaye və Nəqliyyat şöbəsində təlimatçı işləmişdir. 1976-1977-ci illərdə Bakı Ali Partiya məktəbinin dinləyicisi olmuşdur.

1978-1988-ci illərdə Əli-Bayramlı Şəhər Partiya Komitəsinin Sənaye və Nəqliyyat şöbəsinin müdirü, 1988-1990-cı illərlə Əli-Bayramlı şəhər Avtomobil müəssisəsinin direktoru, 1990-1992-ci illərdə Hacıqabul Rayon İcraiyyə Komitəsinin sədri, 1995-1999-cu illərdə Əli-Bayramlı Şəhər İcra Hakimiyyətinin müavini, 1999-2002-ci illərdə Əli-Bayramlı şəhər Vergilər şöbəsinin rəisi işləmişdir.

## QULİYEV ƏMİR MƏHƏRRƏM OĞLU



1931-ci ildə Qaraxaç kəndində anadan olmuş, İrəvanda pedaqoji məktəbi, Naxçıvanda ikiillik pedaqoji institutu, sonra Bakıda APİ-ni qurtarmışdır. 19 yaşında Salyanın Parça-Xalaç kənd məktəbinə direktor təyin olunmuş və 5 il bu vəzifədə çalışmışdır.

Sonra Xanlara köçmüş, burada Bilik Cəmiyyətinin sədri, rayon maarif şöbəsi həmkarlar ittifaqının sədri işləmişdir. 20 ildən çoxdur ki, Xanlar rayon Kino Birliyinə rəhbərlik edir.

## *HƏRBİÇİLƏR (BİR QRUPU)*

### NOVRUZOV ABBASƏLİ RAMAZAN OĞLU



Novruzov Abbasəli 1937-ci il may ayında Qərbi Azərbaycanın Dərələyəz mahalının Zeytə kəndində anadan olmuşdur. 1949-cu ildə ermənilər tərəfindən öz doğma yurd-yuvasından zorla deportasiya edilərək Əli-bayramlı rayonunun Şıx Salahlı kəndində məskunlaşmış, 1954-cü ildə Əli-Bayramlı şəhər 2 saylı orta məktəbini bitirib hesabdar işləmişdir. Həmin ildə Azərbaycan Dövlət Neft Akademiyasının neft texnologiyası fakültəsinə daxil olsa da maddi imkansızlıq ucbatından ikinci kursdan təhsilini davam etdirməmişdir. 1956-cı ildə Novarosiysk sərhəd qoşunlarının 32-ci sərhəd dəstəsində hərbi xidmətə başlamış, 1957-ci ildə Ukraynada çavuş rütbəsi almaq üçün kursant məktəbini bitirmişdir. 1959-cu ildə Moskva Ali Sərhəd qoşunları məktəbində təhsil almağa göndərilmiş, 1962-ci ildə təhsilini başa vuraraq Göytəpə və Çayüzü sərhəd qoşunları dəstələrində rəis müavini işləmişdir. 1966-cı ildə DTK Ali məktəbinin fars dili kursunu bitirmək üçün Moskvaya göndərilmiş, 1974-cü ildə 44-cü Sərhəd dəstə rəisinin kəşfiyyat işi üzrə müavini vəzifəsinə təyin edilmişdir. Burada SSRİ Dövlət Təhlükəsizliyi komitəsinin ali məktəbini (qiyabi) bitirərək hüquqşünas ixtisasına yiyələnmiş, 1978-ci il may ayının 25-də "Azərbaycanın əməkdar hüquqşünası" və SSRİ-nin fəxri çekisti adlarına layiq görülmüşdür.

1984-cü ildə istefaya çıxmış Abbasəli Novruzov 1993-cü ildə yenidən Ədliyyə Nazirliyində idarə müdirinin müavini kimi fəaliyyətə başlamış, 1994-cü ildən isə Azərbaycan Milli Təhlükəsizlik Nazirinin müavini – Azərbaycan sərhəd qoşunlarının rəisi təyin edilərək həmin ilin mayında general-mayor rütbəsi almış, 1995-ci ildə isə Azərbaycan Bayrağı ordeni ilə təltif olunmuşdur.

Sovet quruluşu dövründə yeddi medala, neçə-neçə fəxri adlara layiq görülən Abbasəli Novruzov 2001-ci ildə səhhəti ilə əlaqədar olaraq istefaya çıxmışdır. Lakin Sərhəd Qoşunları idarəsi onu buraxmamış və idarənin baş məsləhətçisi kimi işdə saxlamışdır.

Abbasəli Novruzovun babası Novruz kimi 1920-ci illərdə Abbasqulu bəy Şadlinskinin "Qırmızı tabor"unda erməni daşnaklarına qarşı vuruşmuş, 1921-ci il aprel ayının 16-da o zamanki Ermənistan SSR Xalq Hərbi Komissarlığı tərəfindən "Dünya inqilabının ilk ulduzu" – "Qırmızı bayraq" ordeni ilə təltif olunmuş, atası Ramazan isə Böyük Vətən müharibəsi cəbhələrində göstərdiyi şücaətə görə dəfələrlə orden və medallara layiq görülmüşdür.

## NƏBİYEV RƏSUL ORUC OĞLU



Nəbiyev Rəsul 25.12.1941-ci ildə Qərbi Azərbaycanın Dərələyəz mahalının Ağkənd kəndində anadan olmuşdur. İbtidai və orta məktəbi Ağkənddə oxumuş, lakin orta təhsilini Azərbaycan Respublikasının Tərtər rayonunun Evoğlu kəndində başa vurmuşdur.

1962-1964-cü illərdə Almaniyada Sovet Ordusu sıralarında hərbi xidmətdə olmuşdur. Nümunəvi əsgər olduğu üçün o, 1964-cü ilin yayında Kiyev tank texniki ali hərbi məktəbinə göndərilmişdir. 1967-ci ildə hərbi məktəbi qurtardıqdan sonra leytenant hərbi rütbəsində bölük komandirinin müavini vəzifəsinə təyin edilmişdir.

Rəsul Nəbiyev 1967-ci ildən 1992-ci ilə kimi Rusiyanın müxtəldif şəhərlərində bölük komandirinin müavini, tabor komandiri, alay komandiri, diviziya komandirinin müavini vəzifəsində xidmət etmişdir. O, polkovnik hərbi rütbəsinə qədər yüksəlmiş, müxtəlif vaxtlarda 12 medal və ordenlə təltif olunmuşdur.

O, 1992-ci ildə Rusiyanın Xabarovsk vilayətindən Azərbaycana gəlmiş və hərbi xidmətini Azərbaycan Milli Ordusunda davam etdirmiş, 1992-ci ildən 1994-ci ilə qədər Azərbaycan Respublikası Müdafiə nazirliyi Baş Hərbi Tikinti-Mühəndis idarəsi rəisinin müavini vəzifəsində çalışmışdır.

1994-cü ilin dekabr ayında Azərbaycan Ordusu sıralarından ehtiyata buraxılmış, 2000-ci ilə kimi Bakı Dövlət Universitetinin hərbi kafedrasının baş müəllimi işləmişdir. Həmin tarixdən bu günə kimi Azərbaycan Beynəlxalq Universitetinin mülki müdafiə kafedrasının müdiridir.

Silahlı Qüvvələrdə uzun müddət nöqsansız, nümunəvi xidmət göstərdiyinə görə müdafiə nazirinin əmri ilə ona "Silahlı Qüvvələrin veteranı" fəxri adı verilmişdir.

## MƏMMƏDOV KAMİL QƏHRƏMAN OĞLU



Məmmədov Kamil 1947-ci ildə Dərələyəz mahalının Qabaxlı kəndində anadan olmuşdur. Qovuşuq orta məktəbini qurtardıqdan sonra 1964-1968-ci illərdə İrəvan Dövlət Pedaqoji İnstitutunun Azərbacan şöbəsini bitirmiş, 1969-1975-ci illərdə Qovuşuq kənd orta məktəbində ibtidai hərbi hazırlıq fənnini tədris etmişdir. Bundan sonra, o, 1979-cu ilə qədər islah-əmək düşərgəsində işləmiş, buradan Saratov vilayətinə getmiş, SSRİ DİN ona baş leytenant rütbəsi vermiş və işə götürmüşdür. İxtisas dərəcəsini artırmaq üçün 1983-cü ildə Ufada SSRİ DİN-nin akademiyasında 6 ay, 1987-ci ildə isə Tomsk şəhərində 2 ay təhsil almışdır.

1988-ci il hadisələri ilə bağlı Bakıya gəlmişdir. 1992-ci ilin mart ayında vətənə qayıtmış, Azərbaycan Respublikasının Milli Qvardiyasında xidmət etməyə başlamışdır.

"Sovet Ermənistanı", "Bakı", "Ulu Göyçə", "Vətən səsi", "Azərbaycan", "Xalq", "Respublika", "Ayna" və bir çox qəzetlərdə Qərbi Azərbaycanın Dərələyəz mahalı hadisələri və Xocalı faciəsi ilə bağlı müxtəlif səpkidə yazıları dərc olunmuşdur.

2001-ci ildə isə "Dərələyəz od içində" adlı sanballı bir ensiklopedik kitab yazmışdır.

## *EL AĞSAQQALLARI (BİR QRUPU)*

### İBRAHİM MİRZƏLİOĞLU



Yarım əsr Dərələyəz mahalının ağsaqqalı olan İbrahim Mirzəlioğlu 1889-cu ildə həmin bölgənin Qovuşuq kəndində anadan olmuş, 93 il ömür sürmüş və 1982-ci il yanvarın 6-da Bakı şəhərində qəflətən infarktdan vəfat etmişdir. Çox cəld və gümrah adam olmuş, ölənə qədər buzlu su içmiş və hər gün ən azı 8 saat mütaliə etmişdir. O, Azərbaycan folklorunun, Şərq ədəbiyatının, şəriətin gözəl bilicisi, saz-söz sənətinin xiridarı, "Leyli-Məcnun"u, "Gülüstan-Büstan"i, "Şahnamə"ni, Abbası, Xəstə Qasımı, Qurbanini, Valehi, Ələsgəri, Alını, Nizami və Nəsimini, Şərqin hikmətlərini yaddaşında gəzdirən, daim Vətən, yurd dərdi ilə qəlbi döyünən, ensiklopedik məlumata, güclü yaddaşa, geniş dünyagörüşə malik olan, məğrur, qorxmaz, əyilməz, sinədəftər, şair təbiətli el ağsaqqalı olmuşdur.

O, kiçik və gənc yaşlarında təxminən 15 il Dərələyəzin Qovuşuq, Güneyvəng, Ələyəz, Ərgəz və Hors kəndlərində ruhani təhsili almışdır. Ona dərs deyən müəllimlər, əsasən, Təbriz və Mərənddən olmuşdur. Özünün söylədiyinə görə şəriəti, Quranı, Şərq ədəbiyyatını, Şərq tarixini, fars dilini, ərəb dilinin müəyyən hissəsini ona, əsasən, Mərənddən gəlmiş Molla Səttar adlı şəxs öyrətmişdir. Bununla yanaşı, onun əsas müəllimi neçə-neçə illər Təbrizdə ruhani təhsili almış atası Mirzəli kişi və 20 il İranda və İraqda (Nəcəfdə) oxumuş Qovuşuqlu (yaxın qohumu) Axund Əli olmuşdur. İbrahim kişi fars dilini professional tərcüməçilər səviyyəsində mənimsəmiş, ərəb, rus, erməni dillərini isə orta səviyyədə öyrənmişdir.

O, 1918-ci il erməni-müsəlman davasında Andranikin dəstələrinə qarşı vuruşmuş, döyüşlərin birində, Hosdun adlı azərbaycanlı kəndində 6 nəfər ilə birlikdə mühasirəyə düşmüş və cəsur arxadaşlarının köməyilə ölümün pəncəsindən qurtarmışdır.

O, 1918-ci ildə, (qaçaqaçda) qohum-əqrəbası ilə birlikdə Şəmkir rayonuna gəlmiş və 1921-ci ilə kimi ailəsi ilə birlikdə Qaracəmir kəndində qalmışdır.

1920-ci ildə Şəmkirin Alabaşlı stansiyasında Dərələyəz qaçqınlarının 9 ağsaqqalı ilə birlikdə Azərbaycanın böyük oğlu Nəriman Nərimanovu qarşılamış, qaçqınlarla bağlı, doğma yurda qayıtmaq haqqında onunla xeyli söhbətlər etmişdir. Nəriman Nərimanov bu cavan ağsaqqalın söhbətindən çox razı qalaraq demişdir: "Görürəm, çox dilavərsən, ermənilərlə bacara bilərsən".

1921-1935-ci illər arasında Dərələyəz camaatını ermənilərin şərindən, hiyləsindən, təzyiqindən qorumuş, 1935-ci ildə bir neçə kəndin kənd sovet sədri

işləyərkən Ermənistan daxili işlər naziri Dülqaryan adlı şəxslə Qovuşuq kəndində sözləşmiş, onların millətçilik etdiklərini, azərbaycanlıları sıxışdırdıqlarını üzünə demiş və əlbəyaxa olmuşlar. Bu hadisədən 40 gün sonra, gecənin birində gəlib onu tutub aparmış, xalq düşməni adı altında (onu üçlük məhkəmə etmişdir) Sibirə sürgün etmişlər.

5 il Sibirdə (Omsk, Tomsk, Ulan-Ude, Baykalda...) onu millətçi adı altında yatırtmış, 1940-cı ildə azad etmiş və Dərələyəzə qayıtmağı ona qadağan etmişlər. Odur ki, o türmədən qayıtdıqdan sonra 1940-1953-cü ilər arasında, əsasən, Qarabağ, Gəncə və Naxçıvanda yaşamalı olmuşdur. Azərbaycanlıları müti şəkildə saxlamaq üçün ermənilər onu öz doğma yurduna buraxmırdılar. 1953-cü ildə Stalinin ölümündən və Xruşovun siyasi məhbuslarla bağlı verdiyi qərarından sonra o, öz doğma kəndinə qayıtdı.

İbrahim Mirzəlioğlu 1953-1976-cı illərdə öz doğma kəndində, 1976-cı ildən 1982-ci ilə qədər isə Bakı şəhərində yaşamış, 1982-ci il yanvarın 6-da Bakıda düynasını dəyişmişdir. Şərur-Dərələyəz eli, Naxçıvan, Qarabağ, Gəncə, Göyçə, Vedi, Zəngibasar, İrəvan, Laçın, Kəlbəcər camaatı dəstə-dəstə axışıb onun dəfninə gəlmişlər.

O, Həm Dərələyəzdə, həm də Azərbaycanın bir çox bölgələrində böyük nüfuz sahibi olmuşdur. Xeyirdə-şərdə, toyda-yasda, ağrılı-acılı günlərdə, məsləhət-məşvərətlərdə, qan barışığında camaat onu həmişə məclisin başında otuzdurmuşdur. Xeyir işi olanlar həmişə bir gün əvvəl gəlib onu aparırdılar ki, toylarına çox adam gəlsin. Toya gələnlər musiqidən çox onun şirin söhbətinə qulaq asırdılar. Ermənilər İbrahim Mirzəlioğlunun hər bir sözü ilə hesablaşırdılar, çünki el həmişə onun arxasınca gedirdi. O, yarım əsr müddətində Dərələyəz camaatı üçün çox iş görmüşdür. Kitabın "Dərələyəzdə baş verən hadisə və əhvalatlar" bölməsində deyilənlərin böyük bir hissəsi onun fəaliyyəti ilə bağlıdır.

Onun 5 övladından dördü Məkkəni ziyarət etmişdir.

İbrahim Mirzəlioğluna həsr olunmuş poema və şerlərdən bəzi sətirləri oxücuların nəzərinə çatdırırıq.

Əlli il ağsaqqal olub,
Bu mahala Mirzəloğlu.
Hayları lərzəyə salıb,
Pür kamallı, Mirzəloğlu.

El yolunda qoyubdu can,
Sülh yaradıb, tökməyib qan,
At belində sürüb dövran,
Dağ qartalı Mirzəloğlu.

Zirvə deyib dağı gəzib,
Bağban olub, bağı gəzib,
Öldürməyə yağı gəzib,
Sinə dağlı Mirzəloğlu.

Ellər verib qiymətini,
Candan sevib millətini,
Tanrı verib fitrətini,
Dərin zəka, Mirzəloğlu.

Zindanlara atılsa da,
Qulac qolu çatılsa da,
Əyilməyib bir an yada,
Deyib sözün Mirzəloğlu.

Hara getsə Mirzəloğlu,
Dost-tanışı arayardı.
Harda olsa Mirzəloğlu,
Dərdə-sərə yarayardı.

Harda bir qan düşdü, qada gəldisə,
Orda loğman oldu Mirzəlioğlu,
Naşı neştər vurdu, yara qanadı,
Dönüb dərman oldu Mirzəlioğlu.

Soyunu yaşadır o, öz adında,
Təmizlik, paklıq var əsil-zatında,
Dostun salamını yel qanadında,
Dostuna yetirdi Mirzəlioğlu.

Qapılar açıldı onun üzünə,
El yığıldı ocağına, közünə,
Bil, haram qatmadı, çörək-duzuna,
Elə arxa oldu Mirzəlioğlu.

Məclisdə oturdu yuxarı başda,
Ağsaqqal dedilər ən cavan yaşda,
Əməli gül açdı torpaqda, daşda,
Elə bağban oldu Mirzəlioğlu.

Göy atın belində gəzdi mahalı,
Daşdan od qopardı atının nalı,
Başına topladı cavanı, çalı,
Oddan od götürdü Mirzəlioğlu.

Namərdə əmr edib fərman göndərdi,
Yaxşıya can qıyıb dərman göndərdi,
Yoxsula kəsmək üçün qurban göndərdi,
Mətləblər bitirdi Mirzəlioğlu.

Sevinci, kədəri el ilə böldü,
El ilə ağladı, el ilə güldü,
Qəlblərdən dərd-qəmi, ələmi sildi,
Elə Loğman oldu Mirzəlioğlu.

Qurani-Kərimi təbliğ eylərdi,
Hər bir surəsini əzbər söylərdi,
Sözün qüdrətilə karvan əylərdi,
Şirin söhbətliydi Mirzəlioğlu.

Şərqin şeriyyəti dostu, həyanı,
Nizami, Füzuli, Sədi, Xəqani.
Əzbərdən deyərdi o "Gülüstan"ı,
Hikmət sahibiydi Mirzəlioğlu.

Nəsimi, Firdovsi dilində əzbər,
Şərqin tarixindən verərdi xəbər,
Dastanlar söylərdi o, sinədəftər,
Böyük ümman idi Mirzəlioğlu.

Ustad meydanında usta dinərdi,
Sazın hikmətinə baş endirərdi,
Haqqa sığınardı, haqqa dönərdi,
Sözün sərrafıydı Mirzəlioğlu.

*Səadət Buta, Bakı, 2002.*

## AĞLADI

İbrahim dünyadan köçüb gedəndə,
Vətənim çırpındı, ellər ağladı,
Mirzəli oğlunun gəzdiyi dağlar,
Dumana büründü, sellər ağladı.

Amansız ölümün yoxdur imanı,
Vədə yetişəndə vermir amanı,
Vers dağından sordum İbrahim hanı,
Nərgizlər titrədi, çöllər ağladı.

Eşidənlər hayıf dedi, dilləndi,
"Misri" nalə çəkdi, zilə zilləndi,
Gəraylılar kirpiklərdən ələndi,
"Yanıq Kərəmi"də tellər ağladı.

El yaman ayrıldı ağsaqqalından,
Hayları titrədən dağ qartalından,
Sordum İbrahimi Arpa çayından,
Ləpələr çırpındı, göllər ağladı.

*Aşıq Mehdi 12 yanvar,*
*1982. Bakı şəhəri.*

* * *

Dilində Füzuli, Sədi, Ələsgər,
Elin ağsaqqalı bir sinədəftər,
Bu məğrur İbrahim Mirzəli oğlu,
Qarışdı torpağa yer oldu Gövhər.

*Məmməd Aslan,*
*4 yanvar, Bakı, 2003.*

## CƏFƏROV BAYRAMQULU KƏRBƏLAYI CƏFƏRQULU OĞLU



Şərur-Dərələyz qəzasında həmişə ehtiramla yad edilən şəxslərdən biri də Bayramqulu müəllimdir. Bayramqulu müəllimin atası Kərbəlayı Cəfərqulu Kəngərlilər sülaləsindəndir. O, 1998-ci ildə Dərələyəzin Ələyəz kəndində doğulmuşdur. Cəfərov Bayramqulu əvvəlcə molla məktəbində, sonra isə mədrəsədə oxumuşdur. 1908-1912-ci illərdə Bakıya gələrək Tağıyevin neft mədənlərindəki kontorlarında kargüzarlıq işlərində işləmiş və sonra doğma Ələyəz kəndinə qayıtmışdır. İnqilabdan sonra pedaqoji məktəbi oxuyub qurtarmış, müəllim peşəsinə yiyələnmişdir. Dərələyəzin Qalaser, Gülüdüz, Qabaxlı, Ayısəsi kimi ucqar kəndlərində ilk məktəbləri o təşkil etmiş və bunlarda qısa müddətdə direktor vəzifəsində çalışmışdır.

Bayramqulu müəllim xalqı savadlandırmaq üçün bütün imkanlardan maksimum istifadə edərdi. Məktəbləri müəllimlərlə təmin etmək üçün yerli kadrlarla yanaşı digər bölgələrdən də müəllimlər dəvət edər, onların məişət qayğılarını öz üzərinə götürərdi. Onunla birgə işləmiş çoxlu sayda insanlar onun qayğıkeşliyi, alicənablığı, iradəsi və vətənə məhəbbəti barədə iftixarla danışırdılar.

Bayramqulu müəllim bölgədə xeyriyyəçi kimi də məşhur olmuşdur. O öz vəsaiti ilə imkansız şagirdləri dərs vəsaiti paltarla təmin etmişdir. Şair təbiətli Bayramqulu müəllim aşıq mahnılarını və xalq havalarını məharətdə ifa edərdi. Toylar və şənliklər heç vaxt onsuz keçməz idi. Onun yazdığı qoşmaların əlyazmaları deportasiya zamanı, 1988-ci ildə oğlu Müzəffər müəllimin Ələyəzdəki evi yandırılarkən məhv olmuşdur. O, həmişə Ələyəz dərəsindəki kəndlərə xaricdən köçürülən ermənilərin yerləşdirilməsinə qarşı çıxmış və 1948-1953-cü illərdə, həmin kəndlərə köçürülməsinə mane olmuşdur. Təhsil sahəsindəki xidmətlərinə görə o, Şöhrət Ordeni və Qırmızı Əmək Bayrağı Ordeni və çoxlu medallarla təltif olunmuşdur.

## ŞAHGƏLDİYEV ƏSGƏR DÜNYAMALI OĞLU



1876-cı ilin avqust ayında Qərbi Azərbaycanın indiki Yeğeqnadzor rayonunun Şorca kəndində anadan olmuş, 1918-ci ildə erməni daşnaklarının təzyiqləri nəticəsində doğma yurd-yuvasını tərk edərək İrana getməyə məcbur olmuşdur. 1920-ci ildə İrandan qayıdıb bir müddət Naxçıvan ərazisində qalmış, bundan sonra Dərələyəzin Ertiş kəndində məskunlaşmışdır. O, 1920-ci illərdə daşnaklara qarşı mübarizədə Abbasqulu bəy Şadlinski ilə birlikdə qırmızı taburda vuruşmuşdur və mahalda nüfuzlu, hörmətli bir el ağsaqqalı kimi tanınmışdır.

1939-cu ildə Ertiş kəndi erməni millətçiləri tərəfindən qaraqaya kəndi ilə birləşdirilmiş, Əsgər kişi isə ora getməyərək Amağu kəndində məskunlaşmışdır. Bu kənddə bir müddət kolxoz sədri də işləmişdir. O, 1970-ci ilə qədər burada yaşamışdır.

1970-ci ildən Abşeron rayonunun Mehdabad qəsəbəsinə – oğlu Dünyamalıyev Novruzun yanına köçmüş, ömrünün sonuna qədər burada yaşamışdır.

1980-ci ildə dünyasını dəyişmişdir.

## HƏSƏN USUB OĞLU HƏSƏNOV



Həsənov Həsən Usub oğlu 1910-cu ildə anadan olmuşdur. O, Qərbi Azərbaycanın Dərələyəz vilayətinin Aysəsi kəndində dövrün qabaqcıl adamlarından biri olan kəndxuda Usub kişinin oğlu idi. Həsən kişi 1918-1920-ci illər erməni qırğınlarının canlı şahidi idi. O, həmin dövrdə qaçqınlıq həyatı keçirmiş, Gəncə zonasında olmuşdur.

Həsən Usub oğlu az müddət içərisində həm öz kəndi, həm də başqa kənddə yaşayanların hörmətini qazanmışdır. O, sözün həqiqi mənasında ağıllı, təmkinli bir ağsaqqal idi. Elin-obanın ən çətin işlərində fəal iştirak edən bir şəxsiyyət idi. Belə demək mümkünsə qan barışdıran bir insan idı. Kənddə heç kim onun bir sözünü iki etməz, onun dediklərinə əmək etməyi özünə borc bilərdi. O, həm də çox işgüzar qoçaq bir adam idi. Hamı ilə dil tapmağı bacarar, haqsızlığı sevməzdi. Kasıblara kimsəsizlərə əl tutmağı özü üçün şərəf sayardı.

Həmişə çalışardı ki, hamı bir-birinin dərd-sərinə kömək etsin. Heç kəsdən inciməz və heç kəsi incitməzdi.

Atalar sözləri və zərb məsəllər onun dilinin əzbəri idi. Ermənilərlə dostluq edən adamlara, onların xəbisliyi haqqında çoxlu misallar söyləyərdi. O, indinin özündə belə onu tanıyanların qəlbində bir şəxsiyyət kimi yaşayır.

O, 1980-ci illərdə dünyasını dəyişmişdir.

## GÜLMALIYEV HACI QAFAR YUSİF OĞLU



Gülmalıyev Qafar 1927-ci ildə Dərələyəzin Qabaxlı kəndində anadan olmuşdur. 1941-ci ildə orta məktəbi bitirdikdən sonra kolxozda işləmiş, 1949-cu ildə Sov. İKP üzvlüyünə daxil olmuşdur. 1955-1956-cı illərdə Əzizbəyov rayon partiya komitəsində təlimatçı, 1956-1961-ci illərdə Qabaxlı kəndində Əzizbəyov adına kolxozda sədr, 1961-1966-cı illərdə Gülüdüz süd-heyvandarlıq sovxozunda baş iqtisadçı, 1966-1975-ci illərdə Gülüdüz süd-heyvandarlıq sovxozunda direktor, 1975-1976-cı illərdə Abşeron rayon Xırdalan süd-tərəvəzçilik sovxozunda baş iqtisadçı, 1977-ci ildə baş zootexnik, 1977-1981-ci illərdə Respublika k/t nazirliyi Baş Sovxozlar idarəsində baş zootexnik, 1981-1983-cü illərdə baş sovxozlar idarəsində şöbə müdiri, 1984-cü ilin aprelinə qədər idarə rəisi, 1984-1986-cı illərdə Abşeron rayon Buzovna s/t sovxozunda direktor, 1986-1992-ci illərdə Azərbaycan Kənd təsərrüfatı Nazirliyi Dövlət Damazlıq Stansiyasının direktoru vəzifəsində işləmişdir.

1992-1996-cı illərdə YAP-ın ilk təşkilat sədri, 1994-cü ildən hal-hazıradək YAP-ın Abşeron rayon təşkilatının sədri vəzifəsində işləyir. Həmçinin 1996-cı ilin yanvarından hazırkı dövrə qədər Abşeron rayon Əhalinin Sosial-Mülki Müdafiəsinin direktoru vəzifəsində işləyir. O, bir çox medallarla və Şərəf nişanı ordeni ilə təltif edilmişdir.

## BABAYEVA LEYLA TALIB QIZI



Babayeva Leyla 1927-ci il oktyabrın 18-də Dərələyəz mahalının Ələyəz kəndində anadan olmuş və 1940-cı ildə kənddəki 7 illik məktəbi bitirmişdir. 1945-ci ildən 1956-cı ilədək Ələyəz kənd klubunun müdiri vəzifəsində, bundan sonra isə kolxoz təsərrüfatında işləmişdir. "Çoxillik əmək fəaliyyətinə görə "əmək veteranı" fəxri adına layiq görülmüş, hal-hazırda isə təqaüdçüdür. 1988-ci ildə ermənilər tərəfindən zorla öz doğma yurd-yuvasıqndan çıxarılmış və Azərbaycan Respublikasında məskunlaşmışdır. 2000-ci ildə müqəddəs Məkkədə Həcc ziyarətində olmuşdur.

## NAĞIYEVA NAZLI İBRAHİM QIZI



Nağıyeva Nazlı İbrahim qızı 1931-ci ildə Dərələyəz mahalının Qovuşuq kəndində anadan olmuşdur. Qovuşuq kənd orta məktəbində ibtidai sinfi bitirdikdən sonra təhsilini davam etdirə bilməmişdir. Atası siyasi məhbus olduğu üçün ermənilər onu öz doğma kəndində yaşamağa qoymamışlar. Bu ailə gah Goranboyda, gah Bərdədə, gah da Naxçıvanda yaşamağa məcbur olmuş və buna agörə də Hacı Nazlı təhsilini davam etdirə bilməmişdir.

1948-ci ildən Naxçıvan MR Sust kəndində əmək fəaliyyətinə başlamış, 1974-cü ilə qədər burada işləmiş, 1974-cü ildə ailələri Abşeron rayonunun Novxanı kəndinə köçmüş və orada məskunlaşmışlar. O, qəhrəman ana, "Qızıl Ulduz" döş nişanı ilə təltif edilmişdir.

Ruhani təhsil almış ata və babalarının nəsihətlərini yerinə yetirərək 1998-ci ildə Həc, Kərbəla, Məşhəd, 1999-cu ildə Şam (Dəməşq) və Hələb şəhərlərindəki müqəddəs ocaqları (ziyarətgahları) ziyarət etmiş və demək olar ki, müsəlmanlara məxsus olan müqəddəs yerlərin hamısını (çaharidəhməsumu) tamam etmişdir. 25 nəvəsi, 2 nəticəsi vardır.

## ZÜLFÜQAROVA ZÜLEYXA İBRAHİM QIZI



Zülfüqarova Züleyxa İbrahim qızı 1935-ci ildə Dərələyəz mahalının Qovuşuq kəndində doğulmuşdur. İlk təhsilini Qovuşuq kənd orta məktəbində almışdır. Erməni millətçilərinin yeritdiyi siyasət nəticəsində onun atası vətənindən didərgin salınmış, siyasi məhbus olub Sibirdən qayıtdıqdan sonra öz doğma kəndinə buraxılmamış, başqa bölgələrdə yaşamağa məcbur olmuş və bu səbəbdən təhsilini davam etdirə bilməmişdir.

O, 1949-cu ildə ailə qurmuşdur. 6 övladı, 8 nəvəsi var. Ruhani təhsilli almış ata və babalarının nəsihətlərini yerinə yetirərək 1998-ci ildə Həcc, kərbəla, Məşhəd, 1999-cu ildə Şam (Dəməşq) və Hələb şəhərlərindəki müqəddəs ocaqları (ziyarətgahları) ziyarət etmiş və demək olar ki, müsəlmanlara məxsus müqəddəs yerlərin hamısını (çaharidəhməsumu) tamam etmişdir.

## QULİYEV İBARHİM TALIB OĞLU

Quliyev İbrahim Talıb oğlu 1923-cü ildə Dərələyəzin Ələyəz kəndində anadan olmuş, ermənilərin təqibi nəticəsində 1968-ci ildə doğma yurdundan çıxıb Azərbaycanın Şəki rayonunda (Üzümçülük sovxozunda) məskunlaşmış və hal-hazırda orada yaşayır.

O, 2000-ci ildə Məkkəyə, Kərbəlaya, Məşhədə getmiş və bu müqəddəs yerlədə ziyarət etmişdir.

Hacı İbrahimin 3 oğlu (Quliyev Talıb İbrahim oğlu - 1953, Quliyev Məhərrəm İbrahim oğlu - 1958, Quliyev Yusif İbrahim oğlu - 1966), gəlini (Quliyeva Şəhla Sabir qızı - 1966), və qardaşı oğlu (Quliyev Siyanfər Cəbrayıl oğlu - 1962) da 2003-cü ildə həmin müqəddəs yerləri ziyarət etmişdir.

## MİRZƏYEV MUSA İBRAHİM OĞLU



Mirzəyev Musa İbrahim oğlu 1957-ci il avqustun 7-də Dərələyəzin Qovuşuq kəndində anadan olmuşdur. 1964-1974-cü illərdə Qovuşuq kənd orta məktəbində, 1974-1978-ci illərdə isə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsində təhsil almışdır. Təhsilini fərqlənmə diplomu ilə başa vurub 1978-1980-ci illərdə Şəki Pedaqoji, 1981-1996-cı illərdə isə Bakı Pedaqoji məktəblərində dil-ədəbiyyat müəllimi işləmişdir.

1978-1980-ci illərdə ordu sıralarında olmuş və hərbi xidməti başa vurduqdan sonra 1981-1985-ci illərdə pedaqoji məktəbdə müəllim işləməklə yanaşı tələbə həmkarlar təşkilatının, 1985-88-ci illərdə isə müəllim və işçi həmkarlar təşkilatının sədri vəzifəsində işləmişdir. 1997-ci ildə Aviasiya Təhlükəsizliyi İdarəsində, 1998-ci ildən isə özəl müəssisədə fəaliyyət göstərir.

1998-ci ildə Həc, Kərbəla, Məşhəd ziyarətlərində, 1999-cu ildə isə Şam və Hələb şəhərlərindəki müqəddəs ocaqları ziyarət etmişdir. Müsəlmanlara məxsus olan müqəddəs yerlərin hamısını (çaharidəhməsumu) tamam etmişdir.

## ŞAHBAZOV MƏHƏMMƏD FAZİL OĞLU



Şahbazov Məhəmməd Fazil oğlu 1940-cı ildə Dərələyəzin Gülüdüz kəndində anadan olmuş, orta təhsilini Gülüdüz və Qovuşuq kənd məktəblərində almış, 1967-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin "İbtidai məktəb pedaqogikası və metodikası", 1977-ci ildə isə həmin institutun tarix fakültəsini bitirmişdir.

1961-1962-ci illərdə Dərələyəzin Amağu kəndində sinif müəllimi, 1963-cü ildən 1984-cü ilə qədər Gülüdüz kəndində tarix müəllimi olmuşdur.

1984-cü ildə ailəsi ilə birlikdə Bakı şəhərinə köçmüş, 1984-1986-cı illərdə 10 saylı texniki peşə məktəbində tərbiyəçi müəllim, 1986-1995-ci illərdə 58 saylı orta məktəbdə sinif və tarix müəllimi, daha sonra isə dərs hissə müdiri vəzifəsində işləmişdir. Hal-hazırda təqaüddədir, 1997-ci ildə Həccə gedib, Məkkəni ziyarət etmişdir.

## *ERMƏNİSTAN RESPUBLİKASI ALİ SOVETİNƏ SEÇİLMİŞ DEPUTATLAR (1950-1988) (BİR QRUPU)*

Ermənistan hökuməti və onun şovinist rəhbərləri Sovet hökumətinin hökmranlıq etdiyi 70 il müddətində Dərələyəzdən Ali Sovetə həmişə savadsız adamları deputat seçmişdir. Bunlar ya çoban, ya sağıcı, ya da adi işçi olmalı idi. Həyatı dərk edən, siyasəti başa düşən adamların, ziyalıların yüksək vəzifələrdə işləməsinə, respublikaya və İttifaqa deputat seçilməsinə imkan vermirdilər. Ermənilər elə adamları deputat seçirdilər ki, onlar dinib danışmasın, ermənilər nə deyirsə, ona səs versinlər. Bunları aşağıdakı deputatların tərcümeyi-halından da görmək olar.

### ABDULLAYEV İSMAYIL MƏMMƏD OĞLU

Abdullayev İsmayıl 1908-ci ildə Dərələyəz mahalının Ağkənd kəndində anadan olmuşdur. 1918-ci ildə ermənilərin törətdikləri qırğın nəticəsində İsmayılın ailəsi qırılmış və o tək qalmışdır. O, qaçqınlıqdan qayıtdıqdan sonra kənd təsərrüfatı ilə məşğul olmuş, əvvəlcə komsomola, sonra isə Kommunist Partiyası sıralarına daxil olmuşdur. 1932-1936-cı illərdə Qızıl Ordu sıralarında qulluq etmiş, ordudan qayıtdıqdan sonra 1937-1941-ci illərdə Ağkənd kənd soveti sədri vəzifəsində çalışmış, 1938-ci ildə Ermənistan SSR Ali Sovetində deputat seçilmişdir.

1941-ci ildə könüllü surətdə Böyük Vətən müharibəsinə getmiş, bmr sıra orden və medallarla təltif edilmiş, 1944-cü ilin may ayında yaralanaraq vətənə qayıtmışdır. 1944-1952-ci illərdə Ağkənddə kolxoz sədri işləmiş və bu kəndi rayonun ən qabaqcıl kolxozuna çevirmişdir. 1953-1959-cü illərdə rayonun Civə, Sallı, Qabaqlı kəndlərində kolxoz sədri vəzifəsində çalışmış, 1963-cü ildən fərdi pensiyaçı olmuş, 1983-cü ildə 75 yaşında vəfat etmişdir.

### İBADOVA ZƏHRA CƏMİL QIZI



İbadova Zəhra 1928-ci ildə Dərələyəzdə, Yeğeqnadzor rayonunun Ələyəz kəndində anadan olmuşdur.

1935-ci ildə Ələyəz kənd məktəbinə qəbul olmuş və 1942-ci ildə məktəbin yeddinçi sinfini bitirmişdir. Sonra Ələyəz kənd kolxozunda bütün sahələrində işləmişdir. 1953-1958-ci illərdə 1-ci çağırış Ermənistan SSR Ali Sovetinin deputatı olmuşdur.

O, 1988-ci ildə ermənilər tərəfindən Ermənistandan zorla deportasiya olunmuş, Bakı şəhəri Sabunçu rayonu Bakıxanov qəsəbəsində məskunlaşmışdır.

## XƏLİLOVA TÜKƏZ İSGƏNDƏR QIZI



Xəlilova Tükəz 1935-ci ildə Dərələyəzdə, Yeğeqnadzor rayonunun Ələyəz kəndində anadan olmuşdur. 1942-ci ildə Ələyəz kənd məktəbinin 1-ci sinfinə daxil olmuş, 1949-cu ildə həmin məktəbin 7-ci sinfini bitirmiş və həmin vaxtdan kolxoz təsərrüfatında işə başlamışdır. 1959-1964-cü illərdə 5-ci çağırış Ermənistan SSR Ali sovetinin deputatı olmuşdur. 1961-ci ildən Kommunist Partiyasının üzvü olan Tükəz 1988-ci ildə öz doğma yurdundan zorla deportasiya edilmiş və həmin vaxtdan Bakı şəhərində yaşayır.

## BAĞIROV MƏHƏR PƏNAH OĞLU

Dərələyəzin Qalaser kəndində dünyaya gələn bütün həyatı boyu çoban olan Bağırov Məhər Pənah oğlu – 1970-1975-ci illər ərzində Ermənistan SSR Ali Sovetinin deputatı olmuşdur.

## MƏMMƏDOVA NAZLI HƏBİB QIZI

Məmmədova Nazlı 1948-ci ildə Dərələyəzin Qovuşuq kəndində anadan olmuş, 1959-cu ildə Qovuşuq kənd orta məktəbini bitirmiş və ömrü boyu doğma kəndində təsərrüfatda çalışmışdır.

1976-1980-cı illərdə sovxozda sağıcı işlədiyi müddətdə Ermənistan SSR Ali Sovetinin deputatı olmuşdur. 1988-ci ildə Erməni şovinistləri başqa azərbaycanlılar kimi onu da doğma yurdundan zorla çıxarmış, o Azərbaycana gəlmiş və 1994-cü ildə dünyasını dəyişmişdir.

## MƏMMƏDOV İSFƏNDİYAR YOLÇU OĞLU

Məmmədov İsfəndiyar 1959-cu ildə Dərələyəzin Qovuşuq kəndində anadan olmuşdur. 1976-cı ildə öz kəndinin orta məktəbini bitirmiş və 1988-ci ilə qədər Qovuşuğun Sovxozunda işləyib, 1980-1984-cü ildə Ermənistan SSR ali sovetinin deputatı olmuşdur. 1988-ci ildə öz doğma kəndindən zorla qovulmuşdur.

## HÜMBƏTOV SALMAN HACI OĞLU



Hümbətov Salman Hacı oğlu 14 noyabr 1961-ci ildə Dərələyəz mahalının Qabaxlı kəndində anadan olmuşdur. Orta məktəbi Qabaxlı kəndində bitirmiş və sonra çoban işləmişdir.

1985-ci ilin fevral ayında Ermənistan Ali Sovetinə deputat seçilmiş, 1988-ci ilə qədər deputat olmuşdur. 1988-ci ildə öz doğma yurdundan qovulmuşdur.

## *HÜQUQŞÜNASLAR (BİR QRUPU)*

### ƏSGƏROV MƏMMƏD ƏZİZ OĞLU
### (General)



Əsgərov Məmməd Əziz oğlu 1946-cı ili avqust ayının 6-da Qərbi Azərbaycanda, Dərələyəzin Amağu kəndində anadan olmuşdur. 1953-cü ildə birinci sinfə daxil olmuş, 1963-cü ildə orta məktəbi bitirmiş, 1966-cı ildə hərbi xidmətə çağırılmış, 1968-ci ildə hərbi xidmətdən tərxis olunmuşdur.

1969-cu ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə (BDU-ya) daxil olmuş, 1975-ci ildə oranı bitirmiş və hal-hazırda BDU-nun hüquq fakültəsində (IV kursda) oxuyur.

O, 1980-ci ildə Bakı şəhəri Əzizbəyov RDİŞ-də komandir müavini, 1981-ci ildə Bakı şəhəri Qaradağ RDİŞ-də G-XK-nın rəis müavini, 1983-cü ildə Bakı şəhəri Binəqədi RDİŞ-də YYÇ üzrə sahə inspektoru, 1986-cı ildə Bakı şəhəri Binəqədi RDİŞ-də YYÇ üzrə müfəttişliyin rəisi, 1987-ci ildə Bakı Şəhəri Yasamal RDİŞ-də YYC üzrə sahə inspektoru,, 1989-cu ildə Bakı Şəhəri Yasamal RDİŞ-də YYÇ üzrə müfəttişliyin rəisi, 1992-ci ildə Bakı şəhəri Binəqədi RDİŞ-də YYÇ işlərinin təşkili üzrə baş inspektor və Binəqədi RDİİ-nin YYÇ işləri üzrə baş inspektor, 1995-ci ildə Binəqədi RDİİ-də İTŞ-nin baş inspektoru, 1995-ci ildə AR DİN-nin kadrlar idarəsinin nəzarət-metodiki bölməsinin baş inspektoru, 1997-ci ildə AR DİN-də kadrlar idarəsinin nəzarət-metodiki bölməsinin rəisi, 2001-ci ildə AR DİN-də kadrlar idarəsinin rəis müavini, həmin ilin iyul ayından hal-hazıradək AR DİN-də Baş Kadrlar İdarəsinin rəisi işləyir.

Əsgərov Məmməd polis general-mayorudur və əməkdəki yaxşı fəaliyyətinə görə "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir.

### İBRAHİMOV ƏJDƏR İSMAYIL OĞLU
### (General)

İbrahimov Əjdər 1904-cü ildə Qərbi Azərbaycanın Şərur-Dərələyəz qəzasının Qaravəng kəndində anadan olmuşdur. Onun atası Kərbəlayı Nəcəfalı oğlu İsmayıl Tiflis rus-tatar məktəbində təhsil aldıqdan sonra Qaravəngə qayıtmış, bir qədər sonra isə yenidən Tiflisə getmişdir. Tiflisdə Zöhrə xanımla evlənmiş və 1906-cı ildən etibarən Tiflisdə "Şeytanbazar" məhəlləsində yaşamışdır.

Əjdər İbrahimovun babası Kərbəlayı Nəcəfalı 1918-ci ildə Dərələyəzdə

Andranikin dəstəsindən olan Yapon tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir.



1918-ci ildə Dərələyəzin Ərgəz, Qaravəng, Gendərə, Canı, Qabaxlı, Gülüdüz, Kotanlı kənd sakinləri ilə birlikdə Əjdərin valideynləri də Dağlıq Qarabağın Xocalı kəndinə gəlmiş və burada yaşamağa başlamışdır. Əjdər İbrahimov burda kənd sovetinin katibi vəzifəsində işləmiş, rayon və vilayət İcraiyyə Komitəsinin üzvülüyünə qədər yüksəlmişdir. O, 1930-cu ildə Gəncə Vilayət Partiya Komitəsinin təqdimatı ilə hüquq ixtisası üzrə instituta oxumağa göndərilmiş, 1933-cü ildən etibarən prokurorluq orqanlarında işləməyə başlamış və Bakının Binəqədi, Sabirabad, Goranboy rayonlarında prokuror vəzifəsində çalışmışdır.

O, yaxşı işlədiyi üçün Respublika Prokurorluğunun aparatında işə götürülmüş, şöbə rəisi, baş prokurorun köməkçisi, müavini, 1-ci müavini olmuşdur. Bundan sonra xeyli müddət respublika prokuroru vəzifəsini icra etmiş və Ədliyyə generalı rütbəsinə layiq görülmüşdür.

O, Bakı Dövlət Universitetinin hüquq fakültəsində dərs demiş, Cinayət hüququ kafedrasında yeni proqramlar və dərsliklər hazırlamış, "Azərbaycan Respublikasında prokurorluğun yaradılması və inkişafı" mövzusunda dissertasiya müdafiə etmiş, hüquq elmləri namizədi, alimlik dərəcəsi adını almış və 1963-cü ildən etibarən "Cinayət hüququ“ kafedrasına başçılıq etmişdir.

Əjdər İbrahimov bir çox elmi məqalənin, qiymətli dərslik və dərs vəsaitinin, bir sıra oçerk və hekayələrin müəllifidir. Onun yazdığı "Azərbaycan SSR-də məhkəmə və prokurorluğun təşkili", "Prokuror – istintaq aktlarının nümunəsi", "Azərbaycan SSR-nin yoldaşlıq məhkəməsinin iş təcrübəsindən", "Azərbaycan SSR prokurorluğunun tarixindən", "Azərbaycan sovet yazıçıları məhkəmə və qanunçuluq haqqında", "Rusca-Azərbaycanca qısa hüquq lüğəti", "Azərbaycan SSR xalq məhkəmələrinin seçkiləri haqqında" və s. buna misal ola bilər. Ömrünün əlli ilindən çoxunu Azərbaycan Respublikasının hüquq elminə həsr edən Əjdər İbrahimov qüsursuz əməyinə görə 14 mart 1980-ci ildə əməkdar hüquqşünas fəxri adına layiq görülmüşdür. Onun sinəsini "Qırmızı Əmək bayrağı" ordeni, "Şərəf nişanı" və başqa ona qədər müxtəlif medallar bəzəyirdi. Dəfələrlə Azərbaycan SSR Ali Sovetinin, SSRİ Prokurorluğunun fəxri fərmanlarına layiq görülmüş, bir neçə dəfə Bakı Sovetinə deputat seçilmişdi. Bakı şəhər partiya komitəsinin təftiş komissiyasının üzvü olmuş, Azərbaycan SSR Ali Məhkəməsi yanında elmi məsləhət şurasının üzvü kimi fəaliyyət göstərmişdir. 86 il ömür sürmüşdür.

## MUSTAFAYEV RƏHMAN BƏHMAN OĞLU



Rəhman Mustafayev 1937-ci ildə Dərələyəzin (Yeğeqnadzor rayonunun) Sallı kəndində anadan olmuşdur. 1945-ci ildə birinci sinfə daxil olmuş, 1952-ci ildə 7-ci sinfi bitirdikdən sonra Ordubad pedaqoji texnikumuna qəbul olmuşdur. 1956-cı ildə texnikumu fərqlənmə diplomu ilə bitirib Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarix-filalogiya fakültəsində daxil olmuş və 1961-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. 1970-ci ildə Hüquq fakültəsini bitirmişdir.

1961-ci ilin sentyabr ayından 1962-ci ilin fevral ayına qədər (İmişli rayonunun) Sarxanlı kəndindəki orta məktəbdə dərs hissə müdiri işləmişdir. 1962-1963-cü illərdə Sovet ordusu sıralarında xidmət etmiş, 1964-cü ildən 1992-ci ilə qədər isə Azərbaycan Respublikası Daxili İşlər orqanlarında müxtəlif vəzifələrdə çalışmışdır.

Rəhman Mustafayev Bakı şəhəri Lenin rayon daxili işlər şöbəsinin rəis müavini, Quba rayon DİŞ-nin rəisi, Nəsimi rayon DİŞ-in rəisi, Bakı şəhər Daxili İşlər İdarəsinin rəis müavini, Lenin rayon DİŞ-in rəisi, Daxili İşlər Nazirliyinin Cinayətkarlığa qarşı Mübarizə İdarəsinin rəisi vəzifələrində işləmiş, 1995-ci ilin mart ayından istefaya çıxmışdır.

1963-cü ildən 1990-cı ilin yanvar ayına qədər Sov. İKP sıralarında olmuşdur.

## SƏFƏROV SEVİNDİK SƏFƏR OĞLU



Səfərov Sevindik 1945-ci ildə Dərələyəzin Əzizbəyov rayonunun Çul kəndində anadan olmuşdur. 1949-cu ildə erməni şovinistləri tərəfindən yurd-yuvasından zorla deportasiya edilərək Salyan rayonunun Xələc kəndində məskunlaşmış, Xələc kənd orta məktəbini bitirdikdən sonra 1971-1972-ci illərdə ordu sıralarında xidmət etmişdir.

1973-1980-ci illərdə Bakı şəhər Baş Polis idarəsində, 1980-1985-ci illərdə DİN-nin Baş cinayət axtarış idarəsində müxtəlif vəzifələrdə çalışmış, 1985-1988-ci illərdə Naxçıvan Muxtar Respublikasının DİN-nin rəis müavini vəzifəsində işləmişdir. 1988-ci ildən 1990-cı ilədək Moskva şəhərində Polis Akademiyasının əyani şöbəsində təhsil almış, 1990-cı ildən Şəki şəhər polis idarəsinin rəisi, 1994-cü ildən 2001-ci ilədək DİN-nin Mütəşəkkil Cinayətkarlığa qarşı idarəsinin rəisi vəzifəsini yerinə yetirmişdir.

25 may 2001-ci ildən hal-hazıradək Sumqayıt şəhər polis idarəsinin rəisi vəzifəsində işləyir. Xidmət dövründə dəfələrlə müxtəlif növ mükafatlar almış, "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir.

## NURİYEV GÜLMALI İMRAN OĞLU



Nuriyev Gülmalı 2 avqust 1937-ci ildə Dərələyəzdə, Əzizbəyov rayonunun Zeytə kəndində anadan olmuş, 1944-cü ildə Zeytə kənd 7 illik məktəbinə daxil olmuşdur. 1948-ci ildə ermənilər tərəfindən doğma kəndindən zorla deportasiya olunmuş və Azərbaycanın Əlibayramlı rayonunda məskunlaşmışdır. Orta təhsilini Əli-Bayramlı şəhərində davam etdirmiş və 1953-cü ildə buranı bitirmişdir. 1953-1955-ci illərdə Sabirabad rayonunun "Bakı" kolxozunda sıravi kolxozçu işləmiş, 1955-1957-ci illərdə Qazax kənd təsərrüfatı məktəbində təhsil almış, 1957-1958-ci illərdə Sabirabad rayonunun "Bakı" kolxozunda zootexnik işləmişdir.

1958-1961-ci illərdə ordu sıralarında xidmət etmişdir. Ordudan qayıtdıqdan sonra Azərbaycan Dövlət Universitetinin hüquq fakultəsinə daxil olmuş, 1966-cı ildə buranı fərqlənmə diplomu ilə bitirmişdir. 1966-1967-ci illərdə Balakəndə, 1967-1969-cu illərdə Şahbuzda, 1969-1972-ci illərdə Lənkəran rayonun prokurorluğunda işləmişdir. 1972-1977-ci illərdə Azərbaycan SSR prokuroru yanında xüsusi işlər üzrə müstəntiq, 1977-ci ildən isə Ucar rayonunda prokuror vəzifəsində çalışmışdır.

## QULİYEV İSGƏNDƏR NƏSO (NƏSRƏDDİN) OĞLU



Kökü, soyu, ata-anası Dərələyəzdən olan Quliyev İsgəndər 1951-ci il yanvarın 27-də Azərbaycan respublikasının Sabirabad rayonunun Şıxallarlı kəndində anadan olmuşdur. Ailəsi 1948-ci ildə Dərələyəzin Zeytə kəndindən Azərbaycan respublikasının Sabirabad rayonuna deportasiya olunan İsgəndər 1955-ci ildə valideynləri ilə birlikdə yenidən Ermənistan Respublikasının Əzizbəyov rayonunun Zeytə kəndinə köçmüşdür.

O, 1957-1965-ci illərdə Zeytə kənd 7 illik məktəbində 1965-1968-ci illərdə Qovuşuq kənd orta məktəbində təhsil almışdır. İsgəndər Quliyev 1968-ci ildə ADU-nun mexanika-riyaziyyat fakültəsinə daxil olmuş, lakin ailə vəziyyəti ağır olduğu üçün təhsilini yarımçıq qoyaraq Əli-Bayramlı şəhərində fəhlə işləmişdir. 1971-1976-cı illərdə Azərbaycan Politexnik İnstitutunun Mexanika fakültəsində Avtomobil nəqliyyatı ixtisasını almışdır.

O, 1976-1994-cü illərdə Azərbaycan Dövlət Yol Polisi İdarəsində müfəttiş işləmiş, 1995-ci ilin yanvar ayının 26-dan Bakı şəhər DUPİ-nin rəis müavini vəzifəsinə təyin olunmuş və hal-hazırda həmin vəzifədə çalışır. Polis podpolkovniki rütbəsini daşıyır.

## QULİYEV ƏNVƏR MƏHƏMMƏDƏLİ OĞLU



Ailəsi 1950-ci ildə Dərələyəzin Qozulca kəndindən deportasiya olunan Quliyev Ənvər 25 mart 1953-cü ildə Bərdə rayonunun İmirli kəndində anadan olmuşdur. O, 1959-cu ildə İmirli kənd orta məktəbinə daxil olmüş, 1969-cu ildə burada 10-cu sinfi bitirmişdir. 1971-ci ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə daxil olub 1976-cı ildə oranı müvəffəqiyyətlə başa vurmuşdur.

1976-cı ildə təyinatla Ucar rayon DİŞ-nə müstəntiq göndərilmiş, 1980-ci ildə həmin şöbəyə rəis müavini, 1990-cı ildə Bərdə rayon DİŞ-nə rəis təyin olunmuş, 24 may 1992-ci ilədək burada işləmişdir. 1993-1994-cü illərdə DİN-də müstəntiq və Qusar rayon Daxili İşlər şöbəsində rəis vəzifəsində çalışmış, 1994-cü ilin dekarbından 2001-i ilin aprelinədək Sumqayıt şəhər polis idarəsinin rəisi işləmişdir. 2001-ci ilin noyabrından bu vaxta kimi DİN-nin Baş istintaq və təhqiqat idarəsində baş müstəntiq vəzifəsində çalışır.

Hal-hazırda polis polkovnikidir. 1995-ci ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuşdur.

## MƏMMƏDOV NİZAMİ KAZIM OĞLU



Məmmədov Nizami 3 dekabr 1957-ci ildə Dərələyəz mahalının Qovuşuq kəndində anadan olmuşdur.

1964-1974-cü illərdə Qovuşuq kənd orta məktəbində oxumuş, hərbi xidmətdə olmuş və 1979-cu ildə Azərbaycan Dövlət Pedaqodi Universitetinin filologiya fakültəsini bitirmişdir. 1981-ci ildən Azərbaycan Respublikasının Daxili İşlər orqanlarında xidməti fəaliyyətə başlamış, 1995-ci ildən 2001-ci ilədək Nəsimi Rayonunda Polis İdarəsinin rəis müavini və hal-hazırda Xətai rayonunda həmin vəzifədə işləyir.

1993-1997-ci illərdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasını bitirərək hüquqşünas ixtisasına yiyələnmişdir. O, Qarabağ uğrunda gedən savaşda dəfələrlə komandir kimi cəbhə bölgəsinə göndərilmişdir. Döyüşdə mərdlik, şücaət və şəxsi heyətə yüksək peşəkar səviyyədə rəhbərlik etmək bacarığına görə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəhbərliyi tərəfindən müxtəlif mükafatlara layiq görülmüşdür.

## MƏMMƏDOV MƏMMƏD İSA OĞLU
## (Tapança Mamed)



Məmmədov Məmməd İsa oğlu 1925-ci il martın 22-də Dərələyəzin Ardaraz kəndində doğulmuşdur. 1930-1931-ci illərdə Ardaraz kənd orta məktəbinə daxil olmuş, 1941-ci ildə Civə kənd orta məktəbini bitirmişdir. O, 1942-ci ildə Böyük Vətən müharibəsinə getmiş, 1946-cı ildə ordudan tərxis olunmuş, 24 orden və medalla təltif olunmuş, müharibədən sonra Azərbaycan Dövlət Pedaqoji Universitetini bitirmişdir.

1948-ci ildə doğma kəndindən zorla deportasiya olunmuş, Saatlı rayonunda məskunlaşmağa məcbur olmuşdur. 1961-ci ildən Azərbaycan Respublikası Daxili İşlər Nazirliyində müxtəlif rayon və şəhərlərdə əməliyyat qrupunun rəisi, rayon polis şöbəsinin rəisi vəzifələrində çalışmış, dəfələrlə medallara, təşəkkürlərə layiq görülmüşdür. Bu illərdə o həm də Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir.

Üç övladını alim kimi yetirən Məmməd kişi Azərbaycanda el ağsaqqalı kimi məşhurdur.

## KƏRİMOV ƏLİ MƏHƏMMƏD OĞLU



Soyu, kökü, atası, babası Dərələyəzdən olan Kərimov Əli 1933-cü ildə Naxçıvan Müxtar Respublikasının Şərur rayonunun Oğlanqala kəndində anadan olmuş, 1936-cı ildə valideynləri ilə birlikdə doğma yurduna Qozulca kəndinə qaytımış və ilk təhsilini bu kənddə almışdır. 1949-cu ildə ailələri doğma yurdundan zorla deportasiya olunmuş və Şərur rayonunun Oğlanqala kəndində məskunlaşmışlar. O, təhsilini burada davam etdirərək 1951-ci ildə Cəlil kənd orta məktəbini bitirmişdir.

1952-1956-cı illərdə o, Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Sənaye-İqtisadiyyat fakültəsində təhsil almış və buranı bitirmişdir.

İnstitutu qurtaran kimi, 1956-cı ildə Sumqayıt şəhəri milis şöbəsinə təyinat almış, 16 il burda işləmiş, 13 ilə yaxın isə Bakı şəhərində Daxili İşlər Nazirliyinin Mərkəzi aparatında işləmişdir. "1941-1945-ci illərdə arxa cəbhədə fədakar əməyə görə", Azərbaycan Daxili İşlər Nazirliyində "Qüsursuz xidmətə görə" I-II-III dərəcəli medallarla, Böyük Vətən müharibəsinin 30-40-cı ildönümü medalları ilə, Daxili İşlər Nazirliyinin əlaçı döş nişanı ilə təltif olunmuş, I dərəcəli əməliyyatçı adına layiq görülmüşdür.

Milis mayorudur, Daxili İşlər Nazirliyinin təqaüdçüsüdür.

## QURBANOV NİZAMİ İBRAHİM OĞLU



Atası, babası, soykökü Dərələyəzin Terp kəndindən olan, 1949-cu ildə ailəsi doğma kəndindən deportasiya olunan Qurbanov Nizami 1959-cü ildə Salyan rayonunun Qarabağlı kəndində anadan olmuşdur. O, 1967-ci ildə Salyan rayon Qaraçala qəsəbə orta məktəbinin birinci sinfinə daxil olmuş, 1977-ci il Salyan şəhər Nizami adına 2 №-li orta məktəbini bitirmişdir. 1978-ci ildən Bakı Dövlət Universitetinin hüquq fakültəsinin qiyabi şöbəsinə daxil olmuş, 1984-cü ildə həmin fakültənin tam kursunu bitirmişdir. Qiyabi təhsil aldığı illərdə ayrı-ayrı sahələrdə sıravi işlərdə çalışmışdır. 1984-cü ildə Azərbaycan Respublikası Prokurorluğunun mərkəzi apparatında işə daxil olmuş, hal-hazırda Bakı şəhəri Nərimanov rayon prokurorluğunda prokuror köməkçisi xidməti vəzifəsində çalışır.

## BABAYEV ƏBÜLFƏZ ƏMRASTAN OĞLU



Babayev Əbülfəz 10.12.1955-ci ildə Qərbi Azərbaycanda, Dərələyəz mahalının Ələyəz kəndində anadan olmuşdur. 1962-ci ildə öz kəndində 1-ci sinfə daxil olmuş, 1970-ci ildə 8-ci sinfi bitirmiş, 1970-1972-ci illərdə həmin rayonun Qovuşuq məktəbində oxumuş, orta təhsil almışdır. 1974-cü ildə hərbi xidmətə çağırılmış, 1976-cı ildə hərbi xidməti başa vurub müddətdən artıq xidmətdə qalmışdır. O, 1978-ci ildə Saratov şəhərindən daxili işlər orqanına dəstə rəisi vəzifəsinə göndərilmişdir. Sonra Saratov vilayətinin Marks rayonunun Podlesni qəsəbəsində yerləşən 8 saylı İslah Əmək Kaloniyasına göndərilmiş və 1978-ci ildə ona "daxili xidmət kiçik leytenantı" rütbəsi verilmişdir.

1980-ci ildə ona Saratov vilayətinin Novouzenski şəhərində "daxili xidmət leytenantı", 1983-cü ildə "daxili xidmət baş leytenantı" rütbəsi verilmişdir. 1984-cü ildə oradakı hərbi akademiyanı bitirmişdir.

1985-ci ildə xidmətini davam etdirmək üçün o Azərbaycan DİN-nə ezam olunmuş, həmin ildə Müalicə Əmək Profilaktoriyasında müəssisə rəisinin növbətçi köməkçisi vəzifəsinə təyin edilmiş, 1986-cı ildə ona "daxili xidmət kapitanı" rütbəsi verilmişdir.

O, 1988-ci ildə Tərbiyə Əmək Müəssisəsinə rəis müvaini vəzifəsinə təyin edilmiş, 1986-cı ildə ona "daxili xidmət kapitanı" rütbəsi verilmişdir.

O, 1988-ci ildə Tərbiyə Əmək Müəssisəsinə rəis müavini vəzifəsinə təyin edilmiş, 1990-cı ildə "daxili xidmət mayoru" rütbəsi verilmişdir. 1992-ci ildə Tərbiyə Əmək Müəssisəsinin rəisi, 1994-cü ildə 12 saylı İslah Əmək Müəssisəsinin rəisi vəzifəsinə təyin edilmişdir.

1994-cü ildə ona "ədliyyə polis polkovnik-leytenantı" rütbəsi verilmiş,

1996-cı ildə 3 saylı İslah Əmək Müəssisəsinin rəisi vəzifəsinə təyin olunmuşdur. 1997-ci ildə 2 saylı İslah Əmək Müəssisəsinin rəisi vəzifəsinə 1997-ci ildə Məhkəmə Qərarlarının İcrası Baş İdarəsinin Əməliyyat və Rejim Şöbəsinin rəisi vəzifəsinə təyin edilmiş, 1998-ci ildə "Ədliyyə polis polkovniki" xüsusi rütbəsi verilmiş və 1998-ci ildə Baş İdarə rəisinin əməliyyat işləri üzrə müavini vəzifəsinə təyin edilmişdir. 1999-cu ildə Məhkəmə Qərarlarının İcrası Baş İdarəsinin rəis müavini işləmişdir. Hal-hazırda Bakı şəhərində 10 saylı İslah Əmək Müəssisəsində rəis müavini işləyir.

## QULİYEV XANLAR MƏHƏMMƏDƏLİ OĞLU



Quliyev Xanlar 1948-ci ildə Dərələyəzin Qozulca kəndində anadan olmuş və ailələri 1950-ci ildə Bərdə rayonunun İmirli kəndinə deportasiya olunmuşdur. O, 1964-cü ildə orta məktəbi başa vurub Bakıya gəlmiş, Ə.H.Qarayev adına Bakı Neft ayırma zavodunda operator vəzifəsinə işə götürülmüşdür. 1968-1973-cü illərdə Bakı Dövlət Universitetinin hüquq fakültəsində təhsil almış, təyinatla Azərbaycan Respublikası Dövlət Üzümçülük və Şərabçılıq Komitəsinin sərəncamına göndərilmiş, burada əvvəlcə hüquqşünas, sonra hüquq və orbitraj şöbəsinin rəisi vəzifəsində işləmişdir. 1986-cı ildə Dövlət Aqrar Sənaye Komitəsində baş hüquqşünas vəzifəsinə təyin olmuş və orada 1990-cı il iyul ayına kimi işləmişdir. 1990-cı il iyul ayından isə Azərbaycan Respublikası Hüquqşünaslar İttifaqında şöbə rəisi vəzifəsinə təyin olunmuşdur. 1991-ci ilin mart ayından Azərbaycan Respublikası Prokurorluğu orqanlarına işə daxil olmuş, Abşeron və Xətayi rayon prokurorluğunda müstəntiq, baş müstəntiq vəzifələrində işləmişdir.

## ƏLİYEVA TAMARA MURTUZA QIZI

Əliyev Tamara 1947-ci ildə Yeğeqnadzor rayonunun Ələyəz kəndində anadan olmuşdur, orta məktəbi bitirdikdən sonra 1967-ci ildə Ələyəz kənd mədəniyyət evində klub müdiri işləmiş, 1968-ci ildə partiyaya üzv olmuş, 1969-cu ildə seçki yolu ilə Ələyəz kənd xalq deputatları sovetinin icraiyyə komitəsinə sədr seçilmişdir. 5 seçki müddətində rayon sovetinə deputat seçilən Əliyeva Tamara 1972-ci ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə qəbul olunmuş, 1979-cu ildə oranı bitirmişdir. 1980-ci ildə öz ərizəsi əsasında kənd sovetinin sədrliyindən azad olmuş və Ələyəz kənd orta məktəbinə müəllim təyin edilmişdir. 1981-ci ildə Bakıya gələrək Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliyinin Respublika Sovxozlar Birliyində hüquq məsləhətçisi vəzifəsində işləmişdir. 1983-cü ildən Dövlət Aqrarsənaye Nazirliyinin Aqrarsənayetikinti Birliyinin Tikinti İzoliyasiya Trestində hüquq məsləhətçisi işləyir. Bunlarla yanaşı o, 1988-ci ildən 2 saylı Bakı Tibb Baza məktəbində saathesabı yolu ilə hüquq müəlliməsi işləyir.

## *TƏHSİL İŞÇİLƏRİ, MƏKTƏB DİREKTORLARI (BİR QRUPU)*

### CƏFƏROV MƏCİD BAYRAMQULU OĞLU



Cəfərov Məcid 1915-ci ildə Dərələyəzin Ələyəz kəndində anadan olmuşdur. O, 7 illik təhsili aldıqdan sonra İrəvan pedaqoji texnikumuna daxil olmuş, 1930-1933-cü illərdə təhsilini başa vurmuşdur. Müəllimlik fəaliyyətinə Ələyəz məktəbində başlamışdır. O, Dərələyəzin bir çox kəndlərində – Qovuşuq kənd orta məktəbində üç il, Qabaxlı kənd yeddillik məktəbində dörd il, Gülüdüz 7 illik məktəbində iki il, Ayısəsi ibtidai məktəbində 3 il, Her-her və Arınc kənd məktəbində 4 il direktor vəzifəsində işləmişdir. Təhsil sahəsində əldə etdiyi uğurlara görə 1952-ci ildə Qırmızı Əmək Bayrağı Ordeni ilə təltif olunmuşdur. O, 1988-ci ilin noyabrında öz doğma yurdundan zorla deportasiya olunmuş və Abşeron rayonunun Mehdiabad kəndində məskunlaşmışdır. 1989-cu ilin payızında belə dərdlərə dözməyib ürəyi partlamış və dünyasını dəyişmişdir.

### ƏLƏSOV SAVALAN ƏLİ OĞLU



Ələsov Savalan 1921-ci ildə Qərbi Azərbaycanda, Dərələyəzin Ayısəsi kəndində doğulmuşdur. 1940-cı ildə Qovuşuq kəndində orta məktəbi əla qiymətlə bitirmiş və həmin ildə Qabaxlı kəndinə müəllim təyin olunmuşdur. 1941-ci ildə Böyük Vətən müharibəsinə getmiş və Stalinqrad uğrunda gedən döyüşlərdə ağır yaralanaraq əlil olmuşdur. Ordudan təxris olunduqdan sonra doğma kəndinə qayıtmışdır.

O, əvvəlcə Naxçıvan Dövlət ikiillik müəllimlər institutunu, bundan sonra isə Bakı Dövlət Universitetini bitirmişdir.

1960-1964-cü illərdə ayısəsi kəndində kolxoz sədri işləmiş, həm də məktəbdə dərs demişdir. 1975-ci ildə müəllim vəzifəsində işləyə-işləyə vəfat etmiş və doğma kəndində dəfn olunmuşdur.

### GÜLMƏMMƏDOV İSA ƏMİR OĞLU

Gülməmmədov İsa 1921-ci ildə Dərələyəz mahalının Ələyəz kəndində anadan olmuş, orta təhsilini Ələyəz və Qovuşuq kənd orta məktəblərində almışdır. Ələyəz kəndində sovetin katibi, hesabdar müavini, ferma müdiri vəzi-



fələrində işləmişdir. 1942-1946-cı illərdə Böyük Vətən müharibəsində iştirak etmiş, çoxlu orden və medallar almışdır.

1946-1969-cu illərdə Ələyəz, Qovuşuq və Çivə kəndlərində müəllim, 1969-cu ildə Ələyəz kəndində məktəb direktoru işləmişdir. O, Əmək veteranı medalı ilə təltif edilmişdir.

1982-ci ildən təqaüdə çıxmış, I qrup müharibə əlilidir, 1988-ci ildə erməni şovinistləri tərəfindən öz yurd və yuvasından vəhşicəsinə qovuşmuş və hal-hazırda Sumqayıt şəhərində məskunlaşmışdır.

## NƏCƏFOV ƏLİ (HACI ƏLİ) MƏHƏMMƏD OĞLU



Nəcəfov Əli 1922-ci ildə Dərələyəzin Qozulca kəndində anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra İrəvan pedaqoji institutuna daxil olmuş, orada oxumuş, bir müddət müəllim işləmiş, 1941-ci ildə Böyük Vətən müharibəsinə getmişdir. Müharibə illərində üç orden, yeddi medal, komandanlıq tərəfindən çoxsaylı təşəkkür və neçə-neçə təltiflər almışdır.

Müharibədən qayıtdıqdan sonra Heşin və Ardaraz kəndlərində məktəb direktoru, Heşində Sovet sədri, Mikoyan rayon partiya komitəsində təlimatçı işləmişdir. 1949-cu ildə öz doğma kəndindən Azərbaycana deportasiya olunmuşdur.

O, 1954-1958-ci illərdə ali partiya məktəbində təhsil almışdır. Azərbaycan MK təyinatı ilə o, Şərur rayonuna məsul işə göndərilmişdir. 1964-cü ildən hal-hazıradək Sumqayıt şəhərində ali və orta ixtisas məktəblərində müəllim işləyir.

## CALALOV TATAR FİRUDİN OĞLU



Calalov Tatar 1922-ci ildə Dərələyəzin Gülüdüz kəndində anadan olmuş, ibtidai təhsilini Gülüdüzdə, orta təhsilini Qovuşuq kəndində başa vurmuşdur. O, 1943-cü ildə Yeğeqnadzor rayonundan köçüb Paşalı rayonuna getmiş, Paşalı rayonunda komsomolun ikinci katibi vəzifəisndə işləmişdir. 1944-cü ildə Paşalı rayonunun Zeytə kəndində məktəb direktoru vəzifəsində işləmişdir. 1948-ci ildə Ermənistandan Azərbaycana deportasiya edilərək Goranboyun Dəliməmmədli kəndinə köçmüşdür. Sonralar yenidən vətəninə qayıtmış, Paşalı rayonu-

nun Kotanlı kəndində məktəb direktoru işləmişdir. Bir neçə il sonra doğulduğu Gülüdüz kəndinə qayıdıb uzun müddət burada məktəb direktoru, sovxozun partiya təşkilatı katibi vəzifələrində işləmişdir. O, Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarix fakültəsini qiyabi yolla bitirmiş, 1961-ci ilin aprel ayında maşın qəzasına düşüb həlak olmuşdur.

## BAYRAMOV GÜLƏHMƏD ALŞAN OĞLU



Bayramov Güləhməd Alşan oğlu 1922-ci ildə Dərələyəzin (Yeğeqnadzor rayonunun) Qızılgül kəndində anadan olmuşdur. İbtidai təhsilini Qızılgül (Ayısəsi) kəndində, orta məktəbi isə Qovuşuq kəndində bitirmişdir. Orta məktəbi bitirdikdən sonra kolxozda əmək fəaliyyətinə başlamış, müharibə başladığı üçün 1942-ci ildə avqustun 8-də könüllü olaraq cəbhəyə getmişdir. 1944-cü il iyunun 7-də döyüş zamanı minaya düşərək yaralanmış, müalicə olunduqdan sonra 1944-cü ilin noyabrın 10-da ordudan tərxis olunmuşdur.

Arxa cəbhəyə qayıtdıqdan sonra Xalq Maarif komissarlığının əmri ilə pedaqoji fəaliyyətə başlamış, bir müddət müəllim işlədikdən sonra, ali təhsil almaq məqsədilə 1953-cü ildə Həsənbəy Zərdabi adına Gəncə Pedaqoji İnstitutuna qəbul olmuş, 1957-ci ildə oranı bitirmişdir.

O, 1957-1961-ci illərdə Yeğeqnadzor rayonunun Qabaxlı kəndində 1961-1962-ci illərdə Gədikvəng kəndində məktəb direktoru kimi fəaliyyət göstərmiş, sonra öz doğma kəndinə qayıtmışdır.

## İBRAHİMOV HÜSEYN TALIB OĞLU



İbrahimov Hüseyn 15.05.1923-cü ildə Dərələyəzin Ələyəz kəndində anadan olmuşdur. 1940-cı ildə Qovuşuq kənd orta məktəbini bitirmiş, 1941-1942-ci illərdə Sallı kəndində yeddiillik məktəbdə müəllim işləmişdir. 1942-1945-ci illərdə Böyük Vətən müharibəsinin iştirakçısı olmuş, iki dəfə yaralanmış, göstərdiyi xidmətlərə görə "Qızıl Ulduz" ordeni və "1944-1945-ci illərdə Almaniya üzərində Qələbə" medalı ilə təltif edilmişdir. Müharibədən sonra, 1945-1947-ci illərdə Ələyəz kənd natamam orta məktəbində müəllim, 1947-1948-ci illərdə Gülüdüz kənd natamam orta məktəbində direktor vəzifəsində çalışmışdır. 1948-ci ildə partiya sıralarına daxil olmuş, 1948-1949-cu illərdə rayon mərkəzində təşkilat-təlimat şöbəsinin müdiri işləmiş, 1949-1954-cü il-

lərdə Ələyəz kənd kolxozunun sədri olmuşdur. Onun təşəbbüsü ilə 1951-1952-ci illərdə Ələyəz kəndinə, 1953-cü ildə Qovşuq kəndinə elektrik xətti çəkilmiş, 1965-1966-cı illərdə Ələyəz kəndi ilə Qarşum (Əməriyurdu) yaylağını birləşdirən və ümumi uzunluğu 15 km olan avtomaşın yolu çəkilib istifadəyə verilmişdir. 1954-1961-ci illərdə Ələyəz kənd yeddiillik məktəbində müəllim işləməklə yanaşı 1955-ci ildə Azərbaycan Dövlət Universitetinin (BDU-nun) fiziki coğrafiya fakültəsinin qiyabi şöbəsində oxumuş və 1961-ci ildə universiteti bitirmişdir, 1961-1968-ci illərdə Ələyəz kənd 8 illik məktəbində direktor, 1968-1970-ci illərdə Ələyəz kənd orta məktəbində müəllim, 1970-1973-cü illərdə məktəb direktoru, 1973-1977-ci illərdə müəllim işləmişdir.

Hüseyn Talıb oğlu İbrahimov 1977-ci il dekabrın 5-də qəflətən vəfat etmişdir.

## GÜLMƏMMƏDOV İSMAYIL ƏMİR OĞLU



Gülməmmədov İsmayıl 1924-cü ildə Dərələyəz mahalının Ələyəz kəndində anadan olmuşdur. 1930-1937-ci illərdə Ələyəz yeddiillik məktəbində təhsil almış, orta təhsilini Qovuşuq kəndinda davam etdirmiş, 1940-cı ildə Qovuşuq kənd orta məktəbini bitirmişdir. Sonra o, Ələyəz kənd yeddiilik məktəbində müəllim, 1941-ci ildə isə burada direktor işləmişdir. 1942-ci ilin sentyabrında Böyük Vətən müharibəsinə getmiş, Qafqazın müdafiəsində iştirak etmişdir. 1944-cü ildə sağ qolundan yaralanmış, evə göndərilmişdir. Rayon təhsil şöbəsinin qərarı ilə yenidən Ələyəz kənd məktəbinin direktorluğu ona tapşırılmışdır. O, rayonun digər kəndlərində də müəllim və məktəb direktoru işləmişdir. O, Azərbaycan Pedaqoji İnstitutunun tarix fakültəsini qiyabi yolla bitirmişdir.

1988-ci ildə Qərbi Azərbaycandan deportasiya edilmiş azərbaycanlılardan biri olmuşdur. İsmayıl Gülməmmədov ağır yurd həsrətinə dözə bilməyərək 17.01.1993-cü ildə Quba rayonunun Vladimirovka kəndində vəfat etmişdir.

## QULİYEV İDRİS ŞAHGƏLDİ OĞLU

Quliyev İdris 1925-ci il fevralın 27-də Dərələyəzdə, Yeğeqnadzor rayonunun Ağkənd kəndində anadan olmuşdur. 1941-ci ildə orta məktəbi bitirmiş, elə həmin ildə də Ağkənd yeddiillik məktəbinə müəllim təyin edilmişdir. 1942-1944-cü illərdə Qabaxlı yeddillik məktəbinin, 1944-1945-ci illərdə Heşin kənd yeddiillk məktəbinin direktoru olmuşdur. 1945-ci ildə rayon icra hakimiyyətində inspektor işləmiş, 1946-cı ildə Sov. İKP sıralarına keçmişdir. 1947-ci ildə rayon partiya komitəsində inspektor, 1948-ci ildə Qovşuq orta məktəbində tədris hissə



müdiri, 1949-1953-cü illərdə Gədikvəng yeddiillik məktəbində, 1953-1954-cü illərdə Ələyəz yeddillik məktəbində, 1954-1958-ci illərdə Ağkənd məktəbində direktor işləmişdir. 1948-1954-cü illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsinin qiyabi şöbəsində ali təhsil almışdır.

1968-ci ilin sentyabrında Abşeron rayonunun Digah fəhlə-gənclər məktəbinə direktor təyin edilmiş, 1972-ci tədris ilindən etibarən isə Abşeron rayonunun Mehdiabad qəsəbə orta məktəbində müəllim işləmişdir.

Təlim-tərbiyə sahəsində nümunəvi əməyinə görə SSRİ Maarif Nazirinin və Həmkarlar Təşkilatının fəxri fərmanları ilə, sovet ordusundakı xidmətlərinə görə komandanlığın tərifnaməsi ilə təltif edilmişdir. Hal-hazırda Mehdiabad qəsəbəsində yaşayır.

## ŞAHHÜSEYNOV ALLAHQULU XALIQVERDİ OĞLU



Şahhüseynov Allahqulu Xalıqverdi oğlu 1925-ci ildə Dərələyəzdə - Əzizbəyov rayonunun Axta kəndində anadan olmuşdur. O, orta məktəbi həmin rayonun Çul kəndində oxumuş, 1943-cü ildə Axta kəndindəki ibtidai məktəbə müdir təyin olunmuş və bundan sonra İrəvan Pedaqoji texnikumuna daxil olmuş və oranı bitirmişdir.

1952-ci ildə Gomur kənd 7 illik məktəbinə direktor təyin edilmiş, 1958-ci ildə Sov.İKR-nın sıralarına daxil olmuş, 1965-ci ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir.

1970-1973-cü illərdə sovxoz direktoru işləmiş, 1974-cü ildə yenidən Gomur məktəbinə direktor təyin edilmişdir.

1983-cü ildə "SSRİ Maarif əlaçısı" döş nişanı ilə mükafatlandırılmış, dəfələrlə kənd sovetinə deputat seçilmişdir.

1988-ci ildə ermənilər tərəfindən doğma yurdundan zorla çıxarılmış, Malıbəyli kəndində məskunlaşmışdır. 11 fevral 1992-ci ildə ermənilər tərəfindən buradan da qovulmuş və Bakı şəhərində özünə sığınacaq tapmışdır. Eldə-obada ağsaqqal kimi tanınan Allahqulu müəllim 1996-cı ildə Bakı şəhərində dünyasını dəyişmişdir.

## FƏRƏCOV ƏZİZ AĞARZA OĞLU

Fərəcov Əziz 1927-ci il aprel ayının 21-də Dərələyəzin Ağkənd kəndində anadan olmuşdur. 1934-1935-ci tədris ilində Ağkənd 7 illik məktəbinin 1-ci sinfinə daxil olub, 1940-1941-ci tədris ilində həmin məktəbin VII sinfini bitir-



mişdir. Rayonda müəllimə ehtiyac olduğu üçün rayon xalq maarif şöbəsi onu Qalaser ibtidai məktəbinə müdir və müəllim vəzifəsinə təyin etmişdir. 1941-1942-ci tədris ilində Qalaser kənd ibtidai məktəbində müəllim işləmiş, 1942-1943-cü tədris ilində Ağkənd 7 illik məktəbinə dəyişdirilmişdir. 1949-1950-ci tədris ilində Qovuşuq kəndində orta məktəbi bitirmiş, 1950-1951-ci tədris ilində Azərbaycan Dövlət Pedaqodi Universitetinin dil-ədəbiyyat fakültəsinin qiyabi şöbəsinə daxil olmuş, 1957-ci ildə buranı bitirmişdir. 1969-cu ilə qədər Ağkənd 8 illik məktəbində müəllim işləmiş, ermənilər tərəfindən sıxışdırıldığı üçün 1969-cu ildə köçüb Azərbaycanın Tərtər rayonunun İrəvanlı kəndində məskunlaşmışdır.

1970-1980-ci illərdə Tərtər rayonunun müxtəlif məktəblərində müəllim və dərs hissə müdiri işləmiş, sonra Qax rayonunun Turaclı kənd orta məktəbinə dil-ədəbiyyat müəllimi təyin olunmuş, 1989-1990-cı tədris ilinə qədər orada işləyib təqaüdə çıxmışdır. Hal-hazırda işləmir və Bakı şəhərində yaşayır.

## HÜSEYNOV ƏYYUB MÜSEYİB OĞLU



Hüseynov Əyyub 8 iyul 1927-ci ildə Dərələyəzin Yeğeqnadzor rayonunun Ələyəz kəndində anadan olmuş, Qovuşuq kənd orta məktəbini bitirmişdir. Əyyub Hüseynov bir neçə pedaqoji kurs bitirmiş, həmçinin əmək cəbhəsində də uğurlu fəaliyyət göstərmişdir. 1950-ci ildə Ələyəz kəndində müəllim işləməyə başlamışdır. 1953-1958-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsində qiyabi yolla təhsil almışdır.

7 il Ələyəz kənd məktəbinin direktoru işləmişdir. 1963-cü ildən isə Yeğeqnadzor rayon təhsil şöbəsində inspektor vəzifəsində çalışmışdır. 1977-ci ildə öz xahişi ilə inspektor vəzifəsindən azad olunan Əyyub Hüseynov 1988-ci ilin sentyabrına qədər Ələyəz kənd orta məktəbində dil-ədəbiyyat müəllimi işləmişdir.

1971-ci ildə Ermənistan SSR pedaqoji birliyinin üzvü olmuş və əmək sahəsində göstərdiyi fəaliyyətə görə dəfələrlə fəxri fərmanlara layiq görülmüşdür. 1988-ci ilin noyabr ayında erməni şovinistləri tərəfindən zorla öz doğma yurd-yuvasından çıxarılmış və ailəsi ilə birlikdə Bakı şəhərində məskunlaşmışdır. 1990-cı il yanvar ayının 18-də Bakıda vəfat etmişdir.

## CALALOV ƏLİ FİRİDUN OĞLU



23 dekabr 1927-ci ildə Dərələyəz mahalının Gülüdüz kəndində anadan olmuş, 1941-ci ildə Gülüdüz kənd yeddillik məktəbini bitirib ibtidai sinif müəllimi kimi fəaliyyətə başlamış, 1947-1949-cu illərdə Zeytə kənd orta məktəbində müəllim işləmişdir.

1949-cu ildə doğma yurd-yuvasından deportasiya edilərək Goranboy rayonunun Dəliməmmədli kəndində kooperativ müdiri işləmiş, 1951-ci ildə isə yenidən Gülüdüzə qayıdaraq kənd məktəbində müəllim, 1954-1959-cu illərdə Qaraqaya kənd ibtidai məktəbinin direktoru, 1962-ci ildən ömrünün sonunadək isə Gülüdüz kənd orta məktəbində dərs hissə müdiri işləmişdir.

1946-cı ildə "Böyük Vətən müharibəsi dövründə (1941-1945) "Əməkdə şücaətə görə", 1970-ci ildə "V.İ.Leninin 100 illiyi ilə əlaqədar əməkdə şücaətə görə" yubiley medalı, 1981-ci ildə "Əməkdə igidliyə görə" medalı ilə təltif olunmuşdur.

1959-1966-cı illərdə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutun "İbtidai təhsil pedaqogikası və metodikası" fakültəsini bitirmiş, 1971-ci ildə Gülüdüz kənd sovetinin deputatı seçilmişdir.

1988-ci il dekabrın 3-də Bakıda vəfat etmişdir.

## ŞAHQULİYEV SURXAY ƏHMƏD OĞLU



Şahquliyev Surxay 1930-cu ildə Dərələyəz mahalının Gabud kəndində anadan olmuşdur. Atası Əhməd kişinin təhsili olmasa da o, dini rəvayətlərin, folklorun mahir bilicisi kimi tanınırdı. S.Şahquliyev Gabud kəndində ibtidai məktəbi, qonşu Gomur kəndində isə yeddiillik məktəbi bitirmişdir. 1948-ci ildə İrəvan Pedaqoji Texnikumunu bitirdikdən sonra əvvəlcə Gabud kəndində, sonra isə Gomur kəndində müəllim işləmiş, 1968-ci ildə Azərbayan Dövlət Universitetinin filologiya fakültəsini qiyabi yolla başa vurmuş, 1953-1970-ci illərdə Gomur kənd orta məktəbində dərs hisə müdiri, 1970-1987-ci illərdə isə kiçik fasilələrlə Gabud kənd səkkizillik məktəbində direktor, Əzizbəyov rayon təhsil şöbəsində Azərbaycan məktəbləri üzrə metodist vəzifələrində işləmişdir.

1950-ci illərin əvvəllərindən şerləri dövri mətbuatda,o cümlədən "Sovet Ermənistanı" qəzetində, habelə "Əbədi Ermənistan" almanaxlarında dərc olunmuşdur. O, hal-hazırda Xaçmaz rayonunun Xudat kəndində müəllim işləyir. Ədəbi fəaliyyətini davam etdirən şair Qubadakı "Ay işığı" ədəbi məclisinin üzvüdür və eyni adlı almanaxda onun şerləri dərc olunur. S.Şahquliyev həm

lirik janrda, həm də satirik üslubda yazan şair kimi tanınır.

Nəsil səcərəsi XVII əsrin 70-ci illərinə qədər məlum olan Surxay müəllimin əcdadları Dərələyəz mahalının Məlikşah kəndindəndir. 1828-ci il Türkmənçay müqaviləsindən sonra İrandan buraya köçürülən ermənilərlə bir yerdə yaşamamaq üçün onun əcdadları həmin kənddən şərqə doğru – əvvəlcə Söylan, sonra Paşalı, nəhayət Gabud kəndinə köçmüşlər. Söylan və Paşalıdan köçmələrinin səbəbi də ermənilərin buraya gəlməsi olmuşdur.

O, Dərələyəz mahalının nüfuzlu ziyalılarındandır. Onun övladları da yüksək səviyyəli ziyalılardır.

## ABBASOV ABBAS ƏLİ OĞLU



1930-cu il Dərələyəz mahalının Yeğeqnadzor rayonunun Qalaser kəndində anadan olmuşdur.

1937-1941-ci illərdə ibtidai sinifi bitirib, Qovuşuq kənd orta məktəbinin 5-ci sinifinə daxil olmuş, 1947-ci ildə orta məktəbi bitirib doğma kəndində sinif müəllimi işləmişdir. 1951-ci ildə Naxçıvanda Cəlil Məmmədquluzadə adına ikiillik Müəllimlər İnstitutuna qəbul olmuş, 1954-cü ildə buranı qurtarmış, 1974-cü ilədək həmin rayonun Qızılgül kəndində 7 illik məktəbdə direktor vəzifəsində işləmişdir. 1974-cü ilin sentyabrından doğma kəndində səkkizillik məktəbə direktor təyin edilmiş, 1987-ci ildə ermənilərin təkidi ilə el-obasını tərk edərək Bakının Maştağa qəsəbəsində məskunlaşmış, oradakı 7 №-li internat məktəbində tarix müəllimi işləmişdir. 1990-cı ildən təqaüdçüdür.

## ALLAHVERDİYEV ƏLİ İSGƏNDƏR OĞLU



1931-ci ildə Dərələyəz mahalının Gülüdüz kəndində anadan olmuşdur. 1944-cü ildə Gülüdüz natamam orta məktəbini, 1947-ci ildə isə Qovuşuq kənd orta məktəbini bitirmişdir.

Orta məktəbi əla qiymətlərlə qurtardığına görə o Gülüdüz kənd məktəbinə müəllim təyin edilmişdir. Bir neçə il işlədikdən sonra Naxçıvan Dövlət Müəllimlər İnstitutunda dil-ədəbiyyat fakültəsini qəbul olunmuş və 1951-ci ildə oranı bitirmişdir.

O, 1969-cu ilə qədər müxtəlif vaxtlarda qiyabi olaraq Azərbaycan Dövlət Pedaqoji Universitetinin dil-ədəbiyyat fakültəsini, Bakı Slavyan Universitetinin dil-ədəbiyyat fakültəsini, sonralar isə ADU-nun jurnalist fakültəsini bitirmişdir. Uzun illər Gülüdüz kənd məktəbində direktor vəzifəsində çalışmışdır.

1988-ci il noyabr ayının 30-da axşamdan xeyli keçmiş təcavüzkar ermənilər onu zorla evindən çıxarmış və ev əşyalarını, 20 arı pətəyini, 50 baş qoyununu, 15 baş malını, 20 xalça-xalısını zorla əlindən almış və evinə od vurmuşlar.

O uşaqlarının əlindən tutub çox çətinliklə Naxçıvan şəhərinə gedə bilmiş, oradan Ordubad rayonuna, Nəsilvaz kəndinə gedib çıxmışdır. O, həmin kənd orta məktəbində hal-hazırda məktəb direktoru vəzifəsində işləyir.

## RZAYEV MƏCİD ƏLOŞ OĞLU



Rzayev Məcid 1931-ci ildə Dərələyəzin Ertiş kəndində anadan olmuş, 1948-ci ildə Qovuşuq kənd orta məktəbini bitirmiş, həmin ildə qaraqaya kənd məktəbinə müəllim təyin olunmuş və bir neçə il həmin məktəbdə müəllimlik etmişdir.

1952-ci ildə Naxçıvanda ikiillik müəllimlər institutuna daxil olmuş, 1954-cü ildə həmin institutu bitirib Amağu kəndinə müəllim təyin edilmişdir. Sonra təhsilini davam etdirmək üçün Bakıda Azərbaycan Dövlət Pedaqoji Universitetinin dil-ədəbiyyat fakültəsinə (qiyabi şöbəyə) daxil olmuş, oranı bitirdikdən sonra Civə kənd orta məktəbinə müəllim təyin edilmiş və bir neçə il orada müəllim işləmişdir.

1962-ci ildə Naxçıvana, Şahbuz rayonunun Qarababa kəndinə köçmüş və Qarababa kəndində müəllim işləmişdir. 1965-ci ildən 1974-cü ilə qədər şahbuz qəsəbə orta məktəbinin direktoru, 1974-cü ildən 1975-ci ilədək kino idarəsinin müdiri, 1975-ci ildən 1978-ci ilədək Şahbuz rayon istehlak cəmiyyəti idarə heyyətinin sədri vəzifəsində çalışmışdır.

Bir neçə dəfə Şahbuz rayon partiya komitəsinin plenum üzvü və bir neçə çağırış rayon xalq deputatları sovetinin deputatı seçilmişdir. 1978-ci ildən ömrünün sonunadək Arınc kəndində kolxoz sədri vəzifəsində işləmişdir.

## CƏFƏROV CƏFƏRQULU ƏLİMƏRDAN OĞLU



1934-cü ildə Dərələyəzin Ələyəz kəndində anadan olmuş, 1952-ci ildə Qovuşuq kənd orta məktəbini bitirmiş, 1952-ci ildə Naxçıvan Dövlət İkillik Müəllimlər İnstitutuna daxil olmuş, 1954-cü ildə institutu bitirib Ələyəz kənd yeddiillik məktəbində dərs hissə müdiri işləmişdir. 1954-1957-ci illərdə hərbi xidmətdə olmuşdur. Həmin ildən 1960-cı ilə qədər Qovuşuq kənd orta məktəbində müəllim işləmiş və təhsilini Bakı şəhərində davam etdirmişdir. 1961-ci ildə V.İ.Lenin adına APİ-nin kimya-biologiya fakültəsini bitirmişdir.

1960-1962-ci illərdə Yeğeqnadzor rayonu XMŞ-nin

inspektoru, 1963-1973-cü illərdə Qovuşuq kənd orta məktəbinin direktoru, 1973-1979-cu illərdə Ələyəz kənd kolxozunun sədri, 1980-1988-ci illərdə Ələyəz kənd orta məktəbinin direktoru vəzifəsində işləmişdir.

1988-ci ildə ermənilər tərəfində öz doğma kəndindən çıxarılmış, Naxçıvanın Çarxanqala kəndində məskunlaşmış, 1989-cu ildə Çalxanqala kənd orta məktəbinin direktoru vəzifəsində işləmişdir. 1990-1992-ci illərdə Çalxanqala kolxozunun sədri, 1993-1999-cu illərdə Çalxanqala kənd orta məktəbində müəllim işləmiş, 1999-cu ildən Bələdiyyənin sədri vəzifəsinə seçilmişdir.

## MƏMMƏDOV CƏLAL KƏRİM OĞLU



Məmmədov Cəlal 1935-ci ildə Dərələyəz mahalının Sallı kəndində anadan olmuşdur. Yeddinci sinfə qədər həmin kəndin məktəbində oxumuş, sonra Qovuşuq kənd orta məktəbini bitirmişdir. 1955-ci ildə İrəvan Redaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsinə daxil olmuşdur. İnstitutu bitirdikdən sonra Qovuşuq kənd orta məktəbində pedaqoji fəaliyyətə başlamışdır. Daha sonra, 1981-ci ildən 1988-ci ilədək Qovuşuq kənd orta məktəbinin direktoru işləmişdir.

1988-ci ildə Ermənistan hökuməti başqa azərbaycanlılar kimi, onu da doğma yurdundan didərgin salıb zorla kənddən çıxarmış və o, Gəncə şəhərində məskunlaşmağa məcbur olmuşdur. Hal-hazırda Gəncədə müəllimlik fəaliyyətini davam etdirir.

## QƏMBƏROV AZAD ƏZİZ OĞLU



Qəmbərov Azad 1938-ci ildə Dərələyəzin Qızılgül (Ayısəsi) kəndində anadan olmuş, orta təhsilini 1945-1956-cı illərdə Qovuşuq kənd orta məktəbində almış, 1963-1969-cu illərdə ADPU-da oxumuş, Azərbaycan dili və ədəbiyyat fakültəsini bitirmişdir. 1964-cü ildən Qızılgül kənd 8 illik məktəbində məllim, 1965-1969-cu illərdə həmin məktəbin direktoru, kənd partiya təşkilatının katibi və kənd sovetinin sədri vəzifəsində çalışmışdır.

1988-ci ildə ermənilər tərəfindən yurd-yuvasından qovularaq əvvəlcə Sumqayıt, sonra isə Bakı şəhərlərində məskunlaşmışdır. Hazırda Bakı şəhərində 271 saylı orta məktəbin müəllimidir.

## GƏNCİMALIYEVA NAZƏNİ SEVİNDİK QIZI



Gəncimayıyev Nazənin 1938-ci ildə Dərələyəzdə, Əzizbəyov rayonunun Kotanlı kəndində anadan olmuş, beşinci sinfi bitirdiyi zaman ailəsi və kənd camaatı Azərbaycanın Ağdaş rayonunun Ağciyaz kəndinə deportasiya edilmiş, lakin iqlimə dözə bilməyib geri qayıtmışlar. Yeddiillik təhsilini doğma kəndlərində aldıqdan sonra, Şərurun Yengicə kəndində onillik təhsil almışdır. Orta təhsil aldıqdan sonra o, Bakı şəhər 1 №-li tibb məktəbinə daxil olur, 1958-ci ildə buranı fərqlənmə diplomu ilə bitirərək mamalıq ixtisası alır, sonra Cermuq şəhərinə qayıdıb işə başlayır. 1963-1969-cu illərdə Azərbaycan Dövlət Universitetində təhsil alaraq biologiya fakütləsini bitirir və doğma el-obasına qayıdaraq müəllimlik fəaliyyətinə başlayır.

1988-ci ildə erməni şovinistləri azərbaycanlıları doğma torpaqlarında sıxışdıranda, "Qarabağ" iddiaları ilə çıxışlar edəndə Nazəni Gəncimalıyeva hər zaman öz kəskin sözünü demiş, xalqının mənafeyini qorumuşdur. Bu məqsədlə o, 1988-ci ilin aprelin 26-da Moskvaya getmiş, orada döymədiyi qapı qalmamışdır. O, ermənilərin təcavüzkarlığı, riyakarlığı ilə bağlı iətbuatda çıxışlar etmiş, çoxlu məqalələr yazmış və bu məqalələr xarici ölkələrdə də (Türkiyə) çap olunmuşdur. Dəfələrlə cəbhələrə getmiş və hərbçilər tərəfindən təşəkkürə layiq görülmüşdür.

## GƏNCİMALIYEV ƏNVƏR SEVİNDİK OĞLU



Gəncimalıyev Ənvər 1940-cı ildə Dərələyəz mahalının Kotanlı kəndində anadan olmuş, 1958-ci ildə Qovuşuq kənd orta məktəbini, 1962-ci ildə ADU-nun kimya fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə Bakı Neftayırma zavodunda başlamışdır. Sonralar o doğma vətəninə qayıtdaraq İstisu (Cermuq) şəhərində məktəb direktoru, sürücülük məktəbinin direktoru, Əzizbəyov rayonu təhsil şöbəsində inspektor vəzifələrində işləmişdir.

Vətənpərvər ziyalı olduğu üçün ermənilər tərəfindən daim təqib olunmuş, yüz minlərlə azərbaycanlılar kimi o da ailəsi ilə Azərbaycana pənah gətirmiş və Bakı şəhərində məskunlaşmışdır. Bakıda "Qayğı" cəmiyyətində işlərkən Qarabağla bağlı əlindən gələni əsirgəməmişdir. 1990-cı ilin dekabrın 31-də vəfat etmişdir.

## MƏMMƏDOV KƏRİM ZÜLFÜQAR OĞLU



Məmmədov Kərim 1941-ci ildə Dərələyəz mahalının Ayısəsi (Qızılgül) kəndində anadan olmuşdur. İlk təhsilini bu kəndin 7 illik məktəbində, orta təhsilini isə Qovuşuq kənd orta məktəbində almışdır. 1963-cü ildə ADTU-nun ibtidai məktəb pedaqoqikası və metodikası fakültəsinə daxil olmuş, həmin ildən öz doğma kəndində müəllim, 1979-1988-ci illərdə isə direktor vəzifəsində çalışmışdır. Bu müddət ərzində o, kənd sovetinin deputatı, partiya təşkilatının katibi seçilmişdir.

1988-ci il hadisələri ilə bağlı olaraq Məmmədov Kərim Zülfüqar oğlu da ailəsi ilə birlikdə öz yurdundan didərgin düşmüş, Xızı rayonunda məskunlaşaraq müəllim və məktəb direktoru vəzifəsində çalışmışdır. Hazırda rayon təhsil şöbəsində metod kabinetin müdiri işləyir.

## GÜLMƏMMƏDOV BULUD HƏSƏNQULU OĞLU



Gülməmmədov Bulud 10 fevral 1942-ci ildə Ələyəz kəndində anadan olmuş, 1949-cu ildə Ələyəz kənd məktəbinin 1-ci sinfinə getmiş, 1959-cu ildə Qovuşuq kənd orta məktəbini bitirmişdir. 1960-cı ildə Gəncə Dövlət Pedaqoji İnstitutunun "Pedaqogika və ibtidai təhsilini metodikası" fakültəsinə daxil olmuş və 1964-cı ildə oranı bitirmişdir.

1964-cü ildə Naxçıvan MR Şərur rayonunun Zeyvə kənd orta məktəbində, 1966-cı ildə Dərələyəzin Əmağu kəndində və 1967-ci ildə Ələyəz kənd orta məktəbində müəllim işləmişdir.

1970-1979-cu illərdə Ələyəz kənd orta məktəbində direktor, 1980-ci ildən Yeğeqnadzor rayon Xalq Təhsil şöbəsində əvvəl metodist, sonra isə Azərbaycan məktəbləri üzrə müfəttiş işləmişdir.

1988-ci ilə qədər, deportasiya olunanadək həmin vəzifədə çalışmışdır. Hal-hazırda Bakıda yaşayır.

## ƏLİYEV MƏMMƏDƏLİ BƏHLUL OĞLU

Əliyev Məmmədəli 1942-ci ildə Dərələyəzin Gədikvənk kəndində anadan olmuşdur. 1948-ci ildə Gədikvəng kənd 7 illik məktəbinin birinci sinifinə daxil olmuş, 1955-ci ildə həmin məktəbin 7-ci sinfini, 1959-cu ildən isə Qovuşuq kənd orta məktəbini bitirmişdir. 1960-cı ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutuna daxil olmuş, 1967-ci ildə universiteti bitirmiş və bundan sonra öz doğ-



ma kəndində müəllim işləmişdir. O, 1968-1988-ci illərdə 20 il Gədikvəng kənd 8 illik məktəbində direktor vəzifəsində işləmişdir. Bu müəddətdə o, maarif nazirliyinin fərqlənmə diplomu, fəxri fərmanı və bir sıra medallarla təltif olunmuşdur.

1987-1988-ci il hadisələrində ermənilər tərəfindən doğma yurd-yuvasından qovulmuş və həmin vaxtdan Bakı şəhərində məskunlaşmışdır. Bundan sonra Bakı şəhəri İcra Hakimiyyətinin birləşmiş ailəvi yataqxanalarında müdir işləmişdir. Hal-hazırda Azərbaycan Beynəlxalq Universitetində yataqxanalara nəzarət edir. 1999-cu ildən "Molla Nəsrəddin" jurnalının xüsusi müxbiridir.

## ALIYEV ALI ABDULLA OĞLU (ALI SƏFOLU)

Alıyev Alı 1948-ci ildə doğma yurdu Dərələyəzdən Azərbaycana deportasiya olunmuş ailədə doğulmuşdur. Alının valideynləri Bərdənin Qaradəmirçi kəndində iqlim şəraitinə və Vətən ayrılığına dözmədiklərindən 1956-cı ildə öz yurdlarına qayıtmışlar.

Alı Səfolu 1956-cı ildə Cermuk (keçmiş Səfolar İstisuyu) şəhər bir saylı məktəbin birinci sinfinə daxil olmuş, 1967-ci ildə həmin məktəbin səkkizinci sinfini bitirmişdir. Həmin dövrdə burada azərbaycan dilində orta məktəb olmadığından o, qonşu Yeğeqnadzor rayonunun Qovuşuq kənd orta məktəbində təhsilini davam etdirmiş, 1969-cu ildə həmin məktəbi başa vurmuşdur. 1970-ci ildə İrəvan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan şöbəsinin filologiya fakültəsinə daxil olmuş, 1974-cü ildə institutu bitirmiş, İstisuda (Cermukda) ixtisası üzrə fəaliyyətə başlamışdır.

1981-ci ildən Cermuk şəhər qiyabi-axşam məktəbinə direktor təyin edilmiş, 1988-ci ilə kimi (zorla yurdundan qovulana qədər) həmin vəzifədə çalışmışdır.

1988-ci ildən taleyini Sumqayıta bağlamış, 25 saylı pilot məktəbində bu günə kimi ixtisası üzrə fəaliyyət göstərir. Respublikanın mətbuat orqanlarında onun müxtəlif səpgidə çoxlu məqalələri çap olunmuşdur. Alı Səfolu həm də həvəskar şairdir. El-oba, dədə-baba yurdu ilə bağlı gözəl şerlərin müəllifidir. Alı Səfolu Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun dissertantıdır. "Qərbi Azərbaycanın Dərələyəz folklorunun regional xüsusiyyətləri" mövzusu üzrə tədqiqat işləri aparır. Azərbaycan Müəllimlər İnstitutu Sumqayıt filialında ixtisası üzrə dərs deyir.

Alı Səfolunun iki kitabı - "Qərbi Azərbaycanda (indiki Ermənistan) yaşamış azərbaycanlıların tarixi faciəsi" (Dərələyəz dəhşətləri), "Qaçaq Səfo" çapdan çıxmışdır. Üçüncü kitabı isə ("Sazlı-sözlü Dərələyəz") nəşriyyatda çapa hazır vəziyyətdədir.

## ƏMƏKDAR MÜƏLLİMLƏR (BİR QRUPU)

### MƏMMƏDOV ƏLİ AĞA OĞLU



Məmmədov Əli 1921-ci ildə Dərələyəzin Gülüdüz kəndində anadan olmuşdur. O, 1928-ci ildə öz doğma kəndində birinci sinfə getmiş, ibtidai təhsilini burada almış, orta təhsilini isə Qovuşuq kənd orta məktəbində başa vurmuşdur. 1942-ci ildə Gülüdüz kənd səkkizillik məktəbində müəllimlik fəaliyyətinə başlamış, 1944-1958-ci illərdə Qovuşuq, Ələyəz, Zeytə, Gədikvəng, Qaraqaya kəndlərində, 1959-1988-ci illərdə Gülüdüz kənd səkkizillik məktəbində riyaziyyat müəllimi işləmişdir. 1947-ci ildə SSRİ Ali Sovetinin fərmanına əsasən Böyük Vətən müharibəsində əməkdən fərqləndiyinə görə medalı ilə mükafatlandırılmışdır.

1960-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin riyaziyyat fakültəsinə daxil olmuş, 1967-ci ildə həmin fakültəni qiyabi yolla başa vurmuşdur.

2 noyabr 1967-ci ildə Ermənistan SSR-nin Əməkdar müəllimi adına layiq görülmüşdür. 1988-ci ildə erməni şovinistləri tərəfindən öz doğma yurdundan qovulmuş,Bakıda məskunlaşmış və 2000-ci ildə dünyasını dəyişmişdir.

### ŞÜKÜROV İSRAFİL XUDAVERDİ OĞLU

Şükürov İsrafil 1924-cü ildə Dərələyəzdə, Əzizbəyov rayonunun Qabaxlı kəndində anadan olmuşdur. Orta təhsil aldıqdan sonra 1948-ci ildə Naxçıvan Dövlət Müəllimlər İnstitutunu, 1954-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetini bitirmişdir. Böyük Vətən müharibəsində iştirak etmiş, "1-ci dərəcəli Vətən müharibəsi", "Şərəf nişanı" ordenləri və bir çox medallarla təltif edilmişdir. 1948-1957-ci illərdə Naxçıvanın Babək rayonunun Şıxmahmud və Təzəkənd kənd məktəblərində müəllim, Payız və Sust kənd məktəblərində direktor, 1957-ci ildən həmin rayonunun Didivar kənd orta məktəbində Azərbaycan dili və ədəbiyyat müəllimi işləmişdir. "Azərbaycan Sovet müəllimi", 1980-ci ildə "Naxçıvan MSSR Əməkdar müəllimi", 1984-cü ildə "SSRİ Xalq müəllimi" adlarını almışdır.

### İBRAHİMOV BİLAL İBRAHİM OĞLU

İbrahimov Bilal Dərələyəzin Qalaser kəndində dünyaya göz açmış, 1939-cu ildə Qovuşuq kənd orta məktəbinin direktoru olmuşdur. İbrahimov Bilal Dərələyəzin Çivə kəndində də məktəb direktoru işləmişdir. O Ermənistan SSR-nin Əməkdar müəllimi adını almışdır. Böyük Vətən müharibəsində iştirak etmiş və oradan qayıtdıqdan sonra Azərbaycana köçmüş, Goranboy rayonunda, Dəlimənmədlidə pambıq zavodunun direktoru və partkomu işləmişdir.

## *KƏND VƏ TƏSƏRRÜFAT RƏHBƏRLƏRİ (BİR QRUPU)*

### RƏHİMOV HÜSEYN MƏMMƏD OĞLU

Rəhimov Hüseyn 1897-ci ildə Dərələyəz mahalının Ertic kəndində anadan olmuş, Dərələyəz mahalının müxtəlif kəndlərində kolxoz sədri və kənd sovetinin sədri vəzifələrdə işləmişdir. Böyük Vətən Müharibəsi başlayanda kolxozda sədr vəzifəsində çalışmasına baxmayaraq 1941-ci ildə könüllü olaraq cəbhəyə getmiş və ağır yaralanaraq əsir düşmüşdür. 1945-ci ildə müharibə qurtardıqdan sonra vətənə qayıtmış və ömrünün sonuna qədər – 1990-cı ilədək Şərur rayonunun Mahmud kəndində yaşamışdır.

Dərələyəz mahalında 1918-1920-ci illərdə ermənilərin azərbaycanlılara qarşı kütləvi qırğının qarşısının alınmasında böyük xidmətləri olmuşdur.

O, ermənilərin xalqımıza qarşı düşmən mövqeyini gözəl bildiyi üçün Sovet hakimiyyəti qurulduqdan sonra da onların qardaşlıq barədə vədlərinə uymamaq barədə daim nəsihətlər vermiş, xalq arasında böyük hörmət və ehtirama sahib olan bir şəxs kimi məşhur olmuşdur.

Şərur-Dərələyəz mahalında arıçılığın inkişafını böyük səy göstərmişdir.

### QƏMBƏROV MƏHƏMMƏD ƏBDÜLKƏRİM OĞLU



Qəmbərov Məhəmməd 1900-cü ildə Dərələyəzin Qozulca kəndində anadan olmuş, əmisi Qlava Sadıq kişi tərəfindən əsası qoyulmuş Qozulcadakı rus-tatar məktəbini bitirmişdir. Rus, kürd, erməni dillərini bilirdi. 1905-1906, 1918-1920-ci illərdə ermənilərin günahı üzündən doğma yurdundan qaçqın düşmüş, sonradan Qozulcaya qayıdıb, dədə-baba ocağını abadlaşdırmışdır. O zaman indiki Yeğeqnadzor rayonunda rayon İcraiyyə və rayon partiya komitələrində təlimatçı, Dərləyəzin Qovuşuq, Qabaxlı, Ayısəsi, Qalaser kəndlərində kənd sovet sədri, Ardarazda kolxoz sədri işləmişdir.

1949-cu ildə azərbaycanlılar Ermənistandan deportasiya edilərkən o, Şərur rayonunun Oğlanqala kəndinə köçüb orada məskunlaşmışdır. Bu el ağsaqqalı Dərələyəzdə hörmətli bir adam kimi tanınmışdır.

### GƏNCİMALIYEV SEVİNDİK MEHDİ OĞLU

Gəncimalıyev Sevindik 1905-ci ildə Dərələyəz mahalının Qaravəng kçndində dünyaya göz açmış, 1915-1917-ci illərdə Heşin kəndində açılmış 2 illik rus-tatar məktəbində təhsil almışdır. O, 13-14 yaşında olarkən ermənilər tərəfindən öz doğma yurd-yuvasından didərgin salınmış, Dağlıq Qarabağın Xocalı

kəndində məskunlaşmışdır. Sevindik Gəncimalıyev qaçqınlıqdan vətənə qayıdan kimi, 1921-1922-ci illərdə əmisi oğlu Gəray Gəncimalıyevlə birlikdə Abbasqulu bəy Şadlinskinin taborunda vuruşmuş, Dərələyəzin ermənilərdən təmizlənməsində iştirak etmişdir.



1930-cu ildən 1941-ci ilə qədər Kotanlı, Məmərza, Zeytə, İstisu kəndlərində kolxoz sədri və sovet sədri vəzifələrində çalışmışdır. O, 30-cu illərdə Dərəçiçəkdə olan 2 illik partiya məktəbində oxumuşdur. 1941-1945-ci illərdə Böyük Vətən müharibəsində Berlinə qədər döyüş yolu keçmiş, "Qızıl Ulduz", "Şərəf nişanı" ordeni və bir çox medallarla təltif olunmuşdur.

Sevindik Gəncimalıyev 1949-cu ildə ermənilər tərəfindən yenidən deportasiyaya məruz qalmış, Ağdaş rayonunun Yuxarı Ağciyaz kəndində məskunlaşmış və bir müddətdən sonra doğma diyarına qayıtmışdır. 1953-cu ildən etibarən İstisu (Cermuq) şəhərində çörək emalı zavodunun direktor əvəzi, sonra isə anbardar vəzifəsində çalışmışdır.

1988-ci ildə o, üçüncü dəfə deportasiyaya məruz qalaraq vətənindən qovulmuş, Bakıda məskunlaşmış və 1989-cu ildə Bakıda dunyasını dəyişmişdir.

## QULİYEV İSA HƏSƏN OĞLU



Quliyev İsa 1906-cı ildə Dərələyəzin Ağkənd kəndində anadan olmuşdur. 1915-1918-ci illərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırım nəticəsində İsanın ailəsi tamamilə qırılmış, özü isə yaralanmış və qonşularının vasitəsilə Naxçıvanın Şərur rayonuna gətirilmişdir. İsanın əmisi oğlu Şahgəldi onu öz himayəsinə götürmüşdür. Ermənilər Şərura hücum edərkən Şahgəldi İsanı özü ilə İrana aparmış, bir neçə il orada qalmış, Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra Ağkəndə qayıtmışlar. O, 1924-cü ildə komsomol sıralarına daxil olub Ələyəz kəndinə sovet sədri göndərilmiş və 1928-ci ildə Kommunist partiyası sıralarına qəbul edilmişdir. Həmin vaxt o, Paşalı (indiki Əzizbəyov) rayonuna selpo sədri vəzifəsinə göndərilmişdir. 1931-1935-ci illərdə Qovuşuq, 1935-1937-ci illərdə Ayısəsi kəndində kolxoz sədri, 1938-1939-cü illərdə Həsənkənddə selpo sədri, 1940-1942-ci illərdə Ələyəz kəndində kolxoz sədri, 1942-1944-cü illərdə Qovuşuq kəndində kənd sovet sədri, 1944-1952-ci ilərdə Gülüdüz kəndində kolxoz sədri vəzifəsində işləmişdir. Quliyev İsanın azərbaycanlılara qarşı olan xeyirxah münasibətini görən rayonun erməni rəhbərliyi onun üzərinə şər atıb həbsə aldırır və təcili Sibirə göndərirlər. İsa Quliyev Sibir sürgünündən qayıtmamış, 1953-cü ildə Sibirdə vəfat etmişdir.

## İSMAYILOV BƏHMAN QULU OĞLU



İsmayılov Bəhman 1910-cu ilə Dərələyəz mahalının Şorca kəndində anadan olmuşdur. 1918-ci il erməni-müsəlman davasından atası oldürülmüş özü və iki bacısı anası Pəri ilə Şərur rayonunun Qışlaqabbas kəndinə köçmüşlər.

Bolşeviklər hakimiyyətə gələndən sonra 1920-ci ildə onlar yenidən Ertiş kəndinə qayıtmış, 1920-1922-ci illərdə Bəhman Ertiş kəndində muzdur işləmiş, 1930-cu illərə qədər kənddə açılmış gecə kursunda təhsil almışdır.

O, Dərələyəzin Qovuşuq kəndində bir neçə kəndin birləşmiş kənd sovetinin sədri, 1939-cu ildə Amağu kəndində kolxoz sədri vəzifəsində çalışmış və uzun illər bu kolxoza sədrlik etmişdir.

Bəhman kişi bacarıqlı təsərrüfat rəhbəri, qayğıkeş insan, xalqını, millətini sevən bir insan kimi bütün Dərələyəz və şərur elində böyük hörmət və nüfuz sahibi olmuşdur. Hamı onu bir el ağsaqqalı kimi sevirdi.

Ona "Qafqazın müdafiəsi" və "Rəşadətli əməyə görə" medalları verilmişdir. O, 1968-ci ildə dünyasını dəyişmişdir.

## LARIYEV İBAD ŞİRİN OĞLU

Larıyev İbad 1910-cu ildə Dərələyəzin Kotanlı kəndində anadan olmuşdur. 1918-ci il erməni-müsəlman davasında ermənilər onun atası Şirin kişini Ərgəz kəndində vəhşicəsinə öldürmüş və o 8 yaşından yetim qalmışdır. Anası ilə bərabər Şərur rayonunun Aralıq kəndinə getmiş, Sovet hökuməti qurulduqdan sonra öz doğma kəndinə qayıtmışdır. O, 1937-1948-ci illər arasında Kotanlı kəndində kolxoz və sovet sədri vəzifələrində işləmişdir.

1948-ci ildə zorla Azərbaycanın Əlibayramlı rayonuna deportasiya olunmuş, lakin burada mühitə uyğunlaşa bilmədiyi üçün Tərtər rayonunun Səhləbad kəndinə köçmüş və orada məskunlaşmışdır. Xeyli müddət bu kənddə kolxoz sədri vəzifəsində çalışmış və bu kənddə də dünyasını dəyişmişdir.

## ALIYEV HÜSEYN QİYAS OĞLU

Alıyev Hüseyn 1911-ci ildə Dərələyəzin Qalaser kəndində anadan olmuş, 6 yaşında atasını itirmiş, əvvəlcə babası Eyvazlı kişinin, sonradan isə ana babası Hacı Abbas kişinin himayəsində böyümüşdür.

1934-cü ildən başlayaraq kənddə müəllim, briqadir vəzifələrində işləmişdir. Müharibədən əvvəlki illərdə Yerevan Kənd Təsərrüfat texnikumunda aqronomluq ixtisasını almış, 1941-1945-ci illərdə müharibədə olmuş, müharibə-



dən sonrakı illərdə, 1960-cı ilə qədər Qalaser, Qovuşuq, Ələyəz kəndlərində kolxoz sədri vəzifəsində işləmişdir. 1960-1975-ci illərdə Qovuşuq kənd sovetinin sədri vəzifəsində işləmiş, dəfələrlə Ermənistan SSR Ali Məhkəməsi Plenumunun üzvü olmuş, 1971-ci ildə "Qırmızı Əmək bayrağı" ordeni almışdır. O, respublika səviyyəli fəxri təqaüdçü olmuş, Dərələyəz mahalında bir el ağsaqqalı kimi tanınmış, aşıq yaradacılığını yaxşı bilən bir şəxs olmuşdur.

1988-ci ildə ermənilər tərəfindən doğma yurdundan zorla qovulmuş, 85 yaşında Bakı şəhərində vəfat etmişdir.

## ƏSƏDOV NƏSİR MƏHƏMMƏD OĞLU



Əsədov Nəsir 1911-ci ildə Dərələyəzin Gendərə kəndində anadan olmuşdur. 1944-1947-ci illərdə kənd sovetinin katibi, 1947-1950-ci illərdə Qovuşuq sovetliyi üzrə dörd kəndin (Qovuşuq, Qalaser, Qabaxlı, Ayısəsi) sovet sədri, 1950-1955-ci ildən sonra isə kolxoz və sovxozda müxtəlif vəzifələrdə çalışmışdır.

1988-ci ildə Ermənistan hökuməti onu zorla öz doğma kəndindən çıxartmış və o ailəsi ilə birlikdə Sumqayıt şəhərində məskunlaşmağa məcbur olmuş, bir neçə ildən sonra dünyasını dəyişmişdir.

## FƏTULLAYEV ƏLƏSGƏR RAMAZAN OĞLU



Fətullayev Ələsgər 1911-ci ildə Dərələyəz mahalının Gendərə kəndində anadan olmuşdur. 1931-1935-ci illərdə Qabaxlı kəndində briqadir, 1935-1939-cu illərdə Horbadıq kəndində mühasib işləmişdir. 1939-1942-ci illərdə Qalaser, 1943-1949-cu illərdə Qabaxlı, 1949-1951-ci illərdə Qovuşuq kəndində kolxoz sədri, 1951-1954-cü illərdə Qovuşuq kəndində sovet sədri vəzifəsində işləmişdir. Ələsgər Fətullayev 1954-1959-cu illərdə Qızılgül (Ayısəsi) kəndində kolxoz sədri, 1959-1961-ci illərdə Qabaxlı kəndində mühasib, 1961-1968-ci illərdə Qovuşuq sovxozunda azad həmkarlar təşkilatının sədri işləmişdir.

## QULİYEV QƏŞƏM ƏLİ OĞLU



Quliyev Qəşəm 1913-cü ildə Dərələyəzin Nəbilər kəndində anadan olmuşdur.

1939-cu ildə Nəbilər kəndi Gülüdüz kəndinə köçürülmüş və o bundan sonra orada yaşamışdır. O Gülüdüz kolxozunda briqadir, partiya təşkilatı katibi, kolxoz sədri, sovet sədri vəzifələrində çalışmış, rayon sovetinin deputatı olmuş, 1981-ci ildə vəfat etmişdir.

## MƏMMƏDOVA BƏSTİ MƏHƏMMƏD QIZI

Məmmədova Bəsti 1914-cü ildə Dərələyəzin Gülüdüz kəndində anadan olmuş, kənd təsərrüfatında çalışmış, 1945-ci ildə kommunist parityası sıralarına daxil olmuş, 1947-1948-ci illərdə Gülüdüz kənd sovetinin sədri vəzifəsində işləmişdir. Həmin illərdə rayon sovetinə deputat seçilmiş və 1981-ci ildə dünyasını dəyişmişdir.

## BƏXTİYAROV BİLAL CALAL OĞLU



Bəxtiyarov Bilal 1924-cü ilin mart yayında Əzizbəyov rayonunun Kotanlı kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1941-ci ildə Arınc yeddiillik məktəbində, 1942-ci ilin yanvarında İstisu kənd məktəbində direktor işləmişdir. 1942-ci ilin oktyabrından 1945-ci ilin aprelinədək Böyük Vətən müharibəsində iştirak etmiş, üç dəfə yaralanmışdır. Müharibədə birinci dərəcəli Böyük Vətən müharibəsi ordeni, Qırmızı Ulduz ordeni, “İgidliyə görə“ medalı və digər 14 müxtəlif medallarla təltif edilmişdir. 1947-ci ildə rayonun "Stalin yolu" qəzetində azərbaycan şöbəsinin müdiri, eyni zamanda "Sovet Ermənistanı" qəzetində Əzizbəyov, Yeğeqnadzor rayonları üzrə xüsusi müxbir işləmişdir. 1953-1956-cı illərdə Əzizbəyov və Yeğeqnadzor rayonları birləşəndə o, birləşmiş rayonunun partiya komitəsində təlimatçı işləmişdir. 1955-ci ildə Yerevandakı üçillik Partiya məktəbinə daxil olmuş, sonra Bakı dördillik Ali Partiya məktəbinə dəyişilmiş, 1959-cu ildə oranı bitirmişdir. Bundan sonra o, 1981-ci ilə qədər məktəb direktoru, sovxoz direktoru, Cermuq (İstisu) su zavodunun direktor müavini, Cermuq (İstisu) avtonəqliyyat bazasında istismar

şöbəsinin rəisi vəzifələrində çalışmışdır. 1981-1985-ci illərdə İsmayıllı rayonunda aqronom, sovxoz direktorunun müavini, sovxoz direktoru işləmişdir. 1988-ci ildən bu günə qədər Nizami rayon MKTB-nin aparatında işləyir. Rayon müharibə və əmək veteranı şurasının heyət üzvü, rayon ağsaqqallar şurasının sədrinin birinci müavini, şəhər veteranlar şurasının plenum üzvüdür.

## ZEYNALOV VƏLİ ƏLİ OĞLU



Zeynalov Vəli 11 aprel 1925-ci ildə Dərələyəz mahalının Hosdun kəndində anadan olmuşdur. O, 17 yaşından əmək fəaliyyətinə başlamış, əvvəl ferma müdiri, sonra isə bir neçə erməni və Azərbaycan kəndlərini özündə birləşdirən böyük bir sovetliyin sədri vəzifəsində işləmişdir. 1950-ci illərdən sonra bir müddət Yeğeqnadzor rayon partiya komitəsində təlimatçı, 1958-1961-ci illərdə isə Ələyəz kəndində kolxoz sədri işləmişdir.

1961-ci ildə 7 kəndi birləşdirən (Qovuşuq, Qabaqlı, Qalaser, Gülüdüz, Qızılgül, Qaraqaya, Gədikvəng) südçülük-heyvandarlıq sovxozu yaradılmış və Vəli Zeynalov ora sovxoz direktoru təyin edilmişdir. Sonralar sovxoz 2 yerə: Gülüdüz və Qovuşuq südçülük-heyvandarlıq sovxozuna ayrılmışdır. Vəli Zeynalov ömrünün sonuna kimi Qovuşuq sovxozunun direktoru vəzifəsində çalışmışdır.

1966-cı ildə "Əmək və qəhrəmanlıq", 1970-ci ildə Leninin anadan olmasının 100 illiyi şərəfinə "Rəşadətli əməyə görə" medalı, 1971-ci ildə "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur. Ona on dəfə "Sosializm yarışının qalibi" nişanı verilmiş, dəfələrlə Ermənistan Ali Sovetinin fəxri fərmanlarına layiq görülmüşdür. 20 il, 1961-ci ildən 1981-ci ilə qədər rayon partiya komitəsinin büro üzvü olmuş və 1985-ci ildə dünyasını dəyişmişdir.

## AĞAMALIYEV MAYIL MƏMMƏDƏLİ OĞLU



Ağamalıyev Mayıl 1925-ci ildə Dərələyəz mahalının Əzizbəyov rayonun Terp kəndində anadan olmuş, 1940-cı ildə İrəvan Pedaqoji Texnikumuna daxil olmuş və oranı bitirmişdir. 1941-1944-cü illərdə Terp kəndində kolxozun briqadiri, sonra kolxoz sədrinin müavini, 1944-1949-cu illərdə Terp kəndində məktəb direktoru vəzifəsində çalışmışdır.

1949-cu ildə məcburi olaraq öz doğma yurdundan deportasiya olunaraq Azərbaycana, Səlyan rayonunun Qarabağlı kəndinə köçürülmüşdür. 1950-1953-cü illərdə

Qarabağlı kolxozunda sədr müavini, 1953-1960-cı illərdə Əlibayramlı rayon Stalin adına kolxozun sədri, 1960-1969-cu illərdə "28 aprel" kolxozunun sədri, 1959-1983-cü illərdə Lenin kolxozunun sədri, 1983-1985-ci illərdə Sovxoz direktoru vəzifələrində işləmişdir. "Qırmızı əmək bayrağı", "Şərəf nişanı" ordenləri, "Əməyə görə fərqlənmə" döş nişanı, "Əlaçı müəllim" döş nişanı və bir çox başqa medallarla təltif edilmişdir. 1985-ci ildə vəfat etmişdir.

## ƏLİYEV NİZAM FİRİDUN OĞLU



Əliyev Nizam 1925-ci ildə Dərələyəzin Gədikvəng (Qoduxvəng) kəndində anadan olmuş, 1932-1936-cı illərdə Gədikvəng kənd ibtidai məktəbini, 1936-1942-ci illərdə Qovuşuq kənd orta məktəbini bitirmişdir. Həmin ildə İrəvan kənd təsərrüfatı texnikumuna daxil olmuş, 1944-cü ildə texnikumu bitirərək Gədikvəng kolxozunda işə girmişdir. 1958-1961-ci illərdə kolxozda müxtəlif vəzifələrdə işləmiş, sonra kolxoz sədri seçilmişdir. 1962-1981-ci illərdə sovxozun ilk partiya təşkilatı katibi, 1981-1986-cı illərdə kənd soveti sədri vəzifəsində çalışmışdır.

1987-1988-ci il hadisələrində erməni şovinistləri tərəfindən öz doğma yurdundan qovulmuş, Xızı rayonunun Fındığan kəndində məskunlaşmağa məcbur olmuşdur. Bir neçə il bu kənddə baş aqronom vəzifəsində çalışmış, 1998-ci ildə isə dünyasını dəyişmişdir.

## DÜNYAMALIYEV ƏZİZ ƏSGƏR OĞLU



Dünyamalıyev Əziz 1925-ci ildə Dərələyəzin Ertiş kəndində anadan olmuş, 1941-1945-ci illərdə arxa cəbhədə fəaliyyət göstərmiş, Amağu kəndində müəllim işləmişdir. 1964-cü ildə Yerevan kənd təsərrüfatı texnikumunu bitirdikdən sonra, əvvəlcə Amağu kəndində ferma müdiri, sonra isə uzun illər bu məktəbdə kolxoz sədri vəzifəsində işləmişdir.

1968-ci ildə Azərbaycanın Abşeron rayonuna köçüb ömrünün sonunadək orada müxtəlif vəzifələrdə – 1 saylı üzümçlük savxozunda briqadir, şöbə müdiri, ferma müdiri işləmişdir. Özəlləşmə dövründə özəl şirkətin prezidenti olmuşdur.

199 -cu ildə Mehdiabad qəsəbəsində dünyasını dəyişmişdir.

## CƏFƏROV VƏLİ ƏLİMƏRDAN OĞLU



Cəfərov Vəli 1925-ci ildə Dərələyəzin Ələyəz kəndində anadan olmuş, orta təhsilli aqronom ixtisası almışdır.

1945-1946-cı illərdə Ələyəz kəndində kolxozda hesabdar, 1947-1949-cu illərdə həmin rayonun Heşin kəndində kolxozun baş hesabdarı işləmişdir. 1950-ci ildən 1960-cı ilə qədər Ələyəz kəndində kolxozda baş hesabdar, 1960-1973-cü illərdə kolxoz sədri, 1973-1975-ci illərdə rayonun Amağu kəndində kolxoz sədri, 1976-1988-ci illərdə Dərələyəzdə meşə təsərrüfatında şöbə rəisi vəzifəsində işləmişdir. Dəfələrlə rayon sovetinin və kənd sovetinin deputatı seçilmiş və rayon partiya komitəsinin plenum üzvü olmuşdur.

1988-ci ildə erməni şovinistlərinin siyasəti nəticəsində zorla öz yurdundan deportasiya olunmuş və həmin ildən də Bakı şəhərinin Suraxanı rayonunda məskunlaşmışdır.

## SƏFƏROV MUSTAFA HƏSƏN OĞLU



Səfərov Mustafa Həsən oğlu 1925-ci ildə Dərələyəzin Gülüdüz kəndində anadan olmuş, 8-ci sinfi doğulduğu kənddə, orta məktəbi isə Qovuşuq kənd orta məktəbində bitirmişdir. O, İrəvan kənd təsərrüfat teznikumunu qiyabi yolla bitirdikdən sonra Azərbaycan Kənd Təsərrüfatı Akademiyasına daxil olmuş və 60-cı illərin sonunda oranı bitirmişdir.

Səfərov Mustafa uzun müddət kənd təsərrüfatı sahəsində çalışmış, Gülüdüz, Qoduxvəng, Qaraqaya kənəndlərində kolxoz sədri, sovxoz direktorunun müavini vəzifələrində çalışmışdır. Uzun illər kənd və rayon sovetinin deputatı olmuşdur.

1988-ci ildə doğma yurdundan zorla deportasiya edilmiş, 2002-ci ildə Bakıda dünyasını dəyişmişdir.

## ƏMİROV ƏLİ NABATLI OĞLU

Əmirov Əli 1926-cı ildə Dərələyəzin Əzizbəyov rayonunun Kotanlı kəndində anadan olmuşdur. 7 illik təhsilini doğma kəndində bitirib 1993-cü ildə Böyük Vətən müharibəsinə getmiş, 1950-ci ildə ordudan tərxis olunmuş və öz kəndinə qayıtmışdır.



1951-1954-cü illərdə öz doğma kəndində sovet sədri vəzifəsində çalışmış, 1954-1958-ci illərdə Gəncə Kənd Təsərrüfatı Akademiyasında oxumuş və oranı bitirmişdir.

1958-1961-ci illərdə Əzizbəyov rayonunun Zeyvə kəndində kolxoz sədri, 1961-1965-ci illərdə Kotanlı kəndində aqronom, 1965-1971-ci illərdə bu kənddə ferma müdiri, 1971-1976-cı illərdə briqadir, 1976-1980-ci illərdə məişət xidməti üzrə müdir işləmişdir. Kənddə yaşayan ermənilərin təzyiqi nəticəsində 1980-ci ildə köçüb Abşeronun Novxanı sovxozunda məskunlaşmış, sonra üzümçülük üzrə briqadir işləmiş və buradan da təqaüdə çıxmışdır. O, hal-hazırda Novxanı kəndində yaşayır.

## ZÜLFÜQAROV MƏMMƏD ŞABO OĞLU



Zülfüqarov Məmməd 1927-ci ildə Dərələyəzin Qovuşuq kəndində anadan olmuş, 15 yaşından əmək fəaliyyətinə başlamış, əvvəlcə kolxozun hesabdarı olmuş, sonra Qovuşuq kənd orta məktəbində pioner baş dəstə rəhbəri vəzifəsində çalışmışdır, 1943-1946-cı illərdə rayon komsomol komitəsində təlimatçı, 1946-1947-ci illərdə kənd klubunda müdir işləmiş, sonra hərbi xidmətdə olmuşdur. 1951-1954-cü illərdə isə Qovuşuq kəndinin sovet sədri vəzifəsində çalışmışdır.

1954-cü ildə rayon partiya komitəsində təlimatçı vəzifəsində, sonra Qovuşuq kəndində kolxozun sədri seçilmişdir. 1955-1976-cı illərdə rayonun bir neçə kəndində (Qovuşuq, Ayısəsi, Qabaxlı, Qalaser) kolxoz sədri, sovxoz partiya təşkilatının katibi, sovet sədri vəzifəsində çalışmışdır. 1976-cı ilin mart ayında Abşeron rayonuna köçmüş, əvvəlcə Novxanı üzümçülük sovxozunda təsərrüfat müdiri, sovxoz partiya təşkilatının katibi, 1977-ci ilin iyun ayından ömrünün sonuna kimi Novxanı kənd sovetinin sədri vəzifəsində çalışmışdır. O, xidmətlərinə görə "Böyük Vətən müharibəsində fədakar əməyə görə", "V.İ.Leninin anadan olmasının 100 illiyi münasibətilə fədakar əməyə görə", "Böyük Vətən müharibəsinin 30 illiyi" medalları ilə və Ermənistan SSR Ali Sovet Rəyasət Heyətinin fəxri fərmanı ilə təltif edilmişdir.

1988-ci il mayın 16-da, 62 yaşında qəflətən vəfat etmişdir.

## ƏLİYEV İSMAYIL HÜSEYN OĞLU



Əliyev İsmayıl 1928-ci ildə Dərələyəzin Gədikvəng kəndində anadan olmuşdur. O, orta təhsilini 1932-1942-ci illərdə Gədikvəng, Gülüdüz və Qovuşuq kənd məktəblərində başa vurmuşdur. 1945-ci ildə kolxozda briqadir, 1954-cü ildən 1960-cı ilədək həmin kolxozda sədr vəzifəsində işləmiş, yaxşı fəaliyyətinə görə kolxoz Moskvada keçirilən Kənd Təsərrüfaptı nailiyyətləri sərgisində birinci yerə çıxmışdır.

Əliyev İsmayıl 1987-1988-ci il hadisələrində doğma yurdundan deportasiya edilərək Xızı rayonunun Fındığan kəndində məskunlaşmışdır. Hal-hazırda həmin kənddə yaşayır.

## HƏNİFƏYEV SEVİNDİK MƏMMƏDHƏNİFƏ OĞLU

Hənifəyev Sevindik 1928-ci ildə Əzizbəyov rayonunun Gülüdüzü kəndində anadan olmuş, ibtidai və orta təhsilini Dərələyəz məktəblərində almışdır. Bundan sonra o, İrəvan Kənd Təsərrüfatı texnikumunu bitirmiş (Azərbaycan dilində) və bir müddət Əzizbəyov rayonunun Terp və digər kəndlərində zootexnik, ekonomist vəzifələrində işləmişdir. Daha sonra o, Yerevan Zoobaytarlıq İnstitutunun Zootexnik fakültəsinin qiyabi şöbəsini (erməni dilində) bitirmiş, 3-4 il Terp kəndində sovet sədri, 2 il Gomur sovxozunda sovxoz direktoru və Əzizbəyov rayonu üzrə Ətdik idarəsinin müdiri işləmişdir. O ermənilər tərəfindən sıxışdırıldığı üçün 1978-ci ildə köçüb Azərbaycanın Cəlilabad rayonuna gəlmiş, 1980-1983-cü illərdə burada kənd təsərrüfatı istehsalat idarəsinin rəisi, 1983-1985-ci illərdə Abşeron rayon Goradil Quşçuluq fabrikinin direktoru olmuş, 1985-ci ildə dünyasını dəyişmişdir.

## QULİYEV MUSA İSFƏNDİYAR OĞLU



Quliyev Musa 20.01.1929-cu ildə Dərələyəz mahalının Gülüdüz kəndində anadan olmuş, Gülüdüz və Qovuşuq məktəblərində orta təhsil almışdır. O, 1943-cü ildə müəllimlik kursuna göndərilmiş, həmin kursu bitirdikdən sonra 1949-cü ilədək Qızılgül, Gədikvəng kəndlərində müəllim işləmiş və işləyə-işləyə, qiyabi yolla İrəvan Pedaqoji Texnikumunu bitirmişdir. 1952-ci ildə Gülüdüz kənd sovetinə katib seçilmiş, 1970-ci ildə Azərbaycan Dövlət Universitetinin dil ədəbiyyat fakültəsini (qiyabi) bitirmişdir. 1961-1972-ci illərdə Gülüdüz kənd

sovetinin sədri, 1972-1988-ci illərdə Qaraqaya kənd məktəbində direktor işləmiş, 1988-ci ildə ermənilər tərəfindən yurdundan qovulmuş və Azərbaycanda məskunlaşmışdır.

### MƏMMƏDOV SAVALAN MƏDƏT OĞLU



Məmmədov Savalan 1935-ci ildə Dərələyəzin Ələyəz kəndində anadan olmuş, 1942-1952-ci illərdə orta təhsil almışdır. Sonra o, Naxçıvan şəhərində mexanizasiya mühəndisi məktəbini bitirmiş, 1960-1961-ci illərdə Şərur rayonunun Gümüşlü mədənində, sonra da Ələyəz kəndində mexanik işləmişdir. 1961-1969-cu illərdə rayon sovetinin deputatı olmuşdur. 1970-ci ildə Ələyəz kəndində kolxoz sədri, 1980-1988-ci illərdə sovet sədri işləmiş, 1988-ci ildə ermənilər tərəfindən zorla Azərbaycana deportasiya olunmuşdur.

### MEHDİYEV MEHDİ FƏRHAD OĞLU



Mehdiyev Mehdi 1938-ci ildə Dərələyəzin Əzizbəyov rayonunun Zeytə kəndində anadan olmuş, 1954-cü ildə Zeytə kənd yeddiillik məktəbini bitirmiş, elə həmin ildə Qovuşuq kənd orta məktəbinin VIII sinfinə daxil olmuş, 1956-cı ildə həmin məktəbin X sinfini başa vurmuşdur.

O, 1958-ci ildə BDU-nin Mexanika-riyaziyyat fakültəsinə daxil olmuş, 1963-cü ildə oranı bitirib Zeytə kənd yeddiillik məktəbində direktor, 1977-ci ildən isə bu kənddə sovxoz direktoru vəzifəsində işləmişdir.

1988-ci ildə ermənilər tərfindən zorla öz doğma kəndindən qovulmuş və Naxçıvan MR-nın Babək rayonunun Əznəburd kəndində məskunlaşmışdır. 1989-1997-ci illərdə həmin kənddə Əznəburd, Təzəkənd, Xincab kəndlərini əhatə edən XDŞ icraiyyə başçısı vəzifəsində işləmişdir. Bundan sonra o, Bakı şəhərinin Qaradağ rayonunda məskunlaşmış və burada dünyasını dəyişmişdir.

### HEYDƏROV PUŞKİN VƏLİ OĞLU

Heydərov Puşkin 1938-ci ildə Dərələyəzin Amağu kəndində anadan olmuş, Amağu kəndində 7 illik məktəbi bitirmiş, 1954-cü ildə Yerevan Kənd Təsərrüfatı texnikumuna qəbul olmuş, 1958-ci ildə texnikumu bitirmişdir. Texniku-



mu bitirdikdən sonra Qovuşuq kənd mərkəzinin baytarlıq laboratoriyasına müdir təyin edilmişdir. 1958-ci ildə Amağu kəndində baytarlıq üzrə texnik, 1968-ci ildə həmin kənddə kolxoz sədri işləmişdir. 1975-ci ildə Azərbaycan Respublikası Salyan rayonunun Lenin adına kolxozunda baş baytar həkim, 1976-cı ildə Abşeron zonasının baytar sanitariya dəstəsinin rəisi, 1984-cü ildə Abşeron rayonunun Ramana sovxozunda direktor, sonra da Abşeron rayonunun baytar idarəsinin rəisi vəzifəsində çalışmışdır.

2002-ci ildə Bakıda dünyasını dəyişmişdir.

## HƏSƏNOV İSAX İMRAN OĞLU



Həsənov İsax 1938-ci ildə Dərələyəzin Qovuşuq kəndində anadan olmuş, 1959-cu ildə öz doğma kəndində orta məktəbi qurtarmış, 1975-ci ildə isə Yerevan Kənd Təsərrüfatı texnikumunu bitirmişdir.

1976-cı ildən 1988-ci ilə qədər Qovuşuq sovetliyində kənd sovetinin sədri vəzifəsində işləmişdir.

## MƏMMƏDOV CƏLAL ALIŞAN OĞU



Məmmədov Cəlal 21 oktyabr 1945-ci ildə Dərələyəzin Qovuşuq kəndində anadan olmuş, 1962-ci ildə Qovuşuq kənd orta məktəbini bitirmişdir.

1964-cü ildə Ordu sıralarına getmiş, 1967-ci ildə Ordu sıralarından tərxis olunmuş, 1969-cu ildə BDU-nin hüquq fakültəsinin qiyabi şöbəsinə daxil olmuş, 1975-ci ildə oranı bitirmişdir. 1971-ci ildə Qovuşuq Sovxozunun "Azad" komsomol komitəsinin katibi, sonradan sovxozda Azad partiya komitəsinin katibi işləmişdir. 1979-1981-ci illərdə Gülüdüz, 1981-1984-cü illərdə Qovuşuq sovxozunda direktor işləmişdir.

1984-1988-ci illərdə Yexeqnadzor rayonunun istehsalat idarəsində baş hüquqşünas, 1988-ci ilin may ayında Gülüdüz sovxozunda direktor işləmişdir.

1988-ci ilin noyabr ayında ermənilər tərəfindən öz doğma yurd-yuvasından qovulmuş, Azərbaycanın Sumqayıt şəhərində məskunlaşmışdır. 1989-cu ildə 6 ay Sumqayıt mənzil təsərrüfatının kadrlar şöbəsində işləmiş, bundan sonra, 1989-cu ilin avqust ayından bu günə kimi Sumqayıt şəhəri 7 saylı Mənzil İstismar İdarəsinin rəisidir.

## ƏLİYEVA TAMARA MURTUZA QIZI



Əliyeva Tamara 1947-ci ildə Dərələyəzin Ələyəz kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1967-ci ildə Ələyəz kənd mədəniyyət evində klub müdiri işləmiş, 1969-cu ildə Ələyəz kənd xalq deputatları sovetinin icraiyyə komitəsinə sədr, rayon sovetinə deputat seçilmişdir. 1972-ci ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə daxil olmuş, 1979-cu ildə oranı bitirmişdir. 1980-ci ildən Ələyəz kənd orta məktəbində müəllim işləmişdir. 1981-ci ildə Bakıya gələrək Respublika Sovxozlar Birliyində, 1983-cü ildən isə Aqrarsənayetikinti Trestində hüquq məsləhətçisi işləmiş və hal-hazırda da işləyir. Bunlarla yanaşı o, 2 saylı Bakı Tibb Baza məktəbində 1988-ci ildən saathesabı hüquq müəllimi kimi fəaliyyət göstərir.

## MƏMMƏDOV PAŞA KAZIM OĞLU



Məmmədov Paşa 1949-cu ildə Dərələyəzin Qovuşuq kəndində anadan olmuş, 1966-cı ildə həmin kənddə orta məktəbi, 1971-ci ildə isə Gəncə Kənd təsərrüfatı institutunu bitirmişdir. Əmək fəaliyyətinə Azərbaycanın Saatlı rayonunda başlamışdır. 1974-1988-ci illərdə Qovuşuq kəndində kənd təsərrüfatı üzrə müxtəlif vəzifələrdə, o cümlədən Qovuşuq Maldarlıq sovxozunun direktoru işləmişdir. Uzun müddət partiya və dövlət orqanlarının tərkibinə seçilmişdir.

1988-ci ildən azərbaycanlıların doğma yurdundan zorla çıxarılmasına qarşı mübarizənin təşkilatçısı olmuş, azərbaycanlılara qarşı törədiləcək bir neçə terrorun qarşısını almışdır. 1988-ci ilin noyabr ayında ermənilərin girovuna çevrilən Ələyəz, Qovşuq, Ayısəsi (Qızılgül), Gülüdüz və Qabaxlı kəndlərindən olan yüzlərlə qoca, qadın və uşaqları xilas etmək işində fəal iştirak etmişdir.

Hazırda Bakı şəhərində yaşayır. Xırda istehsal ilə məşğuldur.

## BƏXTİYAROV VAQİF BİLAL OĞLU



Bəxtiyarov Vaqif 1953-cü ildə Dərələyəz mahalının Yeğeqnadzor (Keşkənd) qəsəbəsində anadan olmuş, 1961-1968-ci illərdə Terp kəndinin səkkizillik məktəbində, 1968-1970-ci illərdə isə Qovuşuq kənd orta məktəbində təhsil almışdır. 1971-1976-cı illərdə BDU-nu bitirib Dərələyəzin Terp kəndində müəllim kimi əmək fəaliyyətinə başlamış, 1981-1983-cü illərdə İstisu (Cermuk) mineral su zavodunda nəzarətçi və buraxılış bürosunun rəisi vəzifəsində işləmişdir.

1983-cü ildən Sumqayıt şəhərinə köçmüş, 1984-1985-ci illərdə Azərbaycan Kimya İstehsalat birliyinin yataqxanasında tərbiyəçi-müəllim, 1986-cı illərdə "Azərbaycan kitab ticarət" birliyinin 8 və 96 saylı mağazalarında müdir işləmişdir.

1991-ci ildən Təhsil nazirliyində ali və ota ixtisas təhsili idarəsində aparıcı inspektor, 1994-cü ildən 2001-ci ilə qədər isə Bakı Mədəni-Maarif texnikumunda təlim-tərbiyə işləri üzrə direktor müavini vəzifəsində çalışmışdır.

## AĞAMALIYEV AĞAMAYIL MAYIL OĞLU



Ağamalıyev Ağamalının ailəsi 1949-cu ildə Dərələyəzin Terp kəndindən deportasiya olunmuşdur. O, 1959-cu ildə Azərbaycan Respublikası Sabirabad rayonu Axtacı kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1981-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirib alim-aqranom ixtisası almış, 1981-ci ildə təyinatla Abşeron rayonuna göndərilmişdir. Abşeron rayonunda baş mütəxəssis, Rayon Komsomol Komitəsində təlimatçı, şöbə müdirinin müavini, II katib vəzifəsində, Rayon Partiya Komitəsində, Novxanı sovxozunda direktor, Bakı şəhəri Suraxanı rayonu İcra Hakimiyyətində şöbə müdiri, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyində baş mütəxəssis, Hövsan südçülük sovxozunda direktor vəzifəsində çalışmışdır. 1999-cu ildən hal-hazıradək Azərbaycan Respublikasçı Prezidentinin İşlər İdarəsinin Kənd Təsərrüfatı müəssisəsinin direktoru vəzifəsində işləyir.

## *HƏKİMLƏR, BAŞ HƏKİMLƏR (BİR QRUPU)*

### ƏLİYEV MEHMAN VƏLİ OĞLU



Əliyev Mehman 1948-ci ildə Dərələyəzin Ələyəz kəndində anadan olmuşdur. 1973-cü ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini bitirmiş, 2 il Hərbi Hava qüvvələrində tibbi-sanitar hissəsində rəis vəzifəsində işləmişdir. Ordudan tərxis olunandan sonra Azərbaycan Dəmir yolu mərkəzi poliklinikasında əvvəllər həkim, sonralar isə baş həkimin ekspertiza üzrə müavini işləmişdir. 2000-ci ildən akademik M.Topçubaşov adına Elmi-tədqiqat Klinik Təbabət İnstitutunda baş həkim vəzifəsində çalışmaqdadır.

### ZÜLFÜQAROV PAŞA MƏMMƏD OĞLU



Zülfüqarov Paşa 1951-ci ildə Dərələyəzin Qovuşuq kəndində anadan olmuş, 1958-ci ildə Qovuşuq kənd orta məktəbinin 1 sinfinə daxil olmuş, 1963-cü ildə Bakı şəhərinə dayısının yanına gəlmiş, onun evində qalmış və orta təhsilini 1969-cu ildə Bakıdakı 211 və 9 saylı məktəblərdə başa vurmuşdur. 1969-cu ildə N.Nərimanov adına Azərbaycan Tibb Universitetinin müalicə-profilaktika fakültəsinə daxil olmuş, 1974-cü ildə həmin universiteti bitirib Səhiyyə Nazirliyinin göndərişi ilə Ağ ciyər xəstəlikləri institutunda bir illik internatura kursunu keçmiş, 1976-cı ilin avqustunda Səhiyyə Nazirliyinin göndərişi ilə Ağdaş rayonuna vərəm dispanserinə həkim-ortiziator göndərilmişdir. 1977-ci ildən 1987-ci ilə qədər Ağdaş rayonu vərəm dispanserinin baş həkimi işləmiş, 1987-ci ildə Bakı şəhərində Ağ ciyər xəstəlikləri institutunda kiçik elmi işçi vəzifəsinə dəyişdirilmişdir. 1987-ci ildə Bakı şəhəri Əzizbəyov rayonu 7 saylı vərəm dispanserinin baş həkimi təyin olunmuş, 1999-cu ilin avqustuna kimi Əzizbəyov rayonunun vərəm dispanserinin baş həkimi işləmişdir. 1999-cu ildə Bakı şəhəri 2 saylı Xətai rayonu vərəm dispanserində baş həkim vəzifəsinə təyin edilmiş və hal-hazırda bu vəzifədə çalışmaqdadır.

## MURADOV VURĞUN XANMURAD OĞLU



Muradov Vurğun 1954-cü ildə Dərələyəzin Qabaxlı kəndində anadan olmuşdur. 1971-ci ildə Qovuşuq kəndində orta məktəbi bitirmiş, 1976-cı ildə Krasnodar vilayətində Tibb Universitetinin müalicə və profilaktika fakültəsinə daxil olmuş, 1982-ci ildə həmin uniıversiteti bitirmişdir. 1982-1990-cı illərdə Donskoy şəhərində endokrinoloq vəzifəsində işləmişdir. 1990-cı ildə Azərbaycana qayıtmış, Respublika Kliniki xəstəxanasında çalışmışdır. 1999-cu ildən Bakı şəhər Endokrinoloji Dispanserində Baş həkim vəzifəsində çalışır.

## MİRZƏYEV MÜŞFİQ HƏSƏN OĞLU



Soyu, kökü, ulu babaları, ata, babası Dərələyəzdən olan, Dərələyiz havası və suyu ilə ərsəyə çatan Mirzəyev Müşfiq Həsən oğlu, 01 sentyabr 1964-cü ildə Bakı şəhərində anadan olmuşdur.

O, 1971-ci ildə Bakı şəhərində 20 №-li orta məktəbə daxil olmuş, 1981-ci ildə həmin məktəbi "Qızıl medal"la başa vurmuş, 1981-ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun 2-ci Müalicə-Profilaktika fakültəsinə daxil olmuş, 1987-ci ildə buranı fərqlənmə diplomu ilə bitirmişdir.

1987-1988-ci illərdə Respublika Dəri-Zöhrəvi Dispanserində Dermato-Veneqoloq ixtisası üzrə bir illik internaturada həkim-internat olmuş və internaturanı "əla" qiymətlə bitirmişdir. İkinci ixtisası almaq üçün 1996-cı ildə Azərbaycan Beynəlxalq Universitetinin hüquq fakültəsinə daxil olmuş, 2000-ci ildə buranı bitirmişdir.

1988-ci ilin noyabr ayında Mərkəzi Şəhər Dəri-Zöhrəvi Dispanserinin dəri-zöhrəvi xəstəliklər şöbəsində həkim-ordinator kimi əmək fəaliyyətinə başlamış, 1990-cı ildə Ə.Əliyev adına Respublika Həkimləri Təkmilləşdirmə İnstitutunda 4 aylıq təkmilləşmə kursunu bitirmişdir. 1991-ci ildə işlədiyi dispanserin göndərişi ilə Ə.Əliyev adına Respublika Həkimləri Təkmilləşdirmə İnstitutuna – fizioterapiya ixtisası üzrə 5 aylıq ixtisaslaşma kursuna göndərilmiş, kursu bitirdikdən sonra Şəhər Dəri-Zöhrəvi dispanserində Fizioterapiya şöbəsinə şöbə müdiri vəzifəsinə təyin edilmişdir.

1992-1993-cü illərdə H.Əliyevçi olduğu üçün dispanserin rəhbərliyi tərəfindən təzyiqlərə məruz qalmış, əvvəlcə tutduğu vəzifədən şöbədə həkim-ordinator vəzifəsinə keçirilmiş, bir ay sonra, 1993-cü ilin martında isə işdən çıxmağa məcbur olmuşdur. 1993-1998-ci illər arasında kommersiya fəaliyyəti ilə məşğul olmuş, 1999-cu il sentyabrın 2-dən 3 saylı Bakı şəhər uşaq dəri-zöhrəvi dispanserinə baş həkim təyin edilmiş və həmin vaxtdan hal-hazıradək orada işləyir.

## *İŞ ADAMLARI VƏ XEYRİYYƏÇİLƏR (BİR QRUPU)*

### SƏFƏRƏLİYEV TELMAN GƏRAY OĞLU



Səfərəliyev Telman 1936-cı ildə Dərələyəzin Kotanlı kəndində anadan olmuş, orta təhsilini Qovuşuq kənd orta məktəbində almışdır. 1958-1963-cü illərdə Bakı Dövlət Universitetində ali təhsil almış, Cermuq (İstisu) qəsəbəsinə getmiş, 1963-1988-ci illərdə buradakı beynəlmiləl orta məktəbdə müəllim işləmişdir.

1987-ci ildə ermənilərin əməllərinə dözə bilməyərək Bakıya gəlmiş, televiziyada çıxış etmiş və ermənılərın əməllərini bəyan etmişdir. O, sonra Qərbi Azərbaycanın müxtəlif rayonlarından olan 12 nəfərlə Moskvaya getmiş və ermənilərin fitnə-fəsadlarını müxtəlif yerlərə çatdırmışdır. Hal-hazırda Bakıda yaşayır və iş adamı kimi fəaliyyət göstərir.

### TARVERDİYEV SABİR RƏHİM OĞLU



Tarverdiyev Sabir 1946-cı il avqustun 27-də Qərbi Azərbaycanın Dərələyəz mahalının, indiki Ermənistan Respublikasının Yeğeqnadzor rayonunun Əmağu kəndində anadan olmuşdur. Sumqayıt şəhər on bir illik gecə məktəbini bitirdikdən sonra Sumqayıt şəhər Politexnik texnikumuna daxil olub, həmin texnikumu bitirmişdir. İxtisası üzrə müxtəlif vəzifələrdə çalışmışdır.

1997-ci il fevral ayının 27-də Azərbaycan Milli Dövlətçilik Partiyasının Siyasi Şurasının iclasında partiyanın başqanı seçilmişdir. Xeyriyyəçi kimi böyük işlər görmüşdür.

Hal-hazırda "Vicdan" Xeyriyyət Fondunun sədri və Milli Dövlətçilik Partiyasının başqanıdır.

### AXUNDOV İSFƏNDİYAR MƏHƏMMƏD OĞLU

Soyu, kökü, nəsli, nəcabəti, babaları, nənələri, atası, anası Qərbi Azərbaycandan, Dərələyəz mahalının Canı kəndindən olan Axundov İsfəndiyar Məhəmməd oğlu 1951-ci ildə Şərur rayonunun Siyaqut kəndində anadan olmuşdur. Babasının biri, ata babası (Axundov Məmməd İmran oğlu) 1918-ci ildə, biri isə (Mehtiyev Əli Mehti oğlu) 1920-ci ildə erməni-müsəlman davalarında həlak olmuşlar.

İsfəndiyarın ailəsi 1938-ci ilə qədər öz doğma kəndində yaşamışdır. Lakin erməni şovinistləri bu ailəni də millətçi adı altında təqib edir və bunları tutmaq üçün bəhanə axtarırdı. Bu səbəbdən İsfəndiyarın valideynləri (atası Axundov



Məhəmməd Məşədi İmran oğlu, anası Axundova Mina Əli qızı, əmisi Vəli, nənəsi Gülsahib) 1938-ci ildə gecənin birində çətin yollarla Şərura qaçmış və Siyaqut kəndində məskunlaşmışdır. Ermənilərin çox qorxub ehtiyat etdiyi, Dərələyəzdə öz qoçaqlığı və cəsurluğu ilə ad qazanan bu ailə Sibir sürgünündən öz canlarını zorla qurtara bilmişdir.

Öz zəhməti, əməyi ilə yüksələn isfəndiyar indi Bakıda yaşayır və böyük bir özəl şirkətə rəhbərlik edir. Yer-yurdundan didərgin düşmüş qaçqın-köçkün ailələrinə dayaq durur, böyük quruculuq işləri aparır.

## HEYDƏROV AYDIN VƏLİ OĞLU



Heydərov Aydın 25 yanvar 1948-ci ildə Dərələyəz mahalının Amağu kəndində anadan olmuş, ibtidai və orta təhsilini Amağu, Qovuşuq və Şərurun Cəlilkənd məktəbində almışdır. Bundan sonra o, Azərbaycan Dövlət Politexnik İnstitutunda (axşam və qiyabi şöbələrində) təhsil almış, oranı bitirmiş və bir çox yerlərdə – 26 Bakı komissarı adına neft mədənləri idarəsi, Azərbaycan Elmi-Tədqiqat Əkinçilik İnstitutu, Kənd Təsərrüfatı Nazirliyi, "Azərsutikinti" Respublika Birliyi, Azərquşçuluq Sənaye Birliyi, 1 nömrəli Bakı Taxıl Məhsulları kombinatında müəyyən vəzifələrdə işləmişdir. O, hal-hazırda "İnturavto" Açıq Tipli Səhmdar Cəmiyyətinin sədridir.

## AĞAYAROV OQTAY HÜSEYNQULU OĞLU



Ağayarov Oqtay 1958-ci ildə Dərələyəzin Qabaxlı kəndində anadan olmuş, orta təhsilini öz doğma kəndində və qonşuluqda yerləşən Qovuşuq kənd orta məktəbində almışdır.

O, iki ali təhsil ocağında təhsil almışdır. Əvvəlcə Azərbaycan Dövlət Pedaqoji Universitetini, sonra isə Azərbaycan Texnologiya İnstitutunu bitirmişdir. İxtisası üzrə Cəlilabad rayonunda, sonra isə Sumqayıtda işləmişdir. Sumqayıt şəhər Xovlu İpək fabrikində usta köməkçisi vəzifəsindən sex rəisi vəzifəsinə qədər yüksəlmiş, Bakı şəhər 8 saylı Tikiş Trikotaj fabrikinin direktoru, nazirlikdə şöbə müdiri vəzifəsində işləmişdir.

Hal-hazırda Sumqayıt şəhərində yaşayır, özəl şirkətdə iş adamı kimi fəaliyyət göstərir.

## AĞAMALIYEV MƏMMƏDƏLİ MAYIL OĞLU



Ağamayıyev Məmmədəli 1962-ci ildə Səlyan rayonunun Qarabağlı kəndində anadan olmuş, Azərbaycan Texnologiya İnstitutunu və Azərbaycan respublikası Prezidenti yanında Ali İdarəetmə Akademiyasını bitirmişdir.

1988-2001-ci illərdə Təchizad bazasının direktoru, "Xəzər-dəniz", "Balıqmühafizə idarəsinin rəisi", "Zərif-Mahud" ATSC-nin sədri işləmişdir. Hal-hazırda İqtisadi İnkişaf Nazirliyinin işçisidir.

## MƏMMƏDRZAYEV ZAHİD GƏRAY OĞLU



Məmmədrzayev Zahid Gəray oğlu 1963-cü ildə Dərələyəz mahalının Kotanlı mahalında anadan olub. 1985-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin riyaziyyat-fizika fakültəsini bitirib. 1985-ci ildən 1990-cı ilə qədər təyinatı üzrə orta məktəbdə müəllim işləmişdir. 1990-cı ildən 1993-cü ilə qədər Azərbaycan Dövlət Nəşriyyatı "Azərnəşr"də istehsalat şöbəsinin rəisi, 1993-cü ildə "Göytürk" mətbəəsində direktor, 1993-cü ildən 1995-ci ilə qədər "Günəş" mətbəəsinin müdiri vəzifəsində çalışıb. 1995-ci ildən "Qismət" nəşriyyat və poliqrafiya birliyinin baş direktorudur.

Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçiləri Həmkarlar İttifaqının "Qızıl Qələm" (1999) mükafatına və "Azərbaycan Bayrağı" (2000) diplomuna layiq görülmüşdür.

## ŞAHBAZOV İSA MƏHƏMMƏD OĞLU



Şahbazov İsa 1964-cü ildə Dərələyəzin Gülüdüz kəndində anadan olmuş, 1981-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Tarix və sovet hüququ" fakültəsinə daxil olmuş, 1986-cı ildə həmin fakültəni bitirmişdir.

1986-1989-cu illərdə Cəlilabad rayonunun Adnalı kəndində tarix-hüquq müəllimi, 1989-1995-ci illərdə Bakı şəhərində N.Nərimanov adına "tikiş-corab" kombinatında baş inspektor vəzifəsində çalışmışdır. 1995-ci ildən hal-hazıra qədər 1 №-li Bakı Tibb məktəbində hüquq müəllimi işləyir.

Müəllimlik fəaliyyəti ilə yanaşı 1995-ci ildən indiyə qədər iş adamı kimi özəl sektorda da fəaliyyət göstərir və əlsiz-ayaqsızlara həmişə kömək edir.

## KƏRİMOV AZAY MƏHƏMMƏD OĞLU



Kərimov Azay Məhəmməd oğlu 1933-cü il mayın 10-da Dərələyəz mahalının Kotanlı kəndində anadan olmuşdur. 1939-1949-cu illərdə Kotanlı kənd orta məktəbində təhsil almışdır. Musiqiçi ailəsində anadan olan Azay Kərimov ilk musiqi təhsilini babası Xudakərimdən, atası Məhəmməddən və böyük qardaşı Əhməddən almış, 1950-ci ildən başlayaraq musiqi ilə məşğul olmuşdur.

1952-ci ildən Naxçıvan şəhərinin İliç rayonunda "Zurnaçılar" ansambılının bədii rəhbəri işləmiş, Qərbi Azərbaycanın "40 illiyində" çıxış etmiş, fəxri fərman və musiqi ordeni ilə təltif olunmuş, bir çox olimpiadaların qalibi olmuşdur.

1988-ci ilin fevral ayından Ermənistandan deportasiya edilmiş Azay Kərimov hal-hazırda Sumqayıt şəhərində yaşayır. 1988-1989-cu ildən "28 May" mədəniyyət evində "Zurnaçılır" ansamblında bədii rəhbər işləyir.

O bir çox xeyriyyə konsertləri vermiş, 1993-1994-cü illərdə "Ozan" folklor ansamblının nəzdində Almaniyaya getmiş və orada qara zurna ilə Azərbaycanı təmsil etmişdir.

Azay Kərimovun fondunda 70-ə yaxın el havası qorunub saxlanır. O, 20-yə qədər havacat yaratmışdır. İki qara zurnanı eyni vaxtda ağzında, iki neyi isə eyni vaxtda burnunda yaxşı çala bilir.

## SƏFİYEV QOŞUNƏLİ ATAŞ OĞLU



Səfiyev Qoşunəli 1911-ci ildə Dərləyəzin Səfolar kəndində anadan olmuş, 1948-ci ildə Bərdənin Qaradəmirçi kəndinə deportasiya olunmuş, 1953-cü ildə yenidən doğma yurdu İstisuya qayıtmışdır.

16-17 yaşlarından aşıqlığa başlamış, Safolu Aşıq Əhməd, Aşıq Nəbi, Aşıq Alı Safolunun ustadı olmuşdur. Çoxlu yallı havaları çalırdı. 1936-cı ildə Zaqafqaziya xalqları ümumi festivalının laureatı olmuşdur. 1941-1945-ci illərdə Böyük Vətən müharibəsində iştirak etmiş, Kerç uğrunda döyüşlərdə ayağından yaralanmışdır.

Onun çalğısı haqqında əfsanələr mövcuddur. O, balaban, qara zurna ilə "çobanbayatı" havasını çalanda qoyun sürüsü arxaca gə-

lərmiş.
Onun şöhrəti Qarabağ elinə, Laçına, Kəlbəcərə, Naxçıvana da yayılmışdı. O, çoxlu şagirdlər yetirmişdir.
Bu el sənətkarı 1974-cü ildə dünyasını dəyişmişdir.



**Aşıq Qoşunəli, balabançalan Məhəmməd (Mamed), Aşıq Mehdi, Yusif Səfiyev.** Arxa planda **Məhəmməd (Tapança Mamed).**

## NƏBİYEV İDRİS



Nəbiyev İdris 1936-cı ildə Dərələyəz mahalının Səfolar İstisuyu kəndində (indiki Cermuq şəhərində) anadan olmuş, 30-cu illərin axırlarında Yevlağa köçmüşdür.

O, 16 yaşından xanəndəliyə başlamış, Bərdədə xanəndə Cəlalın, xalq artisti Yaqub Məmmədovun, Xan Şuşinskinin vallarından bəhrələnmiş, Habil Əliyevlə, Rəmişlə, Bərdəli tarçalan Mamedlə, Hacı Məmmədovla, Əhsən Dadaşovla tədbirlərdə, məclislərdə çıxış etmişdir. Xan Şuşinskinin, Arif Babayevin, Yaqub Məmmədovun, Avtandil İsrafilovun dostu olmuşdur. O, Ümumittifaq festivalının qızıl mükafatını, Cabbar Qaryağdı adına festivalın diplomunu almış, Qarabağ şikəstəsinin, xaric segahın ən mahir ustası olmuşdur. O, Şur dəstgahı, Rast, Bayatı-Şiraz, Cahargah, Zabul segah muğamlarını çox yaxşı ifa edir. Zəminxarə muğamı, Humayun dəstgahı, Mirzə Hüseyn segahı, Bayatı-kürd, Bayatı-qacar, Qarabağ şikəstəsi, Kəsmə şikəstənin, Heyratı, Mənsuriyyə, Çoban bayatının mahir ifaçısıdır.

Hal-hazırda Yevlax şəhərində yaşayır.

## ŞAHMALI KÜRDOĞLU



Soy-kökü, ata-babası Dərələyəzin Ərgəz kəndindən olan Şahmalı Kürdoğlu 1930-cu ildə anadan olmuşdur. Atası Mirsəqulu Əhmədalı oğlu erməni quldurları tərəfindən öz doğma yurdundan didərgin salınmışdır. Şahmalının atası "xalq düşməni" elan edildiyindən anası məcburiyyət qarşısında Şahmalının soyadını dəyişmişdir.

Şahmalı 1949-1950-ci illərdə Ağdam musiqi məktəbini bitirmiş, Aşqabad şəhərində hərbi xidmətdə olmuş, sonra Aşqabad Universitetinin hüquq fakültəsinə daxil olmuş, lakin vətən həsrətinə dözə bilməyib təhsilini yarımçıq qoymuşdur. 1960-1964-cü illərdə Asəf Zeynallı adına Musiqi məktəbinin muğam şöbəsini, S.Şuşinskinin sinfini bitirmiş, Azərbaycan Opera və Balet teatrında solist olmuşdur.

1962-1968-ci illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmiş, xeyli müddət Azərabycan Dövlət Filarmoniyasının solisti olmuş, 1976-1992-ci illərdə fasilələrlə Ağdam orta ixtisas musiqi məktəbində muğam şöbəsinin müəllimi işləmişdir.

1992-ci il noyabrın 6-da erməni hücumu zamanı oğlu ilə birlikdə doğma kəndində şəhid olmuşdur.

# *QARABAĞ ŞƏHİDLƏRİ (BİR QRUPU)*

## İSMAYILOV BƏHLUL MİKAYIL OĞLU



İsmayılov Bəhlul Dərələyəzin Gülüdüz kəndində anadan olmuşdur. 35 yaşında ikən o, Xətai rayon hərbi komissarlığına gələrək cəbhəyə yollanmışdır. Bəhlul İsmayılov orduda baş leytenant, taqım komandiri, mina axtaran olmuş, 120-dən sox minanı zərərsizləşdirmiş, sərrast atıcı olmuşdur. 27 yanvar 1994-cü ildə Füzulinin Əhmədbəyli kəndi uğrunda gedən döyüşdə qəhrəmancasına həlak olmuşdur. Ali Baş Komandan, prezident H.Ə.Əliyev cənablarının 15.01.1995-ci il fərmanına əsasən Bəhlul Mikayıl oğlu İsmayılov "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir.

## ƏLİ VƏLİ OĞLU



Əli Vəli oğlu 1956-cı il avqustun 11-də Dərələyəzin Qovuşuq kəndində anadan olmuş, 1988-ci ildə zorla deportasiya olunmuş və ailəsi ilə birlikdə Azərbaycana gəlmişdir.

O, azğın ermənilərin Qarabağda törətdikləri cinayətlərə etinasız yanaşa bilməmiş, qardaşı Sarı ilə birlikdə Şuşa, Laçın, Qubadlı, Zəngilan, Ağdam, Ağdərə, Gədəbəy, Kəlbəçər bölgələrinə maşınla hərbi sursat daşımışdır. 7 avqust 1992-ci ildə Murov dağına sursat apararkən erməni qatillərinin gülləsinə tuş olmuş və şəhidlik zirvəsinə ucalmışdır.

## ORUCOV VƏZİR SURXAY OĞLU

Soyu-kökü, atası, anası Dərələyəzdən olan Orucov Vəzir Surxay oğlu 1956-cı il dekabrın 11-də Tərtər rayonunun Xoruzlu kəndində anadan olmuşdur. 1964-1974-cü illərdə Xoruzlu kənd orta məktəbində təhsil almış, 1974-cü ildə Bakı Yeyinti Texnikumuna qəbul olmuş, 1975-1977-ci illərdə SSRİ Daxili qoşun sıralarında hərbi xidmətdə olmuşdur. Hərbi xidməti başa vurduqdan sonra yenidən Bakı Yeyinti sənaye texnikumunda təhsilini davam etdirmiş, 1979-cu ildə diplom almışdır. 1980-1982-ci illərdə inşaat sahəsində çalışmışdır. 1992-ci ilin aprel ayından etibarən Tərtər özünü müdafiə batalyonunda hərbi xidmətdə

olmuşdur. Xidmət etdiyi vaxtda bölük komandiri, 1992-ci il avqust ayından etibarən komandir batalyonunun müavini olmuşdur. O, cəbhədəki, vətən uğrundakı xidmətlərinə görə Azərbaycan Milli qəhrəmanı adına layiq görülmüşdür.

## ABDULLAYEV İLQAR NİFTULLA OĞLU



Abdullayev İlqar 11 aprel 1962-ci ildə Dərələyəz mahalının Əmağu kəndində anadan olmuş, 1972-ci ildə ailəsi ilə birlikdə Abşeron rayonunun Novxanı kəndinə köçüb gəlməyə məcbur olmuşdur. 1981-ci ildə Bakı gəmiçildik məktəbini bitirərək hərbi xidmətə getmiş, Monqolustan Xalq Respublikasında Sovet Ordusu sıralarında xidmət etmişdir. Ordudan qayıtdıqdan sonra Bayıldakı gəmi təmiri zavodunda işləmiş, 1991-ci ilin oktyabrında Qarabağa yola düşmüş, Kərkicahanda, Malıbəylidə, Quşçularda, Meşəlidə, şuşada, Zəngilanda vuruşmuşdur. 24 may 1992-ci ildə Zəngilanın Seyidlər kəndindən rayon mərkəzinə hərbi sursat aparmaq üçün gələrkən Asif Ağakişiyevlə birgə müəmmalı şəkildə qətlə yetirilmişdir.

## XUDAVERDİYEV QURBAN BƏHRAM OĞLU



Xudaverdiyev Qurban 1962-ci ildə Dərələyəz mahalının Kotanlı kəndində anadan olmuş, orta məktəbi bitirdikdən sonra texniki-peşə məktəbində çilingər ixtisasını almışdır. Hərbi xidməti Macarıstanın Budapeşt şəhərində keçirən Qurban xidmətdən sonra uzun müddət 3 saylı evtikmə kombinatında işləmişdir.

Qarabağda müharibə başlayanda Qurban könüllü olaraq cəbhəyə gedir və Ağdam bölgəsində vuruşur. O, Naxçıvanik, Aranzəmin, Canyataq, Gülyanaq, Pircamal uğrunda gedən döyüşlərdə iştirak etmiş, "Dəmirdaban" ləqəbini qazanmışdır. 1993-cü ildə ordudan tərxis edilmişdir. Lakin Qurban Xudaverdiyev 1993-cü ilin sentyabrında orduya qayıtmaq üçün ərizə ilə Binəqədi rayon hərbi komissarlığına müraciət etmişdir. O, Beyləqanın müdafiəsində iştirak edir, sonra Ağdərədə döyüşür. 1994-cü il yanvarın 6-dan 7-ə keçən gecə Qurban 30 nəfərlə birgə Kurapatkina kəndinə kəşfiyyata gedir və geri qayıtmır. Ölməsi və ya itkin düşməsi məlum deyil.

## ŞAHBAZOV ARZUMAN NÜSRƏT OĞLU



Şahbazov Arzuman 1963-cü il oktyabrın 10-da Dərələyəz mahalının Kotanlı kəndində anadan olmuş, orta təhsilini doğma kəndində və Yevlax rayonunun Gövər kəndində almışdır. 1981-1983-cü illərdə hərbi xidmətdə olmuş, 1988-ci ildə ailəsi ilə birlikdə Mingəçevirdə məskunlaşmış, texniki-rezin məmulatı zavodunda fəhlə işləmişdir.

1992-ci ilin fevralında könüllü olaraq orduya getmiş, Nəcməddin Sadıqovuş M-1 saylı taborunda cəbhəyə yollanmışdır. 1992-ci il 13 oktyabrda "Tərtərges" ərazisində, Ağdərə - Vaqauz istiqamətində gedən döyüşlərdə həlak olmuş, Mingəçevir Şəhidlər Xiyabanında dəfn edilmişdir.

## HÜSEYNOV AKİF QƏRİB OĞLU



Hüseynov Akif 1964-cu ildə Dərələyəz mahalının İstisu (Çermuk) şəhərində anadan olmuş, 1981-ci ildə İstisu şəhərindəki 2 saylı orta məktəbi bitirmiş, sonra Sankt-Peterburqda Tibb İnstitutuna qəbul olmuşdur. Vətənindən zorla qovulan Akif 1988-ci ildə ailəsi ilə birlikdə Sumqayıt şəhərinə köçmüş, 1992-ci ildə 701 saylı hərbi hissədən könüllü olaraq cəbhəyə yola düşmüşdür.

Döyüşdə əlindəki qumbaranı partladaraq 3 ermənini öldürmüş və özü də həlak olmuşdur. 16 yanvar 1994-cü ildə həlak olan Akif Hüseynov 20 yanvar 1994-cü ildə Sumqayıtdakı Şəhidlər Xiyabanında dəfn edilmişdir. Prezidentin fərmanı ilə Hüseynov Akif Knyaz oğlu "Azərbaycan bayrağı" ordeni ilə təltif olunmuşdur.

## CEYHUN BƏŞİR OĞLU

Ceyhun Bəşir oğlu Dərələyəzin Gədikvəng kəndində anadan olmuşdur. Orta məktəbin beşinci sinfini Gədikvəng kəndində bitirdikdən sonra atası onu Bakı şəhərinə gətirərək 4 nömrəli ərəb-fars təmayüllü məktəbə qoymuşdur. 1985-ci ildə orta məktəbi bitirən Ceyhun sənədlərini Çilaybinskidə Qırmızı Bayraq ordenli Ali Hərbi Təyyarə məktəbinə vermiş və 1989-cu ildə buranı bitirərək qırıcı təyyarə mühəndisi ixtisasına yiyələnmiş, 1991-ci ildən isə könüllü olaraq Xocalı təyyarə limanında işləməyə başlamış, həmin il oktyabrın 30-da AN-2 markalı təyyarə ilə Yevlax şəhərinə uçan Xocalı təyyarə limanının 5 əməkdaşı və iki təyyarəçisi ermənilər tərəfindən atəşə tutulmuş, təyyarənin pilotuna güllə dəymiş, təyyarə ermənilər yaşayan Xanabad kəndindən 500 metr aralı yerə düşmüşdür. Ermənilər təyyarəni içindəki yaralılarla birlikdə yandırmışlar. Ceyhun da bunlarla birlikdə təyyarədə yanıb külə dönmüşdür.

## NƏBİYEV İNTİQAM ƏMİRQULU OĞLU



Nəbiyev İntiqam 11 sentyabr 1968-ci ildə Dərələyəzin Qabaxlı kəndində anadan olmuşdur. 1985-ci ildə orta məktəbi bitirdikdən sonra 1986-cı ildə Çelyabinskə hərbi xidmətə getmişdir. Hərbi xidməti başa vurduqdan sonra doğma kəndlərinə yox, valideynlərinin köçdüyü Sumqayıt şəhərinə qayıtmışdır. Burada o, maşınqayırma zavodunda işə düzəlmiş, eyni zamanda Azərbaycan Dövlət Pedaqoji Universitetinin axşam şöbəsində təhsilini davam etdirmişdir. O, ikinci kursda oxuyarkən 1991-ci ildə könüllü olaraq döyüşə getmiş, Laçın, Fizuli, Kəlbəcər, Ağdərədə mərdliklə vuruşmuş, 11 sentyabr 1992-ci ildə 24 yaşı tamam olan gün Ağdərənin Vəng kəndində gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur.

## SABİR AĞA OĞLU

Sabir Ağa oğlu 1969-cu il martın 18-də Dərələyəzin Terp kəndində anadan olmuş, orta məktəbi bitirdikdən sonra, 1987-1989-cu illərdə Ukraynanın Nikolayevski şəhərində hərbi xidmətdə olmuş, hərbi xidmətdən sonra valideynlərinin məskunlaşdığı Ağdam şəhərinə qayıtmışdır. Sonra könüllü olaraq Ağdam cəbhəsinə getmiş, 1991-ci ildə Keçi cığırı adlanan mövqeyin alınmasında xüsusi fəallıq göstərərək leytenant rütbəsi almışdır. Bağbanlar, Mərzili, Kürdlər, Hindarx, Sarıcalı və başqa kəndlərdə uğurlu əməliyyatlar keçirən Sabir düşmən gülləsinin qurbanı olmuşdur.

## MİRZƏYEV MÜŞVİQ MUSTAFA OĞLU



Mirzəyev Müşviq 3 yanvar 1970-ci ildə Dərələyəz mahalının İstisu (Cermuk) şəhərində anadan olmuş, orta məktəbi bitirdikdən sonra 2 may 1988-ci ildə hərbi xidmətə getmiş, 1990-cı ildə hərbi xidmətdən qayıtdıqdan sonra ailəsinin məskunlaşdığı Mingəçevir şəhərinə getmişdir. 02 mart 1992-ci ildə könüllü olaraq cəbhəyə yola düşür, "M-2" rotasında döyüşür. 1993-cü il fevralın 13-də Müşviq Mirzəyev ağır yaranır, fevralın 16-da isə əbədiyyətə qovuşur. 9 oktyabr 1994-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab H.Əliyevin 218 saylı fərmanı ilə torpaqlarımızın erməni işğalçılarından müdafiə edilməsində göstərdiyi xüsusi xidmətlərə görə ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir.

## QURBANOV ELŞAD NADİR OĞLU



Qurbanov Elşad 1972-ci il mayın 2-də Dərələyəzin İstisu (indiki Cermuq) şəhərində anadan olmuş, 1983-cü ildə ailələri Sumqayıta köçmüş və o, Sumqayıt şəhər 18 saylı məktəbdə təhsil almışdır. 1990-cı ilin noyabr ayında hərbi xidmətə çağırılmış, Bakının Patandar qəsəbəsində xidmət etmişdir. 25 noyabr 1991-ci ildə Qarabağa gələrək "Qatır Məmmədin" dəstəsinə qoşulmuş və 1 fevral 1992-ci ilə qədər düşmənlərlə vuruşmuş, Xramord və Naxçıvanik döyüşlərində həlak olmuşdur.

## CƏFƏROV BABƏK LƏTİF OĞLU



Cəfərov Babək 1 yanvar 1974-cü ildə Dərələyəz mahalının Kotanlı kəndində anadan olmuş, orta təhsilə doğma kəndində başlasa da, 1988-ci ildə Mingəçevir şəhərinə köçdüklərinə görə təhsilini burada davam etdirmişdir. 1992-ci ildə orta təhsil aldıqdan sonra Xümşüd Naxçıvanski adına hərbi məktəbə qəbul olur. İki ay təhsil aldıqdan sonra könüllü olaraq hərbi xidmətə gedir. Ağdərədə ilk döyüşlərdə olan Babək sonra Beyləqanda, Laçında, Martunidə, Şişqayada gedən döyüşlərdə iştirak etmişdir. 30 yanvar 1994-cü ildə 9 nəfərlə birgə gecə kəşfiyyatına gedən Babək geri qayıtmamışdır.

## İSGƏNDƏROV XALİQ HÜSEYN OĞLU



İsgəndərov Xaliq 1974-cü ildə Dərələyəz mahalının Ələyəz kəndində anadan olmuş, orta məktəbi Daşkəsən rayonunun Bayan kəndində bitirmiş, sonra hərbi xidmətə getmişdir. Xaliq İsəndərovun döyüşə ilk addımı "Fərrux" dağının ətrafındakı döyüşlərdən başlayır. Onun igidliyi hamını heyran edir. Qazançı dağında, Mərzili kəndində göstərdiyi hünərə görə ona "Koroğlu" adı verilib. 1 yanvar 1991-ci ildə Naxçıvanikdə gedən döyüşlərdə qəhrəmancasına vuruşan Xaliq düşmən gülləsinə tuş olaraq şəhidlik zirvəsinə yüksəlir.

## BAYRAMOV FAZİL ŞAHVƏLİ OĞLU



Bayramov Fazil 1975-ci il aprel ayının 1-də Qızılgül (Ayısəsi) kəndində anadan olmuşdur. O, 1982-ci ildə Qızılgül kənd səkkizillik məktəbində oxumuş, ermənilərin şovinist siyasətinin nəticəsində 1988-ci ildə doğma kəndindən didərgin düşmüş, ailəsi ilə birlikdə Bakı şəhər Suraxanı rayonu Yeni Günəşli qəsəbəsində məskunlaşmışdır.

1991-ci ildə Suraxanıda 279 nömrəli orta məktəbi bitirmiş, 1992-ci ildə əsgəri xidmətə çağırılmış, Murovdağ döyüşlərində ağır yaralanmış, müalicə olunduqdan sonra yenidən cəbhəyə qayıtmış, Beyləqan, Ağdam döyüşlərində rəşadətlə vuruşmuşdur.

1992-ci ilin dekabr ayında Füzuli cəbhəsində gedən ağır döyüşlərdə yaralanmış və əsir düşməmək üçün özünü partlatmışdır.

## İSLAM İSMAYIL OĞLU

İslam İsmayıl oğlu Dərələyəz mahalının Ələyəz kəndində anadan olmuş, 1988-ci ildə digər həmvətənləri ilə birlikdə qaçqınlıq taleyini yaşayaraq Azərbaycana gəlmişdir. 10 aprel 1992-ci ildə könüllü olaraq cəbhəyə yollanmış, bir sıra çətin əməliyyatlarda iştirak edərək cəsur döyüşçü kimi tanınmışdır. 28 iyun 1992-ci ildə Gövşanlı kəndi uğrunda gedən döyüşlərdə düşmənlər onun idarə etdiyi PDM maşınını partlamış və o, qəhrəmancasına həlak olur.

## NƏCƏFXAN DAVUD OĞLU RÜSTƏMOV



Nəcəfxan Rüstəmov 1976-cı il avqustun 10-da Dərələyəz mahalının Qalaser kəndində anadan olmuş, 1988-ci ildə ailəsi ilə birgə Abşeron rayonunun Novxanı kəndində məskunlaşmış, 1990-cı ildə 8 illik təhsil aldıqdan sonra Novxanı üzümçülük-maldarlıq sovxozunda çilingər köməkçisi işləyərək ailəsinə kömək etmiş, 1991-1992-ci illərdə Bakının 152 saylı orta məktəbində təhsilini başa vurmuşdur. 10 avqust 1993-cü ildə hərbi xidmətə çağırılmış, 1995-ci ildə nümunəvi xidməti nəzərə alınaraq Qazax rayonundakı hərbi hissəyə göndərilmiş, 10 oktyabr 1996-cı ildə ilin ən intizamlı hərbiçisi olduğu üçün "Şah İsmayı Xətai" mükafatına layiq görülmüşdür. 1996-cı il noyabrın 26-da qulluq başında vurulmuş və dekabrın 17-də aldığı yaradan vəfat etmişdir.

## *AŞIQLAR, MUSİQİÇİLƏR VƏ DİGƏR PEŞƏ SAHİBLƏRİ*

Mən aşağıda yalnız bir neçə kənddə olan aşıq və digər musiqiçiləri göstərməklə kifayətlənəcəyəm.

**Sallı kəndi**
Aşıq Cəlil
Aşıq Rzaqulu
Aşıq Qulu
Aşıq Mirzalı
Aşıq Bəhman
Aşıq Bəylər
Aşıq Bərxudar
Aşıq Xələf
Balaban Vəli
Şair Alhüseyn
Şair Təhməz
Şair Alı
Şair Əsəd
Şair Məhəmməd
Şair Məhəmmədəli
Şair Rəhman Mustafayev

**Zeytə kəndi**
Aşıq Novruz (XIX əsrdə aşıqlıq edib)
Aşıq Seyyub
Aşıq Ağa
Aşıq Musa
Aşıq Bilal

**Gomur kəndi**
Aşıq Sərxan Alxan oğlu
Aşıq Zalxan Alxan oğlu
Aşıq Allahverdi İsmayıl oğlu
Aşıq Kamil Teymur oğlu
Xudayev Rəcəb Məmmədəli oğlu - zurna və balaban çalan
Şirinov Şirin Əli oğlu - zurna və nağara çalan
Məmmədov Qafar Ağakişi oğlu - nağara çalan
Allahverdiyev Çərkəz Xanlar oğlu - zurna və balaban çalan
Hümmətov Məmməd Mikayıl oğlu - zurna və balaban çalan

**İstisu (Cermuq) kəndi//qəsəbəsi**
Nəbiyev İdris - məşhur xanəndə
Səfiyev Qoşunəli Nabatalı oğlu - saz, zurna və balaban çalan
Aşıq Behbud Bəşir oğlu - saz, zurna, balaban çalan
Aşıq Əhməd
Aşıq Baloş Nəbi oğlu
Hümmətalı oğlu Mamed - zurna, balaban çalan
Xasay Firudin oğlu - zurna, balaban çalan
Cabbarov Çərkəz Əmiraslan oğlu - zurna, balaban çalan

Qurbanov Yusif Ağa oğlu - zurna, balaban, tütək, klarnet və qaboy çalan
Qurban Əlizaman Yusif oglu - qarmonçalan
Qurbanov Cəlal Yusif oglu - nağara, qoşanağara çalan
Nəcəfov Müstəcəb Tapdıq oğlu - gitara çalan
Cabbarova Aynurə Qanbay qızı - aşıqlıq edir, saz və kamança çalır

**Kotanlı kəndi**

1. Xudakərim kişi - qara zurna, balaban çalan
2. Kərimov Məhəmməd (Xudakərimin oğlu) - Qara zurna və balaban çalan, dünyasını dəyişib
3. Zurnaçı Kərimov Əhməd Məhəmməd oğlu - dünyasını dəyişib; qara zurna, balaban və tütək çalırdı, çox məşhur olub. Hökumət tədbirlərində həmişə iştirak edirdi. Toylarda atla papaq aparan, bəlgə gətirənlər həmişə ona cəngi havasını çadırırdı. O qoyunhəngi havasını çalanda qoyun sürüləri otlamaz və ona tərəf gələrdilər.
4. Kərimov Azay (Məhəmmədin oğlu ) - qara zurna, qoşa qara zurna, balaban, tulum, qoşa neyi burnunda çalan, neçə-neçə ölkənin laureatı. Bu da Əhməd kimi professional musiqiçidir. Azayla Əhməd başqa bölgələrdə də məşhurdurlar.
5. Kərimov Surxay Məhəmməd oğlu - qara zurna, balaban çalan
6. Kərimov Qaçay Məhəmməd oğlu - nağara çalır və oxuyur
7. Kərimov Kərim Məhəmməd oğlu - qara zurna, klarnet, nağara
8. Kərimov Balay Məhəmməd oğlu - qara zurna, balaban
9. Kərimov Mamed (Əhmədin oğlu)- klarnet, qara zurna, nağara, qarmon (dünyasını dəyişib).

**Ərgəz-Qabaxlı kəndi**

Şahmalı Kürdoğlu (Mirsəqulunun oglu) - xanəndə (Qabaxlı kəndi və Ağdam)
Əliş (Mirsəqulu oglu) - xanəndə
Agayarov Səlim - xanəndə və mahnı oxuyan (Qabaxlı-Xocalı kəndi)
Ağayarov Hüseynqulu - oxuyan və nağara çalan

**Hors kəndi**

Aşıq Qəhrəman - "Qəhrəmani"saz havasının müəllifi
Aşıq Paşa ( Aşıq Qəhrəmanın oğlu )
Aşıq Kərəm
Aşıq Məmmədtağı (İskəndərov)
Aşıq İbrahim (İskəndərov)
Tarçalan Sultan (Aşıq Paşanın oğlu)
Xanəndə Ağoş (Aşıq Paşanın oğlu)
Balabançı Bəhman
Qəzənfər Paşa oğlu - kamança çalan
Siyanfər Paşa oğlu - qaval çalan

**Digər kəndlər üzrə**

Aşıq Fətullah - Herher kəndi. Aşıq Əsədlə, Səməd Vurğunla Moskva dekadasında iştirak edib.

Aşıq Mehdi (Fətullahın bacısı oğlu) - Herher və Tərtər rayonunun Səhləbad kəndi

Aşıq İbad (Məşədi Haqverdinin oğlu) - Herher kəndi.

Aşıq Xanlar - Herher kəndi.

Aşıq Nəcəf - Qurdqulaq kəndi

Aşıq Qaçay (Aşıq Abduləzimin oğlu) - Bulaqlar kəndi

Aşıq Şükür - Terp kəndi. Salyan rayonunun Qarabağlı kəndinə köçmüşdür.

Aşıq Əli - Terp kəndi. Salyan rayonunun Qarabağlı kəndinə köçmüşdür.

Aşıq Əli - Çivə kəndi.

Aşıq Firidun - Cul kəndi. Yevlağa köçüb dünyasını orada dəyişmişdir.

Aşıq Həşim - Cul kəndi. Yevlağa köçüb dünyasını orada dəyişmişdir.

Aşıq Zeynəb - Ertiş kəndi. Çoxlu qoşmaları vardır.

Aşıq Cabbar (Təcnis Cabbar) - Şəmkirdə dünyasını dəyişmişdir.

Aşıq Məmməd (Füqəra Məmməd) - Amağu kəndi. Çoxlu qoşmaları vardır.

Aşıq Qurban - Amağu kəndi. Çoxlu qoşmaları vardır.

Xanəndə Nəsir - Köçbək kəndi. Hazırda Bakıda yaşayır.

Qeyd etməliyəm ki, kökü, soyu ata-babası, özü Dərələyəzdən olan bir çox adamlar, o cümlədən musiqiçilər Azərbaycanda böyük ad-san qazanmışlar.

Kəlbəcərdə böyük ad-san sahibi olan usad aşıq Qəmkeş Allahverdinin mahir saz çalan, Ədalət Nəsibovun yetirməsi Aşıq Ədalət Dəlidağlının, hal-hazırda Şəmkirdə qacqın kimi məskunlaşan, yaxşı saz çalan və oxuyan Aşıq Əhlimanın, Pəri məclisində fəaliyyət göstərən, məlahətli səs sahibi Aşıq Aybəniz Laçınlının soyu-kökü Dərələyəzlə baglıdır. Gədəbəyli ustad aşıq İsfəndiyarın ustadı olmuş Aşıq Məhəmməd (son illərdə Ağdamın Qərbənd kəndində yaşayırdı ) də Dərələyəzdəndir.

Ağdamda məşhur xanəndə kimi tanınan Şahmallı Kürdoğlunun, hal-hazırda Yevlaxda xanəndəlik edən və xüsusi səsə və istedada malik olan İdris Nəbiyevin, məlahətli səsləri və avazları ilə Azərbaycanda hamı tərəfindən tanınan və sevilən Şahnaz və Aybəniz Haşımova bacılarının, Rəşid Behbudovun mahnılarını məhrətlə oxuyan Şahin İsmayılın da və neçə-nesə belələrinin də soyu, kökü Dərələyəzlə bağlıdır.

Ədalət naminə deməliyəm ki, əgər bu adamlar Dərələyəzdə qalsaydı belə inkişaf etməzvə tanınazdılar, çünki ermənilər Qərbi Azərbaycanda azərbaycanlıların inkişafına həmişə mane olur və belə adamları yerindən-yurdundan didərgin salırdılar.

Əgər soyları, valideynləri, özləri Azərbaycana gəlməsəydi General Abbasəli Novruzov (Zeytə kəndi), General Məmməd Əsgərov (Dədə Mamed - Amağu kəndi), General Kərəm Mustafayev (Salı kəndi- Şərurun Aralıq kəndi), Əjdər İbrahimov (Qaravəng kəndi- respublika prokurorunun birinci müa-

vini), İlyas Vəkilov (Çivə kəndi - 30 il Bakı şəhər plan komitəsinin sədri), Nəcəfalı Hacıyev (Kotanlı kəndi, Respublika baş meliorasiya və su qurğuları inşaat idarəsinin rəisi), Qurbanov İbrahim (Terp kəndi - Neftçala və Cəlilabadın rayon partiya komitəsinin birinci katibi, Səlyan rayon icraiyyə komitəsinin sədri), Vahid Ağahəsənov (Gülustan kəndi - Naxcıvan Ali Məclisinin sədr müavini), Səbuhi Şahverdiyev (Kotanlı kəndi-Naxcıvan Muxtar Respublikasının baş prokuroru), Füzuli Məmmədov (Ardarız və Saatlı rayonunun Məmmədabad kəndi - Bakı şəhərinin hərbi prokuroru işləmiş və bir çoxları bu şəkəldə yüksələ bilməz və belə məsuliyyətli postlarda işləyə bilməzdilər. Erməni şovinistləri belə adamların Qərbi Azərbaycanda inkişafına heç vaxt yol vermirdilər. Yuxarıda adlarını çəkdiyimiz adamların sayını artırmaq da olar. İsa Məmmədovun (Azərbaycan MK-də humanitar sahədə katib, Lənkəranda raykom katibi) anası da Dərələyəzdən, Sallı kəndindəndir. Hətta atasının, özünün və yaşlıların mərhum professor Səfiyar Musayevə, Dərələyəzli polkovnik Rəhman Mustafayevə və mənə dediyinə görə respulikanın baş prokuroru işləmiş, hal-hazırda xaricdə səfir işləyən Eldar Həsənovun soyu da Dərələyəzdən gəlmədir. Bunlar erməni-müsəlman davasında gəlib Kəlbəcərdə məskunlaşmışlar.

Təəssüf hissi ilə qeyd etməliyəm ki, yksək vəzifəli adamlardan bəziləri öz soy-kökünün qədim diyarına biganə münasibət bəsləyir. Qərbi Azərbaycanda, o cümlədən Dərələyəzdə zorla əlimizdən alınan doğma yurda, dağıdılmış kənd və qəbirstanlıqlarımıza, baba və nənələrimizin haray çəkən ruhuna biganə qalmaq olmaz. Güman edirəm ki, kitabın başqa dilə tərcüməsinə qədər İsa Nəcəfov (Dərələyəzin Qozulca və Şərurun Oglanqala kəndləri, Naxçıvan Muxtar Respublikasının baş prokuroru, Azərbaycan Respublikası baş prokurorunun birinci müavini, Konstitusiya Məhkəməsinin üzvü), General Elman Qənbərov (Dərələyəzin Qozulca - Şəkinin Qayabaşı kəndləri - Mingəçevir) və bu kimi başqa soydaşlarımız öz avtobioqrafiyalarını verəcək və bu faktlar erməni şovinistlərini ifşa etməyə kömək edəcəkdir.

**Sənətkarlar**

Usta Mehdi - Canı kəndi. Tüfəng düzəldirmiş.

Əmo Vəkilov - Çivə kəndi. Dəmir alət, o cümlədən xarab olan tüfəngləri düzəldirdi.

**Sehirbazlar**

Fərzəliyev Nəsib Musa oğlu - Qovuşuq kəndi (1926-1972)

Gipnozçuluğun xüsusi məktəbini oxumuşdu. İstənilən əməliyyatı edə bilirdi. Bundan başqa o həm də aşıqlıq və dəlləklik (uşaq sünnəti) edirdi.

## *XALQ TƏBABƏTİNİ YAŞADANLAR*

***a) Sınıqçılar (cərrahlar)***

Burada mən cərrahların sağalda bilmədiyi sınıq və çıxıqları sağaldanların bəzilərini verirəm.

1. **Hacməhəmməd oğlu Məşədağa** - Gülüdüz kəndi. Ovulmuş, çilik-çilik olmuş sümükləri bir yerə yığıb sarıyır və bitişdirirdi. Əllərində rentgen həssaslığı var idi. Çıxıqları isə dərhal yerinə salırdı. Son illər Şərur və Dərələyəz eli həmişə axışıb onun yanına gələrdi. 90 yaşında Dərələyəzdə dünyasını dəyişdi.

2. **Məmmədova Qismət Məşədağa qızı** - Gülüdüz kəndi. Bu da atası kimi məşhur idi. 1988-ci il departasiyasından sonra Abşeron rayonunun Mehdiabad qəsəbəsində məskunlaşmışdı. Dəfələrlə AzTV-də onun bacarığı haqqında veriliş getdi. 2003-cü ildə dünyasını dəyişdi.

3. **Məmmədov Əli Məşədağa oğlu** - Gülüdüz kəndi. Bu da atası və bacısı kimi məşhur idi. 2001-ci ildə Bakıda dünyasını dəyişdi.

4. **Hüseynov Hüseyn Ağamirzə oğlu** - Terp kəndi. Həddindən artıq məşhur sınıqçı olub. Qapısında növbədən yer olmurmuş. 1988-ci ildə dünyasını dəyişdi.

5. **Terpli İdris** - Terp kəndi. Hal-hazırda Abşeron rayonunun Mehdiabad kəndində yaşayır. Yalnız qırıq-sınıqları deyil, fəqərə sütunundakı qırıq və bitişmələri, əyriləri də düzəldir. Yüzlərlə xəstə onun əlindən şəfa tapmış və 100% sağalmışdır. Bəzi xirurqlar lazım gəldikdə onun köməyindən istifadə edirlər.

6. **Sınıqçı Həsi** - Qozulca kəndi. Çox məşhur sınıqçı və çıxıqçı olub. 110 il ömür sürdükdən sonra dünyasını dəyişmişdir. 1949-cu ildə yurdundan deportasiya olunmuş və Şərur rayonunun Daşarx kəndində məskunlaşmış və orada dünyasını dəyişmişdir.

7. **Sınıqçı Hacı Fətulla** - Məmərza kəndi. Dövrünün çox məşhur sınıqçısı olmuşdur.

8. **Sınıqçı Qayıb** - Sallı kəndi. Eldə məşhur sınıqçı kimi tanınmışdır.

9. **Məmmədova Süsən** - Qovuşuq kəndi. 100-dən çox yaşı var idi. Bu sınıq-çıxıqla yanaşı dərman bitkilərinin də yaxşı tanıyırdı.

10. **Zülfüqarova Nabat** - Qovuşuq kəndi. Sınıqdan və çıxıqdan yaxşı başı çıxırdı. 80-ildən artıq ömür sürdü. Neçə-neçə adamlara şəfa verdi. O həm də dərman bitkilərini yaxşı tanıyırdı.

11. **Zülfüqarov Kazım** - Qovuşuq kəndi. Ali təhsilli müəllimdir. 1988-ci ildə qovulduqdan sonra Sumqayıt şəhərində məskunlaşmışdır. O sınığı və çıxığı çox yaxşı bilir. Çoxlarına şəfa veribdir.

***b) Hər dərdə, hər xəstəliyə çarə tapan professional həkimlər***

1. **Seyid Əsəd** - Almalı kəndi. Bunun sagaltmadığı xəstə yox idi. Ermənilər onu sürgün etmək istəyirdilər. O da qaçıb Bərdə rayonunun Xəsili kəndində yaşayırdı. Mənim sağ əlimi çoban iti ağzına salıb əzim-əzim eləmişdi. O 10 gün müddətində onu tam sağaltdı.

2. **Seyid Rza** - Almalı kəndi. Bircə fakt: Dərələyəzin qovuşuq kəndində Əsgərov Mamed adında bir müəllim var idi. Bunun üzündən sasiska şəklində özək ət çıxardı. Bakıda, İrəvanda, Naxçıvanda getmədiyi həkim qalmadı. Çarə tapa bilmədilər. Seyid Rza yayda bir həftə müddətində ot məlhəmlərlə onu çıxartdı və xəstə tam sağaldı. Mən bunun canlı şahidiyəm.

3. **Seyid Tahir** - Almalı kəndi. Bu da məşhur həkim olmuşdur.

***c) Xalq təbabətini bilən və dərman bitkilərini yaxşı tanıyanlar***

1. **Horslu Şeşe arvad** - 10-15 il doğmayan qadınları müalicə edib doğuzdururdu. O Dərələyəzdə 10-larla belə qadınları müalicə edib övlad sahibi etmişdir.
2. **Şahbazov Calal** - Gülüdüz kəndi
3. **Mamedov Kətən** - Gülüdüz kəndi
4. **Mamedov Mürvət** - Qaraqaya kəndi
5. **Xanım arvad** - Qaraqaya kəndi
6. **Dağdələnli Pəri qarı** - Qovuşuq kəndi
7. **Samavar arvad** - Kotanlı kəndi

Yuxarıda adları qeyd olunan adamlar onlarla xəstələri müalicə edib onlara şəfa vermişdir.

***ç) Mədəniyyət işçiləri***

a) Dərələyəz aşıq sevən bir mahaldır. Buradakı toylar qara zurnasız və aşıqsız keçməzdi. Bu mahalın adamları sinədəftər olublar. Yerdən qalxan Şer deyər və hər hansı musiqi alətində çalmağa çalışardı. 100-200 adamın hamısı birdən yallı gedərdi.

Yetişib çox aşıq Horsda, Sallıda,
Herherdə, Ərgəzdə, Zeytədə, Culda,
Çeşidlər vurula, xalça, xalıda,
Üstdən asıla saz Dərələyəzdə.

Ağ aşıqla Alı başdan, binadan,
Saz tutub bu yerdə ediblər dövran,
Ələsgər, Saraclı, o Növrəs İman
Hikmət açıbdı söz Dərələyəzdə.

Bu yerdə çox aşıq olubdu qonaq,
Abbasdan, Valehdən tutubdu soraq,
Hamı sinədəftər aç varaq-varaq,
Sevilir söhbət yüz Dərələyəzdə.

## DƏRƏLƏYƏZDƏ UZUNÖMÜRLÜLƏR

Mən aşağıda bir neçə kəndəki çoxyaşlıları göstərməklə kifayətlənəcəyəm, çünki bunların hamsını burada əhatə etmək mümkün deyildir.

***Qalaser kəndi:***
Əli kişi - 150 yaş. O, yenidən diş çıxarmışdı. 3 əsrin nümayəndəsi idi. Böyük vətən müharibəsi dövründə dünyasını dəyişdi. 147 yaşında ata cavan oğlan kimi minirdi. Mən bunu 1938-ci ildə, seçki günü öz gözlərimlə görmüşəm
Nərgiz oğlu Hüseyn - 114 yaş
Rəhimova Minəvvər - 103 yaş
Məmmədov Qaratel - 105 yaş
Əhmədov Əhməd - 90 yaş

***Nəbilər kəndi:***
Hüseynqulu oğlu Əli -130 yaş
Xəliloğlu Həbib -112 yaş
Xəlilov Qonça - 106 yaş
Namazov Mahı - 105 yaş

***Qovuşuq kəndi:***
Fatan qarı (Alməyətli tayfasındandır) - 120 yaş
Ballı qarı (nənəm, atamın anası) - 107 yaş
Matış qarı - 93 yaş (hər üçü bacıdır, Alməyətli tayfasındandır).
Sayad qarı - 90 yaş
Dağdələnli Balaxanım - 106 yaş
Mirzəli kişi (babam, atamın atası) - 101 yaş
Fatanoğlu Şirin - 100 yaş
Xeyrənsə qarı - 102 yaş
Hacının qızı Qaratel - 91 yaş
İbrahim Mirzəli oğlu (atam) - 93 yaş
Məmmədov Süsən - 101 yaş
Namazov Sitara - 100 yaş (hal-hazırda Bakıda yaşayır)
Nigar qarı (Məşədməmmədxanın qızı, nənəm, anamın anası) - 90 yaş
Sənəm qarı - 90 yaş
Nurməmməd oğlu Əsəd - 105 yaş
Bədiş qarı - 95 yaş
Maya xanım - 91 yaş
Dilbər Məmmədov 92 yaş

***Gülüdüz kəndi:***
Xədicə Quliyeva - 110 yaş
Məmmədova Qəmər (Məşədməmmədxanın qızı) - 103 yaş
Leyli Quliyeva - 98 yaş

Həbib Məmmədov - 96 yaş
Şahbazov Cəlal - 92 yaş
Səfərov Mola Həsən - 90 yaş

***Ayısəsi kəndi:***
Qəmbərov Nagı - 112 yaş
Qəmbərov Əziz Nağı oğlu - 106 yaş
Mütəllim kişi - 105 yaş
Lalabəyim qarı (Dəllək Sarının arvadı) - 96 yaş

***Ələyəz kəndi:***
Kalbay Piralı - 115 yaş (Yenidən diş çıxarmışdı)
Əhməd Cəfərov - 106 yaş
Məmmədova Göhərcan - 103 yaş
Məmmədova Serçə (Pəri) - 102 yaş
İbadova Durna - 101 yaş
Hacıbad oğlu Məhəmməd - 100 yaş
Həsən kişi (Məşədməmmədxanın oğlu) - 98 yaş
Məmmədova Tamaşa - 100 çatıb. Hal-hazırda Bakıda yaşayır.
Mürüş qarı - 100-dən çox
Səkinə qarı - 100-dən çox
Hüsniyyə qarı - 103 yaş

***Qaraqaya kəndi:***
Məmmədova Güləbətin - 108 yaş
Cəlilbəy (Ertiş və Qaraqaya) - 109 yaş
Bədircahan qarı -102 yaş
Məmmədova Mənzər - 100 yaş

***Sallı kəndi:***
Mustafaeva Bibixanım - 100-dən çox
Eyvazov Binnət - 100-dən çox
Kərimova Qaratel - 100-dən çox
Mustafayev Alışan - 100-dən çox
Çoban Kərim - 90-dan çox

***Gədikvəng//Qoduxvəng kəndi:***
Mamey İbrahim - 100-dən çox
Məmmədov Bayram - 92 yaş
Şirin qarı (Bayramın arvadı) - 90 yaş

***Qozulca kəndi:***
Seyidov Seyidəli - 98 yaş

Hava qarı - 95 yaş
Kalbay Qənbər oğlu Qurban - 95 yaş
Atılı Fatma - 95 yaş
Qurbanova Səkinə - 94 yaş
Səfərov Məmməd - 93 yaş
Qənbərov Abdulkərim - 93 yaş
Quliyev Məmmədəli - 93 yaş
Seyidov Ağəli - 92 yaş
Mirzəli oğlu Əli - 91 yaş

***Kotanlı kəndi:***
Ağabəyim arvad - 110 yaş
Əli kişi - 100-dən çox
Ağalar kişi - 100-dən çox
Salam kişi - 100-dən çox
Münəvvər arvad - 90-dan çox
Sadıqov Ağəli - 90-dan çox
Camalov Nuru - 90-dan çox

***Gomur kəndi:***
Hümmətov Mikayıl - 130 yaş

***Canı kəndi:***
Məmmədov Kətən - 106 yaş

***Hors kəndi:***
İsgəndərov Davud - 101 yaş

***Amağu kəndi:***
Güləbətin qarı - 118 yaş
Telli qarı - 104 yaş
Dünyamalıyev Əsgər - 102 yaş

***Ardaraz kəndi:***
Qafarov Musa - 90-dan çox

***Cul kəndi:***
Aşıq Həşin - 90-dan çox

***İstisu kəndi:***
Alıyev Abdulla - 92 yaş

## *DƏRƏLƏYƏZDƏ OLAN AXUND, MOLLA VƏ SEYİDLƏR*

Aşağıda adını çəkdiyimiz axund, molla və seyidlər əsasən Nikolay dövründə yaşamış adamlardır.

### AXUND VƏ MOLLALAR

Axund Əli (Hacnamazalının oğlu) - Qovuşuq kəndi. 20 il Nəcəfdə dini təhsil alıb. Şərur-Dərələyəz qəzası üzrə Qazinin müavini olub. Qazi Başnoraşendə (Cəlilkənddə), bu da Qovuşuq kəndində otururmuş.
Axund Mirzə - Qabaxlı kəndi
Axund Cəfər - Arınc kəndi
Axund Həsən - Bulaqlar kəndi
Axund Əli (Məşəd İmranın atası) - Canı kəndi
Molla Mirzəli - Qovuşuq kəndi (mənim babam, Təbrizdə dini təhsil almışdır)
Molla Abbas - Civə kəndi
Molla Rza - Almalı kəndi
Molla Məmmədqulu - Almalı kəndi
Molla Məhəmməd - Qozulca kəndi
Molla Abdulla - Herher və Moz kəndi
Molla Şükür - Herher kəndi
Molla Əmir - Herher kəndi
Molla Fərzalı - Cul kəndi
Molla Oruc - Cul kəndi
Molla Usubalı - Cul kəndi
Molla Abbas - Çaykənd
Molla İrizvan - Bulaqlar kəndi (həm də şair olub, onun bir dastanı, çoxlu qoşma və gəraylıları vardır)
Molla Şahverdi - Nəbilər kəndi
Molla Mirzə - Kotanlı kəndi
Molla Nabatalı - Kotanlı kəndi
Molla Sevindik - Kotanlı kəndi
Molla Əli - Sallı kəndi
Molla Fazil - Arınc kəndi
Molla Həsən - Gülüduz kəndi
Molla İbrahim - Ələyəz kəndi

### SEYİDLƏR

Dərələyəz mahalında həddindən çox seyid olmuşdur. Elə kəndlər var idi ki, həmin kənd əhalisinin böyük bir hissəsini seyidlər təşkil edirdi. Almalı və Qozulca kəndləri buna misal ola bilər. Dərələyəzdə doğulmuş, yaşamış və oradan departasiya olunmuş seyidlərin hamısını burada vermək kitabın həc-

mini çox artırar. Mən onlardan bəzilərini burada qeyd etməklə kifayətlənəcəyəm. Bunların əksəriyyəti əvvəlki dövrlərdə yaşamış seyidlərdir.

Seyid Mirzə - Almalı kəndi
Seyid Həsən - Almalı kəndi
Seyid Həşim - Almalı kəndi
Seyid Sultan - Almalı kəndi
Seyid Pərvanə - Almalı kəndi
Seyid Həsənağa - Almalı kəndi
Seyid Tahar - Almalı kəndi
Seyid Əsəd - Almalı kəndi
Seyid Rza - Almalı kəndi
Seyid Əli (Qoca Seyid ocağı) - Qozulca kəndi
Seyid Mirhadi - Qozulca kəndi
Seyid Mirməcid - Qozulca kəndi
Seyid Əbülfəz - Qozulca kəndi
Seyid Yusif - Qozulca kəndi
Seyid Mirsaleh - Qozulca kəndi
Seyid Mirabbas - Qozulca kəndi
Seyid Ağəli - Qozulca kəndi
Seyid Mirməhəmməd - Qozulca kəndi
Seyid Mirqasım - Qozulca kəndi
Seyid Mirnazir- Qozulca kəndi
Seyid Fətulla - Herher kəndi
Seyid Babaxan - Herher kəndi
Seyid Hacı - Herher kəndi
Seyid Kazım - Zeytə kəndi
Seyid Məmməd - Zeytə kəndi
Seyid Nəcəfalı - Gülüdüz kəndi
Seyid Heydər (Qara Seyid) - Qabaxlı kəndi
Seyid Tubuş - Qovuşuq kəndi
Seyid Vətən - Kotanlı kəndi
Seyid Əli - Kotanlı kəndi
Seyid Xıdır - Ayısəsi kəndi
Seyid Əkbər - Sallı kəndi

## *MÜQƏDDƏS YERLƏRİ ZİYARƏT EDƏNLƏR*

Dərələyəz mahalında müqəddəs yerləri ziyarət edənləri saymaqla qurtarmaq olmaz. Biz onlardan bir hissəsini qeyd etməklə kifayətlənəcəyik. Aşağıda göstərdiklərimizin hamısı Nikolay dövründə Məkkəyə, Kərbəlaya, Məşhədə gedənlərdir. 1992-2002-ci ildə Məkkəyə gedənlərdən bir hissəsini ayrılıqda vermiş və avtobioqrafiyalarını yazmışıq.

**a) Hacılar**

| | |
|---|---|
| Hacı Namazalı | (Qovuşuq kəndi) |
| Hacı Ələkbər | (Qovuşuq kəndi) |
| Hacı Əsgər | (Qovuşuq kəndi) |
| Hacı Məhəmməd | (Gülüdüz kəndi) |
| Hacı Fərzalı | (Gülüdüz kəndi) |
| Hacı Əhməd | (Qaraqaya kəndi) |
| Hacı Aga | (Qaraqaya kəndi) |
| Hacı Sadıx | (Nəbilər kəndi) |
| Hacı Qurbanəli | (Nəbilər kəndi) |
| Hacı Ağayar | (Ərgəz kəndi) |
| Hacı Bədəl | (Ərgəz kəndi) |
| Hacı Zaman | (Ərgəz kəndi) |
| Hacı Əli | (Ərgəz kəndi) |
| Hacı Əsəd | (Gendər-Qabaxlı kəndi) |
| Hacı Ağa | (Gendər kəndi) |
| Hacı Eyvaz | (Horbadıq kəndi) |
| Hacı İsmayıl | (Kotanlı kəndi) |
| Hacı Ağa | (Kotanlı kəndi) |
| Hacı Abbas | (Kotanlı kəndi) |
| Hacı Əli | (Kotanlı kəndi) |
| Hacı Bayram | (Çaykənd kəndi) |
| Hacı Fərhad | (Ardaraz kəndi) |
| Hacı Qasım | (Ardaraz kəndi) |
| Hacı Bayram | (Ardaraz kəndi) |
| Hacı Qurbanalı | (Gülüstan, İtqıran kəndi) |
| Hacı Abbas | (Çivə kəndi) |
| Hacı Mahmud | (Çivə kəndi) |
| Hacı Əmirxan | (Herher kəndi) |
| Hacı Səfəralı | (Qozulca kəndi) |
| Hacı Əsəd | (Ələyəz kəndi) |
| Hacı İbad | (Ələyəz kəndi) |
| Hacı Mikayıl | (Ələyəz kəndi) |
| Hacı Abbas | (Qalaser kəndi) |
| Hacı Əli | (Qalaser kəndi) |

| | |
|---|---|
| Hacı Qurban | (Qalaser kəndi) |
| Hacı Məhəmməd | (Qalaser kəndi) |
| Hacı Əsəd | (Qalaser kəndi) |
| Hacı Allahverdi | (Cul) |
| Hacı Almərdan | (Cul) |
| Hacı Zeynal | (Cul) |
| Hacı Bayram | (Çaykənd) |
| Hacı Mehdi | (Məmərza kəndi) |
| Hacı Fətulla | (Məmərza kəndi) |
| Hacı Eyvaz | (Gomur kəndi) |
| Hacı Bayram | (İstisu kəndi) |
| Hacı Məmməd | (Sallı kəndi) |

**b) Kərbəlayılar**

| | |
|---|---|
| Kalbay Əsgər | (Qovuşuq kəndi) |
| Kalbay Tagı | (Qozulca kəndi) |
| Kalbay Qənbər | (Qozulca kəndi) |
| Kalbay Nəcəfalı | (Qozulca kəndi) |
| Kalbay Məhəmməd | (Ardaraz kəndi) |
| Kalbay Əli | (Ardaraz kəndi) |
| Kalbay İmamqulu | (Ardaraz kəndi) |
| Kalbay Fətəli | (Hors kəndi) |
| Kalbay Ələsgər | (Hors kəndi) |
| Kalbay Məmməd | (Hors kəndi) |
| Kalbay Əli | (Almalı kəndi) |
| Kalbay Fərzəli | (Cul kəndi) |
| Kalbay Nəbi | (Nəbilər kəndi) |
| Kalbay Musa | (Amağu kəndi) |
| Kalbay Məhəmməd | (Çivə kəndi) |
| Kalbay Həsən | (Çivə kəndi) |
| Kalbay Əşrəf | (Çivə kəndi) |
| Kalbay Şirəli | (Çivə kəndi) |
| Kalbay Qasım | (Gədikvəng, Qoduxvəng kəndi) |
| Kalbay Gülməmməd | (Qaraqaya kəndi) |
| Kalbay Məhəmməd | (Ərgəz kəndi) |
| Kalbay Hümmət | (Gendərə kəndi) |
| Kalbay Mirzə | (Gülüstan, İtqıran kəndi) |
| Kalbay Oruc | (Kotanlı kəndi) |
| Kalbay Cəfər | (Kotanlı kəndi) |
| Kalbay Zöhrə | (Kotanlı kəndi) |
| Kalbay İsmayıl | (Ayısəsi kəndi) |
| Kalbay İsgəndər | (Ələyəz kəndi) |
| Kalbay Piralı | (Əlyəz kəndi) |

Kalbay Gülməmməd (Əlyəz kəndi)
Kalbay Qurban (İstisu kəndi)
Kalbay Məmmədbağır (Heşin kəndi)
Kalbay Bağır (Heşin kəndi)
Kalbay Nəcəf (Heşin kəndi)
Kalbay Hüseynalı (Cul kəndi)
Kalbay İsa (Cul kəndi)
Kalbay Musa (Cul kəndi)
Kalbay Məmməd (Cul kəndi)
Kalbay İsaxan (Cul kəndi)
Kalbay Fərzalı (Cul kəndi)
Kalbay Bəşir (Çaykənd)
Kalbay Həsən (Qurbankəsilən kəndi)
Kalbay Səfəralı (Sallı kəndi)
Kalbay Gülmalı (Sallı kəndi)

**c) Məşədilər**
Məşədi İmran (Canı kəndi)
Məşədi Hüseynqulu (Almalı kəndi)
Məşədi Rüstəm (Gülüstan-İtqıran kəndi)
Məşədi Tarverdi (Gomur kəndi)
Məşədi Ağa (Gülüdüz kəndi)
Məşədi Məmmədxan (Hosdun kəndi)
Məşədi Məhəmməd (Amağu kəndi)
Məşədi Məhəmməd (Ardaraz kəndi)
Məşədi Hümmət (Ərgəz kəndi)
Məşədi Kazım (Ərgəz kəndi)
Məşədi Cəfərqulu (Qaraqaya kəndi)
Məşədi Ələsgər (Qaraqaya kəndi)
Məşədi Cəfərqulu (Gülüdüz kəndi)
Məşədi Ələsgər (Gülüdüz kəndi)
Məşədi İmar (Heşin kəndi)
Məşədi Mikayıl (Vartyanıs kəndi)
Məşədi Məmməd (Cul kəndi)
Məşədi Mehdiqulu (Cul kəndi)
Məşədi Haqverdi (Cul kəndi)

## *NİKOLAY DÖVRÜNDƏ DÖVLƏT QULLUĞUNDA OLANLAR VƏ DİGƏR NÜFUZLU ŞƏXSLƏR*

### QLAVA VƏ YÜZBAŞILAR

Qlava Allahverən (Güneyvəng kəndi) Ələyəz dərəsində olan kəndlərin 5 il qlavalıq edib (nənəmin dayısıdır).
Qlava Sadıx (Qozulca kəndi) - Qozulcada 20 il qlavalıq edibdir.
Qlava Ağayar (Horbadıq kəndi) - 12 il qlavalıq edibdir. 1918-ci ildə ermənilər onu doğramış və başını kəsmişlər.
Qlava Alı (İstisu kəndi) - 22 il qlavalıq edib.
Qlava Kərim (Herher kəndi) - Uzun muddət qlava olubdur.
Qlava Abbas (Kotanlı kəndi) - 10 il qlavalıq edib.
Yüzbaşı Sadıx (Sallı kəndi)

### VAR-DÖVLƏTİ DAHA ÇOX OLAN ADAMLAR

Hacnamazalı (Qovuşuq kəndi)
Hacnamazalı oğlu Əmir (Əmirağa) - Qovuşuq kəndi (mənim ana babam)
Hacağayar - Ərgəz kəndi
Hacməhəmməd - Gülüdüz kəndi
Hacəsəd - Qalaser kəndi
Məşədməmmədxan - Hosdun kəndi
Məşəd İmran - Canı kəndi
Hacqurbanalı - Horadıq və Nəbilər kəndi
Hacımahmud bəy - Çivə kəndi

### BƏYLƏR

Calal bəy - Canı kəndi
Nəsib bəy - Canı kəndi
Abış bəy - Canı kəndi
Əlpənah bəy - Ərgəz kəndi
Həmzə bəy - Ərgəz kəndi
Hidayət bəy - Ərgəz kəndi
Şahvələd bəy - Ərgəz kəndi
Çərkəz bəy - Ərgəz kəndi
Hüseyn bəy - Ərgəz kəndi
Nəbi bəy - Ərgəz kəndi
Nəcəfqulu bəy - Bulaqlar kəndi
Firudin bəy - Bulaqlar kəndi
Soltan bəy - Bulaqlar kəndi
İrizvan bəy - Bulaqlar kəndi

Bilal bəy - Bulaqlar kəndi
Əbdüləzim bəy - Bulaqlar kəndi
Qəhrəman bəy - Bulaqlar kəndi
Nurullah bəy - Bulaqlar kəndi
Fərrux bəy - Bulaqlar kəndi
Ədil bəy - Bulaqlar kəndi
Hüseyn bəy - Bulaqlar kəndi
Ağaxan bəy - Bulaqlar kəndi
Hüseynalı bəy - Çivə kəndi
Fərzalı bəy - Çivə kəndi
Sultan bəy - Çivə kəndi
Abbas bəy - Çivə kəndi
Şirəli bəy - Çivə kəndi
Baxşəli bəy - Çivə kəndi
Hüseyn bəy - Çivə kəndi
Hacı Mahmud bəy - Çivə kəndi
Məhəmməd bəy - Çivə kəndi
İlyas bəy - Çivə kəndi
Yunis bəy - Çivə kəndi
Zülfüqar bəy - Çivə kəndi
Əhməd bəy - Çivə kəndi
Əli bəy - Çivə kəndi
Kəlbə Əşrəf bəy - Çivə kəndi
Cəmil bəy - Çivə kəndi
Yusif bəy - Çivə kəndi
Teymur bəy - Çivə kəndi
İsmayıl bəy - Çivə kəndi
Balo bəy - Çivə kəndi
Əmo bəy - Çivə kəndi
Həmid bəy - Çivə kəndi
Abbas bəy - Gülüdüz kəndi
Mirzalı bəy - Cul kəndi
Abbas bəy - Cul kəndi
Tumasqulu bəy - Cul kəndi
Abasqulu bəy - Cul kəndi
Vəlibəy - Qozulca kəndi
Əmirbəy - Moz kəndi
Cəlil bəy - Ertiş kəndi
Məmməd bəy - Gədikvəng kəndi
Sultan bəy - Gülüstan, İtqıran kəndi
İsa bəy - Qabaxlı kəndi
Bala bəy - Qabaxlı kəndi
Məcnun bəy - Qabaxlı kəndi

## DƏRƏLƏYƏZDƏ ERMƏNİ DAŞNAKLARI İLƏ DÖYÜŞLƏRDƏ FƏRQLƏNƏNLƏR (BİR QRUPU)

### 1. ABBASQULU BƏY ŞADLİNSKİ



Abbasqulu bəy Xanbaba bəy oğlu Şadlinski 1886-cı il fevralın 24-də Vedibasar mahalının Böyük Vedi kəndində anadan olmuşdur. Vedibasarın məşhur Şadlinski bəylərindən idi. Böyük Vedidə rus-tatar məktəbini, İrəvanda gimnaziyanı bitirmişdi.

1912-ci ildə gizli səsvermə yolu ilə Vedi nahiyəsinin mirabı, 1916-cı ildə isə nahiyənin rəisi (naçalniki) seçilmişdi.

1917-ci ildə erməni təcavüzü təhlükəsi yarandığı ilk gündən əhalinin təhlükəsizliyi məqsədilə "Mübariz dəstə" adlı silahlı ordu yaratmışdı. Elə bu ordunun sayəsində 1918-1920-ci illərdə Vedibasar müdafiəçiləri erməni daşnak silahlı qüvvələrinə mətanətlə müqavimət göstərmiş, erməni hökumətinin Dro, Bek-Pirimov, Doluxanov, Aprosimov və b. tanınmış generallarının Böyük Vedi üzərinə irimiqyaslı hücumlarının qabağını alaraq onları darmadağın etmişdir.

Bu dövrdə Abbasqulu bəy Dərələyəz müdafiəçilərilə də daim əlaqə saxlayıb, lazım gələndə onların köməyinə çatmış, dinc əhalinin erməni-daşnak mühasirəsindən çıxarılmasına yardım göstərmişdir.

1921-ci ilin fevralında Dərələyəz mahalında təzədən baş qaldırıb, müsəlman kəndlərinin dinc əhalisinə divan tutan daşnak qüvvələrinə qarşı da Abbasqulu bəyin "Qırmızı tabor"u qəhrəmanlıqla vuruşmuşdur. Həmin hadisələr zamanı Abbasqulu bəy qərargahını Danzik kəndində yerləşdirmiş və döyüş planı hazırlayaraq öz ordusunu, demək olar ki, bütün cəbhə boyu Dərələyəzdəki erməni-daşnak qüvvələrinin üzərinə hücuma aparmışdır. Abbasqulu bəyin erməni daşnaklarına qarşı apardığı 4 illik qanlı müharibədə canlı qüvvə sarıdan ən çox itkini məhz həmin Dərələyəz döyüşlərində verməsi də bu döyüşlərin miqyası haqqında təsəvvür yaradır.

Dərələyəzdə və Zəngəzurda Yaponun və Njdehin başçılığı altında vuruşan sonuncu daşnak qüvvələrinin tamamilə darmadağın edilib, Meğri ərazisindən Arazın o tayına (İran ərazisinə) qovulması da məhz Abbasqulu bəy Şadlinskinin və onun komandanlığı altında Vedibasar, Şərur və Dərələyəz igidlərinin çiyin-çiyinə vuruşduğu "Qırmızı tabor"un adı ilə bağlıdır.[1]

---

1. Dərələyəzdə ermənilərlə, erməni şovinist və daşnakları ilə gedən mübarizə və döyüşlər haqqında ətraflı məlumat üçün bax: Əli Əliyev. Vedinin dəmir axını, Bakı, 1984; Əli Əliyev. Qırmızı tabor, Bakı, 1990; Əli Əliyev. Biz əzablı ömür yaşadıq, Bakı, 1994; Əli Əliyev. Əlincə yaddaşı, Bakı, 1994; Əziz Ələkbərli. Abbasqulu bəy Şadlinski, Bakı, 1996; Əziz Ələkbərli. Qərbi Azərbaycan, I cild, Vedibasar mahalı, Bakı, 2000; Kamil Dərələyəzli. Dərələyəz od içində, Bakı, 2001; Süleyman Məmmədov. O yerlərdə izim qaldı, Bakı, 1994.

## 2. ŞAHBAZOĞLU CALAL

Şabazoğlu Calal Dərələyəzin Gülüdüz kəndindəndir. Erməni-müsəlman davasında Calalın adı gələndə ermənilər əsim-əsim əsər, pərən-pərən olarmışlar. "At oynatmaqda, qılınc çalmaqda, sərrast atəş açmaqda, qurşaq tutmaqda, fənd işlətməkdə tay-tuşlarından heç biri onun qabağına çıxa bilməzdi... Boyu 2 metr 20 santimetr, enli kürək, qayış baldır, polad bilək və çox gur səsə malik bir adam idi. Öz kəndlərində də, qonşu kəndlərdə də həmyaşıdları, tay-tuşları onun bir sözünü iki eləməzdilər."[1]

Cəlalın qəhrəmanlığı, cəngavərliyi, düşmənə qarşı barışmazlığı haqqında çoxlu faktlar vardır. Mən burada onlardan yalnız üçünü qeyd edəcəyəm.

1. Ermənilər Dərələyəzdə Hors kəndini yandırır, camaatı işgəncə ilə öldürür və kənddən qovurlar. Bu zaman Calal Dərələyəzin cəngavər adamlarını yığıb ermənilərin toplaşdığı yerə hücum edir. Onlara elə bir divan tutur ki, bu hadisəni ermənilər indi də yana-yana danışırlar.

2. Erməni-müsəlman davasında ermənilər Göyçədə bir neçə kəndin camaatını yığıb Kəlbəcərə tərəf aparır və orada "Sümüklü Dərə", "Qanlı dərə" adı ilə məşhur olan bir yerdə qırırlar. Bu xəbər hər yerə yayılır. Şahbaz oğlu Calal öz dəstəsini yığıb deyir: "Biz bu qanı yerdə qoymamalıyıq". O, dəstəsi ilə Göyçə tərəfə aşır və al edərək ermənilərin böyük bir dəstəsini (82 nəfərini) Dərələyəz tərəfə gətirir. Dikpilləkənin Dərələyəz üzündə, Bərk Dərə deyilən yerdə onları mühasirəyə salır, qırır və Göyçə camaatına xəbər göndəririr ki, Qanlı Dərənin qisasını Bərk Dərədə aldım. Ermənilərin başqa dəstələri bu xəbəri və Calalın adını eşidən kimi həmin yerlərdən uzaqlaşırlar.

Calal Laçınlı Sultan bəyə xəbər göndərir ki, mən Andranikin dəstəsinin dalınca gəlirəm. Sən də orada qabaqlarını kəs, mühasirəyə salıb qıraq. Calal ilə Sultan bəyin bu əməliyyatı da baş tutur.

Türk ordusunun başçıları Calalın qəhrəmanlığından xəbərdar olduqdan sonra onu Calal Paşa deyə çağırırlar.[2]

Sovet hökuməti həmişə Calalı izləyirdi... O, Gədəbəyə köçüb oğlu Rüstəmin yanında yaşamağa məcbur oldu və 1953-cü ildə orada dünyasını dəyişdi.

**3. BALABƏY VƏKİLOV** – Dərələyəzin Çivə kəndindəndir. Daşnaqlara qarşı yaxşı vuruşduğu üçün ordenlə ("Qırmızı əmək bayrağı") təltif olunmuşdur. O, Çivədən köçüb Naxçıvan şəhərində yaşayırdı. Mən onu yaxşı tanıyırdım. Üç dəfə atamla birlikdə onun evində olmuşam. Dərələyəz hadisələrilə bağlı çoxlu söhbətlər edirdi. Balabəyin əmisi arvadı Əzəd xanım mənim nənəmin xalası idi.

**4. QANLI ABBAS** – Dərələyəzin Cul kəndindəndir. Böyük şücaətlər göstərmişdir. Ermənilər onun səsini eşidəndə qaçıb gizlənirmişlər.

**5. GƏNCİMALIYEV GƏRAY** – Dərələyəzin Qaravəng kəndindəndir.

---

1. Aslan Meyramlı, Füzuli Miskinli. Biz gedərik, xeyirxahlar qalandı, Bakı, 1966, səh.13.
2. Bax: Aslan Meyramlı, Füzuli Miskinli. Biz gedərik, xeyirxahlar qalandı, Bakı, 1996, səh.11-32.

## 6. HÜSEYNOV ƏLİPƏNAH QƏDİM OĞLU



Hüseynov Əlipənah 1885-ci ildə Dərələyəzin Qaravəng kəndində anadan olmuşdur.

O, 1918-1920-ci illərdə Türk-azərbaycan qanına susmış, millətçi ermənilərə qarşı Qaçaq Ağanın dəstəsində mübarizə aparmışdır. Alpənah Hüseynov 1920-1929-cu illərdə Qırmızı Taborun komandiri Abbasqulu bəy Şadlinski ilə birgə düşmənlərə qarşı vuruşmuş, Qırmızı Taborun nəzdində yaradılmış partizan dəstəsinə rəhbərlik etmiş, erməniləri Zəngəzura qədər qovanlardan biri olmuşdur.

1929-cu ildə Abbasqulu bəy Şadlinskinin razılığı ilə Əlipənah Hüseynov Paşalıda NKVD-də xidmət etməyə göndərilmiş, 1931-ci ildə Dərələyəz mahalına ilk rayon adı verilərkən Soylan rayonuna NKVD-nin rəisi vəzifəsinə təyin edilmişdir. Əlipənah Qədim oğlu Hüseynov 1937-ci ildə vəfat etmişdir.

**7. İBRAHİM FƏRZƏLİYEV** – bölük komandiri olmuşdur. O, Vedibasar mahalının Qarabağlar rayonunun Çimən kəndindəndir. "Qırmızı tabor"da yaxşı vuruşduğu üçün hökumət tərəfindən ordenlə ("Qırmızı əmək bayrağı") təltif olunmuşdur.

**8. MİRYUSİF SEYİDOV** – Dərələyəzin Çivə kəndindəndir. Sonralar köçüb Danzik kəndində yaşamışdır. Daşnaklara qarşı vuruşlarda böyük şücaətlər göstərmiş və hökumət onu ordenlə təltif etmişdir. O, Dərələyəzə tez-tez gələr və bu məsələlərdən saatlarla danışardı.

**9. NOVRUZ KİŞİ** – Dərələyəzin Zeytə kəndindəndir. Çoxlu xidmətləri olmuşdur.

**10. QASIM KİŞİ** – Sədərək kəndindəndir. Daşnaklarla döyüşlərdə xüsusi fərqləndiyi üçün ordenlə təltif olunmuşdur. Uzun müddət polis rəisi işləmişdir. Mən onu şəxsən tanıyırdım. O, Dərələyəz döyüşləri ilə bağlı mənə saatlarla söhbət etmişdir (mən 1948-1950-ci illərdə Naxçıvan Dövlət Müəllimlər İnstitutunda oxuyurdum. O zaman Qasım kişi Naxçıvanda polis idarəsində işləyirdi. O, 1948-1960-cı illərdə Naxçıvanda və Şərurda Dərələyəz döyüşlərilə bağlı mənə çoxlu məlumatlar vermişdir).



**Sağdan: Şərurun Kərimbəyli kəndindən Cəlal Məmmədov, Vedili Əyyub ağa və Qaravəngli Əlipənah.**

**11. MƏHƏRRƏM PƏNAHOV** – Vedilidir, bölük komandiri olmuşdur.

**12. ƏLƏKBƏR SADIQOV** – Vedilidir. Bölük komandiri olmuşdur.

**13. QAÇAQ AĞA** – Dərələyəzdəndir. Döyüşlərdə çoxlu erməni qırmışdır.

**14. AŞIQ HƏŞİM** – Dərələyəzin Cul kəndindəndir. Türk ordusu ilə birlikdə ermənilərə qarşı vuruşmuşdur. Türk generalları onun xidmətlərini nəzərə alıb, onu ordenlə təltif etmişdir.

**15. QAFAROV MUSA** – Dərələyəzin Ardaraz kəndindəndir. Daşnaklara qarşı mübarizədə xeyli iş görüb.

**16. FƏTƏLİYEV MİRSƏQULU ƏHMƏDALI OĞLU**



Fətəliyev Mirsəqulu 1898-ci ildə Qərbi Azərbaycanda, Dərələyəz mahalının Ərgəz kəndində anadan olmuşdur. Atası Əhmədalı yüzbaşı öz dövrünün sayılan-seçilən şəxsiyyətlərindən olmuşdur. 1918-ci ildə "qulağı kəsik" Andranikin dəstələri – Dərələyəzin Ərgəz kəndində də qanlı qırğınlar törətmiş, qadınları, uşaqları, qocaları qanına qəltan etmişdir. Belə çətin məqamlarda Mirsəqulu Dərələyəzin müdafiəsinə qalxmış və bu döyüşlərdə böyük qəhrəmanlıqlar göstərmişdir. Salsal qalasının ətəyində olan Hosdun kəndində ermənilərin mühasirəsində qalan Mirzəlioğlu İbrahimin dəstəsini xilas edənlərdən biri də Mirsəqulu olmuşdur.

O, Azərbaycan əhalisinə köməyə gələn türk qoşunları ilə birlikdə erməni qəsbkarlarına qarşı vuruşmuş, öz dədə-baba yurdundan didərgin düşmüş, bir çox dərələyəzlilər kimi o da Qarabağın Xocalı kəndində məskunlaşmışdır. Bir müddət sonra Mirsəqulu kişi "xalq düşməni" adı ilə buradan Sibirə sürgün edilmişdir.

Sibirdən sonra Dərələyəzə qayıtmış, 1945-ci ildə ermənilərin təhriki ilə növbəti dəfə öz yurdundan təkrarən didərgin düşmüş, Qarabağa qayıtmağa məcbur olmuşdur. Ömrünün sonuna qədər yəni, 1976-cı ilə qədər Qarabağda yaşamışdır.



**17. OVÇU QƏHRƏMAN** – Dərələyəzin Qabaxlı kəndindəndir. Qəhrəman İsmayıl oğlu 1889-cu ildə Qabaxlı kəndində anadan olmuş, 1918-ci ildə erməni-müsəlman davasında böyük şücaətlər göstərmişdir.

1921-ci ildə Abbasqulu bəy Şadlinskinin "Qırmızı Tabor"u yaradıldığını eşidib Şərura gəlmiş və taborçulara qoşularaq burada çox vuruşmuşdur.

1924-25-ci illərdə Dərələyəzin Heşin kəndində açılmış rus-tatar məktəbində oxumuş, bolşeviklər partiyasının üzvü olmuş, 1940-1948-ci illərdə sovet sədri işləmiş, 1948-1972-ci illərdə meşə təsərüfat idarəsində müxtəlif vəzifələrdə çalışmışdır.

**18. CƏLAL MƏMMƏDOV.** Şərurun Kərimbəyli kəndindəndir.

## QƏRBİ AZƏRBAYCANDA ADLARI DƏYİŞDİRİLMİŞ YAŞAYIŞ MƏNTƏQƏLƏRİNİN SİYAHISI

| Sıra №-si | Keçmiş adı | Royon | Yeni adı | Fərmanın tarixi |
|---|---|---|---|---|
| | | **27.01.1924** | | |
| 1 | Gümrü (Aleksandropol) | Axuryan | Leninakan | 27.01.1924 |
| | | **3.01.1935** | | |
| 2 | Baş Abaran | Abaran | Aparan | 3.01.1935. |
| 3 | Baş Abaran rayonu | Abaran | Aparan rayonu | 3.01.1935. |
| 4 | Damcılı | Abaran | Mravyan | 3.01.1935. |
| 5 | Boğazkəsən | Ağin | Dzorakap | 3.01.1935. |
| 6 | Bozdoğan | Ağin | Sarakap | 3.01.1935. |
| 7 | Molla Göyçə | Ağin | Maralik | 3.01.1935. |
| 8 | Hacıdur | Allahverdi | Tsaxkaşat | 3.01.1935. |
| 9 | Qaranamaz | Amasiya | Yeni yol | 3.01.1935. |
| 10 | Paşakənd | Hrazdan | Marmarik | 3.01.1935 |
| 11 | Quru Fontan | Hrazdan | Fontan | 3.01.1935 |
| 12 | Avdalağalı | Martuni | Vavaşen | 3.01.1935 |
| 13 | Alqırıx | Martuni | Astxadzor | 3.01.1935 |
| 14 | Zolaxaç | Martuni | Zola | 3.01.1935 |
| 15 | Kolagirən | Martuni | Tsovinar | 3.01.1935 |
| 16 | Ağkilsə | Vardenis | Azad | 3.01.1935 |
| 17 | Zərzibil | Vardenis | Zərkənd | 3.01.1935 |
| 18 | Böyük Qaraqoyunlu | Vardenis | Əzizli | 3.01.1935 |
| 19 | Qırxbulaq | Vardenis | Akunk | 3.01.1935 |
| 20 | Sətənəxaç | Vardenis | Güney | 3.01.1935 |
| 21 | Böyuk Qarakilsə | Quqark | Kirovakan | 3.01.1935 |
| 22 | Böyük Qarakilsə rayonu | Quqark | Kirovakan rayonu | 3.01.1935 |
| 23 | Qamışqut | Quqark | Yeğeknut | 3.01.1935 |
| 24 | Nikitino | Quqark | Fioletovo | 3.01.1935 |
| 25 | Hacıkənd | Quqark | Debed | 3.01.1935 |
| 26 | Vorotsovka | Kalinino | Kalinina | 3.01.1935 |
| 27 | Qızılkilsə | Kalinino | Qızıldaş | 3.01.1935 |
| 28 | Cücəkənd | Kalinino | Qızıl Şəfəq | 3.01.1935 |
| 29 | Alılı | Sisyan | Salvard | 3.01.1935 |
| 30 | Alıxan | Qukasyan | Getik | 3.01.1935 |
| 31 | Üçüncü Qarakilsə | Qukasyan | Dzoraşen | 3.01.1935 |
| 32 | Qızılkilsə | Qukasyan | Karmravan | 3.01.1935 |
